MÜASİR
DÜNYA ƏDƏBİYYATI

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında"**
2007-ci il 24 avqust tarixli
sərəncamı ilə nəşr olunur.

# HAYNRİX MANN

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

Şərq-Qərb
1986-cı ildən
East West
since 1986
BAKI
2013

**Haynrix Mann**
Seçilmiş əsərləri, Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, 568 səh.

**ISBN 978-9952-32-136-4**

Alman dilindən tərcümə edən:
**ÇƏRKƏZ QURBANLI**

Ön sözün müəllifi:
**ELNARƏ TOFİQQIZI**

Redaktor:
**İKRAM QASIMOV**

Korrektor:
**AQŞİN MƏSİMOV**

Şərq Qərb 1986-cı ildən East West since 1986 BAKI 2013

Mətn: Bakı Slavyan Universitetinin nəşriyyatı
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013
www.eastwest.az
www.fb.com/eastwest.az

# HAYNRİX MANN BARƏDƏ

Dünya ədəbiyyatının parlaq simalarından olan Mann qardaşları təkcə ədəbi fəaliyyətləri deyil, həm də taleləri baxımından XX əsrin əvvəllərindən başlayan və bir qərinədən artıq davam edən ideoloji və hərbi-siyasi toqquşmaların insanlarda aşıladığı mənəvi-psixoloji sarsıntıları anlamaqda xüsusi rol oynayır. Eyni ailədən çıxmış iki şəxs – Haynrix və Tomas Mann qardaşlarının ictimai baxışlarındakı fərq, əslində, alman intellektlərinin ziddiyyətlərlə dolu mövqelərini müqayisə etməyə imkan tanıyır. Əlbəttə, hər iki yazıçının dünyagörüşü onların əsərlərində əksini tapırdı. Haynrix Mann isə təkcə romanları ilə deyil, həm də esseləri, pamfletləri, publisistikası ilə aktiv ideoloji mövqe nümayiş etdirirdi.

Ümumiyyətlə, Mann ailəsi bütövlükdə dövrünün alman ədəbi-mədəni aləminin kiçik modelini xatırladır. Bu ailə üçün iki xarakterik cəhət göstərilir: qeyri-adi istedad və uğursuz tale. Uğursuz tale yalnız narkotik asılılığı, seksual çatışmazlıq, kəskin psixoloji dəyişikliklə deyil, həm də ailədəki intiharlarla əlaqələndirilir.

Ailənin ilki, 27 mart 1871-ci ildə anadan olan Haynrixin qardaşı Tomasdan başqa iki bacısı da vardı: Lula və Karla. Karla dövrünün tanınmış teatr aktrisası idi.

Mannlar yaşadıqları Lübek şəhərində zəngin ailələrdən sayılırdılar. Ata H.Mann varlı sahibkarlarla əhatə olunan senator idi.

Haynrix 1881–91-ci illərdə Lübek gimnaziyasında yüksək təhsil alır və Fridrix Vilhelm adına Berlin universitetinə qəbul olunur. Gələcəyi üçün bir narahatlıq görünməyən ailənin taleyi də həmin il dəyişir: ata qəflətən ölür. Bu ölümün intihar olması barədə ciddi şübhələr var.

Sonradan Mann ailəsində özünəqəsdlərin sayı artdıqca, ata Mannın da intihar etməsinə inananların sayı çoxalır: Karlada davam edən bu "ailə xəstəlyi" daha sonra Tomas Mannın ədəbi aləmdə tanınan övladlarına da keçir.

Atanın ölümü Haynrixə qəbul olduğu Berlin universitetini bitirməyə mane olur. Bundan əlavə, o, öz həyat yolunu müəyyənləşdirmişdi: hələ gimnaziya illərindən Haynrix siyasi yumor və satira janrında, hətta sarkazmla dolu məqalələr yazmağa başlamışdı və ədəbi-ictimai dairələrdə tanınırdı. 1900-cü ildə çapdan çıxan "Duzlu sahil ölkələri" romanı isə Haynrix Mannın adını bütün ölkəyə yaydı.

1903-cü ildə ilk dəfə olaraq Haynrix Mann satira və yumordan uzaqlaşaraq, "Allahlar və ya Hersoginya Assinin üç romanı" trilogiyası ilə mənəvi-psixoloji ideya irəli sürdü. Trilogiyada xoşbəxt, azad qəhrəman Assi daxilən üç mərhələdən keçirdi: siyasi aydınlaşma ("Diana"), incəsənət ("Minerva"), sevgi ("Venera").

Sevginin mənəvi rahatlıq və ictimai əhəmiyyətini qabardan iki mənəvi-psixoloji romandan sonra Mann növbəti dəfə öz sevimli janrına qayıdır və şiddətlə müdafiə etdiyi liberal burjuaziya qüvvələri arasındakı konfliktə həsr olunan "Kiçik şəhər" (1909) əsərini yazır.

"Kiçik şəhər"lə öz ölkəsində şöhrətin zirvəsinə qalxan Haynrix Mannın əsərləri artıq bestsellerə çevrilmişdi. Ancaq Avropa belə bir yazıçının mövcudluğundan xəbərsiz idi: çünki Almaniyanın qonşularla qeyri-qənaətbəxş siyasəti mədəni inteqrasiyanı çətinləşdirirdi.

H.Mann bu ərəfədə həm də fəal ictimai xadim kimi çıxış edir, publisistik və ədəbi-tənqidi məqalələri ilə baxışlarını ortaya qoyurdu. Onun "Volter – Gete", "Ruh və fəaliyyət" esseləri, "Reyxstaq" pamfleti ədəbiyyatın ictimai həyata təsirini, realist sənətlə demokratiya arasındakı daxili əlaqəni özündə əks etdirirdi. Bütövlükdə, "Ruh və fəaliyyət" Haynrix Mannın düşüncə və həyat proqramı sayılırdı və yaradıcılığının nüvəsində də bu ideoloji xətt dayanırdı.

İlk dəfə qardaşı Tomas Mannla aralarındakı böyük fikir ayrılığı Almaniya I Dünya müharibəsinə başlayarkən üzə çıxdı. Haynrix Mann azsaylı yazıçılardan idi ki, müharibənin əleyhinə çıxırdı və Veymar respublikasını qatı tənqid edirdi, Tomas isə, əksinə, bu illərdə səmimi şəkildə millətçi idi və Almaniyanın müharibədə iştirakını dəstəkləyirdi. Amma ideoloji fikir müxtəlifliyi hər iki yazıçıya reallığı əks etdirməyə mane olmurdu və iki qardaşın "ortaq nöqtəsi" də məhz burda idi.

Haynrix Manna dünya şöhrəti gətirən əsər isə "Təbəə" romanıdır. "Yoxsullar" (1917) və "Baş" (1925) romanları da daxil olmaqla, sonradan "İmperiya" trilogiyasına çevrilən bu əsər müharibə öncəsi alman cəmiyyətinin müxtəlif təbəqələrinin həyatının bitkin ədəbi təcəssümü kimi qiymətləndirilir. Əsərin qəhrəmanı Diderix Heslinq alman imperializminin ümumiləşmiş tipi kimi işlənilmişdi: kayzerlərdən sosial demokratlara qədər, Almaniyanın bütün siyasi mənzərəsini əhatələyən əsərin ideyasında xalqın maraqları əvəzinə, şəxsi mənfəətin güdüldüyü təsvir edilirdi.

H.Mannı dünyada məşhurlaşdıran bu əsərləri yalnız müşahidələrinin nəticəsi deyildi; yazıçı özü siyasi proseslərin fəal iştirakçısı olmuşdu və burjua-demokratdan sosializm tərəfdarına qədər, uzun siyasi yol keçmişdi. Ancaq hər bir siyasi ideologiyanın xalqın maraqlarına cavab vermədiyini, nəhayət, yazıçı üsyankarlığı ilə qələmə almağı bacarmışdı.

20–30-cu illərdə Prussiya İncəsənət Akademiyasının ədəbiyyat şöbəsində akademik, daha sonra şöbə müdiri olan Haynrix Mann ictimai fəaliyyətini də davam etdirir və məqalələri ilə liberal sosializm ideyalarını yayırdı. "Alman fəhləsinin yolu" məqaləsi ilə proletariatın tarixi rolunu qabardan yazıçı onun yeni əsaslarını da irəli sürmüşdü.

1933-cü ildə millətçi-sosialistlərin hakimiyyətə gəlməsini qəbul etməyən Haynrix Mann siyasi baxımdan növbəti dəfə Tomas Mannla kəskin əks qütbdə dayandı və ölkəni tərk etdi. Faşizmin ilk illərində Tomas Mann Hitler hakimiyyətinə loyallığı ilə fərqlənirdi.

1933-cü ildə alman vətəndaşlığından çıxarılan, "alman ruhuna yad olduğu" üçün kitabları yandırılan və Praqadan Fransaya gəlməyə məcbur olan H.Mann yenə də siyasi fəaliyyətdən əl çəkmir və millətçi-sosialistlərə qarşı mübarizəyə qoşulur. Artıq 1936-cı ildə Mann Fransada fəaliyyət göstərən Almaniya Xalq Cəbhəsinin sədri idi. Məhz bu illərdə Haynrix Mann tarixi məqalələrini yazmışdı: "Günahsız" (1933), "Gün gələcək" (1936) və "Mərdlik" (1939).

Ancaq əlbəttə ki, Haynrix Mannı dünyada məşhurlaşdıran romanlarından biri də "Professor Qanmaz"dır. H.Mannın bu romanı daha çox "Mavi mələk" adı ilə tanınır. Belə ki, "Professor Qanmaz" – "Mavi mələk" adı ilə ekranlaşdırıldıqdan və böyük uğur qazandıqdan sonra, roman bütün dünyada filmin adı ilə populyarlaşmışdır.

1935–38-ci illərdə yazdığı "IV Haynrixin gəncliyi" və "IV Haynrixin yetkinliyi" Haynrix Mann yaradıcılığında zirvə hesab olunur.

Almaniyanın Fransaya hücumu ilə İspaniyadan keçməklə ABŞ-a getməyə məcbur olan və Los-Ancelesdə məskunlaşan yazıçı üçün daha ağır illər başlayır. Bu illər Mann yaradıcılığının tənəzzülü sayılır: Avropadan fərqli olaraq, ABŞ-da tanınmaması və oxunmaması Haynrix Manna həm mənəvi, həm də maddi baxımdan ciddi zərbə vurur. Yalnız qardaşının ağır vəziyyətdə yaşadığını öyrənən və ona yardım əlini uzadan Tomas Mannın sayəsində Haynrix Mann ayaqda qalmağı bacarır.

1949-cu ildə nəhayət ki, Haynrix Mann öz ölkəsinin ən yüksək mükafatına – ADR-in Milli Ödülünə layiq görülür və Almaniya Mədəniyyət Akademiyasının prezidenti seçilir. Vəzifəsinin icrası üçün Berlinə qayıtmağa hazırlaşarkən, 12 mart 1950-ci ildə ABŞ-da, Koliforniya ştatının Santa-Moniki xəstəxanasında dünyasını dəyişir.

*Elnarə Tofiqqızı*

# TƏRƏƏ

(roman)

## BİRİNCİ FƏSİL

Diderix Heslinq[1] xəyala dalmağı xoşlayan, hər şeydən qorxan və qulaq ağrısından əziyyət çəkən sısqa bir uşaq idi. Qışda isti otağı, yayda isə kağız fabrikinin tullantılarının iyini verən, içindəki nəfəsotu və yasəmən ağaclarının başı üstündən köhnə evlərin taxtapuşları görünən ensiz bağı candərdi tərk edərdi. Diderix nağıl kitabından, özü də sevimli nağıl kitabından başını qaldıranda hərdən yamanca qorxardı. Onun yanındakı oturacaqda, az qala, özü boyda bir qurbağa oturardı, əməllicə-başlıca! Ya da üzbəüzdəki hasarda cırtdan qarnı üstə yerə sallanıb bəriyə boylanardı!

Cırtdandan da, qurbağadan da atası qorxulu idi, buna baxmayaraq, gərək onu sevəydin. Diderix onu sevirdi. Nəsə çırpışdıranda, yaxud yalan danışanda marçıltıyla və qorxudan inildəyə-inildəyə yazı masasının başına elə fırlanardı ki, cənab Heslinq nə baş verdiyini anlayıb divardakı çəlikdən yapışardı. Üzə çıxmayan hər bəd əməl Diderixin mütiliyinə və etibarlılığına şübhə toxumu səpərdi. Atası bir dəfə çolaq qıçı ilə pilləkəndən üzüaşağı yıxılanda oğlu dəli kimi əl çaldı, sonra da qaçıb getdi.

Bir-iki kötəkdən sonra üz-gözü şişmiş halda ulaya-ulaya fabrikin yanından ötəndə fəhlələr gülüşdü. Diderix də həmin an onlara dil çıxarıb ayağını yerə döydü. Təkəş-təkəş dilləndi:

– Döyülmüşəm, ancaq məni atam döyüb. Sizi də o döymüş olsaydı, sevinciniz yerə-göyə sığmazdı. Amma siz buna layiq deyilsiniz.

Əhlikef paşalar kimi onları yarıb keçdi; tezcə də hədələdi ki, pivə gətirmələrini atasına xəbər verəcək, bunu deyib cənab Heslinqin bir azdan qayıdacağı saatı xəyalında canlandırdı. Fəhlələr ustadan silirdilər: kişi onları yaxşı tanıyırdı, özü də fəhlə işləmişdi. Köhnə dəyirmanlarda hər boğması əllə düzəldilən çəlləkçi olmuşdu; bütün müharibələrdə iştirak etmişdi, hamının əli pula çatdığı son müharibədə

---

[1] *Diederich Häßling* – müəllif bu adı və soyadını danışan ad səviyyəsinə qaldırıb. Diederich Ditrich (kilidaçan), HdƏling HaƏ sözlərindən yaradılmışdır və Kilidaçan Nifrin, yəni hər qapını açan nifrət edilməli insan anlamına uyğun gəlir. (*Bu və bundan sonrakı ayaq qeydləri tərcüməçinindir.*)

isə özünə kağız maşını ala bilmişdi. Emalatxananın təchizi bir dənə holland dəzgahından və bir ədəd kəsici maşından ibarət idi. Özü isə kağız dürməklərini sayırdı. Cır-cındırdan qopan düymə gərək hədər getməyəydi. Balaca oğlu hərdən onlardan bir neçəsini qadınların əlindən alırdı, əvəzində də söz verirdi ki, onları atasına satmayacaq. Günlərin bir günü o qədər düymə topladı ki, onları çərçidə konfetə dəyişmək fikrinə düşdü. Bacardı da, amma axşam son şirnini udub yataqda dizi üstə düşdü və qorxudan əsə-əsə sevimli Allaha yalvardı ki, bu oğurluğun üstünü açmasın. Allah isə açdı. Üz-gözündən unter-zabitin doğruluq inamı və vəzifə borcu yağan, səliqə-sahmanla çəliyini fırlayan atanın bu dəfə əli göydə quruyub-qaldı və bir damla göz yaşı üzündəki qırışlarla gümüşü qeysər[1] bığının cod tükü üstündən aşağı diyirləndi.

– Oğlum oğurluq edib, – tıncıxa-tıncıxa boğuq səslə dilləndi və şübhəli bir israrla uşağı gözdən keçirdi. – Həm yalan danışırsan, həm də oğurluq edirsən. Bircə adam öldürməyin çatmır.

Frau Heslinq Diderixi məcbur etmək istədi ki, atasının ayağına döşənib ondan üzr istəsin, kişi onun ucbatından göz yaşı axıdıb! Amma Diderixin instinkti deyirdi ki, bu, atasını daha da cinləndirəcək. Arvadının yanımcıllığı qətiyyən Heslinqin ürəyindən deyildi. Qadın uşağın həyatını korlayırdı. Əslində, kişi qadını da Didel[2] kimi yalan üstündə tutdu. Bu heç də təəccüblü deyildi, çunki arvadı həmişə roman oxuyardı! Şənbə axşamı qadın ona tapşınlan işi görmürdü. İşləmək əvəzinə qulluqçu qızla çənə döyürdü... Və cənab Heslinqin heç xəbəri də yoxuydu ki, arvadının da əli uşağının əli kimi dinc durmur. Süfrədə doyunca yemək yeməzdi və ziyankarcasına dolaba yan alardı. Ürək eləyib emalatxanaya girsəydi, o da düymə oğurlayardı.

Uşaqla bərabər "ürəkdən" dua etdi – təbii ki, qaydasınca yox – və yanaqları qıpqırmızı qızardı. Uşağı o da döyürdü, amma tələm-tələsik və intiqam hissindən alışıb yanayana. Çox vaxt da haqsız olurdu. Onda da Diderix onu atasına satacağı ilə hədələyirdi; özünü elə göstərirdi ki, guya,

---

[1] *Qeysər* – sezar sözünün almanlaşmış variantıdır. Məlumdur ki, padşah mənasını bildirən sezar rus dilində царь və кесарь, Azərbaycan dilində isə qeysər kimi işlənir.

[2] *Diedel – Diederich*-in *(Diderixin)* oxşama formasıdır.

kontora gedir və haradasa hasarın arxasında gizlənib anasının qorxmasına sevinirdi. Anasının nəvazişli anlarından məharətlə istifadə edirdi, fəqət ona bir qınnaq da hörməti yoxuydu. Bir-birinə oxşamaları buna mane olurdu. Çünki o, özünə də hörmət etmirdi, əvəzində kişilərin gözü önündə duruş gətirə bilməyən ömrünü natəmiz vicdanla yaşayırdı.

Bununla yanaşı, hər ikisinin canında dingirişliyə bir meyil vardı. Bayramlarda oxumaqları, royal çalmaları və nağıl danışmaqları ilə keflərinin son damlasını sıxıb çıxarırdılar. Diderix xilaskar körpəyə şübhə etməyə başlayanda anası onu bir müddət inanmağa təhrik etdi, o da bununla xeyli yüngülləşib sədaqətli və yaxşı olduğunu düşündü. Yuxarıdakı qəsrdə yaşayan ruha da inadla inanırdı, bu barədə heç nə eşitmək istəməyən atasının görkəmindən isə məğrurluq və cəzasızlıq yağırdı. Anası onu nağıllarla bəsləyirdi. Yeni salınan gedişli-gəlişli küçələrdən və at yolundan olan qorxusunu Diderixlə bölüşür və onu torpaq təpədən qəsrə aparırdı. Orada onlar canlarına yayılan qorxudan həzz alırdılar.

Meyze küçəsinin tinindən burulub polisin yanından keçməliydin, polis də istədiyi vaxt səni zindana apara bilərdi! Diderixin ürəyi quş ürəyi kimi çırpınırdı; əlacı olsaydı, buradan getməmək üçün dünyanı dolaşardı! Onda da polis onun natəmiz vicdanından xəbərdar olub Diderixi yaxalayardı. Dəfələrlə deyilmişdi ki, adam özünü təmiz və günahsız sayar, odur ki Diderix polisdən titrək səslə saatı soruşardı.

***

Adamın başına açılan bu qədər dəhşətli zorlardan – nağıl siçovullarından, atadan, sevimli Allahdan, qəsr kabusundan və polisdən, səni qapqara olana qədər bacadan dartıb çıxaran baca təmizləyəndən, boğazına pinset salan, çığıranda isə yaxandan tutub silkələyən həkimdən – bütün bu zorlardan sonra adamın birdən-birə boğazından yapışan daha dəhşətli bir zora düçar oldu: məktəbə. Diderix məktəbə ulaya-ulaya gedirdi və bildiyi sualların cavabını da verə bilmirdi, çünki işi-peşəsi ulamaq idi. Tədricən o, ağlamaq bacarığını dərslərini öyrənməyəndə işə keçirməyə başladı, zira hər cür qorxu onu nə çalışqan etdi, nə də az xəyalpərvər və müəllimlər onun sistemindən baş tapana qədər bəzi pis nəticələrdən yan ötdü. Əməlindən baş tapan ilk müəlli-

mə hörmətlə yanaşdı, birdən-birə sakitləşib qollarını çarpazladı, çənəsinin altına qoyub ürkək bir aludəliklə ona baxdı. Ciddi müəllimlərə həmişə tabe olub onlann sözünə baxardı. Mülayimlərin dərsində isə çətin sübuta yetirilən kiçik hoqqalar çıxarardı və bu əməli ilə öyünmürdü. Aşağı qiymətlərini cəza adlandıraraq onlardan ağızdolusu danışardı. Axşam masa arxasında bildirərdi:

– Bu gün cənab Benke üç nəfəri əzişdirdi. – Soruşanda ki kimi, cavab verərdi: – Biri mən idim.

Diderix elə bir vəziyyətdəydi ki, özünün adına gimnaziya deyilən şəxssiz tamın, bu mərhəmətsiz, yağısal, mexaniki orqanizmin tərkib hissəsi olması onu elə razı salırdı ki, özünün də altını çəkərək iştirakçısı olduğu güclə, buz kimi soyuq güclə fəxr edirdi. Sinif rəhbərinin ad günündə kürsünün və lövhənin qıraqlarına çələng düzmüşdülər. Diderix hətta onun çəliyini də bəzəmişdi.

İllər ərzində iqtidar sahiblərinin başına gələn iki fəlakət müqəddəs və şirin ürpənti ilə onu bərk silkələmişdi. Yardımçı müəllimlərdən birini direktor sinfin gözü qarşısında təhqir edib işdən qovmuşdu. Baş müəllimlərdən biri isə dəli olmuşdu. Daha yüksək güclər, direktorla dəlixana, indiyə qədər yüksək gücə malik olmuş bu adamların axırına qəddarcasına çıxmışdı. "Azacıq aşım, ağrımaz başım" deyənlər altdan yuxarı cəsədlərə baxa və öz durumlarını yüngülləşdirən nəticə çıxara bilərdilər.

Onu öz çarxında fırlandıran gücü Diderix kiçik bacılarına göstərirdi. Qızlar onun diktəsi ilə yazıb bilə-bilə çoxlu səhv etməli olurdular ki, o da qırmızı qələmi əlinə götürüb hirslənsin və onları cəzalandırsın. Cəzalar amansız olurdu. Qızlar qışqırırdı, axırda Diderix yumşalırdı ki, onu satmasınlar.

İqtidar sahiblərini yamsılamaq üçün ona adam da gərək olmurdu; heyvanlar, hətta əşyalar da bəs edirdi. Holland dəzgahının yanında dayanır, barabanların cır-cındırı diddiyinə baxırdı.

– Alın payınızı! Hələ sizə bu da azdır! Əclaflar! – öz-özünə deyinirdi və solğun gözlərində qığılcım oynayırdı. Birdən aşağı sindi, az qala, xlor teknəsinə düşəcəkdi. Fəhlənin addım səsləri onu iyrənc ləzzətindən ayırdı.

Özü döyüləndə işini bilir və rahatlanırdı. Heç vaxt pisliyə qarşı çıxmazdı. Ən uzağı dostlarından xahiş edərdi:

– Kürəyimə vurmayın, xəsarətlik olar.

Ona görə yox ki, hüququnu bilməyə ağlı, öz üstünlüyünü bilməyə isə sevgisi çatmırdı. Sadəcə, belə hesab edirdi ki, aldığı zərbələr döyənə praktik cəhətdən heç bir uduş, onun özünə isə real uduzma gətirmir. Bu adi ideal dəyərlərdən o, baş süfrəçinin "Netsiq sarayı"ndan gətirəcəyi, lakin hələ də gətirib çıxarmadığı kremli çubuqlara daha çox üstünlük verirdi. Diderix dəfələrlə alver yolunda ciddi addımlar atdı, Meyze küçəsini bazara doğru üzüyuxarı qalxıb fraklı dostunu xəbərdar etdi. Bir dəfə də onun götürdüyü öhdəliyi danmaq istəyəndə Diderix gerçəkdən hirslənib ayağını yerə vurdu və dedi:

– Gözümə daha heç nə görünmür! İndicə tapıb gətirməsəniz, sahibinizə deyəcəyəm!

Bundan sonra Jorj gülüb kremli çubuqları gətirdi.

Bu, əlçatan bir uğur idi. Təəssüf ki, Diderix ondan tələsik və qayğılı ləzzət ala bildi, zira qorxurdu ki, bayırda gözləyən Volfqanq Buk bundan xəbər tutub çubuqların ona vəd olunan yarısını istəyəcək. Bu arada vaxt tapıb ağzını tərtəmiz sildi, qapının ağzında Jorja bir sicilləmə söyüş yağdırdı, sən demə, o, yalançı imiş və kremli çubuqları da yox imiş. Diderixin indicə öz xeyrinə ürəkdən söylədiyi ədalət duyğusu atası hörmətli şəxslərdən biri sayılan Volfqanqın, sadəcə, diqqətdən kənarda qoyula bilməyən iddiaları önündə susmalı oldu. Yaşlı cənab Bukun köynəyinin yaxalığı heç vaxt qatlaqlı olmurdu, ağ ipəkdən qalstuk taxırdı və ağ, lopa bığları vardı. Yuxarı hissəsi qızıldan olan əsasını çaylaq daşı döşənmiş yola necə də astadan və əzəmətlə basırdı! Başına silindr qoyardı, çox zaman plaşının altından frakının ətəkləri görünərdi, günün günortaçağında! İclaslara gedərdi, bütün şəhərin qayğısını çəkərdi. Diderix də hamam, həbsxana, bir sözlə, ictimai iaşəyə nə aid idisə, onun haqqında düşünərdi: "Bu, cənab Bukun sahəsidir!". Diderixin fikrincə, o, həddən artıq varlı və güclü olmalıydı. Hamı, hətta cənab Heslinq də onun qarşısında baş əyirdi. Onun oğlundan nəyisə zorla almaq nətİcəsi bilinməyən təhlükəli əməl olardı. Qarşısında səcdə etdiyi böyük güclər onu əzməsin deyə Diderix asta və bic tərpənməliydi.

Yalnız bircə dəfə, yuxarı sinifdə oxuyarkən, elə alındı ki, Diderix hər cür ehtiyatkarlığı unudub kor-koranə hərəkət etdi və qələbədən məst olmuş zülmkara çevrildi. Adi hala

çevrildiyindən və müəyyən mənada icazə verildiyindən o, sinfindəki yeganə yəhudini cırnadardı, indi isə birdən-birə gözlənilməz bir hərəkət etdi. Rəsm dərsində istifadə etdikləri taxta dirənəcəklərdən kürsüdə bir xaç düzəldib yəhudi oğlanı onun qarşısında diz çökdürdü. Onun müqavimətinə baxmayıb oğlanı bərk-bərk tutub saxladı; xeyli güclü idi! Diderixi güclü edən ətrafındakı alqışlar, əlləri ilə ona yardım edən dəstə, içəridəki və çöldəki nəhəng çoxluq idi. Zira onun simasında Netsiqin bütün xristianlığı təmsil olunmuşdu. Hamının məsuliyyət daşıdığı və kütləvi günahın mövcud olduğu bir yerdə adam özünü necə də rahat hiss edir!

Məzə sovuşub keçəndən sonra yerini yüngül bir qorxu tutdu, lakin Diderixin gözünə sataşan ilk müəllim sifəti onun bütün cəsarətini özünə qaytardı; bu sifətdə həyalı bir razılıq yatırdı. Digərləri ona razılıqlarını açıq bildirirdilər. Diderix müti bir anlaşıqla onlara gülümsəyirdi. Həmin vaxtdan özündə bir yüngüllük hiss edirdi. Uşaqlar yeni sinif rəhbərinin mərhəmətini qazanmış bu oğlandan öz minnətdarlıqlarını əsirgəmədilər. Yeni sinif rəhbərinin fəaliyyəti sayəsində Diderix birinci şagird və birinci çuğul səviyyəsinə yüksəldi. Bu şərəfətli vəzifələrdən o, ən azı, ikincisini axıra qədər daşıdı. Hamı ilə mehriban dostluq münasibəti qurur, uşaqlar ona öz bəd əməllərindən danışanda özgənin ağılsızlığını bağışlamağı bacaran ciddi bir cavan kimi ürəkdən gülür, sonra da tənəffüsdə jurnalı müəlliminə təqdim edəndə hər şeyi xəbər verirdi. Eləcə də müəllimlərin ayamalarını və onların əleyhinə deyilənləri nöqtə-vergülünə qədər çatdırırdı. Uşaqların dediklərini təkrarlayanda səsi titrəyirdi, bu, gözlərini yerə dikib onlardan eşitdiklərinin yaratdığı ləzzətli qorxunun təkrarı idi. Zira hakim dairələrə edilən istənilən təcavüzdə Diderix ürəyinin dərinliyində baş qaldıran naqis bir həzz, az qala, bir nifrət, aclığını öldürmək üçün o böyüklərdən hərdən kirmişcə bir dişdəm qoparmağa can atan bir nifrət duyurdu. Özgələri satmaqla, sanki, o, özünün günahlarını yuyurdu.

Digər tərəfdən də özünün fəaliyyəti nəticəsində gələcəkləri şübhə altına alınan sinif yoldaşlarına, ən azı, özündə nifrət hiss eləmirdi. Özünü xidmət borcundan irəli gələn sərt zərurətin icraçısı kimi aparırdı. Yoldaşını satandan sonra ona yaxınlaşıb, az qala, ürəkdən onun dərdinə şərik çıxmağı da bacarırdı. Yoldaşlarından köçürməkdə çoxdan şübhə-

li bilinən şagirdlərdən biri bir dəfə onun köməyi ilə yaxalandı. Müəllimlə sözləşmiş Diderix ona həllin ortasında biləRəkdən səhv yazılmış, lakin cavabı düzgün olan bir riyaziyyat məsələsi ötürdü. Yalançının ifşasından sonra axşamüstü yuxan sinif şagirdlərindən bir neçəsi bağ restoranının qapısı ağzında oturub mahnı oxuyurdu, gimnastika məşğələsinin sonunda bu onlara icazə verilirdi. Diderix oturmaq üçün özünə qurbanının yanında yer axtardı. Növbəti içkidən sonra sağ əlini parçdan çəkib oğlanın əlinin üstünə qoydu, inamla onun gözlərinin içinə baxıb ürəkdən gələn bas səslə təkbaşına oxumağa başladı:

Mənim gözəl-göyçək bir dostum vardı,
Onun kimisini tapa bilməzsən...

Əslində, o, bütün fənlər üzrə ildən-ilə artan çətinliklərdə tələb olunan həddi aşmadan və dərslikdə olmayan dünyəvi məsələlərdən nəsə bir şey öyrənmədən proqramın tələbi ilə tam qane olurdu. Alman ədəbiyyatından inşa yazmaq ona lap ağır gəlirdi və bu sahədə seçilən şagirdlərə qarşı onda izahı mümkün olmayan bir inamsızlıq vardı.

Diderix son sinfə keçəndən sonra onun gimnaziya karyerasının uğuruna heç kimdə şübhə qalmadı, müəllimlərində və atasında belə bir fikir baş qaldırdı ki, o, təhsilini davam etdirməlidir. 1866 və 1871-ci illərdə döyüşən əsgər kimi Brandenburq darvazasından keçmiş qoca Hesling Diderixi Berlinə göndərdi.

***

Fridrixştrasedən o yana getməyə ürək etmədiyinə görə Diderix özünə Tikştrasedə bir otaq tutdu. İndi üzüaşağı düzünə birbaşa universitetə gedə bilərdi və heç vaxt da yolunu azmazdı. Ayrı işi-gücü olmadığından gündə iki dəfə oraya gedər, arada da evləri yadına düşəndə zırıl-zırıl ağlayardı. Ata-anasına məktub yazıb xoşbəxt uşaqlığı üçün onlara öz təşəkkürünü bildirərdi. Ehtiyac olmadan otağından çölə çıxmazdı. Doyunca çörək yeməyə ürək eləməzdi; ayın axırına yaxın pulunu xərcləməkdən qorxardı. Elə bir əli cibindəydi ki, görsün pulu oradadırmı.

Ürəyinə nə qədər qəm-qüssə dolsa da, atasının verdiyi məktubla Blüxerştraseyə, əslən Netsiqdən olan və Hes-

linqə mal buraxan sellüloz fabrikinin sahibi cənab Qöppelin yanına gedib çıxa bilmirdi. Bir aydan sonra bazar günü qorxusuna doy gəldi və atasının yanında tez-tez gördüyü gövdəli, alyanaq kişi səndələyə-səndələyə ona doğru yeriyəndə Diderix onun yanına çoxdan gəlmədiyinə xeyli heyifsiləndi. Cənab Qöppel bütün Netsiq camaatının, öncə də qoca Bukun əhvalını soruşdu. Zira saqqalının çallaşmasına baxmayaraq, o da, deyəsən, Diderix kimi, bəlkə də, ayrı bir səbəbdən hələ cavan oğlan olanda qoca Buka pərəstiş edirmiş. Bax kişi buna deyərlər: hüzurunda papağını çıxart! Alman xalqının uca tutmalı, hər şeyi həmişə qan və dəmirlə sağaltmaq istəyən, əvəzində isə millətin ayağına nəhəng məbləğlər yazdıran bəzi adamlardan çox-çox uca tutmalı olduğu insanlardan biri. Qoca Buk özünü hələ qırx səkkiz yaşında göstərmişdi, hətta ölümə də məhkum edilmişdi.

– Hə, azad insanlar kimi burada otura biliriksə, – cənab Qöppel dilləndi, – bunun üçün biz qoca Buk kimi adamlara minnətdar olmalıyıq. – Və bir şüşə də pivə açdı. – Beləlari olmasaydı, biz bu gün əsgər çəkmələrinin altında inildəyirdik.

Cənab Qöppel Bismarkın sərbəst düşünən rəqibi kimi özünü təsdiq etdi. Qöppelin dediklərinin hamısını Diderix təsdiqləyirdi; kansler, azadlıq, gənc qeysər barədə qətl fikir söyləmədi. Birdən o, qıpqırmızı qızardı, çünki içəri cavan bir qız daxil oldu və ilk baxışdan gözəlliyi və incəliyi ilə oğlanı məftun etdi.

– Qızım Aqnesdir, – cənab Qöppel dilləndi.

Əynindəki qırış-qırış olmuş sürtuku ilə arıqlıqdan sümüyü çıxmış kadetə bənzəyən Diderix qızın qarşısında qulağının dibinə kimi qızarmışdı. Qız ona əl uzatdı. Deyəsən, nəzakət göstərmək istəyirdi, amma onunla nə barədə danışaydı axı? Qız soruşanda ki Berlin xoşuna gəlirmi, Diderix "hə" dedi; bir daha soruşanda ki teatrda olubmu, "yox" cavabını verdi. Pərtliyindən bədəninin tərləməsini hiss etdi və tam əminlik hasil etdi ki, bu gənc qızı yalnız çıxıb getməyi ilə maraqlandıra bilər. Amma buradan necə çıxıb getmək olardı? Xoşbəxtlikdən, araya başqa birisi, yoğun səsi ilə Meklenburq ləhcəsində danışan Malman adlı enlikürək bir oğlan girdi, deyəsən, texnoloq tələbə və Qöppelin kirayəçilərindən biri idi. Əvvəlcədən sözləşdikləri gəzintini froy-

layn Aqnesin yadına saldı. Diderixdən xahiş etdilər ki, o da getsin. Dili dolaşa-dolaşa bəhanə gətirdi ki, tanışı onu bayırda gözləyir və tələsik aradan çıxdı.

“Allaha şükür, – ürəyi bərk sancsa da, düşündü, – özünün oğlanı varmış”.

Cənab Qöppel qaranlıq dəhlizin qapısını açıb soruşdu ki, dostu Berlini yaxşı tanıyırmı. Diderix yalan danışıb dedi ki, berlinlidir.

– Şəhəri yaxşı tanımasanız, çaşıb başqa avtobusa minərsiniz. Yəqin, Berlində bir neçə kərə azmısınız. – Diderixin etirafı cənab Qöppelin canına yayıldı. – Bu, sənə Netsiq deyll. Burada azdınmı, yarım günün hədər gedəcək. Təsəvvür edin ki, sizin Tikştrasedən buraya, Halle darvazasına gələnə kimi Netsiqi üç dəfə başdan-ayağa dolaşmış olursan... Hə, gələn bazar günorta yeməyinə gələrsiniz!

Diderix söz verdi. Vaxt-vədə yetişəndə məmnuniyyətlə bu görüşdən imtina etmək istədi, yalnız atasının qorxusundan gedəsi oldu. Bu dəfə hətta froylaynla təkbətək qalmaq sınağından da çıxdı. Özünü işgüzar adamlar kimi göstərib elə davrandı ki, sanki qıza sərf etməyə heç vaxtı da yoxdur. Froylayn Qöppel yenə teatrdan başlamaq istədi, ancaq Diderix qaba bir səslə onun sözünü kəsdi: belə şeylərə vaxtı yoxdur. Elədir, atası deyib ki, cənab Heslinq kimyanı öyrənir.

– Düz deyib. Ümumiyyətlə, yeganə elmdir ki, yaşamağa haqqı var, – bunun haradan ağlına gəldiyini heç özü də bilmədən mühakimə yürütdü.

Froylayn Qöppel çantasını əlindən yerə saldı; Diderix elə ləng əyildi ki, əli çantaya çatana qədər qız onu özü qaldırası oldu. Buna baxmayaraq, yüngülcə, az qala, xəcalət verərək ona:

– Çox sağ ol, – dedi, bu da Diderixi bərk hirsləndirdi. “Naz-qəmzəli qadınlara dözmək çətindir”, – fikrindən keçirdi. Froylayn Qöbbel çantasını eşələdi. – Deyəsən, itirmişəm. İngilis plastrımı deyirəm. Qan axmağa başlayıb.

Aqnes cib dəsmalını barmağından götürdü. Barmaq qar kimi ağ idi, Diderixin başına bir fikir gəldi: qan indicə içəriyə axıb gedəcək.

– Məndə nəsə var, – Diderix qəfildən dilləndi. Barmağı əlinə aldı və qız qanı silənə qədər onu yaladı.

– Neyləyirsiniz?

Diderix özü də qorxdu. Qaşlarını çatıb dedi:

– Eh, kimyaçı kimi mən hələ ayrı şeylərin də dadına baxıram.

Qız gülümsədi.

– Hə də, bir növ, həkimsiniz... Nə yaxşı belə şeyləri bacarırsınız, – deyib oğlan barmağını sarıyarkən onu gözdən keçirdi.

– Belə, – Diderix xəsisliklə dillənib geriyə çəkildi. Gövdəsinə qor doldu, öz-özünə fikirləşdi: "Kaş heç dərisinə toxunmayaydım! Necə də yumşaqdır". Aqnesin baxışları onun yanından ötüb-keçdi. Bir az keçəndən sonra onu bir daha söhbətə çəkmək istədi:

– Gərək ki bizim Netsiqdə ortaqlı qohumlarımız olsun, elə deyil? – Onu bir neçə ailəni bərabər müzakirə etməyə məcbur etdi. Uzaq qohum çıxdılar. – Ananız hələ sağdır, eləmi? Sevinə bilərsiniz. Mənimki çoxdan ölüb. Görünür, mən də çox yaşamayacağam. Adamın ürəyinə damır. – Qəmli və günahkarcasına gülümsədi.

Diderix dinmədi, özlüyündə qərara aldı ki, bu cür sentimentallıq axmaqlıqdır. Yenə araya sükut çökdü və birdən hər ikisi tələsik dillənmək istəyəndə meklenburqlu özünü yetirdi. Diderixin əlini elə bərkdən sıxdı ki, yazığın üz-gözü əyildi, elə həmin an da qalibanə şəkildə onun gözlərinin içinə gülümsədi. Heç nəyə əhəmiyyət vermədən stulu Aqnesin dizinin dibinə çəkib çılğınlıqla və amiranə onları bir-birinə bağlayan məsələlərin hamısı barədə qızı sorğu-suala tutdu. Başlı-başına buraxılmış Diderix gördü ki, arxayın baxdıqda Aqnes o qədər də valehedici deyil. Əslində, heç göyçək də deyildi. Həddən artıq xırda, bir az da əyri burnu vardı, burunun qılıncında balaca çillər görünürdü. Qumral gözləri bir-birinə çox yaxın idi və kiməsə tuşlananda səyriyirdi. Nazik dodaqları, həddən artıq uzunsov sifəti vardı. "Ağ dərisinə kölgə salan qızılı saçları olmasaydı ..." Bir şeydən də təsəlli tapırdı ki, sarıdığı barmağının dımağı o qədər də təmiz deyildi.

Cənab Qöppel üç bacısı ilə içəri daxil oldu. Bacılardan birinin əri və uşaqları da yanındaydı. Atası ilə bibiləri Aqnesi qucaqlayıb öpdülər. Bunu həddən artıq çılğın və ehtiyatlı etdilər. Şümşad boylu qız onların hamısından uca idi və onun bərkiməmiş çiynindən olan bu adamlara bir az da

dalğın-dalğın üstdən-aşağı baxırdı. Yalnız atasının öpüşünə ağır-ağır və ciddiliklə cavab verdi. Diderix bu mənzərəyə tamaşa etdi və Aqnesə, onun günəş şüasının altında göyümsov rəngə çalan damarlarına, gicgahlarına tökülən qızılı saçlarına diqqət yetirdi.

Diderix bibilərdən birini yemək otağına ötürəsi oldu. Meklenburqlu qolunu Aqnesin qoluna keçirdi. Uzun ailə masasının ətrafında ipək paltarlar xışıldadı. Sürtuklar dizlərin üstünə qoyuldu. Kimsə içini arıtladı, kişilər əllərini ovuşdurdu, axırda şorba gəldi.

Diderix Aqnesdən aralı oturmuşdu, aşağı əyilmədən onu görə bilmirdi və bacardıqca bundan qaçırdı. Yanında oturan qadın onu dindirib danışdırmadığına görə dana ətinin qızartmasını və gül kələmini birəldən tıxayırdı. Yeməyin ətraflı müzakirəsi başladı, Diderix də təsdiqləməli oldu ki, çox ləzzətliydi. Aqnesi salatdan çəkindirdilər, ona qırmızı şərab təklif olundu və o, bu gün səhər-səhər qaloş geyinib-geyinməməsi barədə izahat verdi. Üzünü Diderixə tutaraq cənab Qöppel danışmağa başladı və dedi ki, bacıları ilə ilk dəfə buraya gələndə Fridrixştrasedə, Allah bilir necə olubsa, azıblar və avtobusda tapışıblar.

– Belə şey Netsiqdə başınıza gəlməz, – fəxrlə masanın üstündən o yana qışqırdı.

Malmanla Aqnes konsertdən söz salmışdılar. Qız getməyə meyilli idi, atası da, yəqin, icazə verəcəkdi. Cənab Qöppel yüngülvari bəhanələr gətirdi və bibilərin xoru həmin bəhanələri müşayiət etdi. Aqnes gərək tez yatsın və tezliklə şəhərdən çıxsın, təmiz havaya, qışda özünü çox yorub. Qız etirazını bildirdi:

– Heç vaxt məni evdən çölə buraxmırsınız. Dəhşətli adamlarsınız.

Diderix daxilən onun tərəfini saxladı. Qəhrəmanlığı poqquldayıb üzə çıxdı: elə etmək istərdi ki, Aqnesin hər şeyə ixtiyarı olsun, xoşbəxt yaşasın və bunun üçün ona minnətdarlıq eləsin... bu vaxt cənab Qöppel ondan soruşdu ki, konsertə getmək istəyirmi.

– Bilmirəm, – üz-gözünü turşudub cavab verdi və qabağa əyilən Aqnesə baxdı. – Necə konsertdir? O konsertlərə gedirəm ki, orada pivə içə bilim.

– Ağıllı söhbətdir, – cənab Qöppelin yeznəsi dilləndi.

Aqnes arxaya çəkildi və Diderix dediyinə peşman oldu.

Hamının səbirsizliklə gözlədiyi krem hələ süfrəyə verilməmişdi. Cənab Qöppel qızından xahiş etdi ki, baxıb görsün nə olub. Aqnes kompot nimçəsini əlindən yerə qoyana qədər Diderix sıçrayıb ayağa qalxdı və mətin addımlarla qapıya tələsdi, bu vaxt stulu divara çırpıldı.

– Mari, krem, – qapıdan çölə qışqırdı. Heç kimə baxmadan qızara-qızara öz yerinə qayıtdı. Amma gözəlcə anladı ki, oturanlar bir-birinə göz etdi. Malman hətta kinayə ilə nəfəsini çölə buraxdı. Yeznə süni bir mərhəmətlə dilləndi:

– Qanacaq hər şeydən üstündür? Belə də olmalıdır.

Cənab Qöppel başını kompot nimçəsindən qaldırmayan Aqnesə baxıb gülümsədi. Diderix dizini altdan yuxarı masaya elə dirədi ki, o əsməyə başladı. Fikirləşdi: "Allahım, bu nə iş idi mən elədim?!"

Süfrədən qalxanda hamıya əl verdi, Aqnesin isə başına dolandı. Qəhvə içməyə getdikləri qonaq otağında axtarıb özünə elə yer seçdi ki, oradan Malmanın enli kürəyi Aqnesin qabağını kəssin. Bibilərdən biri onu söhbətə tutdu.

– Hansı ixtisası öyrənirsiniz, cavan oğlan?

– Kimyanı.

– Başa düşdüm, fizikanı.

– Xeyr, kimyanı.

– Belə dee.

Bibi nə qədər təntənəli başlasa da, bu yerə çatanda gücü tükəndi. Diderix ürəyində onu "gicbəsər qaz" adlandırdı. Məclis onun ürəyincə olmadı. Sonuncu qohumlar sağollaşana qədər qəm-qüssə içində gözlədi. Aqneslə atası onları ötürdülər. Cənab Qöppel geri qayıtdı, Diderixi otaqda görüb heyrətləndi. Onu diqqətlə süzərək susdu, arada əlini cibinə də saldı. Diderix qəflətən, pul istəmədən onunla sağollaşanda Qöppel böyük səmimiyyət göstərdi:

– Salamınızı qızıma çatdıracağam, – qapının ağzında hətta bu kəlmələri də dedi, azca fikirləşəndən sonra isə əlavə etdi: – Üzümüzə gələn bazar gələrsiniz!

Diderix qət etmişdi ki, bir də bu evə ayaq basmasın. Ancaq ertəsi gün hər şeyin altını altda, üstünü üstdə qoyub şəhərin canına düşdü ki, Aqnesə konsert bileti satan mağazanı axtarıb tapsın. Əvvəlcə o, elan lövhələrində Aqnesin dediyi virtuozun adını tapmalıydı. Bu o idimi? Adı beləydimi? Diderix bileti almağı qərarlaşdırdı. Amma öyrənəndə

ki qiyməti dörd mark əlli pfenniqdir, qorxudan gözləri kəlləsinə çıxdı. Adi bir musiqiçini görmək üçün bu boyda pul? Kaş, sadəcə, buradan əkilə biləydi! Lakin pulu ödəyib bayıra çıxanda öncə bu soyğunçuluğa hirsləndi. Sonra fikirləşdi ki, bunu Aqnesdən ötrü edib və özü özünün comərdliyinə mat qaldı. Yüngül addımlarla, xoşbəxtlik içində camaatın arası ilə yeriyirdi. Bu, özgəyə xərclədiyi ilk pul idi.

Bileti konvertin içinə qoydu, bundan başqa oraya heç nə qoymadı, kimin göndərdiyi bilinməsin deyə ünvanı gözəl xətlə yazdı. Poçt qutusunun yanına çatanda Malman ona yaxınlaşıb kinayə ilə güldü. Diderix özünü iş başında tutulmuş kimi hiss etdi; qutudan geriyə çəkdiyi əlinə baxdı. Lakin Malman Diderixin yaşadığı evə baxmaq istədiyini bildirdi. Ona elə gəldi ki, burada hansısa qarımış qız yaşayır. Hətta qəhvədanı da Diderix evdən gətirmişdi. Diderix qızardığından od tutub yanırdı. Malman kimya dərsliklərini şappıltı ilə açıb-örtəndə Diderix öz fənninə görə xəcalət çəkdi. Meklenburqlu divana yayxanıb soruşdu:

– Aqnes necə, ürəyinizcədir? Gözəl candır, hə? Bir bax, yenə də qızardıl Fırlayın onu! Ürəyinizə yatırsa, geri çəkilirəm! Mən əllidən çoxunu gözaltı eləmişəm. – Diderixin bu təklifə ağız büzdüyünü görüb dedi: – Nahaq, nəsə eləmək olardı. Elə bilirsiniz, qadınlardan başım çıxmır?! Qızılı saçlar! Elə bilirlər ki, sənin bundan xəbərin yoxdur, adama necə qaş-göz etdiyini görmədinizmi?

– Mənə qaş-göz etməyib, – Diderix etinasızlıqla dilləndi. – Heç vecimə də deyil.

– Heyif! – Malman nərilti ilə güldü, sonra gəzməyə çıxmalarını təklif etdi. Bu gəzinti pivə səyahətinə çevrildi. İlk qaz çıraları yananda ikisi də ayaq üstə zorla dururdu. Bir az sonra, Leypsiq küçəsində heç bir səbəb olmadan Malman Diderixə bir şillə ilişdirdi.

– Ay, bu ki... – "həyasızlıq" sözünü dilinin ucundan güclə qaytardı. Meklenburqlu əlini onun kürəyinə vurdu:

– Dost zarafatıdır, balal Sadəcə, dostluq zarafatıdır.

Üstəlik, o, Diderixin sonuncu on markını da əlindən aldı... Aradan dörd gün keçəndən sonra onu acından zəifləmiş vəziyyətdə otağında yoluxub haradansa çırpışdırdığı puldan böyük mərhəmətlə ona üç mark verdi. Bazar günü – alatox qarınla Diderix oraya, bəlkə də, heç getməzdi – Malman dedi ki, Heslinq pullarının başına daş salıb və bu

gün gərək doyunca yesin. Cənab Qöppellə yeznəsi anlaşıqlı şəkildə güldülər, lakin Aqnes ona belə qəmli-qəmli baxınca Diderix özünün ölüb yerə girməsini istədi. Qız ona nifrət edirdi! Diderix məyus-məyus özünə təsəlli verdi: "Nə olsun ki! Məndən həmişə zəhləsi getmirdimi?!" Bu vaxt qız soruşdu ki, konsert biletini omu göndərib. Hamı üzünü ona çevirdi.

– Bu, haradan ağlınıza gəldi? Bilet hara, mən hara?! – elə boz-boz dilləndi ki, hamı ona inandı. Aqnes gözünü ondan çəkməkdə xeyli tərəddüd etdi. Malman qadınlara konfet təklif edib qutunu Aqnesin qabağına qoydu. Diderix qıza fikir vermədi. Keçən dəfəkindən də çox yedi. Qoy fikirləşsinlər ki, buraya elə bundan ötrü gəlib! Deyəndə ki qəhvə Qrunevaldda içiləcək, Diderix həmin an özündən bir görüş uydurdu. Hətta əlavə etdi:

– Elə adamdır ki, qəti gözlədə bilmərəm.

Cənab Qöppel şişman əlini onun çiyninə qoydu, başını qabağa əyib göz vurdu və alçaq səslə dilləndi:

– Narahatlığınızı unudun, siz bizim çağırılmış qonağımızsınız. – Amma Diderix inandırmağa çalışdı ki, məsələ onda deyil. – Onda, heç olmasa, ürəyiniz istədiyi vaxt gəlin. – Qoppel sözünü tamamladı, Aqnes də başı ilə təsdiqlədi. Görünür, nəsə demək istəyirdi, lakin Diderix bunu gözləmədi.

Günün qalan hissəsini xoş bir qüssə içində böyük qurban mərasimindən sonra yaranan hisslərlə küçələri dolaşdı. Axşamüstü ağzınacan dolu olan pivə meyxanalarının birində başını əllərinin arasına alıb zaman-zaman qarşısındakı tənha parça baxırdı, sanki, oradan özünün alın yazısını oxuyurdu.

Malmanın zorla onun pulunu əlindən almasına neyləmək olardı? Bazar günü meklenburqlu Aqnesə bir buket gətirdi, əliboş gələn Diderix isə tam haqlı olardı, əgər desəydi ki: "Buket, əslində, mənim hədiyyəmdir, froylayn". Amma susdu, daha çox Aqnesə acığı tutdu, nəinkl Malmana. Çünki Malman gecəyarısı tanımadığı adamın dalınca qaçıb onun silindrinə birini ilişdirəndə Diderix mat qalmışdı, baxmayaraq kl, belə bir hərəkətin onun da başına gətiriləcəyini xəbərdarlıq kimi qəbul etmişdi.

Ayın axırında doğum günü münasibətilə gözləmədiyi miqdarda pul aldı, bunu anası onun üçün yığıb saxlamışdı.

Sirrinin üstü açılmasın deyə və Malmanı duyuq salmamaq üçün o qədər də böyük olmayan bir buketlə Qöppelgilə getdi. Qız gülü qəbul edərkən sifəti dəyişdi və Diderix ehtiramla, bir az da utancaq gülümsədi. Bugünkü bazar ona həddən artıq təntənəli göründü; ev sahibləri hamılıqla heyvanat bağına getməyi təklif edəndə bu onu qəti heyrətləndirmədi.

Malman hamını bir-bir saydıqdan sonra (cəmi on bir nəfər) məclis yerindən tərpəndi. Yolda qarşılarına çıxan qadınların hamısı Qöppelin bacıları kimi həftənin adi günlərindən fərqli olaraq tamam başqa cür geyinmişdi; sanki, bu gün ali irqə mənsub idilər, yaxud da yaxşı vərəsə almışdılar. Kişilərin əynində sürtuk vardı, yalnız bir neçəsi Diderix kimi sürtuku qara şalvarla kombinə etmişdi, çoxusu da başına həsir şlyapa qoymuşdu. Yan küçəyə buruldular, küçə, sanki, ülgüdən çıxmışdı, enli və kimsəsiz idi, nə ins-cins vardı, nə də at təsi. Qıraqda ağ geyimli, qara corablı və bədənlərindən lent sallanan balaca qızlar dövrə vurub rəqs edir və zil səslə mahnı oxuyurdular. Bir az o yanda, gedişli-gəlişli baş küçədə tərli matroslar avtobusa hücum çəkdilər; və heç nəyə fikir vermədən onlarla bərabər oturmaq yeri üstündə itələşən komandirlərinin sifəti onların pörtmüş sifətləri ilə müqayisədə solğun görünürdü. Hər şey irəliyə can atırdı, hamı kef-damağın başlayacağı məqsədə yürüyürdü. Sifətlər bircə şeyi ifadə edirdi: “Haydı tərpən, yetərincə işləmişik!”

Diderix qadınların qarşısında özünü əsl berlinli kimi apardı. Şəhəriçi qatarın vaqonunda onlara kifayət qədər yer tutdu. Həmin yerlərin birində oturmaq istəyən kişinin ayağını bərkdən tapdayaraq onu fikrindən döndərdi. Kişi bağırdı:

– Yaramaz!

Diderix elə o məzmunda bir cavab verdi. Məlum oldu ki, kişi cənab Qöppelin tanışıdır və Qöppel onları təzəcə bir-birinə təqdim etmişdi ki, hər ikisi cəngavərlik çağlarının adətini nümayiş etdirdi. Heç biri o birisini ayaq üstə qoyub oturmaq istəmirdi.

Heyvanat bağında Diderixin masanın arxasında yeri Aqnesin yanına düşdü – niyə bu gün hər şey uğurlu alınırdı? – və qəhvə süfrəsindən sonra Aqnes heyvanların yanına getmək istəyəndə onu ürəkdən müdafiə etdi. Onun işgüzarlıq həvəsi aşıb-daşırdı. Yırtıcı heyvanların saxlandığı

qəfəslərin arasındakı dar keçidin qabağından qadınlar geri döndülər. Diderix Aqnesə onu ötürməyi təklif etdi.

– Onda, yaxşısı budur, məni də götürün, – Malman dilləndi. – Dəmir barmaqlıqlardan biri sınsa ...

– Sınsa, onu siz də bərkidə bilməzsiniz, – Aqnes cavab verib girəcəyə yollandı, Malman da şaqqanaq çəkdi. Diderix Aqnesin arxasınca getdi. Sağdan, soldan onun üstünə atılmaq istəyən, fınxırtıdan başqa ayrı səs çıxarmayan bu yırtıcılara və gülünün iyi ilə adamı bihuş edən bu cavan qıza görə canına qorxu düşdü. Birdən qız arxaya çevrilib ona dedi:

– Zəhləm lovğalıqdan gedir!

– Doğrudan? – sevincdən həyəcanlanmış Diderix soruşdu.

– Bu gün çox nəcibsiniz, – Aqnes dedi.

– Əslində, həmişə belə olmaq istəyirəm.

– Doğrudan? – İndi də onun səsində azca titrəyiş vardı. Bir-birinə baxdılar, hərəsi də elə üz-göz ifadəsi ilə ki, elə bil, bütün bunlara o, layiq deyil. Cavan qız gileyli-gileyli dedi: – heyvanlardan dəhşətli iy gəlir.

Geri qayıtdılar. Onları Malman qarşıladı.

– Sadəcə, bilmək istəyirdim görüm, qaçacaqsınızmı. – Sonra o, Diderixi qırağa çəkdi. – Hə? Körpəmiz necədir? Sizdə necə, alınırmı? Lap əvvəldən dedim axı, bu işdə o qədər də bacarıq tələb olunmur. – Diderix səsini çıxarmadığından davam etdi: – Yəqin, işə ciddi girişmisiniz, hə? Bilirsiniz nə var? Mən hələ bir semestr də Berlindəyəm, yerimə ondan sonra keçə bilərsiniz. Hələliksə, zəhmət çəkib gözləyin. – Nəhəng gövdəsinin üstündə dayanan başı birdən-birə məkr yuvasına çevrildi. – Hə, dost qınğı!

Ondan əl çəkdi. Diderix yaman qorxdu və Aqnesin yanına getməyə daha ürək eləmədi. Qız Malmanın dediklərinə fikir vermədi, arxaya çevrilib ucadan dedi:

– Ata! Bu gün gözəl gündür, kefim də həddən artıq yaxşıdır.

Cənab Qöppel onun qolunu hər iki əlinin arasına aldı və özünü elə apardı ki, elə bil, bərk-bərk sıxmaq istəyirdi, lakin bu, adicə təmas idi. Kişinin alışıb-yanan gözləri gülürdü və nəmlənmişdi. Qohumlar sağollaşıb gedəndən sonra o, qızını və hər iki gənci yanına çağırıb dedi ki, bugünkü günü qeyd etmək lazımdır; təklif etdi ki, Unter-den-Linden küçəsində gəzişib sonra haradasa yeməyə getsinlər.

– Atam cavanlaşır! – Aqnes ucadan dillənib üzünü Diderix tərəfə çevirdi. Lakin Diderix gözlərini yerə dikdi. Qatarda özünü elə bacarıqsız apardı ki, sıxışdırıb onu başqalarından ayırdılar, Fridrixştrasenin qatma-qarışıqlığında cənab Qöppellə arxada qaldı. Qöppel birdən ayaq saxladı, şaşqın-şaşqın qarnını əlləşdirib soruşdu:

– Saatım necə oldu?

Saat zənciri ilə birlikdə yox olmuşdu. Malman dedi:

– Nə vaxtdan Berlindəsiniz, cənab Qöppel?

– Düz deyirsiniz! – deyib Qöppel Diderixə tərəf çevrildi. – Otuz ildir buradayam, indiyə qədər başıma belə şey gəlməyib. – Və heç nəyə baxmayıb qürurla əlavə etdi: – Görürsünüz də, Netsiqdə belə şeylərə rast gəlməzsən! – İndi də yemək əvəzinə polis məntəqəsinə gedib izahat verəsi oldular. Aqnes öskürdü və Qöppel qorxub diksindi. – Deyəsən, yorulduq, – burnunun altında dedi və süni bir şənliklə Diderixlə xudahafizləşdi, o da Aqnesin irəliyə uzanan əlini görməzliyə vurub ləng bir hərəkətlə şlyapasını yüngülcə başından götürdü.

Birdən-birə heyrətamiz bir cəldliklə və nələrin baş verdiyini Malman qavrayana qədər ötüb-gedən avtobuslardan birinə tullandı. Axır ki, aradan çıxdı! Tətillər başlayır! Hamıdan və hər şeydən canını qurtardıl Evdə kimya kitablarının ağırlarını şappıltı ilə döşəməyə çırpdı. Hətta qəhvədanı da əlindən yerə qoymamışdı. Amma qapı şaqqıldayanda hər şeyi yığışdırıb yerinə qoydu. Sonra səssizcə divanın küncünə oturdu, əlini başına söykəyib ağladı. Məgər bir-iki ay qabaq hər şey gözəl deyildimi?! Qız onu toruna salmışdı. Onlar həmişə belə edir: hərdən adamın başına bu cür oyun açmırlarmı, özü də həmin adamın üstünə bir başqa oğlanla gülmürlərmi?! Diderix yaxşı bilirdi ki, bu gədə ilə bacarmayacaq. Özünü Malmanla müqayisə etdi və qız Diderixə üstünlük versəydi, bunu o qəti anlamazdı. “Gör ağlımdan nələr keçir?” – fikirləşdi. – Mənə vurulan qız mütləq ağılsız olmalıdır”. Qorxudan ürəyi düşdü ki, meklenburqlu gəlib onu daha pis hədələyə bilər. “Lazım deyil o qız mənə. Bircə buradan çıxıb gedə bilsəydim!” Növbəti günlərdə öldürücü gərginlik içində qapını bağlayıb oturdu. Evdən pul gələn kimi gəzməyə çıxdı.

Oğlunun dəyişdiyini görən ana qısqanclıqla soruşdu ki, ona nə olub. Bu az vaxt içində o daha uşaq deyildi.

– Hə, Berlin küçəsi belədir!

Anası deyəndə ki daha Berlinə getməyib balaca bir universitet seçsin, Diderix onu dördəlli dəstəklədi. Atası isə bildirdi ki, bunun xeyri də var, ziyanı da. Diderix ona Qöppellərdən ətraflı məlumat verdi. Atası soruşdu ki, onun fabrikini gördümü, başqa iş adamlarının yanında oldumu? Cənab Heslinq arzusunu bildirib dedi ki, Diderix tətildən istifadə edib doğma sexdə kağız istehsalının gedişini öyrənsin.

– Daha yaşım o yaş deyil, qəlpələr də çoxdan məni qıdıqlamırdı.

Əlinə imkan düşən kimi Diderix qaçıb aradan çıxırdı ki, Qebelxen meşəsində, yaxud Qoze yaxınlığındakı Ruqqe çayı boyunca gəzib təbiətdə öz hisslərinə cavab tapsın. İndi o, bunu bacarırdı. İlk dəfə olaraq gördü ki, arxadakı təpələr qəmə batıb, ya da görkəmlərindən azman bir həsrət yağır və göylərdən yerə enən günəş, yaxud yağış Diderixin qaynar məhəbbəti və ya göz yaşları idi. Çünki o çox ağlayırdı. Hətta şeir yazmağa da cəhd etmişdi.

Bir dəfə o, aptekə girəndə piştaxtanın arxasında məktəb yoldaşı Qotlib Homunqu gördü.

– Elədir, bütün yayı bir balaca aptekçi olmaq istədim, – dedi. O hətta bilmədən zəhərlənibmiş və bu zaman ilanbalığı kimi qıvrılırmış. Bütün şəhər bundan danışırmış! Payızda Berlinə gedəcək ki, bu peşəni elmi cəhətdən öyrənsin. Yəqin ki, Berlin gözəl olar. Öz üstünlüyünə həddən artıq sevinərək Diderix özünün Berlin macəraları ilə öyünməyə başladı. Aptekçi dostu ona söz verdi:

– İkimiz Berlinin altını üstünə çevirərik.

Razılıq verməyə Diderix kifayət qədər yorğun idi. Balaca universitet ideyası alt-üst oldu. Yayın axırında – Homunq gərək hələ bir neçə gün də təcrübəsini davam etdirəydi – Diderix Berlinə qayıtdı. Tikştrasedəki otaqdan imtina etdi. Malmanı və Qöppellərin əlindən qaçıb şəhərin o başında, Qezundirunnendə bir ev tutdu. Orada Homunqun gəlişini gözlədi. Ancaq gəlməyini əvvəlcədən xəbər verən Hornunq həməlik yerindən tərpənmirdi; axırda gəlib çıxanda isə başına yaşıl-sarı-qırmızı bir papaq qoymuşdu. Sən demə, həmkarlarından biri onu gələn kimi hansısa birliyə cəlb edibmiş. Diderix də bu birliyə girəsi oldu; Homunqun dediyinə görə, bu, "yeni tevtonlar", yüksək dərəcədə kübar təşkilatdır; əczaçılardan təkcə altısı bu təşkilatın üzvü idi. Diderix

qorxusunu bacarıqsızlığı ilə ört-basdır etmək istədi, amma bunun da köməyi olmadı. Hornunq dedi ki, onu rüsvay etməsin, Diderixin haqqında onlara çox danışıb; ən azı, qoy bircə dəfə getsin.

– Yalnız bircə dəfə, – Diderix əminliklə dilləndi.

Həmin bircə dəfə Diderix masanın altına yıxılana qədər davam etdi və onu sürüyüb evinə apardılar. Doyunca yatıb yuxudan duranda təzədən meyxanaya səhər pivəsinə apardılar; Diderix onların pivədaşına çevrildi.

Bu yeni vəzifə sanki Diderixin boyuna biçilmişdi. O, insanların geniş dairəsinə düşdüyünü görürdü ki, burada da həmin insanlardan heç biri ondan içməkdən başqa ayrı şey tələb eləmir, yaxud heç nə istəmir. Onu bu işə təhrik edənlərin hər birinin sağlığına böyük minnətdarlıq və məmnuniyyətlə badə qaldırırdı. İçib-içməmək, oturmaq, yaxud ayaq üstə durmaq, danışmaq, ya da mahnı oxumaq çox vaxt onun özündən asılı olmurdu. Hər şeyi ucadan ona əmr edirdilər, buna da yerli-yerində əməl edəndə adam öz-özü və dünyası ilə barış içində yaşayırdı. Diderix ilk dəfə parçını dostlarının parçına vurmağa gecikməyəndə onların üzünə irişib, az qala, öz bacarığından xəcalətləndi!

Lakin bu onun mahnı oxumaq bacarığının müqabilində heç nə idi! Diderix məktəbdə ən yaxşı müğənnilər sırasında sayılırdı və hansısa mahnının nəğmə kitabının hansı səhifəsində olduğunu əzbərdən bilirdi. İndinin özündə də oxuyacaqları mahnının nömrəsini tapmaqdan ötrü barmağını pivə gölməçəsinin içindəki iri mismarlara bərkidilmiş kitaba uzatmaq bəs edirdi. Tez-tez bütün axşamı gözü möhtərəm başçılarının ağzında olardı ki, bəlkə, onun sevimli mahnısını dilə gətirdi. Mahnının adı tutulan kimi Diderix var gücü ilə nərildədi: "İblisdən halidirlər, azadlıq nələr imiş"; bu vaxt böyründə gonbul Deliçin mızıltısını eşitdi, divarından papaqlar asılmış, içəriyə pivənin iyi və istidən tərləməyə ara verməyən bədənlərin qoxusu dolmuş alçaqtavanlı qədim alman meyxanasının yarıqaranlığında üzünü eyni şeyi içib eyni mahnını oxuyan açılmış ağızlara çevirərək özünü xatabaladan uzaq hiss etdi. Gecə gecədən keçəndə ona elə gəldi ki, onların hamısı ilə bərabər o da eyni bədəndən tərləyir. Onun əvəzinə düşünüb onun əvəzində həyatdan nəsə uman korporasiyada o əriyib getmişdi. Və o kişiləşmişdi, özü özünə qiymət verə bilərdi və ağıllı-başlı hörmət sahibi

idi, çünki onlardan biriydi! Onu bu dairədən dartıb qoparmaq, ona ayrılıqda nəsə etmək hər kəsin gücü xaricindəydi! Kaş Malman cürət edib bircə dəfə buraya gələydi, öz hoqqalarını burada çıxaraydı: Diderixin əvəzinə düz iyirmi kişi ona qarşı çıxardı! Diderix istərdi ki, gəlsin, qorxusu daha ərşə çəkilmişdi. Kaş elə Qöppellə gələydi, onda bilərdilər ki, Diderix kimdir, Malmandan heyfini onda alardı!

Hər halda, buradakıların içində ən mərhəmətlisi, masa qonşusu gonbul Deliç onda daha çox rəğbət oyadırdı. Bu adamda – oturanda arxasının əti kətildən qırağa sallanan, altına bir neçə yastıq qoyanda isə masanın səviyyəsinə qalxan, orada, sanki, hər şey həll olunmuş kimi pivə parçını qaldırmaqdan və masaya qoymaqdan başqa heç bir hərəkət etməyən, yumordolu bu dümağ, hamar ət topasında insanın ürəyinə sərin su çiləyən, onda inam oyadan nəsə bir şey vardı. Başqalarından fərqli olaraq Deliç öz yerindəydi; onun burada oturduğunu görən hər kəs haçansa Deliçin ayaq üstündə durduğunu xatırlaya bilmir. O yalnız pivə masasının arxasında oturmağa yaranmışdı. Ayrı vaxtlar ayağına qədər sallanan şalvarı indi torbalanmışdı, sanki, kimsə üfürüb onu şişirtmişdi. Deliçin arxasındakı məzəli vəziyyət onun simasında da əks olunurdu. Üz-gözündə həyat eşqi vardı, bu da onu xeyli müdrikləşdirirdi.

Təzələrdən kimsə zarafatla onun parçını götürsəydi, əsl tamaşa başlayardı. Deliçin heç bir əzası tərpənməzdi, lakin baxışları oğurlanmış parçın arxasınca gəzdikcə qəfildən üzünə həyatının çevik, hərəki bir ciddiliyi qonardı və o, saksonlara xas tenor səslə ucadan qışqırardı:

– Oğlan, pivəmi tökməyəsən ha! Bir də ki niyə məni həyatın nəşəsindən məhrum edəsən?! Bu, mənim həyatıma qəsdlə edilmiş murdar bir təcavüzdür, səni əməlli-başlı məhkəməyə verə bilərəm!

Zarafat uzun çəkərdisə, Deliçin dümağ yağlı yanaqları aşağı sallanardı və o, yalvarmağa, kiçilməyə başlayardı. Amma elə ki pivəsini geri aldı, təbəssümündə nə qədər barış nişanələrl, nə qədər nur görünərdi! Bu vaxt deyərdi:

– Sən heç də pis əclaf deyilsənmiş, dəymədim sənə, yaşa, prost![1] – kəlmələrindən sonra parçı başına çəkər, əlin-

[1] *Prost! və ya prozit!* – almanların içki məclisində içərkən söylədikləri sağlıq; təqribən “Şərəfə!” kimi.

dəki qapaqla masanı taqqıldadıb süfrəçi tələbəni çağırardı.

– Cənab baş süfrəçi!

Bir neçə saatdan sonra iş elə alındı ki, Deliçin kətili onun özü ilə birlikdə fırlandı və onun başı əlüzyuyanın üstünə əyildi. Su çappıldadı, Deliç öyüyüb səs-küylə qaytardı, az qala, boğulacaqdı və onun çıxardığı səsin təsirindən yoldaşlarının bir neçəsi ayaqyoluna götürüldü. Üz-gözündən zəhər yağsa da, Deliç təzə bir bicliklə kətilində hoppana-hoppana masaya yan aldı.

– Hə, təzədən başlaya bilərik, – dedi. – Mən ayrı işlərlə məşğul olanda nədən danışırdınız? Deyəsən, arvad söhbətindən başqa heç nə bilmirsiniz, hə? O arvadları versəm, əvəzində nə ala bilərəm? – Və bir az da ucadan: – Heç bir parç turşumuş pivə də verməzlər. Ey, cənab baş süfrəçi!

Diderix ürəyində ona haqq qazandırdı. O da qadınlarla tanış olmuşdu, daha onlara baş qoşmaq istəmirdi. Pivə müqayisəedilməz ideal dəyərlərə malik idi.

Pivə! Alkoqol! Oturursan özün üçün, iç ki içəsən, pivə əzilib-büzülən qadın deyil, əksinə, adamın canına yayılan sədaqətli dostdur. O, səndən heç bir fəaliyyət, heç bir qərar istəmir, qadınlarda olduğu kimi, heç nə istəməyə, heç nəyə nail olmağa lüzum yoxdur. Hər şey öz-özünə baş verir. Bir-iki qurtum alırsan, bu da səni hansı mərtəbəyə isə çatdırır, özünü həyatın ali zirvəsinə qalxmış görürsən və azad insana çevrilirsən, daxilən azad insana. Meyxananı qoy elə lap polislər mühasirəyə alsın, içəri ötürdüyün pivə sənin daxili azadlığına çevrilir. Həm də imtahanını vermiş sayılırsan. Artıq "hazırsan", əməlli-başlı doktorsan! Vətəndaş yaşamında özünə bir mövqe tutursan, varlanıb önəm qazanırsan: açıqca, yaxud tualet kağızı buraxan nəhəng bir fabrikin başçısı. Zəhmətinin nəticəsində yaratdıqların minlərlə əldən keçir. Pivə masasının üstünə yayxanıb bütün dünyanı qucursansa, böyük bağlılıqları dərk edirsən, dünyəvi mənəviyyatla qaynayıb-qarışırsan. Elədir, pivə səni sənin özündən yüksəkliklərə qaldırır və həmin yüksəklikdə sən Allahı tapırsan!

İllərlə bax bu cür yaşayardı. Lakin yeni tevtonlar ondan əl çəkmirdilər. Lap elə birinci gündən korporasiyaya tam mənsubluğun mənəvi və maddi üstünlüklərini ona başa salmışdılar; lakin heç nə gizlətmədən onu tədricən ovxarlamaq işinə girişdilər. Diderix özünün onlar tərəfindən qəbul edilən, möhkəmcə vərdiş edib məmnun qaldığı pivədaş

olmağı ilə əbəs yerə canını qurtarmaq istədi. Ona cavab verdilər ki, tələbələrin ağızbirliyi, daha doğrusu, kişilik və ideyaya bağlılıq tərbiyəsi, nə qədər faydalı olsa belə, yalnız içki ilə tam gerçəkləşmir. Diderixi əsməcə tutdu; bunun nə demək olduğu ona yaxşı məlum idi. İndi də gərək qılınc oynadaydı. Yoldaşlarının qılıncları havada fırladıb bir-birinə endirmək istədikləri zərbələri ona nümayiş etdirəndə, yaxud onlardan biri başına qara sarğı bağlayıb yodoform iyi verəndə həmişə ürəyi ağzına gələrdi. İndi o, sıxıntı içində düşündü: "Niyə ilişib qaldım burada, niyə onlara pivə yoldaşı oldum?! Gərək elə indi əkiləm".

Əkilə bilmədi. Ancaq məhz ilk məşqlər onu narahat etdi. Onu elə büküb-bürmələdilər, elə zirehləyib gözlük taxdılar ki, daha ona heç nə ola bilməzdi. Meyxanada verilən komandaya itaət edib üzüyola qulaq asdığından indi ondan boyun qaçırmağa heç bir əsası olmadığına görə qılınc oynatmağı hamıdan tez öyrəndi. Birinci qılınc yarasında halı xarablaşdı: hiss elədi ki, yanağından qan axır. Yara tikilib qurtaranda az qaldı sevincindən atılıb-düşsün. Özünü danladı ki, bu cür gözəl insanlara qarşı yaxşı niyyətdə olmayıb. Məhz ən çox qorxduğu oğlan onu öz himayəsinə götürüb onun xoşniyyətli tərbiyəçisi oldu.

Vibel hüquqşünas idi, təkcə elə bunun özü Diderixin ona sözsüz itaət etməsinə yetərdi. Vibelin əynindəki ingilis parçasından tikilmiş kostyumlara, camaşırxanaya göndərənə qədər tez-tez dəyişdirdiyi rəngli köynəklərə Diderix alçalmadan baxa bilmirdi. Ən alçaldıcı şey isə Vibelin davranışı idi. Yüngül və nəcib bir təzimlə parçını Diderixin parçına vuranda Diderix ikiqat olub aşağı əyilər, – onun həyəcan içində etdiyi bu hərəkəti bir iztirab idi – içkisinin yansını yerə dağıdar, yansını da boğula-boğula içərdi. Vibel asta, təkəbbürlü feodal səsi ilə danışardı.

– Adam nə istəsə deyə bilər, – həvəslə sözə başladı, – formalar boş-boşuna önhökm deyil.

"Formalar" sözündəki "f" səsini demək üçün ağzını xırda qara siçan dəlməyinə oxşadıb onu ağır-ağır çölə ötürdü. Bu qədər kübarlıqdan hər dəfə Diderixi üşütmə tuturdu. Vibeldə hər şey ona seçkin kimi göründü: bığının kürən tükləri, uzun, əyri dırnaqlarının Diderixinkindən fərqli olaraq yuxarıya deyil, aşağıya qatlanması; Vibeldən gələn kəskin kişi ətri, üstəlik də, saç tağının bağışladığı təsiri artıran

şəlpə qulaqları və erkək pişiyin gözlərinə bənzəyən çuxura düşmüş gözləri. Bütün bunların hamısına Diderix həmişə öz şəxsiyyətinin dəyərsizliyi duyğusu ilə tamaşa edirdi. Vibel onu dindirib özünü onun himayədarı sayandan bəri isə Diderixə elə gəldi ki, özünün yaşamaq hüququ elə indicə öz təsdiqini tapıb. Onda minnətdarlıqla yaltaqlanmaq həvəsi baş qaldırdı. Xoşbəxt bir məftunluqdan ürəyi genişləndi. Arzuları bu şəkildə gerçəkləşsəydi, o da Vibel kimi boynunun yoğunlamasını və özünün həmişə tərləməyini istərdi. Vibel kimi şirin-şirin danışa bilməkdən gözəl arzu olardımı?!

İndi Diderix ona qulluq göstərə bilərdi, əməllicə-başlıca onun quyruq tulasına çevrilmişdi! Həmişə Vibelin yuxudan durmasına şahidlik edərdi, onun şey-şüylərini yığışdırardı, Vibel ev sahibəsi ilə yola getmədiyindən onun qəhvəsini özü gətirər və ayaqqabılarını silərdi. Bunun əvəzində Vibellə haraya istəsəydi gedə bilərdi. Vibel ayaqyolunda ehtiyacını ödəyəndə Diderix bayırda keşik çəkər və heyifsilənərdi ki, çiynindən asmağa silahı yoxdur.

Vibel bunu qazanmışdı. Diderixin ləyaqətinin və özünüdərkinin də kök atdığı korporasiyanın şərəfini ən yüksək şəkildə Vibel təmsil edirdi. Yeni tevtonçuluq üçün Vibel kiminlə desən cəngə girə bilərdi. Təşkilatın hörmətini yüksəklərə qaldırmışdı, çünki deyilənə görə, haçansa "Vindoborussiya" korporasiyasının üzvlərindən birini lazımınca əzişdiribmiş! Qeysər Frans Yozef adına ikinci qvardiya-qrenader alayında bir qohumu qulluq edirdi və Vibel kuzeni fon Klapkenin adını çəkən kimi yeni tevtonçuların hamısı yanaraq baş əyərdi. Diderix Vibel soyundan birini qvardiya zabitinin mundirində təsəvvür etməyə çalışdı; amma belə bir nəcabəti düşünmək çətin məsələ idi. Günlərin birində o, Qotlib Hornunqla, ətirləri özlərindən qabaq, dəlləkdən gələndə küçənin tinində Vibelin bir nəfər xəzinədarla söhbət etdiyini gördülər. Yanılmamışdılar, xəzinədar idi və Vibel onların gəldiyini görüb üzünü yana çevirdi. Onlar da bir-birinə baxmadan və heç nə demədən səmtlərini dəyişib səssiz-səmirsiz oradan uzaqlaşdılar. Hərəsi özlüyündə fikirləşdi ki, Vibelin xəzinədarla oxşarlığını yoldaşı sezməmiş olmaz. Məsələnin nə yerdə olduğunu başqaları, bəlkə də çoxdan bilirdi! Lakin "Yeni Tevtoniya"nın şərəfi o qədər uca dayanırdı ki, hamı susmağa, gördüyünü unutmağa üstünlük verirdi. Vibel növbəti dəfə "Kuzenim fon Klapke"

deyəndə Diderixlə Hornunq da həmişəki kimi yarınaraq baş endirdilər.

Diderix özünü ələ almağın, ədəb-ərkanın, korporasiyanın ruhuna uyğunlaşmağın, yüksəklərə can atmağın yollarını artıq öyrənmişdi. Yalnız yazıqlıq və ikrahla o, əvvəllər özünün düçar olduğu acınacaqlı tənhalıq barədə düşünürdü. İndi onun həyatına nizam-düzən və borc duyğusu daxil olmuşdu. Dəqiq müəyyənləşmiş saatlarda Vibelin otağında, qılıncoynatma zalında, dəlləkxanada və səhər pivə məclisində görünürdü. Günortadan sonra təşkil olunan gəzintinin yolu meyxanadan keçirdi; hər addım da ədəb-ərkan qaydalarını və xoşməramlı kobudluğu istisna etməyən qarşılıqlı hörməti gözləməklə korporasiyanın gözləri önündə atılırdı. Diderix əvvəllər rəsmən tanıdığı tələbə yoldaşlarından biri ilə ayaqyolunun qabağında rastlaşdı, hər ikisi ayaq üstə güclə dursa da, biri digərini qabağa buraxmaq istədi. Bir-birinə uzun-uzadı xoş kəlmələr söylədilər, birdən-birə isə, bircə anın içində ehtiyacları onlara güc gələn kimi bir-birinə bağlanmış iki çöldonuzu kimi özlərini qapıya elə təpdilər ki, hər ikisinin çiyin sümüyü şaqqıldadı. Bu, gələcək dostluğun başlanğıcı oldu. Şəxsi münasibətdə bir-birinə yaxınlaşdıqlarından sonralar rəsmi pivə masasının arxasında da yanaşı oturdular, "qardaşlıq badələri" qaldırdılar, bir-birinə "donuz" və "begemot" deyə müraciət etdilər.

Korporasiyadakı həyat heç də həmişə yaxşı üzünü göstərmirdi. O, qurbanlar tələb edirdi, ağrılara kişi kimi duruş gətirməyi öyrədirdi. Məzə mənbəyi Deliçin özü də bir dəfə "Yeni Tevtoniya"da kədərə səbəb oldu. Bir gün günortadan qabaq Vibellə Diderix onu gətirməyə gedəndə Deliç yüyət masasının yanında dayanmışdı, onları görən kimi dedi:

– Gəldiniz? Sizin də mənim kimi ciyəriniz yanır?

Dostları onun qolundan tutana qədər Deliç yuyulmuş qab-qacaqla bərabər ağzıüstə yerə gəldi, bundan sonra heç qımıldanmadı da.

– Ürək partlaması, – Vibel dilləndi. Hərbi nizamla zəngə yaxınlaşdı. Diderix qab-qacağın qırıntılarını yığışdırıb döşəməni sildi. Sonra onlar Deliçi çarpayıya qaldırdılar. Ev sahibəsinin əndazəsiz fəryadının müqabilində öz əsgəri nizamlarında quruyub qaldılar.

Elə buna görə də onlar korporantlardır! Bəzi xırda-para rəsmiyyətlər naminə polisə gedərkən yolda – onlar təqtlə

yanaşı addımlayırdılar – Vibel ölümə qarşı ciddi bir nifrətlə dedi:

– Bu bizlərdən hər kəsin başına gələ bilər. İçki ilə zarafat olmaz. İnanın mənə.

Başqa yoldaşlarla birlikdə Diderix Deliçin vəzifə borcunu yerinə yetirməsindən, onun şərəf meydanında həlak olmasından qürur duydu. Onlar tabutu vüqarla son mənzilə yola saldılar; üz-gözlərindən "Yeni Tevtoniya bayrağımızdır bizim" kəlmələri oxunurdu. Qəbiristanlıqda qara tül bağlanmış qılınclarını aşağı endirmiş yeni tevtonçuların hər biri öz içinə qapılaraq növbəti savaşların birində özünün həlak növbəsini gözləyən əsl döyüşçü təsiri bağışlayırdı; birinci başçı dünyadan köçən barədə qürurla danışdı: "Rəhmətlik kişilik və idealizm məktəbində ən yüksək mükafata yetişib"; bu onlardan hər birini həyəcanlandırdı, elə bil, həmin sözlər onun haqqında deyilmişdi.

Bununla da Diderixin dərsləri başa çatdı, çünki Vibel referendar[1] vəzifəsinə hazırlaşmaq üçün oyundan çıxdı; bundan sonra da Diderix öhdəsinə götürdüyü əsas müddəaları gözləməli və onu nisbətən cavanlara öyrətməli oldu. Bu işin öhdəsindən yüksək məsuliyyət və ciddiyyətlə gəlirdi. Vay o dəliqanlının halına ki, içkinin küpünə girmək ixtiyarını qazanır. Heç beş dəqiqə keçmirdi ki, onlar divarlardan tuta-tuta çölə çıxmalı olurdular. Dəhşətlisi o oldu ki, onlardan biri Diderixdən qabaq qapıya cumdu. Cəzası da o oldu ki, düz səkkiz gün pivənin üzünə həsrət qaldı. Diderixə hakim kəsilən nə qürur, nə də özünəvurğunluq idi, yalnız korporasiyanın şərəfi barədə onun yüksək anlayışı idi ona istiqamət verən. O özü, olsa-olsa, insan idi, deməli, heç nə idi; əlindəki ixtiyar, bütün hörməti və dəyəri korporasiyadan qaynaqlanırdı. Cismini də onun sayəsində qazanmışdı: bəyaz sifətini, onu təzə gələnlərin gözündə ucaldan qamını, bayram tədbirlərində uzunboğaz çəkmə ilə, çiyni üstündən atdığı şalla görünmə ixtiyarını, mundirdən aldığı həzzi! Təbii ki, istənilən leytenanta yer göstərməliydi, çünki leytenantın üzvü olduğu korporasiya onunkundan üstün olmalıydı; lakin ən azı, üstünə çəmkirəcəyindən qorxmadığı tramvay konduktoru ilə ağıllı-başlı danışa bilərdi. Onun kişiliyi çənəsinin bitişəcəyindəki, yanaqları ilə yuxarıya qalxıb

[1] *Referendar* – dövlət imtahanından sonra yüksək məmur vəzifəsini tutmağa namizəd

qırxılmış başında qərar tutan çapıqlarla vahiməli sifətində yazılmışdı – hər gün istənilən vaxt bu kişiliyi hər yoldan ötənə göstərməkdən xoş nə ola bilərdi! Bir dəfə gözlənilmədən əla bir imkan yarandı. Qotlib Hornunq, sahibənin qulluqçusu və o, üçlükdə Halenzedə rəqsdə idilər. Dostlar bir neçə ay idi eyni mənzildə yaşayırdılar, həmin mənzildə o qədər də yaraşıqsız olmayan bir qulluqçu qız vardı, dostlar ona xırda hədiyyələr verərdi və onlar bazar günləri birlikdə gəzməyə çıxardılar. Onun özü kimi Hornunqun da həmin qızla nəsə eləyib-eləmədiyi barədə Diderix yalnız gümanlara düşə bilərdi. Korporasiyanın mənafeyi naminə bununla maraqlanmadığına görə rəsmən heç nə deyə bilməzdi.

Roza pis geyinməmişdi, balda pərəstişkarlar da tapmışdı. Diderix onunla bir dəfə də polka oynamaqdan ötrü məcbur oldu qıza xatırlatsın ki, ona əlcək alıb. Rəqsə başlamaq üçün təzəcə təzim etmişdi ki, kimsə gözlənilmədən onların arasına girib Roza ilə polka rəqsini başladı. Diderix pərt-pərt onların arxasınca baxdı, içində dumanlı bir duyğu baş qaldırdı ki, belə hərəkətin cavabı qaytarılmalıdır. Lakin o tərpənənə qədər rəqs edənlərin arasından bir qız irəli cumub Rozanı şillələdi və kobudluqla onu rəqsdaşından araladı. Bunu görən kimi Diderix Rozanı onun əlindən almış kişinin üstünə yeridi.

– Cənab, – deyib birbaşa onun gözlərinin içinə baxdı, – hərəkətinizə nə ad verək?!

Qarşısındakı kişi cavab verdi:

– Nə olub ki?!

Bu cür rəsmi söhbətin gözlənilməz dönüşündən çaşaraq Diderix kəkələdi:

– Zırrama.

– Qorrama, – o birisi bərkdən dillənib güldü.

Bu boyda tərbiyəsizlikdən özünü itirmiş Diderix təzim edib geri çəkilmək istədi; lakin o birisi qəfildən onun qarnına birini ilişdirdi, elə bundan sonra hər ikisi yerdə eşələndi. Camaat onları aralayana qədər qıyyaların və qızışdırıcı qışqırtıların əhatəsində vuruşdular. Diderixə pensnesini axtarmaqda yardım edən Qotlib Hornunq bağırdı.

– Əkilib aradan çıxır, – oğlanın arxasınca götürüldü. Diderix də onun dalınca. Yanındakı bir nəfərlə həmin oğlanın droşkaya mindiyini gördülər və özləri o birisinə əyləş-

dilər. Homunq dedi ki, korporasiya bu rüsvayçılığa dözə bilməz. – Bu boyda qələti edir, qızı heç vecinə də almır, ortalıqda qoyub gedir.

Diderix dilləndi:

– Rozaya gəlincə, mənimki onunla qurtardı.

– Mənimki də.

Yolboyu həyəcanları azalmadı.

– Görəsən, çata biləcəyikmi? Elə bil, getdiyimiz at axsaqdır.

– Əgər bu gədə qara camaatdan olub şərəfini qorumağa qabiliyyəti çatmasa necə?

– Onda bu iş rəsmən heç baş verməyib də.

Birinci droşka şəhərin qərb hissəsində əzəmətli bir evin qarşısında dayandı. Diderixlə Homunq özlərini yetirənə kimi darvaza şaqqıltı ilə örtüldü. Evin qabağında dayanıb əməlli-başlı keşik çəkdilər. Hava sərin idi, onlar burada nizami addımlarla yeriyirdilər, iyirmi addım sağa, iyirmi addım sola, evin qapısını da gözdən qoymurdular, birəldən də uzaqlara tuşlanan həmin ciddi söhbətlərini təkrarlayırdılar: yalnız tapançalarla vuruşmaq! "Yeni Tevtoniya"nın şərəfini tapdamaq ona baha başa gələcək! Kaş bircə proletar olmayaydı!

Axır ki, qapıçı göründü və gələnlər onu sorğu-suala tutdular. Bayaqkı cənabları təsvir etməyə çalışdılar, amma gördülər ki, onların xüsusi əlamətləri yoxdur. Diderixdən xeyli ehtiraslı olan Homunq dediyindən dönmədi ki, gözləmək lazımdır və beləcə onlar iki saat da oraya-buraya addımladılar, sonra evdən iki zabit çıxdı. Diderixlə Homunqun gözləri bərələ qaldı, çaşıb-qaldılar: ortada bir yanlışlıq yoxdur ki. Zabitlər yerlərində duruxdular. Deyəsən, birinin sifəti hətta avazıdı da. Bu vaxt Diderixə qətiyyət gəldi. Sifəti ağarmış zabitə doğru yeridi.

– Cənab...

Səsi duruş gətirmədi. Leytenant pərt-pərt dilləndi:

– Deyəsən, yanılırsınız.

Diderix var gücü ilə cavab verdi:

– Heç də yox. Məcburam sizdən üzrxahlıq tələb edəm. Siz özünüzü...

– Mən sizi heç tanımıram axı, – leytenant kəkələdi. Amma dostu onun qulağına pıçıldadı: "Bu cür yaramaz...", sonra da onun vizit kartını alıb özününkünü onun üstünə

qoydu və hər ikisini Diderixə uzatdı. Diderix də özününkünü onlara verib oxudu: "Qraf Albrext Tauem-Berenhaym". Bundan sonra o biri kartı oxumağa vaxt ayırmadı, əksinə, xırda, ciddi təzimlər etməyə başladı. İkinci zabit bu arada Qotlib Homunqa müraciət etdi:

– Dostumun zarafatında heç də pis niyyət yox idi. Təbii ki, o, istənilən üzrxahlığa hazırdır; sadəcə, bildirmək istəyirəm ki, ortada təhqir niyyəti olmayıb.

Gözdən qoymadığı o biri tayı çiyinlərini çəkdi. Diderix kəkələdi:

– Oo, təşəkkürlər.

– Bununla da məsələ, yəqin, yoluna qoyuldu, – zabitin dostu dilləndi və hər iki cənab aralanıb getdi.

Alnı tərləmiş, fikri dolaşmış Diderix hələ də yerindən tərpənmirdi. Birdən o, dərindən köks ötürüb ağır-ağır gülümsədi.

Sonralar meyxanada söhbət yalnız bu əhvalatdan gedərdi. Diderix tələbə yoldaşlarına qrafın əsl cəngavər hərəkətindən ağızdolusu danışardı.

– Əsl kübar insan heç vaxt ad-sanına xələl gətirməz. – Ağzını balacaladıb siçan deşiyinə oxşatdı və yüngül köppüşlə sözləri bayıra buraxdı. – F-formalan heç də boş cəfəngiyat deyil. – Həmişə də Qotlib Homunqu keçirdiyi o böyük ana şahid tutardı. – Qəti özünü dartmadı, hə? Oo, hər halda, cürətli zarafat idi, amma bundan ötrü ondan inciməyə dəyməz. Hələ bir duruşuna baxaydınız: deyə bilərəm, t-tam nöqsansız. Zati-nurlarının izahatları məni o qədər məmnun etdi ki, öz tərəfimdən mümkünsüz... Özünüz anlayırsınız, mən o qədər də qanmaz deyiləm.

Hamısı Diderixi anlayır və onu inandırırdılar ki, bu məsələdən "Yeni Tevtoniya" şərəflə çıxdı. Hər iki aristokratın vizit kartlarını "təzələr" əldən-ələ gəzdirdilər, sonra da qeysərin şəklinin yanındakı çarpazlanmış qılıncların arasına bərkitdilər. Həmin gün sərxoş olmayan bircə yeni tevtonçu da tapılmadı.

Bununla da semestr başa çatdı; lakin Diderixlə Homunqun evə qayıtmağa pulları yox idi. Əslində, çoxdandır çox şeyə pulları olmurdu. Korporativ həyatdan irəli gələn vəzifələr nəzərə alındıqda Diderixə göndərilən pulun məbləği iki yüz əlli marka qalxmışdı; bununla belə, borc boğazını üzürdü. Bütün mənbələri soğub qurutmuşdular, ətrafda yal-

nız susuzluqdan cadar-cadar olmuş qupquru torpaq vardı və nəhayət, ümid ona qalmışdı ki, cəngavərliyə yaraşmasa da, zaman-zaman dostlarına verdiyi borcları geri istəsinlər. Təbii ki, bəzi "qocaman" cənabların əli iri pullara yetişmişdi. Hornunqun borclusu olmadı; Diderixin yadına Malman düşdü.

– Onunla nazlanmağa dəyməz, – dedi. – Heç bir korporasiyanın üzvü olmayıb, əclafın da dal ayağıdır. Kürkünə birə salacağam.

Ancaq Malman onu görən kimi özünün nəhəng şaqqanağını işə saldı, Diderix bunu çoxdan unutmuşdu, indi eşidəndə, elə bil, qol-qanadı sınıb yanına düşdü. Malman oturuşunu-duruşunu bilən deyildi! Gərək hiss edəydi ki, Diderixlə bərabər bütün "Yeni Tevtoniya" indi onun patent bürosundadır və elə bu təşkilatın xatirinə gərək Diderixə hörmət göstərəydi. Diderixdə elə təsəvvür yarandı ki, onu hansısa fövqəlgücə malik bir tamdan qoparıblar və indi o, tənha bir insan kimi rəqibi ilə üz-üzə dayanıb. Əvvəlcədən nəzərdə tutulmayan xoşagəlməz bir durum! Bununla belə, qısılıb-çəkinmədən mətləbə keçdi. Yox! Pulunun qaytarılmasını istəmir, bu heç cür yoldaşlığa yaramazdı! Qoy Malman ona yaxşılıq edib kimdənsə götürəcəyi pula zamin dursun. Malman yazı kürsüsünə yayxanıb sərt və kəsə dilləndi:

– Yox.

Diderix çaşaraq:

– Necə yəni yox?

– Zamin durmaq mənə yaddır, – Malman izahata keçdi.

Diderix şaşqınlıqdan qızardı:

– Amma mən sizə zamin durmuşam, sonra kağızı mənə göndərdilər, mən də sizin əvəzinizdə yüz mark ödəməli oldum. Siz isə qaçıb gizləndiniz.

– Görürsünüz? İndi mən sizə zamin dursam, siz də ödəməyəcəksiniz. – Diderixin gözləri kəlləsinə çıxdı. – Yox, dost qırığı, – Malman atmacaladı, – özümə qəsd etmək istəsəm, sizə ehtiyacım olmayacaq.

Diderix özünü ələ aldı, təkidlə dilləndi:

– Cəngavər şərəfindən bixəbərsiniz, cənab.

– Bixəbərəm, – deyib Malman şaqqanaqlı gülüşünü yenə işə saldı.

Diderix hər kəlməni xüsusi vurğulayaraq dedi:

– Onda siz daha çox fırıldaqçısınız. Patent olan yerdə fırıldaq olar.

Malman bu dəfə gülmədi; balaca üzündəki gözlərindən biclik yağdı və o ayağa qalxdı.

– İndi isə çıxın bayıra, – həyəcanlanmadan dedi. – İkimizə qalsa, bu, boş şeydir, amma qonşu otaqda işçilərim oturub, istəməzdim söhbətimizi onlar eşitsinlər.

Diderixin kürəyindən yapışıb onu arxaya fırlatdı və qabağına qatıb itələdi. Hər dəfə onun əlindən qurtarmaq istəyəndə Diderix ağır bir zərbə alırdı.

– Mən sizdən cavab istəyirəm, – deyib səsini qaldırdı. – Siz gərək mənimlə vuruşasınız!

– Elə mən bununla məşğulam. Görmürsünüzmü? Onda qoy bir nəfər də çağırım. – Qapını açdı. – Fridrix! – Və Diderixi yük qablaşdıranın əlinə verdi, o da onu sürüyüb pilləkəndən çölə atdı. Malman onun arxasınca bağırdı: – Pis olmadı, dost qırığı. Ayrı vaxt ürəyinizdən keçsə, yenə gələrsiniz!

Diderix üst-başını düzəldib əvvəlki görkəmini aldı. Malman özünü belə pis apardısa, vay onun halına! Diderix özünə irad tuta bilməzdi; heç nədən çəkinmədən namus məhkəməsində duruş gətirə bilərdi. Adamı haldan çıxaran o idi ki, hansısa bir fərd bu cür hərkiliyə yol verir; Diderix bütün korporasiyanın timsalında təhqir olunmuşdu. Digər tərəfdən də danmaq olmazdı ki, Malman Diderixin keçmiş ehtiramını yenidən kökiü şəkildə təzələmişdi. “Murdar itin biridir,– Diderixin beynindən keçmişdi. – Amma belə olmaq lazımdır...”

Evə çatanda gördü ki, ona sifarişli məktub gəlib.

– İndi tərpənə bilərik, – Hornunq dilləndi.

– Necə bilərik? Pula özümün ehtiyacım var.

– Yəqin, zarafat edirsən. Mən tək-tənha oturub burada qalası deyiləm ki?!

– Onda özünə həmdəm tap!

Diderix elə bir şaqqanaq çəkdi ki, Hornunq onun başına hava gəldiyini güman etdi. Diderix doğrudan da vətənə yollandı. Yalnız yolda gördü ki, məktubu anası göndərib. Burada nəsə bir qeyri-adilik vardı... Diderixə yazdığı sonuncu açıqcadan bəri atasının vəziyyəti xeyli pisləşib. Diderix niyə gəlmir. “Biz daha ağır şeylərə hazır olmalıyıq. Ürəkdən sevdiyimiz atamızı bir də görmək istəyirsənsə, gecikmə, oğul”.

Belə ifadə tərzi Diderixin canına vicvicə saldı. Qərara aldı ki, anasına inanmasın. "Arvadlara qəti inanmıram, anama gəldikdə isə heç cür".

Amma Diderix evə çatanda cənab Hesling can üstündə idi. Kişini bu halda görəndə Diderix elə astanadaca səsini başına salıb fəryad qopartdı. Səndələyə-səndələyə çarpayıya doğru getdi, sifəti bircə anın içində sel yatağına döndü; qollarını quş kimi gərib yanına döyəclədi. Birdən atasının sağ əlini yatağın üstündə gördü, diz çöküb onu öpməyə başladı. Ərinin son nəfəsində səsini içinə salıb büzüşmüş frau Hesling çarpayının o tərəfində oğlunun etdiyi kimi kişinin sol əlini öpürdü. Diderix atası onu şilləләyərkən qara dırnaqlı əlinin dəfələrlə özünün sifətinə ilişdiyini xəyalında canlandırdı və daha da bərkdən ağladı. Xüsusilə də cır-cındırdan düymələri oğurlayanda yediyi şillələr! Bu əl qorxulu olmuşdu; Diderixin ürəyi sıxıldı ki, onu itirəsi olacaq. Hiss etdi ki, anası da eyni şeyi düşünür, qadın da onun fikirlərini oxudu. Birdən onlar kişinin üstündən bir-birini qucaqladı.

Başsağlığına gələnlərin yanında Diderix özünü tam toxtaq aparırdı. Netsiq camaatının qarşısında o, özünün farağat duruşu ilə "Yeni Tevtoniya"nı təmsil edir, gələnlərin heyrətli baxışlarına səbəb olur və yas içində olduğunu unudurdu. Qoca cənab Buku o, düz eşik qapının ağzında qarşıladı. Netsiqin par-par parıldayan sürtuk geymiş bu qocaman kişisinin görkəmində bir əzəmət vardı. Bir əlində ağzı yuxarıya çevrilmiş şlyapasını tutmuşdu, qara əlcəkdən sivirib çıxardığı heyrətamiz dərəcədə yumşaq və incə təsir bağışlayan o biri əlini Diderixə uzatdı. Kişinin göy gözləri Diderixi dəlib keçdi və Buk dilləndi:

– Atanız yaxşı kişiydi. Siz də o cür olun, cavan oğlan! Həmvətənlərin haqqına saygı ilə yanaşın! Bunu sizdən insani ləyaqətiniz tələb edir. Ümid edirəm ki, doğma şəhərimizdə ümumi rifah naminə əl-ələ verib işləyəcəyik. Yəqin, təhsilinizi tez başa vurarsınız?

Kişinin iltifatı onu elə çaşbaş salmışdı ki, Diderix az qaldı "Hə" desin. Qoca Buk nisbətən mülayim soruşdu:

– Kiçik oğlum sizə Berlində baş çəkib? Yox? Eh, gərək çəkəydi. O da orada oxuyur. Çox güman ki, tezliklə birillik əsgərliyini də başa vurar. Siz necə, qurtarmısınız?

– Xeyr, – deyib Diderix qulağının dibinə kimi qızardı. Dili dolaşa-dolaşa özünə haqq qazandırmaq istədi. Təhsilinə

ara vermək indiyə qədər heç cür mümkün olmayıb. Lakin qoca Buk çiyinlərini çəkdi, sanki, bu onu çox da maraqlandırmırdı.

Yaşlı mühasib Zötbirin şahidliyində atasının etdiyi vəsiyyətlə Diderix hər iki bacısının himayədarı olmuşdu. Zötbir onu başa saldı ki, atası qızlarına cehiz kimi yetmiş min mark qoyub. Həmin pulun faizinə belə toxunmaq olmaz. Fabrikin xalis gəliri son illərdə orta hesabla doqquz min mark təşkil edib.

– Çox yox? – Diderix soruşdu.

Zötbir onu süzdü, əvvəlcə dəhşətlə, axırda da kinayəli. Rəhmətlik atası ilə Zötbirin işi hansı çətinliklərlə bu mərhələyə gətirib çıxardığını kaş cavan cənab bilmiş olaydı! Təbii ki, istehsalı inkişaf etdirmək lazımdır...

– Hə, yaxşı, yaxşı, – Diderix səsini qaldırdı. Gördü ki, burada çox şeyi dəyişmək lazım gələcək. Doqquz min markın dörddəbiri iləmi yaşamalıydı? Rəhmətliyin bu istəyi onu tamam haldan çıxartdı. Anası bir şeyi də dedi: rəhmətlik ölüm ayağında əminliklə bildirib ki, ömrünü oğlu Diderixdə davam etdirəcək və özününkülərin qayğısını çəkməyin naminə Diderix heç vaxt evlənməyəcək. Bu vaxt Diderix özünü saxlaya bilməyib partladı:

– Atam sənin kimi sentimental xəstələrdən deyildi, həm də o, yalan danışmırdı.

Frau Heslinq elə bildi rəhmətliyin səsini eşidir və aradan çıxdı. Özünün aylıq xərcini qaldırmaq üçün Diderix bu fürsəti əldən vermədi.

– Hələlik, – qaba dilləndi, – gərək birillik əsgərliyimi çəkəm. Nəyin bahasına olsa da, çəkəm. Xırda-para pul məsələlərinizlə məni sonra narahat edərsiniz.

O hətta israr etdi ki, əsgərliyə Berlində getsin. Atasının ölümü əl-qolunu tamam açmışdı. Gecələr yuxusunda görürdü ki, atası bomboz meyit sifəti ilə kontordan ona doğru gəlir və Diderix qan-tər içində yuxudan ayılırdı.

Anasının xeyir-duasını alıb yola düşdü. Bundan sonra ona nə Qotlib Hornunq, nə də ki şərikli Roza gərək idi və tutduğu mənzildən ayrı yerə köçdü. Dəyişmiş həyat tərzini yeni tevtonçulara mülayim formada göstərdi. Cavanlıq coşqusu arxada qalmışdı. Vida qonaqlığı! Diderixin atasının ruhunun rahatlığı şərəfinə içdilər, lakin sağlıqları həm də onun özünə və ən gözəl çiçəklənən çağlarına aid etmək

olardı. Xalis özünü fədadan Diderix pivədaşlığa qəbul olunduğu birinci gecədə olduğu kimi yenə masanın altına uzanana qədər içdi və bundan sonra "qocamanlar" sırasına keçdi.

Ertəsi gün başı üstündə güclə duraraq onun özü kimi digər lüt-üryan gənclərin arasında hərbi həkimin hüzurunda dayandı. Həkim cənabları onun sərəncamına verilmiş bu erkək ətlərinə ikrahla üstdən aşağı baxırdı; onun baxışı Diderixin qarnına çatanda kinayələşdi. Ətrafdakılar həmin an irişdilər, Diderix də gözlərini özünün qızarmış qarnına dikməyə məcbur oldu... Hərbi həkim bütün ciddiyyətini işə saldı. Özünü karsalalığa vuran çağırışçının vəziyyəti yaxşı olmadı, çünki onun simulyantlıq etdiyi ortaya çıxdı! Üstəlik, hələ Levizon adlanan bir başqası yaxşıca danlaq qazandı:

– Məni bir daha burada incidəsi olsanız, heç olmasa, yuyunub gəlin!

Diderixə çatdıqda isə:

– Sizin də gərək piyinizi əridək. Zəmanət verirəm ki, bircə ay xidmətdən sonra əməlli-başlı xristian balası olacaqsınız.

Bununla da o, qulluğa yararlı hesab edildi. Çıxdaşlar elə sürətlə geyinirdilər ki, elə bil, qışlaya od vurmuşdular. Yararlı hesab edilənlər isə sınayıcı nəzərlərlə kənardan bir-birinə baxır və ürkək-ürkək uzaqlaşırdılar, sanki, ağır bir əlin çiyinlərinə qonacağını gözləyirdilər. Onlardan biri, laqeyd sifətli bir artist arxaya qayıdıb həkimin qarşısında əyləşdi və qayğılı bir səslə ucadan dedi:

– Onu da demək istəyirəm ki, mən homoseksualam.

Həkim arxaya çəkildi, qıpqırmızı qızarmışdı. Səsi zorla çıxa-çıxa dedi:

– Sənin kimi donuzlara, hər halda, ehtiyacımız yoxdur.

Diderix bu cür həyasız danışıqdan aldığı şaşqınlığı gələcək yoldaşları ilə bölüşdü. Sonra üzünü bayaq divarda onun boyunu ölçmüş unter-zabitə tutub onu inandırmağa çalışdı ki, sevinci yerə-göyə sığmır. Buna baxmayaraq, Netsiqə, onun boğazını tez-tez silmiş müalicə həkimi elmlər doktoru Hoytoyfelə bir məktub yazdı; həkim arayış verə bilərmi ki, Diderix xənazir və raxit xəstəsi olub. Əsgəri təlimlə canını məhv edə bilməz axı. Amma cavab gəldi ki, qulluqdan can qurtarmağa lüzum yoxdur, əsgərlik onu əməlli-başlı adam edəcək. Beləliklə, Diderix otağını təhvil verdi, çama-

danını götürüb qışlaya yollandı. Qışlada iki həftə qalsa, həmin müddət mənzil puluna qənaət etmiş olar.

Oraya düşən kimi tumikdə dartılma, sıçrayışlar və adamın nəfəsini kəsən digər məşqlər başladı. "Rayonlar" deyilən dəhlizlərdə bölüklər üzrə məşqlər keçirilirdi. Leytenant fon Kullerau mütləq laqeydlik nümayiş etdirirdi, birilliyə gələnlərə ayrı cür yox, yalnız bir gözünün ucu ilə baxırdı. Qəflətən "Çavuş!" – deyə bağırıb unter-zabitlərə göstərişlər verirdi. Qışlanın həyətindəki silahla məşqlər, sıravi marşlar, dağılışmalar, yerdəyişmələr və başqaları – bütün bunların hamısı "gədələri" yorub əldən salmaqdan başqa ayrı məqsədə xidmət etmirdi. Diderix hiss edirdi ki, buradakı hər şey – rəftar, danışıq tərzi, bütün hərbi fəaliyyət – ilk növbədə yalnız şəxsi ləyaqəti ölçüsüz dərəcədə alçaltmağa yönəldilib. Bu da onun ürəyincə idi; öz halı nə qədər acınacaqlı olsa da, belə vəziyyət onda dərin bir hörmət hissi və intihar coşqusu oyatmışdı. Prinsip və ideallar eyzən "Yeni Tevtoniya"da olduğu kimiydi, ancaq xeyli qəddar həyata keçirilirdi. Adamın adam olduğunu xatırlaya biləcəyi həzz fasilələri də burada yoxa çıxmışdı. Birdən-birə və dönmədən adamı bit kimi əzirdilər, hissəciyə, hüdudsuz bir iradənin yoğurub təzədən yapdığı xammala çevirirdilər. Ürəyin ən dərin qatlarında belə buna qarşı çıxmaq dəlilik və özünüməhv olardı. Ən uzağı öz inancına qarşı çıxıb hərdən özünü xəstəliyə vura bilərdin. Diderix qaçışda yıxılmışdı, ayağı ağrıyırdı. Amma elə yıxılmamışdı ki, axsasın, buna baxmayaraq axsayırdı və bölüyü "ərazini öyrənmə" məşqinə yola düşəndə onun qışlada qalmasına icazə verdilər. Məqsədinə çatmaq üçün özünü birbaşa kapitanın yanına salmışdı:

– Cənab kapitan, xahiş edirəm...

Fəlakətl Qanmazlığından sözünü qarşısında diz çöküb lal-dinməz əmr gözləməli olduğu bir şəxsə demişdi! O şəxsə demişdi ki, onun yanına yalnız çağırılanda gəlmək olardıl Kapitan elə bərkdən bağırdı ki, unter-zabitlərin hərəsi bir tərəfə qaçdı, hamısının üzündə asiliyin qorxunc ifadəsi donub-qaldı. Nəticəsi o oldu ki, Diderix bir az da bərk axsayıb bir gün də xidmətdən azad edildi.

Birillik əsgərlərə cavabdeh olan unter-zabit Vanzelau Diderixə yalnız bunu dedi:

– Adını da savadlı qoyub!

Unter-zabit öyrəncəkli idi ki, bütün bəd əməllər birillik əsgərlərdən gəlir. Vanzelau onların otağında pərdənin arxasında yatırdı. İşıq sönəndən sonra onlar elə hərcayi donquldaşırdılar ki, unter-zabit hirslənib qışqırmalı olurdu:

– Adlarını da savadlı qoyublar!

Uzunmüddətli təcrübəsinə baxmayaraq, başqalarına nisbətən o, birillik əsgərlərdən daha çox qanacaq və yaxşı münasibət gözləyirdi və hər dəfə də məyus olurdu. Diderixi ən pislərdən saymırdı. Vanzelaunun fikri təkcə onu qonaq etdikləri pivədən asılı olmurdu. Əsgərdə o daha çox könüllü riayəti qiymətləndirirdi, bu da Diderixdə vardı. Nizamnamə dərslərində onu başqalarına nümunə göstərmək olardı. Diderix cəsurluğun və ləyaqətin hərbi ideallarını tam mənimsəmişdi. Fərqləndirici nişanlara və subordinasiyaya gəldikdə isə bunlar onda, deyəsən, anadangəlmə yox idi.

Vanzelau deyəndə ki "İndi mən əlahəzrət cənab generalam", Diderix özünü həmin dəqiqə elə apprırdı ki, elə bil, buna tam inanmışdı. Unter-zabit növbəti dəfə deyəndə ki "İndi də mən imperatorun ailə üzvlərindən biriyəm", Diderix elə bir vəziyyətə düşürdü ki, Vanzelaunu dəli bir gülmək tuturdu.

Yeməkxanadakı şəxsi söhbətlərin birində Diderix öz böyüyünə ürəyini açıb dedi ki, əsgərlik həyatı onu valeh edir.

– Əriyib böyük bir bütövə qarışmaq, – Diderix fikrini bildirdi. Bütün həyatını orduda keçirməkdən başqa onun heç bir arzusu yoxdur. Bunu ürəkdən deyirdi, lakin günortadan sonrakı "ərazini öyrənmə" məşqlərində xəndəyə uzanıb varlığını danmaqdan savayı ayrı istəyi olmurdu. Bədənin şax dayanmasını nəzərə alıb onsuz da dar biçilmiş mundiri yeməkdən sonra işgəncə alətinə çevrilirdi. Kapitan atının üstündə əmr verib deyilməz dərəcədə cəsur və döyüşkən görkəm alırsa, sən də tövşüyə-tövşüyə qaçaraq yediyin supun mədəndə həzm olunmadan çalxalandığını hiss edirsənsə, neyləyəsən?! Diderix hər şeyə məftun olmağa hazır idi, lakin şəxsi ehtiyacın qabağında geri çəkilməli olurdu. Ayağı təzədən ağrımağa başladı. Diderix də özünə nifrətlə bağlı olan qorxunc bir ümidlə bir qulağını ayağının ağrısına verdi ki, bəlkə, pisləşdi, özü də elə pisləşdi ki, o, "ərazini öyrənmə" məşqlərinə gedə bilmədi, bəlkə, heç qışlada da məşqlərdən azad oldu, bəlkə də, məcbur olub onu əsg-

ərlikdən buraxdılar! İş elə gətirdi ki, bazar günü pivədaşlanndan birinin atasının, gizli tibbi müşavirin yanına yollandı. Həyadan qıpqırmızı qızararaq cənab müşavirdən ona yardım göstərməsini xahiş etdi. Dedi ki, ordunun, o böyük tamın vurğunudur və ömürlük orada canla-başla qulluq edərdi, adam özünü orduda həşəmətli bir qurumda, necə deyərlər, hakimiyyətin bir qolunda hiss edir, nə iş görəcəyini gözəl bilir və bundan gözəl duyğu oia bilməz. Amma neyləsin, ayağı ağrıyır.

– Gərək eiə edəm ki, ayağım sıradan çıxmasın. Hər halda, anamı və bacılarımı mən saxlamalıyam.

Gizli müşavir onu müayinə etdi.

- "Yeni Tevtoniya" bayrağımızdır, – dedi, – təsadüfən sizin alay həkiminizlə tanışam.

Diderix bu barədə özünün pivədaşından məlumat almışdı. Müşavirlə sağollaşıb qorxu və ümid içində geri döndü. Ümidin təsiri o oldu ki, ertəsi gün tezdən ayağını güclə yerə qoydu. Xəstə olduğunu bildirdi.

– Kimsiniz, nəyə görə məni narahat edirsiniz? – alay həkimi onu altdan yuxarı süzdü. – Üz-gözünüzdən gümrahlıq yağır, qarnınız da balacalaşıb. – Lakin Diderix tam ciddiliklə özünü xəstə kimi apardı; həkim onu müayinə edəsi oldu. Ayağına baxanda dedi ki, siqaret yandırmasa, halı xarab olacaq. Ancaq ayaqda heç nə tapılmadı. Həkim hirslənib onu masadan itələdi. – Xidmətə, qurtardıq, tərpən!

Bununla da məsələ bitdi. Təlim keçərkən Diderix qəfildən qışqırıb yerə yıxıldı. Onu "məntəqəyə", yüngül xəstələrin saxlanıldığı yerə gətirdilər, buradan qara camaat iyi gəlirdi, yeməyə də heç nə yox idi. Birillik əsgərlərə şamil edilən öz hesabına qidalanmaq burada çox çətin idi, ümumi qazandan da Diderix heç nə almırdı. Aclığa dözməyib sağaldığını bildirdi. İnsani himayədən, hər cür mənəvi haqlardan məhrum olaraq taleyinə boyun əyməli oldu; lakin bir gün səhər tezdən, bütün ümidlər kəsiləndə onu təlimdən çıxarıb qərargahın baş həkiminin otağına gətirdilər. Bu yüksəkrütbəli rəis özü onu müayinə etmək istəmişdi. Baş həkim əvvəlcə xalis insani, bir az da şaşqın tonla danışmağa başladı, bu ton təzədən hərbi sərtliyə keçdi, lakin elə bu zaman da müəyyən inamsızlıq hiss olunurdu. Deyəsən, o da düz-əməlli bir şey tapmamışdı, buna baxmayaraq, müdaxiləsinin nəticəsi tamam başqa cür səsləndi. Diderix yal-

nız “hələlik” xidmət edə bilərdi, sonrası da yoluna qoyulardı.

– *Belə ayaqla...*

Bir-iki gündən sonra “məntəqənin” sanitarı Diderixin yanına gəlib qara kağızın üstündə həmin başıbəlalı ayağın şəklini çəkdi. Diderix məntəqədəki otaqda gözləməli oldu. Qərargahın həkimi xəstələrə baxandan sonra imkan tapıb ona öz nifrətini bildirdi:

– Heç ayıpəncə də deyilsən! Tənbəlin biri tənbəl!

Bu vaxt qapı şaqqıltı ilə açıldı və papağını başından çıxarmamış baş həkim təntənə ilə içəri girdi. Həmişəkinə nisbətən əmin və dəqiq addımlarla yeriyirdi, nə sağına baxırdı, nə də soluna, bir kəlmə də kəsmədən tabeliyində olan həkimin qarşısında dayandı, ciddi, qaşqabaqlı görkəm alıb onun papağına baxdı. Qərargahın həkimi duruxdu, öyrəşdikləri adi həmkarlıq münasibətlərindən kənara çıxan bir vəziyyətə düşməli oldu. Axır ki, vəziyyəti başa düşüb papağını çıxartdı və farağat dayandı. Bundan sonra baş həkim ona ayağın şəkli çəkilmiş kağızı göstərdi, astadan və olmayan şeyi görməyi əmr edən bir tonla danışdı. Qərargah həkimi gözlərini döyə-döyə gah baş həkimə, gah Diderixə, gah da kağıza baxdı. Sonra dabanlarını cütləyib əmr olunanı gördü. Baş həkim gedəndən sonra Diderixə yaxınlaşdı. Qarşılıqlı anlaşmanın nişanəsi kimi nəzakətlə və astadan gülümsəyib dedi:

– Məsələ əvvəlcədən aydın idi. Yalnız camaata görə... Özünüz başa düşürsünüz, intizam...

Diderix farağat vəziyyəti alıb bildirdi ki, hər şeyi başa düşür.

– Ancaq, – qərargahın həkimi təkrarladı, – halınızın nə yerdə olduğunu əlbəttə bilirdim.

Diderix öz içində dilləndi: “Əvvəllər bilməsən də, indi bilirsən”. Sonra da ucadan əlavə etdi:

– İcazə ver, itaətlə soruşum, cənab həkim: hərbi xidmətimi davam etdirə biləcəyəm, eləmi?

– Buna zəmanət verə bilmərəm, – deyib həkim arxaya çevrildi.

Diderix bundan sonra ağır xidmətdən azad olundu, “ətrafı öyrənmə” təlimlərində daha iştirak etmədi. Amma qışlada istənilən əmrə can-başla əməl edirdi. Axşamlar əsgərləri sanamadan keçirmək üçün kapitan ağzında siqar, kefi

də bir balaca yuxarı kazinodan gələndə, yağlanmaq əvəzinə yalnız silinən çəkmələrə görə hansısa əsgəri hauptvaxta[1] salanda Diderixə deməyə söz tapmırdı. Buna görə də o, bütün acığını ilk iki həftədə qışlada yox, evində yatdığına görə üçüncü aydır ki cəza kimi burada yatmalı olan digər "birillik" əsgərin üstünə tökürdi. Həmin əsgərin o vaxt qırx dərəcə istiliyi varmış və oğlan öhdəsinə düşən işləri yerinə yetirmiş olsaydı, bəlkə də, indi yaşamırdı. Onda mütləq ölərdi! Həmin əsgəri görən kimi kapitanın üzündə qürurlu bir məmnunluq yaranardı. Diderix də onların arxasında gizlənərək mütiləşib düşünərdi: "Görürsən də?" "Yeni Tevtoniya" ilə gizli müşavir qırx dərəcə hərarətdən daha dəyərlidir ..." Diderixə gəldikdə isə rəsmi sənədləşmə bir günün içində uğurla sona yetdi və unter-zabit Vanzelau onun evə buraxılmasını xəbər verdi. Həmin an Diderixin gözləri yaşla doldu; Vanzelaunun əlini bərk-bərk sıxdı.

– Gərək elə bu mənim başıma gələydi?! – hıçqırdı. – Hələ nə qədər əsgərlik arzularım vardı.

Sonra onu qışladan "bayıra" atdılar.

Düz bir ay evdə oturub əzbərçilik elədi. Yeməyə gedəndə ətrafına boylanırdı, görsün, tanışdan-bilişdən onu tanıyan yoxdur ki. Axır ki, özünü yeni tevtonçulara göstərdi. Əda ilə meydana atıldı.

– Sizlərdən orada olan olmayıbsa, qəti təsəvvürü ola bilməz. Bunu mən sizə deyirəm, orada dünyanı ayrı səmtdən görürsən. Mən, ümumiyyətlə, həmişəlik hərbidə qalardım, bunu mənə rütbəcə böyüklərim məsləhət görürdülər, deyirdilər ki, əla keyfiyyətlərə malikəm. Hə, sonra da... – Qayğılı-qayğılı qabağa baxdı. – Sonra da o andır at. Adam yaxşı əsgərlik edəndə həmişə başına bu cür işlər gəlir. Kapitan mənə əmr elədi, atını qoşub sürüm ki, bir balaca qırışığı açılsın, qəza da elə onda baş verdi. Təbii ki, ayağımın dərdinə qalıb tələsik qışlaya qayıtdım. Halım get-gedə pisləşməyə başladı, qərargah həkimi məni başa saldı ki, hər ehtimala qarşı qohumlarıma xəbər verim. – Bu hissəni qısa

---

[1] *Hauptvaxt* – indiyə qədər rus dili vasitəsilə işlətdiyimiz *qauptvaxta* sözünün yerində işlənir. *Qauptvaxta* sözünü ruslar almanlardan götürmüşlər və rus dilində *h* səsinin olmaması üzündən başdakı səsi *q* ilə əvəz edib, sözü "ruslaşdırmaq" üçün ona bir *a* da artırmışlar. Biz isə bu sözü birbaşa alman dilində olduğu kimi işlədirik: *Hauptvacht* – *Haupt* (baş) + *Wacht* (keşik, qarovul).

və kişisayağı dedi. – Kaş kapitanımızı görmüş olaydınız. Uzun marşlardan sonra o hər gün tozlu mundiri ilə özü mənə baş çəkirdi. Belə şey yalnız hərbidə olur. O çətin günlərdə biz əsl dostlara çevrildik. Bax bu siqar da ondan qalmadır. O, mənə sirri açıb deyəndə ki qərargahın həkimi məni qulluqdan azad etmək istəyir, inandırım sizi, bu, həyatda unudulması mümkün olmayan anlardan biri oldu. Kapitan da, mən də – ikimiz də birdən ağlamağa başladıq. – Hamı duyğulanmışdı. – Diderix qürurla ətrafına baxdı. – Hə, indi təzədən mülki həyata qayıdası olacağam. Prost!

Yenidən əzbərləməyinə davam etdi; şənbə günləri isə yeni tevtonçularla pivələnməyindən qalmadı. Vibel də qayıtmışdı. O artıq asessor olmuşdu, prokuror vəzifəsinə gedən yolda idi və yalnız "dağıdıcı meyillərdən", "vətənin düşmənlərindən", eləcə də "xristian-sosial fikirlərdən" danışırdı. Cavanlara başa salırdı ki, siyasətlə məşğul olmağın vaxtı yetişib. Özü gözəl bilir ki, bu heç də kübar hərəkət deyil, amma rəqiblər səni buna məcbur edir. Bu hərəkata hətta ən adlı-sanlı soylar da qoşulub, məsələn, onun dostu asessor fon Barnim. Cənab fon Barnim yaxın gələcəkdə yeni tevtonçulara baş çəkib onları şərafətləndirəcək.

Fon Barnim gəldi də, hamının ürəyini ovladı da, çünki özünü onların tay-tuşu kimi apardı. Onun daranıb tağla ikiyə bölünmüş qara saçları, öz işinin ustası olan məmur görkəmi, işgüzar danışıq tərzi vardı, lakin nitqinin sonunda baxışında xəyalpərvər bir ifadə peyda oldu və səmimiyyətlə hamının əlini sıxıb sağollaşdı. Onun buraya gəlişindən sonra yeni tevtonçular bir ağızdan razılığa gəldilər ki, yəhudi liberalizmi sosial-demokratiyanın ilk barıdır və xristian almanlar saray vaizi Ştökerin ətrafında sıx birləşməlidirlər. Diderix də başqaları kimi "ilk bar" kəlməsi ilə aydınlıq hasil etmədi və "sosial-demokratiya" adı altında yalnız ümumi parçalanmanı başa düşdü. Bu da ona bəs elədi. Lakin cənab fon Barnim məsələyə aydınlıq gətirmək istəyən hər kəsi evinə dəvət etdi və bu cür xeyirli imkanı qaçırsaydı, Diderix Diderix olmazdı.

Özünün köhnə dəbli subaylıq mənzilində cənab Barnim şəxsən ona özəl bir mühazirə oxudu. Onun siyasi məqsədi xoşbəxt orta əsrlərdə olduğu kimi daimi xalq nümayəndəliyi idi: cəngavərlərin, ruhanilərin, kustarçıların, sənətkarların nümayəndəliyi. Əl əməyi, imperatorun haqlı olaraq tələb

etdiyi kimi, Otuzillik müharibədən öncəki təki yenidən zirvəyə qalxmalıydı. Korporasiyaların peşəsi Allah xofu yaratmaqdan və mənəviyyatın qeydinə qalmaqdan ibarət olmalı idi. Diderix buna ürəkdən inandığını və onu büsbütün anladığını bildirdi. Bu onun hansısa silkin, hansısa peşə sahəsinin qanuni üzvlüyünə daxil olaraq fərdi yox, korporativ şəkildə həyatda ayaq tutub yerimək istəklərinə uyğun gəlirdi. Artıq o, özünü kağız istehsalı sənayesinin deputatı hesab edirdi. Yəhudi həmvətənlərini cənab fon Barnim, təbii ki, özünün dövlət düzənindən silib atmışdı; axı onlar intizamsızlığın, çöküşün, qatma-qarışıqlığın, hörmətsizliyin nümunəsidir, əslində, yamanlıq təcəssümləridir. Onun məsum sifəti nifrətdən əyiş-üyüş oldu, Diderix də həmin duyğunu keçirdi.

– Son olaraq, – Diderix dedi, – güc bizim tərəfimizdədir və onları bayıra ata bilərik. Alman ordusu...

– Elədir, – otaqda vurnuxan cənab fon Barnim özünü saxlaya bilmədi. – O boyda şanlı-şöhrətli müharibəni ona görə etmişik ki, mənim ata mülküm frankfurtluya satılsın? – Diderix şaşqınlıq içində susanda zəng çalındı və cənab fon Barnim dedi. – Dəlləyimdir, gərək onu da qəbul edəm. – Diderixin şaşqınlığını görüb əlavə etdi: – Təbii ki, belələri ilə ayrı cür danışıram. Lakin hər birimiz öz tərəfindən gərək sosial-demokratiyaya zərər yetirib xırda adamları xristian imperatorumuzun düşərgəsinə çəksin. Siz də öz xidmətinizi göstərin!

Bununla da Diderix gedəsi oldu. Gedə-gedə də dəlləyin dediklərini eşitdi:

– Liblinq indi salonuna mərmər döşədiyinə görə onun tərəfinə keçmiş köhnə müştərilərdən biri, hə, cənab asessor.

Diderix fon Barnimin dediklərini Vibelə çatdıranda o dedi:

– Hər şey gözəldir, möhtəşəmdir və mən dostum fon Barnimin ideal fikirlərinə hörmətlə yanaşıram, lakin uzun müddətə bununla bir yana çıxa bilmərik. Özünüz fikir verin, Ştöker də "Ayspalast"a[1] demokratiya ilə özünün mənfur təcrübələrini apardı, istəyirsən adına xristian de, ya qeyri-xristian. Yamanlıq çox-çox dərinə gedib. Bu gün onun bircə adı var: nə qədər ki hakimiyyət əlimizdədir, əzmək.

[1] Buz sarayı

Diderix yüngülləşmiş adamlar kimi bu fikirlə razılaşdı. Ətrafda dolaşıb xristianları bu işə cəlb etmək ona bir az çətin göründü.

– Qeysər deyib ki, sosial-demokratiyanı öz öhdəsinə götürür. – Vibelin gözləri hirslənmiş erkək pişik gözləri kimi işıldadı. – Bundan artıq daha nə istəyirsiniz? Hərbimiz təlimatlanıb, ola bilər o, əziz-xələf qohumlarına atəş açsın. Deməli? Sizə deyim ki, əzizim, biz böyük hadisələr ərəfəsindəyik. – Diderixin artan marağını görüb əlavə etdi. – Kuzenim fon Klappedən... – Vibel danışığına ara verdi. Diderix dabanlarını cütlədi, – ...öyrəndiklərim hələlik camaat üçün deyil. Bircə şeyi deyim ki, əlahəzrətin dünənki çıxışı, ağzıgöyçəklər alman tozunu öz çəkmələrindən silsələr yaxşı olardı, ən ciddi xəbərdarlıq idi.

– Doğrudan? Belə fikirləşirsiniz? – Diderix soruşdu. – Onda mənim qara bəxtim ağzı üstə döndü, çünki mən əlahəzrətin xidmətindən tərxis olunmuşam. Orasını da deyim ki, daxili düşmənlərə qarşı öz borcumu şərəflə yerinə yetirəcəyəm. Nə qədər ki mən bilirəm, imperator ordu sarıdan arxayın ola bilər.

1892-ci ilin bu nəmli və soyuq fevral ayında o, böyük hadisələrin gözləntisində saatiarla küçədə qalırdı. Unter-den-Linden küçəsində nəsə dəyişmişdi, amma bunun nə olduğunu görən yox idi. Atlı mühafizə dəstələri küçələrin başında dayanıb gözləyirdi. Yoldan keçənlər gücləndirilmiş polis dəstələrini bir-birinə göstərib deyirdilər:

– İşsizlər!

Ayaq saxlayırdılar ki, onların gəlişini görə bilsinlər. Onlar da şəhərin şimalından gəlirdi, kiçik dəstələrlə, ağır, nizami addımlarla. Unter-den-Linden küçəsində çaşıb-qaldılar, tərəddüd edib məsləhətləşdilər, axırda da saraya doğru buruldular. Orada əllərini ciblərinə qoyub sakitcə dayandılar, arabaların təkərlərindən qopan palçığa bələndiiər, rəngi solmuş plaşlarına yağan yağışın altında çiyinlərini yuxarıya dartdılar. Bəziləri başlarını yanlarından ötən zabitlərə, arabalarda gedən qadınlara, sallana-sallana Burqştrasedən gələn kişilərin uzun kürklərinə baxırdı; üz-gözlərində heç bir ifadə yox idi, nə hədə, nə maraq, nə də nəsə görmək ifadəsi, sadəcə, özlərini göstərirdilər. Digərləri isə gözlərini sarayın pəncərələrindən çəkmirdilər. Göydən tökülən yağış yuxarı qaldırdıqları sifətləri uzunu axırdı. Bağırqan

polisin atı onları sıxışdırıb uzaqlaşdırdı o üzə, ya da növbəti tinə qədər, amma təzədən sıraya düzülüb dayandılar, solğun axşamın işıqlandırdığı bu ifadəsiz yayğın sifətlərlə arxadakı o donuq divar arasında, sanki, dünya qaranlığa qərq olurdu.

– Polisin, – Diderix dilləndi, – ciddi tədbirlər görməməsini başa düşə bilmirəm. Bu iyrənc quldur dəstəsinin nəyindən çəkinir?!

– Narahat olmayın, – Vibel cavab verdi. – Mühafizə polisi yaxşıca təlimatlandırılıb. Başda oturanların ölçülüb-biçilmiş fikirləri var, mənə inana bilərsiniz. Heç də həmişə arzuedilən deyil ki, dövlətin gövdəsindəki bu cür irin yuvasını yetişməmiş deşəsən. Gərək yetişsin ki, işini görə biləsən!

Vibelin dediyi kimi, irinin yetişməsi günü-gündən yaxınlaşırdı və ayın iyirmi altısında tam yetişdi. İşsizlərin nümayişləri məqsədyönlü görünürdü. Şəhərin şimal hissəsindəki küçələrdən birinə sıxışdırılan kütlə yolu kəsilənə qədər digər küçədən axışıb gəldi. Ayrı-ayrı dəstələr Unterden-Linden küçəsində birləşdi; onları nə qədər dağıtmağa çalışsalar da, birləşib saraya yetişdilər, geri oturdular, sonradan bir də oraya cumdular – lal-dinməz və bərəsindən çıxmış çay kimi. Gediş-gəliş dayandı, hətta bu dalğalı daşqına atılmış piyadalar da yerlərindən tərpənə bilmədilər; həmin daşqın, ipə-sapa yatmadan axan, boğuq səslər çıxaran, "Çörək!", "İş!" kəlmələrinin batmaqda olan gəminin dor ağacındakı bayraqlar kimi dalğalandığı bulanıq, pisrəngli kasıblar dənizi azmanı meydanı çənginə alıb boğurdu. Dərinliklərdən qopub üzə çıxan, "Çörək!", "İş!" bağıran apaydın bir hiddət! Köpüb fırtına buludları kimi kütlənin başı üstündə dolaşaraq "Çörək!", "İş!" harayları! Atlı dəstələrin hücumu, qabarmalar, çəkilmələr, haray-qışqırıq içində zil qadın səsləri, əsl sirenalar kimi: "Çörək!", "İş!"

Adamlara hücum çəkilir, Fridrix heykəlinin yanından xəbər acların üzüaşağı kürüyürlər. Amma onların ağzı açıla qalıb, idarəyə yolları bağlanmış xırda məmurların üstündən toz qalxır, sanki, kimsə onların tozunu çırpır. Diderixin böyründə kimsə qışqırır:

– Dövran dəyişib! Yəhudilərə hücum! – və onun cənab fon Bamim olmasını Diderix qavrayana qədər həmin adam camaatın içində əriyib yoxa dönür. Diderix onun arxasınca getmək istəyir, güclü bir təkan onu o biri tərəfə, kafenin

pəncərəsinə atır, Diderix çiliklənmiş şüşənin cingiltisini və səsini başına salmış fəhlənin hayqırtısını eşidir:

– Bu yaxınlarda qolumdan tutub bayıra fırlatdılar, nə var, nə var, başımda silindrim yoxdur, arada da otuz pfenniqim heyif oldu.

Bu sözləri deyən kişi Diderixlə pəncərədən kafeyə, yanı üstə aşmış masaların arasına atılır, adamlar burada şüşə qırıqlarının üstünə yıxılır, qarınlarını yaralayıb qışqırırlar:

– İçəri adam buraxmayın! Havamız çatışmır!

Amma camaat birəldən içəri dolur. Polis adamları sıxışdırır. Küçənin ortası boşalır, elə bil, zəfər yürüşü üçün təmizlənir. Bu vaxt kimsə dillənir:

– Bu da Vilhelm!

Diderix təzədən bayıra çıxır. Heç kim bilmədi necə oldu ki, birdən-birə nizami addımlarla yeridilər, sıxışdırılmış kütlənin arası ilə, küçənin eni boyu hər iki tərəfdən, üstündə qeysərin, bəli, imperatorun oturduğu atın qabaq qollarına qədər. Ona baxa-baxa onunla yanaşı gedirdilər. Bir dəstə haray-qışqırıqçı camaatdan qopub onun arxasınca götürüldü. Heç kim gözünü ondan çəkmirdi. Nizamsız-düzənsiz, sınırsız-hüdudsuz qapqara insan axını, onun başı üstündə də açıqrəngli libasda dəbilqəli cavan cənab qeysər. Onu saraydan bu insanlar çəkib çölə çıxarmışdı. İmperator gələnə qədər onlar “Çörək!”, “İş!” qışqırmışdılar. Onun burada olmasından başqa heç nə dəyişməmişdi – indi də nizami addımlarla yeriyirdilər, sanki, Tempelhof çölündə parad keçirirdilər.

Bir qıraqda, sıraların seyrəldiyi yerdə mülki geyimdə olanlar bir-birinə deyirdilər:

– Allaha çox şükür, nə istədiyini o, gözəl bilir!

– Nə istəyir ki?

– Gücün kimin əlində olduğunu bu quldur dəstəsinə göstərmək! Onlarla yumşaq davranmağa çalışdı. İki il qabaqkı sərəncamları ilə hələ xeyli uzağa da getdi. Amma bunlar sırtıqlaşdılar.

– Etiraf etmək lazımdır ki, qorxu nə olduğunu bilmir. Uşaqlar, bu, tarixi bir andır!

Diderix bunu eşidən kimi canına üşütmə düşdü. Həmin sözləri deyən yaşlı cənab ona doğru döndü. Kişinin çal birçəkləri və “Dəmir xaç” ordeni Diderixin gözündən yayınmadı.

– Hə, cavan oğlan, – kişi dilləndi, – həşəmətli qeysərimizin indi etdiklərini uşaqlarımız məktəb dərsliklərindən oxuyacaqlar. Bunu unutmayın!

Çoxunun qürurdan sinəsi qabarmış, üz-gözlərinə isə təntənə qonmuşdu. Qeysəri müşayiət edən cənablar tam qətiyyətlə ətrafı gözdən qoymurdular, atlarını isə birbaşa camaatın üstünə sürürdülər, sanki, bu insanların hamısı tamaşada passiv rolun ifaçıları idi; hərdən də onlar yan tərəfə, camaatın üz ifadəsinə çəpəki nəzər salırdılar. Qeysər isə yalnız özünü və qələbəsini görürdü. İçindən gələn ciddiliyi üzünün cizgilərini donuqlaşdırmışdı, gözü onun məftun etdiyi minlərlə insanın başı üstündən o yana baxırdı. Özünü onlarla yanaşı qoydu, Allahın taxta çıxardığı hökmdar və hirsləri coşub-daşan nökərlər! Tək-tənha və mühafizəsiz, lakin ona verilmiş ilahi tapşırıqdan güc alaraq özünü onların arasına atmışdı. Külli-qadir belə istəyirsə, qoy camaat ona hücüm çəksin; müqəddəs işinin yolunda o, özünü fəda etmişdi. Əgər Allah onunladırsa, qoy bunu görsünlər! Belədə onun əməlinin əzəmətini və özlərinin ağılsızlığını heç vaxt yadlarından çıxarmayacaqlar!

Başında sənətkar papağı olan ortayaşlı bir kişi Diderixlə yanaşı yeriyirdi. O dedi:

– Tanış səhnədir. Napoleon Moskvada. O da tək-tənha xalqın arasında.

– Bu ki əzəmətlidir! – Diderix dedi və səsi xırıldadı.

O biri tayı çiyinlərini çəkdi.

– Tamaşadır, özü də pisindən.

Diderix onu süzdü, qeysər kimi baxışını ona sancmağa çalışdı.

– Deyəsən, siz də onlardan birisiniz.

Heç özü də deyə bilməzdi ki, hansılardan biridir. Yalnız onu hiss etdi ki, həyatında ilk dəfə burada düşmən ünsürlərə qarşı böyük bir işə girişəsi olacaq. Həyəcanına baxmayaraq qarşısındakı kişinin kürəyini gözdən keçirdi: kürək enli deyildi. Ətrafdakılar da ona yaxşı münasibət göstərmədilər. Diderix öz işinə başladı. Qarnı ilə düşmənini divara qısnayıb onun sənətkar papağına döyəclədi. Hər yandan qapazlar yağdırılmağa başladı. Papaq artıq yerdəydi, tezliklə kişi özü də yerdə qaldı. Yoluna davam edərkən Diderix dalaş yoldaşlarına dedi:

– Əsgərlik görməyib! Çapıqlan da yoxdur!

Çal birçəkli və "Dəmir xaç"lı yaşlı cənab yenidən peyda olub Diderixin əlini sıxdı.

– Əhsən, cavan oğlan, əhsən!

– Bu yerdə adam hirslənməzmi? – Diderix hələ də tövşüyə-tövşüyə dilləndi. – Əgər birisi bizim tarixi anımızı korlamaq istəyirsə, neyləməli?

– Əsgərliyinizi çəkmisinizmi? – yaşlı kişi soruşdu.

– Can-başla ömürlük xidmət edərdim, – Diderix cavab verdi.

– Hə də, hər gün Sedan olmur ki, – yaşlı cənab sinəsindəki ordeni cingildətdi. – Sedan bizlər idik!

Diderix boynunu uzadıb sıxışdırılmış camaatı və qeysəri göstərdi.

– Bu heç də Sedandan pis deyil!

– Elədir, – yaşlı cənab dedi.

– İcazənizlə, möhtərəm cənab, – kimsə bərkdən dillənib əlindəki qeyd kitabçasını silkələdi. – Gərək bunu yazaq. İctimai fikrin mənzərəsi, bilirsiniz də? Deyəsən, yoldaşlardan birinin böyrünü yerə qoydunuz, hə?

– Xırda şeydir, – Diderix hələ də tövşüyürdü. – Mənə qalsa, daxili düşmənləri əzməyin vaxtı yetişib. Qeysərimiz yanımızda olan yerdə ...

– Gözəl, – deyib qəzetçi yazdı: "Vəhşiləşmiş camaatın arasından bütün silk və təbəqələrin qaynar sədaqətini və dönməz inamını əlahəzrət imperatora bildirən uca qışqırtılar eşidilirdi".

– Urra! – Diderix qışqırdı, hamı ona qoşuldu və qışqıran adamların güclü axını birdən-birə onu düz Brandenburq darvazasının qabağına gətirdi. İki addım ondan aralıda qeysər at belində gedirdi. Diderix onun sifətini, həmin sifətdəki daşlaşmış ciddiliyi və gözündəki parıltını yaxından görə bildi; amma bütün bunların hamısı birdən-birə toranlaşdı, çünki o bərkdən çığırırdı. Pivənin yaratdığından qat-qat yüksəkdə duran əvəzsiz bir sərməstlik onu ayaqlarının ucuna qaldırıb pərvazlandırdı. İnsanların başı üstündən məftunlu bir coşqu ilə o, əlindəki şlyapanı ali duyğularımızın cövlan etdiyi havada yellətdi. Orada, Zəfər tağının altında isə ətrafındakı dəstələrin müşayiətində at belində iqtidarın özü gedirdi, donuq sifəti və qığılcım saçan baxışı ilə. Elə bir iqtidar ki, var gücünü üstümüzə tökür və biz onun atının nalını öpürük! Aclığa, müqavimətə və kinayəyə hakim kəsi-

lən bir iqtidar! Hamımız onu sevdiyimizə görə ona qarşı heç nə edə bilmədiyimiz bir iqtidar! İtaət qanımıza işlədiyindən canımıza hopmuş bir iqtidar! Biz onun bir atomu, tüpürcəyinin yoxa çıxan molekuluyuq! Hər birimiz ayrılıqda bir heç olaraq yeni tevtonçuluq, hərbçilik, məmurluq, kilsə və elm, iqtisadi qurumlar və möhtəşəm birliklər adı altında piramida kimi tam yüksəkliyə, iqtidarın məqamına, onun daşlaşıb bərqləşərək oturduğu yerə qədər ucalırıq! Onunla çulğalaşıb birgə yaşamaq, onun bir parçasına çevrilib öz payını vermək, ondan uzaq duranlara qarşı amansızlıq göstərmək və sevincdən yerə-göyə sığmamaq, lap bizi qarışqa kimi əzsə də, çünki bununla o, sevgimizə haqq qazandırır.

...Zənciri ilə darvazanı qoruyan mühafizəçilərdən biri Diderixin döşündən elə itələdi ki, oğlanın nəfəsi durdu; lakin zəfər sərməstliyi onun gözlərinə elə dolmuşdu ki, elə bil, mütilikIə öz aclıqlarını udan bu fəqir kütlənin başı üstündən at çapan onun özü idi. Onun ardınca! Qeysərin ardınca! Hamı Diderixin düşündüyünü düşünürdü. Mühafizəçinin cılız zənciri bu qədər duyğunun qarşısında duruş gətirə bilmədi; onu aşıb keçdilər. O tərəfdə biri də vardı. Onun yanından ötüb heyvanat bağına burulmalı, özlərinə bir kılıf axtarmalı oldular. Bu kılıfı az adam tapa bildi; Diderix hamıdan aralanıb özünü süvarilər yoluna, düz qeysərin qarşısına atdı, qeysər də tək idi. Fanatizmin qorxunc vəziyyətinə düşmüş bir insan, çir-çirkab içində, üst-başı cırıq-cırıq, vəhşi gözləri ilə; qeysər atın belindən onu süzdü, baxışları onu dəlib keçdi. Diderix şlyapasını başından çıxartdı, ağzı açıla qaldı, lakin qışqırtı çıxmadı. Qəfildən ayaq saxladığına görə var gücü ilə gölməçəyə aşırıldı, ayaqları göydə qaldı, çirkli su üst-başına dağıldı. Bu vaxt qeysər güldü. Qarşısındakı adam monarxist, sadiq təbəə idi! Qeysər üzünü əshabələrinə tutub buduna döyəclədi və ürəkdən güldü. Ağzı hələ də açıla qalmış Diderix yıxıldığı gölməçədən ona baxırdı.

## İKİNCİ FƏSİL

Üst-başını birtəhər təmizləyib geri döndü. Oturacaqların birində bir qadın əyləşmişdi; Diderix sıxıla-sıxıla onun yanından ötüb-keçdi. Amma qadın yenə də gözünü ondan çəkmədi. “Gic qızı gic”, – beynindən keçirdi və bu vaxt

gördü ki, qadının üzündə dəhşətli bir ifadə var, birdən o, Aqnes Qöppeli tanıdı.

– İndicə qeysərlə üz-üzə gəldim, – tələsik dilləndi.

– Qeysərlə? – qız soruşdu, sanki səsi ayrı bir dünyadan gəlirdi.

Diderix özünə xas olmayan bir tərzdə əl-qolunu ölçərək onu boğan sözləri çözələyib-tökməyə başladı. Bizim cavan və gözəl qeysərimiz ağılları başdan çıxmış qiyamçıların arasında! Onlar hansısa kafeni darmadağın ediblər, Diderix özü də həmin kafenin içində olub! Unter-den-Linden küçəsində öz qeysəri uğrunda qanlı döyüşlərə sinə gərib! Əlacı olsaydı, o qiyamçıları topa tutardı!

– İnsanlar acından ölür, – Aqnes qorxa-qorxa dilləndi. – Axı onlar da insandır.

– İnsan? – Diderixin gözü kəlləsinə çıxdı. – Daxili düşmənlərdir hamısı! – Aqnesi yenidən qorxutduğunu görüb azca sakitləşdi. – Bu tör-töküntüyə görə bütün küçələrin bağlanması, deyəsən, xoşunuza gəlir.

Yox, Aqnesin bundan xoşu gəlmir. O, şəhərdə alış-veriş edib, geriyə – Blüxer küçəsinə qayıtmaq istəyəndə avtobuslar işləməyib, heç yerdən də keçib getmək mümkün olmayıb. Onu sıxışdırıb buraya qədər gətiriblər. Hava soyuq və nəmlidir, atası qorxa bilər; nə etsin axı? Diderix hər şeyi yoluna qoymağa söz verdi. Onlar yollarına davam etdilər. Birdən-birə Diderixin deməyə sözü tükəndi, o, başını yana çevirdi, sanki, yolu axtarırdı. Çılpaq ağacların arasında və yaş, köhnə yarpaqların üstündə yalqız idilər. Keçmişin ən yüksək kişi duyğuları harada qalmışdı? Diderix Aqneslə bərabər sonuncu gəzintidə hiss etdiyi pərtliyi indi də duydu, o vaxt Malman onu hədələmiş, Diderix də avtobusa sıçrayıb gözdən itmişdi. O bu düşüncələr içində olanda Aqnes dilləndi:

– Çoxdandır, lap çoxdandır biz tərəflərdə görünmürsünüz. Atam sizə yazmışdı axı! – Diderix dedi ki, atası ölüb. Aqnes əvvəlcə ona başsağlığı verdi, sonra da soruşmağına davam etdi: niyə Diderix o vaxtdan, üç il bundan qabaq birdən-birə yoxa çıxdı. – Elə deyil? Az qala, üç il olar.

Diderixə əminlik gəldi. Bildirdi ki, korporasiya həyatı onun vaxtını büsbütün alıb, burada dəhşətli dərəcədə ciddi bir intizam var.

– Bir də ki mən öz hərbi vəzifəmi yerinə yetirmişəm.

– Ooo, – Aqnes diqqətlə ona baxdı, – siz nələrə çatmamısınız? Yəqin, indi həm də doktorsunuz?!

– O da olacaq.

Diderix küskün-küskün qabağa baxdı. Üzündəki çapıqlar, boy-buxunu, ağıllı-başlı kişiləşməsi, bunların hamısı Aqnes üçün deyildimi? Bəyəm bunları görmürdümü?

– Amma siz, – Diderix ağır-ağır dilləndi. Aqnesin solğun, uzunsov sifətinə nazik bir qızartı çökdü, qızartı düz burnunun üstündəki çillərə qədər yayıldı.

– Elədir. Hərdən halım yaxşı olmur, amma hər şey düzələr.

Diderix peşmanladı.

– Demək istəyirdim ki, gözəlləşmisiniz, – deyib qızın şlyapanın altından çıxan, sifəti balacalaşdığına görə əvvəlkilərə nisbətən qalın görünən kürən saçlarını gözdən keçirdi. Bu vaxt onun həmin dövrdə alçaldılmaları yadına düşdü və indiki durumu xəyalından keçdi.

– Cənab Malmanın kefi necədir?

Aqnesin sifətində ikrahlı bir ifadə göründü.

– Hələ də onun haqqında düşünürsünüz? Bir də onu görsəm, heç tüküm də tərpənməz.

– Hə? Onun indi patent bürosu var, gözəlcə də ailə qura bilərdi.

– Nə olsun ki.

– Əvvəllər axı onunla maraqlanırdınız.

– Bunu haradan götürdünüz?

– Həmişə sizə nəsə bağışlayardı.

– Kaş heç götürməmiş olaydım; onda gərək... – yola, keçən ildən qalma yaş yarpaqlara baxdı, – onda gərək sənin də hədiyyələrini götürməyəydim.

Bundan sonra o, qorxu içində susdu. Diderix hiss etdi ki, nəsə ağır bir hadisə baş verib, o da susdu.

– Bu barədə heç danışmağa da dəyməz, – axır ki, sinəsindən qopan sözləri dedi, – bir-iki gül. – Və təzələşən bir həyəcanla: – Malman sizə hətta bilərzik də bağışlamışdı.

– Mən onu heç vaxt taxmamışam, – Aqnes dilləndi.

– Diderixin birdən-birə ürəyi döyündü və o, düşündüyünü ağzından qaçırdı:

– Birdən onu mən vermiş olsaydım?!

Sakitlik; Diderixin nəfəsi kəsilir. Aqnesin dediyi söz çox astadan səslənir.

– Onda hə.

Bundan sonra onlar birdən-birə addımlarını yeyinlətdilər və daha kəlmə də kəsmədilər. Brandenburq darvazasının qabağına çatdılar, Linden küçəsini polislərlə dolu gördülər, oradan keçib Dorotee küçəsinə buruldular. Burada adam nisbətən az idi, Diderix addımlarını yavaşıtdı, gülməyə başladı.

– Əslində, çox məzəlidir. Malman sizə bağışladığını mənim pulumla almışdı. Körpə bir uşaq kimi əlimdə olan hər şeyi dartıb almışdı.

Ayaq saxladılar.

– Oool.. – Aqnes diqqətlə ona baxdı, qızın qumral gözləri titrədi – Dəhşətdir. Məni bağışlaya bilərsinizmi?

Diderix utanıb gülümsədi. Dedi ki, bunlar köhnə məsələdir, gənclik ağılsızlığıdır.

– Yox, yox, – Aqnes şaşqın-şaşqın təkrarladı.

Diderix bildirdi ki, əsas məsələ Aqnesin evə necə gedib çıxmasıdır. Buradan yenə də tərpənmək mümkün olmurdu. Heç avtobus da gözə dəymirdi.

– Nə etmək olar, yəqin, bir xeyli mənə qonaq olmalı olacaqsınız. Əslində, mən burada yaşayıram. Mənim mənzilimə qalxa bilərik, heç olmasa, üstünüz quru qalardı. Amma təbii ki, gənc xanım belə şeyə yol verməz.

Aqnesin gözlərindəki yalvarış hələ çəkilməmişdi.

– Nə gözəl insansınız, – Aqnes yeyin-yeyin nəfəs alaraq dilləndi. – Çox nəcibsiniz. – Onlar evə daxil olanda isə: – Sizə inam bəsləyə bilərəm, hə? – dedi.

– Korporasiyanın şərəfini necə qorumağın yolunu gözəl bilirəm, – Diderix cavab verdi. – Mətbəxdən keçib-getdilər, ancaq orada heç kim yox idi. – Hələlik üst paltarınızı çıxarıb asın, – Diderix mərhəmətlə dilləndi. Aqnesə baxmadan dayanmışdı burada və qız şlyapasını başından götürəndə Diderix bir ayağını qoyub, o birini qaldırırdı. – Sahibəni axtarım, çay hazırlasın. – Təzəcə qapıya yönəlmişdi ki, diksinib geri döndü: Aqnes onun əlindən tutub öpürdü! – Axı froylayn Aqnes, – dəhşətli dərəcədə qorxaraq mızıldandı və təsəlli verirmiş kimi qolunu qızın kürəyinə qoydu; bu vaxt qız onun sinəsinə sıxıldı. Diderix ağzını onun saçlarına sıxdı, xeyli bərk, çünki özünü buna borclu saydı. Onun əlləri altında qızın bədəni titrəyib uçunmağa başladı, sanki, onu döyürdülər. Nazik koftanın içindəki bədən, sanki, nəmiş-

lənib isindi. Diderixin gövdəsinə isitmə gəldi, o, Aqnesin boynundan öpdü. Qəfildən qızın sifəti ona doğru çevrildi: açılmış ağızla, yarıqapalı gözlərlə və üzündən Diderixin indiyə qədər görmədiyi və onun başını gicəlləndirən bir ifadə ilə. – Aqnes! Aqnes, səni sevirəm, – sanki, o, dərin bir uçurumun içindən dilləndi. Qız cavab vermədi, onun açılmış ağzından asta-asta isti hənirlər gəlirdi və o, qızın yıxıldığını hiss edib onu qolları arasına aldı.

Aqnes divanda oturub ağladı.

– Mənə acığın tutmasın, Aqnes, – Diderix xahiş etdi. Aqnes nəmli gözləri ilə ona baxdı.

– Sevincimdən ağlayıram, – dedi. – Səni o qədər gözləmişəm ki. – Oğlan onun koftasını düyməiəmək istəyəndə soruşdu. – Niyə? Niyə düyməiəyirsən? Səncə, belə gözəl deyil?

Hər ehtimala qarşı Diderix bunu da dedi:

– Hansı öhdəliyi üzərimə götürdüyümü gözəl bilirəm.

– Öhdəlik? – Aqnes dedi. – O öhdəliyl kim qoyub? Düz üç il sənin həsrətini çəkmişəm. Sənin bundan xəbərin olmayıb. Qismətim beləymiş!

Əlini cibinə qoymuş Diderix fikirləşdi ki, bu, ağıldan yüngül qızların qismətidir. Digər tərəfdən də Aqnesin dediklərini təkrarlamağa bir ehtiyac duydu.

– Deməli, məni, doğrudan da, yalnız məni sevmisən?

– Görürdüm ki mənə inanmırsan. Başa düşəndə ki daha gəlməyəcəksən, daha hər şey bitdi, məni dəhşət bürüdü. Doğrudan da, dəhşətli idi. Sənə məktub yazmaq, yanına getmək istəyirdim. Amma hər dəfə cəsarətim çatmırdı, çünki sən məni istəmirdin. O hala düşdüm ki, atam mənimlə səyahətə çıxası oldu.

– Haraya? – Diderix soruşdu. Ancaq Aqnes cavab vermədi, təzədən onu özünə doğru çəkdi.

– Mənə rəhmin gəlsin! Səndən başqa heç kimim yoxdur!

Çaşıb-qalmış Diderix fikirləşdi: "Deməli, onda sənin heç nəyin yoxdur". Aqnesin onu sevdiyinə əmin olandan sonra qız ona cılızlaşmış və dəyərini itirmiş kimi göründü. Özlüyündə onu da kəsdirdi ki, belə şeyləri deyən qıza tam inanmaq olmaz.

– Bəs Malman? – kinayə ilə soruşdu. – Deyəsən, onunla bir balaca işiniz olmuşdu axı. – Qız donub dəhşət içində

dikəlmək istəyəndə isə əlavə etdi: – Yaxşı, burax görək. – Özünə haqq qazandırmaq istədi. Xoşbəxtlikdən, o da özünü itirmişdi. Aqnes ağır-ağır geyinməyə başladı.

– Nə baş verdiyindən atanın xəbəri olmayacaq, – Diderix dedi. Aqnes yalnız çiyinlərini çəkdi. Tam hazır olanda və Diderix qapını açanda Aqnes bir daha ayaq saxlayıb uzun-uzadı, qorxulu baxışla otağa nəzər saldı.

– Bəlkə, – sanki, öz-özü ilə danışırdı, – bir də heç vaxt gəlməyəcəyəm. Məncə, bu gecəni salamat çıxmayacağam.

– Necə bəyəm? – həddən artıq həyəcanlanmış Diderix dilləndi. Cavab vermək əvəzinə qız bir daha dodağını onun dodağına, sinəsini sinəsinə söykəyib ona sığındı, sanki, onlar əndamdan dırnaqlarının ucuna qədər bir bədən idilər. Diderix səbirlə gözlədi. Sonra ondan aralanıb gözlərini açdı və dedi:

– Fikirləşmə ki, səndən nəsə istəyirəm. Səni sevmişdim, indi isə nə olacaq olsun.

Diderix ona miniklə getməyi təklif etdi, ancaq Aqnes piyada getmək istədi. Yolda Diderix onun ailəsi və digər tanışlar barədə soruşdu. Yalnız Belle Alians meydanında narahatlıq keçirdi və bir az boğuq səslə dedi:

– Təbii ki, sənə görə tutduğum mövqedən geri çəkilmək niyyətində deyiləm. Yalnız hələlik: özün başa düşürsən, indilikdə heç nə qazanmıram, əvvəlcə gərək işimi başa çatdırıb evdə idarənin işlərinə alışam...

Aqnes minnətdarlıqla və tələsmədən cavab verdi, sanki ona kompliment demişdilər:

– Gələcəkdə haçansa sənə arvad ola bilsəm, gözəl olardı.

Blüxer küçəsinə burulanda ayaq saxladılar. Diderix çəkinə-çəkinə dedi ki, indi geri qayıtsa, daha yaxşı olar. Aqnes də cavabında dedi:

– Ona görə ki, kimsə bizi görə bilər? Görsələr də, xeyri olmaz, çünki səninlə rastlaşdığımı onsuz da evdə deyəcəyəm və küçələr təzədən boşalana qədər kafedə oturub gözləməyimizi də heç kimdən gizlətməyəcəyəm. – “Həə, yalan danışmağı da bacarır”, – Diderixin fikrindən keçdi. Aqnes isə əlavə etdi: – Bazar günü günorta yeməyinə dəvətlisən. Gərək mütləq gələsən.

Diderix buna dözə bilmədi, coşdu:

– Mütləq gəlim?! Mütləq sizə qonaq gəlim?!

Aqnes mülayim və hiyləgərcəsinə gülümsədi:

– Başqa yol da var?! Bizi bir yerdə görsələr... İstəmirsən ki, mən bir də gəlim?..

Yox, yox, bunu istəyirdi. Buna baxmayaraq, gələcəyinə söz verənə qədər Aqnes onu dilə tutmalı oldu. Qızın evinin qarşısında rəsmi təzimlə sağollaşdı, arxaya çönəndə fikrindən keçdi: "Qorxunc dərəcədə hiyləgər qadın. Onunla mənimki çox çəkməz". Bu arada, həvəssiz də olsa, yadına düşdü ki, meyxanaya gedən vaxtıdır. Nəsə onu evə çəkirdi, niyəsini özü də bilmirdi. Otağının qapısını arxasınca çəkib örtəndən sonra bir xeyli dayanıb qaranlığa baxdı. Birdənbirə qollarını yuxarıya doğru açıb üzünü göyə tutdu və dərindən nəfəs alandan sonra dedi:

– Aqnes!

Özünü yerdən uçub qalxmış kimi yüngül, başqa bir aləmdə hiss etdi. "Dəhşətli dərəcədə xoşbəxtəm. Bütün həyatım heç vaxt bu cür gözəl ola bilməzl" – fikirləşdi. Onda belə bir əminlik yarandı ki, indiyə, bu ana qədər hər şeyə yanlış baxıb, hər şeyi yanlış dəyərləndirib. Hamıdan aralı düşüb orada – pivə məclisində əylənərək özlərini mataha mindirirdilər. Yəhudilər, yaxud işsizlər, onların bunlara nə dəxli vardı, niyə onlara nifrət etməliydilər? Onları sevməyə Diderix özünü hazır bildi! Məgər bütün gününü o, düşmən saydığı adamların qaynaşmasında keçirməmişdimi? Onlar da insan idi: Aqnes düz deyirdi! Bir-iki kəlmədən ötrü kimisə əzişdirən, sonra da lovğalanan, yalan danışan, özünü dəlicəsinə şil-küt edib axırda üst-başını cıraraq at üstündə gedən cənabın, onu ələ salan imperatorun gözləri önündə özünü palçığa atan Diderix deyildimi? Anladı ki, Aqnes gələnə qədər o, imdadsız, mənasız, miskin bir ömür sürmüşdür. Yad insanın cəhdlərinə bənzər cəhdləri, ona ar gətirən duyğular və sevmədiyi kəslər – bütün bunlar Aqnesin gəlişinə qədər! "Aqnes! Şirin Aqnes; səni necə sevdiyimi bilmirsən!" Amma gərək bilsin. Hiss etdi ki, bunları indi dediyi kimi heç vaxt dilinə gətirə bilməyəcək və oturub bir məktub yazdı. Yazdı ki, üç il dalbadal həmişə onun yolunu gözləyib və ümidini yerli-dibli itirib, çünki Aqnes onun üçün çox gözəl, çox nəcib, çox qəşəng olub; yalnız Malmanın qorxusundan və özünün hövcətliyindən güzəştə gedib; Aqnes onun üçün müqəddəs bir varlıqdır, indi Diderixin yanına endiyindən o bu müqəddəsin ayağına döşənir.

– Qaldır məni, Aqnes, mən güclü ola bilərəm, bunu özüm də hiss edirəm və ömrümü sənə bağışlamaq istəyirəm!

Ağlayırdı, üzünü divanın yastığına söykəmişdi, buradan o, Aqnesin iyini ala-ala, hıçqıra-hıçqıra körpə uşaq kimi yuxuya getdi.

Ertəsi gün tezdən yuxudan oyanarkən özünü çarpayısında görməyəndə çaşıb-qaldı. Dünənki o böyük olay yadına düşdü, qanının şirin bir təkanla ürəyinə axdığını hiss etdi. Onu belə bir şübhə də haqladı ki, həddi xeyli aşıb, hisslərini cilovlaya bilməyib. Dünən yazdığı məktubu təzədən oxudu: hər şey gözəl idi, bu cür gözəl qızla haçansa münasibət qursa, o, istənilən adamı haldan çıxara bilərdi. Aqnes indi burada olsaydı, onunla çox incə davranardı! Lakin məktubu göndərməyə dəyməzdi. Hər bir münasibətdə bu, ehtiyatsızlıq olardı. Məktub ata Qöppelin əlinə keçə bilərdi... Diderix məktubu yazı masasının gözünə qoyub bağladı. “Dünən yemək heç yadıma da düşməyib!” Özünə miyanə bir səhər yeməyi gətirtdi. “Aqnesin iyi çəkilməsin deyə siqaret çəkmək də istəmirəm. Axmaqlıqdır. Belə eləmək olmaz”. Siqaret yandırıb laboratoriyaya getdi. Qəlbində olanları söz əvəzinə, çünki bu cür yüksək sözlər ona xas deyildi, musiqiyə köçürməyi qərara aldı. Kirayəyə bir pianino götürdü və pianino dərslərindən fərqli olaraq bəxtini Şubert və Bethovenlə sınamağa çalışdı.

Bazar günü Qöppelsgilin zəngini çalanda qapını Aqnesin özü açdı.

– Qız mətbəxdən çətin qopar, – Aqnes dilləndi; lakin əsl səbəbi onun gözləri söyləyirdi.

Şaşqınlıqdan Diderix gözlərini gümüş bilərziyə zilləmişdi, Aqnes onu cingildədərək, sanki, görünməsini istəyirdi.

– Tanışdır? – pıçıldadı. Diderix qızardı.

– Malmanın bağışladığıdır?

– Sənin! İlk dəfədir taxıram.

Görünməmiş bir hərarətlə Aqnes onun əlini sıxdı, sonra qapı Berlin otağına açıldı. Cənab Qöppel üzünü onlara çevirdi.

– Hə, deyəsən, qaçağımızdır. – Lakin Diderixin üzünə baxan kimi kişinin sir-sifəti dəyişdi, bu cür yaxın rəftara peşman oldu. – Allah şahiddir ki, sizi tanıya bilmədim, cənab Heslinq!

Diderix Aqnesə baxdı, sanki, ona demək istəyirdi: "Görürsən? Kişi hiss edir ki, daha mən əvvəlki gicgici oğlan deyiləm".

– Sizdə isə heç nə dəyişməyib, – deyib Diderix Qöppelin bacılarını və yeznəsini salamladı. Əslində isə onların hamısını, xüsusilə də gümrahlığını xeyli itirmiş və yanaqlarından qayğı dolu ət sallanan cənab Qöppelin nəzərəçarpacaq dərəcədə qocaldığını hiss etdi. Uşaqlar böyümüşdülər və otaqda kimsə çatmırdı.

– Hə, hə, – giriş söhbətini cənab Qöppel belə başladı, – vaxt ötüb gedir, yaxşı dostlar isə təzədən tapışır.

"Əgər bilsəydin ki, necə", – Diderix pərt və ikrahla düşündü, bu arada masaya yan aldılar. Dana ətinin qızartması süfrəyə veriləndə keçən dəfə qənşərində kimin oturduğu yadına düşdü. Bu, onun hansı ixtisası öyrənməsini təkidlə soruşan və kimyanın fizikadan fərqini bilməyən bibi idi. Diderixin sağında əyləşmiş Aqnes başa saldı ki, həmin bibi iki il qabaq dünyasını dəyişib. Diderix başsağlığını dodağının altında mızıldayıb ürəyində öz-özünə dedi: "deməli, daha zəvzəkləməyəcək". Ona elə gəldi ki, buradakıların hamısı cəzalanıb alçaldılmışdır, təkcə tale onu özünün dəyəri müqabilində ucaltmışdır. O, Aqnesi sahibkar baxışı ilə üstdən-aşağı süzdü. Şirniyyat süfrəsi özünü bir az gözlətdi, elə ovaxtkı kimi. Aqnes narahatlıqla başını qapıya doğru çevirdi, Diderix onun qumral gözlərində bir tutqunuq gördü, sanki, nəsə ciddi bir şey baş vermişdi. Qəfildən onda Aqnesə qarşı bir yanımcıllıq, böyük bir nəciblik baş qaldırdı, ayağa qalxıb qapıdan çağırdı:

– Mari! Krem!

Geri masaya qayıdanda cənab Qöppel onun sağlığına içdi.

– O vaxt da belə eləmişdiniz. Burada bu evin bir övladısınız. Elədir, Aqnes?

Aqnes Diderixə nəzər saldı, qızın baxışı onun ürəyinə işlədi. Gözləri yaşarmasın deyə özünü topladı. Qohumlar ona necə səmimiyyətlə gülümsəyirdilər. Yeznə badəsini onun badəsinə vurdu. Necə gözəl insanlardır! Aqnes, şirinşəkər Aqnes onu sevirdi. O bu qədər iltifata layiq deyildi! Vicdanı onu narahat edirdi, qərara aldı ki, axırda cənab Qöppellə söhbət eləsin.

Təəssüf ki, yeməkdən sonra Qöppel yenidən narazılıqlardan söz saldı. Axır ki, Bismarkın əsgər çəkmələrinin altın-

dan qurtarmışdısa, indi qızışdırıcı nitqlərlə fəhlələri cırnatmağın nə mənası; bu cavan oğlan (cənab Qöppel imperatoru belə adlandırırdı!) öz çıxışları ilə inqilabı boğazımıza bağlayacaq... Özlərinin əzəmətli cavan imperatorlarına möhkəm və sədaqətlə bağlı olan gəncliyin adından Diderix bu cür qərəzli çıxışları kəskin şəkildə dəf etməyi özünün borcu saydı. Əlahəzrətlərin özləri deyib: "Mənə dəstək olmaq istəyənlər xoş buyururlar. Mənə qarşı çıxanları qarışqa kimi əzərəm". Bu vaxt Diderixin gözlərindən qığılcım yağdı. Cənab Qöppel dedi ki, o bunu gözləyir.

– Bu ağır zəmanədə, – Diderix əlavə etdi, – hərə özünü sübut etməlidir. – Və ona məftun olmuş Aqnesin qarşısında qürurlu bir görkəm aldı.

– Necə yəni ağır zəmanədə? – cənab Qöppel cavab verdi. – Zəmanə o vaxt ağır olur ki, biz bir-birimizin həyatını zəhərə çeviririk. Mən fəhlələrimlə həmişə dil tapmışam.

Diderix bildirdi ki, geri dönərkən öz müəssisəsində tamam ayrı bir düzən yaratmaq qərarına gəlib. Sosial-demokratlardan canını qurtaracaq və camaat bazar günləri kilsəyə gedəcək!

– Belə de! – cənab Qöppel dilləndi. – Bunu mən öz adamlarımdan tələb edə bilmərəm. Bayram cüməsində özüm kilsəyə getsəm də. Neyləyim, onların başını aldadım? Xristianlıq gözəldir; amma keşişin dediklərinə daha inanan yoxdur.

Diderixin üz-gözündə qaliblik işartısı göründü.

– Əzizim cənab Qöppel, sizə bircə şeyi deyim: yuxarıdakı cənablar, öncə də mənim möhtərəm dostum asessor fon Barnim nəyə inanırlarsa, mən də tərəddüdsüz-filansız ona inanıram. Sizə bunu deyə bilərəm.

Məmur yeznə birdən-birə Diderixin tərəfinə keçdi. Cənab Qöppel qıpqırmızı qızardı, Aqnes gətirdiyi qəhvə ilə söhbətin arasına girdi.

– Hə, siqarlarım xoşunuza gəlir? – cənab Qöppel Diderixin dizinə vurdu. – Görürsünüzmü, insani məsələdə fikir ayrılığı yoxdur.

Diderixin fikrindən keçdi: "Mən, necə deyərlər, ailənin bir üzvü olduğuma görə".

Öz kəskin mövqeyindən bir az çəkildi və söhbət mülayim axına düşdü. Cənab Qöppel bilmək istədi ki, Diderix işini haçan "bitirib" doktor olacaq, görünür, başa düşmürdü

ki, kimya sahəsində elmi iş yazmaq iki il, bəzən də daha çox çəkir. Diderix heç kimin başa düşmədiyi məfhumlarla son nəticələrin çətinlikləri barədə geninə-boluna danışdı. Onda belə bir hiss baş qaldırdı ki, cənab Qöppel onun müdafiəsini müəyyən bir məqsədlə gözləyir. Deyəsən, bunu Aqnes də hiss eləmişdi, çünki söhbətə qarışıb onu dəyişdi. Diderix sağollaşanda Aqnes onunla bayıra çıxıb qulağına pıçıldadı:

– Sabah saat üçdə sizdə.

Qəfil sevincdən Diderix onu qucaqlayıb öpdü, düz qapının arasında, qulluqçu qız qab-qacaqla onların yanından ötüb-keçərkən. Aqnes qəmli-qəmli soruşdu:

– Kimsə gəlib görsə, mənə nə olacağı barədə heç düşünmürsən?

Diderix pərt olub bağışlanmasının nişanəsi kimi bir öpüş də istədi. Aqnes razılıq verdi.

Saat üçdə Diderix, adətən, kafedən laboratoriyaya dönərdi. Bunun əvəzində o, təzədən saat ikidə öz otağında oldu. Aqnes üçə qalmış gəldi.

– Bunu heç birimiz gözləyə bilməzdik! Bir-birimizi necə də sevirik!

İlk görüşə nisbətən bu dəfə gözəl keçdi, çox gözəl. Nə göz yaşları, nə də qorxu; günəş də içəriyə işıq saçırdı. Diderix Aqnesin saçlarını günəşə sərib üzünü orada çimizdirirdi.

Evdə bəhanə kimi söylədiyi alış-veriş məsələsi üçün vaxt ötənə qədər Aqnes burada qaldı. Gərək indi tələsəydi. Onunla yanaşı yeriyən Diderixi qayğı götürmüşdü ki, bu iti yeriş qıza ziyan eləyə bilər. Lakin Aqnes gülürdü, yanaqları qızarmışdı və Diderixə "mənim ayım" deyirdi. Aqnesin onun yanına gəldiyi günlər həmişə bu cür sona yetirdi. Onlar xoşbəxt olurdular. Cənab Qöppel hiss edirdi ki, Aqnesin kefi qabaqkına nisbətən xeyli yaxşılaşır və bu onun özünü cavanlaşdırırdı. Bu üzdən də bazar günləri hər dəfə bir-birindən şən keçirdi. Şənlik axşama qədər çəkirdi, sonra punş düzəldirdilər. Diderix Şubertdən musiqi çalırdı, yaxud yeznə ilə birlikdə uşaqlıq mahnıları oxuyurdu, Aqnes də onları müşayiət edirdi. Hərdən onlar bir-birinə baxırdı və kefləri elə durulurdu ki, elə bil, onların xoşbəxtliyini bayram edirdilər.

Hərdən elə olurdu ki, laboratoriyadakı xidmətçi Diderixə yaxınlaşıb küçədə onu bir qadının gözlədiyini deyirdi.

Diderix həmin an həmkarlarının anlaşıqlı baxışları altında qürur duyğusundan qızararaq yerindən dururdu. Sonra hər ikisi gəzməyə çıxırdı, kafeyə, panoptikuma gedərdilər; Aqnes şəkillərlə maraqlandığından Diderix də incəsənət sərgilərinin mövcudluğundan xəbər tutdu. Aqnes xoşu gəldiyi şəklin, gözəl məmləkətlərin zərif mənzərələrinin qarşısında gözlərini yarı yumub Diderixlə xəyallarını bölüşərək uzun-uzadı dayanmağı xoşlayardı.

– Sağa baxsan, görərsən: o, çərçivə deyil, qızıl pilləli darvazadır, biz ora ilə aşağı düşüb yolumuza davam edərik və yemişan kolunu qatlayıb qayığa minərik. Onun necə yırğalandığını görürsən? Bu ondan irəli gəlir ki, əllərimizi suyun içinə salmışıq, su necə də istidir. Orada dağın başında, o ağ nöqtə, sən də bilirsən, ora bizim evimizdir, gedək oraya. Görürsən, görürsən?

– Hə, hə, – Diderix çılğınlıqla dilləndi. Gözlərini qıyıb Aqnesin göstərmək istədiyi hər şeyi gördü. Hərdən elə alışıb-yanırdı ki, odunu soyutmaq üçün Aqnesin əlindən tuturdu. Sonra küncün birinə çəkilib edəcəkləri səyahətlərdə, günəşli məmləkətlərdəki qayğısız xoşbəxtliklərindən, sonu olmayan sevgilərindən danışırdılar. Diderix öz dediklərinə inanırdı. Əslində, bilirdi ki, onun qisməti işləmək və romantikadan çox-çox uzaq bir ömür sürməkdir. Lakin onun burada dedikləri bildiklərinin müqabilində daha yüksək həqiqətə dəlalət edirdi. Saxtalıqdan uzaq kişi Diderix düzünü danışırdı. Lakin onlar ayağa durub yollarına davam edəndə Aqnesin rəngi qaçdı, o, yorğun göründü. Diderixi məftun edən qumral gözləri qığılcım saçırdı və Aqnes səsi titrəyə-titrəyə astadan dilləndi:

– Birdən qayığımız aşmış olsaydı?

– Onda səni xilas edərdim! – Diderix qətiyyətlə cavab verdi.

– Amma sahil çox uzaqdır, su da dəhşətli dərəcədə dərindir. – Diderix söz tapmadığına görə: – Boğulub ölərdik. De görüm, mənimlə ölərdinmi?

Diderix diqqətlə ona baxdı; sonra gözlərini yumub köksünü ötürərək dedi:

– Hə.

Bir az keçəndən sonra bu söhbətin peşmançılığını çəkdi. Aqnesin birdən-birə niyə droşkaya minib evə getməli olduğunu, yəqin ki, hiss eləmişdi. Əsməcəli qızartı düz qızın

alnına qədər qalxmışdı və onun öskürməyini gərək Diderix görməyəydi. Diderix bütün ilkindini məyus keçirdi. Belə şeylər yaxşı deyildi, yaxşılığa da aparmırdı və narahatlıq yaradırdı. Onun professoru qadının Diderixin yanına gəlmələrindən xəbər tutmuşdu. Hər dəfə kefi duranda Aqnesin onu işdən ayırması çox çəkə bilməzdi. Diderix onu ehtiyatla başa saldı.

– Əlbəttə, sən haqlısan, – qız cavabında dedi. – İşgüzar adamların bütün saatları hesablanır. Mən altının yarısında sənin yanına gəlməliyəmsə, necə olsun, axı mən səni ən çox dörddə istəməyə başlayıram?

Diderix bu deyimdə bir kinayə, bəlkə, hətta ikrah hiss etdi və qabalaşdı. Karyerasına mane olmaq istəyən sevgili, ümumiyyətlə, ona lazım deyil. İşin belə olacağını təsəvvür etməmişdi. Bu vaxt Aqnes üzr istədi. Dedi ki, özünü yaxşı aparıb Diderixin otağında onu gözləyəcək. Diderixin işi olsa, Aqnesə fikir verməsin. Bu, Diderixi utandırdı, o, yumşalıb Aqneslə birlikdə dünyadan gileyləndi, o dünyadan ki, orada sevgidən başqa ayrı şeylər də vardı.

– Başqa cür ola bilməz bəyəm? – Aqnes soruşdu. – Sənin bir az pulun var, mənim də varımdır. Karyera qurub niyə özünü üzürsən? Elə belə də bizim üçün yaxşı deyilmi?! – Diderix onunla razılaşdı, lakin sonra ürəyində bunu ona irad tutdu. Aqnesi gözlətdi, bir az da qəsdlə. Hətta siyasi yığıncaqlara gedişini də özünün bir vəzifəsi kimi izah etdi ki, bu vəzifə də onun üçün Aqneslə görüşlərdən daha vacib idi. May ayında bir axşam evə gec dönəndə o, qapının ağzında "təzələrin" mundirində çəkinə-çəkinə ona baxan cavan bir oğlanı gördü.

– Cənab Diderix Heslinq?

– Hə də, – Diderix mızıldandı, – siz... sən... siz cənab Volfqanq Buk deyilsiniz ki?

Netsiqin nəhəng kişisinin sonbeşiyi, axır ki, atasının əmrinə qulaq asıb Diderixi yoluxmağa qərar vermişdi. Diderix onu yuxarı, mənzilə qaldırdı, ondan yaxa qurtarmaq üçün bu tezliklə bəhanə tapa bilmədi, Aqnes də içəridə oturmuşdu! Dəhlizdə bərkdən danışdı ki, Aqnes eşidib gizlənsin. Qorxa-qorxa qapını açdı. Otaqda heç kəs yox idi; Aqnesin şlyapası çarpayının üstündə deyildi; lakin Diderix dəqiq bilirdi: o, indicə burada olmuşdu. Bunu o, yerində olmayan kətildən görürdü, Aqnesin paltarının xışıltısından

asta-asta tərpənən havada hiss edirdi. Qız onun əl-üzyuyanının yerləşdiyi pəncərəsiz balaca otaqda olmalıydı. Kürsülərdən birini həmin otağın qabağına çəkib pərtliyindən narazı-narazı evi yığışdırmamış sahibənin dalınca donquldanmağa başladı. Volfqanq Buk dedi ki, vaxtsız gəlib.

– Yox, yox! – Diderix əminliklə dilləndi. Qonağına oturmaq təklif edib konyak gətirdi. Buk namünasib vaxta görə üzr istədi; hərbi xidmət ona seçim yolu qoymur. – Xəbərimiz var, – Diderix dedi; veriləcək suallardan qaçmaq üçün həmin an onu da bildirdi ki, bir ilini o artıq arxada qoyub. Hərbiyə valehdir, ən doğrusu da elə hərbdir. Kaş orada qala biləydi! Əfsuslar ki, ailənin vəziyyəti onu geri çağırıb. Buk gülümsədi, Diderixin xoşuna gəlməyən incə, şübhəli bir təbəssümlə.

– Hə də, zabitlər: adam, ən azı, yaxşı rəftarlı insanlar arasında olur.

– Siz onlarla görüşürsünüz? – Diderix soruşdu, səsində bir kinayə vardı. Lakin Buk, sadəcə, izah etdi ki, hərdən zabitlər məclisinə dəvət olunur. O, çiyinlərini çəkdi.

– Oraya gedirəm, çünki bütün düşərgələrə baxmağı lazımlı sayıram. Digər tərəfdən də ən çox sosialistlərlə görüşürəm. – Yenidən gülümsədi. – Hərdən general, hərdən də fəhlələrin başçısı olmaq istəyirəm. Axırda hansı tərəfə yıxılacağım özümə də maraqlıdır.

O, konyakın ikinci badəsini də içdi. "İyrənc adamdır, – Diderixin fikrindən keçdi. – Aqnes də qaranlıq hücrədə". Sonra da dedi:

– O imkanlar ki sizdə var, reyxstaqa seçilə bilərsiniz, yaxud da ürəyinizcə olan başqa bir işdən yapışarsınız. Mənim isə payıma praktik iş düşüb. Sosial-demokratiyaya düşmən kimi baxıram, çünki o, imperatorun düşmənidir.

– Bunu lap dəqiq bilirsiniz? – Buk soruşdu. – Mən daha çox imperatorla sosial-demokratiya arasında gizli məhəbbətə inanıram. O özü həvəslə birinci fəhlə başçısı olmaq istərdi. Bunu yalnız fəhlələr istəməyib. – Diderixi hirs götürdü. Əlahəzrət imperator üçün bu, təhqiramiz sözdür. Lakin Buk imkan vermədi ki, Diderix onun sözünü kəssin. – Xatırlamırsınızmı, o necə Bismarkı hədələyib dedi ki, varlı adamlardan öz hərbi dəstəyini çəkəcək. Ən azı, hökmdarlığa təzə başlayanda fəhlələr kimi o da varlılara düşmən kəsilmişdi, təbii ki, ayrı səbəblərdən olsa da, çünki baş-

qalanının da hakimiyyətdə gözü olması ilə çətin barışır. – Diderixin üz ifadələrindəki narahatlığını Buk qarşılaya bildi. – Fikirləşməyin ki, – xeyli gümrah davam etdi, – məni danışdıran antipatiyadır. Əksinə, nəciblikdir, bir növ, düşmən nəcibliyi, əgər bu, sizə xoşdursa.

– Başa düşmürəm, – Diderix dedi.

– Hə də: mən o adamlara münasibətdə nəciblikdən danışıram ki, onlarda öz səhvini görürsən, ya da istəyirsiniz həmin səhvləri çatışmazlıqlar adlandırın. Hər halda, biz cavanlar hamımız öz qeysərimizə oxşayırıq: fərdlərimiz üçün geniş meydan arzulayırıq və gözəl bilirik ki, gələcək kütlələrin olacaq. Bismark bir daha həyata gəlməyəcək, heç ikinci Lassal[1] da olmayacaq. Bunu bu gün qəbul etməyənlər bəlkə də bizlərdən ən cəsurlarıdır. Hər halda qeysər özü bunu qəbul etmək istəmir. Birinə bu boyda hakimiyyət nəsib olursa, özünü dəyərləndirməmək, ən azı, özünə qəsd olardı. Lakin ürəyinin dərinliyində, yəqin ki, o da öhdəsinə götürdüyü rola şübhə ilə yanaşır...

– Rola? – Diderix soruşdu. Buk bunu hiss eləmədi.

– Mənim dediyim rol bugünkü dünyamızda həddən ziyadə parodaksal təsir gücünə malik olduğundan onu xeyli uzaqlara apara bilər. Bu dünya hansısa fərddən öz qonşusundan gözlədiyindən çox şeyi gözləmir. Söhbət orta səviyyədən gedir, əlahiddəlikdən yox, ən azı da böyük insanlara gəldikdə.

– İcazənizlə! – Diderix sinəsinə döydü. – Bəs Almaniya imperiyası? Böyük insanlar olmasaydı, onu qura bilərdikmi? Hoentsollenrlər həmişə böyük adamlar olublar.

Buk yenidən şübhəli-şübhəli və qəmli-qəmli ağız büzdü:

– Onda gərək özlərini qorusunlar. Elə bizlər də. Vəziyyətimizin müxtəlifliyinə baxmayaraq, qeysəri də mənim kimi eyni məsələ düşündürür. General olub bütün ömrümü bir daha heç vaxt aparılmayacaq müharibəyəmi həsr edim? Yoxsa həddən artıq uzaqlara getdiyindən dahilərdən imtina edə bilən xalqın dahiyanə rəhbərimi olum? Hər ikisi romantika olardı, romantika da, bildiyimiz kimi, iflasa gətirib çıxarır. – Buk iki badə konyakı dalbadal içdi. – Hə, de görüm nə olum?

---

[1] *Lassal Ferdinand* (1825–1864) – yazıçı və siyasi xadim; Ümumalman Fəhlə Birliyinin yaradıcısı və prezidenti

"İçki düşkünü", – Diderixin fikrindən keçdi. O, özünə sual verdi ki, Bukla dava qaldırmaq onun vəzifəsinə daxil deyilmi? Lakin Bukun əynində mündir vardı! Həm də səs-küy Aqnesi yerindən ürküdərdi, bundan sonra daha nələr baş verərdi! Bununla belə, Bukun dediklərini dəqiq yadda saxlamağı qərara aldı. Oğlan bu cür fikirlərlə karyera qurmaq istəyirdi? Diderixin yadına düşdü ki, məktəbdə Bukun alman dili fənnindən yazdığı inşalar mənəviyyat cəhətdən həddən artıq yüksək olurdu və Diderixdə müəmmalı, lakin dərin inamsızlıq oyadırdı. "Elədir, – Diderix fikirləşdi, – heç dəyişməyib. Yenə yüksək mənəviyyat. Bütün ailə belədir". Qoca Bukun arvadı yəhudi idi, keçmişdə artist olmuşdu. Atasının dəfn mərasimində qoca Bukun ona göstərdiyi mərhəmətdən Diderix sonradan-sonraya özünü alçalmış saydı. Bu cavan Buk da onu alçaldırdı, həmişə və hər şeylə: özünün ağıllı danışıqları ilə, davranışı ilə, zabitlərlə oturub-durması ilə. O, fon Barnim cənablarıydımı? O da Netsiqdən deyildimi?! "Bütün ailədən zəhləm gedir!" Diderix göz qapağını aşağı endirib azca əyilmiş buruna və nəmliyindən işıldayan qayğılı gözlərə malik bu piyli sifətə tamaşa etdi. Buk ayağa qalxdı.

– Hə, bir də vətəndə görüşərik. Üzümüzə gələn, ya da altdakı semestr imtahanını verib qurtarıram, bundan sonra da Netsiqdə vəkil işləməyə daha nə qalır ki?!. Bəs siz? – soruşdu.

Diderix dedi ki, vaxtını itirmədən yayda doktorluq dissertasiyasını tamamlamaq fikrindədir. Bununla da o, Buku bayıra çıxartdı. "Sən hələ də axmaq olaraq qalırsan. Görmürsən ki, otağımda qız var?" – fikrindən keçirdi. Özünün Bukdan, eləcə də qaranlıqda gizlənib cıqqırını çıxarmayan Aqnesdən ağıllı olduğundan sevinərək geriyə qayıtdı.

Amma qapını açan kimi gördü ki, Aqnes stulda tərsinə əyləşib, sinəsini söykənəcəkdən aşağı əyib tövşüyür və cib yaylığını dodaqlarına qoyub tövşüməsini kəsməyə çalışır. Qız qızarmış gözləri ilə ona baxdı. Diderix hər şeyi başa düşdü: o, burada oturub içəndə və boş-boş şeylərdən danışanda qız içəridə az qalırmış boğulsun və hətta ağlayıb da. Diderixin ilk reaksiyası hüdudsuz peşmançılıq oldu. Aqnes onu sevirdi! Onu həddən artıq sevdiyindən içəridə oturub hər şeyə dözməli olmuşdu! Bir istədi qollarını açıb ona doğru cumsun və ağlaya-ağlaya üzr istəsin. Amma vaxtında

özünü saxladı, Aqnesin isterikasından və sentimental əhvali-ruhiyyəsindən qorxdu, bu ona baha başa gələrdi, bir neçə iş gününü itirməli olardı və qıza üstünlük qazandırardı. Aqnesin iradəsinə tabe olmadı! Zira qız bilə-bilə çox şeyi şişirdirdi. Buna görə də yüngülcə onun alnından öpüb dedi:

– Sən buradasanmış? Gəldiyini heç görmədim. – Aqnes diksinib nəsə cavab vermək istədi, amma susdu. Üstəlik, Diderix onu da dedi ki, indicə kimisə yola salıb. – Yəhudi törəməsi, hansı oyunlardan çıxmır?! İyrəncin biridir! – Diderix otaqda vurnuxurdu. Aqnesin üzünə baxmamaq üçün get-gedə addımlarını yeyinlədib daha tez-tez danışırdı. – Onlar bizim yağı düşmənlərimizdir! Özlərinin üzdəniraq savadları ilə biz almanlara müqəddəs olan hər şeyə barmaq uzadırlar. Bu cür yəhudi törəməsi sevinsin ki, ona dözürük. Qoy özünün cinayət məcəllələrini əzbərləyib ağzını mumlasın. Tüpürüm onun cır-cında kitablarına! – Aqnesin də xətrinə dəymək məqsədilə daha bərkdən qışqırdı. Qız cavab vermədiyindən yenidən başladı. – Ona görə belə olur ki, hər yetən məni evdə tapır. Sənə görə bu xarabadan çölə çıxa bilmirəm!

Aqnes ürkək-ürkək dilləndi:

– Altı gündür bir-birimizi görmürük. Bazar günü yenə gəlmədin. Deyəsən, daha məni sevmirsən.

Aqnesin qarşısında ayaq saxladı. Üstdən-aşağı dedi:

– Körpə bala, səni sevdiyimi deyib səni inandırmağa ehtiyac duymuram. Lakin söhbət ondan gedir ki, hər bazar sənin bibilərinin əl işlərinə tamaşa etməyə, ya da siyasətdən başı çıxmayan atanla bu barədə danışmağa məndə həvəsim varmı?

Aqnes başını aşağı salıb dedi:

– Əvvəllər hər şey gözəl alınırdı. Atamla münasibətlərin çox yaxşıydı.

Diderix arxasını ona çevirdi və pəncərədən çölə baxdı. Doğrudan da, belə idi. İndi isə cənab Qöppellə yaxşı münasibətdə olmaqdan çəkinirdi. Özünün mühasibi qoca Zötbirdən öyrənmişdi ki, Qöppelin işi əyilib. Onun sellülozu daha heç nəyə yaramır, Zötbir onunla əlaqələri kəsib. Diderix kimi bir kürəkən, əlbəttə, Qöppel üçün göydəndüşmə olardı. Diderix bu adamların onu tora saldığını hiss edirdi. Eləcə də Aqnesin! Ondan şübhələnirdi ki, atası ilə eyni oyunu oynayır. Hirslə təzədən ona doğru dönüb dedi:

– Sonra, körpə bala, etiraf edək ki, bizim tutduğumuz iş öz işimizdir, elə deyil? Ona görə də gəl atanı oyundan çıxaraq. İkimizin arasında olan münasibətləri ailə dostluğu ilə qarışdırmaq olmaz. Vicdanlılığım hər şeyi dəqiq fərqləndirməyi tələb edir.

Aradan qısa bir vaxt keçdi, sonra Aqnes ayağa qalxdı, sanki, hər şeyi indi dərk etmişdi. Qulağının dibinə qədər qızarmışdı. Qapıya doğru getdi. Diderix arxasınca gedib ona çatdı.

– Aqnes, o cür fikirləşməmişdim. Ona görə belə alındı ki, sənə həddən artıq hörmətim var... Bazar günü yenə sizə gələcəyəm. – Aqnes onun sözünü kəsmədi, üzündəki əzalardan heç biri tərpənmədi. – Rahatlan, – Diderix xahiş etdi. – Sən heç şlyapanı da çıxarmamısan.

Aqnes deyilənə əməl etdi. Diderix onun divanda oturmasını istədi, o da oturdu. Diderixin istədiyi kimi hətta onu öpdü də. Lakin dodaqlarında təbəssüm görünsə də, Diderixi öpsə də, gözlərində donuqluq və hərəkətsizlik vardı. Birdən Diderixi bağrına basdı. Diderix qorxdu, bilmədi bu, nifrətdəndirmi. Lakin sonra yenidən qaynarlıqla sevildiyini hiss etdi.

– Bu gün, doğrudan da, gözəl keçdi, hə, balacam, şirinim Aqnes? – Diderix razı və arxayın soruşdu. O, paltarını geyinənə qədər Aqnes şlyapasını və çantasını götürüb dedi:

– Əlvida.

– Niyə tələsirsən axı?

– Ayrı cür bacarmıram.

Yenicə qapıya çatmışdı ki, qəfildən səndələyib kürəyi üstə yanova dəydi və yerindən tərpənmədi.

– Nə olub axı? – Diderix ona yaxınlaşanda qızın hıçqırdığını gördü. Əli ilə ona toxundu. – Yaxşı, nə olub axı? – Aqnes daha bərkdən və titrəyə-titrəyə ağladı. Hönkürtüsü kəsmirdi. – Axı Aqnes, – Diderix dalbadal təkrarladı, – birdən nə oldu sənə, biz ki xürrəm idik. – Və tam ümidsizliklə: – Sənə nəsə elədim?

Aqnes, az qala, böhran içində boğularaq dedi:

– Bacarmıram. Bağışla. – Diderix onu qucağına alıb divana apardı. Hər şey keçib-gedəndə isə Aqnes xəcalət çəkdi. – Bağışla! Özümü ələ ala bilmədim.

– Mənmi günahkaram?

– Yox, yox. Əsəblərdir. Bağışla!

Qızın halına yana-yana səbirlə onu faytona qədər gətirdi. Amma bir az keçəndən sonra bu əsəb böhranı da ona oyun kimi, onu büsbütün əldə saxlamağa yönələn bir vasitə kimi gəldi. Belə bir hiss ondan əl çəkmirdi ki, onun azadlığına və gələcəyinə qarşı tor qurulur. Buna qarşı kəskin çıxışlarla, öz kişi müstəqilliyini qabartmaqla, əhvali-ruhiyyəsi bir balaca yumşalan kimi soyuqluq göstərməklə mübarizə aparırdı. Bazar günü Qöppelgildə o, düşmən düşərgəsində olduğu kimi yaraqlı-yasaqlı idi: alınmaz qala kimi. Soruşdular ki, elmi işi haçan hazır olar? Cavab verdi ki, bu məsələ öz həllini sabah da, iki il sonra da tapa bilər, burasını o özü də bilmir. Onu da dedi ki, maddi cəhətdən hələ də anasından asılıdır. Uzun müddət biznesindən başqa ayrı şeylə məşğul olmağa vaxt tapmayacaq. Cənab Qöppel həyatın ideal dəyərlərini onun yadına salanda isə Diderix qabalıqla etirazını bildirdi:

– Hələ dünən Şillerimi də satmışam. Ağlımı itirməmişəm, heç kimin də minnətini götürməyə halım yoxdur.

Bu sözlərdən sonra Aqnesin lal və tutqun baxışını öz üzərində hiss edəndə bir anlığa onda belə bir duyğu baş qaldırdı ki, bunlan o söyləməmişdir, özü isə buludlar arasında süzərək yanlış şeyləri danışır və iradəsinin ziddinə hərəkət edir. Lakin hər şey artıq arxada qalmışdı.

Diderix istədiyi vaxt Aqnes onun yanına gələrdi və oğlanın işləmək, yaxud pivə içmək vaxtı çatanda çıxıb gedərdi. Diderix qolbas mağazasının qarşısında ayaq saxlayıb buranın onun üçün ən gözəl sənət həzzi olduğunu deyəndən bəri qız onu şəkil qalereyasına aparmırdı. Ürəyi ağrımadan Diderixin ağlına gəldi ki, onlar gec-gec görüşürlər. Aqnesə irad tutdu ki, tez-tez gəlməsinə ara vermişdir.

– Əvvəllər tamam başqa cür idin.

– Gözləyirəm, – Aqnes cavab verdi.

– Nəyi?

– Onu ki, sən də əvvəlki kimi olasan. Oo! Əminəm ki, belə də olacaq.

Diderix umu-küsüdən qorxub susdu. Amma hər şey Aqnesin dediyi kimi oldu. Diderix elmi işini bitirib müsbət rəy də almışdı, yalnız çox da çətin olmayan şifahi imtahan verməliydi və həyatındakı dönüşdən irəli gələn yüksək əhvali-ruhiyyə içində idi. Aqnes qızılgüllə onu təbrik edən-

də Diderix gözlərinin yaşını axıdıb dedi ki, onu bütün ömrü boyu sevəcək. Qız cavabında bildirdi ki, cənab Qöppel uzun müddətə işgüzar səfərə çıxır.

– Hava da elə gözəldir ki...

Həmin an Diderixin beynindən keşdi:

– Gərək bundan istifadə eləyək! Belə imkan indiyə qədər əlimizə düşməyib!

– Kəndistana getməyə qərar verdilər. Aqnes Mittenvalde adlı bir yer tanıyırdı; ora adı kimi tənha və romantik olmalıydı.

– Gündüzləri bir yerdə olacağıq!

– Elə gecələri də, – Diderix əlavə etdi.

Yola düşdükləri vağzal uzaqda yerləşirdi, qatar da həddən artıq balaca və köhnə dəbli idi. Vaqonda onlar tək idilər; asta-asta qaranlıq düşürdü, vaqon bələdçisi solğun bir çıraq yandırdı və onlar bir-birinə qısılaraq səssiz-səmirsiz və heyrət içində dümdüz yeknəsəq tarlaları seyr edirdilər. Nə gəzərdi oralarda, pay-piyada, nə itərdi gözəl-göyçək qaranlıqda! Az qaldı bir neçə evdən ibarət bir kənddə qatardan düşsünlər. Vaqon bələdçisi onları düşməyə qoymadı; saman üstündəmi yatmaq istəyirlər?! Sonra onlar mənzilbaşına çatdıiar. Mehmanxananın böyük həyəti, kərənli tavandan asılmış neft çıraqlı geniş bir qonaq otağı və Aqnesi "möhtərəm xanım" sözləri ilə dindirən, hiyləgər slavyan baxışı ilə ona göz vuran şux bir sahibi vardı. Aqneslə Diderix sirli anlaşma ilə, sanki, bir-birinə calanmışdılar. Yeməkdən sonra məmnuniyyətlə öz otaqlarına getmək istədilər, lakin bu tezliklə buna ürək etməyib sahibin onların qarşısına qoyduğu jurnalları vərəqlədilər. Kişi üzünü onlardan çevirən kimi bir-birinə baxdılar və budur, düz pilləkənin üstündədirlər. Otaqda hələ işıq yox idi, qapı örtülməmişdi və onlar artıq bir-birinin boynuna sarılmışdı.

Səhər tezdən günəş birbaşa onların otağına düşdü.

Aşağıda, həyətdə toyuqlar dənlərini dimdikləyir və köşkün qabağındakı masanın üstünə qanad açırdılar.

– Səhər yeməyini orada yeyərik!

Aşağı endilər. Nə gözəl istidir! Mərəkdən quru ot iyi gəlirdi. Qəhvə və çörəyin tamı təptəzə idi. Ürəklərinə bir yüngüllük hopmuşdu, bütün həyat qarşılarında açılmışdı. Saatlarla gəzmək istədilər; mehmanxana sahibi küçə və kəndlərin adını bir-bir deyəsi oldu. Onun evini və yatağını

ürəkdən tərifədilər. Sahibkar soruşdu ki, yəqin, toy səfərinə çıxıblar.

– Elədir, – deyib hər ikisi ürəkdən güldü.

Baş küçənin çaylaq daşlan başlannı göyə tutmuşdu, iyul günəşi də onları min bir rəngə boyamışdı. Yastı-yapalaq evlər elə əyiş-üyüş, elə balaca idi ki, onların arasından keçən küçə daşlı tarlaya bənzəyirdi. Çərçinin zınqırovu qəriblərin arxasınca uzun-uzadı səsləndi. Yarışəhərli libasında olan adamlardan bəziləri kölgəlikdən keçərək üz-gözlərindən vüqar yağan Aqnes və Diderixə doğru üz tuturdular, çünki onlar burada ən şümşadboylu insanlar idi. Aqnes nəcib xanımlar üçün şlyapa satan modalar mağazası tapdı.

İnanılası deyil! Bu şlyapalan Berlində üç il bundan qabaq qoyardılar! Sonra onlar tökülüb-itən darvazadan geniş sahəyə çıxdılar. Tarlalar biçilirdi. Səma gömgöy idi, bir az da ağırlaşmışdı, qaranquşlar burada, sanki, bulanıq sularda üzürdülər. O üzdəki kəndli evləri bürkü boğanağına qərq olmuşdu və meşə qapqara qaralırdı, içindən yaşıl yollar keçirdi. Aqneslə Diderix əl-ələ tutmuşdular və əvvəlcədən razılaşmadan oxumağa başladılar: səyyah uşaqların nəğməsini; onu məktəbdə öyrənmişdilər. Diderix səsinin zilində oxudu ki, Aqnes ona heyran qalsın. Nəğmənin dalını oxuya bilməyəndə üzlərini bir-birinə tutub gedə-gedə öpüşdülər.

– Yalnız indi görürəm ki, sən necə də gözəlsən, – deyib Diderix nəvazişlə Aqnesin çəhrayı sifətinə, sanşın kirpiyinə və qumral gözlərinə baxdı.

– Yay ürəyimcədir, – deyib Aqnes elə dərindən nəfəs aldı ki, sinəsindəki köynəyi tərpəndi. Şux yeriyib yoluna davam etdi, incə əndamı, boynundakı göy şalı yırğalana-yırğalana. Diderixin canı istidən qızışdı, pencəyini, sonra da da içliyini çıxanb bildirdi ki, kölgəlik istəyir. Onlar hələ biçilməmiş zəminin qırağında, xoşətirli akasiya ağacının altında belə bir kölgəlik tapdılar. Aqnes yerdən oturub Diderixin başını dizinin üstünə aldı. Bir-biri ilə məzələnib zarafatlaşdılar. Qız birdən gördü ki, Diderixi yuxu aparıb.

Oğlan yuxudan oyanıb ətrafina baxındı, Aqnesin sifətini başı üstündə görəndə üzünə xoşbəxt bir parıltı qondu.

– Əzizim, – Aqnes dilləndi, – necə məzəli, gözəl sifətin var!

– Dayan görək! Mən ən çoxu beş dəqiqə... yox, bəlkə də, bir saat yatmış olaram. Darıxdın?

Amma Aqnes vaxtın bu qədər tez ötməsinə ondan çox heyrətləndi. Diderix yatanda Aqnes əlini onun saçına qoymuşdu, indi o, başını qızın əlinin altından çəkib çıxartdı.

Tarlaların arası ilə geriyə qayıtdılar. Həmin tarlaların birində gözlərinə nəsə qara bir şey sataşdı; sünbüllərin başı üstündən baxanda başında dəri papaq, əynində pas rəngində pencək və vilvet şalvar olan yaşlı bir kişi gördülər, kişinin şalvarı da qırmızıya çalırdı. Yazıq elə büzüşmüşdü ki, saqqalı dizinə çatırdı. Aqneslə Diderix ona yaxından baxmaq üçün aşağı əyildilər və gördülər ki, parıltılı qara gözləri ilə kişi çoxdandır onlara baxır. İstər-istəməz addımlarını yeyinlətdilər, hər ikisinin bir-birinə dikəlmiş baxışında bir nağıl qorxusu vardı. Ətrafa baxındılar: uzaq, yad bir yerə gəlib çıxmışdılar, buradakı balaca şəhər günəşdən yuxuya dalmışdı, səma da onlara elə göründü ki, elə bil, hər ikisi gecə-gündüz yol getmişdi.

Mehmanxananın köşkündəki günorta yeməyi necə də macəralı idi, günəş şaxıyır, toyuqlar özlərini günə verir, mətbəxin pəncərəsindən boşqabları Aqnesə ötürürdülər. Blüxer küçəsinin səliqə-sahmanı, Diderixin, sanki, alnına yazılmış pivə masası harada qalmışdı?

– Mən buradan heç yana gedən deyiləm, – Diderix bildirdi. – Səni də qoymayacağam getməyə.

Aqnes də:

– Niyə də olmasın?! Atama məktub yazıb onu Küsterində allə qurmuş rəfiqəmin vasitəsilə göndərərəm. Kişi də elə bilər ki, rəfiqəmin yanındayam.

Bir az keçmiş yenə gəzməyə çıxdılar, bu dəfə mehmanxananın o biri tərəfinə: burada çay axır və üç yeldəyirmanının qanadları qütbün qabağını kəsirdi. Kanalda qayıq vardı; həmin qayığı kirayə edib buradan aralandılar. Onlara doğru bir su sonası uçub gəldi. Su sonası ilə qayıq səssizcə bir-birinin yanından ötüb-keçdi. Su sonası şaxları yerə sallanmış kolluğun altına qondu və Aqnes özü də bilmədən Diderixin anasını və bacılarını soruşdu. Diderix cavab verdi ki, onlar həmişə ona yaxşı münasibət bəsləyiblər və o da onları sevir. İstədi ki, bacıları şəkillərini ona göndərsin, onlar tamam gözəlləşmişdilər; bəlkə də, gözəlləşməmişdilər, həlimləşmişdilər, hər şeyin yerini bilirdilər. Onlardan biri, Emmi Aqnes kimi şeir oxuyurdu. Diderix hər ikisinin qayğısını çəkib onları ərə vermək istəyirdi. Anasını isə yanında

saxlayacaqdı, çünki Aqneslə tanış olana qədər həyatındakı yaxşı şeylərin hamısı üçün anasına borcludur. Sonra uşaq vaxtı qaş qaralanda anasının milad küknarları altında ona danışdığı nağıllardan, hətta ürəkdən gələn dualardan söhbət saldı. Aqnes tam aludəliklə qulaq asırdı. Nəhayət, o, köksünü ötürüb dedi:

– Ananla tanış olmaq istərdim. Öz anam yadıma gəlmir.

Diderix onu öpdü, yazıqlanaraq, qorxu içində və pis vicdanın dumanlı duyğusu ilə. Fikirləşdi, gərək elə bir söz desin ki, o, Aqnesin büsbütün və həmişəlik təsəllisi olsun. Nə qədər çalışdısa da, həmin sözü deyə bilmədi. Aqnes onu süzdü.

– Bilirəm ki, – ağır-ağır dedi, – sən daxilən gözəl insansan. Amma hərdən başqa cür olursan. – Diderix bu sözdən diksindi. Sonra Aqnes, sanki, üzr diləyirmiş kimi əlavə etdi: – Bu gün daha səndən qorxum yoxdur.

– Ayrı vaxtlar qorxmusan ki? – Diderix peşman-peşman soruşdu. Aqnes cavab verdi:

– İnsanlar dikbaş olanda, özünü dartanda həmişə qorxmuşam. Əvvəllər rəfiqələrimlə olanda mənə elə gəlirdi ki, onlarla ayaqlaşa bilmirəm, elə bilirdim, onlar bunu duyur və məndən zəhlələri gedir. Ancaq sən demə, heç nə hiss etmirlərmiş. Hələ uşaq vaxtı mənim iri göy şüşə gözləri olan bir bəbəm (kuklam) vardı, anam dünyasını dəyişəndən sonra həmişə o bəbənin yanında otururdum. Geniş açılmış donuq gözləri ilə həmişə mənə baxırdı və sanki, həmin gözlər deyirdi: "Anan ölüb, indi hamı sənə mənim kimi baxacaq". Çox istəyirdim onu arxası üstə çevirim ki, gözlərini yumsun. Ancaq buna ürək eləmirdim. Adamları da arxası üstə yerə uzadası deyildim ki?! Hamının gözləri onunku kimidir və hərdən... – Aqnes sifətini Diderixin kürəyində gizlətdi, – hərdən hətta sən də.

Diderixin boğazı qurudu, əlini Aqnesin boynunda gəzdirdi və səsi titrədi.

– Aqnes! Şirinim Aqnes, heç bilmirsən, səni necə sevirəm... Bir vaxt səndən qorxurdum, bəli, qorxurdum! Üç il sənin həsrətini çəkmişəm, amma sən gözəlliyinlə, nəcibliyinlə, yaxşı xasiyyətinlə mənim üçün əlçatmaz olmusan...

Bütün varlığı əriyib muma döndü; ilk dəfə Qöppelgildən qayıdanda məktuba nə yazmışdısa, hamısını ona dedi. Aqnes başını qaldırıb məftunluqla ona qulaq asırdı, ağzı açıla qalmışdı. Sevincindən yerə-göyə sığmırdı:

– Belə olacağını bilirdim, elə sən də mənim kimisən!

– Biz bir-birimiz üçün yaranmışıq, – deyib Diderix onu özünə sıxdı; lakin dediyindən özü də qorxdu. “Gözləyir, – fikirləşdi, – indi gərək danışam”. Danışmaq istəyirdi, lakin elə bil, iflic olmuşdu. Aqnesin kürəyini sıxan qolların gücü getdikcə azalırdı... Aqnes qımıldandı. Diderix gördü ki, o daha heç nə gözləmir və onlar bir-birinə baxmadan aralandılar. Diderix qəfildən əllərini üzünə tutub hıçqırdı. Aqnes niyəsini soruşmadı; təsəlli verərək onun saçını tumarladı. Bu, xeyli çəkdi.

Aqnes Diderixin başı üstündən boşluğa dedi:

– Fikirləşə bilərdinmi ki, bu, ömürlük olacaq? Əslində, pis qurtarmalı idi, çünki hər şey gözəl idi.

Diderix sanki diksinib ayıldı, məyus-məyus dedi:

– Hələ hər şey bitməyib!

Aqnes soruşdu:

– Xoşbəxtliyə inanırsan?

– Səni itirəsi olsam, heç vaxt!

Aqnes dodağının altında dedi:

– Çıxıb gedəcəksən, həyatın qoynuna atılanda məni unudacaqsan.

– Bundansa ölsəm yaxşıdır! – deyib Diderix Aqnesi özünə doğru çəkdi. Qız onun yanağına pıçıldadı:

– Bax gör, su burada necə enlənir, elə bil, göldür! Qayığımız özü bizi buraya gətirib. O şəkil yadındadır? Bir də ki arzularımızın haçansa üzdüyü o göl? Haralara? – və daha astadan: – Haralara üzməyirik?

Diderix daha cavab vermədi. Bir-birinə sarılaraq dodaq-dodağa verib arxaya, düz suyun üstünə əyildilər. Qızmı onu sıxırdı? Omu qızı özünə çəkirdi? Heç vaxt belə bir vəhdətdə olmamışdılar. Diderix hiss edirdi: indi hər şey gözəldir. Aqneslə yaşamaq üçün o, yetərincə kübar, yetərincə saleh, yetərincə cəsur deyildi. İndi o, bu qızla eyniləşmişdi, hər şey də gözəl idi.

Qəfil bir təkan: ikisi də yuxarı sıçradı. Diderix elə cəld tərpəndi ki, Aqnes onun üstündən qayığın döşəməsinə düşdü. Oğlan alnını sildi.

– Bizə nə oldu axı? – Qorxudan canından bir gizilti keçdi, xətrinə dəyilmiş adamlar kimi üzünü Aqnesdən çevirdi. – Qayıq sürən adam belə ehtiyatsızlığa yol verməz.

Aqnesin ayağa qalxmasına kömək etmədi, həmin an

avarlardan yapışıb qayığı geriyə sürdü. Aqnes üzünü sahilə tutdu. Bir dəfə istədi ona baxsın, lakin Diderix ona elə inamsız bir nəzər saldı ki, qız yerində diksindi.

Axşamın toranlığında onlar kənd yolu ilə tələsə-tələsə geri qayıtdılar. Axırda hətta qaçmağa üz qoydular və yalnız qaranlıqda bir-birinin sifətini anşırda bilməyəndə danışmağa başladılar. Sabah tezdən cənab Qöppel geri qayıdasıdır. Gərək Aqnes evə dönsün... Mehmanxanaya çatanda qatar uzaqdan fit verdi.

– Heç düz-əməlli şam da edə bilməyəcəyik! – Diderix süni narazılıqla dilləndi.

Tələm-tələsik şey-şüylərini götürdülər, hesabı bağlayıb tərpəndilər. Qatara yenicə minmişdilər ki, o, yola düşdü. Nəfəslərini dərib son on beş dəqiqənin təcili məsələlərini müzakirə etmələrinin özü bir xoşbəxtlik idi. Bu barədə son sözlərini demişdilər, indi də hərə öz yerində oturmuşdu, solğun çırağın işığında və böyük uğursuzluqdan sonra key-ləşmiş kimi. Qaranlığa qərq olmuş bayırdakı kəndistan haçansa onları özünə çəkib yaxşı şeylər vəd etməmişdimi? Bu yalnız dünənmi baş vermişdi? Geriyə yol yox idi. Şəhərin işıqları yaxınlaşıb onları iztirabın əlindən almayacaqdımı?

Gəlib çatanda razılaşdılar ki, eyni miniklə getməyə lüzum yoxdur. Diderix tramvaya mindi. Yalnız onların əlləri və gözləri bir-birinə xudahafiz dedi.

– Uf! – Diderix tək qalanda dərindən köks ötürdü. – Bundan da belə qurtardıq. – Öz-özünə isə dedi: “Pis də alına bilərdi. – Daha da hirslənərək: – Belə bir cingənə!” Axmaq qızı qayıqdan yapışıb özünü saxlaya bilməzdimi! Onda o da təkcə çimməli olardı. Bu bicliyə ona görə əl atdı ki, ərə getmək istəyirdi! “Qadınlar hiyləgər olurlar, qarşılarında maneə-zad görmürlər, biz onlarla bacara bilmərik. Bu dəfə o, məni vaxtilə Malmanda olduğundan pis axmaq yerinə qoydu. Qoy bu, mənə ömürlük dərs olsun. İndi isə yetər!”

Mətin addımlarla yeni tevtonçuların yanına yollandı. Bundan sonra hər axşamı orada keçirdi, gündüzlər isə şifahi imtahana hazırlaşdı, ehtiyat üzündən evdə yox, laboratori-yada. Axırda evə dönəndə mərtəbələri qalxmaq ona çətin gəlirdi, ürək döyüntüsü ona aman vermirdi. Tərəddüd için-də otağın qapısını açırdı: heç nə! Halı yüngülləşəndən sonra hər dəfə sahibədən soruşurdu ki, o evdə olmayanda kimsə gəlibmi. Hər dəfə də gələn olmurdu.

Yarım aydan sonra bir məktub gəldi. Qəti fikirləşmədən məktubu açdı. Sonra oxumadan yazı masasının çəkməcəsinə atdı, yenidən çıxarıb xeyli aralıda göz önündə tutdu. Sürətli, inamsız baxışları ilə sətirləri adda-budda oxudu: "Elə bədbəxtəm ki..." – "Xəbərimiz var!" – Diderix cavab verdi. – "Yanına gəlməyə ürək eləmirəm..." – "Bu, sənin xoşbəxtliyindir!" – "Yadlaşmağımız dəhşətdir..." – "Yaxşı ki bunu bilirsən" – "Olanlara görə məni bağışla, yoxsa heç nə olmayıb?.." – "Yetər daha!" – "Daha yaşaya bilmirəm..." – "Yenə başladın?" Məktubu çəkməcəyə, bir gecə yuxusuna haram qatıb həddini aşaraq yazdığı, lakin xoşbəxtlikdən, göndərmədiyi məktubun yanına atdı.

Bir həftə sonra isə gecə evə gələndə arxasında qeyri-adi addım səsləri eşitdi. Arxaya çevrildi: gözünə boş əllərini azca yuxarıya qaldırmış bir fiqur sataşdı. Darvazanı açıb içəri girəndə həmin fiquru yarıqaranlıqda dayanan gördü. Otaqda işığı yandırmadı. Həmin fiqur onun öz otağını işıqlandırmağı qaranlıqdan Diderixə göstəriş verəndə o, xəcalət çəkdi. Yağış yağırdı. Bu fiqur neçə saat gözləmişdi? Yəqin, oradan heç yana tərpənməmişdi, özünün son ümidi ilə. Buna dözmək çətin idi! Diderix pəncərəni açmaq istədi və geriyə çəkildi. Birdən-birə özünü pilləkəndə gördü, evin açarı da əlində. Birtəhər geriyə qayıda bildi. Bundan sonra qapını bağlayıb soyundu. "Özünü ələ al, əzizim!" Bu dəfə pırtıb aradan çıxmaq onun üçün o qədər də asan olmadı. Şübhəsiz ki, qıza yazıqlanmaq lazımdır, amma bunu o özü istəmişdi. "Hər şeydən öncə mən öz borcumu yerinə yetirməliyəm". Səhər tezdən yuxudan kal oyanaraq özlüyündə qıza bərk hirsləndi ki, onu bir daha yoldan çıxarmağa cəhd edib. Özü də indi, imtahanın belə yaxınlaşdığı bir məqamda! Bu cür vicdansızlıq ona yaraşan şeydir. Və ogecəki tamaşa, yağışın altındakı bu dilənçi rolu, onun görüntüsündə nəsə bir şübhə və müəmma vardı. Qız büsbütün onun gözündən düşdü. "Heç cür, heç bir güzəşt ola bilməz!" – bərk-bərk özünə söz verdi və bu şəhərdə qalacağı qısa müddət ərzində mənzili təcili dəyişməyi qərara aldı: "Lap mənə artıq pula başa gəlsə də". Xoşbəxtlikdən, tələbə yoldaşlarından biri qalmağa otaq axtarırdı; Diderix heç nə itirmədən əlüstü şəhərin şimal hissəsinə köçdü. Qısa bir vaxtda imtahanını da verdi. "Yeni Tevtoniya" bu uğuru axşama qədər davam edən səhər pivəsi ilə qeyd etdi. Evə

çatanda ona dedilər ki, onu bir kişi gözləyir. "Vibel olacaq", Diderixin fikrindən keçdi – yəqin, məni təbrik etməyə gəlib". Ümidlər içində üzərək: "Bəlkə də, asessor fon Barnindir?" Qapını açdı, açan kimi də geriyə sıçradı. Qarşısında dayanan cənab Qöppel idi. O da asanlıqla söz tapa bilmədi.

– Hə, hm, frakda?! – birtəhər dillənib tərəddüdlə əlavə etdi. – Yoxsa bizdə olmusunuz?

– Yox, – deyib Diderix təzədən qorxdu. – Sadəcə, doktorluq imtahanımı vermişəm.

Qöppel cavab verdi:

– Belə de, təbrik edirəm!

Sonra Diderix dilləndi:

– Yeni ünvanımı necə tapdınız?

– Köhnə ev sahibəsinə haraya köçdüyünüzü, hər halda, deməmisiniz. Amma ayrı yollar da var. – Bir-birini gözdən keçirdilər. Qöppelin səsində sakitlik vardı, ancaq Diderix bu səsdə qorxulu bir hədə duymuşdu. Fəlakət fikrini o, heç vaxt yaxına buraxmamışdı, indi isə, budur, qarşısındadır. Oturmalı oldu. – Əslində, – Qöppel sözünə davam etdi, – ona görə gəlmişəm ki, Aqnesin halı xarabdır.

– Oh! – Diderix ümidsiz bir yaltaqlıqla təəccübləndi. – Nə olub ki?

Cənab Qöppel qayğılı-qayğılı başını yırğaladı.

– Ürəyi sözünə baxmır; amma təbii ki, əsəbləridir... Təbii ki, – Diderixin bu sözü təkrarlamasını əbəs yerə gözlədikdən sonra o, bir də dedi. – İndi də darıxdığından melanxolik olub, mən də istəyirəm onu əyləndirəm. Özü çölə çıxa bilməz. Ona görə də siz bizə gəlin, sabah bazardır.

"Qurtardım! – Diderix fikrindən keçirdi. – Heç nədən xəbəri yoxdur". Sevincindən o, əsl diplomata çevrildi; başını qaşıdı.

– Bunu nəzərdə tutmuşdum. Amma gərək təcili evə dönəm. Qoca işlər müdirimiz xəstələnib. Heç professorlarımla da vidalaşmağa vaxtım yoxdur, sabah tezdən yola düşürəm.

Qöppel əlini onun dizinə qoydu.

– Fikirləşməyiniz pis olmazdı, cənab Heslinq. Adam dostlarına da hərdən nəsə borclu olur.

Qöppel ağır-ağır danışırdı və elə nüfuzlu baxışı vardı ki, Diderix gözünü ondan çəkməli oldu.

– Kaş bacaraydım, – kəkələdi.

Qöppel dedi:

– Bacararsınız. Ümumiyyətlə, bununla bağlı hər şeyi bacararsınız.

– Necə yəni? – Diderix daxilən dondu.

– Necəliyini gözəl bilirsiniz, – Aqnesin atası dedi və kətilini bir balaca geriyə çəkəndən sonra əlavə etdi: – Elə fikirləşməyin ki, məni buraya Aqnes göndərib. Əksinə, ona söz vermişəm ki, heç nə etməyim və sizi tam rahat buraxım. Amma sonradan fikirləşdim ki, biz bir-birimizə kələk gəlsək, ağılsızlıq olardı. Çünki biz bir-birimizi rəhmətlik atanla ticari əlaqələrimizdə və digər işlərdə çox yaxşı tanıyırıq.

Diderix fikirləşdi: "Ticari əlaqələr qurtardı, mənim əzizim" , – özünü müdafiəyə hazırlaşdı.

– Mən heç də sizə kələk gəlmirəm, cənab Qöppel.

– Çox gözəl. Onda hər şey qaydasındadır. Sizi yaxşı başa düşürəm: istənilən gənc bugünkü gündə ailə qurmağa qorxusuz addım atmır. Bəs hər şey bizdə olduğu kimi yerli-yerindədirsə, necə? Bizim müəssisələr bir-birini tamamlayır və siz atanızın qoyub getdiyi işi genişləndirmək istəsəniz, Aqnesin cehizi karınıza gələrdi. – Bir an sonra üzünü yana çevirərək: – İndiki anda sizə nağd kapital kimi on iki min mark ötürə bilərəm, lakin istədiyiniz qədər sellüloz ala bilərsiniz.

"Görürsən? On iki min markı da gərək kimdənsə borc alasan... İşdir, verən olsa", – düşünüb Diderix dilləndi:

– Məni düzgün anlamadınız, cənab Qöppel. Evlənmək barədə düşünmürəm. Buna külli miqdarda pul lazımdır.

Cənab Qöppelin gözünə qorxu doldu, amma yenə də gülə-gülə dedi:

– Mən bir az da böyürdən-başdan...

– Boşlayın getsin, – Diderix kübarlıqla rədd edərək dedi.

Qöppel getdikcə özünü itirirdi.

– Yaxşı, onda istədiyiniz nədir?

– Mənim? Heç nə. Elə bildim siz nəsə istəyirsiniz, çünki siz mənim yanıma gəlmisiniz.

Qöppel özünü yığışdırdı:

– Belə yaramaz, əziz Heslinq. Tutduğun o işdən sonra. Özü də artıq çoxdan olduğundan.

Diderix atanı təpədən-dırnağa süzüb cəhənglərini aşağı salladı.

– Deməli, xəbəriniz varmış?!

– İnamlı deyildim, – Qöppel mızıldandı.

Diderix də təkəbbürlə:

– Mən də bunu qəribə hesab edərdim.

– Mən qızıma güvənmişdim.

– Adam inana-inana yanılır, – Diderix özünü müdafiə edəcək bütün vasitələrə əl ataraq dilləndi. Qöppelin alnı qızarmağa başladı.

– Elə sizə də bel bağlayırdım.

– Bu da o deməkdir ki, sadəlövh olmusunuz.

Diderix əllərini şalvarının cibinə qoyub arxaya söykəndi.

– Yox! Qöppel yerindən sıçradı. – Sadəcə, sizin kimi əclafı əclaf hesab etməmişəm!

Diderix süni bir sakitliklə ayağa qalxıb soruşdu:

– Duel istəyiniz yoxdur ki?

Qöppel bağırdı:

– Ürəyinizdən nələr keçmir! Qızını yoldan çıxarmaq, atasını da güllələmək! Şərəfsizliyiniz tamamlanmış olardı.

– Siz nə bilirsiniz şərəf nədir! – Diderix də həyəcanlanmağa başladı. – Mən sizin qızınızı yoldan çıxartmamışam. Onun istədiyini eləmişəm, sonra da o, qopa bilməyib. Bunu da sizdən götürüb. – Daha da coşaraq: – Kim mənə deyə bilər ki, əvvəlcədən sözü bir yerə qoymamısınız? Bu, əsl tələdir!

Qöppelin üzünə elə bir ifadə qondu ki, sanki, o, daha ucadan bağırmaq istəyirdi. Birdən canına qorxu düşdü, indi bir az titrəyən adi səslə dilləndi:

– Belə ciddi bir məsələdə çox qızışırıq. Aqnesə söz vermişəm ki, özümdən çıxmayacağam.

Diderix kinayə ilə güldü:

– Görürsünüzmü, yalan danışırsınız? Bayaq deyirdiniz ki, buraya gəlişinizdən Aqnesin xəbəri yoxdur.

Ata günahkarcasına gülümsədi:

– Yaxşılıq insanları birləşdirir. Elə deyilmi, əzizim Heslinq?

Lakin Diderix yenidən yaxşı olmağı qorxulu saydı.

– İblisdir sizin əziziniz Heslinq! – bağırdı. – Sizin üçün mən cənab doktoram.

– Belə de, – Qöppel israrla bildirdi. – Görünür, mən ilk adam olacağam ki, sizə "cənab doktor" demiş olsun?! Hə, belə bir imkanla öyünə bilərsiniz.

– Bəlkə, mənim nəcabətimi də tapdalamaq istəyirsiniz?

Qöppel etirazını bildirdi:

– Heç nəyi tapdalamaq istəmirəm. Özümdən soruşuram ki, biz sənə neyləmişik, qızımla mən. Doğrudan da, bu qədər pul əldə etmək istəyirsiniz?

Diderix qızardığını hiss etdi. Bir az da kəskinləşdi:

– Əgər eşitmək istəyirsinizsə, eşidin: əxlaqım mənə yol vermir ki, bakirəliyini qoruya bilməyən qızı özümə arvad edim.

Qöppel bir daha qızışmaq istədi, amma bacarmadı, yalnız hıçqırığını boğa bildi:

– Bu gün günortadan sonra kaş onun fəryadını eşitmiş olaydınız! Hər şeyi mənə etiraf etdi, çünki daha dözə bilmirdi. Məncə, o daha heç məni də sevmir: yalnız sizi. Nə istəyirsiniz axı, siz ki birinci olmusunuz.

– Nə bilmək olar? Məndən qabaq sizdə Malman adlı birisi dolaşırdı. – Qöppel sinəsindən itələnmiş adamlar kimi geriyə çəkiləndə: – Deyin görək bilmək olarmı? Bir dəfə yalan danışana inanmazlar. – Sonra bunları əlavə etdi: – Heç kim məndən tələb edə bilməz ki, beləsini uşaqlarımın anası edim. Bunun üçün mənim yetərincə ictimai şüurum və vicdanım var. – Bunu deyib arxasını Qöppelə çevirdi. Çöməlib ayın-oyununu açıq çamadana yığışdırdı.

Arxadan Qöppelin hıçqırtısını eşitdi və həyəcanını boğa bilmədi: onu həyəcanlandıran kübarlığı və həyata indicə dediyi kişi baxışı, Aqnesin və atasının iztirabları idi ki, onları da yoluna qoymağa tutduğu vəzifə, məhəbbətinin iztirablı xatirələri və talenin faciəsi mane olurdu... Cənab Qöppelin qapını açıb-bağlamasını, dəhlizlə sürünə-sürünə getməsini və çöl qapısının şaqqıltı ilə örtülməsini həyəcanla dinlədi. Hər şey arxada qalmışdı, Diderix yarıqablaşdırılmış çamadanın üstünə döşənib hönkür-hönkür ağladı. Axşam Şubertdən bir musiqi parçası çaldı.

Bununla da lirik ricətlərə son qoyuldu, gərək güclü olaydı. Vibeli özünə nümunə sayıb fikirləşdi ki, görəsən, o, haçansa bu cür sentimental olubmu. Hətta Malman kimi zırramanın biri də Diderixə güclü olmaq dərsini verib. Başqalarının da qəlbində belə zəif məqamların olması ona mümkünsüz göründü. Yalnız onda bu zəiflik vardı, bu da ona anasından keçmişdi; və anası təki ağlını itirmiş Aqnes kimi birisi onu bu ağır zəmanədə büsbütün yararsız edəcək. Ağır

zəmanə: bu sözü işlədən kimi Diderix işsizləri, qadınları, uşaqları, ehtiyacı, qorxunu, iğtişaşı, Unter-den-Linden küçəsindəki çaxnaşmanı xatırlayır – bütün bunların da hamısı, hətta "Urra!" qışqırtısı belə iqtidarın özü tərəfindən, hər şeyi əlində saxlayan, nalı ilə insanın başını əzən qeyri-insani iqtidar tərəfindən idarə olunaraq.

"Əlac yoxdur, – itaət duyğusundan cuşa gəlib Diderix öz-özünə danışdı, belə olmaq lazımdır!" Vay belə olmayanların halına: nal altına elələri düşür. Qöppellər atalı-qızlı ona qarşı hansı iddianı irəli sürə bilərlər? Aqnes yetkinlik yaşına çatıb, Diderix də onun boynuna uşaq salmayıb. Deməli? "Məcbur edilmədiyim şeyi öz ziyanıma etmiş olsam, mənə dəli deməzlərmi?! Mənə havayı nəsə verən varmı?!"

Diderix yaxşı tərbiyə alması ilə qürur duydu. Korporasiya, hərbi xidmət və imperializmin ab-havası onu tərbiyələndirib yararlı etmişdi. Əldə edib mənimsədiyi bu əsas prinsipləri doğma yurdu Netsiqdə işə yaratmağı və öz dövrünün cığırçısı olacağını özünə söz verdi. Xarici görkəmi bu dəyişikliyi ifadə etsin deyə ertəsi gün səhər tezdən Mittelştrasedəki saray dəlləyi Habinin yanına yollanıb özünə əl gəzdirtdi, bu görkəmi o, zabitlərdə və adlı-sanlı cənablarda müşahidə etmişdi. Həmin görkəm indiyə qədər ona çox kübar görünmüşdü və yamsılamağa dəyərdi. Bığ bağının köməyi ilə bığını iki düzbucaq şəklində yuxarıya çəkdirdi. Qurtarandan sonra güzgüdə özünü güclə tanıdı. Dodaqları aşağı sallananda tüklərdən təmizlənmiş ağzı erkək pişiyin qorxunc ağzına bənzəyirdi və bığının ucları Diderixin özünü də qorxuya salan gözlərinə tuşlanırdı, sanki, bu gözlər iqtidarın öz sifətindən boylanırdı.

## ÜÇÜNCÜ FƏSİL

Qöppellər ailəsinin sonrakı iddialarını dəf etmək məqsədi ilə Diderix ləngimədən yola düzəldi. Bürküdən kupedə az qalırdı adamın nəfəsi kəsilsin. Burada özündən başqa heç kim olmadığına görə o, bir-birinin ardınca pencəyini, içliyini və çəkmələrini çıxartdı. Netsiqə bir-iki stansiya qalmış onun kupesinə mindilər: Diderixin flanel köynəyindən pərtləşmiş, görkəmlərindən əcnəbilərə oxşayan iki qadın. Diderix də öz növbəsində onların incəliyindən dilxor olmuşdu. Qadın-

lar anlaşılmaz bir dildə onun barəsində öz gileylərini bildirməyə başladılar, Diderix də buna cavab olaraq çiyinlərini çəkdi və corablı ayağını oturacağın üstünə qoydu. Qadınlar burunlarını tutub imdad qışqırdılar. Vaqon bələdçisi, hətta qatar başçısının özü də gəldi, Diderix də ikinci klas biletini onlara göstərib öz haqqını müdafiə etdi. Məmura hətta onu da başa saldı ki, çalışıb özünü oda salmasın, kiminlə danışdığını adam heç vaxt bilə bilməz. Axırda bu qalmaqaldan zəfərlə qurtaranda və qadınlar başqa kupeyə keçiriləndə onların yerinə bir başqası gəldi. Diderix tərs-tərs ona baxdı, lakin qadın, sadəcə, çantasından bir qolbas çıxarıb əlində tuta-tuta yeməyə başladı, arada da Diderixə gülümsədi. Bununla da Diderixi tərk-silah etdi, Diderix də üz-gözündən gülə-gülə öz rəğbətini bildirib onu dindirdi. Məlum oldu ki, qadın da Netsiqdəndir. Diderix öz adını dedi, buna da qadın ürəkdən sevindi ki, onlar köhnənin tanışlarıdır.

– Belə de! – Diderix diqqətlə onu süzdü: koppuş çəhrayı sifət, pənbə dodaqlar, adamın gözünə girən balaca, dik burun, açıq-san, səliqəli düz saçlar, buxaqlı boyun və yanəlcəkli əllərlə qolbasdan yapışmış barmaqlar, elə qolbasın özü kimi çəhrayi rəngdə.

– Yox, – Diderix qətiyyətlə bildirdi, – tanımağına sizi tanımıram, amma iştahanıza söz ola bilməz. Böyüməkdə olan donuz balası kimi. – Bunu deyib qadının əndamından yapışdı. Elə həmin an möhkəm bir şillə yedi. – Yaraşdı, – deyib Diderix üzünü ovuşdurdu. – Belə şillələrdən çoxmu ilişdirirsiniz?

– Bütün həyasızlara bəs edən qədər. – Qadın boğazında gülüb xırda gözləri ilə ona göz vurdu. – Məndən bir tikə qolbas ala bilərsiniz, ayrı heç nə.

Özü də istəmədən Diderix bu qadının özünü müdafiə etmək bacarığını Aqnesin köməksizliyi ilə müqayisə edib öz-özünə dedi: "Beləsi ilə rahatca evlənmək olar". Nəhayət, qadın öz adını dedi və Diderix onu yenə tanımayanda onun bacılarını soruşdu. Diderix qəfildən qışqırdı:

– Quste Daymxen! – və hər ikisi sevincdən şaqqanaq çəkdi.

– Axı siz mənə kağız fabrikinizdəki cır-cındırdan həmişə düymələr bağışlamısınız. Bunu heç vaxt unutmaram, cənab doktor! Bilirsinizmi həmin düymələri neyləyirdim? Onları

toplayırdım və anam düymə üçün mənə pul verəndə həmin pullarla özümə konfet alırdım.

– Siz həm də praktik adamsınız! – Diderix mat qalmışdı. – Bir də siz həmişə bağımızın barısına dırmaşardınız, çox vaxt da əyninizdə tuman olmazdı, donunuz belinizdən sürüşəndə dalınızda bəzi şeyləri görmək olurdu. – Qadın şaqqanaq çəkdi; abırlı adamlar belə şeyləri yadda saxlamaz. – İndi bir az da gözəlləşmiş olmalıdır, – Diderix əlavə etdi. Qadın birdən-birə ciddiləşdi.

– İndi mən nişanlıyam. – O, Volfqanq Bukla nişanlanmışdı! Diderix məyus bir görkəm alıb susdu, sonra etinasızlıqla dedi ki, Buku tanıyır. Qız ehtiyatla dedi: – Düşünürsünüz ki, o, bir az başdan o söz? Amma Buklar da çox kübar allədir. Hə də, başqa ailələrin pulu onlarınkından da çoxdur.

Çaşıb-qalmış Diderix onu süzdü. Qız göz vurdu. Diderix sual vermək istədi; amma buna cəsarəti çatmadı. Qatar Netsiqə yaxınlaşanda froylayn Daymxen soruşdu:

– Sizin qəlbiniz necə, cənab doktor, hələlik boşdurmu?

– Nişanlanmadan canımı qurtara bilmişəm. – Mənalı-mənalı başını yırğaladı.

– Ax! Gərək bunu mənə danışasınız, – qız ucadan dedi. Amma qatar vağzala girmişdi.

– Çox güman ki, yenə görüşərik, – Diderix dedi. – Sizə təkcə onu deyə bilərəm ki, cavan bir oğlan hərdən bu cür axmaq vəziyyətlərə düşə bilir. Ehtiyatsız deyilmiş bircə kəlmə həyatı puç edir.

Bacılarının ikisi də vağzalda idi. Onlar Quste Daymxeni görən kimi əvvəlcə üz-gözlərini turşutdular, sonra da irəli cumub qardaşlarının yükünü daşımağa kömək etdilər. Onlar Diderixlə tək qalan kimi niyə narazı qaldıqlarını izah etdilər. Quste miras sahibi olmuşdu, milyoner idi! Deməli, beləymişl Qusteyə olan ehtiramdan Diderix donub-qaldı.

Bacılar ətraflı məlumat verdilər. Maqdeburqda yaşamış yaşlı qohumlarından biri bütün pulunu Qusteyə vəsiyyət edib, ona görə ki, qız ona qulluq göstərirmiş.

– O bunu qazanıb, – Emmi bildirdi, – deyilənə görə, kişi heç nə yeyib-içmirmiş.

Maqda isə əlavə etdi:

– Əslində, təbii ki, çox şey fikirləşmək olar, çünki Quste düz bir il kişi ilə tək qalıb.

Diderix o saat qulağının dibinə qədər qızardı.

– Cavan bir qız belə şeyləri dilinə gətirməz! – hirsindən bağırdı; və Maqda təkid edəndə ki İnqe Tits, Meta Haynrix və ümumiyyətlə, hamı bu barədə danışır, Diderix səsinin tonunu endirdi. – Onda sizdən ciddi şəkildə tələb edirəm ki, bu dedi-qodulara fikir verməyəsiniz.

Fasilə yarandı, bir az keçmiş Emmi dedi:

– Onu da deyim ki, Quste nişanlanıb.

– Bilirəm, – Diderix mızıldandı.

Onlar tanışlara rast gəldilər. Diderix insanların ona "cənab doktor" deyib müraciət etdiyini eşidib şişkinləşdi və kənardan onun yeni bığ düzümünə heyranlıqla baxan Emmi ilə Maqdanın arasında yoluna davam etdi. Evdə frau Heslinq boğulan adamın öz xilaskarını görəndə çıxardığı səslə qışqırıb qollarını açdı və oğlunu bağrına basdı. Və Diderixin əvvəlcədən görə bilmədiyi bir şey baş verdi: o da ağladı. Birdən-birə, ilk dəfə olaraq əsl ailə başçısı kimi otağa daxil olduğu təntənəli xoşbəxtlik anını yaşadı, doktor titulu ilə təltif olunaraq və fabriki, ailəni öz ağlı ilə idarə etməyə tam "hazır". Anasına və bacılarına, hamısına eyni anda əl verib ciddi səslə dilləndi:

– Heç vaxt yaddan çıxarmayacağam ki, sizin əvəzinizə Allahıma cavab verəsi olacağam.

Amma frau Heslinq narahatlıq keçirirdi.

– Hazırsan, oğul? – soruşdu. – Dost-tanış səni gözləyir.

Diderix pivəsini içib özününkülərlə aşağı endi. Həyət tərtəmiz süpürülmüşdü, fabrikin girəcəyi güllərlə bəzədilmiş və başının üstündən "xoş gəlmişsiniz!" sözləri yazılmış lent asılmışdı. Qoca hesabdar Zötbir qapının ağzında dedi:

– Hə, salam, cənab doktor. Yuxarıya qalxa bilmədim, çünki işim çox idi.

– İşlərinizi bu gün təxirə də sala bilərdiniz, – Diderix cavab verib Zötbirin yanından keçdi. İçəridə, cındır sexində adamlarla rastlaşdı. Hamı bir yerə yığışıb dayanmışdı: kağız dəzgahına, hollenderə və doğrayıcı dəzgaha xidmət edən on iki fəhlə, üç dəftərxana işçisi və işləri cındırları sortlaşdırmaqdan ibarət olan qadınlar. Kişilər içlərini arıtladılar, qadınlardan bir neçəsi əlində gül dəsti tutmuş və cır səsi ilə cənab doktora xoşbəxtlik diləyib "xoşgəldin" deyəcək balaca qızı çəkib ortaya gətirənə qədər xeyli vaxt keçdi. Diderix gülü mərhəmətli bir ifadə ilə qəbul etdi; indi içini arıtlamaq onun növbəsi idi. Əvvəlcə üzünü özününkülərə çevirdi,

sonra sərt-sərt insanların gözünün içinə baxdı, hamını, eləcə də, kişinin baxışı ürəyincə olmasa da, qarabığlı ustanı sıra ilə süzdü. Axırda dilləndi:

– Camaat! Hamınız mənim tabeliyimdə olduğunuza görə demək istəyirəm ki, gələcəkdə burada iş çox sərt olacaq. Müəssisəyə yeni ab-hava gətirmək niyyətindəyəm. Sahibkarın olmadığı son dövrlərdə, bəlkə də, sizlərdən bəziləri düşünüb ki, özünü tənbəlliyə vura bilər. Amma bu, böyük yanlışlıqdır. Mən bunu xüsusilə o yaşlı adamlara deyirəm ki, onlar rəhmətlik atamın dövründən burada çalışırlar. – Qoca Zötbiri gözdən qoymadan daha yüksək, daha kəskin, daha doğrayıcı tonla dedi: – İndi sükanı öz əlimə almışam. Tutduğum yol doğru yoldur, mən sizi gözəl günlərə aparacağam. Bu işdə mənə yardımçı olmaq istəyənlərin yeri gözümün üstündədir; bu işdə mənə qarşı çıxanları isə qarışqa kimi əzərəm. – Çalışdı ki, gözlərindən od yağsın, amma bığı biz-biz olub yuxarıya qalxdı. – Burada bir ağa var, o da mənəm. Yalnız Allahım və vicdanım qarşısında hesabat verirəm. Çalışacağam həmişə öz atalıq qayğımı üstünüzdən əsirgəməyim. Bir şeyi də bilin ki, mənim əyilməz iradəmin qarşısında istənilən təxribat uğursuzluğa düçardır. Əgər ortaya çıxsa ki, sizlərdən kimsə... – sifətindən şübhə yağan qarabığlı ustanı göz altına aldı, – ...sosial-demokrat dairələrlə cükküldəşib, onda onun qulağından tutub çölə fırladacağam. Çünki istənilən sosial-demokrat mənim üçün fabrikimin və vətənimin düşmənidir... Belə-ə, indi isə iş başına və dediklərimi yaxşı-yaxşı fikirləşin.

Qəfildən arxaya çevrilib fısıldaya-fısıldaya sexdən çıxdı. Dediyi haylı-küylü sözlərdən sərməst olaraq heç bir sifət ona daha tanış gəlmədi. Fəhlələr bugünkü bayram münasibətilə qoyulmuş pivə şüşələrini əllərinə alana qədər səslərini içlərinə salıb bir-birinə baxarkən Diderixin qohumları baş vermiş hadisədən məftun olub onun arxasınca getdilər.

Evdə Diderix anası və bacılarına özünün planlarını açıb söylədi. Fabriki böyütmək lazım idi, bunun üçün gərək qonşunun evini alaydılar. Gərək rəqabətə davam gətirəydilər. Bu gen dünyada yer qazanmaq lazım idi! Qauzenfelddəki kağız fabrikinin sahibi qoca Klüzinq elə bilir kağız sənayesinə ömürlük hakim kəsiləcək. Nəhayət, Maqda soruşdu ki, pulu haradan alacaq; lakin frau Heslinq onun sözünü ağzında qoydu:

– Qardaşın bunu bizdən yaxşı bilir. – Sonra da ehtiyatla əlavə etdi: – Qardaşının ürəyini ovlaya bilsəydilər, çox qızlar özlərini xoşbəxt sayardı. – Oğlunun hirslənəcəyindən qorxub əlini ağzına qoydu. Ancaq Diderix yalnız qızardı. Onda anası onu qucaqlamağa ürək elədi. – Oğlum, əziz balam, evdən çıxıb getsən, bu, mənim üçün sağalmaz bir dərd olar. Belə şey qadın üçün ikiqat çətindir. Baş inspektor Daymxenin arvadı da bu hissləri keçirir, çünki onun Qustesi Volfqanq Buka ərə gedir.

– Ola bilsin ki, yox, – böyük bacı Emmi dedi. – Çünki Volfqanqın hansısa aktrisa ilə macərası var.

Frau Heslinq qızını susdurmağı tamam unutdu.

– Bu qədər pul olan yerdə! Camaat deyir ki, milyonu var!

Diderix ikrahla bildirdi ki, Buku tanıyır və onun ağlı başında deyil.

– Görünür, kökdən gəlir. Axı atası da aktrisa ilə evlənib.

– Nəticəsi göz qabağındadır, – Emmi dedi. – Qızı frau Lauerdən də çox şeylər danışırlar.

– Uşaqlar! – frau Heslinq qorxa-qorxa dilləndi. Lakin Diderix onu sakitləşdirdi:

– Dəymə, ana, pişiyin boğazına zınqırov asmağın vaxtı yetişib. Mən o fikirdəyəm ki, Buk ailəsi bu şəhərdə öz nüfuzunu çoxdan itirib. Onlar pas atmış nəsildir.

– Böyüyü Morisin arvadı, – Maqda dilləndi, – adi bir kəndli qızıdır. Bu yaxınlarda şəhərə gəlmişdi, oğlan da tamam kəndçiləşib.

Emmini hirs götürdü.

– Hə, bəs qoca Bukun qardaşı? Şuxluğunu itirməyib. Beş dənə də ərə getməmiş qızı! Yeməklərini də el mətbəxindən gətirdirlər, burasını dəqiq bilirəm.

– El mətbəxini cənab Bukun özü təşkil edib axı, – Diderix bildirdi. – Eləcə də azadlığa buraxılmış məhbuslara himayədarlıq və daha nələr. Bilmək istərdim ki, öz işləri barədə düşünməyə haçan vaxtı olur.

– Bu adamlann işləri başlarından aşmasa, – frau Heslinq dedi, – bu, məni heç də təəccübləndirməz. Əlbəttə, cənab Buka böyük hörmətim var, çox möhtərəm adamdır.

Diderix acı-acı güldü:

– Bilirsən niyə? Biz qoca Buka ehtiram ruhunda tərbiyə almışıq. Netsiqin nəhəng kişisi. Qırx səkkizinci ildə ölümə məhkum olunub!

– Atan həmişə deyərdi ki, bunun özü də tarixi xidmətdir.

– Xidmət? – Diderix bağırdı. – Bilsəm ki, kimsə hökumətin əleyhinə çıxır, özünü mənim yanımda ölmüş bilsin. Vətənə xəyanət xidmət sayılmalıymış?! – Heyrət içində olan qadınların gözü qarşısında siyasətə atıldı. – Hələ də Netsiqdə sözləri keçən bu yaşlı demokratlar həmin şəhərin birbaşa rüsvayçılığıdır! Hökumət əleyhinə çıxan, vətənpərvərlik hissindən uzaq, taqətdən düşmüş bu insanlar! Zamanənin ruhuna qarşı ironiya! Reyxstaqda bədnam Oyqen Rixterin dostu qoca əyalət hakimi Küleman oturduğuna görə burada iş irəli getmir, heç kim də kredit almır. Təbii ki, bu cür azad düşüncəli yuva olan Netsiqi əsas dəmir yolu şəbəkəsinə qoşmur və ona hərbi qarnizon vermirlər. Nə əhali artımı var, nə də normal yaşayış! Magistratda eyni adamlar, eyni nəsillər oturur, aydın məsələdir ki, sifarişləri onlar bir-birinə ötürürlər, başqaları üçün də heç nə qalmır. Qauzenfeld kağız fabriki bu şəhəri kağızla təmin edir, çünki onun sahibi Klüzinq də qoca Bukun bandasına daxildir.

Maqdanın deməyə yenə də sözü vardı:

– Bu yaxınlarda bizim dərnəkdə həvəskar tamaşanı təxirə saldılar, nə var-nə var, Buk cənablarının qızı frau Lauer xəstələnib. Bu ki popizmdir.

– Popizm yox, nepotizm[1], – Diderix ciddiliklə dedi. Gözlərini oynatdı. – Üstəlik, cənab Lauer də sosialistdir. Qoy cənab Buk özünü gözləsin! Biz onu gözdən qoymayacağıq!

Frau Hesling yalvararaq əllərini göyə qaldırdı:

– İstəkli bala, şəhərdə dost-tanışa baş çəksən, söz ver ki, cənab Bukun da yanına gedəcəksən. Sözükeçən adamdır.

Lakin Diderix söz vermədi.

– Başqalarına da yol açmaq lazımdır! – qışqırdı.

Buna baxmayaraq, həmin gecə narahat yatdı. Saat yeddidə fabrikə getdi, həmin an da səs-küy qopartdı. Çünki dünənki pivə şüşələri tökülüb yerdə qalmışdı.

– Sərxoşluq edirlər, bura sizə pivəxana deyil. Cənab Zötbir, bu, bizim daxili nizamnaməmizdə yazılmayıbmı?

– Nizamnamə? – qoca mühasib heyrətlə soruşdu. – Nizamnaməmiz var ki?!

Diderix deməyə söz tapmadı; Zötbirlə birlikdə kontora girib qapını bağladı.

---

[1] *Nepotizm* – qohumbazlıq

– Nizamnamə yoxumuzdur? Onda məni heç nə təəccübləndirməz. O nə gülməli sifarişlərdir vermisiniz? – bunu deyib məktubları masanın üstünə atdı. – Özümün işə qarışmağımın əsl vaxtıdır. Sizin ümidinizə qalsa, hər şey alt-üst olar.

– Alt-üst olar, cavan cənab?

– Sizin üçün mən cənab doktoram!

Digər fabriklərin hamısına nisbətən malın qiymətini aşağı salmağı tələb etdi.

– Buna duruş gətirə bilmərik, – Zötbir dedi. – Bu cür böyük sifarişləri Qauzenfeld kimi yerinə yetirmək imkanında deyilik.

– Bununla da iş adamı olmaq istəyirsiniz? Onda daha çox maşın quraşdırarıq.

– Bu da pul deməkdir, – Zötbir dedi.

– Pul deməkdir, taparıq. Sizə işləməyi öyrədəcəyəm. Gözünüz kəllənizə çıxacaq. Məni dəstəkləməsəniz, hər şeyi təkcanıma edəcəyəm.

Zötbir başını yırğaladı:

– Atanızla, cavan cənab, həmişə eyni fikirdə olmuşuq. Əl-ələ verib işi bu mərtəbəyə çatdırmışıq.

– İndi zaman başqadır, bunu yaddaşınıza həkk edin. Mən özüm özümün işlər müdiriyəm.

– Bu da sənə qaynar gənclik! – deyib Zötbir köksünü ötürdü, bu arada Diderix qapını bağlamışdı. Mexaniki barabanın cındırı xlorda şaqqaşaqla yuduğu sexlə gedib böyük hollenderin yerləşdiyi otağa daxil olmaq istədi. Girəcəkdə qarabığlı usta gözlənilmədən onunla üz-üzə gəldi. Diderix diksindi, az qaldı fəhləyə yol versin. Amma kişi çəkilənə qədər çiyni ilə onu kənara sıxışdırdı. Fısıldaya-fısıldaya hollenderin işinə, barabanın fırlanmasına, parçanı liflərdən hissələrə ayıran bıçağın necə kəsməsinə baxdı. Bu qara kişidən qorxduğuna görə maşına xidmət göstərən adamlar kənardan ona irişmirdilərmi? “Bu gədə həyasız köpəyin biridirl Gərək onu rədd edəml” Heyvani bir nifrət, onun sarışın varlığının bu arıq qara adama, məmnuniyyətlə aşağı təbəqədən saydığı və ona qorxunc görünən, ayrı irqdən olan bu insana qarşı nifrət baş qaldırdı. Diderix qızışdı:

– Baraban düzgün quraşdırılmayıb, bıçaqlar pis işləyir! – Adamiar işə ara verib ona baxdıqlarına görə bağırdı: – Usta! – və qarabığkişi yaxınlaşanda: – Qaynatdığınız zibilə özünüz

də baxın! Baraban bıçaqların üstünə çox endirilib, bıçaqlar bütün malı doğram-doğram edir. Dəyən ziyana görə siz məsuliyyət daşıyırsınız!

Usta maşının üstünə əyildi.

– Ziyan-zad yoxdur, – sakitcə dilləndi, ancaq Diderix yenə anlamadı ki, kişi qara bığının altında ona gülürmü, gülmürmü. Ustanın baxışında nəsə insanı dəlib-keçən bir kinayə vardı, Diderix buna duruş gətirə bilmədi. Onun gözlərindəki qığılcım söndü, yalnız əlini yellədə bildi.

– Mən sizi cavabdeh sayıram!

– Nə olub ki? – səs-küyü eşidib gələn Zötbir soruşdu. Sonra Diderixə izah etdi ki, parça heç də kiçik liflərlə doğranmır və həmişə də belə olub. Fəhlələr başları ilə təsdiqlədilər, usta isə halını pozmadan dayanmışdı. Diderix özünü peşəkar mübahisəyə hazır saymadı, ona görə də daha bərkdən bağırdı:

– Onda gələcəkdə başqa cür olacaq! – deyib birdən arxaya çevrildi. Cındır sexinə yetişib özünü düzəltdi və işdən başı çıxan adamlar kimi uzun masaların xəlbirli üstündə cındırları sortlaşdıran qadınlara nəzər saldı. Alçaqboylu, qaragözlü bir qadın başındakı əlvan örtüyün altından bir balaca ona gülümsəmək istəyəndə elə sərt üz göstərdi ki, qadın qorxub geri çəkiləsi oldu. Rəngli cındırlar kisələrdən yerə töküldü, sahibkarın sərt baxışı altında qadınların pıçapıçı kəsdi; masalara bərkidilmiş, düymələri doğrayan bıçaqların asta titrəyişindən başqa isti, boğucu havada heç nə eşidilmədi. Lakin istilik borularını yoxlayan Diderix nəsə şübhəli bir şey eşitdi. Kisə qalağının arxasına əyildi və ürküb geriyə sıçradı, qızarmışdı və bığları əsirdi.

– Bircə bu qalmışdı! – qışqırdı. – Çıxın! – Cavan bir fəhlə sürünə-sürünə gəldi. – Zənən xeylağı da! – Bir də bağırdı. – Çoxmu çəkəcək? – Nəhayət, qız görünəndə Diderix əllərini yumruqlayıb belinə qoydu. Hə, belə yerdə darıxmaq olmaz! Onun fabriki təkcə pivəxana deyilmiş, həm də ayrı şeyimiş. Elə bərkdən bağırdı ki, hamı yığışıb buraya gəldi. – Hə, cənab Zötbir, deyəsən, buranın bünövrəsi əvvəlcədən belə qurulub! Uğurlarınıza görə sizi təbrik edirəm. Deməli, adamlar iş vaxtından istifadə edib kisələrin arxasında mazaqlaşmağa öyrəşiblər. Bu gədə buraya haradan düşüb? – Cavan oğlan dedi ki, qız onun nişanlısıdır. – Nişanlı? Burada nişanlı-mişanlı yoxdur, yalnız fəhlələr var. Hər ikiniz pulunu

sizə ödədiyim iş vaxtını oğurlayırsınız. Siz həm donuzsunuz, həm də oğru. Atıram sizi bayıra və ictimai əxlaqsızlığınıza görə sizi polisə də verəcəyəm! – Ətrafa sınayıcı bir nəzər saldı. – Mən burada alman əxlaqını və ənənəsini tələb edirəm. Aydındır? – Bu vaxt onun baxışı ustaya tuş gəldi. – Üz-gözünüzü turşutsanız da, mən buna nail olacağam! – bağırdı.

– Üz-gözümü turşutmadım, – kişi həyəcansız cavab verdi. Lakin Diderixi saxlamaq daha mümkün deyildi. Axır ki, kişiyə nəyi isə sübut edə bildi!

– Davranışınız çoxdan mənə şübhəli gəlir! Siz öz işinizi görmürsünüz, görsəydiniz, mən bu iki adamı "iş başında" tutmazdım.

– Mən nəzarətçi deyiləm, – kişi sözünü ortaya tulladı.

– Siz adamla söz güləşdirən, tabeliyimdə olan insanları əxlaqsızlığa öyrədənsiniz. Dövlətin özülünü qazanlardansınız! Yaxşı, adınız nədir?

– Napoleon Fişer, – kişi cavab verdi. Diderix duruxdu.

– Nap... bircə bu qalmışdı! Sosial-demokratsınız?

– Bəli.

– Elə də bilirdim. İşdən çıxarılırsınız. – Üzünü camaata tutdu: – Bunu yadınızda saxlayın! – Sonra sexi tərk etdi. Həyətdə Zötbir onun arxasınca qaçdı.

– Cavan cənab! – Bərk həyəcanlanmışdı və kontorun qapısını arxalannca örtməmiş heç nə demək istəmirdi. – Cavan cənab, – mühasib sözünə davam etdi, – belə yaramaz, kişi həmkarların üzvüdir.

– Ona görə də qovulmalıdır, – Diderix cavab verdi. Zötbir izah etməyə çalışdı ki, bu mümkün olmayacaq, çünki belə olanda hamı işi dayandıracaq. Diderix başa düşmək istəmirdi. Məgər hamı həmkarların üzvü idi? Yox. Onda, deməli. Lakin Zötbir bildirdi ki, adamlar qırmızılardan qorxur. Hətta yaşlı insanlara da etibar qalmayıb.

– Hamısını çölə atacağam! – Diderix qışqırdı. – Büsbütün, heç izləri-tozları da qalmayacaq!

– Əgər başqalarını tapa bilsək, – deyib Zötbir hirsindən özünü mebelə çırpan cavan cənabı göz qapaqlarının altındakı yüngül bir təbəssümlə süzdü. O da səsini başına salıb bağırdı:

– Mən öz fabrikimin ağasıyam, ya yox? Ağasıyamsa, onda...

Zötbir onun hirsinin soyumasını gözləyib dedi:

– Cənab doktor, siz Fişerə heç nə deməyin, o, bizi qoyub gedən deyil, bilir ki, bundan ötrü başımız ağrıyar.

Diderix təzədən coşdu.

– Belə-ə, deməli, ondan xahiş edim ki, mərhəmət göstərib getməsin? Əlahəzrət Napoleon! Onu bazar günü günorta yeməyinə də dəvət edim? Bu, mənim üçün böyük şərafət olarmış!

Qan Diderixin beyninə vurmuşdu, otaq ona həddən artıq dar gəldi və o, dartıb qapını açdı. Məhz bu vaxt usta oradan keçib-gedirdi. Diderix onun arxasınca baxdı, nifrət başqa vaxtlara nisbətən onun düşüncələrini daha aydın etmişdi; elə həmin an o, kişinin əyri, arıq qıçlarını, sümüklü çiyinlərini, qabağa sallanan qollarını və fəhlələrlə söhbət etdiyinə görə onun yuxa qara saqqalla örtülmüş güclü çənəsinin işlədiyini gördü. Diderix bu sir-sifətə, bu düyünlü əllərə necə də nifrət edirdi! Qara gədə çoxdan aralanmışdı. Lakin onun tərinin iyi Diderixin burnundan getmirdi.

– Görürsünüz də, Zötbir, qabaq pəncələri az qalır yerə dəysin. İndicə dörd ayağının üstündə qaçıb qoz yeyəcək. Bu meymuna badalaq gələcəyik, mənə arxayın ola bilərsiniz! Napoleon! Adın özü başdan-ayağa provokasiyadır. Amma gərək özünü yığışdırsın, çünki bildiyim qədər bizdən birinin... – Diderixin gözləri oynadı, – ... meyiti yerdə qalacaq.

***

Başını şax tutub fabrikdən çıxdı. Şəhərin irəlidə gedən kişilərinə diqqət göstərmək üçün qara paltarda yola düzəldi. Şveynixenstrasedə yaşayan burqomistr doktor Şeffelvaysın yanına düşmək üçün Meyzeştrasedən indi Qeysər-Vilhelmştrase adlanan Vuxererştraseyə burula bilərdi. Özu da bunu istəyirdi. Həlledici anda isə, sanki, öz-özü ilə gizlində sövdələşmiş kimi, Fleyşhauergrubeyə döndü. Qoca cənab Bukun evinin qarşısındakı iki pillə şəhərin iki nəslinin ayaqlarından zlliflƏşmişdi. Sarı rəngli şüşə qapıdakı zınqırov içəridəki kimsəsizlikdə uzun bir zınqıltı qopartdı. Sonra içəridə, lap arxada bir qapı açıldı və yaşlı qulluqçu ayağını sürüyə-sürüyə dəhlizlə yeridi. Lakin o, qapıya çatmamış ev sahibinin özü iş otağından çıxıb qapını açdı. Kişinin qarşısında cidd-cəhdlə təzim edən Diderixin qolundan tutub içəri çəkdi.

– Əzizim Heslinq! Sizi gözləyirdim, gəlişinizi mənə xəbər vermişdilər. Netsiqə xoş gəlmisiniz, cənab doktor.

Diderixi o saat yaş boğdu və o, dili dolaşa-dolaşa dedi:

– Siz çox xeyirxahsınız, cənab Buk. Təbii ki, əvvəlcə və hamıdan qabaq sizə baş çəkmək və sizi əmin etmək istəmişəm ki, mən həmişə büsbütün... həmişə büsbütün... sizin qulluğunuzdayam, cənab Buk. – Yaxşı şagird kimi gülər üzlə sözünü tamamiadı. Qoca cənab Buk onun qolundan hərarətli, bununla belə, həm də yüngül və yumşaq əli ilə daha bərk tutdu.

– Qulluğu, – o özü Diderixi kürsüyə oturtdu, – mənə yox, sizə minnətdar olacaq həmvətənlərinizə göstərməyə çalışın. Həmvətəniəriniz sizi tezliklə deputat seçəcəklər, bunu mən əminliklə deyə bilərəm, çünki onlar qədirbiləndirlər. Sonra isə... – o, üzünə adama çox şey vəd edən təntənəli bir ifadə verdi, – ümidimi sizə bağlayıb gözləyirəm ki, sizi tezliklə magistratda görməyə bizə imkan yaradacaqsınız. – Diderix xoşbəxtliklə gülümsəyərək baş endirdi, sanki, onu magistratda elə indi salamlayırdılar. – İnsanlarımızın düşüncələri, – cənab Buk sözünə davam etdi, – deməzdim ki, bütün sahələrdə yaxşıdır... – onun keçi saqqalı ipək şalın içinə quyiandı. – Amma Allahın rizası ilə, – saqqal yenidən üzə çıxdı, – əsl liberalların fəaliyyətinə yer tapılar.

– Mən, əlbəttə, büsbütün liberalam, – Diderix ürəkdən dilləndi. Bu sözdən sonra qoca Buk yazı masasındakı kağızlara sığal çəkdi.

– Rəhmətlik atanız tez-tez burada mənimlə üzbəüz oturardı. Lap tez-tez də fabrikini quran vaxtlarda. O zaman mən böyük məmnuniyyətlə ona əl tuta bildim. Söhbət indi sizin həyatinizdən axan arxdan gedir.

Diderix ürəyinin dərinliyindən gələn bir səslə:

– Atam, cənab Buk, tez-tez mənə deyərdi ki, əsas ruzi mənbəyimiz oian həmin arx üçün yalnız sizə minnətdardır, – dedi.

– Gərək təkcə məni deməyəsiniz, bu, icmamızın ədaləti sayəsində mümkün oldu, amma bacarsaydılar, orada da... – qoca Buk qanı qaçmış şəhadət barmağını yuxarı qaldırıb Diderixi əməlli-başlı süzdü, – müəyyən adamlar və hansısa partiya bəzi şeyləri dəyişdirərdi. – Bir az da güclü və pafosla: – Düşmən qapının ağzını kəsdirib, gərək əl-ələ verək. – Xeyli fasilə verib yüngül tonla, hətta güclə sezilən

bir təbəssümlə əlavə etdi: – Dəyərli cənab doktor, siz indi atanızın ovaxtkı vəziyyətində deyilsiniz, elə deyilmi? İstehsalı genişləndirmək istəyirsiniz?! Planlarınız var!?

– Niyə də olmasın?!

Diderix nəzərdə tutduqlarını cidd-cəhdlə izah etdi. Qoca diqqətlə ona qulaq asdı, başı ilə razılığını bildirib nəfəsini dərdi, axırda isə dedi:

– Gördüyüm qədər, yenidənqurma sizə təkcə böyük məbləğə başa gəlməyəcək, həm də magistratda mənimlə birgə çalışan şəhər tikinti polisi ilə müəyyən mənada çətinliklər yaradacaq. İndi isə yazı masamın üstündəkiylə özünüz tanış olun, əzizim Heslinq. – Diderix özünün və qonşusunun torpaq sahələrinin dəqiq planını gördü. Onun şaşqın sir-sifəti qoca Bukun üzündə məmnunluq təbəssümü doğurdu. – Çalışaram, ortaya ağırlaşdırıcı hallar girməsin, – dedi. Diderixin minnətdarlığının müqabilində isə əlavə etdi: – Dostlarımızın hər birinə irəliyə getməkdə yardımçı olarkən biz böyük əməllərə xidmət etmiş oluruq. Çünki xalq partiyasının dostları hamıdır, təkcə zülmkarlardan başqa. – Bu sözlərdən sonra qoca Buk kresloya quylanıb əllərini çarpazladı. Üzündəki gərginlik çəkilmişdi, o, əsl baba kimi başını yırğaladı. – Uşaqlığınızda elə gözəl sarışın saçlarınız vardı ki! – dedi.

Diderix başa düşdü ki, söhbətin rəsmi hissəsi bitdi.

– O da yadımdadır ki, – özündə cəsarət tapıb dedi, – balaca olanda buraya gələrdim, oğlunuz cənab Volfqanqla əsgər-əsgər oynayardım.

– Hə, hə. O, yenidən əsgər-əsgər oynayır.

– Oo! O, zabitlərin sevimlisidir. Özü mənə deyib.

– Arzu edərdim ki, əzizim Heslinq, onda sizin praktiki bacarığınızın, ən azı, yarısı olsun... Hə, evləndirəndən sonra bir az sakitləşər.

– Düşünürəm ki, – Diderix dedi, – cənab oğlunuzda dahilik nişanəsi var. Buna görə də heç nədən razı qalmır, bilmir general olsun, yoxsa böyük bir adam.

– Əfsuslar ki, hələlik gicliklərlə məşğuldur. – Qoca pəncərədən çölə baxdı. Diderix onu boğan marağı dilə gətirməyə ürək eləmədi.

– Gicliklərlə? Heç cür inana bilmirəm, çünki həmişə məndə rəğbət hissi oyadıb, məhz öz intellekti ilə. Hələ əvvəllər, yazdığı inşalar və bu yaxınlarda qeysərimizin

barəsində dedikləri, əslində, birinci fəhlə başçısı olmaq istəməsi...

– Allah fəhlələri bundan qorusun.

– Necə yəni? – Diderix yaman heyrətləndi.

– Belə olsa, vay onların halına. Elə bizlərin də halı yaxşı olmaz.

– Axı Hoentsollemlərin sayəsində bizim unitar almaniya səltənətimiz var.

– Yoxumuzdur, – qoca Buk deyib qeyri-adi bir cəldliklə kürsüdən qalxdı. – Çünki birliyimizi sübut etmək üçün adam öz iradəsinin ardınca getməyi bacarmalıdır; bunu bacarırıqmı? Birgəliyi siz beyninizə yerltmisiniz, çünki nökərçilik mərəzi ümumiləşib! Bunu mənim kimi sağ qalanlardan biri, daha doğrusu, Herveyq yetmiş birinci ilin baharında qələbədən sərməst olmuş almanlara demişdir. Görəsən, bu gün nə deyərdi?!

O biri dünyadan gələn bu səsin qarşısında Diderix yalnız kəkələyə bildi:

– Hə də, siz qırxsəkkizincilərdən birisiniz!

– Əziz gənc dostum, demək istəyirsiniz dəliyəm, məğlubam. Elədir! Biz məğlub edildik, çünki bu xalqa inanmaqda yetərincə dəlilik etmişdik. İnanırdıq ki, hökmdarlann əlindən sədəqə kimi aldığını indi həmin xalq öz azadlığı bahasına öz gücü ilə qazanacaq. Bu xalqı biz güclü, zəngin, öz durumunu ayıq başla qiymətləndirən və gələcəyə böyük ümid bəsləyən bir xalq kimi təsəvvür edirdik. Başa düşmürdük ki, siyasi cəhətdən geridə qalmış bu xalq irəliyə sıçrayışdan sonra keçmişdəki güclərin buxovundan qopa bilməyəcək. Hələ bizim zəmanəmizdə ümumi işə biganə olan, şəxsi mənafelərinin ardınca qaçıb hansısa mərhəmət günəşinin altında qızınaraq iddialı həzz yaşamının nanəcib ehtiyacları ilə kifayətlənə bilən çoxlu-çoxlu insanlar vardı. O çağdan onlar legionlara çevrilmişlər, çünki ictimai rifah qayğısından məhrum edilmişlər. Hökmdarlarınız sizlərdən böyük dövlət yaradıb və bu arada siz əlləşib-vuruşub pul toplayana, onu istədiyiniz kimi xərcləyənə qədər onlar sizə, daha doğrusu, özlərinə o dövrdə biz özümüzə yaratmaq istədiyimiz dəniz qüvvələrini yaradacaqlar. Həmin günlərdə şairimizin demiş olduğu sözləri siz yalnız indi başa düşərsiniz: “Kolumbun açdığı cığırla indi Almaniyanın gələcəyi doğmaqdadır!”

– Bismark, doğrudan da, nəsə etdi axı, – Diderix içində sevinərək dedi.

– Məsələnin canı da ondadır ki, ona etməyə imkan yaratdılar! Amma o, bunların hamısını faktiki etsə də, formal olaraq öz ağasının adından icra edirdi. Qırx səkkizin adamları olan bizlər, bunu sizə tam əminliklə deyə bilərəm, daha vicdanlı və doğrucul idik, çünki o vaxt etdiklərimin hamısının bədəlini özüm ödəmişəm.

– Elədir, sizin o vaxt ölümə məhkum olunduğunuzu bilirəm, – Diderix yenidən çəkinə-çəkinə dedi.

– Məhkum olunmuşdum, çünki mütləqiyyətə qarşı Milli Məclisin suverenliyini müdafiə edib özünü müdafiəyə qalxmış xalqı üsyana çağırmışdım. Vahid Almaniya bizim qəlbimizdə bu cür idi, o, vicdanımızın borcu, hər birimizin ayrılıqda daşıyacağımız suç idi. Xeyr! Biz vahid Almaniyanın üzdəniraq yaradıcılarından heç birini mədh etməmişik. O vaxt məğlub olaraq, satılaraq axırıncı dostlarımla burada, evimin üst qatında qeysərin əsgərlərini gözləyəndə, böyük və cılızlığımdan asılı olmayaraq mən özü öz idealını yaradan bir insan idim, minlərdən biri, ancaq insan. Harada qaldı onlar?

Qoca danışığına ara verdi və üzünə baxanda deyərdin ki, nəyəsə qulaq asır. Diderixin canına istilik gəldi. Hiss etdi ki, bütün bunlara uzun müddət susa bilməz. Odur ki dedi:

– Allaha çox şükür, alman xalqı indi mütəfəkkirlər və şairlər xalqı deyil, o, çağdaş, praktiki məqsədlərə can atır.

Qoca Buk xəyallardan ayılıb otağın tavanına işarə etdi:

– O vaxt bütün şəhər buraya, mənim evimə yığışardı. İndi tənhalıqdan qulaq tutulur, axırda Volfqanq da çıxıb getdi. Mən hər şeydən çəkilib oturardım, ancaq cavan oğlan, biz keçmişimizə hörmətlə yanaşmalıyıq, lap məğlub olsaq belə.

– Şübhəsiz, – Diderix dedi. – Siz yenə də bu şəhərin ən qüdrətli insanı olaraq qalırsınız. Camaat hər yanda deyir ki, bu şəhər cənab Bukundur.

– Bircə bunu istəmirəm, istəyirəm ki, şəhər özü-özününkü olsun. – Dərindən nəfəs aldı. – Bu çox-çox uzaqlara gedən bir məsələdir. Əgər bizim idarəçiliyimizə nəzər yetirsəniz, özünüz tədricən görəcəksiniz. Hökumət və onun buyruq qulları olan yunkerlər bizi hər gün sıxışdırır. Bu gün məcbur edirlər ki, şəhərə vergi ödəməyən mülkədarları

işıqla təmin edək, sabah isə onlara hətta yol da çəkəsi olacağıq. Belədə də özünüidarəçiliyimiz təhlükə altına düşür. Bir də gözümüzü açıb görəcəyik ki, hər tərəfdən mühasirəyə alınmış bir şəhərdə yaşayırıq.

Diderix iddialı-iddialı gülümsədi.

– Dediyiniz qədər də pis olmamalıdır, çünki qeysərimiz müasir şəxsiyyətdir.

– Hə, elədir, – qoca Buk dedi. Sonra yerindən qalxıb başını yırğaladı, axırda da susmağa üstünlük verdi. Əlini Diderixə uzatdı.

– Əziz doktor, sizin dostluğunuz mənim üçün atanızla olan dostluğumuzdan da qiymətli olacaq. Danışıqlarımızdan sonra məndə belə bir ümid yarandı ki, biz hər işdə birlikdə hərəkət edəcəyik.

Qocanın həlim mavi gözlərindən qopan baxışların altında Diderix öyünməyə başladı:

– Mən təpədən-dımağa liberalam!

– İlk öncə özünüzü hökumətin təmsilçisi fon Vulkaudan gözləyin. O, bizim boğazımıza bağlanmış düşməndir. Magistrat onunla yalnız əlahiddə məsələlərdə əlaqə qurur. Mənim üçün böyük şərəfdir ki, bu cənab mənimlə salamlaşmır.

– Oo! – Diderix büsbütün çaşaraq heyrətini bildirdi.

Qoca Buk özü qapını ona açdı, deyəsən, bir az fikirli görünürdü.

– Dayanın! – deyib tələsik kitabxanasına getdi, aşağı əyilib toz basmış rəfdən balaca, az qala, kvadrat bir kitab götürüb geri qayıtdı. Qızarmış sifətindəki gizli bir parıltı ilə kitabı Diderixə verdi. – Götürün! Bu, mənim "Fırtına zəngləri"mdir! Şairliyimiz də vardı... o vaxt. – Bunu deyib Diderixi astaca çölə çıxartdı.

***

Fleyşhauergrube[1] yoxuşa qalxırdı, ancaq Diderix təkcə buna görə tövşümürdü. İlk anların keyliyindən sonra onda tədricən belə bir duyğu baş qaldırmışdı ki, özünü axmaq yerinə qoydurdu. "Bu kaftar zəvzək bostan oyuğundan başqa bir şey deyil, amma mənim döşümə yatır!" Ölümə məhkum edilmiş qoca Bukun uşaqlıqda onda buna bənzər

[1] *Fleyşhauergrube* – Qəssablar küçəsi

ehtiram və tindəki polis, yaxud qəsr ruhları kimi eyni qorxu doğurduğunu dumanlı şəkildə xatırlamalı oldu. "Mən ömrüm boyu bu cür həlməşikmi qalacağam? Bir başqası özü ilə bu cür rəftara yol verməzdi!" Bu qədər rüsvayçı danışıqlara susması, yaxud dilucu etiraz etməsi pis nəticələrə gətirib çıxara bilərdi. Növbəti dəfə üçün daha tutarlı cavablar fikirləşdi. "Bütün bunların hamısı tələ idi! O məni həmin tələyə salıb qərarsızlaşdırmaq istəyirdi... Amma baxıb görər!" Diderix cibinə soxduğu əlini düyünləmişdi, Qeysər-Vilhelm-Ştrase ilə başını dik tutub gedirdi. "Hələlik gərək onunia münasibətləri korlamayaq, ancaq güclənsə, vay onun halına!"

Burqomistrin evi zeytun rəngində boyanmışdı və aynalı pəncərələr par-par parıldayırdı. Onu qəşəng bir qulluqçu qız qarşıladı. Üz-gözündən məsumluq yağan və əlində çıraq tutmuş oğlan Diderixi pilləkənlə hər mebelin qarşısında xırda xalı olan dəhlizdən keçirib yemək otağına gətirdi. Otağın divarlarına açıqrəngli taxta vurulmuş və həmin divarlardan iştaha açan şəkillər asılmışdı, həmin şəkillərin arasında burqomistrlə bir kişi ikinci səhər yeməyini yeyirdilər[1]. Doktor Şefervays ağımsov əlini Diderixə uzadıb pensnesinin üstündən onu süzdü. Bununla belə, onun kiməsə baxıb-baxmamasını dəqiq bilmək olmurdu, çünki qulaqlarına doğru daranmış birçəkli, solğun sifəti kimi solğunlaşmış gözləri heç nə ifadə etmirdi. Burqomistr bir neçə dəfə söhbətə başlamaq istədi, axırda bütün vəziyyətlər üçün deyilə bilən bir şey tapdı.

– Gözəl çapıqlardır, – deyib qarşısındakı o biri cənaba müraciət etdi: Siz də bu fikirdə deyilsinizmi? – O biri cənab Diderixin o qədər də ürəyinə yatmırdı, çünki görkəmindən yəhudilik yağırdı. Lakin burqomistr onu təqdim etdi: – Prokurorluqdan cənab asessor Yadaszon. – Bu da Diderixin əməlli-başlı təzim etməsinə yetərli oldu.

– Əyləşin, – burqomistr sözünə davam etdi, – biz də elə indicə başlamışıq. – Diderixə pivə süzüb qızılbalıq qurusunu onun qabağına qoydu. – Arvadımla qayınanam şəhərə çıxıblar, uşaqlar məktəbdədir, bu da subayların saatıdır, prost!

[1] Almanlar gündə iki səhər yeməyi yeyirlər. İlk səhər yeməyi sübh tezdən yüngül buterbrod və bir fincan qəhvədən ibarət olur, 9oo və 930 arasındakı ikinci səhər yeməyinə isə birinciyə nisbətən daha kalorili qidalar – yumurta, qolbas, süd, şirə, paştet və s. daxil edilir.

Prokurorluqdan olan “yəhudi” cənab hələlik gözünü qulluqçu qızdan çəkmirdi. Qız onun masasının yanında dayanıb nəsə bir iş görəndə kişinin əli yoxa çıxdı. Qız aralanıb getdi və kişi ictimai məsələlərdən danışmağa başlamaq istədi, lakin burqomistr sözünün kəsilməsinə imkan vermədi. – Hər iki xanım günorta yeməyindən tez gəlməyəcək, çünki qayınanam diş həkiminə gedəsiydi. Yaxşı bilirəm, ağrı-acısı çox olacaq, bu arada da ev bizim ixtiyarımızdadır. – Bufetdən bir likör çıxartdı, onu tərifləyib, qonaqların da bunu təsdiqləməsinə nail oldu, sonra da çeynəyə-çeynəyə danışmağına ara verərək özünün bu çeşt idilliyasını mədh etdi. Bu qədər xoşbəxtlik içində onun üzünə tədricən bir qayğı qondu və görünür, hiss etdi ki, söhbət bu cür davam edə bilməz; hamı bir dəqiqə susandan sonra danışmağı qət etdi.

– Yanılmıramsa, cənab doktor Heslinq... mənim evim sizinki ilə çox da yaxın deyil və siz məndən öncə başqa cənablara baş çəkmisinizsə, bunu tam anlaşılan hesab edirəm.

Diderix hələlik dilinə gətirmədiyi yalandan qızardı. “Onsuz da bilinəcək”, vaxtında fikirləşib dedi:

– Doğrudan da, özümə rəva bildim... Əslində, ilk yolumu sizdən salmaq istəyirdim, cənab burqomistr. Qoca cənab Buka böyük hörməti olmuş atamın xatirinə...

– Anlayıram, tam anlayıram. – Burqomistr var gücü ilə başını dala-qabağa atdı. – Cənab Buk hörmət bəslədiyimiz vətəndaşların ən yaşlısıdır, ona görə də, şübhəsiz ki, təsir gücü tam qanuni sayılmalıdır.

– Hələlik hə! – prokurorluqdan olan yəhudisifət kişi gözlənilməyən kəskin bir səslə dillənib təkidlə Diderixə baxdı. Burqomistr qarşısındakı pendirin üstünə əyilmişdi, Diderix özünü köməksiz hiss edib gözlərini döydü. Cənabın baxışları etiraf tələb etdiyindən Diderix “insanların canına hopmuş hörmət” barədə nəsə mızıldandı, hətta ilk dəfə cənab Bukun yanına getdiyini bağışlaya biləcək uşaqlıq xatirələrindən danışdı. Danışa-danışa da prokurorluqdan olan cənabın həddən artıq yekə, qırmızı və şəlpə qulaqlarını diqqətdən qaçırmadı. Kişi Diderixin özünü itirmiş müttəhim kimi pəltəkləməsini axıra qədər dinlədi; nəhayət, tam kəskinliklə əlavə etdi: – Hörmət müəyyən hallarda ona görə var ki, onun tərkini qılasan.

Diderix quruyub qaldı; sonra anlaşıqlı bir gülüşə qərar verdi. Burqomistr solğun təbəssüm və barışdırıcı bir əl hərəkəti ilə dedi:

– Cənab asessor doktor Yadaszon kəskin kəlmələrin şakəridir, mən də bunu şəxsən yüksək dəyərləndirirəm. Tutduğum vəzifədə məcburam ki, məsələlərə obyektiv və önittiham olmadan yanaşım. Amma desəm, yerinə düşər: bir tərəfdən...

– Gəlin birbaşa digər tərəfdən başlayaq! – Asessor Yadaszon təkidlə bildirdi. – Dövlət nümayəndəsi və mövcud quruluşun sadiq tərəfdarı kimi bu Buk da, onun məsləkdaşı, Zeyxstaqın deputatı Küleman da keçmişlərinə və siyasi baxışlarına görə mənim üçün qiyamçılardır, vəssalam. Gizlənpaç oynamağın vaxtı çoxdan keçib, belə şeyi almana xas hesab etmirəm. Xalq mətbəxi açmaq, mənə qalarsa, xalq üçün ən gözəl qida yaxşı düşüncə tərzidir. Dəlixana özü də tam xeyirli ola bilər.

– Əgər onda qeysərə sədaqət olarsa! – Diderix tamamladı. Burqomistr sakitləşdirici bir çay verdi.

– Cənablar! – az qala yalvarışla dilləndi. – Cənablar! Öz aramızda qalsın, adıçəkilən şəxslərə tam hörmətlə yanaşsaq, onda doğru olar ki, digər tərəfdən...

– Digər tərəfdən! – Yadaszon boz-boz təkrarladı.

– ...yenə də digər tərəfdən dövlət nümayəndələrinə olan xoşagəlməz münasibətlərə təəssüflərimiz təəssüf olaraq qalır... sizdən xahiş edərdim ki, hökumətin başçısı cənab Vulkaunun şəhər idarələrinə qarşı qeyri-adi sərtliyini nəzərdən qaçırmayasınız.

– Naqis fikirli adamlara qarşı! – Yadaszon öz sözünü dedi. Diderix də cəsarətə gəldi:

– Mən başdan-ayağa liberal adamam, amma onu da deyim ki...

– Hökumətin haqlı diləklərinə qarşı çıxan şəhər, – asessor bildirdi, – heç təəccüblənməməlidir ki, ona arxa çevirirlər.

Burqomistr onlara duetlərini tamamlamağa imkan verdi, bənizi ağarmışdı və pensnenin arxasındakı göz qapaqları aşağı sallanmışdı. Birdən onlara ötəri bir təbəssümlə nəzər saldı.

– Cənablar, özünüzə əziyyət verməyin, şəhər üsuli-idarəsinin bəyan etdiyi düşüncələrdən fərqli bir düşüncənin

olduğunu mən də bilirəm. İnanın ki, əlahəzrət keçənilki manevrlər zamanı son dəfə bu əyalətdə olanda ona tərənnüm teleqramının göndərilməməsində mənim günahım yoxdur...

– Magistratın bundan imtina etməsi almanlara yaraşan deyil, – Yadaszon öz hökmünü verdi.

– Millətin bayrağı uca tutulmalıdır! – Diderix öz iddiasını büruzə verdi. Burqomistr əllərini yuxarı qaldırdı.

– Cənablar, bunu mən də bilirəm. Amma mən, olsa-olsa, magistratın sədriyəm və təəssüflər ki, onun qərarlarını icra etməliyəm. Buyurun, mövcud vəziyyəti dəyişdirin! Cənab doktor Yadaszon sosial-demokratların müəllimi Rettix barədə hökumətlə mübahisəmizi, gərək ki, yaddan çıxarmayıb. O adama qarşı tədbir görə bilmədim. Amma cənab fon Vulkau dəqiq bilir ki, – burqomistr gözünün birini yumdu, – Rettixə qarşı istənilən tədbiri görməyə hazıram.

Bir xeyli susub bir-birinə baxdılar Yadaszon fınxırdı, sanki, bu söhbətlər onu cana doyurmuşdu. Lakin Diderix uzun müddət özünü saxlaya bilmədi.

– Sosial-demokratiyanın ilk məhsulu liberalizmdir! – ucadan dedi. – Buk, Küleman və Oyqen Rixter kimi adamlar fəhlələrimizi sırtıqlaşdırırlar. İş və məsuliyyət məsələlərində müəssisəm məndən ən ağır qurbanlar tələb edir, üstəlik, adamlarla münaqişələrim də olur. Bəs niyə? Çünki qırmızı təhlükəyə qarşı vahid cəbhədən çıxış etmirik, hələ bu azmış kimi, elə işverənlər də var ki, sosialistlərin nüfuz dairəsində fırlanırlar, məsələn, cənab Bukun kürəkəni. Fabrikinin gətirdiyi gəlirlərə cənab Lauer öz fəhlələrini ortaq edib. Bu ki mənəviyyatsızlıqdır! – Bu yerdə Diderix cuşa gəldi. – Zira o, mövcud üsuli-idarənin qəbrini qazır və mən öz mövqeyimdə qalıram ki, bu cür çətin bir zəmanədə nizam-intizama daha çox ehtiyac duyuruq, buna görə də dəmir ələ ehtiyacımız var və bu dəmir əl də bizi idarə edən həşəmətli gənc qeysərimizdir. Bir daha bəyan edirəm ki, bütün məsələlərdə mən əlahəzrətin tərəfindəyəm... – Bu yerə çatanda kişilərin ikisi də baş endirdi, Diderix də gözləri alışıb yana-yana yüngül təzimlə onlara cavab verdi. Onun fikrincə, ölməkdə olan nəslin hələ də inandığı demokratik hərc-mərcliyin müqabilində qeysər gəncliyin nümayəndəsi, fövqəlşəxsiyyət, ən sevindiricisi də odur ki, coşqulu, həddən ziyadə orijinal bir müdrikdir. – Ağa bir olar! Bütün sahələrdə! –

deməklə Diderix özünün kəskin və döyüşkən fikirlərini tam etiraf edəsi oldu, bundan sonra da bildirdi ki, azadfikirli süründürməçilərin kökünün Netsiqdə də kəsilməsinin vaxtı çoxdan yetişib. – İndi zaman büsbütün dəyişir!

Diderix ürəyini boşaldana qədər Yadaszonla burqomistr səssizcə qulaq asdılar; bundan Yadaszonun qulaqları daha da böyüdü. Axırda o qarıldadı:

– Netsiqdə də qeysərə sadiq adamlar var!

Diderixin qarıltısı onunkundan bərk çıxdı:

– Sadiq olmayanların halına isə biz baxacağıq. Onda məlum olacaq ki, müəyyən adamlar tutduqları vəzifələrə layiqdirlərmi. Qoca Bukun özünü heç dilə də gətirmirəm, bəs onun qohumları kimdir? Oğlunun biri kəndçiləşib, biri də avaralıq edir, kürəkəni sosialist, qızı da ki...

Üçü də bir-birinə baxdı. Burqomistr kişnəyib bir balaca qızardı. Aldığı ləzzətdən özünü saxlaya bilmədi:

– Cənablar, yəqin, bilmirsiniz ki, cənab Bukun qardaşı bankrot olub.

Onlar məmnunluqlarını hay-küylə bildirdilər. Beş nərmənazik qızın atası olan o! "Harmoniya" cəmiyyətinin sədri! Amma yeməklərini xalq mətbəxindən gətirdir, burasını Diderix dəqiq bilirdi. Bu sözlərdən sonra burqomistr araq süzüb siqar təklif etdi. Onda qarşıdan gələn dəyişikliklərə daha şübhə qalmadı.

– İl yarımdan sonra reyxstaqa növbəti seçkilər keçiriləcək. Ona qədər qoy cənablar işləsinlər.

– Gəlin üçümüzü elə indidən seçki komitəsi sayaq, – Diderix təklif etdi.

Yadaszon xatırlatdı ki, əvvəlcə cənab hökumət başçısı ilə əlaqəyə girmək lazımdır.

– Tam məxfi, – burqomistr əlavə edib göz vurdu.

Diderix təəssüflə bildirdi ki, şəhərin ən böyük mətbuat orqanı "Netziger Zeitung"[1] azadfikirlilərin təsir dairəsindədir.

– Əsl yəhudi qəzeti! – Yadaszon dedi. – Amma hökumətə sadiq olan vilayət qəzetinin şəhərdə heç bir təsir gücü yoxdur.

Qoca Klüzinq Qauzenfelddən hər iki qəzeti kağızla təmin edirdi. "Netziger Zeitung"un payçılarından biri olan

---

[1] *"Netziger Zeitung"* – hərf.: "Netşiq qəzeti"

bu kişinin vasitəsilə qəzetə təsir göstərmək imkanını Diderix istisna etmədi. Klüzinqi qorxutmaq lazım idi ki, vilayət qəzeti onun əlindən çıxacaq.

– Çünki Netsiqdə bir kağız fabriki də var, – deyib burqomister gülümsədi.

Bu vaxt qulluqçu qız otağa daxil olub bildirdi ki, günorta yeməyi üçün süfrə açmalıdır; möhtərəm xanım indicə qayıdacaq.

– ...Elə kapitan arvadı da, – deyib əlavə etdi.

Bu titulun adı çəkilən kimi burqomistr tələsik yerindən qalxdı. Qonaqlarını yola salandan sonra başını aşağı endirdi və ləzzətlə içdiyi araqlara baxmayaraq, sifəti süd kimi ağardı. Pilləkəndə o, Diderixin qolundan dartdı. Yadaszon arxada qalmışdı və qulluqçu qızın cır səsi eşidilirdi. Qapının zəngi çalındı.

– Əzizim cənab doktor, – burqomistr pıçıldadı, – məni yanlış anlamamısınız, deyilmi? Bütün məsələlərdə mən, təbii ki, yalnız şəhərin mənafeyini nəzərdə tuturam. Heç ağlıma da gəlməz ki, başında durduğum özünüidarə orqanlanna qarşı nəsə fikirləşim.

Dayanıb gözünü döydü. Diderixin ağlı başına gələnə kimi qadınlar evə daxil oldular və onları qarşılamaq üçün burqomistr Diderixin qolunu dartdı. Burqomistrin yorulub əldən düşmüş və üz-gözündən qayğı yağan arvadı cənabları salamlamağa vaxt tapmadı; başı dalaşan uşaqlarını ayırmağa qarışdı. Ondan bir boy uca olan və cavan görünən anası isə səhər süfrəsinin qonaqlarının qızarmış sifətlərini ciddi baxışlarla süzdü. Sonra gənclik enerjisi ilə burqomistrin üstünə yeridi, kişi, deyəsən, balacalaşmışdı... Asessor doktor Yadaszon artıq aradan çıxmışdı, Diderix cavabsız qalan rəsmi təzimlər edib assessorun arxasınca götürüldü. Onun halı dəyişmişdi, narahat-narahat küçədə boylandı, Yadaszonun nə dediyini eşitmədi və qəfildən geriyə döndü. Zəngi var gücü ilə bir neçə dəfə çalmalı oldu, çünki içəridə böyük hay-küy vardı. Ailənin üzvləri pilləkənin ayağında uşaqların qışqıraraq itələşdiyi yerdə dayanmışdı və qızğın mübahisə edirdilər. Burqomistrin arvadı tələb edirdi ki, əri oğlu ilə pis rəftar edən hansısa baş müəllimdən məktəb direktoruna şikayət etsin. Kapitan arvadı isə, əksinə, tələb edirdi ki, kürəkəni həmin baş müəllimə professor adı versin, çünki onun arvadı Vifleyem fondunun sədarətində pozğun

qızlara böyük təsir gücünə malikdir. Burqomistr əl-qol hərəkəti ilə gah onu, gah da bunu sakitləşdirməyə çalışırdı. Axır ki, nəsə bir şey deyə bildi:

– Bir tərəfdən...

Ancaq bu vaxt Diderix onun qolundan tutdu. Qadınlar səmtinə çoxlu üzrxahlıq edərək kişini qırağa çəkib səsi titrəyə-titrəyə pıçıldadı:

– Möhtərəm cənab burqomistr, anlaşılmazlıqları dəf etməyi özümə bir borc sayıram, ona görə də təkrar-təkrar bildirirəm ki, mən təpədən-dırnağa liberalam. – Doktor Şeffelvays onu inandırmağa çalışdı ki, buna özünün liberal düşüncələrinə əmin olduğu qədər əmindir. Onu çağırdılar və Diderix bir balaca yüngülləşərək evdən çıxdı. Yadaszon irişə-irişə onu gözləyirdi.

– Yəqin, qorxmusunuz? Əbəs yerəl Şəhər başçımızla heç kəs iğtişaşa girmir, sevimli Tanrının özü kimi o, həmişə güclülərin tərəfindədir. Bu gün, sadəcə, müəyyənləşdirmək istəyirdim ki, onun cənab fon Vulkau ilə münasibətləri necədir. Vəziyyət pis deyil, müəyyən addımlar ata bilərik.

– Lütfən, unutmayın ki, – Diderix çəkinə-çəkinə dedi, – mən Netsiqin burjua dairələrinə yaxşı bələdəm və təbii ki, özüm də liberalam.

Yadaszon ona çəpəki bir nəzər saldı.

– “Yeni Tentoniya”? – soruşdu. Diderix heyrətlə ona doğru dönəndə isə: – Köhnə dostum Vibelin kefi necədir?

– Onu tanıyırsınız? O, canım-ciyərimdir.

– Tanımaq?! Bizi heç nə bir-birimizdən ayıra bilməz.

Diderix Yadaszonun ona doğru uzatdığı əlindən tutdu və onlar bərk-bərk bir-birinin əlini sıxdılar.

– Hə, onda!

– Hə, deməli! – qol-qola girib bələdiyyə binasındakı zirzəmiyə, günorta yeməyinə getdilər.

***

Alaqaranlıq zirzəmidə adam az idi, arxa tərəfdə qaz yandırdılar və sup gələnə qədər onlar keçmiş tələbə dostlarını xatırladılar. Gonbul Deliç! Diderix özü şahid olduğu üçün onun faciəli ölümü barədə ətraflı məlumat verdi. Rauentaler pivəsinin ilk parçı ilə dinib-danışmadan onun xatirəsini yad etdilər. Məlum oldu ki, Yadaszon da Diderix

kimi fevral iğtişaşında tamaşaçı kimi iştirak edib, dövlətə ehtiram göstərməyi də onda öyrənib.

– Əlahəzrət cəsarətini o şəkildə sübut etdi ki, – asessor dedi, – az qala, adamın başı fırlansın. Allah bilir, adamın ağlına nələr gəlmədi... – Duruxdu, üşərgə içində bir-birinin gözünün içinə baxdılar. Dəhşətli təsəvvürdən yaxa qurtarmaq üçün parçlarını qaldırdılar. – İcazə ver, – Yadaszon dedi.

– Üzr istəyirəm, – Diderix cavab verdi. Yadaszon bir də dilləndi:

– Yaxınlarınızın sağlığına!

Diderix də cavabında:

– Bunu evdəkilərə deyib qürrələnəcəyəm.

Yeməyi soyusa da, Yadaszon qeysərin xarakterinin geniş mədhinə başladı.

– Meşşanlar, hər şeyə mız qoyanlar və yəhudilər qoy ürəkləri istədikləri qədər ona qara yaxsınlar, küll halında götürüldükdə isə həşəmətli gənc qeysərimiz fövqəl bir şəxsiyyət, çılğınlıq təcəssümü və əvəzsiz bir mütəfəkkirdir.

Onu bu şəkildə qəbul etdiyini Diderix də dilə gətirdi və məmnun-məmnun başını dala-qabağa atdı. Öz-özünə dedi ki, insanın zahiri görkəmi aldadıcı olurmuş və alman düşüncə tərzi heç də qulağın yekəliyindən asılı deyilmiş. Badələrini taxt-tacın və altarın xoşbəxt gələcəyinin sağlığına, istənilən forma və şəkildə təzahür edən hər cür qiyamın uğursuzluğu istəyinə boşaltdılar.

Axırda yenə gəlib Netsiqdəki münasibətlərin üstündə dayandılar. Bir məsələdə eyni fikirdə oldular ki, şəhərə hakim kəsiləcək yeni milli ruh əlahəzrətin adından başqa heç bir proqrama ehtiyac duymur. Əlahəzrətin özünün dediyi kimi, siyasi partiyalar yararsız cır-cındırdır. O, haçansa demişdi: "Mən yalnız iki partiya tanıyıram, biri lehimə olan, digəri də əleyhimə". Bu, doğrudan da, beləydi. Əfsuslar olsun ki, Netsiqdə onun əleyhinə olan hələlik bir partiya da vardı, lakin buna da gərək "Veteranlar Şurası"nın köməyi ilə son qoyulaydı – burası Diderixə gün kimi aydın idi. Həmin birliyin üzvü olmayan Yadaszon Diderixi onun başçıları ilə tanış edəcəyini öz öhdəsinə götürdü. Bu, ilk öncə Yadaszonun korporasiya qardaşı, əsl alman kişisi pastor Tsillix idi. Buradan qaixıb ona baş çəkmək istədilər. Onun sağlığına içdilər. Diderix həm də öz kapitanının, ciddi zabitdən onun dostuna çevrilmiş kapitanın sağlığına içdi.

– Hərbi xidmət ili elə bir ildir ki, onu heç nəyin bahasına həyatımdan silə bilərəm. – Nəfəs dərmədən, bir az da qızararaq səsini qaldırdı: – Belə parlaq xatirələri də bu demokratlar murdarlamaq istəyirlər!

Qoca Buk! – Diderix birdən-birə hirsindən özünü saxlaya bilmədi, dili dolaşa-dolaşa dedi:

– Bu adam da hərbi xidmətimizə mane olmaq istəyir, deyir ki, nökərlərik! Nə var, nə var, özü haçansa inqilab edib...

– Təpədən-dımağa yalandır, – Yadaszon dedi.

– Neyləyək, onun xatirinə hamımız ölüməmi məhkum olaq? Kaş, heç olmasa, boynunu vuraydılar!.. Hoentsollernlərdən gələn xeyir belə olar!

– Ona, əlbəttə, – deyib Yadaszon dərin bir qurtum aldı.

– Orasını da deyim ki, – Diderix gözlərini oynatdı, – hansı yuvanın quşu olduğunu öyrənmək üçün zəhlətökən küfrünü dinləməli olmuşam. Siz mənim şahidimsiniz, cənab asessor. Bu qoca münaqişəçi haçansa deyəsi olsa ki, onun dostuyam və əlahəzrəti təhqirlərini təqdir etmişəm, sizi özümə şahid tutacağam ki, mən elə həmin gün öz etirazımı bildirmişəm!

Diderixi tər basdı, çünki o, tikinti komissiyasını və bu işdə Bukun ona vəd etdiyi dəstəyi xatırladı... Balaca kvadrat kitabı birdən-birə masanın üstünə atıb kinayəli bir şaqqanaq çəkdi.

– Hələ şeir də qoşurmuşl

Yadaszon kitabı vərəqlədi. "Gimnast nəğmələri. Dustaqxanadan. Respublikaya alqış! Gölməçə kənarında bir yeniyetmə, baxmaq belə kədərlidir... Bəli, beləydi onlar, dustaqlara baxa-baxa özülünə balta vurmaq. Sentimental bir qiyam. Fikirləri şübhəli, mövqeləri laxlamış. Dayanmışıq biz burada başqa cür, Tanrımıza min cür şükür edə-edə".

– Gəlin ümidimizi itirməyək, – Diderix dedi. – Korporasiyada biz kişilik və idealizm dərsi keçmişik, bu da bəs edər. Şeir yazmağımıza ehtiyac qalmaz.

– Rədd olsun altar şamlarınız! – Yadaszon təntənə ilə bildirdi. – Bu, dostum Tsillix üçündür. İndi yuxudan ayılmış olar, tərpənək.

Onlar gələndə keşiş qəhvə içirdi. Kişi arvadını və qızını otaqdan çıxarmaq istədi. Yadaszon qadını nəzakətlə saxlayıb qızın əlindən öpməyə çalışdı, lakin qız ona arxasını

çevirdi. Həddən artıq həyəcanlanmış Diderix xanımlardan təkidlə qalmalarını xahiş etdi və bu ona müyəssər oldu. Dedi ki, Berlindən sonra Netsiq ona çox cansıxıcı görünür.

– Burada qadın dəbi də geri qalıb. Düz sözümdür, möhtərəm froylayn, bu şəhərdə siz yeganə xanımsınız ki, Unter-den-Linden küçəsində rahatca gəzə bilərsiniz, heç kəs də hiss etməz ki, Netsiqdənsiniz.

Bu sözlərdən sonra öyrəndi ki, qız, doğrudan da, haçansa Berlində, hətta Ronaxer meyxanasında da olub. Diderix bundan öz xeyrinə istifadə edib həmin məkana aid olan mahnını onun yadına saldı və onu yalnız qulağına deyə bildi: "Əziz şirin xanımlar olanlan gizlətməyib göstərərlər..." Qız cürətlə baxdığından Diderix bığını onun boynuna toxundurdu. Qız ona yalvarışlı bir nəzər saldı, Diderix də tam ürəkdən bildirdi ki, o, əsl "canalan ceyrandır". Qız gözlərini yumub hər şeyə göz qoyan anasının yanına getdi. Keşişin başı Yadaszonla ciddi söhbətə qarışmışdı. Gileylənirdi ki, Netsiqdə camaatın kilsəyə gəlməsi görünməmiş dərəcədə azalıb.

– Yubilate[1] bazar günündə, bilirsiniz də nəyi deyirəm, Yubilate bazar günündə yalnız küsterin[2] və "Müqəddəs bakirə" qocalar evindən yaşlı üç qadının hüzurunda moizə edəsi oldum. Başqaları azara tutulubmuş.

– Hakimiyyətdə olan partiyanın din və kilsə məsələlərinə qarşı tutduğu laqeyd, daha dəqiq deyilsə, düşmən mövqe olan yerdə üç qarının kilsədə olmasına da heyrətlənmək lazımdır. Görəsən, o üç qarı da niyə sizin moizənizi qoyub doktor Hoytoyfelin azadfikirli məruzələrinə getməyib?

Pastor tələsik kətildən qalxdı. Elə bərkdən fısıldadı ki, az qaldı saqqalı köpüklənsin və sürtukunun qırçınları tərpəndi.

– Cənab asessor, o adam mənim yeznəmdir və Rəbbimizin buyurduğu kimi, "İntiqam da mənimdir!" Amma o adam yeznəm və doğma bacımın əri olsa da, Rəbbimə yalvararam ki, özü də elə-belə yox, əlimi çarpazlayb yalvararam ki, cəzasını Özü versin. Yoxsa günlərin bir günü Netsiqin üstünə qatran və kükürd yağdırası olar. Qəhvəni, bilir-

---

[1] Pasxadan (xristian orucluğundan) sonrakı üçüncü bazar günü

[2] Xristianlığın protestantlıq təriqətində kiçikrütbəli keşiş; pravoslavların "ponomar"ına uyğun gəlir.

sinizmi, qəhvəni Hoytoyfel camaata pulsuz paylayır ki, onun yanına gəlib qəlblərini oğurlatsınlar. Sonra da camaata deyir ki, nikah müqəddəs sirr deyil, yalnız müqavilədir, sanki, mən özümə kostyum sifariş edirəm.

Pastor yandığından güldü.

– Tfu! – Diderix içindən gələn bir səslə dilləndi. Və Yadaszon özünün pozitiv xristian inancını pastora söyləyəndə Diderix kürsü adı ilə Ketxenin əlçatarlığına yaxınlaşmağa başladı. – Froylayn Ketxen, – dedi, – sizi əmin edə bilərəm ki, mənə görə, nikah müqəddəs sirdir.

Ketxen cavabında dedi:

– Ayıb olsun sizə, cənab doktor.

Diderixin canına qor doldu:

– Mənə belə baxmayın!

– Siz dəhşətli dərəcədə sırtılmısınız, – Ketxen köksünü ötürdü, – cənab asessordan da heç nə ilə geri qalmırsınız. Bacılarınız Berlində hansı yollardan çıxdığınızı mənə danışıblar. Onlar mənim ən yaxın rəfiqələrimdir.

– Onda yaxın vaxtlarda görüşəcəyimizə ümidimi itirməyim, eləmi?

– Bəli, “Harmoniya”da. Amma heç ağlınıza da gətirməyin ki, haradasa sizə inanacağam. Axı siz Quste Demxenlə eyni qatarda gəlmisiniz.

– Nə olsun ki? – Diderix soruşdu. Bu xalis təsadüfdən çıxarılan nəticələrə etiraz etdi. – Froylayn Demxen nişanlıdır axı.

– Nişanlı olanda nə olar? – Ketxen cavab verdi. – Belə şey ona mane olan deyil, o, iyrənc dərəcədə əzilib-büzüləndir.

Bunu keşişin arvadı da təsdiqlədi. Dediyinə görə, Quste bu gün lak ayaqqabı və bənövşəyi corab geyinibmiş. Bu da yaxşı əlamət sayılmazmış. Ketxen dodaq büzdü.

– Hə dəə, bəs miras...

Bu şübhə Diderixin dilini bağladı. Keşiş bu arada asessoru inandırmağa çalışdı ki, Netsiqdə xristian kilsəsinin vəziyyətini cənablarla daha yaxından müzakirə etsin və paltosu ilə papağını arvadından istədi. Pilləkən xeyli qaranlıqlaşmışdı. Hər iki cənab qabaqda getdiyindən Diderix bir dəfə də Ketxenin boynuna hücum çəkdi. Ketxen boğuq bir səslə dilləndi:

– Netsiqdə heç kim adamı bığı ilə belə qıdıqlamır.

Bu, əvvəlcə Diderixin xoşuna gəldi, lakin elə həmin an da gümanını min yerə yozdu. Sadəcə, Ketxendən aralanıb gözdən itdi. Yadaszon onu aşağıda gözləyirdi. O, astadan dedi:

– Qəti çəkinmə! Atası heç nə hiss eləmədi, anası da özünü o yerə qoymadı. – Diderixə ürəkdən göz basdı.

Hər üç cənab müqəddəs Məryəm kilsəsinin yanından keçib bazara getmək istəyirdi, lakin keşiş ayaq saxladı, başı ilə arxaya işarə etdi.

– Cənablar kilsədən sol tərəfdəki Zəfər tağının altındakı küçənin adını, yəqin ki, bilirlər?! Küçə adlanan bu qaranlıq dalanı, yaxud daha çox o məşhur evi, yəqin ki, tanıyırlar.

– "Balaca Berlin", – Yadaszon dedi, çünki keşiş onlarla getmək istəmirdi.

– "Balaca Berlin", – keşiş təkrarlayıb güclə gülümsədi, müqəddəs qəzəbdən ağız-gözünü əyişdirərək elə güldü ki, camaatın çoxu ətrafına baxındı. – "Balaca Berlin"... kilsəmin kölgəsində belə bir ev! Magistrat isə məni eşitmək istəmir, mənə rişxənd edir. Amma o, mənə yox, özgəyə rişxənd edir, – bunu deyib yenidən hərəkətə gəldi, – lakin özününkünə rişxənd etməyə qoymur.

Yadaszon da bu fikirdə idi ki, magistrat özününkünə rişxənd etməyə imkan yaratmır. Yol yoldaşlarının başı söhbətə qarışanda Diderix Quste Demxenin bələdiyyə binasından onlara doğru yaxınlaşdığını gördü. Ədəb xatirinə o, qızın hüzurunda şlyapasını çıxartdı, qız da arsız-arsız gülümsədi. Diderixin yadına düşdü ki, Ketxen Tsillixin də bunun kimi açıq-sarı saçları və adamın gözünə girən balaca dik burnu var. Əslində, fərqi yox idi, o, ya da bu. Quste, əlbəttə, o birindən iştahası ilə seçilirdi. "Özü də heç nəyi yaxına buraxmır. Qismətin də şillə olur". Qusteyə doğru çevrildi: əndamı yupyumru idi və yırım-yırım yırğalanırdı. Həmin an Diderix qəti qərar verdi: "Ya bu, ya da heç kim". Yol yoldaşlarının ikisi də Qusteni görmüşdü.

– Bu, xanım baş inspektor Demxenin qızcığazı deyildimi? – keşiş soruşub əlavə etdi. – Bizim korlanmış qızlar üçün yaratdığımız Vifleyem yurdu hələ də xeyriyyəçilərin yardımını gözləyir. Görəsən, froylayn Demxen də bu xeyriyyəçilər sırasındadırmı? Hər yerdə danışırlar ki, bir milyon mirasa sahib olub.

Bunun həddən artıq mübaliğə olduğunu Yadaszon tələsik dilə gətirdi. Diderix etiraz etdi; vəziyyətin nə yerdə

olduğunu o dəqiq bilir. Qızın rəhmətlik əmisi kasnidən[1] deyiləndən daha çox qazanıb. O, bunları elə təkidlə dedi ki, asessor Maqdeburqdakı məhkəmə vasitəsilə həqiqəti öyrənəcəyini ona vəd etdi. Bundan sonra Diderix razı qalaraq susdu.

– Əslində, – Yadaszon dedi, – bu pul Buklara, deyərdim ki, qiyama qismət olacaq.

Diderix də, öz növbəsində, daha çox məlumatlı olduğunu bildirmək istədi:

– Froylayn Demxenlə mən Netsiqə eyni qatarla, eyni kupedə gəlmişik.

– Belə de, – Yadaszon heyrətini bildirdi. – Təbrik etmək olar? – Diderix özünü itirərək çiyinlərini çəkdi. Yadaszon üzr istəyib bildirdi: – Fikirləşib ki, gənc Buk...

– Volfqanq? – Diderix soruşdu. – Onunla mən hər gün Berlində bir yerdə idim. Orada bir aktrisa ilə yaşayır.

Keşiş ikrahla içini arıtladı. Elə teatr meydanına çıxdıqlarından ciddi şəkildə o tərəfə baxdı və sonra bildirdi:

– Kiçik Berlin, doğrudur, kilsəmin yanındadır, amma ən azı, qaranlıq bir tindədir. Bu əxlaqsızlıq yuvası açıq bir meydandadır, oğlanlarımız, qızlarımız da... – o, teatrın bir neçə üzvünün dayandığı giriş qapısını göstərdi, – ...həmin pozğunlarla eyni havanı udurlar!

Qayğılı sir-sifət göstərərək Diderix buna dərindən təəssüfləndiyini bildirdi, Yadaszon da son mövsümün göstərilən tamaşaları ərzində dörd bic uşağın doğulmasını və bunun tərəqqi olmasını tərənnüm edən "Netziger Zeitung"un qarasınca çapdı.

***

Bu arada onlar Qeysər-Vilhelm küçəsinə döndülər və elə bu vaxt mason lojasının yerləşdiyi evə gedən müxtəlif cənablarla salamlaşmalı oldular. Başlarından götürdükləri şlyapaları yerinə qoyanda və buradan keçəndə Yadaszon dedi:

– Azad bənnalar azarını hələ də yerə qoymamış bu cənabları yadda saxlamaq lazımdır. Əlahəzrət bu azarı qətiyyətlə pisləyir.

– Yeznəm Hoytoyfelin bu cür qorxunc bir sektaya qoşulması məni heç də heyrətləndirmir, – keşiş dedi.

---

[1] *Kasni* – bitki

– Bəs cənab Lauer? – Diderix soruşdu. – İç üzü bilinməyən bir adam, fəhlələrini gəlirdə payçı edir! Ondan nə desən gözləmək olar.

– Görünməmiş məsələ odur ki, – Yadaszon təkidlə bildirdi, – vilayət məhkəməsinin üzvü cənab Fritçe bu yəhudi topasında tez-tez görünür: hökmdarın vilayət hakimi sələmçi Konla əl-ələ verir. Sizə zarafat gəlməsin, Koon, – Yadaszon uzada-uzada deyib baş barmağını qoltuğunun altına qoydu.

Diderix dilləndi:

– O, frau Lauerlə... – sözünə xeyli ara verib davam etdi, – belə olanda, hər halda, anlayıram ki, bu adamlar məhkəmədə niyə sudan quru çıxırlar. Deməli, onlar əl-ələ verib hamının ayağının altını qazırlar.

Hətta keşiş Tsillix də həmin evdə qeyd olunacaq orgiyadan[1] söhbət saldı ki, burada da gizlin şeylər baş verməli idi. Lakin Yadaszon mənalı-mənalı gülümsədi:

– Hə, xoşbəxtlikdən, cənab fon Vulkaunun pəncərəsi onlarınkı ilə üzbəüzdür.

Diderix başı ilə hökumət binasına işarə etdi. Həmin binanın yanında, hərbi dairə ştabı binasının qarşısında gözətçi otərəf-butərəfə addımlayırdı.

– Bu cür qoçaq oğlanın tüfənginin parıltısını görəndə adamın ürəyi dağa dönür! – Diderix sevinc içində qışqırdı. – Həmin bandanı bunlann köməyi ilə qorxuda saxlayacağıq.

Tüfəng, təbii ki, parıldamırdı, çünki qaranlıq düşmüşdü. İşdən dönən fəhlələrin dəstəsi axşamın basdırığında irəliləyirdi. Yadaszon Klapşın pivəxanasında bir parç pivə içməyi təklif etdi. Pivəxana bir az aralıda, tində yerləşirdi. Ora xeyli rahat idi, bu vaxtlar az adam olurdu. Klapş da düzgün fikirli adam idi. Qızı pivəni gətirənə qədər kişi Bibliya dərsində oğlanlarına çəkdiyi zəhmətə görə keşişə öz minnətdarlığını bildirdi. Doğrudur, böyük oğlu yenə şəkər oğurlamışdı, lakin əvəzində gecə səhərə qədər yatmamışdı, günahının Allahdan bağışlanmasını elə bərkdən diləmişdi ki, Klapş bunu eşidib hətta uşağı kötəkləmək istəmişdi. Bundan sonra söhbət dövlət məmurlarının üstünə gəldi, həmin məmurları Klapş səhər yeməyi ilə təmin edirdi və

[1] *Orgiya* – qədim yunanlarda şərab və kef allahı Vakx-Dionisin şərəfinə düzəldilən şənlik

onların bazar günü kilsədə ibadət əvəzinə vaxtlarını necə keçirdikləri barədə məlumat da verə bildi. Yadaszon özündə qeydlər aparırdı və bu vaxt əli froylayn Klapşın arxasında oynayırdı. Diderix keşiş Tsillixlə xristian fəhlə ittifaqını yaratmaq məsələsini müzakirə edirdi. O, öz qənaətini bildirdi.

– Mənim fəhlələrimdən oranın üzvü olmayan işdən atılacaq!

Bu niyyət keşişi coşdurdu; froylayn Klapş pivə ilə konyak gətirəndən sonra keşiş hər iki yol yoldaşını bütün günü ona təlqin olunan ümid dolu qətiyyətə süzdü.

– Qoy yeznəm Hoytoyfel, – bağırıb yumruğunu masaya çırpdı, – meymunla qohumluğundan ürəyidolu danışsın, mənim kilsəm yenə adamlarla dolu olacaq!

– Təkcə sizin kilsə yox, – Diderix təmkinini pozmadı.

– Olsun, Netsiqdə istədiyin qədər kilsə var, – keşiş etiraf etdi. Yadaszon sözə qarışıb çox kəskin dilləndi:

– Çox azdır, Allah bəndəsi, çox az! – və o, Berlində işlərin necə getməsinə Diderixi şahid tutdu. Əlahəzrət özü işə qarışana qədər orada da kilsələrə gedən yox imiş. Əlahəzrət şəhər parlamentinə buyurub: "Çalışın Berlində kilsələr tikilsin". Bundan sonra tikildi də; din yenidən dirildi, ona bir canlanma gəldi. Birdən-birə hamı, keşiş də, pivəxananın sahibi də, Yadaszon da, Diderix də monarxın dərin möminliyinə heyran qaldılar. Bu vaxt atəş açıldı.

– Güllələyirlər! – Yadaszon sıçrayıb qalxdı. Hamının rəngi qaçmışdı və bir-birinin üzünə baxırdılar. Diderixin bəsirətinin önünə ildırım sürəti ilə ustası Napoleon Fişerin sümüklü sifəti, diqqətlə baxanda tüklərinin arasından bozarmış dərisi görünən qarasaqqalı gəldi və o, dili dolaşa-dolaşa dedi:

– Qiyam! Başlandı!

Bayırdan qaçanların tappıltısı eşidildi. Birdən-birə içəridəkilər papaqlarını qapıb çölə qaçdılar.

Səsə yığışmış camaat dairə hərbi ştabının yerləşdiyi tindən düz mason lojasının pilləkəninə qədər seyrək qövs yaratmışdı. Dairənin qapanmadığı yerdə, küçənin ortasında kimsə üzüaşağı uzanmışdı. Bir az əvvəl şax-şax otərəfbutərəfə gedib-gələn əsgər indi öz budkasının qabağında quruyub qalmışdı. Dəbilqəsi yana əyilmişdi, rəngi qaçmış, ağzı açıla qalmışdı və gözünü döyüb güllələnən adama baxırdı. Tüfəngin qundağını yerə söykəyib lüləsini əlində

tutmuşdu. Əksərən fəhlə və qadınlardan ibarət camaat donquldanırdı. Qəfildən bir kişi səsi lap ucadan dilləndi:

– Oho! – Bundan sonra araya sakitlik çökdü. Diderixlə Yadaszon bu anın böhranını solğun bir baxışla bir-birinə anlatdı. Küçənin başından bir mühafizə polisi, ondan da qabaq ətəyi yellənən bir qız qaça-qaça gəlirdi; qız hələ çatmamış qışqırdı:

– Yerdə qalıb! Əsgər güllələyib! – Güllələnən kişiyə yetişib diz çökdü və onu silkələməyə başladı. – Qalx! Qalx ayağa! – Bir az gözlədi. Elə bil, kişinin ayaqları tərpəndi, amma o uzanıb qalmışdı. Qollarını, qıçlarını küçəyə döşənmiş çaylaq daşların üstünə uzatmışdı. Birdən qız qıyya çəkdi: – Karl! – Səsi elə cingildədi ki, hamı diksindi. Qadınlar ona qoşulub fəryad qopartdı. Kişilər yumruqlarını düyünləyib irəli cumdular. Adamlar get-gedə sıxlaşdılar; məcburən saxlamalı olan arabaların arasından insan axını daşdandı və bu qorxunc basabasda qız özünə divan edirdi. Açılıb tökülmüş saçlarını külək dalğalandırır, əyilmiş yaş sifətindən fəryad qopurdu, lakin onu eşitmək olmurdu, səs-küy fəryadı udub aparırdı.

Yeganə mühafizə polisi qollarını açıb camaatı geriyə itələyirdi. Camaat isə yerdə uzananın üstünə yerimək istəyirdi. Polis əbəs yerə adamların üstünə bağırır, ayaqlarını tapdalayır və başını itirərək kömək üçün havaya boylanırdı.

Kömək də gəldi. Hökumət binasında bir pəncərə açıldı, pəncərədə yekə bir saqqal göründü və səs eşidildi, dəhşətli dərəcədə yoğun bir səs, onu başa düşməsələr də, hər kəs bu bas səsin iğtişaşın içində uzaq top atəşi kimi guruldadığını eşitdi.

– Vulkau, – Yadaszon dedi. – Axır ki.

– Bu nə həngamədir?! – səs pəncərədən guruldadı. – Kim sizə icazə verib ki, evimin qabağında səs salasınız? – Artıq ara sakitləşdiyinə görə: – Keşikçi hanı?

Camaatın çoxu yalnız indi gördü ki, əsgər öz budkasına çəkilib, imkanca lap dərinliyə, yalnız tüfənginin lüləsi görünürdü.

– Çölə çıx, oğul! – bas yuxarıdan əmr etdi. – Sən öz vəzifəni yerinə yetirmisən. O, səni təhqir edib. İgidliyinə görə əlahəzrət səni lazımınca mükafatlandıracaq. Anlaşıldı? – Hamı onu anlayıb səsini kəsdi, hətta qız da. Bundan sonra o daha həşəmətlə guruldadı: – Bu saat dağılışın, yoxsa güllələdərəm!

Aradan bir dəqiqə keçdi və bir neçə adam qaçıb aradan çıxdı. Bir dəstə fəhlə aralandı, bir az tərəddüd etdi, amma axırda başlarını aşağı salıb bir xeyli geri çəkildi. Hökumət başçısı yenə də yuxarıdan aşağıya bağırdı:

– Paşke, həkim çağırın.

Sonra pəncərəni təzədən örtdü. Hökumət binasının qarşısında isə canlanma vardı. Birdən-birə əmr verən adamlar peyda oldu, bir dəstə mühafizə polisi hər tərəfdən axıb gəldi, hələ də buradan getmək istəməyən camaatın üstünə tökülüb bağırdı. Öz tinlərinə çəkilmiş Diderix və müşayiətçiləri o üzdə, lojanın pilləkənində bir neçə kişi gördülər. Doktor Hoytoyfel onların arasında özünə yer elədi.

– Mən həkiməm, – ucadan deyib tələsik küçəni keçdi və yaralının üstünə əyildi. Onu arxası üstə çevirib içliyinin yaxasını açdı, qulağını sinəsinə qoydu. Həmin an hamı sakitləşdi, hətta mühafizə polisləri də bağırmadılar; lakin qız hələ də burada idi. Qabağa əyilib, sanki, endiriləcək zərbədən qorunmaq üçün çiyinlərini çəkmişdi və əlini ürəyinin üstünə qoymuşdu, sanki, indicə dayanmış ürək onunku idi. Hoytoyfel yerindən qalxdı. – Ölüb, – dedi. Elə bu an yerində səndələyən qızı gördü. Onun qolundan tutdu. Qız özünü toplayıb dayandı. Əyilib ölünün sifətinə baxdı və yalnız bircə kəlmə dedi:

– Karl. – Daha xırıltılı səslə bir də təkrarladı: – Karl. – Doktor Hoytoyfel ətrafına baxınıb soruşdu:

– Qızı neyləyək?

Bu vaxt Yadaszon irəli yeriyib özünü təqdim etdi:

– Prokurorluqdan asessor Yadaszon. Qızı istintaqa aparmaq lazımdır. Sevgilisi keşikçini təhqir etdiyinə görə şübhə var ki, bu hərəkətdə onun da əli var. Təhqiqat aparacağıq.

Əli ilə işarə edib çağırdığı iki mühafizə polisi qızın qollarından yapışdı. Doktor Hoytoyfel səsini qaldırdı:

– Cənab asessor, həkim kimi bildirirəm ki, qızın vəziyyəti onun həbsinə imkan vermir.

Kimsə dedi:

– Onda ölünü də istintaqa aparın!

Amma Yadaszon qarıldadı:

– Cənab fabrikant Lauer, vəzifə borcuma qarşı istənilən tənqidi sizə qadağan edirəm!

Bu arada Diderix ən yüksək həyəcanın nişanəsini büruzə verdi.

– Oh!.. Ah!.. Bu ki... – rəngi büsbütün qaçmışdı, sözünə davam etdi. – Cənablar... mən sizə... bu adamları tanıyıram, elədir, tanıyıram, oğlanı da, qızı da. Mən doktor Heslinqəm. Bu günə qədər hər ikisi mənim fabrikimdə çalışırdı. Əxlaqsız hərəkətlərinə görə mən onları işdən qovmuşam.

– Aha! – Yadaszon dedi.

Keşiş Tsillix qovurcuxub dilləndi:

– Gerçəkdən də ortada Allahın əli var.

Fabrikant Lauer çallaşmış keçi saqqalının dibinə qədər qızardı, bəstə boyu hirsindən əsməyə başladı.

– Allahın əli barədə mübahisə etmək olar, amma tam dəqiqdir ki, cənab doktor Heslinq, bu oğlan ona görə həddini aşıb ki, sizin onu işdən qovmağınız onun bütün ümidlərini puça çıxarib. Onun arvadı, bəlkə də, uşaqları var.

– Onlar evlənməmişdilər, – Diderix, öz növbəsində, hirslənərək dedi. – Bunu özü mənə deyib.

– Bu nəyi dəyişir? – Lauer soruşdu.

Bu vaxt keşiş əlini qaldırıb uca səslə dedi:

– Məgər yolumuzu o qədər azmışıq ki, Allahın buyurduğu əxlaqın qorunub-qorunmaması heç nəyi dəyişmir?

Lauer cavab verdi ki, küçədə, özü də dövlətin "xeyir-duası" ilə kiminsə öldürüldüyü bir məqamda əxlaq məsələlərini müzakirə etməyin yeri deyil; və o, öz fabrikində iş vermək məqsədilə qıza müraciət etdi. Bu arada sanitar arabası gəldi; meyiti yerdən qaldırıb xərəyin üstünə qoydular. Onu arabaya qaldırmaq istəyəndə qız donuqluğundan ayılıb sanitarların üstünə atıldı; gözləmədikləri bu hərəkətdən onlar cənazəni əllərindən buraxdılar və meyitin üstünə atılmış qız fəryad qopararaq onunla bərabər daş döşənmiş küçəyə sərildi. Çətinliklə də olsa, onu meyitdən aralayıb droşkanın içinə saldılar. Xəstə arabası ilə gəlmiş həkim köməkçisi onu özü ilə apardı.

Yadaszon hədəli bir hərəkətlə Hoytoyfel və digər mason qardaşlarla birlikdə çıxıb getmək istəyən fabrikant Lauerin üstünə yeridi:

– Bir dəqiqə, lütfən. Bir az əvvəl dediniz ki, dövlətin "xeyir-duası" ilə, mən bu cənabları şahid tuturam ki, bu, sizin ifadənizdir, deməli, dövlətin "xeyir-duası" ilə kimsə öldürülüb. Soruşmaq istərdim ki, bu, təsadüfən sizin tərəfinizdən rəsmi idarələrin fəaliyyətini bəyənməməkdən irəli gəlmir ki?

– Deməli belə, – Lauer deyib onu süzdü. – Yəqin, məni də apartdırmaq istərdiniz, hə?

– İndi mən, – Yadaszon uca, hədəli bir səslə davam etdi, – diqqətinizə çatdırıram ki, onu ələ salmış bir adama atəş açan keşikçinin hərəkəti bir neçə ay qabaq, Lüklə bağlı məsələni nəzərdə tuturam, yerindəcə düzgün və cəsur hərəkət kimi qiymətləndirilib, əsgər mükafat və əfvlə təltif olunub. Sizi belə böyük işləri tənqid etməkdən çəkindirməyi özümə borc bilirəm!

– Mən heç kimi tənqid etməmişəm, – Lauer dedi. – İndiyə qədər yalnız sizin yanınızdakı o qorxunc bığlı cənaba mənfi münasibətimi bildirmişəm.

– Necə? – gözünü güllələnən oğlanın uzandığı və üstünə qan çilənmiş çaylaq daşlarından hələ də çəkə bilməyən Diderix soruşdu. Nəhayət, anladı ki, onu meydana çəkirlər. – Bu bığ əlahəzrətin qoyduğu bığdır! – əminliklə cavab verdi. – Əsl alman bığıdır. Ümumiyyətlə, qiyamçı iş verənlə hər cür mübahisəni mən yaxına buraxmıram.

Qoca Bukun qardaşı, Hoytoyfel, Kon və ədliyyə müşaviri Fritçe onu çəkib aparmaq istəsələr də, Lauer acıqlı-acıqlı danışdı; döyüşə hazır olan Yadaszonla keşiş Tsillix Diderixin tərəfini saxladılar. Bu vaxt iti addımlarla bir piyada bölüyü özünü yetirib adamlardan tam boşalmış küçəni bağladı və bölmə komandiri olan leytenant cənablardan dağılışmalarını tələb etdi. Hamı itaətkarcasına tələsik bu tələbi yerinə yetirdi; onu da gördülər ki, leytenant keşikçinin yanına gedib bərk-bərk onun əlini sıxdı.

– Əhsən! – Yadaszon dedi.

Doktor Hoytoyfel də dilləndi:

– Belə getsə, sabah da növbə ilə kapitan, mayor və polkovnik gəlib bu gədəni tərifləyərək ona pul bağışlamağı özlərinə borc sayacaqlar.

– Tam doğrudur! – Yadszon dedi.

– Lakin... – Hoytoyfel ayaq saxladı. – Cənablar, gəlin razılığa gələk. Burada baş verənlərin mənası varmı? Ona görə ki, bu kəndçi zırrama zarafat nə olduğunu bilmir? Adi bir zarafat, xoşməramlı bir gülüş, bunun müqabilində ona, öz yoldaşına, onun özü kimi bu biçarə məluna sataşmaq istəyən fəhləni düzgün yola çağırmaq əvəzinə, bu yazıq əsgərə onu öldürməyi əmr edirlər. Bundan sonra da başlayırlar böyük-böyük sözlər danışmağa.

Ədliyyə müşaviri Fritçe Lauerin səsinə səs verdi və onun coşmuş ehtiraslarını sakitləşdirməyə çalışdı. Bu vaxt rəngi daha da ağarmış Diderix ətürpədici bir səslə dedi:

– Xalqı dövlət idarə etməlidir! İmperator dövlətinin düşündüklərinin bir insanın həyatı ilə ödənilməsi çox da baha deyil.

– Əgər bu həyat sizinki deyilsə, – Hoytoyfel dedi. Diderix də əlini sinəsinə qoyub:

– Lap mənimki olsaydı belə! – dedi.

***

Hoytoyfel çiyinlərini çəkdi. Gedərkən Diderix keşiş Tsillixlə azca arxada qalanda öz düşüncələrini izah etməyə çalışdı.

– Mənim üçün, – daxili həyəcanından fısıldayaraq dedi, – prosesin birbaşa böyük, necə deyərlər, əlahəzrətə xas bir önəmi var. Sırtıqlıq etmiş birinin heç bir hökm olmadan küçənin ortasında, sadəcə, güllələnməsi! Təsəvvür edirsinizmi: bizim keyləşmiş adi düşüncə tərzimizin içində belə bir şey, nəsə qəhrəmanlıq baş verir. Dövlət və gücün nə olduğunu adam bu yerdə görür!

– Əgər o güc Allahın mərhəmətiilədirsə, – keşiş əlavə etdi.

– Əlbəttə. Elədir ki var. Məhz buna görə də bu iş məndə dinin aliliyi duyğusunu yaratdı. Hərdən görürsən ki, daha yüksək şeylər var, hamımızın tabe olduğumuz güclər; məsələn, keçən ilin fevralında Berlindəki çaxnaşmada əlahəzrət fenomenal soyuqqanlılıqla tüğyan edən iğtişaşın qoynuna atılanda. Hə, təkcə onu deyirəm ki... – O biri yoldaşların zirzəmidəki pivəxananın qabağında ayaq saxladığını örüb səsini qaldırdı: – O vaxt qeysər Unter-den-Linden küçəsini başdan-başa bağlatdırıb hamımızı güllələtdirsəydi, boyaboy güllələtdirsəydi, deyərdim ki, mən...

– "Urra!" qışqırardınız, – Hoytoyfel onun sözünü tamamladı.

– Siz yox? – Diderix ona alovlu bir baxış atdı. – Hər halda, ümid edirəm ki, hamımızın milli duyğularımız var!

Fabrikant Lauer yenidən ehtiyatsızlıq edib cavab vermək istədi, lakin ona mane oldular. Əvəzinə Kon dilləndi:

– Elədir, mən də milli düşüncəyə malikəm, amma ordumuzu biz belə məzhəkələr üçünmü saxlayınq?

Diderix onu başdan-ayağa süzdü.

– Ordumuz deyirsiniz? Univermaq sahibi cənab Konun ordusu varmış! Cənablar eşitdilər? – Təşəxxüslə güldü. – İndiyə qədər mən yalnız əlahəzrət qeysərin ordusunun olduğunu bilirdim!

Doktor Hoytoyfel nəsə xalqın hüquqlarından bir-iki söz dedi, lakin Diderix kəskin komandir səsi ilə vurğuladı ki, ona əldəqayırma qeysər lazım deyil: "Ciddi tərbiyədən məhrum olan xalq çürüməyə məhkumdur"...

Bu arada zirzəmiyə çatdılar. Lauerlə dostları artıq masa arxasına əyləşmişdilər.

– Hə, bizimlə oturmaq istəmirsiniz? – doktor Hoytoyfel Diderixdən soruşdu. – Əvvəl-axır hamımız liberal deyilikmi?!

Diderix fikrini bildirdi:

– Təbii ki, liberalıq. Ancaq mən milli məsələlərdə xırdalanmıram. Əlahəzrətin özünün dediyi kimi, mənim üçün iki partiya var: onun lehinə və əleyhinə olanlar. Burada da mənə elə gəlir ki, cənabların oturduğu masada mənə yer yoxdur.

Yüngülcə təzim edib o üzdəki boş masaya getdi. Yadaszonla keşiş Tsillix də ora doğru tərpəndilər. Ətrafda əyləşmiş müştərilər yan-yörələrinə boylandılar; ortaya ümumi bir sakitlik çökdü. Başına gələnlərin məstliyində Diderixin ağlına bir fikir gəldi: şampan sifariş etmək. O biri masada pıçıldaşma getdi. Sonra kimsə kətilini cırıldatdı. Bu, ədliyyə müşaviri Fritçe idi. O, dostlarından ayrılıb Diderixin, Yadaszonun və Tsillixin əlini sıxmaq üçün onların yanına gəldi, sonra da bayıra çıxdı.

– Gərək çoxdan belə olaydı, – Yadaszon bildirdi. – Fritçe vəziyyətinin laxlamasını vaxtında başa düşdü.

– Vaxtında ayrılmağa üstünlük verdi, – Diderix dedi. – Milli məsələdə vicdanı təmiz olanlar bu adamlardan gərək, doğrudan da, qorxmasınlar.

Lakin keşiş Tsillixin halı özündə deyildi.

– Ədalət carçısı iztirab çəkər, – dedi. – Hoytoyfelin necə münaqişəçi olduğunu siz hələ bilmirsiniz. Allah bilir, sabah barəmizdə nələr danışmayacaq.

Diderix yerində qurcalandı. Hərbi qulluqdan canını qurtarmaq istəyəndə həyatının qaranlıq nöqtəsinə doktor Hoytoyfel yaxşı bələd idi! Rişxənddolu bir məktubda Dide-

rixə xəstəlik arayışı verməkdən imtina etmişdi. İndi Diderix onun əlində idi. Hoytoyfel onu məhv edə bilərdi! Qəfil vahimə içində Diderix hətta məktəb illərindəki hoqqalarının üstünün açılmasından narahat oldu; həmin vaxt doktor Hoytoyfel Diderixin boğazını silirdi və qorxaqlığını onun başına qaxırdı. Diderixi tər basdı. Daha bərkdən qışqıraraq omar və şampan sifariş verdi.

O üzdə mason qardaşları cavan fəhlənin zorakı ölümünə yenidən hirsləndilər. Bu işə rəvac verən hərbi qüvvələr və yunkerlər, görəsən, özlərini nə yerinə qoyurlar?! Özlərini elə aparırdılar, elə bil, zəbt olunmuş ölkədə idilər! Başları yetərincə qızışanda hətta o yerə çatdılar ki, onsuz da bütün nailiyyətlərə yiyələnmiş burjuaziyaya həm də dövlət idarəçiliyinin verilməsini tələb etmək məsələsini ortaya atdılar. Cənab Lauer adi insanlarla müqayisədə "aparıcı silkin" hansı üstünlüklərə malik olduğunu bilmək istədi.

– Əslində, heç ali irq də deyillər, – dedi. – Çünki fürst soyları da daxil olmaqla hamısı çoxdan yəhudiləşib. – Sonra da əlavə etdi: – Bununla dostum Konun xətrinə dəymək istəmirəm.

İşə qarışmağın vaxtı yetişmişdi. Diderix bunu hiss etdi. Tələsik bir badə də içəri ötürüb ayağa qalxdı, hirslə meyxananın ortasına, qotik çilçırağın altına yeriyib dedi:

– Cənab fabrikant Lauer, icazə verin soruşum, mülahizə etdiyiniz yəhudiləşmiş fürst soyları arasında alman fürst soylarını da nəzərdə tutursunuzmu?

Lauer sakit, az qala, mehribanlıqla cavab verdi:

– Əlbəttə tuturam.

– Belə, – deyib Diderix endirəcəyi böyük zərbəyə hazırlaşmaq üçün dərindən nəfəs aldı. Bütün meyxananın diqqətini çəkərək soruşdu: – Yəhudiləşmiş alman fürst soyları arasında mənim adını tutmaq istəmədiyim bir soyu da nəzərdə tutursunuzmu? – Diderix bunları təntənə ilə deyib tam əmin oldu ki, rəqibi çaşıb dili dolaşa-dolaşa masanın altına girəcək. Lakin Lauer gözlənilməz bir həyasızlıqla cavab verdi:

– Əlbəttə tuturam.

Lauerin əvəzinə qorxudan Diderix özünü itirdi. Ətrafına baxdı, görsün düzmü eşidib. Baxdığı sifətlər bunu təsdiq edirdi. Sonra bildirdi ki, belə bir deyimin cənab fabrikant

üçün hansı nəticələrə səbəb olacağını ona göstərəcək, sonra da qovşurula-qovşurula dostlarının düşərgəsinə qayıtdı. Elə həmin an bir az bundan qabaq heç kim bilmədən haraya isə yoxa çıxmış Yadaszon ortada peyda oldu.

– İndicə baş verənlərdə iştirak etməmişəm, – tələsik dilləndi. – Qətiyyətlə bildirirəm ki, sonrakı inkişaf üçün bunun haradasa bir əhəmiyyəti ola bilər.

Sonra dəqiq məlumat toplamaq istədi. Diderix bunu can-başla yerinə yetirdi; bunu düşmənin yolunu bağlamaqda özünün xidməti kimi qələmə verdi.

– İndi əlimizdən qurtara bilməz!

– Heç cür qurtara bilməz, – özü üçün qeydlər aparan Yadaszon təsdiq etdi.

Üz-gözündən acıq yağan yaşlı bir kişi qurumuş qıçlarını sürüyə-sürüyə giriş qapısından ortaya yeridi. Hər iki tərəfi salamlayıb qiyamçılar dəstəsinə qoşulmaq istədi. Lakin Yadaszon onu vaxtında saxladı.

– Cənab mayor Kuntsel Bircə kəlmə! – pıçıldayıb gözü ilə gah sağa, gah da sola işarə etdi. Deyəsən, mayoru şübhə götürmüşdü.

– Cənab asessor, mənə kişi kimi söz verin ki, – mayor dilləndi, – doğrudan da belə deyiblər.

Yadaszon ona söz verəndə cənab Bukun şümşadboylu qardaşı yaxına gəlib gülümsədi və cənab mayora özlərinə sərf edən bir izahat verdi. Lakin mayor təəssüfünü bildirdi, belə ifadəyə, sadəcə, izahat verilmir; onun sifətinə qorxunc bir məyusluq qondu. Buna baxmayaraq, təəssüflə özünün daimi masasına doğru boylandı. Elə bu vaxt, bu həlledici anda Diderix badyadakı şampan şüşəsini əlinə aldı. Mayor bunu hiss edib öz vəzifə duyğusuna tabe oldu. Yadaszon təqdim etdi:

– Fabrikant cənab doktor Heslinq.

Hər ikisi bir-birinin sağ əlini var gücləri ilə sıxdı. İsrarla bir-birinin gözlərinin içinə baxdılar.

– Cənab doktor, – mayor dilləndi, – siz özünüzü əsl alman kimi aparmısınız. – Dabanlar bir-birinə dəyib şaqqıldadı, stullar arxaya çəkilib şax durdular, şərəfə badələr qaldırıldı. İndi içmək olardı. Diderix elə həmin an təzədən şampan sifariş verdi. Badə doldurulan kimi mayor onu qurtum-qurtum boşaltdı, arada da təkidlə bildirdi ki, alman sədaqəti olan yerdə o, sözündən dönən deyil. – İmperatorum məni aktiv xidmətdən tərxis etmiş olsa belə...

– Cənab doktor, – Yadaszon izahat verdi, – mayor axırıncı dəfə buradakı əyalət qarnizonunda xidmət edib.

– ...köhnə əsgər ürəyim hələ də burada döyünür, – barmaqları ilə köksünü taqqıldatdı, – vətənpərvərlik əleyhinə olan hərəkətlərə qarşı həmişə mübarizə aparacağam. Odalov olaraq, qılınc vuraraq! – bağırıb yumruğunu masaya çırpdı. Elə həmin an univermaq sahibi Kon onun arxasında şlyapasını başına basıb tələsik aradan çıxdı. Gedişi qaçqınlıq təsiri bağışlamasın deyə cənab Bukun qardaşı əvvəlcə özünə ayaqyolu axtardı.

– Aha! – Yadaszon xeyli ucadan dilləndi. – Cənab mayor, düşmən əkildi.

– Hoytoyfel yerindən tərpənməyib, gözüm ondan su içmir, – hələ də narahatlıq keçirən keşiş Tsillix bildirdi.

Lakin Diderix üçüncü şüşəni sifariş verdi, hələ də masanın arxasında oturub gözlərini utana-utana pivə parçalarından çəkməyən Lauerlə Hoytoyfelə rişxəndlə baxdı.

– Güc bizdədir, – dedi, – oradakı cənablar da bunu gözəl bilir. Daha üsyan etmirlər, çünki keşikçi atəş açıb. Üz-gözlərini elə hala salıblar ki, elə bil, növbənin tezliklə onlara çatacağından qorxurlar. Növbə də çatacaq! – Diderix onu da bildirdi ki, bir az əvvəl deyilmiş sözlərə görə cənab Lauerin əleyhinə prokurorluğa xəbər çatdıracaq.

– Mən də çalışacağam ki, – Yadaszon əmin etdi, – onun əleyhinə ittiham irəli sürülsün. Həmin ittihamı məhkəmədə şəxsən mən özüm söyləyəcəyəm. Cənablar, yəqin, bilirsiniz ki, şahid kimi çıxış edə bilmərəm, çünki həmin söz deyiləndə mən orada olmamışam.

– Buradakı bataqlığı qurudacağıq, – deyib Diderix alman düşüncəsinə və qeysərə sadiq insanların ilk öncə arxa çevirməli olduğu "Veteranlar Şurası"ndan söz saldı. Mayorun üzünə bir məmur ifadəsi qondu. Əlbəttə, o, "Veterenlar şurası"nın sədarətində otururdu. Hələ də bacardığı qədər öz qeysərinə xidmət edirdi. O, Diderixin ittifaqa qəbul olunması təklifini irəli sürəcəyini bildirdi ki, milli elementlər orada müəyyən gücə sahib olsun. Gizlətmək lazım deyil ki, orada da indiyə qədər xəstə demokratlar üstünlük təşkil edir. Mayorun fikrincə, dövlət idarələri tərəfindən Netsiqdə mövcud olan duruma xüsusi diqqət yetirilir. Əgər onun özünü vilayət qarnizonuna komandir təyin etsəydilər, seçkilərdə ehtiyat zabitləri gözdən qaçırmazdı, onların işinə nəzarət edərdi.

– Ancaq hökmdarım bu imkanı əlimdən aldığından... – Diderix ona təsəlli vermək üçün təzədən şərab süzdü. Mayor şərabını içəndə Yadaszon Diderixə doğru əyilib pıçıldadı:

– Bir sözünə də inanmayın! Ölüvay köpəyin biridir, qoca Bukun qabağında az qalır dizin-dizin sürünsün. Amma gərək gözünə kül üfürək.

Diderix elə o saat külünü üfürdü:

– Əslində, mən hökumət başçısı cənab Vulkaunun formal razılığına nail olmuşam. – Mayor gözlərini açdığından: – Gələn il, cənab mayor, reyxstaqa seçkilər keçiriləcək. Bizim kimi sağlamdüşüncəli insanların işi çətin olacaq. Mübarizə elə bu gündən başlayır.

– Hücuma! – mayor ürəkdən qışqırdı. – Prost!

– Prost! – Diderix dedi. – Ancaq cənablar, ölkədə dağıdıcı qüvvələr nə qədər güclü olsa da, biz onlardan qat-qat güclüyük, çünki bizim güclü təbliğatçımız var, bu təbliğatçı da əlahəzrətin özüdür, belə bir imkan rəqiblərimizdə yoxdur.

– Əhsən!

– Əlahəzrət öz dövlətlnin hər bir guşəsində, deməli, elə Netsiqdə də vətəndaşların, nəhayət, yuxudan ayılmasını tələb edibl Bunu biz də istəyirikl

Yadaszon, mayor və keşiş Tsillix əllərini masaya çırpıb alqış söyləyərək və bir-birinin sağlığına içərək öz ayıqlıqlarını bildirdilər. Mayor səsi gəldikcə bağırdı:

– Biz zabitlərə əlahəzrət demişdi: “Bunlar mənim arxa çevirdiyim kişilərdir!”

– Bizə isə deyib: “Kilsənin fürstlərə ehtiyacı olarsa ...” – keşiş Tsillix səsini qaldırdı.

İndi hər bir zorakılığa yol vermək olardı, çünki restoran çoxdan boşalmışdı, Lauerlə Hoytoyfel də kirimişcə aradan çıxmışdılar və arxa tərəfdəki tağlı sütunda daha qaz da yanmırdı.

– O həm də deyib: – Diderix ovurdlarını dombaldıb qıpqırmızı qızartdı, bığı, az qala, gözünə girdi, bu gözlər yenə də ətrafa qorxu saçırdı, – “Biz çiçəklənmə əsrini yaşayırıq!” Bu, doğrudan da, belədirl Onun həşəmətli rəhbərliyi altında biz çox iş görməkdə qərarlıyıq!

– Hələ karyera! – Yadaszon banladı. – Əlahəzrət deyib: “Mənə yardımçı olmaq istəyən hər kəsin yanımda yeri var”.

Bunu mənə şamil etməyən tapılarmı? – Qulaqlarının qızartısı işıldayan Yadaszon təkidlə soruşdu. Mayor təzədən nərildədi:

– Hökmdarım mənə büsbütün bel bağlaya bilər. O, məni ordudan tez tərxis etdi, vicdanlı bir alman kimi bunu mən onun gözünün içinə deyə bilərəm. Müharibə başlasa, onun mənə yenə ehtiyacı olacaq. Mən həyatımın qalan hissəsini, sadəcə, ballarda fişəng atmaq fikrində deyiləm. Sedan döyüşlərində olmuşam.

– Aman Allah, bəs mən olmamışam?! – uzaq qaranlıqdan cır qışqırtılı bir səs eşidildi və tağların kölgəsində uzun ağsaçlı balaca bir qoca peyda oldu. Kişi səndələyə-səndələyə yeriyirdi, gözlüyünün şüşələri işıldayırdı, yanaqları od tutub yanırdı və o, səsini qaldırdı: – Cənab mayor Kuntsel Özüdür ki var! Keçmiş cəbhə yoldaşım, halınız elə o vaxt Fransada olduğu kimidir. Həmişə demişəm, yenə də deyirəm: pis yaşamamışıq, bir-ikicə il də artıq yaşamaq yaman olmazdı!

Mayor onu təqdim etdi:

– Gimnaziya müəllimi, cənab Künxen[1].

Necə olub ki, bu alçaqboy qocanı orada, qaranlıq bir küncdə unudublar, bu barədə o, öz gümanlarını söylədi. Əvvəllər o, hansısa cəmiyyətin üzvü olubmuş.

– Bir balaca mürgüləməli oldum. Mən mürgüləyəndə də o əclaf avaralar əkilib aradan çıxıblar. – İçkinin başında oyatdığı dumanı yuxu hələ də yox edə bilməmişdi, lovğalıqla qışqıraraq o, mayora həmin “dəmir il”də etdikləri birgə işləri xatırlatdı. – Partizanlar! – bağırdı və onun qırışlaşmış dişsiz ağzından selik töküldü. – Əsl banditlər idi! Qoy cənablar öz gözləri ilə görsünlər, budur, barmağım kökündən quruyub, partizanlardan biri dişləyib damarımı kəsmişdi. Çünki mən qılıncımla bir balaca onun boğazını üzmək istəyirdim. Gədənin bu əclaflığı!

Barmağını masa arxasında oturanlara bir-bir göstərdi və onların heyrətinə səbəb oldu. Diderixin coşqulu duyğuları, təbii ki, qorxu ilə çulğalaşdı və o, partizanlar barədə düşünməli oldu; alçaqboy ehtiraslı qoca, sanki, Diderixin sinəsinə çöküb qılıncı onun boğazına dirəmişdi. Bir anlığa bayıra çıxmaq məcburiyyətində qaldı.

---

[1] Cəsarət qırığı

Geri qayıdanda mayorla müəllim Künxen qışqırıb bir-birinin səsini batıra-batıra amansız döyüş barədə danışırdılar. Heç birini də başa düşmək olmurdu. Amma Künxenin cingiltili zil səsi mayorun nəriltisinin içindən asanca seçilir və qarşıdakının danışığını boğurdu.

– Yoox, köhnə dost, sizin başınız hər zaman yaxşı işləyib. Pilləkəndən üzüaşağı yumalananda bir pilləni də unutmursunuz. Deyin görüm, partizanların oturduğu evə odu Künxen vurmadımı, buna sözünüz nədir?l Mən müharibə bicliyinə əl atıb özümü ölülüyə vurdum, buna da o giclər inandı. Ev alışan kimi onlar vətəni müdafiə eşqini büsbütün itirib qaçmağa üz qoydular, sadəcə, soofqipö![1] Onda biz almanları görəydiniz! Barıdan aşağı atılmaq istəyəndə hamısını bir-bir güllələdik. Bilirsiniz necə tullana-tullana qaçırdılar, dövşan onların yanında heç nə idi! – Künxen gopuna ara verib sirayətedici bir kişnərti qopartdı, masadakılar ona qoşuldu. Künxen dincini alıb sözünə davam etdi: – Bu fırıldaqçı murdarlar bizi də hiyləyə öyrətdilər! Hələ arvadları! Yoox, cənablar, fransız qadınları kimi əfi ilanı yer üzü hələ görməyib. Başımıza qaynar su tökürdülər. Sizdən soruşuram, arvad da belə şeylər edərmi? Ev alışan kimi uşaqları pəncərələrdən aşağı atıb istəyirdilər ki, biz onları göydə tutaq. Pis fikirləşməmişdilər. Biz də bu körpə şeytanları nizələrimizlə qarşılayıb tuturduq. Sonra da qadınlar! – Künxen duz xəstəliyindən əyilmiş barmaqlarını tüfəngin qundağında tuturmuş kimi yuxarıya baxdı, sanki, nizəyə keçirmək üçün orada kimsə varmış. Gözlüyünün şüşələri işıldadı, gopunu davam etdirdi: – Axırda gonbul bir qadın pəncərəyə yaxınlaşdı, qabaq tərəfdən yerləşə bilmədi, ona görə də çalışdı ki, arxasını yerləşdirsin. Amma bu gözəlçə Künxenin kim olduğunu fikirləşməmişdi. Tənbəllik etməyib iki əsgərin çiyninə qalxıram, nizəmlə qıdıqlayıram onun piyli fransız... – Son sözü eşidən olmadı, şaqqanaq həmin sözü batırdı. – Müəllim sözünə davam etdi: – Hər dəfə Sedan döyüşü qeyd ediləndə bu əhvalatı abırlı kəlmələrlə şagirdlərimə danışıram. Qoy uşaqlar bilsinlər ki, onların necə qəhrəman ataları olub.

Hamı yekdil fikirdəydi ki, belə şeylər gənc nəslin milli şüurunun formalaşmasında önəmli rol oynayır, ona görə də

[1] Fransız dilindəki sauve qui peut (bacaran başını qurtarsın) nitq vahidinin təhrif olunmuş forması

hamısı badələrini Künxenin badəsinə vurdu. Heyranlıqdan heç biri hiss etməmişdi ki, masalarına yeni bir qonaq gəlib. Yadaszonun gözü birdən-birə əynində Hoentsoller paltosu olan, görkəmindən sadəlik yağan çalsaç kişini görüb ehtiramla oturmaq işarəsi verdi.

– Hə, çəkinməyin, cənab Notqroşen![1]

– Diderix ali duyğulardan ayılıb onun üstünə dirəndi:

– Siz kimsiniz?

Yad adam dərindən təzim etdi.

– Notqroşen, "Netziger Zeitung" qəzetinin redaktoru.

– Belə de, aclar namizədi, – Diderixin gözləri alışıbyandı. – Əldəölən gimnazist, diplomlu proletar, başımızın bəlası! – Hamı güldü; redaktorun özü də mütiliklə gülümsədi. – Əlahəzrət sizə öz qiymətini verib, – Diderix davam etdi. – Yaxşı, əyləşin! – Hətta ona şampan da süzdü, Notqroşen də minnətdarlığını bildirib içdi. Ayıq başla, lakin şaşqınlıqla. Fərdi düşüncələri içilib döşəməyə yığılmış şüşələrlə yüksək zirvəyə qalxdığı bu kiçik məclisə göz gəzdirdi. Redaktoru elə həmin an unutdular. Kimsə onun gecənin bu vədəsində göydən düşmüş kimi burada necə peyda olmasını soruşana qədər kişi səbirsizliklə gözlədi.

– Qəzetin nömrəsini hazırlamalıyam, – redaktor xırda məmur ədası ilə bildirdi. – Fəhlənin necə olub güllələnməsini cənablar özləri səhər tezdən qəzetdə oxuyarlar!

– Bunu biz sizdən yaxşı bilirik, – Diderix bağırdı. – Bunları siz yalnız xəstə başınızdan uydurursunuz.

Redaktor günahkarcasına gülümsədi və buradakıların hamısının hadisəni necə qatma-qarışıq təsvir etdiklərinə mütiliklə qulaq asdı. Səs-küy yatanda isə sözə başladı:

– Oradakı cənab ...

– Doktor Heslinq, – Diderix kobudluqla dilləndi.

– Notqroşen, – redaktor mızıldadı. – Bir az qabaq siz qeysərin adını çəkdiyinizə görə sizə maraqlı olar deyim ki, yeni bir manifest hazırlanır.

– Heç vaxt yol vermərəm ki, ona qara yaxsınlar! – Diderix amiranə dilləndi.

Redaktor büzüşüb əlini sinəsinə qoydu.

– Söhbət qeysərin məktubundan gedir.

– O da, çox güman ki, hansısa etibarsızlıq sayəsində sizin yazı masanızın üstünə gəlib çıxıb, eləmi? – Diderix

[1] Ehtiyac quruşu

soruşdu. Notqroşen, sanki, özünü qoruyurmuş kimi əlini qabağa uzatdı.

– Qeysər onu çap eləmək üçün özü göndərtdirib. Sübh tezdən qəzetdə oxuyarsınız. Bu da onun ilkin variantı!

– Oxuyun gəlsin, doktor, – mayor əmr etdi. Diderix bağırdı:

– Necə, doktor? Doktorsunuz?

Amma hamı məktubla maraqlanırdı. Onu redaktorun əlindən dartıb aldılar.

– Əhsən! – oxumağa hələlik o qədər də çətinlik çəkməyən Yadaszon dilləndi.

– Əlahəzrət pozitiv xristianlığı qəbul edir, – keşiş Tsillix elə ürəkdən sevindi ki, onu hıçqırıq tutdu. – Hoytoyfel alsın payını! Özünü alim sayan bu həyasız, hıç, axır ki, öz payını alacaq. O qədər qudurmuşdular ki, vəhy məsələlərinə də qarışırdılar. Vəhyin nə olduğunu heç mən başa düşmürəm, hıç, baxmayaraq ki ilahiyyatı dərindən öyrənmişəm!

Müəllim Künxen yazını havada yellətdi:

– Cənablar, məktubu sinifdə oxuyıb inşa mövzusuna çevirməsəm, adımı dəyişərəm!

Diderix tam ciddiləşdi.

– Təbii ki, Hammurabi[1] Allahın yer üzündə kölgəsidir. Bilmək istərdim ki, bunu təkzib edən varmı?! – Baxışı ətrafa atəş saçdı. Notqroşen kirpi kimi büzüşdü. – Yaxşı, qeysər Böyük Vilhelmə sözünüz nədir?! – Diderix sözünə davam etdi. – Bu yerdə etiraza yer yoxdur! Əgər o, Allahın yer üzündəki kölgəsi deyilsə, onda yer üzündə kölgənin nə olduğunu Allah özü də bilmir!

– Mən də bu fikirdəyəm, – mayor əminliklə bildirdi. Xoşbəxtlikdən, etiraz edən olmadı, çünki Diderix həddən artıq qətiyyətli idi. Əlini masaya dayaq verib stulundan qalxdı.

– Bəs bizim həşəmətli cavan qeysərimiz? – hədəli səslə soruşdu. Hər tərəfdən cavab gəldi: “Şəxsiyyət... coşqun... hərtərəfli... orijinal mütəfəkkir”. Bunlar Diderixi təmin etmədi. – Təklif edirəm: o həm də Allahın yer üzündə kölgəsi sayılsın! – Təklif qəbul edildi. – Daha sonra təklif edirəm ki, qərarımızı teleqramla əlahəzrətin nəzərinə çatdıraq.

[1] Hammurabi/Hammurapi – qədim Babilistan padşahı (e.ə. 1728–1686); Mesopotamiya və Assuriyanı özündə birləşdirən böyük bir imperiya yaratmışdı.

– Təklifi ürəkdən bəyənirəm! – mayor nərildədi.

Diderix qətiyyətlə bildirdi:

– Yekdilliklə və ürəkdən qəbul olundu! – O, yenidən yerinə çökdü. Künxen və Yadaszon məktubu yazmağa girişdilər. Maraqlı bir şey tapan kimi onu dostlarına oxuyurdular:

"Netsiq şəhərinin ratskellerində[1] toplaşmış məclis ..."

"Birgə iclas" – Diderix tələb etdi. Onlar da yazdı: "milli düşüncəli insanların iclası..."

– Milli, hıç və xristian, – keşiş Tsillix tamamladı.

– Cənablar, doğrudan da, ciddi fikirləşirlər? – Notqroşen, az qala, yalvararaq soruşdu. – Elə bildim hamısı zarafatdır.

Diderixi hirs götürdü:

– Biz ilahi duyğularla zarafat etmirik. Bunu sizə ətraflı izah etməkmi lazımdır, müflis ziyalı? – Notqroşenin əllərinin ifadəsi bayaq dediyindən imtina etdiyini bildirdiyinə görə Diderix həmin an sakitləşib dedi: – Prost!

Mayor isə, əksinə, elə bərkdən bağırdı, elə bil, indicə partlayacaqdı:

– Biz o kişilərik ki, əlahəzrət bizə bel bağlaya bilər!

Yadaszon onları sakitliyə çağırıb yazdığını oxumağa başladı:

"Milli və xristian düşüncəli insanların Netsiqin ratskellerində toplaşmış iclası Siz əlahəzrətin vəhy dininə ürəkdən tapınması münasibətilə Sizə özünün yekdil sədaqət andını bəyan edir. İstənilən cilddə olan qiyamçılığa öz dərin nifrətimizi ifadə etməklə bu gün bizim Netsiqdə əsgəri keşikçinin cəsarətli hərəkətində bu cür fərəhli bir təsdiqi tapırıq ki, Siz qeysər Böyük Vilhelm əlahəzrətləri heç də Hammurabidən az Allahın yer üzündəki kölgəsi deyilsiniz".

Hamı əl çaldı, Yadaszon da yarına-yarına gülümsədi.

– İmzalayaq! – mayor bağırdı. – Kiminsə qeydi, əlavəsi varmı?

Notqroşen içini arıtladı:

– Bircə kəlmə, hər cür təvazökarlıqdan kənar olsa da...

– Olsa, nə olar?! – Diderix dedi. Redaktor içkinin təsirindən ürəklənmişdi, yerində löngərlənib heç bir səbəb olmadan hihildədi:

---

[1] *Ratskeller* – Almaniyada hər bir şəhərin bələdiyyə binasında restoran yerləşir və almanlar onu digər restoranlardan bu adla fərqləndirirlər.

– Keşikçinin əleyhinə çıxmaq fikrim yoxdur, cənablar. Mən həmişə bu fikirdə olmuşam ki, əsgərlər atəş açmaq üçün yaranıblar.

– Hə, dalı gəlsin.

– Elədir, amma qeysərin də bizim kimi düşündüyünü bilirikmi?

– Əlbəttə bilirik! Lük əhvalatı!

– Oxşar olaylar... hi-hi... gözəl şeylərdir, amma biz hamımız bilirik ki, qeysər orijinal mütəfəkkir və... hi-hi... coşqundur. İstəyərdimi, onu kimsə hansı işdə isə qabaqlasın?! Əgər qəzetdə yazmaq istəsəydim ki, cənab doktor Heslinq, siz gərək nazir olasınız, bununla siz... hi-hi... nazir olası deyilsiniz ki!

– Atın getsin bu yəhudi kələkbazlığını! – Yadaszon səsini qaldırdı. Redaktor özündən çıxdı:

– Hər ali kilsə bayramında qəzetimdə bir yarım sütun mülahizə verirəm. Keşikçi isə, keşikçini qətlə görə ittiham edə bilərlər. Onda biz hamımız batmarıqmı?!

Araya sükut çökdü. Düşüncəyə qərq olmuş mayor əlindəki karandaşı yerə qoydu. Diderix onu qapıb götürdü.

– Biz milli düşüncəyə sahib adamlarıq, ya yox?! – deyib acıqlı-acıqlı imza atdı. Bundan sonra böyük bir coşqu başladı. Notqroşen imza atmaqda ikinci olmaq istədi.

– Təcili poçta!

Diderix tapşırıq verdi ki, hesab kağızını sabah ona təqdim etsinlər və hamı ayağa durdu. Notqroşen birdən-birə fərəhli ümidlərə qapıldı:

– Qeysərin cavabını çap etdirə bilsəm, Şerlə yolum açıqdır.

Mayor nərildədi:

– Baxaq görək, xeyriyyə şənlikləri təşkil etməklə mən çoxmu məşğul olacağam!

Pastor Tsillix xəyalən kilsəsində adamların basabas saldığını və Hoytoyfelin daşqalaq edildiyini gördü. Künxen Netsiqin küçələrində qan selindən məst oldu. Yadaszon banladı:

– Mənim qeysərə olan sədaqətimdən, bəlkə, kiminsə şübhəsi var?

Diderix də, öz növbəsində:

– Qoy qoca Buk indi qarşımızda dayansın! Elə Qauzenfelddəki Klüzinq də! Biz yuxudan oyanırıq!

Kişilər ayaq üstə dümdüz dayana bilirdi, hərdən isə kimsə gözlənilmədən bir balaca qabağa əyilirdi. Əllərindəki çəlikləri mağazaların endirilmiş taxtalarına döyəcləyərək yeriyir və bir-birindən bixəbər eyni taktla "Reyndə keşik" mahnısını oxuyurdular. Əyalət məhkəməsi binasının tinində bir mühafizə polisi dayanmışdı, amma bəxti gətirib yerindən tərpənmədi.

– Nəsə istəyirsiniz, kişi qırığı? – hədd-hüdudunu aşmış Notqroşen səslədi. – Qeysərə teleqram vururuq!

Poçtun qarşısında mədəsi xarab pastor Tsillixin halı pisləşdi. Başqaları onun harayına yetişib əhvalını yüngülləşdirəndə Diderix qapının zəngini çalıb teleqrafçını bayıra çağırdı və teleqramı ona verdi. Məmur onu oxuyub qurtarandan sonra tərəddüdlə Diderixə baxdı, Diderix də ona elə qorxunc və odlu bir nəzər saldı ki, kişi ürküb vəzifəsini yerinə yetirdi. Bu arada Diderix yenə də gözlərindən alov yağdırıb daşlaşaraq dayanmağına davam etdi: keşikçinin qəhrəmanlığı barədə flügel-adyutantın məlumatını və saray nazirinin təbəəlik teleqramını dinləyən qeysərin pozasında. Diderix başında dəbilqə hiss edib buduna sallanan qılınca döyəclədi və dedi:

– Mənə gücü çatan varmı?!

Teleqrafçı bunu xəbərdarlıq kimi başa düşdü, pulun xırdasını bir daha sayıb onun qarşısına qoydu. Diderix pulu götürüb masalardan birinə yaxınlaşdı və kağıza bir-iki sətir nəsə yazdı. Yazdığını cibinə qoyub dostlarının yanına qayıtdı.

Dostları pastoru faytona mindirmişdilər, o elə indicə yola düşdü, ağlaya-ağlaya pəncərədən onlara əl elədi, sanki, onlardan əbədilik ayrılırdı. Teatr binasına çatanda Yadasson tinə buruldu, baxmayaraq ki mayor onun arxasınca bağırıb evinin ayrı səmtdə olduğunu deyirdi. Birdən mayor da yoxa çıxdı, Diderixlə Notqroşen ikilikdə Lüter küçəsinə yetişdilər. "Valhalla" teatrının qarşısından redaktoru aralayıb aparmaq olmurdu, gecənin tən ortasında "elektrik möcüzəsini", orada ağzından alov püskürən qadını görmək istəyirdi. Diderix hər vəchlə ona başa salmağa çalışırdı ki, gecənin bu vaxtında bu cür yelbeyinliklə məşğul olmaq yaramaz. Axır ki, Notqroşen "Netziger Zeitung"un binasını görüb "elektrik möcüzəni" yerli-dibli unutdu.

– Dayandırın! – qışqırdı. – Dayandırın maşını! Milli düşüncəli kişilərin teleqramı nömrəyə getməlidir!.. Gərək

həmin teleqramı səhər tezdən qəzetdə oxusunlar, – onların yanından keçən gecə qarovulçusuna dedi. Bu vaxt Diderix onun qolundan yapışdı.

– Bircə bu teleqramı yox, – kəsə və astadan dedi. – Məndə ayrısı da var. – Cibindən bir kağız parçası çıxartdı. – Gecə növbəsində olan teleqrafçı köhnə tanışımdır və mənə etibar etdi. Teleqramın haradan əldə edildiyini tam gizli saxlayacağınızı gərək mənə söz verəsiniz, yoxsa kişini işdən atarlar. – Notqroşen elə həmin an hər şeyə söz verdiyindən Diderix kağıza baxmadan dedi: – Teleqram alay komandirinə göndərilib ki, polkovnik onu özü bu gün fəhləni güllələmiş keşikçiyə çatdırsın. Orada deyilir: "Şərəf meydanında sənin daxili düşmənlərə qarşı göstərdiyin şücaətin müqabilində özümün imperator məmnunluğumu bildirib sənə yefreytor rütbəsi verlrəm". Buyurub əmin ola bilərsiniz...

Diderix kağızı redaktora uzatdı. Lakin Notqroşen heç onun üzünə də baxmadı, yalnız gözlərini Diderixə, onun daşlaşmış duruşuna, az qala gözlərinə batacaq bığına və od saçan gözlərinə zillədi.

– Az qalıram deyəm ki... – Notqroşen kəkələdi, – sizin çox oxşarlığınız var ona... hə, hə, ona...

## DÖRDÜNCÜ FƏSİL

"Yeni Tevtoniya"nın ən gözəl çağlarında olduğu kimi Diderix günorta yeməyini yuxuya qurban verərdi, ancaq restoran yeməyin hesabını göndərirdi və həmin hesab onun yuxudan durub idarəyə getməsinə yetərli olurdu. Halı yaxşı deyildi, üstəlik, onun işini də çətinləşdirirdilər, hətta ailəsi də. Bacıları özlərinin aylıq bəzək-düzək xərclərini tələb edirdi, o da onlara deyəndə ki verməyə pulu yoxdur, onlara pul sarıdan korluq çəkdirməmiş qoca Zötbiri həmişə qardaşlarının gözünə soxurdular. Bu üsyan cəhdini Diderix beşiyindəcə boğurdu. Boğuq erkək pişik səsini işə salıb qızlara izah edirdi ki, onlar ayrı şeylərə öyrənməli olacaqlar. Zötbir, əlbəttə, onlara həmişə pul buraxıb, amma fabriki də çökdürüb.

– Sizə düşən payı bu gün ödəyəsi olsam, dəhşət içində heyrətlənəcəksiniz ki, necə də azdır. – Bunları deyəndə bacılarını haçansa fabrikə ortaq etməyə məcbur qalacağını

tamam ədalətsizlik sayırdı. "Gərək buna yol verməyəm", – beynindən keçirdi. Qızlar isə, əksinə, daha tələbkar oldular.

– İşə bax, biz modelyerin haqqını ödəyə bilmirik, cənab doktor isə yüz əlli marklıq şampan içir.

Diderixin üz-gözündən zəhər yağdı. Sirrinin üstü açıldı! Deməli, onu güdürlərmiş! O, evin kişisi deyilmiş, günlərini tənbəllikdə keçirən qadınlar üçün əlləşib-vuruşan əl buyruqçusu, zənci imiş! Ayağını yerə döyüb elə bağırdı ki, şüşələr cingildədi. Frau Heslinq fəryad qoparıb yalvardı, bacılar yalnız qorxduqlarından etirazlarını bildirdilər, lakin Diderix artıq işə düşmüşdü.

– Necə cəsarətiniz çatır? Başdan xarablar! Haradan biləsiniz ki, həmin yüz əlli mark gəlirli bir kapital qoyuluşudur?! Bəli, kapital qoyuluşu! Elə bilirsiniz başdan xarablarla oturub içirəm və onlardan heç bir istəyim olmur?! Bu barədə burada, Netsiqdə sizlər heç nə bilməz, bu, yeni kursdur, bu... – sözü birtəhər tapdı, – əzəmətli bir işdir! Əzəmətdən əzəmətli!

Bunu deyib qapını arxasınca çırpdı. Frau Heslinq ehtiyatla onun arxasınca getdi və Diderix olacaqda divana çökəndən sonra anası onun əlini ovcunun içinə alıb dedi:

– Əzizim, oğlum, mən səninləyəm. – Sonra ona elə baxdı ki, elə bil, "ürəkdən dua etmək" istəyirdi.

Diderix qaxac balıq istəyib bir az keçəndən sonra yeni ruhu Netsiqdə işə keçirməyin necə çətin olduğundan hirslə gileyləndi. Ən azı, burada, öz evində onun qüvvəsini gərək torpağa gömməyəydilər!

– Sizinlə bağlı nəhəng planlarım var, imkan verin, öz ağlımla hərəkət edim. Evin böyüyü bir olar. Təbii ki, tədbirli olmaq və qol-qanad açmaq da lazımdır. Artıq Zötbirə də ehtiyac yoxdur. Qocanı bir müddət işlədəcəyəm, sonra atacağam bayıra.

Frau Heslinq mülayimliklə bildirdi ki, sevimli oğlu anasının xatirinə nə edəcəyini həmişə dəqiq biləcək. Bundan sonra Diderix idarəyə yollandı və Eşvaylerdəki "Büşli & Co." zavoduna Mayer sistemindən olan "Patentli-ikiqat-hollender" maşınını sifariş etmək üçün bir məktub yazdı. Məktubu bağlamadan masanın üstündə qoyub bayıra çıxdı. Geriyə qayıdanda gördü ki, Zötbir masanın qarşısında dayanıb yaşıl günlüyünün altında açıq-aşkar ağlayırdı: göz yaşı məktubun üstünə tökülürdü.

– Gərək üzünü bir də köçürtdürəsiniz, – Diderix boz-boz dilləndi. Zötbir özünü saxlaya bilmədi:

– Cavan cənab, köhnə hollenderimiz patentli hollender deyil, amma qoca cənabın ilk vaxtlarından bu yana işləyir; atanız işə onunla başlayıb, onunla da fabriki böyüdüb bu vəziyyətə çatdırıb...

– Nə olsun ki, mənim də arzum öz hollenderimlə böyüyüb inkişaf etməkdir, – Diderix onun sözünü ağzında qoydu. Zötbir fəryad qopartdı:

– Köhnə maşınımız bizə hələ çox gərəkli olardı.

– Mənə yox.

Zötbir and-aman elədi ki, köhnə maşın başgicəlləndirən reklamların adamların gözünə soxduğu istənilən yenisindən gözəl işləyir. Diderix dediyindən dönməyəndə qoca Zötbir qapını açıb üzünü bayıra tutdu:

– Fişer! Bir buraya gəlin!

Diderix narahat oldu.

– Adamdan nə istəyirsiniz? Onun bu işə qarışmasını qadağan edirəm.

Lakin Zötbir böyük müəssisələrdə çalışmış ustanı özünə şahid tutmaq istədi.

– Hə, Fişer, hollenderimizin necə işlək olmasını cənab doktora deyin!

Diderix onu dinləmək istəmədi, ora-bura vurnuxub fikirləşdi ki, kişi onu pərt etmək üçün yaranmış imkandan istifadə edəcək. Bunun əvəzinə Napoleon Fişer Diderixin işgüzarlığını göylərə qaldırdı, sonra da köhnə hollender barədə düşünülməsi mümkün olmayan bütün yamanlıqları söylədi. Adam Napoleon Fişerə qulaq asanda az qalırdı onun indicə işdən çıxacağını eşidəcək, çünki köhnə hollender qəti onun ürəyincə deyildi. Diderix fısıldayıb bildirdi ki, cənab Fişerin onu tək qoyub getməməsi onun üçün əsl xoşbəxtlikdir; lakin usta kinayəni qulaqardına vurub prospektdəki şəkillərə əsasən yeni hollenderin məziyyətlərini, ilk növbədə də maşına yüksək dərəcədə rahat qulluq edilməsini ona izah etdi.

– Təki sizin işiniz yüngül olsun! – Diderix təzədən fısıldadı. – Daha ayrı arzum yoxdur. Sağ olun, gedə bilərsiniz.

Usta otaqdan çıxandan sonra Zötbirlə Diderix hər biri-si ayrılıqda özləri üçün məşğul oldular. Qəflətən Zötbir soruşdu:

– Bəs pulunu necə ödəyəcəyik?

Diderix həmin an alov kimi qızardı; bütün bu vaxt ərzində o da elə bu barədə fikirləşirdi.

– Elə bu?! – bağırdı. – Ödəmək! Birincisi, ödəmənin müddətini uzadacağam, sonra da: əgər bu cür bahalı hollender sifariş verirəmsə, elə fikirləşməyin ki, nə etdiyimi bilmirəm. Yox, əzizim, istehsalın tezliklə genişləndirilməsi barədə müəyyən niyyətlərim var, həmin niyyətləri bu gün açmaq fikrində deyiləm.

Bunları deyib daxili şübhələrinə baxmadan gövdəsini şax tutaraq kontoru tərk etdi. Həmin Napoleon Fişer bayıra çıxanda bir daha ətrafına nəzər salmışdı, elə baxmışdı, elə bil, şefinin kürəyini ağıllı-başlı yerə vurmuşdu. "Düşmənlərin arasında, – düşünüb Diderix daha şux görkəm aldı, – bu, gücümüzü daha da artırır. Hamısını qarışqa kimi əzəcəyəm". Gərək bilsinlər ki, kimə sataşırlar; sonra o, yuxudan durarkən ağlına gələn fikrin arxasınca düşdü: həkim Hoytoyfelin yanına yollandı. Həkimin qəbul saatı başlamışdı və onu xeyli gözlətdi. Sonra onu cərrahiyyə otağında qəbul etdi, burada hər şey – iy, əşyalar Diderixə keçmiş xoşagəlməz günləri xatırlatdı. Həkim Hoytoyfel masanın üstündəki qəzeti əlinə aldı, xəfifcə gülüb dedi:

– Hm, buraya, yəqin ki, qələbənizi bayram etməyə gəlmisiniz. İki uğur birdən! Şampan qonaqlığı sizdən... budur, qeysərin gözətçiyə depeşası, sizə qalsa, yəqin, bundan böyük arzunuz olmaz.

– Hansı depeşa? – Diderix soruşdu. Doktor Hoytoyfel depeşanı ona göstərdi. Diderix oxudu: "Şərəf meydanında daxili düşmənə qarşı göstərdiyin şücaətə görə mən özümün imperator ehtiramımı sənə bildirir və sənə yefreytor rütbəsi verirəm". Məktubun çap hərfləri ilə yazılması onun doğruluğuna Diderixdə əminlik yaratdı. Hətta o, dərindən mütəəssir oldu; əsl kişi təmkini ilə dedi:

– Bu, milli şüur sahiblərinin hamısının ürəyincə deyilmişdir. – Hoytoyfel çiyinlərini çəkməklə kifayətləndiyindən Diderix dərindən nəfəs aldı. – Mən buraya ondan ötrü yox, ikitərəfli münasibətlərimizi aydınlaşdırmaq üçün gəlmişəm. – Hoytoyfel bildirdi ki, münasibətlər çoxdan aydınlaşıb. – Xeyr, hələ ki qəti yox.

Diderix əmin etdi ki, təntənəli şəkildə sülh bağlamaq niyyətindədir. Əgər onun milli və imperiyaya sədaqət

inanclarına hörmətlə yanaşsalar, hətta hamı tərəfindən başa düşülən liberalizm ruhunda fəaliyyət göstərməyə də hazırdır. Həkim Hoytoyfel bunları, sadəcə, boş ifadələr adlandırdı və Diderix özünü itirdi. Bu kişi onu caynağından buraxmaq istəmirdi; adi bir sənədin köməyi ilə o, Diderixi qorxaq kimi rüsvay edərdi! Hoytoyfelin çinliyə xas sarı sifətindəki kinayəli təbəssüm, bu özündənrazı rəftarda daimi bir eyham vardı. Ancaq o danışmırdı, qılıncı Diderixin başı üstündə yelləðirdi. Bu vəziyyətə son qoymaq lazım idi!

– Sizdən tələb edirəm ki, – Diderix həyəcandan boğularaq dilləndi, – məktubumu özümə qaytarasınız.

Hoytoyfel, guya, təəccübləndi:

– Hansı məktubu?

– Orduda xidmət edəndə sizə göndərdiyim məktubu.

Həkim xeyli fikrə getdi:

– Hə, onu: çünki siz hərbi xidmətdən yayınmaq istəyirdiniz!

– Elə də bilirdim, ehtiyatsız xahişimə məni rüsvay edən bir məna verəcəksiniz. Təkrarən sizdən tələb edirəm ki, məktubu qaytarasınız. – Bunu deyib hədə ilə irəli yeridi. Hoytoyfel geri çəkilmədi.

– Əl çəkin məndən. Məktubunuzu saxlamamışam.

– Kişi kimi söz verin.

– Mən əmrlə kişi sözü vermirəm.

– Onda sizin mənəviyyatsız hərəkətlərinizin nəticələrini diqqətinizə çatdırmalı olacağam. Siz mənim məktubumla hansı vəziyyətdə isə mənə qarşı pislik etmək eşqinə düşsəniz, onda peşə sirrini açmaqda sizi ittiham edəcəyəm. Sizi həkimlər palatasına satacağam, sizə qarşı cəza iddiasında olacağam və sizi məhv etmək üçün bütün nüfuzumu işə salacağam! – Yüksək həyəcan içində, az qala, boğula-boğula: – Mən hər şeyə hazıram! Aramızda ölüm-dirim mübarizəsi gedəcək!

Doktor Hoytoyfel maraqla onu süzüb başını buladı, çinli bığı səyridi və dedi:

– Səsiniz tutulub.

Diderix diksindi, dili dolaşdı:

– Bunun sizə nə dəxli?

– Heç bir, – Hoytoyfel cavab verdi. – Bu, məni lap əvvəldən maraqlandırırdı, bunu sizə çox-çox qabaqlar demişdim.

– Nəyi axı? Fikrinizi düz-əməlli bildirə bilməzsinizmi? – Amma Hoytoyfel bundan imtina etdi. – Qətiyyətlə sizdən tələb edirəm ki, həkim kimi vəzifə borcunuzu yerinə yetirrəsiniz!

– Mən sizin həkiminiz deyiləm, – Hoytoyfel cavab verdi. Bundan sonra Diderixin amiranə üz ifadəsi çiliklənib yerə töküldü və o, gileyə keçdi:

– Hərdən boğazım məni incidir. Düşünürsünüz ki, axırı pis olar? Qorxmağıma dəyərmi?

– Məsləhət görürəm, mütəxəssislə məsləhətləşəsiniz.

– Bu şəhərdə siz yeganə mütəxəssissiniz! Allah xatirinə, cənab doktor, günaha batmayın, o boyda ailə mənim boynumdadır.

– Onda gərək az siqaret çəkib az içki içəsiniz. Dünən axşam həddinizi aşmışdınız.

– Belə de! – Diderix belini düzəltdi. – Siz dünənki şampanı mənə bağışlaya bilmirsiniz. Bir də ki təbəəlik ünvanını.

– Əgər məni gizli işlərdə günahlandırırsınızsa, mənə sual verməyə bilərsiniz.

Amma Diderix yenidən yalvardı:

– Heç olmasa, deyin görüm, xərçəngə çevrilə bilərmi?

Hoytoyfel ciddiliyini pozmadı:

– Uşaqlıqda siz həmişə xənazir və raxit xəstəsi olmusunuz. Gərək əsgərlikdə axıra qədər qulluq edəydiniz, onda bu cür şişməzdiniz.

Axır ki, hirsini boğub Diderixi müayinədən keçirdi, pinsetlə onun boğazını silməyə başladı. Diderixin nəfəsi kəsildi, gözləri qorxu içində döndü və o, həkimin qolundan yapışdı. Hoytoyfel pinseti onun boğazından çıxartdı.

– Bu vəziyyətdə heç nə bacarmaram. – Hihildədi. – Heç dəyişməmisiniz, uşaqlıqda necə vardınız, elə də qalmısınız.

Diderixə təzədən nəfəs gələn kimi bu qorxu odasını tərk etdi. Binanın qarşısında, hələ də gözündən yaş axa-axa, asessor Yadaszonla rastlaşdı.

– Nə olub? – Yadaszon soruşdu. – Dünənki məclis sizə pis təsir edib? Niyə bəs məhz Hoytoyfelin yanına?

Diderix onu inandırmağa çalışdı kI, sağlamlığı əladır.

– Amma bu adama bir az acığım tutmuşdu! Ondan ötrü getmişdim, cənab Lauerin dünənki çıxışı barədə ondan qaneedici bir izahat tələb etməyi özümə borc bildim. Bu

məsələni Lauerin özü ilə müzakirə etmək mənim kimi dəqiq düşüncəyə malik bir adamın, təbii ki, ürəyincə olmazdı.

Yadaszon Klapşın pivəxanasına getməyi təklif etdi.

– Onun yanına, – Diderix içəridə söhbətinə davam etdi, – o niyyətlə getdim ki, həmin hadisənin səbəbini aydınlaşdırım; dediyimiz cənab ya tam sərxoş olub, ya da bəsirəti bağlanıb. Sizin fikriniz nədir? Hoytoyfel günü-gündən sırtıqlaşır. Elə bil alçaq dağları o yaradıb! Bizim təbəəliyimizi, bəlkə də, inanmazsınız, hətta əlahəzrətin teleqramını da həyasızcasına tənqid atəşinə tutur.

– Bəs sonrası? – bir əli froylayn Klapşla məşğul olan Yadaszon soruşdu.

– Məndən ötrü “sonrası” yoxdur! Həmin cənabla ömürlük qurtarmışam! – çərşənbə günü boğazının silinəcəyi qorxusu yadından çıxmasa da, Diderix səsini qaldırdı. Yadaszon daha kəskin dilləndi:

– Mən isə yox. – Diderix ona baxdığına görə: – Əslində, imperator prokurorluğu adlanan, Lauer və Hoytoyfel kimi adamlara lazımınca maraq göstərən bir idarə var, – bunu deyib froylayn Klapşdan əl çəkdi və ona başa saldı ki, aradan çıxsın.

– Nə etmək fikriniz var? – gözlənilmədən heyran qalmış Diderix soruşdu.

– Əlahəzrətin ləyaqətini təhqir etdiklərinə görə ittiham irəli sürmək fikrindəyəm.

– Siz?

– Bəli, mən. Prokuror Fayfer məzuniyyətə çıxıb, onu mən əvəz edirəm. Dünənki hadisə baş verəndə orada olmamışam, bunu sonra birbaşa şahidlərin vasitəsilə müəyyənləşdirmişəm, deməli, ittihamçı tərəf kimi məhkəmə prosesində çıxış etmək üçün bütün yollar qarşımda açıqdır.

– Bəs şikayətçi olmasa, necə?

Yadaszon qəddarlıqla irişdi:

– Allaha şükür ki, buna ehtiyacımız yoxdur... Amma yadınıza salım ki, dünən axşam özünüz bizi şahid tutmuşdunuz.

– Heç nə yadımda deyil, – Diderix tələsik dilləndi.

Yadaszon onun kürəyinə döyəclədi:

– Ümid edirəm ki, and altında olanda hər şey təzədən yadınıza düşəcək.

Diderixi hirs götürdü. Elə bərkdən dilləndi ki, Klapş tələsik özünü otağa saldı:

– Cənab asessor, dəhşətə gəlirəm ki, mənim şəxsi söhbətlərimi... Siyasi məhkəmə qurmaqla prokuror vəzifəsinə çatmağı aşkarca qarşınıza məqsəd qoyursunuz. Amma bilmək istəyirəm, sizin karyeranızın mənə nə isti-soyuğu?

– Yaxşı, bəs sizinkinin mənə?

– Belə. Onda biz rəqib oluruq?

– Məncə, o yerə gedib çıxmaz. – Yadaszon onu başa saldı ki, məhkəmədən qorxmağa heç bir əsas yoxdur. Prosesin ratskellerdəki bütün şahidləri Diderix kimi eyni ifadəni verəcəklər, eləcə də Lauerin dostları. Diderix çox-çox uzaqlara getməyə də bilər... O da cavabında bildirdi ki, belə bir addımı çoxdan atmışdır, çünki Lauerlə dava edən məhz o olmuşdur. Lakin Yadaszon onu sakitləşdirdi. – Kimdir onu soruşan. Söhbət ondan gedir ki, suçlu kəlmələr cənab Lauerin ağzından çıxıb-çıxmayıb? Siz də başqa cənablar kimi edərsiniz, yalnız ifadənizi verərsiniz, istəsəniz, xeyli ehtiyatla.

– Böyük ehtiyatla! – Diderix əminliklə dilləndi. Yadaszonun iblisanə sifətini görüb əlavə etdi: – Lauer kimi abırlı bir adamı dustaqxanaya necə saldırım? Elədir, abırlı bir insanı! Zira fərqli siyasi düşüncəyə malik olmaq, məncə, rüsvayçılıq deyil!

– Özü də hələlik sizə lazım olacaq qoca Bukun yeznəsi, – Yadaszon tamamladı, Diderix də başını aşağı saldı. Yəhudisayaq canfəşanlıq edən bu gədə onu biabırcasına istismar edirdi, onun isə əlindən heç nə gəlmirdi! Gəl belə yerdə hələ bir dostluğa da inan! Diderix bir daha öz-özünə dedi ki, özünə baxanda həyatda hamı daha vicdansız və daha qəddar hərəkət edir. Əsas məsələ adamın nə qədər güclü olmağında idi. O, qamətini düzəltdi, gözləri qığılcım saçdı. Daha heç nəyə ürək qızdırmadı; prokurorluqdan olan adam barəsində heç vaxt bilməzdin ki... Hər halda, Yadaszon söhbətin səmtini dəyişdi.

– Xəbəriniz varmı ki, əlahəzrətin alay komandirinə göndərdiyi teleqram barədə hökumətdə və bizim məhkəmədə qəribə dedi-qodular gəzir? Polkovnik demiş olsun ki, teleqram-zad almayıb.

Daxili həyəcanına baxmayaraq, Diderix səsinin titrəməsinə yol vermədi:

– Axı teleqram qəzetdəydi!

Yadaszon çoxmənalı irişdi:

– Orada çox şey olur. – Keçəl başını qapıdan içəri soxan Klapşa dedi ki, “Netziger Zeitung”u gətirsin. – Görürsünüz, ümumiyyətlə, bu nömrədə əlahəzrətlə bağlı olmayan heç nə yoxdur. Baş məqalə bütövlükdə vəhy dini barədə Külliuca Tapınışa həsr edilib. Sonra polkovnikə göndərilən teleqram, daha sonra yerli xəbərlər sırasında keşikçinin igidliyi, “Qanşıq” rubrikasında isə qeysərin ailə həyatından üç lətifə gəlir.

– Mat qalmalı lətifələrdir, – deyib Klapş gözlərini çevirdi.

– Şübhəsiz elədir! – Yadaszon təsdiqlədi, Diderix isə:

– Hətta azadfikirli qışqırdıcı qəzet də əlahəzrətin önəmini dərk etməyə məcbur olur!

– Amma əndazəsiz tərif cəhdi əvvəl-axır ona gətirib çıxara bilər ki, redaksiya hələ gəlib çatmamış külliuca depeşanı bir nömrə qabağa salar.

– Mümkünsüzdür! – Diderix qətiyyətlə bildirdi. – Əlahəzrətin üslubu təkrarsızdır.

Klapş da həmin üsluba bələd olduğunu dedi. Yadaszon təslim oldu:

– Hə də... İşin nə yerdə olduğu heç vaxt bilinmədiyinə görə biz də təkzib etmirik. Polkovnikin depeşanı almaması hələ heç nə demək deyil, “Netziger Zeitung” onu birbaşa Berlindən də ala bilərdi. Vulkau redaktor Notqroşeni yanına çağırtdırıb, amma gədə ifadə verməkdən boyun qaçırıb. Vulkau özü bizim yanımıza gəlmişdi, informasiya mənbəyi barədə redaktorun prokurorluğa məlumat vermək öhdəliyini ona xatırladıb ciddi tədbirlər görməyimizi tələb edirdi. Biz də bu fikri yaxına buraxmayıb Berlindən gələcək təkzibi gözləməyə üstünlük verdik, ona görə ki, nəyin necə olacağını heç vaxt bilmək olmur. – Klapş mətbəxə çağırıldığından Yadaszon əlavə etdi: – Gülməlidir, hə? Məsələ hamıya şübhəli gəlir, lakin heç kəs qabağa düşmək istəmir, çünki bu işdə... başqalarından büsbütün fərqlənən bu işdə... – Yadaszon bic-bic vurğuladı, üz-gözündən, hətta qulaqlarından da biclik yağırdı, – məhz ağla gəlməyən şeylər həqiqətə çevrilir.

Diderix quruyub qalmışdı: bu cür murdar satqınlıq, yatsa, heç yuxusuna da girməzdi. Yadaszon onun dəhşətə gəldiyini görüb özünü itirdi və çapalamağa başladı:

– Hə, öz aramızda qalsın, bu adamın da zəif yerləri var.

Diderix yad bir səslə hədələyərək dilləndi:

– Dünən axşam, deyəsən, ayrı cür düşünürdünüz.

Yadaszon üzrxahlıq etdi: şampan, təbii ki, tənqidi boğur. Yoxsa cənab doktor Heslinq o biri kişilərin coşqusunu da ciddi qəbul edib?! Mayor Kuntse kimi qarayaxanın ikincisini heç yerdə tapa bilməzsən... Diderix kətilini dala çəkdl, bədəninə soyuq tər gəldi, özünü birdən-birə canilər mağarasında hiss etdi. Tam gücünü toplayıb dedi:

– O biri cənabların milli şüuruna özümünkünə inandığım kimi inanıram və heç kimə də imkan verməyəm ki, mənim millətçi düşüncələrimə şübhə ilə yanaşsın.

Yadaszon özünün sərt danışığını işə saldı:

– Əgər bu, mənim şəxsiyyətimlə bağlı hər hansı bir şübhəni özündə ehtiva edirsə, mən onu layiqli şəkildə rədd edirəm. – Səsinin zil yerinə salıb elə banladı ki, Klapş qapıdan içəri boylandı. – Mən imperator asessoru doktor Yadaszonam və ürəyiniz istədiyi vaxt qulluğunuzda hazıram.

Bunun müqabilində Diderix mızıldanmalı oldu ki, bunu o mənada deməyib. Sonra isə mədisin pulunu ödədi. Vidalaşma sərin keçdi. Evə dönəndə Diderix yenidən töşüdü. Yadaszona münasibətdə niyə özünü pis aparmalı idi? Notqroşen ağzından qaçıracağı təqdirdə? Təbii ki, Lauerə qarşı qurulacaq məhkəmədə Yadaszonun ona ehtiyacı vardı! Hər ehtimala qarşı yaxşı idi ki, Diderix bu cənabın əsl xasiyyəti barədə dəqiq məlumata malik idi. "Qulaqları o dəqiqə mənə şübhəli göründü! Milli düşüncə duyğularına bu cür qulaqlarla düz-əməlli sahib olmaq olmaz".

Evə çatan kimi Berlində çıxan "Lokal-Anzeiger"i vərəqləməyə girişdi. Qeysər barədə sabahkı "Netziger Zeitung"da çıxacaq lətifələr özünə burada da yer almışdı. Bəlkə, birisigünkü qəzetdə də çap olunacaqdı, hamısını bir nömrəyə yerləşdirmək çətin olardı. Amma o, axtarmağına davam etdi, birdən əlləri əsməyə başladı... Budur! Yerə çökdü.

– Halın xarabdır, oğul? – frau Heslinq soruşdu. Diderix gözünü gerçəkləşmiş nağıla bənzəyən hərflərə zillədi. Çap olunmuşdu, şübhə doğurmayan digər yazıların arasında, əlahəzrətin özünün oxuduğu yeganə qəzetdə! Daxilən, qəlbinin çox-çox dərinliyində özünün də güclə eşidəcəyi bir səslə Diderix mızıldadı:

– Mənim teleqramım.

Qorxunc xoşbəxtlik, az qala, onun sinəsini dağıdacaqdı. Mümkün idimi? Qeysərin nə deyəcəyini əvvəlcədən

düzgünmü hesablamışdı? Qulağı o uzaqlıqdan söz ala bilmişdimi? Öz beyni onunku ilə birgəmi işləyirdi? Görünməmiş bu mistik oxşarlıq ona hakim kəsildi ... Amma təkzib verilə bilərdi, o da təzədən öz heçliyinə atıla bilərdi! Diderix dəhşətli bir gecə keçirdi, ertəsi gün özünü "Lokal-Anzeiger"in üstünə saldı. Lətifələr. Heykəl açılışı. Nitq. "Netsiqdən xəbərlər". Bu yazıda yefreytor Emil Paxolkenin daxili düşmənlərə qarşı göstərdiyi şücaətin tərənnümü öz əksini tapmışdı. Polkovnik başda olmaqla bütün zabitlər onun əlini sıxmışdılar. Oğlan pul hədiyyələri almışdı. "Məlumdur ki, qeysər dünən bu cəsur əsgərə teleqramla yefreytor rütbəsi vermişdir". Bundan aydın nə olar! Heç bir təkzib! Əksinə, təsdiq! Diderixin sözlərini qeysər özününkü etmişdi, onun başladığı işi axıra çatdırmışdı!.. Diderix qəzeti boya boy açıb masanın üstünə sərdi; burada o, özünü, sanki, güzgüdə görürmüş kimi gördü, elə bil, çiyninə sincab xəzi atılmışdı.

***

Bu qələbə və başgicəlləndirici yüksəliş barədə Diderix, təəssüf ki, bir kəlmə də kəsə bilmədi, lakin varlığı, şax duruşu və nitqi, amiranə baxışı çox şey deyirdi. Ailəsi və fabrikin işçiləri onun yanında cıqqırını çəkə bilmirdi. Zötbir özü də etiraf etməyə məcbur olmuşdu ki, fabrikə canlı bir nəfəs gəlmişdir. Bəs Napoleon Fişer! Diderix şax dayanıb üzgözündən razılıq yağdıqca usta meymun kimi bir az da ehtiyatla onun yanından sivişib keçirdi, qollarını irəli tutub sallaya-sallaya, Diderixə çəpəki baxa-baxa, dişlərini qıcırdada-qıcırdada, seyrək qara saqqalı ilə, bəndə alınmış qiyamın timsalı kimi... Quste Daymxenə girişməyin məqamı artıq yetişmişdi. Diderix onlara qonaq getdi.

Baş inspektor arvadı frau Daymxen onu əvvəlcə təklikdə qəbul etdi, o, başdan-başa bağ sallanmış qonur ipək paltarda köhnə, tiftikli divanda əyləşmişdi, camaşırçı qadınların əlinə bənzəyən şişmiş qırmızı əllərini qarnının üstünə elə qoymuşdu ki, qonaq gözlərini təzə üzüklərdən çəkə bilmirdi. Pərtliyindən Diderix öz heyranlığını büruzə verdi, frau Daymxen də cavabında bildirdi ki, qızı ilə onun, Allaha şükür, hər şeyləri var. Sadəcə, bir şeyi bilmirlər ki, ev-eşiyi qədim alman, yaxud hansısa Lüdovik üslubundamı bəzəsinlər. Diderix canfəşanlıqla qədim alman üslubunu məslə-

hət gördü, dedi ki, bu üslubu o, Berlində ən kübar ailələrdə görüb. Lakin frau Daymxen buna şübhə ilə yanaşdı.

– Kim bilir, orada siz bizim kimi kübar adamlara qonaq getmisinizmi?! Boşlayın elə şeyləri, hamısı tanış səhnədir, özlərini elə apanrlar ki, elə bil, varlan başlanndan aşır, amma ciblərində siçan oynayır.

Bu yerə çatanda Diderix özünü itirib susdu, frau Daymxen də razı-razı qarnına döyəclədi. Xoşbəxtlikdən, Quste paltarını bərk-bərk xışıldada-xışıldada içəri daxil oldu. Diderix yay kimi əyilib kürsüdən qalxdı, boğuq səslə:

– Möhtərəm froylayn! – deyib qızın əlini öpdü. Quste gülüb:

– Ehtiyatlı olun, qıçınızı sındırarsınız! – dedi, tələsik də onun könlünü aldı. – Qanacaqlı kişinin nə olduğunu adam o saat hiss edir. Leytenant cənab fon Britsen də belə edir.

– Hə, elədir, – frau Daymxen dilləndi, – zabitlərin hamısı bizimlə oturub-durur. Dünən Qusteyə deyirəm ki, bizdəki hər kürsüyə, deyirəm, gərək baron gerbi tikək, çünki bu baronlar kürsülərimizin hamısında oturublar.

Quste dodaq büzdü:

– Ailələrə gəldikdə və ümumiyyətlə, Netsiq kifayət qədər kübar şəhərdir. Düşünürəm ki, Berlinə köçəsi olacağıq.

Frau Daymxen bununla razılaşmayıb dedi:

– Adamlan sevindirməyə dəyməz. Kaftar Hamiş bu gün ipək paltarımı görəndə az qaldı paxıllığından partlasın.

– Anamdır daa! – Quste dedi. – Təki özünü kiminsə gözünə soxsun. Amma mən nişanlımı da düşünürəm. Volfqanqın dövlət imtahanını verdiyindən xəbəriniz var? Onun burada, Netsiqdə nə işi var? Bu qədər pulumuzla Berlində nəyəsə yetişə bilər.

Diderix onun sözünə qüvvət verdi:

– O, nəsə nazir və ya buna bənzər bir şey olmaq istəyirdi. – Sonra da yüngül kinayə ilə əlavə etdi: – Dediyinə görə, burada o qədər də çətinlik yoxmuş.

Quste həmin an qabarıb sancdı:

– Hər yetən dünyagörmüş cənab Bukun oğlu ola bilməz.

Diderix də, öz növbəsində, dünyanın altını-üstünü görmüş adamlara xas bir ağılla məsələləri saf-çürük edib bildirdi ki, bir çox məsələlərdə qoca Bukun nüfuzu o qədər də yetərli olmur: adam gərək öncə şəxsiyyət olsun, işgüzarlığı ilə hamıdan seçilsin, ən əsası da milli düşüncə tərzi-

nə malik olsun. Qız onun sözünü bir daha kəsmədi, hətta yenilməzlik əlaməti olan bığlarının sivri ucunu heyranlıqla süzdü. Ancaq Diderixin təəssürat yaratmaq düşüncəsi onu xeyli uzaqlara apardı.

– Bu dediklərinizdən heç birinə mən cənab Volfqanq Bukda rast gəlməmişəm. Bəlağətlə danışmağı xoşlayır, hər şeyə bir qulp qoyur, bir də ki daha çox əylənməyi sevir... Nə var burada ki, – deyib sözünü tamamladı, – axı anası da aktrisa olub. – Qustenin hədəli baxışının ona yönəldiyini bilə-bilə üzünü qırağa çevirdi.

– Nə demək istəyirsiniz? – Quste soruşdu.

Diderix özünü heyrətlənən adamlar kimi apardı.

– Mən? Heç nə. Demək istəyirdim ki, varlı adamlar, görəsən, Berlində necə yaşayırlar. Buklar axı kübar ailədir.

– Belə hesab etmək olar, – Quste sərt dilləndi. Əsnəməyi hələ də qurtarmamış frau Daymxen dərzi qadını qızının yadına saldı, Quste ümidlə Diderixə baxdı, onun da ayağa qalxıb təzim etməkdən başqa ayrı çarəsi qalmadı. Yaranmış gərginliyi nəzərə alıb əlöpmə mərasimini təxirə saldı. Dəhlizdə Quste özünü ona yetirib soruşdu:

– Bəlkə, indi mənə deyəsiniz, anasının aktrisa olmasını deməkdə fikriniz nə idi?

Diderix ağzını açıb sinə dolusu nəfəs aldı, qıpqırmızı qızararaq onu yenidən yumdu. Volfqanq Bukun haqqında bacılarının dediklərini, az qala, ağzından qaçıracaqdı. Sadəcə, yanımcıl bir səslə dilləndi:

– Froylayn Quste, biz çoxdan bir-birimizi tanıdığımızdan, sadəcə, demək istəyirdim ki, Buk sizin tayınız deyil. Yüngüllük onun ana tərəfindən canındadır. Qoca Buk da ölümə məhkum olunmuşdu axı. Axı bu Buklarda nə var, bilmirəm? İnanın mənə, adam heç vaxt üzüaşağı yuvarlanan ailə ilə qohumluq qurmaz. Bu, adamın özünün özünə qarşı işlətdiyi günahdır. – Son kəlmələri xüsusi vurğuladı. Amma Quste əllərini əndamından çəkmədi.

– Üzüaşağı? Sizin işləriniz də üzüyuxarı gedir, eləmi? Ona görə ki, ratskellerdə keflənib sonra camaatla davaya çıxırsınız? Bütün şəhər sizdən danışır, siz isə abırlı-həyalı bir ailəyə qara yaxmaq istəyirsiniz. Üzüaşağı! Mənim puluma sahib çıxanın işləri üzüaşağı gedə bilməz. Siz, sadəcə, paxıllıq edirsiniz, elə bilirsiniz bundan xəbərim yoxdur? – Hirsindən yaşla dolmuş gözlərini ondan çəkmədi. Diderix

pərt oldu; ürəyindən keçdi ki, diz çöküb qızın balaca koppuş barmaqlarından öpsün. Sonra da öpüşləri ilə onun göz yaşlarını silsin, amma bu, olan şey idimi? Bu arada Qustenin üzündəki qızartıların hamısı çəkilib getdi, sifətinə bir nifrət ifadəsi qondu, qız geriyə çevrilib qapını arxasınca örtdü. Ürəyi çapalayıb sinəsindən çıxmaq istəyən Diderix bir xeyli də dayanıb durdu, sonra özünün xırdalığını dərk edərək yerindən tərpəndi.

Düşündü ki, bura onun yeri deyilmiş, məsələnin ona dəxli yoxdur, bu qədər varı-pulu ilə Quste hələ də yağlı bir tikədir, özü də başdanxarab qaz tikəsi, bu da onu sakitləşdirdi. Yadaszon Maqdeburq məhkəməsindən öyrəndiklərini bir axşam ona çatdıranda Diderixin sevinci yerə-göyə sığmadı. Vur-tut əlli min mark, vəssalam! Elə bununla da özünü qrafinya kimi aparmaq? Bu cür kələkbaz bir qız çürüməkdə olan Buklara, təbii ki, daha yaxşı yaraşır, nəinki Diderix kimi sadiq düşüncəyə malik köklü-gövdəli bir adama! Belədə Ketxen Tsillixə üstünlük verməzlərmi?! Zahirən Qustedən seçilmir, elə onun kimi cazibədardır, bundan əlavə, həm də qılığı və adama yovuşmağı ilə fərqlənir. Diderix tez-tez qəhvəxanaya gəlib can-başla Ketxenin qılığına girirdi. Qız da Yadaszonu tez-tez onun yadına salırdı, Diderix isə bunu haqlı xəbərdarlıq kimi qəbul edirdi. Ketxen frau Lauer barədə də tam ikrahla danışırdı, çünki frau Lauer əyalət məhkəməsinin üzvü Fritçe ilə... Lauerin məhkəməsinə gəldikdə isə Ketxen Tsillix Diderixin tərəfini saxlayan yeganə adam idi.

Bu iş Diderix üçün qorxunc bir sima kəsb edirdi. Yadaszona müyəssər oldu ki, müstəntiq prokuror nəzarətinin tələbi ilə həmin gecə əhvalatının şahidlərini dindirsin; Diderix hakim qarşısında nə qədər çəkinəcəkli ifadə versə də, başqaları bütün günahı onun boynuna atırdı. Kon və Fritçe cənabları ondan qaçırdılar; cənab Bukun qardaşı, bu nəcabətli kişi onun salamını almırdı; Hoytoyfel onun boğazını qəddarcasına yağlayır, lakin hər cür şəxsi söhbəti dəf edirdi. Məhkəmənin fabrikant Lauerə ittihamnaməni təqdim etməsi bəlli olan gün Diderix ratskellerdəki masasını boranboş gördü. Professor Künxen bu an paltosunu geyinirdi, Diderixin gücü onun yaxasından yapışmağa çatdı. Lakin Künxenin tələsik işi vardı, o, azadfikirlilərin seçicilər blokunda yeni hərbi xərclərin əleyhinə çıxış etməliydi. Kişi pırtıb

aradan çıxdı; Diderix isə məyus-məyus həmin o müzəffər gecəni xatırladı, bayırda daxili düşmənin qanının, burada isə şampan şərabının axdığı gecəni, milli düşüncə sahiblərinin içində Künxenin ən davakar olduğu gecəni. İndi isə o, şöhrətli ordumuzun güclənməsinin əlehinə çıxış edir!.. Tənha və atılmış Diderix gözünü qarşısındakı pivə parçına zilləmişdi; elə bu vaxt mayor Kuntse peyda oldu.

– Salamlar, cənab mayor, – Diderix saxta təkəbbürlə dilləndi, – sizdən qəti xəbər-ətər yoxdur.

– Sizin isə xəbər-ətəriniz dünyanı başına götürüb. – Mayor daha nəsə donquldadı, şlyapasını, paltosunu çıxarmadan quruyub yerindəcə qaldı və qar basmış çöldə olduğu kimi ətrafına boylandı. – Heç kim yoxdur ki!

– İcazənizlə sizi bir qədəh şəraba qonaq edim, – Diderix özündə cürət tapıb dilləndi, amma mayorun sərt üzü ilə rastlaşdı.

– Təşəkkürlər, sizin şərabınız hələ də mədəmi deşir.

Mayor pivə sifariş verib əyləşdi, cıqqırını çıxarmadan qorxulu bir görkəm aldı. Yalnız bu qorxunc susqunluğa son qoymaq üçün Diderix tələsik dilləndi:

– Yaxşı, bəs "Veteranlar Şurası", cənab mayor? Haçansa mənim oraya qəbul ediləcəyim barədə xəbəri eşidəcəyimdən ümidimi heç vaxt kəsməmişəm.

Mayor bir xeyli ona tamaşa etdi, sanki, onu diri-diri yemək istəyirdi.

– Belə de. Ümidinizi kəsməmisiniz. Yəqin, o ümidlə də yaşamısınız ki, məni öz dava-qalmaqalınıza çəkməyiniz mənim üçün bir şərəf işi olacaq?

– Mənim dava-qalmaqalım? – Diderix kəkələdi. Mayor nərildədi:

– Əlbəttə, cənab! Sizin dava-qalmaqal. Cənab fabrikant Lauerin ağzından artıq söz çıxıb. Bu, olan şeydir, hətta öz padşahlarının uğrunda şikəst olan əsgərlərdə də mümkündür. Amma siz düşünülmədən deyilmiş bir sözə görə cənab Laueri vicdansızcasına baqaja qoymusunuz. Bunu müstəntiqin hüzurunda deməyə də hazıram. Laueri yaxşı tanıyıram: Fransa müharibəsində bizimlə birlikdə idi və "Veteranlar Şurası"nın da üzvüdür. Bəs siz, cənab, siz kimsiniz? Ümumiyyətlə, orduda xidmət etməyinizdən xəbərim varmı? Sənədlərinizi verin görüm. – Diderix əlini qoyun cibinə atdı. Mayor əmr etmiş olsaydı, o, farağat dayanardı. Mayor

Diderixin hərbi biletini özündən xeyli aralı tutdu. Qəfildən onu yerə atıb üz-gözünü turşutdu. – Belə də bilirdim. Silahlı landsturm[1] hissəsinə. Deməmişdimmi? Yəqin, yastıpəncəliyə görə.

Diderixin rəngi ağarmışdı, mayorun hər sözündən diksinirdi, əllərini qaldırıb and-aman elədi:

– Cənab mayor, nəyə desəniz and içim, xidmət eləmişəm. Mənə şərəf gətirən bədbəxt hadisə nəticəsində üç aydan sonra tərxis olunmuşam...

– Bu cür bədbəxt hadisələr bizə yaxşı tanışdır... Süfrəçi, hesabı bağla!

– Elə olmasaydı, ömürlük hərbi xidmətdə qalardım, – Diderix titrək səslə dilləndi. – Mən canımla, ruhumla əsgər idim, böyüklərimdən soruşa bilərsiniz.

– Gecəniz xeyrə. – Mayor artıq paltosunu geyinmişdi. – Sadəcə, bir daha demək istəyirəm, cənab: başqalarının əlahəzrəti təhqir etməsi orduda xidmət etməyən kəsin heç vecinə də olmaz. Orduda xidmət etməyənlərə əlahəzrət bir qınnaq da qiymət qoymur... Qrütsmaxer, – deyib o, sahibkara müraciət etdi, – gərək müştərilərinizə ciddi fikir verəsiniz. Daimi müştərilərinizdən birinin sayəsində cənab Lauer az qalır tutulsun, mən də bu çolaq qıçımla suçlayıcı şahid kimi məhkəməyə gedib hamı ilə münasibətimi korlamalıyam. "Harmoniya"dakı bal təxirə salınıb, mənim də işim-gücüm yoxdur və buraya sizin yanınıza gəlsəm, – yenidən, sanki, qarlı çöllərə bir nəzər saldı, – heç kəsi tapmayacağam. Təbii ki, bu satqından başqa! – Son kəlmələri o, pilləkəndə dedi.

– Düz sözümdür, cənab mayor, – Diderix onun arxasınca səsləndi, – satqınlıq etməmişəm, nəsə bir anlaşılmazlıq olub. – Mayor artıq çöldə idi, Diderix onun arxasınca qışqırdı. – Ən azı sizin bu barədə susmağınızı xahiş edirəm! – Alnının tərini qurutdu. – Cənab Qrütsmaxer, siz gərək nəzərə alasınız ki... – ağlamsınaraq dedi. O, şərab sifariş verdiyindən meyxananın sahibi hər şeyi nəzərə aldı.

Diderix şərabını içib məyus-məyus başını buladı. Bu yanlışlıqları anlaya bilmədi. Onun niyyəti pak olmuşdu, yalnız düşmənlərinin məkri bu niyyətə kölgə salmışdı. Bu vaxt əyalət məhkəməsinin üzvü doktor Fritçe içəri girib tərəd-

[1] *Landşturm* – hərf. "səhra hücumu"

düdlə ətrafına boylandı və Diderixi tək-tənha görəndə onun yanına gəldi.

– Cənab doktor Heslinq, – deyib ona əl verdi, – görkəminizə baxanda, elə bil, məhsulunuzu dolu vurub.

Diderix mızıldandı ki, böyük müəssisədə həmişə qanqaralığın olması təbiidir. Lakin qarşıdakının yanımcıl üz ifadəsini görəndə büsbütün yumşaldı:

– Sizə açıq deyə bilərəm ki, cənab hakim, cənab Lauerin məsələsi heç də ürəyimcə deyil.

– Heç onun də ürəyindən deyil, – Fritçe ciddiyyyətlə cavab verdi. Onun qaçıb aradan çıxmaq cəhdinin yoxluğu olmasaydı, elə günü bu gün həbs etdirərdik. – Diderixin rənginin qaçdığını görüb əlavə etdi: – Bu hətta biz hakimlərin də ürəyincə olmazdı. Əvvəl-axır biz də insanıq və insanlar arasında yaşayırıq. Amma təbii ki... – pensnesini bərkidib quru, rəsmi bir görkəm aldı. – Qanuna əməl olunmalıdır. Həmin axşam Lauer, mən özüm meyxananı tərk etmişdim. Əlahəzrəti, doğrudan da, şikayətin iddia etdiyi, sizin də əsas şahid qismində çıxış etdiyiniz kimi, görünməmiş təhqirlərə məruz qoymuşsa...

– Mən? – Diderix məyus-məyus dik atıldı. – Mən heç nə eşitməmişəm. Bir kəlmə də.

– Müstəntiqə verdiyiniz ifadə bunun əleyhinədir.

Diderix çaşıb-qaldı.

– İlk dəfə nə deyəcəyini adam heç özü də bilmir. İndi həmin o mənfur hadisəni beynimdə bərpa edəndə mənə elə gəlir ki, hamımızın kefi bir balaca yuxarı olub. Mənimki isə xüsusən.

– Sizinki xüsusən, – Fritçe təkrarladı.

– Hə, buna görə də, deyəsən, cənab Lauerə qəsdli suallar vermişəm. Onun mənə nə cavab verdiyini heç and altında da deyə bilmərəm. Əslində, hamısı zarafat idi.

– Belə de! Zarafat. – Fritçe dərindən nəfəs aldı. – Elədir, amma bütün bunları hakimə söyləməyə sizə nə mane olur? – barmağını yuxarı qaldırdı. – Təbii ki, sizin verəcəyiniz ifadəyə mən heç bir təsir göstərmədən.

Diderix səsini qaldırdı:

– Bu hoqqanı Yadaszona bağışlamayacağam! – Əhvalat baş verərkən şahid kimi çıxış etməmək üçün bilə-bilə aradan çıxmış və sonradan şikayət materiallarını tələm-tələsik toplamış, iştirakçıların şaşqın vəziyyətindən sui-

istifadə edib öz ifadələri ilə onların dilindən tutmuş bu cənabın əməlləri barədə Diderix ətraflı məlumat verdi. – Cənab Lauer də, mən də bir-birimizi namuslu adamlar sayırıq. Yadaszon kimi bir yəhudi necə bizi bir-birimizə qısqırdır?!

Fritçe tam ciddiliklə izah etdi ki, burada söhbət Yadaszonun şəxsiyyətindən deyil, yalnız prokurorluğun məsələyə baxışından gedir. Əlbəttə, etiraf etmək olar ki, Yadaszon müəyyən mənada həddini aşıb. Boğuq səslə o, sözünə davam etdi:

– Görürsünüzmü, yəhudi cənablarla əl-ələ işləməməyimizin səbəbi də elə odur. Bu cür adam heç vaxt özünə belə bir sual vermir ki, savadlı bir insanın, sahibkarın əlahəzrəti yamanlamağa görə ittiham edilməsi xalqa necə təsir göstərə bilər. Onun radikalizmi bu cür əməli düşüncələri kölgədə qoyur.

– Onun yəhudi radikalizmi, – Diderix əlavə etdi.

– Ağına-bozuna baxmadan özünü qabağa çəkir... Bununla heç də demək istəmirəm ki, özünün məmur və milli maraqlarını qorumur.

– Necə bəyəm? – Diderix səsini qaldırdı. – Bizim mənəvi dəyərlərimizlə alver edən əclaf bir canfəşanlıq!

– Kəskin ifadə etmiş olsaq... – Fritçe məmnun-məmnun gülümsədi. Bir az yaxına gəldi. – Bir anlığa təsəvvür edək ki, müstəntiq mənəm: elə hallar olur ki, adamın öz işindən əl çəkməyə müəyyən əsasları olur.

– Siz Lauer ailəsi ilə yaxın dostsunuz, – deyib Diderix ehtiyatla başını tərpətdi. Fritçe üzündəki rəsmi simanı atdı.

– Yəqin, anlayırsınız ki, müəyyən dedi-qodular bununla öz təsdiqini tapar.

– Olan iş deyil, – Diderix dedi. – Kişiliyə yaraşmaz.

– Onda vəzifəmi sakit və işgüzarcasına yerinə yetirməkdən başqa ayrı əlacım yoxdur.

– İşgüzar olmaq alman olmaq deməkdir, – Diderix dedi.

– Özəlliklə də, güman etsəm ki, cənab şahidlər işimi boş yerə çətinə salmayacaqlar.

Diderix əlini sinəsinə qoydu.

– Cənab müşavir, böyük məsələdən söhbət gedəndə adam özü də bilmədən ortaya atılır. Mən təbiətən çılğın adamam. Amma bircə onu bilirəm ki, bütün əməllərim üçün Allah qarşısında cavab verəcəyəm, – deyib gözlərini yerə

dikdi. Yoğun səslə əlavə etdi: – Peşmançılıq mənə də xasdır.

Deyəsən, bu, Fritçeyə bəs elədi. Diderixi yanına çağırdı, o da bunun hüzurunda dayandı. Ürəyində "Allaha şükür" deyib işgüzarlıqla öz səmimi ifadəsini verdi. Elə Fritçenin bəzi qayğıları da gerçəkləşənə oxşayırdı. İctimai fikir, təbii ki, müttəhimin tərəfində idi. Sosial-demokratların qəzeti "Volksstimme"[1] isə lap ağını çıxarmışdı: Diderixin şəxsi həyatını xırdalıqlarına qədər lağa qoyurdu, bunun arxasında, çox güman ki, Napoleon Fişer gizlənirdi. Adi vaxtlar sensasiyalara meyilli olmayan "Netziger Zeitung" da cənab Lauerin öz fəhlələrinə müraciətini dərc etmişdi. Həmin yazıda fabrikant bildirirdi ki, müəssisəsinin gəlirini burada əməyi olan insanlarla könüllü bölüşür: dörddəbirini məmurlara, dörddəbirini isə fəhlələrə. Səkkiz il ərzində onlar aylıq məvaciblərindən başqa, yüz otuz min markı bölüşməli olacaqlar. Bu, geniş dairələrə önəmli təsir göstərir. Diderix ikrahlı baxışlarla rastlaşmalı oldu. Hətta onun sorğu-suala tutduğu redaktor Notqroşen də bic-bic gülümsəyib sosial tərəqqi barədə nəsə mızıldadı, bu tərəqqinin qarşısını millətçi kəlamlarla kəsmək olmazmış. İşlə bağlı nəticələr isə heç ürəkaçan deyildi. Diderixin gözlədiyi sifarişlər gəlmək bilmirdi. Universal mağazalar sahibi Kon ona açıq-aşkar bildirdi ki, Milad kataloqlarının sifarişində Qauzenfeld kağız fabrikinə üstünlük verir, çünki müştərilərini nəzərə alaraq siyasi neytrallığını saxlamalıdır. Bu qəbildən olan məktubları özü ələ keçirmək üçün Diderix indi sübh tezdən işin üstünə gələrdi, lakin Zötbir ondan da tez burada tapılardı və qoca ustanın tənəli susqusu yeni qəzəbə səbəb olardı.

– Bu dəm-dəsgahın hamısını atacağam getsin! – Diderix bağırdı. – Onda sən də, camaat da düzün ortasında qaldığınızı bilərsiniz. Mən isə öz doktorluq diplomumla elə günü sabah qırx min mark məvacibIə direktor vəzifəsinə keçərəm! – Sonra isə icazə verilməməsinə baxmayaraq öz pivələrini içən fəhlələrin üstünə bağırdı. – Kimi isə işdən çıxarmamağın xatirinə əlavə xərclər çəkirəm.

Bununla belə, o, Milad bayramı ərəfəsində fəhlələrin üçdə birini işdən çıxartdı; Zötbir hesablayıb bildirdi ki, yeni il başlayanda ödənc müddətlərinə əməl etmək mümkün olmayacaq.

---

[1] *"Volksstimme"* (oxu: "Folksştimm") – "Xalqın səsi"

– Çünki biz yeni hollender üçün ödənişə iki min mark ayırmalıyıq, – deyən Zötbir israrından dönmədi, baxmayaraq ki Diderix mürəkkəbqabını əlinə götürmüşdü. Yerdə qalanların üz-gözündə o, inamsızlıq və aşağılama oxudu. Adamları bir yerdə görəndə ona elə gəlirdi ki, "satqın" sözünü eşidir. Napoleon Fişerin qara tük basmış düyünlü əlləri indi döşəməyə o qədər də uzanmırdı və hətta sifəti də durulmuşdu. Axırıncı advent bazar günündə – əyalət məhkəməsi bir az əvvəl məhkəmə prosesini başlamağı qərara almışdı – keşiş Tsillix Məryəm kilsəsində bir moizə söylədi:

– Düşmənlərinizi sevin. – Elə bu ilk sözdən Diderixi qorxu götürdü. Tezliklə icmanın narahat olduğunu hiss etdi. – "İntiqam mənimkidir", – rəbbimiz buyurur. – Keşiş Tsillix bilərəkdən üzünü Heslinqlərin oturacağına tutmuşdu. Emmi ilə Maqda oturacağa sıxıldılar, frau Heslinq hıçqırırdı. Diderix ona yönələn baxışlara hədə ilə cavab verdi. – "İntiqamı dilə gətirən mühakiməlikdir!" – Hamı üzünü Diderixə çevirdi, o da yerində diksindi.

Evdə bacıları ona mərəkə qurdu. Dedilər ki, camaat arasında onlara pis baxırlar. Gənc müəllim Helferix daha Emmi ilə yanaşı oturmur, yalnız Meta Hamixin qulluğunda durur, Emmi də bunun niyə belə olduğunu bilir.

– Çünki sən onun üçün çox yaşlısan, – Diderix dedi.

– Yox, ona görə belədir ki, sən bizi el içində rüsvay etmisən!

– Cənab Bukun qardaşının beş qızının beşi də daha bizə salam vermir! – Maqda səsini qaldırdı. Diderix də cavabsız qalmadı:

– Hərəsinə bir şillə ilişdirəcəyəm, olacaq beşl

– Boşla! Biz məhkəmə prosesindən aldığımızı almışıq.

Diderix hövsələdən çıxdı:

– Siz? Mənim siyasi mübarizələrimin sizə nə dəxli?

– Sənin siyasi mübarizələrinə görə biz qarıyıb evdə qalacağıq!

– Qarıyıb qalmağınıza ehtiyac yoxdur. Xeyrə-şərə yaramadan oturmusunuz evdə, mən də sizin üçün eşşək kimi işləyirəm, siz isə, üstəlik, donquldanıb müqəddəs vəzifələrimin içinə batırırsınızl Silkinib yerinizdən qalxsanız yaxşıdır! Heç olmasa, gedib başqalarının uşaqlarını tərbiyə edin. – Frau Heslinqin əllərinin açılmasına baxmayaraq, qapını arxasınca çəkdi.

Qüssəli Milad bayramı yaxınlaşmaqda idi. Bacılar qardaşlarını dindirmirdi; frau Heslinq yolka ağacını bəzədiyi qapalı otağı gözüyaşlı tərk etdi. Uşaqları ilə birgə qeyd etdiyi Milad axşamda "Sakit gecə" nəğməsini titrək səslə tək-tənha oxudu.

– Bunları Didel sevimli bacılarına bağışlayır! – deyib yalvarışla oğluna baxdı ki, onun yalanını tutmasın. Emmi ilə Maqda pərtliklə qardaşlarına baxdılar, o da eyni pərtliklə, çox güman ki, onların özlərinin hazırladığı hədiyyələri gözdən keçirdi. Zötbirin təkidli məsləhətinə baxmayaraq, sırtıq kollektivi cəzalandırmaq üçün fəhlələrin ənənəvi yolka bayramında iştirak etməkdən boyun qaçırdığına təəssüf etdi. İmtina etməsəydi, indi camaatla bir yerdə olardı. Burada, ailənin içində hər şey süni idi, istifadədən çıxmış köhnə əhvali-ruhiyyəni, elə bil, təzədən isidirdilər. Bu əhvali-ruhiyyə yalnız burada olmayan bircə nəfərlə təbii olardı: Quste ilə... "Veteranlar Şurası" onun üzünə bağlanmışdı, ratskellerdə isə heç kimi, ən azı, dostlardan heç kimi tapmazdı. Diderix öz gözündə özünü aşağılanmış, anlaşılmayan və qısnanmış gördü. Rifahdolu uzun sıralarda mahnı oxuyub pivə içdikləri "Yeni Tevoniya"nın məsum zamanları çox-çox arxada qalmışdı. Bu gün bu sərt həyatda dostlar daha bir-birinə kişi kimi qılınc zərbəsi endirmirdilər, əksinə, başdan-ayağa satqın rəqiblər bir-birinin boğazından yapışırdı. "Mən bu sərt zəmanənin adamı deyiləm", – düşünüb Diderix qabağındakı boşqabdan badam qurabiyəsini yeyir və bayram yolkasının işıqlarına baxıb xəyala dalırdı. "Axı mən heç də pis adam deyiləm. Onda məni niyə bu cür, bu məhkəmə prosesi kimi murdar işlərə qatıb bununla biznesimə elə xələl gətirirlər ki, ax, sevimli Yaradan, sifariş verdiyim hollenderin pulunu ödəyə bilmirəm". Bunları düşünərkən bədənindən soyuq bir gizilti keçdi, gözlərində yaş gilələndi və həmişə qorxu içində onun qayğılı sir-sifətini gözdən qoymayan anası bu halını görməsin deyə Diderix qaranlıq yan otağa çəkildi. Pianinoya dirsəklənib əllərini ağzına tutdu və hıçqırdı. Qapının o üzündə Emmi ilə Maqda bir cüt əlcəyin üstündə mübahisə edirdilər, anası da həmin əlcəyin kimə bağışlanmasını deməyə ürək eləmirdi. Diderix hələ də hıçqırırdı. Hər şey tərsinə gətirmişdi: siyasət də, biznes də, sevgi də. "Görəsən daha nə qaldı?" Pianinonun qapağını qaldırdı. Canına üşütmə gəldi. Özünü büsbütün tənha hiss

edib səs salmaqdan qorxdu. Musiqi sədaları öz-özünə gəldi, sanki, əllərinin bundan heç xəbəri yox idi. Xalq mahnıları, Bethoven, tələbə nəğmələri toranlıqda bir-birinə qarışdı. Həmin toranlıq, sanki, bu melodiyalardan elə isindi ki, Diderixin başında dumanlı bir sərməstlik yarandı. Ona elə gəldi ki, hansısa əl saçlarını tumarlayır. Xəyal idimi? Yox, çünki qəfildən pianinonun üstündə dolu bir pivə parçı peyda oldu. Yenə də ana! Şubert, həlim sadədillik, doğma yurdun hərarəti... Araya sakitlik çökdü, lakin Diderixin bundan xəbəri olmadı, ta divar saatı vurana qədər: aradan bir saat keçmişdi!

– Bu da mənim Milad bayramım, – deyib Diderix o birilərinin yanına getdi. Sanki, təsəlli tapıb güclənmişdi. Bacıları əlcəyə görə hələ də deyindiklərindən Diderix onları narahatlıq mənbəyi adlandırıb əlcəyi cibinə soxdu ki, kişi əlcəyinə dəyişdirsin.

Hollenderin fikrini çəkdiyindən bütün bayram zəhrimara dönmüşdü. Mayer sistemindən olan yeni patentli hollender üçün altı min mark! Cibdə isə pul yox idi, işlər belə gedərdisə, heç tapmaq da olmayacaqdı. Ortada anlaşılmaz bir nəhslik, Diderixi cin atına mindirən insan və hadisələrin dözülməz müqaviməti vardı. Zötbir otaqda olmayanda masanın qapağını şaqqıltı ilə örtər, qovluqları künc-bucağa qımcırlayardı. İdarənin cilovunu özünün möhkəm əlinə almış yeni sahibkar üçün, heç şübhəsiz, yeni idarəçilik yaranmalı idi, uğurlar onu gözləyirdi, hadisələr onun şəxsiyyətinə uyğunlaşmışdı!.. Hirs yerini cəsarətə verdi. Qarşıdakı fəlakətlər barədə Diderix müəyyən tədbirlər gördü. Zötbirlə münasibətini mülayimləşdirdi: bəlkə, bu qoca bir daha kömək etdi. Eləcə də keşiş Tsillixin qarşısında alçalıb ondan xahiş etdi ki, camaatın dilindən düşməyən moizənin ona qarşı yönəlmədiyini adamlara çatdırsın. Keşiş də buna boyun oldu, onun vədini gücləndirən arvadının cəzalandırıcı baxışı altında peşmançılıq keçirə-keçirə. Bundan sonra valideynlər Diderixi Ketxenlə tək qoyub getdilər və Diderix özünün məğlub durumunda onlara elə minnətdar oldu ki, az qaldı niyyətini bəyan eləsin. Ketxenin pənbə dodaqlarına qonmuş "həri" kəlməsi gözəl bir uğur olardı, bu, yağılaşmış aləmə qarşı yeni tərəfdaşlar gətirərdi. Ancaq pulu ödənilməmiş hollender! O, cehizin dörddəbirini udardı... Diderix hıçqırdı, gərək indi yenidən öz biznesinə qayıdaydı; Ketxen

dodaqlarını bir-birinə sıxdı ki, "həri" kəlməsini ağzından qaçırmasın.

Qərar qəbul etmək lazım idi, zira hollenderin gəlişinə az qalırdı. Diderix Zötbirə dedi:

– Onun günü bu gün, elə bu saat gətirilməsini məsləhət bilirəm, yoxsa mərhəmət göstərmədən geri qaytaracağam.

Ancaq Zötbir onun yadına saldı ki, malı sifarişçiyə çatdırmaq üçün qanunla zavodlara bir neçə gün əlavə vaxt verilir. Diderixin təkidinə baxmayaraq, o, dediyinin üstündə durdu. Amma maşın vaxtında gəlib çıxdı. Hələ üstü açılmamış Diderixi od götürdü.

– Çox yekədir! İnandırmışdılar ki, köhnə sistemdən xırda olacaq. Yerə qənaət edə bilmirəmsə, onu niyə alıram! – Hollenderi təzəcə yerə qoymuşdular ki, Diderix metri əlinə alıb onun ətrafında fırlandı.

– Çox iridir! Mənim başımı piyləmək olmaz! Təsdiq edin ki, Zötbir, doğrudan da çox iridir – Lakin Zötbir Diderixin ölçülərindəki yanlışlığa özünəxas bir düzgünlüklə aydınlıq gətirdi. Yeni hücum planını axtarıb tapmaq üçün Diderix fısıldayıb geri çəkildi. – Bəs exanik harada qaldı? – Sonra bir az da arxaya çəkildi. – Axı demişdim gəlsin! – Bu da növbəti yalanı idi. – Adamlar, deyəsən, öz işini bilir. Bu gədəyə gündə on iki mark ödəməli olsam, heç də heyrətlənmərəm, o isə özünü gəlməməyi ilə gözə soxur. Bədbəxtlik gətirən bu maşınını kim quraşdıracaq?

Napoleon Fişer bu işi bacardığını söylədi. Diderix qəfildən ona böyük mərhəmət göstərdi.

– Heç də pis fikir deyil. Pulumu o yad gədəyə verməkdənsə, işdən sonrakı zəhmətinizə görə sizə əməkhaqqı verərəm. Hər halda, köhnə əməkdaşsınız. – Napoleon Fişer qaşlarını çatdı, amma heç nə demədi. Diderix əlini onun çiyninə toxundurdu. – Görürsünüz, əziz dost, – astadan dilləndi. – Hollender ümidimi heç doğrultmadı. Reklam şəkillərində tamam ayrı cür görünürdü. Bıçaq valı xeyli enli olmalı idi axı, adamların bizə vəd etdiyi böyük istehsal gücü harada qaldı bəs?! Sizcə, maşın yaxşıdırmı? Qorxuram boynumuza yük ola.

Napoleon Fişer sınayıcı nəzərlərlə Diderixə baxdı. Amma bu dəfə ondan nə istədiklərini anlayaraq tərəddüd içində dedi ki, yoxlamaq lazımdır. Diderix onun baxışından yayındı, özünü elə apardı ki, sanki, maşını gözdən keçirir. Ustanı ürəkləndirərək dedi:

– Neynək. Siz onu quraşdırırsınız, mən də iyirmi beş faizlə sizə əlavə əməkhaqqı ödəyirəm. İndi də gəlin Allahın adını çəkib maşını yükləyək. Görək bizə nə sınyıblar.

– Deyəsən, pis sırımayıblar, – deyib mexanik Diderixə aşkarca yarındı. Diderix nə etdiyini dərk edənə qədər mexanikin qolundan yapışdı, Napoleon Fişer onun dostuna, xilaskarına çevrilmişdi!

– Gedək, əzizim, – Diderixin səsində bir titrəklik vardı. Napoleon Fişeri öz evlərinə gətirdi. Frau Heslinq Fişerə bir qədəh şərab süzdü. Diderix də mexanik tərəfə baxmadan onun ovcuna əlli mark basıb: – Ümidim sizədir, Fişer, – dedi. – Siz olmasaydınız, fabrik axınma çıxardı; iki min markı onsuz da onların ağzına atmışam.

– Onu qaytarası olacaqlar, – mexanik oynaq dilləndi. Diderix tələsik soruşdu:

– Siz də bu fikirdəsiniz?

Ertəsi gün bütün nahar fasiləsini hollenderə sərf edən Napoleon Fişer sahibkarına bildirdi ki, yeni aldıqları avadanlıq heç nəyə yaramır. İşə düşmür, köhnə modelli hollenderlərdə olduğu kimi gərək əllə fırlayıb işə salasan.

– Deməli, açıq-aşkar kələk gəliblər! – Diderix bağırdı. – Bundan başqa, hollenderə iyirmidən çox at gücü gərəkmiş. Bu, müqaviləyə ziddir. Buna susacağıqmı, Fişer?

– Yox, susmayacağıq, – mexanik qəti qərarını bildirib qabarlı əli ilə qarasaqqal çənəsinə sığal çəkdi. Diderix onu ilk dəfə əməlli-başlı gözdən keçirdi.

– Onda təsdiq edə bilərsinizmi ki, hollender sifariş zamanı razılaşdığımız şərtlərə cavab vermir?

Napoleon Fişerin seyrək saqqalına yüngül bir təbəssüm qondu.

– Bilərəm, – dedi.

Təbəssüm Diderixin gözündən yayınmadı. O, qıvraq bir hərəkətlə geriyə döndü.

– Hə, indi mənim kim olduğumu bilərlər!

Elə həmin an Eşvaylerdəkl “Büşli & Cie.”yəyə ciddi bir məktub yazdı. Cavab özünü ləngitmədi. Həmin cavabda deyilirdi ki, iddianı başa düşə bilmirlər, Mayer sistemindən olan patentli hollenderi bir cox fabrik quraşdırıb sınaqdan keçirmişdir ki, onların da siyahısı əlavə olunur. Buna görə də maşının və ödənilmiş iki min markın geri qaytarılmasından söhbət gedə bilməz, üstəlik də, müqavilə ilə nəzərdə

tutulan qalıq o dəqiqə ödənilməlidir. Diderix birinciyə nisbətən bu dəfə daha kəskin bir məktub yazıb məhkəməyə şikayət edəcəyi ilə hədələdi. "Büşli & Cie" onun başına ağıl qoymağa çalışaraq növbəti bir sınaq təklif etdi.

– Qorxurlar, – deyib Napoleon Fişer dişlərini qıcırtdı, gələn məktubu Diderix ona da göstərmişdi. – Məhkəməyə düşmək istəməyəcəklər, çünki hollenderləri yetərincə ad qazanmadı.

– Elədir, – Diderix dedi. – İndi gədələr əlimizdədir.

Öldürücü qələbəyə əmin olduğundan istənilən sövdələşməni, təklif olunan qiymət güzəştini qətiyyətlə rədd etdi. Xeyli vaxt keçəndən sonra heç bir cavab almadığına görə, təbii ki, narahat olmağa başladı. Bəlkə, onun məhkəməyə şikayətini gözləyirdilər? Bəlkə də, özləri məhkəmə prosesi açmaq istəyirdilər? Çaşıb-qalaraq baxışları tez-tez günün günortaçağı Napoleon Fişeri axtarırdı, o da bu baxışa altdan yuxarı cavab verirdi. Daha bir-biri ilə danışmırdılar. Lakin günortadan əvvəl saat on birdə Diderix ikinci səhər yeməyinin arxasında oturanda katibə bir vizit kartı gətirdi: Fridrix Kinast, Eşvaylerdəki "Büşli & Cie." firmasının etibarlı nümayəndəsi; Diderix kartı o üz-bu üzə çevirərkən qonaq özü içəriyə daxil oldu. Qapının ağzında ayaq saxladı.

– Pardon, – dedi, – deyəsən, səhv gəlmişəm. Məni evə gətiriblər. Amma mən iş dalınca gəlmişəm.

Diderix, sanki, yuxudan ayıldı.

– Təsəvvür edirəm, amma eybi yoxdur, buyurun, yaxın gəlin. Soyadım Heslinqdir, doktor Heslinq. Bunlar da anam və bacılarımdır, Emmi və Maqda.

Kişi qabağa gəlib xanımların hüzurunda təzim etdi.

– Fridrix Kinast, – mızıldandı. Ucaboylu, uca sarışınsaqqallı adam idi, əynində qonur yun kostyum vardı. Qadınların üçü də hayıl-mayıl olub gülümsədi.

– Cənabları üçün qab-qacaq gətirimmi? – frau Heslinq soruşdu. Cavabı Diderix verdi:

– Əlbəttə. Cənab Kinast bizimlə səhər yeməyi yeyəcək, elə deyilmi?

– Yox deməərəm, – deyib "Büşli & Cie."-nin nümayəndəsi əllərini ovuşdurdu. Maqda onun qabağına hisəverilmiş balıq qoydu, o da ilk tikəni hələ ağzına qoymamış onu təriflədi.

Diderix adi qaydada gülümsəyib soruşdu:

– Çox güman ki, ayıq başla iş görmürsünüz, eləmi?

Cənab Kinast da güldü.

– İş gələndə başım həmişə ayıq olur.

Diderix qımışdı.

– Hə, onda razılığa gələ bilərik.

– Məsələ ondadır ki, necə. – Kinastın bic-bic deyilmiş tələbkar sözləri baxışı ilə birlikdə Maqdaya tuşlanmışdı. Qızın sifəti allandı. Diderix qonağına bir bakal pivə süzdü.

– Çox güman ki, Netsiqdə ayrı işləriniz də var, hə?

Kinast müəmmalı cavab verdi:

– Bilmək olmaz.

Diderix onu sınayırmış kimi:

– Qauzenfelddə Klüzinqlə işiniz olmaz, yəqin, onlar durğunluq dövrünü yaşayır.

Qarşısındakının susduğunu görəndə Diderix öz-özünə fikirləşdi: "Bunu yalnız hollenderə görə göndəriblər, onların məhkəməlik halı yoxdur!" Elə bu vaxt gördü ki, Maqda ilə "Büşli & Cie."-nin nümayəndəsi həm həmahəng içir, həm də bakalların başı üstündən bir-birinin gözünün içinə baxırlar. Emmi ilə frau Heslinq isə oturub gözlərini döyürlər. Diderix fısıldayıb boşqabının üstünə əyildi; birdən-birə ailəsini tərifləməyə başladı.

– Bəxtiniz gətirib, əziz cənab Kinast, çünki ikinci səhər yeməyi gün ərzində bizim ən gözəl anımızdır. İşi dayandırıb buraya gələndə hiss edirsən ki, necə deyərlər, sən də insansan. Hə də, adamın belə şeylərə hərdən ehtiyacı olur.

Olduğunu Kinast da təsdiq elədi. Frau Heslinqin "Kinast evlidirmi" sualına o, "yox" cavabı verdi və bu vaxt Maqdanın saç tağına baxdı, çünki qız başını aşağı salmışdı. Diderix ayağa qalxıb dabanlarını bir-birinə vurdu.

– Cənab Kinast, – dedi, – büsbütün sizin ixtiyarınızdayam.

– Cənab Kinast siqar da çəkər, – Maqda xahiş etdi və Kinastın siqarını özü yandırdı, Kinast da qadınları bir daha salamlayacağı ümidini kəsmədiyini bildirdi və bu arada Maqdaya ümiddolu bir təbəssüm göndərdi. Lakin həyətdə səsinin tonunu tamam dəyişdi.

– Bunlar dar-darankeş baraklardır ki! – sərin və ikrahlı dilləndi. – Nə olaydı, bizim zavodun yerləşdiyi məkanı görəydiniz.

– Eşvayler kimi xırda bir şəhərdə?! – Diderix dilləndi, həm də Knastdan da ikrahlı dilləndi. – Netsiq sizə oyun-

oyuncaq gəlməsin. Bu nəhəng evləri sökün görüm necə sökürsünüz!

Sonra amiranə və kəskin bir tonla öz mexanikini çağırdı ki, hollenderi işə salsın. Napoleon Fişer həmin an cavab verməand diyinə görə Diderix özünü sexə saldı:

– Nə olub, qulaqlarınız tutulub? – Lakin Fişerlə üz-üzə dayanan kimi bağırtısı kəsdi. Həyəcandan gözlərini geniş açaraq asta və həzin səslə dedi: – Fişer, ölçüb-biçmişəm, sizdən razıyam, ayın birindən maaşınızı yüz səksən marka çatdıracağam.

Napoleon Fişer başa düşən adamlar kimi başı ilə razılığını bildirdi və onlar bir-birindən aralandılar. Elə həmin an Diderix təzədən bağırmağa başladı. Camaat siqaret çəkirdi! Amma ona etiraz edib bildirdilər ki, gələn iy onun öz siqaretindəndir. "Büşli & Cie."-nin nümayəndəsinə üzünü tutub dedi:

– Əslində, sığorta olunmuşam, amma intizam vacib şeydir. Nöqsansız müəssisə, elə deyil?

– Köhnəlmiş cihaz, – maşınlara soyuq bir nəzər salan cənab Kinast cavab verdi. Diderix lağlandı:

– Bilirəm, əzizim. Amma sizin hollenderlərdən heç də pis deyil. – Kinastın etirazına baxmayaraq yerli sənayenin başarsızlığına hirslənərək sözünə davam etdi: "Fabriki yenidən qumaq üçün İngiltərəyə səfər edəcəyini nəzərdə tutur. O, iri addımlarla yeriyən insandır. Fabrikin başında özü durandan bəri iş həddən artıq qabağa gedib". – Bununla belə, fabrikin genişlənməsinə böyük ehtiyac duyulur. – Uydurmalarını işə saldı: "Hazırda iyirmi əyalət qəzeti ilə müqavilələri var". – Berlin univermaqları isə məni, ümumiyyətlə, dəli edib...

Kinast onun sözünü ağzında qoydu:

– Onda, deyəsən, bütün malları göndəribsiniz, çünki heç yerdə hazır mal görmürəm.

Diderixi hirs götürdü:

– Cənab! Gəlin sizə bir şey deyim! Hələ dünən xırda müştərilərin hamısına məktub göndərmişəm: "Yeni tikintini qurtarana qədər heç nə göndərmək imkanında deyiləm".

Diderixin mexaniki onları çağırıb apardı. Patentli yeni hollender yarıya qədər yüklənmişdi. Amma kütlə hələ də zəif hərəkət edirdi, yanındakı fəhlə qarışdırıcı ilə yardımçılıq edirdi. Diderix saatı əlində tutmuşdu.

– Deməli belə. Deyirsiniz ki, kütlənin tam işləməsi üçün hollenderinizə iyirmi-otuz saniyə vaxt lazımdır: mən artıq əllini saymışam. Usta, kütləni endir... Nə olub axı, bu, ömürlükmü davam edəcək!

Kinast qilafın üstünə əyilmişdi. Belini düzəltdi və acı-acı gülümsədi.

– Ventillər təpişdirilib doldurulubsa, necə işləsin... – Diderixin narahat və kəskin baxışı altında isə əlavə etdi: – Hollenderin başına nə oyun açıldığını bu tələsiklikdə görə bilmərəm.

Diderix dik atıldı, qəfildən qıpqırmızı qızardı.

– Bəlkə məni ittiham etmək istəyirsiniz ki, mexaniklə mən?..

– Mən heç nə demədim, – Kinast qətiyyətlə bildirdi.

– Desəydiniz də, belə şeyi yaxına buraxan deyildim. – Diderixin sir-sifəti açıldı, amma deyəsən, bu, Kinasta o qədər də təsir etmədi. Gözlərinə soyuqluq, iki tərəfə daranmış çənə saqqalına isə bir irişik qondu. Əgər üzünü qırxıb bığlarını gözlərinin bucağına qədər dartmış olsaydı, Diderixə oxşayardı! Onun əlində hakimiyyət vardı! Fəqət Diderix ondan da hədəli çıxış etdi. – Mənim mexanikim sosial-demokratdır: onun mənə yaxşılıq eləməsi gülüncdür. Bir də ki mən ehtiyatda olan zabit kimi dediklərinizin nə nəticə verəcəyini nəzərinizə çatdırıram!

Kinast həyətə çıxdı.

– Boşlayın getsin, cənab doktor, – xeyli soyuq dilləndi. – Söhbət işdən gedirsə, başım həmişə ayıq olur, bunu sizə səhər yeməyində də demişəm. İndi isə təkrarlamağı özümə borc bilirəm ki, biz hollenderi qüsursuz göndərmişik və onun geriyə qayıtması barədə heç düşünmürük də.

Cavabında Diderix:

– Hələ baxarıq! – dedi. – "Büşli & Cie." məhkəmə prosesini, yəqin ki, yeni qurğuların reklamı üçün daha təsirli sayardı, elə deyilmi? Peşə mətbuatında isə sizin hollenderi mən xüsusi təqdim edəcəyəm!

Bunun müqabilində Kinast bildirdi ki, o, şantaja asanlıqla uyan deyil. Diderix də borclu qalmadı:

– Ziyanlı şişi, sadəcə, kəsib atırlar, – dedi.

Bu vaxt Maqda qapıda göründü. Əynində Milad bayramında hədiyyə edilmiş xəz pencək, dodaqlarında çəhrayi təbəssüm vardı.

– Cənablar işlərini hələ qurtarmayıbmı? – bic-bic soruşdu. – Hava elə gözəldir ki, adam günorta yeməyindən əvvəl gəzməyə çıxmaq istəyir. Yeri gəlmişkən, – çəkinib-qısılmadan əlavə etdi, – anam soruşur ki, cənab Kinast şam yeməyinə gələcəkmi. – Kinast deyəndə ki, təəssüflə minnətdarlığını bildirir, Maqda təkidlə gülümsədi. – Mənə də etiraz edəcəksiniz?

Kinast acı-acı güldü.

– Sizə yox deməzdim, xanım, amma bilmirəm, qardaşınız cənab...

Diderix fısıldadı, Maqda yalvarışla ona baxdı.

– Cənab Kinast, – Diderix dilləndi. – Buna mən də sevinərdim. Bəlkə də, biz bir-birimizi yaxşı başa düşərdik.

Kinast bildirdi ki, o da bundan ümidini kəsməyib. Üzünü kübarcasına Maqdaya çevirib onu ötürməsini təklif etdi.

– Qardaşım etiraz etmirsə, – Maqda mütiliklə, bir az da kinayəli dilləndi. Diderix buna da icazə verdi; sonra da bacısının "Büşli & Cie."-nin nümayəndəsi ilə getməsinə təəccüblə tamaşa etdi. Bu qız birdən-birə nələrə qadir imiş!

Nahar fasiləsinə gələndə içəridəki qonaq otağında bacılarının əsəbi səslə danışdığını eşitdi. Emmi Maqdaya irad tuturdu ki, özünü abırsız aparır.

– Belə eləmirlər axı!

– Yox?! – Maqda səsini qaldırdı. – Səndən icazə istəməliydim?

– Heç də pis olmazdı. Bir də ki növbə mənimdir axı!

– Ayrı nə dərdin var?

Maqdanı kinayəli bir gülüş tutdu. Diderix içəri girdiyindən o dəqiqə səsini kəsdi. Qardaşı narazılığını bildirib gözünü ağartdı; lakin qızlarının arxasınca əllərini ovuşdurmağa frau Heslinqin ehtiyacı qalmadı: arvadların mübahisəsinə qarışmağı Diderix şəninə sığışdırmadı.

Süfrə arxasında qonaqdan danışdılar. Frau Heslinq onun bağışladığı mötəbər təsiri tərifədi. Emmi bildirdi:

– O cür məmur olmasına baxmayaraq, bir qınnaq da mötəbər deyil. Heç qadınla danışa da bilmir.

Maqda qətiyyətlə bunun tərsini söylədi. Hamı Diderixin hökmünü gözlədiyindən o, öz qərarını verdi:

– Cənabın ədəb-ərkanı, təbii ki, yerində deyil. Ali təhsili heç nə əvəz edə bilməz. Amma mən onu bacarıqlı iş adamı kimi tanıdım.

Emmi daha özünü saxlaya bilmədi.

– Maqda ona ərə getmək istəsə, bildirirəm ki, sizinlə oturub-duran deyiləm. Kompotu bıçaqla yedi.

– Yalan deyir! – Maqdanı hıçqırıq götürdü. Diderixin ona yazığı gəldi və o, Emminin üstünə təpindi:

– Lütfən, iş başında olan hersoqa ərə get və bizi rahat burax.

Emmi çəngəl-bıçağını yerə qoyub bayıra çıxdı. Axşamüstü, hələ iş sona yetməmiş cənab Kinast idarəyə gəldi. Əynində sürtuk vardı və durumundan daha çox məclis adamına oxşayırdı, nəinki iş adamına. Qoca Zötbir şey-şüylərini yığışdırana qədər bir-birini anlayaraq susub heç biri söhbətə başlamadı. Zötbir inamsız bir baxışla çıxıb gedəndə Diderix dedi:

– Qocanı ölüm yatağına uzatmışam. Vacib işləri özüm tək görürəm.

– Hıı, bəs bizim məsələ barədə fikriniz nədir? – Kinast soruşdu.

– Bəs sizin? – Diderix cavab verdi. Kinast anlaşıqlı bir göz vurdu.

– Mənim səlahiyyətim, əslində, bir o qədərə çatmır, amma bunu öhdəmə götürürəm. Allahın adını tutub hollenderi geri qaytarın. Hər halda, bir defekt tapılar.

Diderix deyiləni başa düşdü. Odur ki əminliklə bildirdi:

– O defekti siz, yəqin ki, taparsınız.

Kinast işgüzar bir tonla dedi:

– Sizə etdiyimiz güzəştin müqabilində gərək siz də söz verəsiniz ki, gələcək sifarişlərinizi bizə edəcəksiniz. Bir dəqiqəl – Diderixin diksindiyini görüb onu rahat olmağa səslədi. – Bundan başqa, maşının və mənim yol xərclərimə gərək beş yüz mark ödəyəsiniz; bunu da biz sizin pulunuzun qalığından çıxacağıq.

– Bəri bax, bu ki soyğunçuluqdur! – Diderixin ədalət duyğusu haray saldı. Kinast da yenidən səsini qaldırdı.

– Cənab doktor!

Diderix güclə özünü ələ aldı, əlini Kinastın çiyninə qoydu.

– Gəlin çıxaq bayıra! Xanımlar gözləyir.

– Deməli, razılaşdıq. – Kinast mülayim dilləndi.

– Xırda fərqləri yoluna qoyarıq, – Diderix onu arxayın saldı.

Evdən bayram iyi gəlirdi. Frau Heslinq qara atlaz paltarında göz qamaşdırırdı. Başqa vaxtlar özününkülərin yanında nümayiş etdirdiyindən fərqli olaraq bu dəfə Maqdanın qırçınlı köynəyi daha çox köpüb qalxmışdı. Yalnız Emminin libası və üz cizgiləri həmişəki kimi bomboz idi. Maqda qonağa yer göstərdi, özü də onun sağında oturdu; hamı təzəcə əyləşib içini antlamışdı ki, o, qızdırmadan alışıb yana-yana sözə başladı:

– Kişilər, axır ki, səfeh işlərini başa çatdırdılar.

Diderix tam razılığa gəldiklərini təsdiq etdi. "Büşli & Cie." ləyaqətli adamlarmış.

– Bizim azman müəssisəmizdə, təbii ki, belə də olmalıdır, – Kinast bildirdi. – Min iki yüz fəhləsi və qulluqçusu var, müştərilər üçün öz mehmanxanası olan bütöv bir şəhər. – Diderixi firmaya dəvət etdi. – Gəlin bizə, tam komfort içində, özü də havayı qalacaqsınız. – Yanındakı Maqda, az qala, onun ağzına girdiyindən özünün tutduğu mövqedən, vəzifəsindən, yalnız yan hissəsində yaşadığı villasından ağızdolusu danışdı.

– Evlənsəm, villanın digər yarısını da alacağam.

Diderixi gülmək tutdu.

– Onda ən sadəsi odur ki, evlənəsiniz. Yaxşı, prost.

Maqda gözünü yerə dikdi, cənab Kinast da söhbəti dəyişdi. Diderix bilirmi ki, niyə ona belə asanca güzəştə gedib.

– Sizə baxanda, cənab doktor, o saat gördüm ki, gələcəkdə sizinlə böyük işlər görmək olar; sizin fabrik hələlik az təchiz olunub, – himayədar bir şəxs kimi əlavə etdi.

Diderix öz müəssisəsinin böyüklüyünü və genişlənmək imkanını nəzərə çatdırmaq istədi, lakin Kinast sözünün kəsilməsinə imkan vermədi. Dedi ki, insanları tanımaq onun peşəsidir. İş üzrə tərəfdaşı adam ilk növbədə gərək onun evində axtarsın. – Əgər hər şey buradakı kimi yerli-yataqlıdırsa ...

Elə bu vaxt süfrəyə iyi adamı məst edən qaz gətirdilər, frau Heslinq bir neçə dəfə gizlincə mətbəxə gedib bişən qaza nəzər yetirmişdi. Qadın üz-gözünə elə bir ifadə verdi ki, elə bil, qaz süfrəsi hər gün təkrarlanan adi bir hal idi. Buna baxmayaraq, Kinast ehtiramlı bir fasilə etdi. Frau Heslinq öz-özündən soruşdu ki, Kinastın baxışı qazınmı, yoxsa qazdan çıxan şirin buğun arxasındakı Maqdanın

açılmış yaxasınamı qonub. Kinast cürətlənib bakalı əlinə aldı.

– Ona görə də: Heslinq ailəsinin sağlığına, evin xanımı möhtərəm ananın və gül kimi açılmış qızların sağlığına!

Gülün açılmasını əyaniləşdirmək üçün Maqda sinəsini bir az da açdı, Emmi getdikcə cılızlaşdı. Cənab Kinast da badəsini Maqdanın badəsinə toqquşdurdu.

Diderix onun tostuna cavab verdi:

– Biz alman ailəsiyik. Evimizə daxil olan ürəyimizə girir. – Gözlərində yaş giləlendi, bu yerdə Maqda təzədən qızardı. – Evimiz miyanə ev olsa da, ürəyimiz genişdir.

Qonağın sağlığına badə qaldırdı, o da öz tərəfindən əmin etdi ki, həmişə miyanəliyin tərəfdarı olub. Xüsusilə də gənc qızların olduğu ailələrdə.

Frau Heslinq sözə qarışdı:

– Əlbəttə elədir! Yoxsa cavan oğlan haradan cəsarət tapar ki... Qızlarım hər şeyi özləri biçib tikir.

Deyilənləri təsdiqləmək üçün Maqdanın sinəsinə əyilməkdən ötrü bu söz cənab Kinasta yetərli oldu.

Desert süfrəsində Maqda ona bir portağal soydu və onun şərəfinə Tokay şərabından bir qurtum aldı. Qonaq otağına keçəndə Diderix qollarını hər iki bacısının boynuna salıb qapıda ayaq saxladı.

– Hə, hə, cənab Kinast, – içəridən gələn bir səslə dedi. – Ailə əmin-amanlığı elə budur. Onu öz gözlərinizlə görə bilərsiniz, cənab Kinast. – Maqda tam sədaqətlə qardaşının kürəyinə sığındı. Emmi ondan aralanmaq istədiyinə görə arxadan bir zoxma yedi. – Günümüz həmişə belə keçir, – Diderix sözünə davam etdi. – Bütün günü özümünkülər üçün çalışıram, axşam da bu çırağın şöləsi altında toplaşırıq. Kənar adamlara və üzdəniraq cəmiyyətimizin tör-töküntüsünə imkanca az maraq göstəririk, öz qayğımız özümüzə bəs edir.

Emmi birtəhər canını qurtardı; onunçündə hansısa qapını çırpıb örtdüyünü eşitdilər. Bunun müqabilində Diderixlə Maqda gümüşü rəngə çalan masanın arxasında əyləşəndə gözoxşayan bir mənzərə yaratdılar. Cənab Kinast frau Heslinqin həlim təbəssümlə otağa gətirdiyi punşa fikirli-fikirli baxdı. Maqda qonağın bakalını dolduranda Diderix şirin dilini işə salıb bildirdi ki, belə bir guşənişinlik sayəsində o, bacılarını qaydasınca ərə vermək imkanına malik olacaq.

– İşlərimin yaxşı getməsi qızların xeyrinədir, fabrik həm də onlarınkıdır. Lap elə nağd cehizlik baxımından; bir də gələcək yeznələrdən biri müəssisəyə kapital qoymaq istəsə...

Cənab Kinastın üzünə qayğı qonduğunu görən Maqda söhbəti dəyişdi. Ondan alləsi barədə soruşdu, həm də öyrənmək istədi ki, tamam təkmi yaşayır. Kinastın gözləri yaşardı və o, qıza bir az da yaxınlaşdı. Diderix oturduğu yerdən qalxmamışdı, şərabını içir və baş barmağını dala-qabağa fırladırdı. Bir neçə dəfə onların söhbətinə qarışmaq istədi, amma onlar da, deyəsən, tamam tək qalmaq istəyirdilər.

– Hə, belə çıxır ki, birillik hərbi xidmətinizi uğurla başa vurmusunuz, – Diderix qibtə ilə dilləndi və hər ikisinin arxasından ona him-cim eləyən frau Heslinqin hərəkətinə təəccübləndi.

Qadın yalnız qapıdan çıxanda o, hər şeyi başa düşüb, özünün tunc bakalını götürdü və qaranlıq yan otaqdakı pianinonun yanına getdi. Bir xeyli dillərdə əl gəzdirdi, özü də bilmədən uşaqlıq nəğmələrini çalıb zil səslə oxudu. "İblis ilə bilirlər ki, azadlıq nə olan şeydir". Mahnını bitirəndə o biri otağı dinşədi; içəridə elə sakitlik idi ki, sanki, yuxuya getmişdilər; nə qədər ürəyi punşdan ötrü yansa da, özünə borc bilib yenidən bir nəğmə başladı: "Dərin zirzəmidə oturmuşam burada".

Mahnının tən ortasında bir kətil aşdı, ardınca da bir səs gəldi, həmin səsi kimin çıxardığı bəlli olmadı. Bir sıçrayışla Diderix özünü qonaq otağına saldı.

– İşə bax, – uca səslə, amma mehribanlıqla dedi, – deyəsən, niyyətiniz ciddidir. Kinastla Maqda bir-birindən aralandılar.

– Yox demərəm, – Kinast fikrini bildirdi.

Diderixə birdən-birə canlanma gəldi. Kinastla göz-gözə dayanıb onun əlini silkələdi, o biri əli iləsə Maqdanı özünə doğru çəkdi.

– Bu ki əsl sürprizdir! Cənab Kinast, bacımı xoşbəxt edin. Mənim simamda hər vaxt özünüzə yaxşı qardaş taparsınız, indiyə qədər olduğum kimi, istəsəniz də, istəməsiniz də bunu deməliyəm. – Gözlərinin yaşını silib otaqdan o üzə səsləndi: – Ana! Xeyir xəbər var.

Frau Heslinq, sanki, qapının arxasında dayanmışdı, ancaq bərk həyəcanlandığından ayaqlarına o saat gücü

çatmadı. Diderixə söykənib səndələyərək irəli yeridi, cənab Kinastın boynuna sarıldı, elə orada da göz yaşları ümmana döndü. Bu arada Diderix Emminin otağının bağlı qapısını döydü.

– Emmi, çölə çıx, xeyir xəbər var!

Axır ki, qız dartıb qapını açdı, hirsindən sifəti od tutub yanırdı.

– Niyə qoymursan yatım?! Bilirəm, necə xeyir xəbərdir. Məni öz abırsızlığınıza qatmayın!

Diderix ayağını qapının arasına qoymasaydı, Emmi onu təzədən örtəcəkdi. Qardaşı tam ciddiliklə onun nəzərinə çatdırdı ki, bu üsyankar davranışının müqabilində ömründə ərə getməyəcək. Heç bacısının geyinməyinə də icazə vermədi, elə əynindəki gecə köynəyində, saçları pırpız-pırpız dartıb apardı. Emmi dəhlizdə Diderixdən qopa bildi.

– Bizi gülünc vəziyyətinə qoyursan, – Emmi fışıltılı səslə dedi və qardaşını qabaqlayıb təzə nişanlıların qarşısında başını dik tutdu, kinayəli nəzərlərlə şax dayandı. – Gərək elə gecənin bu vaxtı olaydı? – soruşdu. – Hə, bəxti durana nə zaman, nə vaxt?!

Kinast onu süzdü: Emmi boyca Maqdadan hündür idi, indi allanmış sifəti üzünə tökülmüş uzun və cod saçların içində xeyli koppuş görünürdü. Kinast onun əlindən istəniləndən də xeyli çox tutdu; Emmi əlini onun əlindən çəkdi, bu vaxt Kinast aşkar bir tərəddüd içində üzünü Maqdaya çevirdi. Emmi bacısına zəfər təbəssümü bəxş etdi, arxaya çevrilib gövdəsini şax tutaraq otaqdan çıxdı, bu arada Maqda qorxuya düşüb Kinastın qolundan yapışdı. Diderix bir əlində dolu punş qədəhi ilə içəri girdi, təzə yeznəsi ilə qol-qola "qardaşlıq" eşqinə içməyi tələb etdi. Ertəsi gün tezdən Kinastı mehmanxanadan götürüb səhər pivəsinə apardı.

– Bacarsan, günortaya qədər qadın həsrətini cilovla. İndi gərək biz kişilər kişi kimi söhbət edək. – Klapşın pivəxanasında vəziyyəti ona açıqladı. Toy günü iyirmi beş min mark nağd ödəməklə sənədlərə istənilən vaxt baxmaq olar, Emmi ilə bərabər isə fabrikin dörddəbiri.

– Deməli, yalnız səkkizdəbiri, – Kinast qətiləşdirdi; Diderix də cavabında:

– Bəlkə, sizə məccani çalışım?! – Ortaya narazı bir sükut çökdü. Diderix aranı təzədən qızışdırdı. – Prost, Fridrixl

– Prost, Diderix! – Kinast dedi. Sonra, deyəsən, Diderixin ağlına nəsə yeni bir fikir gəldi. – Biznesdəki payını artırmaq sənin öz əlindədir, əgər bura pul yatırsan. Pul ehtiyatın nə vəziyyətdədir? O cür yüksək maaşla!

Kinast bəzi şeyləri açıqladı, prinsipcə "yox" demədi. Ancaq bildirdi ki, əslində, "Büşli & Cie." ilə müqaviləsi hələ sona yetməyib. Həm də bu il maaşının nəzərəçarpacaq dərəcədə artımını gözləyir; indi işdən çıxmaq özünə qarşı cinayət olardı.

– Əgər pul qoyuramsa, özüm işin içində olmalıyam. Sənə qarşı olan bütün inamımla birlikdə, əziz Diderix... – Diderix razılaşdı. Kinast da öz tərəfindən yeni bir təklif irəli sürdü. – Sən, sadəcə, cehizi əlli minə çatdırsan, nə olar?! Onda Maqda biznesdəki payından imtina edərdi.

Bu, yenə də Diderixin şərtsiz etirazı ilə qarşılandı.

– Bu, mənə müqəddəs olan rəhmətlik atamın son istəyinə zidd olardı. O şəkildə ki mən işləyirəm, bir neçə ilin içində Maqdanın payı indi sənin istədiyindən on qat artıq olacaq. Biçarə bacıma bu cür zərər yetirməyə heç vaxt imkan verməyəm. – Bu yerdə yeznə xısın-xısın güldü. Dedi ki, Diderixin qohumcanlılığına hörmət edir, lakin təkcə çalışqanlıqla uzağa getmək olmaz. Diderix də yaranmış vəziyyətdən aşkar çıxaraq bildirdi: çox şükür ki, işlərin aparılmasında Allahdan başqa yalnız özü cavabdehdir. – Əlli min nağd və xalis gəlirin səkkizdəbiri, bundan o yana heç nə olmayacaq.

Kinast barmağı ilə masanı döyəclədi.

– Bilmirəm bu şərtlərlə bacınızı ala bilərəmmi, – bildirdi. – Hər halda, son sözümü deməmişəm.

Diderix çiyinlərini çəkdi və onlar pivələrini axıra qədər içdilər. Kinast yeməkiə qayıtdı; Diderix qorxmuşdu ki, aradan çıxacaq.

Xoşbəxtlikdən, Maqda dünənkinə nisbətən daha cazibəli bəzənib-düzənmişdi. "Sanki, hər şeyin bu gün həll olunacağını bilirmiş", – bacısına heyranlıqla baxan Diderix fikrindən keçirdi. Bişi süfrəsinin arxasında Maqda Kinastı elə alovlandırdı ki, oğlan bir ayın içində toy edəcəyini bildirdi.

– Son sözündür? – Diderix lağla soruşdu. Bunun cavabında Kinast üzükləri cibindən çıxartdı.

Yeməkdən sonra frau Heslinq nişanlıların əyləşdiyi otaqdan barmaqlarının ucunda çıxdı, Diderix də getmək

istəyirdi, lakin bacısı ilə yeznəsi onu da özləri ilə gəzməyə apardılar.

– Hara gedirik, anamla Emmi haradadır?

Emmi getməkdən imtina etmişdi, buna görə də frau Heslinq evdə qalırdı.

– Ayrı cür olsaydı, daha pis alınardı, – Maqda dedi. Diderix onun fikri ilə razılaşdı. Hətta fabrikə girərkən onun xəz pencəyinin üstünə qonmuş tozu da sildi. Maqda ilə ehtiramla davranırdı, çünki qız uğur qazanmışdı.

Bələdiyyə binasına doğru getdilər. Camaatın onları görməsinin ziyanı yoxdur, elə deyilmi. Mayzeştrasedə rastlaşdıqları ilk adam Napoleon Fişer oldu. Fişer nişanlıların hüzurunda dişlərini qıcırdıb Diderixə baş endirdi: baxışı isə deyirdi ki, hər şeydən xəbəri var. Diderix qıpqırmızı qızardı, bu kişinin yaxasından yapışıb küçənin ortasında onunla dalaşmaq istədi: ancaq bacarardımı? "Bu əldəölən proletara ürək qızdırmağım ən böyük səhvim olub! İş onsuz da aşarmış! İndi evimin ətrafında sülənir ki, düşünüm: onun caynağından qurtara bilməyəcəyəm. Görəcəkli günlərim qabaqdaymış, şantajdan əl çəkməyəcək". Ancaq mexaniklə onun arasında, Allaha şükür ki, hər şey təkbətək olmuşdu. Napoleon Fişerin onun haqqında deyəcəkləri böhtandan başqa bir şey sayılmazdı. Diderix onu, sadəcə, dama basdırardı. Amma Fişer onun əməlindən hali olduğuna görə bu kişiyə elə nifrət etdi ki, iyirmi dərəcə şaxtada canına isitmə və tər gəldi. Ətrafa boylandı. Niyə haradansa Napoleon Fişerin başına bir daş düşmədi?

Gerixtşrtasedə Maqda özündə kəsdirdi ki, gəzməyə çıxmaqlarına dəyərmiş, çünki məhkəmə üzvü Harnişin evində Meta Harnişlə İnqe Tits pəncərənin arxasında dayanmışdılar və Maqda gördü ki, Kinastın baxışından onlar həddən artıq narahat olub üz-gözlərini əyişdirdilər. Qeysər Vilhelm küçəsində bu gün, təəssüf ki, böyük olaylarla rastlaşmadılar; ən böyük hadisə o oldu ki, "Harmoniya"ya gedən mayor Kuntse və doktor Hoytoyfel uzaqdan təəccüblü sifətlər göstərdilər. Şvaynixinştrasenin tinində Diderixin əvvəlcədən görə bilmədiyi bir hadisə baş verdi: frau Daymxenlə Quste onlardan qabaqa gedirdi. Maqda həmin an addımlarını yeyinlədib gümrah səslə danışmağa başladı. Quste birbaşa arxaya çevrildi və Maqda dil açdı:

– Frau Daymxen, icazənizlə nişanlım cənab Kinastı sizə təqdim edim.

Nişanlını təpədən-dırnağa süzdülər və onu Maqdaya yaraşdırdılar, çünki Diderixlə iki addım dala qalan Quste ehtiramla soruşdu:

– Onu haradan eşələyib tapmısınız?

Diderix zarafata keçdi:

– Hər adam sizin kimi əlinin altındakını tapa bilmir. Amma bizimki daha abırlıdır.

– Yenə başladınız? – Quste səsini qaldırdı. Amma bu dəfə həmin səsdə düşmənçilik yox idi. Hətta Diderixin baxışını tutub yüngülcə köksünü də ötürdü. – Mənimki, Allah bilir, haralardadır. Adam özünü əsl dul qadın kimi hiss edir.

Kinastın qolundan asılmış Maqdanın arxasınca qayğılı-qayğılı baxdı. Diderix müəmmalı danışdı:

– Ölüləri tərpətmirlər. Həyatda kifayət qədər dirilər var.

Bu sözlərdən sonra o, Qusteni evlərin divarlarına qədər qısnadı və harisliklə onun sifətinə baxdı: doğrudan da, qızın xoş və koppuş sifətində bir anlığa nəsə açılıb görsəndi.

Təəssüf ki, artıq Şvaynixenştrase 77-yə çatmışdılar, burada sağollaşıb ayrıldılar. Sakson darvazasından o yana cəlbedici heç nə olmadığına görə bacı-qardaş cənab Kinastla birlikdə geriyə üz tutdu. Nişanlısının qolunda uyuyan Maqda Diderixi ruha gətirmək üçün dedi:

– Hə, fikrin nədir?

Sualdan Diderix qızarıb fısıldadı.

– Fikirləşməyə nə var ki, – dedi və Maqda güldü. Qaranlıqlaşmış insansız küçədə kimsə onlara doğru gəlirdi. – Bu adam Buk deyil?.. – əminlik hasil etmədən Diderix dedi. Adam onlara yaxınlaşdı: kök, üzdən hələ də cavan, başında iri, yumşaq günlüklü şlyapa, bununla belə, bərli-bəzəkli; ayaqlarını içəri ata-ata yeriyirdi. – Elədir ki var, Volfqanq Buk! – Çaşıb-qalaraq fikrindən keçirdi: "Quste də özünü elə aparır ki, elə bil, nişanlısı dünyanın o başındadır. Yalan danışmağı gərək ona tərgidəm!"

– Sizsiniz ki, – cavan Buk Diderixin əlini silkələdi. – Çox şad oldum.

– Mən də, – ürəyində Qusteni tənbeh etsə də, Diderix cavab verdi və yeznəsini məktəb yoldaşı ilə tanış etdi. Buk təbriklərini bildirib Diderixlə birlikdə nişanlıların arxasında qaldı.

– Yəqin, nişanlınızın yanına getmək istəyirdiniz, – Diderix dedi. – Evdədir, biz onu evlərinə ötürdük.

– Hə? – Buk heyrətlənib çiyinlərini çəkdi. – Olsun, onu harada olsa taparam, – bu dəfə laqeyd dilləndi. – Hələlik mən təzədən sizinlə rastlaşmağıma şadam. Berlindəki söhbətimiz, cəmi bircə dəfə olan söhbətimiz, çox həyəcanlı söhbət idi, elə deyilmi?

O vaxt həmin söhbət Diderixi hirsləndirsə də, indi onun maraqlı olduğunu təsdiq etdi. Bukla yenidən görüşməsindən Diderixə bir canlanma gəlmişdi.

– Elədir, sizə baş çəkməkdə mən borclu qaldım. Berlində adamın işinin başdan aşdığı sizə, yəqin ki, bəllidir. Burada vaxtın çox olur. Darıxdırıcıdır, hə? Təsəvvürünə də gətirməzsən ki, bütün ömrünü burada keçirərsən, – Diderix evlərin çılpaq divarlarına işarə etdi. Volfqanq Buk azca əyilmiş burnunu havaya tutub imsilədi. Sanki, pənbə dodaqları ilə onu tamsındı və gözlərində dərin düşüncə göründü.

– Netsiq həyatı, – cavan Buk ağır-ağır dilləndi. – Hə, bundan yaxa qurtara bilməzsiniz. Biz, sadəcə, öz sensasiyalarımız xatirinə yaşamağa hazır deyilik. Əslində, burada da nəsə tapmaq olar. – Şübhəli-şübhəli gülümsədi. – Keşikçi göylərin yeddinci qatına qədər sensasiya yaratdı.

– Belə de... – Diderix qarnını qabağa uzatdı. – Deyinmək azarınız yenə baş qaldırdı?!. Nəzərinizə çatdırım ki, bu işdə mən büsbütün əlahəzrətlərin tərəfindəyəm.

Buk əli ilə rədd işarəsi verdi.

– Boşlayın getsin. Mən onu tanıyıram.

– Mən isə daha yaxşı tanıyıram, – Diderix bildirdi. – Kim keçən ilin fevralındakı o böyük çaxnaşmadan sonra heyvanat bağında mənim kimi camaatdan aralanıb onunla göz-gözə dayanıbsa və bu gözün, Böyük Fridrixin gözünün parladığını görübsə, sizə deyim ki, o, gələcəyimizə tam inanır.

– Gələcəyimizə... ona görə ki, göz parıldayıb.

Bukun cəhəngləri və yanaqları bədbinləşib aşağı sallandı. Diderix bərkdən fısıldadı.

– Bilirəm, gələcəyimizdə siz heç bir şəxsiyyətə inanmırsınız. Əks təqdirdə Lassal, ya da Bismark olardınız.

– Mən də bunu özümə rəva bilərdim. Heç şübhəm yoxdur. Elə onun kimi uğurla... Xarici amillərdən xeyli az yarınsa da. – Səsində bir canlanma və əminlik vardı. – Bizim hər birimiz üçün vacib olan o deyil ki, dünyada gerçəkdən də

çox şeyi dəyişək, əksinə, odur ki, elə həyat duyğusu yaradaq ki, sanki, biz onu, doğrudan da, dəyişirik. Buna da yalnız istedad lazımdır, istedad da onda var.

Diderix tıncıxdı, ətrafına boylandı.

– Biz burada öz aramızda söhbət edirik, onların isə orada danışmağa vacib şeyləri var, amma mən bilmirəm ki...

– ...Hələ də düşünürsünüz ki, ondan xoşum gəlmir? Özümə baxanda ona, doğrudan da, hörmətim var. Onun yerində olsaydım, mən də yefreytor Lükü və bizim keşikçimizi bu cür ciddiliklə qəbul edərdim. Bu, onun təhlükəsiz hakimiyyəti olmazdımı? Yalnız çevriliş olduğu təqdirdə adamın duyğuları itiləşir. Əgər o, özünə deməli olsaydı ki, sosial-demokratiya onun özünü deyil, qazancın nisbətən insafla bölünməsini nəzərdə tutur, halı necə olardı?

– Oho! – Diderix dedi.

– Elə deyil? Bu, sizi bərk cımadardı. Elə onu da. Hadisələrin arxasına düşüb getmək, inkişafa hakim kəsilməmək, əksinə, sadəcə, ona qapılıb qalmaq: belə şeyə dözmək olarmı?.. Daxilən məhdudiyyətsiz! Bununla belə, sözləri və hərəkətləri ilə başqalarında nifrət oyatmağa imkanı olmamaq. Axı bu iradçıların dayaq nöqtələri nədir? Ciddi bir şey baş veribmi? Lüklə olan hadisənin özü də bir jestdir. Əl aşağı enirsə, hər şey əvvəlki kimi olur: lakin aktyor da, tamaşaçı da sensasiya ilə üz-üzə dayanıb. Əzizim Heslinq, bizim hamımızın təşnəliyimizin səbəbi də elə budur. Haqqında danışdığımız o kəsin özü, inanın mənə, hamıdan çox heyrətlənərdi, əgər onun nəhs gətirdiyi müharibə, yaxud da yüz dəfə gözləri önündə canlandırdığı inqilab haçansa doğrudan da, başlasaydı.

– Bunu gözləməyə çox vaxt lazım olmayacaq! – Diderix səsini qaldırdı. – Onda görərsiniz ki, milli düşüncəyə malik olanların hamısı sədaqət və mətinliklə öz qeysərinin tərəfindədir!

– Əlbəttə. – Buk çiyinlərini daha tez-tez çəkməyə başladı. – Bu, onun özünün icad etdiyi adi ifadə tərzidir. Siz onun diktə etdiyi sözləri söyləyirsiniz. Düşüncə tərzi də indi olduğu kimi heç vaxt belə gözəl tənzimlənməyib. Bəs əməllər? Zəmanəmiz, əziz müasirim, əmələ hazır deyil. Çox şeyi görüb-götürmək üçün öncə yaşamaq lazımdır, əməl isə həyat üçün qorxuludur.

Diderix dikəldi.

– Siz qorxaqlıq iradını, bəlkə, nə iləsə birləşdirmək istəyirsiniz?..

– Mən mənəvi hökm söyləməmişəm. Sadəcə, ölkəmizin tarixi faktlarını sadalamışam ki, onun da hər gün bizə dəxli var. Əslində, biz hamımız bağışlanmağa layiqik. Səhnədə fəaliyyət göstərən həyatda fəaliyyətsiz olur, çünki fəaliyyəti o, səhnədə gerçəkləşdirir. Gerçəklik ondan daha nələr istəyir? Görünür, bilmirsiniz ki, tarix zəmanəmizin tipik qəhrəmanı kimi kimə qiymət verəcək?

– Qeysərə! – Diderix dedi.

– Xeyr, – Buk cavab verdi. – Artistə.

Bu yerdə Diderixdən bir qaqqıltı, özü də elə bir qaqqıltı qopdu ki, irəlidəki nişanlılar bir-birindən aralanıb ətraflarına baxdılar. Artıq Teatr meydanına gəlib çatmışdılar, buz kimi külək əsirdi; onlar yollarına davam etdilər.

– Belə deyək, – Diderix düşüncələrini çözələdi, – indi tam deyə bilərəm ki, siz bu axmaq fikrə necə gəlmisiniz. Sizin axı teatrla bağlılığınız var. – Bukun kürəyinə döyəclədi. – Siz də teatrda iştirakçısınız?

Bukun gözlərində bir narahatlıq oynadı; kürəyinə döyəcləyən əldən qurtarmaq üçün Diderixdən aralandı, o da bunu dostluğa yaraşmayan hərəkət saydı.

– Mən? Yox, canım, – Buk dilləndi; hər ikisi Gerixtsştraseyə qədər narazı-narazı susandan sonra: – deməli belə, siz hələ də bilmirsiniz ki, niyə mən Netsiqdəyəm.

– Yəqin ki, nişanlınıza görə.

– Təbii ki, bu da var. Amma öncə yeznəmiz Lauerin müdafiəsini boynuma götrümüşəm.

– Siz?.. Lauerin məhkəməsində?.. – Diderixin nəfəsi kəsildi. Ayaq saxladı.

– Hə də, – deyib Buk yenə çiyinlərini çəkdi. – Xəbər sizi heyrətləndirir? Bu yaxınlarda Netsiqin əyalət məhkəməsində vəkil kimi qeydə alınmışam. Atam sizə bir şey deməyib?

– Atanız cənabı az-az görürəm... Nadir hallarda camaat içinə çıxıram. İş-gücüm... Bacımın nişanı... – Diderix özünü itirmişdi, dili topuq çalırdı. – Onda, görünür, tez-tez... Bəlkə, həmişəlik burada qalacaqsınız?

– Məncə, hələlik.

Diderix özünü yığışdırdı.

– Deməliyəm ki, çox vaxt sizi tam başa düşməmişəm,

mənimlə az qala Netsiqin yarısını birgə gəzdiyimiz indiki zamanda isə daha az başa düşürəm.

Buk ona göz vurdu.

– Baxmayaraq ki sabahkı məhkəmədə mən vəkil kimi, siz isə əsas ittihamçı şahid kimi çıxış edəcəksiniz, bu yalnız təsadüfdür. Rollar başqa cür də bölünə bilərdi.

– Allahı sevərsiniz! – Diderix coşdu. – Hərə öz yerindədir. Siz öz peşənizə hörmət etmirsinizsə...

– Hörmət? O nə olan şeydir? Vəkilliyimə sevlnirəm, bunu inkar etmirəm. Ürəyimi boşaldacağam, qoy çoxları bunu unutmasın. Sizə, cənab doktor, xoşagəlməz şeylər deyəsi olacağam; çox güman ki, məni bir o qədər də qınamazsınız, bu, mənim nüfuzuma daxildir.

Diderix qorxuya düşdü.

– Bağışlayın, cənab vəkil, ifadəmlə tanış olmusunuz? Heç də büsbütün Lauerin ziyanına deyil.

– Qoyun bunun dərdinə mən qalım. – Bukun üz cizgilərində qorxunc bir ironiya vardı. Beləcə onlar gəlib Meyzeştraseyə çatdılar.

“Məhkəmə!” – Diderix fısıldaya-fısıldaya beynindən keçirdi. Son günlərin həyəcanından onu unutmuşdu, indi isə, budur, gəlib çıxdı, sanki, sabah açılan kimi o hər iki qıçını kəsdirəsi olacaqdır. Quste, bu saxtakar həyasız, deməli, öz nişanlısından bilə-bilə heç nə deməyib; Diderix qorxunu son anda yaşamalı imiş!.. O, evlərinin yanına çatana kimi Bukla sağollaşdı. Kaş Kinast heç nə hiss etməyəydi! Buk yenə harayasa getməyi təklif etdi.

– Deyəsən, sizi heç nə nişanlınızın yanına çəkmir, hə? – Diderix soruşdu.

– Hazırkı anda konyaka daha çox meylim var.

Diderix gülüb lağlandı.

– Ona həmişə meyliniz var.

Kinast heç nə hiss etməsin deyə Diderix Bukla bir dövrə də vurası oldu.

– Bilirsinizmi, – gözlənilmədən Buk dilləndi, – nişanlım... elə o da mənim tale məsələlərimə aiddir. – Diderix “necə bəyəm” sualını verib soruşduqda: – Əgər mən, doğrudan da, Netsiqdə vəkil olsam, onda Quste Daymxen büsbütün öz yerini tutmuş olacaq, – dedi. – Amma burasını haradan biləsən? Varlığıma müdaxilə edəcək digər hallarda Berlində mənim iklnci bir adamım var.

– Eşitmişəm, aktrisa. – Diderix bunu həyasızcasına etiraf edən Bukun yerinə qızardı. – Sadəcə... doğrusu... – kəkələdi, – onu demək istəmirdim.

– Deməli, bilirsiniz, – Buk dedi. – İndi məsələ belədir ki, mən hələlik orada ilişib qalım və Qusteni o qədər də özümə öyrətməyim. Belədə siz o gözəl qızı özünüzə götürmək istəməzdinizmi? – arxayın və xeyirxah soruşdu.

– Deyirsiniz ki, mən...

– Necə deyərlər, içərisinə qolbas və kələm atıb odun üstünə qoyduğum qazanı gərək bir balaca qarışdırasınız... Mən özüm çöldə-bayırda bir az məşğul olana qədər. Bizim axı bir-birimizə hörmətimiz var.

– Minnətdaram, – Diderix sərin dilləndi. – Məndə olan hörmət o qədərə bəs eləməz. Yaxşısı budur, tapşırığı başqasına verin. Həyat barədə mənim fikrim xeyli ciddidir.

Bu sözlərdən sonra o, Buku tək qoyub getdi. Bu insanın əxlaqsızlığından başqa onu həm də Bukun hərcayliyi haldan çıxartdı və bu məhz o andan etibarən baş verdi ki, Diderix özü ilə Bukun həm əqidə, həm də həyat tərzi etibarilə rəqib olduqlarına əminlik hasil etdi. Bu cür adamlar necə də dözülməzdir, onlardan qəti baş açmaq olmur! "Görəsən, sabah mənə qarşı nə hazırlayıb?" Evə çatanda soluğu genişləndi. "İnsan deyil ki, meduzadır! Hələ bu özünəvurğunluq! Hər şeyi yeyib-gövşəyən əqidəsizlikdən Allah bizim yurdu qorusun; əqidəsizlik ailədə məhvin parlaq nişanəsidir!"

Xəbər tutdu ki, Kinast axşamüstü yola düşür.

– Maqdanın məktublarından həyəcanlı xəbər gözləmə, – Diderix qəfildən deyib güldü. – İstəyir şəhərdə qətl və yanğın tüğyan etsin, mən iş yerimdən və ailəmdən bir addım da kənara atan deyiləm.

Kinast təzəcə getmişdi ki, Diderix frau Heslinqin qarşısında dikəlib soruşdu:

– Hə? Məhkəmədən mənə gəlmiş çağırış vərəqi haradadır?

Anası etiraf edəsi oldu ki, həmin qorxunc məktubu gizlədib.

– O, sənin bayram əhvali-ruhiyyəni korlayardı, əziz balam.

Lakin Diderix oxşamaları və əzizləmələri yaxına buraxmaq istəmədi.

– Əziz balam, yox bir! Mənə olan sevgindən yemək günü-gündən pisləşir, təkcə yad adam gələndə yaxşı olur;

ailənin xərcləri də sizin cır-cındırınıza verilir. Elə bilirsiniz fırıldağınıza inanacağam ki, Maqda koftasını özü tikib? Bunu o eşşəyə deyə bilərsiniz! – Nişanlısının təhqir edilməsinə Maqda öz etirazını bildirdi, amma bunun xeyri olmadı. – Yaxşısı budur, sən sus. Sənin dəri pencəyinin də yarısı oğurluqdur. Siz hamınız qulluqçu qızla bir yolun yolçususunuz. Mən onu qırmızı çaxır dalınca göndərəndə ən ucuzunu alıb gətirir, qalanını da özünə saxlayır...

Qadınların üçü də dəhşətə gəldi, Diderix isə daha bərkdən qışqırdı. Emmi bildirdi ki, qardaşı ona görə belə dəlilik edir ki, sabah bütün şəhərdə rüsvay olacaq. Diderixin gücü boşqablardan birini döşəməyə çırpmağa yetdi. Maqda ayağa durub qapıya doğru getdi və arxaya qanrılıb ucadan dedi:

– Allaha şükür ki, daha mənim sənə ehtiyacım yoxdur!

Diderix həmin an ona tərəf cumdu.

– Danışığına fikir ver! Birtəhər ərə gedə bilirsən də, bunun üçün yalnız mənə və verdiyim qurbanlara borclusan. Nişanlın sənin cehizinin üstündə əməlli-başlı alver etdi, bu da ki rüsvayçılıqdan başqa bir şey deyil. Sən, sadəcə, cehizə əlavəsən!

Bu yerdə qulağının dibinə möhkəm bir şillə dəydi və o, özünə gələnə qədər Maqda otağına çəkilib qapını arxadan bağladı. Diderix qəfildən sakitləşərək yanağını ovuşdurdu. Sonra bir az da əsib-coşdu; lakin onu, bir növ, məmnunluq çulğadı. Böhran aradan qalxmışdı.

***

Gecə qəti qərara gəldi ki, məhkəməyə geciksin və öz gəlişi ilə göstərsin ki, bu işin ona o qədər də dəxli yoxdur. Lakin buna dözümü çatmadı; ona göstərilən məhkəmə zalına girəndə orada tamam ayrı bir prosesi araşdırırdılar. Əynindəki qara cübbədə həddən artıq qorxunc görkəm almış Yadaszon hansısa yeniyetməyə əmək evində qalmaqla iki il həbs cəzası tələb edirdi. Əlbəttə, məhkəmə ona cəmi bir il həbs kəsdi və bu gənc məhbus elə fəryad qopartdı ki, qorxu üstündə köklənmiş Diderixin halı xarab oldu. O, bayıra çıxıb özünü qapısında "Yalnız cənab sədr üçün!" sözləri yazılmış ayaqyoluna saldı. Onun arxasınca Yadaszon içəri girdi. Diderixi görən kimi geri dönmək istədi, amma Diderix soruşdu ki, əmək evi nə olan şeydir və məhbusun orada nə işi var. Yadaszon:

– Belə şeylərin də qeydinə qalsaydıq! – deyib bayıra çıxdı.

Bu yerdə əlində hakimiyyət olan Yadaszonla, Yadaszonun və onun hakimiyyət maşınının ağzına atılmış özü arasında yaranan qorxunc uçurum duyğusunun altında Diderix daxilən daha da büzüşdü. Hər şey saleh bir niyyətdən, dövlətə həddən artıq ehtiramdan olmuşdu: bənd-bərəni aşmışdı, indi isə gərək özünü ağıllı aparaydı ki, onun yaxasından yapışaraq əzib külə döndərməsinlər; büzüşüb özünü balaca göstərmək istədi, bəlkə, əllərindən pırtıb çıxa bildi. Kaş yenə öz şəxsi həyatına dönə biləydi. Özünə söz verdi ki, bundan sonra özünün xırda, lakin ağıllı maraqları naminə yaşayacaq.

Camaat bayırda, dəhlizdə dayanmışdı: miyanələr və seçmələr. Bukun beş qızı bəzənib-düzənmişdi, sanki, yeznələri Lauerin məhkəməsi ailə üçün ən böyük şərəf imiş, Ketxen Tsillix, onun anası və bələdiyyə başçısı Şeffelvaysın arvadı ilə kiçik bir dəstə halında çənə döyürdülər. Qayınanası isə, əksinə, bələdiyyə başçısının yaxasından əl çəkmirdi və cənab Bukun qardaşına, eləcə də onun dostları Kon və Hoytoyfelə yönəltdiyi baxışlardan görmək olurdu ki, onu Buka qarşı hazırlayır. Hərbi libasda olan mayor Kuntse qaşqabağını sallayıb dayanmışdı və özünü danışmaqdan güclə saxlayırdı. Elə bu vaxt professor Künxenlə birlikdə keşiş Tsillix də özünü yetirdi; ancaq bu qədər adamı görən kimi onlar sütunlardan birinin arxasında ayaq saxladılar. Heç kəsin diqqətini çəkib maraq oyatmayan redaktor Notqroşen bir dəstədən o birisinin yanına gedirdi. Diderix qoşula bilmək üçün əbəs yerə kimi isə axtardı. İndi peşman olmuşdu ki, özününkülərin bura gəlməsinə icazə verməmişdi. Dəhlizin döngəsindəki qaranlıqda dayanıb durmuşdu və yalnız ehtiyatla başını irəli uzadırdı. Qəfildən onu geri çəkdi: Quste Daymxen anası ilə birlikdə! Bukun qızları onu öz tərəflərinin qiymətli gücü kimi dövrəyə aldılar. Elə bu vaxt arxa qapı açıldı və Volfqanq Buk əynində cübbə, başında beret, üstəlik də, lak ayaqqabılarda addımlarını içəriyə doğru ata-ata dəhlizə daxil oldu. Rəsmi qəbul mərasimində olduğu kimi bayramsayağı gülümsəyib hamıya əl verdi, nişanlısının əlini isə öpdü. Sanki camaata deyirdi ki, hər şey yaxşı olacaq; prokuror da, elə onun özü də bu gün yəhər üstə idilər. Sonra o, özünün buraya dəvət etdiyi şahidlərin yanına gedib

onlarla pıçıldaşdı. Bu an hamı səsini kəsdi, çünki pilləkənin ağzında müttəhim cənab Lauerlə arvadı göründü. Bələdiyyə başçısının həyat yoldaşı Lauerin arvadının boynuna sarıldı: siz necə də cəsursunuz!

– Nə olub ki? – Lauerin arvadı ürəkdən gələn cingiltili səslə dilləndi. – Bizə irad tutmalı bir şey yoxdur, elə deyilmi, Karl?

Lauer cavab verdi:

– Əlbəttə, Yudit.

Elə bu vaxt məhkəmənin üzvü Fritçe onların yanından keçib-getdi. Ortaya sükut çökdü; onunla qoca Bukun qızları salamlaşanda hamı bir-birinə göz vurdu və bələdiyyə başçısının qayınanası nəsə dedi, onun nəsə deməyini gözlərindən oxumaq olardı.

Gizləndiyi yerdən Diderixi Volfqanq Buk tapıb çıxartdı. Onun qoluna girib bacısının yanına gətirdi.

– Əziz Yudit, bilmirəm bizim dəyərli düşmənimiz cənab doktor Heslinqi tanıyırsanmı? Bu gün o, bizi məhv edəcək.

Ancaq frau Lauer gülmədi, Diderixin salamını da cavabsız qoydu, yalnız barışmaz bir maraqla onu süzdü. Bu tutqun baxışa duruş gətirmək çətin idi, ən çətini də o idi ki, qadın çox gözəl idi. Diderix qanının üzünə vurduğunu hiss elədi, gözləri oynayırdı; dili topuq çala-çala dedi:

– Görünür, cənab vəkil zarafat edir. İşdə bir yanlışlıq olmalıdır...

Onun ağ sifətindəki qaşları çatıldı, cəhəngləri açıq-aşkar aşağı sallandı və Yudit arxasını Diderixə çevirdi.

Hakimin köməkçisi göründü; Volfqanq Buk yeznəsi ilə yanaşı məhkəmə zalına getdi; qapı yetərincə açılmadığına görə tələsikdə adamlar bir-birini itələyib içəriyə dürtüldülər. Seçmələr miyanələrə güc gəldi. Bu "döyüşdə" Bukun beş bacısının alt tumanı möhkəmcə xışıldadı. Diderix içəriyə axırıncı keçdi və şahidlər oturacağında mayor Kuntsenin yanına əyləşdi, o da tələsik xeyli qırağa sıçradı. Əyalət məhkəməsinin qoca tülək quzğuna oxşayan sədri Şpresius kürsüdən iclası açıq elan edib şahidləri çağırdı ki, andın ciddiliyini onların yadına salsın. Bu yerdə Diderix o saat bir vaxtlar din dərsində aldığı sifəti aldı. Məhkəmə müşaviri Harmiş sənədləri qaydasına salıb gözləri ilə camaatın içində qızını axtardı. Xəstəxananı tərk edib sədrin sol yanındakı yerini tutmuş məhkəmənin qoca üzvü Külemana daha çox

diqqət yetirirdilər. Görkəminin o qədər də yaxşı olmadığını deyirdilər, bələdiyyə başçısının qayınanası bilmək istəyirdi ki, kişi reyxstaq mandatından imtina edəcəkmi və öləndə o qədər pulu nə olacaq? Şahidlərin yanında oturmuş keşiş Tsillix belə bir güman yürütdü ki, qoca öz milyonlarını kilsə tikintisinə vəsiyyət edəcək; lakin professor Künxen sirayətedici pıçıltı ilə bunu şübhə altına aldı.

– O, ölümündən sonra da heç nə verməyəcək, həmişə fikirləşib ki, adam öz malının üstündə əsər, bacarsa, hətta başqalarınınkını da...

Sədr şahidləri iclas zalından çıxartdı. Burada şahid otağı olmadığı üçün onlar təzədən dəhlizdə toplaşdılar. Kişilərdən Hoytoyfel, Kon və gənc Buk pəncərələrdən birinin qabağına yığışdılar; mayorun acıqlı baxışından yaxa qurtarmayan Dideriх iztirab içində düşündü: "İndi müttəhimi dindirirlər, bircə onun nə dediyini bilsəydim. Onu mən sizin hamınızdan çox cəzasız sayardım!" Düşündüklərini keşiş Tsillixə əbəs yerə danışıb onu inandırmağa çalışdı: həmişə deyib ki, məsələni çox şişirdiblər. Tsillix pərtliklə üzünü yana çevirdi, Künxen də oradan uzaqlaşaraq sözləri dişinin arasından bayıra buraxdı:

– Hələ bir gözlə, gözəl oğlan, sənin də əl-qolunu çəpərləyərik.

Hamının lal nifrəti Diderixin üstünə yükləndi. Nəhayət, hakimin köməkçisi dəhlizə çıxdı:

– Cənab doktor Heslinq!

İçəridəkilərin yanından keçərkən alçalmamaq üçün Diderix özünü şax tutdu. Qıc olmuş adamlar kimi birbaşa düzünə baxdı; frau Lauer gözünü yenə də ondan çəkmirdi! Diderix fısıldayıb bir balaca səndələdi. Dımaqlarını gözdən keçirən oturacaq yoldaşının sol tərəfində hədəli bir duruşla Yadaszon dayanmışdı. Yadaszonun arxasındakı pəncərənin işığı onun şəlpə qulaqlarına düşürdü, bu yandan baxanda qulaq qan rənginə çalırdı və Yadaszonun sir-sifəti Diderixdən elə bir mütilik tələb edirdi ki, buna onun baxışları duruş gətirə bilmədi. Sağ tərəfdə, müttəhimin qarşısında, camaatın içinə doğru o, Volfqanq Bukun oturduğunu gördü, tam biganə, yumruqlarını piyli gərdanına dirəyərək; cübbəsinin yaxalığı dala düşmüşdü və elə ağıllı-kamallı görünüşü vardı ki, elə bil, bu işıqlı dünyanı təkcə o təmsil edirdi. Məhkəmənin sədri Şpresius andın sözlərini deyib Diderixə təkrarlatdı,

ona ikrahla baxıb bir-iki söz mızıldadı. Diderix itaətlə and içdi; sonra həmin axşam ratskellerdə baş verənləri danışası oldu. Sözünə belə başladı:

– Nəşəli bir məclisimiz vardı, orada süfrə arxasında cənablardan...

Sözün dalını gətirmədiylnə görə zalda gülüş qopdu. Şpresius başını qaldırıb quzğun dimdiyi ilə havanı yardı və hədələdi ki, zalı boşaltdıracaq.

– Elə bu qədər? – hirslə soruşdu.

Diderix xahiş etdi nəzərə alsınlar ki, işin və digər məsələlərin nəticəsində yaranan həyəcandan ötən müddət ərzində hadisələri olduğu kimi xatırlaya bilmir.

– Onda yaddaşınızı təzələmək üçün müstəntiqə verdiyiniz ifadəni oxumalı olacağam, – deyib sədr protokolu istədi. Bu protokoldan Diderix dəhşətli dərəcədə heyrətlənərək öyrəndi ki, o, müstəntiq Fritçeyə ifadə verib ki, müttəhim əlahəzrət qeysərin ünvanına əməlli-başlı həqarət söyləyib. Hakim soruşdu ki, buna sözün nədir?

– Yəqin ki, olub, – Diderix mızıldandı, – orada xeyli adam vardı. Amma bu həqarəti söyləyən məhz müttəhimmi olub...

Şpresius hakimlər masasına doğru əyildi.

– Fikirləşib yadınıza salın, siz and altdasınız. Digər şahidlər bildirəcəklər ki, məhz siz müttəhimin üstünə yerimisiniz və həmin söhbəti onunla siz aparmısınız.

– Mən olmuşam? – qıpqırmızı qızarmış Diderix soruşdu. Bütün zal qəhqəhə çəkdi; hətta Yadaszon da nifrətlə üzgözünü turşutdu. Şpresius camaatın üstünə qışqırmaq üçün ağzını açmaq istəyirdi ki, Volfqanq Buk ayağa qalxdı. Onun ətli sifəti aşkar səyrintidən ciddiləşdi və o, Diderixdən soruşdu:

– Həmin axşam, deyəsən, siz bərk içkili olmusunuz.

Həmin an prokurorla sədr onun üstünə düşdülər.

– Xahiş edirəm sual qəbul edilməsin! – Yadaszon cingiltili səslə dilləndi.

– Cənab vəkil, – Şpresius dedi, – sualı siz mənə yönəltməlisiniz; sonradan onu şahidə verib-verməmək mənim işimdir!

Lakin onların hər ikisi, Diderix bunu heyrət içində dərk etdi, özlərinə qətiyyətli bir rəqib tapmışdı. Buk yerindən tərpənmədi, cingiltili natiq səsi ilə sədrin müdafiənin hüquqlarını tapdalayan münasibətinə iradını bildirdi, tələb etdi

ki, məhkəmə qərar çıxarsın görək, məhkəmə prosesinin mövcud qaydalarına əsasən şahidə birbaşa sual vermək hüququ indi vəkilə verilirmi. Şpresius əbəs yerə dimdiyini salladı, dörd hakimlə arxadakı məşvərət otağına çəkilməkdən başqa ayrı əlacı qalmadı. Buk qalibanə şəkildə ətrafına boylandı. Əmisi qızları əllərini elə tərpətdilər ki, deyərdin, şapalaq çalırlar; bu arada atası da içəri girmişdi və görmək olurdu ki, qoca Buk oğluna necə razılıq işarəsi verir. Müttəhim də bir yandan, apoplektik sifətində acıqlı həyəcanla öz müdafiəçisinin əlini silkələdi. Hamının gözü qarşısında dayanan Diderix özünü şax tutub yan-yörəsinə baxındı. Lakin heyhat! Quste Daymxen üzünü ondan çevirdi! Yalnız qoca Buk xeyirxahlıq göstərib əli ilə ona işarə etdi: Diderixin ifadəsi xoşuna gəlmişdi. Hətta dar tribunadan çıxıb yumşaq ağ əlini Diderixə verməyə çalışdı.

– Minnətdaram sizə, əziz dost, – dedi. – Məsələyə necə lazımdır elə də yanaşdınız.

Təklənmiş Diderixin gözləri bu böyük insanın yaxşılığı müqabilində yaşla doldu. Yalnız cənab Buk təzədən öz yerinə getdikdən sonra Diderixin ağlına gəldi ki, burada o, Bukun dəyirmanına su tökür! Onun oğlu Volfqanq da Diderixin düşündüyü kimi heç də məğmun deyilmiş. Siyasi söhbətləri, görünür, ona görə edirmiş ki, onlardan burada Diderixin əleyhinə istifadə etsin. Sadiqlik, əsl alman sadiqliyi yer üzündə yoxmuş, heç kimə bel bağlamaq olmazmış. “Burada mənə gözlərini çoxmu döyüb baxacaqlar?”

Xoşbəxtlikdən, hakimlər geri qayıtdılar. Qoca Küleman qoca Buka təəssüfdolu bir baxış atdı və Şpresius aşkar bir təmkinliklə qərarı oxudu. Vəkilin birbaşa sualvermə hüququ həll edilməmiş qalmışdı, çünki “şahid o vaxt sərxoş olubmu” sualının özü məsələyə dəxli olmayan bir şey sayılaraq rədd edilmişdi. Bundan sonra sədr soruşdu ki, cənab prokuror şahidə sual vermək istəyirmi.

– Hələlik yox, – Yadaszon ikrahla dilləndi, – amma xahiş edirəm, şahidi hələ buraxmayasınız. – Diderix otura bilərdi. Yadaszon səsini qaldırdı. – Bundan əlavə, müstəntiq doktor Fritçenin dərhal məhkəməyə çağırılmasını tələb edirəm, gəlib izahat versin görək, şahid Heslinqin müttəhimə qarşı əvvəllər fikri necə olub.

Diderixin canına vəlvələ düşdü, tamaşaçılar oturan yerdə isə hamı üzünü Yudit Lauerə tutdu; hətta hakimlər

masasındakı hər iki asessor da o tərəfə boylandı. Yadaszon istədiyinə nail olmuşdu.

Sonra keşiş Tsillixi qabağa çağırıb and içdirdilər, o da öz tərəfindən həmin böhranlı gecə barədə məlumat verdi. Dedi ki, təəssüratlar o vaxt onu həddən artıq çulğalayıb və onun xristian vicdanını bərk incidib, çünki məhz həmin axşam Netsiqin küçələrində qan axıb, lap vətənpərvər məqsəd daşısa da.

– Məsələnin bura dəxli yoxdur! – Şpresius qətiyyətlə bildirdi və elə həmin an yerli hökumət başçısı cənab fon Vulkau ovçu libasında iri, çamırlı çəkmələrdə zala daxil oldu. Hamı ona tərəf boylandı, sədr oturduğu yerdə təzim etdi və keşiş Tsillixi əsməcə tutdu. Sədrlə prokuror onun üstünə düşdülər, hətta Yadaszon qorxunc bir ikrahla dedi:

– Cənab keşiş, bir ruhani kimi içdiyimiz andın müqəddəsliyini diqqətinizə çatdırmağa ehtiyac duymuram.

Bu, Tsillixə bəs elədi və o, etiraf etdi ki, müttəhimə suç kimi nəzərdə tutulan ifadəni hər halda, eşidib. Müttəhim ayağa sıçrayıb yumruğunu oturacağa çırpdı.

– Qeysərin adını heç vaxt tutmamışam! Mən özümü müdafiə etmişəm!

Vəkili əllə işarə edib onu sakitləşdirdi və dedi:

– Sübuta yetirəcəyik ki, şahid doktor Heslinqin provokasiya niyyəti müttəhimi burada yanlış şərh olunan ifadəyə təhrik edib. – Hələliksə cənab sədrdən xahiş edir, şahid Tsillixdən soruşsun ki, o, şahid Heslinqin təhrikiərinin birbaşa əleyhinə yönəlmiş moizə edibmi. Keşiş Tsillix dili dolaşa-dolaşa dedi ki, o, ümumilikdə insanları barışa dəvət edib, bununla da din nümayəndəsi kimi öz borcunu yerinə yetirib. Buk indi də başqa şeyi öyrənmək istədi.

– Şahid Tsillixdə bu yaxınlarda baş ittihamçı şahid doktor Heslinqlə münasibətiəri yaxşılaşdırmaq marağı olmayıbmı, çünki onun qızı...

Yadaszon tələsik müdaxilə etdi: sualın bu cür qoyuluşuna qarşı çıxdı. Şpresius sualı yersiz saydı və camaat üçün qoyulmuş oturacaqlarda qadınların narazı donqultuları başladı. Yerli hökumət başçısı qoca Bukun oturacağına əyilib aydın bir səslə dedi:

– Oğlunuz əməllicə-başlıca məzələnir.

Bu arada şahid Künxeni ifadə verməyə çağırdılar. Boydan balaca qoca özünü zala saldı, eynəkləri işıldadı; elə

qapının ağzında özü haqqında məlumatları və andın sözlərini deyə-deyə irəli gəldi. Lakin ondan düz-əməlli ifadə almaq mümkün olmadı. Təkcə bir şeydən başqa: həmin axşam milli coşqunluq dalğası lap yüksəklərə qalxmışdı. Əvvəlcə keşikçinin adama şərəf gətirən qəhrəmanlığı! Sonra əlahəzrətlərin pozitiv xristianlığa tapınması barədə yazısı!

– Müttəhimin dava-qalmaqalı necə oldu? Hə, möhtərəm hakimlər, bax bundan xəbərim yoxdur. Onda mən bir balaca mürgüləmişdim.

– Amma sonra bu barədə danışmışdılar! – sədr israrla bildirdi.

– Mən yox! – Künxen səsini qaldırdı. – Onda mən yetmişinci ildəki möhtəşəm qələbələrimizdən danışırdım. Deyirdim ki, partizanlar xalis quldur dəstəsidir. Bu qurumuş barmağımı onlardan biri dişləyib. Çünki mən qılıncımla bir balaca onun boğazını kəsmək istəyirdim. Gədənin əclaflığını görürsünüzmü?!

Künxen barmağını masanın arxasındakı hakimlərə bir-bir göstərmək istədi.

– Arxaya! – Şpresius qışqırdı; zalı boşaltdıracağı ilə yenidən hədələdi.

Mayor Kuntse irəli çıxdı; dimdik dayandı, sanki, dayaqlar üstündə durmuşdu; andı elə bir tonda söylədi ki, elə bil, Şpresiusun başına təhqir yağdırırdı. Bundan sonra qısaca bildirdi ki, bu cür cəfəng şeylərlə heç bir əlaqəsi yoxdur; ratskellerə xeyli gec gəlib.

– Yalnız onu deyə bilərəm ki, cənab doktor Heslinqin hərəkətindən satqınlıq qoxusu gəlir.

Amma xeyli vaxtdır zalda ayrı şeyin qoxusu gəlirdi. Onun haradan gəldiyini heç kəs bilmirdi, hakimlər kürsüsündə hamı bir-birindən şübhələnirdi və cib dəsmalını burunlarına tutaraq hərə öz qonşusundan üz döndərmişdi. Sədr havanı imsilədi və çənəsi çoxdandır sinəsinə düşmüş qoca Küleman yuxuda tərpəndi.

Şpresius mayor Kuntseyə irad tutduqda ki o vaxt hadisəni ona danışan cənablar milli düşüncəli insanlar olublar, mayor təkcə onu bildirdi ki, bunun ona dəxli yoxdur, cənab doktor Heslinqi heç düz-əməlli tanımırmış da. Amma bu vaxt Yadaszon özünü irəli verdi; qulaqları işıldadı; itilənən bıçaq səsi çıxardıb dedi:

– Cənab şahid, sizə sualım budur ki, bəlkə, müttəhimi də o qədər yaxşı tanımırsınız. Yəqin, deyə bilərsiniz ki, səkkiz gün əvvəl o, sizə yüz mark verib.

Qorxudan zala sükut çökdü və hamı gözünü hərbi libasda olan mayora zillədi. O yerindən qımıldanmayıb dili dolaşa-dolaşa cavab verirdi. Yadaszonun çevikliyi öz təsirini göstərdi.Ləngimədən uğurunu işə yaratdı və Kuntsedən öyrəndi ki, milli düşüncəyə malik insanlann, eləcə də özünün Lauerin dediklərinə hirslənmələri gerçəkdir. Şübhəsiz ki, Lauer əlahəzrəti nəzərdə tuturmuş. Bu yerdə Volfqanq Buk özünü saxlaya bilmədi:

– Cənab sədr cənab prokurorun öz şahidlərini təhqir etməsini onun nəzərinə çatdırmağa lüzum duymursa, bunun bizə o qədər də isti-soyuğu yoxdur!

Şpresius həmin an onu dimdiklədi:

– Cənab vəkil! Nəyi irad tutub-tutmamaq mənim işimdir!

– Elə mən də bunu deyirdim, – Buk özünü itirmədən sözünə davam etdi. – Məsələyə dair həmişəki kimi bir daha bildiririk və bunu şahidlərlə sübut edəcəyik ki, müttəhim heç də qeysəri nəzərdə tutmayıb.

– Mən özümü müdafiə etmişəm! – müttəhim yerindən qışqırdı. Buk sözünə davam etdi:

– Amma yenə də, həqiqətin ziddinə də olsa, bunun tərsi qəbul edilərsə, təklif edirəm ki, “Qot almanaxı”nın naşirini ekspert sifəti ilə bu işə cəlb edəsiniz, qoy bildirsin ki, alman fürstlərindən hansının damannda yəhudi qanı axır.

Bunu deyib təzədən yerində oturdu, sensasiyanın zalda dolaşan sərməstliyindən məmnun qalaraq. Gurultulu yoğun bir səs eşidildi:

– Görünməmiş işdir!

Şpresius yenə dimdiyini işə salmaq istədi, lakin onun kim olduğunu vaxtında gördü: Vulkau! Hətta Küleman da bu səsə yuxudan ayıldı. Hakimlərin başlan bir-birinə yaxınlaşdı. Sonra sədr bildirdi ki, vəkilin təklifi rədd edilir, çünki ortada gerçəklik sübutu yoxdur. Cinayət tərkibi üçün hörmətsizliyin ifadəsi də yetərlidir. Buk məğlub olmuşdu; onun piyli yanaqlan məyus uşaqların yanaqları kimi aşağı sallandı. Kimsə hihildədi, bələdiyyə başçısının qayınanası utanıb-çəkinmədən güldü. Şahidlər oturacağında əyləşmiş Diderix ürəyində ona minnətdarlığını bildirdi. Qorxa-qorxa din-

şəyərək o, ictimai fikrin necə dəyişib asta-asta ona doğru dönməsini hiss etdi, bu dönüş daha çevik olanlara, iqtidar sahiblərinə aid idi. O, Yadaszonla baxışdı.

Növbə redaktor Notqroşenə çatdı. Nəzərə çarpmadan birdən-birə peyda olub nitq məmuru kimi işə başladı. Onu tanıyanların hamısını heyrət bürüdü, çünki kişini heç vaxt bu cür inamlı görməmişdilər. Sən demə, hər şeyi bilirmiş, müttəhimin üstünə yıxmadığı şey qalmadı, nitqi axıcı və rəvan idi, sanki, baş məqaləni oxuyurdu; yalnız nadir hallarda sədr abzaslar arasında əsas kəlməni onun ağzına atırdi, nümunəvi şagird kimi ürəkləndirərək. Dincini almış Buk "Netziger Zeitung"un Lauerə mövqeyini nəzərə çatdırdı. Redaktor cavabında dedi:

– Biz liberaıq, deməli, tərəfsiz qəzetik. İctimai fikri əks etdirirlk. İndi burada ictimai fikir müttəhimin xeyrinə olmadığına görə ...

Bu məlumatı, deyəsən, ona zaldan qıraqda, dəhlizdə çatdırmışdılar. Buk özünün kinayəli səsi ilə söhbətə qarışdı:

– Məhkəmədən xahiş edirəm nəzərə alsın ki, şahid içdiyi anda tamam ayrı münasibət bəsləyir.

Elə şeylə Notqroşeni səksəndirmək olmaz.

– Mən jurnalistəm, – dedi və sonra bunları əlavə etdi: – Cənab sədrdən xahiş edirəm, məni vəkilin təhqirlərindən qorusun.

Şpresiusa heç xahiş də gərək olmadı; redaktoru ədəb-ərkanla yola saldı.

Saat on ikini vurdu; Jadaszon sədrin nəzərinə çatdırdı ki, müstəntiq doktor Fritçe məhkəmənin sərəncamındadır. Fritçeni içəri çağırdılar və o, qapıda görünər-görünməz bütün gözlər onunla Yudit Lauer arasında gəzişdi. Yudit Lauerin sifəti daha da solğunlaşdı, kişini hakimin yanına ötürən qara gözləri bir az da böyüdü, elə bil, müstəntiqi laldinməz ovsunladı; lakin Fritçe onun baxışından yayındı. O da görkəmindən yaxşı təsir bağışlamırdı, ancaq yerişi qətiyyətindən xəbər verirdi. Diderix özlüyündə qət etdi ki, müstəntiq özünün ikili sifətindən bu işdə qurusunu seçmişdir.

"İlkin istintaq zamanı şahid Heslinq ona hansı təsiri bağışlayıb" sualına Fritçe cavab verdi ki, şahid öz ifadəsini hadisələrin isti təəssüratları altında tam könüllü və müstəqil verib və sonradan topladığı məlumatlara əsasən, şahidin

etibarlılığına heç bir şübhə ola bilməz. Hadisələri onun bu gün tam aydınlığı ilə xatırlamaması hazırkı anın həyəcanı ilə izah oluna bilər... Bəs müttəhim? Bu sualdan sonra hamı ona qulaq kəsildi. Fritçe udqundu, sonra da bildirdi ki, xeyli ağırlaşdırıcı anların olmasına baxmayaraq, şəxsən müttəhim də pis təsir bağışlamayıb.

– Dayanın! Şahidlərin ifadələri ziddiyyətlidir, buna baxmayaraq müttəhim irəli sürülən ittihama qadirdirmi? – Şpresius soruşdu.

Fritçe cavab verdi:

– Müttəhim savadlı adamdır; birbaşa təhqiredici söz işlətməkdən, yəqin ki, özünü saxlayardı.

– Bunu müttəhimin özü deyir, – sədr ciddiliklə bildirdi.

Fritçe yeyin-yeyin danışdı: özünün vətəndaş sayıqlığı nəticəsində müttəhim avtoriteti mütərəqqi meyillərlə birləşdirməyə adətkərdir. Görünür, o, çoxlarına nisbətən tənqidə daha ədalətli münasibət bəsləyir. Bir sözlə, düşünmək olar ki, o, özünün həyəcanlı durumunda, fəhlənin keşikçi tərəfindən güllələnməsi ilə, doğrudan da, özünü həyəcanlı hiss edirmiş, siyasi baxışlarını ifadə etməklə nitqinə, zahirən qüsursuz olsa da, təhqiredici niyyət qatıb.

Bu yerdə sədrlə prokuror dərindən nəfəs aldılar. Hakimlərdən Hamiş və Küleman canlanmış camaata nəzər saldılar. Soldakı asessor yenə də dırnaqlarını gözdən keçirdi; sağdakı qayğılı sir-sifətə malik o cavan oğlan isə qarşısındakı müttəhimdən gözünü çəkmədi. Müttəhimin əlləri əsərək oturacağın məhəccərindən yapışmışdı. Bərəlib irəli çıxmış qonur gözləri isə arvadına dikilmişdi. Arvadı da yad-yad Fritçeyə baxırdı, ağzını açmışdı, sanki, heç burada deyildi, həmin baxışda iztirab, həya və zəiflik ifadəsi vardı. Bələdiyyə başçısının qayınanası düşündüklərini gizlətmədi:

– Özü də iki uşaq anasıdır.

Lauer, deyəsən, qəfildən ətrafındakı pıçıltıları, onun gözləri ilə rastlaşan kimi yana çevrilən baxışları sezməyə başladı. Büzüşdü, qıpqırmızı qızarmış sifətindən birdən-birə qan yoxa çıxdı, gənc asessor qorxub kətilində qurcuxdu. Getdikcə əhvalı durulan Diderix, bəlkə də, yeganə adam idi ki, sədrlə müttəhim arasında gedən söhbətə hələ də qulaq asırdı. Ax, bu Fritçe! Heç kimə, hətta Diderixin özünə də bu iş, əsassız motivlərinə baxmayaraq, əvvəllər cansıxıcı olmamışdı. Şahid kimi Diderixə o, tutduğu vəzifənin əksinə

olaraq, müəyyən təsir etməmişdimi? Diderixin ifadəsinin protokollaşmış nəticəsi və Fritçenin öz ifadəsi müttəhimi məhv etməmişdimi?! O heç də Yadaszondan az qəddarlıq göstərməmişdi. Onun Lauer ailəsinə sıx və xüsusi münasibətləri heç də öhdəsinə düşən vəzifədən, dövlətin keşikçisi olmaq vəzifəsindən öndə gedə bilməzdi, fərdi duyğular dövlət qarşısında duruş gətirə bilməz. Diderix üçün əsl dərs... Volfqanq Buk da bunu özünə uyğun qəbul etdi. O, Fritçeyə altdan-yuxarı elə üz ifadəsi ilə baxdı ki, sanki, qusmağı gəlmişdi. Müstəntiq heç bir niyyət güdmədən bədənini yırğalaya-yırğalaya çıxışa doğru addımlayanda zaldakılar daha bərkdən pıçıldaşdı. Bələdiyyə başçısının qayınanası dəstəkli gözlüyünü müttəhimin arvadına tuşlayıb dedi:

– Nə gözəl kompaniyadır!

Ona etiraz edən tapılmadı; Lauerləri taleyin ümidinə buraxdılar. Quste Daymxen dodağını dişlədi, Ketxen Tsillix Diderixə çəpəki bir nəzər saldı. Doktor Şeffelvays üzünü o tərəfə çevirib ailənin başçısı Buka təzim etdi, onun əlini sıxıb şirin-şirin dedi:

– Ümidvaram, əziz dost və himayədar, hər şey yaxşı olacaq.

Sədr hakimin köməkçisinə əmr etdi:

– Şahid Konu çağırın! – Növbə müdafiənin şahidlərinə çatdı! Sədr havanı imsilədi. – Buradan pis iy gəlir, – dedi. – Kneke, arxadakı pəncərələrin birini açın. – Gözlərini miyanə camaatın üstündə gəzdirdi, orada çox sıx oturmuşdular. Əksinə, ilk cərgələrdə xeyli seyrəklik vardı, ən seyrək yer isə əynində tərləmiş ovçu paltarı olan yerli hökumət başçısı Vulkaunun ətrafı idi... Açılmış pəncərədən içəriyə buz kimi hava doldu və bu, başqa şəhərlərdən gəlmiş və arxada topalaşıb oturmuş jurnalistlərin donqultusuna səbəb oldu. Ancaq Şpresiusun dimdiyini onlara uzatmağı bəs elədi, hamısı pencəklərinin yaxalığını qaldırıb büzüşdü.

Yadaszon şahidə qalibanə bir nəzər saldı. Şpresius ona xeyli danışmağa imkan yaratdı, sonra Yadaszon içini antladı; əlində bir qovluq tutmuşdu.

– Şahid Kon, – sözə başladı. – Siz adınıza olan univermağın 1889-cu ildən sahibisiniz, elə deyilmi? – Cavab verməyə imkan yaratmadan: – Boynunuza alırsınızmı ki, məhz həmin vaxt sizə mal verənlərdən biri, Leman deyilən kəs

sizin mağazanın binasında özünü güllələyib öldürmüşdür? – iblisanə bir məmnunluqla Konu süzdü, çünki sözlərinin təsiri əvəzsiz olmuşdu. Kon çapalayıb tıncıxmağa başladı.

– Köhnə iftiradır! – qıyya çəkdi. – Bunu heç də mənim ucbatımdan etməyib! Uğursuz ailə qurmuşdu! Həmin məsələ ilə bağlı adamlar canımı boğazıma yığmışdılar, indi də bu başladı!

Vəkil də etiraz etdi. Şpresius üzünü Kona çevirdi:

– Cənab prokuror sizin üçün “bu” deyil və “iftira” sözünə görə məhkəmə sizi əlli mark məbləğində cərimələyir.

Bununla Konun dindirilməsi başa çatdı. Sonra cənab Bukun qardaşı dindirildi. Yadaszon ondan birbaşa soruşdu:

– Şahid Buk, rəsmi sənədlərə əsasən, sizin azgəlirli bir işiniz var, nə ilə dolanırsınız?

Bu yerdə elə bir deyingənlik başladı ki, Şpresius tələsik işə qarışmalı oldu:

– Cənab prokuror, bunun, doğrudan da, məsələyə dəxli var?

Ancaq Yadaszon hər şeyə qadirdir.

– Cənab sədr, ittiham tərəfi maraqlıdır sübut etsin ki, şahid öz qohumlarından, xüsusilə də yeznəsindən, daha doğrusu, müttəhimdən iqtisadi asılılıqdadır. Şahidin ifadəsinin doğruluğunu bununla ölçmək olar.

Ucaboy, qəşəng geyinmiş cənab Buk başını aşağı salıb dayanmışdı.

– Yetər, – Yadaszon bildirdi; Şpresius da həmin şahidi buraxdı. Bukun qızlarının beşi də camaatın baxışı altında tufandakı quzu sürüsü kimi oturduqları yerdə büzüşüb bir-birinə sığınmışdı. Üst cərgələrdəki miyanə camaat düşmən-cəsinə güldü. Şpresius məmnunlaşıb camaatı sakitliyə dəvət etdi və şahid Hoytoyfeli çağırtdırdı.

Hoytoyfel and içmək üçün təzəcə əlini yuxarı qaldırmışdı ki, Yadaszon da dramatik jestlə öz əlini yuxarı qaldırdı.

– Şahid and içməmiş ona sual vermək istəyirəm ki, əlahəzrətin təhqirindəki cinayət tərkibi onun ifadəsində öz təsdiqini tapacaqmı?

Hoytoyfel cavab verdi:

– Mən heç nəyi etiraf etmirəm:

– Yadaszon bunun müqabilində şahidin ilkin istintaqda söylədiklərini onun nəzərinə çatdırdı. İddia irəli sürürəm,

məhkəmə qərar çıxartsın ki, bu şahidin and içməsinə lüzum yoxdur, çünki o, cinayətdə iştirak etməkdə suçludur, deyib səsini ucaltdı. Sonra daha kəskin: – Şahidin düşüncə tərzi, məncə, məhkəmə üzvlərinə artıq bəllidir. Şahid, əlahəzrət qeysərin haqlı olaraq adlandırdığı kimi, vətənsiz veyillər sırasına daxildir. Bundan başqa, o, azadfikirlilər üçün bazar mərasimləri adlandırdığı mütəmadi yığıncaqlarda ateizmin yayılmasına canfəşanlıqla çalışır ki, bununla da onun xristian monarxla müqayisədə tutduğu işlər ayrı cür səciyyələnə bilməz.

Ürəkdən dinə tapınma məqamında olduğu kimi, Yadaszonun qulaqları od-alov püskürürdü. Volfqanq Buk ayağa qalxdı, inamsız-inamsız gülümsədi və dedi ki, cənab prokurorun dini baxışı aşkarca monarx ciddiliyinə malikdir, ona etibar etmək olmaz ki, xristian olmayan şəxsi inamlı saysın. Güman ki, məhkəmə ayrı fikirdə olacaq və prokurorun iddiasını rədd edəcək. Bu vaxt Yadaszon dəhşət içində coşdu. Şəxsiyyətini lağa qoyduğu üçün müdafiəçini yüz markla cərimələməyi tələb etdi. Məhkəmə tam tərkibdə məşvərət otağına çəkildi. Həmin an zalda həyəcanlı bir fikir çaxnaşması baş qaldırdı. Hoytoyfel əllərini ciblərinə saldı, sonra uzun-uzadı baxmaqla məhkəmənin himayəsinə sığınan, panikaya düşdüyündən divara qısnanan Yadaszonu uzun-uzadı süzdü. Onun köməyinə Diderix gəldi, çünki o, cənab prokurora astadan vacib bir məlumat çatdırdı... Hakimlər geri qayıtdılar. Şahid Hoytoyfelin and içməsi hələlik təxirə salınmışdı. Cənab prokurora rişxəndə görə vəkil səksən markla cəzalandırılmışdı.

Vəkil Hoytoyfelin sonrakı dindirişinə müdaxilə edib şahiddən öyrənmək istədi ki, müttəhimin yaxın tanışı kimi o, Lauerin ailə həyatı haqqında nə fikirdədir. Hoytoyfel buna əl hərəkəti ilə cavab verdi, zal uğuldadı; hər şey anlaşılmışdı, amma Şpresius sual verməyə razı olacaqdımı? Sualı rədd etmək üçün ağzını təzəcə açmışdı, amma vaxtında anladı ki, sensasiyadan yaxa qurtarmaq olmaz. Bundan sonra Hoytoyfel Lauerin evindəki nümunəvi durumu mədh etməyə girişdi. Yadaszon şahidin sözlərini səbirsizlikdən əsə-əsə uddu. Axır ki, o, səsindəki adsız zəfərlə öz sualını verə bildi:

– Şahid demək istərdimi ki, onlarla münasibətdən, ailə həyatından şəxsən bilik əldə etdiyi həmin qadınlar hansı

yuvanın quşudurlar və o, xalq arasında "Balaca Berlin"[1] adlandırılan evdə gəzib-dolaşmırmı?

Hələ danışa-danışa əmin oldu ki, zalda oturan qadınların və onlarla bərabər hakimlərin də üz-gözlərinə bir pərtlik ifadəsi qondu. Müdafiənin əsas şahidi məhv edilmişdi! Hoytoyfel cavab verməyə cəhd etdi:

– Cənab prokuror bilməmiş olmaz. Orada bizi yaxşı qarşılayırlar.

Amma bu ona xidmət etdi ki, Şpresius həmin sözlərə görə şahidə əlli mark cərimə kəsdi.

– Şahid zalda qalsın, – axır ki, sədr öz hökmünü bildirdi. – Cinayət tərkibini növbəti dəfə araşdırmaq üçün məhkəməyə lazımdır.

Hoytoyfel öz fikrini bildirdi:

– Mən buradakı işlərdən yetərincə haliyəm və bu yuvanı tərk etməyə üstünlük verirəm.

Elə həmin an əlli mark dönüb yüz oldu.

Volfqanq Buk narahatlıqla ətrafına baxındı. Dodaqları, deyəsən, zaldakı əhvali-ruhiyyəni tamsımışdı, çünki büzüşmüşdü, sanki, həmin əhvali-ruhiyyə öz ifadəsini pəncərə bağlanandan sonra yenə buraya çökmüş həmin qəribə iydə tapmışdı. Buk gördü ki, başlanğıcda rastlaşdığı simpatiyalar sönüb parça-parça olmuş, onun mübarizə üsulları əbəs yerə tükənib getmişdir; və acından gərilmiş sifətlərin əsnəməsi, saatı gözdən qoymayan hakimlərin səbirsizliyi ona yaxşı heç nə demirdi. Sıçrayıb ayağa qalxdı; qurtarılmalı olanı qurtarmaq! Sonrakı şahidlərin çağırılmasını günortadan sonraya saxlatdırmaq üçün səsinə bir ciddilik qatdı:

– Bizim şahidlərin sözlərinin doğruluğuna şübhələnməyi cənab prokuror sistem halına saldığından müttəhimin camaat arasındakı ad-sanını Netsiqin öndə gedən adamlarının ifadələri ilə sübut etməyə hazırıq. Ən azı, cənab bələdiyyə başçısı doktor Şeffelvays müttəhimin vətən uğrunda xidmətlərini məhkəməyə bildirər. Yerli hökumət başçısı cənab Vulkau onun dövlətə və qeysərə qarşı səmimi düşüncələrini təsdiq edə bilər.

– Buna bax! – xeyli seyrəlmiş arxa cərgədə gurultulu bas səs yenidən dilləndi. Buk səsinə bir az da gərginlik qatdı.

---

[1] *Balaca Berlin* – xalq arasında "ictimai ev" anlayışının yerində işlənir.

– Müttəhimin sosial baxımdan etdiyi yaxşılıqları onun bütün fəhlələri təsdiq edə bilərlər.

Buk bərkdən tövşüyərək yerinə oturdu. Yadaszon xeyli soyuq dilləndi:

– Cənab vəkil ümumxalq səsverməsini tələb edir.

Hakimlər pıçıltı ilə məsləhətləşdilər; Şpresius bildirdi ki, məhkəmə yalnız vəkilin bələdiyyə başçısı doktor Şeffelvaysı dindirmə tələbini yerinə yetirir. Bələdiyyə başçısı zalda olduğuna görə həmin an dindirilməyə çağırıldı.

O, çətinliklə də olsa, oturduğu yerdən irəli çıxdı. Arvadı ilə qayınanası hərəsi bir tərəfdən bərk-bərk ondan yapışmışdı və bir-biri ilə ziddiyyət təşkil edən tələblər irəli sürürdülər, belə ki, bələdiyyə başçısı aşkar bir şaşqınlıqla hakimlərin masasına yetişdi. "İctimai fəaliyyətində müttəhim hansı düşüncə tərzinə malikdir" sualına doktor Şeffelvays müsbət fikir söylədi. Belə ki, şəhər özünüidarəçiliyinin komissiya iclaslarında müttəhim qədim və məşhur keşişlər evinin bərpası məsələsini qaldırmışdır ki, həmin evdə də doktor Martin Lüterin şeytanının quyruğundan qopardığı tük saxlanılırdı. Təbii ki, o həm də "Azad cəmiyyət" binasının tikintisini dəstəkləmiş, bununla da, inkar etmək olmaz ki, böyük narazılığa səbəb olmuşdur. İşgüzarlıq sahəsində müttəhim hamının hörmətini qazanmışdır; fabrikində həyata keçirdiyi sosial islahatlar dəfələrlə məftunluq oyatmışdır, təbii ki, digər tərəfdən buna etiraz edilsə belə, çünki fəhlələrin iddialarının hüdudu bilinmir və bu, bəlkə də, iğtişaş yaratmağa yönəlmiş ola bilərdi. Bu yerdə vəkil soruşdu:

– Cənab şahid müttəhimi üstünə atılan cinayətə qabil sayırmı?

– Bir tərəfdən, – Şeffelvays cavab verdi, – təbii ki, yox.

– Bəs digər tərəfdən? – prokuror soruşdu. Şahid cavab verdi:

– Digər tərəfdən, hə.

Bu cavabdan sonra bələdiyyə başçısı yerinə qayıtdı; onun hər iki qadını, həm bu, həm də o, kişini narazı qarşıladı; sədr fasilə elan etmək istəyirdi ki, Yadaszon içini arıtladı. Məsələ qaldırdı ki, ifadəsini tamamlamaq istəyən şahid doktor Heslinq dindirilsin. Şpresius dilxorçuluqla göz qapaqlarını qaldırıb-endirdi, yerindən qalxan camaat ucadan donquldandı; amma Diderix mətin addımlarla artıq qabağa çıxmış və aydın səslə danışmağa başlamışdı. Deyirdi ki, çox

götür-qoydan sonra bu nəticəyə gəlib ki, ilkin istintaqda verdiyi ifadə əvvəldən-axıra qədər doğrudur; həmin ifadəni təkrarladı, lakin bir az da kəskin, bir az da ətraflı. Sözünə fəhlənin güllələnməsi ilə başladı və cənab Lauerlə Hoytoyfelin tənqidlərini təkrarladı. Getməklərini unudan tamaşaçılar qan çilənmiş Qeysər-Vilhelm-Ştrasedən ratskellərə gedən yolda fikir savaşını izlədilər, düşmən cərgələrin həlledici döyüşə düzülüşünü, Diderixin xəyali qılıncı qotik çilçırağın altında oynatdığını, irəli atılıb müttəhimi ölüm-dirim savaşına çağırdığını gördülər.

– Elədir, möhtərəm cənab hakimlər, danmıram, onu meydana mən çəkmişəm! İstəmişəm elə bir söz desin ki, həmin sözdən tutub onun yaxasından yapışım! Həmin sözü dedi və möhtərəm cənab hakimlər, onun yaxasından yapışdım, bununla da öz vəzifə borcumu yerinə yetirdim, həmin borcu bu gün də yerinə yetirəcəyəm, bundan mənim ictimai və işgüzar münasibətlərim daha çox ziyan görsə belə, necə ki son zaman mən bunun altını çəkməli olmuşam! Fədakar idealizm, möhtərəm cənab hakimlər, hər bir almanın üstün cəhətidir, düşmənlərin sayının çoxluğundan hərdən cəsarəti çatmasa belə, o, bundan daim istifadə edəcək. Bir az əvvəl ifadəmdə tərəddüd edərkən bu, müstəntiqin mənə irad tutduğu kimi, yaddaşımın korlanması deyildi: etiraf edirəm, bəlkə də, mübarizənin ağırlığından anlaşıla bilən qaçış idi ki, həmin mübarizəni də mən qəbul etməli idim. Mən onu qəbul edirəm, çünki məhz əlahəzrətimiz uca qeysər onu məndən tələb edir...

Diderix rəvan danışırdı, cümlələrində adamın nəfəsini durduran bir pafos vardı. Yadaszon narahat olmağa başladı ki, şahid onun, daha doğrusu, prokurorun hazırladığı ittiham nitqini kölgədə qoyacaq; narahat-narahat sədr tərəfə boylandı. Şpresius isə Diderixi dayandırmaq fikrində deyildi. Özünün donuq, quzğun dimdiyi ilə və gözlərini qırpmadan Diderixin dəmirləşmiş sifətini gözdən qoymurdu. Hətta qoca Küleman da dodaqlarını sallayıb qulaq asırdı. Volfqanq Buk isə oturduğu kətildən qabağa əyilərək altdan-yuxarı Diderixi süzürdü, gərginlik içində, peşəkar gözü ilə, gözlərindəki yağı dəhşəti ilə. Bu, əsl demaqoq nitqi idi! Bomba təsiri bağışlayan bir çıxış!

– Qoy insanlarımız, – Diderix bağırdı, – illərlə uyuduğu mürgüdən, axır ki, ayılsın və araqarışdıran ünsürlərlə

mübarizəni təkcə dövlətin və onun hakimiyyət orqanlarının öhdəsinə buraxmasın, əksinə, mübarizəyə özü qoşulsun! Bu, əlahəzrətlərin əmridir və möhtərəm cənab hakimlər, bu yerdə mən tərəddüd edə bilərdimmi? Qiyam baş qaldırır, alman adını daşımağa layiq olmayan bir ovuc insan monarxın müqəddəs şəxsiyyətini toz-torpağa bulaşdırmağa cəsarət edir...

Miyanə camaatın içindən kimsə güldü. Şpresius toxmağını işə salıb gülən adamı cərimələyəcəyi ilə hədələdi. Yadaszon köksünü ötürdü. İndi şahidin sözünü kəsmək Şpresiusa heç cür müyəssər olmayacaqdı.

– Əfsuslar olsun ki, – Diderix davam etdi, – qeysərin döyüş şöhrəti Netsiqdə az əks-səda tapıb! Burada təhlükə qarşısında hamı gözlərini və qulağını yummuşdur. Meşşan demokratiyanın və humanizmin köhnə dünya baxışından kənara çıxa bilməmişlər ki, bunlar da ilahi dünya düzəninin düşmənlərinin yolunu hamarlamışdır. Sağlam milli düşüncə tərzini, əhatəli imperializmi burada hələ də dərk etməmişlər. Çağdaş düşüncəyə malik insanların vəzifəsi həm də Netsiqə, möhtəşəm cavan qeysərimizin düşündüyü kimi, yeni ruh gətirməkdir, zira qeysərimiz zadəgan, yaxud qeyri-azad olmasından asılı olmayaraq istənilən sadiq düşüncəli insanı özünün əzəmətli istəyinin yardımçısı etmək istəmişdir! Buna görə də, möhtərəm cənab hakimlər, müttəhim yenə hər şeyə irad tutmaq istəyəndə qətiyyətlə buna qarşı çıxmaqda haqlı olmuşam. Mən şəxsi ədavətdən deyil, ümumi işin xatirinə hərəkət etmişəm; işgüzar olmaq alman olmaq deməkdir! Mən də öz tərəfimdən, – alışıb-yanan gözlərini Lauerə yönəltdi, – tutduğum işdən peşman deyiləm, çünki o, insanın pak həyatının nəticəsidir ki, həmin nəticə də ailədə namuslu həyatı ön plana çəkir, nə yalan, nə də abırsızlıq tanıyır!

Zal hərəkətə gəlmişdi. Bildirdiyi nəcib duyğuların ağuşuna atılaraq bağışladığı təsirdən məst olan Diderix müttəhimə baxmaqda davam etdi. Lakin birdən-birə arxaya çəkildi: müttəhim əsə-əsə, səndələyə-səndələyə əyləşdiyi oturacağın məhəccərindən yapışıb irəliyə əyildi; qan dolmuş gözləri, az qala, hədəqəsindən çıxacaqdı, çənəsi yerindən oynayırdı, sanki onu vurğun vurmuşdu.

– Oy! – qorxudolu qadın səsləri eşidildi. Müttəhim də Diderixin ünvanına bir-iki qaba səs çıxara bildi; müdafiəçisi onun qolundan yapışıb nəsə dedi. Bu vaxt sədr bildirdi ki,

cənab prokuror öz ittiham nitqini saat dörddə başlayacaq, bundan sonra o, iclasçılarla bərabər zalı tərk etdi. Xeyli şaşqınlaşmış Diderix birdən-birə başını çevirdi, onu təbrik edən Künxenə, Tsillixə, Notqroşenə baxdı. Yad adamlar onun əlini sıxdılar: ittiham mütləq olacaq, Lauer şey-şüylərini qablaşdıra bilər. Mayor Kuntse uğur qazanmış Diderixə xatırlatdı ki, onların arasında heç vaxt fikir ayrılığı olmayıb. Qoca Buk dəhlizdə xeyli qadının dövrəyə aldığı Diderixin yanından keçib-getdi. O, qara əlcəklərini taxıb bu cavan oğlanın sifətinə baxdı: iradəsinin əksinə olaraq Diderixin etdiyi təzimə cavab qaytarmadan, sınayıcı və qəmli nəzərlərlə, özü də elə nəzərlərlə ki, Diderix qazandığı qələbədən ayılıb qəmli-qəmli onun arxasınca baxmalı oldu.

Birdən gördü ki, Bukun beş qızının beşi də ona kompliment yağdırmaqdan çəkinmir; paltarlarını yelləndirib xışıldadaraq soruşdular ki, belə gərgin bir prosesə bacılarını niyə gətirməyib? Diderix təmizlənib çölə buraxılmış beş səfeh qazı bir-birinin ardınca təpədən-dırnağa süzdü, tam ciddiliklə bildirdi: teatr tamaşasından da ciddi şeylər var. Qızlar heyrət içində onu qoyub getdilər, dəhliz boşaldı; axırda Quste Daymxen peyda oldu. Diderixə doğru yeridi. Amma Volfqanq Buk özünü ona çatdırıb gülümsədi, sanki heç nə olmayıbmış. Müttəhimlə arvadı da cavan Bukun yanında idi. Quste tələsik Diderixə bir baxış atdı və həmin baxış onun incə duyğularını oyatdı. Diderix sütunlardan birinin arxasında gizləndi. Ürəyi döyünə-döyünə məğlubların keçib-getməsinə imkan yaratdı.

Getmək istəyirdi ki, yerli hökumət başçısı cənab Vulkau iş otağından çıxıb ona doğru gəldi. Diderix şlyapasını əlində tutub yolun ortasında şax dayandı, lazımi anda dabanlarını bir-birinə vurdu, elədir ki var, Vulkau ayaq saxladı.

– Əhsən! – saqqalının arasından dedi və Diderixin kürəyinə döyəclədi. – Siz uduşu qazandınız. Dəyərli fikirləriniz var. Görüşüb söhbətləşərik.

Çamırlı çəkmələri ilə irəlilədi, tərli ovçu paltarında qarnını yırğaladı. Məhkəmə zalına çökmüş əzəmətli kişilik iyini buraxıb getdi.

Aşağıdakı çıxacaqda bələdiyyə başçısı arvadı və qayınanası ilə hələ də durub gözləyirdi, qadınlar hər iki tərəfdən ona hücum çəkir, o da üzünün rəngi qaçaraq onların tələblərini, ümidsiz də olsa, barışdırmağa çalışırdı.

***

Evdə artıq hər şeydən xəbərdar idilər. Üçü də balkonda məhkəmənin sonunu gözləyirdi. Meta Harmişi də danışdırıb baş verənlərdən xəbər tutmuşdular. Frau Heslinq səssiz göz yaşları ilə oğlunu qucaqladı. Bacıları çaşıb-qalmışdılar. Hələ dünən Diderixin məhkəmədəki rolunu tamam heçə endirmişdilər, halbuki həmin rol bu gün par-par parıldamışdı. Lakin bu gözəl qələbədə hər şeyi unudan Diderix yeməyə şərab gətirtdirib bildirdi ki, bugünkü gün onlara Netsiqdə bütün zamanlar üçün ictimai bir mövqe qazandırdı.

– Bukun beş qızının beşi də küçəyə çıxmağa ürək qızdırmayacaq. Siz onların salamını alsanız, özlərini dünyanın ən xoşbəxt adamları sayarlar.

Diderix onları inandırdı ki, Lauerin mühakimə edilməsi yalnız formal bir işdir. Buna, bununla da Diderixin qarşısıalınmaz yüksəlişinə hökm verilmişdir.

– Əlbəttə, – başını bakala doğru əydi, – vəzifə borcumu yerinə yetirməyimə baxmayaraq, işlər tərsinə də gedə bilərdi, onda da, mənim əzizlərim, etiraf edək ki, mənim axırıma çıxılardı, mənimlə birlikdə də Maqdanın toyunun! – Maqdanın rəngi qaçdığına görə Diderix onun qoluna toxundu. – İndi biz sudan quru çıxdıq. – Bakalını qaldırıb kişi əminliyi ilə: – Allahın köməkiiyi ilə necə bir dönüş!

Bacılarına göstəriş verdi ki, bəzənib-düzənsinlər və onunla getsinlər. Frau Heslinq xahiş etdi nəzərə alsın ki, o hər cür həyəcandan çəkinir. Bu dəfə Diderix tələsmədi, qızlar istədikləri vaxta geyinib-kecinə bilərdilər.

Onlar məhkəməyə gələndə hamı zalda idi, amma buradakılar həmin adamlar deyildi. Bukların hamısı, onlarla birlikdə də Quste Daymxen, Hoytoyfel, Kon, bütün mason lojası, azadfikirlilərin seçicilər bloku gəlməmişdi. Onlar məğlubiyyətlərini qəbul etmişdilər! Şəhərin bundan xəbəri vardı, axışıb gəlirdilər ki, onların məğlubiyyətini öz gözləri ilə görsünlər; miyanə camaat birinci sıralara can atırdı. Köhnə güruhdan burada olanlar, məsələn, Künxenlə Kuntse özlərinə zülm edirdilər ki, sifətlərinə qondardıqları yaxşı xoş fikirləri camaat oxusun. İnsanların arasında bir neçə şübhəli fiqur da oturmuşdu: yorğun, lakin ifadəli sir-sifətə malik cavan oğlanlar, yanaqlarını boyayıb allandırmış, hamıya gəl-gəl deyən bir neçə qız; hamısı da Volfqanq Bukla salam-

laşırdı. Şəhər teatrı! Buk onları özünün müdafiə nitqinə çağırmaqdan çəkinməmişdi!

Kimsə içəri girən kimi müttəhim tələsik üzünü o tərəfə çevirirdi. Arvadını gözləyirdi! “Elə bilir, gələcək!” – Diderix fikrindən keçirdi. Amma gəldi: sifəti səhərkinə nisbətən daha da solğun, yalvarışlı baxışla ərini salamladı; oturacaqlardan birinin qırağına əyləşdi və gözlərini birbaşa hakimlər masasına dikdi, lal-dinməz və qürurla, sanki, talenin gözünün içinə baxırdı... Məhkəmə tam tərkibdə zala daxil oldu. Sədr iclası açıq elan edib sözü prokurora verdi.

Yadaszon həmin an yüksək pafosla başladı; bir-iki cümlədən sonra səsini qaldırmağı bacarmadı və keyikmiş insan təsiri bağışladı; şəhər teatrının artistləri ikrahla bir-birinə gülümsədilər. Yadaszon bunu hiss etdi, qollarını qolazlamağa başladı, elə qolazladı ki, cübbəsi yelləndi; səsi boğuldu və qulaqları alışıb-yandı. Üz-gözlərinə boya yaxmış qızlar oturacaqlarının söykənəcəyinə yayxanıb şuxluqla gülüşdülər.

– Şpresius heç nə görmür? – bələdiyyə başçısının qayınanası soruşdu, amma bütün məhkəmə yuxuya getmişdi. Diderix ürəyində gülürdü; Yadaszondan intiqamını almışdı. Yadaszon təzə heç nə deyə bilmirdi, Diderix isə çoxdan uğur qazanmışdı! Qazanmışdı, bunu Vulkau bilirdi, elə Şpresius da bundan xəbərdar idi, ona görə də yatırdı, gözləri açıq. Yadaszon özü bunu hamıdan yaxşı hiss edirdi; səsinə nə qədər çox hay-küy qatılırdısa, bir o qədər özünə inamsızlıq yaranırdı. Nəhayət, müttəhimə iki il həbs cəzası istəyəndə zəhləsini tökdüyü adamların hamısı onu haqsız saydı: sonradan məlum olduğu kimi, hakimlər də. Qoca Küleman xorultu ilə diksinib dik atıldı. Şpresius cürətlənmək üçün gözlərini qırpdı, sonra da dedi:

– Söz cənab vəkilə verilir.

Volfqanq Buk ağır-ağır yerindən qalxdı. Onun əcaib dostları razılıq əlaməti olaraq mızıldandılar, bunu da Buk, Şpresiusun kəskin dimdiyinə baxmayaraq, sakitcə axıra qədər gözlədi. Sonra bildirdi ki, şahidlərin ifadəsi nəticəsində müttəhim üçün çox əlverişli bir mənzərə yaranmışdır, bunu elə yüngül tonla söylədi ki, sanki hamının axırına çıxmaq üçün ona vur-tut iki dəqiqə vaxt lazım olacaqmış.

– Cənab prokuror əsassız şəkildə iddia edir ki, müttəhimin əleyhinə verilən ifadələr hansısa dəyər kəsb edir,

halbuki həmin ifadələri şahidlər ona görə vermişlər ki, onların varlıqları təhlükə altında olub. Əksinə, dəyər ondan ibarətdir ki, şahidlər məhz gözəl bir yolla müttəhimin günahsızlığını təsdiq edirlər. Həqiqətsevər, tanınmış insanların çoxusu şantajla... – sözünü tamamlaya bilmədi. Sədr sakitləşdikdən sonra Buk arın-arxayın sözünə davam etdi.

– Təsəvvür edilsə ki, müttəhim ona irad tutulan sözləri doğrudan da deyib, onda cəza anlayışı yenə də yoxdur; çünki şahid doktor Heslinq açıq-aşkar boynuna aldı ki, o, müttəhimi bilə-bilə provokasiyaya çəkib. Bu yerdə sual olunur: niyyətində provokisaya olmuş şahid Heslinqin özü, əslində, cinayətin mənəvi törədicisi deyilmi, bir başqasından və onun həyəcanından şüurlu şəkildə istifadə edərək həmin hərəkəti həyata keçirməmişdirmi?

Vəkil cənab prokurora məsləhət gördü ki, şahid Heslinqlə ciddi məşğul olsun. Bu yerdə çoxları Diderixə üz tutdu və onu tər basdı, lakin sədrin üzündəki rədd cavabı onu yenidən cürətləndirdi.

Buk nitqinə həlimlik və istilik qatdı, yox, o, şahid Heslinqin bədbəxtliyini arzulamır. Onu yalnız yüksək dairələrin qurbanı kimi qəbul edir.

– Niyə indiki zamanədə əlahəzrəti təhqirə görə qalaq-qalaq şikayətlər yığılır? Deyə bilərlər ki, fəhlənin güllələnməsi kimi olayların nəticəsində. Mən isə buna yox deyirəm; əksinə, bu cür olayları müşayiət edən danışıqların sayəsində.

Şpresius başını irəli uzatdı, dimdiyini itilədi, ancaq hələlik onu geri çəkdi. Buk sözünün kəsilməsinə imkan vermədi. Nitqinə kişilik və güc qatdı.

– Bir tərəfdən hədələr və yüksək gərginlik yaradan iddialar, digər tərəfdən də qaçılmaz müqavimət. Əsas devizləri də: kim mənimlə deyil, mənə qarşıdır! Bu deviz də əlahəzrət qulları ilə əlahəzrət təhqirçiləri arasında aydın bir xətt çəkir.

Həmin an Şpresius Buku dimdiklədi.

– Cənab vəkil, qeysərin sözlərini tənqid etməyinizə dözə bilmərəm. Bu cür davam etsəniz, məhkəmə sizi cəzalandıracaq.

– Cənab sədrin sərəncamlarına tabe olmaq borcumuzdur, – Buk dedi və onun sözləri getdikcə daha da çevikləşdi. – Mən hökmdar barəsində yox, onun formalaşdırdığı təbəə

haqqında danışacağam; İkinci Vilhelmdən yox, şahid Heslinqdən. Siz onu gördünüz! Ətraf və şəraitdən asılı olan hadisələr onun üçün pis cərəyan edəndə qorxaq, elə ki onun xeyrinə döndü, yüksək özünüdərkə malik adi əqilli, orta səviyyəli bir insan.

Diderix yerində fısıldadı. Şpresius niyə onu müdafiə etmir? Bunu etmək onun borcu deyilmi?! Milli düşüncəyə malik bir insanı o, açıq iclasda nifrət obyektinə çevirtdirir, özü də gör kim tərəfindən?! Vəkil tərəfindən, peşəsi etibarilə dağıdıcı qüvvələrin nümayəndəsi tərəfindən! Yoxsa dövlətdə bir çürüməmi baş verir?! Buka baxanda Diderixin içi poqquldayırdı. Qarşısındakı düşmən idi, antipod idi; bircə şey qalırdı, əzib muma döndərmək! İnsanlıq hara, Bukun təhqirli, piyli profili hara! Diderixi səciyyələndirmək üçün işlətdiyi sözlərdə ikrahlı bir məhəbbət duyulurdu!

– Onun kimilər, – Buk dilləndi, – istənilən dövrdə minlərlədir, onlar öz işlərini görməklə yanaşı, həm də siyasi fikrə malik olurlar. Buna əlavə olaraq onu yeni bir tipə çevirən yeganə şey hərəkətidir: nitqindəki lovğalıq, psevdoşəxsiyyətin yalançı döyüş mübarizliyi, nəyin bahasına olur-olsun, bədəlini başqası ödəsə belə, həyatda bir rol oynamaq istəyi! Onların baxışınca, başqa cür düşünənlər millətin düşmənləri sayılmalıdır, lap onun üçdə ikisini təşkil etsələr də. Sinfi maraqlarmı? Ola bilər! Ancaq bu, yalançı romantikadır. Başqalarının boynundan basmaq üçün hakimiyyətindən təbəəsinə lazımi şeyi verməli olan ağanın qarşısında romantik bir üzgünlük! Həqiqətdə və qanunda nə ağa, nə də təbəə olmadığı üçün ictimai həyat murdar məzhəkəçiliyin simasını kəsb edir. Əqidə əyninə teatr kostyumu geyir, səlib yürüşçülərinə xas nitqlər söylənilir, həmin natiqlər tənəkə, yaxud kağız istehsalçıları olsalar belə; və əlahəzrət anlayışını qorumaq üçün taxta qılınc siyrilir, halbuki belə bir anlayışı nağıl kitablarından başqa həyatda heç kim ciddi qəbul etmir. Əlahəzrət... – sanki, həmin sözü tamsıyaraq Buk davam etdi, bu sözü bir neçə tamaşaçı da tamsındı. Məzmundan çox formaya üstünlük verən artistlər əllərini qulaqlarına qoyub məmnun-məmnun pıçıldaşdılar. Başqaları üçün Bukun nitqi seçkin nitqlərdən sayıldı və nitqində onun heç bir dialektə meyil etməməsi xeyli təəccüb doğurdu. Ancaq Şpresius kürsüsündə dikəlmişdi, ova həris quzğun kimi qıyya çəkdi:

– Cənab vəkil, monarxın şəxsiyyətini debata qatmamağı sizdən sonuncu kərə tələb edirəm.

Camaatın içində bir dalğa gəzdi. Buk təzədən ağzını açmaq istəyirdi ki, kimsə əl çalmağa cəhd etdi, Şpresius dimdiyini vaxtında işə saldı. Bu, özünü gözə soxan qızlardan biri idi.

– Monarxın şəxsiyyətinə, – Buk dilləndi, – əvvəlcə cənab sədrin özü toxundu. Bir halda ki toxundu, mən də, məhkəməni pərt etmədən, deyə bilərəm ki, həmin şəxs bugünkü anda ölkənin dərdini dilə gətirib təsvir etdiyi mükəmməllik sayəsində nəsə bir ehtiram qazanır. Qeysəri mən, sədr cənabları bu yerdə sözümü kəsməyə, məncə, cürət etməyəcəklər, böyük artist adlandırardım. Buna da nə əlavə edə bilərəm? Ondan istedadlısını heç birimiz tanımırıq... Məhz buna görə də icazə vermək olmaz ki, hər miyanə adam meymun kimi onu yamsılasın. Taxt-tacın şövkətində onun əvəzsiz şəxsiyyətini kimsə oynaya bilər, həmin kimsənin nitqindən başqa ondan ayrı şey gözləmədiyimiz halda o, nitq söyləyə bilər, gözləri alışıb-yana bilər, solub ölgünləşə bilər, xəyali üsyankarların nifrətini coşdura bilər, özünün obıvatel maraqlarını bir arı da unutmayan parter tamaşaçılarının alqışlarını qazana bilər...

Diderix əsməyə başladı; hamının ağzı açıla qalmışdı, gözlərdə bir gərginlik vardı, sanki Buk kəndir üstündə iki qüllə arasında yeriyirdi. Yıxılacaqdımı? Şpresius dimdiyini ona tuşlamışdı. Lakin vəkilin üz ifadəsində rişxənddən əsər-əlamət yox idi; bu üzdə yalnız acı heyranlığın nişanəsi oynayırdı. Qəfildən cəhəngləri aşağı sallandı, sanki, ətrafı büsbütün solğunlaşıb rəngini itirdi.

– Bəs Netsiqin kağız fabrikantı? – soruşdu. Buk yıxılmamışdı, ayağını yenə bərk torpağa dirəmişdi! Hamı üzünü Diderixə çevirdi, hətta gülümsədilər də. Emmi ilə Maqda da gülümsədi. Buk öz işini görmüşdü və Diderix təəssüflənərək öz-özünə dedi ki, dünən küçədə etdikləri söhbət baş məşq imiş. O, natiqin aşkar kinayəsi altında büzüşdü.

– Bu gün kağız fabrikantları boylarına biçilməmiş rolu oynamağa girişirlər. Onları fitə basmağın vaxtı çatmayıbmı?! Belələrinin istedadı da yoxdur! İkinci Vilhelmin taxta çıxmasından sonra əzəmətli yüksəkliyə qalxan ictimai həyatımızın estetik səviyyəsi şahid Heslinq kimilərinin sayəsində uduza bilər... Estetik səviyyə ilə də, möhtərəm cənab

hakimlər, mənəviyyat alçala da bilər, yüksələ də bilir. Yalançı ideallar öz arxasınca mənəviyyatın çöküşünü dartıb gətirir, siyasi fırıldaq kütləvi fırıldaq törədir.

Buk nitqinə ciddilik qatmışdı. İlk dəfə olaraq o, pafosa keçdi.

– Çünki möhtərəm cənab hakimlər, mən üzdəniraq üsyankarlar partiyasının həmişə işinə yarayan mexaniki ehkamla məhdudlaşmıram. Böyük insan nümunəsi dünyada daha çox dəyişkənlik edir, nəinki bütün iqtisadi qanunlar bir yerdə. Vay o haldan ki, bu, yanlış anlaşılan nümunə olsun! Belə olanda ölkənin başı üstünü yeni bir tip ala bilər, elə bir tip ki, qəddarlıq və istismar şəraitində insanın keçdiyi qəmli yolu görməz, əksinə, həyatın mənasının özünü görər. Təbiətən zəif və barışcıl olan həmin tip dəmir iradəli görünməyə can atar, çünki onun baxışında Bismark belə olub. Böyüklüyə anadangəlmə bacarığı olmadığına görə o daha çox hay-küy salıb həyasızlıq edər. Şübhə yoxdur ki, beləsinin şöhrət düşkünlüyündən əldə edilən zəfərlər işgüzar məqsədlərə yönələr. Onun düşüncə tərzindəki məzhəkə əvvəlcə hansısa əlahəzrət həqarətçisini dama basdırar. Buradan necə qazanc əldə etməyə isə sonradan baxmaq olar. Möhtərəm cənab hakimlər! – Buk qollarını geniş açdı, sanki, cübbəsi ilə bütün dünyanı qucmaq istəyirdi, üzündə bir yerə cəmlənmiş rəhbər iradəsinin ifadəsi vardı; və o, indiyə qədər saxladıqlarının hamısını işə saldı. – Siz müstəqilsiniz; və müstəqilliyiniz həddən artıq hüdudsuz və dönməzdir. İnsanın taleyi sizin əlinizdədir. Siz onu həyata qaytara da bilərsiniz, mənən məhv edə də bilərsiniz ki, bu da heç bir hökmdarın bacardığı iş deyil. Sizin təqdir, yaxud təkzib etdiyiniz fərdlər toplusu eyni nəsli təşkil edir. Beləliklə, gələcəyimiz sizin əlinizdədir. Bu böyük məsuliyyəti siz daşıyırsınız ki, gələcəkdə müttəhİm kimi kişilər dustaqxanalarımı doldursunlar, yoxsa şahid Hesling kimi varlıqlar millətin hakim zümrəsimi olsunlar. Seçim edin hər ikisinin arasında! Canfəşanlıqla əzmkar əmək arasında, məzhəkə ilə gerçəklik arasında seçim edin! Qabağa getmək üçün qurban tələb edənlə insanların rifahı naminə qurban verənlər arasında seçim edinl Müttəhim çox az adamların könlündən keçən işləri görüb: o, sahibkarlığından üz döndərib, tabeliyində olanlara özü ilə eyni hüquq verib, bunun sayəsində də onlar məmnunluq və ümidin nə olduğunu dərk ediblər; indi isə

siz deyin, insandaşını özü qədər sevən bir kəs, qeysərin şəxsiyyətinə hörmətsizlik etməyə qadir ola bilərmi?

Tamaşaçılar dərindən nəfəs aldılar. Hamı alnını əllərinə söykəmiş müttəhimə və gözünü zilləyib qabağa baxan arvadına yeni ümidlərlə nəzər saldı. Çoxları hıçqırdı. Hətta sədrin üzündə mülayimlik işartısı göründü. Onun göz qapaqları daha qırpılmadı; eləcə gözlərini bərəldib oturmuşdu, sanki, Buk onu ovsunlamışdı. Qoca Küleman ehtiramla başını tərpədirdi və Yadaszonun üz-gözü özündən asılı olmayaraq səyriməyə başlamışdı.

Lakin Buk bu uğurdan sui-istifadə etdi, sanki, məstləşmişdi.

– Vətəndaşın oyanışı! – var səsi ilə dedi. – Əsl milli düşüncə! Lauer kimi birisinin səssiz əməli daha çox təsir oyadır, nəinki başına tac qoymuş artistin yüzlərlə gurultulu nitqi!

Şpresius həmin an dimdiyini işə saldı; ona baxanda görmək olurdu ki, vəziyyətin nə yerdə olduğunu götür-qoy edir və ikinci dəfə tələyə düşməməyi özünə söz verir. Yadaszon fınxırdı; və zaldakıların böyük əksəriyyəti vəkilin uduzduğunu hiss etdi. Bu ümumi narahatlıqda sədr Buka müttəhimin mədhini tamamlatdırdı.

Buk yerinə oturanda artistlər şapalaq çalmaq istədi; lakin bu dəfə Şpresius dimdiyini işə salmadı, sadəcə, onlara darıxdırıcı bir nəzər salıb soruşdu ki, cənab prokuror vəkilə cavab vermək istəyirmi. Yadaszon ikrahlı sir-sifəti ilə imtina etdi və məhkəmə heyəti məşvərətə getdi.

– Hökmü çox gözləyəsi olmayacağıq, – Diderix çiyinlərini çəkib dedi, baxmayaraq ki Bukun nitqindən hələ də özünə gələ bilməmişdi.

– Allaha şükür! – bələdiyyə başçısının qayınanası dedi. – Adamın inanmağı gəlmir ki, beş dəqiqə əvvəl bu adamlar göylə əlləşirdilər. – O, üz-gözünü qurulayan Lauerə və artistlərin həqiqətən də təbrik etdiyi Buka işarə etdi.

Hakimlər geri qayıtdılar və Şpresius hökmü elan etdi: altı ay həbs. Bu da hamıya təbii həll kimi göründü. Üstəgəl buraya müttəhimin tutduğu vəzifələrin hamısının itirilməsi də daxil idi.

Sədr hökmü bununla əsaslandırdı ki, cinayət tərkibinə həqarətli niyyətin olması o qədər də vacib deyil. Bundan əlavə, həmin işdə provokasiyanın olub-olmamasının

mətləbə dəxli yoxdur. Əksinə: müttəhimin milli düşüncəli şahidlər qarşısında bu cür danışmağa cürət etməsi ağırlaşdırıcı amil kimi dəyərləndirilir. Müttəhimin qeysəri nəzərdə tutmadığı barədə verdiyi ifadəni məhkəmə əsaslı hesab etməmişdir.

Əslində, müttəhimin antimonarxist meyilləri, eləcə də şahidlərin siyasi baxışları onlarda belə bir fikrin yaranmasına səbəb olmuşdur ki, müttəhimin dedikləri qeysərə qarşı yönəlmişdir. Əgər müttəhim deyibsə ki, əlahəzrəti həqarət etməkdən özünü saxlayıb, bunu o, həqarətə münasibətdə yox, veriləcək cəzadan yaxa qurtarmaq məqsədilə söyləmişdir.

Bu hamının beyninə batdı, Lauerin məqsədi anlaşıldı, amma sən demə, bu məqsəd həm də məkrli imiş. Müttəhim həmin an həbs edildi; camaat bu olayı da yaşadıqdan sonra Lauerin xeyrinə olmayan atmacalarla dağılışdı. Laueren işi, demək olar, bitmişdi, dustaqxanada oturacağı bu yarım ildə fabrikinin axırı necə olacaqdı! Hökmə əsasən, daha şəhər icra orqanının deputatı da deyildi. Bundan sonra onun kiməsə nə xeyri, nə də ziyanı dəyəcəkdi. Burnu göylərdə gəzən Buklar qaragüruhunun fərmanı verilmişdi! Dustağın arvadı tərəfə boylandılar, o çoxdan aradan çıxmışdı.

– Heç ərinə əl də vermədi! Arvad belə olmazmı?!

***

Sonrakı günlər daha sərt qınaqlara səbəb olan hadisələr baş verdi. Yudit Lauer o saat çamadanlarını qablaşdırıb cənuba yollandı. Bəli, cənuba! Halbuki halalca əri barmaqlıqlı pəncərənin arxasında, keşikçinin nəzarəti altında dustaqxana hücrəsində otururdu. Ax, nə gözəl uyğunluq!

Əyalət məhkəməsinin müşaviri Fritçe qəfildən məzuniyyətə çıxdı. Onun Genuyadan yazdığı açıqca doktor Hoytoyfelə yetişdi, o da onu əlinə alıb hamıya göstərdi: yəqin, öz abırsızlığını unutdurmaq istəyirdi. Heç ehtiyac da yox idi ki, Lauerlərin qulluqçularından və atılmış fəqir uşaqlarından nəsə soruşasan; onsuz da, hamı hər şeyi dəqiq bilirdi!

Qalmaqal o qədər böyümüşdü ki, "Netziger Zeitung" işə qarışası oldu. "Yuxarıdakı on minlər"ə üz tutaraq xəbərdarlıq etdi ki, imtiyazlı cəmiyyət öz əxlaqsızlığı ilə üsyankar əhvali-ruhiyyənin artmasına dəstək verir. İkinci

məqaləsində Notqroşen yazırdı ki, Lauerin fabrikində tətbiq olunan islahatları tərifləyib göyün yeddinci qatına qaldırmaqda haqsızlıq edirlər. Gəlin görək payçı olmaqda fəhlələr nə qazanırlar? Lauerin özünün hesablamalarına görə, orta hesabla ildə səksən markdan da az. Bunu onlara Milad bayramı hədiyyəsi kimi də vermək olardı. Onda da, təbii ki, mövcud qayda-qanuna qarşı etirazlar olmazdı. Belədə fabrikantın məhkəmə tərəfindən təsdiqlənmiş antimonarxist fikirləri də qorxu yaratmazdı! Cənab Lauer fəhlələrin minnətdarlığını nəzərdə tuturdusa, indi daha yaxşısını qulağında sırğa edər: əlbəttə, o halda ki, Notqroşen əlavə edirdi, ona dustaqxanada sosial-demokrat qəzetini oxumağa icazə versinlər. Lauerə o daha sonra irad tuturdu ki, ağılsızlıq edib əlahəzrətə həqarət söyləməsi ilə yüzlərlə fəhlə ailəsinin güzəranına zərbə vurub.

"Netziger Zeitung" dəyişmiş vəziyyətə tamam başqa tərzdə, həddən artıq səciyyəvi münasibət bildirirdi. Onun yazdığına görə, qəzetin naşirl Tits kağızın bir hissəsini Heslinqin fabrikindən almaq üçün ona müraciət edib. Səbəb də, olub ki, guya, qəzetin tirajı artıbmış, Qauzenfeld fabrikinin də sifarişi həddən artıq çox imiş. Diderix də həmin an razılıq verib bildirmişdi ki, bunun arxasında qoca Klüzinqin özü dayanır. O, qəzetdə payçıdır, onsuz heç nə baş tuta bilməz. Əgər Klüzinq nəyisə əldən verirsə, deməli, daha çox şey itirməkdən qorxur. Əyalət qəzetləri! Hökumətin sifarişil Vulkau qorxusu, bütün məsələ bundadırl Şahid ifadəsi ilə Diderixin yerli hökumət nümayəndəsinin diqqətini çəkməsi qoca Klüzinqin diqqətindən yayınmış olmamalıdır, daha şəhərə həddən artıq az-az gəlməsinə baxmayaraq. Torunu bütün əyalətin, bir az da ondan o yananın üstünə salmış qoca kağız hörümçəyi özünün qoxumuş yuvasında təhlükəni duyub narahat olmuşdu.

– Məni "Netziger Zeitung"la doyurmaq istəyir! Amma biz bu cür ucuzluğa getmərik. Bu üzü dönmüş zəmanədə! Deyəsən, mənim gen-bol işlərimdən məlumatı var. Arxamda Vulkaunun özü dayanıbsa, fabrikini mütləq əlimə keçirəcəyəm! – Diderix bərkdən deyib əlini yazı masasına elə çırpdı ki, Zötbir diksinib başını qaldırdı. – Həyəcandan özünüzü gözləyin! – Diderix lağlandı. – Sizin yaşda, Zötbir! Etiraf edirəm, əvvəllər firma üçün nəsə etmisiniz. Amma hollender məsələsi heç də yaxşı olmadı; siz məni qorxutdunuz o vaxt,

indi isə "Netziger Zeitung" üçün mənə gərəkli olardı. Dincliyə çıxan vaxtınızdır, sizinlə bizimki daha tutmur.

Məhkəmənin Diderixə gətirdiyi uğurlara həm də mayor Kuntsenin məktubu daxil idi. Kuntse təəssüflənərək ortada anlaşılmazlığın olduğunu bildirir və məlumat verirdi ki, möhtərəm cənab doktorun "Veteranlar Şurası"na qəbul olunması yolunda heç bir maneə qalmamışdır. Öz qələbəsindən həyəcanlanmış Diderix məmnuniyyətlə bu qoca əsgərin hər iki əlini sıxardı. Xoşbəxtlikdən, arayıb-axtarıb xəbər tutdu ki, məktubun təşəbbüsçüsü birbaşa cənab fon Vulkaudur. Yerli hökumət başçısı "Veteranlar Şurası"nı öz gəlişi ilə şərəfləndirmiş və doktor Heslinqin burada olmamasına heyrətlənmişdi. Diderix özünün hansı gücə malik olduğunu indi anladı, elə buna görə də hərəkət etdi. Mayorun şəxsi məktubunun cavabında "Veteranlar Şurası"na rəsmi yazı ilə cavab verib sədarətin iki üzvünün, cənab mayor Kuntse ilə professor Künxenin şəxsən onun yanına gəlməsini tələb etdi. Onlar da gəldilər; Diderix onları işgüzar görüşlər vaxtında öz kontorunda qəbul etdi, bu görüşü qəsdən həmin vaxta salmışdı; gələnlərə bildirdi ki, bir şərtlə ittifaqa daxil olar: ona adres yazıb göndərsələr. Həmin adresin məzmununu özü diktə elədi. Orada bildirilirdi ki, doktor Heslinq bütün böhtanları nəzərə almadan əvəzsiz cəsarət göstərərək əsl alman düşüncə tərzini və qeysər sadiqliyini əməldə sübut etmişdir. Etdiyi müdaxilə ilə Netsiqin vətənsiz ünsürlərinə duyumlu zərbə endirmək ona müyəssər olmuşdur. Böyük şəxsi qurbanlar bahasına başa gəlmiş döyüşdən Diderix əsl alman xarakterinə malik əzəmətli insan kimi çıxmışdır.

"Veteranlar Şurası"na qəbul mərasimində Kuntse adresi oxudu, Diderix də ağlamsınaraq bu qədər tərifi qəbul etməyə layiq olmadığını bildirdi. Dedi ki, Netsiqdə milli məsələ tərəqqi edirsə, bunun üçün, Allahın rizası ilə, daha ali məqama minnətdar olmaq lazımdır ki, onun da müdrik göstərişlərini o, özünə fərəh gətirən bir itaətlə yerinə yetirir... Hamı, eləcə də Kuntse ilə Künxen bərk həyəcanlandılar. Bu, möhtəşəm bir mərasim oldu. Diderix ittifaqa bir kubok bağışlayıb nitq söylədi; nitqində o, yeni hərbi xərclərin reyxstaqda üzləşdiyi çətinliklərə toxundu.

– Dünyadakı mövqeyimizi yalnız bizim iti qılıncımız təmin etdi, – Diderix var gücü ilə bağırdı, – onu ovxarda

saxlamaq qeysər əlahəzrətlərinin çağırışıdır! Qeysər döyüşə səsləyəndə həmin qılınc qından çıxacaq! Reyxstaqda ağızlarını Allah yoluna qoyub danışanlar özlərini gözləsinlər ki, həmin qılınc birinci onları kəsməsin. Əlahəzrətlə zarafat etmək olmaz, möhtərəm cənablar, bunu mən sizə deyirəm. – Diderixin gözləri od püskürürdü və o, sanballı adamlar kimi baş qırpdı, sanki, çox şeydən xəbəri vardı. Elə həmin an, doğrudan da, ağlına bir fikir gəldi. – Bu yaxınlarda Brandenburq əyalət landtaqında qeysər reyxstaqa öz mövqeyini bəyan edib: "Bu gədələr əsgər saxlamağıma razılıq verməsələr, hamısını qovacağam getsin".

Bu söz hamıda məftunluq yaratdı; Diderix onun sağlığına içənlərin hamısı ilə badə vurandan sonra heç özü də deyə bilməzdi ki, həmin sözlər onunkudurmu, yoxsa onları qeysərmi söyləmişdir. Hakimiyyət ürpəntisi həmin sözdən axıb onun üstünə tökülürdü, sanki, o, gerçək imiş... Bir gün sonra həmin sözlər "Netziger Zeitung"a, axşam isə "Lokal Anzeiger"ə ayaq açdı. Pisniyyətli qəzetlər təkzib tələb etdi, amma təkzib verən tapılmadı.

## BEŞİNCİ FƏSİL

Diderixin sinəsindəki yüksək duyğular dalğası səngiməmiş Emmi ilə Maqda frau fon Vulkaudan ilkindi çay süfrəsinə dəvət aldılar. Bu, olsa-olsa, yerli hökumət başçısının xanımının "Harmoniya"da keçiriləcək növbəti bayramda səhnəyə qoyacağı əsərə görə ola bilərdi. Emmi ilə Maqda tamaşada çıxış etməli idilər. Sevincdən yanaqları alışıb-yanan qızlar evə qayıtdılar: frau fon Vulkau onlara həddən artıq səmimiyyət göstərmişdi; öz əlləri ilə hər ikisinin boşqabına bişi qoymuşdu. Qoy İnqe Tits paxıllığındın partlasın. Tamaşada zabitlər də oynayırdılar! Qızlara xüsusi pal-paltar lazım idi; bəlkə Diderix fikirləşirdi ki, onlar fabrikdən paylarına düşən əlli markla... Ancaq Diderix onlara məhdudiyyətsiz kredit ayırdı. Qızların aldığı paltarların heç biri onun ürəyinə yatmırdı, Emmi ilə Maqda başlarını itirmişdilər, çünki Diderix onları dəng etmişdi. Bu vaxt Quste Daymxen qonaq gəldi.

– Axı mən xoşbəxt gəlini hələlik düz-əməlli təbrik etməmişəm, – deyib məhrəmliklə gülümsəməyə çalışdı;

amma gözləri qayğılı-qayğılı bağlamaların və güllərin üstündə gəzdi. – Görünür, bunlar da o gicgici tamaşa üçündür, eləmi? – soruşdu. – Volfqanqın əsərdən xəbəri var, deyir, görünməmiş dərəcədə gicgicidir.

Maqda cavab verdi:

– Sənə ayrı cür deyə də bilməz, çünki sən əsərdə rol almamısan.

Diderix də borclu qalmadı:

– Bununla sizdən üzr istəyir ki, onun ucbatından Volkaulardan dəvət almamısınız.

Quste ikrahla güldü.

– Vulkaularla bizim də bağrımız badaş deyil, amma "Harmoniya"dakı bala gedəcəyik.

Diderix soruşdu:

– Məhkəmənin ilk təəssüratlarının keçib-getməsini istəmirsinizmi? – Yanımcıllıqla onu süzdü. – Əzizim Quste, gör havaxtın tanışlarıyıq, icazənizlə nəzərinizə çatdırım ki, sizin Buklarla bağlılığınız indi camaat arasında o qədər də dəyərləndirilmir.

Quste gözlərini qırpdı, baxanda görmək olurdu ki, bunu o özü də fikirləşib. Maqdanın dili dinc durmadı:

– Allaha çox şükür, mənim Kinastım tamam eləsindən deyil.

Emmi bunun müqabilində:

– Amma cənab Buk daha maraqlıdır. Bu yaxınlarda çıxış edərkən göz yaşımı saxlaya bilmədim, lap teatrdakı kimi.

– Bir də ki! – cürətlənmiş Quste səsini qaldırdı. – Bu çantanı mənə elə dünən bağışlayıb. – Çoxdandır Emmi ilə Maqdanın gözlərini çəkmədikləri qızıl suyuna çəkilmiş çantanı irəli uzatdı. Maqda tikanlı-tikanlı dilləndi:

– Deyəsən, vəkilliyindən çox pul qazanıb. Kinastla mən qənaətcilliyin tərəfdarıyıq.

Amma Quste istədiyi həzzi almışdı.

– Onda sizə çox mane olmaq istəmirəm, – dedi.

Diderix onu aşağıya ötürdü.

– Özünüzü yaxşı aparsanız, sizi evinizə yola salaram, – dedi, – ancaq əvvəlcə gərək fabrikə nəzər yetirəm. Növbənin dəyişən vaxtıdır.

– Mən də sizinlə gəlirəm, – Quste fikrini bildirdi.

Qızı mat qoymaq üçün Diderix onu birbaşa böyük kağız maşınının yanına apardı.

– Çox güman ki, indiyə qədər belə şey görməmisiniz?! – hovuzun valın və silindrlərin sistemini qürrə-qürrə ona başa saldı, kağız kütləsi zal boyunca onlardan axıb keçirdi: əvvəlcə maye halında, sonra da tədricən qatılaşaraq və maşının o başında hazır kağız dürməklər şəklində çıxırdı. Quste başını yırğaladı.

– Yox, beləsini görməmişəm! Hələ onun çıxardığı səs! Bir də buradakı istilik!

Özünün bağışladığı təsirdən narazı qalan Diderix fəhlələrin üstünə bağırmağa bəhanə axtardı və Napoleon Fişer gözünə dəyəndə günahın hamısını onda gördü! Hər ikisi maşının səsində bir-birinə bağırdı. Quste heç nə anlamadı; ancaq Diderixin gizlin qorxusu mexanikin seyrək saqqalında yox olmaq bilməyən, hollender məsələsindən onun agahlığını xatırladan və istənilən nüfuzlu şəxsi vecinə almayan irişiyi gördü. Diderix nə qədər bərk hirslənirdisə, o birisi özünü bir o qədər sakit aparırdı. Bu sakitlik qiyam idi! Diderix fısıldaya-fısıldaya, əsə-əsə qablaşdırma otağının qapısını açdı və Qusteni içəri buraxdı.

– Kişi sosial-demokratdır! – izahat verdi. – Beləsi buralara od da vura bilər. Amma mən onu işdən çıxarmıram: elə məhz onu qovmuram! Baxaq görək kim güclü çıxacaq. Sosial-demokratiyanı öz öhdəmə götürürəm! – Və Quste heyrətlə ona baxdığına görə: – Yəqin, heç ağlınıza da gətirməzdiniz ki, bizim kimilər hansı təhlükəli vəzifəni yerinə yetirir. "Qorxu-hürkü bilmədən və sədaqətlə!" – mənim şüarım belədir. Görürsünüz ki, burada mən məhz elə qeysərimiz kimi ən müqəddəs milli dəyərlərimizi qoruyuram. Buna da məhkəmədə bəlağətli nitq söyləmək yox, cəsarət lazımdır.

Quste hər şeyi başa düşdü, ehtiramlı bir sifət göstərdi.

– Bura xeli sərindir, – dedi, – özü də qonşudakı cəhənnəmdən sonra. Buradakı qadınlar sevinməlidirlər.

– Onlar? – Diderix cavabında dedi. – Onların yeri əsl cənnətdir.

Qusteni masanın yanına apardı: qadınlardan biri kağız qalağını sortlaşdırırdı, ikincisi bir də yoxlayırdı, üçüncüsü isə beş yüzə qədər sayırdı. Hər şey izaha gəlməyən bir cəldliklə gedirdi; vərəqlər arasıkəsilmədən bir-birinin ardınca, sanki, öz-özünə və işləyən əllərə müqavimət göstərmədən uçurdu, əllər isə, elə bil, onlara toxunan kağızda əriyib yox

olurdu. Təkcə əllər yox, eləcə də qollar, qadının özü, gözləri, sifəti və qəlbi əriyib gedirdi. Bunlar vardı və kağızların əldən-ələ uçması üçün yaşayırdılar... Quste əsnəyərkən Diderix bildirdi ki, akkordla işləyən bu qadınlar ziyankarcasına ehtiyatsız tərpənirlər. Onların üstünə bağırmaq istədi, çünki havada küncü cırılmış bir vərəq uçurdu. Lakin Quste qəfildən təsəlliyə bənzər bir şey dedi:

– Özünüzü aldatmayın ki, Ketxen Tsillix sizin dərdinizdən ölür... Ən azı, başqaları ilə müqayisədə, – bunu da sonradan əlavə etdi və Diderixin şaşqınlıqdan verdiyi "Bununla nə demək istəyirsiniz?" sualına, sadəcə, müəmmalı şəkildə gülümsədi.

– Xahiş edirəm, gizlətməyəsiniz, – Diderix dirəndi. Bunun müqabilində Quste havadarlar kimi sir-sifətini turşutdu.

– Mən sizin yaxşılığınıza deyirəm. Çünki deyəsən, heç nə hiss eləmirsiniz, hə?! Məsələn, asessor Yadaszonla? Neyləmək olar, Ketxen elələrindəndir.

Quste bu dəfə bərkdən güldü, Diderix suya düşmüş cücəyə oxşadı. Qız yoluna davam etdi, Diderix ondan əl çəkmədi.

– Yadaszonla? – qorxu içində təkidlə soruşdu. Bu vaxt maşının səsi kəsildi, işin qurtardığını bildirən zəng çalındı və fəhlələr həyətə tökülüşüb uzaqlaşmağa başladılar. Diderix çiyinlərini çəkdi. – Froylayn Tsillixin əməllərinin mənə istisi-soyuğu yoxdur. Əgər o, doğrudan da, elədirsə, onda ən azı qoca keşişə yazığım gəlir. Siz bunu dəqiq bilirsiniz?

Quste üzünü kənara çevirdi.

– Özünüz yoxlayıb əmin olunl

Diderix yaltaqcasına gülümsədi.

– Qaza dəyməyin! – yanlarından keçən mexanikə dedi. – Özüm söndürərəm. – Elə bu vaxt cındır sexinin qapısı işdən çıxanların üzünə taybatay açıldı.

– Oh! – Quste ucadan səsləndi, – ora necə romantikdir! – Çünki lap arxada, ala-toranlıqda boz təpələrin üstündə başdan-başa rəngbərəng cındırlar, onlardan o üzə isə qol-lu-budaqlı bir meşə görmüşdü. – Ax, – yaxına gələndə dedi. – Fikirləşdim ki, bu cür qaranlıqda nələr olmaz... bunlar ki, sadəcə, cındır kisələri və isitmə boruları imiş. – Üz-gözünü turşutdu. Fabrikin intizam qaydalarına zidd olmasına baxmayaraq, kisələrin üstünə uzanıb dincələn qadınları

Diderix oradan qovdu. İşlərini qurtaran kimi çoxu nəsə toxuyur, başqaları isə yemək yeyirdi.

– Sizə yaraşan şeydir, – deyindi. – Özünüzü istiliyə verirsiniz mənim hesabıma! Tərpənin!

Qadınlar ağır-ağır yerlərindən qalxdılar, bir kəlmə də kəsmədən, üz-gözlərində etiraz nişanəsi görünmədən kişi ayaqqabılarında yad qadının yanından keçib sürü kimi ayaqlarını sürüyə-sürüyə, içində yaşadıqları tüstü-dumana bürünüb çölə yollandılar, hamısı da key-key başını Qusteyə doğru çevirib maraqla onu süzdü. Onlar büsbütün bayıra çıxana kimi Diderix hər birini diqqətlə gözdən keçirdi.

– Fişer! – qəfildən qışqırdı. – Dəsmala bükülü yorğan neyləyir burada?

Mexanik özünün çoxmənalı irişiyi ilə izahat verdi:

– Çünki qadın nəsə gözləyir. – Bu cavabdan sonra Diderix narazı-narazı ona arxa çevirdi. Qusteyə ağıl öyrətməyə başladı.

– Elə bildim kimi isə yaxalamışam. Cındırları oğurlayırlar. Hə, hə, ondan uşaq paltarları tikirlər. – Quste dodaq büzdüyündən: – Proletar balaları üçün bundan yaxşı nə tapılar?!

Əlcək geymiş barmağının ucu ilə Quste yerdən bir parça əsgi qaldırdı. Birdən Diderix onun biləyindən yapışıb əlcəyin yanığıdın onu hərisliklə öpdü. Quste ürküb yan-yörəsinə boylandı.

– Belə də olur?! Camaat gedib, hə?! – Özünə arxayınlıqla güldü. – İndicə öz-özümə fikirləşirdim ki, bu vaxt fabrikdə nə işiniz var.

Diderixin sifətinə tələbkar bir ifadə qondu.

– Yaxşı, bəs siz? Bu gün niyə gəlmisiniz? Yəqin, hiss edibsiniz ki, o qədər də pis deyiləm. Əlbəttə, sizin Volfqanq... Hər kəs özünü onun kimi rüsvay etməz, keçən məhkəmədə.

Quste onun cavabında heyrətlə:

– Özünüzü ələ alın, sakitləşin, siz heç vaxt onun kimi azad insan olmayacaqsınız. – Amma gözləri başqa şey deyirdi. Bu, Diderixin diqqətindən yayınmadı; həyəcanlanıb güldü.

– Bilsəniz, necə başınızın altına yasıq qoyur! Bilirsinizmi, sizə hansı gözlə baxır? İçində qolbasla kələm olan xörək qazanı, mən də gərək onu qarışdıram!

– Bax burada yalan deyirsiniz, – Quste öldürücü bir tonla dilləndi; lakin Diderix at üstündəydi:

– Sən demə, qazandakı qolbası ilə kələmi ona azlıq edirmiş. Əvvəl elə bilib sizə bir milyon miras çatıb. Amma əlli min markla bu cür kübarı əldə saxlamaq olmaz.

Bu yerə çatanda Quste coşdu. Diderix diksinib geri atıldı, qorxulu bir mənzərə yarandı.

– Əlli min! Deyəsən, ağlınız çaşıb! Bir o çatmırdı ki, bu cür cəfəng şeyləri eşidəm! Üç yüz əlli min pulum bankda yata-yata, etibarlı əsginaslarda! Əlli min! Şərəfimi tapdayan belə şeyləri kim ağzına alıb orada-burada danışırsa, onu məsuliyyətə aldıra bilərəm! – Gözlərində yaş gilələndi; Diderix dili dolaşa-dolaşa üzr istədi. – Boşlayın getsin!.. – Quste cib yaylığına əl atdı. – Ulduzunun mənimlə niyə barışmasını Volfqanq dəqiq bilir. Amma siz özünüz, siz o yalana inanmısınız. Ona görə də bu cür həyasızlıq etdiniz! – ucadan dedi. Şişman çəhrayı yanaqları hirsdən titim-titim titrəyirdi, gərilmiş balaca burnu isə büsbütün ağarmışdı. Diderix özünü yığışdırdı.

– Buradan belə nəticə çıxara bilərsiniz ki, siz mənim pulsuz da xoşuma gəlirsiniz, – özünə haqq qazandırmağa çalışdı. Quste dodaqlarını dişlədi.

– Bilmək olmaz, – Quste ona altdan-yuxarı nazlı və inamsız bir nəzər salıb dilləndi. – Sizin kimilərinə əlli min də puldur.

Diderix qərara aldı ki, danışığa ara versin. Quste üz tozunun qabını qızıl suyuna çəkilmiş çantasından çıxarıb aşağı oturdu.

– Davranışınız məni gerçəkdən həyəcanlandırdı. – Təzədən güldü. – Bəlkə, bu bədnam fabrikinizdə mənə deyiləsi ayrı sözünüz var?

Diderix başı ilə təsdiq etdi.

– Bilirsinizmi harada oturmusunuz?

– Hə, cındır kisəsinin üstündə.

– Özü də hansı kisənin! Bax bu küncdə, burada kisələrin dalında mən bir fəhləmlə bir qızı tutmuşam, onlar məhz... özünüz başa düşürsünüz. Təbii ki, hər ikisini qovdum və axşamüstü, bəli, həmin günün axşamı, – şəhadət barmağını qaldırdı, gözlərinə mistik bir qorxu doldu, – oğlanı güllə ilə vurub öldürdülər, qızın da başına hava gəldi.

Quste ayağa sıçradı.

– Bu həmin o... Aman Allah, keşikçini cırnadan həmin fəhlə idi? Deməli, kisələrin arxasında onlar...

Gözləri kisələrin üstündə gəzdi, sanki, orada qan axtarırdı. Qaçıb Diderixin yanına gəldi. Birdən onlar bir-birinin gözünün içinə baxdılar: bu gözlərin dərinliyində eyni üşənti, suç üşəntisi, yaxud ağılsızlıq üşəntisi yatırdı. Onlar nəfəslərini eşidiləcək dərəcədə bir-birinə ötürürdülər. Quste kirpiklərini qapadı, cəmi bircə anlığa. Sonra hər ikisi özünü şappıltı ilə kisələrin üstünə atdı, bir-birinə çulğalaşaraq üzüaşağı, sonra da qaranlıq məkanla diyirləndilər, böyürbaşlarına döyəclədilər, fınxırdılar, tövşüdülər, sanki, orada, aşağıda boğulurdular.

İşıqlığa birinci Quste çıxdı. Diderixin bərk-bərk tutub saxladığı ayağı ilə qız onun sifətinə ilişdirdi və irəliyə elə sıçradı ki, şaqqıltı qopdu. Diderix onun arxasınca bayıra çıxanda üz-üzə dayanıb fısıldadılar. Qustenin döşləri ilə Diderixin qarnı toqquşdu. Diderixdən qabaq Qustenin dili açıldı.

– Onu bir başqası ilə yoxlayın! Necə oldu ki, mən buna yol verdim?! – Bir az da acı-acı: – Sizə dedim axı, üç yüz əlli mindir! – Diderix əlini qaldırıb bildirmək istədi ki, səhvini etiraf edir. Lakin Quste daha bərkdən qışqırdı: – Bu nə görkəmdir mən almışam! Bu üz-gözlə, bəlkə, şəhərə çıxım?! – Diderix yenidən qorxub şaşqınlıq içində güldü. Quste dirəndi. – Məgər silovunuz yoxdur? – Diderix dinib-danışmadan yola düzəldi; Quste onun arxasınca səsləndi: – Elə edin ki, bacılarınız xəbər tutmasın! Yoxsa sabah camaatın dilini kəsmək olmayacaq!

Diderix kontoracan getdi. Geri qayıdanda Quste yenə də kisənin üstündə oturmuşdu, üzünü əlləri ilə örtmüşdü, koppuş barmaqlarından yaş axırdı. Diderix ayaq saxladı, qızın fəryadına qulaq asdı və birdən o da ağlamağa başladı. Təsəlli verirmiş kimi Qusteni silovladı.

– Heç nə olmayıb axı, – dedi. Quste ayağa qalxdı.

– Gərək nəsə olaydı?! – deyib Diderixi rişxəndlə süzdü.

– Cənab nişanlınız bu barədə heç nə bilməyə də bilər, – Diderix dedi.

Quste də cavabında:

– Bilsə, nə olacaq?! – deyib dodağını çeynədi.

Bu sözdən təsirlənən Diderix dinmədən silovlamağına davam etdi, əvvəlcə onu, sonra da özünü, bu arada Quste paltarını sığalladı.

– Yaxşı, gedək! – dedi. – Tezliklə kağız fabrikinə yolum düşməz!

Diderix onun şlyapasının altına baxıb:

– Nə bilmək olar, – dedi. – Çünki nişanlınız Buku sevməyinizə beş dəqiqədir daha inanmıram.

Quste tələsik dilləndi:

– Nahaq! – Fasilə vermədən soruşdu: – Bu qurğu neyləyir burada?

– Adına qumtutan deyirik, – Diderix izahat verdi. – Cındırı novla axıdırıq; düymə və buna bənzər şeylər, gördüyünüz kimi, ilişib qalır. Yenə də təmizləməyiblər.

Quste günlüyün ucunu cındır qalağına batırdı; Diderix əlavə etdi:

– İl ərzində bir neçə kisə tullantımız olur!

– Bəs burdakı nədir? – deyib Quste parıltılı bir şeyi tələsik yerdən qaldırdı. Diderix gözlərini döydü.

– Brilyant düymə!

– Özü də həqiqi! – deyib Quste onu əlində oynatdı, düymə bərq vurdu. – Tez-tez belə şeylər tapırsınızsa, işləriniz heç də pis getmir!

Diderix şaşqın-şaşqın dedi:

– Gərək qaytaram.

Quste güldü:

– Kimə axı? Cır-cındır sizinki deyilmi?!

Diderix də güldü:

– Hə, amma brilyantlar yox. Onu bizə vereni axtarıb tapacağıq.

Quste onu altdan-yuxarı süzdü.

– Əməlli-başlı dəlisiniz, – dedi.

Diderix inamla cavab verdi:

– Dəli deyiləm, təmiz adamam! – Bunu deyib çiyinlərini çəkdi. Quste sol əlcəyini ağır-ağır çıxarıb brilyantı çeçələ barmağının üstünə qoydu.

– Ondan üzük düzəltdirmək olar! – Quste yüngüllük tapmış adamlar kimi səsini qaldırdı, fikirli-fikirli əlinə baxıb köksünü ötürdü: – Yaxşı, qoy başqaları tapsın! – gözlənilmədən düyməni cındırın içinə atdı.

– Dəli olmusunuz? – Diderix aşağı əyildi, brilyantı o saat tapmadı və fısıldaya-fısıldaya diz çökdü. Tələsdiyindən hər şeyi qatıb-qarışdırdı. – Allaha şükür! – deyib düyməni Qusteyə uzatdı; amma Quste onu götürmədi.

– Onu sabah birinci görən fəhləyə bağışlayıram. Bax o götürüb cibinə soxacaq, buna əmin ola bilərsiniz, həmin adam o qədər də səfeh olmaz.

– Heç mən də səfeh deyiləm, – Diderix dedi. – Bu daşı, görünür, kimsə atıb. Bu halda mən burada qanunazidd heç nə görmürəm. – Brilyantı yenidən qızın barmağının üstünə qoydu. – Lap qanunazidd olsa belə, sizə çox gözəl yaraşır.

Quste heyrətlə dilləndi:

– Necə? Onu mənə bağışlamaq istəyirsiniz?

Diderix dili dolaşa-dolaşa:

– Axı siz tapmısınız, – dedi, – ona görə də hesab edirəm ki...

Qustenin əli-ayağı yerə dəymədi:

– Bu, mənim ən gözəl üzüyüm olacaq!

– Niyə? – Diderix narahat bir gümanla soruşdu. Quste birbaşa cavabdan yayınaraq dedi:

– Elə-belə... – və qəfil bir baxışla: – Çünki dəyərli bir şey deyil, bilirsiniz.

Bu yerdə Diderix qıpqırmızı qızardı və onlar bir-birinin gözlərinin içinə baxdılar.

– Aman Allah! – Quste qəfildən səsləndi. – Gör nə qədər gecdir! Artıq yeddidir? Anama nə deyəcəyəm? Nə deyəcəyimi bilirəm, deyəcəyəm ki, başdanxarabın birinin əlində brilyant gördüm, elə bilirdi saxtadır və onu cəmi əlli pfenniqə satdı! – Qızıl suyuna çəkilmiş çantasını açdı və düyməni onun içinə atdı. – Yaxşı, sağlıqla qalın... Amma görkəminiz!... Heç olmasa, qalstuku bağlayın. – Bunu danışa-danışa özü etdi. Diderix çənəsinin altında onun əllərinin istisini duydu; qızın nəm, pənbə dodaqları lap yaxında səyridi. Diderix istidən qarsıdı, nəfəsini sinəsindən buraxmadı. – Belə, – deyib Quste ciddi addımlarla yola düzəldi.

– Dayanın, qazı söndürüm, – Diderix qızın arxasınca səsləndi. – Gözləyin demədim?!

– Gözləyirəm, – Qustenin səsi bayırdan gəldi. Lakin Diderix həyətə çıxanda o artıq çıxıb getmişdi.

Diderix şaşqınlıq içində fabriki bağlayıb öz-özünə ucadan danışmağa başladı: "Görəsən, kim deyər, onun bu hərəkəti qadın instinktidirmi, yoxsa əvvəlcədən ölçülüb-biçilibmi?" O, Qustedə təcəssüm tapmış əbədi qadınlıq sirrinə qayğılı-qayğılı başını buladı.

***

Bəlkə də, Diderix düşündü, Quste ilə nəsə alındı, amma yaman ləng alınırdı. Məhkəmə prosesi ətrafında cərəyan edən hadisələr ona müəyyən təsir etmişdi, amma bu təsir hələlik yetərincə deyildi. Daha Vulkaudan da səs-soraq yox idi. Yerli hökumət başçısının "Veteranlar şurası"nda atdığı vədli addımından sonra Diderix bu mərhəmətin arxasını gözləyirdi: nəsə bir yaxınlaşma, etibarlı bir tapşırıq, bunun nə və necə olacağını heç özü də bilmirdi. "Harmoniya"dakı bal buna bir aydınlıq gətirərdi; belə olmasaydı, arvadının tamaşaya qoyacağı əsərdə bacıları niyə rol almışdı. Ancaq Diderixin istedad təşnəsindən ötrü hər şey həddən artıq uzun çəkdi. Vaxt tam narahat və təlatümlü keçirdi. Diderixin içi ümidlər, perspektivlər və planlardan coşub-daşırdı; başlayan hər gündə bütün bunları qəfildən boşaldıb tökmək istəyirdi, içindəkiləri töküb qurtarandan sonra isə büsbütün boşalırdı. Onu hərəkət həsrəti çulğayırdı. Daimi oturduğu pivəxananın yanından dəfələrlə ötüb məqsədsiz-filansız təmiz havada gəzməyə getmişdi, halbuki başqa vaxtlar belə şeylər olmazdı. Şəhərin mərkəzinə arxa çevirib mətin addımlarla yeriyən insanlar kimi axşamlar kimsəsizləşmiş Mayzesştrase ilə axıra qədər yeridi, şəhərqırağı mehmanxanaların yerləşdiyi uzun Qebelxenştrase ilə addımlayırdı ki, burada da faytonçular atlarını arabaya qoşub arabadan açırdılar; Diderix tez-tez də dustaqxananın yanından keçib-gedirdi. Orada, lap yuxarıda barmaqlıqlı pəncərənin arxasında, əsgər keşiyinin altında cənab Lauer otururdu, onun bu vəziyyəti yatsa yuxusuna da girməzdi. "Təkəbbür çöküşə təkandır, – Diderixin fikrindən keçdi. – Nə əkərsən, onu da biçərsən". Fabrik sahibini dustaqxanaya aparan hadisələrdə əli olsa da, Lauer ona Qabil donunda, qəribə bir məxluq kimi göründü. Bir dəfə ona elə gəldi ki, dustaqxananın həyətində gözünə onun surəti dəydi. Hava çox qaranlıq idi, amma bəlkə də... Diderixin gövdəsinə qor doldu və o, tələsik oradan uzaqlaşdı.

Qala qapısının o üzündəki şose üstündə Şvaynixen qəsrinin yerləşdiyi təpəyə aparırdı, burada bir vaxtlar körpə Diderix frau Heslinqlə bərabər qəsr ruhlarının dəhşətini yaşamışdı. Bu cür uşaq-muşaq oyunu indi onun üçün uzaqlarda qalmışdı; üstəlik, o hər dəfə, çox vaxt da qala qapısının arxasından Qauzenfeld küçəsinə burulardı. Bunu qar-

şısına məqsəd qoymamışdı və tərəddüd içində hərəkət edirdi, çünki kimsə ona təsadüfən burada rast gəlsəydi, özünü yaxşı hiss etməzdi. Lakin özünü zorlaya bilmirdi: nəhəng kağız fabriki yasaqlı cənnət kimi onu özünə çəkirdi, bir-iki addım ona yaxın getməsə, başına dolanmasa, barısının üstündən içərini imsiləməsə olmazdı... Bir axşam qaranlıqda lap yaxında eşidilən səslər onu əməllicə-başlıca ürkütdü. Çalada gizlənməyə vaxt tapana qədər. Və camaat, çox güman ki, fabrikin işdə ləngimiş məmurları idi, onun gizləndiyi yerin yanından keçəndə gözlərini yumdu, həm qorxudan, həm də ondan ki, onların həris baxışlarının onu tapa biləcəyini hiss etmişdi.

O, yenidən qala qapısına yetişəndə ürəyi hələ də döyünürdü və bir parç pivə üçün ətrafını gözdən keçirdi. Düz qapının tlnində ən aşağı keyfiyyətli meyxanalardan biri, köhnəliyindən yana əyilmiş, pis ad çıxarmış çirkli “Yaşıl mələk” vardı. Elə bu vaxt tağlı girəcəkdə bir qadın görünüb yox oldu. Macəra azarına tutulmuş Diderix qadının ardınca özünü içəri saldı. Qadın fənərin çəhrayı işığında irəlilədikcə onsuz da duvaq salınmış sifətini üstəlik bir də muftası ilə gizlətmək istədi; amma Diderix onu çoxdan tanımışdı:

– Axşamınız xeyir, froylayn Tsiilix!

– Axşamınız xeyir, cənab doktor!

Hər ikisi ağzını açıb ortada dayandı. İlk olaraq Ketxen Tsillix sözə başladı, bu evdə yaşayan və atasının bazar günü məktəbinə aparmalı olduğu uşaqlardan söz açdı. Diderix söhbətə qarışmaq istədi, amma qız dii boğaza qoymadan elə hey ütələk-ütələk danışırdı. Yox, uşaqlar, əslində, burada yaşamırdılar, amma valideynləri bu meyxanada vurnuxurdu və onlar bazar günü məktəbindən xəbər tutmamalı idilər, çünki hamısı sosial-demokrat idi... Qız birəldən toxuyurdu, əvvəlcə özünün naqis vicdanı barədə düşünən Diderix isə gördü ki, Ketxenin vicdanı onunkundan da natəmizdir. Özünün “Yaşıl mələk”də olması barədə izahat verməkdən yayındı və sadəcə, təklif etdi ki, bu halda uşaqları meyxanada gözləsinlər. Ketxen nəsə yeməkdən qorxu içində boyun qaçırdı, lakin Diderix tərsliyinə salıb həm də ona pivə sifariş verdi.

– Prost, – dedi və keşişin rahat qonaq otağında son dəfə görüşərkən, az qala, nişanlanacaqları kinayəli xatirə üzündə oynadı. Ketxenin duvağın altında gizlətdiyi sifəti qızarıb-

bozardı və o, qarşısındakı pivəni çalxalayıb dağıtdı. Birəldən də zomzunub kətildən qalxmaq və çıxıb getmək istəyirdi; lakin Diderix onu masanın arxasında küncə qısnamışdı və yayxanıb qızın qarşısını kəsmişdi. – Yəqin, uşaqlar indicə gələr! – mərhəmətlə dilləndi.

Uşaqların yerinə Yadaszon gəldi: birdən-birə ortadan peyda oldu, quruyub daşa dönmüşdü. Heç o biriləri də qımıldanmırdılar. "Deməli, gerçəkmiş!" – Diderixin beynindən şütüyüb keçdi. Deyəsən, Yadaszon da eyni şeyi düşünürdü; kişilərdən heç biri deməyə söz tapmadı. Ketxen bir daha uşaqlardan və bazar günü məktəbindən söz açdı. Yalvarışla danışırdı və az qala, ağlayırdı. Yadaszon ikrahla qulaq asırdı, hətta fikrini də bildirib dedi ki, müəyyən məsələlər ona həddən artıq dolaşıq görünür, bundan sonra o, Diderixə inkvizitorlara xas bir baxış atdı.

– Əslində, – Diderix dedi, – adi bir şeydir. Froylayn Tsillix burada uşaq axtarır, ikimiz də gərək ona kömək edək.

– Bilmək olmaz, heç olmasa, birini qazanacaq, ya yox, – Yadaszon sərt-sərt tamamladı.

Ketxen də dilini dinc qoymadı:

– Bilmək olmaz kimdən.

Kişilər badələrini yerə qoydular. Ketxen daha ağlamırdı, hətta üzündəki duvağı da yuxarıya çəkmişdi, indi də ecazkar mavi gözləri ilə gah buna, gah da ona baxırdı. Səsində nəsə bir açıq-saçıqlıq vardı.

– Neyləmək, bir halda ki ikiniz də buradasınız, – bayaqkı deyiminə əlavə edib Yadaszonun siqaret qutusundan bir siqaret götürdü, sonra da Diderixin qarşısındakı konyakı birnəfəsə boşaltdı. Özünü itirməmək növbəsi indi də Diderixə çatdı. Ketxenin digər sifəti, deyəsən, Yadaszona yad deyildi. Diderix Ketxenin üstünə bağırana qədər qız Yadaszonla öz him-cimində idi.

– Bu gün sizi əməlli-başlı tanıyarıq! – deyib Diderix əlini masaya çırpdı. Ketxen o dəqiqə özünün qadın sifətini geri qaytardı.

– Nəyi nəzərdə tutursunuz, cənab doktor?

Yadaszon onun sözünü tamamladı:

– Məncə, siz qadının layaqətini tapdamaq istəmirsiniz.

– Sadəcə, demək istəyirəm ki, – Diderixin dili dolaşdı, – froylayn Tsillix belə olanda mənim daha çox xoşuma gəlir. – Şaşqınlıqdan gözü hədəqəsindən çıxdı. – Bu yaxınlarda

biz, az qala, nişanlananda o heç bunun yarısı qədər də xoşuma gəlməmişdi.

Bu sözdən sonra Ketxen şaqqanaq çəkdi: ürəkdən tam sərbəst qopan gülüş, Diderixə bu gülüş də yad idi. Canına isti gəldi, qıza qoşulub güldü, Yadaszon da ona qoşuldu, üçü də gülə-gülə kətillərində fırlanıb daha çox konyak istədilər.

– İndi isə getməliyəm, – Ketxen dilləndi, – yoxsa atam evə məndən tez gələr. Xəstələrin yanına gedib, həmişə də bu cür şəkillər paylayır. – Dəri çantasından iki balaca şəkil çıxartdı. – Alın, sizin olsun. Yadaszon suçlu Məjdəlinin, Diderix də çobanla quzunun şəklini götürdü; amma hədiyyəsindən razı qalmadı.

– Mən də o suçlunu istəyirəm.

Ketxen axtardı, amma tapa bilmədi.

– Deməli, qismətin qoyun imiş, – qətiyyətlə dilləndi və hər üçü yola düzəldi, Ketxen onların qolundan asılıb ortada gedirdi. Onun başladığı kilsə mahnısını oxuya-oxuya üçü də solğun işıqlandırılmış Qebbelxen küçəsi ilə irəli-geri çevrə çızaraq özlərini gah sağ, gah da sol divara vururdular. Qarşıdakı tinin birində Ketxen tələsdiyini bildirib yan küçəyə buruldu.

– Sağlıqla qal, qoyun! – arxasınca əbəs yerə getmək istəyən Diderixə doğru ucadan səsləndi. Yadaszon onu bərk-bərk tutub saxladı və birdən dövlət məmuruna xas bir səslə Diderixi inandırmağa çalışdı ki, bütün bunlann hamısı yalnız təsadüfi bir zarafatdır.

– Demək istəyirəm ki, ortada anlaşılmaz heç nə yoxdur.

– Burada nəsə anlaşılmaz bir şey tapmaq fikrim yoxdur, – Diderix dedi.

– Bir də ki əgər, – Yadaszon sözünə davam etdi, – Tsillix ailəsi başqasına nisbətən mənə üstünlük verib qohum olmaq istəsə, bugünkü hadisə mənə heç cür mane ola bilməz. Bunu deməyi özümə borc bilirəm.

Diderix cavab verdi:

– Sizin ölçülüb-biçilmiş davranışınızı büsbütün və tam təqdir edirəm.

Bundan sonra onlar dabanlarını bir-birinə vurdular, bir-birinin əlini sıxıb ayrıldılar. Vidalaşarkən Ketxenlə Yadaszon himləşib-cimləşmişdilər; Diderix tam əmin idi ki, onlar elə indicə “Yaşıl mələk”də görüşəcəklər. Paltosunun yaxasını

açdı, özü ilə fəxr elədi, çünki məkrli bir tələnin üstünü açmış və yaxasını bu işdən qurtarmışdı. Yadaszona qarşı içində bir rəğbət və hörmət duydu. O özü də məhz belə hərəkət edərdi! Kişilər bir-birini yaxşı başa düşür. Belə də heyvanlıq olar?! Ketxenin ayrı sifəti, azğın qadınlığı üz-gözünə vurmuş keşiş qızı, bu hiyləli ikiləşmə, Diderixin qəlbinin dərinliyində yuva salmış sadədilliyə büsbütün yad: bu onu köklu ağac kimi silkələdi, dibi görünməyən bir uçuruma baxarkən silkələndiyi təki. Yenidən paltosunun yaxasını bağladı. Deməli, Lauerin yaşadığı meşşan dünyasından başqa ayrı bir dünya da varmış.

Fısıldaya-fısıldaya şam süfrəsinin arxasına əyləşdi. Kefi elə pozulmuşdu ki, evdəki qadınların üçü də susmağa üstünlük verdi. Frau Heslinq özündə cəsarət tapdı:

– Yemək xoşuna gəlmir, əziz bala?

Cavab əvəzinə Diderix bacılarının üstünə qışqırdı:

– Bundan sonra Ketxen Tsillixlə oturub-durmursunuz! – Ona diqqətlə baxdıqlarına görə qızarıb nərilti ilə dedi: – Əxlaqsızın biridir!

Bacıları cavab vermək əvəzinə ağız büzdülər, səs-küylə Ketxenin qarasınca söylənən eyhamlar da, deyəsən, onları qəti narahat etmədi.

– Yəqin, Yadaszonu deyirsən? – axır ki, Maqda tükü də tərpənmədən soruşdu. Diderix səksəndi. Deməli, hər şeyi bilirlərmiş, hər şeydən xəbərləri varmış: bəlkə də, bütün qadınların. Quste Daymxenin dəl Diderix alnını qurulamalı oldu. Maqda bir də dilləndi: – Ola bilsin, Ketxen barədə ciddi fikirlərin olub, sən ki bizdən heç nə soruşmamısan.

Bunun müqabilində Diderix ləyaqətini qorumaq məqsədilə masaya elə bir təpik ilişdirdi ki, qadınlar qorxudan diksinib qışqırışdılar. Bu cür gümanları söyləməyi o, qadınlara qadağan etdi. Onun fikrincə; abırlı qızların hələlik kökü kəsilməmişdi. Frau Heslinq yalvarışlı səslə dedi:

– Bacılarına baxmağın bəs deyilmi, əziz balam?!

Diderix onlara doğrudan da baxdı: gözlərindən alov yağdı və o, ilk dəfə olaraq heç bir qorxu hissi keçirmədən fikirləşdi ki, onun bacıları olan bu zənən xeylaqları indiyə qədər, görəsən, həyatlarını necə yola vermişlər...

– Nə deyəsən axı, – qətiyyətini bildirib farağat vəziyyəti aldı, – sadəcə, sizlərin cilovunu bərk çəkmək lazımdır. Evlənsəm, baxarsınız, arvadın ipini necə yığacağam! – Qız-

lar bir-birinə baxıb gülümsədiklərindən qorxdu, çünki Quste Daymxeni fikirləşdi və bəlkə, onlar da təbəssümləri ilə elə Qusteni düşünürdülər. Heç kimə inanmaq olmazdı. Qusteni qarşısında gördü, koppuş, çəhrayı sifəti ilə. Qızın pənbə dodaqları aralandı, Diderixə dil çıxartdı. Bunu bir az əvvəl Ketxen Tsillix də etmişdi, ona "Əlvida, qoyun!" deyəndə və xasiyyət etibarilə ona oxşayan Quste çıxartdığı dillə və yarı-sərxoş vəziyyətdə məhz Ketxenin görkəmini xatırladırdı!

Bu an yenə Maqda dilləndi:

– Ketxen əməllicə gicdir; amma uzun müddət oturub gözləyirsənsə və sənə elçi gələn olmursa, bu giclik də anlaşılandır.

Emmi o saat müdaxilə etdi:

– Deməzsənmi, kimi nəzərdə tutursan? Ketxen hansısa Kinasta qane olsaydı, çox güman ki, bu qədər gözləməzdi.

Uğur qazandığına əmin olan Maqda, sadəcə, sinəsini qabardıb susdu.

– Ümumiyyətlə, – Emmi salfeti masanın üstünə atıb yerindən qalxdı, – kişilərin Ketxen barədə dediklərinə o saatca necə inana bilirsən axı?! Dəhşətdir, onların cəfəngiyatı müqabilində biz əliyalın qalaq? – Hirslənib küncə əyləşdi və oxumağa başladı. Maqda yalnız çiyinlərini çəkdi, Diderix də bu arada qorxuya düşüb əbəs yerə keçid aradı ki, soruşsun, bəlkə, Quste Daymxen də?.. Uzun zaman nişanlı qalmaqla?..

– Elə hallar olur ki, – fikrini bildirdi, – orada cəfəngiyatdan söhbət belə gedə bilməz.

Bu yerdə Emmi əlindəki kitabı qırağa atdı.

– Qoy olsun! Ketxen istədiyini edir! Biz qızların da öz zövqümüzcə yaşamağa siz kişilər qədər hüququmuz var! Kişilər sevinsinlər ki, bundan sonra bizi özlərinə arvad edirlər!

Diderix ayağa durdu.

– Gör mən öz evimdə nələri eşidirəm?! – boz-boz dilləndi və Maqda gülüşünə ara verənə qədər gözlərini ondan çəkmədi. Frau Heslinq siqar gətirdi.

– Mən öz Didelimi yaxşı tanıyıram, eləsi ilə heç vaxt evlənməz, – deyib oğluna təsəlli verərək onu sığalladı. Diderix də vurğu ilə dedi:

– Heç ağlıma da gəlmir ki, ana, əsl alman kişisi haçansa belə bir iş tutsun.

Qadın oğluna yanndı.

– Oo, hamı mənim sevimli oğlum kimi ideal deyil. Bəziləri maddi tərəfini düşünüb pulun xatirinə çox şeyi qəbul edir, sonra da el-obanın dilindən-ağzından düşmür. – Oğlunun amiranə baxışı altında qorxa-qorxa zəvzəkləməyinə davam etdi: – Məsələn, Daymxen. Allahım, günahımdan keç, kişi indi o dünyadadır, indi heç vecinə də deyil, amma sağlığında haqqında nələr danışmadılar?! – Uşaqlannın üçü də israrla ona baxdı. – Hə də, – çəkinə-çəkinə dedi. – Frau Daymxenlə cənab Bukun məsələsi. Quste axı vaxtından qabaq dünyaya gəldi.

Bunu deyəndən sonra frau Heslinq sobanın qarşısındakı şəbəkənin arxasına çəkildi, çünki uşaqlarının üçü də eyni vaxtda onun üstünə düşdü.

– Bu da təptəzə bir şey! – Emmi ilə Maqda birdən dilləndilər. – Yaxşı, əhvalat necə oldu?

Bunun əksinə olaraq Diderix bağırıb qadın dedi-qodusuna son qoymağı əmr etdi.

– Biz sənin kişi dedi-qoduna qulaq asanda yaxşı idi?! – Bacılar qışqınşıb onu şəbəkənin yanından sıxışdırmağa çalışdılar. Anaları əllərini ovuşdura-ovuşdura bu yaxalaşmağa tamaşa etdi.

– Axı mən heç nə demədim, uşaqlar! Bunu o vaxt hamı danışırdı, cənab Buk da frau Daymxenə cehiz göndərmişdi.

– Deməli, oradan gəlir! – Maqda səsini qaldırdı. – Deməli, Daymxen nəslinin cehiz dayıları belə yaranırmış! Qızıl suyuna çəkilmiş çantanın da səbəbi o imiş!

Diderix Qustenin mirasının müdafiəsinə qalxdı.

– Bu miras ona Maqdeburqdan gəlib!

– Bəs nişanlısı? – Emmi soruşdu. – O da Maqdeburqdan gəlib?

Birdən hamısı səsini kəsib keyləşmiş kimi bir-birinə baxdı. Sonra Emmi kirmişcə divanın üstünə qayıtdı, hətta kitabı da əlinə aldı. Maqda barmaqlarının ucu ilə masadakı qınntıları yığışdırmağa başladı. Diderix arxasına frau Heslinqin sığındığı şəbəkəyə doğru yeridi.

– Görürsən, ana, adam dilinə yiyəlik eləməyəndə haralara gedib çıxır? Yəqin, deməzsən ki, Volfqanq öz bacısını alacaq.

Dərinlikdən zingiltiyə bənzər bir səs çıxdı:

– Mənim təqsirim nədir, əziz bala. Ey nə vaxtdandır bu əhvalat barədə heç düşünmürəm də, əslində, bəlkə də, heç düz deyil. Həyatda olanlardan kimsə bu barədə bir şey bilmir.

Emmi kitabdan başını qaldırmadan ortaya atdı:

– Oğluna pulu haradan tapacağını, yəqin ki, qoca Buk bilməmiş olmazdı.

Maqda da birbaşa ətəyini qatladığı süfrəyə deyirmiş kimi:

– Hələ çox şeylər olacaq.

Bu vaxt Diderix qollarını yuxarı qaldırdı, sanki, göylərə müraciət etmək istəyirdi. Onu çulğamaq istəyən dəhşəti vaxtında boğa bildi.

– Mən quldur və qatillər arasına düşmüşəm-nədir? – soruşdu və özünü şax tutub qapıya doğru yeridi. Orada arxaya çevrildi. – Bu gözəl elminizi düd edib şəhərə yaymağınıza, təbii ki, mane ola bilmərəm. Mənə gəldikdə isə bildirərəm ki, sizinlə mənim heç bir bağlılığım yoxdur. Bunu qəzetə də verəcəyəm. – Bunları deyib evdən çıxdı.

Ratskellerə getmək fikri yox idi, Klapşın meyxanasında tək-tənha oturanda dəhşətlərin cövlan etdiyi bir dünyanı fikrində canlandırırdı. Həmin dəhşətlərə qarşı yalın əllə mübarizə aparmaq olmazdı. Bukların rüsvayçı qarətlərini əllərindən çıxarmaq üçün gərək güclü vasitələrdən qorxub çəkinməyəsən.

– Zirehli yumruqla, – tam ciddiliklə qarşısındakı pivə parçına söylədi və dördüncü pivənin sifarişinə siqnal olan qapaq şaqqıltısı qılınc cingiltisi kimi səsləndi... Aradan xeyli keçəndən sonra duruşundakı sərtlik azaldı; qayğıları başladı. Hər dəfə nəyə isə müdaxilə edəndə bütün şəhər barmağını Quste Daymxenə tuşlayacaqdı. Bir balaca qeyrəti olan kəs belə bir qızla ailə qurmazdı. Bunu Diderixin öz duyğuları, içində kök atmış kişilik, ideallıq tərbiyəsi deyirdi. Heyif! İndi sahibi və təyinatı olmayan üç yüz əlli min markdan heyif. Onları işə yaratmaq Diderixin əlində heç nə idi... Diderix həmin fikirləri hirslə başından qovub tökdü. Yalnız öz borcunu yerinə yetirdi! Cinayətə mane olmaq gərəkdir. Qoy qadın görsün ki, kişilərin davasında onun yeri haradadır. Belə bir məxluqun, hər cür satqınlığa qabil olan onlardan birisinin, Diderix bunu öz üzərində hiss etmişdi, taleyi barədə düşünməyə dəyərdimi?! Onun qəti qərar qəbul etməsi üçün beşinci pivəyə ehtiyac duyuldu.

Səhər süfrəsinin arxasında o, bacılarının “Harmoniya”dakı bal üçün aldıqları pal-paltara böyük maraq göstərdi. Cəmi iki gün qalıb, hələ heç nə hazır deyil? Ailənin dərzisi çox gec-gec gözə dəyirdi, indi o, Bukların, Titslərin, Harnişlərin, daha kim bilir kimlərin paltarını biçib-tikirdi. Həmin qızın işdən başının açılmamasını Diderix təəccüblə qarşıladı. Özünün şəxsən onun yanına gedəcəyini və nəyin bahasına olur-olsun, dartıb bura gətirəcəyini bildirdi. Bu ona asan başa gəlmədi. İkinci səhər yeməyində evə elə səssiz daxil oldu ki, yandakı qonaq otağında gedən söhbətə bir qınnaq da mane olmadı. Məhz elə bu vaxt dərzi qız indiyə qədər olanları kölgədə qoymuş qalmaqaldan eyhamla danışırdı. Bacılar, deyəsən, tamam xəbərsiz imişlər, amma axırda adlar çəkiləndə dəhşətə gəlib buna şübhə ilə yanaşdılar. Frau Heslinq, demək olar, ah-fəryad elədi: necə olur, froylayn Qerisin ağlına belə şey gəlir?! Dərzi qız inandırmağa çalışdı ki, bütün şəhərin bundan çoxdan xəbəri var. O elə indicə vali Şeffelfeldin arvadının yanından gəlir, anası kürəkənindən tələb edirmiş ki, işə qarışsın! Bununla belə, qadınları inandırmaq ona asan başa gəlmədi. Dilderix daha çox bunun tərsini gözləyirdi. Özününkülərdən razı qaldı. Doğrudanmı yerin qulağı vardı? Belə çıxırdı ki, bağlı qapı arxasında edilən dedi-qodu bəndi-bərəni aşıb, sobanın tüstüsü ilə çölə çıxıb və bütün şəhərə yayılıb.

Buna baxmayaraq Diderix yenə də rahatlaşa bilmirdi. Özü özünə deyirdi ki, zəhmətkeş xalqın sağlam düşüncəsi müəyyən şərtlər altında elə bir amil olar ki, onu dəyərləndirib hətta istifadə də edə bilərsən. Günorta yeməyinə qədər o, Napoleon Fişerin ətrafında dolandı. Bu vaxt, nahar fasiləsinin zəngi çalındı, hamarlayıcı maşının yanında tükürpədən bir qışqırtı qopdu, eyni anda özlərini yetirən Diderixlə mexanik gənc fəhlə qızın polad valın altında qalmış qolunu birlikdə çəkib çıxartdılar. Qızın qolundan qapqara qan axırdı, Diderix həmin an şəhər xəstəxanasına zəng etdirdi. Qola baxanda özünü nə qədər pis hiss etsə də, qıza müvəqqəti sarğı qoyulanda özü də orada oldu. Qız astadan zarıyaraq, yaralanmış körpə heyvan kimi dəhşətdən üzülərək gözlərini qolundan çəkmirdi. Qızın ailə münasibətləri barədə Diderixin verdiyi yanımcıl sualı o başa düşmədi. Onun yerinə Napoleon Fişer cavab verdi. Atası onları atıbmış, anası yorğan-döşək xəstəsi imiş; bala-

ca qardaş-bacılarının ikisini də o saxlayırmış. Vur-tut on dörd yaşı varmış.

– Heç cür on dörd yaş verməzsən, – Diderix dilləndi. – Hər halda, qadın fəhlələr kifayət qədər tez-tez maşın barədə xəbərdar ediliblər. Bədbəxtliyi, əslində, qız özü qazanıb, mən heç nəyə cavabdeh deyiləm. Yaxşı, – xeyli mülayim dedi, – indi isə mənimlə gəlin, Fişer! – Kontorda iki qədəh konyak süzdü. – O cür həyəcandan sonra adamın belə şeyə ehtiyacı olur... Düzünü deyin, Fişer, sizcə, mən pul ödəməliyəmmi? Maşının təhlükəsizlik qurğuları bəs eləmirmi? – Mexanik çiyinlərini çəkdiyindən: – Demək istəyirsiniz ki, işi məhkəməyə gedib çıxa bilər! Amma oraya qoymaram, pulunu elə indi verəcəyəm. – Napoleon Fişer heç nə anlamadan iri, sarı dişlərini göstərdi və Diderix sözünə davam etdi: – Bəli, mən beləyəm. Yəqin fikirləşirdiniz ki, bunu yalnız cənab Lauer bacarar? Ona gəlincə, fəhlələrlə çıxardığı hoqqanın nəyə başa gəldiyini öz partiyanızın qəzeti yazıb. Əlahəzrəti həqarətə görə mən özümü dustaqxanaya saldırıb fəhlələrimi çörəksiz qoymaram; ictimai görüşümü izhar etmək üçün yararlı yollar axtarıb taparam. – Təntənəli bir fasilə etdi. – Ona görə də qərara almışam ki, qız xəstəxanada yatan müddətdə onun maaşını ödəyim. Görəsən, nə qədər edər? – tələsik soruşdu.

– Bir mark əlli pfenniq, – Napoleon Fişer dedi.

– Qoy olsun... qoy iki ay, lap üç ay yatsın... Ömürlük yatmayacaq ki!

– On dörd yaşı təzəcə tamam olub, – Napoleon Fişer altdan-yuxarı dedi. – Dəyən ziyanın ödənilməsini istəyə bilər.

Diderix qorxuya düşdü, fısıltısı yeri-göyü götürdü. Napoleon Fişer təsnifə gəlməyən irişiyini yenidən sifətinə taxmışdı və qorxmuş sahibkarının cibində düyünləmiş yumruğuna baxırdı. Diderix əlini cibindən çıxartdı.

– İndi isə geniş ürəklə çıxardığım bu qərarı fəhlələrə çatdırın! Deyəsən, sizi çaşbaş saldım, hə? Kapitalistlərin əclaflığından, yəqin ki, ağızdolusu danışırsınız. İclaslarınızda, çox güman ki, cənab Buk barədə uzun-uzadı nitqlər söyləyirsiniz. – Napoleon Fişer çaşıb-qalmışdı, amma Diderix buna qəti fikir vermədi. – Əgər kimsə anası ilə əlaqəsi olmuş qızı, özü də qız dünyaya gəlməmişdən qabaq əlaqəsi olmuş qızı öz oğluna arvad etmək istəyirsə, mən buna heç də yaxşı baxmıram... Amma...

Napoleon Fişerin sifəti səyridi.

– Amma! – Diderix xüsusi vurğu ilə təkrarladı. – Heç cür razı olmazdım ki, mənim adamlarım ağızlarını Allah yoluna qoysunlar və siz, Fişer, fəhlələri şəhər idarələrinin əleyhinə qızışdırasınız, çünki hansısa magistrat müşaviri nəsə bir iş tutub və heç kim bunu ona sübut edə bilməz. – Yumruğu hirslə havanı yarıb keçdi. – Arxamca danışırlar ki, Lauerin məhkəmə prosesini mən düzüb-qoşmuşam. İstəyirəm dedi-qodulara son qoyulsun, qoy adamlarım sakitləşsinlər.

Səsində bir məhrəmlik vardı, Fişerə bir az da yaxın əyildi:

– Hə, Fişer, sizin nüfuzunuza yaxşı bələd olduğumdan...

Birdən əli açıldı və ovcunda üç iri qızıl parçası göründü. Napoleon Fişer onları görüb ağız-gözünü əyişdirdi, sanki, gözünə görünən iblisin özü idi.

– Yox, – bərkdən qışqırdı, – min kərə yox! Məsləkimi sata bilmərəm! Dünyanın dağ boyda qızılına da! – Gözlərinə qan sağılmışdı və az qala qıyya çəkdi. Diderix arxaya çevrildi; hələ heç vaxt indiki kimi qiyamla bu cür göz-gözə dayanmamışdı. – Həqiqət üzə çıxmalıdır, – Napoleon Fişer qabardı. – Bunun qeydinə biz fəhlələr qalmalıyıq. Buna mane ola bilməzsiniz, cənab doktor! Sahibkarlar silkinin rüsvayçı əməlləri...

Diderix tələsik ona bir qədəh də konyak uzatdı.

– Fişer, – israrla dedi, – pulu sənə ona görə təklif edirəm ki, bu işdə mənim adım hallanmasın.

Lakin Napoleon Fişer təklifi bu dəfə də rədd etdi; üzündə yüksək bir vüqar gəzişdi.

– Bizdə zorla şahidliyə təhrik etmirlər, cənab doktor. Bizdə yox. Bizi təşviqat materialı ilə təchiz edənin qorxmağa ehtiyacı olmur.

– Onda hər şey qaydasındadır, – yüngülləşmiş Diderix dedi. – Çoxdan bilirdim ki, Fişer, siz böyük siyasətçisiniz. Odur ki həmin qıza görə, qəzaya uğramış fəhləni nəzərdə tuturam... Bukların heyvanlığı barədə dediklərimlə sizə yaxşılıq etmiş oldum...

Napoleon Fişer sırtıq-sırtıq irişdi.

– Cənab doktor deyirlərsə ki, mən böyük siyasətçiyəm... Mən daha dəyən ziyanın ödənilməsindən danışmayacağam. Birinci dairədən olanlarla yaxınlıq bizim üçün daha vacibdir, nəinki...

– o cür bir qız, – Diderix onun sözünü tamamladı. – Siz həmişə siyasətçi kimi düşünürsünüz.

– Həmişə, – Napoleon Fişer təsdiqlədi. – Naharınız nuş olsun, cənab doktor.

Bunu deyib bayıra çıxdı, Diderix də qət etdi ki, proletar siyasətinin müəyyən üstünlükləri var. Əlindəki üç qızıl sikkəni təzədən cibinə qoydu.

***

Ertəsi günün axşamı evdəki güzgülərin hamısını qonaq otağına yığmışdılar. Emmi, Maqda və İnqe Tits boğazları ağrıyana qədər onların arasında fırfıra kimi fırlandılar; sonra əsəbi halda hərəsi bir kətilin qırağına çökdü.

– Allahım, vaxt gəlib çatdı ki!

Amma Diderix bu dəfə qəti qərara gəldi ki, Lauerin məhkəməsində olduğu kimi tez getməsin. Tez getdiyin yerdə özünə hörmət gözləmə. Axır ki, qızlar tərpənmək istəyəndə İnqe Tits frau Heslinqdən karetdə onun yerini tutduğuna görə bir daha üzr istədi. Frau Heslinq bir də dedi:

– Allah xatirinə, xoşdur mənim üçün. Mən yaşda qadın bu böyüklükdə işin altını çəkə bilməz. Gedin, ürəyinizcə şənlənin, uşaqlar!

Bundan sonra göz yaşları içində qızlarını qucaqladı, qızlar isə onun bu hərəkətini soyuq qarşıladılar. Zira bilirdilər ki, anaları, sadəcə, qorxur, çünki hər yerdə onun ucbatından bütün şəhərə yayılmış həmin şayiədən başqa ayrı şeydən danışmırdılar. Karetdə də İnqe yenidən həmin əhvalatdan söz saldı.

– Hə də, Buklar və Daymxenlər! Məni maraq götürüb, görəsən, onlar bu gün həyasızlıqlarına salıb tamaşaya gələcəklərmi.

Maqda sakitcə dilləndi:

– Ayrı yolları yoxdur, yoxsa həmin hadisənin gerçək olduğunu etiraf etmiş olarlar.

– Lap elə olsa da, – Emmi sözə qarışdı. – Məncə, bu onların öz işidir. Belə şeylər məni qəti narahat etmir.

– Məni də,– Diderix əlavə etdi. – Əslində, bunu mən bu gün axşam sizdən eşitdim, froylayn Tits.

İnqe Tits özündən çıxdı. Qalmaqalı bu qədər də qeyri-ciddi qəbul etmək olmazdı axı. Yoxsa Diderix elə bilir, bunların hamısını Tits özündən uydurub?!

– Bu işə görə Buklar çoxdan bədnamdırlar, bunu öz qulluqçuları da bilir.

– Deməli, qulluqçuların dedi-qodusudur, – deyib Diderix dizi ilə ona ilişdirən Maqdanın cavabını zoxma ilə verdi. Faytondan düşüb Qeysər-Vilhelm-Ştrasenin təzə hissəsini xeyli çökəkdə yerləşən qədim Rikeştrase ilə birləşdirən pillələrlə aşağı enəsi oldular. Diderix asiləndi, çünki yağış başladı və bal çəkmələri islandı; bayramsayağı bəzədilmiş binanın qarşısında kasıblar da dayanmışdı, nifrətdolu gözləri ilə gələnlərə baxırdılar. Şəhərin bu hissəsini tikərkən gördüyümüz xarabalığı uçurub yox etmək olmazdımı?! Yox, canım, tarixi "Harmoniya" binası gərək saxlanılaymış, elə bil, şəhərin pulu yox imiş ki, mərkəzdə birincidərəcəli müasir bir bina tiksin. Bu köhnə qutu başdan-başa kif iyi verir. Giriş qapısının ağzında qadınlar xısın-xısın gülüşürdü, çünki burada bir dostluq heykəli dayanmışdı, başında hündür bir parik vardı, əynində isə heç nə yox idi.

– Ehtiyatlı olun, – pilləkənə çatanda Diderix dilləndi. – Gözləyin ki, mayallaq aşmayaq. – Zira pilləkənin hər iki qövsvari məhəccəri qocalıqdan ətini tökmüş bir cüt qol kimi uzanıb gedirdi. Onun qonur-çəhrayı taxtası rəngini itirib bozarmışdı. Yuxarıda, həmin qolların qovuşduğu yerdə saçlarına hörük vurmuş, bütün bunları şəhərə miras qoymuş və Buk soyundan olan valinin bərqli mərmər sifəti gülümsəyirdi. Diderix məyus olub gözünü ondan çəkdi.

Güzgülü geniş eyvanda tam sakitlik idi; orada bircə xanım dayanmışdı və deyəsən, qapının arasından içəriyə boylanırdı. Qızları birdən dəhşət bürüdü: tamaşa artıq başlamışdı! Maqda özünü eyvana saldı və yaş onu boğdu. Bu vaxt qadın əli dodağının üstündə arxaya çevrildi. Bu, əsərin müəllifi frau fon Vulkau idi. O, həyəcan içində gülümsəyib pıçıldadı:

– Hər şey qaydasındadır, əsərim tamaşaçıların xoşuna gəlir. Siz lap vaxtında gəlmisiniz, froylayn Heslinq, gedin, paltarınızı dəyişin.

Elədir ki var! Axı Emmi ilə Maqda yalnız ikinci pərdədə çıxış edirdilər. Elə Diderix də başını itirmişdi. Bacıları onlara kömək etməli olan İnqe Titslə yan otaqlarla qarderoba tələsəndə Diderix özünü yerli hökumət başçısının xanımına təqdim etdi və quruyub yerində qaldı.

– İndi içəri keçə bilməzsiniz, tamaşaçılara mane olarsınız, – xanım dedi.

Diderix mızıldanıb üzrxahlıq elədi, sonra gözünü çevirib divar rəsmlərinin arasındakı yarısı qaralmış güzgüdə özünün müəmmalı şəkildə saralmış əksi ilə rastlaşdı. Divarların zərif sarı lakı bəzi yerlərdə qəribə şəkildə qalxmışdı və rəsmlərdəki gül və sifətlərin rəngi ölmüşdü...

Frau fon Vulkau kiçik qapılardan birini bağladı, həmin qapıdan, sanki, kimsə, daha doğrusu, əlində bağla bəzədilmiş çomağı olan çoban qız içəri girirdi. Xanım qapını çox ehtiyatla bağladı ki, tamaşanın gedişinə mane olmasın, lakin göyə bir balaca toz qalxdı, sanki, bu, şəkli divara çəkilmiş çoban qızın saçından tökülən pudra idi.

– Bu bina çox romantlkdir, – frau fon Vulkau pıçıldadı. – Sizə elə gəlmirmi, cənab doktor? Adam burada güzgüyə baxanda elə bilir əyninə qırovdan libas geyib, – bu sözdən sonra hələ də özünə gəlməmiş Diderix onun şalax paltarına baxdı. Çılpaq çiyinləri çökəlib qabağa əyilmişdi, ağımsov-sarışın saçları, gözündə isə pensnesi vardı.

– Siz buraya necə də yaraşırsınız, frau Vulkau... frau qrafinya, – dediyinə düzəliş verdi və cəsarətli yanılmasına görə xanım tərəfindən təbəssümlə qarşılandı. Frau fon Vulkaunun qızlıq çağlarında qrafinya Süzeviç olduğunu bu cür möhkəm əminliklə hər adam ona xatırlada bilməzdi!

– Doğrudan da, – qrafinya dilləndi, – adamın heç inanmağı gəlmir ki, bu bina öz dövründə əsl kübar cəmiyyət üçün deyil, yalnız xoşüzlü Netsiq vətəndaşlarından ötrü inşa edilib. – İltifatla gülümsədi.

– Bəli, qəribədir, – Diderix dabanlarını bir-birinə vurub təzim edərək onun sözünü təsdiqlədi. – Amma bu gün qrafinya həzrətləri özünü burada öz evindəki kimi hiss edə bilər.

– Deyəsən, gözəllikdən baş çıxarırsınız, – frau fon Vulkau gümanını gizlətmədi və Diderix bunu təsdiq etdiyindən bildirdi ki, birinci pərdəni tam buraxmayıb qapının arasından tamaşa etsin. Onun özu xeyli vaxt idi ki, ayağının birini qaldırıb o birini qoyurdu. Yelpiyi ilə səhnəni göstərdi.

– Cənab mayor Kuntse indicə səhnədən çıxacaq. Bu rola heç cür yaraşmır, amma neyləyəsən, "Harmoniya"da sədarətin üzvüdür və əsərimin bədii dəyərini adamlara o başa salıb. – Diderix mayoru çətinlik çəkmədən tanıdı, çünki o qəti dəyişməmişdi; qrafinya bu arada birinci pərdədəki hadisələrin gedişini tələsə-tələsə danışmağa başladı. Kunt-

senin söhbət etdiyi o gənc kəndli qızı onun doğma övladıdır, daha doğrusu, qraf qızıdır, buna görə də əsərin adı "Gizli qrafinya"dır. Kuntse, həmişə olduğu kimi, deyingənlik edib bunu qıza başa salır. Üstəlik, deyir ki, onu kasıb qohumlarından birinə ərə verəcək və var-dövlətinin yarısını ona vəsiyyət edəcək. Kuntse çıxıb gedəndən sonra qızın və Icarəçi arvadı olan ögey ananın sevinci yerə-göyə sığmır.

– Bəs o qorxunc adam kimdir? – Diderix götür-qoy etmədən soruşdu. Frau fon Vulkaunu heyrət götürdü.

– Şəhər teatrının yaşlı komik aktrisasıdır. Həmin rola başqasını tapa bilmədik; amma bacım qızı onunla çox gözəl oynayır.

Diderix bərk qorxdu; qorxunc adam deyəndə məhz həmin bacıqızını nəzərdə tutmuşdu.

– Bacınız qızı çox cazibədardır, – tələsik öz hökmünü verdi və görün kimin, məhz cənab Vulkaunun çiynində oturmuş (!) ətli qırmızı sifətə heyrətlə baxdı. – İstedadına da söz ola bilməz, – özünü sığortalamaq üçün əlavə etdi. Frau fon Vulkau pıçıltılı səslə dedi:

– Ehtiyatlı olun ha!

Elə bu vaxt asessor Yadaszon səhnənin arxasından çıxıb onlara doğru gəldi. Necə bir sürpriz! Şalvarının qatları ütüdən təzəcə çıxmışdı və geniş açılmış yaxasında iri bir qalstuk, elə həmin irilikdə də bir daş-qaş vardı. Daş-qaş nə qədər bərq vursa da, Yadaszonun qulaqları həmin bərqi kölgədə qoyurdu. Başı təzəcə qırxıldığından və şüşə kimi olduğundan qulaqlar heç bir maneəyə rast gəlmədən şəlpələnib irəli çıxır və onun bayram libasını qoşa çıraq kimi işıqlandırırdı. O, sarı əlcəkli əlini elə yellədi ki, elə bil, müttəhimə uzunillik həbs hökmü oxuyurdu və doğrudan da, özünü itirmiş bacı qızına, eləcə də səsini başına salıb ağlayan komik qarıya xoşagəlməz şeylər söylədi... Frau fon Vulkau pıçıltılı səslə dedi:

– Murdar xasiyyəti var.

– Özü də necə, – Diderix tam əminliklə dedi.

– Əsərimdən xəbəriniz var?

– Əslində, yox. Amma onun niyyətini bilirəm.

Məsələ beləydi ki, qoca qraf Kuntsenin oğlu və varisi olan Yadaszon pusub hər şeyi dinləmişdi və Allahın bəxş etdiyi var-dövlətin yarısını bacısına güzəştə getmək istəmirdi. Qıza əmr edib deyirdi ki, elə indicə meydandan çəkil-

sin; əks təqdirdə onu yalançı varis adlandırıb Kuntseni himayə hüququndan məhrum etdirəcək.

– Bu ki əclaflıqdır, – Diderix özünü saxlaya bilmədi. – Axı qız onun bacısıdır.

Frau fon Vulkau müəllif kimi izahat verdi:

– Elə olmağına elədir. Amma digər tərəfdən ata varidatının gətirdiyi gəlirdən dolanmaq istəyirsə, o da haqlıdır. O, bütün nəsil üçün çalışır və bu yolda hər kəsi aradan götürməyə hazırdır. Gizli qrafinya üçün bu, təbii ki, faciədir.

– Düz-əməlli fikirləşəndə... – Diderixin sevinci yerə-göyə sığmadı. Maqdanı ərə verəndə onun fabrikdə payda iştirakında Diderix maraqlı deyildisə, bu kübar yanaşma onun da işinə yarayırdı.

– Xanım qrafinya, pyesiniz əladan əladır, – sirayətlə dedi. Amma frau fon Vulkau qorxu içində onun qolundan yapışdı: tamaşaçıların içində səs-küy baş qaldırmışdı, çaxnaşırdılar, asqırırdılar, hihildəşirdilər.

– Lap ağ eləyir, – qadın zarıdı. – Neçə dəfə demişəm ki...

Yadaszon, doğrudan da, özünü görünməmiş şəkildə aparırdı. Bacıqızını komik qarı ilə birlikdə masanın arxasına sıxışdırıb özünün qraf şəxsiyyətinin haylı-küylü izharı ilə bütün səhnəni doldurmuşdu. Zal ona nə qədər öz etirazını bildirirdisə, o bir o qədər tələbkarlıqla təşəxxüslənirdi. Hətta onu fitə basan da oldu; bəli, tamaşaçıların çoxu üzünü qapıya tutdu, frau fon Vulkaunun arxasında ayağını yerə döyüb fit çalanlar da tapıldı. Bəlkə, bu ona görə belə alındı ki, qapı cırıldadı: qrafinya diksinib geri qanrıldı, pensnesini itirdi, əli hər yerdən üzüldü, Diderix pensneni tapıb ona verənə qədər havada əl-qol atdı. Diderix ona təsəlli verməyə çalışdı.

– Yadaszonun deməyə sözü qalmayıb, çox güman ki, tezliklə səhnədən çıxar, eləmi?

Qadın bağlı qapının arxasından içərini dinşədi.

– Hə, Allaha şükür, – səsi güclə çıxdı, dişləri bir-birinə dəyib şaqqıldadı. – Axır ki, qurtardı, indi bacım qızı ilə komik qarı qaçıb gedəcəklər, sonra da Kuntse leytenantla gələcək, aydındır?

– Tamaşada leytenant da var? – Diderixin səsində bir ehtiram duyuldu.

– Bəli, daha doğrusu, hələlik gimnaziyada oxuyur, məhkəmənin sədri cənab Şpresiusun oğludur: həmin o kasıb

qohumdur ki, qoca qraf onu qızına ər etmək istəyir, aydındır? O da gizli qrafinyanı bütün dünyada axtaracağını qocaya söz verir.

– Tam aydındır, – Dederix dedi. – Bu onun öz marağından irəli gəlir.

– Özünüz görəcəksiniz, çox nəcib insandır.

– Amma Yadaszon, fikrimi bildirməyə icazə versəydiniz, xanım qrafinya, həmin rolu ona verməsəniz yaxı olardı, – Diderixin səsində bir qınaq və gizli bir məmnunluq vardı. – Təkcə qulaqlanna görə.

Pərtləşmiş frau fon Vulkau dedi:

– Heç ağlıma da gəlməzdi ki, səhnədə özünü belə aparacaq. Necə fikirləşirsiniz, buna uğursuzluq demək olarmı?

– Xanım qrafinya, – Diderix əlini ürəyinin başına qoydu. – "Sirli qrafinya" kimi bir pyesi asanlıqla məhv etmək olmaz!

– Elə olmağına elədir! Teatrda söhbət, çox güman ki, əsərin bədii dəyərindən gedir.

– Əlbəttə. Təbii ki, bu cür qulaqlann özü də böyük təsir gücünə malikdir. – Diderixin üzündə həyəcan izləri göründü.

Frau fon Vulkau yalvanşlı bir səslə dilləndi:

– İkinci pərdə daha yaxşıdır! Əhvalat lovğa fabrikant ailəsində vaqe olur və gizli qrafinya orada qulluqçuluq edir. Burada bir pianino müəllimi də var, yaxşı insan deyil, hətta evin qızlarından birini də öpüb, axırda o, gizli qrafinyaya onunla evlənməyi təklif edir, qız da ona, təbii ki, rədd cavabı verir. Pianino müəllimi! Qrafinya buna necə razı olardı?!

Diderix bunun mümkünsüz olduğunu təsdiq etdi.

– Hələ axırına baxın, görün necə faciəvidir: özünü pianino müəlliminə öpdürən evin qızı balların birində bir nəfər leytenantla nişanlanır və leytenant evə gələndə məlum olur ki, o elə həmin leytenantdır ki...

– Allahım, xanım qrafinya! – Diderix, sanki, nədənsə qorunurmuş kimi qollarını qabağa uzatdı, bu cür dolaşıq münaqişədən tamam çaşbaş qalmışdı. – Bu qədər əhvalat ağlınıza haradan gəlir?

Pyesin müəllifi məftunluqdan gülümsədi.

– Elədir, əslində, ən maraqlısı da elə budur: adam özü də başa düşmür. İlham gələndə hər şey sirlər yuvasına çevrilir. Hərdən mənə elə gəlir ki, bu, mənə irsən keçib.

– Dəyərli nəslinizdə yazarlar çoxmu olub?

– Onu deməzdim. Amma mənim ulu babam Kröxenverda döyüşünü udmasaydı, kim bilir, mən "Sirli qrafinya"nı yazardımmı? Hər şey insana qanla keçir.

Döyüş yerinin adı çəkiləndə Diderix dabanını bir-birinə vurub təzim etdi və daha nəsə soruşmağa cəsarəti çatmadı.

– İndicə pərdə enəcək, – frau fon Vulkau dedi. – Nəsə eşidirsiniz? – Diderix heç nə eşitmirdi, fəqət müəllif üçün nə qapı mövcud idi, nə də divar. – Leytenant indi qərib qrafinyaya əbədi sədaqət andı içir. Belə. – Pıçıltı ilə dedi və sifətinin qanı büsbütün çəkilib getdi. Azca keçəndən sonra qan öz yerinə qayıtdı; əl çalırdılar; sürəkli olmasa da, çalırdılar. Qapı içəridən açıldı. Pərdə bir daha yuxarı qalxdı, cavan Şpresiusla Vulkauların bacısı qızları pərdənin önünə çıxdıqlarından alqış xeyli canlandı.

Birdən Yadaszon səhnənin arxasından tələsə-tələsə gəlib hər ikisinin arasında bitdi və elə sifət göstərdi ki, elə bil, bütün uğuru təkcanına döşürmək istəyirdi; onun bu hərəkətinə fitiə cavab verdilər. Frau fon Vulkau hirslə üzünü yana çevirdi. Ona xoşbəxtlik diləyən vali Şeffelvaysın qayınanasına və məhkəmə üzvü Harnişin arvadına dedi:

– Asessor cənab Yadaszon prokurorluğa qəti yaramır. Bunu ərimə çatdıracağam.

Qadınlar həmin sözləri o saat camaatın arasında yaydılar və böyük uğur qazandılar. Güzgülü eyvan yalnız Yadaszonun qulaqlarından danışan tamaşaçı dəstələri ilə dolmuşdu. "Yerli hökumət başçısının xanımı gözəl bir əsər yazıb; amma Yadaszonun qulaqları..." Onlar eşidəndə ki Yadaszon ikinci pərdədə çıxış etmir, tam məyus oldular. Volfqanq Buk Quste ilə bərabər Diderixə doğru getdi.

– Eşitmisiniz? – Diderixdən soruşdu. – Yadaszon rəsmi şəxs kimi gərək öz qulaqlarını müsadirə etsin.

Diderix ikrahla:

– Mən sınığa gülüb zarafat etmirəm, – dedi və Bukla onun müşayiətçisinə yönəlmiş baxışları acgözlüklə tutdu. Camaat onlara baxanda bütün sifətlərdə bir canlanma yaranırdı; Yadaszon artıq unudulmuşdu. Girlş qapıdan üzü bu yana professor Künxenin cır səsi çaxnaşmanın donqultusunu kəsdi, səs, sanki, "Abırsızlıq" deyirdi. Keşiş Tsillixin arvadı onu ipə-sapa yatırmaq üçün əlini kişinin qolunun üstünə qoyanda professor üzünü bu tərəfə çevirdi və indi tam aydın anlaşıldı:

– Nə abırları qalıb, nə həyaları!

Quste ətrafına baxındı; gözləri qıyıldı.

– Orada da bu barədə danışırlar, – sirli adamlar kimi dilləndi.

– Nə barədə? – Diderix soruşdu.

– Artıq bilirik. Kimin onu yaymasını da bilirəm.

Bu yerdə Diderixi tər basdı.

– Nə oldu sizə? – Quste soruşdu.

Yan qapıdan bufeti gözdən qoymayan Buk dedi:

– Heslinq suyu üfürə-üfürə içən siyasətçidir, valinin bir tərəfdən gözəl ər olması, digər tərəfdən də qayınanasına "yox" deyə bilməməsi barədə gəzən söz-söhbətlərə həvəslə qulaq asmır.

Diderix həmin an toxqırmızı rəng aldı.

– Bu tam əclaflıqdır! Kimsə bu cür əclaflığı necə ağlına gətirə bilər.

Quste bərkdən güldü. Bukun heç tükü də tərpənmədi.

– Birincisi, bu faktdır, çünki valinin arvadı ikisini də bir yerdə tutub və bunu rəfiqəsinə danışıb. Sonra da hər şey ovcumuzun içi kimi aydındır.

Quste özünü saxlaya bilmədi:

– Ey, siz, cənab doktor, təbii ki, bu barədə heç nə bilmirsiniz. – Bunu deyib sevgidolu gözlərini nişanlısına dikdi. Diderix alışıb-yanan gözləri ilə onları süzdü.

– Belə de! – soyuq dilləndi. – İndi yetərincə bilirəm!

Onlara arxa çevirdi. Əclaflıqları onlar özləri uydururdular, xüsusilə də vali barəsində olanları! Diderix başını dik tuta bilərdi. O, bufetə üz tutan və ətrafa xoş narazılıq abhavası yayan Künxenin dəstəsinə qoşuldu. Valinin ölü sifətli qayınanası əzizlərinin canına and içdi ki, "belələri" gələcəkdə bu binanın içinə həsrət qalacaqlar, ona yalnız çöldən baxa biləcəklər və qadınların çoxu onun bu təklifinə qoşuldu, baxmayaraq ki müstəsnasız olaraq hər şeyi şübhə altına alan univermaq sahibi cənab Kon onları bu fikirdən daşındırmağa çalışdı, çünki onun fikrincə, cənab Buk kimi hörmət-izzət sahibi qoca liberal əxlaqsızlıq yolunu tuta bilməz. Professor Künxen isə daha çox bu fikirdə idi ki, hədsiz radikalizm əxlaqı da korlayır. Hətta azaddüşüncəli insanlar üçün bazar günləri şənlik təşkil edən doktor Hoytoyfel də bildirdi ki, qoca Bukdan qohumcanlılıq, buna nepotizm də demək olar, heç vaxt əskik olmayıb.

– Bu cür nümunələr sizlərin dilindən heç vaxt düşməyib. Və o, indi pulu ailədə saxlamaq xatirinə özünün bic övladlarını qanuni övladları ilə evləndirməyə girişirsə, möhtərəm xanımlar və cənablar, buna mən bir həkim kimi əvvəllər onda mövcud olmuş təbii meyillərin yaşlılıq dövründə baş qaldırması diaqnozunu qoyuram.

Bu məqamda xanımların üz-gözü qorxudan əyildi, hətta keşiş Tsillixin arvadı qızı Ketxeni soyunub-geyinmə məkanına burun dəsmalının dalınca göndərdi.

Yolda Ketxen Quste Daymxenin yanından keçib-getdi, ancaq ona salam vermədi, əksinə, gözlərini yerə dikdi; Qustenin üzünə şaşqınlıq qondu. Bufetdəkilər bunu görüb mərhəmətə bulaşmış qınaqlarını bildirdilər. Qoy Quste indi bilsin ki, elsəl mənəviyyata üstdən-aşağı baxmaq nə deməkdir. Ola bilsin, yalanın qurbanı olub, bəlkə onu çaşdırıblar, təsir altına salıblır. Bəs baş müfəttişin arvadı Daymxen necə, o ki hər şeyi bilirdi, axı onu xəbərdar da etmişdilər! Valinin qayınanası Qustenin anasına qonaq getdiyini dedi və sərtləşmiş qarıdan etiraf qoparmağa etdiyi əbəs cəhdlərdən danışdı, həmin qarı üçün Buk ailəsi ilə qanuni əlaqə onun gənclik xatirələrinin oyanışı idi!..

– Yaxşı, heç vəkil Buku demirsiniz! – Künxen cingiltili səslə dilləndi. Doğrudan da eləydi, bu cənab kimi inandıra bilərdi ki, ailəsinə üz vermiş yeni rüsvayçılıqdan onun xəbəri olmayıb? Lauerin ailəsindəki cinayət ona məlum deyilmiş? Bununla belə, yalnız ad çıxarmaq xatirinə bacısının və yeznəsinin çirkli paltarlarını camaatın gözü önündə məhkəmənin qarşısına sərmədimi?! Məhkəmədə öz mövqeyini köklü şəkildə yaxşılaşdırmağa çalışan doktor Hoytoyfel demədimi:

"O, vəkil deyil, məzhəkəçidir!"

Diderix məhkəmənin nəzərinə çatdıranda ki Buk, mübahisəli də olsa, siyasətdə və mənəviyyatda müəyyən inanclara malikdir, ona irad tutdular:

– Cənab doktor, siz onun dostusunuz. Onun xeyrinə çıxış etməyiniz sizə şərəf gətirir, amma bununla bizim başımıza ağıl qoya bilməzsiniz. – Bunun müqabilində Diderix pərt olub geri çəkildi, ancaq qaxac buterbrodunu yeyə-yeyə hər şeyə qulaq verən redaktor Notqroşenə baxmağı da unutmadı.

Birdən araya sakitlik çökdü, çünki içəridə, səhnəyə yaxın yerdə qoca Buku gənc qızların əhatəsində gördülər.

Deyəsən, onlara keçmiş həyatın nişanəsi sayılan, solğunlaşmasına baxmayaraq, bütün zalı coşqu ilə qucmuş divar rəsmlərindən, vaxtilə şəhəri kəmər kimi dövrələmiş, lakin indi yox olmuş çəmən və bağlardan, haçansa ağalar sifətində bu şənlik sarayında səs-küy qoparmış, hazırda isə hay-küyləri aləmi başına götürən yeni nəsil tərəfindən uçurumlara atılmış insanlardan danışırdı... Qəfildən camaata elə gəldi ki, qızlar da, qoca Buk da divardakı fiqurları yamsılayırlar. Məhz onların başı üstündə qəsr qapısının tağı dayanmışdı və başında parik olan, yaxasından zəncir asılmış bir kişi, pilləkənin başında dayanmış həmin o mərmər heykəl oradan qabağa çıxırdı. O vaxt orada, indiki Qauzenfeld kağız fabrikinin yerində salınmış gözoxşayan çəmənlikdə heykəllə üzbəüz şən uşaqlar qaçışıb onun üstünə çələng atır və onu gül-çiçəklə bəzəmək istəylrdilər. Balaca çəhrayı buludların şöləsi onun xoşbəxt sifətinə düşürdü. Qoca Buk da bu an onun kimi xoşbəxtcəsinə gülümsəyir, qızların onu otərəf-butərəfə çəkməsinə, onu hər tərəfdən sıxışdırb canlı əklil mənzərəsi yaratmasına mane olmurdu. Onun arsızlığı anlaşılan deyildi, əksinə, daha çox hamı üçün maraqlı idi. Məgər vicdanını o qədərmi ayaqlar altına atıb ki, özünün bic qızını...

– Bizim qızlarımız heç də qeyri-qanuni uşaqlar deyil, – univermaq sahibi Konun arvadı dilləndi. – Mənim Zidonim Quste Daymxenlə qol-qola!..

Bukla onun gənc rəfiqələri qəti hiss etmədilər ki, onlar boş bir məkanın qurtaracağına yetişiblər. Düşmən tamaşaçılar onların qarşısına sədd çəkmişdilər, gözləri qığılcım saçmağa başlamışdı, cəsarətləri artmaqda idi.

– Bu nəsil uzun zaman başda olub! Birini zindana yerləşdiriblər, indi də ikincisi gəlir!

– Ora əsl siçovul yuvasıdır kil – kimsə donquldadı. Bir başqası da:

– Uzun-uzadı dayanıb gözləməyə halım yoxdur!

Qəflətən iki qadın ümumi sıxıntını atıb irəli sıçradı və boş məkanla eninə-uzununa yüyürdü. Özünün qırmızı ipək ətəklərini yerlə sürüyə-sürüyə onlann ardınca götürülən frau Rat Harniş sarı paltar geymiş frau Kona lap vaxtında yetişdi, onlar əllərini atıb biri özünün Zidonisini, digəri isə Metasını ram etdi və onlar yenidən öz yerlərinə qayıdanda sevincləri yerə-göyə sığmadıl

– Az qala, huşumu itirmişdim, – keşiş Tsillixin arvadı dilləndi, bu vaxt, Allaha şükür ki, Ketxen də onun yanındaydı.

İnsanların kefi təzədən duruldu, qoca günahkarı lağa qoyub onu frau fon Vulkaunun əsərindəki qrafla müqayisə etdilər. Təbii ki, bu müqayisədə Quste gizli qrafinya olmadı; bədii əsərdə, müəllifə xoş olsun deyə, belə şeylərə haqq qazandırmaq olardı. Hər halda, əsərdəki şəxslərə dözmək lazım idi, orada qrafinya əmisi oğluna ərə gedir, burada isə Quste!..

Ətrafında gələcək gəlinindən və qardaşı qızından başqa heç kimi görməyən qoca Bukun üzündə bir sual işartısı vardı: bəli, onu bu yalqızlıq anında süzən baxışların altında aşkarca pərt görünürdü. Adamlar bir-birinin diqqətini buna çəkdi, hətta Diderix özünə belə bir sual verdi ki, frau Heslinqin söylədiyi qalmaqallı keçmiş, görəsən, doğrudan da, gerçək idimi. Özünün dünyaya gətirdiyi cinin ətə-qana gəlib dəhşətli gücə çevrildiyini gördüyündən Diderix özü də qorxuya düşdü. Bu dəfə zərbə hansısa Lauerə dəymirdi, qoca cənab Buku, Diderixin uşaqlıq çağlarının şəxsiyyətini, şəhərin adlı-sanlı kişisini, vətəndaşlıq düşüncəsinin timsalını, səksəninci illərdə ölümə məhkum olunmuş adamı tuturdu! Qəlbinin dərinliyində Diderix öz əməlinə qarşı bir ikrah duydu. Bu özü də bir dəlilik idi; bu cür uşaq-muşaq oyununu çoxdandır özünə bağışlaya bilmirdi. Bu həngaməni başlayanın kimliyi ortaya çıxardısa, bu halda tam hazır olmalı idi, çünki hamı birbaşa ona qarşı çevriləcəkdi... Amma hər halda, zərbə endirilmiş və düz hədəfə dəymişdi. İndi söhbət təkcə paran-parça olub qocanın yükünü daha da ağırlaşdıran ailədən getmirdi: qardaşı müflisləşmək üzrə idi, kürəkəni həbsdə otururdu, qızı oynaşına qoşulub dünyanı dolaşırdı, oğlanlarından biri kəndçiləşmiş, digəri isə şübhəli düşüncə tərzinə malik olmaqla şübhəli həyat sürürdü – özü isə həyatında ilk dəfə büdrəyirdi. Diderixin qalxışı üçün onun enişi labüdləşmişdi! Bütün bunlara baxmayaraq, Diderixin canına qorxu düşdü, özünü dəhlizdəki ayaqyoluna saldı.

Qaçırdı, çünki ikinci pərdənin zəngi çalınırdı. Bu vaxt o, valinin ayrı bir səbəbdən tələsən qayınanası ilə toqquşdu. O, özünü vaxtında yetirib qoca Buka dəstək olmaqda kürəkəninə mane ola bildi, arvadının sözü ilə vali öz nüfuzundan istifadə edib kişiyə yardımçı olmalı idi.

– Sən öz vali nüfuzunla belə bir qalmaqala baş qoşursan?! – həyəcandan qadının səsi xırıldadı. Valinin arvadı da cılız və cır səsi ilə dediyindən dönmədi ki, Buklar haçansa bu yerlərdə ən kübar insanlar olmuşlar, hələ dünən Milli Buk ona qəşəng bir paltar ülgüsü bağışlamışdır. Gizlin təzyiqlərlə hər biri onu öz tərəfinə çəkməyə çalışırdı; vali də gah buna, gah da ona haqq qazandırırdı, rəngi bilinməyən yanaq saqqalları gah sağa, gah da sola uçurdu, gözləri isə dovşan gözü kimi oynayırdı. Onların yanından keçib gedənlər bir-birinə toxunur, Diderixin Volfqanq Bukdan öyrəndiyini növbəti lətifə kimi pıçıltı ilə bir-birinə danışırdılar. Bir çox vacib məsələlər Diderixə canındakı ağrıları büsbütün unutdurdu və o, ayaq saxlayıb diqqəti cəlb edən bir salamlaşma nümayiş etdirdi. Vali özünü şax tutub xanımlarından aralandı və əlini Diderixə uzatdı.

– Əzizim doktor Heslinq, çox şadam! Uğurlu baldır, elə deyilmi?

Lakin Diderix doktor Şeffelvaysın həddən artıq sevdiyi, ancaq heç nə vəd eməyən bu səmimiyyətinə uymaq fikrində deyildi. O, kabus kimi dimdik düzəldi və alışıb-yanan gözləri ilə onu süzdü.

– Cənab vali, bəzi məsələlər barədə sizi hali etməməyə özümü haqlı saymıram, özü də o məsələlər ki...

– O məsələlər ki? – rəngi qaçmış doktor Şeffelvays soruşdu.

– Gözümüzün qabağında baş verir, – Diderix sərtliyini azaltmadan dedi. Vali aman dilədi.

– Hər şey mənə bəllidir. Çox hörmətli qoca Bukun başına gələn əhvalatı, demək istəyrdim ki, o donuzun murdarçılığını deyirsiniz, – son sözləri yaxın adamına deyirmiş kimi pıçıldadı. Diderix quruyub qaldı.

– Hələ bu harasıdır ki?! Özünüzü aldatmayın, cənab vali, birbaşa sizi nəzərdə tuturam.

– Cavan oğlan, bir daha xahiş etməli olacağam ki...

– Qulluğunuzda hazıram, cənab vali!

Doktor Şeffelvays düşünürdüsə ki, bu zəhər tuluğunu etirazla dəf etmək daha yaxşıdır, nəinki yalvarışla, büsbütün yanılırdı! O, Diderixin əlində qalmışdı; güzgülü eyvan boşalmışdı, valinin hər iki xanımı da basabasda yox olmuşdu.

– Bukla yoldaşlar əks-zərbə endirirlər, – Diderix rəsmi tonla dilləndi. – Onlar ifşa olunublar, indi də intiqam alırlar.

– Məndən? – vali yerindən dik atıldı.

– İftiralar, təkrar edirəm, sizə qarşı iyrənc iftiralar söyləyirlər. Doğrudur, buna inanan tapılmaz, amma siyasi mübarizələrin hazırkı çağlarında...

Fikrini tamamlamadı, sadəcə, çiyinlərini çəkdi. Doktor Şeffelvays aşkarca balacalaşdı. Diderixi gözdən keçirmək istədi, ancaq baxışı ondan yayındı. Bu vaxt Diderix hakimsayağı danışdı:

– Cənab vali! Yəqin, cənab asessor Yadaszonla evinizdəki ilk razılığımızı unutmamısınız?! Hələ o vaxt sizi xəbərdar etmişdim ki, şəhərə yeni ruh hakim olacaq. Xəstə demokratik düşüncə öz ömrünü çoxdan başa vurub. Bu gün gərək təpədən-dırnağa millətçi olasan! Xəbərdar edilmişdiniz!

Doktor Şeffelvays özünə haqq qazandırmağa çalışdı:

– Daxilən həmişə sizin tərəfinizdə olmuşam, əziz dost! Üstəlik, əlahəzrətin xüsusi pərəstişkarlarından biriyəm. Canlaradəyən orijinal bir mütəfəkkirdir... çılğın... və...

– ... şəxsiyyətlər şəxsiyyəti, – Diderix tam ciddiliklə onun sözünü tamamladı.

Vali əlavə etdi:

– Şəxsiyyət... Lakin tutduğum mövqedə hər iki tərəfə baxmalı olduğumdan bu gün sizə bir daha təkrarlaya bilərəm: yeni faktlar toplayın!

– Bəs mənim qurdurduğum məhkəmə? Əlahəzrətin düşmənlərini qarışqa kimi əzdim!

– Mən sizə qəti mane olmadım. Hətta uğurlar dilədim.

– Bundan xəbərim olmayıb.

– Ən azı, ürəyimdə.

– Bu gün gərək adam gizlətmədən kimin tərəfində olduğuna qərar versin, cənab vali. Əlahəzrətin özü deyib: “Kim mənimlə deyilsə, o, mənim əleyhimədir!” Yurddaşlarımızın qəflət yuxusundan ayılan və üsyankar ünsürləri öz əlləri ilə boğan vaxtıdır! – Bu yerdə doktor Şeffelvays büzüşüb gözlərini yerə dikdi. Diderix isə daha amiranə bir görkəm aldı. – Yaxşı, bəs valinin yeri haradır? – soruşdu və sualı bu hədəli səssizlikdə uzun zaman səsləndi, ta doktor Şeffelvays ona baxmağa ürək edənə qədər. Bununla belə, söz deməyə gücü çatmadı; Diderixin durumu, alovsaçan gözləri, pırpızlı sarışın saçları, koppuş sir-sifəti onun nitqini boğdu. Uçunma içində öz-özünə fikirləşdi: “Bir tərəfdən – digər tərəfdən” və alışıb-yanan gözlərini nə istədiyini bilən bu

təzə cavandan, qapının ağzını kəsmiş sərt zamanın nümayəndəsindən hələ də çəkmədi.

Cəhəngləri aşağı sallanmış Diderix pərəstişi qəbul etdi. Özünün həqiqi dəyərindən yüksəkdə dayandığı və daha yüksəkdə dayananın adından hərəkət etdiyi anlardan birini yaşadı. Vali boyca ondan hündür idi, ancaq Diderix ona üstdən-aşağı baxırdı, sanki, taxt-tac üstündə oturmuşdu.

– Yaxınlarda şəhər dumasına seçkilər keçiriləcək, hər şey sizdən asılıdır, – mərhəmətlə və kəsə dedi. – Lauerin məhkəməsi ictimai fikirdə dönüş yaratdı. İnsanlar məndən çəkinir. Mənə dəstək verənin gözüm üstə yeri var, mənə qarşı çıxanın...

Doktor Şeffelvays cümlənin axırını gözləmədi.

– Fikrinizi tam bölüşürəm, – yarınaraq pıçıldadı. – Cənab Bukun dostları seçilməməlidir.

– Bunu sizin şəxsi marağınız da tələb edir. Pisməramlılar sizin o gözəl ad-sanınıza xələl gətirir, cənab vali! Xoşməramlılar iyrənc iftiralara cavab verməsələr, halınız necə olar? – Doktor Şeffelvaysın titrəmə tutduğu fasilə yarandı, axırda Diderix ona ürək-dirək verərək təkrarladı: – Hər şey sizdən asılıdır.

Vali mızıldadı:

– Sizdəki enerji, sizin xoşməramlı fikirləriniz...

– Ən xoşməramlı fikirlərim!

– Elədir... Lakin siyasətdə çox çılğınsınız, gənc dost. Şəhər hələ sizin üçün yetişməyib. Siz bu şəhərlə necə bacarmaq fikrindəsiniz?

Cavab əvəzinə Diderix qəfildən geri çəkildi, dabanlarını bir-birinə vurub təzim etdi. Girəcəkdə Vulkau dayanmışdı. Qarnını həmahəng yırğalaya-yırğalaya irəli yeridi, qara pəncəsini doktor Şeffelvaysın kürəyinə qoyub nərildədi:

– Hə, valiciyim, burada hamıdan aralı? Yəqin, şəhərin deputatları sizi bayıra atıblar, eləmi?

Doktor Şeffelvays sapsarı saralıb güldü. Lakin Diderix böyük bir narahatlıqla arxaya çevrilib zalın hələ də örtülməmiş qapısına baxdı. Vulkaunun qabaq tərəfinə keçdi ki, başçını içəridən görməsinlər və ona bir-iki söz pıçıldadı, bundan sonra başçı üzünü çevirib paltarını düzəltdi. Sonra Diderixə dedi:

– Siz, doğrudan da, xeyrə-şərə yarayırsınız, doktorcuğum.

Diderix suyulub gülümsədi:

– Sizin fikriniz, cənab başçı, məni göylərə qaldırır.

Vulkau məhrəmliklə bildirdi:

– Siz hələ çox şeylərə yaraya bilərsiniz. Gərək bu barədə söhbətləşək.

Qonur ləkəli, slavyan almacıq sümüklü başını qabağa uzadıb çılğınlıq və məkr dolmuş monqol qınşlı gözləri ilə Diderixi süzdü, ta Diderix fısıldayana qədər süzdü. Bu uğur, deyəsən, Vulkaunu razı saldı. Güzgünün qabağında saqqalını daradı, ancaq başını buğa kimi dik tutduğundan elə həmin an da onu köynəyinin üstünə salıb dedi:

– Yaxşı, tərpənək! Vur-çatlasın, yəqin, çoxdan başlayıb?!

Diderixlə valinin arasında hirslə tamaşaya mane olmağa çalışdı. Bu vaxt bufetdən incə bir səs gəldi:

– Aman Allah, Otto!

– Hə, odur! – Vulkau donquldanıb arvadına doğru getdi. – Belə də bilirdim, işlər yaxşı gedəndə həmişə qorxur. Daha çox çapar cəsarəti, mənim gözəl Fridam!

– Allahım, Otto, qorxu canımdan çıxmır!

Üzünü hər ikl kişiyə tutub, səsi titrəsə də, iti-iti danışmağa başladı:

– Orasını da bilirəm ki, döyüşə ürəklə girmək lazımdır.

– Xüsusilə, – Diderixin cavabı, sanki, çoxdan hazır idi, – döyüşü əvvəlcədən udubsansa. – Və cəngavərlər kimi təzim etdi. Frau fon Vulkau yelpiyini ona toxundurdu.

– Cənab doktor Heslinq birinci pərdədən burada mənə yoldaşlıq edir. Sənətdən başı çıxır, hətta yaxşı məsləhətlər də verir.

– Şahidi olmuşam, – Vulkau dedi və Diderix növbə ilə dabanlarını cütləyib ona və arvadına minnətdarlıq təzimi edəndə yerli hökumətin başçısı sözə qarışdı:

– Gəlin hələlik bufetdən çıxmayaq.

– Mənim də döyüş planım belədir, – frau fon Vulkau zəvzəklədi. – Həm də indicə görmüşəm ki, buradan səhnəyə balaca bir qapı açılır. Hadisələrin sənə toxunmadığı tənhalıqdan adam yaman sevinir, mənim indi buna çox ehtiyacım var, odur ki burada qalıb hadisəni izləyəcəyəm.

– Valiciyim, – deyib Vulkau ağzını marçıldatdı. – Gərək omar salatı da götürəydiniz. – Doktor Şeffelvaysın qulağından çəkib əlavə etdi: – Şəhərin əmək birjası məsələsində magistrat yenə də iyrənc bir rol oynadı.

Vali dinib-danışmadan yeyir və dinləyirdi, Diderix də bu arada frau fon Vulkaunun yanında dayanıb gözünü səhnəyə zilləmişdi. Səhnədə Maqda pianino dərsi alırdı və qara qıvrımsaçlı müəllim onu bərk-bərk öpürdü ki, bunu da qız o qədər də pis qarşılamırdı. "Kaş Kinast bunu görməsin", – Diderixin beynindən keçdi, lakin özünün də partlaşmasını hiss etdi. Dözə bilməyib dilləndi:

– Frau qrafinya düşünmürlərmi ki, pianino müəllimi həddən artıq naturalist oynayır?

Əsərin müəllifi təəccüblə cavab verdi:

– Mən elə məhz bu cür nəzərdə tutmuşam.

– Yalnız demək istəyirdim ki, – Diderix inamsız dilləndi, sonra da qorxdu, çünki frau Hesiinq, ya da ona bənzər birisi qapının ağzında göründü. Emmi də gəlib çıxdı, cütlüyü iş üstündə tutdular, qışqırtı, ağlaşma qopdu. Vulkau isə hamıdan bərk danışdı:

– Yoox, vali. Qoca Buka indi deməklə təsir edə bilməzsiniz. Şəhər əmək birjası barədə qətnaməni qoy səsvermədən keçirsin, amma məsələ burasındadır ki, onu necə həyata keçirəcək, bax bu artıq sizin işinizdir.

Doktor Şeffelvays nəsə demək istədi, lakin Maqda səsini başına salıb qışqırdı ki, həmin kişiyə getmək istəmir, ona ən yaxşı namizəd qulluqçu qızdır. Müəllif sözə qarışdı:

– Maqda gərək bir az da vulqar danışaydı. Onlar axı parvenüsdürlər[1].

Diderix özününkünə bənzər bir ailədə baş verən vəziyyətdən dərin təsirlənsə də, razılaşıb gülümsədi. Dava-dalaş o saat aradan qaldırılmalıdır deyib qulluqçu qızı içəri çağıran Emmiyə daxilən haqq qazandırdı. Elə ki qız içəri girdi – lənət sənə şeytan! – məlum oldu ki, o, gizli qrafinyadır! Onun səhnəyə gəlişi ilə yaranan səssizlikdə Vulkaunun bas səsi eşidildi:

– İctimai öhdəlikləriniz barədəki uydurmalarınızla əl çəkin yaxamdan. Kənd təsərrüfatını kor qoymaq haçandan ictimai öhdəlik olub?!

Tamaşaçıların çoxu onlara tərəf döndü: müəllif qorxu içində fışıldadı:

– Otto, Allah xatirinə!

– Nə olub axı? – kişi qapıya yan aldı. – Qoy indi fışıldasınlar!

---

[1] Tör-töküntü (*fr.*)

Heç kim fışıldamadı. O təzədən üzünü valiyə tutdu:

– Siz ölkənin şərqində qurduğunuz əmək birjanızla işçi qüvvəsini dartıb aparırsınız, bu belədir. Daha nəyi deyim?! O ölüvay əmək birjanızda hətta fəhlələrin nümayəndəsini də saxlayırsınız, üstəlik də, kənd təsərrüfatında vasitəçiliyə girişirsiniz. Səmtiniz hayanadır? Kəndli birliyinə. Görürsünüz də, vali qırığı?! – Pəncəsini doktor Şeffelvaysın təslimçi kürəyinə endirdi. – Fınıldaqlarınızı bizdən gizlədə bilməzsiniz. Belə şeylərə dözən deyilik!

Vulkaunun bacısı qızı səhnədən birbaşa tamaşaçıların içinə danışırdı, çünki fabrikantın ailəsi gərək heç nə eşitməyəydi:

– Necə? Qraf qızı olan mən pianino müəlliminə ərə gedim? Qəti yaxın qoymaram! Bu adamlar mənə bolluca cer-cehiz vəd etsələr də! Qoy pula görə başqaları özlərini alçaltsın! Mən isə öz zadəgan soyuma nə ilə borclu olduğumu gözəl bilirəm!

Zal əl çaldı. Camaat frau Harnişlə frau Titsin qrafinyanın kübarlığının onlarda axıtdığı göz yaşlarını sildiklərini gördü. Lakin bacıqızı bir də dilə gələndə silinmiş göz yaşları qurumadı:

– Fəqət, Tanrım! Zadəgan kökənli o cavanı haradan tapım?!

Vali, deyəsən, cavab qaytarmışdı, çünki Vulkau təzədən nərildədi:

– İşsizlərin sayını azaltmaq mənim işim deyil. Pulumun bir qəpiyindən də keçən deyiləm.

Bu yerdə Diderix dabanlarını bir-birinə vurub ona təzim və təşəkkür etməkdən özünü saxlaya bilmədi. Onun bu təzimini müəllif özünə götürdü.

– Bilirəm, – həyəcanlanaraq dedi, – bu mərtəbəyə ucalmaq mənə müyəssər oldu.

– Ürəklərə yol tapan bir əsərdir, – Diderix fikrini bildirdi. Maqda ilə Emmi pianinonu və qapını örtdüklərinə görə sözünü tamamladı: – Özü də həddən artıq dramatikdir. – Sonra üzünü digər tərəfə çevirdi: – Gələn həftə Lauerlə cavan Bukun yerinə iki şəhər deputatı seçiləcək. Yaxşıdır ki, ikincisi öz namizədliyini geri götürüb.

Vulkau dilləndi:

– Onda çalışın ki, oraya yaxşı adamlar düşsün. Deyəsən, sizin "Netziger Zeitung"la münasibətiniz yaxşıdır, hə?

Diderix müəmmalı şəkildə səsini alçaltdı:

– Hələlik mən qıraqda qalmaq istəyirəm, cənab başçı. Milli işin xatirinə belə yaxşıdır.

– İşə bax! – deyib Vulkau, doğrudan da, diqqətlə Diderixə baxdı. – Yəqin, minnətsiz seçilmək istəyirsiniz? – soruşdu.

– Nəyisə qurban vermək istərdim. Şəhərimizin idarəçəliyində milli məsələdə etibar ediləsi üzvlərimiz çox azdır.

– Seçilsəniz, nə etmək istəyirsiniz?

– Çalışacağam əmək birjası ləğv olunsun!

– Hə də, – Vulkau dedi, – əsl millətçi kimi.

– Əsl leytenant kimi, – səhnədəki leytenant dilləndi, – mən dözə bilmərəm ki, əziz Maqda, kasıb bir qaravaş olsa da, bu qızla pis rəftar edilsin.

Birinci pərdədə çıxış etmiş leytenant, gizli qrafinya ilə allə qurmalı olan kasıb qohum Maqdanın nişanlısı idi! Tamaşaçılar həyəcandan əsirdilər. Bunu müəllifin özü də qeyd edib sözün gerçək anlamında hayıl-mayıl olmuş Diderixə dedi:

– Dramatik məqamlar mənim şakərimdir.

Dramatik mətnin emosiyalarına aludə olmağa doktor Şeffelvaysın vaxtı yox idi; o, özünün təhlükədə olduğunu görürdü.

– Heç kim, – israrla bildirdi, – yeni fikri ürəkdən...

Vulkau onun sözünü ağzında qoydu:

– Bilirik, valiciyim. Müftədirsə, ürəkdən qarşılayarsınız.

Diderix əlavə etdi:

– Amma qeysərə sadiq olanlarla qiyamçılar arasında düzünə bir xətt çəkmək lazımdır!

Vali yalvarışla əllərini göyə qaldırdı:

– Möhtərəm cənablar! Məni yanlış anlamayın, mən hər şeyə hazıram. Ancaq dediyiniz o xəttin heç bir xeyri olmayacaq, çünki bizlərdə, sadəcə, bir fikir formalaşıb ki, azadfikirliləri seçməyənlərin hamısı sosial-demokratları seçir.

Vulkau hirslə donquldadı, sonra bufetdən özünə qolbas aldı. Diderix özünün tam əminliyini ifadə etdi:

– Ürəyimizcə olan seçkilər öz-özünə alınmırsa, onu təşkil etmək lazımdır!

– Ancaq nə ilə? – Vulkau soruşdu.

Vulkaunun bacısı qızı öz növbəsində səhnədən tamaşaçılara səsləndi:

– Eyni zadəgan soyundan olan o oğlan gərək görsün ki, mən qrafinyayam!

– Oo, xanım qrafinya! – Diderix dilləndi. – Maraq məni götürüb ki, oğlan bunu görəcəkmi.

– Əlbəttə, – müəllif cavab verdi. – Axı onlar bir-birini gözəl rəftarlarından tanıyırlar.

Leytenantla bacıqızı, doğrudan da, bir-birinə baxdılar, çünki Emmi ilə Maqda frau Heslinqlə birlikdə bıçaqla pendir yeyirdilər. Diderixin ağzı açıq qalmışdı. Fabrikant ailəsinin nadan davranışı tamaşaçılarda sevinc oyatmışdı. Bukun qızları, frau Kon, Quste Daymxen – hamısı sevincdən atılıb-düşürdü. Bu, Vulkaunun da diqqətini çəkdi; kişi barmağının yağını yalayıb dedi:

– Frida, gözəl alınıb, gülürlər.

Müəllif, doğrudan da, çiçək kimi açıldı. Pensnenin arxasındakı gözləri alışıb-yanırdı, qadın dərindən nəfəs aldı, döşləri atdandı, oturduğu yerdə qərar tuta bilmədi. Bufetdən azca bayıra çıxdı; həmin an tamaşaçıların çoxu maraqdolu üzlərini ona çevirdi, valinin qayınanası isə nəsə bir işarə verdi. Frau fon Vulkau əsə-əsə çiyni üstündən səsləndi:

– Möhtərəm cənablar! Döyüşü udduq!

– Kaş işimiz də beləcə uğurlu alınaydı, – əri dilləndi. – Hə, cənab doktor, netsiqlilərin yüyənini necə çəkmək istəyirsiniz?

– Cənab başçı! – Diderix əlini ürəyinin başına qoydu. – Netsiq qeysərə sadiq olacaq, nəyim var, hamısı ilə buna zamin dururam!

– Gözəl! – Vulkau dedi.

– Çünki, – Diderix sözünə davam etdi, – bizim bir təbliğatçımız var, mən onu əladan əla adlandırardım; əlbəttə, əladan əla, – bir daha təkrarlayıb həmin sözlə bütün böyüklüyü əhatə etdi, – bu da əlahəzrətin özüdür!

Doktor Şeffelvays tələsik özünü yığışdırdı.

– Şəxsiyyətlər şəxsiyyəti, – var gücü ilə qışqırdı. – Təkrarsız. Çılğın.

– Bəs necə?! – Vulkau dilləndi. Yumruqlarını dizinə dirəyib gözlərini döyə-döyə onların arasından döşəməyə baxdı, duruşundan insan əti yeyənə oxşayırdı. Birdən-birə oradakıların hər ikisi gördü ki, Vulkau aşağıdan yuxarıya çəpçəp onlara baxır. – Cənablar, – yenidən dikəldi, – hə, sizə nəsə demək istəyirəm. Məncə, reyxstaq buraxılacaq.

Diderix də, doktor Şeffelvays da başlarını irəli uzatdılar, pıçıltı ilə dedilər:

– Cənab başçı bilirlər ki...

– Bu yaxınlarda hərbi nazir mənimlə və kuzenim fon Kvitsinlə ova getmişdi.

Diderix dabanlarını bir-birinə vurub təzim etdi. Nə dediyini heç özü də bilmədən nəsə kəkələdi. Bunu o çoxdan deyibmiş! Veteranlar şurasına qəbul ediləndə əlahəzrətdən iqtibasla nitq söyləyibmiş, sadəcə, onun nitqini təkrar edibmiş. Həmin nitqdə aydınca deyilibmiş: "Mən bu çirkab yuasını darmadağın edəcəyəm!" İndi isə baş tutmalıydı, lap istədiyi kimi, sanki, bunu Diderixin özü həyata keçirirdi. Onu mistik bir əsməcə tutdu... Vulkau bu arada yenə dilləndi:

– Oyqen Rixterlə dəstəsinin daha bizə xeyrl dəymir. Hərbi büdcə ilə bağlı qanun layihəsi onların boğazından keçməzsə, sonlarıdır. – Vulkaunun düyünlənmiş əli ağzını sildi, sanki, yemək başlayırdı.

Diderix özünü topladı:

– Bu... bu ki əladan əladır! Qəti şübhə ola bilməz, bu, əlahəzrətin şəxsi təşəbbüsüdürl

Doktor Şeffelvaysın rəngi qaçdı:

– Onda reyxstaqa təzədən seçki keçiriləcək? Mən də sevinirdim ki, bizim orada etibarlı deputatımız var... – Kişi daha da qorxdu. – Onu demək istəyirdim ki, Küleman da cənab Rixterin dostudur...

– İradçının biridir! – Diderix fınxırdı. – Vətənsiz ünsür! – Gözləri, az qala, hədəqəsindən çıxdı. – Cənab başçı! Bu dəfə Netsiq o cür adamlardan birdəfəlik qurtaracaq. Qoyun bircə şəhər deputatı olum, cənab vali!

– Sonrası? – Vulkau soruşdu. Diderix cavab verə bilmədi. Xoşbəxtlikdən, zalda çaxnaşma düşdü; kətillər yerlərindən tərpədildi və kimsə böyük qapını açdırdı: bu, Külemanın özü idi. Qoca özünün ağır, xəstə cəmdəyini güzgülü zalla sürüyüb irəli apardı. Bufetdəkilər gördülər ki, məhkəmə prosesindən bu yana o daha da düşüb.

– Ona qalsaydı, Laueri birbaşa açıb məhkəmədən buraxardı, o biri hakimlər razılaşmadılar, – Diderix dilləndi. Doktor Şeffelvays da öz fikrini bildirdi:

– Böyrək daşları adamın axırına çıxır.

Vulkau da məzəsindən qalmadı:

– Hə, reyxstaqda biz onun böyrək daşlarıyıq.

Vali hihildədi. Ancaq Diderix gözlərini bərəltdi. Yerli hökumət başçısının qulağına yaxınlaşıb pıçıldadı:

– Vəsiyyəti!

– Vəsiyyətinə nə olub ki?

– Şəhəri varis təyin edib, – doktor Şeffelvays, sanki, mühüm bir məlumat verdi. – Yəqin həmin pula körpələr evi tikərik.

– Tikərsiniz! – Diderix nifrətlə fınxırdı. – Deyəsən, ağlınıza milli bir məqsəd gəlmir, hə?!

– Belə de, – Vulkau razılıq əlaməti olaraq başı ilə Diderixi təqdir etdi. – Nə qədər varıdır axı?

– Ən azı, yarım milyon, – vali deyib fikrini bir az da möhkəmlətdi: – Özümü xoşbəxt sayaram, əgər bacarsaq ki...

– Bacararıq da, o yana da keçərik, – Diderix inamla dilləndi.

Bu vaxt zaldan bir gülüş eşidildi, əvvəlki gülüşdən tam fərqli səsləndi. Gülüş ürəkdən gəldi və çox güman ki, kimsə sınığa gülürdü. Əsərin müəllifi deyinə-deyinə piştaxtanın arxasına çəkildi, az qaldı onun altına girsin.

– Sən ey mərhəmət sahibi! – qadın fəryad qopartdı. – Hər şey batdı.

– Yaxşı görək, – deyib əri hiddətlə gövdəsini qapıya söykədi. Lakin yaranmış həyəcanı bu da yatıra bilmədi.

Maqda üzünü gizli qrafinyaya tutub demişdi: “Əldən iti ol, zırrama kəndçi, cənab leytenantın qəhvəsini gecikdirmə”. Başqa bir səs düzəliş vermişdi: “Çayını!” Maqda təkrarlamışdı: “Qəhvəsini!” Başqası dediyindən dönməmişdi, elə Maqda da israrından qalmamışdı. Tamaşaçılar başa düşmüşdü ki, onunla sufiyor arasında anlaşılmazlıq yaranıb. Xoşbəxtlikdən, leytenant işə qarışmış, dabanlarını bir-birinə vurub demişdi: “İkisini də istəyirəm”. Bundan sonra gülüş xeyli iltifatlı səsləndi. Lakin müəllifin hirsi hələ də soyumamışdı.

– Belə də tamaşaçı olar?! Vəhşidirlər, vəhşi olaraq da qalacaqlar! – dişi bağırsağını kəsə-kəsə dedi.

– Həmişə düzünə getməz, – Vulkau deyib Diderixə göz basdı.

Diderix də mənalı-mənalı cavab qaytardı:

– Adamlar bir-birini başa düşəndə, cənab başçı, yox.

Bundan sonra o, özünü büsbütün frau fon Vulkauya və onun əsərinə həsr etməyi daha münasib saydı. Qoy vali bu

arada dostlarını satıb seçkilərdə Vulkaunun bütün arzularını yerinə yetirəcəyinə söz versin.

– Bacım keyin biridir, – Diderix bildirdi. – Evdə abrını alacağam!

Frau fon Vulkau buna qarşı çıxıb gülümsədi.

– Neyləsin fağır, bacardığını edir. Tamaşaçılara gəldikdə isə bu, dözülməz bir dikbaşlıq, qədirbilməzlikdir. Bundan azca öncə müəllifi necə göylərə qaldırmışdılar, onun ideallarına necə məftun olmuşdular!

Diderix sirayətlə dilləndi:

– Xanım qrafinya, bu acı yaşantını təkcə öz üstünüzə götürməyin. İctimai həyatın hər sahəsində belədir. – Bunu deyib o vaxt əlahəzrətin təhqirçisi ilə toqquşmada yaranan ümumi coşqu və sonradan meydana çıxan sınaqlar barədə düşündü. – Əvvəl-axır yaxşılıq qalib gəlirl – son hökmünü verdi.

– Siz də bu fikirdəsiniz? – qadın, sanki, buludları yarıb gələn bir təbəssümlə soruşdu. – Yaxşılıq, həqiqət, gözəllik! – Nərmənazik sağ əlini ona uzatdı. – İnanıram ki, əziz dost, bir-birimizi gözəl anlayırıq.

Anın hökmünü gözəl dərk edən Diderix dabanlarını bir-birinə vurub dodaqlarını həmin incə əlin üstünə sıxdı. Əlini ürəyinin üstünə qoyub dərində ilişib qalmış sözləri bayıra buraxdı:

– Mənə inanın, qrafinya...

Bacıqızı ilə gənc Spresius indi tək qalmışdılar, birinin alçaldılmış qrafinya, digərinin isə kasıb əmioğlu olduğunu öyrənmişdilər, indi bilmişdilər ki, bir-biri üçün yaranmışlar və digər seçkinlərlə birlikdə qızıl tavanın altında müti bir qürurla əlahəzrətin günəşinin saçaqlarına bürünərək gələcək şövqün xəyalı ilə qovşurulurdular... Elə bu vaxt Diderix müəllifin dərindən köks ötürdüyünü eşitdi.

– Sizə deyə bilərəm, – qadın tövşüyə-tövşüyə dilləndi. – Saray üçün bərk darıxmışam. Mənim kimi anadangəlmə saray zadəganlığı içində böyümüş adam... İndi isə...

Qadının pensnesinin arxasında Diderix bir cür göz yaşının parıltısını gördü. Zadəganların faciəsinə yönəlmiş bu baxış onu elə silkələdi ki, oğlan donub yerində qaldı.

– Qrafinya! – çəkinə-çəkinə, duruxa-duruxa davam etdi. – Deməli, gizli qrafinya ... – qorxub susdu.

Valinin ölüvay səsi təzədən söhbətə qarışıb başçıya

pıçıldadı ki, Küleman bir daha namizədliyini irəli sürməyəcək və azadfikirlilər onun yerinə doktor Hoytoyfeli vermək istəyirlər. Bir məsələdə o, Vulkau ilə eyni fikirdə idi ki, reyxstaqın buraxılmasını gözləyənə qədər əks-tədbirlər görmək lazımdır.

Axır ki, Diderix astadan və ehtiyatla danışmağa bir daha ürək elədi:

– Xanım qrafinya, hər şey yoluna düşəcək, deyilmi? Məgər onlar qovuşmayacaqlarmı?

Frau fon Vulkau özünü ələ alıb intim danışıq tərzini yenidən ustalıqla cilovladı. Yüngül zəvzəklik tonunda aydınlaşdırdı:

– Aman Allah, əziz doktor, istəyiniz nədir, o andır pul məsələsi! Gənclərin birlikdə xoşbəxt yaşaması, yəqin, mümkün olmayacaq.

– Məgər məhkəməyə müraciət edə bilməzlər? – ədalət duyğusunun nəzərə alınmamasından pərtləşən Diderix, az qala, səsini qaldırdı. Lakin frau fon Vulkau ağzını büzdü.

– *Fi donc!*[1] Bu ona gətirib çıxarardı ki, gənc qraf, yəni Yadaszon atasını psixi xəstə adlandırsın. Baxacağınız üçüncü pərdədəki şəkillərin birində, məncə, bu səhnəni yaratmaq mənə müyəssər olub, leytenantı o məhz bu yolla hədələyir. Leytenant bunu öz üzərinə götürsünmü? Bəs varidatın tikə-tikə bölünməsi? Sizlərdə, bəlkə də, mümkün olardı. Ancaq bizlərdə bəzi şeylər heç cür mümkün deyil.

Diderix təzim etdi.

– Yuxarı dairələrdə, təbii ki, bizim düşüncəmizdən qıraqda qalan anlayışlar mövcuddur. Eləcə də məhkəmələrin düşüncələrindən, – Diderix bildirdi. Qrafinya yüngülcə gülümsədi.

– Görürsünüzmü, leytenant da beləcə gizli qrafinyadan üz döndərib fabrikantın qızını alır.

– Maqdanı?

– Əlbəttə. Gizli qrafinya da pianino müəlliminə ərə gedir. Yüksək dairələrə bu cür lazımdır, cənab doktor, o dairələrə ki, biz... – səsi bir balaca boğuldu, – onların hüzurunda səcdə etməli oluruq.

Diderixin qəlbinə şübhə dolmuşdu, lakin onu büruzə vermədi. Gizli qrafinyanı leytenant pulsuz da alardı, bu,

---

[1] Nə danışırsınız! (*fr.*)

büsbütün Diderixin ürəyincə olardı, yumşaq və duyumlu ürəyincə. Amma heyhat! Bu sərt zəmanə tamam ayrı cür düşünürdü.

***

Pərdə endi, tamaşaçılar həyəcandan asta-asta ayılmağa başladılar, axırda da, əvvəlcədən göründüyü kimi, saraya uyğunlaşa bilməmək təki ağır taleləri ilə barışmalı olan qaravaş qızı və leytenantı hərarətlə alqışladılar.

– Əsl iztirabdır! – frau Harnişlə frau Kon köks ötürdülər.

Bufetdə Vulkau valiyə verdiyi öyüdlərin sonunda dedi:

– Quldur dəstəsinin ağlını başına qoyarıq. – Sonra ayı pəncəsini Diderixin kürəyinə endirib davam etdi: – Hə, doktorcuğum, arvadım sizi çay süfrəsinə dəvət etdi?

– Bəs necə, özü də gəlməyi gecikdirməyin! – deyib xanım Vulkau əlini öpdürmək üçün Diderixə uzatdı, o da şad-xürrəm onlardan ayrıldı. Vulkau özü onu bir də görmək istəyirdi! Diderixlə əl-ələ verib Netsiqə ağalıq etmək niyyətindəydi!

Xanım Vulkau güzgülü salonda vəcdə gəlmiş tamaşaçılardan təbrikləri qəbul edəndə Diderix ictimai fikrin yaradılması ilə məşğul idi. Hoytoyfel, Kon, Harniş və bir neçə ayrı kişi bu fikri yaratmaqda onun işini çətinləşdirirdilər, zira, çəkinə-çəkinə desələr də, başqalarını inandırmağa çalışırdılar ki, bütün bunların hamısını cəfəngiyat sayırlır. Diderix onları susdurmaq üçün heyrətamiz üçüncü pərdəni hamının yadına salmağa məcbur oldu. Şairə haqqında bildiklərini redaktor Notqroşenə diktə etdi, çünki Notqroşen qəzeti çapa buraxmaq üçün getməli idi.

– Ey cızma-qaraçı, axmaq bir şey yazsanız, dərinizi boğazınızdan çıxararam.

Getməkdə olan Notqroşen bunun müqabilində təşəkkür edib üzünü ona çevirdi. Onlara qulaq verən professor Künxen Diderixin yaxasındakı düymədən yapışıb qıyya çəkdi:

– Əzizim! Gərək bizim dedi-qoduçu redaktora bir şeyi də deyəydiniz! – Adının çəkildiyini eşidən redaktor geri qayıtdı və Künxen sözünə davam etdi: – Hamının ehtiram bəslədiyi frau fon Vulkaunun bu gözəl əsəri haçansa bir dəfə qələmə alınıb, özü də adi adam tərəfindən yox, ulu ustadımız Gete tərəfindən, özünün "Yandantutma qız"ında. Şai-

rəyə bundan artıq, necə deyərlər, tərif söyləmək mümkün deyil!

Diderix Künxenin kəşfinin yerinə düşməməsindən birtəhər oldu, odur ki bunu qadına xəbər verməyə lüzum duymadı. Xırdaboy qoca saçları yellənə-yellənə özünü camaatın arasına verdi; onun ayaqlarını döşəməyə sürtüb özünün müqayisəli kəşfinin nəticələrini frau fon Vulkauya danışdığını uzaqdan da görmək olurdu. Təbii ki, onun məğlubiyyətini heç Diderix də təsəvvür etməmişdi. Qadın buz soyuqluğu ilə dilləndi:

– Sizin burada dedikləriniz, cənab professor, yalnız dolaşıqlığa söykənə bilər. "Yandantutma qız" Getenindir bəyəm? – deyib ikrahla burnunu yuxarı yığışdırdı. Künxen onu inandırmağa çalışdı, lakin heç nə alınmadı. – Hər halda, "Ailə ocağı" jurnalında mənim romanımı oxumusunuz, sadəcə, onu səhnələşdirmişəm. Yaradıcılığım başdan-ayağa orijinal əsərlərdən ibarətdir. Kişilər, – ətrafını gözdən keçirdi, – pisniyyətli dedi-qodulardan ötrü ölürlər.

Bununla da Künxen ondan əl çəkdi. Arxaya çəkildi, havası çatmadığından tıncıxdı. Diderix adama üstdən-aşağı baxanların mərhəməti tonunda söylədiyi qorxunc xəbərlərinə görə buradan uzaqlaşmış Notqroşeni ona xatırlatdı; özünü yamanlıqdan qorusun deyə Künxen də fəlakəti qabaqlamaq üçün onun arxasınca götürüldü.

Diderix başını döndərib baxanda zalın mənzərəsi tamam dəyişmişdi: camaat təkcə frau fon Vulkaunun deyil, həm də Bukun başına toplaşmışdı. Təəccüblü idi, amma neyləyəsən, insanları tanımaq olmur. Onlar özlərini yığışdırmırdılar, hələlik instinktlərinin başını buraxmışdılar. Üz-gözlərindən inam yağa-yağa bir-birinin ardınca qocaya yaxınlaşıb baş vermişləri unutduqlarını göstərmək istəyirdilər. Ağır sarsıntılara baxmayaraq, ənənəni dəyərləndirmə gücü qədimlərdən necə də böyük olmuşdu! Diderixin özü də nəzərəçarpacaq dərəcədə əksəriyyətdən geri qalmamağı qərara almışdı. Vulkaunun çıxıb getməsinə əmin olandan sonra ehtiramını bildirmək üçün o, Bukun yanına yollandı. Qoca özü üçün düz səhnənin qabağında qoyulmuş yumşaq kürsüdə tək oturmuşdu: ağ əlini qəribə incəliklə kürsünün qoltuğundan aşağı sallamışdı və altdan-yuxarı Diderixə baxırdı.

– Hə, sizsiniz, əzizim Heslinq. Tez-tez təəssüflənirdim ki, yanıma gəlmirsiniz. – Bunu həddən artıq yüngül və

mərhəmətli dedi. Diderix həmin an gözlərinin yaşla dolduğunu hiss etdi. Əlini kişiyə uzatdı, sevindi ki, cənab Buk onun əllərini öz əlinin içində çox saxladı və işi-gücü, qayğıları, "doğrucul olmaq xatirinə", çünki doğruculluğa olan qəfil ehtiyac onu birdən-birə çulğadı, şübhə və tərəddüdlər barədə nəsə mızıldandı.

– Yaxşı ki, – qoca bunun müqabilində dilləndi, – qoymadınız bunları mən özüm fikirləşib tapım, əksinə, özünüz etiraf etdiniz. Gəncsiniz, yəqin, bu gün insanların əməl etdiyi şərtlər altında hərəkət edirsiniz. Mən qocalığa xas səbirsizliyi yaxına buraxmaq istəmirəm.

Diderix gözlərini yerə dikdi. Hər şeyi anladı: bu, qocanın kürəkəninin şərəfi bahasına başa gələn məhkəmə prosesinin bağışlanması demək idi; bu qədər mülayimliyin və bu qədər saymazlığın təsirindən onun canına qor doldu. Qoca sözünə davam etdi:

– Mübarizəyə ehtiramla yanaşıram və mənimkilərə qarşı mübarizə aparan adama nifrət etmək üçün onu dəyərləndirməyi bacarıram. – Bunun çox uzaqlara gedib çıxacağından qorxuya düşmüş Diderix hər şeyi danmağa üstünlük verdi. Heç özü də bilmir... Adamı özündən xəbərsiz işə qarışdırırlar... Qoca onun vəziyyətini yüngülləşdirdi. – Bilirəm: axtarışdasınız, amma hələ heç özünüzü də tapa bilməmisiniz.

Ağ sivri saqqalını ipək başlığın içinə endirdi. Yenidən başını qaldırıb onu üzə çıxaranda Diderix anladı ki, ortada nəsə yeni bir şey var.

– Evinizin arxasındakı qonşu evi hələ almamısınız, – cənab Buk dedi. – Görünür, planlarınız dəyişib, hə?

Diderix fikrə daldı: "Hər şeyi bilir!" Ən gizli planlarının da artıq faş olunduğunu gördü.

Qoca bic-bic və məhrəm-məhrəm gülümsədi.

– Deyəsən, əvvəlcə fabrikinizi harasa köçürmək, sonra onu genişləndirmək niyyətindəydiniz, eləmi? Ağlıma gəldi ki, torpaq sahənizi satmaq fikriniz olar və bunun üçün yaxşı bir imkan gözləyirsiniz... Mən bunu da nəzərə alıram, – sözünə əlavə etdi, sonra ona nəzər salıb dedi: – Şəhər körpələr evi tikmək istəyir.

"Qoca köpək!" – Diderixin beynindən keçdi. – Ən yaxın dostunun ölümü ilə alver edir". Netsiqi fəth etmək üçün Vulkauya etdiyi təklif elə həmin an onun yadına düşdü... Fısıldadı.

– Heç də yox, cənab Buk. Atamdan miras qalmış torpaq payımı heç kimə satmaram!

Belə olduqda qoca onun əlini bir daha öz əlinin içinə aldı.

– Mən tovlayan deyiləm, – dedi, – atanızın xatirəsinə hörmət etmək sizə şərəf gətirir. – "Eşşək", – Diderix öz-özünə dedi. – Onda biz özümüzə ayrı sahə axtaranq. Hə, bəlkə, siz də bu işə qoşulmaq istəyirsiniz. Xalqa təmənnasız xidmət imkanını, cənab Heslinq, əldən vermək istəməzdik, onun bir anlığa yanlış istiqamətdə fəaliyyət göstərdiyi ortaya çıxsa belə, istəməzdik. – Yerindən qalxdı. – Şəhər məclisində deputat olmaq istəsəniz, dəstəyimə ümid bəsləyə bilərsiniz.

Diderix heç nə anlamadan gözlərini döydü. Qocanın göy gözləri çuxura düşmüşdü və o, Diderixin onun kürəkənini taxtdan saldığı vəzifəni indi ona təklif edirdi. Diderix neyləməli idi: hər şeyə tüpürməli, yoxsa sürüşüb aradan çıxmalı? Dabanlarını bir-birinə vurub qocaya minnətdarlıq etməyə üstünlük verdi.

– Özünüz görürsünüz, – qoca dilləndi, – xalqa xidmət gənc nəsillə yaşlı nəsil, hətta artıq bu dünyada olmayanlar arasında körpü salır. – Əli ilə geniş bir yarımçevrə çəkərək divarları göstərdi. Həmin divarların boyalı və rəsmli dərinliyindən rəssamların şən cizgilərlə əks etdirdikləri keçmiş nəsil boylanırdı. Buk onun yanından keçib-gedən krinolin paltardakı gənc qızlara, eləcə də bacıqızlarından birinə, Meta Harnişə gülümsədi. Üzünü güllərin və uşaqların arasından keçərək şəhər darvazasından bu tərəfə doğru irəliləyən qoca valiyə çevirəndə Diderix onların bir-birinə həddən ziyadə çox oxşadığını ayırd endi. Qoca Buk əlini rəsm toplusundan gah buna, gah da ona tuşladı.

– Bax bunun haqqında çox şey eşitmişəm. Bu qadını da tanıyırdım. Bax bu ruhani keşiş Tsillixə oxşamır? Yox, bizim aramızda ciddi yadlaşma ola bilməz. Uzun illərdən bəri xoş xasiyyətimizə və birgə uğurumuza görə bir-birimizə borcluyuq. "Harmoniya"nın bizə qoyub getdiyi həmin o şeylərlə borcluyuq.

"Harmoniya"ların da söz ola bilməz", – Diderix beynindən keçirib ətrafa baxdı ki, aradan necə çıxacaq. Qoca Buk vərdişinə uyğun olaraq işgüzar söhbətdən sentimental boşboğazlığa keçid etdi. "Həmişə ortadan bir ədib çıxır", – Diderix yenidən düşündü.

Məhz elə bu vaxt Quste Daymxenlə İnqe Tits buradan keçib-gedirdilər. Quste İnqenin qoluna girmişdi, İnqe də səhnə arxasında gördükləri ilə öyünürdü.

– Onlar ara vermədən "çay, qəhvə, qəhvə, çay" qışqıranda bizi qorxu bürümüşdü.

Quste inamla dilləndi:

– Gələn dəfə Volfqanq bundan da gözəl bir əsər yazacaq, mən də orada oynayacağam.

Bunu eşidən İnqe qolunu onun əlindən çəkdi və üzünə barışmaz bir ifadə qondu.

– Hə? – dedi və Qustenin koppuş sifəti birdən-birə öz şuxluğunu itirdi.

– Niyə də olmasın? – ağlamsınaraq acıqlı-acıqlı soruşdu. – Yenə ağlına nə gəldi?

Ağlına nə gəldiyini Qusteyə deyə bilmək imkanına malik olan Diderix tələsik qoca Buk tərəfə döndü. Buk hələ də boş-boşuna danışırdı.

– İndiki kimi o vaxt da dostlarımız vardı; heç düşmənlər də yox deyildi. Odur, orada rəngləri bir-birinə qarışmış dəmir cəngavər, qapının ağzındakı taxçada uşaqları qorxudan o oyuq. Ey don Antonio Marrike, ey qorxunc süvari generalı, otuzillik müharibədə yazıq Netsiqimizi oda qalamışdın: indi Rike küçəsi sənin adını daşımasa idi, son sədaların haralarda itib-batardı? Azadfikirliliyimizi xoşlamayan və bizi yer üzündən silib atmağı düşünən birisi. – Birdənbirə qocanı boğuq bir hihilti silkələdi. O, Diderixin əlindən tutdu. – Onun bizim cənab Vulkau ilə oxşarlığı yoxdurmu?

Diderixin üzünə ciddi bir ifadə qondu, lakin qoca Buk bunu hiss etmədi, ona bir daha canlanma gəldi, ağlına nəsə düşdü. Əli ilə Diderixi bir topa bitkinin arxasına çağırıb divarda ona iki fiqur göstərdi: həsrətlə qollarını açmış gənc bir çoban və çayın o üzündən bu tərəfə hoppanmağa çalışan quzuçu qız. Qoca fışıltı ilə dilləndi:

– Necə fikirləşirsiniz, onlar bir-birinin yanına gələcəklərmi? Bunu çoxları bilmir. Amma mən bilirəm. – Ətrafına boylandı görsün ki, ona baxan varmı və birdən kiminsə heç vaxt tapa bilməyəcəyi balaca qapını açdı. Qapının üstündəki quzuçu qız öz sevgilisinə doğru hərəkət etdi. Bir az da yeridi və qapının arxasında qaranlıqda, çox güman ki, sevgilisinin ağuşuna atıldı... Qoca açıb ortaya çıxardığı otağa işarə etdi. – Bunun adı "Sevgililər odasıdır". – Hansısa

həyətdən süzülən fənər işığı pərdəsiz pəncərədən içəriyə düşdü. İşıq güzgüdə və nazikqıç divanda əks olundu. Qoca kim bilir nə vaxtdan havası dəyişdirilməyən otaqdan gələn boğuq havanı içinə çəkdi; uzaq xatirələr içində kişi məmnunluqla gülümsədi. Sonra balaca qapını bağladı.

Bununla yalnız cüzi maraqlanan Diderix daha çox həyəcan vəd edən kiminsə gəldiyini dedi. Bu, əyalət məhkəməsinin müşaviri Fritçe idi: haradansa özünü yetirmişdi. Yəqin, məzuniyyəti başa çatmışdı, cənubdan qayıtmışdı. Bir az gec də olsa, əri dustaqxanada olana qədər məzuniyyəti hələ də davam edən Yudit Lauersiz gəlib çıxmışdı. O qədər də təsir bağışlamayan gövdəsini əsdirə-əsdirə gələndə ona nəsə pıçıldayırdılar və salamladığı hər kəs oğrun-oğrun qoca Buka baxırdı. Fritçe gördü ki, bu işdə nəsə etməlidir; özünü yığışdırıb tərpəndi. Hər şeydən bixəbər olan qoca Buk birdən onu qarşısında gördü. Rəngi kağız kimi ağarmışdı. Diderix qorxub qollarını irəli uzatdı. Heç nə baş vermədi, qoca arxaya çəkildi. Yerində elə quruyub qaldı, elə bil, kürəyində bir dərə yaranmışdı; qızını yoldan çıxaran kişiyə həddən artıq yad və buz kimi sərin bir nəzər saldı.

– Artıq qayıtmısınız, cənab müşavir? – ucadan dilləndi.

Fritçe məzə ilə gülməyə çalışdı.

– Cənubda gözəl hava vardı, – cənab deputat. – Hələ sənətkarlıqlarını demirəm.

– Bizdəki, olsa-olsa, onun kölgəsidir. – Qarşısındakını gözdən qoymadan əli ilə divarları göstərdi. Duruşu arxadan onun marağını izləyənlərin çoxunda müəyyən təəssürat yaratdı. Yerində dayanıb xeyli sərbəstlik, həm də köhnə hörmətini nümayiş etdirdi, dağılmış allənin, indi ona qoşulmayan xələflərinin əvəzində tək-tənha. Bu qədər itirilənlərin əvəzinə hazırda müəyyən hörmət qazandı... Diderix onun apaydın dediklərini eşitdi:

– Var gücümlə çalışmışam ki, bu evi və bu rəsmləri saxlamağın xatirinə hazırkı küçə hərəkəti ayrı bir istiqamətə yönəlsin. Həmin şəkillər, ola bilsin, təsvirinə görə dəyər qazanır. Hər halda, öz dövrünü və həmin dövrün mənəviyyatını əbədiləşdirən rəsmlərdir və onlar əbədi mövcudluğa layiqdir.

Sonra Diderix aradan çıxdı, Fritçenin yerinə o xəcalət çəkirdi.

***

Valinin qayınanası kürəkənindən soruşdu ki, qocanın "Gizli qrafinya" barədə fikri nədir. Diderix xəyala daldı, sonra etiraf etdi ki, qoca heç əsərin adını da tutmayıb. Vali ilə qayınanası çaşıb qaldılar. Birdən Diderix gördü ki, Ketxen Tsillix ona kinayə ilə baxır və məhz elə gərək o, belə şeyi özünə rəva bilməyəydi.

– Hə, froylayn Ketxen, – Diderix yetərincə ucadan dilləndi. – "Yaşıl mələk" barədə fikriniz nədir?

Ketxen ondan da bərk dilləndi:

– "Yaşıl mələk"? Sizsiniz o? – birbaşa Diderixin sifətinə şaqqanaq çəkdi.

– Ehtiyatlı olsanız yaxşıdır, – Diderix alnını düyünləyib dedi. – Cənab atanızı xəbərdar etməyi özümə borc bilirəm.

– Papa! – Ketxen həmin an qışqırdı. Diderix qorxdu. Xoşbəxtlikdən, keşiş Tsillix heç nə eşitmədi. – Təbii ki, papama lap bu yaxınlarda xırda gəzintimizdən danışmışam. Burada ayıblı nə var ki, bir siz idiniz, bir də mən.

Ketxen həddini lap aşdı. Diderix fısıldadı.

– Hə, gözəl qulaqlardan xoşlananlar üçün Yadaszon da orada idi. – Dediklərinin qıza toxunduğunu görüb əlavə etdi: – Gələn dəfə "Yaşıl mələk"də Yadaszonu yaşıl rəngə boyayarıq. Ləzzət verər.

– Fikirləşirsiniz ki, hər şey qulağın başındadır?! – bunu deyən Ketxenin baxışlarında elə hüdudsuz nifrət vardı ki, Diderix bütün vasitələri işə salmağı qət etdi. Onlar artıq ev bitkilərinin olduğu küncdə dayanmışdılar.

– Nə fikirləşirsiniz, – Diderix soruşdu, – quzuçu qız arxdan hoppanıb çobanı xoşbəxt edəcəkmi?

– Qoyun, – Ketxen dilləndi.

Diderix özünü eşitməzliyə vurdu, divara doğru gedib əli ilə yoxlamağa başladı. Axır ki, qapını tapdı.

– Görürsünüz? Quzuçu qız hoppanır.

Ketxen yaxına gəldi, boynunu maraqla sirli otağa uzatdı. Bu vaxt kimsə onu itələdi və o, birbaşa içəriyə keçdi. Diderix qapını örtdü. Lal-dinməz, fısıltı ilə Ketxenin üstünə yıxıldı.

– Buraxın, yoxsa cırmaqlayacağam! – deyib fəryad qoparmaq istədi. Amma gülmək onu tutdu, bu da əl-qolunu boşaltdı və onu divana yaxınlaşdırdı. Ketxenin çılpaq qolları və kürəkləri ilə apardığı mübarizə Diderixi büsbütün haldan çıxartdı.

– Yaxşı, – nəfəsi təngiyə-təngiyə dedi, – indi göstərərəm. – Hər dəfə ayağı döşəməyə dəyəndə təkrarlayırdı. – İndi göstərərəm. Görərsən, qoyunam, yoxsa?.. Aha, adam qarşısındakını abırlı bir qız sayıb ona ciddi münasibət bəsləyəndə qoyun olurmuş demək?! İndi göstərərəm.

Son gücü ilə qızı divanın üstünə atdı.

– Ay, – Ketxen dilləndi və gülməkdən boğularaq: – Nəyi göstərərsən axı?

Ketxenin müqaviməti birdən-birə ciddiləşdi. Çətinliklə də olsa, aralanıb qalxdı; pərdəsiz pəncərənin içəri ötürdüyü işıq zolağı onun tör-töküntülü üst-başını işıqlandırdı, həyəcandan şişmiş kimi görünən sifəti qapıya yönəlmişdi. Diderix başını arxaya çevirdi: gözləri önündə Quste Daymxen dayanmışdı. Daymxen yerində donub-qalaraq bu tərəfə baxırdı, Ketxenin gözləri kəlləsinə çıxmışdı və Diderix divana əyiləndə, az qala, boynunu sındıracaqdı... Nəhayət, Quste qapını arxasınca bağlayıb qəti addımlarla Ketxenin üstünə yeridi.

– Əxlaqsızın biri əxlaqsız! – qəlbinin dərinliyindən gələn bir səslə dedi.

– Özünsən! – Ketxen tələsik özünü ələ alıb cavab verdi. Elə bil Qustenin havası kəsildi. Ketxendən üzünü çevirib Diderixə baxdı, şaşqın-şaşqın, acıqlı-acıqlı, elə baxdı ki, baxışına nəm bir parıltı qondu. Diderix qətiyyətlə dedi:

– Froylayn Quste, sadəcə, zarafatlaşırdıq, – amma alınmadı, Quste birdən-birə partladı:

– Sizi yaxşı tanıyıram, sizdən nə desən gözləmək olar.

– Belə de, deməli, yaxşı tanıyırsan, – Ketxen kinayə ilə dedi. Ayağa qalxdı, Quste bu arada ona daha da yaxınlaşdı. Diderix vəziyyətdən istifadə etdi, ləyaqətini itirməmək üçün geri çəkildi ki, qadınlar məsələni öz aralarında həll etsinlər.

– Gör gözlərim nələr görür! – Quste səsini qaldırdı; Ketxen də öz növbəsində:

– Sən heç nə görməmisən! Bir də niyə burnunu hər yerə soxub baxırsan axı?

Bu, Diderixə də qəribə gəldi, xüsusilə Quste susduğuna görə. Ketxen aşkarca qələbə çalmışdı. Başını arxaya atıb dedi:

– Çox qəribə adamsanmış! Öz əsgin tüstülü ola-ola!.. – Quste həmin an, elə bil, birdən-birə sakitləşdi.

– Mənim? – uzada-uzada soruşdu. – Neyləmişəm axı?

Ketxen birdən-birə nazlandı... Bu arada Diderixi də qorxu bürüdü.

– Bunu sən yaxşı bilərsən. Utanıram belə şeyi dilimə gətirməyə.

– Mən heç nə bilmirəm, – Quste gileylə dilləndi.

– Adamın heç inanmağı da gəlmir ki, belə şeylər də olurmuş, – deyib Ketxen burnunu yuxarı dartdı.

Qustenin səbir kasası daşdı.

– Bilmirəm nə olub axı?! Nə düşmüsünüz hamınız üstümə?

Diderix bir təklif irəli sürdü:

– Yaxşı olar ki, indi buranı tərk edək.

Ancaq Quste dirənib durdu:

– Nə olduğunu öyrənməsəm, bir addım da atan deyiləm. Bütün şənlik boyu görürəm ki, hamı gözünü zilləyib mənə baxır. Sanki, mən ölmüş balığı diri-diri udmuşam.

Ketxen üzünü yana çevirdi.

– Hə, görkəmin də onu deyir, sevin ki, onlar səni ögey qardaşın Volfqanqla birlikdə bayıra atmayıblar.

– Kiminlə?.. Ögey qardaşım... necə yəni ögey qardaşım?

Dərin səssizlik içində Qustenin nəfəsi təngidi və o, şaşqın gözləri ilə ətrafına baxdı. Birdən-birə anladı.

– Belə də əclaflıq olar?! – dəhşətlə qışqırdı. Ketxenin üzünə həzz təbəssümü yayıldı. Diderix isə, öz növbəsində, onun bu işə dəxli olmadığını bildirdi. Quste barmağını Ketxenə uzatdı. – Bunu siz qızlar özünüzdən uydurmusunuzl Puluma görə hamınızın mənə paxıllığınız tutur.

– Bah, – Ketxen səsləndi. – Ortada belə şey olan yerdə sənin pulun kimə gərəkdir?!

– Yalandır axıl – Quste birdən-birə qıyya çəkdi. Qəfildən irəliyə, divanın üstünə yıxılıb fəryad qopardı. – Aman Allah, aman Allah, neyləmişik axı biz?!

– Özün görürsən, – mərhəmət nə olduğunu bilməyən Ketxen dedi.

Quste daha bərkdən hıçqırıb ağladı; Diderix əlini onun kürəyinə qoydu.

– Froylayn Quste, adamların buraya gəlməsini istəməzdiniz ki?!. – Təsəlli verməyə çalışdı. – Hələ bilmək olmaz. Bir-birinizə oxşarlığınız yoxdur.

Ancaq təsəlli Qusteni qılınc kimi kəsdi. Ayağa qalxıb hücuma keçdi.

– Sən... bilirsənmi sən nəsən?! – Ketxenin üstünə bağırdı. – Gördüklərimi hamıya danışacağam.

– Ay inandılar ha! Sənin kimisinə daha heç kim inanmır. Amma mənim abır-həya sahibi olduğumu hamı bilir.

– Abırlıma bax! Heç olmasa, əynindəki paltara əl gəzdir!

– Sənin kimi abırsız...

– Təkcə sən ola bilərsən!

Söhbət bu yerə çatanda ikisi də qorxdu. Mübahisəni kəsib bir-biri ilə göz-gözə dayandılar, bir-birinə oxşayan şişman sifətlərində nifrət və qorxu vardı; özlərini qabağa ataraq, çiyinlərini yuxarı dartaraq, əllərini bellərinə qoyaraq dayanmışdılar. Sanki, ətirli pal-paltarlan sürüşüb bədənlərindən yerə düşəcəkdi. Quste bir daha qabağa düşdü:

– Deyəcəyəm hamıya!

Ketxen son həddi aşdı.

– Onda yubanma, yoxsa səndən qabaq gedib hamıya deyərəm ki, buradakı qapını sən yox, mən açmışam və ikinizi də burada tutmuşam. – Bu sözdən sonra Quste yalnız gözlərini döyəndə Ketxen qəfildən ayılaraq əlavə etdi. – Hə də, bunu etməyə borcluyam, adım-sanım var. Səninki kimi deyil.

Diderixin baxışı Qusteninki ilə toqquşdu və onu razı salmağa çalışdı. Gözü Qustenin çeçələ barmağındakı brilyanta sataşanda baxışı yerə dikildi; bu brilyantı onlar cındırın içindən bir yerdə tapmışdılar. Diderix cəngavər kimi gülümsədi və qıpqırmızı qızarmış Quste ona yaxınlaşdı. Sanki ona söykənəcəkdi. Diderix Qustenin çiyni üstündən əyilərək astadan dedi:

– Nişanlınız çoxdandır sizi yalqız qoyub.

– Omu? – Quste cavab verdi.

Diderix üzünü bir az da qabağa əyib Qustenin kürəyinə toxundurdu. Qız səsini çıxarmadı.

– Heyif, – deyib Diderix elə gözlənilməz geri çəkildi ki, Quste az qaldı yıxılsın. Birdən-birə anladı ki, vəziyyəti kökündən dəyişmişdir. Pulu daha saqqalıq edə bilmirdi, dəyərdən düşmüşdür, Diderix kimi bir kişi daha qiymətlidir. Həmin an baxışı birdən-birə yazıqlaşdı. Diderix çəkinə-çəkinə dilləndi: – Nişanlınızın yerinə mən olsaydım, mütləq başqa cür hərəkət edərdim.

Ketxen böyük ehtiyatkarlıqla qapını yenidən aralayıb geri qayıtdı. Barmaqlannı dodağına qoymuşdu.

– Bilirsiniz nə var? Teatr təzədən başlayıb... Məncə, çoxdan.

– Aman Allah! – Quste dedi; Diderix də öz növbəsində:

– Onda tələyə düşmüşük.

Əlləri ilə yoxlayıb çıxış axtardı; hətta divara da toxunub onu yerindən tərpətdi. Heç kimi tapmayanda özünü müdafiəyə qalxdı.

– Bura, doğrudan da, tələdir. Belə köhnə bir mərəyin xatirinə cənab Buk küçənin səmtini dəyişib. Gözləsin görsün, buranı necə sökürəm! Sadəcə, əvvəlcə gərək şəhər deputatı olam!

Ketxen qaqqıldadı.

– Nə fısıldayırsınız axı? Bura ki çox rahatdır. İndi istədiyimizi edə bilərik.

Bunu deyib divanın üstünə hoppandı. Quste də qımcanıb oraya qalxmaq istədi. Lakin asılıb qaldı. Diderix onu göydə tutdu. Ketxen də onun boynundan asılmışdı. Diderix hər ikisinə göz etdi:

– Yaxşı, nə edək indi?

Ketxen cavab verdi:

– Bunu siz bilməlisiniz. İndi üçümüz də bir-birimizi yaxşı tanıyırıq.

– İtirməyə də bir şeyimiz qalmayıb, – Quste dilləndi. Üçü də birdən pıqqıldadı. Amma Ketxeni dəhşət bürüdü:

– Uşaqlar! Güzgüdə nənəmin meyitinə oxşayıram.

– Güzgü qapqaradır.

– Büsbütün də cızılıb.

Qaz fənərinin solğun işığında üzlərini güzgünün şüşəsinə söykəyib orada keçmiş illərin rəqəmlərini, qoşalaşmış qəlbləri, oyma rəsmli vazalan, müxtəlif bəzək şeylərini, hətta qəbirləri gördülər və hər rəsmin üstündə hansısa bir müraciət və ya oxşama adları. Sözləri çətinliklə ayırd edə bildilər.

– Aşağıdakı bu urnada... belə də şey olar! – Ketxen dedi. – "Əvvəl gərək iztirab çəkək"... Niyə? Ona görə ki, burada olublar? Çox güman ki, dəli imişlər.

– Biz dəli deyilik, – Diderix bildirdi. – Froylayn Quste, sizin axı brilyantınız var. – Həmin brilyantla o, üç ürək şəkli çəkdi, onları yazı ilə bəzədi və qızlardan bunun nə demək

olduğunu açmalarını istədi. Amma qızlar qıyya çəkib üzlərini çevirdiklərinə görə Diderix qürurla dedi: – Niyə buna "Sevgi odası" deyirlər?

Qəfildən Qustedən qorxu harayı qopdu:

– Kimsə bizə göz qoyur.

Güzgünün arxasında meyit rəngində bir baş göründü!.. Ketxen artıq qapıya çatmışdı.

– Qayıdın geriyə, – Diderix səsləndi. – Adicə rəsmdir.

Güzgü divarın bir üzündən aralanmışdı. Onu bir az da o yana çəkmək olardı: belə olduqda bütün fiqur ortaya çıxdı.

– Bu bayırda arxdan hoppanan quzuçu qızdır!

– Axır ki, istəyinə yetişdi, – Diderix dedi; çünki quzuçu qız oturub ağlayırdı. Güzgünün arxa üzündə isə çoban uzaqlaşıb gedirdi.

– Oradan çölə çıxmaq olar! – Diderix işıq gələn yanğı göstərdi, əli ilə tappıldatdı, divar kağızı aralandı. – Çıxış buradır, hər şey alınanda çıxış yolu bu olur, – deyib qabağa düşdü. Arxasındakı Ketxen kinayə ilə dilləndi:

– Məndə heç nə alınmır.

Quste də qüssə ilə:

– Elə məndə də.

Diderix bunu qulaqardına vurdu, gördü ki, xırda salonların birində bufetin arxasında dayanıb. Tələsik güzgülü eyvana çatıb zaldan çıxan camaatın arasında gözdən itdi. Adamlar pianino müəllimine ərə getmiş "Sirli qrafinya"nın fəci taleyinə acıyırdılar. Frau Harniş, frau Kon, valinin qayınanası – hamısının gözləri yaşarmışdı; zəfər çələngini yığmağa gəlmiş qrimsiz Yadaszonu qadınlar yaxşı qarşılamadılar.

– İşlərin bu cür alınmasında sizsiniz günahkar, cənab asessor! Hər halda, o, sizin doğmaca əminiz qızı idi.

– Pardon, xanımlar! – Yadaszon qrafın var-dövlətinin qanuni varisi kimi öz mövqeyini müdafiə etdi. Bu vaxt Neta Harniş dilləndi:

– Amma bu cür israrlı olmağınıza ehtiyac yox idi.

Həmin an hamı gözünü onun qulaqlarına zillədi; gülüşdülər və Diderix "Nə olub" deyə əbəs yerə qarıldayan Yadaszonun qoluna girdi. Qəlbində intiqamın şirin-şirin qaynadığı Diderix onu xanım fon Vulkaunun yanına gətirdi, burada mayor Kuntse əsərdəki uğurlarını xanıma can-dildən etiraf edirdi. Frau fon Vulkau Yadaszonu görər-görməz,

sadəcə, arxasını ona çevirdi. Yadaszon donub yerində qaldı, Diderix onu tərpətmədi.

– Nə olub axı? – Yadaszon soruşdu yalaq-yalaq. – Hə də, xanım fon Vulkau. Xoşuna gəlməmisiniz. Prokuror da ola bilməyəcəksiniz. Hər yandan baxanda qulaqlarınız görünür.

Diderix nəyi gözləsə də, Yadaszonun sifətinin bu cür əyiləcəyini heç vaxt gözləmirdi. Ömrü boyu Yadaszondan əl çəkməyən o təkəbbürlü kəsər harada qalmışdı, görəsən?

– Belə olacağını bilirdim, – Yadaszon çox astadan dilləndi; amma səsi dəhşətli bir hayqırtı kimi çıxdı... Sonra hərəkətə gəldi, yerində rəqs edə-edə sözünə davam etdi: – Gülərsiniz, əzizim! Sifətinizin nə hala düşəcəyindən xəbəriniz olmayacaq. Sifətiniz, vəssalam! Mən nazir olacağam.

– Ay-hay, – Diderix dedi. Sonra da əlavə etdi: – Sizə heç sifət də lazım olmayacaq, qulaqlarınız bəs edir.

– Öz qulaqlarınızı mənə satmaq istərdinizmi? – Yadaszon soruşub ona elə baxdı ki, Diderixi qorxu bürüdü.

– Bu mümkünmü? – çəkinə-çəkinə soruşdu. Yadaszon sırtıq bir təbəssümlə abırsız-abırsız gülüb Hoytoyfelin yanına getdi.

– Siz ki qulaq mütəxəssisisiniz, cənab doktor...

Hoytoyfel onu başa saldı ki, indiyə qədər yalnız Parisdə olsa da, iri qulaqları yarıya qədər kiçildən tibbi əməliyyatlar aparırlar.

– Hamısını birdən-birə niyə yox edəsən axı? – Hoytoyfel dedi. – Yarısını rahatca saxlaya bilərsiniz.

Yadaszon əvvəlki vəziyyətinə qayıtdı.

– Gözəl zarafatdırl Məhkəmədə görüşərikl Yaramazın biri yaramaz! – bunları deyib Hoytoyfelin qarnını yumruqladı.

Bu arada Diderix üzünü əyinlərində bal paltarları ilə soyunub-geyinmə otağından gələn bacılarına tutdu. Onları hər yanda alqışla qarşılayırdılar, qızlar da səhnədəki təəssüratlarından danışırdılar.

– Çay... qəhvə: aman Allah, çox həyəcanlı idi! – Maqda dedi.

Qızların qardaşı kimi təbrikləri Diderix də qəbul edirdi. Onlann arasında yeriyirdi, Maqda onun qolundan asılmışdı, o özü isə bərk-bərk Emminin qolundan yapışmışdı. Emmi pıçıldadı:

– Boşla bu həngaməni.

Gülüş və salamların arasında o da bacısına dedi:

– Əslində, sən xırdaca bir rol oynayırdın, amma nəyisə təmsil etdiyinə gərək sevinəsən. Hələ bir Maqdaya bax!

Çünki Maqda məmnuniyyətlə ona sığınmışdı, sanki, ağzıbir ailənin xoşbəxtliyini camaata istədiyindən də çox görk etmək istəyirdi.

– Balaca! – Diderix incə bir nəvazişlə dilləndi, – uğurlu çıxış etdin. Amma səni əmin edə bilərəm ki, mən də... – Hətta ona yaltaqlandı da. – Şipşirin görkəmin var. Heyif səndən ki, Kinastın payına düşmüsən.

Sonra frau fon Vulkau gedərkən onlara mərhəmət göstərib əl edəndə qardaş-bacılar yollarının üstündə müti sifətlərlə qarşılaşdılar. Zal yığışdırılmışdı; palmaların arxasında orkestr bir polonez çaldı. Diderix Maqdanın qarşısında əməlli-başlı təzim edib onunla rəqsə girdi: şənlənərək, balı açan mayor Kuntsedən sonra. Beləcə, onlar kətildə əyləşmiş Quste Daymxenin yanından rəqs edə-edə keçdilər. O, donqar froylayn Künxenin yanında oturub oynayanlara baxırdı, sanki, o, əməlli-başlı əzişdirilmişdi. Onun baxışı Diderixə cənab Lauerin dustaqxanadakı baxışı qədər qorxunc göründü.

– Yazıq Quste! – Maqda dedi. Diderix qaşlarını çatdı.

– Hə, elədir, ondandır.

– Əslində, nədəndir axı? – Maqda altdan-yuxarı onu süzdü.

– Fərqi yoxdur, körpəm, neyləməli, belə alınıb.

– Didel, sonra onu valsa dəvət edərsən.

– Bacarmaram. Adam gərək günahını özü bilsin.

Sonra o, tələsik zalı tərk etdi. Elə bu vaxt daha leytenant deyil, yenidən gimnazist olan gənc Şpresius donqar froylayn Künxeni divardan aralayıb apardı. Görünür, atasına hörməti vardı. Quste Daymxen oturub qalmışdı... Diderix yaşlı cənabların qumar oynadığı yan otaqda bir-iki addım atıb irəli keçdi. Hansısa artistlə qapının arxasında məzələnən Ketxen Tsillixin rişxəndi ilə qarşılaşdı və özünü bufetə saldı. Burada xırda bir masanın arxasında Volfqanq Buk əyləşmişdi və divar boyu oturub qızlarını gözləyən anaların eskizlərini çəkirdi.

– Əsl istedad buna deyərəm, – Diderix dilləndi. Xanım nişanlınızın şəklini də çəkmisinizmi?

– Bu vəziyyətdə o, məni maraqlandırmır, – Buk elə soyuqqanlı cavab verdi ki, Diderixi şübhə bürüdü: görəsən, Quste ilə "Sevgi odası"ndakı macərası bu nişanlını maraqlandırardımı.

– Sizdən adam heç vaxt baş açmır, – məyus-məyus dedi.

– Sizdən isə həmişə açır, – Buk cavab verdi. – O vaxt məhkəmədə o böyük monoloqunuzu söyləyərkən ürəyimdən şəklinizi çəkmək keçdi.

Yekun nitqiniz mənə bəs etdi; uğursuz alınsa da, bu, sizin mənim şəxsiyyətimi və fəaliyyətimi geniş ictimaiyyət qarşısında gözdən salıb mənə nifrət oyatmaq cəhdiniz idi!

Diderixin gözləri alışıb-yandı, Buk bunu heyrətlə qəbul etdi.

– Mənə elə gəlir ki, xətrinizə dəyiblər, axı heç də pis demədim. – Başını tərpədib fikirli-fikirli və səksəkəli gülümsədi. – Bəlkə, bir şüşə şampan içək?

Diderix cavabında:

– Mən sizinlə... – dedi, amma razılaşdı. – Məhkəmə öz hökmü ilə bildirdi ki, iradlar təkcə mənə yox, milli düşüncə sahibi olan kişilərin hamısına qarşı yönəlib. Mən də məsələni bununla bitmiş sayıram.

– Deməli, onda Haydzik içirik? – Buk soruşdu. Diderixi onunla badə vurmağa məcbur etdi. – Yəqin, etiraf edərsiniz ki, əziz Heslinq, sizinlə mənim qədər heç kəs bu cür yaxından məşğul olmayıb. İndi bunu sizə deyə bilərəm: sizin məhkəmədə oynadığınız rol özümün rolumdan mənə daha çox maraqlı gəlirdi. Sonralar evdə güzgünün qabağında həmin rolu təzədən oynamışam.

– Mənim rolum? Yəqin, mənim əqidəm demək istəyirsiniz. Təbii ki, sizin üçün bu gün ön planda artistlərdir.

– Bunu mən birisinə münasibətdə demişəm. Görürsünüz ki, müşahidələrimdə heç də yanılmamışam... Əgər mən Vulkaulardan alt tumanı oğurlamış camaşırçı qadını sabah müdafiə etməsəm, onda, bəlkə də, Hamleti oynayardım. Prost! Bunun üçün, hər halda, sizə əqidə lazım olmayacaq!

– Vay Allah, mənim də əqidəm var axı. Amma həmişə o əqidələr... Deməli, mənə teatrı məsləhət görərdiniz? – Buk soruşdu. – Diderix ona məsləhəti vermək üçün ağzını açmaq istəyirdi ki, Quste içəri girdi və Diderix qıpqırmızı qızardı. Çünki Buk sual verəndə o, məhz Quste barədə

düşünürdü. Buk dalğın-dalğın dedi: – Bu arada qolbas və kələmlə dolu qazanım qaynayıb-daşardı, bu da ki, bildiyiniz kimi, gözəl yeməkdir.

Lakin Quste pəncələri üstə yeriyərək əlləri ilə arxadan onun gözlərini tutub soruşdu:

– Kimdir?

– Özüdür, – deyib Buk onun əlinin üstünə şappıldatdı.

– Kişilərin, deyəsən, söhbəti tutur?! Mən gedimmi? – Quste soruşdu. Diderix ona stul gətirməyə tələsdi; amma həqiqətdə o, Bukla tək qalmaq istəyirdi; Qustenin gözlərindəki hərarətli parıltı heç də yaxşı şey vəd etmirdi. Adəti xilafına o, iti və rəvan danışırdı.

– Bir-birinizə yaman yaraşırsınız. Amma sadəcə, özünüzü dartırsınız.

Buk cavab verdi:

– Qarşılıqlı hörmətdəndir.

Diderix quruyub qaldı, sonra onun özünü də heyrətə salan bir ifadə işlətdi:

– Əslində... mən hər dəfə nişanlınızdan aralanan kimi ona acığım tutur; növbəti görüşümüzdə isə sevinirəm. – Qamətini düzəltdi. – Əgər mən milli düşüncə sahibi olmasaydım, o, məni həmin düşüncənin sahibi edərdi.

– Mən milli düşüncə sahibi olsaydım, – Buk yüngülcə gülümsəyərək dedi, – o, məni bu yoldan çəkindirərdi. Məsələnin gözəlliyi də elə bundadır.

Lakin Qustenin aşkarca ayrı dərdi-səri vardı; rəngi dümağ ağarmışdı və o, hıçqırırdı.

– İndi sənə nəsə deyəcəyəm, Volfqanq. Mərc edək ki, eşidən kimi yıxılacaqsan.

– Cənab Roze, Hennesinizi gətirin! – Buk ucadan səsləndi. Konyakı şampanla qatanda Diderix Qustenin qolundan sıxdı; və bal musiqisi həddən artıq ucadan səsləndiyinə görə and-amanla pıçıldadı:

– Dəliliyiniz tutmasın!

Quste ikrahla güldü.

– Doktor Heslinq qorxur! O, bu hadisəni əclaflıq sayır. Mən isə onu məzəli hesab edirəm, – və ucadan gülə-gülə: – Sözün varmı? Sənin atan mənim anamla... Özün başa düşürsən. Bunun nəticəsi olaraq da biz, anlayırsanmı?

Buk ağır-ağır başını tərpətdi; sonra ağzını büzdü:

– Nə olsun ki?!

Quste daha gülmədi.

– Necə yəni nə olsun ki?

– Hə də, netsiqlilər belə şeyə inanırsa, bu işlər onların da başına hər gün gələ bilər, heç nə etmək olmaz.

– Boş danışıq qarın doyurmaz, – Quste hökmlə dilləndi.

Diderix düşündü ki, yaxasını qırağa çəksə yaxşıdır.

– Yanlış addımlar hər yanda atıla bilər. Lakin insandaşlarının fikrini heç kəs cəzasız qulaqardına vura bilməz.

Quste dilləndi:

– Həmişə fikirləşir ki, dünya onun üçün bir cənnətdir.

Diderix də öz növbəsində:

– Zəmanə sərtləşib, – dedi. – Özünü qorumayan məhvə düçardır.

Bu vaxt Quste ağrılı bir həyəcanla qışqırdı:

– Doktor Heslinq sənin tayın deyil! O, məni qoruyub! Şahidim var, bilirəm ki, Meta Harnişdən qoruyub, çünki o, ağzını Allah yoluna qoyub. O, məni qoruyan yeganə adamdır. Sənin yerinə o olsaydı, mənə yaraşmayan adamların haqqımda dediklərinə görə onların payını çoxdan vermişdi.

Diderix başı ilə təsdiqlədi. Buk hələ də badəsini fırlayıb orada öz əksinə baxırdı. Birdən partladı:

– Kim sizə deyir ki, mən haçansa kiminsə payını verməzəm... Xüsusi seçim etmədən kiminsə yaxasından yapışaram, çünki hamı eyni dərəcədə səfeh və əclafdır! – Bunu deyib gözlərini qıydı. Quste çılpaq çiyinlərini çəkdi.

– Ağızlarına gələni danışırlar, amma heç də ağılsız deyillər, nə istədiklərini gözəl bilirlər. Ən ağılsız elə ən ağıllıdır, – Quste təkidlə tamamladı, Diderix də başı ilə kinayəli-kinayəli təsdiq etdi. Bu vaxt Buk birdən-birə ağılsızlaşan gözləri ilə onu süzdü. Yumruqlarını əsməcə ilə boynunda gəzdirdi.

– Amma mən... – qəfildən səsi xırıldadı. – Kaş bircə bütün bunları uyduranın, insanlara xas olan alçaqlığı və yamanlığı özündə təcəssüm etdirən o əclafın yaxası əlimə keçəydi; keçsəydi, qeyri-insaniliyin, heyvanlığın bu ümumiləşmiş obrazının...

Diderix əynindəki köynək kimi ağararaq kətildə büzüşüb yana əyildi və addım-addım geriyə çəkildi. Quste səsini başına saldı. Qorxu içində divara sığındı.

– Konyakdandır! – Diderix Qusteyə dedi... Lakin Bukun gözlərində alışıb-yanan qorxunc hirs onların arasında gəzib birdən-birə sakitləşdi. Gözləri səyridi. Üzünə şənlik qondu.

– Heyif ki, içkiləri qatmağa alışqanlıyam, – Buk bildirdi. – Bunu ona görə etdim ki, nəyə qadir olduğumu görəsiniz.

Diderix şappıltı ilə yenidən kətilə çökdü.

– Siz, olsa-olsa, komediantsınız, – həyəcanla bildirdi.

– Doğrudan? – Buk soruşdu, üzünə daha aydın bir parıltı qondu. Quste burnunu yuxarı dartdı və:

– Yaxşı, onda məzələnməyinizə davam edin, – deyib getmək istədi. Ancaq bu vaxt məhkəmə müşaviri Fritçe özünü yetirdi, Qustenin, həm də Bukun qarşısında təzim etdi.

– Cənab vəkil icazə verərmi, nişanlısı ilə kotilon oynayım? – Həddən artıq ehtiramla, bir az da barışsal tonla dilləndi. Buk cavab vermədi, qaşlarını çatdı. Amma Quste artıq Fritçenin qolunda idi.

Buk onların dalınca baxdı, qaşlarının arasındakı qırış onun özünü unutmasından xəbər verirdi. "Hə, hə, – Diderix fikirləşdi. – Adam bacısını götürüb eyş-işrət səyahətinə çıxan birisinə rast gələndə və həmin birisi nişanlını masadan qaldırıb aparanda, dava həddən artıq böyüyəcəyinə görə, əslində, nişanlanmağın özü davalı olduğundan sənin heç nə edə bilməməyin ürəkaçan deyil..."

Buk yerindən atılıb dedi:

– Bilirsinizmi, froylayn Daymxenlə evlənməyə təzəcə həvəsə düşmüşəm? Məsələni o qədər də hay-küylü saymıram. Lakin Netsiqin sakinləri bu işi bir az da tündləşdirdilər.

Diderix işlərin bu cür gedişindən donub-qalmışdı. Sözləri zorla ağzından çıxardı:

– Hesab edirsiniz ki...

– Niyə də yox? Əks qütblər olan siz və mən azad əxlaqlı dövrün mütərəqqi ənənələrini həyata keçiririk. Bizim başımız işə qarışıb. Zəmanənin ruhu buradakı küçələrdə hələ də keçə çəkmələrdə gəzir.

– Biz onu bizləyərik, – Diderix hökmlə dilləndi.

– Prost!

– Prost! Amma mənim bizimlə.

Diderixin gözləri od saçdı.

– Sizin şəkkaklığınız və ölüvay düşüncə tərziniz zamana uyuşmur. – Nəfəsini burnu ilə çölə ötürdü. – Zamanın ruhu ilə bu gün heç nə etmək olmaz. Milli işin... – masaya bir yumruq zərbəsi endirdi, – ... gələcəyi var!

Buk buna cavab olaraq mərhəmətli bir təbəssüm göstərib dedi?

– Gələcək? – yanlışlıq da elə burasındadır. Yüz ilin ərzində milli düşüncə öz ömrünü başa vurmuşdur. Başımıza gələnlər və gələcəklər onun ölüm ayağındakı titrəmələri və cəsədinin qoxusudur. Bundan yaranan hava heç də yaxşı olmayacaq.

– Müqəddəs olan şeyləri çamıra bulaşdırmaqdan başqa sizdən heç nə gözləmirdim.

– Müqəddəs! Toxunulmaz! Elə birbaşa əbədi?! Elə deyil? Sizin millətçilik ideallarınızdan kənarda heç vaxt, daha heç vaxt yaşanılmayacaq. Əvvəllər, ola bilsin, sizə bəlli olmayan tarixin qaranlıq dövründə bu, bəlkə də, mümkün idi. İndi siz meydana atılmısınız və görünür, dünyanın sonu çatıb. Millətlərin təkəbbürü və nifrəti, budur sizin məqsədiniz, siz bundan o yana gedə bilməzsiniz.

– Biz sərt bir zəmanədə yaşayırıq, – Diderix ciddiliklə bildirdi.

– Buna ciddilikdən çox malalama demək olar... Mən əmin deyiləm ki, həyatları otuzillik müharibə dövrünə düşmüş insanlar özlərinin o qədər də xoş keçməyən güzəranlarını dəyişdirə bilməyəcəklərinə inanıblar. Bir də ona əminəm ki, onlar insanları əzən rokoko hərkiliylnin dönməzliyi ilə barışıblar, yoxsa inqilab etməzdilər. Əlimiz çatan tarixin gedişində özünü keçilməz sayıb acınacaqlı məhdudluğunu, əbədiliyini əlində bayraq edən dövr harada qaldı?!. Mən onu bir balaca qabaqlayanı xurafatla damğalayan dövrün harada qaldığını nəzərdə tuturam. Millətçiliyə yad olmaq sizdə daha çox qorxu oyadır, nəinki nifrət. Lakin səfillər sizi daban-dabana izləyir. Bax o zalda, onları görürsünüzmü?

Diderix o tərəfə elə yeyin döndü ki, badəsindəki şampanı masaya dağıtdı. Məgər Napoleon Fişer yoldaşlarla burayamı soxulmuşdu?.. Buk içində səssizcə güldü.

– Özünüzə əziyyət verməyin, mən yalnız divara çəkilmiş lal-dinməz xalqı nəzərdə tuturam. Onların niyə belə çılğın görkəmi var? Onlara haqq verən nədir ki, çiçəkli yollarda yüngül addımlarla ahəngdarlıq yaratsınlar? Aha! Siz, ey dostlar! – Buk badəsini rəqs edənlərin, sanki, başı üstündən fırlatdı. – Siz, ey bəşəriyyətin, istənilən gözəl gələcəyin dostları, milli qohumluq ittifaqının ürək açmayan “mənəmlik” xəstəliyinə tutulmuş genişürəkli yad-yabançı insanlar! Siz, ey dünyanı dolaşan ruhlar, qayıdın geriyə! Hətta bizim aramızda da, az da olsa, sizləri gözləyənlər var.

Badəsini içib boşaltdı, Diderix Bukun ağladığını görüb ona ikrahla yanaşdı. Amma elə həmin an üzünə hiyləgər bir ifadə qondu.

– Amma siz, ey bizim müasirlərimiz, orada vəzifəli adamların və quzuçu qızların arasında məmnun-məmnun gülümsəyən qoca valinin lent kimi sinəsinə keçirdiyi şey nədir? Rənglər solub; yoxsa düşünürsünüz ki, həmin rənglər sizinkidir? Bu, fransızların üçrəngli bayrağıdır. Həmin dövr o, yeni idi və ölkənln bayrağı deyil, sadəcə, səhər şəfəql idi. O rəngləri sinəsində gəzdirmək ən yaxşı inanc sayılırdı; sizin deyəcəyiniz kimi düzgün inanc! Prost!

Lakin Diderix öz kətlli ilə birlikdə gizlincə arxaya çəkilmişdi və ətrafına boylanırdı, görsün onları eşidən varmı.

– Keflənmisiniz, – mızıldandı və vəziyyətdən çıxmaq üçün ucadan səsləndi: – Cənab Rozel Bir şüşə dəl – Bundan sonra o, ədəb-ərkanla özünü düzəldib oturdu.

– Deyəsən, ağlınıza da gəlmir ki, o vaxtdan bir Bismark da dünyaya gəlib!

– Təkcə biri yox, – Buk cavab verdi. – Avropa hər yandan bu dar milli keçidə sürüklənib. Tutaq ki, o, qaçılmaz idi. Ondan sonra daha yaxşı zəmin yaranacaq... Lakin sizin bir Bismark haqlı olduğu müddətdə onun arxasınca getdinizmi? Siz ondan qopdunuz, onunla ziddiyyətdə yaşadınız. Yalnız indi ondan canınızı qurtarmalı olduğunuz məqamda onun gücsüz kölgəsindən asılıb qalmısınız! Zira sizin milli dəyişkənliyiniz həddən artıq ağır gedir. Siz böyük bir adamın meydana atıldığını dərk edənə qədər o artıq öz böyüklüyünü itirmiş olur.

– Onu tanıyacaqsınız! – Diderix amiranə dilləndi. – Qanla dəmir ən təsirli müalicədirl Güc haqdan öndədirl – Ürəkdən gələn bu sözlərdən qan onun başına vurdu. Amma Buk da dinc durmadı.

– Güc! Güc şişə taxılmış qolbas kimi nizələr üstündə ömürlük dayanan deyil. Bu gün yeganə gerçək güc barışdır! Siz özünüzün güc komediyanızı oynamaqda davam edin! Ölkənin daxilindəki və xaricindəki savadlı düşmənlərinizin qarşısında öz silahınızla lovğalanın. Xoşbəxtlikdən, onu işə yaratmaq sizə nəsib olmayacaq!

– Nəsib olmayacaq? – Diderix elə fısıldadı, elə bil, ocaq üfürürdü. – Əlahəzrətlərl deyib: "On səkkiz ordu korpusumuzun hamısının və qırx iki milyon əhalinin qırılmasına razı olarıq..."

– "Alman qartalı qıy çəkən yerdə..." – Buk yerindən qəfil sıçrayıb, az qala, qışqırdı; sözünə daha çılğın davam etdi: – "... heç bir parlament qərarı! Yeganə sütun ordudur!"

Diderix heç nədə güzəştə getmədi:

– "Məni ilk növbədə daxili və xarici düşmənlərdən qorumaq sizin borcunuzdur!"

– "Satqın tör-töküntüdən qorumaq!" – Buk bağırdı. – "İnsan xılından..."

Diderix müdaxilə etdi:

– "Alman adını daşımağa layiq olmayan insan xılından!"

Hər ikisi bir səslə:

– "İstər qohum olsun, istərsə qardaş, hamısını güllələmək!"

Bufetdə özlərini sərinləşdirən rəqqaslar hər ikisinin qışqırtısına diqqət kəsilib öz xanımlarını da çəkib gətirdilər ki, onlara igidsəl sərməstliyin mənzərəsini göstərsinlər. Hətta qumar oynayanlar da başlarını içəri soxdular; oturduqları kətllin üstündələngər vurub masanı qucaqlayan və şüşə kimi donuq gözləri ilə, eləcə də dişlərini qıcayaraq ən ağır sözləri bir-birinin sifətinə çırpan Diderixə və onun qarşıdaşına hamı heyrətlə tamaşa etdi.

– "Mənim düşmənim olan düşməni də!"

– "Səltənətdə bir ağa var, ikincisinə dözə bilmərəm!"

– "Mən həddən artıq sərt ola bilərəm!"

Səslər bir-birinə qarışdı.

– "Yalançı humanizm!"

– "İlahi dünya düzəninin səfil düşmənləri!"

– "Son kötüyünə qədər qazılıb atılmalıdır!"

Butulka divara çırpıldı.

– "Tapdalayıb əzərəm!"

– "Alman tozunu!.. Çəkmələrdən silib atmaq!.. Gözəl günlər!.."

Bu yerdə tamaşaçıların arasından gözləri bağlı bir şəxs keçdi: bu yolla kişilərdən birini axtarmalı olan Quste Daymxen! Arxadan əlləri ilə Diderixi döyəcləyib onu yerindən qaldırmaq istədi. Diderix dümdüz dayanıb hədə ilə dedi:

– "Gözəl günlər!"

Quste yaylığı gözündən götürüb qorxu içində Diderixə baxdı və onun bacılarını çağırdı. Buk da gördü ki, tərpənməyin vaxtıdır. Nəzərə çarpmadan dostuna qapıya qədər dayaq oldu, lakin qapıya çatanda rəqs edən, gözlərini

döyüb onlara baxan camaata Diderixin üz çevirməsinə, dimdik dayanaraq işartısız donuq gözləri ilə onları süzməsinə mane ola bilmədi.

– "Tapdalayıb əzərəm!"

Axırda onu aşağı endirib faytona mindirdilər.

***

Diderix günortaüstü ağır başağrısı ilə yemək otağına daxil olanda Emminin məyus-məyus otaqdan çıxmasına həddən artıq heyrətləndi. Ancaq Maqda bir-iki ehtiyatlı eyham vurmalı olduqda Diderix söhbətin nədən getdiyini təzəcə anladı.

– Doğrudan da, belə etmişəm? Yaxşı, boynuma alıram, orada xanımlar da vardı. Özünü alman kişisi kimi aparmağın müxtəlif yolları var: xanımlarda bu, ayrı yoldur... Təbii ki, bu vəziyyətdə adam öz günahını hamının gözü qarşısında yumalıdır.

Gözlərini güclə açmasına baxmayaraq, nə etməli olduğunu anladı. İkiatlı faytonu hazır olana qədər o, frakını geyib ağ qalstuk taxdı və silindrini başına qoydu; sonra Maqdanın tutduğu siyahını faytonçuya verib yola düşdü. Hər yerdə qadınları aradı; bəzilərini nahar süfrəsinin üstündən qaldırır və qarşısındakının frau Harniş, frau Daymxen, yaxud frau Tits olduğunu dəqiq bilmədən qaba erkək pişik səsi ilə deyirdi:

– Etiraf edirəm... Əsl alman kişisi kimi xanımlardan... açıq-aşkar, ən incə şəkildə...

Saat ikinin yarısında tövşüyə-tövşüyə evə qayıdıb yeməyin arxasında oturdu və dedi:

– Məsələ yoluna qoyuldu.

Günortadan sonrakı vaxt çox çətin bir məsələyə həsr olundu. Diderix Napoleon Fişeri öz mənzilinə çağırtdırdı.

– Cənab Fişer, – deyib ona stul təklif etdi, – mən sizi iş yerimdə yox, burada qəbul edirəm, çünki aramızdakı münasibətlərin cənab Zötbirə qəti dəxli yoxdur. Söhbət siyasətdən gedir.

Napoleon Fişer başı ilə təsdiq etdi, sanki, çoxdan bunu gözləyirmiş. Deyəsən, bu cür intim söhbətlərə çoxdan öyrəşmişdi, Diderixin işarəsinə bənd imiş kimi həmin an siqaret qutusuna əl atdı; hətta bir qıçını o birinin üstünə aşırdı. Diderix özünə o qədər də arxayın deyildi; fısıldadı...

Sonra bəzəksiz-düzəksiz, qəddar bir gerçəkliklə öz məqsədinə çatmağı qərara aldı. Bismark da belə etmişdi.

– Mən şəhər məclisinə deputat olmaq istəyirəm, – fikrini bildirdi, – buna görə də sizə ehtiyacım var.

Mexanik ona altdan-yuxarı nəzər salıb dedi:

– Mənim də sizə, çünki mən də şəhər məclisinə deputat olmaq istəyirəm.

– Yox bir, gör nə deyir?! Nə desən gözləyirdim, amma...

– Yəqin, yenə əlinizdə bir-iki kronunuz var? – bu proletar sarı dişlərini bir-birinə sürtüb xırçıldatdı. Daha irişiyini də gizlətmədi. Diderix anladı ki, onunla seçki məsələsindən danışmaq şikəst olmuş qadın fəhlə barəsində danışmaqdan xeyli çətin olacaq. – Əslində, cənab doktor, – Napoleon sözünü davam etdirdi, – iki yerdən birini bizim partiya tutacaq. İkincisini, yəqin ki, azad düşüncə sahibləri tutar. Onları sıxışdırıb çıxarmaq istəsəniz, bizə ehtiyacınız olacaq.

– Burasını mən də başa düşürəm, – Diderix dedi. – Hətta qoca Buk da mən tərəfdədir. Lakin mən azad düşüncə sahibi kimi namizədliyimi irəli sürsəm, onun adamlarının bəlkə də hamısı ürək qızdırıb məni seçməyəcək. Rahatlıq onda olar ki, sizinlə də sözləşmiş olum.

– Niyə belə etdiyinizi az-çox anlayıram. Çoxdandır cənab doktora göz qoyuram, görüm tezliklə siyasətə atılacaqmı. – Napoleon özünü o qədər sərbəst hiss etdi ki, qullab vurduğu siqaretinin tüstüsü halqa-halqa havaya qalxdı. – Sizin məhkəmədəki fəaliyyətiniz, cənab doktor, sonra da "Veteranlar şurası"na qoşulmağınız, bunların hamısı reklam üçün gözəldir. Ancaq siyasətçi üçün hələ də bir məsələ qalır: nə qədər səs toplayacaq.

Napoleon zəngin təcrübəsini onunla bölüşdü! "Milli hərc-mərclik"dən danışanda isə Diderix etiraz etmək istədi; ancaq Napoleon tezliklə onu yerində oturtdu.

– Nə istəyirsiniz axı? Bizim partiyada milli hərc-mərcliyə, hər halda, hər cür hörmət var. Azad düşüncəlilərə baxanda milli hərc-mərcliklə daha yaxşı işlər görmək olur. Burjua demokratiyasından tezliklə nə əsər qalar, nə də əlamət.

– Üstəlik, biz də onu zibilxanaya atarıq! – Diderix səsini qaldırdı. Müttəfiqlər məmnunluqdan gülüşdülər. Diderix ona bir şüşə pivə gətirdi.

– Lakin, – sosial-demokrat Fişer "a"nı uzada-uzada dedi; sonra da öz şərtini ortaya qoydu: – Həmkarlar evi, gərək onun tikintisində onların partiyası şəhər məclisindən dəstək alsın!..

Diderix kətildən sıçrayıb qalxdı.

– Bunu bir millətçidən tələb etməyə nə cürətiniz çatır?

Qarşısındakının heç tükü də tərpənmədi və sifətində kinayə dolaşdı.

– Biz seçilməsi üçün həmin millətçiyə kömək etməsək, onda o millətçi harada qalar, görəsən?

Diderix bilmədi hirslənsin, yoxsa aman diləsin; bir vərəq kağız götürüb yazdı ki, həmkarlar evinin tikilişinə təkcə özü səs verməyəcək, həm də ona yaxın olan deputatları bu işə səfərbər edəcək. Bundan sonra o, sərtliklə razılaşmanın sona yetdiyini bildirib pivə şüşəsini mexanikin əlindən aldı. Amma Napoleon Fişer ona göz basdı. Ümumiyyətlə, cənab doktor sevinsin ki, onunla partiya meyxanasının sahibi Rille yox, Fişer danışıqlar aparır. Çünki öz namizədliyini irəli sürən Rille heç cür razılığa gəlməzdi və partiyada fikirlər parçalanardı; deməli, Diderixin hər cür əsası var ki, ona yaxın olan mətbuatda Fişerin namizədliyi üçün nə isə etsin.

– Rille kimi yad adamlar sizin məsələlərə burun soxsalar, cənab doktor, buna gərək "çox sağ ol" deyəsiniz. Bizim ikimizdə də məsələ ayrı cürdür. Biz hər ikimiz kifayət qədər zibil qaynatmışıq.

Bunu deyib Fişer yerindən tərpəndi və Diderixi düşüncələr içində qoyub getdi. "Kifayət qədər zibil qaynatmışıq!" – Diderix fikirləşdi və qorxu hirs dalğalarına bürünərək onu çulğadı. Bu köpək oğlu, hər an küçəyə ata biləcəyi fəhləsi ona belə şey də deyərmiş! Amma nə etsə də, ata bilməzdi, çünki kifayət qədər zibil qaynatmışdılar. Hollender! Şikəstləşmiş fəhlə qız! Bir sirr çəkib arxasınca o birini gətirirdi; indi Diderixlə onun fəhləsi təkcə işlə yox, həm də siyasətdə bir-biri ilə bağlı idilər. Diderix partiyanın meyxanaçısı Rille ilə sövdələşsəydi, yaxşı olmazdımı?! Onda da qorxu vardı ki, Napoleon Fişer intiqam hissinə qapılaraq bildiklərinin hamısını açıb tökəcək. Diderix məcburiyyət qarşısında qalmışdı ki, Rilleyə qarşı mübarizədə Fişerə yardımçı olsun. "Ancaq, – yumruğunu düyünləyib tavana silkələdi, – biz yenidən üz-üzə gələcəyik. Aradan on il keçsə də, haqq-hesab vaxtı yetişəcək!"

İndi qoca Buka baş çəkməyin, onun xeyirxah, sentimental cəfəngiyatına mütiliklə qulaq asmağın vaxtı yetişmişdi. Diderix havayı yerə azadfikirli partiyanın namizədi olmamışdı... "Netziger Zeitung"da cənab doktor Heslinqi böyük bir insan, vətəndaş və siyasətçi kimi seçicilərə hərarətlə təqdim edən məqalənin altında, xırda şriflərlə də olsa, fəhlə Fişerin özünü namizəd verməsi pislənirdi. Sosial-demokrat partiyasının, etiraf etmək lazımdır ki, yetərincə müstəqil silahdaşları vardır, burjua deputatları ilə kollegial ünsiyyətdə onun adi fəhlə Fişerlə təmsil olunmasına qəti lüzum yoxdur. Xüsusilə cənab doktor Heslinq şəhər özünüidarəetməsində fəhləsi ilə üz-üzə gəlsə necə?!

Burjua qəzetinin bu hücumu sosial-demokratlar arasında yekdilliyə səbəb oldu; hətta Rille də uğurla öz məqsədinə can atan Napoleonun tərəfinə keçdi. Diderix onun namizədliyini irəli sürmüş partiyadan səslərin yalnız yarısını qazandı. Amma onu yoldaşlar xilas etdi. Seçilənlərin ikisi də birlikdə iclasa çağırıldı. Vali doktor Şeffelvays onları təbrik etdi, bir tərəfdən işgüzar vətəndaşa, digər tərəfdən də yüksələn fəhləyə eyham vurdu. Artıq növbəti iclasda Diderix müzakirələrə qoşuldu.

Debatın mövzusu Qebbelxen küçəsinin çirkarx (kanalizasiya) məsələsi idi. Şəhər qırağındakı köhnə evlərin böyük əksərlyyəti bu gün də, on doqquzuncu əsrin sonlarında da adama utanc gətirən ayaqyolu quyuları ilə təmin edilmişdi ki, onların da qoxusu zaman-zaman bütün ətrafı bürüyürdü. "Yaşıl mələkə" gedərkən Diderix özü bunun şahidi olmuşdu. Buna görə də o, magistrat nümayəndəsinin maliyyə qayğılarına qarşı kəskin çıxış etdi. Mədəniyyətə hörmət tələbi xırda mülahizələrin qarşısından geri çəkilməməlidir.

– Almanlıq mədəniyyət deməkdir! – Diderix bağırdı. – Cənablar, bunu elə-belə xırda adam yox, əlahəzrət qeysərin özü deyib. Digər bir vəziyyətdə əlahəzrət bildirib: "Murdarlığa son qoyulmalıdır!" İndi biz iri addımlarla irəlilədikcə əlahəzrətin əzəmətli nümunəsi yolumuzu işıqlandırır, ona görə də, möhtərəm cənablar...

– Urra! – sol tərəfdən kimsə dilləndi və Diderix Napoleon Fişerin irişiyi ilə qarşılaşdı. Qamətini düzəltdi, gözləri alışıb-yandı.

– Tam yerindədir! – kəsərlə dilləndi. – Nitqimi bundan yaxşısı ilə bitirə bilmərəm. Əlahəzrət qeysərə urra, urra, urra!

Şaşqın bir sakitlik, lakin sosial-demokratlar güldüyünə görə sağ tərəfdən daha bir neçə "urra". Doktor Hoytoyfel ortaya belə bir sual atdı ki, cənab doktor Heslinqin qeysərin şəxsiyyətini dilə gətirdiyi bu qəribə hal, əslində, əlahəzrətin təhqiri deyilmi?! Amma sədr tələsik zınqırovunu çaldı. Mübahisə mətbuatda davam etdi. "Volksstimme" yazırdı ki, cənab Heslinq şəhər deputatlarının iclasına ən pis "bizanslıq" ruhu gətirir, onun əksinə olaraq "Netziger Zeitung" Diderixin nitqini ipə-sapa yatmayan vətənpərvərin təravət gətirən əməli kimi tərənnüm edirdi. Lakin bunun, həqiqətən də, önəmli bir iş olması "Berliner Lokal-Anzeiger" qəzetində çap olunandan sonra aydınlaşdı. Əlahəzrətin qəzeti Netsiq şəhər deputatı doktor Heslinqin cəsarətli çıxışının tərifi ilə dolu idi. Qəzet məmnuniyyətlə qeyd edirdi ki, qeysərin uğrunda çarpışdığı yeni qətiyyətli milli ruh indən belə ölkədə tərəqqi tapır. Qeysərin "Vətəndaş yuxudan oyansın, lehimə və əleyhimə olanlar arasındakı sədd müəyyənləşsin" xəbərdarlığına əməl edilir. "Şəhərlərimizin hər yana əsən nümayəndələri qoy doktor Heslinqin nümunəsini təkrar etsin!"

"Lokal-Anzeiger"in bu nömrəsini Diderix düz səkkiz gün ürəyinin başında gəzdirdi, günortadan sonranın ən sakit saatlarından birində isə Qeysər-Vilhelm küçəsindən yan ötmək üçün arxadan Klapşın pivəxanasına gəldi, burada o, ürəyincə olan məclislə rastlaşdı: Napoleon Fişer və partiyanın meyxanaçısı Rille ilə. Meyxanada heç kəsin olmasına baxmayaraq, hər üçü ən uzaq guşələrdən birinə çəkildi; froylayn Klapş pivəni gətirən kimi onu çölə çıxartdılar; qapının ağzında onlara qulaq verən Klapşın özü isə yalnız pıçıltı eşitdi. O, qonaqlar çox olanda parçları ötürdüyü taxçanın köməyindən istifadə etməyə çalışdı; lakin bu cür hoqqalardan başı çıxan Rille taxçanı örtdü, az qaldı taxta Klapşın burnuna dəysin. Hər halda, sahibkar gördü ki, doktor Heslinq sıçrayıb yerindən qalxdı və getmək istədi. Millətçi kimi o, heç vaxt buna qol qoya bilməz!.. Sonralar hesablaşmağa çağırılan froylayn Klapş üçünün imzaladığı kağızı gözdən qaçırmadı.

***

Həmin gün günortadan sonra Emmi ilə Maqda frau fon Vulkaunun yanında çay süfrəsinə dəvət edildilər, Diderix də onları müşayiət etdi. Qardaş-bacılar başlarını dik tutub Qeysər-Vilhelm küçəsi ilə yeridilər, hökumət binasına çatanda Diderix mason lojasının pillələrindən heyrətlə onlara baxan kişilərin qarşısında silindrini çıxartdı. Keşikçini adına yaraşmayan əl hərəkəti ilə salamladı. Soyunub-geyinmə yerində zabitlər və xanımları ilə rastlaşdılar. Bacıların hər ikisi onlarla çoxdan tanış idi. Dabanlarını bir-birinə vuraraq leytenant fon Britsen Emminin paltosunu əynindən aldı. Emmi ona çiyni üstündən minnətdarlıq bildirdi, əsl qrafinya kimi. Bundan dərhal conra o, Diderixin ayağını basdı ki, hansı qaynar zəmində dayandığını bir daha onun yadına salsın. Doğrudan da, cənab fon Britsen qonaq otağına birinci daxil olmağa, axır ki, razılıq verdi, frau fon Vulkaunun qarşısında dabanlarını bir-birinə vurub baş endirdi, hamı ilə tanış oldu: balaca bir kətildə gözəl libaslı qadınların arasına qısılaraq çay fincanlarını əsdirmədən əldə saxlamaq, boşalmış nimçələri o tərəfə ötürərək bişilərə görə məsum bir təbəssümlə minnətdarlıq bildirmək, yemək süfrəsinin arxasında "Gizli qrafinya"nın uğurlu tamaşası barədə xoş söz söyləmək, cənab fon Vulkaunun hamı tərəfindən bəyənilən iriçaplı idarəçiliyindən, qiyamçıların bədxahlığından və qeysərə sədaqətdən ağızdolusu danışmaq, üstəlik də, cənab Vulkaunun ləhləyə-ləhləyə pay uman itini yemləmək təhlükəli olduğu qədər də şərəfli idi. Ratskellerin, yaxud "Veteranlar şurası"nın iddiasız qonaqlığı barədə burada düşünməyə ehtiyac qalmamışdı; alnının ortasından sifətinə qədər qızartı çökmüş, təlim meydançasından söhbət salmış ağsaç kapitan fon Kökeritsin şəffaf gözlərinə aşkar bir təbəssümlə baxmaq bəs edərdi. Orduda xidmət etməsi barədə verilən sualın gərginliyindən birisini tər basanda özün də istəmədən görürdün ki, həmin adamın yanındakı ağ-sarışın saçlarını arxaya daramış, burnu günəşdən qaralmış qadın atlardan danışmağa başladı... Bu dəfə Diderixi Emmi vəziyyətdən çıxardı, çünki o, yaxşı münasibətlər qurmuş olduğu cənab fon Britsenin dəstəyi ilə əlüstü at söhbətinə qarışdı və bu zaman peşəkar ifadələr işlətdi, hətta xalalarından birinin malikanəsində at minib çapması ilə öyünməkdən də çəkinmədi. Leytenant onunla cıdıra çıxmağı təklif edəndə

buna icazə verməyəcək yazıq frau Heslinqi bəhanə gətirdi. Diderix Emmini tanıya bilmirdi. Onun mübhəm istedadı nişanlanmağı bacarmış Maqdanı büsbütün kölgədə qoyurdu. "Yaşıl mələk"dən qayıdanda olduğu kimi, Diderix qorxu içində indiyə qədər görmədiyi bir qızın arxasınca yad-yabançı bir yola düşmüşdü... Birdən-birə gördü ki, frau fon Vulkaunun sualını eşitməyib və qadına o cavab verməli olduğuna görə başqaları susurdu. Əl-qolunu havada yellədib ətrafında kömək axtardı, böyük bir şəklin solğun və donuq baxışına rast gəldi, qusar mundirində, əlini belinə qoyaraq, bığları gözlərinin uclarına qalxaraq, çiyni üstündən buz kimi donuq bir baxış! Diderixi əsməcə tutdu, çayı içərkən çəçidi, cənab fon Britsen onun kürəyinə döyəclədi.

İndiyə qədər başı yeməyə qarışmış bir qadın mahnı oxumalı oldu. İnsanlar dəstə-dəstə musiqi otağında toplaşdı. Qapıda dayanan Diderix gizlincə saatını çıxartdı, bu vaxt frau fon Vulkau onun arxasında içini arıtladı.

– Yaxşı bilirəm ki, əziz doktor, ciddi işlərə sərf etməli olduğunuz vaxtınızı bizim o qədər də ağır olmayan, deyərdim ki, heç də ağır olmayan söhbətimizə qurban verməli olursunuz. Ərim sizi gözləyir, gedək.

Barmağını dodaqlarının üstünə qoyub qadın qabağa düşdü, dəhlizdən keçib boş bir önoda ilə irəlilədi... Astadan qapını döydü. Cavab gəlmədiyindən ürkək-ürkək Diderixə baxdı, onun da halı özündə deyildi.

– Ottosu, – özünü bağlı qapıya sıxaraq incə bir cəhd etdi. Kiçik bir dinşəmədən sonra heybətli, yoğun bir səs eşidildi:

– Ottosu-mottosu yoxdur! Qoyunbaşlara deyin ki, çaylarını tək içsinlər.

– Çox məşğuldur, – azca rəngi qaçmış frau fon Vulkau pıçıldadı. – Bədxahları onun sağlamlığının axırına çıxırlar... Əfsuslar ki, qonaqlarımı diqqətsiz qoya bilmərəm. Gəlişinizi qulluqçu kişi xəbər verər.

Bunu deyib aradan çıxdı. Diderix əbəs yerə uzun müddət qulluqçu kişini gözlədi. Sonra Vulkaunun iti içəri girdi, həşəmətli addımlarla və mırıltılı bir nifrətlə Diderixin yanından keçib qapını cırmaqladı. Həmin an içəridən səs gəldi.

– Şnaps! Gəl içəri! – bu çağırışdan sonra it qapını açdı. Onu bağlamağı unutduğundan Diderix özünü içəri təpdi.

Cənab fon Vulkau siqar tüstüsünün dumanında yazı masasının arxasında oturmuşdu, enli kürəyi qapıya tərəf idi.

– Günaydın, cənab başçı, – Diderix dabanlarını cütləyib dedi.

– Nədir bu, artıq sən də danışırsan, Şnaps? – Vulkau çönüb arxaya baxmadan soruşdu. Əlindəki kağızı bükdü, asta-asta yeni bir siqar yandırdı...

"İndi başlanacaq", – Diderix düşündü. Amma sonra Vulkau təzədən yazmağa başladı. Yalnız it Diderixə maraq göstərdi. Aşkarca o da qonağın burada yersiz olmağını hiss elədi, nifrəti düşmənçiliyə çevrildi; dişlərini qıcayaraq Diderixin şalvarını imsilədi, amma buna daha imsiləmə demək olmazdı. Diderix səs-küylə ayaqlarını qaldırıb-saldı və doq hədə ilə, lakin astadan mırıldadı. Deyəsən, sahibinin onun çox uzaqlara getməsinə icazə verməyəcəyini bilirdi. Nəhayət, Diderix kətili özü ilə düşməni arasına qoymağı bacardı. Şnapsın yandan sıçramalarına fikir verərək kətili tez-tez fırladırdı. Bir dəfə Vulkaunun başını bir balaca döndərdiyini gördü və ona elə gəldi ki, kişi qımışır. Axırda it bu oyundan bezdi, sahibinin yanına gedib özünü tumarlatdırdı. Vulkaunun kreslosunun yanında uzanaraq cəsarətli ovçu baxışları ilə tərini silən Diderixi süzdü.

"Murdar heyvan!" – Diderix fikirləşdi və birdən içindən nəsə poqquldayıb qalxmağa başladı. Hirs və qalın tüstü nəfəsini kəsdi, içində boğub saxladığı tıncıxma ilə düşündü: "Mən kiməm ki, belə şeyi özümə rəva bilirəm? Heç maşınımın axırıncı yağlayıcısı da bunu özünə rəva bilməzdi. Elmlər doktoruyam. Şəhər deputatıyam! Bu kəmsavad qanmazın mənə daha çox ehtiyacı var, nəinki mənim ona!"

Bu gün günortadan sonra keçirdiyi yaşantılar heç ürəyincə deyildi. Onu ələ salırdılar, o əclaf leytenant kürəyinə döyəcləyirdi! Bu poqonlu gədələr və özlərini dartan kübar hind toyuqları bütün günü özlərinin gicgici məsələlərindən danışıb onu səfeh kimi yanlarında əyləşdirmişdilər! "Bəs bu həyasız ac-yalavacların qarnını kim doyurur? Biz!" Birdənbirə Diderixin sinəsində düşüncə və duyğular bir-birinə qarışdı və içinin dərinliyində nifrət alovu baş qaldırıb püskürdü. "Soyğunçular, qılınc tovlayanlar! Dikburun zırzibil... Bircə bu bandit dəstəsinin axırına çıxsaydıq!.." Yumruqları öz-özünə düyünləndi. Lal dəliliyə tutularaq hamısının ayaqlar altına atılıb tapdandığını gördü: dövlət xadimləri,

qoşun, məmurlar ordusu, bütün dövlət qurumları və elə həmin dövlətin özü! Bizdən uca duran, dırnaqlarını bizə öpdürən dövlət! Ona qarşı çıxa bilmədiyimiz dövlət, çünki onu hamımız sevirik! Qanımıza işləyən dövlət, çünki biz onda öz tabeçiliyimizi görürük! Biz onun bir atomuyuq, gözəgörünməz bir molekuluyuq!.. O divardan, mavi buludların arxasından onun solğun sifəti donuq-donuq bizə baxır, daşlaşaraq, tüklərini qabardaraq, gözlərindən od saçaraq. Diderix də özünü büsbütün unudaraq yumruğunu yuxarı qaldırmışdı.

Bu vaxt Vulkaunun iti mırıldadı, başçının oturduğu yerin altından gurultulu bir səs gəldi, sanki, nəsə bir xeyli diyirlənib şaqqıltı salırdı və Diderix bərk qorxdu. Nə baş verdiyini anlamadı. Quruluşun özülü sinəsində yenidən canlanaraq astaca titrədi. Cənab başçı vacib dövlət işləri ilə məşğul idi. Səni görməyIni gərək xeyli gözləyəydin; sonra o, xoş sözlər söyləyib xoşagələn işlərlə məşğul oldu...

– Nədir, doktorcuğum? – deyib cənab Vulkau kreslosunu fırlatdı. – Nə olub sizə? Siz ki xalis dövlət xadimi olacaqsınız. Oturun burada, bu şərəfli yerdə.

– Deyilənlərə layiq deyiləm, – Diderix kəkələdi. – Milli maraqlar naminə bir-iki xırda-para şeylərə nail olmuşam.

Vulkau siqarın qalın tüstüsünü birbaşa onun üzünə üfürdü. Sonra tam yaxına gəlib monqol qırışlı qaynar və sırtıq gözlərini ona zillədi.

– Birincisi, ona layiq olmusunuz ki, doktorcuğum, şəhər deputatı olmusunuz. Necədir, buna toxunmayın. Hər halda, sizin buna ehtiyacınız olacaq, çünki biznesiniz çürük arabaya bənzəyir. – Diderix səksəkəyə düşdüyündən Vulkau şaqqanaq çəkib güldü. – Boşlayın getsin, siz mənim adamımsınız. Necə bilirsiniz, bu yazdığım nə ola bilər? – İri vərəq masaya çırpılan pəncənin altında yox oldu. – Bu kağızda mən hansısa doktor Heslinq üçün balaca bir ətcəbala istəyirəm, onun Netsiqdə yeni düşüncə tərzinin yaranmasındakı xidmətinin dəyərləndirməsi üçün... Yəqin, məni bu qədər də yaxşı adam saymırdınız, hə? – Son cümləni əlavə kimi dedi, çünki Diderix gicləşmiş adam kimi rəngi qaçaraq oturduğu kətildən durmadan təzim edirdi.

– Heç özüm də bilmirəm ki, – güclə dilləndi, – mənim sadə xidmətlərim...

– Hər şeyin ilki çətindir, – Vulkau dedi. – Adamı gərək ürəkləndirəsən. Lauerin məhkəmə prosesində sizin tutdu-

ğunuz mövqe heç də pis deyildi. Üstəlik, çirkarx debatında sizin qeysəri tərənnüm harayınız antimonarxist mətbuatı tamam haldan çıxarıb. Buna görə də artıq ölkənin üç yerində əlahəzrəti təhqirə görə şikayətlər qalxıb. Odur ki sizə dayaq olduğumuzu gərək göstərək.

Diderix boğazıdolusu bağırdı:

– Mənim ən yaxşı mükafatım odur ki, "Lokal-Anzeiger" sadə vətəndaş olan mənim adımı ucalar ucasının diqqətinə çatdırmışdır!

– Yaxşı, siqar götürün, – Vulkau söhbəti bitirdi; Diderix də anladı ki, indi söhbət işin üstünə gələcək. Yüksək duyğuların tən ortasında Vulkaunun mərhəmətinin tamam ayrı səbəbləri olması barədə onda dərin bir şübhə baş qaldırdı. O, tovlantı ilə dedi:

– Ratsenhauzen yolu üçün şəhər müəyyən məbləğə, yəqin ki, razılıq verər.

Vulkau başını irəli uzatdı.

– Xoşbəxt adamsınız. Bizim nisbətən ucuz bir layihəmiz var. Netsiqin bu işlərə ümumiyyətlə, qarışacağı olmayacaq. Çalışın adamlar ağıllarını başlarına yığsınlar. Bu şərtlər altında siz öz işığınızı cəngavərlər malikanəsi Kvitsində yandıra bilərsiniz.

– Bunu magistrat da istəmir. – Diderix əlləri ilə onu başa düşməsini xahiş edir. – Şəhər bu işdə ziyana düşür, cənab fon Kvitsin də bizə vergi ödəmir... Lakin indi mən şəhər deputatıyam və bir millətçi kimi...

– Mən bunu xahişlə tələb etmək istərdim. Qohumum cənab fon Kvitsin onsuz da elektrik avadanlığı zavodu tikdirir, bu ona ucuz başa gəlmir, fikriniz nədir, nazirlərdən ikisi onunla ova çıxır... Sonra da Netsiqdə özünü sizə aciz göstərir.

Diderix qamətini düzəltdi.

– Qəti qərara gəlmişəm ki, cənab başçı, bütün ixtilafların acığına Netsiqdə milli bayrağı göylərə qaldırım. – Sonra boğuq səslə davam etdi: – Düşmənlərimizin birindən yaxa qurtara bilərik. Özü də ən pisindən, elədir, Qauzenfeldli qoca Klüzinqdən.

– O? – Vulkau nifrətlə ağız büzdü. – O, mənim əl quzumdur. Əyalət qəzetlərinə kağızı o verir.

– Bilirsinizmi ki, əleyhimizə olan qəzetlərə daha çox verir? Bağışlayın, cənab başçı, bu barədə mənim daha yaxşı məlumatım var.

– “Netziger Zeitung” milli münasibətlərdə xeyli etibarlı olub.

– Özü də, – Diderix ağır-ağır başı ilə təsdiqlədi, – qoca Klüzinq kağız emalının bir hissəsini mənə təklif edən gündən, cənab başçı. Dediyinə görə, Qauzenfeldin işi çox imiş. Təbii ki, mənim başqaları ilə rəqabət aparan milli qəzetlərdən birində iştirakçı olmağımdan qorxurdu. Bəlkə də, ondan qorxurdu ki, – mənalı bir fasilə etdi, – əyalət qəzetləri üçün kağızı cənab başçı hansısa milli fabriklərdən birinə sifariş edə bilər.

– Deməli, “Netziger Zeitung”a kağızı siz verirsiniz?

– Mən heç vaxt, cənab başçı, özümün milli düşüncəmdən üz döndərib azadfikirlilərin pulu iiə buraxılan qəzetə kağız verməyəm.

– Çox gözəl. – Vulkau yumruqlarını baldırına dirədi. – Daha heç nə deməyin. “Netziger Zeitung”da siz hər şeyi istəyirsiniz, həm də əyalət qəzetlərinə kağız vermək fikriniz var. Yəqin, hökumətə də kağız satmaq niyyətindəsiniz. Daha nə?

Diderix işgüzarcasına dedi:

– Cənab başçı, mən Klüzinq kimi deyiləm, bədxahlarla işim-gücüm yoxdur. Əgər siz, cənab başçı, “Bibliya cəmiyyəti”nin sədri kimi mənim fabrikimi dəstəkləmək istəsəniz, deyə bilərəm ki, milli iş bundan yalnız qazana bilər.

– Çox gözəl, – Vulkau təkrarlayıb ona göz basdı. Diderix saqqasını işə saldı.

– Cənab başçı! Klüzinqin rəhbərliyi altında Qauzenfeld qiyam yuvasına çevrilib. Altı yüz fəhlə ilə o, sosial-demokratlardan başqa heç kəsi seçmir.

– Bəs sizdə?

Diderix sinəsinə döydü.

– Allah şahidimdir ki, fabriki elə bu gün bağlayıb adamlarımla dilənçiliyə başlayaram, nəinki qeysərə sadiq olmayan bircə nəfərə dözərəm.

– Gərəkli fikirdir, – Vulkau dedi.

Diderix mavi gözləri ilə onu süzdü:

– Mən yalnız əsgərlikdə xidmət edənləri işə götürürəm. Onlardan qırxı müharibə iştirakçısıdır. Əlahəzrətin özünün buyurduğu kimi, keşikçinin şərəf meydanında yerə sərdiyi fəhlənin əhvalatından bu yana, gədənin öz nişanlısı ilə mənim cır-cındırımın arxasındakı əməlindən sonra gəncləri daha işə götürmürəm.

Vulkau əli ilə rədd işarəsi verdi:

– Öz dərdinizdir, doktorcuğum!

Dîderix cızdığı planı korlamaq istəmədi.

– Mənim cır-cındırımın arasında qiyam ola bilməz. Sizin cır-cındırınızla, mən siyasəti nəzərdə tuturam, vəziyyət tamam başqadır. Bizim qiyama ona görə ehtiyacımız var ki, azadfikirli cır-cındır qeysərə sadiq ağ kağıza çevrilsin. – Üzünə mənalı bir ifadə qondardı. Vulkau, deyəsən, çaşmadı, əksinə, qorxulu-qorxulu gülümsədi.

– Doktorcuq, mən də dünənki uşaq deyiləm. Deyin görək, mexanikinizlə nə işlər qarışdırmısınız? – Diderixin tərəddüd etdiyini görüb davam etdi: – O da köhnə qulluq edənlərdəndir, hə, cənab deputat?

Diderix udqundu, ayrı çıxış yolunun olmadığını gördü.

– Cənab başçı, – qətiyyətlə dilləndi, sonra isə astadan və ütələk-ütələk dedi: – Kişi reyxstaqa seçilmək istəyir və milli baxımdan o, Hoytoyfeldən yaxşıdır, çünki birincisi, azadfikirlilərin xeyli hissəsi qorxudan millətçi olacaq, ikincisi də, Napoleon Fişer seçilərsə, biz Netsiqdə qeysər Vilhelm heykəlinin qoyulmasına nail olacağıq. Əlimdə yazılı sənəd var.

Kağızı başçının qarşısında açdı. Vulkau oxudu, sonra yerindən qalxdı, ayağı ilə kətili qırağa itələdi və siqarının tüstüsünü püləyə-püləyə otaqda gəzişdi.

– Deməli, Küleman ölür, onun yarım milyonundan da şəhər körpələr evini tikmir, əksinə, qeysər Vilhelm heykəlini ucaldır. – Birdən ayaq saxladı. – Yadınızda saxlayın, əzizim, öz marağınız naminə! Əgər Netsiqin reyxstaqda sosial-demokrat deputatı olarsa, amma Böyük Vilhelmin heykəli ucalmazsa, onda mənim kim olduğumu bilərsiniz. Onda sizdən kotlet düzəldərəm. Sizi elə xırda-xırda doğrayaram ki, daha körpələr evi də sizə yaxın durmaz!

Diderix oturduğu kətillə bərabər divara qədər arxaya çəkildi.

– Cənab başçı! Canımda nə qədər can var, bütün gələcəyimi bu böyük milli işin yolunda qoyacağam. İnsan kimi mənim də başıma nəsə gələ bilər.

– Onda Allahın sizə yazığı gəlsin.

– Külemanın böyrək daşları əriyərsə?

– Sizsiniz cavabdeh! Bu yolda mən də başımı qoymuşam! – Vulkau şappıltı ilə yerinə çökdü. Siqarını acıqlı-acıqlı sümürdü. Tüstü-duman çəkilən kimi gümrahlaşdı. – Sizə

“Harmoniya” barəsində dediklərim yerində qalır. Bu reyxstaq uzun sürməyəcək, siz öz işinizdə olun. Bukla mübarizədə mənə yardımçı olun, mən də sizə Klüzinq məsələsində kömək edərəm.

– Cənab başçı! – Vulkaunun təbəssümü Diderixin ümidlərini alovlandırdı, özünü saxlaya bilmədi. – Klüzinqi itaətdə saxlamaq istəsəniz, çox güman ki, sifarişlərinizi geri götürərsiniz! Bu, o qədər də səs-küy qoparmaz, bundan qorxmağınıza da dəyməz; amma o, öz tədbirlərini görəcək. Bəlkə də, danışıqlara girəcək...

– Xələfi ilə, – Vulkau bildirdi. Bu vaxt Diderix yerindən sıçrayıb otaqda vurnuxdu. – Əgər bilsəydiniz, cənab başçı... Qauzenfeld, necə deyərlər, min at gücünə malik bir maşındır, dayanıb durur və pas atır, çünki işıq yoxdur, demək istəyirəm ki, ölçülü-biçili hərəkət edən müasir ruh yoxdur!

– Deyəsən, sizdə var, – Vulkau dedi.

– Milli işə xidmətdə, – Diderix təsdiqlədi. Əvvəlki söhbətə qayıtdı. – Cənab başçı, bir yaxşılıq edib özünüzün fəxri sədrliyi qəbul etməyinizlə bu məsələyə maraq göstərməyinizi bəyan etməyinizə nail ola bilsək, qeysər Vilhelm heykəli komitəsi özünü xoşbəxt sayacaq.

– Oldu, – Vulkau dedi.

– Cənab fəxri sədrin fədalı fəaliyyətini komitə müvafiq şəkildə dəyərləndirməyi bacarar.

– Bir az açıqlayın görək!

Vulkaunun səsində sağalmaz bir nərilti vardı. Ancaq Diderix həyəcandan onu eşitməmişdi.

– Bu ideya müəyyən şərtlərlə komitədə müzakirədən keçib. Yaxşı olardı, qeysərin heykəlini şəhərin gedişli-gəlişli bir yerində ucaldıb onu milli parkla dövrəyə alaq ki, hökmdarla xalq arasındakı qırılmaz bağlılıq öz əksini tapsın. Biz şəhərin mərkəzində böyük torpaq parçasını nəzərdə tutmuşuq; qonşu binaları da almaq mümkündür; bu yer Meyzeştrasedir.

– Belə de, Meyzeştrase, – fırtına duymuş kimi Vulkaunun qaşları çatıldı. Diderix qorxdu, lakin iş-işdən keçmişdi.

– Bizdə belə bir fikir yaranıb ki, şəhər bu məsələyə əl qatana qədər nəzərdə tutulan torpaq parçasını əldə edək və xoşagəlməz spekulyasiyaları aradan qaldıraq. Əsas söz sahibi, təbii ki, cənab fəxri prezidentimizdir...

Bu sözdən sonra Diderix geriyə çəkildi, firtına qopmuşdu.

– Cənab! Məni nə hesab edirsiniz? Mən sizin biznes agentinizəm? Görünməmiş işdir, belə şey hələ heç vaxt olmayıb. Bu cür bir alverçi qeysərin hökumət başçısına təklif edir ki, onun çirkin əməlində iştirakçı olsun!

Vulkaudan qeyri-insani bir nərilti çıxdı. Nəhəng bədənindən qalxan isti və ona xas olan qoxu ilə o, Diderixin üstünə yeridi, Dederix də ağır-ağır arxaya çəkildi. İt də ayağa qalxmışdı və havıldaya-havıldaya hücuma hazırlaşırdı. Otaq birdən-birə hirs və mırıltı ilə doldu.

– Məmur təhqirinə görə özünüzü suçlu edirsiniz, cənab! – Vulkau bağırdı və əli ilə arxasında qapını axtaran Diderixi fikir götürdü ki, birinci onun üstünə kim atılacaq: it, yoxsa başçı. Qorxudan şaşmış gözləri divardan hədə ilə göz basan solğun sifətə sataşdı. İndi onun yaxasından dövlət yapışmışdı! Dövlətə ürək qızdırmaqda yanılmışdı. Bu, onun məhvi demək idi, məhşər ayağının dəhşəti ilə dövlət onun üstünə aşmışdı. Yazı masasının arxasındakı qapı açıldı, kimsə polis mundirində içəri girdi. Əsməcə tutmuş Diderixi bu o qədər də heyrətləndirmədi. Mundirin varlığında Vulkau yeni qorxunc bir fikrə düşmüşdü.

– Sizi bu dəqiqə tutdura bilərəm, ey rəzil prins, məmura rüşvət verməyə cəhd etdiyinizə görə, idarədə, hökumət dairəsinin ən ali idarəsində rüşvət cəhdinə görə! Sizi mən zindana atdıraram, həyatınızı puç edərəm.

Bu məhşər ayağı polisdən olan cənaba Diderixə təsir etdiyi qədər etməmişdi. Polis nəfəri gətirdiyi kağızı yazı masasının üstünə qoyub aradan çıxdı. Əslində elə Vulkau da qəfildən üzünü çevirdi; təzədən siqar yandırdı, Diderix onun üçün artıq burada yox idi. Şnaps da ondan əl çəkdi, sanki, Diderix bir heçlik idi. Diderix özündə cürət tapıb əllərini çarpazladı.

– Cənab başçı, – səndələyərək pıçıldadı, – cənab başçı icazə versələrdi, deyərdim ki, aramızda təəssüf doğuran bir anlaşılmazlıq oldu. Mən hamıya bəlli olan milli düşüncə tərzimlə heç vaxt belə şeyə... Buna necə cürət edə bilərdim! – Gözlədi, ancaq onu heç kim saya salmadı. – Milli maraqları göz önündə tutmaq əvəzinə, – yenidən başladı, – mən öz xeyrimi güdsəydim, bu gün burada olmazdım, cənab Bukun yanında olardım. Çünki cənab Buk, elədir ki var,

torpaq sahəmi azaddüşüncəlilərin körpələr evi üçün şəhərə satmaqdan ötrü o özü mənim qılığıma girib. Lakin mən bu təklifi yerli-dibli rədd etmişəm və sizin yanınıza gətirən doğru yolu tapmışam, cənab başçı. Çünki öz-özümə demişəm ki, qeysər Böyük Vilhelmin heykəlini ürəkdə gəzdirmək körpələr evini nağdılamaqdan minqat yaxşıdır, bunu demişəm və burada uca səslə bir daha deyirəm!

Diderix səsini qaldırdığından Vulkau ona doğru çevrildi.

– Hələ də buradasınız? – soruşdu.

Yenidən ölümcül vəziyyətə düşmüş Diderix dilləndi:

– Cənab başçı...

– Daha nə istəyirsiniz? Sizi, ümumiyyətlə, tanımıram. Heç vaxt da sizinlə söz-söhbətim olmayıb.

– Cənab başçı, milli maraqlar naminə...

– Torpaq sahəsinin alveri barədə danışmaq istəmirəm. Satın öz torpaq sahənizi və haydi! Yalnız bundan sonra danışa bilərik.

Divara qısnanıb əzildiyini hiss edən, rəngi qaçmış Diderix cavab verdi:

– Bu halda şərtlərimiz öz qüvvəsində qalırmı? Orden məsələsi? Klüzinqin məsələsi? Fəxri sədrlik?

Vulkau üz-gözünü turşutdu.

– Mənə qalsa, hə. Amma torpağını təcili sat!

Diderix tıncıxıb dedi:

– Çox şeyi qurban verirəm! Amma qeysərə sadiq adamamsa, mənim ən yüksək varım o olmalıdır ki, ona sadiq düşüncələrim istənilən mülkdən-maldan uca dayansın.

– Elədir, – Vulkau dedi, Diderix də arxaya çəkildi, o, öz mexanikinə dözmədiyi kimi, başçının da onu özünə yoldaş saymamasından partlaşsa da, tutduğu işdən qürur duydu.

Salonda o, hansısa dəyərli bir albomu vərəqləyərək oturmuş Emmi ilə Maqdanı gördü. Qonaqlar getmişdi, frau fon Vulkau da onları tərk etmişdi, çünki o, əynini dəyişib polkovnik fon Kafkenin arvadının görüşünə getməli olmuşdu.

– Yerli hökumət başçısı ilə danışıqlarımız hər ikimiz üçün xoş və sərfəli oldu, – Diderix hökmlə bildirdi; və küçədə: – İki loyal insanın danışıqlar aparmasının nə olduğunu burada görmək olardı. Hətta bugünkü yəhudiləşmiş işgüzar dairələrdə də belə şeyləri görmək olmur.

Onun kimi həyəcanlanmış Emmi bildirdi ki, atsürmə dərslərinə gedəcək.

– İşdir, sənə pul versəm, – Diderix dedi, amma yalnız rəsmiyyət xatirinə, çünki o, Emmi ilə fəxr edirdi. – Leytenant fon Britsenin bacısı yoxdur? – soruşdu.

– Hər yerdə tanınan kişi olmusan, bizə polkovnikin xanımının növbəti mərasiminə dəvətnamə taparsan.

Elə bu vaxt polkovnik onların yanından keçdi. Diderix xeyli onun arxasınca baxdı.

– Bilirəm, – dedi, – çevrilib adama baxmazlar; amma nə etməli, bu elə bir gücdür ki, həmişə səni özünə şəkir!

Bununla belə, Vulkau ilə gəldiyi razılıq onun dərdini başından aşırırdı. Evini satmaq barədə götürdüyü öhdəliyin müqabilində ona qalan yalnız gələcək ümidləri idi: dumanlı ümidlər, həddən artıq cəsarətli ümidlər...

Yer donmuşdu; bazar günü Diderix şəhər parkına getdi, qaranlıq düşürdü. Kimsəsiz cığırda o, Volfqanq Bukla qarşılaşdı.

– Artıq qəti qərara gəlmişəm, – Buk dedi. – Səhnəyə gedirəm.

– Bəs tutduğunuz vəzifə? Evlənməyiniz?

– Çox çalışdım-vuruşdum, lakin teatra üstünlük verdim. Bilirsinizmi, orada daha az komediya oynanılır, orada daha doğrucul olursan. Qadınlar da başqalarına baxanda daha gözəl olur.

– Bu hələ tutarlı dəlil deyil, – Diderix cavab verdi. Amma Buk buna daha ciddi yanaşırdı.

– Etiraf edim ki, Quste ilə haqqımda gəzən dedi-qodular mənə ləzzət verdi. Digər tərəfdən də başdan-ayağa axmaqlıqdır, adamdan əl çəkmirlər, qız da daha çox əzab çəkir, uzun müddət duruş gətirə bilmirəm.

Diderix ona aşağılayıcı bir nəzər saldı. Çünki onda belə bir təsəvvür yarandı ki, Buk yaxasını qurtarmaq üçün dedi-qodunu bəhanə gətirir.

– Hansı işə girişdiyinizi, – Diderix tam ciddiliklə dedi, – bilməmiş olmazsınız. O qızı başqası asanlıqla almaz. Bunun üçün adam gərək cəngavər olsun.

Buk onun dediklərini təsdiq etdi.

– Əsl çağdaş, genişürəkli adam üçün, – mənalı-mənalı dilləndi, – bu vəziyyətdə olan qızı ucaldıb onu dəstəkləmək xüsusi bir məmnunluq olardı. Hətta pul olan yerdə də, şübhəsiz ki, son qələbəni kübarlıq çalardı. "Loenqrin"dəki məhşəri yadınıza salın.

– Necə yəni Loenqrin?

Buk daha cavab vermədi. Onlar Saksoniya darvazasına çatanda Bukun narahatlığı artdı.

– Gəlirsiniz mənimlə içəriyə? – soruşdu.

– Hansı içəriyə?

– Elə buraya, Şvaynştrase 77-yə. Hər şeyi ona deməliyəm, bəlkə, siz...

Bu yerdə Diderix fısıldadı.

– Siz, doğrudan da... Ona hələ heç nə deməmisiniz? Ona deməmiş bütün şəhərə car çəkirsiniz? Öz işinizdir, əzizim. Məni bu oyuna qatmayın. Özgələrinin nişanlısına izdivac barədə xəbər vermək mənim işim deyil.

– Bir dəfə müstəsnalıq edin, – Buk xahiş etdi. – Qoparılacaq həngaməyə dözməyə halım yoxdur.

– Mənim də öz prinsiplərim var, – Diderix dedi. Buk əl çəkmədi.

– Siz heç nə deməyəcəksiniz; səssiz bir rol oynayaraq mənən mənə dayaq olarsınız.

– Mənən? – Diderix soruşdu.

– Necə deyərlər, o nəhs dedi-qodunun təmsilçisi kimi.

– Nə demək istəyirsiniz?

– Zarafat edirəm. Çatdıq. Gəlin.

Bukun son kəlməsindən əl-qolu yanına düşmüş Diderix heç nə demədən onun arxasınca getdi.

Frau Daymxen evdə yox idi, Quste də özünü gözlətməli oldu. Buk getdi ki, görsün nə edir. Axır ki, Quste gəldi, amma təkcə.

– Volfqanq burada yox idi? – Quste soruşdu.

Buk aradan çıxmışdı!

– Başa düşmürəm, – Diderix dedi. – Onun sizə deyiləsi vacib sözü vardı. – Quste qızardı. Diderix qapıya üz tutdu. – Onda mən də gedirəm.

– Nə istəyirdi axı? – Quste soruşdu. – Onun nəsə istəməsi tez-tez baş verən şey deyil. Bəs sizi niyə özü ilə gətirir?

– Mən də başa düşmürəm. Hətta deyərdim ki, onun bu işdə özünə şahid tutmasını qətiyyətlə qınayıram. Burada mənim günahım yoxdur, xudahafiz.

Amma ona nə qədər utana-utana baxırdısa, qız bir o qədər təkidli olurdu.

– Məcburam rədd edəm ki, – Diderix, nəhayət, ürəyini açdı, – üçüncü adamın şəxsi işində ağzım yanmasın. Üstəlik

də, həmin üçüncü adam aradan çıxıb ona aid olan öhdəliklərdən yaxasını qırağa çəkirsə.

Qustenin geniş açılmış gözləri Diderixin ağzından çıxan sözləri, sanki, bircə-bircə görürdü. Son söz ağzından çıxanda qız bir anlığa donub-qaldı, sonra əllərini üzünə tutdu. Hıçqırmağa başladı, yanaqları şişdi, göz yaşları barmaqları arasından süzüldü. Cib yaylığı yox idi; Diderix ürək ağrısı keçirərək dəsmalını ona verdi.

– Hər halda, – Diderix dedi, – Volfqanqda hər şeyi itmiş saymaq olmaz.

Qusteni hirs götürdü:

– Bunu siz deyirsiniz?! Siz yeganə adamsınız ki, həmişə insanları onun əleyhinə qızışdırmısınız. Məhz onun sizi buraya göndərməyi mənə qəribədən də qəribə gəlir.

– Bununla nə demək istəyirsiniz? – Diderix təkidlə soruşdu. – Adıgedən cənabdan nə gözləməli olduğunuzu siz məndən də yaxşı bilməli idiniz, möhtərəm froylayn. Çünki adamın fikri dolaşıq olanda hər şey dolaşıq düşür. – Quste onu lağla süzdüyünə görə daha ciddiliklə davam etdi: – Mən sizə əvvəlcədən hər şeyi düzgün demişdim.

– Ona görə ki, sizə belə əl verirdi, – Quste acı-acı cavab verdi.

Diderix də kinayə ilə dedi:

– Özü mənə tapşırmışdı ki, onun qaynar qazanını tez-tez qarışdırım və bu qaynar qazan qonur əsgiyə bükülmüş olmasaydı, onu uzun müddət qaynadıb daşıracaqdı. – Bu sözlərdən sonra Qustedən qopub aralanmaq istədi.

– Təsəvvür edirsiniz, yəqin! Belədir, mən ona heç cür bağışlaya bilmirəm ki, heç nəyin ona istisi-soyuğu olmayıb, hətta mənim pulumun da.

Diderix həyəcanlanaraq dedi:

– Belələrinə bel bağlamaq olmaz. Onlar duruş gətirə bilməyib əldən pırtırlar. – Başını dala-qabağa silkələdi. – Kimə ki pulun isti-soyuğu yoxdur, o, həyatı başa düşmür.

Quste gülümsədi:

– Onda siz həyatı əla başa düşürsünüz.

– Ümidimizi kəsməyək, – Diderix cavab verdi. Quste yaxına gəldi, göz yaşlarının son damlaları arasında gözlərini qırpdı.

– Hər halda, haqlı çıxdınız, necə fikirləşirsiniz, sizcə, mən yanıb-yaxılacağam? – üz-gözünü turşutdu. – Onu heç

sevməmişəm də. Sadəcə, ondan yaxa qurtarmaq imkanının yetişməsini gözləmişəm. Görün necə əclafdır ki, özü çıxıb gedir... Onsuz da işimiz aşar, – deyib cazibəli bir baxışla əlavə etdi. Lakin Diderix bayaq verdiyi dəsmalı geri aldı, hər şey üçün, deyəsən, təşəkkür etmək istədi. Quste anladı ki, o vaxt "Sevgililər odası"nda olduğu kimi indi də onu daha ciddi ittiham edir və bununla barışdı. – Yəqin ki, düşdüyüm vəziyyətə işarə edirsiniz.

Diderix razılaşmadı:

– Mən heç nə demədim.

Quste astadan gileyləndi:

– Adamlar haqqımda bu cür murdarlıqlar danışırlarsa, ona mən neyləyim?!

– Heç məni demirsiniz.

Quste başını aşağı saldı.

– Neyləməli, gərək barışam. Mənim kimisinə heç cür müyəssər olmaz ki, həyata ciddi baxışları olan əsl kübar bir insan onu ərə alsın. – Bunu deyib sözlərinin Diderixə necə təsir etdiyini öyrənmək üçün ona çəpəki bir nəzər saldı. Diderix fısıldadı.

– Ala da bilər... – sözə başlamağı ilə fasilə etməyi bir oldu. Quste nəfəsini durdurdu. – Təsəvvür edək ki, – kəskin bir vurğu ilə dedi, – kimsə, tərsinə, həyat barədə çox-çox ciddi baxışlara malikdir, müasir və hərtərəfli düşünür, özünə, gələcək övladlarına, eləcə də qeysərə və vətənə münasibətdə hər cür məsuliyyəti dərk edərək qorğusuz bir qadını himayəsinə götürür, onu öz səviyyəsinə yüksəldir.

Qustenin sifəti getdikcə məsumlaşırdı. Ovcunu bir-birinə sürtdü. Başını yana çevirib içindən gələn bir yalvarışla Diderixə baxdı. Deyəsən, bu bəs eləmədi. Diderix aşkarca nəsə özəl bir şey istəyirdi: Quste də şappıltı ilə dizi üstə çökdü. Diderix mərhəmətlə ona yaxınlaşdı.

– Belə də olmalıdır, – deyib Diderix gözlərindən od saçdırdı. Bu vaxt frau Daymxen içəri girdi.

– Belə-belə işlər, – dedi, – nə olub?

Quste də özünü itirmədən cavab verdi:

– Ay Allah, üzüyümü axtarırıq, ana.

Bu cavabdan sonra frau Daymxen də diz çökdü. Diderix yerdən qalxmaq istəmədi. Bir müddət kirimişcə ora-bura sürünəndən sonra Quste qışqırdı:

– Tapdım, tapdım! – Cəld ayağa qalxdı.

– İstəyirəm biləsən ki, ana, daha mən dəyişmişəm. – Nəfəsi təngimiş frau Daymxen deyiləni o saat anlamadı. Quste ilə Diderix izahat vermək üçün qorxudan yaranmış həyəcanlarını, sanki, birləşdirdilər. Nəhayət, Quste etiraf etdi ki, camaat o barədə danışdığına görə o özü də bu barədə düşünməli olub. – Volfqanq, onsuz da, mızmızının biri idi. Bir də ki içirdi. Yalnız ailələri, Heslinqləri ona tay tutmaq olmaz.

– Buna hələ baxarıq, – Diderix etirazını bildirdi və bildirdi ki, iş yoluna qoyulmayınca heç nə barədə razılığa gəlinməyəcək. Qustenin cehiz sənədlərini gətirdilər. Sonra Diderix ümumi varidatı tələb etdi və bildirdi ki, onun gələcəkdə pulu necə xərcləyəcəyinə heç kəs qarışmamalıdır. İstənilən etirazda o, qapının dəstəyindən yapışırdı, hər dəfə də Quste qorxa-qorxa və astadan anasına deyirdi:

– İstəyirsən sabah bütün şəhər ağzını Allah yoluna qoysun ki, biri məni atıb, digəri də çıxıb gedib?

Hər şey yoluna düşəndə Diderix rahatlandı. Axşam o, qadınlarla süfrə başında oturdu, çox sorğu-sual etmədən qulluqçu qızı nişan şampanına göndərdi. Bu, frau Daymxenin xətrinə dəydi, çünki evində azdan-çoxdan nəsə vardı. Belə şeyləri ondan onunla oturub-duran zabitlər tələb edirdi.

– Ümumiyyətlə, Allah sizə ağıldan çox bəxt verib, çünki Quste cənab leytenant fon Britseni də ələ keçirə bilərdi.

Diderix buna məmnunluqla güldü. Hər şey yaxşı gedirdi. Ona bir qalaq pul, Emmiyə də leytenant fon Britsen... Həddən artıq şənlənmişdilər; ikinci şüşədə təzə nişanlılar kətillərinin üstündə bir-birinə doğru löngər vururdular, qıçları dizlərinə qədər bir-birinə dolaşmışdı və Diderixin əli aşağıda işləyirdi. Yuxarıda da frau Daymxen baş barmaqlarını fırladırdı. Diderix qəfildən nəriltili bir səs çıxardı, o saat da bildirdi ki, bütün məsuliyyəti öz üzərinə götürür, kübar dairələrdə belə şey yolveriləndir, o, Vulkaularla oturub-durur.

Netsiq hadisələrin gedişindən xəbər tutanda necə də təəccüblənməyəydi! Onu təbrik edənlərin sorğu-sualına Diderix cavab olaraq bildirirdi ki, arvadının yarım milyon pulu ilə nə edəcəyini heç özü də bilmir. Bəlkə də, Berlinə köçdü, irimiqyaslı işlər üçün bu lap yerinə düşərdi. İmkan düşən kimi fabrikini də satmaq fikrindədir.

– Kağız sənayesi, ümumiyyətlə, böhran keçirir; Netsiqin tən ortasında yerləşən bu xırda müəssisəni indiki halında saxlamağın mənası yoxdur.

Evdə buludsuz bir atmosfer vardı. Bacılar yüksək məbləğdə cibxərcliyi aldı. Anası da Diderixə istədiyindən də çox həyəcanlı anlar və qucaqlamalar yaşatdı. Elədir, Diderix onların xeyir-duasını can-başla qəbul etdi. Haçan gəlməsindən asılı olmayaraq Qusteyə su pərisi kimi baxırdılar. Qucağı dolusu gül, şirnlyyat və gümüşü pul kisələri. Onunla yanaşı, deyəsən, Diderix gül-çiçək içində addımlayırdı. Günlər səmavi bir yüngüllüklə axıb gedirdi, bazarlıqlarla, səhər süfrəsinin şampanları ilə, gəlinin gəlişləri ilə, faytonun şahnişinində oturan abırlı-həyalı, muzdlu bir nökərlə, onun içində isə bir-biri ilə həyəcanlı məşğuliyyətlər keçirən sevgililərlə.

Varlıqları ilə oynayan bu gözəl əhvali-ruhiyyə bir axşam "Loenqrin"i dinləmək üçün onları operaya gətirib çıxartdı. Anaların ikisi də evdə qalmağa məcbur oldu. Ədəb-ərkan qaydalarına baxmayaraq, bu, nişanlı cütlüyün tək-tənha avanlojada oturmaq arzusu idi. Divara söykənmiş enli, qırmızı məxmər üzlü divan bir neçə yerindən aşağı çökmüşdü və ləkəli idi, burada gözdən yayınmaq olardı və onda nəsə bir cazibə vardı. Qustenin dediyinə görə, bura, əslində, zabitlərin lojası idi və onlar burada aktrisalarla görüşürdülər!

– Xoşbəxtlikdən, aktrisalardan canımız qurtardı, – Diderix dedi və aşkar eyhamla bildirdi ki, bu yaxınlara qədər adını çəkə bilmədiyi hansısa bir aktrisa ilə o... Qustenin hərarətli sorğu-sualı diriıorun əlindəki çubuğun taqqıltısı ilə kəsildi. Onlar öz yerlərini tutdular.

– Heniş sanki bir az da əpriyib, – Quste tələsik dillənib dirijora baş endirdi.

Dirijor Diderixə o qədər də sağlam olmayan yüksək sənətkar təsiri bağışladı. Bütün əzaları ilə taktı tutanda qara, pırpızlı saçları çəngə-çəngə bozumtul iri sifətinə tökülürdü və bu sifətin piyli torbaları da həmin çəngələrlə birlikdə əsirdi; frakın altındakı və şalvarın içindəki gövdəsi ritmə uyğun olaraq tərpənirdi. Orkestr özünə divan edirdi, bununla belə, Diderix bildirdi ki, uvertüranı o qədər də qiymətləndirmir. Quste də dedi ki, "Loenqrin"i Berlində dinləyən adama bu belə gəlir! Pərdə açıldı və Quste rişxəndlə hihildədi.

– Aman Allah, Ortrud! Əynindəki xalata və dizinə düşən korsetə bax!

Diderixin diqqətini isə palıd ağacının altında oturmuş kral çəkdi, aydınca görünürdü ki, böyük insandır. Amma səhnəyə çıxışı o qədər də güclü təsir bağışlamadı; Vulkau özünün bas səsini və saqqalını daha yaxşı işə yaradırdı; ancaq kralın dediklərini milli baxımdan təqdir etmək olardı. "Səltənətin şərəfini qoruyaq: istər doğu olsun, istərsə batı". Əhsən! O, "alman" sözünü oxuduqca əlini yuxarı qaldırırdı və musiqi də öz tərəfindən bu deyimi gücləndirirdi. Həm də insanın eşitməli olduğunu aşkar vurğulayırdı. Sözün əsl mənasında aşkar. Diderixin ürəyindən keçdi ki, çirkarx debatındakı çıxışında kaş belə bir musiqi olaydı. Qoşunun carçısı isə, əksinə, oxuması ilə onu qəmləndirirdi, çünki carçı yayğın pivə fanatikliyi ilə tanınmış yekəqarın Deliçdən bir tük qədər də fərqlənmirdi. Diderix zirehli əsgərlərin üz-gözündə yeni tevtonçuları gördü. Onlara nisbətən bunların qarnı daha irl idi və saqqalları vardı, bu əsgərlər sərt zəmanəyə qarşı tənəkə ilə silahlanmışdılar. Deyəsən, heç də hamısının yaxşı həyat şəraiti yox idi; cəngavərlərin sir-sifətindən orta əsrin üzlərinə dərl keçirmiş ortabab məmurlarının görkəmi yağırdı, cəngavər olmayanlar isə bir az da miskin idilər; ancaq onlarla ünsiyyət, şübhəsiz ki, iradsız keçərdi. Ümumiyyətlə, Diderix anladı ki, bu opera ona həddindən artıq doğmadır. Qılınclar və qalxanlar, şaqqıldayan tənəkələr, qeysərə sadiq düşüncə tərzi, zəfər hayqırtıları, göylərə qaldırılmış sancaqlar və alman palıd ağacı: adam can-başla onlara qoşulub oxumaq istərdi. Brabantların qadınlar məclisinə gəldikdə burada hələ arzu etməli çox şey vardı. Quste kinayəli suallar verdi: o, hansı qadındır ki, onunla Diderix...

– Bəlkə, o şalaq paltardakı idbar? Bəlkə, buynuzlarına qızıl halqa taxmış o gonbul inək?

Diderix də az qaldı əyninə korsetli qara paltar geymiş qadından "yapışsın", amma vaxtında başa düşdü ki, bütün bu işlərdə həmin qadının əli heç də az olmayıb. Qadının əri Telramont əvvəlcə özünü xeyli abırlı aparmışdı, lakin deyəsən, o murdar dedi-qodu öz işini burada da açıq-aşkar görmüşdü. Əfsuslar ki, öz parlaq simasını göstərmiş alman sadiqliyini qarasaçlı irqin yəhudi əməlləri təhlükə altına almışdı.

Elzanın gəlişi ilə kimin tərəfinə keçmək söz-söhbətsiz bəlli oldu. Məsələyə tam obyektivliyi ilə yanaşmağa həşəmətli kralın ehtiyacı yox idi. Elza təpədən-dımağa german tipinə məxsus idi, dalğalanan sarı saçları, yaxşı irqə xas rəftarı adama ilkindən müəyyən arxayınçılıq bəxş edirdi. Diderix onu gözdən qoymadı, qadın da, öz növbəsində, bu tərəfə baxdı. İzzətlə gülümsədi. Diderix binoklu əlinə aldı, lakin Quste dartıb onu Diderixdən qopartdı.

– Deməli, Mereedir? – pıçıltı ilə dedi və Diderix mənalı gülümsədiyinə görə: – Gözəl zövqün var, özümü xoşbəxt saya bilərəm. İşlədiiib tükədilmiş yəhudi!

– Yəhudi?

– Meree, elədir ki var, soyadı Mezeritsdir, özünün də qırx yaşı var.

Qustenin ona kinayə ilə təklif etdiyi binoklu Diderix əlinə götürdü və onun haqlı olduğunu özündə təsdiqlədi. Nə etməii, illüziyalar aləmi! Şaşqınlıq içində o, arxaya söykəndi. Bununla belə, Elzanın qadınsal şövqünün ismətli önduyğularının onu kral və cəngavərlərdən daha çox həyəcanlandırmasına heç cür mane ola bilmədi. Allah divanı da özünün praktik sonluğu ilə ona gözəl göründü, ən azı, heç kim suçlandırılmadı. Cəngavərlərin bu çürük işlərə baş qoşmayacaqlarını, təbii ki, əvvəlcədən görmək olardı. Fövqəladə nəyisə nəzərə almaq lazım idi; musiqi öz işini görürdü, o, adamı hər şeyə hazırlayırdı. Diderixin ağzı açıla qalmışdı və gözlərinə elə bir giclik qonmuşdu ki, Qusteni xəlvəti bir gülüş tutdu. Diderix indi göylərin yeddinci qatında idi. Hamı yerdən üzülmüşdü, Loenqrin artıq gələ bilərdi. Gəldi, sehrbaz qu quşunu harayasa göndərdi və daha da alışıbyanmağa başladı. Zirehli əsgərlər, zadəganlar və kral özü Diderix kimi çaşıb-qalmışdılar. Ilahi qüdrət əbəs yerə var deyilmiş... Elədir, ən ali qüdrət özünün parlaqlı sehri ilə burada təcəlla tapmışdı. İstər qu quşlu, istər qartallı dəbilqə olsun: onun qarşısında niyə şappıltı ilə diz çökdüyünü Elza özü də bilmirdi. Diderix də, öz növbəsində, alışıb-yanarı gözləri ilə Qusteyə baxdı, Qustenin gülüşü sifətində dondu. Hamı birini böhtanlayanda halının necə olduğundan Qustenin də xəbəri vardı, bir tayı çıxıb getmişdi və heç yerdə gözə dəymirdi. Bəlkə, buradan, ümumiyyətlə, köçüb gedəydi?! Həm qəhrəman, həm də cəngavər olan birisi meydana atılır, bütün bu olayları vecinə almır və səni ələ alır!

– Kaş həmişə belə ola! – deyib Diderix diz çökmüş Elzaya başı ilə işarə etdi... Quste də göz qapaqlarını endirərək peşman bir itaətkarlıqla başını Diderixin çiyninə qoydu.

Yerdə qalanları barmaqla saymaq olardı. Telramund, sadəcə, dözülməz olmuşdu. Qüdrətə qarşı çıxmaq olmazdı. Onun nümayəndəsi Loenqrinə hətta kralın özü də ən yaxşı müttəfiq-fürst kimi münasibət bəsləyirdi. O, öz böyüyünə zəfər himni oxuyurdu. Xeylrxah düşüncə tərzinin dayağı hərarətlə alqışlanırdı; qoy indi qiyamçılar çəkmələrindən alman tozunu çırpıb atsınlar.

İkinci pərdədə – Quste öz içinə qapılaraq hələ də pralin yeyirdi – təntənəli bir mənzərə göstərildi: bir tərəfdə xeyirxah düşüncəlilərin gözəl işıqlandırılmış saray otaqlarında qüsursuz keçən şənliyi, digər tərəfdə isə miskin halları ilə daş döşənmiş küçəyə uzanmış bir cüt qiyamçı. "Qalx ayağa, abırsızın yol yoldaşı!" Diderixə elə gəldi ki, bu misranı haçansa uyğun bir məqamda o özü işlədib. Ortrudla onu hansısa şəxsi xatirələr bağlayırdı: Ortrud murdarın ən yekəsi idi, bundan artıq ona heç nə demək olmazdı; lakin Ortrud onu yoldan çıxarıb özünə tabe edəndə Diderixin içində nəsə tərpənirdi. Xəyallara qapılırdı... Quşbeyin Elzaya baxanda, Ortrud onunla da istədiyini edirdi, onda enerjili və ciddi qadınlara xas nəsə vardı. Təbii ki, Elza ilə evlənmək olardı. Diderix gözünün ucu ilə Qusteyə baxdı. "Hər xoşbəxt məqamda bir peşmanlıq var", – Elza oxuyurdu. Diderix üzünü Qusteyə tutdu:

– Ümidimizi üzməyək.

Gonbul Deliç yuxudan təzə ayılmış cəngavərlərə və zirehli əsgərlərə bəyan etdi ki, Allahın mərhəməti sayəsində onların təzə hökmdarı var. Dünən onlar Telramunda sadiq idilər. Bu gün isə Loenqrinin doğru-düzgün və sadiq təbəələri olmuşdular. Özlərinin müstəqil fikri yox idi və hər cür qanunu itaətlə sinirirdilər.

– Biz reyxstaqı da bu hala gətirməliyik, – Diderix təntənə ilə bildirdi.

Lakin Ortrud kilsəyə Elzadan qabaq girmək istəyəndə Quste əsəbiləşdi.

– Onun buna ehtiyacı yoxdur. Belə işlərdə həmişə acığım tutur. Axı onun indi heç nəyi yoxdur, bir də ki, ümumiyyətlə.

– Yəhudi həyasızlığı, – Diderix dodağının altında dedi. Əslində, etiraf etməli oldu ki, Loenqrin, yumşaq deyilsə, özünü Elzanın əlinə tapşırmaqla, kimliyini bildirməklə ehtiyatsız tərpənib işləri korlayır. Qadınlara bel bağlamaq olmazdı. Niyə də bağlayaydın ki? Zirehli əsgərlərə sübut etməyə ehtiyac duymurdu ki, bədxah Telramundun dediklərinə baxmayaraq, onun əlləri heç nəyə bulaşmayıb, üstünə də ləkə qonmayıb: qadının milli düşüncəsi heç cür şübhə doğurmurdu.

Quste Diderixi inandırmağa çalışdı ki, üçüncü pərdədə ən gözəl şeylər göstəriləcək, lakin bunun üçün o gərək bir az da pralin alsın. Pralini alıb gətirəndən sonra toy marşı səsləndi, Diderix də oxuyanlara qoşuldu. Zirehli əsgərlər təntənəli sıralarda tənəkəsiz, bayraqsız uduzdular, gərək Loenqrin də gödəkçədə heç görsənməyəydi. Mundiri görən kimi Diderix bir daha onun dəyərini anladı. Qıcqırmış qatıq kimi səs çıxaran qadınlar şad-xürrəm çıxıb getmişdilər. Fəqət kral! O, nişanlı cütlükdən aralana bilmirdi, onların etibarını qazanmaq və deyəsən, tamaşaçı kimi burada qalmaq istəyirdi. Bu sərt zəmanədə kralı hələ də dişsiz sayan Diderix ona, sadəcə, "həlməşik" adını qoydu. Axır ki, kral gözdən itdi, Loenqrinlə Elza "Allahın bəxş etdiyi nemətlərdən həzz alaq" yazısının altındakı divanın üstünə çökdülər. Əvvəlcə yalnız bədənlərinin üst hissəsi bir-birini qucdu, alt hissəsi imkanca aralı oturmuşdu. Lakin oxuduqca onlar bir-birinə daha da yaxınlaşırdılar və bu vaxt üzlərini tez-tez Henişə çevirirdilər. Heniş və orkestri, deyəsən, onları qızışdırırdı. Bu, tam anlaşılan idi, çünki Diderixlə Quste də özlərinin pünhan lojalarında fısıldaşıb qaynar gözləri ilə bir-birinə baxırdılar. Heniş yırğalanan əzaları və bu əzalarla birlikdə havada oynayan əlləri ilə, sanki, haradasa gizlənib qalmış musiqini dartıb üzə çıxarırdı, duyğular da bu ecazkar səslərin ovsununa düşmüşdü. Diderix öz əllərini Qustenin oturduğu kreslonun söykənəcəyi və qızın kürəyi arasından aşağı sürüşdürüb onun arxasından yapışdı və dağınıq-dağınıq deyindi:

– Mən bunu ilk dəfə görəndə demişdim: ya o, ya da heç kim!

Bu vaxt onlar Netsiqin sənət vurğunlarını uzun müddət məşğul etmək üçün nəzərdə tutulmuş bir təsadüf nəticəsində sehrin ağuşundan qopdular. Loenqrin özünün ov köynə-

yini göstərdi! Elə həmin an da oxumağa başladı: "Bu şirin havanı gəl birlikdə udalım", bu vaxt köynəyi yaxası arxadan açılan gödəkçənin içindən çölə çıxdı. Aşkarca həyəcanlanmış Elza gödəkçənin yaxasını bağlayana qədər zalda bir canlanma yarandı; sonra hər şey sehrin ağuşuna atıldı. Pralini yeyərkən çaçiyən Qustedə bir şübhə baş qaldırdı.

– Köynəyi nə qədər əynində saxlayacaq? Bir də ki onun heç nəyi yoxdur axı. Qu quşu çoxdan üzüb gedib!

Diderix onun sözünü ağzında qoydu:

– Sən də Elza kimi quşbeyinsən.

Bunu ona görə dedi ki, Elzanın işi-peşəsi hər şeyə mız qoymaq idi, çünki əlində onun siyasi sirləri barədə soruşmağı özünə rəva bilmirdi. Qiyam büsbütün məhv edilmişdi, çünki Telramundun qorxulu sui-qəsdi Allahın köməyi ilə baş tutmamışdı; Diderix özlüyündə bir şeyi də kəsdirdi ki, qadınların cilovunu çəkəndə daha da yamanlaşırlar.

Növbəti səhnədə bu, büsbütün aydın oldu. Palıd ağacı, bayraqlar, milli atributların hamısı yenə səhnədə idi; və "Alman torpağına alman qılıncı, belə olsa, səltənət çox güclənər!" Əhsən! Lakin deyəsən, Loenqrin ictimai həyatdan çəkilməsinə həqiqətən qərar vermişdi. Onun haqqı vardı desin: "Hamı mənə şübhə ilə yanaşır". Bir-birinin ardınca o, ölmüş Telramundu və bayılmış Elzanı ittiham edirdi. Lakin onlardan heç biri ona cavab verməyəndə özünün haqlı olduğunu asanca sübuta yetirə bilərdi; üstəlik, bu da vardı ki, o, həqiqətən də rütbə siyahısında başdakı yerlərdən birini tuturdu. İndi gizlilikdən çıxa bilərdi. Adının tutulması onun haqqında indiyə qədər heç nə eşitməmiş əsgərlərdə görünməmiş bir həyəcan oyatdı. Zirehli əsgərlər sakitləşmək bilmirdilər; onlar çox şey gözləyirdilər, ancaq adının Loenqrin olduğunu heş vaxt gözləmirdilər. Buna görə də sevimli hökmdarlarından israrla xahiş etdilər ki, yanlış addım atıb taxt-tacdan imtina etməsin. Lakin Loenqrin dediyindən dönmədi, onu heç cür yumşaltmaq olmadı. Üstəlik, qu quşu da gözləyirdi. Ortrudun son həyasızlığı belini sındırdı və bu, ümumi bir məmnunluq yaratdı. Təəssüf ki, bundan azca sonra Elza döyüş meydanında həlak oldu, xeyli əvvəl Loenqrinin sehrli qu quşu əvəzinə güclü bir qaranquş çəkib onu aparmışdı. Əvəzində üç gün qabaq gəlib çıxmış üçüncü fürst Qotfridə cəngavərlər və zirehli əsgərlər, həmişə olduğu kimi, öz sədaqət duyğularını bildirdilər.

– Bu ondan irəli gəlir ki, – paltosunu geyinməkdə Qusteyə kömək edən Diderix dedi, – qüdrəti özündə təcəssüm etdirən bu fəlakətlərin hamısı onu yüksək dərəcədə və dərindən razı salmışdır.

– Nədən irəli gəlir? – etiraz etməyi özünə borc bilən Quste dilləndi. – Bəlkə, bilmək istəyir ki, o adam kimdir? Bunu ondan tələb də edə bilər. Bu daha sırtıqlıq sayılmır.

– Bunun böyük mənası var, – Diderix ciddiliklə dedi. – Piyalə[1] məsələsinin canı ondadır ki, böyük hökmdar yalnız Allahı və vicdanı qarşısında cavab verir. Bəli, biz də onun qarşısında. Əlahəzrətin mənafeyi ortada olanda istədiyini edərsən, heç nə demirəm və yəqin ki...

Əlini yelləməsi ilə başa salmaq istədi ki, o özü də bu cür davaya atılaraq Qusteni fikirləşmədən özünü qurban verərdi. Bu, Qusteni haldan çıxartdı.

– Bu ki qətldir! Ölümümə necə razılaşa bilərəm, nə var, nə var, Loenqrin temperamenti olmayan bir qoyundur. Hətta toy gecəsində də Elza ondan bir tərpəniş görmədi! – Bunu deyib üz-gözünü əyişdirdi, o vaxt “Sevgililər odası”nı tərk edəndə olduğu kimi, orada da heç nə alınmamışdı. Evə dönərkən nişanlılar barışdılar.

– Bu, bizə lazımlı sənətdir! – Diderix ucadan dilləndi. – Alman sənətidir!

Zira bu sənət əsərində o – həm mətndə, həm də musiqidə – bütün milli ehtiyacların ödənildiyini görürdü. Etiraz burada cinayətə tay tutulurdu, var olanlar, qanuni olanlar yüksək səviyyədə tərənnüm edilirdi. Cəngavərlər və Allahın mərhəməti göylərə qaldırılırdı, xalq xorla təmsil olunurdu, hadisələrin həmişə qəfil yaxaladığı həmin xor da itaətlə öz hökmdarlarının düşmənlərinə qarşı vuruşurdu. Davakar altqurum və mistik zirvələr, hər ikisi qorunub saxlanılırdı. Həddən artıq simpatiya doğuran məsələ də o idi ki, bu əsərdə gözəl və sevilən tərəf kişi idi. “Ürəyimin döyüntüsünün oyandığını duyuram mən, Oradakı məftun edən ərə bax sən”. Kişilər kralla birlikdə oxuyurdular. Beləcə

[1] Burada söhbət Həzrəti-İsanın tutulmasından əvvəlki gecədə onun öz həvarilərinə “Bu mənim qanımdır, için. Sabah sizlərdən biri məni satacaq”, – deyə şərab içirdiyi piyalədən gedir. Rəvayətə görə, həmin piyaləni tapıb ondan şərab içən şəxs 33 yaşında (göylərə çəkildiyi zaman Həzrəti-İsanın yaşı) ölümsüzləşir. Vaxtilə Hitler də həmin piyalənin axtarışında olmuşdur.

musiqi bu pərdədə də kişilik nəşəsi ilə dolu idi, təmtəraqlı olsa da, onda bir qəhrəmanlıq vardı, insanın qəlbində qeysərə sədaqət hissləri oyadırdı. Kim ona duruş gətirərdi? Belə bir opera mincə kərə göstərilsəydi, ölkədə millətçi olmayan adam qalmazdı! Diderix sözlərini cilovlaya bilmədi:

– Teatr da mənim silahlarımdan biridir. Əlahəzrəti təhqirə görə keçirilən məhkəmə prosesi də insanları heç bu cür silkələyib ayılda bilməz. – Mən Laueri zindana atdırdım, lakin "Loenqrinin ölümü" operasını bəstələyənin qarşısında səcdə edirəm.

Vaqnerə təbrik teleqramı vurmaq istədi, lakin Quste onu başa saldı ki, mümkün deyil. Bu cür ali fikirlərə aludə olan Diderix incəsənət haqqında ümumi fikir söylədi. Onun fikrincə, incəsənətin növləri arasında rütbəli bir düzüm vardır.

– Bunların ən alisi musiqidir, ona görə də alman incəsənətidir. Sonra isə dram əsəri gəlir.

– Niyə? – Quste soruşdu.

– Ona görə ki, hərdən adam musiqiyə qapıla bilir. Bir də ona görə ki, onu oxumağa ehtiyac yoxdur və ümumiyyətlə...

– Bəs sonra nə gəlir?

– Təbii ki, görkəm rəssamlığı, qeysərin görkəmlərinə görə. Qalanlar o qədər də önəmli deyil.

– Bəs roman?

– Roman incəsənət deyil, ən azı, çox şükür ki, alman incəsənəti deyil: "roman" sözünün özü bunu təsdiq edir.

***

Toy günü gəlib çatdı. Bu günə hər ikisi tələsmişdi: Quste camaata görə, Diderix də siyasət səbəbindən. Daha çox təəssürat oyatmaq üçün qərara gəlmişdilər ki, Maqda ilə Kinast da elə həmin gün evlənsinlər. Kinast gəlmişdi. Diderix bəzən ondan xoşlanmırdı, çünki yeznəsi saqqalını qırxdırmış, bığlarını da eşdirib gözlərinin ucuna qədər qaldırmışdı, həm də gözündən, sanki, od yağırdı. Maqdaya düşən pay barədə danışıqlarda o, adamı dəhşətə gətirən bir işgüzarlıq göstərdi. Diderix də hadisələrin gedişindən qayğılanaraq özünə qarşı götürdüyü öhdəliklərin hamısını axıracan yerinə yetirmək qənaətinə gəlib indi kontor kitablarına daha tez-tez aludə olurdu... Hətta kəbin kəsilən günü

səhər tezdən əynindəki frakı çıxarmadan kontorda oturmuşdu; bu vaxt ona bir vizit kartı gətirdilər: ehtiyatda olan baş leytenant Karnauke.

– Görəsən, nə istəyir, Zötbir? – Qoca mühasib də onun nə istədiyini bilmədi. Bir də ki fərq etməzdi. – Zabiti rədd edə bilmərəm. – Diderix özü qapıya doğru getdi.

Qapıda qeyri-adi dərəcədə şax duruşlu bir kişi vardı. Əyninə açıq-yaşıl rəngli plaş geymişdi, plaşın yaxalığını boynuna qaldırmışdı və ondan su süzülürdü. Qeyri-adi tərzdə əlində tutduğu yaşıl şlyapasından süzülən su sivriburun lak ayaqqabısının üstündə o saat bir gölməçə yaratdı. Yağış yağırdı.

– Əvvəlcə gərək özümüzü qurudaq, – deyib Diderix razılıq verənə qədər özünü sobanın yanına saldı. Burada qaba səslə dedi: – Satırsınız hə? Sıxıntınız var, hə?

Diderix heç nə anlamadı, narahat-narahat Zötbirə baxdı. Qoca mühasib yenidən yazısına girişmişdi.

– Deyəsən cənab baş leytenanat ünvanı səhv salıb, – Diderix mərhəmətlə dilləndi; amma bunun xeyiri olmadı.

– Boş sözdür. Məlumatım dəqiqdir. Zarafata salmayın. Yuxarıdan gələn əmrdir. Mumlayın və satın, yoxsa Allahın qəzəbinə düçar olarsınız.

Bu cür danışıq dözülməz idi; kişinin hərbi keçmişinə baxmayaraq, ciddiliyindəki saxtakarlıq və gözlərindəki donuqluq Diderixin nəzərindən qaçmadı. Bu barədə fikirləşəndə kişi yaşıl şlyapasını başından çıxarıb suyunu onun frakına çırpdı. Bu, Diderixin etirazına səbəb oldu və kişi onun hərəkətini heç də yaxşı qarşılamadı.

– Qulluğunuzda hazıram, – dedi. – Fon Kvitsinlə fon Vulkau cənabları mənim tapşırığımla sizinlə danışacaqlar.

Bunu deyərkən cidd-cəhdlə gözlərini qırpdı və canına qorxunc bir şübhə dolmuş Diderix hirsini büsbütün unutdu, indi onun yeganə fikri baş leytenantı birtəhər çölə çıxarmaq idi.

– Bayırda danışaq, – astadan dilləndi, digər tərəfdən də üzünü Zötbirə tutdu: – Kişi büsbütün sərxoşdur, görüm canımızı ondan necə qurtarırıq.

Lakin Zötbir dodaqlarını bir-birinə sıxmış və alnını düyünləmişdi; bu dəfə o, yazdığı məktubun üstünə qayıtmadı. Kişi bayıra çıxıb özünü yağışın altına verdi, Diderix də onun ardınca.

– Buna görə düşmənçilik olmaz, danışmaq mümkündür axı. – Özü də təpədən-dırnağa islanandan sonra kişini birtəhər evə dartmağa müyəssər oldu. Baş leytenant kimsəsiz maşın zalında bağırmağa başladı:

– Bir badə şnaps! Hamısını alıram, şnapsı da! – Fəhlələr Diderixin toyu ilə bağlı işə çıxmadıqlarına baxmayaraq, o qorxa-qorxa ətrafına boylandı; xlor torbalarının olduğu dolabın ağzını açdı və bir təkanla kişini onun içinə soxdu. Burada dəhşətli bir iy vardı; kişi bir neçə dəfə asqırdı, sonra da dedi: – Adım Kamaukedir, niyə belə pis iy verirsiniz?

– Arxanızda kimsə varmı? – Diderix soruşdu. Kişi bundan da incidi.

– Nə demək istəyirsiniz?.. Belə, daşınmaz əmlak alıram. – Diderixin baxışlarının ardınca özünün suyu süzülən plaşını gözdən keçirdi. – İşlərim bəzən alınmır, – deyindi. – Adamlar arasında vasitəçilik edirəm. Şərəfli işdir.

– Araçılığını etdiyiniz adam nə təklif edir?

– Yüz iyirmi min, bağlayaq məsələni.

Diderix necə də dəhşətə gəldi, yaxud hirsləndi! Dedi ki, onun torpaq sahəsinin dəyəri iki yüz mindir, baş leytenant dediyindən dönmədi:

– Yüz iyirmi min, qurtardıq. – Diderix qapıya doğru ehtiyatsız bir hərəkət etdi, kişi o saat onun üstünə atıldı. Diderix onunla əlbəyaxa oldu. Xlor kisəsinin üstünə yıxıldı, kişi də onun üstündən. – Qalxın üstümdən, – nəfəsi təngiyən Diderix dedi, – xlor bizi yandırar.

Baş leytenant qışqırıb ayağa sıçradı, sanki, xlor paltarından keçib onu yandırırdı və birdən şux duruşu özünə qayıtdı. Gözlərini qırpdı.

– Başçı fon Vulkau israr edir ki, satasınız, yoxsa başqa işləriniz heç cür alınmaz. Qohumu Kvitsin buradakı mal-mülkünü genişləndirir. Sizin onunla razılaşacağınızı güman edir. Yüz iyirmi min, vəssalam.

Diderixin sifəti ağarmışdı, sanki, indicə xlora salıb çıxarmışdılar və o bir də cəhd etdi.

– Yüz əlli min, – dedi, ancaq səsi sözünə baxmadı. Özünə hörmət edən belə şeyi çətin anlayar! Məmur ləyaqətini hər şeydən üstün tutan və Məhşərin özü kimi güzəşt nə olduğunu bilməyən Vulkau!.. Şaşqın baxışla o, ehtiyatda olan baş leytenant Karnaukenin vücudunu bir daha gözdən keçirdi. Vulkau onu göndərmişdi, taleyini onun əlinə

tapşırmışdı! Yenidən təkbətək, ehtiyatı əldən vermədən və qarşılıqlı hörmət əsasında bu işi danışıb yoluna qoymaq olmazdımı? Ancaq bu yunkerlər adamın yaxasından yapışdılarmı, əl çəkmirlər; işgüzar sahədə onların qandıqları bir şey yoxdur.

– Notariusa gedin, – Diderix pıçıltı ilə dedi, – indicə gəlirəm. – Kişini bayıra çıxartdı. Özü getmək istəyəndə dodağını bir-birinə sıxmış qoca Zötbir onun qarşısında dayandı. – Siz nə istəyirsiniz? – Diderix quruyub qalmışdı.

– Cənab, – qoca Zötbir tutula-tutula dedi, – sizin indi etdiklərinizin məsuliyyətini mən öz üzərimə götürə bilmərəm.

– Buna ehtiyac da yoxdur. – Diderix özünü düzəltdi, – neylədiyimi özüm yaxşı bilirəm.

Qoca yalvarışla əllərini göyə qaldırdı.

– Bilmirsiniz, cənab! Rəhmətlik atanızla mənim ömrümüz boyu qurduğumuz işi müdafiə edəcəyəm. Bu fabriki səy və birgə əməyimizlə qurmağımızın sayəsində siz böyük adam olmusunuz və sizin bahalı aqreqatlar alıb müqavilələri pozmağınız dolanbac bir yoldur, bununla siz fabriki quyunun dibinə sürükləyirsiniz. İndi də bu boyda mal-mülkü satırsınız.

– Deməli, qapının dalında pusurmuşsunuz. Sizin iştirakınız olmadan baş verənlərin heç birinə dözmürsünüz. Burada durub özünüzü soyuğa verməyin, – Diderix lağlandı.

– Satmayın! – Zötbirləlidi. – Heç cür durub baxa bilmərəm ki, keçmiş sahibkarımın oğlu və varisi firmanın özülünü qazıyıb böyük siyasət adamı olmaq istəyir.

Diderix yazıqlanaraq onu süzdü:

– Sizin vaxtınızda genişçaplı işlər dəbdə deyildi, Zötbir. Bu gün cürət zəmanəsidir. Çalışqanlıq əsas məsələdir. Evimi satmağımın nəyə xeyri olacağını sonra görərsiniz.

– Elədir, siz də sonra görərsiniz. Müflisləşəndə, yaxud yeznəniz cənab Kinast sizi məhkəməyə verəndə. Bacılarınızın və ananızın ziyanına çox ora-bura vurnuxmusunuz. Cənab Kinasta bəzi şeyləri demiş olsaydım... Sadəcə, öz abrımı qoruyuram, yoxsa sizi uçuruma atardım!

Qoca özündən çıxmışdı. Acıqdan qızarmış göz qapaqlarının altında yaş giləlmişdi, o, fəryad edirdi. Diderix ona yaxınlaşdı, yumruğunu kişinin burnuna uzatdı:

– Buna heç cəhd də edə bilməzsiniz! Sübuta yetirərəm

ki, fabriki talan etmisiniz və bu gün də edirsiniz. Elə bilirsiniz heç bir tədbir görməmişəm?

Qoca da titrəyən yumruğunu yuxarı qaldırdı. Onlar nəfəslərini bir-birinə verdilər; Zötbirin gözünə qan dolmuşdu. Diderixin gözündən alov püskürürdü. Axırda qoca arxaya çəkildi:

– Xeyr, ola bilməz. Mən keçmiş sahibkarımın həmişə sadiq qulu olmuşam. Vicdanım deyir ki, onun xələfindən imkanca öz gücümü əsirgəməyim.

– Sizə sərf edərdi, – Diderix soyuq və sərt dilləndi. – Sevinin ki, qolunuzdan tutub sizi elə indi bayıra atmıram. Elə indicə işdən çıxma ərizənizi yazın və elə bilin ki, mən də öz razılığımı vermişəm.

Bunu deyib uzaqlaşdı. Notariusda tələb etdi ki, alğı-satqı müqaviləsində alıcının adı "Naməlum" yazılsın. Karnauke fınxırdı.

– "Naməlum" heç də pis deyil. Biz axı cənab fon Kvitsini tanıyırıq.

Buna notarius da gülümsədi.

– Görürəm ki, – dedi, – cənab fon Kvitsin mal-mülkünü genişləndirir. İndiyə qədər Mayzesştrasedə onun yalnız "Toyuq" adlı kiçik bir meyxanası vardı. Amma sizinkindən başqa, o, iki torpaq sahəsinin də danışıqlarını aparır. Onları da alsa, sahəsi şəhər parkına qədər uzanacaq və nəhəng işlər üçün onun yetərincə yeri olacaq.

Diderixi yenidən titrətmə tutdu. Boğuq səslə notariusdan xahiş etdi ki, imkanca gizliliyi qorusun. Sonra onlarla xudahafizləşdi, dedi ki, vaxtı yoxdur.

– Bilirəm, – baş leytenant onu tutub saxladı. – Təntənəli gündür, "Rayxshof" mehmanxanasında səhər yeməyi. Tam hazıram. – Yaşıl plaşının yaxasını açıb əzilmiş xeyir-şər kostyumunu göstərdi. Diderix heyrətlə ona baxdı, yaxasını birtəhər qurtarmağa çalışdı, amma leytenant yenidən onu özünün sekundantları ilə hədələdi.

Gəlin çoxdan gözləyirdi. Hər iki ana digər qadınların rişxəndli təbəssümləri altında onun göz yaşlarını silirdilər. Bu nişanlı da aradan çıxmışdı! Maqda ilə Kinast hirslənmişdilər; çaparlar Şvaynxenştrase ilə Mayzesştrase arasında qalmışdılar... Axır ki! Köhnə frakında olsa da, Diderix gəlib çıxdı. Onlara heç izahat da vermədi. Kəbin evində və kilsədə halı özündə deyildi. Hər tərəfdən görünürdü ki, bu cür

ərsəyə gələn izdivac xeyir-dua ilə qurulmur. Hətta keşiş Tsillix də öz nitqində bildirdi ki, yersəl nemətlər fanidir. Onun məyusluğu anlaşılan idi. Ketxen gözə dəymirdi.

Səhər-səhər toy süfrəsinin arxasında Diderix səssizcə oturmuşdu və deyəsən, fikri özündə deyildi. Hətta tez-tez yeməyi də unudub gözünü göylərə zilləyirdi. Yalnız baş leytenant Karnauke onun diqqətini özünə çəkə bilirdi. Təbii ki, leytenant da öz işində idi; şorbanı yeyib qurtarandan sonra o, gəlinin sağlığına müəmmalı bir tost dedi; məclis indiyə qədər içilən şərabdan sonra bu müəmmanı tutmadı. Diderix Karnaukenin göz basıb söylədiyi və Kinastın da halını pozduğu ifadələrdən daha çox narahat idi. Onun ürək döyüntüsü ilə gözlədiyi vaxt yetişdi: Kinast ayağa qalxıb onunla təkbətək danışmaq istədiyini bildirdi... Amma bu vaxt baş leytenant qarşısındakı badəni cingildədib yerindən qalxdı. Şənliyin artan hay-küyü qəfildən kəsildi; Karnaukenin barmaqlarından asılmış göy lent, lentin altında isə qıraqları parlayan qızıl xaç göründü... Ah! Bundan sonra şənlik və təbriklər. Diderix hər iki əlini irəli uzatdı. Dözülməsi mümkün olmayan bir xoşbəxtlik qəlbindən baş qaldırıb boğazında dirəndi, özündən asılı olmayaraq danışdı və nə danışdığını özü də bilmədi.

– Əlahəzrətləri... Görünməmiş bir mərhəmət... Adi xidmətlər... Heç vaxt şübhə doğurmayan bir sadiqlik...

Təzim etdi, Karnauke xaçı ona uzadanda əlini ürəyinin başına qoydu, gözlərini yumub xəyala daldı: sanki, onun qarşısında başqası, xaç ordenini ona verənin özü dayanmışdı. Mərhəmət günəşinin altında Diderix anladı ki, bu, xilasın, qələbənin özüdür. Vulkau sözünə əməl etmişdi. Dövlət sözünün üstündə durmuşdu! Dördüncüdərəcəli “Tac ordeni” bərq vururdu və bu, gerçəkdən də bir hadisə, böyük Vilhelmin heykəli, Qauzenfeld, biznes və şöhrət idi!

Vaxt amanını qırırdı. Hələ də həyəcandan narahatlıq keçirən Kinasta Diderix ümumi məzmunlu bir-iki söz dedi. Həmin sözlər onun üzünə gülən gözəl günlər, Kinastla və bütün ailə ilə birlikdə görəcəkləri böyük işlər barəsində idi...

Diderix Quste ilə səyahətə çıxdı. Onlar birincidərəcəli kupeyə mindilər, Diderix bələdçiyə üç mark çaypulu verib pərdəni çəkdi. Xoşbəxtlikdən alovlanmış enerjisi qaynayıb-coşur və çölə vurmaq istəyirdi, Quste bu qədər çılğınlığı heç vaxt gözləmirdi.

– Sən, deyəsən, Loenqrin kimi deyilsən, – Quste dedi. Lakin uzanıb gözlərini yumanda Diderix bir də düzəlib onun qarşısında şax dayandı, dəmirdən tökülmüş heykəl kimi dayandı, sinəsi ordenli, gözlərindən alov saçaraq.

– Hər işimizi, – kəlmələri vurğulayaraq dedi, – gərək böyük mərhəmət sahibi əlahəzrət qeysərimizin adı ilə başlayaq. Çünki bu, adi işlərdən deyil. Bu işi biz əlahəzrətin xatirinə edib onun üçün yararlı əsgərlər dünyaya gətiririk.

– Oh! – Diderixin sinəsində parlayan ordenə məftun olaraq Quste həyəcanla səsləndi. – Bu... Sənsən... Diderix?

## ALTINCI FƏSİL

Netsiqli cənab və xanım Heslinqlər Sürix otelinin liftində dinmədən bir-birinə baxırdılar, lift onları beşinci qata aparırdı. Bu, mehmanxananın işlər müdirinin onlara qızır-ğalana-qızırğalana əlüstü saldığı nəzərin nəticəsi idi. Diderix dinib-danışmadan qeydiyyat vərəqini doldurdu; yalnız baş süfrəçi çıxıb gedəndən sonra buradakı qayda-qanun və Sürix barədə öz narazılığını dilə gətirdi. Bu narazılıq get-dikcə güclənirdi və onun Bedekerə məktub yazmaq qərarı ilə tamamlanırdı. Amma bu intiqam ona həddən artıq zəif göründüyündən Qustenin üstünə düşdü: günahkar onun şlyapasıdır. Quste isə bütün günahı Diderixin Hoentsollernlər[1] paltosunda gördü. Onlar beləcə ikinci səhər yeməyinə qıpqırmızı qızarmış üz-gözlə gəldilər. Qapının ağzında dayanıb qonaqların baxışı altında fısıldaşdılar, Diderix smokinqdə, Quste isə lentli, ləlәkli və toqqalı şlyapada və təbii ki, bu şlyapa ilə onların yeri beletaj olmalı idi. Tanışları baş süfrəçi onları təntənə ilə öz yerlərinə apardı.

Sürix və mehmanxana ilə onlar axşam barışdılar. Çünki birincisi, beşinci mərtəbədəki otaq onlara layiq olmasa da, ucuz idi; ikincisi, ər-arvadın çarpayıları ilə üzbəüz, az qala, təbii böyüklükdə bir kəniz şəkli asılmışdı: buğdayı bədən qalın döşək üstündə çəpəki uzanaraq, əlləri başının altında, qara gözlərində nəmli bir həsrət. Çərçivə onu ortadan iki bölmüşdü, bu da ər-arvada zarafat imkanı verirdi. Ertəsi gün gözlərinə qurğuşun dolmuş adamlar kimi ətrafda gəzişdilər,

---

[1] *Hoentsollernlər* – Almaniyanın Şvab əyalətində Alp dağlarının silsiləsi, həmin yerdəki qəsrin adı; bu qəsrdən çıxmış hökmdarlar sülaləsi; 1192-ci ildə Nürnberq, 1415-ci ildə isə Brandenburq qraf-lığını özünə qatır; 1701-ci ildən 1871-ci ilə qədər Prussiya padşahları, 1871-ci ildən 1918-ci ilə qədər alman qeysərləri həmin soydandır.

bol-bol yeyib bir-birilərindən soruşdular ki, kəniz ortadan bölünməyib bütöv olsaydı, nə olardı. Yorğunluqdan qatara gecikdilər, axşamüstü tələsə-tələsə ucuz və üzücü otaqlarına qayıtdılar. Bu cür yaşamağın sonu görünmürdü; gözlərindən yorğunluq tökülən Diderix qəzetdə oxudu ki, qeysər İtaliya padşahına baş çəkmək üçün Romaya yola düşüb. Bircə zərbə ilə Diderix, sanki, yuxudan oyandı. Uça-uça özünü qapıçının yanına, oradan mehmanxana bürosuna, sonra da liftə saldı; Quste başının gicəllənməsindən gileylənib nə qədər yalvarsa da, çamadanlar artıq hazır idi, Diderix Qusteni birtəhər çölə çıxartdı.

– Belə də şey olar? – Quste gileyləndi. – Yataq adamın canına yayılırdı!

Ancaq Diderix kənizə bir daha ikrahlı nəzər saldı.

– Məzələnməyinizdə davam edin, möhtərəm xanımım!

Həyəcandan uzun zaman Diderixin gözünə yuxu getmədi. Quste onun çiyninə söykənib məsum-məsum xoruldayarkən Diderix gecəni yarıb şütüyərək ayrı bir dəmir yolu ilə onlardan da sürətlə gedən qeysərin öz məqsədinə doğru irəlilədiyini düşünürdü. Qeysərlə Diderix yarışa çıxmışdılar! Diderix həyatı boyu müəmmalı şəkildə dəfələrlə əlahəzrətin düşüncələrinə uyğun fikir söylədiyinə görə, ola bilsin, məhz indiki anda əlahəzrətin də Diderixdən xəbəri vardı: bilirdi ki, sədaqətli təbəəsi onunla yanaşı Alp dağlarından aşıb gedir ki, qeysərə sadiqliyin nə olduğunu qorxaq latın törəmələrinə başa salsın. Alışıb-yanan gözləri ilə o, digər oturacaqda mürgüləyənləri, yuxuda sifətləri sallanmış alçaqboy qaraşın adamları süzdü. Qoy german bahadırlığının nə olduğunu bilsinlər!

Səmişinlər səhər tezdən Milanda, günorta isə Florensiyada qatardan düşdülər, Diderix bunu düz-əməlli qavraya bilmədi. Nəzərəçarpacaq uğur əldə etmədən qatarda qalanlara onları Romada nələrin gözlədiyini başa salmağa çalışdı. İki amerikalı daha ünsiyyətli çıxdı. Söhbət əsnasında Diderix təntənə ilə bildirdi:

– Hə, yəqin, qeysərimizə görə bizə paxıllığınız tutur!

Bu vaxt amerikanlar lal bir sualla bir-birinə baxdılar, lakin həmin sual cavabsız qaldı.

Romada Diderixin həyəcanı çılğın fəaliyyət eşqinə çevrildi. Əlini danışıq kitabının üstündən ayırmadan qatar bələdçilərinin arxasınca qaçır və öyrənmək istəyirdi ki, kim

daha tez gəlib, omu, yoxsa qeysərimi. Qustenin çılğınlığı, sanki, ərininkindən od almışdı.

– Didel! – qışqırdı. – Elə bir vəziyyətdəyəm ki, üzümdəki duvağı onun yoluna atmaq istəyirəm, qoy üstündən keçib-getsin, şlyapamdakı qızılgülləri də atacağam.

– Birdən səni görsə və sən də onun xoşuna gəlsən? – deyib Diderix qızdırma içində güldü. Qustenin döşləri atdandı, kirpiklərini aşağı saldı. Tıncıxmış Diderix bu dəhşətli gərginlikdən yaxa qurtarmağa çalışdı. – Kişilik namusum mənə daha müqəddəsdir, buna mən indi əmin oldum. Hazırkı halda isə... – qısa bir jestlə söhbəti tamamladı.

Nəhayət, gəlib çatdılar, amma hər şey ər-arvadın təsəvvür etdiyindən fərqli alındı. Məmurlar yol adamlarını böyük şaşqınlıq içində sıxışdırıb vağzaldan nəhəng bir meydanın qırağına qədər, oradan da elə həmin an bağlanmış küçələrə çıxartdılar. Diderix cilovdan çıxmış bir coşqu ilə qoyulmuş səddi yarıb keçdi. Qorxu içində ona əl uzadan Qusteni bağlamalarla birlikdə orada qoyub irəli atıldı. Artıq meydanın tən ortasında idi; başlarına lələkli şlyapa qoymuş iki əsgər onun arxasınca elə qaçırdı ki, əlvan mundirlərinin ətəkləri yellənirdi. Elə bu vaxt bir neçə kişi perrondan aşağı endi və Diderixin üstünə bir maşın yeridi. Diderix şlyapasını yelləldi, elə bərkdən nərildədi ki, maşındakılar danışıqlarına ara verdilər. Sağdakı adam başını irəli əydi və onlar bir-birinə baxdılar: Diderix və onun qeysəri. Qeysər soyuq və sınayıcı baxışlarla gözündən gülümsədi. Cəhənglərindəki qınışlar bir balaca aşağı sallandı. Diderix gözlərini geniş açaraq qışqırtısına ara vermədən və şlyapasını yellədə-yellədə bir xeyli onunla yanaşı qaçdı və ətrafdakı yad kütlə onlara şapalaq çalarkən bir neçə anlığına boşaldılmış meydanın tən ortasında və gömgöy səma altında bir-biri ilə tək qaldılar: qeysər və onun təbəəsi.

O üzdə bayraqlarla bəzədilmiş küçədə maşın artıq gözdən itdi, uzaqlarda alqış sədaları dalğalandı və gözlərini yumub dərindən köks ötürən Diderix yenidən şlyapasını başına qoydu.

Quste əsməcə içində əl elzyib onu yanına çağırdı və ətrafdakı adamlar Diderixə şapalaq çaldılar, onların üz-gözüydən qaynar bir bəyəniş yağdı. Bir az əvvəl onu qovan əsgərlər indi gülürdülər. Onlardan biri öz iltifatında bir az da qabağa gedib fayton çağırdı. Diderix faytona minib gedəndə camaatı salamladı.

– Lap uşaq kimidirlər, – arvadına üz tutub dedi. – Hə, həm də çox sadəlövhdürlər, – əlavə edib bir faktı da danmadı: – Berlində alınmazdı... Unter den Lindendəki çaxnaşmanı xatırlayanda görürsən ki, orfda işlər xeyli çətin idi.

Fayton mehmanxanaya çatana yaxın Diderix sinəsini irəli verib qabartdı. Bu duruşunun sayəsində o, üçüncü qatda bir otaq aldı. İlk səhər günəşini yenə də küçələrdə qarşıladı.

– Qeysər yuxudan tez durur, – yastıqdan üzü bəri xoruldayan həyat yoidaşına dedi. Qarşısına qoyduğu işdə, əslində, ona heç ehtiyacı da yox idi. Barmağını şəhərin xəritəsindən çəkməyərək Krivinala çatdı və orada özünə yer elədi. Səssiz-küysüz meydan çəpinə düşən günəş saçaqlarından açıq qızılı rəngə çalırdı. Əzəmətli saray buludsuz səmaya baş qaldırırdı, üzbəüzdə isə əlahəzrəti gözləyən Diderix, qabarmış döşündə dördüncüdərəcəli tac ordeni. Pilləkənlə üzüyuxarı şəhərdən bir keçi sürüsü qalxıb fontanın və çaparların azman heykəllərinin arxasında gözdən itdi. Diderix ətrafına boylanmadı. Aradan iki saat keçdi. Keşikçi evin arxasından qabağa çıxdı, giriş qapılarının birində qapıçı göründü və adamlar girib-çıxmağa başladılar. Diderix narahat olmağa başladı. Fasada yaxınlaşdı, asta-asta sivişib keçdi, həyəcanla içərini dinşəyərək. Üçüncü dəfə görünəndə qapıçı bir az tərəddüd edərək əlini şlyapasına apardı. Diderix ayaq saxlayıb onu salamlayanda kişidə xeyli inam yarandı.

– Hər şey qaydasındadır, – əlini ağzına doğru tutub dedi, Diderix də bu deyimi məmnunluqla qəbul etdi. Ona tam təbii göründü ki, qeysərin kef-əhvalı barədə ona məlumat verirlər. Qeysərin haçan binadan çıxıb haraya gedəcəyi barədə verdiyi suallar heç də xoş qarşılanmadı. Qapıçı özündən belə bir şey dedi ki, qeysəri müşayiət etmək üçün Diderixə karet lazım olacaq və həmin karetin dalınca adam göndərdi. Bu arada xəbər acılarının balaca bir dəstəsi toplaşmışdı, qapıçı da artıq kənara çəkilmişdi. Ön çaparın arxasınca açıq karetdə qartal həkk edilmiş dəbilqənin bərqi altında şimalın sarışın hökmdarı göründü. Həmin an Diderixin şlyapası göydə uçdu, o, italyanca bağırdı, sanki, səsi tapançadan çıxdı:

– Yaşasın qeysər! – Kiçik dəstə də ona qoşulub bağırdı...

Sonra Diderix bir sıçrayışla hazır dayanmış karetə atıldı

və özünün xırıltılı bağırtısı və vəd etdiyi bolluca çaypulu ilə faytonçunu tələsdirib qeysərin arxasınca götürüldü. Və budur: faytonu saxlatdırdı. Əlahəzrətin ekipajı yalnız indi gəlib çatdı. Qeysər yerə düşəndə orada yenə kiçik bir dəstə vardı, Diderix yenidən italyanca qışqırdı... Qeysərinin qaldığı binanın qarşısında keşikçi əvəzinə Diderixin özü durdu! Sinəsini qabağa verdi, yaxına gələnləri, az qala, gözləri ilə yeyəcəkdi. On dəqiqədən sonra dəstə yenidən yığışmışdı, ekipaj darvazadan çıxdı və Diderix:

– Yaşasın qeysər!

Bu səs dəstənin əks-sədasına qarışıb geri Krivinala qayıtdı. Keşikçilər. Qeysərin başında kiver[1]. Dəstə. Yeni məqsəd, yeni qayıdış, yeni mundir, yenidən Diderix, yenidən təntənəli qəbul. Beləcə davam edirdi və Diderix ömründə heç vaxt bunun kimi gözəl həyat görməmişdi. Qapıçı dostu qeysərin hara gedəcəyini ona xəbər verirdi. Hətta elə olurdu ki, məmurlardan kimsə ona hərbi salam verib müəyyən məlumatı çatdırırdı, Diderix də bunu məmnuniyyətlə qəbul edirdi, ya da kimsə tapşırıq almaq üçün ona üz tuturdu, bu vəziyyətdə də Diderix həmin tapşırıqları qeyri-müəyyən şəkildə, lakin amiranə verirdi. Gün günorta yerinə qalxmışdı; arxasında onun qeysərinin ümumdünya əhəmiyyətli danışıqlar apardığı fasadların mərmər plitələrinin yaxıcı istisinə Diderix dözürdü, bürküdən və susuzluqdan yıxılmadan. Nə qədər şax dayansa da, ona elə gəlirdi ki, günortanın ağırlığından qarnı sallanıb yerə döşənmiş daşlara dəyir və sanki, sinəsindəki dördüncüdərəcəli tac ordeni istidən əriyir. Tez-tez yaxındakı meyxanaya burulan faytonçu, axır ki, bu almanın şücaətli borc duyğusuna heyrətləndi və ona şərab gətirdi. Damarlarındakı yeni alov Diderixi növbəti qaç-qova vadar etdi. Çünki qeysərin çaparları daha iti gedirdilər; onlara yetişmək üçün faytonu kanalabənzər küçələrlə qovdurmalı idi, bu küçələrdəki piyadalar onu görən kimi qorxudan divara qısılırdılar; ya da faytondan enib tələsə-tələsə pillələri qalxmaq lazım gəlirdi. Sonra Diderix vaxtında öz dəstəsinin başında dayandı, yeddinci məmurun faytondan endiyini görüb bağırdı. Bu vaxt qeysər başını çevirib gülümsədi. Bir daha onu, öz təbəəsini tanıdı. Həmin o qışqıranı, nağıldakı cırtdan kimi hər dəfə hoppanıb qabağa

[1] *Kiver* – hündür, yastı dəbilqə

çıxan bu məxluqu. Əlahəzrətin diqqətindən qanadlanıb uçan Diderix alışıb-yanan gözləri ilə üzlərində xoş bir iltifat oynayan camaata baxdı. Yalnız qapıçı onu inandıranda ki əlahəzrət indi səhər yeməyi yeyir, Diderix Qusteni xatırlamağı özünə rəva bildi.

– Bu nə görkəmdir?! – Quste onu görən kimi qışqırıb divara çəkildi. Çünki Diderix pomidor kimi qızarmışdı. Qantər içində idi, bozarmış və çılğınlaşmış gözlərindən qopan baxışı qədim zamanlarda latın məmləkətlərinə qəsbkar döyüşə çıxmış german döyüşçüsünün baxışına bənzəyirdi.

– Milli işlər üçün bu ən böyük gündür! – Diderix var gücü ilə dedi. – Əlahəzrətlə mən, biz mənən qələbələr çalırıq.

Necə də dayanmışdı! Quste qorxusunu və uzun gözləmədən sonrakı acığını unutdu; qadına xas bir incəliklə qollarını açıb ona doğru gəldi və itaətlə özünü onun boynuna atdı.

Ancaq Diderix yeməyə güc-bəla bircə saat ayıra bildi. Bilirdi ki, qeysər nahar yeməyindən sonra istirahət edir; bu da o demək idi ki, Diderix onun pəncərəsinin altında keşik çəkib heç yana getməməlidir. Getmədi də və onun necə haqlı olduğunu sonra baş verənlər göstərdi. Zira o, hələ də giriş qapı ilə üzbəüzdəki postunda dayanmışdı, aradan heç saat yarım keçməmişdi, birdən şübhəli görkəmə malik bir şəxs qapıçının qısa müddətə burada olmamasından istifadə edərək özünü içəri salıb sütunların birinin arxasında gizləndi və bəd əməlini işə keçirmək üçün qaranlıqda gözlədi. Amma anan ölsün, Diderix! Onun savaş harayı ilə fırtına kimi meydana şığıdığını gördülər. Qorxmuş camaat həmin an onun arxasınca qaçdı, keşikçilər özünü yetirdi, xidmətçilər giriş qapısında bir yerə toplaşdılar və hamı Diderixin gizlənmiş adamı şil-küt edərək çəkib gətirdiyinə heyran oldu. Hər ikisi o şəkildə vuruşurdu ki, hətta silahlı keşikçilər də onlara yaxın düşə bilmədi. Qəfildən sağ qolunu qurtarmağa müvəffəq olmuş rəqibin əlində hansısa bankanı yellətdiyini gördülər. Bir neçə anlığa camaatın nəfəsi durdu, sonra panikaya düşüb qışqırışan adamlar girişə doğru götürüldü. Bomba! Atacaq!.. Atdı da! Partlayışın gözləntisində yaxındakı adamlar əvvəlcədən vay-şivən qopararaq yerə uzanmışdılar. Diderix isə: üz-gözü, çiyinləri və sinəsi ağappaq dayanıb asqırırdı. Möhkəm mixək iyi gəlirdi. Cəsurlar

geri qayıdıb onu burunlan ilə yoxladılar; şlyapasının lələkləri yellənən əsgərlərdən biri tüpürcəyində islatdığı barmağını ona batırıb dadına baxdı. Deyəsən, Diderix əsgərin camaata nə dediyini və niyə hamının sifətinə təzədən iltifat qonduğunu anladı, çünki artıq bir neçə saniyə idi ki, onun özündə də şübhə qalmamışdı: nəyinsə üstünə diş pastası yaxılmışdı. Buna baxmayaraq Diderixin sayıqlığı nəticəsində qeysərdən yan ötmüş təhlükəni gözdən qoymadı. Suiqəsdçi əbəs yerə onun yanından uzaqlaşmaq istədi. Diderixin dəmir yumruğu onu polislərə təhvil verdi. Onlar da həmin adamın alman olduğunu müəyyənləşdirib onun istintaqını Diderixə tapşırdılar. Üstünə tökülmüş diş pastasına baxmayaraq, verilən tapşırığı Diderix yüksək dəqiqliklə yerinə yetirdi. Sənətkar olduğu ortaya çıxan adamın cavablannda birbaşa siyasi çalar yox idi, lakin dərin hörmətsizliyi və mənəviyyatsızlığı ilə ondan üsyankarlıq yağırdı, buna görə də Diderix gecikdirmədən onun həbsini istədi. Keşikçilər canini apardılar, vaxt qazanıb üstünü dostu qapıçıya silovlatdıran Diderixə də hərbi salam verməyi unutmadılar. Qeysərin gəlməsini xəbər verdilər; Diderixin şəxsi xidməti yenidən başladı.

Bu xidmət onu dinclik nə olduğunu bilmədən gecəyarıya qədər ora-bura sürükləyib axırda əlahəzrətin qonaqlıq verdiyi alman səfirliyinə gətirdi. Uca cənabın səfirlikdə yetərincə qalması Diderixə yaxınlıqdakı meyxanada kefini qaldırmağa imkan yaratdı. O, qapının ağzındakı kətillərdən birinin üstünə qalxıb camaata milli ruhlu bir nitq söylədi və bu pəndəm insan topasına dəmir intizamın, eləcə də kölgə qeysərin deyil, əsl qeysərin üstünlüklərini başa saldı. Alman səfirliyinin binası qarşısında öləziyən qəndillərin işığından Diderixin qızarmış sifətini, kətilin üstündəki bu adamın düzbucaq şəklində yuxarı qatlanmış bığını, gözlərinin alışıbyandığını, birdən də onun daş kimi donub-qaldığını gördülər – bütün bunlar onu anlamaq üçün həmin insanlara bəs elədi, çünki onlar şənlənib əl çaldılar, Diderix "Yaşasın qeysər!" dedikcə qeysəri yaşatdılar. Əcnəbilərin onun hökmdarına və bu hökmdarın qüdrətinə pərəstişini Diderix hədədən əskik olmayan bir ciddiliklə qarşıladı, bunun üçün o, kətildən enib yenidən şərab dalınca getdi. Ondan heç də az həyəcanlanmamış həmyerliləri onunla badə vurub əsl almanlar kimi ondan geri qalmadılar. Onlardan biri qeysərin

böyük şəkli olan axşam qəzetini açıb sarayın alaqapısında hansısa almanın törətdiyi hadisə barədə məlumatı oxudu. Yalnız qeysərin şəxsi mühafizimin sayəsində həmin bəd əməlin qarşası alınmışdı; qəzetdə həmin mühafizəçimin şəkli də verilmişdi. Diderix onu tanımaya bilərdimi?! Oxşarlıq ümumi şəkildə olsa da, ad büsbütün dəyişdirilsə də, sifətin ümumi quruluşu və bığ uyğun gəlirdi. Beləcə, Diderix eyni qəzetdə qeysərlə özünü yanaşı gördü, bütün dünyanı heyrətləndirmək üçün qeysəri öz təbəəsi ilə təqdim etmişdilər. Bu, çox şey demək idi. Diderix gözlərində nəm dikəldi və "Reyndə keşik" mahnısını oxumağa başladı. Həddən artıq ucuz şərab və durmadan yeni-yeni güc toplayan məftunluq ona gətirib çıxartdı ki, qeysərin səfirliyi tərk etməsi xəbərini Diderix düz-əməlli ayaq üstə qarşılaya bilmədi. Öz vəzifəsini yerinə yetirmək üçün o, əlindən gələni etdi. Özünü ora-bura vuraraq Kapitoliyanı üzüaşağı götürüldü, ayaqları büdrəyə-bydrəyə pillələrlə yumalandı. İçkidaşları ona aşağıdakı küçədə yetişdilər, Diderix üzünü divara çevirib dayanmışdı... Lopa işıqları, nal səsləri: qeysər! O biriləri ləngərlənə-ləngərlənə qeysərin arxasınca getdilər, Diderix isə, daha ona heç Tevton ordeninin kodeksi də kömək edə bilmədi, durduğu yerdən sürüşüb küçənin ortasında dayandı. Şəhər keşikçilərindən ikisi onu divara söykənmiş halda gölməçədə oturan vəziyyətdə tapdı. Onlar alman qeysərinin şəxsi mühafizəmi tanıdılar və böyük narahatlıqla onun üstünə əyildilər. Elə həmin an bir-birilərinə baxdılar və sevincləri yerə-göyə sığmadı. Qeysərin şəxsi mühafizi, Allaha şükür ki, ölməmişdi, çünki xoruldayırdı və içində oturduğu gölməçə də qan gölməçəsi deyildi.

Ertəsi axşam teatrdakı qala tamaşasında qeysər qeyri-adi dərəcədə ciddi görünürdü. Diderix bunu hiss edib Qusteyə dedi:

– Mən indi bildim, o qədər pulu niyə xərcləmişəm. Fikir ver, biz indi tarixi bir anın şahidi olacağıq!

Və gümanı onu aldatmadı. Axşam qəzetlərini elə teatrın özündə payladılar və xəbər tutdular ki, qeysər gecə yola düşür və o, öz reyxstaqını buraxıb. Qeysərin özü kimi ciddi olan Diderix yaxındakıların hamısına hadisənin çətinliyini izah etdi. Üsyankarların həyasızlığı o yerə çatıb ki, hərbi qanun layihəsini rədd ediblər! Millətçilər öz qeysərlərinin yolunda ölüm-dirim savaşına atılıblar! Bildirdi ki, o özü

növbəti qatarla vətənə dönəcək, elə həmin an qatarın adını ona dedilər... Bundan narazı qalan təkcə Quste oldu.

– Axır ki, bir dəfə yad məmləkətə düşmüşdük, Allah rizası ilə burada bəzi şeyləri özümüzə rəva bilərdik. Necə olur ki, iki gün dalbadal mehmanxanada oturub keşik çəkirəm, sonra da təzədən əlüstü, ya Allah, sadəcə olaraq onun ucbatından. – Qustenin qeysər lojasına saldığı nəzərdə o qədər hiddət vardı ki, Diderix tam ciddiliklə müdaxilə edəsi oldu. Quste də birdən-birə qızışdı; ətrafa pıçıltı yayıldı və Diderix etirazçılarla kəllə-kəlləyə gəlmək istəyəndə qatar yola düşməmişdən əvvəl Quste ilə zalı tərk etmələri tələbini etirazçıların üzündən oxudu.

– Bu qara camaat qanacaqdan çox-çox uzaqdır, – Diderix bayırda deyib lap bərkdən fısıldadı. – Bir də ki, bilmək istəyirəm, nə var axı burada?! Gözəl hava, vəssalam... Hə, bir az da ləzzət al, ətrafı dolduran köhnə şeylərdən! – əmiranə dedi.

Təzədən özünə bəzək-düzək vermiş Quste gileyli-gileyli dilləndi:

– Almağına alıram.

Onların qatarı müəyyən intervalla qeysərin qatarının arxasınca gedirdi. Tələsikdə üz yastıqçalarını və diş fırçalarını unutmuş Quste hər stansiyada qatardan enmək istəyirdi. Otuz altı saat birtəhər dözsün deyə Diderix ona yorulmadan milli moizə oxuyurdu. Buna baxmayaraq, ayağı, axır ki, Netsiqə dəyəndə Qustenin ilk dərdi üz yastıqçaları oldu. Şəhərə bazar günü çatmışdılar. Xoşbəxtlikdən, "Aslan apteki" açıq idi. Diderix vağzalın qarşısında çamadanları gözləyəndə Quste özünü aptekə salmışdı. Lakin aptekdən qayıtmadığına görə Diderix onun arxasınca getdi.

***

Aptekin qapısı yarıya qədər açıq idi, üç nəfər cavan oğlan içəriyə baxıb qovurcuxurdu. Onların başı üstündən baxan Diderix heyrətdən donub-qaldı, çünki içəridə piştaxtanın arxasında köhnə dostu və tələbə yoldaşı, tutqun baxışlı Qotlib Hornunq qollarını çarpazlayıb ora-bura vumuxurdu. Quste də deyirdi:

– Bilmək istəyirəm: mən buradan tezliklə diş fırçası alacağam, ya yox.

Bu vaxt Qotlib Hornunq əlləri qoynunda piştaxtanın arxasından irəli çıxıb donuq gözləri ilə Qusteni süzdü.

– Üz-gözümün ifadəsindən görmürsünüz ki, – natiq səsi ilə danışmağa başladı, – nə durumum, nə də istəyim diş fırçası satmadığımdan xəbər verir.

– Eləmi?! – deyib Quste geri çəkildi. – Axı buradakı şüşə qabınız fırça ilə doludur ki!

Qotlib Hornunq iblissayağı gülümsədi.

– O yuxarıdakı dayım, – başını arxaya atıb çənəsi ilə tavanı göstərdi, çox güman ki, tavanın o üzündə onun himayədarı yuva salmışdı, – istədiyini müftə verə bilər. Bu, məni bir qınnaq da narahat etməz. Mən ona görə altı semestr oxuyub ən kübar korporasiyanın üzvü olmamışam ki, burada dayanıb diş fırçası satam.

– Onda burada nə işiniz var? – Quste aşkar şaşqınlıqla soruşdu. Hornunq gözlərini əzəmətlə oynadaraq dedi:

– Mən burada reseptur üçünəm!

Quste özünü məğlub saydı. Dönüb getmək istədi. Amma yadına nəsə düşdü.

– Yəqin, üz yastıqçaları ilə bağlı da eyni şeyi deyəcəksiniz?

– Tamamilə eyni şeyi, – Hornunq təsdiqlədi.

Ciddi şəkildə onun üstünə düşmək üçün Quste, deyəsən, elə bunu gözləyirmiş. Sinəsini qabağa verib onun işini bitirmək istədi; amma Diderix vaxtında işə qarışdı. Dostuna anlatdı ki, "Yeni Tevtoniya"nın ləyaqətini qorumaq və onun bayrağını uca tutmaq lazımdır. Əgər kiməsə üz yastıqçası lazımdırsa, sonda onu özü götürüb pulunu da yerinə qoya bilər... Diderix elə bu cür də etdi. Bu arada Qotlib Hornunq kənara çəkilib fişqırıq çaldı. Sanki, ondan başqa burada heç kim yox idi. Sonra Diderix dostunun indiyəqədərki həyatından xəbər tutdu. Əfsuslar ki, onun işi düz gətirməmişdi; zira Hornunq həmişə yastıqça və diş fırçası satmaq istəmədiyinə görə indiyə qədər beş aptekdən qovulmuşdu. Bununla belə, o, burada da vəzifəsini itirmək qorxusuna baxmayaraq, öz prinsipindən dönməmişdi.

– Əsl yeni tevtoniyalıya baxırsanmı?! – Diderix Qusteyə dedi, o da Hornunqa əməllicə-başlıca baxdı. Diderix də öz tərəfindən yaşamı və qazandığı uğurlar barədə danışmaqdan çəkinmədi. Aldığı ordenə diqqət çəkib Qusteni Hornunqun qarşısında fırladı və var-dövlətinin məbləğini dedi. Düşmənləri və həqarətçiləri Diderixin sayəsində dustaqxanada otururlar, qeysər lap bu yaxınlarda Romada yenə

Diderixin sayəsində təhlükədən sovuşmuşdur. Saraylarda və birjalarda panika yaratmamaq üçün qəzetlər bunu kəmağıl bir cavanın hoqqası kimi yazmışdır.

– Amma öz aramızda qalsın, əlimizdə əsas var deyim ki, ortada hər yana şaxələnmiş sui-qəsd olub. Sən özün başa düşərsən ki, Homunq, milli maraq bu barədə susmağı tələb edir, çünki sən özün də, yəqin, milli düşüncəli insansan.

Təbii ki, Homunq beləsindən idi və Diderix onu birdənbirə toy səyahətindən qayıtmağa məcbur edən həddən artıq vacib işlər barədə fikir söyləyə bilərdi. Söhbət Netsiqdən reyxstaqa millətçi namizədin seçilməsindən gedir! Çətinlikləri gizlətmək olmaz. Netsiq həmişə azad fikrin alınmaz qalası olub, qiyam özülləri kökündən silkələyib... Bu yerdə Quste xəbərdar etdi ki, şey-şüylərini götürüb evə gedəcək. Diderix bu arada dostunu təcili, elə bu axşam evə dəvət etdi, dedi ki, ona deyiləsi bir neçə sözü var. Faytona minəndə gördü ki, bayırda gözləyən şuluqçulardan biri aptekə girib diş fırçası istədi. Diderix fikirləşdi ki, Qotlib Homunqa yastıqça və diş fırçası satmaqda mane olan kübarlıq meyli demokratiyaya qarşı mübarizədə ən yaxşı silah ola bilər. Amma bu onun böyük qayğılarının ən kiçiyi idi. Yaşlaşmış frau Heslinq əlüstü bir neçə göz yaşı axıtdı, sonra yenidən üst mərtəbəyə qalxası oldu ki, burada da əvvəllər yalnız qulluqçu qızlar qalırdı və yaş paltar asılırdı, Diderix indi anasını və Emmini buraya yerləşdirmişdi. Səyahətin qoxusu bumundan getməmiş o, yerli hökumət başçısı fon Vulkaunun yanına getdi. Bundan sonra camaatın gözü qabağında Napoleon Fişeri yanına çağırtdırdı və Kuntse, Künxen və Tsillixlə gecikmədən görüşmək üçün müəyyən addımlar atdı.

Bazar günü işləmək hər adamın ürəyincə olmur; mayor özünün keqli oyunundan birtəhər qopa bildi. Keşişə Ketxen və asessor Yadaszonla bərabər ailə gəzintisində mane olmaq lazım gəldi. Professor isə onu çoxdan içirdib sərxoş etmiş kirayəçilərinin əlindən çıxa bilmirdi. Axır ki, onların hamısını "Veteranlar Şurası"nın yeməkxanasına toplamaq Diderixə müyəssər oldu və o, vaxt itirmədən bildirdi ki, reyxstaqa milli namizəd vermək lazımdır və vəziyyət elə gətirib ki, həmin namizəd mayor Kuntse olmalıdır. Künxen sonunu gözləmədən "Urra!" qışqırdı, amma mayorun üzgözündə, sanki, tufan qopdu. Məgər onu bu qədərmi

sadəlövh sayırlar, dişlərini qıcırdadıb dedi. Ya elə bilirlər, rüsvay olmaqdan ötrü ürəyinin başı tökülür?

– Netsiqdən millətçi namizəd! Onun başına nələrin gələcəyi məni o qədər də maraqlandırmır. Bunun özü elə milli məğlubiyyət demək olardı!

Diderix bunu heç cür qəbul etmədi.

– Bizim veteranlar şuramız var, cənablar bunu nəzərə almaldır. "Veteranlar Şurası" əvəzsiz əməliyyat mənbəyidir. Oradan çıxış edərək biz, icazənizlə deyim ki, qeysər Vilhelm heykəlinə qədər özümüzə yol açarıq və döyüşü də orada udarıq. – Künxen bir dəfə də "Urra!" qışqırdı. Digər ikisi isə bilmək istədi ki, heykəl nə olan şeydir və Diderix özünün tapıntısından onları hali etdi, bir xeyli də uzağa gedib bildirdi ki, heykəl onunla Napoleon Fişer arasında bir bağlaşma obyektidir. Diderix ağır-ağır söylədi ki, azadfikirlilərin körpələr evi o qədər məşhur deyil, qoca Külemanın mirasından bir hissəni qeysər velhelm heykəlinə vəsiyyət etdiyini desək, seçicilərin bir hissəsini millətçilərin tərəfinə çəkmiş olarıq. Birincisi, sənətkarlann bir çoxu burada özünə iş tapar, sonra da şəhərə canlanma gələr. Belə bir heykəlin açılışı geniş dairələri cəlb edər, Netsiq də özünün demokratik bataqlıq kimi mənfur şöhrətini itirmiş olar və mərhəmət günəşinin şüalarına qərq olar. Bu yerdə o, Vulkau ilə sözləşməsini xatırladı, lakin bu barədə susmağa üstünlük verdi.

– Bizim ümumi işimiz uğrunda dönmədən çalışan və çox şeyə nail olan adama, – əlini yellədib Kuntseni göstərdi, – bizim bu əziz və qədim şəhər mütləq bir heykəl qoyacaq. Onunla qeysər Böyük Vilhelm bir-birinə baxacaqlar...

– ...və bir-birinə dil göstərəcəklər, – inamsızlığında israr edən mayor onun sözünü tamamladı. – Netsiqlilərin milli cəbhədə bu cür səs-küyə səbəb olan həmin o böyük adamı gözlədiyini düşünürsünüzsə, niyə özünüz o böyük adamın rolunu oynamaq istəmirsiniz?

Gözünü Diderixin gözündən çəkmədi. Amma Diderix öz gözlərini onunkundan yayındırdı; əlini ürəyinin üstünə qoydu.

– Cənab mayor! Mənim hamıya məlum olan sadiq düşüncələrim artıq məni daha ağır sınaqlara çəkmişdir, nəinki reyxstaqa namizədlik və icazə verin deyim ki, mən o sınaqlardan çıxmışam! Bununla belə, yaxşı əməlin öndər

mübarizi kimi naqis düşüncəli insanların hər cür nifrətini şəxsim üstünə götürməkdən çəkinməmişəm və bununla qurbanlarımın bəhrəsindən yarınmağı özümə yasaq etmişəm. Netsiqlilər məni seçməyəcəklər, onlar mənim əməlimi seçəcəklər, ona görə də mən geri çəkilirəm, çünki işgüzar olmaq alman olmaq deməkdir və cənab mayor, qibtəsiz-filansız bu şərəfi və sevinci sizə bəxş edirəm!

Ümumi bir narahatlıq. Künxenin "əhsən!" sədası ağzından çıxıb göz yaşlarına bələndi, keşiş öz xeyir-duasını başını irəli əyməklə bildirdi, Kuntse də şaşqın-şaşqın gözünü masanın altına zillədi. Diderix isə tam yüngülləşmişdi və özünü yaxşı hiss edirdi, ürəyini boşaltmışdı və bu ürək sədaqət, fəda və kişisəl ideallar söyləmişdi. Diderixin sarışın tüklü əli masanın üstünə əyildi, mayorun qumral tüklü əli də tərəddüd içində, lakin möhkəm-möhkəm həmin ələ çırpıldı.

Ürək hələ susmamış dörd kişinin dördündə də ağıl dilə gəldi. Mayor öyrənmək istədi ki, əgər o, azadfikirlilər güruhunun namizədi qarşısında məğlub olsa, Diderix onun qorxduğu mənəvi və maddi itkilərin yerini doldurmağa hazırdırmı.

– Özünüz gözəl bilirsiniz! – deyib barmağını bu qırmızılığın qarşısında həmin an söz tapmayan Diderixə tuşladı. – Milli iş sizin özünüzə o qədər də pak görünmür və məni bu işə cəlb etmək cəhdiniz, sizi tanıdığıma görə, cənab doktor, növbəti fırıldaqlarınızın tərkib hissəsidir ki, onlardan da fırıldaq nə olduğunu bilməyən bir əsgər kimi mən, Allaha şükür ki, heç nə anlamıram.

Bunun müqabilində Diderix həmin düzünədüz əsgərə orden vəd etdi və Vulkau ilə razılığa gəldiyinə eyham vurduğuna görə milli namizəd sözsüz təslim oldi. Bu arada keşiş Tsillix götür-qoy etdi ki, görəsən, şəhərdə tutduğu mövqe millətçilərin seçki komissiyasına sədrlik etməyə ona imkan verərmi. Öz icmasına ikitirəlikmi salmalıydı? Onun dost-doğmaca yeznəsi Hoytoyfel liberalların namizədi idi axı. Heykəlin əvəzinə kilsə tiksəydilər, başqa məsələ!

– Çünki doğrusunu deyirəm, Allah evlərinə daha çox ehtiyacımız var və mənə əziz olan müqəddəs Məryəm kilsəsi şəhərin nəzərindən elə düşüb ki, bugün-sabah mənim və xristianlarımın başına uçacaq.

Diderix fikirləşmədən bütün təmirləri boynuna götürdü. Ancaq bircə şərt qoydu ki, keşiş müəyyən deyimləri ilə

millətçiliyin gerçəkliyinə şübhə oyadan ünsürləri yeni partiyanın idarəçiliyindən kənar tutsun.

– Ailə münasibətlərinə qarışmaq fikrim yoxdur, – deyib Diderix əlavə etdi və Ketxenin söhbətin nədən getdiyini anlayan atasını gözdən keçirdi... Xeyli vaxtdır "Ura!" qışqırmayan Künxen də özünü ortaya atdı. Özləri söhbət edəndə hər iki kişi onu oturduğu yerdə güclə saxlaya bilmişdi; təzəcə onun yaxasını əldən buraxmışdılar ki, Künxen mübahisəyə atıldı. Millətçilik öncə harada kök atmalı idi? Gənclərin arasında? Əgər gimnaziyanın rektoru cənab Bukun dostu idisə, bu necə mümkün olardı?

– İstəyirsən, bizim yetmişlərdəki əzəmətli əməllərimizdən onlara ağızdolusu danış...

Yetər, Künxen rektor olmaq istəyirdi, Diderix də böyük ürəklə razılığını verdi.

Şəxsi maraqların sağlam zəminində siyasi mövqe müəyyənləşəndən sonra təmiz vicdanla, keşiş Tsillixin dediyi kimi, Allahın xeyir-duası ilə göndərilən təşəbbüsü ələ almaq olardı; beləcə onlar ratskellerə yollandılar. Səhərin ala-toranında həmin dörd kişi evə dönərkən Hoytoyfelin divarlardakı ağ və yoldaş Fişerin qırmızı seçki plakatlarının arasında "Qeysər partiyası"ndan cənab mayor Kuntsenin namizədliyini təbliğ edən qara-ağ-qırmızı plakat asılmışdı. Diderix plakatın qarşısında gücü gəldikcə möhkəm dayanıb iti tenor səslə yazılanı oxuyurdu. "Buraxılmış reyxstaqın vətənsiz gədəçələri səltənətin böyüməsi üçün gərəkli olan güc vasitələrini həşəmətli qeysərimizə verməkdən imtina etməyə cəsarət göstəriblər. Gəlin böyük monarxa layiq olub onun düşmənlərini əzək! Yeganə proqram: qeysər! Mənim lehimə və əleyhimə olanlar: üsyankarlıq və qeysər partiyası!" Künxen, Tsillix və Kuntse hər şeyi qışqırtıları ilə təsdiqlədilər; fabrikə gedən bir neçə fəhlə heyrətlə ayaq saxladığından Diderix onlara üz tutub milli manifesti şərh etdi.

– Camaat! – qışqırdı. – Siz heç özünüz də bilmirsiniz ki, alman olmaqda bəxtiniz necə gətirib, çünki bütün dünya qeysərimizin paxıllığını çəkir, lap bu yaxınlarda özüm xaricdə bunun şahidi olmuşam. – Bu yerdə Künxen yumruğu ilə elanlar lövhəsinə bir tuş ilişdirdi və dörd kişinin dördü də "Urra!" qışqırdı, fəhlələr isə matdım-matdım onlara baxdı. – Qeysərinizin sizə yeni müstəmləkələr bəxş etməsini

istəyirsinizmi? – Diderix onlardan soruşdu. – Əlbəttə istəyirsiniz! Onda zəhmət çəkib onun qılıncını itiləyin! Vətənsiz ünsürləri seçməyin, buna yol verməyin, yalnız qeysərin yeganə namizədinə, cənab mayor Kuntseyə səs verin. Yoxsa bizim dünyadakı mövqeyimiz sarıdan sizə bir anlığa da zəmanət vermirəm, elə alına bilər ki, hər iki həftədən bir iyirmi mark az maaşla evinizə dönərsiniz! – Bu yerə çatanda fəhlələr lal-dinməz bir-birinə baxdılar, sonra təzədən yola düşdülər.

Kişilər də vaxt itirmədi. Kuntsenin özü "Veteranlar Şurası"nın üzvlərinə millətçilərin mövqeyini başa salmaq üçün qurumuş qıçlarının üstündə vəzifəsinin ardınca getdi.

– Bu gədələr fikirləşirlər ki, – dedi, – gələcəkdə də azad həmkarların üzvü olacaqlar! Bu azad fikri biz onların canından qovub çıxardacağıq. Bu gündən etibarən yer kəskin danışığa verilir!

Keşiş Tsillix xristian icmasında oxşar bir fəaliyyətə girişdi, Künxen isə velosipedlərinə minib şəhəri dörd dolaşacaq və seçiciləri cəlb edəcək yuxarı sinif şagirdlərinin təşəbbüslərini xəyalında canlandırıb cuşa gəldi. Rahatlıq tanımayan borc duyğusu isə Diderixə qol-qanad verirdi. O hər cür dinclikdən boyun qaçırırdı; çarpayıda uzanıb onu qınaqla qarşılayan arvadına gözləri alışıb yana-yana cavab verirdi:

– Qeysərim qılınca səsləyib, o, qılınca səsləyirsə, ailə qarşısında borc anlayışı olmur. Başa düşdün? – Bunun cavabında Quste acıqla üzünü o tərəfə çevirər, arxasının cazibəsi ilə dolmuş yaylı çarpayını özü ilə yaramaz əri arasında qalaya çevirərdi. Diderix onu çulğamaq istəyən təəssüfü yerindəcə boğub azadfikirlilərin körpələr evinə xəbərdarlıq çağırışı yazardı. Həmin çağırışı da "Netziger Zeitung" çap edərdi, baxmayaraq ki o, iki gün əvvəl cənab doktor Hoytoyfelin qələmindən çıxmış həlim məsləhəti öz səhifəsinə çıxarmışdı. Çünki redaktor Notqroşenin dediyi kimi, savadlı burjuaziyanın mətbuat orqanı yeni yaranan hər ideyaya ilk öncə mədəni vicdanının sınaq daşını qoymaqda öz abonentlərinə minnətdardır. Və bunu Diderix tamam öldürücü bir yolla etmişdi. Bu südəmərlər yurdu təbiət etibarilə ilk öncə kimin üçün nəzərdə tutulmuşdur? Təbii ki, bic uşaqlar üçün. Bəs bunu şərtləndirən nədir? Əxlaqsızlıq. Buna bizim ehtiyacımız var idimi? Bir qınnaq da; "zira, Allaha şükür ki, biz özlərinin demokratik tərbiyəsizliyinin nəticəsində artıq

ölüm ayağında olan fransızların acınacaqlı vəziyyətinə düşməmişik. Qoy onlar bic doğulanlara təriflər yağdırsın, çünki əsgərlərə, onsuz da, ehtiyacları yoxdur. Biz isə hələlik çürüməmişik. Arası kəsilməmiş millət artımına sevincimiz yerə-göyə sığmır! Biz torpağın duzuyuq!" Hesablayıb "Netziger Zeitung"un oxucularına bildirirdi ki, onlar və onlar kimilər haçan yüz milyona çatacaqlar və bütün Yer kürəsinin almanlaşması üçün ən çox nə qədər vaxt lazım olacaq.

Milli Komitənin fikrincə, bununla "Qeysər partiyası"nın ilk seçki iclasına hazırlıq görülmüşdü. Həmin iclas zalını vətənpərvərlərin üzünə açmış Klapşın yanında olmalı idi. Küknar çələnglərində şüarlar işıq saçırdı: "Padşahın istəyi ən uca buyruqdur" , "Sizin üçün bir düşmən var, o da mənim düşmənimdir", "Sosial-demokratiyanı mən öhdəmə götürürəm", "Tutduğum yol doğru yoldur", "Vətəndaşlar, ayılın qəflət yuxusundan!".

Qəflət yuxusundan oyanmağın qeydinə cənab Klapşla froylayn Klapş qalırdılar. Bunu onlar içilən pivə parçlarını başqa vaxtlarda olduğu kimi dəqiq hesaba almadan hər yerdə təzə pivə süzməklə edirdilər. Beləcə, keşiş Tsillix sədr kimi Kuntseni iclasa təqdim edəndə sonuncunun kefi xeyli yuxarı idi. Siqaret tüstüsünün dumanı arxasındakı büroda Diderix xoşagəlməyən bir xəbərlə çıxış etdi ki, Hoytoyfel, Kon və onların dəstəsindən bir neçəsi zaldadırlar. O, danışmaq üçün Qotlib Hornunqa söz verdi, çünki nəzarəti Hornunq aparırdı. Amma Hornunq heç nə demək istəmədi, bərk həyəcanlanmışdı, camaatı bir yerə yığmaq onun üçün xeyli əziyyətə başa gəlmişdi. Onun təbliğatı sayəsində qeysər Vilhelmin heykəlinin bu qədər sifarişçisinin pulunu şəhər özü heç vaxt ödəyə bilməzdi, lap qoca Küleman üç dəfə ölmüş olsa belə. Çiçəyi burnunda vətənpərvərlərin salamlaşmasından Hornunqun əlləri şişmişdi. Hamının gümanı təkcə ona gəlirdi! Deyirdilər ki, hansısa aptekin sahibinə şərik olsun, bu, hələ, ən azı, demək idi. Lakin Qotlib Hornunq sınırların bu cür demokratik pozuluşuna etiraz edirdi. "Aslan apteki"nin sahibi onu təzəcə işdən çıxarmışdı, o da həmişəkindən də qəti qərara gəlmişdi ki, nə yastıqça, nə də diş fırçası satsın... Bu arada Kuntse özünün namizəd nitqini camaatın canına döşəyirdi. Zira onun tutqun baxışı Diderixi ona görə çaşbaş salmamışdı ki, mayor demək istədiklərinə heç də tam əmin deyildi, ona görə

salmışdı ki, seçki mübarizəsində özünü döyüş meydanında olduğundan gücsüz sayırdı. Mayor dedi:

– Cənablar, ordu bizim yeganə dayağımızdır, – Hoytoyfelin adamlarından biri “çürümə gedir!” kəlməsini dediyinə görə Kuntse o saat çaşıb-qaldı və əlavə etdi: – Bəs bu ordunu kim saxlayacaq? Vətəndaş özü. – Hoytoyfelin ətrafındakılar “Əhsən!” qışqırdılar. Bununla yanlış səmtə sıxışdırılan Kuntse bildirdi: – Ona görə hamımız bu işə dayağıq, bunu da tələb etməyə ixtiyarımız var, vay monarxın halına.

– Tam doğrudur! – azadfikirlilər cavab verdilər və xoşməramlı vətənpərvərlər onlara qoşulub qışqırdılar. Mayor tərini sildi; özü də istəmədən nitqi elə alındı ki, sanki o, liberal cəmiyyətdə danışırdı. Diderix onun pencəyinin ətəyindən tutub geri çəkdi və nitqini qurtarmağı tapşırdı, ancaq Kuntse əbəs yerə cəhd etdi: “Qeysər partiyası”nın seçki platformasına keçmək üçün heç nə tapa bilmədi. Axırda səbir kasası daşdı, qəflətən qıpqırmızı qızardı və özündən asılı olmayaraq çılğınlıqla bağırdı:

– Son kötüyünə qədər qazıb atmaq! Urra!

“Veteranlar şurası” gurultu ilə əl çaldı. Harada ki qışqırmırdılar, Klapşın özü, ya da qızı Diderixin əl işarəsi ilə tələsik orada peyda olurdu.

Doktor Hoytoyfel çıxış üçün söz istədi, lakin Qotlib Hornunq onu qabaqladı. Diderix şəxsən kölgədə, sədarəti bürüyən tüstü dumanının arxasında qalmağa üstünlük verdi. Hornunqa o, on mark vəd etmişdi, Hornunqun da onu əldən çıxarmaq niyyəti yox idi. Dişlərini xırçıldada-xırçıldada səhnənin qırağına gəldi, möhtərəm mayorun nitqini şərh etməyə başlayıb bildirdi ki, uğrunda hər cür qurbana hazır olduğumuz ordu demokratiya bataqlığına qarşı istinadgahımızdır.

– Demokratiya kəmsavadlıların dünyabaxışıdır, – aptekçi öz hökmünü verdi. – Elm bunu sübut edib.

– Tam doğrudur! – kimsə bağırdı; bu, Hornunqu payçı etmək istəyən aptek sahibi idi.

– Dünya durduqca ağa da olacaq, nökər də! – Hornunq onun sözünü tamamladı. – Zira təbiətdə də belədir. Yeganə doğru olan da elə budur, çünki hər kəsin özündən yuxarıda çəkindiyi birisi, özündən aşağıda isə ondan çəkinən bir başqası olmalıdır. Yoxsa axırımız hara gedər?! Hər yoldan ötən beyninə yerləşdirər ki, öz-özünə yaşaya bilər və bütün

insanlar bərabərdir! Vay o xalqın halına ki, onun nəsildən-nəslə keçən ləyaqətli münasibətlər toplusu demokratik hərc-mərclikdə əriyib yoxa dönür və bu zaman şəxsiyyətin çürüməsi üstünlük qazanır! – Bu yerdə Qotlib Homunq qollarını çarpazlayıb boynunu qabağa əydi. – Mən, – deyib səsini qaldırdı, – yüksək kübar bir təşkilatın üzvü olmuş, bayrağın uca tutulması naminə qaynar qanını əsirgəməmiş mən heç vaxt diş fırçası satmaq səviyyəsinə enməyəcəyəm!

– Yastıqça da? – kimsə soruşdu.

– Elə onu da! – Homunq qətiyyətlə dedi. – Bu qəbildən olan hər cür gümanı birbaşa rədd edirəm. Qarşılarındakının kim olduğunu adamlar gərək bilsin. Hərəyə öz qədəri. Bu mənada biz səsimizi qeysərin hərbi doktrinasını dəstəkləyən namizədə veririk. Zira biz ikisindən birini seçməliyik: ya qeysərimiz var, ya da yoxdur!

Bunu deyib Qotlib Hornunq arxaya çəkildi, alt çənəsini qabağa uzadıb qaşlarını çatdı, alqış sədalarından uğuldayan zala baxdı. "Veteranlar şurası"nın üzvləri pivə parçlarını yuxarı qaldırıb onunla Kuntsenin sağlığına içməkdən özünü saxlaya bilmədi. Kuntsenin əlini sıxırdılar, Hornunq da onun yanında idi, Diderix isə içindəki acılığı boğa bilmirdi ki, ikincidərəcəli adamlar olan bu iki nəfər onun başladığı işin bəhrəsini dərir. Anın rəğbətini onlardan əsirgəmədi, çünki bu hər iki sadəlövhdən o daha yaxşı bilirdi ki, bu işin sonu necə olacaq. Son olaraq millətçilərin namizədi ona görə meydana atılmışdır ki, Napoleon Fişer üçün yardımçı dəstələr toplasın, ən yaxşısı da o olardı ki, özü kölgədə qalsın. Hoytoyfel, təbii ki, Diderixin paxırını açmaq üçün dəridən-qabıqdan çıxırdı. Sədr keşiş Tsillix uzun müddət ona söz verməyə bilməzdi, söz verilən kimi o, körpələr evindən danışmağa başladı. Dedi ki, körpələr evi sosial vicdan və insanlıq məsələsidir. Bəs qeysər Vilhelmin heykəli nədir? Bazarlıq, üstəlik şöhrətpərəstlik istəklərin ən abırlısıdır, onunla da alver edirlər... İştirakçılar aşağıda, zalda oturub acı duyğuların səssizliyində natiqə qulaq asırdılar, amma hərdən onlardan boğuq bir donqultu da çıxırdı. Diderixi əsməcə tutdu.

– Adamlar var ki, – Hoytoyfel bildirdi, – hərbə yüz milyonlarla pul xərcləmək onların heç vecinə də deyil, çünki özlərinə düşən payı necə geri qaytaracaqlarını gözəl bilirlər.

Bu yerdə Diderix ayağa sıçradı.

– Xahiş edirəm, mənə söz verin!

İştirakçılar hisslərini cilovlaya bilməyib partladılar: "Əhsən! Oho! Yerində otur!" Hoytoyfel səhnədən çıxıb onun yerinə Diderix gələnə qədər həmin adamlar yerlərində qaynaşdı.

Millətçilərin həyəcan dənizi sakitləşib yatana qədər Diderix xeyli gözləyəsi oldu. Sonra sözə başladı:

– Cənablar! – iştirakçılar "Əhsən!" qışqırdılar, Diderix də həmfikir insanlar arasında özünü yaxşı hiss etdiyi bu abhavada bir az da gözləyəsi oldu. Ona danışmağa imkan verəndə ümumi narazılıqdan danışıb bildirdi ki, ondan əvvəlki natiq milli yöndə gedən iclası şübhə altına almağa cürət edə bilmişdir.

– Görünməmiş işdir! – iştirakçılar ucadan dilləndilər.

– Bu bir daha sübut edir ki, – Diderix ucadan dedi, – "Qeysər partiyası"nın yaranması tam yerinə düşüb! Qeysər özü tapşırıb ki, kübar, yaxud asılı olmalarına baxmayaraq, onu qiyam azarından qorumaq istəyənlərin hamısı bir cəbhədə birləşsin. Biz də bunu istəyirik, buna görə də qeysərə sadiq milli düşüncəmiz qiyamın nübarı olanların şübhələrindən uca dayanır!

Alqış sədaları qopana qədər Hoytoyfel həddən artıq aydın şəkildə dedi:

– Tələsməyin! Təkrar seçkilər.

Bundan sonra gələnləri iştirakçılar əllərinin şappıltısı ilə elə həmin an boğduqlarına baxmayaraq Diderix bu iki kəlmədə elə dəhşətli eyhamların gizləndiyini gördü ki, tələsik mövzunu dəyişdi. Körpələr evi xeyli dolaşıq məsələ idi. Necə? O, sosial vicdan məsələsidir, deyirsiniz? Xeyr, bu, əxlaqsızlıq mənbəyidir.

– Belə şeyi biz almanlar xalq kimi ölməkdə olan fransızlara verək! – Diderix, sanki, "Netziger Zeitung" qəzetindəki məqaləsini oxuyurdu. Keşiş Tsillixin rəhbərlik etdiyi gənclər şurası, eləcə də xristian fəaliyyəti yardımçıları hər sözə əl çalırdı. – Germanlar ismətlidirlər! – var gücü ilə dedi. – Ona görə də yetmişinci ildə qalib gəldik.

Heyrət bildirmək növbəsi indi də "Veteranlar şurası"nın idi. Sədarətin masası arxasında Künxen dik atılıb siqaretini havada yellətdi və qıyya çəkdi:

– Tezliklə onlara yenə yerlərini göstərərik!

Diderix pəncələrinin üstünə qalxdı.

– Cənablar! – bədənini gərib millətçi dalğalara müraciət etdi, – qeysər Vilhelmin heykəli, deyərdim ki, hamımızın müqəddəs sayıb hörmət etdiyimiz möhtərəm baba üçün bir sitayiş yeri, eyni zamanda əziz nəvə, möhtəşəm cavan qeysərimiz üçün bir vəd olmalıdır ki, biz olduğumuz kimi qalmaq istəyirik, daha doğrusu, ismətli, azadlıqsevər, həqiqətpərəst, sadiq və cəsur!

Bu yerdə iştirakçıları heç vəchlə saxlamaq mümkün olmadı. Özlərini unudaraq onlar ideyalar aləmində üzdülər və Diderix də hər cür dünyəvi düşüncədən vaz keçib Vulkau ilə gəldiyi razılığı, Napoleon Fişerlə sözləşməsini, təkrar seçkilər barədə pis niyyətini yerli-dibli unutdu. Ruhu büsbütün cuşa gələrək göylərə pərvazlandı və bu uçuşdan onun başı fırlandı. Yalnız xeyli vaxt keçəndən sonra təzədən bağıra bildi:

– Özlərinin saxta insanpərvərlikləri ilə bizi yumşaldıb muma döndərməkdən başqa ayrı istəkləri olmayanların iradlarını kəskinliklə rədd edib onları öz yerlərində oturtmağın vaxtı çoxdan yetişib!

– Bəs sizin saxta olmayan insanpərvərliyiniz hara qeyb olub? – Hoytoyfel soruşub iclasdakıların milli mənliyini elə sancdı ki, Diderixin səsini hərdən eşidə bildilər. Anlaşıldı ki, o, daimi sülhün tərəfdarı deyil, çünki bu bir xəyal idi, özü də çirkin bir xəyal. Bununla belə, o, öz irqinin qəddarcasına tərbiyəsini istəyirdi. Onun fikrincə, ağıldankəmlərin və əxlaqsızların nəsil artımını cərrahi müdaxilə ilə kəsmək lazımdır. Bu yerə çatanda Hoytoyfellə adamları məclisi tərk etdilər. Qapıya çatanda o, arxaya çevrilib ucadan dedi:

– Etirazçıları da axtalayın!

Diderix cavab verdi:

– Ağzınızı Allah yoluna qoysanız, axtalayarıq.

– Axtalayarıq! – hər yandan eyni səs eşidildi. Birdən hamı ayağa qalxdı, badələri toqquşdurdular, qışqırışdılar, ən ali duyğularını ifadə etdilər. Sitayiş dalğalarının qoynunda, onun əlini sıxmaq istəyən sadiq alman əllərinin, eləcə də badəsinə toqquşmaq istəyən milli pivə parçlarının hücumu altında müvazinətini itirərək Diderix məstlikdən dumanlanmış baxışında xeyli böyük və uca görünən zala oturduğu səhnədən bir nəzər yetirdi. Tavana dirənmiş tüstü dumanından, sanki, ağasının buyruqları müəmmalı şəkildə ona tuşlanmışdı: “Qeysərin istəyi!”, “Mənim düşmənim!”, “Tut-

duğum yol!" Bu kəlmələri o, qaynayıb coşan xalqa qışqırmaq istədi, lakin əlini boğazına atdı, daha səs gəlmirdi. Yalnız xırıltı vardı. Qayğılanıb Hoytoyfel tərəfə baxdı, amma təəssüf ki, o çoxdan getmişdi. "Gərək onu belə cımatmayaydım. Boğazıma baxası olsa, Allahın mənə yazığı gəlsin!"

***

Hoytoyfelin ən ağır qisası o oldu ki, Diderixi bayıra çıxmağa qoymadı. Bayırda isə mübarizə günü-gündən sərtləşirdi və hamının adı qəzetlərdə oxunurdu, çünki hamı danışırdı: hətta keşiş Tsillix də, redaktor Notqroşen də, hər yerdə nitq söyləyən Künxen isə dil boğaza qoymurdu. Yalnız Diderix özünün qədim alman üslubundakı mebelli salonunda səsini çıxarmadan boğazını yaxalayırdı. Pəncərənin taxçasından ona üçdə iki insan boyunda üç tunc fiqur baxırdı: qeysər, qeysər xatnı və Zekinqenli təbilçi. Bunları təsadüfən Kondan almışdı; Konun Heslinq fabrikinin kağızından imtina etməsinə və hələ də milli düşüncədən uzaq olmasına baxmayaraq, Diderix mənzilini təchiz edəndə həmin fiqurlardan vaz keçə bilməmişdi. Diderix Qustenin şlyapasının bahalığını ona irad tutanda o da bunu Diderixin başına qaxırdı.

Son vaxtlar Quste dəymədüşər olmuşdu, hərdən ürəyi də bulanırdı və bu halda qoca frau Heslinq yataq otağında ona qulluq edirdi. Halı yaxşılaşan kimi qoca qadının yadına salırdı ki, buradakıların hamısı onun pulu ilə alınıb. Frau Heslinq fürsəti əldən verməyib bildirirdi ki, Qustenin o dövrdəki vəziyyətində onun Didelinə ərə gəlməsi Quste üçün əsl mərhəmət sayılmalıdır. Axırda Quste qıpqırmızı qızarıb fısıldayır, frau Heslinq də göz yaşı axıdırdı. Bundan isə Diderix qazanırdı, çünki sonra hər ikisi onun üçün məhəbbətin özünə çevrilirdi, özü də hər biri onu öz tərəfinə çəkmək niyyəti ilə.

Emmiyə gəldikdə isə o, adəti üzrə, sadəcə, qapını bağlayıb özünün yuxarıdakı çəp tavanlı otağına çəkilərdi. Quste onu bu otaqdan da çıxarmağın fikrini edirdi. Yağış yağanda paltarları harada qurudaydı?! Heç nəyi olmadığına görə Emmi özünə ər tapa bilməsə, onda onu aşağı silkdən birinə, yaxşı bir sənətkara vermək lazım idi. Amma Emmi ailədən kənarda kübar rolunu oynayır və Britsenlərlə oturub-dururdu... Bu da Qusteni daha çox cinləndirirdi. Emmini Britsen

xanımları evə qonaq çağırmışdılar, baxmayaraq ki özləri onlara bir dəfə də ayaq basmamışdılar. Quste hələ anasının yanında olarkən Britsenlərin leytenant qardaşı bircə dəfə də olsun onlara baş çəkməmişdi, amma indi Heslinqlərin evinin üçüncü mərtəbəsini özünə layiq bilmişdi ki, bu da büsbütün şübhəli görünürdü... El içində qazandığı uğurları, təbii ki, Emmini ağır sarsıntılardan qurtara bilmədi; hətta o, birgə günorta yeməyində də otağını tərk etmirdi. Bir dəfə Quste həm darıxdığından, həm də ona yazıqlandığından Emminin otağına getdi, amma o, Qusteni görən kimi gözlərini yumdu, elə alt paltarında tərpənmədən uzanıb qaldı. Heç bir cavab almayan Quste ürəyini açıb Diderixdən və özünün hamiləliyindən söz saldı. Bunu eşidən kimi Emminin donuq sifəti birdən-birə yığışdı, o, bir qolunun üstündə eşələnib digəri ilə birbaşa qapını göstərdi. Quste öz hirsini büruzə verməkdə borclu qalmadı; qəfil sıçrayıb ayağa qalxan Emmi tək qalma arzusunu aydın kəlmələrlə ifadə etdi; qoca frau Heslinq işə qarışanda artıq qərara gəlinmişdi ki, ailənin hər iki üzvü gələcəkdə ayrı-ayrılıqda nahar etsin. Qustenin ağlayıb hadisəni şikayət etdiyi Diderix qadınların qalmaqalına bərk narahat olmuşdu. Xoşbəxtlikdən, ağlına belə bir fikir gəldi ki, əvvəlcə ailədə sakitlik yaratsın. Yenidən bir balaca səsi özünə gəldiyinə görə tələsik Emminin yanına gedib qərarını bildirdi: müəyyən müddət üçün onu Eşvaynerə Maqdanın yanına göndərmək istəyir. Təəccüblü də olsa, Emmi təklifi rədd etdi. Amma Diderix dediyindən dönməyəndə Emmi partlamaq istədi, lakin qəfildən, sanki, onu qorxu çulğayırmış kimi, astadan və israrla xahiş etdi ki, ona burada qalmağa icazə versin. Özü də bilmədən, nədənsə, qəlbi riqqətə gəlmiş Diderix ətrafa göz gəzdirdi, sonra da otaqdan çıxdı.

Ertəsi gün Emmi, heç nə olmayıbmış kimi, nahar süfrəsinin arxasında göründü, allanmış yanaqla və gözəl əhvali-ruhiyyədə. Özünü xeyli soyuq aparan Quste bir neçə dəfə Diderixə baxdı, Diderix, deyəsən, Qusteni özü bildiyi kimi başa düşmüşdü. Badəsini Emmiyə doğru uzatdı və məkrli-məkrli dedi:

– Prost, frau fon Britsen.

Emminin rəngi qaçdı.

– Özünü gülünc yerinə qoyma! – səsini qaldırıb hirslə dedi, salfeti masanın üstünə atıb qapını arxasınca bağladı.

– Belə-belə işlər! – Diderix donquldandı, Quste isə çiyinlərini çəkdi. Yalnız qoca frau Heslinq otaqdan çıxanda heyrətlə Diderixin gözünün içinə baxıb soruşdu:

– Sən buna inanırsan? – Diderix qorxdu, amma üz-gözündən sual yağdı. – Məncə, – Quste bildirdi, – onda cənab leytenant mənə, ən azı, küçədə salam verərdi. Amma bu gün məndən büsbütün yan ötdü. – Diderix bunu ağılsızlıq adiandırdı. Quste sözünə davam etdi: – Əgər, sadəcə, özümdən uydurası olsam, çox şeyi uydurardım, çünki əslində, gecə tez-tez kiminsə evdən sürünüb çıxdığını eşidirəm, bu gün də Minna dedi ki... – sözün dalını gətirmədi.

– Belə de! – Diderix fısıldadı. – Deməli, qulluqçularla əlbirsən! Anam da belə edərdi. Orasını sənə deyim ki, belə şeyə dözmürəm. Ailənin şərəfinin keşiyini özüm təkcə çəkirəm, bunun üçün nə Minnaya, nə də sənə ehtiyacım var, siz başqa fikirdə olsanız, onda ən yaxşısı hər ikiniz baxın görün, içəri girdiyiniz qapını bir daha tapa biləcəksinizmi?!

Bu cür əsl kişi davranışının müqabilində Quste yalnız təslimçilik göstərə bilərdi, lakin Diderix çıxıb gedərkən altdan-yuxarı ona gülümsədi. Diderix isə, öz növbəsində, özünün sərt mövqeyi ilə məsələni yoluna qoyduğuna sevindi. Zira həyat hazırkı dövrdə olduğundan daha dolaşıq olmamalı idi. Əfsuslar ki, onu üç gün mübarizədən kənar saxlayan xırıltılı səsi düşmənlər tərəfindən istifadəsiz qalmadı. Elədir, Napoleon Fişer hələ bu gün tezdən ona məlumat çatdırdı ki, "Qeysər partiyası" çox güclənib və sosial-demokratiya əleyhinə hədyan yağdırır. Belə bir vəziyyətdə... Onu sakitləşdirmək üçün Diderix vəd verməli oldu ki, öhdəsinə götürdüyü vəzifəni yerinə yetirib elə bu gün şəhərin deputatlarından sosial-demokrat həmkarların binasının tikintisini tələb edəcək... Beləcə o, büsbütün sağalmadan iclasa yollandı və burada öyrəndi ki, həmkarların binası ilə bağlı məsələ gündəliyə daxil edilib, özü də birbaşa cənab Kon və yoldaşlar tərəfindən. Liberallar həmin təklifə səs verdilər, təklif maneəsiz keçdi, sanki, o, ən yaxşılardan idi. Kon və yoldaşların milli satqınlığını ucadan qamçılamaq istəyən Diderix yalnız zingildəyə bildi: başına açılan kələk yenidən onu səsdən məhrum etdi. Evə çatan kimi Napoleon Fişeri yanına çağırtdırdı.

– İşdən azadsınız! – Diderix zingildədi. Mexanik şübhəli-şübhəli irişdi.

– Çox gözəl! – deyib getmək istədi.

– Dayanın! – Diderix yenidən zingildədi. – Heç də düşünməyin ki, bu cür asanlıqla canınızı qurtardınız. Azadfikirlilərə qoşulsanız, bağladığımız sazişi bəyan edəcəyimə əmin ola bilərsiniz! Görərsiniz, başınıza nələr gələcək!

– Siyasət siyasətdir, – Napoleon Fişer çiyinlərini çəkib dedi. Diderix bu qədər sırtıqlığın qarşısında daha zingildəyə bilmədiyinə görə Napoleon Fişer bir az da məhrəmlikiə yaxına gəldi, az qala, Diderixin çiyninə döyəcləmək istədi.

– Cənab doktor, – xoş niyyətlə dilləndi, – elə etməyin, yaxşımı? Biz ikimiz də... Hə də, sadəcə, deyirəm ki, ikimiz də... – irişməsində o qədər xəbərdarlıq vardı ki, Diderixi üşütmə tutdu. Tələsik Napoleon Fişerə siqar təklif etdi. Fişer siqarı çəkə-çəkə dedi: – İkimizdən birimiz danışmağa başlasaq, onda o birisi danışmağını harada kəsər, görəsən?! Haqlıyam, cənab doktor? Axı biz içindəkiləri yerə tökmüş boş torba deyilik, məsələn, cənab Buk kimi.

– Necə bəyəm? – Diderix zəif səslə soruşub bir qorxudan digərinə yuvarlandı. Mexanik özünü təəccüblənən kimi apardı.

– Məgər bilmirsiniz? Cənab Buk hər yerdə danışır ki, sizin millətçilik heç də pis niyyət güdmür. Sadəcə olaraq Qauzenfeldi ucuz almaq istəyirsiniz və düşünürsünüz ki, Klüzinq müəyyən təklifdən qorxuya düşsə, elə ucuz da alacaqsınız, çünki o, millətçi deyil.

– Bunları o deyir? – yerində daşlaşmış Diderix soruşdu.

– O deyir, – Fişer cavab verdi. – Onu da deyir ki, sizə yaxşılıq edib əvəzinizdə Klüzinqlə danışacaq. Onda, çox güman ki, sakitləşərsiniz, deyir.

Diderix özünə gəldi.

– Fişer! – qısa bir zingilti iiə dedi. – Bundan sonra gələnləri yadınızda saxlayın. Qoca Buku siz tində dayanıb dilənən görəcəksiniz. Mütləq! Buna mən özüm çalışacağam, Fişer, əlvida!

Napoleon Fişer çıxıb getmişdi, lakin Diderix otaqda vurnuxa-vurnuxa hələ də öz-özünə zingildəməkdə idi: “Əclaf, saxtakar murdar!” Bütün müqavimətlərin arxasında qoca Buk gizlənirdi. Diderix bunu həmişə hiss etmişdi. Konun və yoldaşların irəli sürdüyü təklif onun işi idi, indi də Qauzenfeldlə bağlı bu həyasız iftira. Monarxist düşüncələrinin dönməzliyində Diderix daxilən büsbütün sarsıldı.

"Bunları o haradan bilir axı? – qəzəbli dəhşət içində düşündü. – Vulkau satıb? Yoxsa hamısı elə fikirləşir ki, mən ikili oyun oynayıram?" Çünki Kuntse və başqaları bu gün ona aşkarca sərin münasibət bəsləmişdilər; baş verənləri ona agah etməyi yoxsa daha vacib saymırdılar? Diderix komitənin üzvü deyildi, bu işə o, özünün vüqarını qurban vermişdi. Bəlkə, buna görə "Qeysər partiyası"nın əsl yaradıcısı olmamışdı? Hər yanda satqınlıq, münaqişə, yağısal şübhə və heç yerdə sadə alman sadiqliyi.

O hələ də zingildədiyinə görə seçkilərə həsr olunmuş növbəti iclasda Tsillixin, bunu hansı şəxsi maraqdan etməsi bəlli idi, Yadaszona çıxış üçün söz verməsinə və Yadaszonun Napoleon Fişeri seçəcək fəqirlərin, vətənsiz ünsürlərin ünvanına ağzına gələni deyərkən sürəkli alqışlar qazanmasına, sadəcə, tamaşa edirdi. Xırda dövlət adamına yaraşan bu çıxışa Diderix təəssüfləndi və özünü Yadaszondan çox-çox ağıllı saydı. Digər tərəfdən də etiraf etməmək olmazdı ki, Yadaszon qazandığı uğurla daha uzaqlara getdikcə müəyyən dinləyicilərin ucadan səslənən razılığını qazanırdı ki, həmin dinləyiciləri də milli düşüncə sahibi saymaq olmazdı, əksinə, onlar Konun və Hoytoyfelin adamları idilər. Bu insanlar adamı şübhəyə salacaq dərəcədə çox idilər və ətrafdakı tələlərdən bərk narahat olmuş Diderix bu manevrin ilkində də özünün yağı düşmənini, hər yanda yamanlıq yuvası qurmuş qoca Buku gördü.

Qoca Bukun mavi gözləri, üzündə insanın qəlbini oxşayan təbəssümü vardı və yaxşı fikirli insanları hədə altında saxlayanlar arasında ən saxtakar it idi. Diderixin qoca Buk barədə düşüncələri yuxuda da ondan əl çəkmirdi. Ertəsi axşam ailə çırağının altında o, özününkülərə qəti cavab vermədi; qoca Bukun əleyhinə uydurduğu lətifələri danışdı. Onu xüsusi cinləndirən o oldu ki, bu qocanı vaxtilə dişsiz zəvzəyə bənzətmişdi, indi isə o, diş göstərirdi. Bu cür söz-söhbətlərdən sonra Bukun rəftarı, sanki, Diderixi meydana çəkib deyirdi ki, özünü, sadəcə, ona-buna yem etməsin. Yeznəsinin məhvini Diderixə bağışlayır kimi görünən bu ikiüzlü mülayimlik! Onu niyə qabağa çəkib şəhər deputatlarının yığıncağına gətirmişdi? Yalnız ona görə ki, Diderix zəif yerini göstərib özünü asan yem etsin. Qocanın o vaxt verdiyi "Diderix özünün torpaq sahəsini şəhərə satmaq istəyirmi" sualı indi ən təhlükəli tələ kimi ortaya çıxırdı.

Diderix qəfildən hamının onun içini gördüyünü hiss etdi; indi ona elə gəldi ki, yerli hökumət başçısı fon Vulkau ilə söhbətində tüstü dumanının arxasında gizlənmiş qoca Buk da iştirak etmişdi; və Diderix qaranlıq qış gecəsində Qauzenfeldin yanınca sürünüb keçərkən çalaya uzanıb işıqsaçan gözlərini yumarkən qoca Buk onun yanından keçib-getmiş və yuxarıdan aşağı ona baxmışdı... Təxəyyülündə Diderix qocanı özünün üstünə əyilib onu çaladan çıxarmaq üçün ağ yumşaq əlini ona uzadan gördü. Üz ifadələrində görünən yaxşılıq, əslində, apaydın bir rişxənd idi, bu isə tamam dözülməz idi. O, Diderixi əl quzusu edib özünün hiylələri ilə cəlayi-vətən övladı yoluna qaytarmağı fikirləşirdi. Amma baxaq görək, kim kimi yeyəcək!

– Nə olub sənə, oğlum? – frau Heslinq soruşdu, çünki Diderix nifrətdən və qorxudan ağır-ağır zarıyırdı. Diderix diksindi; elə bu an Emmi otağa daxil oldu, Diderixin fikrincə, o, buraya tez-tez gəlirdi, pəncərəyə doğru gedib başını çölə çıxartdı, dərindən köks ötürdü, sanki, otaqda tək idi, sonra da geriyə üz tutdu. Quste onun arxasınca baxdı; Emmi Diderixin yanından keçəndə Qustenin kinayəli baxışı hər ikisinə yönəldi və Diderix daha bərkdən qorxdu: çünki bu onun Napoleon Fişerdə rast gəldiyi qiyam təbəssümü idi. Quste də onun kimi gülümsəyirdi. Diderix qorxudan alnını düyünləyib bərkdən bağırdı:

– Nə olub axı?!

Quste tələsik əlindəkini toxumağa davam etdi, Emmi isə ayaq saxlayıb indi tez-tez onda təzahür edən ifadəsiz gözlərlə Diderixi süzdü.

– Sənə nə olub? – Diderix Emmidən soruşdu, o, cavab vermədikdə isə: – Küçədə kimi axtarırsan? – Emmi yalnız çiyinlərini çəkdi, üz ifadəsi qəti dəyişmədi. – Səninlə deyiləm? – astadan soruşdu; zira Emminin qəribə şəkildə biganə görünən baxışı, duruşu ona ucadan danışmağı çətinləşdirirdi.

Axır ki, qız dilləndi:

– Mümkündür ki, fon Britsenin qızlarının ikisi də bizə gəlsin.

– Gecənin bu vaxtı? – Diderix soruşdu. Quste söhbətə qarışdı:

– Çünki biz kiməsə bu cür şərəf göstərməyə vərdişliyik və ümumiyyətlə, onlar dünən anaları ilə harasa çıxıb

getdilər. Əgər heç tanımaq istəmədikləri birisi ilə sağollaşıb gedirlərsə, evlərinin həndəvərində dolaşmağın mənası yoxdur.

– Necə? – Emmi heyrətləndi.

– Elədir ki var! – sifəti alışıb-yanan Quste şadyanalıqla hər şeyi açıb tökdü. – Tezliklə leytenant da onların dalınca gedəcək. Qulluq yerini dəyişdiriblər axı. – Kiçik bir fasilə, sərt bir baxış. – Qulluq yerini o özü dəyişdirtdirib.

– Yalan deyirsən, – Emmi dilləndi. Yerində səndələdi, sonra quruyub qalması heç kimin gözündən yayınmadı. Başını dik tutub arxaya çevrildi və pərdəni aşağı buraxdı. Otağa sükut çökdü. Qoca frau Heslinq oturduğu divanda əllərini çarpazladı, Quste fısıldaya-fısıldaya vurnuxan Diderixə təkidlə baxdı. Diderix bir də qapıya çatanda özünü yığışdırdı. Qapının arasından Emmiyə göz qoydu, o, yemək otağında kətillərin birinin üstündə oturmuş, ya da asılmışdı, elə büzüşmüşdü, elə bil, qızı sarıyıb oraya atmışdılar. Titrəyirdi, sonra üzünü çırağa doğru çevirdi; rəngi əvvəlcə kağız kimi ağarmışdı, indi isə qıpqırmızı olmuşdu, gözü heç nə görmürdü və birdən sıçrayıb ayağa qalxdı, alovlanmış adamlar kimi hirsli, qətiyyətsiz addımlarla irəliyə doğru götürüldü, ağrı hiss etmədən özünü döyə-döyə tüstü-dumanın içinə... Artan qorxu içində Diderix dönüb arvadına və anasına baxdı. Qustenin hörmətsizliyə meyilli olduğunu nəzərə alıb ədəb-ərkan maskasını üzünə taxdı, şux addımlarla Emminin arxasınca getdi.

Hələ pilləkənə çatmamış yuxarıda qapı şaqqıltı ilə örtülüb zirzə və açarla bağlandı. Diderixin ürəyi elə bərkdən çırpındı ki, ayaq saxlayası oldu. Amma birtəhər yuxarıya qalxanda içəri keçməsini tələb etmək üçün nəfəsi durduğundan səsi zəif çıxdı. Cavab gəlmədi, amma o, yüyət masasının üstündə nəyinsə cingildədiyini eşitdi və birdən qollarını yelləyib qışqırdı, qapını döyəclədi və qeyri-insani bir səs çıxartdı. Öz səsindən qızın qapını necə açdığını eşitmədi və Emmi onun qarşısında dayananda o hələ də qışqırırdı.

– Nə istəyirsən? – Emmi hirslə soruşdu, yalnız bundan sonra Diderix özünü yığışdırdı. Frau Heslinqlə Quste sorğulu dəhşət içində pilləkənin ətəyindən üzüyuxarı baxırdılar.

– Yerinizdə qalın! – Diderix əmr etdi, Emmini itələyib otağa saldı. Qapını bağladı. – Qoy başqaları duyuq düşməsin, – qısaca deyib yüyət təknəsindən xloroform iyi

verən balaca bir süngər çıxartdı. Əllərini qabağa verib onu özündən aralı tutdu, sərt-sərt soruşdu: – Bunu haradan tapmısan?

Emmi başını dala atıb ona baxdı, ancaq heç nə demədi. Bu vəziyyət nə qədər uzun sürdüsə, hüquq baxımından birinci verilməli sualı Diderix bir o qədər əhəmiyyətsiz saydı. Nəhayət, o, sadəcə, pəncərəyə doğru gedib süngəri qaranlıq həyətə tulladı. Aşağıdan şappıltı gəldi, süngər arxın içinə düşmüşdü. Yüngülləşmiş Diderix köksünü ötürdü. İndi sual vermək növbəsi Emmininki idi:

– De görüm nə axtarırsan burada? Qoymazsanmı istədiyimi edəm?! – sual Diderixə gözlənilməz gəldi.

– Yaxşı, nə... nə etmək istəyirsən axı?

Emmi üzünü çevirib çiyinlərini çəkdi və dedi:

– Sənə bir qınnaq da istisi-soyuğu olmaz.

– Olsun, amma dinlə məni! – Diderix özündən çıxdı. – Sən öz səmavi hakiminin hüzurunda daha utanıb-çəkinmirsənsə, bunu da mən şəxsən çox pis qarşılayıram, heç olmasa, burada bizə bir balaca hörmət et. İnsan dünyada tək yaşamır. – Bacısının biganəliyi onu bərk yaraladı. – Mən öz evimdə dava-qalmaqala dözən deyiləm! İlk zərbənin dəyəcəyi adam mənəm.

Birdən Emmi onun gözünün içinə baxdı.

– Bəs mən?

Diderix tıncıxdı.

– Mənim ad-sanım... – Amma həmin an təzədən susdu; Emminin Diderixin indiyə qədər bu cür ifadəli görmədiyi sifəti həm gileylənir, həm də rişxənd edirdi. Diderix şaşqınlıq içində qapıya doğru getdi. Birdən bu vəziyyətdə necə hərəkət etməyi yadına düşdü.

– Onu da deyim ki, sənin qardaşın və sözünə sahib insan kimi, təbii ki, mən öhdəmə düşən vəzifəmi büsbütün yerinə yetirəcəyəm. İcazə ver ümidimi kəsməyim ki, bu arada sən özünü ələ alacaqsan. – Bunu o, hələ də iyi çəkilməmiş yüyət təknəsinə nəzər salıb dedi. – Söz ver!

– Açıl başımdan! – Bu sözdən sonra Diderix geri qayıtdı.

– Deyəsən, vəziyyətin ciddiliyini dərk etmirsən. Qorxduğum şey gerçək olsa, onda sən...

– Gerçəkdir, – Emmi dedi.

– Onda sən öz təkcə varlığını, ən azı, ictimai varlığını şübhə altına salmırsan, əksinə, bütün ailəni rüsvay etmiş

olursan və mən indi təhəddüd və şərafət adından sənin qarşına çıxıramsa ...

– Hər necə olsa da, fakt faktlığında qalır, – Emmi cavabında dedi.

Diderix qorxdu; bu qədər həyasızlığa öz nifrətini bildirmək istədi, ancaq Emminin sifətində aydınca oxumaq olurdu ki, o, nələrdən keçib gəlib və nələrdən imtina edib. Diderixin dizləri əsdi, aşağı oturub dedi:

– Yaxşı, onda mənə de görüm... hazıram səni... – Emminin durumuna baxdı və "bağışlamağa" sözü ilişib onun boğazında qaldı. – Hazıram sənə kömək etməyə, – dedi.

Emmi yorğun cavab verdi:

– Görəsən, bunu necə etmək istəyirsən? – Bu sualdan sonra divara söykəndi.

Diderix gözünü yerə dikdi.

– Sən gərək mənə bəzi şeyləri deyəsən; bütün xırdalıqlarına qədər hər şeyi. Güman edirəm ki, bu, sənin at sürdüyün vaxtlardan başlayıb.

Emmi ona öz gümanında qalmağa şərait yaratdı, heç nəyi təsdiqləmədi, üstəlik hələ etirazını da bildirdi... Diderix altdan-yuxarı ona baxanda Emminin dodaqları azca aralanmış və baxışı heyrətlə Diderixdə asılıb qalmışdı. Diderix anladı ki, Emmini heyrət götürüb, çünki qardaşı onun özünün çəkdiyindən də çox şeyi bilirdi və bunları dilə gətirmişdi. Naməlum bir qürur Diderixi bürüdü, o, ayağa qalxıb məhrəmliklə dedi:

– Mənə bel bağlaya bilərsən. Elə səhər tezdən oraya gedəcəyəm. – Qız astadan, qorxa-qorxa başını tərpətdi.

– Heç nə edə bilməzsən. Hər şey bitib.

Diderix səsinə bir gümrahlıq qatdı:

– Biz heç də əliyalın deyilik! Bircə baxım görüm.

Ayrılarkən bacısına əl verdi. Emmi onun arxasınca bir də səsləndi:

– Onu duelə çağıracaqsan? – Gözlərini açıb əlini ağzına tutdu.

– Necə ki? – Diderix heyrətləndi, çünki burasını fikirləşməmişdi.

– And iç ki, duelə çağırmayacaqsan!

Diderix ona söz verdi. Həmin an da sifəti allandı, çünki bilmədi ki, Emmi kimdən yana qorxur, ondanmı, o birisindənmi. İstəməzdi ki, o birisindən yana qorxsun. Amma

içindəki sualı boğdu, çünki cavab Emmi üçün xoşagəlməz olardı; az qala, ayaqlarının ucunda otağı tərk etdi.

Hələ də aşağıda gözləyən qadınların ikisinə də o, ciddilik göstərib onları yatmağa göndərdi. Özü isə Quste yuxuya gedəndən sonra onun yanına uzandı. Sabah necə hərəkət edəcəyini ölçüb-biçdi. Təbii ki, öz üstünlüyünü nümayiş etdirmək! Məsələnin həllində, ümumiyyətlə, şübhəyə yol verməmək! Lakin özünün adamı dəlib keçən görkəminin qarşısında Diderix xəylında qəmli gözlərindən yaş axan büzüşmüş bir kişini gördü. O, yalvarır, hədələyir, sonra da büsbütün sınırdı: cənab Qöppel, Aqnes Qöppelin atası. Atanın vəziyyətinin o vaxt necə olduğunu Diderix indiki mənəvi sarsıntısında anladı. "Sən belə şeyləri bilməzsən", – Emmi demişdi. Amma bilirdi, çünki onun özü bu qələti eləmişdi.

– Allah qorusun! – ucadan deyib yerində qovurcuxdu. – Bu işə qarışmaq fikrində deyiləm. Xloroformla Emmi, sadəcə, özünü şirin salırdı. Qadınlar belə şeyin ustasıdır. Qolundan tutub atacağam bayıra, o, buna tam layiqdir! – Qaz lampasının işığında sifətinə saraltı şökmüş Aqnes yağışlı küçədə Diderixin pəncərəsinin qarşısında dayanıb altdan-yuxarı bu tərəfə baxırdı. Diderix mələfə ilə gözlərini yumdu. – Onu küçəyə ata bilmərəm! – Səhər açıldı və Diderix bir gecənin içində yaşadıqlarını yadına saldı.

"Leytenantlar yuxudan erkən durur", – düşünüb Quste oyanana qədər aradan çıxdı. Sakson darvazasının arxasındakı bağ-bağçadan bahar səmasına quş civiltisi və ətir ucalırdı. Hələlik qapıları açılmamış villaların təptəzə yuyulmuş görkəmləri vardı. Sanki, onlara təzə bəy və gəlinlər köçmüşdü. "Kim bilir, – Diderix beynindən keçirib təmiz havanı ciyərlərinə çəkdi, – bəlkə, heç çətin olmayacaq, nə çoxdur abırlı insanlar. Vəziyyət də, əslində, daha münasibdir, nəinki..." O, düşüncələrindən daşındı. O tərəfdə, arxada bir fayton dayanmışdı... Hansı evin qabağında? O ev olacaqdı. Dəmir barmaqlıqlar, eləcə də qapı açıq idi. Ona doğru bir oğlan gəlirdi.

– Ehtiyac yoxdur, – Diderix dilləndi, – cənab leytenantı özüm görmüşəm. – Zira üzbəüzdəki otaqda cənab Britsen çamadanını qablaşdırırdı.

– Belə tez? – leytenant soruşub çamadanın qapağını endirdi və barmağı çamadanın arasında qaldı. – Andıra qalasan! – Diderix ümidsizliyə qapılıb fikirləşdi: "O da öz

qablaşdırması ilə məşğuldur". – Hansı təsadüfə minnətdar olmalıyam ki... – cənab fon Britsen danışmağa başladı, lakin Diderix özü də istəmədən elə bir hərəkət etdi ki, mənası təqribən belə alındı: oyun çıxarmağın mənası yoxdur. Buna baxmayaraq, cənab fon Britsen hər şeyi boynundan atdı. Hətta o vaxt Diderixin israrla boynundan atdığından bərk atdı və Diderix bunu daxilən anladı, çünki söhbət qız namusundan gedirdisə, leytenant olan kəs yeni tevtonçudan həmişə bir az qabağa getməli idi. Nəhayət, məsələyə tam aydınlıq gələndə cənab fon Britsen büsbütün qardaşın sərəncamında olduğunu bildirdi ki, bunu da ondan tam gözləmək olardı. Lakin Diderix canına çökmüş qorxuya baxmayaraq, qızışıb bildirdi ki, məsələnin silahla həllinə lüzum yoxdur, əgər cənab fon Britsen... Bu yerdə cənab fon Britsen, Diderixin əvvəlcədən gözlədiyi kimi, üz-gözünü turşutdu və bundan qabaq eşitdiyi mühakimələrini söylədi. Yeri dara düşdüyündən Diderixin qorxduğu və qaçınması mümkün olmayan cümləni dilinə gətirdi: "Namusunu qoruya bilməyən qızı heç kim uşaqlarına ana etməz". Diderix cənab Qöppelin ona dediklərini təkrarladı, cənab Qöppel kimi büsbütün əzilərək. Əsl hirs onu özünün baş hədəsini söyləyəndə boğdu, dünəndən bəri bu hədənin ona uğur gətirəcəyinə ümid bəsləmişdi.

– Sizin cəngavərə xas olmayan imtinanız, cənab leytenant, təəssüflər ki, bu məsələni polkovnikinizin nəzərinə çatdırmağa məni məcbur edəcək.

Cənab fon Britsenə, deyəsən, bu, doğrudan da, təsir etdi. O, şaşqınlıq içində soruşdu:

– Bununla nəyə nail olmaq istəyirsiniz? Mənə əxlaq dərsi verəcəklər? Çox gözəl. Əslində isə... – cənab fon Britsen özündə təzədən güc tapdı, – cəngavərliyin nə olması barədə polkovnik, məncə, dueldə döyüşmək istəməyən sizə baxanda ayrı cür düşünür.

Diderix özündən çıxıb dedi ki, cənab fon Britsen dilini saxlasa yaxşı olar, yoxsa məsələni "Yeni Tevtoniya" ilə çürütməli olacaq! Bayraqların şərəfinə coşan qanını axıtmasını Diderixə aldığı çapıqlar sübut edir! Cənab leytenanta arzulamaq istərdi ki, o, haçansa qraf fon Tauem-Berenhaymı duelə çağırmaq şərəfinə nail olsun!

– Mən onu duelə düzünə-düz çağırmışam! – Nəfəsini dərmədən onu da dedi ki, bu cür həyasız bir yunkerə şans verməz ki, mülki bir insanı və ailə başçısını vurub öldürsün.

– Bacısını yoldan çıxarmaq, qardaşını da vurub öldürmək, görünür, istəyiniz budur! – özündən çıxaraq bağırdı. Diderix kimi özündən çıxmış cənab fon Britsen köməkçisinə bu bazar gədəsinin ağzını əzməyi tapşırdı; və köməkçisi hazır dayandığına görə Diderix döyüş meydanını tərk etdi, amma sonuncu atəşi də unutmadı.

– Düşünməyin ki, sizin həyasızlığınızın müqabilində hərbi xərclər üzrə qanun layihəsini bəyənəcəyik! Qiyamın nələrə gətirib çıxartdığını özünüz görərsiniz!

Bayırdakı kimsəsiz xiyabanda onun hirsi hələ də soyumamışdı, gözəgörünməz düşməninə yumruq göstərib hədələrini söyləyirdi.

– Bu, sizə baha başa gələcək! Hər şeyə son qoyacağıq!

Birdən onu da hiss etdi ki, bağ-bağçadan hələ də bahar səmasına quş civiltisi və ətir ucalır və ona tam aydın oldu: təbiətin özü də, istər mülayim üzünü göstərsin, istərsə də sərt, üstündə olan hökmranlığa, laxlaması mümkün olmayan hökmranlığa təsirsiz qalmır. Qiyamla hədələmək çətin deyildi; bəs qeysər Vilhelmin heykəli? Vulkau və Qauzenfeld? Kimi isə əzmək istəyirdinsə, gərək birinci özünü əzdirəydin, hökmranlığın baş qanunu bu idi. Etiraz dalğasından sonra Diderix hökmranlığın əzdiyi gizli qorxunu təzədən hiss etdi... Yuxarıdan bir fayton gəldi: cənab fon Britsen çamadanı ilə. Diderix düz-əməlli fikirləşənə qədər onu salamlamaq üçün yanpörtü dayandı. Lakin cənab fon Britsen üzünü yana çevirdi. Hər şeyə baxmayaraq, Diderix gümrah, cəngavər cavan əsgərə baxıb sevindi. “Beləsi heç yerdə yoxdur”, – öz hökmünü verdi.

Fəqət Mayzesştraseyə çatanda ürəyi sıxıldı. Uzaqdan Emminin ona baxdığını gördü. Birdən ağlına gəldi ki, qızın taleyinin həll olunduğu bu müddət ərzində, görəsən, bu fəqir nələr çəkməyib. Yazıq Emmi, artıq hər şey həll olunub. Hökmranlıq, təbii ki, adamı ruhlandırır, amma o, doğma bacısını əzəndə... “Heç bilməzdim ki, mənə bu cür yaxından təsir edəcək”. Bacardıqca ürək-dirək verərək başı ilə yuxarıya işarə etdi. Emmi xeyli nərmənazik olmuşdu, niyə bunu heç kəs görmürdü? Solğun-solğun sayrışan saçlarının altında bir cüt iri, mürgülü göz. Qardaşı ona əl edəndə qızın dodaqları səyridi; Diderix özünün itiləşmiş qorxusunda bunu da tuta bildi. Az qala, pillələrlə sürünüb yuxarı qalxdı. İkinci mərtəbədə Emmi otaqdan çıxdı, onun qabağına düşüb

üçüncü qata qalxdı. Yuxarıda arxaya çevrildi və qardaşının sifətini görəndə heç nə soruşmadan içəri keçdi, pəncərənin yanına gedib üzü o tərəfə dayandı. Diderix özünü yığışdırdı və ucadan dedi:

– Bax! Hələlik heç nə itirilməyib! – Bu sözlərdən sonra qorxub gözlərini yumdu. Dərindən zarıdığına görə Emmi bu tərəfə çevrilib ağır-ağır ona doğru gəldi və qardaşına qoşulub ağlamaq üçün başını onun kürəyinə söykədi.

Sonra Diderixin onu qızışdırmaq istəyən Quste ilə qalmaqalı oldu. Diderix birbaşa onun üzünə çırpdı ki, ərə gələrkən özünün düşdüyü pis vəziyyətin heyfini çıxmaq üçün Emminin bədbəxtliyindən sui-istifadə edir:

– Emmi, ən azı, heç kimin dalınca qaçmır.

Quste səsini başına salıb qışqırdı:

– Bəlkə mən sənin dalınca qaçmışam?..

Diderix onun sözünü kəsdi:

– Ümumiyyətlə, o, mənim bacımdır!

Emmi indi onun himayəsində yaşadığından bacısının daha maraqlı olduğunu deyib ona qeyri-adi bir hörmət göstərdi. Yeməkdən sonra onun əlini də öpdü, qoy Quste nə qədər irişir-irişsin. Onların ikisini bir-biri ilə müqayisə etdi; Quste necə də murdar imiş! Uğur qazandığına görə ona üstünlük verdiyi Maqdanın özü belə Diderixin xəyalında atılmış Emmi ilə müqayisədə heç nə idi. Zira öz bədbəxtliyi ilə Emmi daha kübar, müəyyən mənada daha əlçatmaz olmuşdu. Əlləri bu cür solğun və biganə uzanıb qalanda, özü isə susaraq naməlum uçuruma düşmüş kimi öz içinə qapılanda Diderix dərin bir dünyanın varlığından özünü daha da kədərli hiss edirdi. İstənilən kəsdə təzahür tapan qəribə və nifrinli əxlaqsızlıq xüsusiyyəti Diderixin bacısı Emminin ətrafında dolaşaraq nadir əks-səda doğurur və suallara səbəb olurdu. Emmi daha gözəl və daha cazibəli olmuşdu.

Bütün bunların səbəbkarı olan leytenant Emmi ilə müqayisədə hər şeyini itirmiş, bununla da Diderixin qürur duyduğu hökmranlıq öz gücünü qeyb etmişdi. Diderix öyrəndi ki, hökmranlıq hərdən alçaq və murdar sima kəsb edə bilər: güc və o gücün ardınca gedən hər şey, uğur, şərəf, əqidə. O, Emmiyə baxıb indiyə qədər əldə etdiklərinin və can atdıqlarının mahiyyətinə şübhə ilə yanaşdı: Qusteyə və onun puluna, heykələ, yüksək rifaha, Qauzenfeldə, təltiflərə və vəzifələrə. Emmiyə baxıb həm də Aqnesi düşündü. Ona

həlimlik və sevgi toxumu səpmiş Aqnesi. Diderixin həyatında o, saxtalığın tərs üzü olmuşdu, gərək onu bərk-bərk tutub saxlayaydı! Görəsən, indi haradaydı? Ölmüşdümü? Özü hərdən başını əllərinin arasına alıb oturardı. Bəs indi nə istəyir? Hökmranlığa xidmətdən nə qazanıb? Birdən-birə hər şey və hamı ondan üz döndərib, onu satıb, onun pak niyyətlərindən sui-istifadə edib və qoca Buk vəziyyətə hakim kəsilib. İztirabdan başqa heç nə bacarmayan Aqnes! Fikrindən keçdi ki, Aqnes onun üzərində qələbə çalıb. Berlinə məktub yazıb ondan xəbər tutdu. Aqnes ərə getmişdi, sağlamlığı da miyanə idi. Bu ona bir yüngüllük gətirdi, amma hər halda, bir az da məyusluq.

***

Başını əllərinin arasına alıb beləcə oturduqca seçkilərin keçiriləcəyi gün yaxınlaşmaqda idi. Dünyanın faniliyini dərk edərək Diderix hər şeydən əvvəl hadisələrə daha baxmaq istəmirdi. Bir də ona görə istəmirdi ki, mexanikinin üz ifadələri getdikcə daha çox yağılaşırdı. Seçkilərin keçiriləcəyi bazar günü səhər tezdən Diderix hələ yataqda uzanarkən Napoleon Fişer onun yanına gəldi. Üzr istəməyi ağlına da gətirmədən sözə başladı.

– Son anda ciddi bir kəlmə, cənab doktor! – Satqınlığın qoxusunu alan bu dəfə Diderix yox, Napoleon Fişer idi. Ona görə də bağladıqları sazişə eyham vurdu. – Sizin siyasətiniz, cənab doktor, ikiüzlüdür. Siz bizə vəd vermişdiniz, biz də adətimiz üzrə loyallıq göstərib sizin əleyhinizə yox, sadəcə, azadfikirliliyə qarşı təbliğat aparmışıq.

– Biz də, – Diderix dedi.

– Buna özünüz də inanmırsınız. Siz Hoytoyfellə cükküldəşmisiniz. O, sizin qoyduracağınız heykələ öz razılığını bildirib. Əgər siz elə bu gün ağ bayraq qaldırıb onun tərəfinə keçmirsinizsə, bunu sabah mütləq təkrar seçkilərdə edəcəksiniz və xalqın mənafeyini həyasızcasına satacaqsınız. – Napoleon Fişer qollarını sinəsində çarpazlayıb çarpayıya doğru iri bir addım atdı. – Gərək biləsiniz ki, cənab doktor, biz gözüyumulu hərəkət etmirik.

Diderix uzandığı çarpayıda özünü siyasi rəqibinə qarşı gücsüz hiss etdi. Onu ipə-sapa yatırmağa çalışdı:

– Bilirəm ki, Fişer, siz böyük siyasətçisiniz. Sizin kimilərinin yeri reyxstaqdır.

– Doğrudur. – Napoleon Fişer altdan-altdan onu süzdü. – Çünki mən reyxstaqa düşməsəm, Netsiqdəki müəssisələrin çoxunda tətillər başlayacaq. Bu müəssisələrdən birini siz yaxşı tanıyırsınız, cənab doktor. – Bunları deyib geriyə döndü. Qorxudan büzüşmüş Diderixə qapının ağzından bir daha nəzər saldı. – Ona görə də yaşasın beynəlmiləl sosial-demokratiya! – ucadan deyib çölə çıxdı.

Diderix büzüşüb qaldığı çarpayıdan bağırdı:

– Yaşasın əlahəzrət qeysər, urra!

Lakin sonra hadisələrin gözünün içinə baxmaqdan başqa onun ayrı çarəsi qalmadı. Vəziyyət yetərincə qorxulu idi. Ağır önduyumların təsiri altında küçəyə, "Veteranlar şürası"na, Klapşın yanına tələsdi və hər yerdə xəbər tutdu ki, onun cəsarətsizlik göstərdiyi günlərdə qoca Bukun məkrli taktikası böyük uğurlar qazanıb. "Qeysər partiyası" azadfikirlilərin sıralarından gələnlərin hesabına artmış və Kuntseni Hoytoyfeldən ayıran məsafə onunla Napoleon Fişer arasındakı uçurumla müqayisədə o qədər də nəzərəçarpacaq olmamışdır. Yeznəsi Hoytoyfellə abırsızcasına salamlaşan keşiş Tsillix bildirdi ki, "Qeysər partiyası" öz uğurundan razı qala bilər, çünki qalib gələcəyi təqdirdə o, azadfikirlilərin namizədinin milli vicdanını gücləndirib. Professor Künxen də oxşar fikir söylədiyinə görə belə bir şübhədən yaxa qurtarmaq olmazdı ki, Diderixlə Vulkaunun şantajla onlardan qopardığı vədlər hələ yetərincə olmamışdır və onlar sonrakı şəxsi mənafelərinin naminə qoca Buka uduzmuşlar. Demokratik güruhun korrupsiyasından nə desən gözləmək olardı! Kuntseyə gəldikdə isə o, nəyin bahasına olur-olsun, özü seçilmək istəyirdi, dar ayaqda lap azadfikirlilərin yardımı ilə. Şöhrət düşkünlüyü onu korrupsiyalaşdırmışdı, hətta işi o yerə çatdırmışdı ki, körpələr evinin tikintisinə səs verəcəyinə də boyun olmuşdu! Diderix bərk hirsləndi; istənilən proletardan Hoytoyfel yüz dəfə murdardır; və o, əsas gücü vətənpərvər mövqedə olmayanlara yönəltmişdi. Əfsuslar olsun ki, Diderix açıq danışa bilmirdi, gözləri önündə tətil mənzərəsi, qəlbində qeysər Vilhelmin heykəlinin, Qauzenfeldin, bir sözlə, xəyallarının xarabalıqları ilə yağışda bir seçki məntəqəsindən o birinə qaçır, xoşniyyətli seçiciləri öz düşərgəsinə çəkirdi, tam anlayırdı ki, onların qeysərə sədaqəti hədəfə dəyməyib ən qəddar düşmənlərin xeyrinə işləyir. Bütün günü boğazına qədər çamıra bataraq axşamlar

Klapşın meyxanasında əsməcə içində pivədən və çıxacaq qərarın yaxınlaşmasından sərməst olaraq nəticələri dinləyirdi: Hoytoyfelə verilən səkkiz min səsin müqabilində, Napoleon Fişer altı mindən bir az artıq səs, Kuntse isə üç min altı yüz yetmiş iki səs toplamışdı. Hoytoyfellə Fişer arasında təkrar seçki. Diderix "Urra!" deyib qışqırdı, çünki heç nə uduzulmamışdı, əksinə, vaxt qazanılmışdı.

O, ağır addımlarla çıxıb getdi, ürəyində and içirdi ki, bundan sonra millətçiliyi xilas etmək üçün əlindən gələni əsirgəməyəcək. Tələsmək lazım idi, çünki keşiş Tsillix "Qeysər partiyası"nın tərəfdarlarına təkrar seçkilərdə Hoytoyfelə səs vermələri ilə etdiyi müraciəti tələsik bütün divarlara yapışdırmalı olacaqdı. Kuntse isə hələ də ümidini üzməmişdi ki, Hoytoyfel ona yaxşılıq edib namizədliyini geri götürəcək. Belə də korluqmu olardı?! Ertəsi gün səhər tezdən divarlara vurulmuş vərəqlərdə azadfikirlilərin riyakar bəyanatını oxumaq mümkün oldu, orada deyilirdi ki, elə onlar da millətçidirlər, çünki milli düşüncəyə sahib olmaq təkcə azlığın üstünlüyü deyil, ona görə də... Qoca Bukun bicliyi büsbütün üzə çıxmışdı; "Qeysər partiyası"nın hamısı azadfikirlilərin ağuşuna atılmasın deyə hərəkət etmək lazım idi. Aldığı enerjidən tam gərginləşərək Diderix topladığı məlumatlarla evə dönəndə qapının ağzında üzündə duvaq olan və hər şeyi biganəliklə qarşılayan Emmini gördü. "Çox sağ ol, – Diderix fikirləşdi, – hər şeyə heç də biganə ola bilmərəm. Hara getməsindən asılı olmayaraq". Oğrun-oğrun, bir az da ürkək-ürkək Emmini salamladı.

Diderix artıq Zötbirin olmadığı və Diderixin özü-özünün ağası olduğu, yalnız Allah qarşısında məsuliyyət daşıdığı və ağır nəticəli qərarlar qəbul etdiyi bürosuna çəkildi. Telefona yaxınlaşıb Qauzenfeldi istədi. Bu vaxt qapı açıldı, poçtalyon bağlamanı masanın üstünə qoydu və Diderix onun üstündə "Qauzenfeld" sözünü gördü. Yenidən dəstəyi yerinə asdı, taleyinə boyun əyirmiş kimi, başını qabağa tərpədib məktubu gözdən keçirdi. Artıq alınmışdı. Qoca sözsüz başa düşmüşdü ki, dostları Buka və onun məsləkdaşlarına daha pul verə bilməz və dar ayaqda şəxsən onu məsuliyyətə cəlb etmək imkanına malikdirlər. Diderix zərfi arxayınca açdı, amma ikinci sətirdən sonra sürətlə oxumağa başladı. Yeni bir sürpriz! Klüzinq fabriki satmaq istəyirdi. Kişi qocalmışdı və əsl xələfini Diderixin simasında görürdü!

Görəsən, nə demək idi? Diderix bir küncə çəkilib dərin düşüncələrə daldı. İlk öncə qərara gəldi ki, Vulkau artıq işə qarışıb. Hökumətin sifarişlərinə görə qoca Klüzinq qorxu içində yaşayırdı, Napoleon Fişerin hədəli tətili onun səbir kasasını daşırmışdı. "Netziger Zeitung" qəzetinin kağızının bir hissəsini Diderixə təklif edəndə çətinliklərdən yaxa qurtaracağına ümid bəslədiyi vaxtlar harada qalmışdı?! İndi isə ona Qauzenfeldi yerli-dibli təklif edirdi! "Hökmranlıq bu imiş!" – Diderix özlüyündə kəsdirdi və beynindən keçdi ki, fabriki alıb pulunu da dəyərinə görə ödəmək, sadəcə, gülməli olardı. Bunu deyib özü həqiqətən ucadan güldü... sonra gördü ki, məktubun sonunda, birbaşa imzanın altında daha nəsə, əlavəyə oxşar bir şey var, məktubun digər yerlərinə nisbətən xeyli xırda yazılmışdı, diqqət vermədən oxumaq mümkün olmadığına görə Diderix onu görməmişdi. Yazını birtəhər oxuya bildi və ağzı açıla qaldı. Birdən yerindən sıçradı.

– Gördünmü?! – kimsəsiz kontorunda sevinə-sevinə qışqırdı. – Keçdilər əlimizə! – Bundan sonra tam ciddiliklə davam etdi: – Adamın əti ürpəşir! Dibsiz bir uçurum! – Yazını yenidən oxudu, sözbəsöz, ən çox da həmin əlavəni, sonra məktubu pul seyfinə qoyub qapısını bərk-bərk bağladı. Seyfin içində Buka və onun adamlarına hazırladığı zəhər yatırdı, öz dostlarının göndərdiyi zəhər. Təkcə ona görə yox ki Klüzinq onları puldan kəsmişdi, həm də ona görə ki, onları satmışdı. Amma onlar da bunu qazanmışdı, burasını gizlətmək olmazdı; belə bir murdarlığa, yəqin, hətta Klüzinqin də ürəyi bulanardı. Lakin kimin onlara rəhmi gəlirdisə, özünü onların həmsuçlusu etmiş olurdu. Diderix özünü sınadı. "Rəhm özü cinayətdir. Hərə özü üçündür! Bu yerdə gərək heç kimə mərhəmət göstərmədən hərəkət edəsən. Gərək çibanı kəsib dəmir süpürgə ilə süpürəsən! Mən bunu sosial rifahın naminə öz öhdəmə götürürəm, millətçi bir insan kimi bunu mənə vəzifə borcum həvalə edir. Zəmanənin üzü büsbütün sərtləşib!"

Ertəsi gün axşamüstü nəhəng "Valhalla" zalında azadfikirlilərin seçki blokunun çağırdığı böyük, açıq bir iclas vardı. Qotlib Hornunqun fəal köməyi ilə Diderix Hoytoyfelin seçicilərinin üstünlük təşkil etməməsi üçün hər cür tədbir görmüşdü. Özü isə namizədin nitqinə qulaq asmağı lüzumsuz saymışdı; onun fikrincə, diskussiyanın artıq başlamalı

olduğu vaxt iclasa getdi. Dəhlizdə halı özündə olmayan Kuntse ilə rastlaşdı.

– Ehtiyatda olan ölüm mənbəyi! – Kuntse bağırdı. – Diqqətlə mənə baxın, cənab, deyin görüm, mən bu sözləri özünə dedirdən adama bənzəyirəmmi?!

Həyəcandan sözün dalını gətirə bilmədiyinə görə Künxen onu əvəz etdi.

– Kişiliyi çatırdı, Hoytoyfel bu sözləri mənə deyəydi! – o da bağırdı. – Onda Künxenin kim olduğunu bilərdi!

Diderix mayora israrla məsləhət gördü ki, rəqibini məhkəməyə versin. Lakin Kuntsenin Hoytoyfeli cilovlamaq fikri yox idi, sadəcə, onu yer üzündən silmək istəyirdi. Bu, Diderixə sərf edirdi və Kuntse bu vəziyyətdə azadfikirlilərlə deyil, daha çox ən yaramaz qiyamla mübarizə aparacağına üstünlük verdiyini bildirəndə Diderix böyük coşqu ilə öz razılığını ifadə etdi. Künxen və təzəcə gəlib çıxmış keşiş Tsillix bu barədə nə düşündüklərini dedilər. Səltənət düşmənləri və "Qeysər partiyası"! Mayor qisasla alışıb-yananda Diderixin baxışları "Satqın qorxaqlar!" deyirdi. Bu quldur dəstəsinə gərək qan ağladaq.

– Özü də elə bu axşam! – Diderix elə dəmir bir qətiyyətlə dilləndi ki, hamı yerində donub-qaldı. Fasilə edib hər birini ayrılıqda gözdən keçirdi. – Sizin azadfikirli dostlarınıza bəzi fırıldaqlarını sübut etsəm, nə deyərsiniz? – Keşiş Tsillixin rəngi qaçdı, Diderix bu dəfə də üzünü Künxenə tutdu:

– Xalqın pulunu yalandan ora-bura xərcləmək... – Künxen dik atıldı.

– Ölüm bundan yaxşıdır! – qorxu içində qışqırdı. Kuntse isə nərildədi:

– Gəlin sizi bağrıma basım! – Diderixi dartıb qolları arasına aldı. – Mən adi bir əsgərəm, – inamla dedi. – Qabıq eybəcər ola bilər, təki çəyirdək sağlam olsun. Bu cüvəllağılara əclaflıqlarını sübut edin, mayor Kuntse dostunuz olsun, elə bil, Marlatur döyüşündə onunla çiyin-çiyinə vuruşmusunuz!

Mayorun, eləcə də Diderixin gözlərində yaş gilələndi. Hər ikisinin qəlbi kimi zaldakı əhvali-ruhiyyə də tam gərginləşmişdi. İçəri girən hər yanda göy tüstüdən ibarət havaya qalxmış qolları görürdü, adda-budda hansısa sinələrdən sədalar səslənirdi: "Tfu!", "Tam doğrudur!", yaxud da "Əclaflar!" Seçki kampaniyası öz ali məqamına çatmışdı, Diderix özünü bu vaxt ortaya atdı, görünməmiş bir qəddarlıqla,

çünki qoca Bukun şəxsən özünün idarə etdiyi sədarətin lap önündə kim dayanıb nitq söyləsə yaxşı idi?! Diderixin işdən qovduğu işlər müdiri Zötbir! Qisas almaq üçün Zötbir qızışdırıcı bir nitq söyləyirdi, burada o, müəyyən sahibkarların fəhlələrə olan səmimiyyətindən danışırdı. Deyirdi ki, bu səmimiyyət onların demaqoq fəndindən başqa bir şey deyil, bununla onlar müəyyən şəxsi mənfəətləri naminə cəmiyyəti parçalamaq və müəyyən qrup seçiciləri qiyamçılar düşərgəsinə qatmaq istəyirlər. Haqqında söhbət gedən adam əvvəllər deyərdi: "Poşadan paşa olmaz!"

– Tfu, tfu! – təşkilatlanmış fəhlələr qışqırdılar. Səhnənin altına çatana qədər Diderix yan-yörəsini təmizləməli oldu.

– Murdar bir iftira! – düz Zötbirin gözünün içinə qışqırdı. – Heç utanıb-ölmürsünüz? İşdən çıxanlandan bəri deyingənlərə qoşulmusunuz.

Kuntsenin komandanlıq etdiyi "Veteranlar şürası"nın hamısı bir nəfər kimi səsləndi:

– Əclaf! Baxın, baxın! – Son iki kəlməni təşkilatlanmış fəhlələr fit verəndə və Zötbir titrəyən yumruğunu Diderixə göstərib onu tutduracağı ilə hədələyəndə veteranlar bağırdılar. Buk ayağa qalxıb zınqırovu çaldı.

Yenidən ara sakitləşib deyiləni eşitmək mümkün olanda Buk get-gedə bərkiyib qızışan həlim səslə dilləndi:

– Hörmətli həmvətənlər, ayrı-ayrı adamların təşəxxüsünü qidalandırıb bəsləməyin və onları ciddi qəbul etməyin! Nə deməkdir şəxs? Sinfin özü nədir? Söhbət xalqdan gedir, xalq da ki hamı deməkdir, təkcə ağalardan başqa. Biz əlbir olmalıyıq, biz vətəndaşlar mənim gəncliyimdə edilmiş səhvə bir daha yol verməməliyik, fəhlələr öz haqlarını tələb edən kimi nizələrin köməyinə ehtiyac duymamalıyıq. Fəhlələrə heç vaxt öz haqlarını vermək istəməməyimiz ağalara yönəltmək, bizə isə olanımızı əlimizdən almaq hökmranlığı yaratmışdır.

– Tam doğrudur!

– Hərbi xərclərin bizdən tələb olunan artımı ilə bağlı bəlkə də xalqın, bizim hamımızın əlinə yeganə və son imkan düşüb ki, camaatı tabeliklərində saxlamaq üçün bizi silahlandıran ağalara azadlığımızı sübut edək. "Poşadan paşa olmaz!" Bunu təkcə siz fəhlələrə demirlər, hakimiyyətlərinin bədəlini həmişə baha ödədiyimiz ağalar bunu hamımıza deyir!

– Tamamilə doğrudur! Əhsən! Nə bir nəfər əsgər, nə bir quruş pul!

Hamının onu təqdir etdiyi bir vaxtda qoca Buk aşağı oturdu. Qəddar mübarizəyə hazır olan və əvvəlcədən qantərə batmış Diderix zala bir daha nəzər yetirib qeysər Vilhelm heykəlinin sifarişçilərini qızışdıran Qotlib Hornunqu gördü. Keşiş Tsillix xristian gənclərin arasında dolaşırdı, "Veteranlar şurası" Kuntsenin başına toplaşmışdı. Bu vaxt Diderix qılıncını siyirdi.

– Yağı düşmən yenidən baş qaldırır! – öldürücü bir nifrətlə bağırdı. – Həşəmətli qeysərimizin istəklərinə "yox" deyən vətən xaini...

– Ho, ho! – vətən xainləri səsləndilər; lakin xoşniyyətlilərin alqış sədaları altında Diderix, səsi ona yoldaşlıq etməsə də, qışqırtısına ara vermədi. – Bir nəfər fransız generalı qisasa çağırıb.

Sədarətdən kimsə soruşdu:

– Əvəzində Berlindən nə qədər alıb?

Bu suala zalda gülüşdülər, Diderix isə qollarını havaya qolazladı. Sanki, göylərə uçmaq istəyirdi.

– Nizələrin parıldayan qorqusu! Qan və dəmir! Döyüşkən ideallar! Güclü monarxiya! – onun ləngərli kəlmələri şaqqıltı ilə bir-birinə dəyib xoşniyyətlilərin uğultusuna qarışırdı. – Güclü hakimiyyət! Demokratiya bataqlığına qarşı istinadgah!

– Sizin istinadgahın adı Vulkaudurl – sədarətdə kimsə dilləndi. Diderix ətrafına baxdı, bu sözləri deyən Hoytoyfel idi.

– Demək istəyirsiniz ki, əlahəzrətin hakimiyyəti...

– O da istinadgahdırl – Hoytoyfel dedi. Diderix barmağını ona doğru uzatdı.

– Siz qeysərə həqarət etdiniz! – görünməmiş bir kəskinliklə bağırdı. Amma kimsə onun arxasında zildən qışqırdı:

– Çuğul!

Bunu deyən Napoleon Fişer idi və yoldaşları gərlənmiş boğazları ilə həmin sözü təkrar etdilər. Hamısı sıçrayıb ayağa qalxmışdı, bədbəxtlik nişanəsi kimi Diderixi dövrəyə almışdılar.

– Yenidən provokatorluq edir! Birini də qoduqluğa atdırıb, digərini də saldırmaq istəyir! Rədd ol!

Diderixin yaxasından yapışdılar. Qorxudan üz-gözü əyilərək o, dəmir əllərin sıxdığı boğazını sədrə doğru çevirdi, boğula-boğula kömək dilədi. Qoca Buk həmin köməyi ondan əsirgəmədi, zəngini xeyli çaldı, hətta bir-iki gənci göndərdi ki, Diderixi düşmənlərinin əlindən alsınlar. Diderix

təzəcə güclə tərpənən kimi barmağını qoca Buka tuşladı.

– Demokratik korrupsiya! – hirsindən yerində oynayaraq bağırdı. – Bunu ona sübut edəcəyəm!

– Əhsən! Qoyun danışsın! – bunları deyib millətçilər hərəkətə gəldilər. Masaların üstündən aşıb qiyamçılarla göz-gözə dayandılar. Az qaldılar əlbəyaxa döyüşə girişsinlər: elə bu vaxt polis leytenantı yuxanda dəbilqəsini əlinə götürdü ki, onunla üzünü örtsün; böhranlı an idi, bu vaxt sədarətdən bir əmr eşidildi:

– Sakit! Qoyun danışsın.

Demək olar, ara sakitləşdi. İndiyə qədər mövcud olanlardan daha güclü bir hirs eşitdilər. Sədarətdəki masasının arxasında baş qaldırıb oturmuş qoca Buk daha həmin o ləyaqətli ağsaqqal deyildi, qarşısındakı gücün müqabilində, sanki, incəlmiş nifrətdən, elə bil, rəngi qaçmışdı və o, Diderixə nəzər saldı: nəfəsi yerindəcə durdu.

– Qoyun danışsın! – qoca Buk təkrarladı. – Hökm çıxarılmazdan qabaq satqınlara da söz verilir. Millətə satqınlıq edənlərin siması budur. Mənim nəslimin mübarizə apardığı, həlak olduğu, zindanlara düşdüyü, dar ağaclarından asıldığı həmin zamanlardan bəri onlar yalnız zahirən dəyişmişlər.

– Ha-ha, – Qotlib Hornunq düşünülmüş rişxəndlə dilləndi. Bədbəxtlikdən, o, qoldan güclü bir fəhlənin yaxınlığında oturmuşdu və həmin fəhlə yumruğunu ona doğru elə tuşladı ki, zərbə Hornunqa dəyməmiş o, kətili ilə birlikdə yerə aşırıldı.

– Hələ o vaxt, – qoca Buk sözünə davam etdi, – elələri vardı ki, ləyaqət əvəzinə öz mənfəətlərini güdürdülər və varlandıqca onlara heç bir hakimiyyət alçaldıcı görünmürdü. Köləçilik materializmi, hər cür zülmkarlığın bəhrəsi və üsulu – bizim payımıza düşən bu idi, siz də, hörmətli həmvətənlər...

Qoca qollarını geniş açdı, özünü vicdanının son harayına topladı.

– Siz də, hörmətli həmvətənlər, onun tərəfindən satılmaq və onun qənimətinə çevrilmək təhlükəsi ilə üz-üzə dayanmısınız! Qoyun danışsın bu adam.

– Xeyr.

– Qoyun danışsın. Sonra ondan soruşarsınız ki, həyasızlıq edib milli adlandırdığı düşüncə tərzinin nağd pulla dəyəri nə qədərdir. Soruşun görək, evini kimə, hansı məqsədlə və hansı mənfəətlə satıb.

– Vulkauya!

Səs səhnədən gəldi, lakin zal onu eşitdi. Arxasında hədəli yumruqları hiss edən Diderix səhnənin pillələrini heç də öz xoşuna qalxmadı. Orada məsləhət axtarırmış kimi ətrafına boylandı: qoca Buk əllərini dizinin üstündə yumub hərəkətsiz oturmuşdu və Diderixi gözdən qoymurdu; Hoytoyfel, Kon, sədarətdə oturan cənabların hamısı üzlərindəki soyuq hərisliklə Diderixin çöküşünü gözləyirdi. Zal isə hər tərəfdən ona doğru "Vulkau!", "Vulkau!" qışqırırdı. Diderix ona böhtan atdıqlarını dedi, ürəyi yerindən uçdu, bir anlığa gözlərini belə bir ümidlə yumdu ki, indicə huşunu itirib yerə yıxılacaq, bununla da məsələyə son qoyulacaq. Amma yıxılmadı və daha başqa şey baş vermədiyinə görə canına möhkəm bir cəsarət gəldi. Silahına əmin olub əlini qoyun cibinə saldı və döyüş sevincindən alışıb-yanaraq düşmənini, axır ki, atalıq qayğıkeşliyi maskasını itirib nifrətini gizlətməyən həmin o məkrli qocanı süzdü. Diderix gözləri ilə onu yedi, hər iki yumruğunu onun qarşısında masaya vurdu. Sonra mətin addımlarla camaatın qarşısına yeridi.

– Kimsə nəsə qazanmaq istəyirmi? – carçı səsi ilə çaxnaşmanın içinə bağırdı və araya sakitlik çökdü, sanki, sehrli bir söz deyilmişdi. – Hər kəs qazana bilər! – Səsini azaltmadan bir daha nərildədi. – Evimi satarkən nə qədər qazandığımı sübut edən hər kəsə həmin məbləğ qədər pul verirəm!

Deyəsən, buna heç kəs hazır deyildi. İlk öncə sifarişçilər "Əhsən!" qışqırdılar, sonra xristianlarla veteranlar onlara qoşuldu, amma tam ürəklə yox, çünki yenidən "Vulkau!" deyə bağırışdılar, üstəlik də, masaların üstünə döyəclənən pivə parçlarının səsi bu bağırtılara qarışdı. Diderix anladı ki, bu, təkcə ona yox, həm də yuxarı dairələrə yönəli əvvəlcədən hazırlanmış bir oyundur. Narahatlıqla ətrafına baxdı və polis məmuru, həqiqətən də, dəbilqəsindən yapışdı. Diderix əli ilə ona işarə etdi ki, özü hər şeyin öhdəsindən gələr, odur ki nərildəməyinə davam etdi.

– Vulkau yox, tamam başqa adamlar! Azadfikirlilərin körpələr evi! Bunun üçün gərək evimi verəydim, bunu israrla təklif edənlər vardı, and da içə bilərəm. Mən millətçi bir adam kimi şəhəri aldatmaq və vicdansız magistrat üzvü ilə qarəti bölüşmək ehtimalına qarşı ciddi mübarizə aparmışam!

– Yalan deyirsiniz! – qoca Buk yana-yana səsini qaldırdı. Lakin özünün haqlı olduğunu və yüksək mənəvi missiyasını

tam hiss edən Diderixin alovu onunkundan da uca qalxdı. Əlini qoyun cibinə atdı, onun üstünə "Yalançı! Kələkbaz!" sözləri ilə bağıran minbaşlı əjdahanın qarşısında qorxmadan əlindəki sənədi yellətdi.

– Bu da sübut! – bağırıb insanlar onun səsini eşidənə qədər kağızı havada saxladı. – Mənimlə alınmadı, amma Qauzenfelddə. Elədir, əziz həmvətənlər! Qauzenfelddə... Soruşursunuz ki, necə? Səbir edin. Azadfikirlilərdən iki nəfər sahibkarın yanında olmuş və müəyyən bir ərazinin satış haqqının onlara verilməsini tələb etmişdir, təbii ki, körpələr evi oraya köçəcəyi təqdirdə.

– Adlarını! Adlarını deyin!

Bu sonuncu addıma da hazır olan Diderix sinəsinə döyəclədi. Klüzinq hər şeyi ona bildirmişdi, təkcə adlardan başqa. Diderix gözlərini fırlayıb sədarətdəki kişilərə baxdı; birinin rəngi qaçmışdı. "Qorxanın oğlu olmaz, deyiblər", – fikirləşib bağırdı:

– Onlardan biri univermağın sahibi cənab Kondur!

Bunu deyib geriyə çəkildi. Üzündə vəzifəsini yerinə yetirmiş adamın ifadəsi vardı. Aşağıda onu Kuntse qarşıladı, özünü unudaraq onun sağ və sol üzündən öpdü, millətçilər də bunu alqışlarla qarşıladılar. Digərləri isə qışqırırdı:

– Sübut! Uydurmadır! Qoyun görək, Kon özü nə deyir!

Bunu hamı istəyirdi, Kon həmin tələblərdən canını qurtara bilmədi. Donub-qalmış qoca Buk onu süzdü, yanaqları aşkarca səyriyirdi; sonra özbaşına ona söz verdi. Hoytoyfelin dümsüyünü yeyən Kon komitənin uzun masasının arxasından çəkinə-çəkinə qabağa çıxdı, ayaqlarını sürüyüb ağzını açmamış xeyli pis təsir bağışladı. Üzr istəyirmiş kimi gülümsədi.

– Cənablar, yəqin, siz öncəki natiqin dediklərinə inanmayacaqsınız, – elə astadan dilləndi ki, demək olar, heç kim onu başa düşmədi. Bununla belə, Kona elə gəldi ki, həddən artıq sərt danışıb. – Məndən öncəki natiqi yalançılıqda suçlandırmaq istəməzdim, amma hər halda, o cür olmayıb.

– Aha! Boynuna alır! – Qəfildən elə bir çaxnaşma düşdü ki, heç nəyə hazır olmayan Kon bir addım geriyə sıçradı. Zal qaynayırdı. Yumruqlar havada oynayırdı. Artıq orada-burada rəqiblər bir-birinin üstünə atılırdı.

– Urra! – Künxen qıyya çəkib yellənən saçları ilə sıraların arasında şütüdü, yumruqlarını havada oynadıb kütləvi qırğına səsləyərək... Sədarətdə də hamı ayağa qalxmışdı.

Bircə polis leytenantından başqa. Qoca Buk sədrin oturduğu kürsünü tərk etmişdi və vicdanının son harayını əbəs yerə yönəltdiyi xalq ondan üz döndərmişdi, tək-tənha bir kənara çəkilib gözlərini harasa zilləmişdi, burada onun ağladığını heç kim görmürdü. Hoytoyfel kətilindən tərpənməyən polis leytenantının üstünə düşdü, amma belə bir cavab aldı ki, haçan işə qanşacağına yalnız məmur özü qərar verir. Bu yalnız azadfikirlilərin vəziyyəti pisləşəndə baş vermir! Həmin cavabdan sonra Hoytoyfel masaya yaxınlaşıb zəngi əlinə aldı. Zənglə bərabər həm də qışqırdı:

– İkinci ad! – Səhnədəkilərin hamısı ona qoşulub qışqırdığından, axır ki, dedikləri eşidildi və Hoytoyfel sözünə davam edəsi oldu.

– Qauzenfelddə olan ikinci adam əyalət məhkəməsinin üzvü cənab Külemandır. Bəli, bəli! Külemanın özü. O Küleman ki, onun qoyduğu mirasdan körpələr evi tikilməlidir. Kimsə demək istəyirmi ki, Küleman özü öz mirasını oğurlayır? Onda buyursun!

Hoytoyfel çiyinlərini çəkdi, buna da arada gülən tapıldı. Gülüş uzun sürmədi, ehtiraslar təzədən coşdu.

– Sübut! Qoy Küleman özü danışsın! Oğrular!

Hoytoyfel dedi ki, Küleman ağır xəstədir, yanına adam göndərəcəklər, elə indi zəng edirlər.

– Bəlaya bax! – Kuntse dostu Diderixə pıçıldadı. – Əgər Küleman olubsa, işimiz bitdi, yır-yığışımızı edə bilərik.

– Hələ ki yox! – Diderix gicgici cəsurluqla dilləndi. Keşiş Tsillix isə öz tərəfindən bütün ümidini Allahın barmağına bağlamışdı. Özünün gicgici cəsurluğu ilə Diderix sözünə davam etdi: – Heç ehtiyacımız da yoxdur! – Bunu deyib ona şübhə edənlərin birinin üstünə düşdü. Xoşməramlılan o, həlledici mövqe tutmağa səslədi, elədir, sosial-demokratların nifrətini burjua korrupsiyasına yönəltmək üçün o, sosial-demokratların əlini sıxdı və hər yerdə Klüzinqin məktubunu adamlann gözünə soxdu. Əlinin arxası ilə kağızın üstünə elə bərkdən çırpdı ki, onu heç kim oxuya bilmədi və özü səsini qaldırdı.

– Külemanın adı burada var? Bukun adı var! Külemanın dili söz tutsa, etiraf edəcək ki, o olmayıb. Buk olub!

Bununla yanaşı, o, səhnəni gözdən qoymadı, buraya qəribə sakitlik çökmüşdü. Komitənin üzvləri bir-birinə qanşmışdı, amma onlar yalnız pıçıldaşırdılar. Qoca Buk daha gözə dəymirdi. “Nə olmuşdu?” Zala da sakitlik çökmüşdü, amma niyə-

sini bilən yox idi. Birdən pıçapıç düşdü: "Deyirlər ki, Küleman ölüb". Diderix bunu eşitməkdən çox, duydu. Birdən danışmağına və özünü üzməyinə ara verdi. Gərginlikdən üz-gözü əyildi. Kimsə ondan nəsə soruşanda cavab vermədi, ətrafında səslərin mənasız qarışığını eşitdi və harada olduğunu özü də dəqiq bilmədi. Bu vaxt Qotlib Homunq gəlib dedi:

– Onun öldüyünü bir Allah bilir. Yuxarıdaydım, zəng etmişdilər. İndi, deyəsən, doğrudan da, ölüb.

– Özü də lap vaxtında, – deyib Diderix ətrafına boylandı, onu heyrət bürüdü, sanki, yuxudan ayılmışdı.

– Allahın barmağı yenə işə qarışdı, – keşiş Tsillix fikrini bildirdi və Diderix qət etdi ki, bu barmağa hörmətlə yanaşmaq lazımdır. Əgər o, talenin gedişini ayrı səmtə döndərirsə, necə?.. Zaldakı tərəflər dağılışdı; ölümün siyasətə müdaxiləsi bu tərəfləri yenidən insana çevirdi; onlar xısın-xısın danışır, çəkilib gedirdilər. Diderix bayıra çıxanda xəbər tutdu ki, qoca Buk huşunu itirib.

***

"Netziger Zeitung" "faciəli sonluqla bitən seçkiqabağı iclas" barədə məlumatla yüksək xidmətləri olmuş vətəndaş Küleman haqqında başsağlığı vermişdi. Oxucularun gözü önündə rəhmətliyin pak obrazı canlandırılmışdı, izahat tələb edən hadisələr baş verirdisə... Sonrası Diderixlə Napoleon Fişer arasında ikilikdə aparılan müzakirədən sonra baş vermişdi. Hələ seçkidən bir gün əvvəl "Qeysər partiyası" iclas çağırmış və həmin iclasa rəqiblər də qatılmışdı. Diderix çıxış edərək alovlu kəlmələrlə demokratik korrupsiyanı və onun Netsiqdəki başçısını qamçılamışdı, bu başçının adının tutulması qeysərə sadiq olan hər kəsin müqəddəs vəzifəsi sayılsa da, Diderix həmin adı dilinə gətirməkdən vaz keçmişdi.

– Zira, möhtərəm cənablar, yüksək duyğu sinəmi elə coşdurur ki, onun ən təhlükəli düşməninin simasını qoparıb atanda və onun da yalnız sizlərə xidmət etmək istəyini sübuta yetirəndə həşəmətli qeysərimiz üçün özümü büsbütün borclu sayıram. – Bu yerdə ağlına nəsə gəldi, heç özü də bilmədi, bu, xatirə idi, yoxsa... – Əlahəzrət müdrik bir söz söyləmişdir: "Mən Afrikadakı müstəmləkələrimin hamısını Oyqen Rixterin həbs əmrinə dəyişərdim!" Mən isə, möhtərəm cənablar, Rixterin ən yaxın dostlarını əlahəzrətin ixtiyarına tapşırıram! – Coşqunun yayılmasına şərait yaratdı; sonra

nisbətən boğuq bir səslə: – Ona görə də, möhtərəm cənablar, yetərincə əsasım var güman edim ki, yüksək, lap yüksək dairələrdə "Qeysər partiyası"ndan nələri gözləyirlər. – Əlini qoyun cibinə atdı, sanki, bu dəfə də orada bir qərar yatırdı və birdən var gücü ilə: – Kim səsini azadfikirlilərə verirsə, qeysərə sadiq deyil. – İclas bunu təqdir etdiyindən zalda olan Napoleon Fişer belə münasibətin qaçılmaz nəticələrini göstərməyə cəhd etdi. Diderix həmin an onun sözünü ağzında qoydu. Onun fikrincə, millətçi seçicilər ürəkləri ağrıya-ağrıya vəzifələrini yerinə yetirib nisbətən az pisi seçəcəklər. – Mən birinci adamam ki, qiyamla istənilən bağlaşmanı yaxına buraxmıram! – Napoleon Fişer büzüşüb gözdən itənə qədər o, əlini natiq kürsüsünə vurdu. Diderixin hirsinin yalan olmadığını seçki gününün səhərisi sosial-demokratların "Volkstimme" qəzetində görmək olardı. Həmin qəzet Diderixin qoca Buk haqqında dediklərinin hamısını rişxəndlə onun özünə qarşı yönəltmişdi, hətta adını da yazmışdı.

– Heslinqin işi bitdi, – seçicilər deyirdi, – çünki indi Buk onu məhkəməyə verəcək.

Amma çoxları ayrı fikirdə idi:

– Bukun işi bitdi, çünki Heslinq çox şey bilir.

Hətta azadfikirlilər də, təbii ki, ağılları başlarında olanlar, bildirirdilər ki, ehtiyatlı olmaq vaxtıdır. Zarafatı xoşlamayan millətçilər haçansa fikirləşirdilər ki, sosial-demokratlara səs vermək lazımdır. Sosial-demokrat seçilərdisə, burada onların da iştiraki nəzərə alınardı, əks təqdirdə fəhlələr onu boykot edərdilər. Amma qərar günortadan sonra saat üçdə çıxdı. Qeysər-Vilhelm küçəsində həyəcan şeypuru çalındı, hamı haranın yandığını görmək üçün özünü pəncərəyə və dükan qapılarına saldı. Amma həyəcan siqnalı yanğına görə deyildi, nizamlı addımlarla yeriyən "Veteranlar şurası"na görəydi. Şuranın bayrağı onun keçdiyi şərəfli yoldan xəbər verirdi. Dəstəyə komandirlik edən Künxenin başında şiş bir dəbilqə vardı və o, gedə-gedə qılıncı ilə havanı yarıb-keçirdi. Onların cərgəsinə qoşulub addımlayan Diderix sevindi ki, hər şey nizamla cərgəyə düzülüb, verilən komandaya tabe olaraq avtomatik şəkildə irəliləyir. Yalnız ayağı yerə döymək lazım idi və hökmranlığın taktlı addımları altında qoca Bukun əzilib suyu çıxarılmışdı!... Küçənin o başında təzə bir bayraq gətirdilər, təntənəli musiqi sədaları altında fəxarətli bir "Urra" ilə onu qəbul etdilər. Bu insan axını vətənpərvərlərin cidd-

cəhdləri ilə görünməmiş dərəcədə uzanaraq Klapşın meyxanasına çatdı. Burada dəstələrə bölündü və Künxen əmr etdi:

– Seçkilərə!

Keşiş Tsillix başda olmaqla seçki komissiyası bayramsayağı bəzənib dəhlizdə gözləyirdi. Künxen döyüş əmri verirmiş kimi bağırdı:

– Qalxın, dostlar, seçkilərə! Biz Fişeri seçirik!

Bunun ardınca təntənəli musiqi sədaları altında sağ cinahdan seçki meyxanasına soxuldular. "Veteranlar şurası"nın ardınca da bütün dəstə içəri girdi. Bu cür təmtərağa hazır olmayan Klapşın pivəsi tükənmişdi. Axırda millətçilər hər şeyi yoluna qoymağa çalışanda "Urra" sədaları altında vali doktor Şeffelvays da gəldi. Camaatın gözü qabağında o, qırmızı bülleteni əlinə aldı və kabinetdən çıxanda onun sevincdən dingildədiyini gördülər.

– Axır ki! – deyib Şeffelvays Diderixin əlini sıxdı. – Bu gün əjdahaya qalib gəldik.

Diderix xeyli sərt cavab verdi:

– Sizin, cənab vali, yanınız hələ də onun ağzındadır. İndi gizləndiyi yerə sizi də aparmasa yaxşıdır!

Doktor Şeffelvaysın rəngi ağaranda yenidən "Urra!" sədası qopdu. Bu dəfə də Vulkau. Fişer üçün beş mindən bir az artıq səs! Hoytoyfel üç min səslə millətçilər tərəfindən sıxışdırılıb çıxarılmışdı və reyxstaqa sosial-demokrat seçilmişdi. "Netziger Zeitung" "Qeysər partiyası"nın qələbəsindən yazırdı, məhz azadfikirlilərin istinadgahlarının alt-üst olması üçün bu partiyaya minnətdar olmaq lazım gəlirdi, Notqroşen bununla nə böyük məmnunluq, nə də səsli-küylü etiraz oyada bilmişdi. Mövcud faktı hamı təbii sayır, lakin ona biganə münasibət bəsləyirdi. Seçki dövrünün hay-harayından sonra təzədən pul qazanmağın dövrü başlamışdı. Vətəndaş müharibəsinin mərkəzində duran qeysər Vilhelm heykəli daha heç kimi narahat etmirdi. Qoca Küleman ümumi məqsədlər üçün şəhərə altı yüz min mark vəsiyyət etmişdi, nə xoş bir məram! Körpələr evi, yaxud qeysər Vilhelm heykəli, sanki, Qotlib Homunqdan süngər, yaxud diş fırçası istəyirdin. Şəhər deputatlarının həlledici iclasında məlum oldu ki, sosial-demokratlar heykəlin tərəfdarlarıdır, nə gözəl! Kimsə elə indicə bir komitə yaradıb yerli hökumət başçısı fon Vulkaunu həmin komitəyə fəxri sədr seçməyi təklif etdi. Məğlubiyyətinin acılığını unutmamış Hoytoyfel bu yerdə ayağa qal-

xıb bildirdi ki, hansısa torpaq sahəsi alverindən qıraqda qalmayan yerli hökumət başçısı heykəlin qoyulacağı torpaq sahəsinin müəyyənləşməsində öz neytrallığını saxlaya biləcəkmi. Bir balaca gülümsəyib bir-birinə göz etdilər; canından soyuq gizilti keçən Diderix gözlədi görsün dava-qalmaqal qopacaqmı. Səsini içinə salıb canındakı gizli gizilti ilə gözlədi, kiminsə yerindən oynatmaq istədiyi hakimiyyətə əl qatanda keçirilən hisslər kimi. Nə etmək istədiyini heç özü də deyə bilməzdi. Başqalarından səs-soraq çıxmadığına görə ayağa durub şax dayandı və həddini aşmadan özünün bir neçə dəfə təkzib etdiyi saxtakarlığa qarşı etirazını bildirdi. Onun fikrincə, qarşı tərəf Diderixin boynuna yük olmuş bu murdar söz-söhbətləri indiyə qədər, ən azı, həqiqətəuyğun saymayıb.

– Özünüzü ələ alın, – Hoytoyfel dilləndi, – tezliklə hər şeyi öyrənərsiniz. Şikayət artıq verilmişdir.

Bu, iştirakçılar arasında canlanma yaratdı. Hoytoyfel etiraf edəndə ki onun dostu Buk şəhərin deputatı doktor Heslinqdən yox, "Volksstlmme"dən şikayət verib, təsir xeyli zəiflədi.

"Heslinq çox şey bilir", – iclasdakılar qətiyyətlə bildirdilər və fəxri sədrlik rütbəsinə yüksəlmiş Vulkaunun yanında Diderix qeysər Vilhelm heykəli komitəsinin sədri olmuşdu. Magistratda həmin qərarlar vali doktor Şeffelvaysın simasında özünə isti bir tərəfdaş qazanmışdı və qoca Buk özünün yoxluğu ilə nəzər çəksə də, həmin qərarlar keçərli olmuşdur. Əgər Buk özü öz işinə qiymət vermirsə, biz neyləyək?l Hoytoyfel dilləndi:

– Mane ola bilmədiyi bu biabırçılığa qoy şəxsən özü tamaşa etsinl

Amma bununla Hoytoyfel yalnız özünə xətər yetirdi. Qoca Buk qısa zaman ərzində iki məğlubiyyətə düçar olduğuna görə əvvəlcədən görmək olurdu ki, "Volksstimme"yə qarşı məhkəmə prosesi onun üçüncü məğlubiyyəti olacaq. Məhkəmə qarşısında verəcəyi ifadə hazırkı vəziyyətə əvvəlcədən uyğun gəlirdi. Ağıllı düşünənlər deyirdilər ki, Heslinq çox-çox uzaqlara gedib. Hamının çoxdan tanıdığı qoca Buk nə fırıldaqçı, nə də tülüngü idi. Bəlkə də, onu ehtiyatsızlıqda günahlandırmaq olardı, xüsusilə indi qardaşının günahlarının altını çəkdiyi və su özünün boğazına çıxdığı bir məqamda. Torpaq sahəsinə görə o, doğrudan da, Konla birlikdə Klüzinqin yanında olmuşdumu? Gözəl alver idi, kaş bircə el

içində faş olmayaydı! Niyə məhz Küleman dostunun sərbəstcə and içdiyi məqamda kəlləsini yerə qoymalı idi?! Bu qədər bəxtsizlik nədənsə xəbər vermirdimi?! "Netziger Zeitung"un Qauzenfeldə girişi-çıxışı olan meneceri cənab Tits aydın şəkildə demişdi ki, çıxdaş insanları müdafiə edən kəs özünə qarşı cinayət etmiş olur. Tits ona da diqqət çəkmişdi ki, bir kəlməsi ilə bütün işi yoluna qoya biləcək qoca Klüzinq danışmaqdan ehtiyat edir. Kişi xəstə idi, yalnız onun xatirinə sövdələşmə qeyri-müəyyən müddətə təxirə salınmalı oldu.

Amma fabrikini satmaqda ona mane olan tapılmadı. Bu, əsl yenilik idi, "Netziger Zeitung" üstüörtülü şəkildə bildirirdi ki, bunlar "böyük, Netsiqin iqtisadi həyatı üçün əhəmiyyətli bir idarədə həlledici dəyişikliklər idi". Klüzinq Berlin konsorsiumlarının birinə yol tapmışdı. Diderixdən soruşanda ki bu işə o niyə girişməyib, Klüzinqin əvvəllər hər kəs kimi fabriki almağı ona təklif edən məktubunu göstərdi. Sonra da əlavə etdi:

– Bir daha heç vaxt geri dönməyəcək şərtlər altında. Əfsuslar ki, mən Eşvaynerdəki yeznəmə bağlı adamam, heç onu da bilmirəm ki, Netsiqdə qalacağam, ya yox.

Lakin peşəkar kimi Diderix Notqroşenin sorğularına cavab olaraq qəzetdə bildirirdi ki, plan gerçəklikdən çox vaxt dala qalır. Onun təbirincə, Qauzenfeld, həqiqətən də, qızıl mədənidir; birjaya buraxılmış aksiyaların alınmasını yalnız can-dildən təklif etmək olar. Aksiyalara Netsiqdə həqiqətən böyük ehtiyac vardı. Diderixin verdiyi hökmün şəxsi maraqdan necə də asılı olmadığı və onun işgüzarlıqla deyildiyi qoca Buk pul axtaranda ortaya çıxdı. Zira Buk buraya qədər yuvarlanmışdı; ailəsi və ictimai mənafeyə bağlılığı onu o dərəcəyə endirmişdi ki, hətta dostları da ondan üz döndərmişdi. Bu vaxt səhnəyə Diderix çıxdı. Qocanın Flayşhauerqrubedəki evinə o, ikinci ipotekanı verdi.

– Onun buna bərk ehtiyacı vardı, – hər dəfə Diderix bu barədə danışanda belə deyərdi. – Vəziyyət onu gör necə məcbur etmişdi ki, məndən, özünün qəddar siyasi rəqibindən pul götürmüşdü! Kim əvvəllər bunu fikirləşərdi?!

Və Diderix taleyin dönüklüyü barədə düşündü... Onu da əlavə etdi ki, ev ona nəsib olarsa, həddən artıq baha başa gələcək. Təbii ki, tezliklə öz evindən çıxmalı olacaq. O da məlum oldu ki, Diderix Qauzenfeldə o qədər də bel bağlamır...

– Lakin deyəsən, – Diderix bildirdi, – qoca uğurlu ulduz altında doğulmayıb, kim bilir, məhkəməsi necə keçəcək, çünki mən onun siyasi cəhətdən kürəyini yerə vurmalıyam, göstərmək istəyəcəyəm ki... özünüz bilirsiniz. – Bilirdilər və Diderixə dəqiq davranışından yana uğurlar diləyirdilər. Diderix razılaşmadı. – Məndə ideallann olmamasını mənə irad tutub. Bu iftiranı uzun müddət daşıya bilmərəm. – Səsində kişilik qürurunun həyəcanı duyuldu.

Hərənin öz taleyi; adam görəndə ki bəziləri keçdikləri yolda çətinliklərlə üzləşir, sevinc içərisində dərk edir ki, onun yolu hamardır. Diderix bunu hərbi büdcəyə etiraz etmək üçün Napoleon Fişerin Berlinə yola düşdüyü gün anladı. "Volksstimme" kütləvi nümayişin olacağından xəbər verirdi, vağzalı polislər dörd bir yandan sarmışdılar; millətçi insanın vəzifəsi burada olmaqdan ibarət idi. Yolda Diderix Yadaszonla rastlaşdı. Onlar bir-birini soyuq münasibətlərin yaratdığı formada salamladılar.

– Siz də bu həngaməyə baxmaq istəyirsiniz? – Diderix soruşdu.

– İstirahətə gedirəm, Parisə. – Yadaszonun əynində, doğurdan da, dizşalvar vardı. O, əlavə etdi: – Burada baş verən siyasi dəlilikdən yaxa qurtarmaq üçün.

Diderix uğursuzluğa düçar olmuş insanın gileyini səbirlə dinləməyi qərara aldı.

– Əslində, fikirləşirdilər ki, – dedi, – siz məsələni ciddiləşdirəcəksiniz.

– Mən? Necə bəyəm?

– Froylayn Tsillix xalasının yanına gedib.

– Xalaya baxl – Yadaszon irişdi. – Dedilər, siz də inandınız?

– Məni oyuna qatmayın. – Diderixin üzünə razılaşma ifadəsi qondu. – Amma necə xalaya bax? Ketxen hara gedib?

– Əkilib, – Yadaszon dedi. Diderix ayaq saxlayıb fısıldadı. Ketxen Tsillix əkilib! Görəsən, indi hansı macəraya qoşulub?! Yadaszon dünyəvi insanlara xas bir tonla dilləndi:

– Hə də, Berlinə. Biçarə valideynlərin də heç nədən xəbəri yoxdur. Daha ona acığım tutmur, siz ki bilirsiniz, bunun bir sonu olmalıydı, ya yox?!

– Elə, ya belə, – özünü ələ almış Diderix onun sözünü tamamladı.

– Yaxşısı budur, elə, nəinki belə, – Yadaszon dedi, Dide-

rix də bunun müqabilində yaxın adamına ürək qızdırırmış kimi səsini endirdi:

– Sizə indi deyə bilərəm ki, məndə həmişə o qızı əlinizdə saxlaya bilməyəcəyiniz təsiri yaranmışdı.

Lakin Yadaszon öz etirazını bildirdi. Bu söz onun şəstinə toxunmuşdu.

– Nə demək istəyirsiniz? Bu məsləhəti ona mən özüm vermişəm. Görərsiniz, Berlində özünə əməllicə karyera düzəldəcək.

– Buna şübhəm yoxdur. – Diderix göz basdı. – Onun bacarığından xəbərim var... Hər halda, siz məni sadəlövh hesab eləmisiniz. – Yadaszonun etirazını heç vecinə də almadı. – Məni sadəlövh bilmisiniz. Amma elə həmin vaxt mən sizin içinizi öyrənmişəm, bunu indi etiraf edə bilərəm.

Getdikcə narahatlıq keçirən Yadaszona Ketxenlə sevgi otağında keçirdiyi macəradan danışdı, həqiqətdə baş tutmayan məsələlərdən isə tam açıqlığı ilə söz açdı. Qəlbini sərinlədən intiqamın təbəssümü ilə o, şübhələr içərisində qovşurulan Yadaszona baxdı, Yadaszon düşünürdü ki, namus məsələsi burada yerinə düşərdimi. Nəhayət, Diderixin kürəyinə döyəcləməyə qərar verdi və hər ikisi özü üçün lazımi nəticəni çıxartdı.

– Bu məsələ yalnız öz aramızda qalacaq... Elə bir qız barədə də gərək ədalətlə hökm verəsən, çünki yaxşısını haradan tapasan. Ünvanınımı? Təkcə sizə verirəm. Adamın Berlinə yolu düşəndə harada qalacağını dəqiq bilər.

– Bunun öz gözəlliyi də var, – Diderix öz içinə boylanıb dedi; bu vaxt Yadaszon ayın-oyununu gözdən keçirirdi, Diderix onunla xudahafizləşdi. – Təəssüf ki, siyasət bizi bir-birimizdən ayırdı. Amma şəxsi həyatda, Allaha şükür ki, bir-birimizi tapa bilirik. Parisdə sizə xoş günlər arzulayıram.

– Xoş günümə getmirəm. – Yadaszon arxaya çevrildi, üzünə elə bir ifadə qonmuşdu, elə bil, kiminsə kürəyini yerə qoymaq niyyətində idi. Diderixin narahat sifətini görəndə geri qayıtdı. – Bir aydan sonra, – özünü toplayıb qəribə bir ciddiliklə dedi, – özünüz görəcəksiniz. Camaatı buna hazırlasanız, bəlkə, daha yaxşı olardı.

Istəyinin əleyhinə olaraq Diderix soruşdu:

– Niyyətiniz nədir?

Yadaszon özünü fəda etməyə hazır olan insanın təbəssümü ilə cavab verdi:

– Fikrim var ki, zahiri görkəmimi milli əqidəmlə uzlaşdırım.

Diderix bu sözlərin mənasını anlayanda yalnız ehtiramlı bir təzim edə bildi; Yadaszon getdi. Vağzala daxil olanda qulaqları axşam şəfəqində bir cüt kilsə pəncərəsi kimi arxadan bir dəfə də şəlpələndi, axırıncı dəfə!

Vağzala doğru bir dəstə kişi gəlirdi, aralarında bir bayraq dalğalandı. Bir neçə mühafizə polisi ayaqlarını sürüyə-sürüyə pillələri aşağı enib dəstənin qabağına çıxdı. Dəstə həmin an "İnternasional"ı oxumağa başladı. Onların basqısı hökümət nümayəndələri tərəfindən uğurla geri oturduldu. Çoxları sivişib aradan çıxa bildi və əllə tikilmiş səyahət çantasını, az qala, yerlə sürüyən uzunqol Napoleon Fişerin ətrafına yığışdı. Qiyam ideyası xatirinə iyul günəşinin altında çəkilən zəhmətdən sonra onlar bufetdə bir balaca kəmərlərinin altını bərkitdi. Qatar, onsuz da, gecikdiyinə görə Napoleon Fişer perronda camaata müraciət etməyə çalışdı; lakin polis nəfəri deputata mane oldu. Napoleon əldə tikilmiş çantasını yerə qoyub dişlərini bir-birinə sürtdü. Diderix onu yaxşı tanıdığından başa düşdü ki, iqtidara qarşı müqavimət göstərmək fikrindədir. Xoşbəxtlikdən, qatar gəldi və yalnız indi Diderix enlikürək bir kişiyə diqqət yetirdi, həmin kişinin böyür-başında fırlandıqca o, üzünü yana çevirirdi. Əlində iri bir gül dəstəsi tutmuşdu və gələn qatara baxırdı. Diderix bu kürəyi, axır ki, tanıdı... Yoxsa şeytan əməli idi?! Yudit Lauer kupedən bu tərəfə salam göndərir, əri də ona qatardan düşməyə kömək edirdi, elədir, gül dəstəsini ona verdi, Yudit də özünəxas ciddi təbəssümlə onu qəbul etdi. Hər ikisi çıxışa doğru üz tutanda Diderix fısıldaya-fısıldaya yollarının üstündən çəkildi. Şeytan əməlinə bənzəmirdi, sadəcə, Lauerin dustaqlıq müddəti bitmişdi və o təzədən azadlığa çıxmışdı. Yox, qorxulu heç nə gözləmək olmazdı, amma yenə də onu azadlıqda görməyə gərək alışaydı... Arvadını bir dəstə güllə qarşılayır. Məgər heç nədən xəbəri yoxdur? Axı düşünməyə kifayət qədər vaxtı vardı. Lauer əməlli-başlı oturandan sonra yanına qayıdan arvadı! Elə məsələlər var ki, abırı özündə olan insan onları heç xəyalına da gətirmir. Hər halda, Diderix məsələlərə başqalarından daha yaxın deyildi; o vaxt o yalnız öz vəzifəsini yerinə yetirmişdi. "Hamı da mənim kimi eyni xoşagəlməz hissləri keçirir. Hər yerdə ona başa salacaqlar ki, yaxşısı budur, qaxılıb evində otursun... Zira hərə öz yorğanına görə ayaq uzadır".

Ketxen Tsillix bunu dərk edib doğru nəticə çıxarmışdı. Onun özünə haqlı görünən təkcə cənab Lauerə yox, başqalarına da haqsız görünə bilərdi. Ehtiram dolu salamların təsiri altında şəhərdə addımlayan Diderixin özü xidmətlərinin ona bəxş etdiyi yeri ən təbii yolla tuturdu. Bu amansız zamanədə o qədər dərindən mübarizə aparmışdı ki, indi yalnız onun meyvəsini dərirdi. Başqaları ona inanmağa başlamışdılar: tezliklə buna özündə də şübhə yeri qalmamışdı... Qauzenfeld barədə təzəlikcə xoşagəlməz şayiələr gəzməyə başladı və aksiyalar dəyərdən düşdü. Haradan biləydilər ki, hökumət fabrikə verdiyi sifarişlərdən imtina edib onu Heslinqin fabrikinə həvalə edəcək? Diderixin ağzından bir kəlmə də qaçmamışdı. Lakin "Netziger Zeitung"un təəssüflə bildirdiyi kimi, fəhlələrin işdən çıxanlmasına başlanmamış artıq xəbər tutmuşdular. Qoca Buk Nəzarət Şurasının sədri kimi ona ümumilikdə ziyan gətirən bir işi, təəssüf ki, şəxsən təqdir etməli olmuşdu. Hökumət, çox güman ki, qoca Buka görə bu cür kəskin addımlar atmışdı. Onu sədr seçməyin özü bir yanlışlıq idi. Heslinqin ona verdiyi pulla Qauzenfeldin aksiyalarını almaq əvəzinə gərək borclarını verəydi. Bu fikri Diderixin özü hər yanda yayırdı.

– Əvvəllər bu kimin ağlına gələrdi?! – yenidən bu fikri söylədi, yenidən talelərə düşüncəli bir nəzər saldı. – Ayağının altında torpaq hiss etməyən kəsin nəyə qadir olduğunu görmək çətin deyil.

Hamının içində belə bir fikir baş qaldırırdı ki, Qauzenfeldin aksioneri olan qoca Buk onu da uçurumun dibinə çəkəcək. Zira aksiyalar qiymətdən düşürdü. İşdən çıxanlmaların nəticəsində tətil qorxusu yaranmışdı və aksiyalar getdikcə dəyərini itirirdi. Bu yerdə Kinast dost kimi meydana atıldı. Gözlənilmədən Netsiqə gəldi, özünün dediyi kimi, istirahətə. Heç kim digərinə etiraf etmirdi ki, onda Qauzenfeldin aksiyaları var və o, iflasa uğrayıb. Onun şəxsi fikri bu idi ki, əsl məqam yetişib. Onun özünün də tanımadığı bir makler hərdən kafedə oturub aksiyaları alırdı. Bir-iki ay sonra qəzetlərdən birində "Sanft & Co" bankının gündəlik elanları dərc olunmağa başladı. Əlində Qauzenfeld aksiyası olanlar çətinlik çəkmədən onları bu bankda işə keçirə bilərdilər. Faktiki olaraq payızın əvvəlində bu yararsız kağızlardan heç kimdə tapmaq olmazdı. Əksinə, dedi-qodu gəzirdi ki, Heslinqlə Qauzenfeld öz fabriklərini birləşdirirlər. Diderix özünü heyrətlənmiş kimi apardı:

– Bəs qoca Buk? Nəzarət Şurasının sədri kimi, yəqin, onun da deməyə sözü olacaq. Yoxsa o da aksiyalarını satıb?

– Dərdi-səri yoxdur?! – onun barəsində belə deyirdilər. Çünki "Volksstimme"yə qarşı qaldırdığı təhqir iddiası ilə bağlı məhkəmə hazırda təxirə salınmışdı. – Çox güman ki, heç nəyə nail olmayacaq, – deyirdilər. Diderix də tam işgüzarlıqla: – Heyif ondan. Belə çıxır ki, Nəzarət Şurasında son dəfə oturur.

Hamı qəlbindəki bu duyğularla məhkəməyə getdi. Çıxış edən şahidlər heç nə xatırlamırdılar. Klüzinq hər kəsə fabrikin satılmasından danışmışdı. O, həmin torpaq sahəsindən xüsusilə söz açmışdımı? Alverdə iştirakçı kimi qoca Bukun adını tutmuşdumu? Bütün bunlar şübhəli görünürdü. Şəhər deputatlarının müəyyən çevrələrində məlum olmuşdu ki, torpaq sahəsi o vaxt nəzərdə tutulan körpələr evi üçün müzakirəyə çıxarılıb. Buk bunun lehinəmi olubmuş? Hər halda, əleyhinə də çıxmayıbmış. Onun bu yerə necə canfəşanlıqla maraq göstərməsi çoxlarının nəzərindən qaçmayıbmış. Hələ də xəstəlikdən qalxmamış Klüzinq özü komissara verdiyi ifadəsində bildiribmiş ki, dostu Buk lap bu yaxınlara qədər onun yanına gedib-gəlirmiş. Əgər Buk onun yanında torpağın satış hüququndan söz salıbmışsa, bunu o heç də Bukun şərəfinə xələl gətirən anlamda qəbul etməyibmiş...

Şikayətçi Buk istədi müəyyənləşdirsinlər ki, Klüzinqlə danışıqlar aparmış adam rəhmətlik Küleman olub, işə buraxılan pulun sahibi Küleman. Lakin bunu müəyyənləşdirmək mümkün olmadı, Klüzinqin bununla bağlı verdiyi ifadədən də bir şey çıxmadı. Konun o cür deməsi o qədər də əsaslı sayılmadı, çünki Kon özünün Qauzenfelddə görünməsinin məramsız olduğunda maraqlı idi. Başlıca şahid kimi Diderix qalmışdı. Klüzinqin ona məktub yazdığı və onun da dərhal Klüzinqlə danışıqlar apardığı Diderix. O vaxt hansısa bir ad çəkilibmi? O, ifadəsində bildirdi:

– Bu və ya digər adı öyrənmək qəti marağımda olmayıb. Dəqiq deyə bilərəm ki, mən heç də bütün şahidlərin təsdiq etdiyi kimi cənab Bukun adını tutmamışam. Bu işdə mənim yeganə marağım bəzi xırdalıqlardan zərər görməli olmayan şəhərin marağıdır. Mən siyasi mənəviyyat tərəfdarıyam. Şəxsi münasibət məndən çox-çox uzaqdır və cənab şikayətçi bu məhkəmə prosesindən iradsız çıxmasa, təəssüf edərdim.

Onun sözlərindən sonra zalda uğultu qopdu. Deyəsən, təkcə Buk narazı qalmışdı; sıçrayıb ayağa qalxdı. Qıpqırmızı qızarmışdı... Diderix bu barədə şəxsi mülahizəsini söyləmək istədi. Danışmağa başladı, bu vaxt Buk boynunu dimdik tutaraq irəli yeridi, faciə ilə bitən seçki yığıncağında olduğu kimi, gözləri yenidən alışıb-yandı.

– Şəxsim və həyatım barədə yanımcıl fikir söyləməyi cənab şahidə rəva bilmirəm. O, buna layiq deyil. Uğurlarını məndən fərqli olaraq ayrı yollarla qazanıb, bu uğurların məqsədi də tamam başqa olub. Evim hər kəsin, o cümlədən də cənab şahidin üzünə açıq olub. Əlli ildən çoxdur həyatım özümünkü deyil, bu həyat mənim zəmanəmdə çoxlarına hakim kəsilmiş ideyaya tabe olub, ədalət və hamının rifahı ideyasına. İctimai həyata atılanda mən var-dövlət sahibi idim. Bu həyatdan çəkiləndə isə kasıblamış olacağam. Mənə müdafiə lazım deyil!

Susdu, sifəti hələ də titrəyirdi, lakin Diderix yalnız çiyinlərini çəkdi. Qoca hansı uğurlara işarə edirdi? Çoxdandır daha uğur qazanmırdı, indi də heç kimin bir qəpik də vermədiyi boş kəlmələr söyləyirdi. Özünü şax tuturdu, ancaq fələyin çarxının altına düşmüşdü. Adam da öz vəziyyətini belə yanlış dəyərləndirə bilərdimi? “Bizlərdən biri digərinə yuxarıdan aşağı baxıbsa...” və Diderixin gözləri alov saçdı. Bu alovlu gözlərlə o, əbəs yerə qızışmaq istəyən qocanı gözdən keçirdi, onu məhv etdi, amma bu dəfə büsbütün, ədaləti və hamıya göstərdiyi rifahla birlikdə. Əvvəlcə şəxsi mənafe! Uğur gətirən hər şey ədalətlidir!.. Açıqca hiss etdi ki, hamı bu fikirdədir. Bunu qoca da hiss etdi, təzədən yerinə oturdu. Çiyinləri büzüşüb yumrulandı, üzünə həya nişanəsi qondu. Hakimlərə müraciətlə dedi:

– Mən heç bir müstəsnalıq tələb etmirəm, özümü həmvətənlərimin mühakiməsinə tapşırıram.

Bundan sonra, sanki, heç nə olmayıbmış kimi Diderix verdiyi ifadəni davam etdirdi. Onun ifadəsi, doğrudan da, yanımcıl idi və camaata gözəl təsir bağışladı. Lauerin məhkəməsindən bu yana büsbütün xeyirxahlığa doğru dəyişdiyini gördülər; qaynarlığını bir qırağa qoymuşdu ki, bu da asan məsələ deyildi. İndi o, birdən-birə püxtələşib meydana çıxmış bir kişi təsiri bağışlayırdı. Məhz elə indi saat günortadan xəbər verdi və “Netziger Zeitung”un ən yeni xəbərləri zalda yayıldı: Qauzenfeldin böyük aksioneri Heslinq baş

direktor vəzifəsinə təyin edilib... Maraqla onu və onunla üzbəüz dayanmış qoca Buku süzdülər ki, bunun da bədbəxtliyi bahasına Diderix öz xoşbəxtliyini qurmuşdu. Axırıncı dəfə qocaya verdiyi iyirmi mini indi yüz faiz gəlirlə geri alırdı, bununla yenə də alicənablıq edirdi. Qocanın həmin pula Qauzenfeldin aksiyalarını alması Heslinqin yaxşı zarafatı təsirini bağışlayır və hazırda bəzilərinə itkilərinə görə təsəlli verirdi. Diderix çıxıb gedərkən yolunun üstündəkilər bir kəlmə də dinmədilər. Ona verilən salamlar təslimçi insanların hörməti təsirini bağışlayırdı. Aldananlar uğura pərəstiş edirdilər.

Qoca Bukla bir az kobud davrandılar. Sədr hökmü oxuyanda alqış sədaları qopdu. "Volksstimme"nin redaktoruna vur-tut əlli mark cərimə! İttiham tam sübut olunmadı. Dedilər ki, müttəhimin danışığında pis niyyət olmayıb. Vəkillərin fikrincə, şikayətçi üçün öldürücü bir hökm! Buk məhkəmə binasından çıxanda hətta dostları da ondan üz döndərdilər. Qauzenfelddə öz əmanətlərini itirmiş xırda insanlar onun arxasınca yumruq qıcadılar və məhkəmənin söylədiyi həmin ifadə belə bir aydınlıq yaratdı kl, qoca Buk barədə onların fikri çoxdan formalaşıbmış. Körpələr evi üçün torpaq sahəsi alveri, ən azı, gərək baş tutaydı: bunu da Heslinq deyirdi və yerinə düşən sözlər idi. Amma məsələ onda idi ki, qoca Buk həyatında bütün məsələlərdə uduzurdu. Şəhərin atası və partiya başçısı kimi borc içində üzməsinin özü bir möcüzə idi. Tənbəl müştərilər hələ də vardı. İşlə bağlı axsaqlıq mənəvi axsaqlığa səbəb olur, indi teatrda veyllənən oğlunun nişanlanması məsələsi buna parlaq nümunə idi. Bəs Bukun siyasəti? Beynəlmiləlçilik demaqoq məqsədlər üçün həmişə yalnız qurbanlar tələb edir, lakin hakimiyyətlə itlə pişik kimi yola gedir ki, bu da son olaraq işgüzar fəaliyyətə təsir göstərir; bu, itirməyə heç nəyi qalmamış namuslu vətəndaş olmaq üçün yetərincə təminatı olmayan bir insanın siyasətidir. İnsanlar çaşbaşlıq içində dərk etdilər ki, özlərinin inkişafını da, məhvini də hansısa bir avantüristin əlinə tapşırıblar. Onu zərərsizləşdirmək insanların qəlbindən keçən yeganə arzu idi. Onun özü öldürücü hökmdən nəticə çıxarmadığına görə həmin nəticələri başqaları çıxartdı. Ola bilməzdi ki, idarəçiliyə aid təlimatda elə bir bənd tapılmasın ki, tutduğu vəzifədə, yaxud şəxsi həyatda özünü nümunəvi aparmağı məmura tövsiyə etməmiş olsun. Qoca Buk bu bəndi yerinə yetirirdimi? "Netziger Zeitung" onun adını çək-

mədən qeyd etdiyi kimi, məsələni qoymaq həmin bəndi inkar etmək demək idi. Amma buna qədər elə alınmalı idi ki, şəhər deputatlarının iclası vəziyyətlə maraqlansın. Axır ki, müzakirələrə bir gün qalmış höcət qocanın başına ağıl gəldi və o, müşavir kimi vəzifəsindən imtina etdi. Onun siyasi tərəfdaşları bundan sonra axırıncı tərəfdaşlarını itirməkdən qorxaraq onu uzun müddət partiyanın başında saxlamadılar. Bu onlara heç də asan başa gəlmədi. Onun məktubu qəzetdə işıq üzü görənə qədər təkrar-təkrar yanına gedib yüngül təzyiq göstərdilər. Məktubda deyilirdi ki, demokratiyanın rifahı ona öz rifahından önəmlidir. Keçərli hesab etdiyi ehtirasların təsiri demokratiyaya hazırda onun adı ilə bağlı zərər gətirdiyinə görə tutduğu vəzifədən istefa verir. "Ümumi işə xeyir gətirərsə, aldanmış xalq iradəsinin mənə vurduğu ədalətsiz ləkəni gəzdirməyə hazıram, özü də xalqın haçansa məndən alacağı əbədi ədalətə inanaraq". Buna riyakarlıq və təkəbbür kimi baxdılar; onun yaxşılığını istəyənlər bunu qocalığın əlaməti kimi izah etdilər. Əslində, nə yazıb-yazmaması heç bir əhəmiyyət kəsb etmirdi, çünki onun özü daha bir şey deyildi. Vəzifə tutduqlarına, yaxud uğur qazandıqlarına görə ona minnətdar olmalı olanlar birdən-birə şlyapalarına əl atmadan düz onun gözünün içinə baxdılar. Hətta bəziləri gülüb ucadan irad da tuturdu; bunlar o adamlar idi ki, Buk onlara heç nə əmr etməmişdi, bununla belə, onlar Buk elin hörmətini qazandığı vaxtlarda ona tam mütilik göstərmişdilər. Gündəlik gəzintisində indi heç vaxt rastlaşmadığı köhnə dostların yerini təzələri, həddən artıq qəribələri tuturdu. Buk evə qayıdanda və hava toranlaşanda onunla rastlaşırdılar, bunlar müflislik yaxasından yapışmış, ona görə də gözləri dörd olmuş xırda bir tacir, gözləri dumanlanmış içki düşkünü, yaxud evləri eninə-uzununa dolanan hansısa bir kölgə idi. Onlar addımlarını yavaşıdaraq höcət, yaxud sırtıq bir yaxınlıqla qocaya baxırdılar. Tərəddüd edəedə baş geyimlərini yuxarı qaldırırdılar, sonra da qoca Buk onlara əl edirdi və ona uzadılan istənilən əli ağına-bozuna baxmadan geri qaytarmırdı. Zaman keçdikcə nifrət də ondan yan ötürdü. Bilə-bilə kənara baxanlar indi etinasızlıqla onun yanından ötüb-keçirdilər və hərdən o, keçmiş vərdişi ilə onlara salam da verirdi. Cavan oğlu ilə yol gedən ata sifətinə düşüncəli bir görkəm verdi və Bukun yanından keçəndə oğluna dedi:

– O qoca kişini gördün, tək-tənha gəzişib heç kəsə baxmayanı? Ömrün boyu qulağında sırğa et ki, rüsvayçılıq adamın başına belə oyun gətirə bilər.

Bundan sonra uşaq hər dəfə qoca Buku görəndə canına sirli bir qorxu dolurdu. Necə ki o, uşaq ikən yaşlı nəsil bu kişini görəndə izahedilməz bir fəxarət hissi keçirirdi. Təbii ki, elə cavanlar da vardı ki, mövcud fikirlərə əhəmiyyət vermirdi. Hərdən qoca evdən çıxanda uşaqların məktəbdən çıxan vaxtına düşürdü. Yeniyetmələr ordusu küçəni doldururdu, müəllimlərinə hörmət göstərib onlara yol açırdılar; indi büsbütün millətçi olmuş Künxen, yaxud Ketxenin bədbəxtliyindən bəri daha da ciddiləşmiş keşiş Tsillix isə tənəzzüldə olan Buka baxmadan tələsib aradan çıxırdılar. Bu vaxt yolun ortasında azlıq təşkil edən həmin o gənclər dayanırdı və təəssürat yaranırdı ki, hər biri daxildən gələn bir təpərlə dayanıbdır özü üçün. Alınları başqalarına nisbətən daha az şumal idi; ifadələri gözlərindən oxunurdu, Künxenlə Tsillixə arxalarını çevirir, qoca Bukun qarşısında isə başlarını açırdılar. Bu vaxt Buk istər-istəməz addımlarını yavaşıdıb gələcəyin aparıcı qüvvəsi olan bu üzlərə baxırdı, ömrü boyu bütün sifətlərə baxmış olduğu bir ümidlə.

***

Yüksəlişinin ikincidərəcəli kənar hadisələrinə həddən artıq diqqət yetirməyə Diderixin bu arada, doğurdan da, vaxtı yox idi. İndi birbaşa Diderixin ixtiyarında olan “Netziger Zeitung” yazırdı ki, cənab doktor Heslinqin baş direktor vəzifəsinə təyin olunmasına səs verən məhz cənab Bukun özü olmuşdur; o, bunu Nəzarət Şurasındakı sədrlik vəzifəsindən istefa verənə qədər etmişdir. Bu faktda bəziləri özəl bir tam duydu. Ancaq Notqroşen nəzərə çatdırırdı ki, baş direktor cənab doktor Heslinq ümumi işin xeyrinə böyük və şəksiz bir xidmət göstərmişdir. Xəlvətdə aksiyaların yarısını ələ keçirmiş Diderix olmasaydı, onlar daha dərin uçurumlara yuvarlana bilərdilər və bu uçurumdan salamat qurtardıqlarına görə bəzi ailələr yalnız cənab doktor Heslinqə minnətdar olmalıdırlar. Yeni baş direktorun səyi nəticəsində tətil baş tutmadı. Onun milli və qeysərəsadiq mövqeyi təminat yaratdı ki, hökumətin günəşi Qauzenfeldin üzərində gələcəkdə də batmayacaq. Bir sözlə, Netsiqin iqtisadi həyatı, xüsusilə kağız sənayesi üçün gözəl çağlar başlayır; üstəlik,

Heslinqin fabrikinin Qauzenfeldlə birləşməsi dəqiq mənbələrə söykənərək həqiqətə tam uyğun idi. Notqroşen iyləyib-çüyləyib tapmışdı ki, cənab doktor Heslinq yalnız bu şərtlər altında Qauzenfeldin rəhbərliyini öz üzərinə götürmüşdür.

Əslində, Diderix aksiya kapitalını aldırmaqdan başqa tələsik heç bir iş görməmişdi. Yeni kapitalla Heslinqin fabriki qazanılmışdı. Diderix gözəl bir əməliyyat aparmışdı. Onun hökumətlə ilk ticarətinin tacı uğur olmuşdu, artıq hazırkı durumun ağası idi. Hər şeylə razılaşan Nəzarət Şurası ilə birlikdə, öz müstəqil iradəsini təlqin etməklə yeni müəssisədə daxili intizamın təşkilinə keçə bilərdi. O, fəhlə və qulluqçulardan ibarət camaatı iclasa topladı.

– Sizlərdən bir neçəsi, – dedi, – məni çoxdan tanıyır, Heslinq fabrikindən. Hə, qoy digərləri də tanısın! Məndən kömək istəyənin gözüm üstə yeri var, amma qiyama dözməyəcəyik! Hələ iki il bundan əvvəl bunu mən sizlərin kiçik bir qisminə demişəm, indi isə tabeliyimdə nə qədər adam olduğunu özünüz görürsünüz. Belə bir sahibkarla fəxr edə bilərsiniz. Siz mənə bel bağlayın, sizin milli şüurunuzu oyatmağı və sizi mövcud quruluşun sadiq tərəfdarları etməyi mən öz öhdəmə götürürəm. – Onlara yaşayış evləri, xəstəlik sığortası, ucuz ərzaq vəd etdi. – Sosial-demokrat həngaməsinə qəti dözən deyiləm! Gələcəkdə kim mənim istəyimin əleyhinə seçsə, işdən çıxarılacaq! – Daha sonra bildirdi ki, dinsizliyə qarşı da amansız mübarizə aparacaq; hər bazar günü şəxsən öyrənəcək ki, kim kilsədə olub, kim olmayıb. – Nə qədər ki dünyada irsi suç mövcuddur, müharibə də olacaq, nifrət də, paxıllıq da, narazılıq da. Odur ki gərək biri ağa olsun.

Bu yüksək prinsipi həyata keçirmək üçün fabrikin bütün binası həmin fikri əks etdirən yazılarla bəzədildi.

"Giriş qadağandır!", "Yanğınsöndürən aparatında vedrələrlə su daşımaq qadağandır!" Şüşədə pivə gətirmək əvvəlcə əməllicə qadağan edildi, sonra isə icazə verildi, çünki Diderix pivə zavodu ilə müqavilə bağlamaq fürsətini qaçırmamışdı, həmin zavod ona fəhlələrin pivəyə xərclədiyi puldan müəyyən məbləğ ayırmağı söz vermişdi... Yemək, yatmaq, siqaret çəkmək, uşaqları özü ilə gətirmək, "əlləşdirmək, eşqbazlıq etmək, mazaqlaşmaq, ümumiyyətlə, hər cür əxlaqsızlıq" ciddi qadağandır. Fəhlə evlərində, onlar həqiqətən burada olana qədər götürmə uşaq saxlamaq qadağan olunmuşdu. Kəbinsiz yaşayaraq Klüzinqin fabrikin-

də on il faş olunmaqdan yayındığını güman edən bir cütlük rəsmən işdən azad edildi. Bu hadisə hətta Diderix üçün bir bəhanə oldu ki, xalqın əxlaqının yüksəlməsi üçün yeni bir üsuldan istifadə etsin. Xüsusi yerlərdə Qauzenfeldin özündə istehsal olunan kağız asdırdı ki, onlardan istifadə zamanı mənəvi dövlət əhəmiyyətli yazılar çap olunmuş digər kağızlardan istifadə etməsinlər. Hərdən o, yuxarı dairələrdə işlənən bir kəlməni fəhlələrin bir-birinə dediyini eşidirdi, fəhlələr bu yolla özlərinin inanclarını büruzə verir, yaxud da həmin vəziyyətdə onlarda formalaşmış vətənpərvər bir mahnı oxuyurdular. Bu uğurlardan cuşa gələn Diderix öz ixtirasını işə keçirdi. Həmin ixtira əhatəli reklam kimi "dünya səltənəti" adı altında bazara çıxıb alman texnikasına söykənərək alman ruhunu bütün dünyaya yaydı.

Sahibkarla fəhlə arasındakı münaqişə səbəblərinin hamısını bu tərbiyəedici kağızlarla silib ata bilmədilər. Günlərin birində Diderix məcbur oldu bildirsin ki, sağlamlıq sığortası pulundan yalnız dişlərin müalicəsini ödəyə bilər. Yeni dişlərin qoyulmasına isə pulu çatmır. Kişilərdən biri özünə büsbütün yeni çənə hazırlatdırırdı. Diderix yenicə verdiyi bəyanata istinad etdiyindən kişi məhkəməyə müraciət etdi və prosesi uddu. Bu, kişinin mövcud quruluşa inamını altüst etdi, o, üsyankara çevrilib mənən alçaldı; digər vəziyyətlərdə o, mütləq işdən qovula bilərdi. Ancaq Diderix ona baha başa gələn çənənin sahibini çölə ata bilməzdi, odur ki fəhləni işdən çıxarmadı. Bütün bu məsələ, Diderix bunu heç də gizlətmirdi, fəhlələrə pozucu təsir bağışlamaya bilməzdi. Üstəlik, buna təhlükəli siyasi hadisələrin təsiri də əlavə olundu. Yeni açılmış reyxstaq binasında qeysəri alqışlayarkən sosial-demokrat deputatların əksəriyyəti yerindən qalxmayanda qiyama qarşı qanun layihəsinin qəbuluna şübhə yeri qalmadı. Diderix bu qanun layihəsinin xeyrinə ictimai fikri formalaşdırmağa girişdi. Öz adamları ilə söhbətdə onları hazırladı, lakin bunu tam susqunluqla qarşıladılar. Reyxstaq deputatlarının böyük əksəriyyəti vicdanlarını şeytana satıb qanun layihəsini rədd etdi və uğur özünü çox gözlətmədi, sənayeçilərdən biri qətlə yetirildi! Bəli, qətlə yetirildi! Sənayeçi! Qatil sosial-demokrat olmadığını deyirdi, lakin Diderix buna öz adamlarından bələd idi və qətlə yetirilən, əslində, fəhlələrin dostu sayılırdı. Diderix buna da öz simasından bələd idi. Günlərlə, həftələrlə o, qorxmadan kiməsə qapı

açmırdı, hər dəfə gözünə qapını döyənin əlində ona qarşı tuşlanmış iti bıçaq görünürdü. Kontorunda öz-özünə atəş açan bir qurğu düzəltdirmişdi və Quste ilə birlikdə hər axşam yataq otağı ilə sürünüb küncdə-bucaqda nəsə axtarırdı. Qeysərə göndərdiyi teleqramlar – istər bu teleqramlar şəhər deputatlarının yığıncağı adından, istərsə "Qeysər partiyası" sədarəti adından, istərsə də "Veteranlar Şurası" adından olsun – bəli, Diderixin ucadan-uca cənabın üstünə yağdırdığı həmin teleqramlar sosialistlərin yeni qurban tələb edən inqilabi hərəkatına qarşı kömək deyə haray çəkirdi; bu həmin azardan qurtarmaq harayı, təcili qanuni tədbirlər görmək harayı, şəxsiyyətin və şəxsi mülkiyyətin hərbi yolla qorunması harayı, tətilçilərin dustaqxanalara atılması harayı idi. Bütün bunların hamısını nöqtə-vergülünə qədər dərc edən "Netziger Zeitung" baş direktor cənab doktor Heslinqin ictimai dincliyə və fəhlələrin qayğısına qalmağa necə xidmət göstərməsini əlavə etməyi heç cür unutmurdu. Diderixin təzəcə tikdirdiyi hər fəhlə evinin şəklini Notqroşen böyük yaltaqlıqla çap edir, üstəlik, pafosla dolu bir məqalə də yazır. Qoy digər işverənlər də, Allaha şükür ki, onların nüfuzundan indi Netsiqdə söhbət açan da yoxdur, fəhlələrin gəlirdə payları olduğunu bəyan etməklə onlarda üsyankar əhvali-ruhiyyəni istədikləri qədər qızışdırsınlar. Baş direktor cənab doktor Heslinqin bəyan etdiyi əsas prinsiplər işverənlərlə iş alanlar arasında ağıla gələn ən gözəl münasibətlər yaradır ki, bunu da əlahəzrət qeysərin özü alman sənayesinin hər yerində görmək istəyir. Qeysərin sosial proqramına həm də fəhlələrin tələbləri, eləcə də işverənlərin koalisiyası daxildir. Həmin proqramın gerçəkləşməsi baş direktor cənab Heslinqin şərəf işi sayılırdı və Diderixin şəkli onunku ilə yanaşı asılmışdı.

Məsələnin bu şəkildə qəbulu daha çox ciddi fəaliyyətə sövq edirdi, baxmayaraq ki öz təsirini təkcə ictimai həyatda deyil, həm də ailədə göstərən irsi suç ona mane olurdu. Təəssüf ki, burada paxıllıq və dava-dalaş toxumu səpən Kinast da az rol oynamırdı. Deyirdi ki, onun özü və aksiyaların alınmasında nəzərə çarpmayacaq vasitəçiliyi olmasaydı, Diderix bu parlaq mövqeyə yetişə bilməzdi. Diderix də bunun cavabında bildirirdi ki, Kinast onun pulu ilə qazanılan aksiya mülkiyyətinin sayəsində yetərincə mükafatlandırılıb. Yeznə bununla razılaşmırdı, üstəlik, həyasızcasına deyirdi ki,

onun iddiaları tam qanunidir. Məgər o, Maqdanın əri kimi səkkizdəbir payla köhnə Heslinq fabrikinin həmsahibi deyilmi? Fabrik satılıb, Diderix də bunun müqabilində nağd pul və Qauzenfeldin aksiyalarını alıb. Kinast illik gəlirdən əldə edilən kapitalın səkkizdəbirini istəyirdi. Bu cür görünməmiş həyasızlığa Diderix tam kəskinliyi ilə etiraz edib bildirdi ki, bundan sonra nə yeznəsinə, nə də bacısına bir qəpik borcludur.

– Söz vermişdim ki, fabrikimin illik gəlirinin sizə düşən hissəsini özünüzə verim. Fabrikim satılıb. Qauzenfeld mənimki deyil, askionerlər cəmiyyətinindir. Kapitala gəldikdə isə bu, mənim şəxsi mülkiyyətimdir. Siz heç nə tələb edə bilməzsiniz.

Kinast bunu aşkar qarət adlandırdı, öz arqumentlərinə büsbütün inanan Diderix bunun şantaj olduğunu söylədi və sonra iş məhkəməyə gedib çıxdı.

Məhkəmə üç il çəkdi. Həmişə də artan bir qəddarlıqla davam etdi, xüsusilə də özünü büsbütün ona həsr etmək üçün Eşvaynerdəki vəzifəsindən əl çəkib Maqda ilə birlikdə Netsiqə köçmüş Kinastın qəddarlığı ilə. Diderixin əleyhinə əsas şahid kimi o, qoca Zötbiri tutmuşdu, Zötbir də intiqam həsrəti ilə alışıb-yanaraq sübut etmək istəyirdi ki, Diderix əvvəllər də qohumlarına onlara çatacaq pulu axıracan ödəməyəb. Kinastın ağlına o da gəlmişdi ki, Diderixin keçmişinin müəyyən anlarını indi deputat olmuş Napoleon Fişerin köməyi ilə işıqlandırsın. Amma bu ona heç cür müyəssər olmadı. Bununla belə, Diderix Kinastın bu addımı sayəsində bir neçə dəfə sosial-demokratların partiya kassasına böyük məbləğdə pul keçirmək məcburiyyətində qaldı və o, səmimiliklə etiraf edirdi ki, şəxsi itkisi onu o qədər də ağrıtmır, nəinki bununla millətçiliyə vurulan zərbə... Burnunun ucundan o yanı görməyən Quste kişilərin mübahisəsini daha çox qadın hərisliyindən qızışdırırdı. Onun birinci uşağı qız idi və Maqdanın dünyaya oğlan gətirməsini heç cür ona bağışlaya bilmirdi. Əvvəllər pula o qədər də maraq göstərməyən Maqda düşmənçiliyin bünövrəsini Emmi Berlindən göndərilmiş gözəl bir şlyapa ilə peyda olan gündən qoydu. Maqda gördü ki, Diderix Emmiyə görünməmiş tərzdə üstünlük verir. Emmi Qauzenfelddə özünün şəxsi mənzilində yaşayırdı, burada o, qonaqlıqlar verirdi. Ərli bacısının müqabilində onun bəzək-düzək xərcləri həyasızlıq həddinə çatırdı. Maqda tam əmin oldu ki, evlənməklə əldə etməli olduğu

üstünlük büsbütün onun ziyanına çevrilmişdir; və bu işdə o, Diderixi günahlandırdı, Diderix hələ yüksəlişə başlamamışdan əvvəl ona əməlli-başlı kələk gəlmişdi. Əgər Emmi indi də özünə ər tapa bilmirdisə, görünür, bunun xüsusi bir səbəbi vardı və bu barədə Netsiqdə ağıllı-başlı pıçapıç gəzirdi. Bunu ucadan söyləməyə Maqda heç bir maneə görmədi. Bundan İnqe Titsin vasitəsilə Qauzenfelddə xəbər tutdular; lakin İnqe dedi-qoduçuya qarşı özü ilə bir silah da gətirdi, çünki məhz Kinastların evində mamaça görmüşdü və ilk uşağın vur-tut yarım yaşı olardı. Qorxunc bir narahatlıq qopdu: – Evlərdən-evlərə telefon söyüşləri, məhkəməyə şikayətlə hədələr, bunun üçün material toplanması, hər iki qadının digərinin qulluqçusunu ələ keçirmək cəhdi.

Tezliklə Diderixlə Kinast kişi ağıllarını işə salıb ən kəskin ailə qalmaqalını qorusalar da, az vaxt keçəndən sonra dava-qalmaqal yenidən qızışdı. Quste ilə Diderix adsız məktublar aldılar. Bu məktubları üçüncü bir adamdan, hətta özlərindən də gizlətdilər. Onların məzmunu nə abır tanıyırdı, nə də həya. Üstəlik, bu məzmunu, lap realist sənət olsa belə, hər cür mümkün həddi aşıb keçən şəkillər müşayiət edirdi. Hər səhər eyni vaxtda bu amansız boz paketlər nahar masasının üstündə olardı və hərə də öz məktubunu həmin an gizlədərdi və bunu elə edərdi ki, elə bil, o birinə gələn məktubu heç görməyib də. Amma bir gün bu gizlənpaç oyununa son qoyuldu. Çünki Maqda cürət edib Qauzenfeldə gəldi, əlində də özünün aldığı eyniölçülü bir dəstə məktub. Qusteyə bu hərəkət həddən artıq sərt göründü.

– Yəqin, onları sənə yazanın kimliyini bilməmiş olmazsan?! – qızarıb boğularaq soruşdu. Maqda dedi ki, onun kimliyini təsəvvür edir, elə ona görə də buraya gəlir. – Əhval-ruhiyyəni yaxşılaşdırmaq üçün bu cür məktublar yazmağa ehtiyac duysan, – Quste fışıltı ilə cavab verdi, – onda, ən azı, buna ehtiyacı olmayanlara yaz!

Sifəti gömgöy göyərmiş Maqda etiraz edib özünün suçlamalarını ifadə etdi. Lakin Quste telefona qaçdı, Diderix kontordan zəng edirdi; sonra harasa getdi və bir bağlama məktubla geri qayıtdı. Diderix də əlində öz məktubları ilə qabağa çıxdı. Hər üç maraqlı külliyyat böyük təsir gücünə malik olmaqla masanın üstünə səriləndə qohumların üçü də ruh düşkünlüyü ilə bir-birinə baxdı. Sonra özlərini ələ alıb eyni anda eyni ittihamları söylədilər. Özünün haqlı olduğu-

nu sübut etmək üçün Maqda ərinin dediklərini xatırlatdı, Kinastın fikrincə, bu azarı ona da yoluxdurublarmış. Quste Emmidə də belə şeyləri gördüyünü söylədi. Emmini gətirtdilər, Emmi çətinlik çəkmədən etiraf etdi ki, poçtla ona da bu cür murdar şeylər göndəriblər. Dedi ki, əksəriyyətini məhv edib. Hətta qoca frau Heslinqdən də yan ötməmişdilər! Qadın ağlayaraq bacardığı qədər inkar etdi, amma axırda hər şeyi boynuna aldı. Bütün bunların hamısı durumu yalnız genişləndirdiyindən, lakin ona aydınlıq gətirmədiyindən hər iki tərəf daxilən savadsız, ancaq heç də qorxusuz olmayan hədələrlə bir-birindən ayrıldı. Öz mövqeyini möhkəmləndirmək üçün tərəflərdən hər biri digərini nəzarətə götürdü, amma son olaraq məlum oldu ki, bu yaramaz məktubları alanlar sırasına İnqe Tits də daxil imiş. Sonradan güman edilən şey öz təsdiqini tapdı. Qorxunc məktublar müəllifi hər yana, hətta keşiş Tsillixin, valinin və onun yaxınlarının şəxsi həyatına da müdaxilə edirdi. Dəqiq fikir verdikdə görmək olurdu ki, o, Heslinq soyunun, ona yaxın olan bütün yaxşı soyların ətrafında büsbütün abırsızlıq mühiti yaratmışdır. Quste həftələrlə evdən çıxmağa ürək eləmirdi. Onun və Diderixin şübhələri gah bunun, gah da digərinin üstündə dolaşırdı. Bütün Netsiqdə daha heç kim ən yaxın adamına da ürək qızdırmırdı. Artıq elə bir gün gəldi ki, səhər yeməyi vaxtı Heslinq ailəsində şübhə son hədləri də aşdı. İndiyə qədər belə şey baş verməmişdi, Qustenin əlində hansısa sənəd əsməyə başladı; sənəd hamıdan gizli saxlanılaraq yalnız ona və ərinə bələd olan anları əhatə edirdi. Üçüncü bir adamın bu, ağlına da gələ bilməzdi, yoxsa hər şey puç olardı, bəs sonra?.. Qəhvə masasının başı üstündən Quste Diderixə sınayıcı bir nəzər saldı: Diderixin əlində də eyni kağız titrəyirdi, onun baxışları da sınayırdı. Hər ikisi qorxudan qıc olaraq gözlərini tələsik yerə dikdi.

Satqına hər yerdə rast gəlmək olurdu. Heç kəs olmayanda o, ikinci "mən" kimi ortadan peyda olurdu. Onun sayəsində heç vaxt təsəvvürə gəlməyən tərzdə vətəndaşların ad-sanı şübhə altına düşmüşdü. Hamının hərtərəfli razılığı əsasında əks-tədbir görülməsə idi, onun fəaliyyətinin nəticəsi olaraq istənilən mənəvi mənlik və qarşılıqlı ehtiramların hamısı məhvə məhkum olardı. Yer altından özünə çıxış yolu axtaran minqatlı qorxular hər yandan axışıb bir yerə yığılır, birləşmiş qorxunun gücü ilə işığa aparan bir

kanal yaradır və nəhayət, özünün bulanıq sellərini kiminsə üstünə tökür. Bu işin necə olduğunu Qotlib Hornunq bilmədi. Diderixlə göz-gözə özünəxas şəkildə lovğalanaraq yazmış olduğu bəzi məktublarla öyündü. Diderixin ciddi iradlarına cavab olaraq yalnız onu bildirdi ki, belə məktubları indi hər kəs yazır, bu bir dəbdir, ictimai oyundur, bunu da Diderix özünə yaraşan şəkildə təcili rədd etdi. Danışıqdan onda belə bir fikir yarandı ki, bəzi xeyirxah işlər görmüş köhnə dostu və sinif yoldaşı bu yerdə də nəsə yaratmağa meyilli olub, buna heç həvəsi olmasa belə; buna görə də Diderix onu vəzifəsinə uyğun olaraq satdı və Hornunqun adı haçansa ucadan çəkiləndə məlum oldu ki, çoxdandır o hər yanda şübhəli adam kimi izlənir. Seçkilər zamanı saysız-hesabsız tanışlıqlar qurmuş, əslində, Netsiqdə doğulsa da, qohum-əqrəbasız böyümüşdü ki, bu da ona həmin yaramazlıqları etməkdə çətinlik törətməmişdi. Buraya daha sonra onun nə süngər, nə də diş fırçası satmamaq hüququ uğrunda apardığı amansız mübarizə də daxil idi; bu mübarizə onu həddən artıq sərtləşdirmiş və süngərləri təkcə zahiri təmizlik üçün almayan və dişlərini təmizləməklə heç nəyə nail olmayan ağalar barədə müəyyən rişxəndli ifadələri dedirtmişdi. Onu ittiham edirdilər və bir çox hallarda o, öz günahını etiraf etməli olurdu. Əksər hallarda isə onu tam cidd-cəhdlə təkzib edib yazılı izahatlar verirdi. Digər şahid ifadələrinin hamısı, ictimai iradə epidemiyasından danışan və bu boyda zibilin bir adam tərəfindən qaynadıla bilməyəcəyini güman edən Hoytoyfel kimi şahidin fikrinə qarşı çıxırdı. Onu ən yaxşı Parisdən qayıdandan bəri qulaqları qısalmış və prokuror vəzifəsinə təyin edilmiş Yadaszon müdafiə edirdi. Şəxsi uğurları və indi ona heç nə ilə irad tuta bilməyəcəkləri fikri Yadaszonu daha da mülayimləşdirmişdi. O, etiraf etdi ki, baş vermiş hadisəyə salınan nəzər Hornunqun həddən ziyadə əsəbi olması barədə gəzən söz-söhbətlərə diqqət yetirməyi tövsiyə edir. Bunu ən yaxşı halda bədbəxt gənclik dostunu bütün vasitələrlə müdafiə edən Diderixin simasında da görmək olar. Hornunq yaxasını sanatoriyada müalicə ilə qurtara bildi və o, yola düşəndə Netsiqdən çıxarkən lazım olacaq şeylərlə Diderix onu təmin etdi. Bu şeylər onu bir müddət süngərlə diş fırçası satmaqdan xilas edərdi. Nəticədə, təbii ki, süngərlə diş fırçası Qotlib Homunqu büsbütün haldan çıxaracaq. Homunq sanatoriyada oturan kimi mək-

tublann arası kəsildi, yaxud ən azı, kimsə məktub alırdısa, özünü o yerə qoymurdu.

***

Diderix yenidən deyə bilərdi: "Mənim evim – mənim qəsrimdir". Qısa müddətə çirkin müdaxilələrə məruz qalmış ailəsi yenidən tərtəmiz olub çiçəklənməyə başladı. 1894-cü ildə doğulmuş Qretxendən sonra 1895-ci ildə Horst, 1896-cı ildə isə Kraft dünyaya gəldi. Ədalətli ata olan Diderix hər uşağın payını hələ o, dünyaya gəlməmiş banka qoydu və hər cür xərcləri, eləcə də əbəçinin pulunu əvvəlcədən hesaba keçirdi. Ailə həyatı barədə fikirləri xeyli ciddi idi. Horst dünyaya çətinliklə gəldi. Quste zayfalıqdan qurtaranda Diderix dedi ki, əgər seçim qarşısında qalmış olsaydı, uşağın yox, arvadının ölümünə razılıq verərdi.

– Mənim üçün nə qədər ağır olsa da, – deyib hökmünü tamamladı, – irq məndən ötrü daha önəmlidir və oğlanlanm üçün mən qeysərimin qarşısında cavabdehəm. Qadınlar dünyaya uşaq doğmaq üçün gəliblər, – Diderix onların yüngüllüyünü və itaətsizliyini qəbul etmirdi, lakin mənən sevinmələrinə və istirahətlərinə yox da demirdi. – O üç T-ni heç vaxt unutma, – Qusteni xəbərdar etdi: – "Tanrı, təndir, tifil".

Üstündə səltənətin gerbi olan qartal və qeysər tacı çəkilmiş qırmızı damalı süfrədə qəhvədanın yanında həmişə Bibliya olardı və Quste hər səhər oradan nəsə oxuyardı. Bazar günü kilsəyə gedərdi. Quste müqavimət göstərdikdə isə Diderix deyərdi:

– Bunu yuxarıdan tələb edirlər.

Diderix öz ağasından qorxa-qorxa yaşadığı kimi, Quste də ərindən qorxa-qorxa yaşayırdı. Otağa daxil olarkən yadına düşürdü ki, əri qabağa buraxmalıdır. Uşaqlar yalnız ona hörmət etməli idilər. Menne adlı taksa isə hamını özünə böyük sayırdı. Yemək zamanı gərək it də, uşaqlar da səslərini çıxarmayaydılar; Qustenin işi ondan ibarət idi ki, ərinin alnındakı qırışlardan öyrənsin ki, ona mane olmamaqmı, yaxud onu söhbətə tutub dərdini dağıtmaqmı məsləhətdir. Müəyyən yeməklər yalnız evin kişisinə gətirilərdi və Diderix özünün xoş günlərində həmin yeməkdən bir parçanı masanın üstünə atıb onu kimin tutmasına gülə-gülə tamaşa edirdi: Qretxenmi, Qustemi, yaxud Mennemi? Günorta yeməyindən sonrakı yuxusu tez-tez həzm problemi ilə bağlı pozu-

lardı; bu halda Qustenin vəzifəsi ona isti qarın sarğısı qoymaqdan ibarət olardı. Diderix bərk qorxaraq zarıya-zarıya deyərdi ki, vəsiyyətnaməsini yazıb himayəçini təyin etmək istəyir. Gərək Quste əlinə pul almayaydı.

– Mən canımı oğlanlarımın yolunda qoymuşam, ondan ötrü qoymamışam ki, ölümümdən sonra kef çəkəsən.

Quste xatırlatdı ki, hər şeyin əsasını onun var-dövləti təşkil edir, bununla belə, susmağa üstünlük verir. Təbii ki, Quste xəstələnəndə gözləməməli idi ki, Diderix ona qulluq göstərsin. Bu halda əri imkan daxilində ondan gen gəzməyə çalışırdı, çünki xəstəliyə yoluxmaqla arası yox idi. Fabrikə yalnız ağzındakı həblərlə girərdi. Bir gecə səs-küy qopdu, çünki aşpaz qadın qrip olmuşdu və qırx dərəcə istiliyi vardı.

– O murdarı indicə atın bayıra! – Diderix əmr etmişdi və qadın gedəndən sonra virus əleyhinə mayeni hər yana səpərək uzun müddət mənzildə vumuxmuşdu. Axşam "Lokal-Anzeiger"i oxuyarkən Diderix hər dəfə arvadına başa salırdı ki, dənizlərdən məhrum olan Almaniyanın yaşaması yaşam deyil və Quste bunu təkcə ona görə başa düşürdü ki, bizi İngiltərəyə satmış zənən-qeysər Fridrixdən xoşu gəlmirdi, üstəlik, buraya Fridrixskron qəsrində baş verən və Qustenin iradına səbəb olan ailə qalmaqalı da qatılırdı. İngiltərəyə qarşı bizə güclü donanma lazım idi; bu ölkə gərək yer üzündən silinəydi, o, qeysərin ən qatı düşməni idi. Bəs niyə? Bunu Netsiqdə dəqiq bilirdilər: yalnız ona görə ki, əlahəzrət haçansa kefi yuxarı olanda Uels şahzadəsi və ən cazibədar məkanda səmimi bir şillə ilişdirmişdi. Bundan əlavə, İngiltərədən həddən artıq gözəl kağız sortları gəlirdi ki, onların da idxalına qalibiyyətli bir müharibə ilə son qoymaq olardı. Qəzetdən başını qaldırmadan Diderix Qusteyə dedi:

– Mənim İngiltərəyə olan nifrətimi oğru və alverçilərdən ibarət olan bu xalqa yalnız Böyük Fridrixin nifrətində tapmaq olar. Bu, əlahəzrətin sözləridir və mən onların altına öz imzamı atıram.

Qeysərin hər çıxışındakı hər sözün altında o, öz imzasını atırdı. Özü də birinci, daha güclü formada. Ertəsi gün qəzetlərdə nisbətən zəifləyən formada yox. Bu qanadlı kəlmələrin hamısı almanlara və zəmanəyə uyğun deyilmişdi, Diderix həmin sözlərlə yaşayıb öz təbiətinin əks-sədası kimi onların üstündə əsirdi, yaddaşı onları qoruyub saxlayırdı,

sanki bu sözləri özü söyləmişdi. Hərdən, doğrudan da, onları dilinə gətirmişdi. Bəzilərini camaat içində özünün ixtiralarına qatıb demişdi; nə onun özü, nə də bir başqası müəyyən edə bilməmişdi ki, bu sözlərin hansı onunku, hansı alilər alisininkidir.

– Gözəldir, – bu "qatışığı" oxuyan Quste dedi.

– Üçbaşlı əsanı əlimizdən verən deyilik, – Diderix onu dinləmirmiş kimi dedi, bu arada Quste qeysər xanımının bir əhvalatına lağlandı. Bu onun ürəyincə oldu. Hubertusştokda bu uca xanım sadə, az qala kəndli paltarı geyinib. Yolda özünü poçtalyona təqdim edəndə poçtalyon ona inanmayıb və üstünə gülüb. Sonra həmin kişi diz çöküb yalvardıqdan sonra xanım ona bir mark verib. Bu, Diderixi də əyləndirdi, digər tərəfdən də onu daha çox heyran edən o oldu ki, Milad bayramı axşamı Berlinin kasıbları ilə bayramlaşmaq məqsədilə qeysər yeni kəsilmiş pulun əlli yeddi markı ilə şəhərin küçələrinə çıxıb. Lakin qəzetdə oxuyanda ki əlahəzrət Malta ordeninin fəxri üzvü seçilib, istər-istəməz əti ürpəşdi. "Lokal-Anzeiger" heç kəsin ağlına gəlməyən aləmləri açır və ucalar ucasını yenidən insanlara yaxınlaşdırırdı. Əlahəzrətlərin oradakı kiçik balkonda üçdə iki insan boyunda ucalan tunc fiqurları, deyəsən, gülümsəyə-gülümsəyə yaxına gəlir və adam onları müşayiət edən Zekinqli kərənayçının inamlı çalğısını eşidir.

– Böyük yüyət olanda qeysərlərin kefidir, – Quste fikrini bildirdi. – Yüyətə yüz adamları olur.

Bunun müqabilində saray qadınlarının sürütləmə paltarlarını vecinə almayan qeysər taksaları barədə oxuyanda Diderix dərin məmnunluq hissi keçirdi. Başında bir plan yetişdi ki, növbəti mərasimlərin birində öz Mennesinə belə bir azadlığı bəxş edəcək. Əlbəttə, sonrakı sütunda çap olunmuş teleqram onda ciddi qayğı oyatdı, çünki hələ də dəqiq məlum deyildi ki, qeysərlə çar görüşəcəklər, ya yox.

– Əgər bu, tezliklə baş tutmasa, – tam əminliklə dilləndi, – gərək hər şeyə hazır olaq. Dünya tarixi zarafat sevmir.

O, uzun müddət başlarının üstünü almış təhlükənin üzərində dayandı, çünki "Alman qəlbi ciddi, az qala, faciəvidir", – deyə hökm verdi.

Lakin Quste daha heç nəyə maraq göstərmədi, elə hey əsnəyirdi. Ərinin qınayıcı baxışları altında, deyəsən, öz vəzifələrindən birini xatırladı, tələbkar qıyıq gözlərini işə salıb

hətta dizi ilə Diderixi sıxışdırdı. Diderix növbəti milli fikir söyləmək istəyirdi, bu vaxt Quste özünə xas olmayan ciddi bir səslə dilləndi:

– Boş şeydir!

Amma bu ifadəyə görə onu cəzalandırmaqdan uzaq olan Diderix Qusteni alışıb-yanan gözləri ilə süzdü, sanki, ondan daha çox şey gözləyirdi... Diderix onun aşağısından yapışmağa çalışanda Quste yorğunluğunu büsbütün unutdu və Diderix qəfildən qüvvətli bir şillə yedi, amma buna cavab qaytarmadı, yalnız ayağa durub fısıldaya-fısıldaya pərdələrdən birinin arxasında gizləndi. Yenidən işığa çıxanda məlum oldu ki, gözləri heç də alışıb-yanmır, əksinə, qorxu ilə, anlaşılmaz istəklərlə doludur... Bütün bunlar, deyəsən, Qusteni son qayğılardan da azad etdi. O, ayağa qalxdı; tam sərbəstliklə əndamlarını yırğalayanda o da od püskürən gözləri ilə ətrafa nəzər saldı və qolbasa oxşayan barmağını hikkə ilə yerə tuşlayıb fışıltılı səslə dilləndi:

– Diz çök, fəqir qul! – Diderix onun əmrini yerinə yetirdi! Bütün qanunların görünməmiş səfeh əksi olaraq Quste ona əmr etdi: – Sən gərək mənim gözəl surətimə səcdə edəsən! – Arxası üstə uzanmış Diderix onun əmri ilə qarnı üstə çevrildi. Bu fəaliyyətini Quste ortada büsbütün dayandırıb özünün qorxunc pafosunu işə salmadan ciddi bir işgüzarlıqla soruşdu: – Bəsindir? – Diderix yerindən tərpənmədi; Quste həmin an yenidən büsbütün hökmranlıq etdi. – Mən hökmranam. Sən isə təbəə, – ifadəli şəkildə bildirdi. – Qalx ayağa! Tərpən! – Tam düyünlənməmiş yumruğu ilə ərini qabağına qatıb ər-arvadın yataq otağına dümsüklədi.

– Sevin! – amiranə dilləndi, bu vaxt Diderix aradan çıxıb işığı söndürə bildi. Qaranlıqda ürəyi düz-əməlli döyünmədən Qustenin orada, onun arxasında az başa düşülən adlarla onu necə “mükafatlandırdığını” eşitdi, təbii ki, arvadı arada əsnəməyindən də qalmırdı. Azca keçmiş Quste, bəlkə də, uzanıb çoxdan yatırdı, Diderix isə, kim bilir, hələ nələr gözləyərək, sürünə-sürünə taxçaya dırmaşıb tunc qeysərin arxasında gizləndi...

Bu cür gecə macəralarından sonra bir qayda olaraq o, səhər tezdən təsərrüfat kitabını gətirtdirərdi, vay o haldan ki, Qustenin hesabında əyər-əskiklik olaydı. Qustenin özünün qısaömürlü hökmranlıq təkəbbüründən yaddaşında nəsə qalardısa, bütün qulluqçuların iştirakı ilə keçirilən cəza

məhkəməsində Diderix həmin lovğalığa son qoyardı. Həm də çalışardı ki, ər-arvad münasibətləri Qustenin xeyrinə həll olunmasın, çünki hər dəfə bir ötüb ikinci axşamı, iki ötüb üçüncü axşamı, hərdən də daha tez-tez Diderix evdən çıxıb, özünün dediyi kimi, daimi müştəri sifətiylə ratskellerə gedərdi, lakin bu heç də həqiqətəuyğun olmurdu... Diderixin ratskellerdəki masasının başı üstündə qotik üslubda tikilmiş tağın altında yazılmışdı: "Meyxana nə qədər yaxşı olsa, arvad o qədər pis olar. Arvad nə qədər pis olsa, meyxana o qədər yaxşı olar". Digər tağlardakı qədim kəlamlar ürəklərə su çiləyərək təbiətin hökmünə tabe olub evdə qadına edilən ehtiramların kimdənsə intiqamını alırdı: "Şərabı, nəğməni sevməyən bir kəs, ömürlük qazanar qadını əbəs". "Tanrı sizi qorusun ağrılardan, acılardan, o amansız köpəklərdən, acıdilli bacılardan". Yadaszonla Hoytoyfelin arasından gözünü tavana zilləyən kəs oxuyardı: "Doğma ocaq başında göz oxşayan bir dinclik, o ovxarlı qılıncın gətirərmi inciklik?!" "Qədim alman adətincə bu meydanı siz seçin, gəlin, əyləşin burda, dərdi su kimi için". Təriqətlər və partiyalar arasında fərq görmədən bunların hamısı burada baş verirdi. Zira ən yaxın həmfikirləri ilə birlikdə Kon və Hoytoyfel də bütün vaxt ərzində burada olmuşdular, biri digərinin ardınca və çox da diqqət çəkmədən, çünki uzun müddətə heç kəs milli ideyanı qanadlandırıb göylərə qaldıran uğuru inkar edib görməyə bilməzdi. Hoytoyfellə qayını Tsillixin münasibətləri, həmişə olduğu kimi, yenə də öz gərginliyini saxlayırdı. Onların dünyaya baxışları arasında keçilməsi mümkün olmayan maneələr vardı və hər iki tərəfdən qeyd olunduğu kimi, "Alman olan kəs dini əqidəsinə toxunmağa yol verməz". Siyasətdə isə, əksinə, məlum olduğu kimi, istənilən ideologiya pisdir. Bir vaxtlar Frankfurt parlamentində yüksək əhəmiyyət kəsb edən müəyyən kişilər oturardı, amma onlar hələlik real siyasətçilər deyildilər və Diderixin müəyyənləşdirdiyi kimi, cəfəngiyatdan başqa heç bir işlə məşğul olmamışdılar. Əslində, qazandığı uğurların sayəsində xeyli mülayimləşərək o, etiraf edirdi ki, Almaniya özünün şairləri və mütəfəkkirləri hesabına ayaqda qala bilmişdir.

– Lakin bu yalnız ilkin mərhələ idi, mənəvi nailiyyətlərimiz bu gün sənaye və texnikaya söykənməlidir. Bunu uğurlarımız sübut edir.

Hoytoyfel bununla razılaşmalı olmuşdu. Qeysərin özü

və fəaliyyəti, eləcə də əhəmiyyəti barədə söylədikləri ifadələr əvvəlkilərə nisbətən köklü şəkildə ehtiyatlı səslənirdi; uca natiqin hər çıxışında Hoytoyfel duruxur, mız qoymağa çalışır, axırda da etiraf edirdi ki, ən yaxşısı, sadəcə, ona qoşulmaq olardı. Köklü liberalizm – get-gedə bu, az qala hamı tərəfindən qəbul olunmuş baxışa çevrilirdi – yalnız o vaxt uda bilərdi ki, milli düşüncənin enerjisi ilə yüklənsin, müsbət fəaliyyət göstərib azadfikirlilərin bayrağını uca tutaraq qarşıda qoyulmuş məqsədə can atsın, günəş altda yaşamağı bizə rəva bilməyən düşmənlərə qarşı özünün barışmaz *quos ego*[1]-sunu bəyan etsin. Zira təkcə qatı düşmənimiz olan Fransa hər dəfə təzədən baş qaldırmır: eləcə də həyasız ingilislərlə haqq-hesab çəkməyin vaxtı yetişib! Qurulması uğrunda dahi qeysərimizin dahiyanə təbliğat apardığı donanma bizə hava, su kimi lazımdır, çünki gələcəyimiz, doğrudan da, sudadır, bu qavram həmişə özünə daha çox dayaq tapırdı. Həmişə oturduqları masanın dörd yanında donanma ideyası özünə yer etmişdi və alman şərabı ilə mütəmadi qidalandırılaraq yaradıcısına pərəstiş qazandıran korun bir alova çevrilmişdi. Burjuaziya əqlinin ixtirası olub işə salınan, Qauzenfelddə müəyyən maşınların "dünya səltənəti" adlı kağız istehsal etdiyi kimi dünya səltənətini quran donanma, bu gəmilər, bu heyrətamiz maşınlar, bütün bunların hamısı Dideriхin ürəyincə idi, Hoytoyfel kimi Konu da milli ideyaya yaxınlaşdıran öncə donanma olmuşdu. İngiltərəyə desant çıxarmaq ratskellerin qotik tağları altında duman kimi toplanmış bir xəyal idi. Gözlərdən qığılcım yağırdı və onlar İngiltərənin bombardman edilməsini müzakirə edirdilər. Parisin bombardman edilməsi onunla paralel aparılacaq bir iş idi və Allahın bizimlə birlikdə həyata keçirəcəyi planları tamamlayırdı. Zira keşiş Tsillixin dediyi kimi, "Xristian toplan xeyirxah işlər görür". Yalnız mayor Kuntse buna şübhə ilə yanaşdı, onun nəhs deyimlərinin sonu görünmürdü. Kuntse yoldaş Fişerə uduzandan bəri hər cür məğlubiyyəti mümkün sayırdı. Amma o, yeganə inamıkəm adam idi. Ən çox şənlənən isə Künxen idi. Bu balacaboy qorxunc kişinin böyük müharibədə bir vaxtlar törətdiyi əməllər indi, aradan iyirmi beş il keçəndən sonra ictimai fikirdə özünün həqiqi təsdiqini tapdı.

---

[1] Mən sizi (*lat.*)

– Haçansa səpdiyimiz toxum indi-indi cücərir. Allaha şükür ki, nurdan düşmüş gözlərim bunları görə bildi! – dedi və üçüncü şüşədən sonra yerindəcə yatdı.

Ümumiyyətlə götürdükdə Diderixin Yadaszona münasibətində də xoş bir dönüş yaranmışdı. Hər ikisi püxtələşib toxlar sırasına keçmişdi, köhnə rəqiblər nə siyasətdə, nə ratskellərdəki daimi masalarının arxasında, nə də həftəsonu axşamüstü Diderixin Qustedən xəbərsiz getdiyi, çoxlarından gizli saxlanan villada bir-birinə sataşırdılar. Həmin villa Saksoniya darvazasının qənşərində yerləşirdi və haçansa fon Britsenin villası olmuşdu, indi isə orada camaat içində az-az görünən, görünəndə də piyada görünməyən tək bir qadın yaşayırdı. O hərdən bəzənib-düzənərək "Valhalla"nın ön lojasında oturar, hamı da durbinini ona tuşlayardı, lakin heç kəs indiyə qədər onu salamlaya bilməmişdi və qadın özünü gizliliyini qoruyan bir kraliça kimi aparırdı. Təbii ki, bəzəkdüzəyinə baxmayaraq, hamı bilirdi ki, bu, Berlində peşəsini təkmilləşdirmiş, indi isə onu Britsen villasında uğurla həyata keçirən Ketxen Tsillixdir. Hər kəsə aydın idi ki, belə bir vəziyyət keşiş Tsillixin nüfuzuna təsirsiz qalmayacaq. Bütün icma bu hadisədən vəcdə gəlmiş kinayəçilərin hərəkətlndən bərk acıqlandı. Fəlakəti qabaqlamaq üçün keşiş bu bəd əməli aradan qaldırmağı polisdən xahiş etdi, lakin müqavimətlə üzləşdi. Fon Britsen villası ilə şəhərin ali mövqeləri arasındakı müəyyən əlaqələri nəzərə aldıqda bu, büsbütün anlaşılan idi. Yersəl ədalətə ilahi ədalətdən heç də az şübhələnməyən ata hakimin vəzifəsini özünün icra edəcəyinə and içdi və bir gün günortadan sonra hələ də yataqda uzanmış itkin qızına tərbiyə verəsi oldu. Camaatın dediyi kimi, Ketxen lüt bədəninin salamatlığı üçün hər şeyi duyaraq kişinin dalınca getmiş anasına borclu olmalı idi. Günahlar içində üzən qızına qarşı zəiflik göstərdiyini anaya irad tuturdular. Keşiş Tsillixə gəldikdə isə o, kilsə kürsüsündən bəyan etdi ki, Ketxen ölüb, hətta sümükləri də çürüyüb. Bunun sayəsində də özünü konsistoriumun[1] işə qarışmasından xilas etdi. Keşişin əleyhinə çevrilmiş sınaq zaman keçdikcə onun nüfuzunu möhkəmləndirdi... Ketxenin həyatındakı dönüşdə maddi dəstəklə iştirakçı olan kişilərdən Diderix yalnız Yadaszonu tanıyırdı, baxmayaraq ki Yadaszon hamıdan az yardım edir-

[1] Keşiş və kardinalların təntənəli iclası

di, Diderixin gümanına görə, bəlkə, heç etmirdi də. Yadaszonun Ketxenə olan münasibəti keçmişlərdən bu yana, sanki, girov kağızı üzərində qurulmuşdu. Ona görə də Diderix öz dərdini Yadaszonla müzakirə etməyi ədəbsizlik saydı. Hər ikisi daimi masalarının yanındakı taxçaya sığındı, orada yazılmışdı: "Kişini əlində saxlamaq istəyən qadın ona dadlı-dadlı xörək bişirər"; və bir az aralıda oturub xristian toplarından ağızdolusu danışan keşiş Tsillixi gözdən qoymayaraq onlar fon Britsen villasındakı vəziyyəti müzakirə etdilər. Diderix Ketxenin onun puluna olan sonsuz iddialarından gileylənib Yadaszonun bununla bağlı qıza lazımi təsir etməsinə ümid bəslədi. Amma Yadaszon yalnız sual verməklə kifayətləndi:

– Bu nəyinizə lazımdır axı? Müftə başa gəlmir ki?

Tamam doğru idi. Çünki ən azı, bu yolla Ketxeni ələ keçirərkən aldığı ilk qısa həzdən sonra Diderix ona daha çox məxaric mənbəyi, reklam məxaricinin mənbəyi kimi baxırdı.

– Mənim vəziyyətim, – Yadaszona dedi, – irimiqyaslı nümayəndəlik tələb edir, yoxsa mən, açıq etiraf edim ki, bütün işi batıraram, çünkl aramızda qalsın, Ketxen yetərincə cazibədar deyil. – Yadaszon mənalı-mənalı gülümsədi, ancaq heç nə demədi. – Ümumiyyətlə, – Diderix sözünə davam etdi, – üslubu arvadımın üslubundan seçilmir, arvadım isə... – əlini ürəyinin başına qoydu, – ondan xeyli fəaldır. Görürsünüzmü, adam vicdanı əleyhinə çıxa bilmir. Hər dəfə Britsen villasına gedəndən sonra mənə elə gəlir ki, arvadıma nəsə borcluyam. Gülə bilərsiniz, doğrudan da, mən ona nəsə hədiyyə edirəm. Kaş bircə xəbər tutmayaydı!

Yadaszon Diderixin düşündüyündən də artıq bir əsasla güldü: çünki baş direktor Heslinqin arvadına bu münasibətləri deməyi çoxdandır özünün mənəvi borcu sayırdı.

Siyasi sahədə Diderixlə Yadaszon arasında Ketxenlə olduğu kimi səmərəli bir əməkdaşlıq yaranmışdı; zira onlar hər ikisi birlikdə çalışırdı ki, şəhəri pisfikirli insanlardan təmizləsinlər, xüsusilə o adamlardan ki, onlar əlahəzrəti təhqir etmək azarını hər tərəfə yayırdılar. Özünün çoxsahəli münasibətləri ilə Diderix onları axtarıb tapır, bundan sonra isə Yadaszon onları tiyənin ağzına verirdi. "Eqir himni"nin meydana çıxmasından sonra onların fəaliyyəti daha bəhrəli oldu. Diderixin evində Quste ilə məşğul olan pianino müəlliməsi "Eqir himni"nə xüsusi bir ad verdi!.. Verdiyi bu adın altını da özü çəkdi... Hətta təzədən Netsiqdə görünən Volfqanq Buk

da müəlliməyə qarşı çıxarılan bu hökmü uyğun saydı, çünki o, monarxist hisslərə sığal çəkirdi.

– Cəzasızlıq hökmünü xalq başa düşməzdi, – Buk ratskellerdəki daimi masalarının arxasında dilləndi, – siyasi rejimlər içində monarxiya sevgi məsələsində ciddi və enerjili qadın kimidir. Kim bu cür sevgiyə meyil göstərirsə, könlündən zorakı tədbirlər keçir, mülayimlik onu təmin eləmir.

Bu sözdən sonra Diderix qızardı... Əfsuslar ki, Buk belə fikirləri yalnız ayıq başla söyləyirdi. Bundan sonra o, özünün müqəddəs şeyləri çirkə bulaşdırmaq kimi məlum adəti ilə yetərincə imkan yaratdı ki, onu abırlı cəmiyyətdən xaric etsinlər. Onu bu taledən qoruyan məhz Diderix oldu. Dostunu müdafiə etdi.

– Cənablar unutmasınlar ki, o, irsi naqislikdən əzab çəkir, çünki ailədə həddən artıq inkişaf etmiş degenerasiya əlamətləri görünür. Digər tərəfdən də ondakı sağlam rüşeym dilə gəlir ki, artistlik həyatı onu heç də qane etmir, odur ki o, vəkil kimi öz peşəsinə qayıtmışdır.

Cavab verdilər ki, əgər Buk teatrdakı, az qala, üçillik fəaliyyətini dilə gətirmirsə, bu, şübhəlidir. Onu duelə çağırsan, gələrmi? Diderix bu suala cavab verə bilmədi. Onu qoca Bukun oğluna yaxınlaşdıran məntiqlə əsaslandırılmamış, lakin dərinlikdə kök salmış bir tələbat idi. O həmişə ciddcəhdlə söhbətə başlamaq istəyirdi, hər dəfə də kəskin ziddiyyətlər ortaya çıxanda həmin söhbət kəsilirdi. Hətta Buku o, evinə də apardı və gözlənilməz bir halla qarşılaşdı. Zira Buk əvvəlcə yaxşı konyakın xatirinə gəlirdisə, tezliklə aşkarca Emmidən ötrü gəlməyə başladı. Hər ikisi Diderixi çaşbaş salaraq onun başı üstündən razılığa gəldi. Sanki, hər cür məhrəmlikdən və digər duyğulardan uzaq, normal vəziyyətdə müxtəlif cinslərin nümayəndələri arasında ünsiyyət yaradan kəskin və cürətli söhbətlər edirdilər; səslərini endirib məhrəmləşəndə Diderix bunu büsbütün qorxulu sayırdı. O, seçim qarşısında qalmışdı: araya girib dəqiq münasibətlərmi qursun, yoxsa otağı tərkmi etsin. Şəxsən özünü heyrətləndirsə də, sonuncuya qərar verdi. “Hər ikisi, necə deyərlər, uğursuz tale ilə üzləşib, həmin tale haqlı olsa belə”, – Diderix onu bürüyən qayğı ilə öz-özünə dedi və heç fikir vermədi ki, əslində, o, Emmi ilə öyünür, fəxr edir, çünki bacısı Emmi Volfqanq Buka razılıq vermək üçün yetərincə, yetərincədən də artıq nəcib, bəli, mübahisəli dərəcədə yetərincə

ağıllı görünürdü. "Kim bilir, – tərəddüd içində düşündü. Sonra isə qətiyyətlə öz-özünə dedi: – Niyə də yox! Bismark da Avstriya ilə beləcə davranmadımı?! Əvvəlcə məğlub etdi, sonra da müttəfiqlik!"

Hələ də aydınlaşmamış bu düşüncədən sonra Diderix Volfqanqın atasına da yenidən müəyyən maraq göstərdi. Ürək xəstəliyinə tutulmuş qoca Buk camaat arasına az-az çıxardı, çıxanda da çox vaxt hansısa görüyün qarşısında, guya, sərgiyə baxırmış kimi dayanar, həqiqətdə isə gizlətməyə çalışardı ki, nəfəs almaqda çətinlik çəkir. Nə düşünürdü? Netsiqin günü-gündən çiçəklənməsi, milli oyanış və indi hakimiyyətdə olanlar barədə fikri nə idi? Əqidəsini dəyişmişdimi, daxilən yenilmişdimi? Elə alındı ki, baş direktor doktor Heslinq, burjuaziyanın ən qüdrətli adamı gizlicə evin darvazasına sığındı ki, sonradan gözə görünmədən onun arxasından çıxıb təsir gücünü itirmiş, artıq yanunudulmuş bu qocanın arxasınca sürünsün: zirvəyə yetişmiş bir adam ölüm ayağında olanın birində müəmmalı şəkildə narahatlıq keçirərək... Qoca Buk girovların faizini gecikmə ilə qaytardığından Diderix onun oğluna evi almaq istədiyini bildirdi. Təbii ki, qoca nə qədər ki yaşayır, həmin evdə qala bilər. Diderix ev avadanlığını da almaq və pulunu həmin an ödəmək istəyirdi. Volfqanq təklifi qəbul etməsi üçün atasını dilə tutdu.

İyirmi iki mart gəlib-keçdi. Böyük Vilhelmin yüz yaşı tamam oldu, heykəl isə milli parkda hələ də qoyulmamışdı. Şəhər deputatlarının iclasında tələbatların sonu görünmürdü, bir neçə dəfə ağır mübarizə şəraitində əlavə kreditlərə razılıq verilmişdi, amma yenidən onlardan vaz keçilmişdi. Təşkilata ən böyük zərbə isə rəhmətlik babaya ayaqüstü heykəl əvəzinə, at belində heykəl qoymağı əlahəzrət əmr edəndə dəydi. Səbirsizlikdən özünə yer tapa bilməyən Diderix işin gedişindən xəbər tutmaq üçün tez-tez axşamüstü Mayzesştraseyə gedərdi. May ayı idi və hətta şər qarışanda da hava çox isti keçirdi, lakin milli parkın yenicə daş döşənmiş kimsəsiz ərazisində hava oynayırdı. Diderix bir daha incə duyğularla cəngavərlər malikanəsinin sahibi cənab fon Kvitsenin burada gördüyü parlaq işini xəyalından keçirdi. Bu iş ona asan başa gəlmişdi! Əgər qohumun yerli hökumət başçısıdırsa, torpaq sahəsinin alveri o qədər də böyük bacarıq tələb etmir. Şəhər, sadəcə, torpağın hamısını qeysər Vilhelm hey-

kəli üçün almağı və onun istədiyi məbləği verməli oldu... Bu vaxt parkda iki adam göründü; Diderix onların kim olduğunu vaxtında görüb kolluğun arxasında gizləndi.

– Burada nəfəs almaq olar, – qoca Buk dedi. Oğlu cavab verdi:

– Bu görkəm adamı diksindirməsə. Burada zibilxana yaratmaq üçün milyon yarım borcun altına giriblər.

O, daş özüllərin, qartalların, süslü sürahilərin, aslanların, məbədlərin və digər fiqurların yanmçıq tikilisinə işarə etdi. Qartallar qanadlarını gərib caynaqlarını boş özüllərin üstünə qoymuşdular. Digərləri isə süslü sürahiləri simmetrik bölüb keçən həmin məbədlərin üstündə yuva salmışdılar; burada irəli sıçramağa hazır olan aslanlar dayanmışdı, onların atlanmaq istədiyi həmin ön hissədə yetərincə həyəcan vardı: bayraqlar dalğalanır, insanlar çılğınlıqla mübahisə edirdilər. Vilhelmin əzəmətindən postamentin arxa tərəfində diz çöküb titrəyən, məğlub sərkərdə kimi zəfər arabasının arxasınca yeriyən III Napoleon, bunlar azmış kimi, monumentin pillələri üstündə onun arxasında belini qabartmış aslanın ona hücum edəcəyi qorxusunu yaşayırdı, bunun əksinə olaraq Bismark və digər paladinlər[1] bu heyvan qəfəsinin tam ortasında özlərini öz evlərindəki kimi hiss edirdilər, hələlik mövcud olmayan hökmdarın əməllərinə şərik çıxdıqlarını ifadə etmək üçün postamentin dibindən əllərini yuxarıya qaldırdılar.

– Bu postamentin üstünə kim qalxacaq? – Volfqanq Buk soruşdu. – Qoca yalnız ilkinlərdən biridir. Bu mistik-qəhrəmanlıq tamaşası sonradan bizlərdən zəncirlə təcrid olunacaq, biz də gözümüzü döyə-döyə baxıb deyəcəyik: bütün bunların son məqsədi nə imiş, görəsən. Teatr, özü də ən pisindən.

Bir az sonra qaşqaralanda ata Buk dedi:

– Bəs sən, oğlum? Haçansa sənin üçün də son məqsəd oynamaq olmuşdu.

– Bütün soyum kimi. Əlimizdən ayrı iş gəlmir. Bu gün gərək biz özümüzü kiçildib yüngül aparaq, gələcək üçün bu ən etibarlı yoldur; deməzdim ki, təkəbbürdən xeyli üstündür, elə buna görə də səhnəni tərk etdim. Gülməlidir, ata, getdim, çünki haçansa rolumu oynayanda polis rəisi uşaq

[1] *Paladin* – "Roland nəğməsi" dastanında on iki igiddən birinin adı, *cəngavər*, *sadiq keşikçi* mənalarında işlənir.

kimi ağladı. Amma fikirləş gör, buna dözmək mümkünmü. Son dərəcə nəcibliyi, hər şeyə qəlbin gözü ilə baxmağı, yüksək mənəviyyatı, intellekti və ruhun müasirliyini mən insanlara, özüm kimi insanlara tərənnüm edirəm, çünki onlar mənə əl çalırlar və onların həyəcanlı sifətləri gözlərimin önündən getmir. Sonra isə həmin insanlar inqilabçıları qısnayıb tətilçilərə atəş açırlar. Zira mənim polis rəisim məhz bu insanları təmsil edir. – Bu yerdə Buk Diderixin gizləndiyi kolluğa tərəf döndü. – Sənət sənətliyində qalır və ruhun coşqunluğu heç vaxt həyatımıza müdaxilə etmir. Mədəniyyət ustadlarımızın bunu mənim kimi dərk edəcəkləri gün gələrsə, onda mənim təki sizləri də vəhşi heyvanlarınızla bir yerdə qoyub gedəcəklər.

O, aslanları və qartalları göstərdi. Qoca da heykələ baxdı; dilləndi:

– Onlar həddən artıq qüdrətləniblər, lakin bu qüdrətləri ilə dünyaya nə daha çox mənəviyyat, nə də daha çox yaxşılıq bəxş olunub. Demək, hər şey əbəs imiş. Görünür, elə biz də əbəs yerə var olmuşuq. – Oğluna baxdı. – Bununla belə, meydanı onlara verməyə haqqınız yoxdur.

Volfqanq ağır-ağır köks ötürdü:

– Nəyə ümid olaq, ata? Qırx səkkizinci il inqilabından əvvəl üstünlük qazananlardan fərqli olaraq bunlar məsələni dərinləşdirmirlər. Əfsuslar ki, tarixdən dərs almağı öyrəniblər. Onların sosial qanunvericiliyi hər şeyin qabaqcadan qarşısını alır və getdikcə korrupsiyalaşır. Xalqı elə doyururlar ki, o, azadlıq bir yana qalsın, çörək uğrunda belə mübarizə aparmağa lüzum duymur. Onlara qarşı kim şahidlik edər ki!

Bu vaxt qoca belini düzəltdi, səsinə bir daha canlanma gəldi.

– İnsanlığın vicdanı, – dedi və oğlu başını aşağı saldığına görə xeyli fasilədən sonra əlavə etdi: – Sən gərək buna inanasan, oğlum, bunların qaçmaq istədiyi fəlakət üz verəndə və o, tarixin arxivinə qatılanda qəti şübhələnmə ki, bəşəriyyət hazırkı mənəviyyatı birinci inqilaba qədər mövcud olan mənəvlyyatdan daha rüsvayçı və daha ağılsız sayacaq. – Onun səsi astadan çıxdı, sanki, lap uzaqlardan gəldi: – Hazırkı çağda yaşayan şəxs, elə bil ki, heç bir ömür yaşamayıb.

Birdən kişi səndələdi. Oğlu tələsik onun qoluna girdi, büzüşmüş kişi ayağını sürüyə-sürüyə qaranlıqda yox oldu. Ayrı yollarla qaçıb aralanan Diderix elə bildi qorxunc, çox

hissəsini də anşırda bilmədiyi bir yuxudan ayılıb. Həmin yuxudan onu, sanki, əməllicə silkələyib oyatmışdılar. Bütün bunların gerçəkdə baş verdiyinə baxmayaraq, eşitdikləri onun canına üşütmə salmış və onu bir vaxtlar bələd olduğu qiyamdan da dərin silkələmişdi. Bu iki nəfərdən biri ömrünün son günlərini yaşayırdı, o birisi isə qarşısına böyük məqsədlər qoymamışdı, amma Diderix hiss edirdi ki, onların ölkədə sağlam səs-küy salmaları daha yaxşı olardı, nəinki burada, bu qaranlıq guşədə mənəviyyatdan və gələcəkdən bəhs edən şeyləri bir-birinə pıçıldamaları.

***

Gerçək həyatda, təbii ki, anlaşıla bilən işlər vardı. Heykəlin müəllifi ilə birgə Diderix açılış mərasiminin bədii tərtibatı üzərində işləyirdi və bu zaman müəllif gözlənilən də çox güzəştlərə gedirdi. Ümumiyyətlə, indiyə qədər o yalnız sənətinin yaxşı tərəflərini, daha doğrusu, öz dühasını və xoş məramını nümaylş etdirirdi, digər tərəfdən də qalan məsələlərdə tam dəqiqlik və işgüzarlıq göstərirdi. Vali doktor Şeffelvaysın qardaşı oğlu olan bu cavan köhnəlmiş mühakimələrə baxmayaraq, hər yanda düzgünlüyün olduğuna bir nümunə idi, bir də ona nümunə idi ki, çörəkpulu qazanmağa həddən ziyadə tənbəldirsə və sənətkar olmaq istəyirsə, məyus olmağa heç bir əsas yoxdur. İlk dəfə o, Berlindən Netsiqə qayıdanda əynində məxmər pencək vardı və ailəyə müəyyən xoşagəlməz hallar yaşadırdı; ancaq ikinci gəlişində başına şlyapa qoymuşdu və müəyyən vaxtdan sonra əlahəzrət ona diqqət yetirmişdi; ona icazə vermişdilər ki, Qələbə xiyabanında markqraf Əzəmətli Hattoya, eləcə də onun iki görkəmli müasirinə – bir gün ərzində yüz litr pivə içən monax Tasilloya və berlinlilər onu sonradan assalar da, onlara tər dabanlarından çıxana qədər işləməyi öyrədən cəngavər Klitsensisə abidə ucaltsın. Cəngavər Klitsensisin xidmətlərini əlahəzrət baş valinin nəzərinə xüsusi çatdırdı ki, bu da heykəltəraşın karyerasına öz müsbət təsirini göstərdi. Qeysərin mərhəmət kölgəsinə sığınan bu cavan oğlana sonsuz xoş sözlər söylənib xoş üzlər göstərildi; Diderix evini yerli-dibli onun ixtiyarına verdi, onun üçün bir at icarəyə götürdü ki, gənc sənətkar qaynayıb-coşan gücünü onunla cilovlasın; və məşhur qonaq balaca Horstun eskiz çəkmək cəhdlərini həddən artıq uğurlu adlandıranda hansı ümidlər

yarandı! Diderix çox da düşünmədən qərara aldı ki, Horst həyatını sənətə, bu qədər gənc olan karyerasına həsr edəcək.

Sənətdən başı çıxmayan və əlahəzrətin vurğunu ilə dil tapa bilməyən Vulkau heykəlqoyma komitəsindən fəxri pay kimi 2000 mark aldı və buna onun fəxri sədr təki haqqı da vardı; lakin komitə heykəlin açılışında söylənləcək nitqi qanuni sədrə, heykəlin mənəvi müəllifinə, onun ucaldılmasına gətirib çıxaran milli hərəkatın banisinə, şəhər deputatı və baş direktor doktor Heslinqə tapşırdı. Əhsənl Həyəcandan və sevincdən yerə-göyə sığmayan Diderix özunu yeni yüksəlişin astanasında gördü. Əslində, oberprezidentin özünü gözləyirdilər, amma zati-müqəddəslərinin hüzurunda gərək Dlderix çıxış edəydi, bunun nəticələri nələr vəd etmirdi?! Doğrudur, Vulkau çox çalışdı ki, ona badalaq gəlsin; bu işdən kənarlaşdınldığına görə pərtləşərək hətta rəsmi xanımların tribunasına Qusteni buraxmağa icazə vermədi. Buna görə də Diderix onunla qızğın və nəticəsiz bir mübahisəyə girişdi. Dərindən fısıldaya-fısıldaya evə, Qustenin yanına qayıtdı.

– Alınmadı, dediyinə görə, sən rəsmi qadın deyilsənmiş. Görərik kim rəsmidir, sən, yoxsa o! Ayağına düşüb yalvaracaq! Allaha şükür ki, mənim ona daha ehtiyacım yoxdur, amma onun mənə bəlkə də, işi düşdü.

Belə də oldu, çünki "*Woche*"[1] jurnalının növbəti nömrəsi çıxanda adət halını almış qeysər şəkillərindən başqa daha nələr verilmişdi? İki şəkil, biri Netsiqdəki qeysər Vilhelm heykəltəraşının təsviri, digəri isə komitə sədrinin arvadı ilə əksi, Diderixlə Quste. Vulkau barədə heç nə! Bunu da hamı görüb bir nişanə kimi qəbul etdi ki, kişinin mövqeyi laxlayıb. Deyəsən, bunu özü də hiss etmişdi, çünki "Woche"yə yol tapmaq üçün addımlar atmışdı. Diderixi axtarmışdı, amma Diderix özünü dandırmışdı. Heykəltəraş da öz tərəfindən bəhanələrə əl atmışdı. Bu vaxt, doğrudan da, elə alındı ki, Vulkau küçənin ortasında Qusteyə yaxınlaşdı. Dedi ki, rəsmi qadınların lojasındakı yer məsələsi anlaşılmazlıq olub...

– Əsl Mennemiz kimi quyruq bulayırdı, – Quste bildirdi.

– Xeyli gecikib! – Diderix qətiyyətlə dilləndi və bu əhvalatı hər yanda danışmaqdan usanmadı. – Adamın vaxtı tamam olubsa, özünə güc gəlməyin mənası nədir? – Volfqanq Buka dedi. – Polkovnik cənab fon Hafke də ondan üz

[1] "Həftə"

döndərib. – Sonra cəsarətlə əlavə etdi: – İndi görür ki, digər güclər də var. Vulkau özlüyündə bunları dərk etməmiş, bugünkü kursa damğasını vurmuş çağdaş həyat şərtlərinə vaxtında uyğunlaşmamışdı.

– Reklam hərisliyi ilə yumşaldılmış mütləqiyyət, – Buk Diderixin sözünü tamamladı.

İndi Vulkaunun vəziyyəti laxlayanda Diderix onu vicdansızcasına aldatdıqları torpaq sahəsi alverini ən böyük həyasızlıq sayırdı. Hirsi elə həddə çatdı ki, reyxstaqın deputatı Fişerin Netsiqə gəlişi onun üçün, sözün əsl mənasında, xilas imkanı oldu. Parlamentarizmin və toxunulmazlığın üstün cəhətləri var axıl Zira Napoleon Fişer reyxstaqda ətraflı çıxış edib hər şeyin üstünü açdı. Ona ən xırda cəza belə düşmədən Netsiqdə yerli hökumət başçısı fon Vulkaunun fırıldaqlarını, onun qeysər Vilhelm heykəli üçün ayrılmış torpaq sahəsindən əldə etdiyi böyük gəliri, Napoleon Fişer bunu şəhərdən şantaj yolu ilə qopardığını söyləmişdi, eləcə də 5000 mark məbləğində fəxri hədiyyəni, bunun da adını o, "rüşvət" qoymuşdu, açıb tökdü. Qəzetin yazdığına görə, xalqın nümayəndəsi böyük həyəcan yaratmışdır. Təbii ki, bu, Vulkaunun yox, məsələləri açıb tökənin hünəri idi. Hiddətlənmiş deputatlar sübut və şahid tələb edirdi. Diderixi əsməcə tutdu, yaxın vaxtlarda onun da adı hallana bilərdi. Xoşbəxtlikdən, hallanmadı, Napoleon Fişer verdiyi sözə əməl etdi. Əvəzində nazir danışdı. O, əfsuslar ki, məclisdə olmadığına görə özünü müdafiə etmək imkanını itirmiş birisinə toxunulmazlıq adı altında edilən görünməmiş hücum barədə hökm verməyi parlamentin öhdəsinə buraxdı. Parlament də cənab nazirə əl çalmaqla öz hökmünü verdi. Məsələ parlament səviyyəsində öz həllini tapdı, amma gərək mətbuat da narazılığını bildirəydi və bu çox çəkmədi. Hər yerdə irad axtaran qəzetlər, sanki, bir-biri ilə sözləşdi. Ehtiyatı əldən vermiş bir çox sosial-demokrat qəzet, o cümlədən də "Volksstimme" özlərinin cavabdeh redaktorlarını məhkəmələrin əlinə tapşırdı. Diderix bu vəziyyətdən istifadə edərək özü ilə cənab hökumət başçısının hərəkətlərinə haçansa şübhə edənlər arasındakı münasibətə birdəfəlik son qoydu. Quste ilə bərabər o, Vulkaugilə getdi.

– İlk mənbədən bilirəm ki, – sonra o söyləyərdi, – kişinin böyük gələcəyi var. Yaxınlarda əlahəzrətlə ova gedib orada əla bacarıq nümayiş etdirmişdir.

Bir həftə sonra "Woche" qoşa səhifədə böyük bir şəkil verdi, bir tərəfdə daz başla saqqal, digər tərəfdə də qarın, aşağıdakı alt yazı ilə: "Yerli hökumət başçısı fon Vulkau, Netsiqdəki qeysər Vilhelm heykəlinin mənəvi qurucusu, yaxın keçmişdə reyxstaqda əleyhinə hamı tərəfindən həyəcanla qarşılanan hücum olmuşdur və onun oberprezident olacağı gözlənilir". Baş direktor Heslinqlə arvadının şəkli səhifənin dörddəbirini tutmuşdu. Diderix əmin oldu ki, lazım olan məsafə təzədən bərpa olunub. Geniş aşkarlıq tələb edən çağdaş həyat şəraitində, həmişə olduğu kimi, hökmranlıq yenə də toxunulmaz qalmışdı ki, bu da Diderixi tam təmin edirdi. Bununla o, açılışdakı çıxışına daxilən tam hazır oldu. Həmin nitq yuxusuz gecələrin təkəbbürlü anlarında, eləcə də Volfqanq Bukla və qarşıdakı hadisələrin nəhəngliyini qəribə şəkildə aydın qavrayan Ketxen Tsillixlə canlı fikir mübadiləsində yaranırdı. Taleyinin həll ediləcəyi gün Diderix nitqinin əlyazmasına görə ürəyi döyünə-döyünə saat on birin yarısında arvadı ilə bərabər mərasim meydanına yollananda burada, demək olar, heç kim yox idi, lakin hər yanda səliqə-sahman vardı. Başlıcası, hərbi sədd çəkilmişdi! Buraxılış sənədlərini təqdim etdikdən sonra o üzə keçən kimi adamı bayramsayağı bir duyğu bürüyürdü, heç bir hüququ olmayan, əsgərlərin arxasında və iri, qara barının dibində günəş altında tər tökə-tökə boğazını irəli uzadan xalqdan üstünlük duyğusu. Arxalarında böyük Vilhelmin olduğu güman edilən uzun ağ parçalardan sağ və sol tərəfdəki tribunaların üstünə onları örtən damların, eləcə də saysız-hesabsız bayraqların kölgələri düşürdü. Diderixin müəyyən etdiyi kimi, sol tərəfdəki cənab zabitlər qanlarına işləmiş nizam-intizamla özlərini və xanımlarını, əlavə kömək olmadan, səliqəyə salmaqla məşğul idilər. Polis nəzarətinin tam ciddiliyi sağ tərəfə ötürülmüşdü, burada mülki şəxslər oturacaq uğrunda əlləşirdilər. Quste də öz yerindən razı qalmamışdı, heykəllə üzbəüzdəki rəsmi bayram çadırını özünə layiq bilməmişdi, o da rəsmi qadın idi, Vulkau bunu təsdiq etmişdi. Diderix qorxaqlıq etməsəydi, arvadını oraya aparardı, lakin onun kobud hücumu, özünün də gözlədiyi kimi, kəskin rədd edildi. Formallıq naminə, eləcə də Quste məyus olmasın deyə, polis leytenantının danışığını kəsdi və az qaldı həbs edilsin. Döşündəki dördüncüdərəcəli "Tac ordeni", çiynindən asdığı qara-ağ-qırmızı lent, eləcə də nitqinin ley-

tenanta təqdim olunan əlyazması onu tutulmaqdan xilas etdi, lakin hamının gözündə, eləcə də öz gözündə bunlar mundirin tam əvəzi ola bilmədi. Yeganə gerçək ləyaqət birdən-birə onun gözlərində sınıb çilikləndi və Diderix yenidən dərk etməli oldu ki, digər üstünlüklərə baxmayaraq, mundirsiz insan həyatda vicdanı pak sayıla bilməzmiş.

Tam ruhdan düşən ər-arvad Heslinqlər hamının gözü qarşısında mövqelərindən geri çəkildilər. Lələkləri, qırçınları və brilyantları içində şişib göyümsov rəng almış Quste, qamına bağladığı qara-ağ-qırmızı lenti fısıldaya-fısıldaya irəli verən Diderix, sanki, məğlubiyyətini ölkənin milli bayrağının rəngləri ilə ört-basdır etmək istəyirdi. Beləcə onlar şlyapalarının günlüklərində palıd yarpağından hörülmüş çələng gəzdirən, hərbi tribunadan aşağıda dayanan, başında landver leytenantının mundirini geyinmiş Künxenin durduğu Veteranlar Şurası və öz cübbəsinə təpilmiş keşiş Tsillixin əmri ilə oturub-duran qara-ağ-qırmızı lentlə bəzədilmiş bəyaz libaslı şərafətli qadınların arasından keçib-getməli oldular. Amma onlar yerlərinə çatanda Qustenin kürsüsündə kim otursa yaxşıdır?! Görkəmindən xatınlıq yağan bir qadınl Donub-qaldılar: Ketxen Tsillix. Bu yerdə Diderix lazım olan həlledici sözü söyləməyə özünü borclu saydı:

– Qadın səhv salıb, yer onunku deyil, – sanki, bunu tanımadığı, şübhəli şəxs saydığı Ketxen Tsillixə demirdi, sadəcə, nəzarətçiyə söyləyirdi. Ətrafındakı pıçıltılar ona haqq qazandırmasa da, Diderix burada nizam-intizamın, qayda və qanunların lal gücünün xatirinə dayanmışdı, Ketxenin burada olmasındansa, o, həmin tribunanın uçmasına üstünlük verərdi... Bununla belə, gözlənilməz bir hadisə baş verdi, Ketxenin rişxəndli təbəssümü altında nəzarətçi çiyinlərini çəkdi, hətta Diderixin çağırıb gətirtdiyi nəzarət polisi də sırtıqlığın qələbəsi üçün anlaşılmaz bir dayaq nöqtəsinə çevrildi. Nizamı pozulmuş dünyanın çaşdırdığı Diderix Qustenin lap yuxarıdakı oturacaqlardan birinə aparılmasına etiraz edə bilmədi, bu arada Quste Ketxenlə ziddiyyətləri daha da qabardan bir-iki kəlmə kəsdi. Fikir mübadiləsinə məsələyə dəxli olmayanlar da müdaxilə etmək istədilər və mübahisə çızıqdan çıxma təhlükəsi ilə üzləşmək üzrə idi; elə bu vaxt "Qonaqlarıı Vartburqa yürüşü" adlı musiqinin sədaları qanadlanıb havada uçdu və onlar, doğrudan da, rəsmi çadıra yürüş etdilər, öndə qırmızı qusar mundirinə görə, az qala, tanınmaz olmuş Vulkau, əynin-

də frak, sinəsində orden olan kişi ilə ucaboy generalın arasında. Belə şey mümkündürmü? Yüksəkçinli daha iki general! Onların yavərləri, hər cür rəngdən olan mundirlər, sinələrdəki ordenlərin parıltısı və eyni ülgüdən çıxmış boy-buxun!

– O sarışın, o uzun kimdir, görəsən? – Quste ürəkdən gələn bir səmimiliklə soruşdu. – Gör nə gözəl kişidir!

– Çalışın ayağımı basmayasınız! – Diderix hökmlə dedi, çünki qonşusu sıçrayıb ayağa qalxmışdı, hamı, az qala, boynunu kökündən çıxarıb qızdırma içində o tərəfə baxırdı.

– Hələ bir onlara bax, Quste! Emmi axmaqlıq edib bizimlə gəlmədi. Bu, təkrarsız, əla bir mənzərədir, bundan gözəli ola bilməz, bundan yaxşısını tapa bilməzsən!

– Heç o qolçaqlı sarışını demirsən! – Quste yanıqlı-yanıqlı dedi. – O şümşad boylunu! Əsl zadəgana oxşayır, baxan kimi görürsən.

Diderix ürəkdən güldü.

– Burada ümumiyyətlə, zadəgan olmayan adam yoxdur, buna tam əmin ola bilərsən. Kifayətdir deyim ki, əlahəzrətin cinah yavəri də burdadır!

– O sarışın?!

– Özüdür ki var!

Bir balaca uyğunlaşmağa çalışdılar.

– Cinah yavəri! İki diviziya generalı, vay dədə!

Üstəlik, hərbi salamlaşmanın cazibədarlığı; hətta vali doktor Şeffelvaysı da dartıb özünün miyanə yuvasından çıxarmışdılar və o, indi araba karvanı leytenantının mundirində böyüklərin hüzurunda farağat dayanmışdı. Əyninə ulan mundiri geymiş cənab fon Kvitsin tədbir üçün ayrılmış torpaq sahəsini monokldan seyr edirdi, baxmayaraq ki həmin sahə əvvəllər onun özünə məxsus olmuşdu. Qırmızı qusar Vulkau isə bədəninin kəndirlə çevrələnmiş nəhəng profilini salamlarla tamaşaçılara çevirib yerli hökumət başçısı vəzifəsini yalnız indi işə yaradırdı.

– Dövlətimizin sütunları bunlardır! – Diderixin qışqırtısı yürüş marşının təntənəli sədalarına qarışdı. – Nə qədər ki belə kişilərimiz var, biz bütün dünyanın qorxusuna çevriləcəyik!

Ona hakim kəsilən daxili tələbatdan və vaxtının yetişdiyini düşündüyündən aşağıya, natiq kürsüsünə götürüldü. Lakin kürsünün keşiyini çəkən polis ona qarşı yeriyib dedi:

– Yox, yox, sizin vaxtınız deyil.

Sıçrayışının qarşısı qəflətən alınan Diderix onun arxa-

sınca qaçan nəzarətçi ilə toqquşdu; magistratın məmurlarından olan həmin nəzarətçi bir az qabaq tam əminliklə demişdi ki, sarısaçlı qadının oturduğu yerin cənab deputata ayrıldığından xəbəri var, amma "yüksək dairədən gələn əmrə əsasən yeri həmin xanıma veriblər". Qalanlarını kişi donuqlaşmış pıçıltı ilə başa saldı və Diderix əl-qolunu yelləDib ondan aralandı, həmin əl-qol hərəkəti də təqribən bunları deyirdi: "Onda hər şey qaydasındadır". Əlahəzrətin cinah yavəri! Onda hər şey qaydasındadır! Diderix götür-qoy etdi görsün ki, qayıdıb Ketxen Tsillixə hamının gözü qarşısında ehtiram göstərib üzr istəmək yerinə düşərdimi.

Çatdıra bilmədi, polkovnik fon Hafke bayraqdarlara "Tərpən!" əmrini verdi, Künxen də öz döyüşçülərini hərəkətə gətirdi; bəzəkli çadırın arxasında orkestr işə düşdü: "İbadətə gedirik biz". Buna həm şərafətli qadınlar, həm də "Veteranlar şurası" qoşuldu. Əyninə "Dəmir xaç"la yanaşı fransız gülləsinin dəlib keçdiyi yeri örtən şan-şöhrətli gözəklə bəzədilmiş tarixi landver mundiri geymiş Künxen cübbəyə təpilmiş keşiş Tsillixlə meydançanın tən ortasında rastlaşdı və bayraqdarlar gəlib-çıxanda Tsillixin irəli yeriməsi ilə göylərdəki köhnə müttəfiqə ibadətlər edildi. Mülkilərln tribunasındakılan məmurlar ayağa qaldırdılar, cənab zabitlər isə özləri ayağa durdular. Bununla yanaşı, xor "Alınmaz qəsr" mahnısını başladı. Ancaq Tsillixin, deyəsən, başqa niyyəti də vardı. Üz-gözündən sarılıq yağan oberprezident köhnə müttəfiqinin kifayət qədər canfəşanlıq etdiyini düşünüb kürsüyə əyləşdi, sağ tərəfində sifəti alışıb-yanan cinah yavəri, solunda isə diviziya generalı oturmuşdu. Rəsmilərin çadırında hamı daxili intizamla cəm olduqda yerli hökumət başçısı fon Vulkaunun verdiyi işarəni gördülər və polislərdən biri yerindən tərpəndi. Natiq tribunasını qoruyan həmkarının yanına getdi, o da, öz növbəsində, Diderixə müraciət etdi:

– Hə, indi növbə sizinkidir.

Diderix kürsüyə qalxarkən bütün diqqətini topladı ki, yıxılmasın, çünkl qıçları birdən-birə əsməyə başladı, həm də sifətinə yayğınlıq çökmüşdü. Bir-iki dəfə fısıldayandan sonra ətrafda yarpaqları tökülmüş, lakin kağızdan qara-ağ-qırmızı ləçəklərlə bəzədilmiş balaca bir ağac gördü. Ağaca baxdıqda yaddaşı və gücü özünə qayıtdı və o, sözə başladı:

– Ekselenslər! Uca, hörmətli və möhtərəm cənablar! Əlahəzrətlərin nümayəndəsi tərəfindən heykəlinin açılışını göz-

ləyən böyük qeysərin bizə və vətənimizə bəxş edildiyi gündən düz yüz il keçir; eyni zamanda, az qala, on ildir ki, onun böyük nəvəsi taxta çıxmışdır, bu da hazırkı anımızı daha önəmli edir! Belə olduğu halda biz hər şeydən əvvəl içində yaşadığımız o böyük zəmanəyə qürurla və minnətdarlıqla necə nəzər salmaya bilərik?!

Diderix həmin nəzəri saldı. Bir-birinin ardınca o, təsərrüfatın və milli şüurun tayı-bərabəri olmayan yüksəlişinin tərifini göylərə qaldırdı. Bir xeyli dəniz məsələsinin üstündə dayandı.

– Dəniz Almaniyanın böyüklüyü üçün qaçılmazdır. O, bizə bir daha sübut edir ki, onun üstündə və ondan o yana Almaniya və alman qeysəri olmadan heç nə həll edilə bilməz, çünki dünyadakı işgüzarlıq bu gün ən önəmli işgüzarlıqdır!

Lakin təkcə işgüzarlıq baxımından deyil, daha çox mənəvi və əxlaqi baxımdan bu sıçrayışı timsalsız adlandırmaq lazımdır. Əvvəllər vəziyyətimiz necə idi?

Diderix yüngülcə yanaraq keçmişin birtərəfli humanitar təhsillə qısır dünyabaxışına gətirib çıxaran, milli baxımdan heç bir mənəviyyata xidmət etməyən mənzərəsini cızdı. İndi hər şey büsbütün dəyişibsə, Avropanın və dünyanın ən kamil xalqı olduğumuzu biz gerçəkdən də dərk ediriksə, deyingənlərin və mənfurların fikrincə yeganə milli partiya yaradırıqsa, bunlar üçün kimə minnətdar olmalıyıq?

– Təkcə əlahəzrətə! – Diderix qoyduğu suala özü cavab verdi. – İnsanlarımızı o silkələyib mürgüdən oyatmışdır, onun əvəzsiz nümunəsi bizi indi olduğumuz mərtəbəyə yüksəltmişdir! – Bu yerdə o, sinəsinə döydü. – Onun şəxsiyyəti, müqayisə edilməz yeganə şəxsiyyəti o qədər güclüdür ki, biz hamımız onun ətrafında sarmaşıq kimi ucalıb qalxa bilirik! – Əlindəki mətndə olmamasına baxmayaraq, həmin cümləni o ucadan səsləndirdi. – Əlahəzrət qeysərin alman xalqının rifahı naminə qəbul etdiyi qərarların həyata keçirilməsində biz ona toy-bayramla yardımçı olmalıyıq, kübar, yaxud tabelikdə olmağımızdan asılı olmayaraq. Emalatxanadakı o sadə insan da aramıza xoş gəlir! – Hərbçilərin barrikadası arxasında tər tökən xalqın iyini alaraq birdən-birə yenidən özündən əlavə etdi, zira ona doğru əsən külək həmin iyi qabağına qatıb bu tərəfə gətirirdi.

– Çalışqanlığımızla dünyanı heyrətə gətirərək, yüksək mənəvi gücümüzlə müsbət fəaliyyətə qatılaraq, paxıllığımı-

zı çəkib bizi hər yandan hədələyən düşmənlərimizi par-par parıldayan silahımızla qorxu içində saxlayaraq biz millətlərin ən seçkiniyik və german kişisi mədəniyyətinin ilk dəfə nail olduğu ucalığı təmsil edirik ki, bu da heç vaxt və kimliyindən asılı olmayaraq heç kim tərəfindən təkzib edilə bilməz.

Bu vaxt ober-prezident başını silkələdi, cinah yavəri əllərini bir-birinə vurdu və tribunalardan gurultulu alqış qopdu. Mülkilərin tribunasında cib yaylıqları yelləndi, Quste özününkünü küləkdə əsdirdi və bir az qabaqkı dilxorçuluğa baxmayaraq Ketxen Tsillix də ona qoşuldu. Yellənən yaylıqlar kimi qəlbində yüngüllük hiss edən Diderix nitqində bütün zirvələri arxada qoydu:

– Heç vaxt mövcud olmayan belə bir yüksəlişə Tanrının sevimli milləti süst, tənbəl sülh şəraitində yetişə bilməz: xeyr, əksinə, qədimi müttəfiqimiz olan Allah alman qızılını odda bərkitməyi vacib sayıb. Yenanın və Tilzitin metaləridən sobaları ilə nəyəsə nail ola bilmişik və nəhayət, bayraqlarımızı zəfərlə hər yana taxmağa, döyüş meydanında alman qeysərinin tacını yüksəltməyə müyəssər olmuşuq.

O, Böyük Vilhelmin sınaqdolu həyatını xatırlatdı, buradan da biz Diderixin dediyi kimi öyrəndik ki, aləmlərin xaliqi digərlərinin arasından seçdiyi və özünə müvafiq alət istehsal edən xalqı heç vaxt nəzərindən qaçırmır. Böyük qeysər, öz növbəsində, bu yolda heç vaxt şaşqınlığa uğramayıb, bu, böyük tarixi anda xüsusilə bəlli olub, o anda ki, orada padşah Allahın mərhəməti sayəsində bir əlində hökmdar toxmağını, digərində isə səltənət qılıncını tutaraq yalnız Allaha ehtiram göstərmiş və tacı ondan qəbul etmişdir. Təşəxxüslü vəzifə duyğusundan o, xalqa ehtiram göstərib tacı ondan qəbul etməyi şəninə sığışdırmamışdı və yalnız Allah qarşısındakı məsuliyyətindən qorxub-çəkinməmişdi, özü də o məsuliyyətdən ki, heç bir nazir, heç bir parlament qeysərin yaxasını ondan qurtara bilməmişdi!

Diderixin səsi titrədi:

– Xalq rəhmətlik qeysərin şəxsiyyətini ilahiləşdirərək onu bu cür də qəbul edir. Axı qeysərin uğurları olmuşdu; uğur olan yerdə də Allah özü iştirakçı olur! Orta əsrlər olsaydı, Böyük Vilhelmə müqəddəs deyərdilər. Odur ki bu gün biz ona əla bir heykəl ucaldırıq!

Ober-prezident yenidən başını tərpətdi, bununla da gurultulu alqış qopdu. Günəş çəkilib getmişdi, soyuq külək

əsirdi; sanki, o, sımsırığını sallamış səmadan həyəcanlanmışdı, Diderix daha ciddi bir məsələnin üstünə qayıtdı.

– Kim idi onun qarşısına çıxan, onun uca məqsədinə əngəl olan? Böyük qeysərin və onun qeysərə sadiq xalqının düşməni kim idi? Məhz onun uğurla yendiyi Napoleon öz tacını Allahdan deyil, xalqdan almışdı! Bu, tarixin hökmünə özünün əbədi, möhtəşəm anlamını verir!

Bu yerə çatanda Diderix III Napoleonun demokratiya xəstəliyinə tutulmuş, ona görə də Allahın nəzərindən düşmüş səltənətinin mənzərəsini çəkməyə çalışdı. Saxta dinlilikdə gizlənmiş aşkar materializm ağlagəlməz maddiliyin inkişafına təkan verdi. Mənəviyyata nifrət aşağı həzz hərisliyi ilə təbii ittifaqa girdi. İctimaiyyətin əsəbləri reklam hərisliyinə köklləndi və istənilən anda təqib azarına çevrildi. Zahirən yalnız prestijə, daxilən isə polisə söykənərək, gücdən başqa digər iman tanımayaraq teatr fəaliyyətindən başqa heç nəyə can atmadılar, keçmiş qəhrəmanlıq dövrünün təntənəsini yaşadılar və həqiqətən yetişdikləri yeganə zirvə şovinizm oldu...

– Bütün bunlardan bizim qəti xəbərimiz yoxdur! – Səsini qaldırıb əlini bunların şahidi olan yuxarıdakı Allaha uzatdı. – Ona görə də biz yağı düşmənimizin səltənətinə üz vermiş o dəhşətli qorxuya heç vaxt və heç zaman düçar olmayacağıq!

Bu vaxt şimşək çaxdı; hərbçilərin düzümü ilə pəncərəsiz kor divar arasında, camaatın olduğu yerdə qara bir buludun içindən şimşək çaxdı, dalınca göy gurultusu eşidildi, səsi çox-çox uzaqlardan gəldi. Rəsmilərin çadırında kişilərin üzünə narazı ifadə qondu və ober-prezident diksindi. Zabitlərin tribunasında, təbii ki, vəziyyət qəti dəyişmədi, mülki insanların arasında isə müəyyən narahatlıq duyuldu. Diderix haray-qışqırtını sakitləşdirə bildi, çünki o da gurultu ilə bağırdı:

– Köhnə müttəfiqimiz Allah özü buna şəhadət verir! Alman olmaq hər hansı bir işi öz xeyrinə etmək deməkdir! Bizlərdən kim haçansa inamını alverə qoyub? Bizdə rüşvətxor məmura rast gəlmək mümkündürmü? Kişi doğruluğu bizdə qadın paklığı ilə vəhdət təşkil edir, çünki qadınlıq bizi göylərə qaldırır, biz bunda yersəl həzzin nişanəsini görmürük. Əsl alman mahiyyətinin gözqamaşdıran mənzərəsi xristianlıq zəminində baş qaldırır və bu, yeganə həqiqi zəmindir, çünki istənilən bütpərəst mədəniyyət, nə qədər gözəl, nə qədər cazibədar olsa belə, ilk fəlakətdə məhvə məhkumdur; və alman mahiyyətinin canı dövlətə, irsi döv-

lətə edilən hörmətdir ki, bunun da əleyhinə heç nə etmək olmaz. Ona görə də biz gərək, həmişə olduğu kimi, vətənin müdafiəsində özümüzün ali borcumuza, padşahın libasında yüksək ehtiramımıza və silah-sursat sahəsindəki hərbçi peşəsində ən yüksək vəzifəmizə sadiq qalaq.

Diderixin hələ də əzəmətli səsindən qorxuya düşüb zəlfləmiş göy gurultusu bir daha səsləndi; yerə iri damcılar düşdü, elə ağır damcılar idi ki, hətta şappıltısı da eşidilirdi.

– Miras düşmənimizin məmləkətindən, – Diderix bağırdı, – yenə də demokratiyanın zirzibili axıb gəlir, yalnız alman mətinliyi və alman ideyası bu axına bənd olaraq onun qarşısını kəsir. İlahi dünya düzəninin, dövlət quruluşumuzun altını qazmaq istəyən yurdsuz-yuvasız düşmənləri son kötüyünə qədər kürüyüb atmaq lazımdır ki, haçansa bizə ediləcək səmavi müraciət zamanı hər birimiz vicdan əzabı çəkmədən Allahımızın və qoca qeysərimizin hüzuruna çıxaq və bizdən soruşulanda ki səltənətin rifahı naminə ürəkdənmi çalışmısınız, sinəmizə döyüb çəkinmədən deyə bilək: "Bəli!"

Bu sözlərdən sonra Diderix sinəsinə elə bir yumruq ilişdirdi ki, nəfəsi kəsildi. Araya çökən məcburi fasilədə mülkilərin tribunasındakılar qaynaşmaları ilə bildirmək istədilər ki, nitqi başa çatmış sayırlar; zira yumurta boyda yağış dənələri tək-tək, ağır-ağır düşüb insanları xəbərdar edirdi: yağmurlu hava kükürd sarılığındakı işıqda bayram məclisinin başının üstünü kəsdirmişdir... Diderixin nəfəsi özünə qayıtdı.

– İndicə örtük aşağı salınanda, – yeni bir həyəcanla başladı, – onu salamlamaq üçün bayraqlar aşağı enəndə, qılınclar yerə endiriləndə və nizələr parlayanda... – Səmada elə bir şaqqıltı qopdu ki, Diderix aşağı büzüşdü, başını qaldırıb baxana qədər kürsünün altında çöməldi. Xoşbəxtlikdən, onun yoxa çıxmasından heç kəs xəbər tutmamışdı, axır ki, oradan çıxa bildi, başqaları ona görə xəbər tutmamışdı ki, onlar da onun təki aşağı sinmişdi. Az qala, heç kəs eşitmədi ki, Diderix əlahəzrət cənab oberprezidentdən xahiş edir, camaatı sakitləşdirib heykəlin örtüyünü saldırsın. Ober-prezident rəsmi çadırdan çölə çıxdı, rəngi həmişəkinə baxanda xeyli saralmışdı, ulduzunun parıltısı sönmüşdü və o, zəif səslə dilləndi:

– Əlahəzrətin adından əmr edirəm: örtük aşağı salınsın!

Örtük aşağı salındı. "Reyndə keşik" mahnısı səsləndi. Atını havada çapan Böyük Vilhelmin ailə başçısına xas görkəmi qüdrətin bütün dəhşətləri ilə bəzənərək göylərin hədə-

sinə qarşı təbəələri daha da bərkitdi, oberprezidentin "Qeysərə alqış!" qışqırtısı canlı bir əks-səda doğurdu. "Zəfər çələngində eşq olsun sənə!" himninin sədaları ekselensə bildirdi ki, onlar heykəlin yanına yollanmalı, onu gözdən keçirməli, xeyli vaxtdır onları gözləyən heykəltəraşa xoş sözlər söyləməlidirlər. Hər kəs anladı ki, uca cənab baxışlarını göylərə tuşlayıbdır; lakin gözləməkdən başqa çarələri olmadığına görə vəzifə duyğusu qələbə çaldı, özü də elə parlaq qələbə çaldı ki, buraya toplaşmış cəsur hərbçilər ordusunda o, frak geymiş yeganə kişi oldu; və bu kişi cürət edib özünü bayıra atdı, asta-asta yağan iri damcıların altında yeridi, onunla bərabər ulanlar, kürassirlər, qusarlar və araba karvanı tərpəndi... Heykəlin üstündəki "Böyük Vilhelm" yazısı yaddaşlara köçəndən sonra xoş sözlə mükafatlandırılmış heykəltəraş ona çatan ordeni də aldı və məhz heykəlin mənəvi yaradıcısı Heslinq camaata təqdim edilib üst-başı təzəcə bəzədilmişdi ki, elə bil, göylər yerindən qopdu. Büsbütün və birdən-birə qopdu, adamın yadından çıxmayan partlayışa bənzər bir güclə qopdu. Kişilər üzlərini çevirməmiş su onların topuqlarına qədər qalxdı. Ekselens oberprezidentin qollarından və şalvarının balağından tökülməyə başladı. Tribunalar şarıltı ilə axan suyun arxasında yox oldular, sanki, adamlar uzaqda dalğalanan dənizin üstündə dayanmışdılar və onlar gördülər ki, çadırların damları çaxnaşan buludların zərbəsindən aşağı çöküb, bu çadır damlarının yaş qatlanacaqlarında qışqırışan insanlar sağa-sola yumalanırdılar. Cənab zabitlər parlaq silahlarını işə yaradıb yelkən rolunu oynayan bu parçaları doğrayaraq özlərinə yol açırdılar. Mülki geyimli şəxslər titim-titim titrəyərək ağzına qədər su ilə dolmuş meydanda çimən nəhəng boz ilan kimi üzüaşağı axışırdı. Vəziyyəti belə görən ober-prezident bayram proqramının sonrakı gedişini məqsədəuyğun saymayıb dayandırmağı qərara aldı. Fontan kimi su fışqıraraq, hər dəfə şimşəyin işığında gözə görünərək bu adam təcili geri dönməyi qərara aldı, onun arxasınca da cinah yavəri, hər iki diviziya generalı, draqunlar, qusarlar, ulanlar və nəqliyyat karvanı tərpəndi. Heykəlin mənəvi atası üçün nəzərdə tutulmuş, lakin hələ də ekselens ober-prezidentin barmağında yellənən orden yolda onun yadına düşdü və tutduğu vəzifəyə sadiq qalaraq, lakin bir an da gecikmək istəməyərək qaça-qaça və üst-başından su sıçraya-sıçraya o, ordeni prezident fon Vulkauya verdi. Vul-

kau da, öz növbəsində, onu qarşısına çıxan ilk polisə verib tapşırdı ki, ucalar ucasının adını daşıyan bu orderi sahibinə çatdırsın; hadisələrə duruş gətirən polis fırtına və qorxudan çaşaraq Diderixi axtarmağa getdi. Axır ki, onu natiq kürsüsünün altında suyun içində oturduğu yerdə tapdı.

– Bu da sizin ordeniniz, – deyib polis oradan uzaqlaşmağa çalışdı, çünki indicə şimşək çaxdı, özü də elə yaxından çaxdı ki, elə bil, ordenin təqdimatına mane olmaq istəyirdi. Diderix yalnız köksünü ötürə bildi.

Nəhayət, gözünün ucu ilə aşağıya baxmağa çalışanda gördü ki, tüğyan getdikcə artmaqdadır. O üzdəki iri qara kor divar çat verdi və deyəsən, arxasındakı evlə bərabər büsbütün uçmağa başladı. Parad karetlərinin atları qaçmaqda olan bir dəstə sapsarı saralmış, üz-gözləri göyərmiş adamın başı üstündə şahə qalxıb irəli cumdu. Xoşbəxtlikdən, qara camaat polis kordonunun çölündə qalmışdı, bununla da canını qurtarmışdı; varlılar və savadlılar isə elə hala düşmüşdülər ki, uçqundan qopan qır-qırıntılar göylərdən gələn şimşəyə qarışıb onların başlarına yağırdı. Heç də təəccüblü deyildi ki, onların özlərini aparmaları yaranmış vəziyyətə uyğun gəlirdi və cəngavərliyə xas olmayan tərzdə çıxışda sıxışdırılıb çıxarılan bəzi xanımlar yumaq kimi bir-birinin üstünə atılırdı. Yalnız özlərinin cəsurluğuna arxayın olan cənab zabitlər özünü onlara qarşı qoyan hər kəsə özlərinin güc vasitələrini tətbiq edirdilər; bu halda tribunaların və rəsmi çadırların qalıqlarından fırtınanın dartıb qopardığı bayraqların parçaları qara-ağ-qırmızı rəngdə havada uçuşub döyüşçülərin qulaqlarına dolaşırdı. Hələ bu azmış kimi belə bir ümidsizlik içində alay orkestri dayanmadan "Zəfər çələngində eşq olsun sənə" himnini çalırdı, hətta hərbi kordonun və dünya düzəninin pozulmasından sonra da çalırdı, batmaqda olan gəmidə dəhşəti və ölümü müşayiət edərək çalırdı. Növbəti fırtına onları da bir-birindən aralayıb apardı və Diderix gözlərini yumaraq, başı fırlana-fırlana hər şeyin sonunu gözləyərək öz natiq kürsüsünün sərin dərinliyinə baş vurdu, bu kürsünü o, yer üzünün son nişanəsi kimi bərk-bərk qucaqlamışdı. Onun son baxışı isə bütün məfhumlarda ucadan uca hər şeyi əhatə edirdi: milli parkın dörd yanına çəkilmiş qara-ağ-qırmızı çəpər sınıb tökülmüş, üstündəki yükün ağırlığından yerə çökmüşdü, sonra da ora-bura vurnuxmalar, bir-birinin üstündən aşmalar, bir yerə cəmləşmələr, sürüşüb getmələr, az qala, başqa-

lannın başında oturmalar, özünü başqasının simasında göstərmələr, səmanın şallağı sayılan şimşək tərəfindən süpürülüb atılmalar, sərxoş maskaradın iştirakçısı kimi sivişib aradan çıxmalar, kübarlıqdan, azadlıqdan, ən nəfis libasdan, yuxudan oyanmış insanlıqdan, yeganə sütunlardan, Tanrının elçilərindən, ideal dəyərlərdən, qusarlardan, ulanlardan, draqunlardan və karvandan üz döndərmələr!

Lakin qiyamət gününün çaparları yollarına davam etdi; Diderix başa düşdü ki, onlar hələ qabaqda olan məhşər ayağının məşqini edirlər. Geri qayıtmaq! O, sığınacağını tərk edib müəyyənləşdirdi ki, hələ də arası kəsilmədən yağır və qeysər Böyük Vilhelm iqtidarın bütün atributları ilə öz yerindən tərpənməyib. Diderix bu müddət ərzində düşünmüşdü ki, heykəl uçmuş və yuyulub aparılmış olacaq. Doğrudur, bayramın keçirildiyl meydanı viran qalmış xatirə təsirini bağışlayırdı, onun xarabalıqlarında bir dənə də ins-cins yox idi. Amma yox, arxada kimsə tərpənirdi, hətta əynində ulan mundiri də vardı: uçmuş evi gözdən keçirən cənab fon Kvitsin. Ildırımın vurduğu ev nəhəng qara kor divarın qalıqları arxasında tüstülənirdi; hamı qaçmağa üz qoyanda yalnız cənab fon Kvitsin axıra qədər dözmüşdü, çünki ona düşüncələri güc gəlmişdi. Diderix onun ürəyini oxudu. “Evi, – fon Kvitsin fikirləşirdi, – bu qara camaata verib ondan canımızı qurtara bilərdik. Amma neyləmək olar, bütün gücümüzü işə salsaq da, alınmadı. Ən azı, sığortasını alaram. Doğrudan da, Allah varmış”. Sonra o, yanğınsöndürənlər tərəfə getdi. Xoşbəxtlikdən, onlar işə o qədər də qarışa bilmədilər.

Həmin nümunədən cəsarətə gələn Diderix də yola düzəldi. Şlyapasını itirmişdi, ayağının altında su şappıldayırdı və arxaya dartılmış şalvarının balaqlarında o özü ilə bərabər, sanki, bir gölməçə aparırdı. Buralarda araba gözə dəymədiyindən şəhərin iç hissəsinə burulmağı qərara aldı. Qədimi küçələrin tinləri küləyin qabağını kəsdiyinə görə canı xeyli isindi. “Zökəmdən söhbət belə getməz. Amma Quste gərək qarnıma sarğı qoysun. Kaş sürüyüb evə qrip gətirməyəydi!” Bu narahatlıqdan sonra ordeni yadına düşdü: “Əlahəzrətin özü tərəfindən təsis edilmiş Vilhelm ordeni xalqın rifahı və kübarlaşması yolundakı əvəzsiz xidmətlərə görə verilir...”

– Verilir, almışıq! – Diderix kimsəsiz küçəyə ucadan bağırdı. – Lap göydən daş yağsa da. Təbiətin dövlətə qarşı qiyamı yaramaz vasitələrlə edilən bir cəhd idi. – Diderix

özünün Vilhelm ordenini göylərə göstərib "Udan kim oldu?" dedi və onu dördüncüdərəcəli Tac ordeninin yanına taxdı.

Flayşhauerqrubedə çoxlu minik vasitəsi dayanmışdı: qəribə də olsa, qoca Bukun evinin qarşısında. Üstəlik, bir ədəd də kəndçi arabası vardı. Yoxsa?... Diderix evin içinə nəzər saldı; dəhlizin şüşə qapısı, qəribə də olsa, açıq idi, sanki, buraya nadir hallarda gələn kimisə gözləyirdilər. Enli dəhlizə təntənəli bir sükut çökmüşdü, Diderix mətbəxin yanından keçib gedəndə ağlaşma səsi eşitdi: yaşlı qaravaş qolla-n ilə üzünü örtmüşdü.

"Demək, sonu bu imiş!" Qəfildən Diderixi qorxu bürüdü, o, yerində donub-qaldı, geriyə qayıtmağa hazırlaşdı. "Mənlik burada bir şey yoxdur... Amma yenə də! Olmağına var, çünki buradakı hər şey mənimkidir, onlara göz qoymaq borcumdur ki, hərə daşıyıb bir yana aparmasın". Ancaq ona güc verən təkcə bu deyildi; nəsə ağır və dərin bir şey onun fısıltısına və sancısına qarışmışdı. Aram addımlarla alçaq pilləleri qalxa-qalxa fikirləşdi: "Qorxmaz düşmən şərəf meydanında həlak olursa, hörmətə layiqdir! Hökmü Allah verir, hə, hə, vəziyyət belədir, heç kəs deyə bilməz ki, günlərin birində o... Yaxşı, qulaq asın, ortada fərq var axı, nəsə yaxşı, yaxud pis ola bilər. Yaxşı şeylərin şərəfinə heç nəyi əsirgəmək olmaz, bizim qoca qeysərimiz Vilhelm ucalığı qəsrinə büsbütün əzilmiş Napoleonun yanına gedəndə, çox güman ki, özünü yığışdırmalı olmuşdu".

Diderix artıq eyvana çıxmışdı və ehtiyatla uzun bir dəhlizə daxil oldu, dəhlizin o başında qapı açıq idi, qapı burada da açıq idi. Divara söykənib içəriyə nəzər saldı. Baş tərəfi bu üzə çevrilmiş çarpayıda, köpürdülmüş yastıqların üstündə uzanmış qoca Bukun, deyəsən, halı özündə deyildi. Səssəmir yox idi; tək idimi? Diderix ehtiyatla qarşı tərəfə keçdi, burada pərdələri endirilmiş pəncərələr vardı, onların da qarşısında yarımçevrə şəklində Bukun ailəsi oturmuşdu: çarpayıya ən yaxın Yudit Lauer idi, tam donuqlaşmış halda, sonra da üz-gözünün ifadəsinə görə heç kimi gözləməyən Volfqanq; pəncərələrin arasında büzüşüb bir-birinə sığınmış beş bacı müflisləşmiş atalarının yanını kəsdirmişdi, kişi qabaqkı şuxluğundan heç nə saxlamamışdı; daha sonra kəndçiləşmiş oğlu özünün key-key baxan arvadı ilə və nəhayət, həbsdən çıxmış Lauer. Bu adamlar əbəs yerə beləcə sakit durmamışdılar; bu məqamda onlar haçansa yenə söz sahibi

olmaq kimi son ümidlərini itirmişdilər! Qocanın hökmü keçənə qədər həmişə üzdə olmuşdular, əmin-amanlıq içində yaşamışdılar. O çökmüşdü, onlar da onunla bərabər, o yox olmuşdu, hamısı da onunla birlikdə. O həmişə axan qum üstündə dayanmışdı, heç vaxt iqtidara söykənməmişdi. İqtidara söykənməyən məqsəd məqsəd olmaz! Belə mənəviyyat bəhrəsizdir, çünki o, özündən sonra çöküşdən başqa heç nə qoyub getmir! Yumruğu və yumruğunda pulu olmayan istənilən təkəbbür özünü aldatmaqdır.

Bəs Volfqanqın üzündəki bu ifadə haradandır? Atasına yönəlmiş narahat gözlərindən yaş axsa da, həmin sifətdə hüzn nişanəsi yox idi; ifadə həsədə bənzəyirdi, kədərli bir həsədə. Başqaları nə istəyirdi? Qapqara qaşları çatılmış Yudit Lauer, onun tez-tez hıçqıran əri... Hətta qocanın arvadı özünün fəhlə əllərini sifətinin qabağında çarpazlamışdı. Qətiyyətini pozmayan Diderix qapının qabağında dayanmışdı. Dəhliz qaranlıq idi, içəridəkilər onu görmürdü, bir də ki lap görsünlər; bəs qoca? Onun sifəti birbaşa bu tərəfə yönəlmişdi və hiss olunurdu ki, baxışı haraya tuşlansaydı, orada gerçək əşyalardan daha çox şeylər görürdü, onun baxışında yayınması mümkün olmayan şeylər vardı. Heyrətdolu gözlərində onları əks etdirərək qollarını yastıqların üstündə ağır-ağır açdı, onları qaldırmağa çalışdı, qaldırdı, tərpətdi, əl eləyib kimisə özünə doğru çağırdı... Kimi axı? Güman ki, çoxlarını çağırdığı kimi, xeyli əl eləyib kimi isə çağıraraq? Bəlkə də, bütün xalqı, amma bu necə xalqdır? Niyə gəlişi ilə sayqılamalı xoşbəxtliyi qoca Bukun simasında bildirir?

Birdən xəstə qorxdu, sanki, özü ilə dəhşət gətirən yad bir nəfərlə rastlaşdı: qorxdu və tıncıxdı. Diderix bunun müqabilində daha da şuxlaşdı, qara-ağ-qırmızı lent bağladığı qarnını irəli verdi, sinəsini qabardıb ordenlərini göstərdi və gözlərindən qığılcım saçdı. Qocanın birdən-birə başı yastıqdan düşdü, sanki, boynundan sındı. Qohumları qışqırıb fəryad qopartdılar. Qocanın dəhşətdən keyləşmiş arvadı qışqırdı:

– Nəsə gözünə göründü! Şeytanı gördü!

Yudit Lauer asta-asta ayağa qalxıb qapını örtdü. Diderix aradan çıxmışdı.

# PROFESSOR QANMAZ

(roman)

## BİRİNCİ FƏSİL

Soyadı Qanar idi, amma bütün şəhər ona Qanmaz deyirdi. Bu da tam təbii idi. Professorların[1] bəzilərinin ayamaları tez-tez dəyişirdi. Sinfə təzə gələn bir dəstə şagird müəllimlərində gülməli xasiyyətlər tapıb köhnə şagirdlərin keçən dərs ilində kifayət qədər dəqiq vermədikləri ayamanı qatil hərisliyi ilə öz müəllimlərinə qoşurdular. Lakin Qanmaz öz ayamasını illərdən bəri qoruyub saxlayır, nəsildən-nəsilə ötürür və bu ayama şəhərin dilindən düşmürdü, həmkarları ondan həm gimnaziyadan qıraqda, həm də Qanmaz üzünü onlardan çevirən kimi gimnaziyanın içində istifadə edirdilər. Şagirdləri evində kirayə saxlayan və onları dərslərə hazırlayan müəllimlər həmişə professor Qanmazdan danışırdılar. Altıncı sinif şagirdi başını qaldırıb onu təzədən müşahidə etmək və yeni ayama qoşmaq istəsəydi, heç nə alınmırdı; ona görə alınmırdı ki, bu yaşlı müəllimin ənənəvi şöhrəti iyirmi altı il əvvəlki təsirini hələ də saxlayırdı. O, məktəbin həyatına daxil olan kimi atmacalar işə düşürdü:

– Buradan qanmazlıq qoxusu gəlmirmi?

Yaxud:

– Oho! Qanmazlığın iyini aldım!

Kişi həmin an çiynini çəkərdi, özü də solundan xeyli hündür olan sağ çiynini və gözlüyün arxasından çəpəki bir nəzər salardı ki, bu baxışı da şagirdlər saxta adlandırardılar, çünki ondan ürkəklik və qisas yağırdı: paltosunun qırışlarında gözü ilə xəncər axtaran natəmiz vicdanlı zülmkarın baxışı. Seyrək sarışın-çal saqqallı taxta çənəsi şaqqıltı ilə dingildəyərdi. Səsini başına salıb bu sözləri qışqıran şagirdə "heç nəyi sübut edə" bilməzdi. Odur ki kir basmış bənna papağının[2] altında içəriyə əyilmiş arıq qıçlarını sürüyə-sürüyə yoluna davam edəsi olardı.

Ötən il müəllimlərinin yubileyində gimnaziyaçılar əllərində lopa onun evinə yürüş etmişdilər. O da balkona çıxıb nitq söyləmişdi. Bütün başlar arxaya qatlanıb yuxarıya baxanda qəflətən xoşagəlməz zil bir səs qışqırmışdı: "Havadan qanmazlıq qoxusu gəlir!"

---

[1]Alman gimnaziyalarında baş müəllim professor adını ala bilər.
[2] Dəyirmi, dayaz qara papaq

Başqalan təkrarlamışdı:

– Havadan qanmazlıq qoxusu gəlir! Havadan qanmazlıq qoxusu gəlir!

Bu hadisəni əvvəlcədən görməsinə baxmayaraq, balkondakı professor kəkələməyə başlamış və gözünü qışqıranların açılmış ağzından çəkməmişdi. Digər müəllimlər qıraqda dayanmışdılar; Qanmaz başa düşmüşdü ki, "heç nəyi sübut edə" bilməyəcək; amma bütün adları yadında saxlamışdı. Ertəsi gün zil səsin sahibi şagird Orlean bakirəsinin[1] doğulduğu kəndi tanımaması ilə professor Qanmaza imkan yaratmışdı desin ki, onun həyatını tez-tez zəhərə döndərəcək. Belə də oldu, həmin Kizelak sinifdən-sinfə keçmədi. Onunla bərabər yubiley axşamı qışqıranların çoxusu sinifdə qaldı, eləcə də fon Ersum. Loman qışqırmamışdı, buna baxmayaraq, sinifdən-sinfə keçmədi. Qanmazın niyyətini o, özünün tənbəlliyi, Ersum isə bacarıqsızlığı ilə asanlaşdırdı. Növbəti payızın son ayında, günortadan qabaq saat on birdə, Orlean bakirəsi haqqındakı sinif inşasından əvvəl nəsə oldu: hələ də bakirəyə yaxın düşə bilməmiş və hənga-məni əvvəlcədən ölçüb-biçmiş fon Ersum ağır ümidsizliyə qapılaraq pəncərəni dartıb açdı, gözünü yumub cılız səslə göy üzündəki buludlara bağırdı:

– Qanmaz!

Professorun yaxında olub-olmamasından xəbəri yox idi və olması heç vecinə də deyildi. Düz iki saat boş ağ kağızın qabağında oturub özünün boş başından gələn sözlərlə onu doldurmağa məruz qalmaqdan öncə bu enlikürək biçarə mülkədar balası ürəyini bir anlığa boşaltmağa təbii bir ehtiyac duydu. Əslində, Qanmaz həyatla addımlayırdı. Pəncərədən gələn səsi eşidən kimi yana sıçradı. Aşağı çökmüş dumanın içində o, Ersumun pələ-pütür cizgilərini seçdi. Aşağıda şagirdlərdən heç kəs yox idi, Ersumun sözləri onlara yönələ bilməzdi.

"Bu dəfə, – Qanmaz sevinə-sevinə düşündü, – məni nəzərdə tutub. Bu dəfə sübuta yetirəcəyəm".

Pilləkəni beş addıma yuxarı qalxdı, dartıb sinif otağının qapısını açdı, oturacaqlann arası ilə yeyin-yeyin yeriyib əlləri ilə kürsüdən yapışdı və ayağını onun pilləsinə qoydu.

[1] *Orlean bakirəsi* – Janna d'Ark (1412-1431) – Fransanın milli qəhrəmanı. Klassik gimnaziyanın proqramına daxil olan Fridrix Şillerin "Orlean bakirəsi" (1801) tragediyasından söhbət gedir.

Əsməcə içində burada dayanıb nəfəsini dərdi. Altıncı sinif şagirdləri salamlaşmaq üçün ayağa qalxdılar və səs-küy birdən-birə yatdı. Yaranan sakitlik hamını keyləşdirdi. Onlar öz müəllimlərinə murdar və qorxunc bir heyvana baxan kimi baxdılar, bu heyvanı, təəssüf ki, öldürmək olmazdı və o, hazırkı anda onların üzərində yaramaz bir üstünlük qazanmışdı. Professor Qanmazın sinəsi atılıb-düşürdü; nəhayət, o, sanki, quyunun dibindən gələn öldürücü boğuq səsini işə saldı.

– Arxamca yenə, həmişəki kimi, nəsə söz atıblar, daha doğrusu, ləqəb, bir az da dəqiq desək, ayama, buna da mənim bundan sonra dözmək fikrim yoxdur. Sizin kimi adamların bu cür təhqirinə duruş gətirən deyiləm, yadınızda saxlayın ki, artıq sizi tanımışam! Harada bacarsam, orada da yaxalayacağam. Sizin azğınlığınız, fon Ersum, canıma vəlvələ salmaq üçün o qədər də yetərli deyil və o, mənim qəti qərarımla şüşə kimi çilik-çilik olacaq, bunu mən burada sizə bəyan edirəm. Elə günü bu gün əməlinizdən cənab direktora məlumat verəcəyəm, öz gücüm daxilində isə, buna əmin ola bilərsiniz, çalışacağam elə edim ki, sizin kimi tör-töküntülər gimnaziyamızın divarları arasında qalmasın! – Bu sözlərdən sonra paltosunu çiynindən alıb fışıltı ilə dedi: – Əyləşin!

Sinif aşağı oturdu, yalnız fon Ersum ayaq üstə qaldı. Onun sarı ləkələr düşmüş enli sifəti qıpqırmızı qızarıb saçının rəngini aldı. Nəsə demək istəyirdi, bir neçə dəfə dinməyə çalışdı, lakin sonradan tərkini qıldı. Axır ki, dilləndi:

– Mən deyildim, cənab professor!

Sinifdən ucalan səslər onu bir ağızdan dəstəklədi:

– O deyildi!

Qanmaz ayağını yerə vurdu.

– Sakit!.. Siz isə, fon Ersum, yadınızda saxlayın: bu soyadında ilk adam deyilsiniz ki, onun həyat yoluna, doğrudan da belədir, mən daş diyirləməmiş olum, sizin də sonrakı inkişafınızı büsbütün dayandırmasam da, vaxtında əminizə etdiyim kimi, onu köklü şəkildə çətinləşdirəcəqzm. Zabit olmaq istəyirsiniz, elə deyilmi, fon Ersum? Bunu əminiz də istəyirdi. Ancaq o, siniflə ayaqlaşa bilmədiyinə və ona beşillik könüllülər əsgərliyi üçün sənədin verilməsindən imtina olunduğuna görə, necə deyərlər, hazırlıq məktəbinə girdi ki, burada da elə qabaqkı kimi uğursuzluğa düçar oldu və

nəticədə öz mülkədarının xüsusi mərhəməti sayəsində, hər halda, bu belədir, zabit karyerasına başlaya bildi ki, buna da, sonralar göründüyü qədər, yenidən ara verməli oldu. Gəl davam edək! Əminizin taleyi, fon Ersum, sizin taleyiniz ola bilər, yaxud da sizinki onunkuna bənzəyər. Bu işdə sizə uğurlar diləyirəm, fon Ersum. Sizin nəsil barədə mən hökmümü düz on beş il qabaq vermişəm, fon Ersum. İndi isə... – Qanmazın səsi bu yerdə, sanki, quyunun dibindən gəldi. – Əzəmətli bakirənin obrazı üzərində siz öz təbsiz qələminizi işlətməyə layiq deyilsiniz. Tərpənin birbaşa karserə!

Keybaş fon Ersum hələ də qulaq asmağında davam edirdi. Həddən artıq diqqətə qapıldığından professorun çənəsinin hərəkətlərini özü də bilmədən yamsılayırdı. Professor Qanmaz danışanda bir neçə san dişli alt çənəsi, sanki, diyircəkli yastığın üstündə oturumuş kimi tərpənirdi və tüpürcəyi birinci sıraya qədər sıçrayırdı. O, səsi gəldikcə bağırdı:

– Sizdə ürək var, oğlan!.. Tərpənin dedim sizə, birbaşa karserə!

Qorxmuş fon Ersum sivişib partadan irəli çıxdı. Kizelak ona doğru pıçıldadı:

– Özünü müdafiə etsən, oğlan!

Arxada oturan Loman boğuq səslə dilləndi:

– Hələ bir gözlə, onu muma döndərib ipə-sapa yatıracağıq.

İttiham olunan fon Ersum kürsünün yanından adlayıb sinfin soyunub-geyinmə otağına getdi, burada göz-gözü görmürdü. Qapı bu enlikürək oğlanın arxasınca örtülən kimi Qanmaz yüngülləşib “Oxqay!” qışqırdı.

– Bu gədənin bizdən oğurladığı vaxtı gərək haqlayaq. Angst, alın bu da mövzu, onu lövhəyə yazın.

Əlaçı şagird Angst vərəqi qarov gözlərinin qabağına tutub asta-asta yazmağa başladi. Hamı maraq içində tabaşirin altından çıxan hərflərə baxırdı, həmin hərflərdən çox şey asılı idi. Əgər bu, əzbər öyrənmədikləri səhnələrdən biri olsaydı, bəxtləri “gətirməyəcəkdi”, onda “batacaqdılar”. Sözlər lövhədə məna kəsb edənə qədər xurafatçılardan biri dilləndi:

– Aman Allah, mənimki gətirmədi.

Axır ki, yazı lövhədə göründü:

“Janna. Sənin etdiyin dua üç idi; diqqət yetir, vəliəhd, gör onları düzmü deyirəm! (“Orlean bakirəsi”, 1-ci pərdə, 10-cu səhnə).

Mövzu: "Vəliəhdin üçüncü duası".

Uşaqlar mövzunu oxuyanda bir-birinə baxdılar. Çünki hamısı "batmışdı". Qanmaz onlann "kürəyini yerə vurmuşdu". O, çəpəki bir gülüşlə özünü kürsünün üstünə salıb qeyd dəftərçəsini vərəqlədi.

– Həl? – başını qaldırmadan dilləndi, sanki, hər şey aydın idi. – Yenə nəsə bilmək istəyirsiniz?.. Yaxşı, başlayın!

Uşaqların əksəriyyəti dəftərlərin üstünə əyildi və özlərini elə apardılar ki, guya, yazırlar. Bir neçəsl də gözünü döyüb məyus-məyus qabağa baxırdı.

– Həiə bir saat on beş dəqiqəmiz var, – daxilən kef çəkən Qanmaz etinasızlıqla dilləndi. Belə bir inşa mövzusunu ən vicdansız müəllimlərdən həiə heç biri düşünüb tapmamışdı, onlar bu quldur dəstəsinə şərait yaratmışdılar ki, çətinlik çəkmədən konspektdən istifadə edib istənilən səhnə əsərinin təhlilini apara bilsinlər.

Sinifdəkilərin bəziləri birinci pərdədəki onuncu səhnəni xatırladı, onlar Karlın ilk iki duasını bilirdi. Üçüncü duadan isə xəbərləri yox idi, sanki, onu heç oxumamışdılar. Sinfin əlaçısı və daha iki, yaxud üç şagird, onların arasında da Loman tam əmin idilər ki, həmin duanı heç vaxt oxumayıblar. Axı kral peyğəmbər qadına özünün yalnız iki gecə duasını təkrarlatmışdı; Jannanın Allahın elçisi olduğuna inanmağa bu da bəs edirdi. Üçüncü dua, neyləsən də, orada yox idi. Onda, yəqin, haradasa başqa bir yerdə olub, ya da ona ayrı bir mətndə rast gəliblər, yaxud da elə əhəmiyyətsiz bir məqamda deyilib ki, heç kim ona fikir verməyib. Əsərdə nəyi isə gözdən qaçıra bilmiş olmalarını sinfin əlaçısı Angst da kirmişcə etiraf etdi. Hər ehtimala qarşı bu üçüncü dua, Qanmaz tələb etsəydi, hətta dördüncü və beşinci dua barədə də nəsə deməli idilər. Gerçək olduğuna heç kəsin, azca da olsa, inanmadığı şeylər barəsində – vəzifə borcuna sadiqlik, məktəbin mənəvi təsiri, hərbi xidmətə sevgi barədə yazmağı, daha doğrusu, tələb olunan səhifələri doldurmağı illərdir alman dili dərslərində onlara öyrədirdilər. Mövzu onları bir qınnaq da maraqlandırmırdı, amma yenə də yazırdılar. Onların bəhrələndikləri əsər aylardan bəri bircə məqsədə, onları "kəsmək" məqsədinə xidmət edən mövzu canlarını boğazına yığırdı, amma yenə də yazırdılar, həvəslə yazırdılar. "Orlean bakirəsi" ilə sinif orucluqdan bəri doqquz ay idi ki, məşğul olurdu. Sinifdə qalanlara isə həmin əsər hələ keçən

dərs ilindən tanış idi. Onu bitdə-bitdə oxumuşdular, səhnələri əzbərləmişdilər, ona tarixi şərhlər vermişdilər, əsərin poetikasını, qrammatikasını öyrənmişdilər, nəzm hissəsini nəsrə çevirmişdilər və əksinə, nəsri nəzmləşdirmişdilər. İlk dəfə oxuyarkən həmin şeriyyətdə bərqli gözəllik görən şagirdlərin hamısı üçün həmin şeirlər çoxdan saralıb-solmuşdu. Hər gün eyni şeyi çalan kökdən düşmüş şarmankada daha heç bir melodiyaya rast gəlmirdilər. Coşqulu iti qılınclann cingiltisini, döyünən ürəkləri zirehlə qorumayan o həzin qız səsini daha heç kim eşitmirdi və mələklərin qanadlan bərq vuraraq havada gərilmişdi. Bu gənclərdən kimsə sonralar haçansa həmin çoban qızın müəmmalı suçsuzluğundan titrəyəcəksə, ondakı gücsüzlüyün qələbəsini sevəcəksə, göylərdən endirilən körpə məsumluğu xatirinə çarəsiz vurulmuş fəqir və körpə bir qıza çevrilib ağlayacaqsa, bütün bunlann hamısını o qədər tezliklə yaşamayacaq. Janna toz içində pedant deyil, ayn cür olana qədər həmin gəncə, bəlkə də, iyirmi il lazım gələcək.

***

Qələmlər sinfə xışıltı salmışdı; professor Qanmaz bikarçılıqdan uşaqlann başı üstündən sonsuzluğa baxırdı. Bu gün kimi isə, xüsusilə də ona "ayama qoşanlardan" birini "yaxaladığı" gözəl bir gün idi. Beləcə bütün il gözəlləşmişdi. Əfsuslar ki, iki ildən bəri məkrli bağırqanlardan heç kimi "yaxalaya" bilməmişdi. Həmin illər pis illər olmuşdu. Bu il isə ondan ötrü həm pis, həm də yaxşı olmuşdu. Onlardan bir neçəsini "yaxaladığından", yaxud "heç nə sübut edə" bilmədiyindən asılı olaraq. Şagirdləri tərəfindən arxadan hücuma məruz qaldığını, aldadıldığını və nifrət edildiyini bilən Qanmaz öz tərəfindən onlara yağı düşmən kimi baxırdı; beləları ilə də kifayət qədər ehtiyatlı davranmaq və onları sinifdən-sinfə buraxmamaq lazım idi. Gününü büsbütün məktəblərdə keçirdiyindən o, uşaqlara və onlann əməllərinə böyük gözü ilə baxmağı bacarmırdı. Özünü onlann arasından çıxıb təsadüfən vəzifəyə yetişmiş, müəllimlik kürsüsünə qalxmış şagird kimi apanrdı. Onlar kimi danışır, onlar kimi düşünürdü, şagird jarqonunu işlədirdi, soyunub-geyinmə otağına "ağzıbir" deyirdi. Şagirdlər təntənəli məqamlarda hansı üslubda danışırdısa, o da həmin üslubda danışırdı, daha doğrusu, "əlbəttə, mütləq", "deməli, belə" və buna bənzər heç bir mənası olmayan gicgici kəlmələrlə. Bu vər-

dişlərə o, səkkizinci sinif şagirdləri ilə Homeri keçəndə yiyələnmişdi, çünki o, yunan dilindəki səliqəsiz və məzmunsuz kəlmələri də tərcümə etməli olurdu. Öz əzaları quruyub qaxaca döndüyünə görə şagirdlərdən də donuqlaşıb oturmağı tələb edirdi. Bu oğlanlara, əniklərə xas gənc əzalardakı və cavan beyinlərdəki davamlı ehtiyacı, bu ehtiyacı qovub candan çıxarmağı, səs salmağı, yumruqlaşmağı, kiminsə canını ağrıtmağı, zarafat etməyi, artıq güclə cəsarəti havayı yerə heç nəyə yaramayan yolla xərcləməyi – bütün bunları professor Qanmaz unutmuşdu, yaxud heç vaxt dərk etməmişdi. Uşaqlara cəza verəndə də bunu yaşlı adam səviyyəsində etmirdi:

– Siz yaşınıza uyğun dəcəlsiniz, amma tərbiyə də öz yerində olmalıdır.

Yaxud dişlərini qıcayıb uşaqları tam ciddiliklə cəzalandırırdı. Məktəbdə baş verənlərin hamısı Qanmaz üçün ciddilik və gerçəklik anlamına gəlirdi. Süstlük onun aləmində xeyrə-şərə yaramaz vətəndaşın pozğunluğu sayılırdı, diqqətsizlik və gülüşü iqtidara qarşı qiyam kimi qəbul edirdi, atılan bir güllə inqilaba yol açırdı, "yalana cəhd" gələcəyi korlayırdı. Belə hallar Qanmazın rəngini soldururdu. O, kimi isə "ağzıbirə" göndərəndə bir dəstə qiyamçını cəza koloniyasına yollayıb qorxu və zəfər içində özünün tam hakimiyyətini və həmin hakimiyyətin kökündə qorxunc bir qazıntının aparıldığını hiss edən mütləqiyyətçiyə çevrilirdi. "Ağzıbir"dən dönənlərə və ona toxunanların hamısına heç nəyi bağışlamırdı. İyirmi beş ildən artıqdır bu müəssisədə çalışdığından şəhər və ətrafı onun şagirdləri ilə, öz ayamasını eşidəndə "yaxaladığı", lakin bunu onlara sübut edə bilmədiyi və bu gün də həmin ayamanı dillərindən düşürməyən şagirdlərlə dolu idi! Məktəb onun üçün həyat barısı ilə bitmirdi; o, ətrafdakı evlərin və müxtəlif yaş təbəqələrinə malik insanların vaxtilə oxuduqları siniflərin başı üstündən ucalıb gedirdi. Tapşırıqlarını yerinə yetirməmiş və müəllimlərinə qənim kəsilmiş tərs və sırtıq oğlanlar hər yana səpələnmişdi. Evdə yaşlı qohumların səmimi məzhəkə ilə gənclik xatirəsi kimi professor Qanmazın üstünə güldüklərinin şahidi olan təzə şagirdlərdən biri orucluq bayramı ilə bərabər Qanmazın sinfinə gəldi və ilk səhv cavabda müəlliminin fınxırtısını eşitdi:

– Sizin nəsildən üçü bu əlimdən keçib-gedib. Hamınıza nifrət edirəm.

***

Qanmaz özünün bütün başlardan uca dayanan ali mərtəbəsində üzdəniraq əmin-amanlıqdan həzz alırdı və bu arada yeni bir bədbəxtlik yetişməkdə idi. Bu bədbəxtlik Lomandan gəlirdi.

Loman inşasını qısaca yazıb qurtarmışdı, indi də öz işi ilə məşğul idi. Lakin işi irəliləmək bilmirdi, çünki dostu fon Ersumun başına gələnlər onu haldan çıxarırdı. O, müəyyən mənada özünü bu güclü, kübar oğlanın mənəvi himayəçisi saymış və buna, imkan düşərsə, dostunun mənəvi zəifliyini özünün yüksək zəkası ilə ört-basdır etmək təki bir kişilik qərarı kimi baxmışdı. Fon Ersum görünməmiş bir gicliyi dilinə gətirmək istədiyi anda Loman səs-küylə boğazını arıtlamış və düzgün kəlməni ona pıçıldamışdı. Fon Ersumun ağlasığmaz cavablarını şagirdlərin diqqətinə çatdırıb demişdi ki, o, sadəcə, müəllimi hirsləndirmək və onu haldan çıxarmaq istəyib.

Lomanın pırpızlı qara saçları vardı, həmin saçlardan hüznlü bir birçək ayrılıb alnına tökülürdü. Sifətində iblis solğunluğu və istedaddolu bir mimika vardı. O, Heyne sayağı seirlər yazırdı və otuzyaşlı bir qadına vurulmuşdu. Ədəbiyyata aludəliyindən gimnaziyadakı dərslərə az fikir verirdi. Lomanın həmişə axırıncı rübdə çalışmağa başladığını hiss edən müəllimlər şurası onun son məqamda kifayət qədər nailiyyət qazanmasına baxmayaraq, uşağı sinifdə saxladı, özü də iki dəfə müxtəlif siniflərdə. Beləliklə, Loman on yeddi yaşında olarkən dostu kimi on dörd və on beş yaşlılarla bir sinifdə oxuyurdu. Fon Ersuma gövdəsinin inkişafına görə iyirmi yaş verildiyi halda, Lomanın yaşlı görünməsi onun mənən dostlarından uca olması ilə izah edilə bilərdi.

Kürsüdəki müqəvva təlxək Loman kimisinə nə təsir bağışlayardı?! Beyninə düşən fikrin əzabını çəkən bu gicbəsər?! Professor Qanmaz onu lövhəyə çağıranda Loman özünün sinfə yad olan oxusundan ağır-ağır baş qaldırar, enli, sarımtıl-solğun alnını düyünləyib qırışlandırar, nifrətlə aşağı saldığı göz qapaqlarının altından müəllimin cılız hirsini, dərisinə hopmuş tozu və çiyninə tökülmüş qoğu gözdən keçirərdi. Axırda da özünün cilalanmış dırnaqlarına nəzər salardı. Qanmaz, az qala, hamıdan çox Lomana nifrət edirdi, onun yaxın düşülməsi mümkün olmayan tərsliyinə görə və bir də ona görə ki, Loman ona qarşı "həmin adı" işlətmirdi;

çünki o, dumanlı şəkildə olsa da, hiss edirdi ki, Loman bununla daha pis niyyətə düşüb. Bu fəqir qocanın nifrətinə Loman sayğısızlıqdan başqa heç nə ilə cavab vermirdi. Həmin sayğısızlığa qusuntuya bələnmiş yanımcıllıq da əlavə olunurdu. Lakin fon Ersumun təhqirini Loman şəxsən özünə qarşı hücum kimi qiymətləndirmişdi. Otuz şagird arasında yeganə adam kimi o, fon Ersumun əmisinin həyatının Qanmaz tərəfindən bu şəkildə təsvirini alçaq hərəkət kimi qəbul etmişdi. Kürsünün arxasındakı bu təlxəyə gərək çox da imkan yaratmayaydın. Loman qəti qərara gəldi. Ayağa qalxdı, əllərini masanın qırağına dayadı, hərisliklə professorun gözlərinin içinə baxdı, sanki nəsə qəribə bir iş görmək istəyirdi, axırda da özündənrazı halda bərkdən dilləndi:

– Mən burada daha işləyə bilmirəm, cənab professor. Aşkarca qanmazlıq qoxusu gəlir.

Kürsüdə oturan Qanmaz yerindən dik atıldı, əlini silib uşaqları sakitliyə çağırdı, çənəsi şaqqıldamağa başladı. O buna hazır deyildi, xüsusilə də indi, axı bir az bundan qabaq "pozğunlardan" birini gimnaziyadan qovmaqla hədələmişdi. İndi bu Lomanı da onamı "qoşmalıydı"?.. Nəfəskəsən həmin anda alçaqboy Kizelak çeynənmiş dırnaqlı, mürəkkəbli barmağını yuxarı qaldırdı, barmaqlarını bir-birinə vurub hirslə bağırdı:

– Loman qoymur adamı fikirləşməyə, həmişə deyir ki, buradan qanmazlıq qoxusu gəlir.

Uşaqlar çikkildəşməyə başladılar, hətta bəziləri ayağını yerə döydü. Qiyam küləyini üzündə hiss edən Qanmazı qorxu bürüdü. Oturduğu yerdən qalxdı, oturacaqların üzərinə əyilib sayı-hesabı bilinməyən düşmənlərinin zərbələrini dəf edirmiş kimi dörd tərəfinə əl-qol atdı və səsi gəldikcə bağırdı:

– Ağzıbirə! Hamınız!

Sinif sakitləşmək bilmirdi; Qanmaz güc göstərməklə özünü xilas edə biləcəyini fikirləşirdi. Loman heç gözləmədən Qanmaz onun üstünə atıldı, qolundan yapışıb dartışdırdı və boğula-boğula qışqırdı:

– Rədd olun! Siz insan cəmiyyətində yaşamağa çoxdandır layiq deyilsiniz!

Loman acıqlı-acıqlı, bir az da darıxaraq Qanmazın arxasınca getdi. Axırda müəllim onu itələyib soyunub-geyinmə

otağının qapısına çırpmaq istədi; amma heç nə alınmadı. Loman Qanmazın yapışdığı çiynini əli ilə təmizləyib aramlı addımlarla "ağzıbirə" girdi. Bundan dərhal sonra müəllim gözləri ilə Kizelakı axtardı. Amma Kizelak onun arxasından sivişib qəribə bir sir-sifətlə özünü dustaq otağına təpdi. Sinfin əlaçısı Kizelakın harada olmasını professora xəbər verdi. Qanmaz təkidlə bildirdi ki, bu hadisələrlə bağlı sinif bir anlığa da bakirədən yayınmamalıdır.

– Niyə yazmırsınız? Hələ on beş dəqiqəniz var! Tamamlanmamış işləri yenə qiymətləndirməyəcəyəm, həmişəki kimi!

Bu hədədən sonra çoxları bildiklərini də unutdu və sir-sifətlərində qorxunc ifadələr oynadı. Buna əməlli-başlı sevinmək üçün Qanmaz həddən artıq həyəcanlı idi. İstənilən müqaviməti sındırmağa, hazırlanan sui-qəsdlərin qarşısını almağa, hər şeyi daha da susdurmağa, məzar sakitliyi yaratmağa onda bir həvəs oyanmışdı. Üsyankarlanın üçü kənarlaşdırılmışdı, lakin onların partaların üstünə sərilmiş dəftərləri, elə bil, hələ də üsyankarlıq ruhu təlqin edirdi. Həmin dəftərləri qamarlayıb Qanmaz kürsüyə yollandı. Fon Ersumla Kizelakın yazıları heç də pis niyyət güdməyən ağır və əlaqəsiz budaq cümlələrdən ibarət idi. Lomanın yazı işi də onlarınkı kimi anlaşılmaz idi, plan qurmamışdı, bəndləri A, B, C, a, b, c və 1, 2, 3-ə bölməmişdi. Eləcə də vur-tut bircə kəlmə yazmışdı ki, bunu da Qanmaz coşub-daşan hirsi ilə əlüstü oxuya bilmişdi. Orada yazılmışdı:

"Kralın üçüncü xahişi ilə ("Orlean bakirəsi", I, 10) gənc Janna yaşına uyğun olmayan bir cəldliklə və özünün kəndçi keçmişi ilə hiyləgər bir fokusun sayəsində saraya daxil olur. O, kralın ötən gecə göylərə müraciət etdiyi üç duanın məzmununu deyir və başqasının fikrini oxumaq bacarığı ilə bixəbər böyük cənaba, təbii ki, güclü təsir göstərir. Yuxarıda demişdim ki, üç duadan, həqiqətdə isə o yalnız ikisini təkrarlayır; üçüncüsünü isə ona inanan kral soruşmur. Bu da Jannanın bəxtindən: çünki üçüncü duanı deməkdə o, çətinlik çəkərdi. O, ilk duanın hər ikisində hökmdarın Allahdan nəyi diləməsi barədə hər şeyi, daha doğrusu, ulularının suçları bağışlanmayacağını, ölkəni və tacı itirəcəyi təqdirdə xalqın əvəzinə özünün qurban kimi qəbul olunmasını, onun əlindən ən azı məmnunluğun, dostunun və sevgilisinin alınmamasını söyləmişdi. Bununla o ən önəmli olandan, hakimiyyətdən imtina etmişdi. O daha nəyi diləməli idi ki? Gəlin baş

çatlatmayaq: bunu o özü də bilmir. Jannanın da bundan xəbəri yoxdur. Şiller də xəbərsizdir. Yazıçı bildiklərinin hamısını söyləyib, bununla belə, daha nələrsə deyib. Bütün sirr də bundadır və sənətkarın müəmmalı təbiətindən hali olan üçün təəccüblü heç nə yoxdur".

Vəssalam. Hamısı bundan ibarət idi və titrətməsi tutan Qanmaz qəfildən bir şeyi dərk etdi: bu şagirdi uzaqlaşdırmaq, cəmiyyəti bu yoluxucu virusdan qorumaq, birtərəfli fon Ersumu gimnaziyadan qovmaqdan daha vacibdir. Bunlan düşünə-düşünə növbəti kağıza nəzər saldı, burada nəsə cızma-qara edilmişdi, yarısı cırılıb dəftərdə qalmışdı. Lakin qəfildən o hər şeyi başa düşəndə yanaqlarına çəhrayi bir bulud qondu. Dəftəri örtdü, tələsik, oğrun-oğrun, sanki heç nə görməmişdi, onu bir də açdı, elə həmin an da təzədən o biri dəftərlərin içinə atdı, tövşüyə-tövşüyə nəfəs aldı. Hər şeyi tam başa düşdü: vaxt çatmışdı, onu "yaxalamaq" lazım idi! Bu cür uzaqlara gedən bir adam, həmin o, artist Rozanı... Əlbəttə belədir... Rozanı. Lomanın dəftərini üçüncü dəfə əlinə götürdü. Bu vaxt zəng çalındı.

– Ötürün gəlsin dəftərləri! – Qanmaz dilləndi, onu qayğı götürmüşdü ki, indiyə qədər işi axıra çatdırmamış şagirdlərdən kimsə müsbət qiymət ala bilər. Sinfin əlaçısı inşaları yığdı; şagirdlərdən bir neçəsi soyunub-geyinmə otağına gedən qapının qarşısını kəsdi.

– Çəkilin oradan! Gözləyin! – Qanmaz yeni qorxu içində qışqırdı. Ürəyindən qapını büsbütün bağlamaq, həmin üç məzlumu o vaxta qədər qıfıl altında saxlamaq keçdi ki, onların məhvinə tam əmin ola bilsin. Bu, öz həllini tez tapmadı. Burada gərək məntiqlə düşünəydin. Lomanın məsələsi onu büsbütün haldan çıxarmışdı. Adam necə də korlanarmış. Boydan xırda şagirdlərin çoxu anlaşılmazlıq duyğusundan kürsünün ətrafına yığışmışdı.

– Əyin-başımız, cənab professor!

Qanmaz "ağzıbirin" qapısından geri çəkildi. Paltolarını əyinlərinə geymiş həmin o üç sürgün bir-birinin ardınca basabasın içindən bayıra çıxdı. Loman astanaya çatan kimi gördü ki, dəftəri Qanmazın əlindədir və darıxa-darıxa bu qoca gicgicinin canfəşanlığına heyifsiləndi. İndi, çox güman ki, atası direktorun yanına gəlib onunla danışası olacaqdı!

Fon Ersumun gücü dostu Lomanın "sərxoş ay" adlandırdığı kürən qaşlarını bir balaca da yuxarı dartmağa çatdı.

Kizelak isə öz tərəfindən "ağzıbirdə" müdafiəyə hazırlaşmışdı.

– Cənab professor, düz deyil axı, mən demədim ki, qanmazlıq qoxusu gəlir. Eləcə onu dedim ki, o elə hey deyir...

– Susun! – Qanmaz əsə-əsə onun üstünə bağırdı. Boğazını irəli-geri uzadıb özünü ələ aldı və əlavə etdi: – Sizin taleyiniz indi bundan sonra yenə də başınızdan xeyli yuxarıda durur. Gedin!

Bundan sonra üçü də yeməyə getdi, hər biri də öz taleyi ilə.

## İKİNCİ FƏSİL

Qanmaz da yemək yedi, sonra isə divana uzandı. Lakin hər gün olduğu kimi, təzəcə mürgüləmək istəyirdi ki, qulluqçu qadın əlindəki qab-qacağı yerə saldı. Qanmaz diksinib qalxdı, tələsik də Lomanın inşa dəftərini əlinə aldı, sifəti allandı, sanki, dəftərdəki bu abırsızlığı birinci dəfə oxuyurdu. Elə bil, dəftər də örtülmək istəmirdi, "Müqəddəs sənətkar froylayn Roza Frölixə pərəstiş" sözləri yazılmış yer isə əzik-üzük olmuşdu. Başlıqdan sonra pozulub oxunmaz hala salınmış bir neçə sətir, sonra boş bir yer gəlirdi, daha sonra isə:

"Sən büsbütün korlansan da,
Yenə böyük sənətkarsan;
Zaman gələr, ikicanlı olarsan sən..."

Dördüncü misranı hələlik tapmamışdı, lakin üçüncü misradakı gələcək zaman çox şeyi deyirdi. Həmin zaman güman etməyə imkan yaradırdı ki, bu işdə Loman şəxsən iştirakçıdır. Bunu tam təsdiq etmək, bəlkə də, dördüncü sətrin öhdəsinə düşürdü. Qanmaz olmayan şəxs həmin dördüncü sətrin tapılması üçün ümidsiz cəhdlər edirdi, həmin cəhdləri də kralın üçüncü duasını tapmaqda onun sinfi etmişdi. Şagird Loman bu dördüncü misra ilə, deyəsən, Qanmazı ələ salırdı və Qanmaz şagird Lomanla anbaan artan savaşa girişmişdi. Onda özünün şagirddən daha güclü olduğunu göstərmək kimi bir ehtiyac baş qaldırmışdı. Uşağın kürəyini yerə vurmaq istəyirdi!

Qanmazın içində gələcək hərəkətlərin qəlibləşməmiş cizgiləri baş qaldırdı. Onlar ona daha rahatlıq vermirdi. Köhnə şinelini çiyninə salıb küçəyə çıxdı. Narın və soyuq yağış

yağırdı. Əllərini belinə qoyub başını aşağı salaraq cəhənglərinə hopmuş zəhərli təbəssümü ilə şəhər məhəlləsinin gölməçələri yanından ayaqlarını sürüyə-sürüyə irəliləyirdi. Kömür arabasından və bir-iki körpə uşaqdan başqa rastına heç kim çıxmadı. Küncdəki çərçi dükanının yanında, qapının arxasında şəhər teatrının elanı asılmışdı: "Vilhelm Tell". Başına yeni bir fikir gələn Qanmaz dizləri əsə-əsə özünü elanın üstünə atdı... Yox, elanda Roza Frölixin adı yox idi. Bununla belə, həmin qadın bu incəsənət yuvasında çalışmalı idi. Teatrın proqramını öz pəncərəsindən asmış çərçi cənab Dröqe, çox güman ki, bu cür işlərdən baş çıxanrdı. Qanmaz qapının dəstəyindən tutmuşdu; ancaq qorxu içində əlini geri çəkib yoluna düzəldi. Özünün yaşadığı küçədə artist qadının adını soruşmaq! Bu cür bilikli bir adam humanitar elmlərdən xəbərsiz vətəndaşların boşboğazlıq meylini diqqətdən kənarda qoya bilməzdi. Şagirdi Lomanın əməlinin üstünü açmaqda Qanmaz gizli və çevik tərpənməli idi... O, şəhər xiyabanına buruldu.

Loman uçuruma getdikdə bacardıqca fon Ersumla Kizelakı da arxasınca çəkib aparırdı. Qanmaz şagirdlərin onu öz ayaması ilə çağırması barədə direktora əvvəlcə heç bir məlumat vermək istəmədi. Bu işi görənlərin istənilən tərbiyəsizliyə qadir olduğu haçansa üzə şıxacaq. Qanmaz bunu bilirdi; buna öz oğlunun timsalında bələd olmuşdu. Həmin oğlanı Qanmaza dul bir qadın doğmuşdu ki, o da bu cavanın təhsilində ona maddi yardım göstərmiş, bunun əvəzində isə hər ikisi razılığa gəlmişdi ki, oğlan iş başına keçən kimi hazırda dünyasını dəyişmiş bu əndamlı və ciddi qadınla evlənsin. Oğlu elə onun özü kimi kifir idi, üstəlik, bir gözü də yox idi. Bununla belə, hələ tələbə ikən tətilə gələrkən yüngül əxlaqlı iki qadınla camaat içində göründü. Bir tərəfdən bədnam məclislərdə Qanmazın pulunun başına daş salırdısa, digər tərəfdən də imtahandan dörd dəfədən az olmayaraq kəsilirdi, amma hər halda, yenə də alababat məmur ola bilərdi: yalnız özünün kamal attestatının sayəsində dövlət imtahanı vermiş ali təbəqəli insandan onu xeyli məsafə ayırırdı. Öz oğlundan birdəfəlik ayrılmış Qanmaz baş verənlərin hamısını dərk edirdi; bəli, dostları ilə söhbət zamanı doğma atasını öz ayaması ilə adlandıran oğluna haçansa gizlincə qulaq asanda bunu hətta öncədən görmüşdü! Deməli, eyni taleni Kizelak, fon Ersum və Lomanı üçün də gözləmək olardı,

xüsusilə də aktrisa Roza Frölixin sayəsində həmin taleni yaşamağa başlayan Loman üçün. Lomandan qisas almağa Qanmaz yaman tələsirdi. O birilərinin ikisi də bu adamın və onun etinasız rəftarının, eləcə də müəllim cin atına minəndə maraqlı bir təəssüflə ona baxmasının yanında itib gedirdi. Ümumiyyətlə, o necə şagird idi axı?.. Qanmaz öldürücü bir nifrətlə Loman barədə düşünürdü. Sivri dam örtüklü şəhər darvazasının altında qəfildən ayaq saxlayıb ucadan dedi:

– Ən murdarları bunlardır!

Sinfindən başqa heç nə tanımayan bu zülmkarla aramsız gizli müharibə aparan miyanə, zəlil və hiyləgər məxluq olan şagird: bu, Kizelak idi, yaxud güclü və səfeh bir oğlan ki, zülmkar özünün mənəvi üstünlüyü ilə onu daim şaşqınlıqda saxlayır: fon Ersum. Loman isə, deyəsən, həmin zülmkarın hərəkətlərinə şübhə ilə yanaşır! Qanmaz dəyəri pis ödənən nüfuzun alçalmasından qaynayıb-coşur, o nüfuzun ki, ona tabe olanlardan birisi bərbəzəklə geyinib-kecinir və pulunu havaya sovurur. Ümumiyyətlə, bütün bunlar, bu ona birdən-birə aydın oldu, həyasızlıqdan başqa bir şey deyil! Lomanın üstünə heç vaxt bir tozun belə qonmaması, onun həmişə tərtəmiz manjet taxması və üzgözünü əyməsi həyasızlıq deyil, bəs nədir?! Bugünkü inşa, həmin şagirdin məktəbdən kənarda qazandığı biliklər, xüsusilə də onların içində ən alçaldıcısı aktrisa Roza Frölix deyildimi?! Ən böyük həyasızlıq o idi ki, Loman Qanmazı öz ayaması ilə adlandırmırdı!

***

Başındakı bu fikirlərlə Qanmaz fronton evlərin arasındakı darısqal küçə ilə üzüaşağı yeriyib başında fırtınalar dolaşan kilsəyə çatdı, bərk-bərk şinelinə bürünüb bir xeyli də üzüaşağı yeridi. Yarı yola çatdı və ilk binaların birinin qarşısında tərəddüd edib ayağını saxladı. Qapının sağ və solunda iki taxta yeşik vardı ki, onların da dəmir barmaqlıqlarının arxasında "Vilhelm Tell"in afişası asılmışdı. Qanmaz əvvəlcə yeşiyin birindəki afişanı oxudu, sonra isə o birisindəkini. Nəhayət, qorxa-qorxa ətrafına boylanıb darvazadan açıq dəhlizə keçdi. Balaca pəncərənin arxasında, çıra işığında, deyəsən, bir kişi oturmuşdu. Həyəcandan Qanmaz onu düzəməlli arışırda bilmədi. Buralarda demək olar, iyirmi ildən bəri olmamışdı və öz ölkəsini tərk etmiş hökmdarın dərdinə

qaldı: birdən onu tanımazdılar, bilmədən ona yaxın düşərdilər, onu özünü insan saymağa məcbur edərdilər.

Bir müddət pəncərənin qabağında dayanıb boğazını arıtladı. Heç nə alınmayanda əyilmiş şəhadət barmağının ucu ilə pəncərəni taqqıldatdı. Pəncərənin arxasındakı adam qorxub başını yuxarı qaldırdı və arxaya çəkilmiş qapaqdan çölə boylandı:

– Nə istəyirsiniz? – xırıltılı səslə soruşdu.

Qanmaz əvvəlcə yalnız dodağını tərpətdi. Onlar bir-birinə baxdı, o və qırışlı, göy-qara üz cizgiləri, yastı burnu və burnunun üstündə pensnesi olan istefaya çıxmış artist. Qanmaz dilləndi:

– Deməli belə, demək, siz "Vilhelm Tell"i tamaşaya qoyursunuz. Çox gözəl də iş görürsünüz.

Kassaçı dedi:

– Elə bilirsiniz bunu özümüzün xeyrimizə edirik?!

– Mən bunu demək istəməmişəm, – söhbətin uzağa getməsindən qorxuya düşən Qanmaz onu inandırmağa çalışdı.

– Biletlərimiz satılmır, ona görə bu əsəri tamaşaya qoyuruq ki, şəhər rəhbərliyi ilə bağladığımız müqavilədə klassik tamaşalar nəzərdə tutulur.

Qanmaz özünü təqdim etməyin vaxtının çatdığını anladı.

– Soyadım professor Qa... professor Qanardır. Buradakı gimnaziyanın aşağı sinif müəllimi.

– Çox gözəl. Mənim soyadım da Blumenberqdir.

– Sinfimi götürüb məmnuniyyətlə klassik əsərin tamaşasına gələrdim.

– Ax, necə də gözəl iş görmüş olardınız, cənab professor. Bu xəbərlə direktorun yanında, bilirsinizmi, hörmətim hara qalxacaq?! Buna bir qınnaq da şübhəm yoxdur.

– Amma, – Qanmaz barmağını qaldırdı, – gərək bu, gerçəkdən də belədir, Şillerin sinifdə oxuduğumuz dramı olsun, daha doğrusu, yenə də, "Orlean bakirəsi".

Artist dodağını salladı, başını aşağı salıb qəmli-qəmli, qınaqla altdan-yuxarı Qanmaza baxdı.

– Həddən artıq təəssüflənirəm. Bilirsinizmi, biz onda gərək hər şeyi təzədən məşq edəsi olaq. Doğrudanmı, Tell ürəyinizcə deyil? Axı o, gənclərin tam ürəyincə olardı.

– Yox, – Qanmaz qətiyyətlə dedi, – heç cür olan deyil. Bizə "Orlean bakirəsi" lazımdır. Onu da deyim ki... Jannanı

oynayan aktrisanı... – Qanmaz dərindən nəfəs aldı, ürəyi çırpındı, – gərək xüsusi nəzərə alasınız. O, bu əzəmətli obrazı şagirdlərə sevdirən, hər halda, belədir, böyük aktrisa olmalıdır.

– Elədir, elədir, – onunla həmfikir olan artist dedi.

– Mən sizin aktrisalarınızdan birini nəzərdə tuturdum. Onun barəsində, yəqin ki, tam haqlı olaraq, yüksək fikirlər eşitmişəm.

– Yox, canım.

– Froylayn Roza Frölixi nəzərdə tuturam.

– Necə, zəhmət olmasa?

– Roza Frölix, – Qanmazın, az qala, nəfəsi kəsildi.

– Frölix? Beləsi bizdə yoxdur axı.

– Dəqiq bilirsiniz? – Qanmaz düşünmədən dedi.

– Üzr istəyirəm, mən hələ divanə deyiləm.

Qanmaz kişiyə baxmağa daha ürək eləmədi.

– Onda mən, doğrusu, heç bilmirəm...

Artist onun köməyinə gəldi:

– Çox güman ki, dəyişik salmısınız.

– Hə, elədir, – Qanmaz uşaqsayağı minnətdarlıqla dilləndi. – Xahiş edirəm, bağışlayasınız.

Sonra o, arxaya çəkilə-çəkilə təzim etdi. Kassadakı kişi çaşıb-qalmışdı. Nəhayət, Qanmazın arxasınca qışqırdı:

– Amma cənab professor, bu işi müzakirə etməyə dəyərdi. Neçə bilet götürərdiniz? Cənab pro...

Qanmaz qapıya çatanda bir daha arxaya döndü. Qorxudan və onu haraylayan kişinin səsindən təbəssümü üzündə donmuşdu.

– Bircə bağışlayın.

Və qaçıb aradan çıxdı.

***

Heç özü də hiss etmədən küçə ilə üzüaşağı enib limana yetişdi. Bellərində kisə daşıyan kişilər ağır addımlarla onunla yanaşı yeriyir və həmin kisələri anbarın üst qatına qaldıran fəhlələrin qışqırtıları eşidilirdi. Ətrafdan balıq, qatran, yağ və spirt iyi gəlirdi. Dor ağacları və onlardan o yana çayın içindəki dirəklər ala-toranda, sanki, bir-birinə qarışırdı. Qaranlığın düşməsi ilə daha da canlanan bu vurnuxmada Qanmaz yoluna davam edirdi və başındakı fikirlər, sanki, onu gəmirib yeyirdi: Lomanı yaxalamaq, aktrisa Frölixin onunla münasibətini sübut etmək.

Əllərində qaimə vərəqələri olan ingilis libaslı kişilər Qanmazın ətrafında vurnuxaraq ona toxunur, fəhlələr isə “Ehtiyatlı ol!” deyib professorun üstünə bağırırdılar. Bu ümumi tələskənlik ona da sirayət etdi; o, ətrafına yaxşı-yaxşı baxana qədər üstündə “Heuerbaas” və isvedcə, yaxud danimarkaca hansısa yazıların olduğu qapının dəstəyindən yapışdı. Mağaza dürmələnmiş burazlar, dənizçilər üçün suxarı yeşikləri, kəskin iy verən balaca çəlləklərlə dolu idi. Tutuquşu ara vermədən qışqırırdı: “Durma, soğ!” Matrosların çoxusu içirdi, digərləri əllərini şalvarlarının cibinə qoyub qırmızı saqqallı yekəpər bir kişiyə nəsə deyirdi. Bu, xeyli vaxt aparsa da, kişi arxa hissədə yaranmış tütün tüstü-dumanının içindən çıxıb piştaxtanın arxasına elə keçdi ki, divar fənərinin tənəkə reflektoru onun keçəl başını əməlli-başlı işıqlandırdı, sonra o, pəncələrini piştaxtanın üstünə dirəyib ağır-ağır soruşdu:

– Nə istəyirsiniz, cənab?

– Mənə yay teatrına bir bilet verin, – Qanmaz yüngüllüyünə salıb tələb etdi.

– Nə dediniz? – kişi soruşdu.

– Hə də, yay teatrına bilet. Axı görüyünüzdə bildirirsiniz ki, yay teatrına bilet satırsınız.

– Nə dediyinizi anlamıram, cənab, – kişinin ağzı açıla qalmışdı. – Yay teatrı qışda tamaşa göstərmir axı.

Qanmaz dediyindən dönmədi:

– Axı görüyünüzdə yazmısınız.

– Yazmışıq, yerindən qaçmayıb ki! – Bu söz ağzından pırtlayıb çıxdı, amma kişi bu eynəkli cənaba yetərincə hörmət göstərmədiyini başa düşüb özünü təzədən yığışdırdı. Bu yad adamı yay teatrının indi bağlı olduğuna inandırmaq üçün əsaslar axtarmağa başladı. Ehtiyatla düşünməyə yardım etmək üçün kürəntüklü titrək əli ilə masanın üstünü sığalladı. Axır ki, həmin köklü əsası tapdı.

– Yəqin, ən ağılsız məktəbli də bilər ki, qışda yay teatrı olmur, – mülayimliklə dilləndi.

– İcazə verin, möhtərəm cənab, – deyiləni fikirli-fikirli rədd edərək Qanmaz cavab verdi. Kişi köməyə çağırdı.

– Haynrix! Laurens!

Matroslar yaxına gəldilər.

– Bilmirəm bu kişiyə nə olub. Elə hey Vilhelm bağına[1] düşmək istəyir.

---

[1] *Vilhelm bağı* – yay teatrının yerləşdiyi yerin adı

Matroslar tütün çeynəyirdilər. Onlar da dükançı ilə birlikdə maraqla Qanmaza baxdılar. Sanki çox-çox uzaqlardan gəlmiş bir qərib idi, başa düşülməsi çətinlik yaradan bir çinli. Qanmaz bunu hiss etdi. Məsələni bitirməyə tələsdi:

– Onda mənə, ən azı, deyərsinizmi ki, cavan oğlan, keçən yay bu teatrda hansısa froylayn Frölix çıxış edibmi, Roza Frölix?

– Haradan bilim, cənab? – dükançı büsbütün çaşıb-qaldı. – Elə bilirsiniz mən sirk qadınları ilə oturub-dururam?

– Ya da başqa cür, – Qanmaz tələsik dilləndi, – həmin qadın üzümüzə gələn il bizi yenə də öz uğurları ilə sevindirəcəkmi?

Qarşısındakı kişinin üzündən dəhşət oxunurdu. Daha bir kəlmə də başa düşmədi. Matroslardan biri fikirləşib nəsə tapmışdı:

– Bizi dolayır, Peter, səni ələ salmaq istəyir.

Bunu deyib o, başını arxaya atdı və çiyni atdana-atdana şaqqanaq çəkib güldü, güləndə açılan ağzı dibsiz uçuruma bənzədi. O biriləri çiyinləri ilə bir-birinə toxunub bu biri matrosun etdiklərini təkrarladılar. Dükanın sahibinə heç də elə gəlmədi ki, bu qərib insan onu ələ salır; amma o, bu məzədə bir qorxu duydu, həmin məzəni ondan əvvəlki müştərilər görmüş olmalı idilər: əşyalaşdırıb suxarı və ardıc şərabı kimi kapitanların gəmisinə yüklədiyi həmin adamlar. Ciddi səbəb olmadan süni bir hiss onu boğdu, özünü hirsli adamlar kimi apardı, əlini masaya çırpıb barmağının birini hədə əlaməti olaraq irəli uzatdı.

– Cənab! İşim başımdan aşır, əlinizin oyuncağı deyiləm! Hələ bir o qapıya baxın, arxa tərəfinizdə dayanıb! – Qanmaz bir anlığına da kütləşib öz yerində qalanda kişi özünü elə apardı ki, elə bil, masanın arxasından çıxıb onun üstünə cumacaqdı. Qanmaz tələsik qapını açdı, tutuquşu onun arxasınca qışqırdı: “Durma, soğ!” Matroslar şaqqanaq çəkib güldülər. Qanmaz qapını bağladı.

Tələsik qarşıdakı tinə buruldu və liman ərazisindəkl sakit küçələrə yetişdi. Olanlara özlüyündə qiymət verdi: “Düz eləmədim. Doğrudan da elədir. Düz eləmədim”. Aktrisa Frölixi gərək ayrı yollarla axtaraydı. Qanmaz rast gələnlərə diqqətlə baxırdı ki, görsün bu qadından onlar nəsə bilirdilərmi. Bunlar hamballar, qaravaşlar, fənər yandıranlar, qəzetsatan qadınlar idi. Camaatla dil tapmaq mümkün deyildi: bu barə-

də onun təcrübəsi vardı. Eləcə də yaxın keçmişdə başına gələnlər ona deyirdi ki, yadlarla ünsiyyət quranda ehtiyatlı olmaq lazımdır. Məhrəm bir sifəti gözdən keçirəndən sonra ətrafa boylanmaq ağılsızlıq idi. Qarşıdakı balaca küçədə həmin sifətlərdən biri peyda oldu, bu sifətin sahibi ötən il bütün acığını işə salıb latın dilində öyrəndiyi şeirləri qışqıra-qışqıra əzbərdən Qanmazın üzünə demişdi. Dərslərini heç vaxt əzbərləməyən bu şagird indi, deyəsən, ticarət işində şəyirdlik edirdi. Əlindəki bir bağlama məktubla o, Qanmaza yaxınlaşdı, görkəmindən ədabazlıq yağırdı. Qanmaz ona doğru yeridi, ağzını açıb bu gəncin salamını gözlədi. Amma salam gəlmədi. Keçmiş şagird kinayə ilə professorun düz gözünün içinə baxdı, Qanmazın hündür çiyni tərəfindən keçib-getdi və bu zaman irişiyi büsbütün solğun sifətinə yayıldı.

***

Qanmaz tələsik oğlanın gəldiyi darısqal küçəyə buruldu. Bu küçə limana enən küçələrdən biri idi; başqa küçələrdən fərqli olaraq o, xeyli sərt enişli olduğuna görə buraya çoxlu uşaq toplaşmışdı. Onlar saysız-hesabsız kiçik özügedənlərdə hay-küylə dağdan üzüaşağı diyirlənirdilər. Uşaqların anaları və dayələri səkidə dayanıb əl-qollarını yelləyir və onları axşam yeməyinə çağırırdılar; lakin uşaqlar dizlərini diylrcəkli arabanın üstündə qatlayaraq, yaxud qıçlarını havada yellədə-yellədə qulaqlarının üstünə basdıqları papaqların üzərində dalğalanan qalstukları və şənliyə açılmış ağızları ilə taqqataqla daş döşənmiş küçəni başıaşağı diyirlənirdilər. Küçəni keçərkən Qanmaz bir neçə dəfə hoppanmalı oldu, əks təqdirdə dişləyə ilişə bilərdi. Hoppandıqca ətrafındakı gölməçələr çappıldayırdı. Sürətlə gələn arabadan birdən-birə sirayətedici bir səs çıxdı:

– Qanmaz!

Qanmaz diksinib yerindən atıldı. Elə həmin an bu sözü bir neçəsi təkrar etdi. Kommersiya və şəhər məktəblərinin uşaqları onun ayamasını, çox güman ki, gimnaziyaçılardan öyrənmişdilər və bu adın altında nəyin başa düşüldüyündən xəbəri olmayanlar da onlara qoşulub həmin adı qışqırdılar. Ona qarşı əsən tufanla əlləşərək Qanmaz sərt yoxuşu dırmanmalı oldu. Tövşüyə-tövşüyə kilsə meydanına yetişdi.

Bütün bunlar, çox güman ki, onun üçün adi hal olmalı idi. Ona salam verməyib üzünə irişən keçmiş şagirdləri,

ayamasını arxasınca qışqıran küçə uşaqlan. Yalnız bu gün o, başladığı işdə bunu nəzərə almamışdı: çünki insanlar indi ona cavab verməli idilər. Onda Vergilinin[1] şeirlərini bilmirdilərsə, heç olmasa, indi aktrisa Frölix barədə dəqiq məlumat bilsinlər!

***

Qanmaz bazara, tənbəki tacirinin, iyirmi il bundan əvvəlki şagirdinin yanına gəldi, həmin şagirddən o, hərdən bir qutu siqaret alardı. Yalnız hərdən: çox siqaret çəkən deyildi, hərdənbir də içərdi; meşşan xasiyyətlərin heç biri ona xas deyildi... Bu adamın adına yazılan hesablar bir qayda olaraq cənab professor Qanmazla başlayar, sonra həmin Qanmazdan gözəl bir Qanar düzəldilərdi. Bunun pis bir niyyətmi, yoxsa yaddaşsızlıqmı olduğunu Qanmaz heç vaxt müəyyənləşdirə bilməmişdi; lakin astanasına ayaq qoyduğu mağazaya girmək cəsarəti birdən-birə yox oldu. İçəridə oturan bu dükançı heç cür "yaxalana" bilməyən tərs bir şagird olmuşdu. Qanmaz tələsik yoluna düzəldi. Daha yağış yağmırdı; külək buludlan qovub aparmışdı. Qaz fənərləri közərib səyriyirdi. San aypara hərdən-hərdən sivri damın başı üstündən oğrun-oğrun çəpəki baxırdı: kinayəli bir göz, kirpiyini həmin an elə qapayırdı ki, kinayəsini "sübut etmək" mümkün olmurdu.

Qanmaz Kolbuden küçəsinə çıxanda "Central" kafesinin böyük pəncərələrindən çölə işıq süzülürdü. Qanmazda içəri girmək, aludəsi olmadığı bir işə girişmək həvəsi baş qaldırdı. Onu bu gün, qəribə də olsa, gündəlik həyatının axarından çıxarmışdılar. Burada, içəridə aktrisa Frölix barədə nəsə öyrənmək olardı; orada hər şey barəsində söhbət edirdilər. Qanmaz bunu əvvəlki çağlardan bilirdi, çünki hələ arvadının sağlığında hərdən, çox nadir hallarda "Central"da bəzi sərbəst anlan özünə rəva bilmişdi. Qadın öləndən bəri evdə ürəyi istədiyi qədər dinclik tapırdı və kafeyə daha ehtiyacı qalmamışdı. Bundan əlavə, oraya getmək son olaraq yeni sahibkarın, illərdən sonra şəhərə dönmüş keçmiş şagirdinin sayəsində çətinləşmişdi. Həmin sahibkar keçmiş müəlliminə şəxsən özü qulluq etmiş və onu daim elə yüksək

[1] *Vergili* – (Publi Vergili Maron) – e.ə. 70–19-cu illər, romalı dastançı. Onun "Eneida" dastanı romalıların milli eposuna çevrilmişdirnəzərdə tutur.

nəzakətlə “professor Qanmaz” deyə dindirmişdi ki, müəllimin bunu ona “sübut etməsi” mümkünsüz olmuşdu.

Qonaqlar bərk həyəcanlanmışdılar; Qanmaz başa düşmüşdü ki, buraya tez-tez gəlsə, kafenin reklamına çevriləcək.

Beləcə buradan üz döndərib getdi, beynində sual verə biləcəyi digər yerləri axtardı. Ancaq yadına heç nə düşmədi. Ağlına düşən tanış adamların hamısının bir az əvvəlki tacir şəyirdininki kimi eyni üz ifadəsi vardı. İşıqlı mağazalarda, tütün dükanında, eləcə də kafenin sahibinin məkanında olduğu kimi üsyankar şagirdlər gizlənirdilər. Qanmazı hirs götürdü, o, asta-asta yorulmağa başladı və susadı. Eynək şüşələrinin başı üstündən o, mağazalara, üstündə keçmiş şagirdlərinin adları yazılmış evlərin qapılarına nəzər yetirirdi, indiki sinfinə də, öz növbəsində, belə bir nəzər yetirib onu zəhərli adlandırırdı. Bu oğlanların hamısı öz müəllimlərini, sanki, duelə çağırırdı.

Bu evlərin birində gizlənib qalmış, onun şagirdlərindən birini əlavə işlərlə məşğul etmiş və Qanmazın hökmranlığına tabe olmamış aktrisa Frölix də, elə bil, onu duelə çağırırdı! Hərdən gözünə giriş qapısının üstündə baş müəllim Filan Filankəsin adı yazılmış lövhə sataşırdı; bu zaman Qanmaz həyəcanlanıb gözünü lövhədən çəkirdi. Həmin lövhənin arxasında yaşayan müəllim öz sinfində Qanmaz ayamasını dilinə gətirmiş, sonradan etdiyi düzəliş isə heç nəyi dəyişməmişdi. Bax bu lövhənin arxasında yaşayan müəllim Qanmazın oğlunu bazarda bir qadınla görmüş və gördüklərini bütün şəhərə yaymışdı.

Hər tərəfdən düşmənlərinin hədəsi altında Qanmaz küçələri ölçürdü. Başında gərgin fikirlərlə o, evlərin yanından sivişib keçirdi; zira ləyəndolu çirkii suyu onun başına tökərək kimsə pəncərədən ayamasını deyə bilərdi! Və o həmin adamı görmədiyinə görə bu bağırqanı “yaxalaya” bilməzdi! Əlli min şagirddən ibarət hirslənmiş sinif Qanmazın dörd yanında ayağını yerə döyürdü.

Beləcə o özü özünü dərk edənə qədər canını qurtarıb gözdən uzaq bir yerə, uzun, kimsəsiz küçənin o başında qanmış qızlar yurdunun yerləşdiyi əraziyə çəkildi. Bura qaranlığa qərq olmuşdu. Tələsə-tələsə yeriyən bir neçə məxluq qısa “mantilyalarda”[1] və başlarındakı qırmızı yaylıqlarla

[1] *Mantilya* – qolsuz qısa qadın plaşı

qonaqlıqdan, yaxud axşam ibadətindən, gec də olsa, evə qayıdırdılar, gizlincə zəngi çalıb qapının arasında yox olurdular. Yarasalardan biri Qanmazın şlyapasının üstündə dövrə vururdu. Qanmaz şəhərə çəpəki bir nəzər salıb düşündü: "Bir nəfər də, bir nəfər də yoxdur", ucadan isə bunları dedi:

– Axırınıza çıxacağam sizin, banditlər!

Lakin huşunu itirəcəyini hiss edib içindəki nifrət ehtizaza gəldi və onu əməlli-başlı silkələdi; minlərlə tənbəl, pisniyyət şagirdlərə olan nifrət, o şagirdlərə ki, ev tapşırıqlarını həmişə qəsdən yerinə yetirmirlər, həmişə onu ayaması ilə adlandırıb yalnız pozğunluq barədə düşünürlər, indi də onu aktrisa Frölixlə cin atına mindirirlər, nə onu, nə də şagird Lomanı ələ verirlər, əksinə, özlərini "əclaf" sinif kimi aparırlar, müəllimlərinə qarşı əlbir hərəkət edirlər, indi şam yeməyində bir yerdə oturub onu buralarda sürünməyə məcbur edirlər və ümumiyyətlə, özünün onlarla birgə olduğu bu uzun illər ərzində ondan iyrənc bir varlıq yaradaraq həyatını puça döndərirlər.

İyirmi altı ildən bəri eyni məkrli sifətə malik sinfi gözü önündən qırağa qoymayan o heç vaxt hiss etməmişdi ki, məktəbdən kənardakı bu sifətlər professor Qanmaz barədə düşünərkən zaman keçdikcə tamamilə etinasız cizgilər kəsb edirdi və sonradan hətta xoş bir məram qazanırdı. Həmişə mübarizənin kəskinliyində o dəyərləndirməyə qadir olmamışdı ki, şəhərin yaşlı nəsli onun ayamasını hətta birbaşa üzünə deyəndə də bunu onu pərt etmək üçün söyləməmişlər, sadəcə, onlara təqribən məkrsiz görünən gənclik xatirələri naminə demişlər və Qanmaz şəhərdə hər kəsin məzəsinə, ancaq bəzilərinin incə məzəsinə çevrilmiş bir fiqur olmuşdur. O, küçənin tinində ayaq saxlayıb onun arxasınca baxan iki nəfərin fikir mübadiləsinə qulaq asmazdı, elə bilərdi, ilk buraxılışdan olan bu şagirdlər ona lağlanırlar.

– Qanmaza nə olub? Qocalır.

– Daha da kirlənib.

– Mən onu heç vaxt kirsiz görməmişəm.

– Oo, yəqin, xəbəriniz yoxdur. Assistent işləyəndə çox səliqəli idi.

– Hə? Ayamanın hökmünə bax! Ümumiyyətlə, mən onu təmizkar təsəvvür etmirəm.

– Bilirsinizmi nə fikirləşirəm? Özü istəsə də, bacarmaz. Bu cür ayamaya heç kəs uzun zaman duruş gətirməz.

## ÜÇÜNCÜ FƏSİL

Qanmaz kimsəsiz küçə ilə təzədən üzüyuxarı tələsdi, çünki ağlına bir fikir gəlmişdi və həmin fikrin nə dərəcədə doğru olduğunu indi, məhz indicə yoxlamaq istəyirdi. Beyninə dolan qəfil nurlanmadan bilmişdi ki, Roza Frölix indi haqqında bu qədər hay-küy yaranmış həmin o ayaqyalın rəqqasədir. O, indi şəhərə gəlib İncəsənətə Qayğı Cəmiyyətinin zalında öz sənətini nümayiş etdirməli idi. Qanmaz tam aydın xatırladı ki, həmin cəmiyyətin üzvlərindən biri olan baş müəllim Vitkopp bundan danışırdı. O, müəllimlər otağında ona aid olan kiçik divar dolabına yaxınlaşmış, açarla onun ağzını açmış, bir dəstə yoxlama yazı dəftərini oraya qoyub demişdi:

– İndi biz də yalın ayaqlarla yunan sayağı rəqs edən məşhur Roza Frölixdən həzz ala bilərik.

Qanmaz qürrələnib Vitkoppu gözləri önünə gətirdi, Vitkopp pensnesinin üstündən ətrafına boylanır və "Roza Frölix" sözlərini demək üçün dodaqlarını qabağa uzadırdı. Qəti şübhə ola bilməz, o, elə bu cür də demişdi: Roza Frölix. Axı Qanmaz Vitkoppun süni danışıq tərzindəki titrək R ilə başlayan dörd səsin hər birini aydın eşitmişdi. Gərək bu onun ağlına çoxdan düşmüş olaydı. Şübhəsiz ki, yalınayaq rəqqasə Frölix bu arada gəlmişdi, şagird Loman da onunla əlaqə qurmuşdu. Onları "yaxalamaq" üçün Qanmaz indi ova çıxmışdı.

O, Zibenberqştraseyə[1] çatdı, yolun yarısını qaça-qaça gəlmişdi, elə bu vaxt görüyün taxtası şaqqıltı ilə aşağı endi və Qanmaz onun bir-iki addımlığında quruyub qaldı, çünki görüyün sahibi musiqi notları satan Kelner idi, həm də bu cür tədbirlər üçün bilet satmaqla onun hər şeydən xəbəri vardı. Elə vəziyyət yaranmışdı, elə bil, arxasınca düşdüyü o iki nəfəri bu gün daha haqlaya bilməyəcək.

Buna baxmayaraq heç ağlına da gətirmirdi ki, indi evə gedib şam yeməyini yesin. O, ovçuluq azarına tutulmuşdu. Bir neçə dəqiqəlik vaxt götürüb sonuncu kərə ətrafı dolaşdı. Rozmarinveqdə[2] çəpəki taxta pilləkənin qarşısında əsə-əsə ayaq saxladı. Pilləkən, üstündə "Çəkməçi Yohannes Rind-

---

[1] *Zibenberqştrase* – Yeddidağ küçəsi
[2] *Rozmarinveq* – Rozmarin yolu

flayş" lövhəsi asılmış dar dükan qapısına qalxırdı. Burada mallar sərgilənmirdi; hər iki balaca pəncərənin güzgülü aynasının arxasında iki gül dibçəyi vardı. Qanmaz özünün xoş taleyinin çoxdandır onu buraya, doğrucul və məkrsiz insanın, dilinə söyüş gətirməmiş və heç vaxt alçaldıcı sir-sifət göstərməmiş, eləcə də aktrisa Frölix barədə ətraflı məlumat verəcək hemhuterlinin[1] yuvasına gətirməməsinə təəssüfləndi.

Qanmaz qapını açdı. Qapı açılarkən zınqırov səsləndi və bu səs səmimiyyətlə ətrafa yayıldı. Yarıqaranlıq emalatxana tərtəmiz silinib süpürülmüşdü. Yan otağa açılan qapıdan zəif işıqlandırılmış çəkməçi ailəsinin şam süfrəsi gözəl bir mənzərə yaradırdı. Şəyird sahibkarın qızının yanında oturub yemək yeyirdi. Balaca uşaqlar qolbasla kartof təpişdirirdilər. Ata qonur pivənin qarınlı şüşəsini çırağın yanına qoyub ayağa qalxdı və müştərisini gözdən keçirdi.

– Axşamınız xeyir, cənab profusor. – Ağzındakı tikəni udub davam etdi: – Mənə görə qulluğunuz?!

– Hə, – Qanmaz cavab verdi, tərəddüdlə gülümsəyib əllərini ovuşdurdu və boş udlaqla o da udqundu.

– Bağışlayın ki, – çəkməçi əlavə etdi, – burada hər şey qaranlığa bürünüb. Biz düz saat yeddidə işi bitiririk. Axşamın geri qalan hissəsi Rəbbimizə məxsusdur. Həmin vaxt işləyən adamın üstündə mərhəmət olmaz.

– Ola bilsin, bu bir tərəfdən tam düzdür, – Qanmaz kəkələdi.

Çəkməçi ondan bir boy uca idi. Sümüklü çiyinləri və dəri döşlüyünün altından irəli çıxmış qarnı vardı. Bir az yağlı olan çal birçəkləri uzunsov qurğuşun rəngli sifətini həlqəyə alıb qövs yaradırdı, yanaqları sivri saqqalına qarışmışdı və üzü asta-asta gülümsəyirdi. Rindflayş ara vermədən barmaqlarını mədəsinin üstündə bir-birinə keçirir, onları aralayır və yenidən çarpazlayırdı.

– Amma digər tərəfdən gəlişimin səbəbi heç də bu deyil, – Qanmaz məsələyə aydınlıq gətirdi.

– Cənab professor, axşamınız xeyir, cənab professor, – çəkməçinin arvadı kandardan səslənib təzim etdi. – Cənab professorla nə durmusan orada, qaranlıqda, Yohannes?

[1] *Hernhuterli* – dini icma olan "Hernhuter" qardaşlıq cəmiyyətinin üzvünəzərdə tutur.

Çağır içəri gəlsin. Cənab professor, qolbas yeməyimizi, yəqin, bizə irad tutmazsınız.

– Mən elə şeylərdən çox uzağam, möhtərəm xanım. – Qanmaz nəyi isə fəda etməyə hazır idi. – Usta, sizin yeməyinizə mane olmaq fikrim yox idi, amma buradan keçib-gedirdim və ağlıma gəldi ki, sizə, necə deyərlər, bir cüt çəkmə sifariş verim.

– Quliuğunuzda hazırıq, cənab professor, – çəkməçinin arvadı yenidən təzim etdi, – qulluğunuzda hazırıq. – Rindflay fikrə getdi, sonra çırağı istədi.

– Onda hamımız qaranlıqda oturası olacağıq, yeməyin arxasında, – qadın çılğınlıqla dilləndi. – Yox, cənab professor, içəri gəlin, bu mavi otaqda mən sizə işıq tutaram.

Qabağa düşüb soyuq bir otağa girdi və Qanmazın şərəfinə indiyə qədər əl dəyməmiş çəhrayı şamları yandırdı, onlar da onun qırçınlı manjetlərinin üstündən iki iri qaba dəyib trümoda oynaşdı. Parlaq göy rəngli divarlarda qırmızı ağacdan hazırlanmış dədə-baba mebeli bazar gününə xas bir səliqə ilə dayanmışdı. Masanın toxunma süfrəsinin üstündə mərhəmətli Məsihin çinidən hazırlanmış əlləri açılmışdı.

Frau Rindflayş bayıra çıxana qədər Qanmaz gözlədi. Çəkməçini bağlı qapı arxasında öz zoruna tabe etdirəndə o, sözə başladı.

– Deməк belə, usta, indi gərək göstərəsiniz ki, siz öz müə... yəni məni razı salmaq üçün təkcə xırda təmirlər etmirsiniz, həm də mənim üçün bir cüt gözəl ayaqqabı tikə bilirsiniz.

– Əlbəttə, cənab professor, əl-bət-tə, – Rindflayş əlaçı şagirdlər kimi mütiliklə və səylə cavab verdi.

– Mənim iki cüt ayaqqabım olanda nə olar ki, indi hər yanı tutmuş zığ-zımğırın içində heç kim yaxşı və isti ayaq geyiminə "yox" deməz. – Rindflayş aşağı əyilmişdi, ayağın ölçüsünü götürürdü, karandaşı dişlərinin arasına qoymuşdu və yalnız donquldaya bilirdi. – Digər tərəfdən də, adətən, şəhərə nəsə yenilik gətirən ilin bu fəsli bir balaca, doğrudan da belədir, mənəvi istirahətdir. Bu da, təbii ki, insana lazım olan şeydir.

Rindflayş başını qaldırıb baxdı.

– Bunu bir də deyin, cənab professor. Hə, hə, elədir. Adamın buna ehtiyacı var. Bunu bizim qardaşlıq icmamız da bilir.

– Hı, hı, – Qanmaz dilləndi. – Amma mən insanlar arasında fərqlənən dəyərli şəxsiyyətlərin gəlişini nəzərdə tuturam.

– Elə mən də bu barədə düşünürəm, cənab professor, icma da bu cür düşünür və biz qardaşları sabah axşamkı məşhur bir missionerlə ibadətə toplayır. Bəli, əlbəttə bəli.

Aktrisa Frölixdən söz salmağa Qanmaz çətinlik çəkirdi. Bir müddət nəsə axtardı və dolayı yol tapmayanda birbaşa düzünə getdi.

– İncəsənətə Qayğı Cəmiyyətində də bizə, həmişə olduğu kimi, yenə də məşhur bir adamın çıxışını vəd edirlər. Aktrisadır. Başqalarından fərqli olaraq siz onun barəsində eşitmiş olarsınız, usta.

Rindflayş susurdu, Qanmaz da hərisliklə gözləyirdi. Əmin idi ki, lazım olan şey indi onun ayağına döşənmiş bu adamdadır və bunu ondan qoparmaq yalnız onun işidir. Aktrisa Frölix haqqında qəzetdə yazılmışdı, onu müəllimlər otağında müzakirə etmişdilər, şəkli Kelnerin pəncərəsindən asılmışdı. Bütün şəhərin ondan xəbəri vardı, təkcə Qanmazdan başqa. İstənilən bir başqası daha çox dünyəvi məlumata və insanlar barədə biliyə malik idi, nəinki Qanmaz: heç özü də bilmədən bu təsəvvürə qapılıb yaşayırdı və hansısa rəqqasə barədə məlumat almaq üçün tam inamla "Hernhuter" icmasına məxsus çəkməçiyə üz tuturdu.

– Rəqs edir, usta. İncəsənətə Qayğı Cəmiyyətində rəqs edir. İnsanlar birəldən oraya qaçıb gedəcəklər hal

Rindflayş başı ilə təsdiqlədi.

– İnsanlar, deyəsən, heç özləri də bilmirlər, cənab professor, haraya qaçıb gedirlər, – çəkməçi boğuq səslə və mənalı-mənalı dedi.

– Axı o, ayaqyalın rəqs edir, bu çox nadir bacarıqdır, usta. – Qanmaz kişini necə qızışdırmağın yolunu bilmirdi. – Hələ bir fikirləşin, ayaqyalın!

– Ayaqyalın, – çəkməçi təkrarladı. – O-o-o! Amaletilərin[1] arvadları da rəqs edirdilər, İlah qarşısında rəqs etdikləri kimi.

Ondan heç nə ifadə etməyən bir gülüş qopdu, yalnız itaətdən doğan bir gülüş, çünki bu savadsız kişi özünü Yazının[2] kəlamları ilə bəzəmək istəyirdi.

---

[1] *Amaleti* – Bibliyada köçəri tayfa olan əmalikilərin yanlış tələffüzü

[2] *Yazı* – Bibliya nəzərdə tutulur.

Qanmaz dirənib indicə "batacaq" şagirdin tərcüməsini dinləyirmiş kimi əzablar içində ora-bura yırğalanırdı. Barmaq oynaqlarını stulun söykənəcəyinə dirəyib ayağa sıçradı.

– Belə, əl çəkin bu ölçü götürmək işindən, usta, deyin görüm, – utanmadan irəliyə! – ayaqyalın rəqqasə Frölix gəlib çıxıbmı?! Siz bilməmiş olmazsınız!

– Mən, cənab professor? – Rindflayş donub-qalmışdı, – mən... rəqqasə?

– Bunu bilməklə pislər sırasına keçməyəcəksiniz, – Qanmaz səbirsizliklə dilləndi.

– O-o-o! Mən mənəvi təkəbbürdən və özünü üstün tutmaqdan çox-çox uzağam və Rəbb sevgisini, cənab professor, həm də ayaqyalın bacımda görmək istəyirəm, əlbəttə, istəyirəm Rəbbimdən diləyəm ki, mərhəmətini ondan əsirgəməsin, necə ki onu suçlu Maqdalenadan[1] əsirgəməmişdi.

– Suçlu? – Qanmaz fikirli-fikirli soruşdu. – Niyə onu suçlu sayırsınız? – Çəkməçi yağlanmış döşəməyə ürkək-ürkək baxırdı. – Hə, hə, – ustadan get-gedə narazı qalan Qanmaz deyirdi. – Əgər arvadınız, yaxud da qızınız həyatlarında aktrisa kimi dönüş etmək istəsəydilər, bunu onlara, təbii ki və çox güman ki, yaraşdırmazdınız. Amma bunun əksinə olaraq elə dairələr və əxlaq qanunları var ki... yetər, gəl buna son qoyaq.

O, əl-qolunu yellətdi, bu hərəkət deyirdi ki, ən azı, yuxarı siniflərdə öyrənilməli olan fənn aşağı siniflərdə tədris edilir.

– Mənim arvadım da suçludur, – çəkməçi astadan dillənib qarnının üstünə qoyduğu barmaqlarını bir-birindən araladı və başını qaldırıb iman sahibinə xas bir nəzərlə göylərə baxdı. – Gərək mən özüm deyəm: "Uca Tanrım! Keç günahımızdan, çünki günah qanımızdadır".

Qanmazı heyrət götürdü.

– Siz və arvadınız? Siz ki qanuni kəbindəsiniz.

– Əlbəttə, qanuni kəbindəyik. Amma qanımızdakı suç, cənab professor, canımızdan çıxmır və Allah özü rəva bilir ki...

---

[1] *Maqdalena* – İncildəki Məjdəli Məryəm nəzərdə tutulur. Həzrəti-İsa əxlaqsızlığa görə bir nəfər qadının meydanda daş-qalaq ediləcəyini görüb camaatdan əl saxlamağı xahiş edir. Səddukeylər və fariseylər onun Allahın hökmünə qarşı çıxdığını irad tutduqda Həzrəti-İsa buyurur: "Daşı o kəslər atsın ki, günahları yoxdur". Bu zaman bütün insanlar ətəklərindəki daşı yerə töküb oradan uzaqlaşırlar və beləliklə, Məjdəli Məryəm (Maqdalena) daşqalaq edilməkdən xilas olur və Həzrəti-İsanı yağlayıb onun ayağından öpür.

Hernhuterli nəsə vacib bir şey demək üçün qamətini düzəltdi. Sirri-xudadan onun gözləri böyüyüb büsbütün saraldı.

– Sonrası? – Qanmaz iltifatla soruşdu.

Çəkməçi də pıçıltı ilə cavab verdi:

– Başqaları bilmir, Allah yalnız ona görə rəva bilir ki, yuxanda, öz dərgahında daha çox mələyə sahib olsun.

– Hı, hı, – Qanmaz dilləndi, – belədə axı bu, təbii ki, çox gözəl olmalıdır.

Hiyləgər bir təbəssümlə o, altdan-yuxarı çəkməçinin nurlaşmış sifətinə baxdı. Lakin kinayəsini boğdu və getməyə üz qoydu. Düşündü ki, Rindflayş aktrisa Frölix barədə həqiqətən heç nə bilmir. Çəkməçi göylərdən bu dünyaya enib soruşdu ki, çəkmənin boğazı nə qədər olsun. Fikri dağınıq Qanmaz iltİfatla cavab verdi, Rindflayşın ailəsindən qaçaraq aynlıb iti addımlarla evinə yollandı.

O, Rindflayşa nifrət edirdi. Mavi otağı, bu insanların əqli məhdudluğunu, mütiliyini, asketik gərginliklərini və mənəvi ətalətini görməyə gözü yox idi. Qanmazın evi yetərincə yoxsul görünürdü; amma bunun əvəzində bir çox qədim mənəviyyat fürstləri geri qayıtmış olsaydı, onlann əsərlərinin qrammatikası barədə həmin adamların öz dilində danışmaq imkanı vardı. O, kasıb idi, çoxları tərəfindən qəbul olunmurdu; iyirmi ildən bəri onun hansı önəmli işi yerinə yetirdiyini bilən yox idi. Hörmətlənmədən, hətta lağa qoyularaq o, bu insanların arasında dolaşırdı, lakin özünün düşüncəsinə görə hakim dairələrə mənsub idi. Heç bir bankir, heç bir monarx dövlət işində Qanmaz kimi güclü iştirak etmirdi. Mövcud üsuli-idarənin qorunub saxlanılmasında heç kəs onun kimi maraqlı deyildi. O, nüfuz sahiblərinin hamısının əvəzində can qoyur, öz iş otağının gizli guşəsində fəhlələrə hirslənirdi, o fəhlələrə ki, onlar məqsədlərinə nail olduqda, bəlkə də, Qanmazın nisbətən yüksək maaş alacağına nail ola bilərdilər. Özündən da qorxaq olan gənc assistentləri o – onlarla danışmağa ağıllı-başlı ürək qızdırırdı – müasir abhavanın mövcud özülləri laxlatmaq kimi məhvedici iztirabından dumanlı şəkildə xəbərdar edirdi. Özüllərin güclü olmasını istəyirdi: nüfuzlu kilsə, möhkəm əldə tutulan qılınc, dönməz itaət və donuqlaşmış ənənələr. Bununla yanaşı, o, təpədən-dırnağa imansız və öz-özü ilə tək qaldıqda isə geniş azad düşüncəyə qabil idi. Lakin bunları necə əldə

saxlamağı, qara camaatı, düşməni, onun canını boğazına yığan əlli min höcət şagirdi necə ram etməyin yolunu bir zülmkar kimi gözəl bilirdi. Lomanın aktrisa Frölixlə yaxın münasibətləri olmalıydı; Qanmaz bunu düşünəndə qıpqırmızı qızarırdı, çünki başqa cür bacarmırdı. Ancaq şagird Loman yalnız o vaxt cinayətkar sayılardı ki, müəllimi sərt tərbiyəsinin yasaqlı sevincindən onu məhrum etmiş olsun. Qanmazı hirslənməyə məcbur edən əxlaqi məhdudluq deyildi...

Qanmaz mənzilinə yetişdi, mətbəxdən pəncələrinin üstündə sivişib keçdi. Təsərrüfatçı qadın onun gecikməsinə hirslənərək qazanları bir-birinə vurub səs saldı. Sonra ona yemək gətirdi, qolbasla kartof. Yemək çox bişmişdi, üstəlik də, soyumuşdu. Buna etiraz etməkdən Qanmaz özünü güclə saxladı; qadın o saat əllərini belinə qoydu. Qanmaz onu öz ağasına qarşı üsyana qaldırmaq istəmirdi.

Yeməkdən sonra yazı masasının qarşısına keçdi. Masa onun qarov gözlərinin acığına həddən artıq hündür idi və sağ əlini onun üstünə qoymaqda etdiyi otuzillik cəhd kişinin çiynini düz xətdən çıxarıb yuxarı qaldırmışdı. “Adamın ürəyincə olan təkcə dostluq və ədəbiyyatdır”, – bir qayda olaraq o belə deyərdi. Bu kəlməni haradansa götürüb əzbərləmiş və işə başlayan kimi onu beynindən keçirməyi adətə çevirmişdi. “Dostluq” sözü altında nəyi başa düşdüyünü heç vaxt özü də bilməmişdi. Söz təsadüfən ağzına düşmüşdü. Ədəbiyyat isə! Axı bu, onun müqəddəs əsəri idi, amma insanların qəti xəbəri yox idi ki, həmin əsər uzun zamandan bəri sakitlik içində böyüyür və bəlkə, haçansa təəccüb doğuraraq Qanmazın sərdabəsi üstündə çiçəklənib baş qaldıracaqdı. Həmin əsər Homerin ədatlarına həsr olunmuşdu... Amma Lomanın inşa dəftəri bu əsərin yanındaydı və Qanmazın cuşa gəlməsinə mane olurdu. O, dəftərdən yapışıb aktrisa Frölix barədə düşünməli oldu. Onu həddən artıq narahat edən nəsə vardı: daha əmin deyildi ki, məşhur yalınayaq rəqqasənin adı Roza Frölixdir. Bu Frölix tamam başqası da ola bilərdi. Bəli, o, tamam başqası idi: Qanmazın beynində o, gerçəyə çevrilmişdi. Şagird Lomana “sübut edə” bilmək üçün gərək həmişə bu qadını axtara idi. Bu mənfur oğlanla mübarizədə o, özünün həddən artıq dala atıldığını görüb tənha həyəcandan tövşüməyə başladı.

Qəfildən paltosunu geyinib bayıra atıldı. Alaqapıya zəncir vurulmuşdu; oğru kimi onu dartışdırdı. Təsərrüfatçı

qadın ağzına gələni dedi, Qanmaz onun yaxınlaşan addım səslərini eşitdi. Son anın qorxusu içində doğru bir hərəkət etdi, qapı öz-özünə açıldı və Qanmaz əvvəl evin önündəki bağçaya, sonra isə küçəyə çıxdı. Şəhər darvazasına qədər gah qaçır, gah da iti addımlarla yeriyirdi; sonra yerişini yavaşıtdı, ancaq ürəyi, az qala, yerindən çıxacaqdı. Qəribə bir hiss keçirdi, qadağan olunmuş yollarda olduğu kimi. Kimsəsiz küçələrlə gedib dağ və dərədən keçdi, həmişə düzünə yeridi. Küçələrə və xəndəklərə boylandı. Mehmanxanaların qarşısında ayaq saxlayıb gərgin inamsızlıqla pəncərələrdən yuxarı baxdı, həmin pəncərələrin örtülü qapaqları arasından bayıra işıq zolağı süzülürdü. O, küçənin qaranlıq tərəfi ilə yeriyirdi; küçənin o tərəfinə isə ay öz işığını saçırdı. Göy üzü apaydın idi, daha külək əsmirdi və Qanmazın addımları küçədə səs salırdı. Bələdiyyə binasının qarşısından o, bazara doğru dönüb qotik üslubda tikilmiş binaların tağlı girəcəklərinin altında dövrə vurdu. Tağlar, qüllələr, su quyuları özlərinin şəbəkələrlə dövrəyə alınmış kölgələrinin qotik siluetlərini aylı gecəyə tuşlayırdı. Qanmazın içində müəmmalı bir həyəcan baş qaldırdı; o bir neçə dəfə öz-özünə təkrarladı: "Burada, çox güman ki... necə deyərlər... – və sonra, – haydı, irəliyə!"

Bununla belə, poçtun və polis idarəsinin hər pəncərəsini gözdən keçirdi. Aktrisa Frölixin bu binalarda gizlənməsi ona mümkünsüz göründüyündən bayaq tərk etdiyi küçəyə qayıtdı. Bir neçə addım o yanda meyxana pəncərəsinin böyük şüşəsi bərq vurdu. Qanmazın həmkarları hər axşam burada pivə süfrəsinin arxasında yığışırdılar. Pərdənin üstündə Qanmaza rəğbət bəsləməyən birinin, baş müəllimin sivri saqqallı başının qara silueti göründü; ağzını açıbyuman həmin müəllim Qanmaza ona görə rəğbət bəsləmirdi ki, bir tərəfdən məktəbdəki nizam-intizamın zəifləməsinə əsas verirdi, digər tərəfdən də Qanmazın oğlunun əxlaqsızlığından ağızdolusu danışırdı. Qanmaz fikirli-fikirli həmin doktor Hübbenetə baxdı: saqqalını dingildədə-dingildədə necə də danışırdı, pivədən necə də cuşa gəlmişdi, necə də adi giclərdən biri idi! Qanmazın içəridəki adamlarla işi yox idi, heç cür yox idi; indi hər şey ona aydın idi və bu, ürəyincə olmuşdu. Hamısı əyləşmişdi bir yerdə və necə də nizam-düzənli idilər: o isə müəyyən mənada şübhəli, hətta demək olar, səfil bir insandır və orada oturanlar barədə düşüncələri

onun üçün daha tikana çevrilmir. Baş müəllimin kölgəsinə ağır-ağır, ikrahla baş endirdi və yoluna davam etdi.

Yenə şəhərdən kənara çıxmışdı. Arxaya dönüb Kayzerştraseyə üz tutdu. Konsul Bredpot, deyəsən, bal düzəltmişdi; böyük ev başdan-başa işıqlandırılmışdı, ara vermədən arabalar gəlirdi. Qulluqçu ilə bərabər bir neçə nəzarətçi irəli atılıb qapıları açır, qonaqların karetədən enməsinə kömək edirdi. Astanada ipək donlar xışıldayırdı. Qadınlardan biri ayaq saxladı, xeyirxahlıqla gülümsəyərək əlini ona yaxınlaşan cavan bir kişiyə uzatdı. Qanmaz başına silindr qoymuş bu gözəl oğlanı tanıdı: baş müəllim Rixter idi. Eşitmişdi ki, Rixter tanınmış ailədən olan varlı bir qızla evlənməyə hazırlaşır. Bu cür ailələr başqa vaxt baş müəllimlərə heç gözlərinin ucu ilə də baxmırlar. Qaranlıqda gizlənmiş Qanmaz öz-özünə pıçıldadı:

– Ay səni, nə özünü dürtür, doğrudan da dürtür ha!

Palçığa bulaşmış şinelində heç nəyə doğmalıq göstərmədən hədəli nəzərlərlə o, üzünə xoş baxılan, böyük gələcəyi olan bir insana, bu gözəl dünyaya qaranlıqda marıtlayan məzhəkəçi bir səfil kimi rişxənd edir və qoynunda gəzdirdiyi bombanı atıb hər şeyin axırına çıxmağa çalışırdı. Özünü Rixterdən çox-çox ağıllı sayırdı, kefi xeyli yuxarı idi; kirmişcə öz-özünə məzələnib mənasını özü də anlamadan dedi:

– Yolunuzun üstündə ən böyük maneələrdən biri olacağam. Özünüz də bilirsiniz, axırınıza çıxacağam, bunu qəti unutmayın!

Yoluna davam edərkən ağıllı-başlı öz-özünə söhbət edirdi. Yenidən həmkarlarının, yaxud keçmiş şagirdlərinin birinin adı yazılmış lövhəyə rast gələndə fikirləşirdi: "Onları da yaxalayacağam", sonra da əllərini ovuşdururdu. Eyni zamanda oğrun bir anlaşma içində diqqətəlayiq sivri damlı evlərə baxıb gülümsəyirdi, inanırdı ki, həmin evlərdən birində aktrisa Fröliix gizlənir. Qadın onu büsbütün haldan çıxarmış, müvazinətini pozmuşdu. Gecələr veyillənə-veyillənə onun arxasınca sürünən Qanmazla aktrisa arasında əlaqəyə bənzər bir şey yaranmışdı. Şagird Loman ikinci vəhşi idi: bir növ, başqa soydan olan hindu. Qanmaz öz sinfi ilə məktəbin təşkil etdiyi bayrama gedəndə hərdən uşaqlara "quldur və əsgər" oyununu oynayırdı. Təpənin üstündə dayanıb əlini göyə uzadır və əmr edirdi: "Hücum! Vaxtdır! Onda, deməli, əz keç!" Növbəti atışmada daha da həyəcanlanırdı. Zira bunu o, ciddi qəbul edir-

di. Məktəblə oyun onun üçün həyat demək idi... Amma bu gecə Qanmaz müharibə cığırında hindu rolunu oynayırdı.

Getdikcə şövqlü gərginliyə qapılırdı. Kölgəlikdəki qeyri-müəyyən siluetlər onda qorxu və qıdıq oyadırdı; küçənin hər tini qorxulu şəkildə onu özünə cəlb edirdi. Darısqal yan küçələrə o, macəranın qoynuna atılan kimi atılırdı. Pəncərədən çölə süzülən pıçıltını eşidib ürəyi döyünə-döyünə ayaq saxladı. Qapılara yaxınlaşdıqca hərdən onlardan biri astadan açılırdı, hətta bir dəfə çəhrayı paltarlı bir qol Qanmaza doğru uzandı. O diksinib geri çəkildi. Bu gün ikinci dəfə limanda ətrafına boylandı; başqa vaxtlar buraya illərlə gəlməzdi. Gəmilərin tüstüsü ay işığında göylərə bülənd olmuşdu. Qanmazın beynindən keçdi ki, aktrisa Frölix həmin gəmilərin birində olacaq və çox güman ki, hansı kayutdasa yatır. Dan yeri sökülən kimi gəmi fit verib aktrisa Frölixi uzaq-uzaq ölkələrə aparacaq. Bunu beynində canlandırarkən Qanmazın hərəkət etmək, hadisələri yoluna qoymaq kimi daxili tələbatı hüdud tanımadı. İki fəhlə ona doğru gəlirdi, biri sağdan, digəri soldan. Onlar düz Qanmazın yanında görüşdülər və biri dedi:

– Hara belə, Klaus?

İkinci qaşqabaqla və yoğun səslə cavab verdi:

– Durma, soğ!

Qanmaz sözü beynində canlandırdı: bunu o, bu gün harada eşitmişdi və sözün mənası nə idi?!. İyirmi altı il ərzində bu dialekti öyrənməmişdi. Fəhlələrin lüğət xəzinəsini açmaq xatirinə palçıqlı küçələrlə hər ikisinin ardınca getdi. Nisbətən geniş küçələrin birində onlar nəhəng anbar darvazası olan gözəl bir evə doğru buruldular, həmin darvazada mavi mələk şəklinin başı üstündə fənər yırğalanırdı. Qanmaz musiqi sədaları eşitdi. Fəhlələr dəhlizdə gözdən itdilər. Onlardan biri oxuyanlara qoşuldu. Deyəsən, burada “axşam müsamirəsi” keçirilirdi. Qanmaz ortada görünəndə nəyəsə toxundu və bu onun nəfəsini darıxdırıb kişini tərlətdi; Qanmaz özünü itirməyin qorxusundan ümidini itirməyib hər şeyi təzədən başladı. Qəfildən yerindən tərpənib evə soxuldu, sanki özünü uçurumun dibinə atırdı.

## DÖRDÜNCÜ FƏSİL

"Dəhliz" həddən artıq enli və uzun idi, əsl qədimi burjua evinin dəhlizi, indi oraya "lazımsız şeylər" yerləşdirilmişdi. Soldakı yanaçıq qapıdan qazanlann şaqqıltısı eşidilir və ocağın alovu görünürdü. Sağdakı girəcəyin başı üstündə "zal" vardı və oradan səslərin anlaşılmaz qat-qanşığı gəlirdi, hərdən də zil bir səs eşidilirdi. Qanmaz zəngi çalana qədər xeyli tərəddüd etdi; o, içəridə ağır nəticələrə gətirib çıxaracaq bir işin baş verdiyini hiss edirdi... Şişman, kosa, xırdaboy bir kişi olan sərpayi ona doğru gəldi. Qanmaz onun qolundan tutub saxladı.

– Bağışlayın, – dili dolaşa-dolaşa dedi, – aktrisa Frölixlə danışmaq olar?

– Nə danışmaq istəyirsiniz? – kişi soruşdu. – O indi danışmır, oxuyur. İstəyirsiniz, qulaq asın.

– Siz, yəqin, "Mavi mələkin" yiyəsisiniz, eləmi? Hə, bu, həqiqətən də, gözəl oldu. Əslində, mən burdakı gimnaziyanın professoruyam və buralarda axtardığım bir şagirdə görə gəlmişəm. Bəlkə, onun harada olduğunu mənə deyəsiniz?

– Eh, cənab professor, onda özünüzü verin arxa otağa, artistlərin yanına, cavanlar bütün günü oradan əl çəkmirlər.

– Görürsünüzmü, – Qanmaz hədəli dilləndi, – elə belə də bilirdim. Etiraf edin ki, kişi, belə şey əxlaqa uyğun deyil.

– İşə düşmədik, – sahibkar qaşlarını çatdı, – qızların axşam yeməyinin pulunu kim verəcək, bunun mənə qəti istisoyuğu yoxdur. O cavan oğlanlar öz şərablarını özləri sifariş edir. Bizdən bundan artıq heç nə tələb eləmək olmaz. Müştərilərimin burnuna vurub geri qaytarsam, heç kim mənə ağıllı deməz.

Qanmaz danışıq tərzini dəyişdi.

– Yaxşı, yaxşı, qoy sən deyən olsun. İndi isə gözəl-göyçək gedin içəri və oğlanı mənə gətirin, ey gözəl insan.

– Lənət şeytana, cənab! Özünüz gedə bilmirsiniz?!

Lakin Qanmazın macəra həvəsi sönmüşdü, heyif ki, o, aktrisa Frölixin qaldığı yeri tapmışdı.

– Bu zalın içindən keçib-gedim? – qorxa-qorxa soruşdu.

– Hə də, ayrı yol yoxdur, sonra da arxadakı otağa keçərsiniz, oradan buradakı qırmızı pərdəli pəncərə görünür.

Qanmazla bir neçə addım dəhlizin arxa tərəfinə getdi və ona içindən qırmızı pərdə asılmış xeyli iri pəncərə şüşəsi göstərdi. Qanmaz oradan boylanmaq istədi; bu arada sahibkar sinidəki pivə ilə zalın qapısına qayıdıb onu açdı. Qanmaz qollarını geniş açıb ora tələsdi; dara düşmüş adamlar kimi lələdi:

– Əzizim, o şagirdi tapıb yanıma gətirin!

Artıq içəriyə keçmiş sahibkar kobud bir hərəkətlə arxaya döndü.

– Hansı tayıdır elə? Orada üçü birdən oturub... Gicgici kaftar, – bunu astadan əlavə edib Qanmazı ayaq üstə saxladı.

"Üç?" – Qanmaz soruşmaq istədi; lakin artıq zala keçmişdi, səs-küydən keyləşmişdi, eynəyinin şüşələrinə tor çəkib onu cin atına mindirən isti buxardan heç nə görmürdü.

– Qapını ört, yel çəkir! – yanındakılardan kimsə dilləndi. Qanmaz qorxub əli ilə dəstəyi axtardı, lakin tapa bilmədi və müştərilərin gülüşünü eşitdi. – Gizlənpaç oynayınq, – bayaqkı səs eşidildi.

Qanmaz eynəyini gözündən götürdü; qapının kilidləndiyini görüb özünün əsir alındığını hiss etdi və ümidsiz-ümidsiz ətrafına boylandı.

– Aya, Lorens, bu ki günortadan sonra gördüyümüz həmin məzəli gədədir. Bilirsən də, Hoyerbaası axmaq yerinə qoymaq istəyirdi.

Qanmaz bir şey anlamadı, yalnız ətrafında və özünə qarşı bir çaxnaşma hiss etdi. Bütün bunların müqabilində çaşıb özünü itirəndə yanındakı masanın arxasında boş bir kətil gördü və tələsik özünü onun üstünə salmaq istədi. Şlyapasını yellədib soruşdu:

– İcazə verərsinizmi?

Bir xeyli cavab gözlədi, sonra kətilə oturdu. Elə həmin an da əriyib qara camaata qarışdığını, özünün cansıxıcı müstəsna mövqeyini itirdiyini hiss etdi. İndi ona heç kim fikir vermirdi. Musiqi təzədən başlamışdı, masa qonşuları musiqiçilərə qoşulub oxuyurdu. Qanmaz gözlüyünün şüşələrini silib buraya uyuşmağa çalışdı. Qəlyanların havaya buraxdığı tüstünün, insanlardan qalxan tərin, eləcə də qroq badələrinin arasından kor-koranə bir səadətin çulğadığı saysız-hesabsız insan başları gördü, bu başlar hərdən musiqinin ahənginə uyğun ora-bura yırğalanırdı. Saçlar və sifətlər müxtəlif rənglərdə idi: qırmızı-alov, sarı, qonur, kərpic kimi tox qırmızı rəngdə və musiqinin təsiri altında öz ilkinliyinə

məhkum edilmiş bu beyinlərin yırğalanması küləkdə tərpənən böyük əlvan lalə ləki bütün zala yayılırdı, ta arxada tüstüdumanın içində itib-batana qədər. Arxadakı bu tüstüdumandan nəsə parıltılı bir şey, həddən artıq iti hərəkət edən bir əşya, qolları, çiyinləri, yaxud qıçları gözə çarpan bir parça əti göz qamaşdıran bir reflektorla işıqlandırılaraq hər yana yayan və nəhəng ağzını qaranlıq mağara kimi açan bir şey vardı. Bu varlığın oxuduğunu müştərilərin səsləri ilə birlikdə royal udub batırırdı. Qanmaza elə gəldi ki, həmin qadını qıyya donunda görür. O, hərdən incə bir səs, hətta göy gurultusunun da batıra bilməyəcəyi bir səs çıxarırdı.

Sahibkar parçı onun qabağına qoyub getmək istədi. Qanmaz onun pencəyindən bərk-bərk tutub saxladı.

– Bircə anlığına, kişi! O müğənni froylayn Roza Frölix deyil ki?

– Hə, özüdür ki var. Bir halda ki gəlmisiniz, onda dinləyib həzz alın.

Sahibkar yaxasını ondan qurtardı.

Qanmaz hər cür əqlin ziddinə gedərək düşündü ki, o həmin müğənni ola bilməz, şagird Loman heç vaxt buraya ayaq basmaz ki, Qanmaz da ağıllı-başlı bundan istifadə etsin. Ola bilsin ki, Lomanın inşa dəftərindəki şeir xalis poeziya olsun, heç də həqiqəti əks etdirməsin və aktrisa Frölix, ümumiyyətlə, həyatda olmasın. Qanmaz bu boş inancdan asılıb qaldı və belə bir fikrə həddən artıq gec gəldiyinə heyrətləndi. Bir qurtum pivə içdi.

Qonşusu ona "Prost!" dedi. Bu, yun köynək geyinmiş yekəqarın, yaşlı bir kişi idi. Köynəyin üstündən geydiyi içlik tam açılmışdı. Qanmaz gözünün ucu ilə xeyli ona baxdı. Kişi içir və əlini islanmış sarımtıl-ağ bığına çəkirdi. Qanmaz cəsarətə gəlib soruşdu:

– Burada mahnı oxuyan dediyiniz o froylayn Roza Frölixdir, elə deyilmi, gözəl insan?

Lakin elə bu vaxt alqış qopdu, çünki müğənni mahnısının birini oxuyub qurtarmışdı. Qanmaz bir daha soruşmaq üçün gözləməli oldu.

– Frölix? – kişi dilləndi. – Haradan bilim, axı, cənab, bütün qızların adı necədir. Burada hər an yeni bir proqram, yeni bir çıxış olur.

Qanmaz iradını bildirmək istədi ki, hər şey bayırda yazılıb, amma bu vaxt royal səsləndi, bu dəfə xeyli astadan və

Qanmaz mahnının bir neçə kəlməsini anlaya bildi, bərbəzəkli paltar geymiş bu qadın xeylağı tumanının ətəyini çəkinə-çəkinə və nazlana-nazlana yanağına söykəyib oxuyurdu:

"Çünki elə körpəyəm ki, suç da məndən kənar gəzər".

Qanmaz bunu axmaqlıq kimi qəbul edib qonşusunun ona verdiyi gicgici cavabla əlaqələndirdi. İçində narazılıq baş qaldırdı: onu inkar edən bir aləmə qapılmaq duyğusu, çap olunanları oxumayan, afişanı bayırda gözdən keçirmədən içəridəki konsertdə oturan insanlann onun içini gəmirmələri duyğusu! İçini gəmirən o idi ki, burada yüzlərlə insan bir yerə cəmləşə bilərdi, "heç nə hiss etməyən", "aydın düşünməyən", dəmləşməyə üstünlük verən və özlərini həya və qorxudan xali ən murdar ikincidərəcəli işlərə həsr edən insanlar. Qarşısındakı parçdan dərin bir qurtum aldı. "Kaş kim olduğumu biləydilər!" – fikrindən keçirdi. Ləyaqət hissi tədricən onda baş qaldırdı, həlimləşib xoşhallandı, bir az da fikirləri dolaşıq düşdü. İnsanlann buğlanmasından su əvəzinə qanın qaynarlanaraq buxarlanmasına gətirib çıxaran bir hal. Aləm sıx dumana bürünüb, sifətlərdə qeyri-müəyyənlik var... O, əlini alnına çəkdi; ona elə gəldi ki, səhnədəki qadın xeylağı bir neçə dəfə oxuyub, o, "körpədir, suçsuzdur"; bunu da oxuyub axıra çatdırdı, zal əl çaldı, nərildədi, şən qışqırtı qopartdı, ayağını yerə döydü. Qanmaz qəfildən əllərini bir neçə dəfə bir-birinə vurdu, bu mənzərəyə heyrətlə baxan gözlərin altında. Onu dəhşətli dərəcədə ram edən ağlagəlməz, böyük bir həvəs bürüdü, bu həvəs hər iki ayağını eyni zamanda döşəməyə döyməyə təhrik edirdi. Bunu etməmək üçün o yetərincə güclü idi. Tovlantı onu haldan çıxara bilmədi. Məsum-məsum gülümsəyib qət etdi ki, insanın xilqəti budur. "İşi-peşəsi ot otlamaqdır, – əlavə etdi. – Hələ də heyvanlıqdan çıxmayıb".

Müğənni aşağı, zala endi. Kürsünün yanında bir qapı açıldı. Qanmaz birdən-birə anladı ki, kimsə oradan ona baxır. Yeganə adam idi ki, üzünü ona çevirmişdi; və həmin adam dümdüz dayanıb gülürdü; şübhəsiz ki, bu, şagird Kizelakdan başqası ola bilməzdi.

Bunu təzəcə qət etmişdi ki, sıçrayıb yerindən qalxdı. Ona elə gəldi ki, bir anlığa özünü büsbütün unutdu. Şagirdlər həmin an bundan özlərinin pis niyyətləri üçün istifadə etdilər. O, iki əsgərin çiyinlərini dartıb bir-birindən araladı, özünü onların arasına soxub irəliyə can atdı. Fəhlələrin çoxu ona

müqavimət göstərdi, onlardan biri heç nəyə əhəmiyyət vermədi, şlyapasını vurub başından yerə saldı. Qanmaz çirkə bulaşmış şlyapanı təzədən başına qoydu; kimsə səsləndi:

– Hans, şlyapadı, ha?

Arxa hissədə dayanmış Kizelak güldü və gövdəsi ilə irəliyə yayxandı. Elə ürəkdən məzələndi ki, bütün bədəni silkələndi. Qanmaz bir az da qabağa getdi. Basabasda çənəsini şaqqıldatdı. Ancaq onu arxadan tutub saxlamışdılar. O, matroslardan birinin qroq badəsini vurub aşırmışdı, gərək indi cərimısini çəkəydi. Olacağa çarə yox idi, pulunu ödədi. İndi qarşısında heç bir maneə yox idi. Gülüşünə ara verməyən Kizelakdan gözünü çəkmədi, bu qədər çaxnaşmadan qorxuya düşərək irəliyə atıldı. Bu vaxt nəsə yumşaq bir şeyə dəydi və yaxasıaçıq, qonur rəngli xeyir-şər paltosu geymiş nimdaş libaslı yekə və kök bir qadın acıqlı-acıqlı üzünü ona çevirdi. Bir o qədər də arıq olmayan, başı səliqə ilə daranmış, əyninə triko, üstündən də pencək geymiş bir kişi yaxınlaşıb söyüşə qoşuldu. Qanmaz qadının əlindəki bir qalaq boşqaba toxunmuşdu, onun pulları ətrafa dağılmışdı. İndi pulu axtarırdılar. Qanmaz da çaşıb qalaraq plansız şəkildə aşağı əyilmişdi. Onun döşəmədə tərpənən başının yanında toplaşmış kişilərin ayaqları görünürdü: üstünə ittiham, kinayəli kəlmələr, qarğış və lənətlər yağdırılır, qorxub-çəkinməyən əllər ona uzanırdı. Qanmaz belini düzəldib ayağa qalxdı, qıpqırmızı qızarmışdı və barmaqlarının arasında bir ədəd iki pfenniq dəyərində dəmir pul tutmuşdu. Ağır-ağır nəfəs aldı, qarov gözləri ilə düşmənlərinin üzünü dənətlədi. Bu gün ikinci dəfə qiyamın böhranlı küləyini sifətində hiss etdi. Saysız-hesabsız hücumçularla döyüşürmüş kimi hər tərəfə əl-qol atmağa başladı. Bu an Kizelakın qollarını royalın hündür sandığının üstünə uzatdığını və oğlanın bütün bədəninin titrədiyini gördü. Hətta indi onun güldüyünü də eşitdi. Bu vaxt Qanmaz qara camaatın sarayda olduğunu və hər şeyin itirildiyini görən zülmkarın başgicəlləndirən həyəcanına qapılıb irəlilədi. İstənilən zorakı an ona haqlı göründü, daha hüdud, sərhəd tanımadı. Qışqırdı, səsi, sanki, gordan qaynayıb gəlirdi:

– Ağzıbirə, ağzıbirə!

Onu yaxından görən Kizelak Qanmazın dediyinə əməl etdi. Kürsünün yanında açılan qapıda yox oldu. Onu gözdən keçirə-keçirə Qanmaz qapının arasında dayandı. Qırmızı

bir pərdə, pərdənin arxasında uzanan bir qol gördü. Həmin qoldan yapışmaq istədi; bu vaxt kimsə arxaya sıçradı. Başını çıxarıb baxanda Kizelak hoppana-hoppana dəhliz boyu qaçdı. Eşik qapının girəcəyində Qanmaz ikinci bir adamın gizləndiyini aydınca gördü; onu məhz indi tanıdı: fon Ersum. Qanmaz pəncələrini döşəməyə dirəyib boylandı; lakin pəncərə çox hündür idi. Yuxarıya dırmaşmağa çalışdı. Dirsəkləri ilə özünə dayaq verəndə arxasında uca bir səs eşitdi:

– Ürəkli olun, siz axı cavan və güclü adamsınız!

Qanmaz şappıltı ilə yerə yıxıldı. Üzünü çevirib ətrafına baxdı, qarşısında həmin o əlvan geyimli qadın xeylağı dayanmışdı.

***

Qanmaz bir xeyli onu gözdən keçirdi; çənəsi səs çıxarmadan tərpəndi. Axır ki, sözləri deyə bildi.

– Siz... deməli, deyəsən... aktrisa Frölixsiniz?

– Özüdür ki var, – qadın dedi.

Qanmaz bunu bilirdi.

– Və konsertlərinizi bu mehmanxanada verirsiniz? – bunu da onun özündən eşitmək istədi.

– Orijinal sualdır, – qadın heyrətini bildirdi.

– Deməli, onda... – Qanmaz nəfəsini dərdi; Kizelakın və fon Ersumun qaçıb aradan çıxdıqları arxadakı pəncərəyə işarə etdi. – Deyin görüm... Amma düzünü deyin: belə şey yolverilləndirmi?

– Nə? – qadın heyrətlə soruşdu.

– Bunlar axı şagirddir, – Qanmaz dedi və bir daha əsəəsə sinəsinin dərinliyindən səsləndi: – Şagirddirlər axı.

– Mənə nə, bunun mənə nə dəxli, – güldü.

Qanmaz özünü saxlaya bilməyib partladı:

– Siz onları məktəbdən və məktəbli kimi üstlərinə düşən öhdəlikləri yerinə yetirməkdən yayındırırsınız. Onları yoldan çıxarırsınız!

Aktrisa Frölix gülməyini dayandırdı; şəhadət barmağını öz sinəsinə tuşladı:

– Mən? Deyəsən, ağlınız çatmır, hə?

– Yoxsa danmaq istəyirsiniz? – Qanmaz döyüşə hazır vəziyyətdə soruşdu.

– Kimdən axı? Allaha şükür, mənim buna ehtiyacım yoxdur, mən sənətkaram, elə deyil? Kişilərin mənə gül-çiçək

bağışlaması üçün sizdən icazə almalıyam?! – Qadın küncə işarə etdi. Orada qabağa əyilmiş dəfə-daraq güzgüsünün sağ və sol yanında iki böyük buket vardı. Aktrisa çiyinlərini əsdirə-əsdirə davam etdi: – Bəlkə, buna da icazə verilmir, deyin görüm, siz kimsiniz axı?

– Mən... mən müəlliməm, – Qanmaz cavab verdi, sanki, deyirdi: "Mən dünyanın ağasıyam".

– Belə de, – Frölix barışcıl dilləndi, – onda bu cavan oğlanların nə iş görmələri mənim kimi sizin də vecinizə olmamalıdır.

Həyata bu cür baxış Qanmazın ağlına yol tapa bilmədi.

– Sizə məsləhətim budur ki, – dedi, – başınızın dəstəsi ilə bu şəhəri tərk edəsiniz, gecikmədən çıxıb gedin, yoxsa... – yenidən səsini qaldırdı, – karyeranızı alt-üst etmək üçün hər şeyə əl atacağam, lazım gəlsə, onu hətta dözülməz edəcəyəm. Çalışacağam ki, necə deyərlər, sizin hoqqalarınızla polis məşğul olsun.

Bu sözü eşidən kimi aktrisa Frölixin sifətinə dəhşətli bir nifrət qondu.

– Məsələni gərək özünüz yoluna qoyasınız, amma mənə elə gəlir ki, bunu etməyəcəksiniz. Polislə aram yaxşıdır. Sizə yazığım gəlir, yazıq gəlməli adamsınız. – Qanmaza yazığı gəlməkdənsə, nifrəti get-gedə aşıb-daşırdı. – Bu halla siz hələ də sudan quru çıxmaq istəyirsiniz? Əvvəldən də özünüzü gülünc yerinə qoymamısınızmı? Tərpənin, gedin polisə. Sizi orada həmin an yaxalayacaqlar. Adamın canında nələr olmazmış! Oynaşlara öyrəşmiş adamlara belə şey, əlbəttə, gülməli görünər. Mənə tanış olan zabitlərdən birini sizin üstünüzə saldırmağa nə deyirsiniz? Sizə əməlli-başlı paz çalacağam.

Qadının sevincdolu sifətinə gerçək bir təəssüf qondu.

Aktrisa danışanda Qanmaz əvvəlcə onun sözünü kəsmək istədi. Frölix əsib-coşduğundan Qanmazın dilinin ucundakı hazır kəlmələr geriyə sıxışdırılıb dərinliyə gömüldü. Buradan da itib yox oldular. Qanmaz donub-qaldı – Frölix məktəbdən qaçdığına müxtəlif bəhanələr gətirərək müqavimət göstərmək istəyən, ömrü boyu şallaq altında saxlanılan şagird deyildi; amma şəhərin bütün sakinləri həmin şagirdin günündə idi. Xeyr, təkcə Frölix belə deyildi, o tamam yeni bir varlıq idi. Görüşdükiəri andan bəri qadının ona dediklərinin hamısından sinirləri dincəldən mənəvi bir ruh,

adamı haldan çıxaran bir ruh yaranıb Qanmazın sifətinə çırpıldı. Frölix ipə-sapa yatmaz, həm də hazırkı anda eyni hüquqa malik bir güc idi. Qanmazdan söz soruşmaq istəsəydi, son olaraq kişi ona cavab tapa bilməzdi. Onda nəsə baş qaldırdı: qəlbində ehtirama bənzər bir şey duydu.

– Xeyri yoxdur... bir də ki... – Frölix ikrahla dillənib susdu və arxasını ona çevirdi.

Royal yenidən öz işində idi. Qapı açıldı, bir az əvvəl Qanmazın toqqaşdığı o əndamlı qadın əri ilə bərabər otağa girib tələsik qapını arxasınca bağladı. Hirsindən xeyir-şər paltosunun ətəkləri yelləndi və boşqabı masanın üstünə qoydu.

– Heç dörd mark da yığılmadı, – qadının əri dedi. – Simic köpək uşağı.

Aktrisa Frölix boz-boz və kəskin dilləndi:

– Bizdən polisə şikayət etmək istəyən bu kişiyə nə deyəsən?!

Qadının hökmündən qorxuya düşmüş Qanmazın dili dolaşdı. Aktrisa arxaya çevrilib onu başdan-ayağa süzdü. Onun üzündəki ifadə kişiyə dözülməz göründü və o, qıpqırmızı qızarıb gözünü yerə dikdi, baxışı qadının ət rəngli corab geyinmiş qıçlarına sataşdı və o, gözlərini bütün baldır boyu gəzdirdi. Bu vaxt kök qadının əri səsini güclə azaldaraq dedi:

– Davanı buradakılardan biri edib, ya yox? Hə, mən də həmişə Rozama demişəm ki, kim burada canfəşanlıq edib başqalarını hesaba almırsa, qüllədən üzüaşağı gələcək. Nə deyim sizə... durum uşaq-muşaqla höcətləşim?! Yəqin, polis sizi şirniyyat həvəskarı olan qoca kimi qeydə götürüb.

Ancaq arvadı onu dümsüklədi; Qanmaz barədə o, tamam ayrı fikirdə idi.

– Sakit ol, o ki heç kimə dəyib-dolaşmır. – Sonra da üzünü Qanmaza tutdu: – Deyəsən, xeyli həyəcanlanmısınız, hə? Aman Allah, adam ağlını itirər, belə şey hərdən olur. Kipertlə, yaxşısı budur, işiniz olmasın, ağlına yerləşəndə ki ona xəyanət edirəm, yaşayışımı cəhənnəmə döndərir. İndi isə oturub bir qurtum için.

Qadın kətillərdən birinin üstündəki pencək və əlvan şalvarları yığışdırdı, masadan bir butulka götürüb Qanmazın badəsini doldurdu. Artıq söz-söhbətə yol verməmək üçün Qanmaz da süzülən badəni içdi. Qadın soruşdu:

– Rozanı haçandan tanıyırsınız? Mən onu hələ görməmişəm.

Qanmaz nəsə dedi, ancaq royal onun dediklərini uddu. Aktrisa Frölix fikrini bildirdi:

– O, pal-paltarımın arasında eşələnən oğlanlann müəllimidir.

– Belə de. Deməli, müəllimsiniz? – artist dilləndi. O da içdi, ağzını marçıldatdı və ağlı başına gəldi. – Əsl mənim adamımsınız. Növbəti seçkilərdə sosal-demokratlara səs verəcəksiniz, eləmi? Bilirsinizmi, əgər bunu biz etməsək, müəllimlərin maaşlannın qalxması üçün gərək sizi bit-sirkə basana qədər gözləyəsiniz. İncəsənət də belədir: həmişə polis nəzarəti, cib də ki bomboş. Elm ... – deyib əlini Qanmaza uzatdı, – ... və incəsənət... – bu dəfə də özünü göstərdi, – həmişə bir bezin qırağı olub və qalır.

Qanmaz cavabsız qalmadı:

– Bəlkə də, elədir, amma siz ilkin mühakimənizdə yanılırsınız, dost, çünki mən xalq məktəbinin müəllimi deyiləm, buradakı gimnaziyanın professoru doktor Qanaram.

Kişi, sadəcə, dedi:

– Onda prost.

Hərə istədiyi adı özünə qoyur, kiminsə könlündən professor olmaq keçirsə, bu, düşmənçiliyə səbəb deyil.

– Deməli, müəllimsiniz? – qadın səmimiyyətlə soruşdu. – Siz də çörəyinizi asan qazanmırsınız. Neçə yaşınız var?

Qanmaz uşaq məsumluğu ilə cavab verdi:

– Əlli yeddi.

– Üst-başınızı tamam batırmısınızl Şlyapanızı verin, üstündəki zirzibili təmizləyim.

Kişinin enli günlüklü şlyapasını dizinin üstündən alıb təmizlədi, hətta günlüyünü sığallayıb gülümsəyə-gülümsəyə onu Qanmazın başına qoydu. Sonra gördüyü işi gözdən keçirərək aramla kişinin kürəyinə döyəclədi. Qanmaz çəpəki bir təbəssümlə dedi:

– Çox gözəl bir iş gördünüz, gözəl xanım.

Lakin bu dəfə onun duyğulandığı şey görülən işin müqabilində hökm sahibinə minnətdarlıqdan başqa bir şey deyildi. Bütün titullarını sadalamasına baxmayaraq, onunla üzbəüz əyləşmiş adamlara hələ də tamam yad olan Qanmaz onlarda qəribə bir həlimlik hiss edirdi. Ehtiramsızlıqlannı onlara irad tutmurdu. Onlan bağışlayırdı, onun fikrincə, bu adamlarda "istənilən ölçü" aşkarca çatışmırdı, bununla da o, dünyanın ziddiyyətlərindən üz döndərmək, adi gərg-

inlikdən, bir anlığa da olsa, qopmaq kimi aldığı həzzi də bağışlayırdı.

Şişman kişi bir cüt alt paltarının arasından iki alman bayrağının parçasını dartıb çıxartdı, fısıldayıb Qanmazı gözdən keçirdi, sanki, onunla razılığa gəlmişdi. Kök qadın bütün qorxuları unutmuşdu; Qanmaz macal tapıb öyrəndi ki, qadının sırtıq baxışına səbəb gözünün altına çəkilmiş qara qrimdir. Yalnız aktrisa Frölixə münasibətdə o, özünü sərbəst hiss etmədi. Frölix kənarda dayanıb öz işi ilə məşğul olurdu; qatlanmış ətəyinə parçadan gül düzürdü. Royalda çalınan əsər möhkəm akkordlarla tamamlandı. Zəng səsləndi. Artist dedi:

– Çıxmaq lazımdır, Quste – və rəhmdilliklə üzünü Qanmaza tutdu: – Necə işlədiyimizi gərək siz öz gözlərinizlə görəsiniz, cənab professor.

Özü köhnə pencəyini, arvadı isə köhnə xeyir-şər paltosunu çıxarıb yerə atdı. Qadın barmağını bir daha Qanmaza qıcadı:

– Rozanı qəti incitmirsiniz ha. Çox da temperament göstərməyin.

Bu vaxt qapı bayırdan yarıya qədər açıldı və Qanmaz bu qoşa şişmanın heç nədən çəkinmədən qollarını arxalarında çarpazlayaraq, başlarını boyunlarının ardına ataraq, üzlərinə alqışa səbəb olan təbəssüm qondararaq rəqsə atıldığını gördü. Onlar zaldakıların gözünə görünən kimi həqiqətən də, şən bir hay-küy qopdu.

Qapı bağlanmışdı, Qanmaz aktrisa Frölixlə tək qalmışdı. İndi nələrin baş verəcəyindən narahatlıq keçirdi və otağa göz gəzdirdi. Döşəmədə şey-şüy, əl-üz dəsmalları vardı. Dəfə-daraq güzgüsündən başlanan yola, Qanmazın oturduğu masaya qədər çiçək səpələnmişdi. İki şərab şüşəsindən başqa, masanın üstündə çoxlu badə və iyindən bəlli olduğu kimi, çeşidli piylərlə dolu bankalar vardı. Şərab badələri not vərəqlərinin üstünə qoyulmuşdu. Qanmaz qorxa-qorxa öz badəsini şişman qadının qoyub getdiyi korsetin yanından qırağa çəkdi.

Aktrisa Frölix ayağını bərbəzəkli pal-paltarla örtülmüş kətillərdən birinə söykəyib nəsə tikirdi. Qanmaz ona baxmırdı, bunu özünə rəva bilmirdi; hər şeyi üzünü çevirdiyi güzgüdən görürdü. Qanmazın ilk ürkək baxışından aydın oldu ki, Frölixin həddən artıq uzun qara corablarında

bənövşəyi gözəklər var. Bir müddət Qanmaz heç nəyə ürək eləmədi. Sonra heyrət içində gördü ki, qadının qara torun ilmələri arasından parlayıb irəli çıxan göy ipək paltarı heç onun çiyinlərinə də çatmır və o, əlindəki saplı iynəni göyə qaldırdıqca qoltuğunun altındakı çökəkdən nəsə sarışın bir şey görünür. Bundan sonra Qanmaz bir daha o tərəfə baxmadı...

Səssizlik onu boğurdu. Bayırda da əvvəlkinə nisbətən sakitlik idi. Yalnız qısa, zarıltılı səslər, işləyib əldən düşmüş kök adamların xırıltılı və piyli səsinə bənzər nəsə eşidilirdi. Tam sakitlik vardı. Bu sakitliyin içində də əyilən metalın səsi və fəryadı! Kütlənin nəfəs alması kimi çətin müəyyənləşən bir şey! Qəfil səslənən "Düş!" kəlməsi və bir-birinin ardınca gələn iki ləngərli sıçrayış! Və qopan alqışın arasından eşidilən səslər: "Lənət şeytana! Əhsən beləsinə!"

– Qurtardıq, – deyib aktrisa Frölix ayağını kətildən qaldırdı. İşini başa çatdırmışdı. – Nə olub sizə? Ağzınıza su alıb oturmusunuz.

Qanmaz ona baxdı; lakin Frölix öz bəzək-düzəyi ilə onu təzədən çaşbaş saldı. Saçı qızartlaq, əslində, çəhrayı, az qala, lilə rəngində idi və üstünə çoxlu cilalanmış yaşıl seylanlar düzülüb qövsvari diadema təsiri bağışlayırdı. Qupquru göy gözlərinin üstündəki qaşları həddən artıq qara idi və nəzərə çarpırdı. Lakin üzünün gözəl, əlvan rənglərinin al, qonur, sədəf kimi ağ parıltısı pudranın təsirindən qurtara bilməmişdi. Saç düzümü qarmaqarışıq idi, sanki, parlaqlığından bəzi şeylər uçub tüstülü zala dağılmışdı. Boynundan göyümsov ipək şal asılmışdı, donunun yanlarına düzülmüş parça güllər, sanki, cansız başları ilə nəyi isə təsdiq edirdi. Ayaqqabılarının lakı parıldayırdı, corablarında iki ləkə vardı və qısa ipək paltarı solğun qırçınlarından parlayırdı. Qollarının və çiyinlərinin təzə-təzə düyünlənmiş əti istənilən yeyin tərpənişdə öz ağlığı ilə nəzərə çarpmasına baxmayaraq, əprimiş kimi görünürdü. Qanmaz bilirdi ki, qadının sifəti amansız və yağısal olur və aktrisa Frölix üzündəki bu ifadəni sığallayıb kənara atmağı büsbütün unudur. Qadın şaqqanaq çəkib güldü: dünyanın üstünə, öz üstünə!

– Bir az əvvəl çox gümrah idiniz, – Frölix dilləndi.

Qanmaz büsbütün ona qulaq kəsildi. Birdən qoca pişik kimi quruyub yerindən sıçradı. Aktrisa Frölix yüngül bir qışqırtı ilə arxaya çevrildi. Qanmaz dartıb qırmızı pəncərəni

açdı... Yox, konturlarını pərdənin arxasında gördüyü baş yenidən çəkilib getmişdi. Geriyə qayıtdı.

– Adamları qorxudursunuz, – Frölix dedi.

Qanmaz üzr istəmək əvəzinə birbaşa mətləbə keçdi:

– Yəqin, bu şəhərdəki cavanlann çoxunu tanıyırsınız?

Aktrisa səkə-səkə əndamını yırğaladı.

– Mənə yaxşı üz göstərənə ehtiramla yanaşıram, – dedi.

– Əlbəttə, elədir. Onda hər kəs sizə yaxşı üz göstərər. Gimnaziyanın şagirdləri isə, ümumiyyətlə... İnanın ki... Ədəb-ərkanın yerini yaxşı bilirlər, elə deyilmi?

– Hə, elə bilirsiniz hər gün burada sizin sinfin uşaqları ilə otururam? Mən axı bağça müəllimısi deyiləm.

– Elədir ki var. – Xəbərdaredici tonla onun nəzərinə çatdıraraq: – Çox vaxt onlar gimnazist papağında olurlar.

– Gimnazist papağında olsalar, tanıyaram. Ümumiyyətlə, az-çox təcrübəmiz var.

Qanmaz sözü göydə tutdu:

– Hə, varınızdır.

Qadın həmin an özünü müdafiəyə qalxdı:

– Nə demək istəyirsiniz?

– İnsanları tanımağınızı nəzərdə tuturam... – Yuxarı qaldırdığı əlinin içini ona uzatdı, qorxa-qorxa və barış ümidi ilə. – İnsan sərraflığınızı nəzərdə tuturam. Hər kəs bunu bacarmır; bu həm çətin, həm də acı bir işdir. – Qadının mərhəmətini qazanmaq üçün, ona daha da yaxınlışmaqdan ötrü, çünki buna ehtiyacı vardı, çünki qadın ona qorxu təlqin edirdi, ürəyini açıb-tökdü, adətən, qara camaata açdığından xeyli çox. – Özü də necə acıdır! Bu ona insanları özünə tabe etdirməkdən və hamıya nifrət bəsləyərək onlara ağalıq etməkdən ötrü lazım idi.

Aktrisa deyiləni anladı.

– Mən də o fikirdəyəm! Həmin qara camaatdan nəsə qoparmağın özü bir ustalıqdır! – Kətilini xeyli yaxına çəkdi. – Həyatımızdan xəbəriniz yoxdur, deyəsən. Bu binaya ayaq qoyan hər kəs elə fikirləşir ki, camaat əlini açıb onu gözləyirmiş. Hamı nəsə istəyir, sonra da, adamın heç inanmağı da gəlmir, səni polislə hədələyirlər! Siz... – barmağının ucu ilə Qanmazın dizinə toxundu... – birbaşa mətləbdən başladınız. Bu özü də yaxşı cəhətdir.

– Mən bununla hər kəsin qadına borclu olduğu ehtiramı alt-üst etmək niyyətində deyildim, – Qanmaz bildirdi.

Halı özündə deyildi. Min bir rəngə çalan bu qadın Qanmaza xas adi aydınlıqla müdaxilə etdiyi şeylərdən danışırdı. Üstəlik, dizləri onun dizlərinin arasında idi. Aktrisa hiss edirdi ki, Qanmazda rəğbət oyatmamaq yolunu tutub və qəfildən üzünə sakit, ağıllı bir ifadə qondu.

– Hər cür zibildən çıxıb abırlı həyat sürmək daha yaxşı olardı. – Aktrisa dilləndi və Qanmaz heç nə demədiyinə görə əlavə etdi: – Şərab xoşunuza gəldi? Şagirdləriniz gətirmişdi. Sizə deyim ki, bir işin qulpundan yapışdılarmı qurtardı. Biri var, pulu başından aşır.

Qanmazın badəsini təzədən doldurdu. Kişiyə yarınmaq arzusu ilə davam etdi:

– Cüvəllağılar bir də gəlsələr, gülməkdən ölərəm. Paylarını içib qurtardınız. Kimsə ziyana düşəndə hərdən xeyli sevinirəm. İnsan get-gedə dəyişib belə olur.

– Doğrudan da elədir, – Qanmazın dili topuq çaldı, əlindəki badəyə baxıb xəcalət çəkdi, çünki Lomanın çaxırını içmişdi. Onun içkisinin pulunu verən Loman olmuşdu. Loman burada imiş, başqalarından qabaq aradan çıxıbmış. Güman ki, hələ də yaxınlıqda idi. Qanmaz gözünü pəncərəyə zilləyib baxdı: pərdədə hələ də əyiş-üyüş bir sifətin cizgiləri vardı. Bilirdi ki, yerindən qalxıb pəncərəyə atılsa, həmin sifət çəkilib gedəcək. Bu, Loman idi: Qanmaz bunu özünəxas bir duyumla hiss edirdi. Şagirdlərin ən pisi öz tərsliyi ilə adamı yaxına buraxmayan, onun Qanmaz adını bir dəfə də dilinə gətirməyən Loman idi: o, Qanmazın mübarizə apardığı gözəgörünməz bir xəyalat idi. Digər ikisi xəyalat deyildi və o hiss edirdi ki, həmin uşaqlar Qanmazı özünün əl atdığı qeyri-adi hərəkətlərə məcbur etməzdilər və qoymazdılar ki, qrim və tərli paltar qoxuyan arxa otaqda aktrisa Frölixin yanında otursun. Şagird Lomanın xatirinə Qanmaz oturub qalmalı idi. Gedərdisə, Loman yenə də burada oturardı və kətilini yaxına çəkmiş aktrisa Frölixin boyalı sifətinə tamaşa edərdi. Xoşbəxtlikdən, bunun istisna olduğunu düşünərək Qanmaz ətrafına boylanana qədər bütün şüşəni içib qurtardı. Damarlarına xoş bir alov doldu.

Hər iki gonbul proqramlarını aydın eşidilən tövüşükiə sona çatdırdı. Royal indi də döyüş havası səsləndirdi və dərhal sonra iki səs oxumağa başladı, var gücləri ilə, vətənə məftunluq alovu ilə.

*"Qürurla dalğalanır dor ağacı başında:*
*qara-ağ-al bayrağımız;*
*Vay halına bu rəngə nifrət edən*
*Ey barışmaz yağımız".*

Tamaşaçıların daxili coşqudan qanadlandığını aşkarca görmək olurdu. Adamın başını gicəlləndirən həyəcandan çoxları qabarlı əllərini bir-birinə vurub artistləri alqışlayırdı. Ağılları başlarında olanlar hər bənddən sonra qopan alqış sədalarını boğmağa çalışırdılar. Mahnının sonunda artistlərin səsi haçalaşdı. Aktrisa Frölix özünü saxlaya bilməyib qapının arxasından qollarını zala doğru açdı.

– Yaxşı, mən yox, siz deyin, bu, xalis dəlilik deyilmi?! İstənilən adam bu gicgici matros mahnısını Quste ilə əri Kipertdən yaxşı oxuyar. Həmin adamın, ən azı, ağlı başında olardı. Kipert də, Quste də yaxşı bilirlər ki, pulun xatirinə min cür hoqqadan çıxırlar. Heç düz-əməlli səsləri də yoxdur, eşitmə qabiliyyətləri də onun kimi. Bacardıqları bayraqları qarınlarına dolamaqdır, camaat da özünü öldürür, amma musiqidən başları çıxsaydı, bu gonbullara pul vermək əvəzinə onlardan pul tələb edərdilər. Bəlkə, belə deyil?! – Qanmaz ona haqq qazandırdı. Qürurlu bir ikrahla hər ikisi başları ilə razılıqlarını bildirdi. – Baxın görün, nələr olacaq, – Frölix dedi və hər iki gonbul özlərinin şahanə nömrəsini nümayiş etdirməmiş başını qəfildən zala saldı.

– Ho-ho-ho! – kimsə o üzdə səsləndi.

– Eşitdiniz? – Frölix məmnun-məmnun soruşdu. – Onlar axşamdan bəri gözlərini döyüb mənə baxırlarmış, burnumu göstərən kimi maltək mələşirlər, çünki bunu gözləmirdilər.

Qanmazın yadına sinifdə eşitdiyi səslər düşdü, həmin səslər gözlənilməz bir hadisə olan kimi çıxarılırdı; o, öz hökmünü verdi:

– Həmişə belədirlər.

Aktrisa Frölix köksünü ötürdü:

– İndi mənim çıxışımdır, istəsəm də, istəməsəm də, gərək gedəm.

Qanmaz əl-ayağa düşdü:

– Onda... belədir... hə də... qapını bağlayın! – Amma bunu özü etdi. – Mövzumuzdan yayındıq. Şagird Loman barədə gərək həqiqəti ortaya qoyasınız. Boyun qaçırsanız, onun işlərini korlaya bilərsiniz.

– Yenə başladınız? Deyəsən, ağlınız bir balaca o söz...

– Mən müəlliməm! O şagird çox hoqqalardan çıxır və istənilən cəzaya layiqdir. Öhdənizə düşən məsuliyyəti dərk edin ki, cani cəzadan qaçıb qurtarmasın!

– Allahım! Yəqin, əzib oğlanın suyunu çıxarmaq istəyirsiniz! Nəydi onun adı? Ümumiyyətlə, ad yaddaşım zəifdir. Görkəmi necədir?

– Sifətində bir sarılıq, necə deyərlər, yüksək əda ilə qırışdırdığı enli alnı, bir də, alnına tökülən qara saçları var. Ortaboyludur, heç nəyi vecinə almadan bədənini, necə deyim, əyə-əyə yeriyir, bu da, deyərdim ki, onun tərbiyəsizliyindən xəbər verir...

Şagirdinin şəklini əllərinin hərəkəti ilə tamamladı. Nifrət onu portret rəssamı etmişdi.

– Daha nə? – aktrisa Frölix iki barmağını cəhənginə qoyub soruşdu. Deyəsən, bu dəfə Lomanı tanımışdı.

– O, inanın mənə, bəzənib-düzənməyi çox sevir və özünün adamayovuşmaz nisgilli davranışı ilə şuxluğuna ciddi bir görüntü verir, elə bil, bu görüntü onda anadangəlmədir, sanki onun yaşlılara qarşı nifrətinin, daxili təkəbbürünün heç nişanəsi də deyil.

Frölix qətiyyətlə dedi:

– Yetər. Bu işdə sizə yardımçı ola bilmərəm, təəssüf ki, bilmərəm.

– Ağlınızı başınıza yığın! Geriyə yol yoxdur!

– Nə yazıq! Haqqında heç nə deyə bilmərəm, – Frölix üzünə klounlara xas bir ifadə verdi.

– Bilirəm ki, o, burada olub; əlimdə sübutum var!

– Onda boğazını mənsiz də üzə bilərsiniz.

– Lomanın inşa dəftəri burada, cibimdədir; onu sizə göstərsəm, inanıram ki, Lomanı tanıdığınızı o saat boynunuza alacaqsınız... Necə bilirsiniz, göstərim?

– Divanəsi deyiləmmi?!

Qanmaz əlini pencəyinin cibinə saldı, pərtliyindən qızardı, əlini cibindən çıxartdı, bir də cəhd etdi... Aktrisa, axır ki, Lomanın şerini oxudu, həyəcanla, əlifba kitabını oxuyan körpə bir uşaq kimi. Axırda coşdu:

– Bu, doğrudan da, alçaqlıqdır. "Sən hamilə olacaqsan..." Görərik kim hamilə olacaq! – Sonra da fikirli-fikirli: – Ancaq o, düşündüyüm kimi də gic deyilmiş.

– Görürsünüz, tanıyırmışsınız!

Aktrisa elə həmin an:

– Kim deyir? Yoox, dilimdən tuta bilməzsiniz!

Qanmaz onu kinli-kinli süzdü. Birdən ayaqlarını yerə döydü; bu cür inadcıl yalançılıq onu haldan çıxarmışdı. Fikirləşmədən o özü də yalana əl atdı:

– Hər şeydən xəbərim var, onu burada görmüşəm axı!

– Onda hər şey qaydasındadır, – Frölix arxayın-arxayın dedi. – Hər halda, onunla məmnuniyyətlə tanış olardım. – Birdən sinəsini qabağa verdi, incə barmaqları ilə Qanmazın çənəsinin altını, saqqalının tükü tökülmüş yerlərini sığalladı və dodaqlarını büzüb qabağa uzatdı, sanki, əmməyə hazırlaşırdı.

– Oğlanı mənə göstərərsiniz, eləmi?

Aktrisanı gülmək tutdu; elə təəssürat yarandı, elə bil, bu incə barmaqlar kişini əməllicə-başlıca boğurmuş.

– Şagirdləriniz diribaş uşaqlardır. Yəqin, bu ondan irəli gəlir ki, müəllimləri də diribaşdır.

– Bu cavan oğlanların hansı xoşunuza gəlir? – Qanmaz bərk həyəcanlanıb soruşdu.

Frölix əlini ondan çəkdi, dəyişiklik hiss olunmadan sifətinə təzədən bir dinclik və arxayınçılıq qondu.

– Kim sizə deyir ki, bu yelbeyin gədələrdən hansısa xoşuma gəlir?! Bilməyiniz heç də pis olmaz, mənə qalsa, bu yelbeyinlərin hamısını yaxşı bir kişiyə qurban verərdim, yetkin yaşda bir kişiyə, adama eyş-işrət məqsədilə yox, qəlbinin tələbi ilə, ciddi fikirlərlə yaxın duran bir kişiyə! Kişilər belə şeyləri dərk etməzlər. – Yüngül bir nisgillə sözünü tamamladı.

Gonbul artistlərin ikisi də geri qayıtdı. Arvad nəfəsini dərməmiş soruşdu:

– Hə, özünü necə apardı?

Royal təzədən dilləndi.

– Yaxşı, gedək işimizin dalınca! – deyib aktrisa Frölix şalı çiyninə atdı və tovuz kimi min rəngə çaldı. – Yəqin, evə gedərsiniz, hə? – soruşdu. – Sizi yaxşı başa düşürəm. Bura cənnət deyil. Amma gərək sabah da gələsiniz, yoxsa şagirdləriniz biabırçılıq çıxarar, yəqin, özünüz başa düşürsünüz.

Bunları deyib getdi. Qanmaz söhbətin bu qəribəliklə bitməsindən daha da çaşıb-qaldı, deməyə söz də tapmadı. Artist qapını açdı.

– Arxamca gəlin, belə olsa, buradan dava-qalmaqalsız qurtararsınız.

Qanmaz gələndə gözdən qaçırdığı cığırla onun dalına düşüb getdi. Qapıya bir az qalmış artist qəfildən arxaya çevrildi. Qanmaz zalın o başında üstünə salınmış əlvan işıq zolaqlarının altında bir cüt çılpaqlanmış qol, bir ədəd çılpaqlanmış çiyin, bir ədəd bədən, tüstü-dumanın, səs-küyün fövqündə göz qamaşdıran bir ət parçası gördü. Çölə çıxmaq üzrə idi. Meyxananın sahibi əlindəki pivə ilə özünü ona yetirdi, ucadan dedi:

– Gecəniz xeyrə qalsın, cənab professor, növbəti gəlişinizlə meyxanamızı bir də şərəfləndirin!

Qanmaz qapının arasında bir az da ayaq saxlayıb özünü toplamağa çalışdı. Soyuq havanın sızıltısını başında hiss edib anladı ki, şərabla pivə içməsəydi, bu qeyri-adi zəmanədə olayiar çətinliklə baş verərdi... Addımını küçəyə atan kimi qorxdu: binanın divarına üç fiqur sığınmışdı. Gözlüyünün qırağından o tərəfə baxdı, divara qısılanlar Kizelak, fon Ersum və Loman idi.

Qanmaz cəld bir hərəkətlə dönüb getdi, arxasında üç nəfərin sinəsindən qopan bir fit, özəlliklə də Ersumun acıq kimi səslənən fitini eşitdi. Bu vaxt Kizelakın cığıltılı səsi boşluğa yayıldı.

– İndicə birinin çıxıb gəldiyi məkan bir sürü əxlaqsız Qanmazla doludur.

Qanmazın əti ürpəşdi; hirsindən və qorxusundan dişlərini qıcırtdı.

– Hamınızı qarışqa kimi əzəcəyəm. Sabah bu olanlann hamısını rəhbərliyə çatdıracağam, əmin ola bilərsiniz!

Heç kəs cavab vermədi. Qanmaz bir daha geriyə dönüb lal-dinməz, ayağını sürüyə-sürüyə üç-dörd addım getdi. Bu vaxt Kizelak ağır-ağır ikicə kəlmə dedi və hər kəlmədə Qanmazın boynunun ardı cimildəşdi:

– Biz dəl

## BEŞİNCİ FƏSİL

Loman, qraf Ersum və Kizelak bir-birinin dalına düşüb zal boyunca yeridilər. Səhnənin arxasından keçib-gedəndə Kizelak zil bir fit çaldı.

– Ağzıbirə! – əmr verdi; onlar artistlərin soyunub-geyinmə otağına girdilər. Gonbul qadın nəsə toxuyurdu.

– Ehey! – Frölix səsləndi. – Haradasınız, cənablar? Müəlliminiz bizi əməllicə əyləndirdi.

– Bizimki onunla tutmur, – Loman dilləndi.

– Amma savadlı adamdır, həm də asanlıqla barmağa dolamaq olur.

– Siz də dolayın!

– Yox, mən yox, cənablar, deyəsən, məni dolamısınız. Amma mən birini tanıyıram, o...

Sözünü bitirmədi, çünki Kizelak onun qoltuğunun altını qıdıqladı. Elə bildi ki, başqaları onu görmür.

– Əlinizi çəkin, körpəm mənim, – deyib Frölix burnunun ucuna düşmüş taxma eynəyini əlinə aldı. – Tez-tez belə eləsəniz, Kipert üstünüzə hürər.

– Qapmağı da varmı? – Kizelak altdan-yuxarı soruşdu, qadın da üz-gözünü elə qırışdırdı ki, elə bil, körpə bir uşağı damdabacanın, doğrudan da, olduğuna inandırmaq istəyirdi.

Əllərini cibinə qoyub arxa tərəfdə, dəfə-daraq masasının yanındakı kətilə yayxanmış Loman dilləndi:

– Kizelak, büsbütün sırtılıbsan, Qanmazla da çox baş apardın. Çıxıb getdiyi yerdə onu cırnatmağın mənası nə idi? O da insandır axı, adama gücündən artıq yamanlıqlar yükləməzlər. İndi bizi zibilə salacaq.

– Göstərərəm ona zibilə salmağı, – Kizelak lovğalandı.

Ersum dirsəklərini masaya dirəyib ortada oturmuşdu. Yalnız öz-özünə deyinirdi və asma çırağın işıqlandırdığı kürən saçlarının töküldüyü al-sanşın sifəti qımıldanmadan qapıya tuşlanmışdı. Birdən o, əlini masaya çırpdı:

– Qoy o heyvan bircə dəfə də ayağını buralara bassın, həmin an sümüklərini sındıracağam.

– Gözəl! – Kizelak dilləndi. – Belə olsa, sinifdə yazdığımız inşanı bizə qaytara bilməyəcək. Mənimki başdan-ayağa cəfəngiyatdır.

Loman gülümsəyərək onlara baxırdı:

– Deyəsən, o körpə sənin başını əməllicə tovlayıb, Ersum. Bu cür danışıqlar yalnız sevgiyə layiqdir. – O üzdəki alqış sədaları səngidiyindən və qapı açıldığına görə: – Möhtərərm xanım, sizdən ötrü adam cani olmağa da hazırdır.

– Boş danışıqlarınızı özünüzə saxlayın, – Frölix qəddarlıqla cavab verdi. – Barənizdə müəlliminizlə danışmışam, heç də vurğununuz deyil.

– Nə istəyir o qoca qoyun?

– Sizi yaxalamaq, əzib suyunuzu çıxarmaq, başqa heç nə!

– Froylayin Rosa, – Ersumun dili dolaşdı. Frölix otağa girəndən bəri əyilmiş beli və şaşqın baxışı imdad diləyirdi.

– Sizinlə də heç nə alınmaz, – Frölix üzünü ona tutdu. – Yaxşısı bu olardı ki, zalda qalıb məni ağıllı-başlı alqışlayaydınız. Bəzi murdarlar məni fitə basmaq istəyirdi.

Ersum özünü irəli verdi:

– Hanı o gədələr, hanı o murdarlar?

Frölix onu tutub saxladı:

– Özünüzü ələ alin! Qalmaqal salmayın! Belə etsəniz, elə bu axşam qolumdan tutub atarlar. Onda sarayınızı ixtiyarıma verərsinizmi, cənab qraf?

– Haqlı deyilsiniz, möhtərəm froylayn, – Loman sözə qarışdı. – Sizdən ötrü o, bu gün himayəçisi konsul Bretpotun yanında olub. Ancaq o zırrama iztirabın nə olduğunu anlamır və bir qınnaq da pul buraxmır. Bacarsaydi, Ersum hər şeyi, adını, parlaq gələcəyini, var-dövlətini ayaqlarınızın altına atardı. Allah da şahiddir ki, bu işləri görmək onun canında, qanındadır. Məhz buna görə də, möhtərəm froylayn, onun ehtirama layiq sadəliyindən sui-istifadə etməyiniz haqsızlıq olardı. Yazığınız gəlsin ona!

– Neylədiyimi yaxşı bilirəm, a zəvzək... Əgər dostunuzun da çənəsi sizinki kimi boş deyilsə, daha çox imkanı olacaq ki, mənimlə...

– Öz məqsədinə nail olsun, – Kizelak cümləni tamamladı.

– Sizi yaxşı tanıyıram, siz həmin o sirlər yuvasından birisiniz, – deyib Frölix Lomana yaxın gəldi. – Özünüzü elə aparırsınız, elə bil, dünya vecinizə deyil, sonra da birisinə murdar-murdar şeir qoşursunuz. – Loman pərtləşib güldü. – Siz məni boylu edə biləcək ən axırıncı adamsınız, onu heç ağlınıza da gətirməyin. Anladınızmı? Ən axırıncı adam.

– Çox gözəl. Ən axırıncı adam. Gözləyərəm, – Loman darıxan adamlar kimi dilləndi və Frölix arxasını ona çevirəndə oğlan ayaqlarını qabağa uzadıb gözünü tavana zillədi. Şəxsi marağı olmadan burada kinayəli bir tamaşaçı kimi oturmağına davam etdi. Qarşısındakını heç vecinə də almadı. Lomanın qəlbi, deyəsən, daşlaşmışdı, güman edildiyindən də çox daşlaşmışdı... Kinayədən özünə zireh düzəltmişdi.

Royal yenidən səsləndi.

– Roza, sizin sevimli valsınız! – gonbul qadın dilləndi.

– Kim rəqs etmək istəyir? – Roza soruşdu. Əndamını yırğalayıb Ersuma gülümsədi, lakin Kizelak enlikürək yunkeri qabaqladı. Sağ əli ilə Rozanın belini qucub küçə oğlanlarına sayaq məzələnirmiş kimi qadını bic bir məhrəmliklə fırlatdı və süzərək qəfildən uzaqlaşıb getdi. Roza az qala yıxılacaqdı. Kizelak buna fikir verməyib ona dil çıxartdı və yad gözlərdən yayınaraq arxadan onu çimdiklədi. Frölix qorxub hirslə, həm də nəvazişlə dedi:

– Bir də belə etsən, iyrəncin biri iyrənc, ona deyəcəyəm, o da əzib sənin suyunu çıxaracaq.

– Etmə! – Kizelak pıçıltı ilə dedi. – Yoxsa mən də ona çox şey deyərəm. – Frölix üz ifadəsini dəyişmədən güldü. Kürən sifəti tərdən puçurlanmış Ersum şaşqın bir baxışla onu süzdü.

Bu arada Loman gonbul qadını rəqsə dəvət etmişdi. Roza Kizelakı buraxıb quş kimi süzən Lomana tamaşa etdi. Gonbul qadın oğlanın qolları arasında, sanki, çəkisini itirib yüngülləşmişdi. Rəqs onu bezdirəndə mərhəmətlə qadına baş əyib Rozaya əhəmiyyət vermədən öz yerinə qayıtdı. Roza onun ardınca getdi:

– Məncə, sizinlə rəqs etmək olar. Başqa şeyə yaramasanız da.

Oğlan çiyinlərini çəkdi. Biganəliyini üzünü artistvari qırışdırmaqla göstərib ayağa qalxdı. Roza ağır-ağır, həzz ala-ala və mübtəlalıqla rəqs edirdi.

– Bəsinizdir? – oğlan, axır ki, nəzakətlə soruşdu. Roza öz aləmindən ayılanda əlavə etdi: – Onda...

– Susuzluqdan yanıram! – Roza tövşüyə-tövşüyə dedi. – Cənab qraf, içməyə bir şey verin, yoxsa yıxılacağam.

– Özü ayaq üstə güclə durur, – Loman dilləndi. – Üzgözündən sərxoşluq yağır.

Ersum tövşüyürdü, elə bil xeyli vaxtdan bəri qızı fırladan o idi. Əllərində titrəyən şüşəni aşağı əydi və şərabın qalığı yerə töküldü. Sonra mat-mat Rozaya baxdı. Roza güldü. Gonbul qadın dilləndi:

– Deyəsən, cənab müəlliminiz içməyin ustasıdır!

Ersum hər şeyi anladı; kefliliyi gözlərindən aydın görünürdü. Birdən boş şüşənin boğazından yapışdı, elə bil əlindəki toppuz idi.

– Sss, – Rosa onu sakitləşdirməyə çalışdı və Ersumu

əməllicə tənbeh edəndən conra əlavə etdi: – Cib yaylığım masanın altındadır. Onu mənə verərsinizmi?

Ersum aşağı əyildi, başını masanın altına soxdu, əlini irəli uzatdı, lakin dizləri qatlandı. Yerdə süründü, qız da onu gözdən qoymadı. Ersum döşəmədəki yaylığa doğru yönəldi, onu dişləri ilə qaldırıb masanın altından əlləri üstündə çıxdı. Donub yerində qalmışdı, içinə qrim qoyulmuş, yağ ləkəli bozumtul parçanın şit iyindən məstləşib gözlərini yummuşdu. Gecə-gündüz xəyalı ilə yaşadığı, ağlından çıxara bilmədiyi, yolunda həyatını qurban verməyə hazır olduğu əlçatmaz qadın örtülmüş göz qapaqlarının önündə dayanmışdı! Frölix kasıb olduğundan, Ersum da onu öz səviyyəsinə ucalda bilmədiyindən qadın paklığını təhlükəyə atıb Qanmaz kimi çirkin insanlarla oturub-durmaq məcburiyyətində qalmışdı. Bu, qorxunc və təkrarsız bir tale idi. Roza işini başa vurduqdan sonra yaylığı onun dişləri arasından alıb dedi:

– Bax, necə də gözəldir, itciyəzim mənim.

– Gözəldən də gözəldir, – Loman dilləndi.

Dımaqları sədəfə qədər tutulmuş Kizelak əlini ağzına qoydu və çəpəki bir baxışla dostlarını süzdü:

– Özünüzdə xəyal qurmayın. Onsuz da, son məqsədə çatan deyilsiniz.

Sonra o, alışıb-yanan gözləri ilə Roza Frölixə baxdı. Özü bu məqsədə çoxdan çatmışdı.

***

Loman dilləndi:

– On birin yarısıdır. Ersum, keşişin pivə içməkdən qayıdır, yatağa girən vaxtındır.

Kizelak Rozaya nəsə pıçıldadı, bir az məzə, bir az da hədə ilə. Bu biri iki nəfər bayıra çıxanda o, birdən-birə yox oldu. Dostlar şəhər darvazasına doğru getdilər.

– Səni ötürə bilərəm, – Loman bildirdi. – Bizim qocalar konsul Bretpotun evində baldadırlar. Bizim dəvət olunmamağımıza necə baxırsan? Orada mənimlə rəqs dərsi keçən quşbeyinlər oynayır.

Ersum başını silkələdi.

– Beləsini heç yerdə tapa bilməzsən! Sonuncu yay tətilində Ersum soyundan olan qızların hamısı ilə, eləcə də Püqqelkrok, Alefelt, Katsenellenbogen nəsillərindən olan gəlinlərlə tayfa şənliyində olmuşam.

– Yəqin, digər nəsillərdən olan gəlinlərlə də.

– Necə bilirsən, bunda olan onların birində var idimi?

– Nə axı?

– O daa. Özün bilirsən. Qadına xas olan nə varsa, əslində, necə deyim, qəlb.

Ersum “necə deyim” kəlməsini ona görə işlətdi ki, “qəlb” sözü ona utanc gətirirdi.

– Hələ cib yaylığı, – Loman onun sözünü tamamladı. – Ondan heç Püqqelkrok soyunun qızlarında da yoxdur.

Ersum eyhamı o saat başa düşmədi. Bir az əvvəl onu qəribə sözlər söyləməyə vadar edən daxili tələbatı üzə çıxarmaq üçün xeyli əlləşdi.

– Düşünmə ki, – dedi, – mən nəyisə məqsədsiz-filansız edirəm. Ona göstərmək istəyirəm ki, aşağı silkdən olmasına baxmayaraq, məndən xeyli yüksəkdə dayanır və mən onu tam ciddiliyi ilə öz səviyyəmə qaldırmaq istəyirəm.

– Onsuz da, səndən yüksəkdə dayanır.

Bu cür ziddiyyətli fikrə Ersum özü də heyrətləndi. Dili topuq çaldı:

– Görərsən, neyləyəcəyəm!.. O it balası Qanmaz ikinci dəfə Rozanın soyunub-geyinmə otağına sağ-salamat ayaq basmayacaq.

– Qorxuram biz onun həvəsini öldürmək istədiyimiz kimi, o da bizim həvəsimizi öldürmək eşqinə düşə.

– Bacarırsa, etsin!

– Qorxaq tulanın biridir!

Bununla belə, yenə narahat idilər; ancaq bu barədə danışmadılar. Yayda el şənliyi keçirilmiş kimsəsiz çəmənliklə irəlilədilər. Sonsuz gecənin və göy üzündə parlayan ulduzların yüngülləşdirdiyi Ersum bu meşşan yuvasından, kəndçi cüssəsinin zəncirə vurulduğu bu mühitdən azadlığa aparan işıqlı yolu beynində canlandırdı. Zira Rozaya vurulduğu gündən anlamışdı ki, başqalarından seçilərək məktəbdə özünü gülünc yerinə qoymuşdur, dili dolaşa-dolaşa yalan danışaraq, öküz boynuna bənzəyən boynunu hər dəfə bükərək, ümidsizliyə qapılaraq, çünki o hündürçiyin ölüvay kürsüdən onu süzür, üstəlik də, fınxırırdı. Onun burada yumşaldıb özlərinə tabe etdirmək istədikləri əzələlərinin hamısı işə yaramağın həsrətini çəkirdi, oğlanı əlinə qılınc götürməyə, həmin qılıncla və xırman vəli ilə ətrafındakıları şil-küt etməyə, istənilən qadını başı üstünə qaldırıb fırfıra kimi fır-

latmağa, dəli bir buğanın buynuzundan yapışıb dizini yerə gətirməyə təhrik edirdi. Fikri-zikri torpaq və ot qoxuyan kəndli deyimlərinin, klassik mənəviyyatın nazik təbəqəsi altındakı möhkəm zəmində uyuyan, onun nəfəsini kəsən əlçatar anlayışlann yanındaydı; o, ovçunun çəkməsinə bulaşıb evə gətirilmiş torpağa toxunmağın, atını dördnala sürən çaparın sifətinə çırpılan hava ilə təmasın həsrətini çəkirdi, ağzına qədər dolu meyxanaların hay-küyündən, zəncirə vurulmuş itlərin mırıltı və hürüşündən, payız meşəsinin və tərləyən islanmış atın iyindən ötrü ürəyinin başı tökülürdü... Üç il əvvəl doğma yurdda kəl kimi güclü naxırçıdan qoruduğu sağınçı qız Ersuma öz minnətdarlığını onu ot tapılının üstünə uzatmaqla bildirmişdi. Həmin sağınçının sayəsində bu gün o, meylini nəğməçi Roza Frölixə salmışdı. Bu qadın onun gözləri önündə kəskin səs və qoxularla dolu sonsuz və bozumtul bir səma açmışdı. Onun qəlbində yatanları oyatmışdı. Bu oyanışı Rozanın qəlbinin məhsulu sayaraq qadına şərafət göstərməyi, onu çox-çox yüksəklərə qaldırmağı özünə borc bilmişdi.

Hər iki şagird keşiş Telanderin villasına çatdı. Villanın ikinci mərtəbəsi ilə üçüncü mərtəbəsinin arasında divar sütunları tənəklə tutulmuş iki balkon vardı.

– Keşişin evdədir, – deyib Loman ikinci mərtəbədə yanan işığı göstərdi. Onlar villaya yaxınlaşdılar; işıq söndü.

Ersum özünü yenidən məğlub sayaraq yuxarıya qalxmalı olduğu üst qatdakı açıq pəncərəyə baxdı. Onun bu otaqdakı paltarından və kitablarından sinif qoxusu gəlirdi. Sinfin ab-havası gecə-gündüz ondan əl çəkmirdi. Küt bir hirslə o irəliyə atılıb tənəklərdən tuta-tuta yuxarıya dırmaşdı, birinci balkonun məhəccərində dayanıb bir daha öz pəncərəsini gözdən keçirdi.

– Uzun zaman buna tab gətirə bilməyəcəyəm, – üzüaşağı səsləndi, sonra qalxmağına davam etdi, ayağı ilə pəncərəyə toxunub içəri düşdü.

– Yuxun şirin olsun, – Loman yumşaq bir kinayə ilə deyib arxaya çevrildi, ayaq səslərinin xırçıltısını boğmadan yoluna davam etdi.

Heç nə hiss etdirməmək üçün işığını söndürən keşiş Telander qraf Ersumun gecə gəzintisindən ötrü səs-küy salan kişilərdən deyildi, bunun üçün o, ildə dörd min mark kəsmət alırdı... Evin qabağındakı bağçadan çıxar-çıxmaz Loman

təzədən özünü Doranın yanına saldı. Dora özünün ən böyük bal mərasimini keçirirdi. Hazırda o, yelpiyinin arxasında özünəxas yad, yorucu, qəddar gülüşü ilə gülürdü, deyəsən, asessor Kunst da ona qoşulub gülürdü. Bəlkə də, bu gün Kunstun taleyi həll olunurdu. Leytenant fon Qirşke də, deyəsən...

Loman başını içəriyə saldı, dişləri ilə alt dodağını çeynədi, Qirşkenin keçirdiyi iztirablara qulaq verdi...

O, konsul Bretpotun otuzyaşlı arvadını sevirdi. Qadını üç qış əvvəl rəqs dərsində cəmi bircə dəfə onun evində olandan bəri sevirdi. Qadın onun yaxasına bir orden[1] taxmışdı, bu da yalnız ona görə ki, oğlanın ata-anasına yarınmaq istəmişdi; Loman bunu bilirdi. Onu ata-anasının keçirdiyi və özünün orada iştirak etmədiyi böyük bayramlarda çox az-az qapının yarığından görürdü, aşnaları ilə birlikdə görürdü: özü isə! Qapı hər an açıla bilərdi, onda yerində donub-qalardı, şaşqınlıq içində, ağrıdan qovşurula-qovşurula; hər şey faş olardı. Belə olduğu təqdirdə Loman qəti qərara gəlmişdi ki, həyatına son qoysun. Taxıl anbarında siçovulları qorxutduğu köhnə tüfəng həmişə əlinin altında idi...

Ata-baba ənənəsinə əməl edərək o, qadının dördüncü sinifdə oxuyan oğlu ilə dostluq edir, özünün köhnə inşalarını köçürmək üçün ona verirdi. Qadının uşağını da sevirdi! Bir dəfə Bretpotu müdafiə edərək tay-tuşları ilə dalaşandan sonra o, çoxlarının üz-gözündə müəmmalı təbəssümlə qarşılaşdı. Tüfəngin lüləsi artıq özünün sinəsinə tuşlanmışdı... Yox, bundan heç kəsin xəbəri olmadı, Loman da iztirab içində qovşurulub öz yükünü özü çəkdi: pozulmamış ismətinin, adamın canına yayılan acılığın, on yeddi yaşa xas olan ürkək, təkəbbürlü, ovundurucu nifrətin və gecələr qədim bal ordeninin arxa tərəfinə həkk etdiyi misraların yükünü.

Kədərli duyğularla başdan-ayağa çulğalanmış bu adamdan Roza Frölix kimi birisi özünə vurulmağı tələb edirdi. İnsan bundan gülünc şeyi ağlına gətirə bilməzdi. O, şeir qoşurdu, elə Rozanın özünə də. Şeirin mövzusu sənət baxımından o qədər də önəmli deyildi. Bunun nəyi isə sübut etdiyini Roza fikirləşirdisə... O, özünü incik göstərirdi, Loman isə birbaşa onu ələ salıb gülürdü, bu da qadını onun üstünə

---

[1] Burada "Kotillon" ordeni nəzərdə tutulur. Bu, kotillon rəqsində rəqqasın tərəfdaşı rəqqasədən mükafat kimi aldığı döş nişanıdır. nəzərdə tutur.

qaldırırdı. Oğlanın elə bir niyyəti yox idi, "Mavi mələkin nəğməçisini istəməkdən çox-çox uzaq idi. Zalda yetərincə matros və əsgər vardi ki, üç markdan tutmuş on marka qədər pulla Rozanın yanında özlərini xoşbəxt saya bilərdilər.

Ancaq bəlkə də, bu onun ürəyincə idi? Danmağın nə faydası? Elə anlar olurdu ki, bu qızı o, ayaqlarına döşənmiş görmək istəyirdi, onu ram etmək, oxşamalarından həzz almaq və bu cür rüsvayçılıqla öz məhəbbətini çirkaba bulaşdırmaq, diz çöküb dilənən bir əxlaqsızla Dora Bretpotun özünü alçaltmaq, sonra da onun qarşısında diz çökmək, ağlayıb ürəyini boşaltmaq üçün onu könlündən keçirirdi.

Bu cür düşüncələrin əsməcəsində Loman Kayzerştraseyə, konsul Bretpotun işıqlı evinin qabağına gedib pəncərənin üstündə oynayan kölgənin altında qadının kölgəsini gözlədi.

## ALTINCI FƏSİL

Sifətindən sarılıq yağan Ersum, Kizelak və Loman səhər tezdən görüşdülər. Haylı-küylü sinfin tən ortasında bu üçlükdən hər biri özünü cinayətkar sayırdı, özü də elə cinayətkar ki, onun törətdiyi cinayəti prokuror araşdırır, qohumları isə bundan tam bixəbərdir. Bir neçə dəqiqədən sonra məqam yetişir... Kizelak qulağını direktor otağının qapısına dirəyib dinləyir və içəridə Qanmazın səsini eşitdiyini deyir. Kizelak daha lovğalanmır. Əlini ağzına qoyub Ersuma pıçıldayır:

– İşlər xarabdır, oğlum!

Loman indi mənəviyyatdan kasad olan ən sonuncu adamla yerini məmnuniyyətlə dəyişərdi.

Qanmaz tələsik içəri girib tövşüyə-tövşüyə sevimli Ovideyasına girişdi. Şeiri əzbər demək üçün əlaçı Angstdan başladı. Sonra adları B hərfi ilə olan şagirdlər gəldi. E hərfinə çatanda onu arada buraxıb M-ə keçdi. Ersum köksünü ötürdü. Kizelakla Loman gördülər ki, K ilə L hərflərinə toxunulmadı.

Şeirin tərcüməsində bu oğlanların heç birinə söz verilmədi. Dərsə hazır olmadıqlarına baxmayaraq, onlar bunun əzabını çəkdilər. Elə bildilər ki, insanların arasından silinib atılıblar, vətəndaş kimi artıq ölüdürlər. Qanmaz nə planlaş-

dıra bilərdi? Tənəffüsdə bir-birinə yaxın düşmədilər. Qorxdular ki, müəmmalı bir sirrin onları bir-birinə bağladığını düşünərlər.

Digər müəllimlərin yanında, daimi qorxu içində gün keçirmək. Həyətdə addım atmaq, pilləkəni cırıldatmaq, elə həmin an da direktorun hüzuruna... Ancaq bu dəfə heç nə olmadı. Yunan dili dərsini də Qanmaz latın dili dərsi kimi keçdi. Cavab verə bilməyəcəyinə baxmayaraq, Kizelak da özünü dar ağacının altındakılar kimi hiss etdi. Qanmaz onu vecinə də almadı. Bununla belə, hər dəfə sual veriləndə Kizelak hələ bərkiməmiş pəncəsini havada yellədir, orta barmağı ilə baş barmağını bir-birinə sürtüb çırtıq çalırdı. Gözləməkdən Lomanın canı boğazına yığıldı və o, masanın altında "Allahlar qəriblikdə"ni[1] açdı. Məktəbin ab-havasında yenidən mütiləşib kiçilmiş Ersum həmişəki kimi tər tökətökə sinifdən dala qalmamağa çalışır və həmişəki kimi yenə geriyə qalırdı.

Məktəbdən gedərkən onlar bu fikirdə idilər ki, "zəhər tuluğu" adlandırdıqları köməkçi özünün yamanlıq vəd edən təbəssümü ilə onları direktorun yanına çağıracaq. Amma yox, zınqırovlu kişi bu gənc cənabların qarşısında şlyapasını çıxartdı. Bayırda onlar izharından qorxuya düşdükləri sevinc içində bir-birinə baxdılar. Kizelak bu sevinci büruzə verən ilk adam oldu.

– Gördünüz dəə! Demişdim axı, buna cürəti çatmaz!

Loman hirslənmişdi, çünki sevincini içində boğmuşdu.

– Fikirləşirsə ki başımı piyləyə bilər...

Ersum sözə qarışdı:

– Hər halda, edə bilər. – Və qəfil bir çılğınlıqla: – Bacarır etsin! Mən bilirəm neylərəm!

– Təsəvvür edirəm, – Loman dedi. – Qanmazı əzişdirib suyunu çıxararsan. Sonra da aktrisa Frölixlə tapışarsınız, axırınız da zay olub gedər.

– Yox... bircə o yox, – Ersum heyrətlə cavab verdi.

– Ey Adəm övladları, deyəsən, qızdırmanız qalxıb, – Kizelak dedi və onlar aralandılar.

Loman yenə də öz fikrini bildirdi:

– Əslində, mən "Mavi mələk"lə qurtardım. Amma qorxutmağa da dəyməz, elə indicə ora gedirəm.

[1] Heynenin az oxunan əsərlərindən biri

Axşamüstü onunla Ersum, demək olar, eyni vaxtda binanın qarşısına çatdılar. Bir xeyli də Kizelakı gözlədilər. Həmişə onu qabağa verərdilər, onu əvvəlcə artistlərin soyunub-geyinmə otağına salardılar və imkan yaradardılar ki, ilk sözü o desin, birinci o rahatlansın. Kizelak olmasaydı, niyyətləri baş tutmazdı, zira onun özünə və sırtıqlığına ehtiyacları vardı. Oğlan pul sarıdan darlıq içindəydi, onun xərcini dostları çəkirdi və Kizelak bu əməyi büruzə verməkdən çəkinirdi; bütün bunlar onun, Kizelakın gizli sevincləri idi ki, əvəzində də Roza onlardan gül, şərab və hədiyyələr alırdı.

O, Frölixə görə tələsmədən özünü yetirdi və onlar binaya daxil oldular. Bu arada sahibkardan öyrəndilər ki, müəllimləri artistlərin otağındadır. Şaşqınlıq içində bir-birinə baxıb aradan çıxdılar.

***

Qanmaz dünən axşam evinə şad-xürrəm çatanda iş otağındakı çırağını yandırıb yazı masasının arxasına keçmişdi. Soba hələ soyumamışdı, saat öz çıqqıltısında idi və Qanmaz əlyazmasında eşələnib öz-özünə dedi: "Həqiqət yalnız dostluq və ədəbiyyatdadır".

O, aktrisa Fröiixdən canını qurtardığını duyub şagird Lomanın baş qoşduğu "ikincidərəcəli şeyləri" birdən-birə büsbütün önəmsiz saydı. Lakin dan yeri söküləndə hiss etdi ki, şagird Lomanı "yaxalamamış" heç nə alınmayacaq. Elə həmin an yenidən Homerin ədatlarına girişdi, ancaq dostluq və ədəbiyyat daha onu ram edə bilmədi. Nə qədər ki şagird Loman aktrisa Frölixdən əl çəkməyib, onu daha heç vaxt ram edə bilməyəcəkdilər.

Buna mane olmağın yolunu aktrisa Frölixin özü göstərmişdi; demişdi: "Gərək sabah bir də gələsiniz, yoxsa şagirdləriniz həngamə qopararlar..." Sözlər təzədən yadına düşəndə qızardı. Zira sözlər aktrisa Frölixin səsini, qıcıqlandırıcı baxışını, büsbütün allanmış üzünü və Qanmazın çənəsinin altını tumarlayan yüpyüngül qoşa barmağını da canlandırdı... Qanmaz ürkək-ürkək qapıya boylanıb "ikincidərəcəli şeyləri" gizli saxlayan şagird kimi böyük canfəşanlıqla işinin üstünə əyildi.

Atılmışların hər üçü – təbii ki, belə də olmalı idi – bunu qırmızı pərdənin arxasından gördü. Əgər Qanmaz onları direktorun ittihamına tapşırmağı qərara alsaydı, onda özlə-

rini batmış sayaraq və son abırlarını itirərək onlar gördüklərini hamıya söyləmək imkanı qazanardılar! Lomanın cinayətlərinin siyahısında müəlliminin içdiyi şərab da vardı ki, bunun da pulunu Loman ödəmişdi... Qanmazı tər basdı. O, özünü məhbus kimi hiss etdi. Xəbisləri deyəcəkdilər ki, Qanmaz Lomanı yox, əksinə, Loman Qanmazı yaxalayıb... Hirslənib coşmuş şagirdlərin böyük ordusuna qarşı apardığı qızğın mübarizədə tək-tənha qalması fikri ona güc verir, əminlik yaradırdı ki, onlardan bir neçəsinin ömür yolunu ağırlaşdırıb dözülməz etsin.

Ehtiraslı bir qətiyyətlə o, məktəbə doğru üz tutdu.

Üç cinayətkarın "kürəyini yerə vurmaqda" imkansızlıqdan söhbət belə gedə bilməzdi. Lomana gəldikdə isə onun sinifdə yazdığı abırsız inşası bəs edərdi. Attestat almağa bir həftə qalmış Qanmaz onlara sual verəcəkdi və həmin suallarla hər üçünü məhv edəcəkdi. Bəzi sualları hətta fikirləşib tapmışdı da... Şəhər darvazasından çıxandan sonra ağlına müəyyən fikirlər gəldi və məktəb binasına yaxınlaşdıqca daha hədəli gələcəyə boylandı. Bu üç üsyankar, çox güman ki, "Mavi mələk"dən danışmaqla sinfi silkələyib oyatmışdı. Qanmaz onları necə qəbul edə bilərdi?! İnqilab başlamışdı!.. Qısnanmış zülmkarın şaşqınlığı onu məğlub cəngavər kimi yenidən büsbütün dirçəltdi. Acınacaqlı qorxu içində o, küçənin tininə, şagirdlərə, sui-qəsdçilərə nəzər saldı.

Sinif otağına girəndə daha hücumçu deyildi. Məqam gözlədi; dünən axşam baş verənləri susaraq boynundan atmaqla, təhlükəni adlatmaqla və hər üç cinayətkara məhəl qoymamaqla özünü xilas etməyə çalışdı. Qanmazlığına salıb hər şeyə kişi kimi sinə gərdi. Lakin Kizelakın, Ersumun, Lomanın qorxudan nələr çəkdiklərini təsəvvürünə gətirə bilmədi; onlar da Qanmazın yaşantılarından xəbər tutmadılar.

Məktəb bağlanandan sonra Qanmaz da şagirdləri kimi cəsarətə gəlmişdi. Lomanın şadyanalıq etməsinə yol vermək olmazdı! Onu aktrisa Frölixdən kənar tutmaq lazım idi. Bunu bacarmaq Qanmaz üçün hökmranlıq məsələsi və özünə hörmət məqamı idi. Necə idi? "Sabah yenə gələrsiniz", – demişdi. Ayrı yol yox idi; Qanmaz bunu dərk edəndə qorxuya düşdü. Amma bu qorxuda nəsə bir şirinlik vardı.

Şam edə bilmədi, əməllicə-başlıca həyəcanlanmışdı və təsərrüfatçı qadının etirazına baxmayaraq, ağzıbirə, aktrisa Frölixin soyunub-geyinmə otağına birinci çatmaq üçün o

dəqiqə evdən çıxdı. Lomanın qadının yanında oturub şərab içməsinə yol verməк olmazdı: bu, əsl qiyam demək olardı, Qanmaz buna dözə bilməzdi. Bundan sonrası onun üçün tam qaranlıq idi.

Tələsə-tələsə özünü "Mavi mələk"ə çatdıranda giriş qapısındakı rəngli kağızı o saat görmədi və halı pozuldu, bir neçə saniyə həmin kağızı axtardı... Allaha şükür, kağız tapıldı. Bir az əvvəl Qanmazın qorxduğu kimi, aktrisa Frölix qəfildən çıxıb getməmişdi, qaçıb aradan çıxmamışdı, yer yarılıb onu udmamışdı. Hələ də mahnı oxuyurdu, daha bərbəzəkli olmuşdu, baxışı adama sancılırdı. Və onu burada çulğayan məmnunluqdan Qanmaz, az da olsa, nəsə anladı. Məsələ təkcə şagird Lomanın Frölixdən uzaq qalması deyildi! Aktrisa Frölixin yanında Qanmaz özü oturmaq istəyirdi... Ancaq bu fikrin üstünə həmin an yenidən qaranlıq çökdü.

***

Zal hələlik boş idi, içəriyə qaranlıq çökmüşdü, dəhşətli yadlıq hökm sürürdü və çirk basmış saysız-hesabsız ağ kətil və masalar örüşdə gərnəşən qoyun sürüsü kimi bir-birinin yanına düzülmüşdü.

Sobanın və balaca dəmir çırağın yanında sahibkarla iki kişi oturmuşdu; qumar oynayırdılar.

Görünməsin deyə Qanmaz yarasa kimi kölgəli divara qısıldı. Özünü artistlər otağına salmaq istəyəndə sahibkar səsləndi, bu səslənişdə qorxu vardı:

– Axşamınız xeyir, cənab professor, çox şadam ki, meyxanam xoşunuza gəlib.

– Eləcə istəyirdim ki, eləcə düşünürdüm ki, aktrisa Frölix...

– Keçin içəri, gözləyin, gələr, hələ saat yeddidir. Mən də sizə pivə gətirim.

– Çox sağ olun, – Qanmaz cavab verdi, – içmək fikrim yoxdur... Ancaq, – deyib başını qapıdan çölə çıxartdı, – bir azdan, bəlkə, əməlli bir sifariş verdim.

Sonra qapını bağladı, özünü soyunub-geyinmə otağının qaranlığına saldı. İşığı birtəhər tapıb yandırdı, kətilin üstündəki korset və corablan götürüb dünəndən üstü yığışdırılmamış masanın arxasına əyləşdi, qeyd dəftərçəsini pencəyinin cibindən çıxartdı, hər şagirdin adının arxasında ilkin qiymətləri yazmağa başladı. E hərfinə çatanda birdən-birə

hoppanıb M hərfinin üstünə keçdi, səhər tezdən sinifdə olduğu kimi. Sonra nəsə fikirləşdi, arxaya qayıtdı, Ersumun adına acıqlı bir narazılıqla nəzər yetirdi. Növbə Kizelaka, sonra isə Lomana çatdı. Otaqda səssizlikdən qulaq tutulardı və intiqam hərisliyindən Qanmazın üz-gözü əyildi.

Azca keçəndən sonra, deyəsən, adamları zala buraxdılar. Qanmaz narahat olmağa başladı. Dünənki gonbul qadın əyiş-üyüş günlüklü qara şlyapada içəri girdi, girən kimi də dilini işə saldı:

– Hə, istəyiniz nədir, cənab professor? Üzünüzə baxanda adama elə gəlir ki, bütün gecəni burada yatmısınız!

– Gözəl xanım, mən bura müəyyən işlər üçün gəlirəm, – Qanmaz ona, sanki, öyüd verirdi. Qadın isə barmağı ilə hədələdi:

– Təsəvvür edirəm, necə işlərdir, – deyib dəri çiyinliyini və jaketini əynindən çıxartdı.

Qanmaz nəsə donquldayıb ondan üz çevirdi. Qadın bozardı, rəngi qaçmış xalatda yaxınlaşıb onun kürəyinə döyəclədi.

– Orasını deyim ki, cənab professor, burada oturmağınıza bir qınnaq da təəccüblənmirəm. Rozanın yanında belə şeylərə vərdişkarıq. Onunla bircə dəfə tanış olan bu qadına vurulur, neyləyəsən, heç nəyin xeyri olmur. Haqqına demək lazımdır ki, gözəl və cazibəli qızdır.

– Ola bilər, hər halda, dediyiniz yalan olmaz, amma təkcə buna görə yox.

– Yox. Həm də qızdakı ürəyə görə. Hətta bu başlıca məsələdir. Allahım, nə dediyimdir?! – Əlini ürəyinin üstünə qoydu. Sonra hərisliklə onu gözdən keçirdi və həyəcandan buxağı tərpəndi.

– Xalis insani sevgidən hətta tez-tez özünə də ziyan edir! Görünür, ondan irəli gəlir ki, atası xəstə bəkçisi olub. İstəyirsiniz inanın, istəyirsiniz inanmayın, Roza həmişə yaşlılara duruş gətirə bilməyib. Özü də təkcə buna görə yox, – deyib baş barmağını şəhadət barmağına sürtdü. – Əslində, ona görə ki, qəlbi belədir. Bir də ki yaşlı kişilərin nəvazişə çox ehtiyacı var... Roza hərdən polisin rəva bildiyindən də mərhəmətli olur. Unutmayın ki, onu çağa çağlarından tanıyıram. Dediklərimin altı-üstü yoxdur. – Masanın qırağına əyləşdi, Qanmazı azman gövdəsi ilə onun oturduğu stulun söykənəcəyi arasına sıxdı, sanki, kişini büsbütün ram edib

danışdıqlarının ab-havasında itirmək istəyirdi. – Qızın vur-tut on altı yaşı olanda ağına-bozuna baxmadan özünü artistlərin çalışdığı alaçıqlara vurardı. Anadangəlmə artistliyin nə olduğunu bilməmiş olmazsınız... Hə, artistlərin arasında yaşlı bir kişi vardı, qıza savad vermək istəmişdi. Savadın da nə olduğunu hamımız bilirik, lap ilkinlikdən, Adəm və Həvvadan, bir də ki o turşməzə almadan. Qızın boyuna uşaq düşəndə qaçıb yanıma gəlir, fəryad qoparır. Mən də, təbii ki, deyirəm, gəl o kaftarın canını alaq, sənin yalnız iki həftədən sonra on altı yaşın tamam olur, son nəfəsi ağzından çıxana qədər qoy nəyi var sənin yolunda qoysun. Amma istəmədi! Necə başa düşəsən?! Qocaya büsbütün yazığı gəldi, onu yolundan döndərə bilmədim. Əksinə, təzədən özü onun yanına getdi. Ay sənə, insan! Küçədə mənə göstərmişdi: ölüvayın biri! Siz hara, o hara, cənab professor! Heç müqayisəyə də gəlməzsiniz! – İki barmağı ilə onun sifətinə döyəclədi. Qanmaz ona yetərincə həyəcanlı görünmədiyindən dediyinin üstündə durdu: – Qəti gəlməzsiniz, deyirəm sizə! Bir də ki iyrənc bir şey idi. Az keçmədən kişi öldü, necə düşünürsünüz, Rozaya nə qoyub getmişdi? Öz şəkillərini, özü də kilid altında. Partla xoşbəxtliyindən! Yoox, özünü yaxşı saxlamış əla bir kişi imiş. Bu cür qıza da əməllicə-başlıca vurulubmuş, orasını da deyim ki, dərin təsir bağışlayıbmış.

– Təbii ki onda... – Qanmaz çətin bir keçid etməyə çalışdı. – Qoy onda həmişə ürəyindən keçdiyi kimi olsun, bu da beləcə... – Üzündəki təbəssüm pərtliyindən acıyıb zəhərə dönmüşdü. – ...ona bəhanə ola bilməz ki, bir tərəfdən mənən, digər tərəfdən də ruhən tam kasad olmayan cavan bir oğlan ona hələ də çox şeyləri vəd etmiş olsun.

Qadın çılğınlıqla sözə qarışdı.

– Belə şeylər sizi ağrıtmırsa, onda xeyri yoxdur. Oğlanlar Rozanın canını boğazına yığıblar, inanın mənə! – Qanmazın çiyinlərindən tutub bərk-bərk silkələdi ki, həqiqəti bu yolla onun canına yeritsin. Sonra masadan döşəməyə yumalanıb dedi: – Danışıqla dananı qurda verərik. İndi gərək işimə dönəm, cənab professor, bir başqa vaxt özümü yenə sizə həsr edərəm. – Dəfə-daraq masasının güzgüsü önünə əyləşib üzünü yağla silməyə başladı. – Yaxşısı budur, üzünüzü çevirəsiniz, bu, o qədər də gözəl iş deyil.

Qanmaz itaətlə üzünü çevirdi. Royalda çalınan bir-iki

musiqi parçasına qulaq verdi. Zaldan boğuq bir xışıltı gəldi, elə bil, o, yanya qədər dolmuşdu.

– Sizin şagirdləriniz isə, – dişləri arasında nəsə tutmuş qadın sözü ortaya atdı, – qoy, ümumiyyətlə, boğazlannı uzadıb paxıllıqdan partlasınlar!

Qanmazda pəncərəyə doğru boylanmağa bir maraq oyandı. Doğrudan da, qırmızı pərdənin arxasında kimsə boğazını irəliyə uzatmışdı.

Zaldan uzun bir "Ho-ho-ho-ho" eşidildi. Aktrisa Frölix astanada dayandı və artist Kipertin enli kürəyi yanaçıq qapını o saatca qapadı. İkisi də içəri girən kimi artist ucadan dilləndi:

– Sizin bir daha burada olmağınız adamın canına yayılır, cənab professor!

Aktrisa Frölix də ürəyindəkiləri gizlətmədi:

– Buradaymış ki! Yaxşı da.

– Yoxsa heyrətlənirsiniz ki, – Qanmaz kəkələdi.

– Bircə qınnaq da, – aktrisa cavab verdi. – Paltomu çıxartmağa kömək eləyin.

– ... Tez-tez gəlməyə başlamışam...

– Niyə heyrətlənməliyəm?!

Frölix hər iki əlini iri, qırmızı lələkli şlyapasına mancanaq kimi keçirib iynələri çıxartdı və altdan-yuxarı bic-bic Qanmaza baxdı.

– Məgər... – Qanmaz təntimişdi, – özünüz deməmişdinizmi, tez-tez gəlin.

– Qoy siz deyən olsun! – Frölix şlyapasını təkər kimi fırlatdı. Sonra da barıt kimi partladı: – Tamam dəhşətdir!.. Sizi əldən qaçıran deyiləm, qocam mənim.

Bunu deyib əllərini belinə qoydu, sifətini düz onun sifətinə yaxınlaşdırdı.

Qanmaz möhkəm qorxmuş uşağa bənzəyirdi, çünki teatrdakı su pərisi birdən-birə hörüyünü dəyişdirmişdi. Aktrisa Frölix bunu hiss edib coşqunluğundan dərhal ayıldı. Başını çiyninə qoyub köks ötürdü.

– Amma fikirləşməyin ki, müəyyən məqsəd güddüyümü demişəm. Bu cür fikirləşsəniz, yanılmış olarsınız. Əksinə, həmişə Qusteyə demişəm: axı o doktordur, professordur. Mən isə fəqir, savadsız bir qızam. O cür kişiyə nəyi təklif edə bilərəm... Frau Kipert, bunları sizə deməyim, bəlkə, doğru deyil?

Gonbul qadın təsdiqlədi.

– Amma o, – deyib aktrisa Frölix məsum-məsum çiyinlərini çəkdi, – o həmişə deyərdi ki, siz bir də gələcəksiniz... Elə də oldu!

Küncdə paltarını dəyişən artist qeyri-müəyyən səslər çıxartdı. Arvadı ona sakitləşdirici işarə verdi.

– Amma kim mənə deyər ki, – aktrisa Frölix sözünə davam etdi, – ümumiyyətlə, məndən ötrü gəlmisiniz... Siz ki heç paltomu soyunmağa kömək də etmirsiniz. Bəlkə də, əzib sularını çıxarmaq istədiyiniz o iyrənc gədələrə görə gəlirsiniz.

Qanmaz pörtdü, yardım axtararaq dedi:

– İlk növbədə... əslində bəlkə də... kim bilir... ilkində...

Aktrisa Frölix güclə başını tərpətdi. Gonbul qadın onlara yardım etmək üçün dəfə-daraq masasından qalxdı. Əyninə yaxasıaçıq qırmızı bir köynək geyindi. Əməllicə-başlıca yaraqlanmışdı, üzünün parlaq rəngi özünə qayıtmışdı.

– Froylyanın paltosunu çıxarmağa niyə kömək etmirsiniz? – dedi. – Qadın sizdən nəyisə xahiş edirsə, bu, ədəbərkan deyilmi?

Qanmaz paltarının qolunu dartışdırmağa başladı. Buna ara vermədi, aktrisa Frölix də təngildəyib Qanmazın qolları arasına düşdü və burada qərar tutdu.

– Gərək belə edəsiniz, – gonbul qadın kişiyə irad tutdu. Əri kirmişcə onlara yaxınlaşdı, əynində mayka vardı, şişmiş əti ilan kimi qıvrılaraq ombalarını bir-birinə birləşdirirdi, buxağından bir ədəd qotaz sallanırdı. O, balaca bir qəzet səhifəsini Qanmazın gözləri önünə tutdu.

– Bunu gərək oxuyasınız, cənab professor, quldur dəstəsi barədədir.

Qanmazın o dəqiqə sifətinə bir anlaşıq ifadəsi qondu. Bu ifadə onu çap olunan hər şeyi oxumağa vadar edirdi. Sosial-demokratların yerli qəzetini tanıdı.

– Məgər biz görürükmü ki, – sözə başladı, – yenə, həmişə olduğu kimi, bu uğur necə sifariş verilib?!

– Məhz müəllimlərin maaşları, – artist dedi. – Əgər mən dünən bu barədə söhbət etmişəmsə...

– Sən nə deyirsən, – arvadı qətiyyətlə dillənib qəzeti Qanmazın əlindən aldı. – Maaşı kifayət qədərdir, ona lazım olan başqa şeydir. Sənlik deyil, çıx çölə, sevimli heyvanlarının yanına, tamaşaçıları deyirəm.

Royalın gurultusu içində zal gah donquldanır, gah nərildəyir, gah da fit çalırdı. Kipert içərini dinşədi. Öz-özündən qürurlanan bir görkəm aldı. Bu görkəm dünən Qanmazı dəhşətə gətirmişdi, indi o, astanadan zala daxil oldu, səs-küylü zal onu uddu.

– Onu uddular, – gonbul qadın dedi, – onlar kişini həzmdən keçirənə qədər biz də Rozaya geyinməyə kömək edərik, cənab professor.

– Ona Icazə verəkmi? – aktrisa Frölix soruşdu.

– Qadının necə soyunub-geyinməyini bilməlidir axı. Kim bilir, bundan sonra həyatda buna ehtiyacı olacaqmı?

– Əgər etirazınız yoxdursa ... – aktrisa Frölix donuna üstdən-aşağı sığal çəkdi. Korsajı açıq idi və Qanmaz dəhşət içində gördü ki, paltarların altından qadın qaralıb işıldayır.

Ən qəribəsi də o idi ki, əynində alt tumanı yox idi, şalax qara dizşalvar geyinmişdi. Amma deyəsən, bu heç vecinə də deyildi, üz-gözündən mərhəmət yağırdı. Amma Qanmaza elə gəldi ki, kimsə onun qulağına şəbehlərin ilk vəhyini pıçıldayır, üst qatın, polisin gözləri önündə küçədə nümayiş etdirilən burjua qatının altında hər cür zərbələri bu qulağa döyəcləyir. Qorxunu dəf etdiyindən qürur duydu. Zalda Kipert böyük uğur qazanmışdı və yeni bir nömrə başlamışdı.

– Üzünü çöndərsə yaxşıdır, – aktrisa Frölix dilləndi. – İndicə əynimdə heç nə qalmayacaq.

– Ay Allah! A bala, o, abırlı, ağıllı bir kişidir, ona heç nə təsir etməzl

Ancaq Qanmaz tələsik yana çevrildi. Qulağını şəkləyib xışıltını dinlədi. Gonbul qadın tələsə-tələsə ona nəsə verdi.
– Alın, itirməyəsiniz hal

Qanmaz bunun nə olduğunu bilmədən qadının verdiyini götürdü. Qara bir şey idi, sıxılanda bir ovucun içinə yerləşirdi və qəribə istiliyi vardı, heyvan istiliyi idi. Birdən o, əlindən sürüşüb düşdü, çünki kişi baxdı görsün niyə belə istidir: əlindəki qara dizlik idi! Qanmaz onu yerdən qaldırdı, özünü tam sakit apardı. Quste ilə aktrisa Frölix işləyə-işləyə tələsik bir-iki kəlmə kəsdilər. Kipert çıxışını bitirmişdi.

– İndi mənim növbəmdir, – Kipertin arvadı dilləndi, – kömək edin geyinsin. – Qanmaz yerindən tərpənmədiyinə görə atmacaladı. – Qulağınıza pambıq tıxanıb?

Qanmaz arxaya çevrildi; "yatmışdı", dərs həddən artıq cansıxıcı keçəndə yatan şagirdəri kimi. Hövsələ ilə korset

bağlarını əlinə yığdı. Aktrisa Frölix çiyni üstündən ona gülümsədi.

– Niyə bu qədər vaxtı arxanızı mənə çevirdiniz? Çoxdandır təzədən abırlı geyinmişəm. – İndi əynində portağal rəngli ətəklik vardı. – Ümumiyyətlə, – sözünə davam etdi, – arxaya çevrilməyi mən Qusteyə görə demişdim. Mənə qalsa, bilmək istərdim ki, bədən quruluşumu necə qiymətləndirirsiniz.

Qanmaz heç nə demədi, Frölix darıxıb başını ondan çevirdi.

– Bərk çəkin!.. Allahım, mən nə deyirəm! Verin görüm, gərək hələ çox şeyi öyrənəsiniz. – İplərini özü dartdı. Qanmaz boşda qalan əllərini hələ də ümidsiz-ümidsiz qabağa uzatdığından sözünə davam etdi: – Mənə qarşı nəzakətli olmaq istəmirsiniz?

– Niyə ki, – Qanmaz şaşqınlıqla kəkələdi. Xeyli tıncıxandan sonra dedi ki, onu qara, hə, hə, qara paltarda daha gözəl görür.

– Ay körpə donuz balası, – aktrisa Frölix dedi.

Korset yaxşı oturmuşdu... Qustenin Kipertlə çıxışı uğurlu alınmışdı.

– İndi növbə mənimdir, – aktrisa Frölix təzədən dilləndi. – Sadəcə, üzümə bir balaca sığal verim.

Güzgünün qabağına əyləşdi. Pudra qabları, ətriyyat şüşələri, rəngli çubuqlarla əlləşdi. Qanmaz onun incə qollarını havada yellətməsindən başqa heç nə görmədi və onun şaşqın gözləri önündə çəhrayı-solğun sarı xətlər oynaşdı, həmin xətlər yaranır, dəyişir və hər biri tam itməzdən öncə yenisi ilə əvəzlənirdi. Qanmaz tanımadığı əşyaları masadan götürüb ona gətirirdi. Kişi yanlış şeyi götürəndə Frölix həyəcanlı işinin tən ortasında ayaqlarını yerə döyməyə, lazım olana əl atanda isə onu gözləri ilə oxşamağa macal tapırdı. Aşkarca görünürdü ki, gözləri ilə onu oxşaması hər dəfə həddini aşır. Nəhayət, Qanmazda heç bir şübhə qalmadı ki, Frölixə verdiyi karandaşlarla o, gözünün altını və üstünü, qırmızı nöqtələrlə gözlərinin ucunu, qırmızı xətlərlə qaşlarını, qara yağlı boya ilə kirpiklərini bəzəyir.

– Bir az da ağzımı kiçildim, – Frölix bildirdi. Qanmaz birdən-birə Frölixin dünənki sifətini gördü, al-əlvan. İndi onun qarşısında oturan əsl Frölix idi. O, həmin Frölixin yaranışını görmüşdü. Bunu yalnız indi hiss edirdi. Gözəlliyin, şəhvə-

tin, ruhun hazırlandığı mətbəxə ötəri bir nəzər salmaq ona müyəssər oldu. O həm məyuslaşdı, həm də bunun sirrinə baş vurdu. Eyni zamanda durmadan düşündü: “Elə bu?” Sonra da: “Gözəl imiş ki!” Ürəyi uçundu, bu arada aktrisa Frölix kişinin ürəyini uçunduran rəngli boyanı əsgi ilə əlindən sildi.

Bundan sonra dünənki diademanı saçına taxdı... Zal qaynayırdı. Frölix çiyni ilə o tərəfə işarə edib qaşlarını düyünlədi və soruşdu:

– Yəqin, xoşunuza gəlib, hə?

Qanmaz heç nə eşitmədi.

– İndi görərlər analar necə övladlar doğub. Bu gün ciddi bir romans oxuyacağam, ona görə də gərək uzun paltar geyəm... O yaşıl paltarı bəri verin.

Qanmaz paltar qalağının üstündən əvvəlcə sağa, sonra da sola keçdi və bu zaman pencəyinin ətəkləri yelləndi. Yaşıl paltarı, axır ki, tapdı, elə həmin an Frölix onun qarşısında dayandı, əndamına çatmayan nağılvari çil-çil paltarda, paltar ətəkdən və əndamdan qızılgül hörüyü ilə büzülmüşdü... Frölix ona baxdı, o da heç nə demədi; lakin kişinin sifəti qadının ürəyinə yatdı. O, əzəmətlə qapıya doğru yeridi. Qapıya çatmamış arxayınlıqla geri döndü, çünki kürəyindəki iri yağ ləkəsi yadına düşdü, Qanmaz gözünü bu ləkədən çəkmirdi.

– Onu mən bu meymunlara göstərmək niyyətində deyiləm, elə deyilmi? – hüdudsuz bir nifrətlə bildirdi. Sonra gülər üzünü geniş açılmış qapıda göstərdi. Qanmaz arxaya sıçradı, çünki onu görə bilərdilər.

Qapı yarıaçıq qaldı. Bayırdan səslər eşidildi.

– Lənət şeytana! – Bir başqası: – Gəl bəri, yaşıl ipək paltarlı! – Daha sonra: – Nəyi var çöldədir!

Gülüşdülər də.

Royal fəğan qopardı. Diskant hıçqırıqdan gözlər nəmləndi. Bas, sanki, zökəm tutdu. Aktrisa Frölix oxumağa başladı:

“Ay artıq bədirlənib, kəhkəşanlar sayrışır,
Bir qulaq ver, gümüşü göl yanında
Dayanmışdır sevgilin, göz yaşları axıdır...”

Səslər müğənninin hüznlü qəlbindən qopub gəlirdi, bulanıq suların gətirdiyi mirvarilər kimi.

Qanmaz fikirləşdi: "Hər halda, yenə də..." Süstlük və kədər onu çulğadı. Qapıya sürünüb cəftələrin arasından aktrisa Frölixin yaşıl paltarının qırışlanmasını və həmin qırışların açılmasını gördü... Aktrisa başını arxaya əydi; qızartdaq saçına taxılmış diadema və çatma qara qaşların altındakı bəzənmiş sifət Qanmazın gözündən yayınmadı. Ön cərgədəki masaların birinin arxasından həyəcanlı bir səs, göy yun pencək geymiş enlikürək bir kəndçinin səsi eşidildi.

– Yox, gözəlliyinə gözəldir! Evə dönəndə arvadıma heç gözümün ucu ilə də baxa bilməyəcəyəm.

Qanmaz ikrahlı bir məmnunluqla kişiyə baxdı, fikirləşdi: "Hə, əslində elədir, kişi".

Bu kişi aktrisa Frölixin ərsəyə gəlməsində iştirakçı olmamışdı! Gözəlliyin nə olduğunu bilmirdi. Bu haqda hökm çıxarmağa da layiq deyildi, ona təklif olunanı qəbul etmək məcburiyyətində qalmışdı və bu, arvadına olan meyli alt-üst edirdisə, gərək sevinəydi.

Mahnı gileylə bitdi:

*"Qəlbinin taktından təknəm yaman gəlişir,*
*Könül fəğan eyləyir, kəhkəşanlar gülüşür".*

Dinləyicilər arasında da kimsə güldü, finxırtı ilə. Xəyaldan qopanlan Qanmaz əbəs yerə başların arasından həmin başı axtarmağa çalışdı. Aktrisa Frölix ikinci kupleti də "*ay artıq bədirlənib*"lə başladı... "*ulduzlar da gülüşür...*" nəqəratında bu dəfə altı-yeddi adam güldü. Ortadakılardan biri zənci kimi qaqqıldadı. Qanmaz onu tapdı: zənci idi! Bu rəngli insan ətrafa sirayət etmişdi, Qanmaz digər sifətlərin də şux qırışlanmasını gördü. Həmin adamların əzələlərini sakitləşdirməyə onda bir tələbat baş qaldırdı. Ayağını bir-birinin üstünə aşıra-aşıra içindən, bir növ, iztirab axıb keçdi...

Aktrisa Frölix üçüncü dəfə dilləndi:

– *Ay artıq bədirlənib.*

– Bunu bildik, – kimsə qətiyyətlə dedi. Xoşməramlı insanlardan bir neçəsi artan narahatlığa etirazlarını bildirdi. Lakin zəncinin şaqqanağı ətrafını sarmışdı. Qanmaz sıraların bir çoxunda sarı köpək dişləri, ya da aypara düzümlü ağ dişləri olan, əklilə bənzər balıqçı saqqalına, yaxud eşmə bığlara malik, qaranlıq kahaya bənzər geniş açılmış ağızların bir qulaqdan digərinə əyildiyini gördü. Hazırda tacir şəyirdi işlə-

yən, dünən dar küçədə onun üstünə fınxıran, aktrisa Frölixin heyranı kimi indi də bacardığı qədər ağzını açmış keçmiş şagirdini tanıdı. Hirsin, qorxunun qabağına qatıb qovduğu zülmkar acığının başına vurduğunu hiss etdi. Aktrisa Frölixə toxunan hər şey onun özünə toxunurdu! Qadını bəyənmişdi, pərdə arxasından uğurlarını izləyirdi, ona bağlanmışdı, müəyyən mənada ona böyüklük edirdi. Frölixi dəyərləndirmək istəməyənlər onun özünü təhqir edirdilər! Qapının yanovundan yapışıb-qaldı, belə etməsəydi, gərək özünü zala ataydı, keçmiş şagirdlərinin bu quduz dəstəsini hədələrlə, şillə-şapalaqla, cəza ilə itaətə məcbur edəydi.

Tədricən onlardan beş-altısını tanıdı. Zal ötən illərin narazı gimnazistləri ilə dolu idi. Gonbul Kipertlə şişman Quste ortada gəzişir, qonaqların qədəhlərindən içir, xalqa qaynayıb-qanşırdılar. Qanmazın onlardan zəhləsi getdi, onlar qara camaata qoşulmuşdular. Yaşıl ipək paltar geymiş, saçına qövsvari diadema taxmış aktrisa Frölix əlçatmaz yüksəklikdə dayanmışdı; amma onu istəmirdilər, qışqırırdılar:

– Doymuşuq ondan, canımızı boğazımıza yığıb!

Qanmaz heç nə edə bilmədi! Dəhşət idi! Şagirdləri o, ağzıbirə ata, ağlagəlməz mövzular barədə inşa yazdıra, hərəkətlərini öz xeyrinə yönəldə, fikir və düşüncələrinə təcavüz edə, kimsə düşünməyə cəsarət edəndə də ona əmr verə bilərdi: "Düşünə bilməzsiniz!" Lakin onları məcbur edə bilməzdi ki, ona gözəl görünən şeyə onlar da gözəl desinlər. Bura, bəlkə də, onların tərsliklərinin son istinadgahı idi. Qanmazın despotizmi burada insani itaətin son həddi ilə üzləşirdi... Buna o, güclə duruş gətirdi. Nəfəsi təngidi, yanyörəsinə boylandı, gücsüzlüyündən çıxış yolu aradı, kəllələrdən birini partlatmağın, sonra da əyri barmaqları ilə gözəllik anlayışını həmin kəlləyə yerləşdirməyin həsrəti ilə alışıbyandı.

Aktrisa Frölixin belə inamla, coşqu ilə dayanmasına, üstəlik də, bu qışqırıqçılara, fitçilərə əl öpüşləri göndərməsinə necə baxasan! Öz məğlubiyyətində o necə də əzəmətli idi!.. İndi də üzünü tamaşaçılardan çevirib aşağı əyildi və royalçıya nəsə dedi. Onun şən, gülər üzü kinematoqrafda olduğu kimi yüngülcə səyriməklə indi birdən-birə acı, acıqlı bir ifadə aldı. Qanmaza elə gəldi ki, royalçı ilə söhbətini o imkanca uzadır və getdikcə tamaşaçılardan üz döndərir. Üz döndərir, amma çox yox; yoxsa kürəyindəki yağlı ləkəni

görərdilər... Qəfildən şuxluqla başını dala atdı, yaşıl ipək paltarını əlinə yığdı, narıncı tumanını ayaqlarının üstündən yuxarı çəkib ürəkdən oxudu:

*"Körpə və suçsuz olduğum üçün"*

Cəsarəti dəyərləndirildi, əl çaldılar, mahnını başdan oxumağı tələb etdilər. Frölix qapını çırpıb qarderoba qayıdanda tövşüyə-tövşüyə soruşdu:

– Hə, nə deyirsiniz? Yaxşı çıxdım aradan, hə?

Yanlışlıq düzəlmişdi, hamı razı qalmışdı; yalnız Loman zalın arxa hissəsində çıxışın yanındakı divara söykənmişdi, sifəti solğunlaşmışdı və baxışlarını çarpazlanmış qollarına tuşlamışdı, fikirləşirdi ki, şeirləri, əclafların gülüşləri ilə qaranlıq küçələrə uçub gedən şeirləri gecənin hava dalğalarında titrəyə-titrəyə yataq otağının pəncərəsinə yol alıb və tam astadan həmin pəncərəni döyəcək, lakin heç kim onları eşitməyəcək...

Gonbul Quste Kipertlə bərabər qarderoba gəldi. Aktrisa Frölix başını arxaya atıb pərt-pərt dedi:

– Mənə deməyin ki, bu gicbəsər gədənin mahnısını oxuyum.

Qanmaz deyiləni eşitdi, amma söhbətin nədən getdiyini bilmədi.

– Qızım, – qadın məsələyə aydınlıq gətirdi, – camaata etibar yoxdur, bunu hamı bilir. Zənci adamların arasında olmasaydı, hamı gülmək əvəzinə ağlayardı.

– Qoy cəhənnəmə olsun hamısı, – aktrisa Frölix cavab verdi. – Təki professor içməyə bir şey versin. Görəsən, nə verəcək?

Bunu deyib dünənki kimi iki barmağını yüngülcə onun çənəsinin altına qoydu.

– Şərab? – Qanmaz maraqlandı.

– Olsun! – Frölix ehtiramla dilləndi. Ancaq necə şərab?

Şərabdan Qanmazın o qədər də başı çıxmırdı. O donubqalmış şagird kimi gözləri ilə kömək axtardı.

Kipertlə arvadı maraqla ona baxdılar.

– *Ş* ilə başlayır, – aktrisa Frölix onu ruhlandırdı.

– Şato, – Qanmaz cavab verdi, yazığı tər basmışdı. O, təzə filoloqlardan deyildi və meyxana islahlarının necə hərfləndiyini bilməyə ehtiyac da duymurdu. Ona görə də təkrarladı: – Şato.

– Yox bir, salto, – Frölix qafiyələndirdi ... – *Ş*-dan sonra *a* gəlir.

Qanmaz axırını tapa bilmədi.

– Sonra da m... Yoox, sizdən bir şey çıxan deyil. Gün kimi aydındır ki, ondan heç nə çıxan deyil.

Qanmazın üz-gözündən birdən-birə sadəlövh bir xoşbəxtlik yağdı. Tapmışdı:

– Şampan!

– Hə, şükür Allaha! – aktrisa Frölix dilləndi. Quste ilə Kipert də cavabı düzgün saydılar. Artist çölə çıxıb sifariş verdi. O, zaldan keçib geri qayıdanda meyxana sahibi ondan qabaqda öz əli ilə böyük bir çanaq gətirirdi, buradan da bir cüt boğaz baş qaldırırdı. Triko geymiş Kipert ovurdlarını dombaltmışdı, bu arada isə dörd tərəfdən "Aaah" və "Ho-ho-ho" sədaları eşidildi.

Artistlər otağında səs-küy çoxalmışdı. Qanmaz hər süzülən badədə düşünürdü: bu onun şərabıdır. Buna daha Lomanın sözü də ola bilməz. Birdən aktrisa Frölix də dilləndi:

– Sizin gicbəsər gədələriniz heç vaxt şampan barədə düşünməyiblər. – Gözləri bərk-bərk çıppıldadı. – Mən özüm də buna getməzdim.

Qanmazın dedikləri xətərsiz olduğundan Frölix nəfəsini boşaltdı. Kipert badəsini qaldırdı.

– Cənab professor! Sevdiklərimizin sağlığına! – İrişərək üzünü Qanmazdan aktrisa Frölixə çevirdi. Frölix mızıldandı:

– Boş şeydir! Ondan bir şey çıxan deyil.

Gonbul qadın növbəti çıxışı üçün paltarını dəyişməli oldu, çünki mahnıdan sonra yenə gimnastika gəlirdi. Qadın dilləndi:

– Trikoya necə girdiyimi göstərib cənab professoru sevindirə bilmərəm, dostluğun da həddi var.

Üç stulu bir-birinin üstünə qoydu, əyin paltarlarını söykənəcəyə asdı və stulların arxasına keçdi. Yaratdığı "divanın" hündürlüyü bəs edirdi, ancaq Qustenin gövdəsi onun enindən çölə çıxırdı. Başqaları onun "divanı" aşan bədənindən bir parçanı hər an görüb qışqırıq qoparırdı. Aktrisa Frölix ağzı üstə masaya sərilib ürəkdən güldü və bu gülüşü ilə Qanmazı haldan elə çıxardı ki, bir neçə dəfə o, boğazını uzadıb Quste tərəfə boylandı. Quste onu "Huh!", "Kiş!" kəlmələri ilə küşkürtdü. Qanmaz diksinib geri çəkildi, sonra ürkək zarafatını təzədən başladı. Aktrisa Frölix isə qamətini zorla düzəltdi. Nəfəsini saxladı ki, sözünü desin:

– And içirəm ki, mənimlə bunu etməzdi.

Sonra əməllicə kişnədi.

Zal artistlərin çalıb-oxumalarını istəyirdi, royalçı tamaşaçılan uzun müddət ram etməyi bacarmadı. Gonbullar səhnəyə atıldılar.

Qanmazla tək qalanda aktrisa Frölix özünü yığışdırdı. Kişi özünü əməlli-başlı itirmişdi. Bir müddət aralarına sakitlik çökdü, o üzdə kimsə oxuyurdu. Sükutu Frölix pozdu:

– Yenə o gicgici matros mahnısı. Mən sizin kefinizə soğan doğrayım, siz də baxın!.. Siz isə, burada nələrin dəyişdiyinə siz heç gözünüzün ucu ilə də baxmamısınız.

– Burada, ağzıb?.. Burada? – Qanmaz kəkələdi.

– Buraxın getsin, necə baxaydınız?... Yoxsa bu, dünənki güzgü ilə bağlı deyil? Biri sağında, digəri də solunda?

– Hə, hə... əlbəttə elədir... İki buket?

– Sizin xatirinizə onu sobaya atdığımı siz qədirbilməz də görmürsünüz.

Bunu deyib dodaqlarını salladı. Qanmaz sobaya baxıb məmnunluqdan qızardı, çünki aktrisa Frölix Lomanın güllərini yandırmışdı. Qəfildən güclü bir narahatlıq keçirdi; başından Lomanın güllərini özünün Frölixə gətirdiyi buketlərlə əvəz etmək kimi bir fikir keçdi... Gördü ki, qırmızı pərdənin arxasında sifət yoxdur. Gücünü Lomanla sınamaq marağından həyəcanlanaraq sözə başladı:

– Əzizim froylayn, fikrimi bir yerə toplayıb deyim ki, siz dünən axşam o cavanlarla gəzib-dolaşmısınız, hə?

– Niyə elə tez getdiniz axı? Əgər kimsə otağıma soxulursa, neyləyə bilərəm? Amma mən onlara həqiqəti söylədim, xüsusilə də birinə...

– Hə, heç də pis deyil... və bu gün axşam mehmanxanaya gələndə, yəqin ki, bayırda, necə deyərlər, şagirdlərin üçünə də rast gəlmisiniz, eləmi?

– Az qala, sevincimdən də partlamışam!

– Əziz froylayn, gül-çiçəyə, şampana “yox” deyə bilməsəniz, onları məndən istəyin. Bu cür şeyləri şagirdlərdən almaq yolverilməzdir.

Bulud kimi qızararaq, canında canlanma hiss edərək, bütün zəkasını müəmmalı şəkildə itiləyərək Qanmaz heç kimin köməyi olmadan dərk etdi ki, aktrisa Frölixin bir daha oxumaq istəmədiyi “Gic oğlanın nəğməsi” altında o, bədirlənmiş ay barədə mahnını nəzərdə tutur, çünki onu Loman qoşmuşdu. Odur ki fikrini bildirdi:

– Siz təkcə bədirlənmiş ay mahnısını yox, həm də bundan sonra şagird Lomanın mahnılarını oxumamalısınız!

– Belə şeylərə "yox" deyə bilməsəm, onları sizmi təmin edəcəksiniz? – Frölix hələ də gülümsəyə-gülümsəyə altdan-yuxarı soruşdu.

Qanmaz bu suala hazır deyildi. Bununla belə, dilləndi:

– Baxım görüm, nə alınır.

– Hə, baxın görün. Bir də ki, ümumiyyətlə... hər halda, nəsə alınar. – Dodağını büzmələyib üzünü ona uzatdı.

Amma Qanmaz özünü o yerə qoymadı. Özündə çarəsizlik hiss edib naməlum bir inamsızlıqla Frölixə baxdı. Frölix də məlumatlanmaq istədi:

– Siz buraya nəyə gəlmisiniz axı?

– Şagirdlər bacaran deyil... – Qanmaz başladı.

– Yaxşı görək... – deyib qadın belinin iplərini açdı. – Qısa paltar geysəm, yaxşıdır. Siz də nəyəsə yaraya bilərsiniz.

Qanmaz boyun qaçırmadı. Gonbullar yanğı içində öz qələbələrindən geri döndülər. Şampan şüşələrinin yalnız birində yarım fujer içki qalmışdı. Kipert təzəsini gətirməyə hazır olduğunu bildirdi. Qanmaz təklifi qəbul etdi. Şərabın qalığını tələsik aktrisa Frölixə süzdülər, o, yenidən səhnəyə çıxmalı idi. O, şöhrət libasına büründü. Şampan şirinləşirdi, Qanmaz da özünü xoşbəxt sayırdı. Artist Kipert növbəti nömrəsinə əllər üstə çıxdı və hüdudsuz bir alqış qazandı. Bundan sonra o hər dəfə səhnəyə bu yolla çıxmağı kəsdirdi. Hər yeni çıxışda aktrisa Frölixin coşqusu artırdı və o həmişə sürəkli alqışlarla qarşılanırdı. Qanmaz daha ağlına da gətirmirdi ki, haçansa kətildən qalxmalı olacaq.

Artıq son müştərilər də getdi. Aktrisa Frölix həyat coşqusundan alışıb-yanaraq dilləndi:

– Günümüz beləcə keçir, professor qırığı. Bazar günləri isə bundan da betər.

Bundan dərhal sonra onu hıçqırtı tutdu. Qanmaz heyrət içində üz duvağından gördü ki, Frölix burnunu ağzı üstə masanın üstünə qoyduğu əllərinin arasına sıxıb və qatlaqlı diademası aşağı-yuxarı yırğalanır.

– Bəzək-düzəyi yalnız üzündədir, – Frölix hönkürdü. – Dərdi-bəlası içindədir...

Qadının fəryadı kəsmədi. Qanmaz ona deməyə nəsə axtardı. Bu arada Kipert içəri girdi, Qanmazı kətildən qaldırdı və dedi ki, onu bayıra çıxarmaq istəyir. Qapının arasında

Qanmazın yadına nəsə düşdü. O geriyə döndü və əlləri ilə havanı yara-yara həyəcan içində geri – aktrisa Frölixin yanına qayıtdı. Aktrisa yatırdı və Qanmaz ona söz verdi:

– Səni bu dardan qurtarmağa çalışacağam.

Bunu şagirdinin yaxşılığını istəyən bir müəllim ona məktəbi bitirməzdən öncə deyə, yaxud onun haqqında bu cür düşünə bilərdi. Amma Qanmaz bunu hələ heç kimə deməmişdi və heç kim haqqında da bu cür düşünməmişdi.

## YEDDİNCİ FƏSİL

Doqquza on beş dəqiqə işləmişdi, ancaq Qanmaz hələ də yox idi. Azadlıqdan yanmaq hərisliyi ilə sinif keyikənə, gicləşənə qədər səs saldı. Hamı özləri də bilmədən qışqırırdı: "Qanmaz! Qanmaz!" Bəzilərinə xəbər çatmışdı ki, Qanmaz ölüb. Başqaları and içirdi ki, evində təsərrüfata baxan qadını ağzıbirə salaraq onu ac saxlayıb və hazırda dustaqxanadadır. Loman, Ersum və Kizelak isə susurdular.

Qanmaz qəflətən iri addımlarla kürsüyə yeridi və bütün sümükləri ağrıyırmış kimi ehtiyatla kresloya çökdü. Çoxları onun gəlişini hiss etməmişdi və bağırmaqlarına davam edirdilər: "Qanmaz!" Lakin Qanmaz onlara nəyi isə "sübut etmək" halında deyildi. Sifətinin qanı qaçmışdı, şagirdlər ona danışmağa imkan verənə qədər səbirlə gözlədi və uşaqların cavabını qiymətləndirərkən özünü büsbütün əcaib apardı. Başqa vaxtlar durmadan canlarını boğazlarına yığdığı oğlanlardan biri yanlış tərcümə edərkən on dəqiqə onun sözünü kəsmədi. Bir başqasının ilk sözünü zəhər püskürərək kəsdi. Ersum, Kizelak və Lomanı yenə vecinə almadı, amma yalnız onlar barəsində düşünürdü. Öz-özündən soruşdu ki, bunlar dünən gecə onun evə əzablı dönüşü zamanı özünü pis hiss edərək hər iki əli ilə dəvdəndiyi evlərin birinin tinində dayanmamışdılarmı. Deyəsən, onlara toxunmuş və "Pardon" da demişdi... Axı beyni o vaxt da möhkəm və aydın işləyirdi; o, bircə an da nəzərdən qaçırmamışdı ki, həmin məqamda gördüklərinin və hiss etdiklərinin hamısı aşkarlığa qovuşmalıdır.

Bərk qorxu keçirirdi, çünki bu məsələdə aydınlıq hasil etməmişdi. Bu üç tör-töküntü nələri bilirdi?.. Dünən Qanmaz hadisələrdən baş tapmayanda daha nələr olmuşdu?

Uşaqlar "Mavi mələk"ə gerimi qayıtmışdılar? Loman ağzıbirəmi dönmüşdü?.. Aktrisa Frölix ağlayırdı; mümkün idi ki, o hətta yatmış olsun. Amma bəlkə, Loman onu oyatmışdı?.. Qanmaz Lomana mətnin ən çətin yerini şərh etmək tapşırığını verməkdən ötrü alışıb-yandı. Ancaq buna cürət etmədi!

Loman, qraf Ersum və Kizelak onu bir an da gözdən qoymurdular. Bu zaman Kizelak hər şeydə gülməli, Ersum alçaldıcı bir şey, Loman isə fəqirlik axtarırdı; ancaq bundan asılı olmayaraq hər üçünü, bir növ, dəhşət, özlərinin qaranlıq razılaşmaları sayəsində zülmkarla eyni mərtəbədə durmaq qorxusu idarə edirdi.

Fasilə zamanı Loman məktəbin həyətində günəş düşən divara söykənmişdi, əllərini qoynuna qoymuşdu, dünən zalın hisli divarında sursuzluğunun şeirləri ilə çulğaşdığını dinləyirdi. Ersum, elə bil, təsadüfən onun yanına gəldi və boğuq səslə soruşdu:

– Masanın üstündə uzanıb yatırdı? Ola bilməz axı, Loman.

– Deyirəm ki, xoruldayırdı. İçirdib kefləndirmişdi qadını.

– Əclaf! Onu bircə dəfə də!..

Ersum lovğalığını tamamlamağa utandı. Məktəbin boyunduruğu altında dişlərini qıcırtdı. Qanmazdan çox onu ikrah haldan çıxartdı. O, Rozaya layiq olmadı!..

Kizelak şagirdlərin vurnuxmasında sivişib curlarına yaxınlaşdı, yana əydiyi ağzını əli ilə qapadı, tutduqları işdən həzz alaraq pıçıldadı:

– Mənə baxın, o uçacaq, özü də necə uçacaq, deyirəm sizə! – Onların yanından ötməmiş tələsik soruşdu: – Bir də oraya gedəcəksiniz?

Hər ikisi çiynini çəkdi. Özlüyündə aydın idi, soruşmağa ehtiyac qalmamışdı.

***

Yenidən bura gəlmək Qanmaz üçün borca çevrilmişdi və aktrisa Frölixə daha da yaxınlaşdıqca həmin borc günügündən daha fərəhli olurdu. Loman onu qabaqlamasın deyə Qanmaz "Mavi mələk"də həmişə birinci olardı. Bu vaxt o, əl-üz dəfə-darağını sahmana salar, ən təmiz donları və şalvarları tapıb üzə çıxarardı, gözənməli şeyləri qıraqdakı kətillərdən birinin üstünə yığardı. Aktrisa Frölix gec gələrdi, çünki Qanmaza ümid olmağa başlamışdı. Frölixin düymə-

lərini açmaq, bağlarını dartıb düzəltmək, əynindəki paltarların qatlanacaqlarından iynələri götürmək üçün Qanmaz çirkli barmaqlarının ucunu sivriləməyi tezliklə dərk etdi. Aktrisa özünə bəzək verəndə tələsən əllərinin çəhrayı-sarımtıl tərpənişi getdikcə məzmun kəsb edirdi. Qanmaz artıq onun sifətinin palitrasından baş çıxarırdı, rəngli çubuqların və şüşəciklərin, koppuş torbacıqların və qutuların, yağlı banka və qazançaların adlarını və xeyrini öyrənirdi, kirmişcə və səylə onların tətbiqini məşq edirdi. Onun uğurları aktrisa Frölixin gözündən yayınmadı. Bir axşam o, güzgünün önündə kətilinə söykənib dedi:

– Hə, tərpən!

Qanmaz qadını elə qrimlədi ki, Frölix barmağını hansısa qaba salmağa heç ehtiyac da duymadı. Qanmazın bacarığına heyrətləndi və bunu belə tezliklə necə öyrəndiyini bilmək istədi. Qanmaz qürub buludu kimi qızardı və nəsə mızıldadı; lakin Frölixin marağı səngimədi.

Qanmaz Frölixin soyunub-geyinmə otağında qazandığı önəmə sevinirdi. Loman onu əvəz etməyə daha ümid bəsləyə bilməzdi. Loman yadında saxlaya bilərdimi ki, çəhrayı boleronu[1] boyaqçıya aparmaq lazımdır? Hə, əgər verilmiş Homer şeirlərini cidd-cəhdlə əzbərləyib yaddaşını itiləmiş olsaydı, bəlkə də! İndi veyilliyin nəticələri üzə çıxırdı!.. Qanmaz yerə və kətillərin üstünə atılmış ağ alt paltarlarının arasında iri qara hörümçəktək arıq, əyri barmaqları ilə onlardan yapışaraq vurnuxurdu. Sümükləri çıxmış, bozarmış əlləri yumşaq parçalara xışıltı ilə sığal çəkirdi. Digərləri gizlində qorunub saxlanan formalar kəsb etdi – qol forması, qıç forması ki, bunlara da Qanmaz çəpəki nəzər salıb mızıldandı:

– Əlbəttə, hərçənd ki yenə də.

Sonra o, qulağını qapının yarığına söykədi, royalın gurultusu altında səsi titrəyib qışqıran aktrisanı gözdən qoymadı; qadının əzaları tüstü-duman içində və ləkdəki pağalaqlanmış zanbaqlara bənzəyən səfeh başların üstündə yellənirdi. Qanmaz Frölixlə fəxr edirdi, zal şapalaq çalanda ona hörməti artırdı, susanda nifrəti baş qaldırırdı; və aktrisa Frölix onun qarşısında dərindən təzim edib korsajının yarığını ona çevirdiyinə görə məmnunluqdan qaqqıldayanda ona özünəxas

---

[1] *Bolero* – ispan rəqsi və həmin rəqsi oynayan rəqqasın paltarı

bir duyğu bəsləyərdi. Sonra Qanmazın əti biz-biz oldu... Frölix şapalaq yağışı altında özünü qapıdan içəri saldı, Qanmaz da onu xeyir-şər paltosuna büküb boynuna azca pudra sürtdü.

Belə məqamda onun əhvali-ruhiyyəsini hiss edirdi. Qadın kürəyini mərhəmətlə ona tutmasından, yaxud Qanmaz heç nə görməsin deyə, pudra qabını onun üzünə çırpmasından asılı olaraq kişinin yaxşı və ya pis saatları başlayırdı. Qanmazın qadına yüngülvari baxışı paltarın örtmədiyi yerdən daha dərinə yol tapırdı. Kişi tezliklə anladı ki, parça və pudralarla yanaşı qadının qəlbini də duymaq olar, pudra və parçalar qəlblə müqayisədə o qədər də az önəm kəsb etmir...

Aktrisa Frölix özünü gah səbirsiz, gah da səmimi aparırdı. Əvvəlcədən nəzərdə tutulmayan manera ilə özünün səmimiliyini dilə gətirməsi onu cızığından çıxarırdı. Qadın onu söyüb-danlayanda Qanmaza xoş gələrdi... Amma Frölix Qanmazla rəftarda zaman-zaman tədbirlər fikirləşirdi ki, onların da həyata keçirilməsi qadını əməllicə darıxdırırdı; həmin tədbirlərə özünü aparmaq, ürəkdən olmasa da, qəlbindən keçənlərə əməl etmək daxil idi. Sonra o birdən-birə, qəfil bir təkanla duyğulandı, sifətinə elə bir ifadə verdi ki, elə bil, Qanmazın ayaqlarının ucunda oturur; elə bir üz ifadəsi ki, onu ciddi bir adamla nəsə etmək istəyəndə üzünə taxırsan...

Ancaq tezcə də – niyəsini özü də bilmədən bu, Qanmaza yüngüllük gətirdi – bir qalaq alt paltarı kimi dartıb onu masadan saldı.

Hətta bir dəfə ona yüngülcə bir şillə də vurdu. Sonra əlini tələsik geriyə çəkdi, onu diqqətlə gözdən keçirdi, sonra qoxulayıb sərtliklə dilləndi:

– Yağlısınız ki! – Qanmaz qızardı, məğmunlaşdı. Qadın şaqqanaq çəkdi: – Əməllicə bəzənib-düzənir ki! Adam partlayıb ölər ki! Məni də elə buna görə tez bəzədi. Gizlində öz üzərində öyrənirmiş! Nə deyim sizə... Qanmaz! – Qanmazın üz-gözü əyildi. – Elədir: Qanmaz! – Onun ətrafında atılıbdüşdü.

Qanmaz xoşbəxtlik içində gülümsədi... Adını da bilirmiş, Lomandan və digərlərindən öyrənmiş olmalıdır, güman ki, lap ilk tanışlıqdan; tamam sarsıldı, amma pislikdən yox, həvəs duyğusundan. Bu onda kiçicik bir şübhə, zəif bir həya oyatdı, necə xoşbəxt olar ki, aktrisa Frölix onun nalayiq adını tutur. Amma o yenə də xoşbəxt idi. Aktrisa onu heç fikirləşməyə də qoymadı, pivə dalınca göndərdi.

Qanmaz pivəni təkcə sifariş vermədi; bakalları aparan meyxana sahibini özündən qabağa buraxıb içkinin aparılmasını arxadan bağladı ki, bununla da başqalannın onu yolda qamarlamasına mane oldu. “Mavi mələk”in sahibi bir dəfə Qanmaza təklif etdi ki, pivəni özü götürsün. Lakin Qanmazın özünəxas olmayan ləyaqətlə bu təklifi rədd etməsi kişiyə imkan vermədi səhvini bir də təkrarlasın.

Aktrisa Frölix içməmiş dedi:

– Prost, Qanmaz! – Sonra ara verərək: – Sizə Qanmaz deməyim gülməlidir, hə? Hə, əslində,gülməlidir. Axı aramızda heç nə olmayıb. Bir-birimizi haçandan tanıyırıq? Vərdiş nələrə qadir deyil... Amma yoox, szə nəsə demək istəyirəm: Kipertlə arvadı, qoy istədikləri vaxt yaxamdan açılsınlar, onlardan ötrü gözümdən bir damcı da yaş çıxmaz. Sizinləsə tamam başqa şeydir...

Gözləri get-getə düşüncələnib hərəkətsizləşdi. Fikirlərə qərq olaraq soruşdu:

– Amma nə olsun, nədir sizin istəyiniz?

## SƏKKİZİNCİ FƏSİL

Bu barədə Qanmaz özü heç vaxt düşünmürdü və gecə düşəndən sonra aktrisa Frölixin yanından ayrılanda onu bircə şey narahat edirdi: Kizelak, fon Ersum və Loman haqqında məlumatsızlıq. Onların gizlindəki əməllərindən qorxu onu qeyri-adiliyin mümkünlüyünə və insanlann davranışına qoyulmuş sərhədləri aşmağa təhrik edirdi. Bayırda “Mavi mələk”in qarşısındakı küçədə bir dəfə arxadan onların addım səslərini eşitdi. Addımlannı tam yüngül atdı ki, dayananda onların gözünə sataşmasın. Tində gözlədi və başını yana əyib qəflətən üstlərinə atıldı. Onlar geriyə sıçradılar; ancaq Qanmaz ürəklənib zəhərli baxışla dedi:

– Hər halda, yenə, necə deyərlər, həmişə olduğu kimi, yenə sənətdən zövq alırsınız. Əslində, elə düz də edirsiniz. Gəlin eşitdiyimizi bir də nəzərdən keçirək, belə olsa, imkan tapacağam öyrənim belə məsələlərdə nə qədər qabağa getmisiniz. – Hər üçü donub-qaldığına və zülmkarla bu cür qorxunc yaxınlığa aşkarca ürək qızdırmadıqlanna görə əlavə etdi: – Ümumi biliyinizin vəziyyəti barədə verəcəyim hökmün növbəti attestatınıza müəyyən təsiri ola bilər.

Bunu deyib Lomanı yanına aldı, o birilərini isə özündən qabağa buraxdı. Loman həddən artıq həvəssiz gedirdi; Qanmaz da çox uzatmadan şagirdinin bədirlənmiş ay barədəki mahnısını oxumağa başladı:

– *Dayanıbdır sevgin sənin, eşidirsən ağlamağın,* – şeiri əzbər dedi, sonra davam etdi. – Sevgi mücərrəd bir varlıq kimi ağlamaq istəməzdi. Siz isə qəlbinizin tələbi ilə "sevgini" canlı görmək istədiyinizə görə həmin poetik varlıq xəyalınızda yaratdığınız gölün sahilində ağlamaq üçün içinizdən bayıra atılır, yaxşı, qoy belə olsun. Müəlliminiz kimi onu da əlavə edim ki, qəlbinizin sözügedən durumu şagirdə, özü də sinfin məqsədlərinə çatmaqda gələcəyi ümid verməyən bir şagirdə, çox güman ki, heç cür yaraşmır.

Qəlbinin bir parçasını Qanmaz qurumuş barmaqlarının arasına alıb əzdiyinə görə Loman qorxu ilə, hirslə dilləndi:

– Bütün bunlar bədii azadlıqdır, cənab professor, başdan-ayağa. Büsbütün ağılsızlıqdır, zaylıqdır, ifadə sizə tanışdırsa, *l'art pour l'art*[1]. Qəlblə qəti əlaqəsi yoxdur.

– Qoy olsun, – Qanmaz cavab verdi. – Şerinizin tamaşaçılara təsiri, inanın mənə, şeiri əzbər deyən aktrisanın hünəridir, yalnız onun.

Aktrisa Frölixin adı çəkilən kimi içində bir qürur baş qaldırdı və bu qüruru geri qaytarmaq üçün o, nəfəsini durdurdu. Həmin an söhbəti başqa səmtə çevirdi. Romantik şeirə olan meylini Lomana irad tutdu və ondan Homeri səylə öyrənməyi tələb etdi. Loman bildirdi ki, Homerdə bəzl poetik məqamlar gerçəkdən də dövrünü çoxdan yaşayıb. Odissey döyüşdən qayıdanda can verən it, Zolanın "*La Joie de vivre*"[2] əsərindəki itlə müqayisədə heç nədir. Əgər həmin əsər barədə məlumatınız varsa, cənab professor.

Axırda söhbət Heyne heykəlinin üstünə gəldi və Qanmaz qisas həvəsi ilə gecənin qaranlığında Lomanın üstünə amiranə bağırdı:

– Heç vaxt! Heç zaman![3]

---

[1] Sənət sənət üçündür. (*fr.*)

[2] "Yaşamaq eşqi"

[3] Hamburq şəhərinin yunan adası Korfuda yerləşən Heyne heykəllərindən birini almaq niyyətinə alman irticaçıları XIX əsrin doxsanıncı illərində etiraz etmişdilər. Həmin irticaçılardan biri kimi Qanmaz, çox güman ki, heykəl barədə şagirdi ilə danışarkən mövqeyini bu cümlələrlə ifadə etmişdir.

Şəhər darvazasına çatdılar; Qanmaz buradan evə burulmalı idi. Amma qaranlıq çəmənlikdən Kizelakı yanına çağırdı.

– Dostunuz Ersumla gedin, – Lomana dedi. Həmin andan Kizelakın dərdinə qalmağa başladı. Bu şagirdin ailədəki durumu ona heç bir təminat vermirdi. Oğlanın atası gecə növbəsində işləyən liman məmuru idi. Kizelakın dediyinə görə, nənəsinin yanında qalırdı. Qanmaz fikirləşdi ki, Kizeiakın gecə gəzintiləri belə bir qarı iiə az məhdudlaşar. “Mavi mələk”in qapısı da uzun zaman açıq qaldı.

Qanmazın nədən başlayacağını Kizelak hiss etmişdi. Müəllimini inandırmağa çalışdı:

– Nənəm məni öldürəcək.

Bir az irəlidə gedərək fon Ersum Qanmazın ayıq baxışları altında düyünlənmiş yumruqlarını aşağı salıb boğuq səslə Lomana dedi:

– Gərək çox baş aparmasın, sadəcə, ona məsləhətim belədir. Hər şeyin bir sonu var.

– Görünür, hələ yox, – Loman cavab verdi. – Məsələyə mən həmişə şübhə ilə yanaşıram.

Ersum təzədən dilləndi:

– Sənə bir şey demək istəyirəm, Loman... Burada bizdən başqa heç kim yoxdur, növbəti fənərlə növbəti mühafizə polisi yalnız dul Blösün evinin yanında olacaq. Arxaya dönüb kişini yerə sərmək istəsəm, çox güman ki, məni tutub saxlamazsınız... Qadın, o cür qadın belə bir murdarın, belə bir qısaquyruğun çəngində?!. Hələ Frölixin paklığını demirəm!.. Göstərəcəyəm ona, oğlan!

Fon Ersumun sərtliyi artırdı, çünki heyrət oyatdığını özü də hiss edirdi. Amma bunun xeyri yox idi, o, hədələrindən daha utanmırdı, çünki bu gün onları gerçəkləşdirmək üçün özünü qadir sayırdı.

Loman cavabı gecikdirdi.

– Onu öldürsəydin, böyük hadisə olardı, buna heç şübhə də ola bilməz, – axır ki, yorğun səslə dilləndi. – Bizim kimi qapının içəridən açılıb gizləndiyi yerdə tapılmasından həmişə qorxmaq əvəzinə ilk addımı kimsə atmalıdır, ya yox?!

Loman susdu, həyəcan içində gözlədi ki, qarşısındakı onun üzünə vuracaq: “Sən Dora Bretpotu sevirsən”. Xəyalında bu cür hallar üçün hazır dayanan silahla oynadı... lakin etirafı heç bir maneəyə rast gəlmədən havada əriyib yoxa döndü.

– Hər halda, məsələnin canı ondadır ki, – Loman dodağını büzdü, – sən bunu edəcəksənmi... Axı sən də heç nə edən deyilsən.

Fon Ersum dəli kimi arxaya atıldı. Dul Blüsün fənəri daha uzaqda olmadığına görə Loman dostunun baxışında oynayan sərsəmliyi apaydın gördü. Onun qolundan yapışdı.

– Ağlını başına yığ, Ersum! – deyib qəribə bir vəziyyət aldı. – Belə şey olan deyil, buna ciddi baxmırlar axı. Zəhmət olmasa, kişiyə bir bax. Qətlə layiq adamdır? Beləsinə yalnız çiyin çəkmək olar. İş baş tutandan sonra qoca Qanmazla bərabər qəzetə çıxmağa həvəsin varmı? Nə böyük rüsvayçılıq!

Ersumun coşmuş qanı get-gedə yatdı. Lomanın ondan azca zəhləsi getdi, çünki o təzədən təhlükəsiz olmuşdu.

– Bir şey də var, – dedi, – sən hələ bundan da ağıllı bir iş görə bilərdin, amma görmürsən. Bretpotdan pul istəmisən?

– Y...yox.

– Görürsən?I Öz himayəçini qabaqlamaq, onu iztirablarından hali etmək, ondan əl çəkməmək qətiyyətini bildirmək istədin. Bildirmək istədin ki, kişisən, istəklinin o cür yaramaza qismət olmasını görməkdənsə, iki il orduda xidmətə üstünlük verirsən. Onun xatirinə özünü azad etmək istəyirdin. Sən bunu istəyirdin!

Ersum donquldandı:

– Əlimə nə keçəsi idi ki?!

– Necə yəni?

– Pul verəsi deyildi. Cilovumu daha da bərk çəkərdi. Rozanı bir daha görə bilməzdim.

Himayəçinin bu cür rəftarını Loman da təbii saydı.

– Sənə üç yüz mark verə bilərəm, – etinasızlıqla dedi. – Onunla birtəhər keçinə bilsən...

Ersum dişlərinin arasından dedi:

– Sağ ol.

– Yox? Yox, hə?! – Loman astadan və hirslə güldü. – Əslində, tam haqlısan. Kimi isə qrafinya etməkdən qabaq ağıllı-başlı fikirləşmək lazımdır. Yəqin, ayrı şərtə o da razı olmaz.

– Ayrı cür mən özüm də istəməzdim, – fon Ersum titrək səslə dilləndi. – Amma o istəmir... Eh, sənin heç nədən xəbərin yoxdur. Heç kim bilmir ki, bazar günündən bu yana halım özümdə deyil. Əslində, gülməlidir, siz mənimlə elə davranırsınız, elə bil, həmişəki adamam, mən də özümü elə aparıram.

Susdular. Loman tam narazı idi; pərtləşdiyini, Dora Bretpota olan duyğularına toxunulduğunu özü də hiss etdi, çünki Ersum da özünün gülünc şuxluğunda fəci bir hala düşmüşdü. Ersumla Frölix ondan əl götürmürdülər.

– Sonrası? – alnını düyünləyib soruşdu.

– Hə. Bazar günü, hunların toplu məzarlığına gedəndə, sən də oradaydın, Kizelak da, Roza da... Rozanı yanımda görmək, özü də büsbütün Qanmazsız: sevincim yerə-göyə sığmırdı. Uğur qazanacağıma tam arxayın idim!

– Elədir. əvvəlcə halın çox yüksək idi. Hətta gücün çatdığı yerdə hunların qəbrini uçurmağa girişdin.

– Haqlısan. Onu xatırlayanda... Hunlann qəbrini uçurmağım *xeyli qabaq* olub, onda mən tamam başqa adam idim... Səhər yeməyindən sonra meşədə ikicəciyimiz idik, Roza, bir də mən, necə də gözəl idi; çünki sən də, Kizelak da yatırdınız. Möhkəmcə ürəkləndim: son anda yenə qorxu məni bürüdü. Amma o, mənimlə həmişə yaxşı davranıb, səninlə davrandığından tamam fərqli... elə deyil?.. Sadəcə, oturub nə deyəcəyimi gözləyirdi. Olan-qalan pulumu gizlətmişdim və düşünürdüm ki, daha şəhərə qayıtmayacağıq, əksinə, meşə ilə stansiyaya gedəcəyik.

Susdu. Loman onu dirsəyi ilə itələdi.

– Səni istəmir, eləmi?

– Dedi ki, məni az tanıyır. Sən bunu yanlış bəhanə saymırsanmı?.. Hələ onu da dedi ki, ələ keçəcəyik: sonra da azyaşlı birisini yoldan çıxardığına görə zindana atıla bilər.

Loman içindəki gülüşü min bir əzabla boğa bildi.

– Əsl ağıl dəryası imiş, – özünü zorlayıb dedi, – heç gerçəyə oxşamır. Sevgisi, ən azı, səninkinin səviyyəsində deyil. Gərək sən də özlüyündə fikirləşəydin ki, ona xərclədiyin məhəbbətin bir hissəsini geri götürməyə dəyərmişmi... Hiss etməmisənmi ki, hun qəbrinin yanındakı söhbətinizdən sonra bütün gələcəyini ona fəda etməyə lüzum yoxdur?

– Yox, mənə elə gəlmir, – fon Ersum ciddi dilləndi.

– Onda heç nə eləmək olmaz, – Loman öz hökmünü verdi.

Keşiş Telanderin evinin yanına çatdılar. Ersum dirəklə öz balkonuna dırmaşdı. Qanmaz Kizelakla Lomanın arasında dayanıb onun arxasınca baxdı. Ersum öz pəncərəsinə qalxanda Qanmaz fikirli-fikirli getməyə üz qoydu. Öz-özünə dedi ki, fon Ersumun ağlına gəlsə, təzədən aşağı da enə

bilər... Amma fon Ersumdan o qədər də qorxmurdu; onun sadəliyinə nifrət edirdi.

Qanmaz digər şagirdlərin ikisini də şəhərə qaytardı və Kizelakı birbaşa nənəsinin əlinə tapşırdı.

Sonra Lomanla onun dədə-baba evinin qabağına qədər getdi, qapının bağlandığına qulaq verdi, yuxarıda işığın yandığını gördü, işıq sönənə qədər can çəkərək gözlədi və vaxtının xeyli hissəsini də beləcə keçirdi. Hər şey qaydasında idi.

Axır ki, Qanmaz özündə cəsarət tapıb evinə yatmağa getdi.

## DOQQUZUNCU FƏSİL

Artistlərin soyunub-geyinmə otağının qapısı ağzından Qanmaz xəbər acларının hamısını qovurdu. Əcnəbi matroslar düşünürdülər ki, o, artistləri kirayəyə götürüb "işə cəlb edən"dir. Onda musiqiçilərin rəhbərini görməyən kəslər onu aktrisa Frölixin atası hesab edirdilər. Hərdən də onu tanıyanlar olurdu, onlar da çəkinə-çəkinə irişirdilər.

İlk axşamları ucadan lağlanmışdılar. Qanmaz da halını pozmadan təkəbbürlə onları süzüb-keçmişdi. Burada çox şeydə onlardan seçilirdi. Tezliklə bunu onlar, ciblərindəki qəpik-quruşa burada oturub gözlərini döyən tanışlar da hiss etdilər və özləri özlərinə alçalmış göründülər... və Qanmaz razılıq əlaməti kimi aktrisa Frölixin, hamının sinov getdiyi Frölixin qapısını da açdı. Öz iradələrinin əksinə olaraq onlar Qanmaza ehtiram göstərmək məcburiyyətində qalırdılar və hər yetən gün onu nüfuzdan salmaq cəhdləri yeni-yeni pərtliklərə səbəb olurdu. Amma hər halda, heyiflərini iri idarənin arxa otaqlarındakı dedi-qodularla alırdılar. Qanmazın həyat tərzindəki dəyişikliklər barədə ilk şayiələr şəhərə buradan yol tapırdı. Şəhər onlara o saat inanmadı. Qoca Qanmazın şagirdləri bir gün deyirdilər ki, o, evin təsərrüfatçı qadınını ağzıbirə salıb, o biri gün isə ayrı şey danışırdılar. Belə dedi-qodular adi hal almışdı, şəhər də bunu təbəssümlə qarşılayırdı.

Cavan baş müəllimlərdən biri ən yaşlı professorun, karsalalaşmış qocanın himayəsi altında "Mavi mələk"ə gəlib həqiqəti öyrəndi. Ertəsi gün müəllimlər otağında karsala professor tərbiyəçi ləyaqəti barədə Qanmaza öyüd-nəsihət verdi. Cavan baş müəllim müəmmalı gülümsədi. O biriləri

üzlərini yana çevirdi; çoxusu çiynini çəkdi. Qanmaz qorxuya düşdü: özünün hökmranlıq səlahiyyətinə kobud şəkildə müdaxilə edildiyini gördü. Çənəsi şaqqıldadı; güclə kəkələdi:

– Bu, görün ki, bilin ki, sizin işiniz deyil.

Gedərkən bir daha geriyə döndü:

– Mənim ləyaqətim, yadınızdan çıxarmayın, yalnız mənim işimdir.

Bir neçə kərə tıncıxdı və əsə-əsə aradan çıxdı. Yolun yarısında maraq onu geriyə dartdı. Bütün günü əzab çəkdi ki, fikrini aydın deyə bilmədi. Gərək etiraf edəydi ki, aktrisa Frölix baş müəllimlərin hamısından daha ləyaqətlidir, karsala professordan daha gözəldir və direktordan daha ucadır. Əvəzsiz qadındır və Qanmazla birlikdə bütün insanlardan, həyasızlıq edib onu təhqir edən, Qanmaza isə şübhə ilə yanaşan insanlardan uca dayanır.

Ancaq bu fikirlər öz axarında hələ tam püxtələşməmişdi, elə qaranlıq və müəmmalı idi ki, Qanmaz bunu insanlara aça bilməzdi. Bu fikirlər ona rahatlıq vermirdi; iş otağının xəlvətliyində hirs onun beyninə vururdu və bu zaman o, dişlərini bir-birinə sıxır, yumruğunu silkələyirdi. Qanmaz bazar günü artist Kipertlə siyasi seçkilərə, sosial-demokratların Tərəvəz bazarının yaxınlığındakı baş qərargahına getdi. Bu, qəfil bir qərarın nəticəsi idi. Lomanın üzvü olduğu kastanın hakimiyyətinə son qoymaq lazım idi, o belə kəsdirmişdi. İndiyə qədər isə artistin onu bu işə cəlb etmək cəhdlərinin hamısını istehzalı, təkəbbürlü bir təbəssümlə – kilsəni, qılıncı, qanmazlığı və ərkanları dəstəkləyən, eləcə də onu buna təhrik edən səbəbləri dilə gətirməyən maarifçi despotun təbəssümü ilə qarşılamışdı. Bu gün bunların hamısını tonqala atmaq, qara camaatla əlbir olub təkəbbürlü yuxarı dairələrə qarşı işə girişmək, qara camaatı saraya çağırmaq və ümumi anarxiyada bəzilərinin müqavimətini torpağa gömmək qərarına gəlmişdi. Seçki məntəqəsinin başı üstündən tüstü topası kimi asılmış xalq ruhu Qanmazın ağlını başından aldı və onun işində dağıtma hərisliyi baş qaldırdı. Əyilmiş barmaqları ilə masaya döyəcləyib bağırdı:

– Tərpən görək! Bütün bunlara dözmək fikrim yoxdur mənim!..

Hamısı sərxoşluqdan idi; ertəsi gün dediklərinin peşmançılığını çəkdi. Üstəlik, öyrəndi ki, çevrilişdə olduğu

müddət ərzində aktrisa Frölix şəhərdən yoxa çıxıb. Bir anlığına Qanmaz qorxudan qıc olub Lomanı düşündü.

Loman bütün günü dərsdə olmamışdı? Kim bilir, bu arada hansı hoqqalardan çıxmışdı? Qanmazın olmadığı hər anı o, aktrisa Frölixin yanında keçirirdi. Yenə mütləq onun yanına qaçmış olacaqdı! Onun otağında gizlənmiş olacaqdı! Qanmazı Frölixin otağını görmək, oranın altını üstünə çevirib axtarmaq kimi bir tələbat çulğadı...

Bu günləri Qanmaz şübhə içində qovrula-qovrula keçirdi. Məktəbdə altıncıların karyerasını puç etdi. Aktrisa Frölixə pozucu təsir etdiyinə görə artistlər otağında gonbul qadını günahlandırdı. Qadın da heç nəyi vecinə almadan güldü. Onun yerinə aktrisa Frölix özü cavab verdi:

– Mən sizin şagirdlərinizlə şəhərdən qırağa çıxmış olsam?! Onlarla darıxıb ölməkdənsə, özüm öz başıma döyərdim.

Qanmaz heyrətlə onu süzdü. Sonra onu günahsız, pak bir qadın kimi görmək tələbatından çıxış edərək bir daha gonbul qadının üstünə düşdü:

– Cavab verin görüm! Himayədarlıq etdiyiniz aktrisa Frölixə neyləmisiniz?

Qadın özünü itirmədən dedi:

– Başdan-ayağa gülməlisiniz. – Qapını açdı, bir daha arxaya çevrildi: – Sizinlə heç kimin qamı doymaz. – Çıxıb gedəndə də: – Heç kim də xoşbəxt olmaz.

Qanmazın sifəti pul-pul oldu. Aktrisa Frölix güldü.

– Bu heç onun ağlına da gəlməz, – dedi, baxmayaraq ki otaqda tək qalmışdılar. Bundan sonra kəlmə də kəsmədilər.

Gonbul artistlər tez-tez göründükcə Qanmaz mübahisə hərisliyindən alışıb-yanırdı. Çoxdandır onlarla sərt davranırdı. Aktrisa Frölix onun beynində özünə yer etdikcə Qanmaz ona öz himayəsini daha da gücləndirirdi və onu təkləyib insanlara qarşı qoyduqca soyunub-geyinmə otağının kətillərində gonbul qadının paltarına, Kipertin geyiminə bir o qədər az yer qalırdı. Qanmaz onların uğurlarına və səsli-küylü şənliklərinə dözmürdü. Artist Kiperti akrobatik çıxışından sonra soyunub-geyinmə otağından qovmuşdu, çünki o möhkəm tərləmişdi, bu da aktrisa Frölix kimi bir qadına hörmətsizlik idi. Kipert taleyinə boyun əyib demişdi:

– Məgər o, kərə yağıdır ki, bütün iyləri özünə çəkə?

Kipertin arvadı yüngülcə alınmışdı. Bununla belə, gülüb

Qanmaza toxundu. Qanmaz qolunu sildi. Qadın bu dəfə gerçəkdən də pərt oldu.

Aktrisa Frölix şaqqanaq çəkdi. Naz-qəmzəsini yerə qoya bilmədi. Hər iki gonbul, onsuz da, onu özlərinin uğurlu matros nəğməsi ilə cinləndirirdi. Qanmaz təkrar-təkrar bildirdi ki, yalnız Frölix sənətkardır. Sadəlövh intriqant kimi o, qadının qısqanclığını qızışdırır və onu öz toruna salırdı: bütün insanlara yuxarıdan aşağı baxmağı və yalnız onun özündə dəyişməz sadiq çəngavəri axtarmağı ona təlqin edirdi. Rəğbətlərini qazanmağa çalışdığı tamaşaçıların hamısına və onu xoşlayan hər bir tamaşaçıya qarşı dərin nifrət bəsləməyi ondan israrla tələb edirdi. Gonbul qadına başlıca olaraq ona görə nifrət edirdi ki, o, aktrisa Frölixin zalda buraxdığı təəssüratlar barədə həmişə məlumatlar gətirirdi.

– Necə! Belə şey də olarmış?! – Qanmaz səsini qaldırardı. – Deməli, o adam ağzını açmağa cürət edir?! On doqquz yaşında siniflə ayaqlaşa bilməyən və son olaraq üç il sıravi əsgər kimi xidmət etməyə məcbur olan həmin Mayer?!

Aktrisa Frölix öz pərtliyini belə bir gülüşün arxasında gizlətdi ki, alt qatda olan Mayer onun xoşuna gəlir. Amma arzu edərdi ki, ondan zəhləsi getsin. Qadın təbiət etibarilə savadlı və duyumlu idi ki, Qanmazın mənəvi durumunda olan bir kişi onun tərbiyəsini öz üzərinə götürsün. Birinci dəfə idi ki, bu duyğuları yaşayırdı. Mayerin xeyrinə bir-iki kəlmə söz demək istəyən gonbul qadının sözünü ağzında qoydu.

Başqa vaxtlar əlindəki güllə Qanmazın burnunu qıdıqlayıb deyərdi:

– Bu qızılgül royalın arxasındakı o balaca gonbuldan hədiyyədir.

– Körpəm mənim, – gonbul qadın dilləndi, – bu ki bazardakı siqaret dükanının sahibidir, gözəl insandır. Kipert onun daimi müştərisidir.

– Görəsən, Qanmaz nə deyər? – aktrisa Frölix dilləndi.

Qanmaz dedi ki, o, sinifdə ən pislərdən biri olub və iş adamı kimi də çox şeyə yaraya bilməz; cünki onun adını birinci dəfə yanlış hərflə başlamadan kişi ilə haqq-hesab aparmır. Gonbul qadın dedi ki, bunun ziyanı yoxdur. Qanmaz yalan danışıb bildirdi ki, kişi ticarət işinə yaramır. Onun od-alov püskürdüyünü görən aktrisa Frölix əndamını fırladıb çeynənmiş qızılgülü iylədi.

– Siz hər şeyə və hər kəsə nəsə qulp qoyursunuz, – gonbul qadın dilləndi. – Əslində, nə demək istəyirsiniz, bəlkə, bunu bizə də söyləyəsiniz?! – və Qanmaz susduğuna görə: – Siz özünüz burada hec nəyə yaramırsınız.

– Yoox, o heç nəyə yaramır, – Qanmazın sifətinə qızartı çökəndə aktrisa Frölix dizinə döydü.

– Onda qoyun öz ağlı ilə tək canına danışsın, – gonbul qadın təkidlə dedi, – və dəlilərlə oturub-dursun, onlar da hərdən işə yarayır və ən azı, hərdən ağıllarına ən sadə şeylər də düşür, məni anlayırsınız, Rozam mənim. Mənim sizə bu cür məsləhət verməyə əsasım var, elə deyilmi? Mən də ömrüm boyu oturub göziəyən deyiləm.

Bunu deyib Kipertlə matros mahnısını oxumaq üçün zala getdi. Aktrisa Frölix ağlamsınaraq otaqda qaldı.

– Aman Allah, adama elə əzab verir ki, gövdəsi gömgöy göyərir! – qollarını geniş acdı. – Doğrudan da, – özünü ələ alıb əlavə etdi, – bu adam dəhşətli dərəcədə əsəblərimlə oynayır. – Ayaq üstə, məyus-məyus: – Sizin də hec kimə yazığınız gəlmir!

Qanmaz hər gün və az qala, hiss edilmədən artan suçun ağırlığını birdən-birə çiynində hiss etdi və ondan qurtara bilməyəcəyini başa düşdü.

***

Matros nəğməsinin səsi yüksəldikcə aktrisa Frölix soyunub-geyinmə otağında zarıya-zarıya vumuxurdu.

– Daha səbrim qalmadı... həmişə demişəm, indi də bu gonbullara ürəyimi boşaldacağam. Mən bunu deməmişəmmi? Səbrim büsbütün tükənib.

Ər-arvad alman dəniz qəhrəmanlarının mahnısını təzəcə oxuyub qurtarmışdı ki, Roza Frölix başını dik tutub vətənpərvərlik ruhu ilə canlanmış zal boyunca addımladı:

*“Mənim ərim kapitandır,*
*Qulluq edir Almaniya ordusunda.*
*Çox vaxt evə sərxoş gəlir,*
*Gərək onda kötək yeyəm qaydasında”.*

Əvvəlcə hamı donub-qaldı; sonra hay-haray qopardılar, axırda ziddiyyətdən məmnunluq duydular. Aktrisa Frölixin cəsarətli hoqqası alındı və o, şadyanalıq içində geriyə döndü.

Gonbul qadın bu dəfə, doğrudan da, dilxor oldu.

– Biz ikimiz əlimizdən gələni edirik ki, insanlar ali varlıqlardan bir şey öyrənsin. Bu vaxt özünüzü yetirib müqəddəs şeyləri məsxərəyə qoyursunuz. Əclaflıq deyil, nədir bu?!

Aktrisa Frölixlə əlbir olub Qanmaz bunu rədd etdi. Bildirdi ki, sənətdə istənilən istiqamətə haqq qazandırmaq lazımdır; sənət böyük sənətkarların etdiyi şeydir, nemətlərin ən müqəddəsi də aktrisa Frölixin istedadıdır. İzahatlarını o, gonbul qadına yönəlmiş bir-iki kəlmə ilə tamamladı:

– Siz, ümumiyyətlə, mənə...

Bu vaxt Kipert içəri girdi və koppuş qızartdaq sifətində dənizçi saqqalı buraxmış bəstəboy kişini özündən qabağa buraxdı. Kişi qaşlarını çatıb dedi:

– Allah qorusun, xanım, qorxmaz qızsınız, doğrudan da beləsiniz. Ho-ho! *Gərək onda kötək yeyəm qaydasında.* Mən də kapitanam, mənimlə bir balaca içmək istərdiniz, yəqin...

Qanmaz işə qarışdı:

– Aktrisa Frölix, inanmağınız vacibdir, heç kimlə içmir. Burada yanılırsınız, kişi. Bundan başqa, yanılırsınız ki, bu ağzıb... bu soyunub-geyinmə otağının xüsusu bir təyinatı var.

– Cənab, deyəsən, zarafat edirsiniz! – kapitan qaşlarını daha da çatdı.

– Heç də yox, – Qanmaz etiraz etdi. – Daha çox sizi qandırmaq istəyirəm ki, çıxıb gedəsiniz.

Ər-arvad Kipertə bu, ağır gəldi.

– Cənab professor, – artist səs-küy salaraq pərt-pərt dilləndi, – onunla bruderşaft içdiyim dostumu mən buraya gətirirəmsə, bu, çox güman ki, mənim işimdir.

Axır ki, Kipertin arvadı partladı:

– İndi də bir balaca məni dinləyin! Heç kimi qoymur nəsə qazansın, iyi-qoxusu da baş aparır, insanları ürküdüb bizdən qaçırır. Roza, lütfən, kapitanla gedin!

Qanmazın rəngi qaçdı, onu əsməcə tutdu.

– Aktrisa Frölix, – quyunun dibindən gələn bir səslə bağırdı və qorxudan çəpləşmiş zəhərli baxışlarını ona tuşladı, – elə yaradılmışlardan deyil ki, sizin pivəni içməyi özünə yaraşdırsın, kişi!

Baxışı Rozanı dəlib keçdi; o, köksünü ötürdü.

– Getsəniz yaxşı olar, – aktrisa Frölix kapitana üz tutdu, – burada sizlik bir iş yoxdur.

Qanmaz qələbə çalmışdı, yanaqları gözlənilmədən qızarmışdı və atılıb düşə-düşə:

– Eşidirsiniz, kişi? Bunu o şəxsən sizə deyir. Aktrisa Frölix sizi sinifdən qovur. Sözünə əməl edin! Durmayın, tərpənin!

Artıq kapitanın yaxasından yapışmışdı, dırnaqlarını, az qala, onun canına keçirmişdi, kişini çıxış qapısına sürütləmişdi. Qoldan qüvvətli kapitan bu israrlı hücuma müqavimət göstərmədən dözdü. Qanmaz ondan əl çəkəndə, sadəcə, çırpındı. Amma bu, astananın o üzündə baş verdi və qapı onun heyrətlənmiş sifətinin qarşısında şappıltı ilə çırpılıb örtüldü.

Artist əlini bərk-bərk masaya vurdu.

– Ay adam balası, siz, çox güman ki...

– Bəs siz, kişi...

Qanmaz fınxırıb onun üstünə yeridi. Kiperti qorxu götürdü.

– ...unutmayın ki, deməli belə, aktrisa Frölix mənim himayəmdədir və mən onun xətrinə dəymək və ya dəydirmək fikrində deyiləm, eləcə də istəmərəm ki, nüfuzuma xələl gəlsin. Bunu tez-tez təkrarlayın! Qulağınızda sırğa edin!

Artist nəsə mızıldadı, lakin üz-gözündən mütilik yağdı. Tədricən bundan canını qurtardı. Aktrisa Frölix Qanmaza baxıb ucadan güldü; bir azdan bu şaqraq gülüş yerini bir az asta gülüşə verdi, kinayəli və nəcib bir gülüşə, elə bir gülüşə ki, elə bil, bununla Qanmazı və özünü düşünür: gülməli saydığı bu adamla niyə fəxr edir?!

Gonbul qadın özünün pis niyyətini ram edib əlini Qanmazın çiyninə qoydu.

– İndi isə qulaq asın, – dedi.

Qanmaz yarıya qədər çevrilib alnını sildi, tamam yumşalmışdı. Ağılsız hiddət nəticəsində daxili etirazla qarşılaşan zülmkarın şaşqınlığı yenidən çəkilib getmişdi.

– Budur, Kipert qapıdan çıxır, budur, bu da Roza, budur, bu da siz və mən də buradayam... – İsrarlı səsi ilə həqiqəti onun gözü önündə sərgilədi. – Üstəlik, sizin çölə çıxardığınız kapitan da burada idi. Əslində, o, Finlandiyadan gəlir və özünə gözəl bir iş qurub, çünki gəmisi batıb, gəmi də sığortalanıbmış... Çox güman ki, siz gəmi sığortalamamısınız? Buna heç ehtiyac da olmayıb. Əvəzində sizin öz mənəvi dünyanız var. Siz, sadəcə, gərək onu göstərəsiniz, vəssalam,

dediklərim bu qədər... İndi də Rozadan deyim? Anlayırsınız? Kapitanın çoxlu pulu var, hörmətli adamlardan biridir və qızın xoşuna gəlir.

Qanmaz şaşqın-şaşqın aktrisa Frölixə baxdı.

– Başdan-ayağa yalandır, – Frölix etirazını bildirdi.

– Özünüz demisiniz axı...

– Allahım, yalan da danışa bilirmiş!

– Bəlkə, onu da danasınız ki, cənab professorun şagirdlərindən biri, qara saçları gözünün üstünə tökülən tayı sizə ciddi bir təklif etməyib?!

Qanmaz dəli kimi yerindən sıçradı. Aktrisa Frölix onu sakitləşdirdi:

– Bu ki bədniyyət bir yanlışlıqdır. Mənimlə evlənmək istəyən o kürən tayıdır, sərxoş aya bənzəyir. Qrafdır, amma mənə nə! Mən ki onu istəmirəm...

Qanmazın üzünə irişdi, məsum körpə kimi.

– Nə olar, belə çıxır ki, mən yalan danışıram, – gonbul qadın dilləndi. – Amma deyəsən, doğrusu odur ki, sizin mənə iki yüz yetmiş mark borcunuz var, eləmi, Rozacığım? Görürsünüz, cənab professor, ayrı vaxt adam belə olmur, sizin yanınızda borcu dilə gətirməkdənsə, dilim qurusa yaxşıydı. Amma əvvəl-axır özünü hamıdan çox istəməli olursan, bu, doğrudan da, belədir. Özünüzdən başqa burada hamını çölə atmağınıza görə, cənab professor, acığınız tutmasın, bunun üçün siz qara qəpik də vermirsiniz. Puldan danışmaq fikrim yoxdur; ancaq bu cür cavan cananın da məhəbbətə ehtiyacı və haqqı var. Siz bu barədə heç nə hiss eləmirsiniz, sadəcə, bu, ağlınıza gəlmir. Heç özüm də bilmirəm buna pismi baxım, gülməlimi.

Aktrisa Frölix uca səslə dilləndi:

– Susuramsa, deməli, bu söhbətə qanşmağınızı istəyirəm, frau Kipert?!

Amma gonbul qadın müqavimət göstərdi; beyninə yerləşmişdi ki, abır və əxlaq naminə ağıllı bir söz desin və başını qaldırıb qürurla bayıra çıxdı.

Aktrisa Frölix çiynini çəkdi.

– Sadəcə, savadsızdır, ancaq mülayim insandır. Fikir verməyin. Heç də fikirləşməyin ki, onunla əlbirəm, o da sizi çəngindən buraxmaq istəmir. – Qanmaz başını döşəmədən qaldırdı. Xeyr, belə bir güman ondan çox uzaq idi. – Ümumiyyətlə, mən heç kimlə əlbir deyiləm... – Altdan-yuxarı

gülümsədi, lağla, ürkək-ürkək. – Heç sizinlə də... – Müəyyən fasilədən sonra: – Doğrudan da belədir.

Bir neçə dəfə soruşmalı oldu. Onun Qanmazla özünün arasında sözlə saldığı körpüdən kişi heç nə anlamadı. Yalnız yaranmış vəziyyətdən elə hallandı ki, başı fırlandı.

– Ola da bilər... – Qanmaz dilləndi və titrəyən əllərini aktrisa Frölixə doğru açdı. Frölix öz əllərini onun əllərinin içinə qoydu. Azca rəngi qaçmış yağlı və incə barmaqları sürüşüb kişinin sümükləşmiş əllərinin içinə keçdi. Frölixin saçı, parçadan tikilmiş gülləri, boyalı sir-sifəti rəngli təkər kimi onun gözləri önündə fırlandı. Qanmaz özünü ələ aldı.

– O gonbuldan bir də borc götürməyin. Qərara almışam ki... – Udqundu. Qorxdu, ağlına gəlgi ki, şagirdi Loman bu qərarda onu qabaqlaya bilər: sinifdə olmayan Loman, bəlkə də, aktrisa Frölixin otağında gizlənmiş Loman. – Mənzilinizin pulunu, mənə mütləq inanın, mən ödəyəcəyəm.

– Söhbət ondan getmir, – aktrisa Frölix astadan cavab verdi. – Bizim üçün bu, əsas məsələ deyil... Əslində, otağım xeyli ucuzdur... – Aradakı fasilədə: – Bu binanın üst qatındadır... Çox gözəldir... Baxmaq istəyirsiniz?

Göz qapaqlarını açağı saldı, ciddi bir kişi evlənmə təklifini irəli sürəndə qadın hansı görkəmi alırsa, həmin görkəmi aldı və təəccübləndi, çünki gülməyə həvəsi qalmamışdı, çünki ürəyində kiçik və təntənəli bir coşqu baş qaldırmışdı. Qeyri-adi qaralığı olan gözlərini açıb dedi:

– Yaxşı, düşün qabağa. Zaldakı meymunların bunu o saat bilməsinə lüzum yoxdur.

## ONUNCU FƏSİL

Kizelak bayır tərəfdən zalın qapısını açdı, çirkli barmaqlarını ağzına aparıb boğuq bir fit verdi. Ersumla Loman həmin an çölə çıxdılar.

– Tələs, oğlum! – Kizelak hər birinə ayrıca deyib dəhlizin qurtaracağına qədər qızışdırıcı bir hərəkətlə onların qarşısında pilləkənə doğru daldalı rəqs etdi.

– Axır ki!

– Nə axır ki? – Loman etinasızlıqla soruşdu, baxmayaraq ki nə olduğunu dəqiq bilirdi və bununla həddən artıq maraqlanırdı.

– Yuxarıdadırlar, – Kizelak üz-gözünü əyişdirib pıcıldadı. Ayaqqabılarını cıxarıb sarı sürahili, cırıltılı yastı taxta pilləkənlə asta-asta yuxarıya qalxdı. Qapı elə birinci alçaq dabanda idi, Kizelak onu yaxşı tanıyırdı. O, acar deşiyinin qarşısında əyildi. Bir azdan deşikdən aralanmadan kipkirmiş və iztirab icində əli ilə yoldaşlarını cağırdı.

Loman çiyinlərini çəkdi, ağzını açıb yuxarıya boylanan Ersumun yanında, pilləkənin ayağında ayaq saxladı.

– Hə, necədir sənin üçün? – Loman anlaqlı soruşdu.

– Allaha and olsun, nə baş verdiyini bilmirəm, – fon Ersum cavab verdi. – Burada nələrin baş verdiyi sənin də təsəvvürünə sığışmaz, eləmi? Kizelak, təbii ki, şişirdir.

– Əlbəttə, – Loman yanımcıllıqla təsdiqlədi.

Kizelak daha çılğın əl etdi. Açar deşiyindən səssizcə içəriyə hihildədi.

– Gərək özü-özünə deyəydi ki, – Ersum bildirdi, – mən bu adamı salamat buraxmayacağam.

– Yenə başladın?.. Əslində, bu iş, bəlkə də, Rozanı daha çox məzələndirir.

Fon Ersum heç nə anlamadı. Məhəbbət haqqında təsəvvürü üç il bundan qabaq onu otun üstünə uzadan inəkçi qızla həmişəlik formalaşmışdı, o vaxt güclü naxırçıya qalib gəldiyinə görə qız onu bu cür mükafatlandırmışdı... İndi isə ortada enlikürək bir gücsüz vardı və Roza Frölix heç cür inanmırdı ki, Ersum ondan qorxa bilər.

– Hələ də inanmır ki, mən ondan qorxa bilərəm? – Lomandan soruşdu.

– Sən, azca da olsun, ondan qorxmursan? – Loman soruşdu.

– Bunu özün görəcəksən.

Həyəcandan haldan çıxmış Ersum iki sıçrayışa altı pilləni aşağıya cumdu.

Açar deşiyindən aralanmış Kizelak isə ayağında corab təntənəli bir rəqs etdi. Birdən ara verərək:

– A kişilər, – deyə pıçıldadı və pendir kimi saralmış sifətinin əksinə olaraq gözləri işıq saçdı. Ersum qıpqırmızı qızarmışdı və nəfəsi təngiyirdi. Uşaqların baxışları toqquşub, sanki, bir-biri ilə döyüşdü. Ersumun baxışları dirənmişdi: olan iş deyil! Kizelak yüngülcə səyriyən göz qapağının qırağına yığılmış incə bir rişxəndlə cavab verdi... Ersum birdən-birə qarşısında dayanan yoldaşı kimi sapsarı saraldı, əyilib ikiqat

oldu, ağrıdan zarıdı, sanki, qarnına ağır bir zərbə endirmişdilər. Dəvdənə-dəvdənə, səndələyə-səndələyə altı pilləni yenidən aşağı yuvarlandı. Loman burada qollarını çarpazlayıb durmuşdu, cəhənglərində xoşagəlməz qırışlar yaranmışdı. Ersum dolu çuval kimi şappıltı ilə axırıncı pilləyə çöküb başını əllərinin arasına aldı. Xeyli susandan sonra boğuq səslə altdan-yuxarıya deyindi:

– Loman, ağlına bir şey batırmı? Yüksəklərə qaldırdığım bir qadın! Hələ də elə bilirəm ki, bu əclaf Kizelak axmaq-axmaq zarafat edir. Onda, qoy Allah özü ona rəhm etsin!.. Qadın, qəlbini neçə yerə verən bir qadın!

– İndi o işi tutan qadına münasibətdə qəlbdən söhbət gedə bilməz. O, sadəcə, qadın kimi hərəkət edir.

Loman qəddarcasına gülümsədi. Həmin sözlə o, Dora Bretpotu bu qadınla yanaşı qoyub çirkaba batırdı, Dora Bretpotu, qadınların birincisini. Bundan necə həzz alırdı!

– Kizelak yenə açar deşiyinin qarşısındadır...

Loman başını yana çevirmiş Ersuma vəziyyəti izah edirdi.

– Kizelak durmadan əl edir... Bu Qanmaz... Ersum, bəlkə, gedək?

Dostunu dartıb yerdən qaldırdı, onu bayır qapısına qədər sürütlədi. Ersum bayırda dirəndi; ağır-ağır, key-key qapıya söykəndi, onu məyus edən binanın qapısına. Loman əbəs yerə bir müddət ağzını ağrıtdı. Ersumu getməyi ilə hədələdi; bu vaxt Kizelak özünü yetirdi.

– Sizdən adam olmaz! Niyə gəlmirsiniz axı? Qanmaz nişanlısı ilə içəridədir. Zalda sizə demədimmi, haradan gələcəklər, onları görünməmiş təmtəraqla qəbul etdilər. Bax belə şeyi bir də görməzsən: oturublar ağzıbirdə, zəriflik nümunəsi kimi. Gülməkdən ölmüşəm! Gəlin, qalxaq üçümüz də yuxarıya, ağzıbirə.

– Görünür, sən... – Loman dözmədi. Amma Kizelakın təklifi ciddi idi.

– Siz, yəqin, Qanmazdan qorxmursunuz! – hirslə dilləndi. – Qanmaz nə qədərdir içəridə oturub, o, bizə bundan başqa daha nələr edə bilər?! Əslində, biz onun gönünü soymalıyıq.

– Bu, məni çəkmir. Qanmaz gönü soyulanlardan çox-çox aşağıda durur. – Loman öz sözünü dedi. Kizelak acı-acı ləlidi.

– Qurbağalıq edib quruldama. Sadəcə, qorxursan.

Ersum qəfildən qərarını verdi:

– Yaxşı, tərpənin! Birbaşa ağzıbirə!

Onu çılğın bir maraq çulğamışdı. Bu cür yüksəklikdən uçuruma yuvarlanmış bu qadının qarşısına çıxmaq istəyirdi! Ona və onun tovlantıçısına lap yuxarıdan nəzər salıb görmək istəyirdi ki, qadın bu baxışa duruş gətirəcəkmi.

Loman öz fikrini bildirdi:

– Qəti zövqünüz yoxdur.

Bununla belə, o da getdi.

Soyunub-geyinmə otağında onları badələrin cingiltisi qarşıladı. Sahibkar ikinci şampan şüşəsinin ağzını açırdı. Yanaqları allanmış ər-arvad Kipert masanın arxasında canbir olmuş Qanmazla aktrisa Frölixin üstünə əyilmişdi.

Hər üç şagird əvvəlcə masanın başına dolandı. Sonra Qanmazla xanımının qarşısında bitib onlara xoş bir axşam dilədilər. Onlara yalnız Kipertlər cavab verdi və hər üçünün əlini sıxdı. Bundan sonra Ersum, təkcə Ersum qaba bir səslə öz salamını söylədi. Roza Frölix heyrətlə başını qaldırıb baxdı və indiyə qədər özünün də eşitmədiyi civiltili, quğultulu bir səslə dedi:

– Hə, bu da siz. Görürsən, malım-mülküm, onlardır. Oturun, prost.

Bununla işini bitmiş saydı və baxışlarını Ersumdan çəkmədi, elə biganə baxdı ki, oğlanı üşütmə tutdu. Qanmaz mərhəmət göstərib əlini yuxarı qaldırdı.

– Təbii ki və çox güman ki... Oturub birini için. Bu gün qonağımsınız.

Əyləşib siqaret bükən Lomana çəp-çəp baxdı... Bu murdar Loman, şuxluğu ilə kasıb müəllimini alçaldan Loman; utanmazlıq edib Qanmazı ayaması ilə çağırmayan Loman; sinifdə sürünənlər sırasında olmayan üzü danlaqsız şagird, ağıllı oğlan kimi özünün heç nəyə qarışmayan hərəkəti, müəllim acıqlanarkən narahat təəssüfü zülmkarın hökmünü şübhə altına almışdı. Həmin Loman özünün digər əlavə işlərinə aktrisa Frölixi də cəlb etməyə çalışmışdı. Lakin Qanmazın dəmir iradəsinə dəyib yerindən tərpənməmişdi. Loman aktrisa Frölixin ağzıbirində oturmamalı idi, Qanmaz buna and içmişdi. Aktrisa Frölixi ram edə bilmədi. Sadəcə, bacarmadı. Təkcə ona görə yox ki, Loman aktrisa Frölixin yanında ağzıbirdə oturmurdu, əksinə, orada Qanmaz lövbər salmışdı... Bu hadisə Qanmazın ilkin məqsədini aşmışdı. Duruxub-qaldı

və birdən-birə qaynar bir məmnunluq duydu. Aktrisa Fröli-xi o, Lomanın və iki dostunun – dərsdən qaçıb özlərini zala vermiş şagirdlərin və əlli min höcət şagird yetişdirmiş şəhərin çəngindən qoparmışdı və ağzıbirdə mütləqiyyətçiyə çevrilmişdi!

Gimnaziyanın şagirdləri deyirdilər ki, Qanmaz, formal da olsa, cavanlaşmışdır. Arxaya qatlanmış qalstuku, bir neçə açıq düyməsi, pozulmuş saç düzümü onun kor-koranəliyindən, məhv olmuş qalibiyyətindən, pəndəm sərməstliyindən xəbər verirdi.

Ona bərk-bərk sığınmaq üçün masaya sərilən Roza Fröli-xin sifətində nəsə bir həlimlik, yorğunluq və uşaqlıq müşahidə olunurdu. Bununla belə, görkəmi məsələyə dəxli olmayan istənilən kişi üçün pərtlik nişanəsi idi, çünki hər şey Qanmazın qətiyyətli qələbəsi hesab olunurdu.

Hər üç dost bunu yaxşı dərk edirdi; Kizelak hətta dırnaqlarını çeynəməyə başladı. Bu işdən o qədər də başı çıxmayan Kipertin bacardığı o oldu ki, ona xas olan süstlüklə kirmişcə hamının sağlığına içdi. Gonbul qadın Rozada baş verən xoşbəxt dönüşə və ümumi barışıq mərasiminə durmadan öz məftunluğunu bildirdi.

– Şagirdləriniz, cənab professor, onlar da sevinir. Bu cavan cənabların sizə necə bağlı olduğunu qəti təsəvvür etmək olmaz.

– Hər halda, yəqin ki, mütləq, – Qanmaz cavab verdi. – Deyəsən, gözəllik və alilik duyğularını itirməyiblər. – Kinayə ilə gülümsədi. – Hə, Kizelak, hələ də buradasan? Heyrətlənirəm ki, nənənizin sayıqlığı sizin evdən çıxmağınıza mane ola bilməyib... Kizelakın nənəsi hələ də yaşayır və bunu şallaqlamağı özünə ar bilmir, – Kizelakın kişilik ləyaqətini alçatmaq məqsədilə üzünü aktrisa Frölixə tutub dedi.

Kizelak da, öz növbəsində, sinfin məqsədinə nail olmaq üçün kişilik ləyaqətini aktrisa Frölixin yanında tamam başqa yollarla sübut etməyi bacardı. Burnunun ucuna çəpəki baxa-baxa o, dalını qaşıyıb hönkürdü:

– Nənəm məni inşa dəftərimi tapmayanda əzişdirir. Yəqin, o, burada, ağzıbirdə masanın altına düşüb.

Gözlənilmədən masanın altına sürüşüb aktrisa Frölixin qıçlarından yapışdı və Kipertlərin danışığının yaratdığı səs-küydə öz tələblərini ona pıçıldadı. Bildirdi ki, əks təqdirdə hər şeyi Qanmaza deyəcək.

– Fırtılıqlı əclaf, – Roza Frölix, sadəcə, üzüaşağı deyib ayağı ilə onu qırağa itələdi.

Bu vaxt Qanmaz üzünü ikinci şagirdə tutdu:

– İndi də sən, fon Ersum... yenə həmişəki kimi. Üz ifadənizlə elə təəssürat yaradırsınız ki, elə bil, özünüzü ələ almaq başarınız burada da sinifdəki kimi nöqsanlıdır. O siz deyilmisiniz ki... Hər halda, demək lazımdır!.. Aktrisa Frölixə sizinlə evlənməyi təklif etmisiniz? Sizin key baxışlarınızdan hansı cavabı aldığınızı oxuyuram. Odur ki, fon Ersum, aktrisa Frölix şagird üçün qoyulmuş sərhədi sizə göstərib. Mən buna heç nə əlavə edə bilmərəm. Hələ bir yerinizdən qalxın... – Ersum itaətlə ayağa qalxdı. Zira Roza gülürdü və onun gülüşü Ersumu hirslənmə gücündən və şüurunun son nişanəsindən məhrum edirdi; o, iflic olmuşdu. – ... Gəlin baxaq görək, "Mavi mələk"ə sizin kimi pislər sırasına daxil olan birisinin inamlı gediş-gəlişi təqribən buna gətirib çıxarmırmı ki, məktəbin qarşınıza qoyduğu tələbləri təkcə yerinə yetirmirsiniz, həm də ürəyiniz ağrımadan bu tələbləri yelə verirsiniz. Sabaha verilmiş "İlahi nəğmələr"i əzbərdən deyin görək!

Ersumun gözləri geniş açılaraq şaşqınlıqla otaqboyu döyükdü. O, özünü boyunduruq altında hiss etdi, başını aşağı salıb nəğməni başladı:

*"Nəğməni mən Tanrıma oxumayım, deyirsən?*
*Şükranları deməsəm, məni möhkəm danlayır.*
*Hər əməldə, hər işdə çün mən aydın görürəm,*
*Hər bir şeydə O məni necə gözəl anlayır!"*

Bu yerdə Roza qıyya çəkdi. Frau Kipert də xoşhallıqla qığıldadı. Lakin Roza qıyyasına ara vermədi, bunu Ersumu pərtləşdirmək üçün etdi, qıyyasını həllmləşdirib çəkdi, qolunu sıxdığı Qanmaza nazlamaq üçün, ona yarınmaqdan ötrü, cır və müti səslə mömin misraları əzbərdən söyləyən bu yöndəmsiz kürən gədənin üstündəki hökmranlığını mükafatlandırmaq xatirinə.

Fon Ersum nəğməni davam etdirdi:

*"O vəfalı qəlbini ehtizasa gətirən*
*Sevgidir ki, qərar tutmuş o yerdə..."*

Artistin ona qarşı münasibəti büsbütün dəyişdi. Kipert vəziyyətlə indicə tanış olmağa başlamışdı. Elə indi də Ersumun sifətinə bağırıb dizlərinə döydü.

– Yox siz, amma siz! Nə deyirsiniz axı? Yoxsa halınız xarab olub?

Bu arada da Qanmaza göz edib başa saldı ki, "Mavi mələk"in arxa otağında ilahi nəğmələri əzbərdən oxuyan qraf Ersumu qiymətləndirməyi bacarır və kübarlığa, dinə yönəlik bu zarafata ürəkdən qoşulur. Qapını açıb özünü elə apardı ki, elə bil, royalçıya xoral[1] sifariş verir. Nəhayət, özü ona qoşuldu... Amma Ersum oxumağını kəsdi.

Doğrudur, nəğmənin gerisini bilmirdi, amma başlıcası o idi ki, birdən bu kök, güləyən, oxuyan kişiyə qarşı Ersumda hüdudsuz bir hirs baş qaldırıb onu boğmağa başladı. Gözləri alacalandı. Fikirləşdi ki, qoşa yumruğu bu kişini əzişdirməsə, hər iki dizini onun sinəsinə dirəməsə, yaşaya bilməyəcək. Oturduğu yerdə bir neçə dəfə dik atıldı; düyünlənmiş yumruqlarını önündə tutdu, hucuma atıldı.

Gülməkdən atletin nəfəsi kəsilmişdi və o hec nəyə hazır deyildi: bu onu günü-gündən çiçəklənən ciddi Ersuma münasibətdə geriyə atırdı, halbuki o özü gücdən düşmüş əzələlərini bərpa etməklə məşğul idi. Onlar bir küncdən digərinə yumalanırdılar. Guppultunun tən ortasında Ersum Rozanın asta çağırışını eşitdi. Bilirdi ki, Roza ona baxır, buna görə də daha dərindən nəfəs alırdı, rəqibinin üyələrini öz üyələrinin arasına alıb sıxırdı, öz yerində özünü xoşbəxt sayırdı, cünki Rozanın gözləri önündə döyüşə bilmişdi, o vaxt sağınçı qızdan ötrü naxırçı ilə dalaşdığı kimi.

Bu arada Qanmaz döyüşə, yüngül də olsa, maraq göstərmədən Lomana müraciət etdi:

– Nə olub sizə, Loman? Oturmusunuz burada, siqaret tüstülədirsiniz, yenə həmişə olduğu kimi... Bu gün tezdən sinifdə də olmamısınız.

– Kefim yox idi, cənab professor.

– Amma "Mavi mələk"ə gəlməyə, inanın mənə, həmişə kefiniz olur.

– O başqa məsələdir, cənab professor. Bu gün tezdən məndə miqren vardı. Həkim mənəvi gərginliyi yasaqlayıb fikrimi dağıtmağı məsləhət gördü.

[1] *Xoral* – katoliklərdə və protestantlarda: xor şəklində oxunan dua

– Belə de, qoy necə istəyirsən, elə olsun.

Qanmaz bir necə dəfə əndikdi. Sonra özünə gəldi.

– Oturub siqaret tüstülədirsiniz, – təkrarladı. – Şagirdə yaraşarmı ki, müəlliminin yanında?.. – Yarıya enmiş göz qapaqlarının altından yorğun bir maraqla baxmaqdan başqa Loman hec nə etmədiyinə görə Qanmaz coşdu: – Atın siqareti getsin! – Boğuq səslə bağırdı.

Loman yerindən qımıldanmadı. Bu vaxt Kipertlə Ersum masaya doğru səndələdilər; Qanmaz özünü, aktrisa Frölixi və çoxlu sayda bakal və butulkaları xilas etmək məcburiyyətində qaldı. Bu işlər qurtarandan sonra:

– Necə yəni?! At getsin! Tərpən, irəli!

– Siqaret, – Loman dilləndi, – vəziyyəti yüngülləşdirir. Vəziyyət də qeyri-adidir... hər ikimiz üçün, cənab professor.

İsrardan qorxuya düşən Qanmazı zəlzələyə bənzər bir silkənti tutdu:

– Siqareti atın deyirəm, sizə!

– Təəssüf edirəm, – Loman dedi.

– Gərək risk edəsiniz, oğlan!..

Loman yalnız uzun barmaqları ilə insanı pərt etməyən rədd işarəsi verdi.

Hədələnmiş zülmkarın hiddətinə tutulan Qanmaz kətildən yuxarı sıçradı.

– Ya siqareti atırsınız, ya da gününüzü qara edəcəyəm, karyeranızın qabağına daş diyirləyəcəyəm! Sizi qarışqa kimi əzəcəyəm! Fikrim yoxdur ki...

Loman çiyinlərini çəkdi.

– Necə də acınacaqlıdır, cənab professor. Hamısı artıq arxada qaldı. Vəziyyəti belə yanlış dəyərləndirə bilməyiniz...

Qanmaz finxırdı. Gözləri hirslənmiş pişik gözünə bənzəyirdi. Boynunun damarları şişib qabağa çıxmışdı; dişlərinin kalafasından selik axırdı, küncə qoyduğu qolunun ucundakı saralmış dımaqlı şəhadət barmağı düşmənə tuşlanmışdı.

Şirin xatirələrdən tam ayılmamış, buna görə də bir az gerçəklikdən gen düşmüş aktrisa Frölix Qanmaza qısılıb Lomana ağzına gələni dedi.

– Nə istəyirsiniz axı? Yaxşısı budur, onu sakitləşdirin, – Loman dedi.

Bu vaxt Ersumla Kipert cırıltısı baş aparan iki kətilin üstündən aşıb qucaqlaşmış cütlüyün kürəyinə dəydilər və hər ikisini burunları üstünə masaya yıxdılar. Roza Frölixin

dəfə-daraq masasının arxasındakı nisbətən sakit guşədən Kizelakın cingiltili qıyyası eşidildi. Burada o, xəlvətə salıb frau Kipertlə məzələnirdi.

Qanmazla rəfiqəsi özlərini düzəldəndən sonra küfrlərinə davam etdilər.

– Siz həmişə məndə axırıncı yerdə durursunuz, – Roza Frölix Lomanın üstünə qışqırdı.

– Yadımdan çıxmayıb, möhtərəm froylayn, bunu mənə bir dəfə hökmlə bildirmisiniz, mən də buna həmişə sevinmişəm.

Saçları pırpızlanmış, yaxası yarı açılmış, bəzək-düzəyi axıb üzünə yayılmış Roza boş-boşuna coşaraq onun qarşısında özünə divan tutanda Lomanda qadına qarşı şiddətli bir həvəs baş qaldırdı: yenə həmin həvəs, günaha batıb boş vəd və oxşamalarla özünün qəddar sevgisini gözdən salmaq həvəsi!

Ancaq bu, ötəri bir hiss oldu. Qorxunun əlində həlak olan Qanmazın yadına yenidən hədələmək düşdü:

– Siqareti elə indicə atmasanız, sizi bu saatca atanızın yanına aparacağam!

Lomangildə bu axşam xeyli qonaq vardı, konsul Bretpot da arvadı ilə orada idi. Qanmazın salona necə girməsini Loman təsəvvüründə canlandırdı... Dünəndən bəri biləndə ki Dora Bretpotun boyuna uşaq düşüb, – bu xəbəri anası gətirmişdi – belə bir girişi qadına rəva bilməzdi. Lomanın bu gün sinifdə olmamasının səbəbi də elə bu idi. Başını əllərinin arasına alıb o, bütün günü özünün qapalı otağında oturdu, qadının asessor Kunstdan, bəlkə də, leytenant fon Qirşkedən, ya da konsul Bretpotun özündən tutduğu həmin uşaq barədə əzaba çevrilmiş şeiri beynində dolandırdı...

– Gəlin mənimlə! – Qanmaz bağırdı. – Mənimlə gəlməyinizi əmr edirəm, şagird Loman!

Loman siqareti can çəkə-çəkə yerə atdı. Bundan dərhal sonra Qanmaz məmnunluqla öz yerinə əyləşdi.

– Görürsünüz?! Təbii ki, əlbəttə. Bu, müəlliminin rəğbətini qazanmaq istəyən şagirdə layiq bir hərəkətdir... Sizi Loman, müəlliminiz bağışlayır, çünki siz, yenə də, həmişəki kimi, necə deyərlər, *mente captus*[1]*-sunuz*. Axı məhəbbətiniz uğursuz alınıb.

Loman qollarını aşağı saldı. Sifəti avazımışdı, şəvə göz-

---

[1] Ağıldankəm (*lat.*)

ləri od tutub yandığından daha da qaralmışdı, odur ki aktrisa Frölix heyrətlə onu süzdü.

– Yoxsa ayrısı da var? – Qanmaz zəhərini onun üstünə töküb şadyana soruşdu. – Şeir yazırsınız... onsuz buna görə də yenə...

– ... sinfin məqsədinə yetişmək üçün? – aktrisa Frölix çəkinə-çəkinə soruşdu, bu deyimi o, Kizelakdan eşitmişdi.

Loman öz-özünə deyir: “Murdar bunu da bilir. İndi buradan çıxıb evə gedirəm, dama qalxıram, tüfəngi ürəyimə dirəyirəm. Aşağıda da Dora oturub, royalın arxasında. Doranın oxuduğu qısa mahnı yuxarıya qanadlanır və qanadlarının tozu mənim ölüm yoluma səpələnir...”

Aktrisa Frölix dilləndi:

– Mənə necə şeir yazdığınızı, görünür, hələ unutmamısınız, hə?

Çox mülayim soruşdu, köksünü ötürərək. Ondan daha çox şey istəyirdi. Yadına düşdü ki, ondan həmişə çox şey istəyib, onu da fikirləşdi ki, qəddar adamdır, bir az da düşüncəsizdir.

– Vaxt gələr ki, sən hamilə olarsan... Hə, görəsən, kimdir hamilə?

Bunu da. Onlar bunu da bilirdi. Loman üzünü çevirib qapıya doğru yeridi, hökmü oxunmuşdu. Qapının dəstəyindən yapışanda Qanmazın səsini eşitdi:

– Əlbəttə və yəqin. Siz aktrisa Frölixə uğursuz məhəbbət izhar etmisiniz, o da, hər halda, qərara alıb ki, etirazını bildirsin, buna görə də o abırsız şeirdə ifadə etdiyiniz arzuya cavab verməyib. Siz indi aktrisa Frölixin yanında ağzıbirdə oturmursunuz, Loman. Siz aktrisa Frölixi ram edə bilmədiniz, Loman. İndi isə doğma yurda dönə bilərsiniz, Loman.

Loman çevik bir hərəkətlə geriyə döndü.

– Elə bu?

– Elədir ki var, – Roza cavab verdi. – Elədir ki var, hər söz də yerindədir.

Qoca gicbəsər qocalıq qürrəsinin içində üzürdü. Digər canlı iştahsız bir qız idi, vəssalam. İkisi də ziyansızdır, ikisi də xəbərsizdir. Keçmiş anlarının fəciliyi, Loman səhvən bunu yaşamalı oldu, özü də haqsız yerə. O daha özünü güllələməyə getmədi. Özünün məyusluğunu, az qala, gicliyini dərk etdi. Bütün bunlar necə də səfeh alındı; alçaldıcı məişət komediyası, o isə hələ də bu ağzıbirdə vumuxur.

***

– Belə, fon Ersum, – Qanmaz sözə başladı. – İndi də siz, həmişəki kimi yenidən, meydanı boşaldın. Həyasızlıq edib müəlliminizin yanında davaya girdiyinizə görə əzbər bilmədiyiniz “İlahi nəğmələr”in üzünü altı kərə köçürün.

Ersum donub-qaldı, ağlı başına gəldi, dərk etdi ki, azca əvvəl həzz aldığı əzələ sevinci yalnız özünü aldatmaq olmuşdur, onun atlet üzərindəki qələbəsi yetərli olmayıb, burada yalnız bircə qalib olub: Qanmaz! Dərhal sonra o qorxa-qorxa aktrisa Frölixin etinasız sifətinə baxdı.

– Rədd olun başımızdan! – Qanmaz bağırdı. – Kizelak ona arxa çevlrmək istədi. – Haraya? Müəllimin icazəsi olmadan!.. Siz mənə Vergilinin qırx şerini əzbər deyəcəksiniz!

– Niyə? – Kizelak özündən çıxdı.

– Çünki müəllimin belə istəyir!

Kizelakın cəpəki baxışı onu silib keçdi, onunla söhbəti uzatmağa həvəsi qalmadı. Kirmişcə aradan çıxdı.

O biri iki yoldaşı ondan azca qabaqda gedirdi.

Rozaya aşnası ilə birlikdə nifrət etməyə, hər ikisini alçaltmağa ehtiyac duyduğundan Ersum dilləndi:

– Gərək qızı itirilmiş sayaq. Mən artıq bu fikrə alışıram. İnandırıram səni, Loman, mən bundan ölməyəcəyəm... Bəs bu Qanmaza nə deyirsən? Belə bir həyasızlıqla haçansa rastlaşmısanmı?

Loman acı-acı gülümsədi. Başa düşdü ki, Ersum əzilib və gileylənərək ənənəvi mənəviyyatdan yapışır, əzilmişlərin daimi pənah yeri olan mənəviyyatdan. Bu gün nə qədər uğursuzluğa düçar olsa da, Loman həmin mənəviyyatı qəbul etmirdi.

Odur ki dilləndi:

– Oraya getməyimiz və onu pərt edə biləcəyimizi düşünməyimiz yanlış idi. Gərək fikirləşəydik ki, o çoxdan sırtılıb. Bizi çoxdan cinayət ortağı sayır. Burada biz onunla tez-tez toqquşmuşuq. O, bizi evimizə ötürüb ki, Frölixin yanında onun üçün təhlükəyə çevrilməyək. Əslində, istisna kimi qəbul edirmi ki, bir başqası bu arada Roza üçün təhlükəli olmayacaq? – Ersum yaralı insan kimi zarıdı. -Bundan sonra səni illüziyalarla aldatmaq ziyanına olardı, Ersum. Kişi ol!

Ersum titrək səslə inandırmağa çalışdı ki, Roza heç onun vecinə də deyil, onun pak olub-olmamasını da soruşmur.

Yalnız əxlaq barədəki düşüncələrinə görə Qanmaz onu hövsələdən çıxarır.

– Məni yox, – Loman dedi. – Bu Qanmaz məni yerimdən oynatmağa başlayır. Əslində, o, maraqlı bir istisnadır. Hansı şəraitdə çalışdığını, hamını özünə qarşı qaldırdığını düşün. Məncə, bundan ötrü adamda özünə inam olmalıdır, mən öz şəxsimdə belə şeyin öhdəsindən gələ bilməzdim. Bunun üçün adamın canında gərək bir balaca anarxistlik olsun...

Bunların hamısı fon Ersumun anlaq dairəsindən kənarda idi. O nəsə mızıldadı:

– Nə? – Loman dilləndi. – Elədir. Ağzıbirdəki mənzərə ikrahlı idi. Amma onda nəsə ikrahlı bir həşəmət vardı. Ya da, sənin istədiyin kimi, nəsə həşəmətli bir ikrah. Hər necə olsa da, həşəmət var idi.

Ersum özünü saxlaya bilmədi:

– Loman, Roza, doğrudan da, pak idi?

– Hm, hər halda, indi Qanmaz onun günahının üstünü örtdü. Yaxşısı budur, onun keçmiş həyatından üz döndərəsən.

– Mən onu pak bilmişəm. Hər şey mənə yuxu kimi gəlir. Güləcəksən, Loman, amma mən özümü güllələyə bilərdim.

– İstəyirsən, gülüm.

– Mən buna necə dözüm? Kiminsə başına haçansa belə bir oyun gəlibmi? Onu elə uca tuturdum ki! Əslində, dəqiq xatırlayıramsa, onunla olmağa heç ümidim də yox idi. Məm hunların kurqanını dağıdanda hansı həyəcanı keçirdiyimi yaxşı xatırlayırsan. Bu, lovğalıq deyildi, yalandan uzaq olmaq istəyirəm, verəcəyim qərardan qorxmağım idi. Mənə qoşulub qaçsaydı, Allah özü şahiddir ki, heyrətlənərdim. Ağlıma haradan gələrdi: bütün qəlbini mənə vermişdi axı... Sonra püşk atılanda...

Loman kənardan onu süzdü. Püşkün atılmasından danışmaq üçün Ersum görünməmiş vəziyyətdə olmalı idi.

– ...hər halda, mən ümidini itirmiş bir adam idim, bunu da demək lazımdır. Amma bu günlə müqayisədə gözəl idi. Başa düşürsən, Loman, necə dərinə yuvarlandı?

– Qanmaz dərinliyinə!

– Bir özün fikirləş! Roza o çirkabın malı deyil. O pakdır axı. Yaxud qadınların sonuncusu ola bilərdi.

Loman dinmədi. Ersum, deyəsən, bu fikirdə idi ki, Roza Frölix əlçatmaz buludlar taxtında oturur. Görünür, bunu belə

istəyirdi. Özünün gicgici “mən”inə təlqin etmişdi ki, Roza Frölixə qarşı heç vaxt ciddi fikirdə olmayıb. Özünü aldatmanın məqsədi o olub ki, Qanmazın öz bataqlığından Rozanın səviyyəsinə qalxa bilməməsini sübut etsin. Həyat təcrübəsi sağınçı qızın simasında uzaqlarda qalmışdı; əsəbləri tanma çəkilmiş xəyalpərvər isə kürən yunkerə çevrilmişdi, zira bu, Ersumun özünəvurğunluğuna üstünlük qazandınrdı...

“Adam bu imiş!” – Lomanın fikrindən keçdi.

– Və İndi mən özüm özümdən soruşanda, – Ersum yenə dilləndi, – buna, doğrudan da, izah tapmıram. Ona bir insanın təklif edə bildiyi hər şeyi təklif etmişəm... Məni sevdiyinə, doğrusunu deyim ki, əslində, az ümid edirdim. O, səninlə yaxşı davranırdı, nəinki mənimlə! Niyə də məhz məni seçməli idi?!. Amma əvəzində Qanmazı?! İnanırsan, oğlan? Qanmazı?!

– Qadınlar müəmmadır, – Loman fikrini bildirib fikrə qərq oldu.

– İnana bilmirəm. Məncə, Qanmaz ona başgicəlləndirən vədlər verib: qızı bədbəxt edəcək. – Sonra da əlavə etdi: – Bəlkə, onda...

Bu vaxt Kizelak gəlib hər ikisinə çatdı. Xeyli vaxt idi onlann arxasınca sürünürdü. Səsini başına salıb bildirdi:

– Belə də heyvanlıq olar?! Qanmaz on markının başından keçdi, açar deşiyindən öz gözlərimlə gördüm.

– Yalan deyirsən, donuz balası! – Ersum nərildəyib balacanın üstünə cumdu.

Ancaq Kizelak bunu əvvəlcədən görmüşdü və bir anın içində başını götürüb aradan çıxdı.

## ON BİRİNCİ FƏSİL

Kizelak yalan demişdi. Aktrisa Frölixə pul təklif etməkdən Qanmaz çox-çox uzaq idi: bu, həssaslıqdan, eləcə də xəsislikdən deyildi, əksinə, ağlına gəlmirdi, Roza da bunu bilirdi. Ona tutmaq istədiyi mənzil yadına düşənə qədər aktrisa Frölix dəfələrlə eyhamlara müraciət etməli oldu. Axırda onu mebelli bir otaqda yerləşdirməkdən söhbət salanda qadının səbri kəsildi və o, məcbur olub mənzili özlərinin bəzəməsini tələb etdi. Qanmaz bərk heyrətləndi.

– Ər-arvad Kipertlə bir yerdə yaşamağa alışdığına görə...

O, sabit kateqoriyalarla düşünməyə öyrəşmişdi; bu cür sərt dönüşlərə hələ hazır deyildi, gərək hər şeyi saf-çürük edəydi. Çox ciddi düşünməyə başladı.

– Amma əgər... yaxşı olar yadda saxlayasan... ər-arvad Kipert şəhərdən çıxıb getsələr?..

– Mən də onlarla getmək istəməsəm? – Roza tamamladı. – Onda, görərsən, nə edərəm? – Qanmaz çaşıb-qaldı. – Hə? Qanmazcığım? Hə? – Onun ayaqları önündə atılıb-düşdü, özü də zəfərlə: – Onda burada qalıram!

Qanmazın üzündə şimşək çaxdı. Belə bir yenilik heç vaxt onun ağlına gəlməzdi.

– Onda burada qalırsan, – bir neçə dəfə təkrarladı ki, bu sözlərə alışsın. – Pis fikirləşməmisən, – minnətdarlıqla əlavə etdi. Özünü xoşbəxt sayırdı, bununla belə, aradan bir neçə gün keçəndən sonra Roza Frölix özünün pıçıltı bacarığını işə salıb öyrənə bildi ki, Qanmaz onun "Mavi mələk"də yeməsinə icazə verməyəcək və naharın haqqını tanınmış hotellərdən birlndə ödəyəcək.

Bunu deyəndən sonra hətta onunla birlikdə yemək də istədi. Roza buna etiraz etdi, kişi də çaşıb-qaldı. Əvəzində aktrisa icazə verdi ki, Qanmaz "İsveç sarayı"nda təkcə yeməyin yox, öz mənzili hazır olana qədər bir otağın da pulunu ödəsin.

Qadını ətrafından qoparıb özünə daha möhkəm bağlamaq, aktrisa Frölix dünyasından ayırmaq imkanına o, oğlanlara xas bir cəhdlə girişirdi. Təkcə bu imkanı qaçırmamalı idi. Oboyçunu tələsdirirdi, axı iş aktrisa Frölixin idi. Mebel tacirini aktrisa Frölixin narazılığı ilə hədələyirdi, qab-qacaq və pal-paltar mağazalarında aktrisa Frölixin ərkəli zövqünü yada salırdı. Şəhər aktrisa Frölixə məxsus idi; Qanmaz ona yaraşan hər şeyi hər yandan alırdı, pis baxışları vecinə almadan hər yerdə onun adını tuturdu. Bağlamalarla yüklənərək həmişə yolda olardı: gah Rozanın yanından gələn yolda, gah da ona doğru gedən yolda. Səhərdən axşamacan təxirəsalınmaz və təcili işlərin qeydinə qalırdı ki, həmin işləri də aktrisa Frölixlə müzakirə edib barələrində qərar verməli olurdu. Onu xoşbəxt edən bu əməldən bozumtul yanaqlarında indi çox vaxt qırmızı ləkələr əmələ gəlirdi. Gecələr rahat yatırdı, gündüzləri isə boş vaxtı olmurdu.

Yeganə dərdi o idi ki, Roza Frölix heç vaxt onunla gəzməyə çıxmırdı. Onu şəhərdə gəzdirmək, kraliçaya öz

səltənətini göstərmək, onu təbəələrinə təqdim etmək, qiyamçılardan qorumaq istəyirdi: zira həmin vaxtda Qanmaz heç bir qiyamdan qorxmurdu, onu hətta özü təşviq edirdi. Bu müddətdə Frölixin ya məşqi olurdu, ya da o, yorğunluq keçirirdi, yaxud da özünü pis hiss edirdi, ya da gonbul qadın onu hirsləndirmiş olurdu. Buna görə də Qanmaz frau Kipertlə davaya qalxdı və məlum oldu ki, aktrisa Frölixi qadın bütün günü görməyib.

Qanmaz heç nə başa düşmədi. Frau Kipert müəmmalı gülümsədi. Kişi peşman-peşman geri –aktrisa Frölixin yanına qayıtdı, o da kişini təzədən sakitləşdirməli oldu.

Rozanın bu hərəkətinin əsl səbəbi sadə idi: onunla camaat arasına çıxmağı erkən hesab edirdi. Camaat onu Qanmazın yanında görsəydi, dilini dinc qoymayacaqdı. Özü barəsində Qanmazın eşidə biləcəyi söz-söhbəti zərərsizləşdirmək üçün hələlik kişiyə təsir etmək gücünə malik deyildi. O, özünü, doğrudan da, abırlı saymırdı; həqiqətən də, bəzi işlərdən çıxmışdı və əslində, onlardan heç danışmağa da dəyməzdi, lakin belə şeyləri ciddi qəbul edən kişi gərək bunları bilməyəydi. Kişilər ağıllı olsalardı, işləri necə də asan gedərdi. Onda hərə öz Qanmazının çənəsinin altından yapışar və ona, sadəcə, danışardı: “Belə-belə işlər”. Amma indi gərək aldatsın. Ən pisi də odur ki, kişi axmaq-axmaq fikirlərə düşüb özündən uydurur ki, qadın başqası ilə məzələnmək üçün evdə tək qalmağa çalışır. O bir Allah bilir ki, belə deyil. Həmin işdən qadın çoxdan bezib və indi özünün məzəli qoca Qanmazı ilə azca rahatlıq tapdığına sevinir, o Qanmazı ilə ki, öz Rozasına həyatda heç kimə ayırmadığı vaxtı ayırır və gerçəkdən də onu – Roza hərdən uzun müddət xəyala dalıb bunu müşahidə edir – yaxşı adam hesab etmək olar.

Onun qorxduğu şübhə Qanmaza yad idi; Qanmaz o düşüncənin sahibi deyildi.

Digər tərəfdən də insanların dedi-qodusuna o, öz tərəfindən rahatca müqavimət göstərmək haqqına malik idi. Qanmaz Rozanın təsəvvür etdiyindən də güclü idi. Ona hücumlar edilirdi, o da bu hücumları dilə gətirmədən dəf edirdi. Çoxusu da məktəbdə baş verirdi.

***

Qanmazın həyat tərzinin işdən kənarda dəyişməsindən Kizelakın sayəsində hamının xəbəri vardı. Cavan baş müəllimlərdən bir neçəsi karyeralarındakı inkişafa hansı mülahizənin təsir edə biləcəyi şübhəsi ilə salam verməmək xatirinə ondan yan ötürdülər. Ayrı vaxtlar baş müəllimlərin yol tapa bilmədiyi zəngin bir ailənin qızını gözaltı etmiş cavan baş müəllim Rixter onu acınacaqlı bir təbəssümlə salamlayırdı. Digərləri isə hər cür təmasdan aşkarca qaçırdılar. Onlardan biri Qanmazın sinfində "əxlaqlı qan-, daha çox zibildən" danışıb dedi ki, şagirdlər buna bulaşmasınlar. Bu həmin baş müəllim Hübenet, vaxtilə Qanmazın oğlundan və onun əxlaqsızlığından ikrahla danışan Hübenet idi: elə o vaxt da atasının sinfində.

İndi Qanmaz məktəbin həyətində görünəndə nəzarətçi müəllim üzünü yana çevirərdi, uşaqlar da birağızdan qışqırardı:

– Oho! Buradan yenə əxlaqlı Qanmazın qoxusu gəlir!

Qoca professor yaxına gəldi, səs artıb-çoxaldı, Qanmazın zəhərli, çəp baxışından tədricən yavaşıdı; sonra Kizelak onun yolunun üstünə çıxıb çəpəki bir baxışla astadan və təmtəraqla dedi:

– Daha çox zibil.

Qanmaz belini büküb ayağını sürüyə-sürüyə yoluna davam etdi; o, bunu Kizelaka sübut edə bilməzdi.

Ona heç nəyi sübut edə bilmədi, özü də hiss etdi ki, Kizelakı heç vaxt təzədən yaxalaya bilməyəcək, necə ki nə fon Ersumu, nə də Lomanı yaxalaya bilir. Onun özü və hər üç şagirdi qarşılıqlı dözüm əsasında yaşayırdılar; məsələn, Lomanın dərsdə, ümumiyyətlə, iştirak etməməsinə, dərsi danışmağa çağırılanda isə artistsayağı səsi ilə məşğul olduğunu deməsinə qarşı Qanmazın gücü çatmırdı. Uzun müddət sinifdə oturub heç nə etmədiyindən hirslənərək köçürmək üçün sinif yoldaşının dəftərini əlindən alan fon Ersuma qarşı da Qanmaz bir şey edə bilmirdi. Verilən bütün suallar zamanı mənasız cavabları ortaya atmaqla Kizelakın yoldaşlarını necə çaşdırmasına, necə ucadan nitqlər söyləməsinə, heç bir səbəb olmadan necə sinifdə gəzməsinə, hətta dərsin ortasında necə dava salmasına tamaşa etməli olurdu.

Qanmaz haçansa hədələnmiş zülmkarın panikasına qapılıb başçıları ağzıbirə salırdısa, vəziyyət daha da pislə-

şirdi. Onda sinif ağzı açılan şüşələrin partıltısını və stəkanlara tökülən şərabın qur-qurunu, ucadan deyilən "Prost!" kəlməsini, şübhəli hihiltiləri, öpüş səslərini eşidirdi... Qanmaz başıalovlu qapıya cumub Kizelakı təzədən içəri buraxırdı. Qalan iki nəfər dəvətsiz içəri girirdi, üz-gözlərindəki hədə və nifrət ifadəsi ilə.

Şübhəsiz ki, Qanmazın bir anlığa ovqatı pozulurdu. Amma bunun onlara xeyri nə idi?! Sonda məğlublar, aktrisa Frölixi ram edə bilməyənlər onlar olmadımı?!. Ağzıbirdə, aktrisa Frölixin yanında oturan Loman ki deyildi... Məktəbin qapısından keçər-keçməz Qanmaz çırpınıb yamanlığını üstündən tökdü və fikrini aktrisa Frölixin camaşırxanadan götürəcəyi boz pencəyinə və qadını heyrətləndirəcək konfetə yönəltdi.

Bunun əksinə olaraq gimnaziyanın direktoru altıncı sinifdə baş verənlərə uzun zaman göz yuma bilmədi. Qanmazı kabinetinə çağırtdırıb ona sinfini aşkarca korlayan mənəvi çöküşdən söz saldı. Yoluxdurucu maddənin haradan gəldiyini o araşdırmaq istəmirdi. Müəllim xeyli gənc olsaydı, araşdırmanı aparardı. Cənab həmkarı isə saçını şərəflə ağardıb, buna görə də bir tərəfdən özü haqqında qoy özü düşünsün, digər tərəfdən də sinfə cavabdeh olan müəllimin uşaqlara nümunə olduğunu unutmasın.

Qanmaz cavab verməyə çalışdı:

– Cənab direktor, Afinalı Perkil, gerçəyi budur, Aspasiyanı[1] sevirdi.

Direktor bildirdi ki, bura Aspasiyanın yeri deyil. Qanmaz da, öz növbəsində:

– Klassik idealları şagirdlərə mən, həmişə bir də təzədən, mənasız nağıl kimi oxusam, həyatıma kəc baxardım. Klassik təhsil almış adam aşağı təbəqənin əxlaq xurafatından yaxa qurtarmalıdır.

Deməyə söz tapmayan direktor Qanmazla söhbəti bitirib bir xeyli xəyala daldı. Axırda qərara aldı ki, eşitdiklərini heç kimə deməsin, qorxdu ki, dünyadan bixəbər insanlar bunu gimnaziyanın və müəllimlərin ziyanına şərh edərlər.

Təsərrüfatçı qadını – o, aktrisa Frölixin evə tez-tez gəlməsinə kəskin etiraz edirdi – Qanmaz soyuqqanlılıqla çıxıb

[1] Qədim yunan dövlət xadimi Perkilin nişanlısı Aspasiya ruhən və əqlən yunan qadınlarından xeyli üstün idi. nəzərdə tutur.

getməyə məcbur etdi, bununla da qadının cingənəliyi, sanki, daşa çırpılıb çilik-çilik oldu. Onun əvəzinə "Mavi mələk"dən bir qız gəldi. O, döşəmə əsgisinə bənzəyirdi və ətçi oğlanı, buxarı təmizləyəni, qazçını və bütün küçəni öz otağında qəbul edirdi.

Sir-sifətindən sarılıq yağan dərzi qadın ki, aktrisa Frölixin tapşırığı ilə Qanmaz ona tez-tez baş çəkirdi, özünü həmişə soyuq və ciddi aparırdı. Bir gün Qanmaz böyük bir sifariş üçün hesabı təzəcə bağlayandan sonra dərzinin dili açıldı. İnsanların nə dediyini cənab professor öz qulaqları ilə eşitdi. Məgər bu, rüsvayçılıq deyilmi?! Onun yaşında... ümumiyyətlə. Qanmaz heç bir cavab vermədən pulun xırdasını kisəsinə qoyub yola düzəldi. Yarı açılmış qapıda başını içəri salıb bir daha gülümsədi və ikrahla dedi:

– Bu danışıq üçün hansı məqamı seçdiyinizin sizə yararlı olduğunu nəzərə alaraq demək lazımdır ki, əzizim, lazımsız olaraq açıq danışmağın sizə hansı maddi ziyan törədəcəyindən qorxurdunuz. Narahat olmayın! Siz gələcəkdə də aktrisa Frölix üçün işləyə bilərsiniz.

Bunu deyib qapıdan çəkildi.

Nəhayət, bir bazar səhər tezdən Qanmaz "Homerin ədatları" konspektinin arxa səhifəsində aktrisa Frölixə yazdığı məktubun qaralaması üzərində işləyərkən qapı döyüldü və əynində qara, qırçınlı pencək, başında isə hündür şlyapa olan çəkməçi-usta Rindflayş içəri girdi. O, dabanlarını cütləyib şişman qamını sığalladı və dedi:

– Cənab professor, sabahınız xeyir, cənab professor, istərdim, sadəcə, xahiş edim ki, professora sual verə bilərəmmi?!

– De gəlsin, usta, – Qanmaz dilləndi.

– Çoxdandır götür-qoy edirəm, yenə də çətin olacaq. Sadəcə, Allahın istəyi belədir.

– Tərpən, kişi, de gəlsin!

– Xüsusilə onu deyim ki, belə şeyi cənab professordan heç cür gözləyə bilmirəm. Cənab professorun haqqında camaat çox danışır, bunu cənab professorun özü, yəqin, yaxşı bilir. Amma isəvi olan kəs gərək belə sözlərə inanmasın. Yoox. Heç cür yox.

– Əgər belədirsə, – deyib Qanmaz söhbətin qurtardığına işarə etdi, – nə deyəsən?!

Rindflayş şlyapasını çevirib yerə baxdı.

– Elə olmağına elədir. Amma Allah buyruğudur ki, mən bunu cənab professorun yadına salım: bu Onun ürəyincə deyil.

– Nədir Onun ürəyincə olmayan? – Qanmaz soruşub altdan-yuxarı gülümsədi. – Yoxsa aktrisa Frölixdir?

Çəkməçi ona nazil olan missiyanın ağırlığından güclə nəfəs alırdı. Onun uzunsov, sallaq yanaqları, sanki, sürüşüb təkə saqqalına qərq oldu.

– Mən haçansa sizi xəbərdar etmişəm ki, cənab professor, – bu sirdən onun səsi batdı, – Allah bunu ona görə rəva bilir ki...

– ...Daha çox mələk qazansın. Belə, usta. Ona görə baxım görüm nə etmək olar.

Rişxəndli təbəssümünü üzündən silmədən Qanmaz Ridflayşı sıxışdırıb qapıdan çıxartdı.

***

Qanmaz beləcə qorxusuz-hürküsüz və şad-xürrəm yaşayırdı, bu vaxt dəhşətli olaylar baş verdi.

Meşəbəyilərdən biri rəhbərliyə bildirdi ki, meşədəki hun kurqanı əməlli-başlı dağıdılıb. Onun dediyinə görə, işlənilən suçun vaxtı bazar günlərindən birinə təsadüf edir, həmin gün o, meşəyə gedən yolda bir dəstə gəncə rast gəlib. Prokurorluq uzun zaman havayı təhqiqat apardıqdan sonra bir bazar ertəsi meşəbəyi özünü akt zalında gimnaziyanın direktorunun yanına saldı. İbadət davam etdiyi müddətdə direkor Bibliyadan bir fəsli oxumaq, yaxud sinfi xoral oxutmaq istədi... Xalq içindən çıxmış kişi direktorun kürsüsündən üstdən-aşağı toplantını diqqətlə süzdü. Bu vaxt o, əlinin arxası ilə tez-tez alnını silirdi və deyəsən, halı özündə deyildi. Nəhayət, aşağı enəsi oldu və direktorun müşayiətində şagirdlərin sırası ilə yeridi. Bu zaman o, özünü yuxarı cəmiyyətin içinə düşmüş adam kimi apardl, heç kimin üzünə baxmadı, onun ayağını tapdamış Ersumun qarşısında baş əydi.

Caniləri gimnaziyanın ərazisində tapmaq ümidi boşa çıxanda direktor xüsusu bir bicliyə əl atdı. Əvvəlcə Bibliyadan özəl bir fəsil oxudu; sonra camaatı inandırdı ki, bu oxunuş, ən azı, günahkarlardan birini yerindən oynadacaq, o da vicdan əzabı çəkib peşman olacaq, direktorun kabinetinə getmədən özünün suç ortaqlarını ələ verib ədalətin bərpasına yardımçı olacaq. Etirafının mükafatı olaraq o təkcə

cəzadan azad olmayacaq, həm də pulla mükafatlandırılacaq... Bununla da mərasim sona yetdi.

Aradan üç gün keçəndən sonra elə oldu ki, Titus Liviusa həsr olunmuş və səs-küyün, əlavə işlərin sinfi başına götürdüyü dərsdə Qanmaz qəflətən kürsüdən enib bağırmağa başladı:

– Loman, fərdi oxunuzu bundan sonra ayrı yerdə davam etdirəsi olacaqsınız. Kizelak, siz uzun zaman burada veyllik eləmisiniz. İndi tezliklə, həmişə və yenidən, doğma yurdunuzda peyin daşıyarsınız, fon Ersum. Bu üç abırsızı ağzıbirə salmaqdan çox uzağam, onların pozğunluğuna qarşı bu, gözəl bir sığınacaq olardı, istəyirəm onların ömür yolları murdar oğru və canilərin arasında sona yetsin, özlərinin layiq olduqları sona. Abırlı insanlarla oturub-durmağa layiq deyillər, bizimlə birgə eyni havanı udmalarına çox az qalıb.

Doğrudur, Loman alnını düyünləyərək ayağa qalxıb izahat üçün icazə istədi; ancaq Qanmazın batıq səsi nifrətdən qidalanıb elə bərkdən çıxdı ki, üz ifadələri elə ürpədici zəfər ifadə etdi ki, hamı özünü əzilmiş saydı. Loman təəssüflə çiyinlərini çəkib təzədən yerinə əyləşdi.

Növbəti tənəffüsdə onu Kizelak və fon Ersumla birlikdə direktorun yanına çağırdılar. Geri qayıdarkən aşkar saymamazlıqla bildirdilər ki, direktorun yanına axmaq hun kurqanına görə çağırılmışdılar. Elə həmin an dövrələrində bir boşluq yarandı. Kizelak pıçıldadı:

– Bizi kim satmış olar, uşaqlar?

Lomanla fon Ersum ikrahla bir-birinin gözünün içinə baxıb arxalarını Kizelaka çevirdilər.

Bir gün çeşt ağzı hər üçü dərsdən azad edilərək məhkəmə heyətinin müşayiətində meşəyə getdi və onları hun kurqanının, zorakılıq əməllərinin predmeti önünə çıxardılar. Meşəbəyi burada onları tanıdı. İşin təhqiqatı onları daha neçə gün dərsdən azad etdi. Nəhayət, müttəhim kimi məhkəmənin iclas zalına daxil oldular. Şahidlər skamyasından onları Qanmazın zəhərli irişiyi qarşıladı.

Konsul Bretpotla konsul Loman zalda oturmuşdular və prokuror köməkçisi hər iki nüfuzlu cənaba baş endirməkdən özünü saxlaya bilmədi. Gizlində o, gənc Lomanın və dostunun gicliyinə əllərini ovuşdurdu ki, günahlarını vaxtında bildirməyiblər. Bu işi aləmə yaymaqdan ittihamçı idarə yan ötə

bilərdi Elə bilirdilər ki, bu cinayəti Kizelak xasiyyətli oğlanlar edib.

Məhkəmə prosesi başlayandan sonra sədr hər üç müttəhimdən soruşdu ki, onlar özlərini günahkar sayırlarmı. Kizelak həmin an təkzib etməyə başladı. Cavab verdilər ki, o özü direktoruna etiraf edib və ilkin istintaq ərzində hər şeyi boynuna alıb. Direktor irəli yeriyib deyiləni ətraflı təsdiq etdi. O, and altında idi.

– Cənab direktor yalan deyir, – Kizelak etirazını bildirdi.

– Amma cənab direktor and içib.

– Oho! – Kizelak heyrətləndi, – onda əməllicə yalan danışır. – Yüyəni əldən vermişdi. Onsuz da məktəbdən qovulacaqdı. Bundan əlavə, dişi bağırsağını kəsirdi və insanlara inamı alt-üst olmuşdu, çünki vəd edilən mükafatın əvəzinə məhkəmə qarşısına çıxarılmışdı.

Lomanla qraf Ersum hadisəni etiraf etdilər.

– Onu edən mən olmamışam, – Kizelak qarğa kimi qarıldadı.

– Ancaq biz! – bu cür yoldaşlıqdan pərt olan Loman kəsdirdi.

– Pardon, – Ersum dilləndi. – Bunu mən tək etmişəm.

– Buyur görək, – Lomanın üzünə yorğun bir ciddilik qondu. – Adına necə deyirlər bilmirəm, deyək ki, ictimai mülkiyyətin dağıdılmasında özümün iştirakımı qətiyyətlə təsdiq edirəm.

Fon Ersum təkrarladı:

– Mən onu tamam tək dağıtmışam. Gerçəyi budur.

– Əzizim, boş-boş danışma, – Loman, az qala, yalvardı. Ersum da cavabında:

– Lənət şeytana! Sən axı oradan xeyli aralı idin. Sən zadla oturmamışdınmı?!

– Kimlə? – sədr soruşdu.

– Heç kimlə... məncə, – Ersum qıpqırmızı qızardı.

– Yəqin, Kizelakla, – Loman dedi.

Prokurorun köməkçisi istəyirdi günah çox adamın arasında paylansın ki, konsul Lomanın oğluna və konsul Bretpotun qəyyumluğa götürdüyü Ersuma az cərimə düşsün. Fon Ersumun diqqətini canfəşanlığının faydasızlığına yönəltdi.

– Özünüzü körpə uşaq kimi aparmayın, təkbaşına görmək istədiyiniz işi ən güclü adam da bacara bilməz.

– Bacarar, – qürurla, sadəcə, cavab verdi.

Sədr ondan və Lomandan başqalarının adını demələrini tələb etdi.

– Yəqin, özündənrazı böyük dəstə olmusunuz, – məmnunluqla gümanını bildirdi. – Bizə yalnız iştirakçıların adlarını deyin, bununla həm bizə, həm də özünüzə yaxşılıq etmiş olarsınız.

Müttəhimlər dinmədilər. Bu hərəkətdə hansı xoş məramın gizləndiyini müdafiə məhkəmənin diqqətinə çatdırdı. İlkin istintaq zamanı cavan oğlanların ikisi də özlərindən başqa heç kimi ələ verməmək niyyətlərindən dönməmişdi.

Kizelak da heç kəsi ələ verməmişdi, amma onu düzəməlli dəyərləndirmədilər. O da, sadəcə, son zərbəni ehtiyatda saxlamışdı.

– Deməli, başqa heç kim olmayıb, hə? – sədr bir də soruşdu.

– Xeyr, – Ersum cavab verdi.

– Xeyr, – Loman da dilləndi.

– Yox, olub! – Verilmiş tapşırığı əzbər öyrənmiş şagird kimi Kizelak bərkdən səsləndi. – Aktrisa Frölix də bizimlə idi! – Hamı diqqət kəsildi. – Ümumiyyətlə, istəyirdi ki, hun kurqanını dağıdaq.

– Yalan deyir, – Ersum səsini qaldırıb dişini qıcadı.

– Hər kəlməni yalan deyir, – Loman dostunun sözünü tamamladı.

– Bir kəlməm də yalan deyil! – Kizelak israr etdi. – İstəyirsiniz cənab professordan soruşun! Onu hamıdan yaxşı o tanıyır. – Bunu deyib şahidlər skamyasına doğru irişdi. – Bəlkə o da yalandır ki, cənab professor, aktrisa Frölix bazar günü aradan çıxmışdı? O, bizimlə hun kurqanında səhər yeməyi yedi.

Hamı özünü itirmiş, çənəsi dingildəyən Qanmaza baxdı.

– Qadın sizinləmi idi? – hakimlərdən biri heyrətlə və xalis insani marağa xas bir tonda hər iki müttəhimdən soruşdu. Onlar çiyinlərini çəkdilər. Amma Qanmaz az qala boğula-boğula ürəyini boşaltdı:

– Sonunuz çatdı, murdarın biri murdar! Özünüzü, həmişəki kimi təzədən, özünüzü ölülər siyahısında görün!

– Qadın kimdir axı? – prokuror köməkçisi soruşdu, rəsmiyyət xatirinə; zira proses iştirakçılarından hər kəs onun və Qanmazın haqqında hər şeyi bilirdi.

– Cənab professor Qanar bizə məlumat verə bilər, – sədr öz mülahizəsini bildirdi. Qanmaz təkcə onu dedi ki, aktrisadır. Bundan dərhal sonra prokuror köməkçisi adıçəkilən qadının təcili məhkəməyə gətirilməsi barədə məhkəmə qarşısında vəsatət qaldırdı, çünki maraqlanıb öyrənmək istəyirdi ki, cinayətin ziyalı törədicisini bu prosesdə günahkar saymaq olarmı. Məhkəmə vəsadətə müsbət cavab verdi və kuryer həmin an yola düşdü.

Lomanla fon Ersumu müdafiə edən cavan vəkil bu arada susub Qanmazın halını izləyirdi. Vəkil bu nəticəyə gəldi ki, onu danışdırmağın vaxtı çatıb və şagirdləri olan hər üç müttəhimin ümumi, mənəvi və əxlaqi səciyyələri barədə professor Qananın dindirilməsi üçün iddia qaldırdı. Məhkəmə iddianı qəbul etdi. Konsul Bredpotun qəyyumluq etdiyi fon Ersum və konsul Lomanın oğlu haqqında xoşagəlməz ifadədən çəkinən prokuror köməkçisi əbəs yerə buna mane olmağa çalışdı.

Qanmaz məhkəməni camaatdan ayıran səddin qabağına gələndə zalda gülüşdülər. O, qorxunc bir həyəcan keçirdi, iztirablı hirsi onu içəridən gəmirməyə başladı və bədəni suyun içində idi.

– Heç cür şübhəyə yol vermək olmaz ki, – həmin an sözə belə başladı, – aktrisa Frölix o rüsvayçılıqda, ümumiyyətlə, bütövlükdə o iyrənc yeyib-içmədə iştirak edib.

Əvvəlcə özünü müdafiə edəsi oldu. Sonra eyni şeyi bir daha vurğulamaq istədi. Sədr yenə onun sözünü kəsib dedi ki, ondan üç şagirdi bərədə şahidlik etmək tələb olunur. Belə olduqda Qanmaz özündən çıxıb bağırmağa başladı, əl-qol ataraq özünün dərinlikdə uyuyan səsini işə saldı, sanki, onu divara dirəmişdilər və buradan çıxış yolu tapa bilmirdi.

– Bu gədələr insan nəslinin sonuncularıdır! Hələ bir onlara baxın! Bu görkəmdə yalnız məhbəslərin yetirmələri olur! Lap ilkin siniflərdən onlar təkcə müəllimin nüfuzunu danmayıblar, təkcə özləri qiyamçı olmayıblar, həm də qiyam toxumunu başqalarının arasında səpiblər. Onların təşviqi nəticəsində sinfin böyük əksəriyyətini yaramazlar təşkil edir. Burada onların hüzurunda açılan gələcəyə layiq olmaq üçün, inanın ki, düzü belədir, istər inqilabi intriqalar, istərsə də yalançılıq cəhdləri və ən əclaf fikirli digər məşğuliyyət vasitəsilə hər şeyi ortaya qoyublar. Bura mənim onları əvvəlcədən göziədiyim yerdir!..

Ağır yaralanmış heyvana xas intigam nəriltisi ilə üzünü aktrisa Frölixin hər üç azdırıcısına çevirdi.

– Axır ki, üz-üzə gəldik, Loman.

Toplanmış məhkəmə və camaat qarşısında onlardan hər birinin iç üzünü açmağa başladı. Lomanın sevimli şerini, von Ersumun keşiş Telanderin balkon dirəklərinin üstündən gecə ikən aşmasını, Kizelakın şagirdlərə yasaq edilmiş abırsız meyxanalardan birinə getməsini – bütün bunların hamısını hirsindən əsə-əsə açıb ortaya tökdü. Ersumun heç nəyi vecinə almayan əmisini, eləcə də Kizelakın əyyaşlığa qurşanmış, liman məmuru işləyən atasını şəhər əyanlarının məsləksiz pul düşkünlüyü ilə bir araya qoydu.

Məhkəmə bu fanatik çılğınlıqdan həddən artıq məyus oldu. Prokuror köməkçisi üzrxahlıqla konsul Lomana və konsul Bredpota baxdı. Gənc vəkil kinayə və razılıqla zalın əhvali-ruhiyyəsini gözdən keçirdi. Qanmaz pərtləşib coşdu.

Nəhayət, sədr onun sözünü kəsib bildirdi ki, məhkəmə professorun şagirdlərlə münasibətindən aydın təsəvvürə yetişdi. Qanmaz dinləmədən fınxırdı:

– Bu Katilina canlıları[1] abırsızlıqlarına salıb üstündə gəzdikləri torpağı nə qədər təhqir edəcəklər?! Bunlar deyir ki, aktrisa Frölix onların cinayətkar orgiyasının iştirakçısı olub. Məsələ belədir: aktrisa Frölixin şərəfinə toxunmaqdan başqa onların ayrı çarələri qalmayıb!

Bu sözlərdən cuşa gələn zaldakı coşqunun tən ortasında Qanmaz ayaq üstə zorla dura bildi. Zira dediklərinin heç biri onun mənafeyinə münasib deyildi. Daxilən əmin idi ki, seçkinin keçirildiyi həmin bazar günündə nəzərdən qaçırdığı aktrisa Frölix hun kurqanında olub. Hələ bu, az imiş. İndiyə qədər diqqətindən qaçan vəziyyətə saldığı ötəri nəzər nəfəsini kəsdi. Aktrisa Frölix onunla bayıra çıxmaqdan həmişə boyun qaçırmışdı. Evdə qalmaq üçün qadının gətirdiyi bütün bəhanələr nələri gizlədirdi?.. Lomanımı?..

Yenidən Lomanın üstünə düşdü, üzünü ona tutub bağırdı ki, silkinin ağalığının sonu çatmışdır! Amma sədr onu öz

---

[1] *Katilina canlıları* – Katilina kimi itirməyə heç nələri olmayan üsyançılara verilən ad. Müflisləşmiş zadəgan olan Romalı Katilina e.ə. 65-ci ildə senata qarşı sui-qəsdə başçılıq edir ki, lüt-üryan kütlələrin dəstəyi ilə hakimiyyəti ələ keçirsin. Qanmaz burada Siseronun Katilinaya qarşı illərdən bəri latın dili dərslərində şərh etdiyi "İkinci Katilina nitqi"nin üslubunda danışır.

yerinə dönməyə çağırdı və şahid Frölixi içəriyə gətirməyi əmr etdi.

Frölixin gəlişi pıçıltılara səbəb oldu; sədr zalı boşaltdıracağı ilə hədələdi. Sakitləşdilər; zira aktrisa xoşlarına gəlmişdi. Əyninə bozumtul parçadan sadə və şıq bir kostyum geymişdi, düzünə daranmış başına o qədər də böyük olmayan şlyapa qoymuşdu, şlyapaya dəvəquşu lələyi taxmışdı, üzünə isə qızartdaq boya sürtmüşdü. Cavan qızlardan biri bu barədə anasına öz fikrini bildirib dedl ki, aktrisa çox gözəldir.

Frölix birbaşa hakimlərin hüzuruna yeridi; sədr onu yüngül bir təzimlə qarşıladı. Prokuror köməkçisinin vəsadəti ilə aktrisa andsız dindirildi, o da üzündəki səmimi bir təbəssümlə bildirdi ki, həmin meşə məclisində iştirak edib. Kizelakın vəkili fikirləşdi ki, bu məqamdan istifadə etməyin vaxtı yetişib:

– Nəzərinizə çatdırım ki, üç müttəhimin arasında həqiqəti söyləyən yalnız mənim müvəkkilim olmuşdur.

Amma Kizelaka heç kim maraq göstərmədi.

Prokuror köməkçisi bildirdi ki, təhrik faktı sübuta yetirilmişdir və cavan oğlanlar cəngavərlik edib cinayətə məsul olduqlarını etiraf ediblərsə, bunun əsas günahı aktrisa Frölixlə əlbir olmalarındadır. Kizelakın vəkili vəziyyətdən istifadə edib oturanların diqqətinə çatdırdı ki, onun müvəkkilinin xoşagəlməz hərəkəti, bununla o da razıdır, mənəviyyatın birbaşa korlanmasının nəticəsidir ki, buna da səbəb cavanların şahid Frölix kimi qadınlarla yaxınlıq etmələridir.

– Qədim hun kurqanının başına onların nə oyun açdıqları, – şahid Frölix heç nə olmayıbmış kimi dilləndi, – mənə qaranlıqdır və qaranlıq da qalacaq. Bu cənabın dediyi əlbir məsələsinə gəldikdə isə bircə şeyi bilirəm ki, adıgedən bazarın ilkindisində bu cavan cənablardan biri mənə əməlli-başlı evlənmək təklif etdi; mən təəssüflənib dedim ki, razılıq verə bilmərəm.

Zaldakılar gülüşüb başlarını buladılar. Şahid Frölix çiyinlərini çəkdi, ancaq müttəhimlərdən heç birinin üzünə baxmadı. Üz-gözünə qızartı çökmüş Ersum qəfildən dilləndi:

– Xanım düz deyir.

– Təbii ki, – Frölix əlavə etdi, – mənimlə bu üç şagird arasında həmişə ciddi, abırlı münasibət olub və hər şey, belə deyə bilərəmsə, zarafatla məhdudlaşıb.

Bu izahatı Qanmaz üçün nəzərdə tutmuşdu, odur ki gözünün ucu ilə onu axtardı. Amma kişi başını aşağı salmışdı.

– Şahid bununla deməkmi istəyir ki, – prokuror köməkçisi soruşdu, – onun müttəhimlərlə davranışı əxlaq normalarının sədlərini heç cür aşmayıb?

– Heç cür çox şey deməkdir, – bunu deməklə Frölix qərara aldı ki, məhkəmədə izahat verməklə, dolayı da olsa, öz qoca Qanmazına hər şeyi etiraf etsin. Həmişə yalanı söyləmək əksərən daha çox cansıxıcılığa gətirib çıxanr. – Heç cür düz deyil. Amma ikincidərəcəli işlərdə hə.

– Şahid ikincidərəcəli işlər altında nəyi başa düşür? – sədr soruşdu.

– Bunu, – deyib o, zaldakı camaatın gözü qabağında cəp-cəp burnunun ucuna baxmağa başlayan Kizelakı göstərdi. Kizelak özünə qarşı getdikcə daha çox antipatiya oyadırdı: indi də bəxti gətirdiyinə görə. Kinini boğa bilməyib nəsə deməyə çalışdı:

– Yalan deyir axı.

Amma sədr üzünü yana çevirdi. Bütün iştirakçılar kimi o da insanaxas həyəcanlı əhvali-ruhiyyəyə qapıldı. Dostu fon Ersumun uğursuz evlənmə təklifini açıb ortaya qoyan Rozanın pərt etdiyi Loman yaranmış vəziyyətdən istifadə edərək dilləndi:

– Görəsən, nə istəyirlər, qadının öz zövqü var. O, Kizelakla dil tapırmış, mən də bunu indicə eşidirəm. Ondakı iltifatın digər üzündən xəbərimiz var... Qrafinya olmaqdan əməllicə boyun qaçırır. Heç vaxt heç bir iddiada olmayan mənə isə çəkinmədən deyir ki, onun üçün həmişə axırıncı olacağam.

– Düzdür, – şahid Frölix bunu belə bir ümidlə dedi ki, Qanmaz bu kəlməni eşidən kimi ürəyi yerinə düşəcək.

Zal qəhqəhəyə qərq oldu. Sədr bu dəfə daha bərkdən silkələndi, hakimlərdən kimsə pıxq eləyib qarnını tutdu. Prokurorluğun nümayəndəsi acıqlı-acıqlı dodağını büzdü, vəkil şübhəli şəkidə dodağını çeynədi. Ersum Lomana pıçıldadı:

– Üstəlik, Kizelakla da, qurtardıq bundan sonra! Məndən ötrü o daha yox sayılır.

– Axır ki!.. Əslində, canımızı yaxşı qurtardıq. Tələyə düşən Qanmaz oldu.

– Hun kurqanı məsələsini mən üstümə götürəndə, – Ersum yeyin-yeyin pıçıldadı, – sadəcə, sözümün arasına girmə. Mən, onsuz da, getməliyəm.

Bu vaxt sədr xeyli dincəldikdən sonra zalı boşaldacağını bir daha nəzərə çatdırdı. Sonra şahid Frölixin çıxışını bitmiş sayıb dedi ki, gedə bilər. Bunun əvəzində qadın tamaşaçıların yanına getdi. Qanmazın haraya getdiyini anlaya bilmədi.

***

Camaat gülməkdən qarnını tutanda Qanmaz ağır addımlarla aradan çıxmışdı. Elə qaçmışdı, elə bil, çökən bəndlərin üstündə, bulud şaqqıltısının altında, alov püskürən vulkanların yanında uçurdu. Yan-yörəsindəki hər şey uçub-tökülürdü və onu uçurumlara sürükləyirdi; zira aktrisa Frölix əlavə işlərə qoşulmuşdu! Loman və başqalarının üzərində həmişəlik qələbə çaldığını və kürəklərini yerə çırpdığını güman edən Qanmaz indi birdən-birə gördü ki, bir balaca fikir verməyəndə onlar öz heçliklərindən baş qaldırırlar. Aktrisa Frölix onlarla əlbir olmağı özünə ar bilməyib. Kizelakla olan əməlini boynuna aldı, Lomanın bəd niyyətini inkar etdi. Qanmaz ona daha inanmırdı! Ümidlərini itirərək təəccübləndi ki, aktrisa Frölix etibarsız çıxdı. Bu günə, bu qorxunc ana qədər onu özünün bir parçası sayırdı, indi isə gözlənilmədən ondan qopub aralanmışdı: Qanmaz axan qanı gördü və bunu özü da dərk etmədi. İnsanlarla heç vaxt oturub-durmadığına görə ona xəyanət etməmişdilər. İndi yeniyetmə bir oğlan kimi iztirab çəkirdi, şagirdi Ersumun həmin qadına görə keçirdiyi iztirab kimi. Amma onunku əndazəsiz, görünməmiş, təəccübdolu bir iztirab idi.

Evə yollandı. Qulluqçusunun ona dediyi ilk kəlmədən sonra yerindən sıçrayıb qadını küçəyə qovdu. Sonra öz otağına çəkildi, qapını arxadan bağladı, ağzı üstə divana uzanıb fəryad qopardı. Utancaqlıq hissi onu bürüdü, zomzunub ayağa durdu, “Homerin ədatları” əlyazmasını qabağına qoydu. Otuz ildir onun sağ çiynini yuxarıya qaldırmış yazı pultuna təzədən söykəndi. Ancaq hər səhifənin arxası aktrisa Frölixi tərənnüm edən sətirlərlə, hərdən də ona aid olan qeydlərlə dolmuşdu. Hətta bəzi səhifələr yox idi, həmin səhifələri o, Frölixə göndərmişdi. Birdən-birə özünün iş qüvvəsinin büsbütün bu aktrisaya tabe olduğunu, iradəsinin

çoxdandır ona istiqamətləndiyini, həyati məqsədlərinin hamısının bu qadında təcəlla etdiyini gördü. Belə bir dərkdən sonra geriyə, divanına qayıtdı.

Gecə düşmüşdü, qaranlıqda onun gözünə Frölixin yüngül, hərdəmxəyal, boyalı sifəti göründü və o, qorxu içində qaranlığa baxdı. Anladı ki, bu sifət, sahibindən şübhələnməyə hər cür əsas verir. Aktrisa Frölix indi hər kəsin malı idi. Qanmaz əllərini qan sağılmış üzünə tutdu. Onun gecikmiş duyumsallığı, asta, gizli tovlantı sayəsində qurumuş bədəndən qoparılmış, zorla və qeyri-təbii şəkildə bərq vuraraq həyatını dəyişdirən, onun ruhunu son həddə çatdıran duyumsallığı indi ona şəkillərlə əzab verirdi. Gözünün qabağına aktrisa Frölixin "Mavi mələk"dəki xırda otağı, ovaxtkı ilk hərəkətləri, qıcıqlandırıcı baxışı canlandı. İndi isə baxışı və hərəkətləri Qanmazdan yan ötüb bir başqasına, Lomana tuşlanırdı... Qanmaz səhnəni sonacan, lap sonacan göz önündə canlandırdı və Frölix onun xəyalında rəqs edirdi, çünki Qanmaz hıçqıra-hıçqıra ağlayırdı.

## ON İKİNCİ FƏSİL

O, illərdən bəri dövlətə qulluq borcunu yerinə yetirərək işə getməyinə davam edirdi, baxmayaraq ki, öncədən görürdü ki, bu məktəbə gedişin hansısa onun üçün sonuncu olacaq. Baş müəllimlər bir nəfər kimi qərara almışdılar ki, onun yanından keçəndə özlərini görməzliyə vursunlar. Qanmaz yoxlamaq istədiyi dəftərləri götürüb oturmaq istəyəndə hamısı üzünə qəzet çəkir, tələsik masadan qalxır, küncəbucağa tüpürürdü. Uşaqların üçü də – Loman, fon Ersum və Kizelak sinifdə yox idi. Qalanlarından Qanmazın zəhləsi gedirdi və onları başlı-başına buraxmışdı. Fışıltılı səsi ilə hərdən kimə isə yarım günlüyünə karser cəzası kəsirdi. Sonra da hökmün icrasını buyruqçuya tapşırmağı unudurdu.

Məktəbdən qıraqda heç kimə baxmadan ayağını sürüyüb yeriyirdi, nə təhqir eşidirdi, nə də tərif, faytonçular atlarını saxlayıb müştərilərinin diqqətini şəhərin görməli yerlərindən biri kimi Qanmaza yönəldəndə bunu da hiss etmirdi. Ayağını hara qoyurdusa, onun məhkəməsindən danışırdılar. Əslində, camaatın gözündə Qanmaz müttəhimə çevrilmişdi, onun məhkəmədəki çıxışı isə təəssüf doğurur və insanları

hirsləndirirdi. Müəllimliyinin ilk illərindəki şagirdlər, indi yaşlaşmış kişilər onu görən kimi ayaq saxlayıb başlarını bulayırdılar.

– Nə oldu bizim qoca Qanmazımıza?! Onun bu yaxınlarda başına gələnlər təpədən-dırnağa rüsvayçılıqdır ki!

– Müəllim axı gənclərlə bu cür rəftar eləməz. Beləsinə gənclərin tərbiyəçisi demək olarmı? Bəs onun tacir təbəqəsinə, qabaqcıl ailələrə qarşı hücumu?! Özü də məhkəmədə!

– Kim onun yaşında bu cür sapmalara yol verirsə, gərək başqasının bostanına daş atmasın. Meriyada bu məsələyə baxacaqlar və daha məktəbdə işləməsini lazım bilməmələrini mən Bredpotdan öyrənmişəm. Qoy rəfiqəsi ilə haraya istəyir köçsün.

– Amma gözəl candır, ha!

– Orası elədir!

Kişilər bir-birinə baxıb güldü, hər birinin baxışında da kiçicik bir qığılcım.

– Necə olub, Qanmaz bu işə düşüb?!

– Eeh, sizə həmişə deməmişəmmi? Qanmaz adına uzun müddət tab gətirmək olmaz, indi o, əsl köhnə qanmazdır.

Başqaları bir vaxt heç kimi vecinə almadan pozğun bir qadınla camaat içinə çıxan oğlunu xatırladı. “Meyvə öz ağacının dibinə düşər” ifadəsini yada saldılar, baş müəllim Hübenetin “Atanın əxlaq pozğunluğunu öncədən görmək lazım idi” deyiminə haqq qazandırdılar. Gec də olsa, Qanmazda nəsə insani bir vəhşət, qorxunc və şübhəli bir şeyin olduğunu başa düşdülər və onun məhkəmədə şəhərin ən nüfuzlu adamlarına qarşı söylədiyi nitqinə bir an da heyrətlənməməyi bildirdilər.

– Belə bir murdarı çoxdan öldürmək lazım idi, – haqq-hesab dəftərində professorun adını həmişə “Q” hərfi ilə başlayan, dükanının qapısına söykənən siqaret alverçisi Mayer Qanmazın yaxınlaşdığını görən kimi dillənərdi.

Qanmaz səhər tezdən *Cafy Central*-ın qapısı ağzından keçəndə sahibkar meyxananı təmizləyən süfrəçilərə deyərdi:

– Bircə əxlaqsız Qanmaz içəri girməsin!

Digər tərəfdən isə Qanmazın emansipasiyasını sevinclə qarşılayan, onda özlərinin məsləkdaşını görən, onun mövcud düzənə qarşı barışmaz münasibətindən səcdə gələn və iclaslar çağıran narazı vətəndaşlar da vardı. Onlar həmin iclaslarda şəhərin imtiyazlı şəxslərinə qarşı Qanmazın cəsa-

rətli çıxışını müzakirə edir və deyirdilər ki, iclaslarda onun özü də danışmalıdır. Onlar özlərinin aşkar şüarlarında deyirdilər:

– Belə adamın qarşısında baş əyməli!

Qanmaz onların yazılı dəvətlərini cavabsız qoyurdu. Elçilərini isə bağlı qapı arxasından yola salırdı. Oturub nifrətlə, həsrətlə və qəddarlıqla aktrisa Frölix barədə düşünürdü, həm də götür-qoy edirdi ki, onu şəhəri tərk etməyə, buradan uzaqlaşmağa məcbur etsin. Yadına düşdü ki, lap ilk görüşlərində bunu ondan tam ciddiliyi ilə tələb etmişdi. Kaş onda müəllimə müqavimət göstərməmiş olaydı! Budur, indi bir qalaq yamanlıq, bəla törədibl Qanmaz da əzablı, ağrılı intiqam hərisliyində yeganə çıxış yolunu onda görürdü ki, aktrisa Frölix həyatını dərin və qaranlıq ağzıbirdə başa vursun.

Ertəsi gün onunla rastlaşa biləcəyi küçələrin hamısından yan ötdü. Yalnız gecə saat birdə meyxanaların pərdələri salınmış pəncərələri arxasında baş müəllimlərin kölgələrinin çənələri şaqqıldamayanda şəhərin başqa tərəfinə yollandı. Sonra düşmənçilik duyğularına qapılaraq içindəki acı tələbatla ürkək-ürkək "İsveç həyəti" hotelinin ətrafına dövrə vurdu.

Birdən qaranlıqdan kimsə onunla üz-üzə gəlib salam verdi: gələn Loman idi. Qanmaz əvvəlcə geri sıçradı, əndikib nəfəs aldı. Sonra hər iki əlini açıb Lomandan yapışmaq istədi, o da sakitcə arxaya çəkildi. Qanmaz ayaqlarını təzədən bərk-bərk yerə basanda fınxırmağa başladı:

– Deməli, siz, əclafın biri əclaf, hələ də gözümə görünməyə ürək edirsiniz! Özü də sizi düz aktrisa Frölixin mənzilinin yanında tutmalı oluram! Yenə də əlavə işlərə qoşulmusunuz!

– İnandırım sizi, – Loman mülaylm səslə cavab verdi, – yanılırsınız, cənab professor. Büsbütün yanılırsınız.

– Onda sizin burada nə itiniz azıb, iyrənc gədə?!

– Təəssüf edirəm ki, bu barədə sizə heç nə deyə bilməyəcəyəm. Bircə onu deyə bilərəm ki, cənab professor, mənim burada olmağımın sizə heç bir aidiyyəti yoxdur.

– Sizi mən tapdayıb əzəcəyəm, büsbütün! – Qanmaz özündən çıxdı, gözləri hirslənmiş pişiyin gözlərinə bənzədi. – Rüsvayçılıqla, biabırçılıqla məktəbdən qovulacağınıza hazır olun.

– Bu, sizi razı salardısa, sevinərdim, cənab professor, – Loman cavab verdi, lağ məqsədi yox idi, daha çox ona yazıqlanırdı, sonra da Qanmazın hədələri altında ağır-ağır yoluna davam etdi.

Qanmazın xətrinə dəymək fikri yox idi. Bu gün hamı onun üstünə düşəndə Loman xəcalətlənirdi. Özünün işdən azad edilməsi anında onu məktəbdən qovacağı ilə hədələyən qoca Qanmaza rəhmi gəldi; dünyanın bu tənha düşməninə, fikirləşmədən hər şeyi özünə qarşı çevirmiş insana, hazırda iç üzünü açıb ortaya qoymuş maraqlı bir anarxistə onun rəhmi gəldi, Lomanda ona qarşı gizli rəğbət baş qaldırdı.

Frölixə görə Qanmazın Lomana olan dalmi şübhəsi cılız olduğu qədər də təsirli idi; əgər onu Lomanın bu gecə gerçəkdən də gördüyü işlə yanaşı qoysan, hətta fəci ironiya ilə zəngin idi. Loman Kayzerştrasedən gəlirdi. Frau Dora Bredpot bu gün axşam uşaqdan azad olmuşdu və Lomanın qəlbindəki nəvazişi zahı çarpayısının üstünə əyilmişdi. Ürəyi, korun-korun bəhrəsiz közərən bu od parçası dünyaya gəlişinə, bəlkə, asessor Knustun, bəlkə, leytenant Qirşkenin, bəlkə də, konsul Bredpotun özünün səbəb olduğu titrəyən körpə uşaq bədənini isitməyin həsrətini çəkir... Loman bu gecə Bredpotların evinin qabağına getmiş və bağlı qapını öpmüşdü.

Aradan bir neçə gün keçəndən sonra narahat talelər oturuşdu. Heç nədə marağı olmayan Loman İngiltərəyə gedənə qədər məktəbdə qala bildi; qohumları elə güclü idilər ki, onu məktəbdən uzaqlaşdırmağı heç ağlına gətirən də tapılmadı. Məktəbdən qovulmasına görə Kizelak təkcə hun kurqanına borclu deyildi, o həm də məhkəmədəki yolverilməz davranışının, aktrisa Frölixlə 6-cı sinif şagirdinə yaraşmayan münasibətinin, həmin münasibətin Frölix tərəfindən bəyan edilməsinin altını çəkirdi. Fon Ersum gimnaziyanı könüllü tərk edib hərbi məktəbə girdi. Qanmaz vəzifəsindən azad edildi.

Ona müəllimlik fəaliyyətini payıza qədər davam etdirməyə icazə verildi. Lakin o özü yerli təhsil idarəsi ilə razılığı pozdu. Qanmazın ilk dərssiz günü o, günortaüstü işsiz-gücsüz və həmişəlik ümidsiz vəziyyətdə divanda oturanda keşiş Kvityens onlara gəldi. O, burada kiminsə get-gedə daha dərin günaha və azğınlığa batdığını kənardan müşahidə

etmişdi. İndi həmin adam üzüüstə yerə düşdüyündən fikirləşirdi ki, xristianlıq üçün nəsə etməyin vaxtı çatıb.

Elə həmin an o, adi adamlar kimi bir siqar çəkib Qanmazın qəmli taleyinə, acı taleyinə, onun tənhalaşmasına, şəhərin abırlı adamlannın özünə qarşı yaratdığı düşmənçiliyə acımağa başladı. Bu olanlar heç kimin xoşuna gəlmir, gərək nəsə edəsən. Qanmaz, ən azı, özünün keçmiş işini davam etdirmiş olsaydı! Onun işdən çıxanlması bədbəxtliyi ikiqat artırır, zira indi o, qəmli düşüncələrin çəngindən qurtula bilmir... "Ümidsiz" demək, bəlkə də, yerinə düşməzdi. Deyək ki, Qanmazın nüfuzunu yaxşı adamlann yanında bərpa etmək, onu siyasi birlikiərin birinə, yaxud keql kiubuna salmaq ona – keşiş Kvityensə müyəssər olardu. Amma bunun bir şərti vardı: gərək Qanmaz Allah və insanlar qarşısında əməllərindən peşman olub onlara son qoyaydı.

Qanmaz, əslində, buna heç cavab da vermədi. Təklif onu maraqlandırmadı. Aktrisa Frölixi itirmiş olsaydı, keql oyununu buna dəyişməyin mənası olmazdı.

Belə olduqda keşiş Kvityens daha tutarlı dəlillərə əl atdı. Həyatlarının erkən çağında bu cür nümunə ilə zəhərlənən altıncılara ağzına gələni dedi. Özü də aşağı sinif şaglrdlərini yox, eləcə də hamını, təkcə gimnaziyanın daxilində olanları yox, əksinə, gimnaziyanın o üzündəkiləri, keçmiş şagirdlərin hamısını, bir sözlə, bütün şəhəri nəzərdə tutdu. Onlarπn hamısı – keşiş Kvityens hətta siqannın söndüyünü də hiss etmədi – keçmişdə onlara deyilən dərsləri gərək şübhə altına alaydı və özlərinin sadə inamlarında tərəddüd edəydi. Belə olduqda Qanmaz buna vicdanı ilə cavab verməkdən qorxmayacaqmı? Artıq Kizelaka bədbəxtlik üz verib və Qanmaz, yəqin, danmaz ki, bu uşağın bədbəxtliyində onun da yetərincə suç payı var. Amma bu, təbii ki, Qanmaz kimi bir adamın dönüklüyünün imana və dini hökmlərə vurduğu yeganə ziyan deyil...

Qanmaz çaşıb-qaldı. Kizelakın məhvindən yalnız indi xəbər tutdu və bunda əməyi olduğuna görə qəfil sevincdən alışıb-yandı. Onun nümunəsinin başqaları üçün qorxulu olması və şəhərdə yamanlıq toxumu səpməsi bir dəfə də osun ağlına gəlməmişdi. Onun gözləri önündə qisas mənzərələri açılır və onu həyəcana gətirirdi. Sifətinə qırmızı xallar düşdü və nəfəs dərmədən özünə qapılaraq o, üzündəki bir-iki tükü çəkib qopartdı.

Keşiş Kvityens heç nə anlamadı və sevindi ki, Qanmazın onun sözlərini ürəyinə salacağını bilirmiş. Xüsusilə söhbət həmin varlığa gərə özünü və başqalannı bu cür xoşagəlməz vəziyyətlərə düçar etdiyi məxluqdan gedirsə, onun *faux pas*[1]-ı özünü büruzə verir.

Qanmaz soruşdu ki, keşiş aktrisa Frölixdənmi danışır.

Əlbəttə. Onun məhkəmədə açıq ifadələrindən sonra Qanmazın gözləri açılmaya bilməzdi. Məhəbbət insanı kor edir, bunu da – keşlş Kvityens siqannı təzədən yandırdı – gərək etiraf edəsən... Digər tərəfdən Qanmaz qoy özünün o vaxt Berlində yaşadığı tələbəlik illərini yada salsın. Adam özünü key yerinə qoymaz, – hihi! – belə qadınlar barədə də yetərincə məlumatı olur. Onlar heç cür layiq deyillər ki, onun və digərlərinin varlıqlannı kəlləmayallaq etsinlər. Bəli, əgər Berlini düşünərsə...

Keşiş Kvityens xoşbəxtliklə gülümsədi və məhrəmlik etməyə çalışdı. Qanmaz özünü xeyli narahat apardı və qəfildən onun sözünü kəsdi. Bütün bunlann aktrisa Frölixə dəxli varmı, görəsən. Keşiş heyrətlənib təsdiq etdi. Sonra Qanmaz divandan qalxdı, fısıldadı, seliyini keşiş Kvityensin üstünə sıçradıb boğuq və hədəli səslə dedi:

– Siz aktrisa Frölixin xətrinə dəydiniz. Qadın mənim himayəm altındadır. Durmadan tələsin və evimi tərk edin!

Keşiş qorxdu, oturduğu kətillə xeyli arxaya çəkildi. Qanmaz qapıya tələsib onu açdı. Sonra hirsindən əsə-əsə bir daha keşiş Kvityensin üstünə cumanda keşiş ürkək bir çəkingənliklə kətili ilə bərabər qapıdan çölə çıxdı. Qanmaz qapını bağladı.

O, tövşüyə-tövşüyə bir xeyli otaqda vurnuxdu. Aktrisa Frölixə lap bu yaxınlarda pislik dilədiyini etiraf etməli oldu. Onun haqqında pis fikirlərə o özü düşmüşdü. Amma nəyə ki Qanmazın haqqı vardı, ona keşiş Kvityensin heç icazəsi də yox idi. Aktrisa Frölix keşiş Kvityensdən ucada dururdu. Hamıdan ucada dururdu – insanlıq simasında tənha və əlçatmaz. Yaxşı oldu ki, Qanmaz bu yolla yenidən şeylərin gerçək mahiyyətinə vardı. Aktrisa Frölix onun ayrılmaz parçasıdır! Onu yanlış dəyərləndirən Qanmazı təhqir etmiş olur! Zülmkarın qorxaq acığı ona hakim kəsildi və o, özünə dayaq tapmalı oldu: "Mavi mələk"dəki tamaşaçılar o vaxt Frölixin

[1] Yanlış addım (*fr.*)

üstünə güldüyü kimi. Öz əli ilə ənlik-kirşan vurduğu qadının üstünə gülmək! Onun özünün təqdim etdiyi nailiyyətlərlə razılaşmamaq! Hun kurqanında, təbii ki, Frölix özünü yaxşı aparmamışdı və onun iztirab keçirməsinə səbəb olmuşdu. Amma bunu yalnız öz aralarında aydınlaşdıra bilərlər, Qanmaz və aktrisa Frölix. İndi onun yanına getmək istəyir, bu görüşü təxirə salmaq niyyəti yoxdur!

Şlyapasını götürdü, sonra da yerinə asdı.

Frölix ona xəyanət etmişdi. Digər tərəfdən şagird Kizelakı məhvə sürükləyən də o olmuşdur. Bununla onu haqlı saymaq olmazdımı? Hələ ki yox! Fəqət o digər şagirdləri də məhvə sürükləsə?!

Qanmaz üstündən qızartdaq bulud keçən başını aşağı salıb durmuşdu. İçindəki qisas hərisliyi ilə qısqanclığı bir-biri ilə vuruşurdu, o isə yerindən tərpənmirdi. Axır ki, qisas hərisliyi qalib gəldi. Aktrisa Frölixə haqq qazandırıldı.

***

Aktrisa Frölixin korlamalı olduğu gimnazistləri Qanmaz bir-bir xəyalında canlandırdı. Heyif ki, bazardakı siqaret alverçisi, salam vermək əvəzinə ağız-gözünü əyişdirən tacir şəyirdi və bu şəhərdəkilərin hamısı daha məktəbdə oxumurdu. Onların hamısını aktrisa Frölix çoxdan məhv edərdi. Frölixə görə hamısı söyüş və rüsvayçılıqla məktəbdən qovulardı. Başqa cür məhvi Qanmaz təsəvvür edə bilmirdi. Sadəcə, anlamırdı ki, məktəbdən qovulmaqdan da dəhşətli cəzalar var.

***

Qanmaz aktrisa Frölixin qapısını döymək istəyəndə o özü çıxmağa hazır vəziyyətdə qapıda göründü.

– Hı! Bu da o! Mən də sənin yanına hazırlaşırdım! Yəqin, inanmırsan, amma yalan deyirəmsə, qoy məni ildırım vursun.

– Qoy olsun, – Qanmaz dilləndi.

Bu dəfə, doğrudan da, aldatmırdı.

Qanmaz onun gözünə daha görünmək istəməyəndə aktrisa Frölix əvvəlcə, sadəcə, öz-özünə demişdi: “Hə, onda yox” və öz mənzilinə köçməməyi, ona bağışlanan mebeli satmağı, bir müddət Qanmazın kəsməti və əmanətləri hesabına dolanmağı, sonra da ər-arvad Kipertlər şəhərdən köçdüklərinə görə özlərinə bir iş tapmağı qərara almışdı. Bir Allah şahiddir ki, o, özünün qoca Qanmazına ən səmimi hiss

bəsləyirdi; amma onu heç kəsə nümayiş etdirmək olmazdı, inanmırsa, qoy heç inanmasın. Onun öz düşüncə tərzi vardı. Doğrudan da günahsız olub onu birisinə sübut etməkdən günah işlədib baçqasının başını piyləmək daha asan idi. Hun kurqanı əhvalatında olduğu kimi, adam bir saç tükü tapıb özündən uydurursa ki, qadın onunla tanışlıqdan sonra ona, hamıya və hər kəsə qoşulub gedib, o, gizlənpaç oyunundan kənara çıxa bilməz. Belə olduqda qoca onun zövqüncə deyildi. Elə olurdu ki, kimsə yanılırdı; onda biri təslim olurdu. Amma küçədə kimsə birinin arxasınca qaçırdı, düz yarım saat, cürət edənə qədər, ona çatıb yandan bir təkan vururdu. Birdən sağa və ya sola burulurdu və özünü elə aparırdı ki, elə bil, itələyən o deyilmiş. İndiyə qədər Qanmaz da Frölixi, sadəcə, arxadan tanıyırdı və birdən-birə onun sifətinə baxmaq imkanı əldə edəndə hər şey bitmişdi. Nə olar, bitir, qoy bitsin.

Aktrisa Frölix zamanın keçib-getdiyini görəndə, darıxanda, pulu sona yetəndə fikirləşdi ki, işlərin tar-mar olmasına imkan vermək axmaqlıq olardı. Qoca, sadəcə, axırda utandı, dodağını sallayıb gözlədi ki, Frölix ona əl uzadacaq. Bu da mümkün idi. Qanmaz yaşlaşmış uşaqdır axı, gülməli dərəcədə höcətdir. O, beləcə düşünürdü, vaxtilə kapitanı soyunub-geyinmə otağından qovanda, buna görə də Kipertlə sözləşəndə düşündüyü kimi. Güldü. Bundan dərhal sonra gözləri donuqlaşıb xəyala daldı, bu gözlərlə o hərdən Qanmazı süzmüşdü. Qanmaz qısqanc idi, bu, doğrudan da, belə idi və Frölixdə ona qarşı dərin hörmət yaradırdı. Bəlkə, indi oturub zəhərini toplayırdı, Frölixə qarşı onda hörümçək hirsi vardı və hirsindən günorta yeməyəni yeyə bilmirdi. Belə şey dəhşətli idi axı. Frölixin mülayim qəlbi ehtizaza gəlirdi. Təkcə ona düşən paya görə yox, həm də o, mərhəmətdən və uca ehtiramdan yola çıxırdı.

***

– Çoxdandır bir-birimizi görmürük, – aktrisa Frölix ürkək səslə, bir az da lağla dedi.

– Bunun da səbəbləri var, – Qanmaz cavab verdi. – Mən, necə var elədir, məşğul idim.

– Belə de. Nə ilə?

– Buradakı gimnaziyanın müəllim heyətinin tərkibindən azad olunmağımla.

– Anlayıram. Mən bunu irad kimi qəbul edim?!

– Sən haqlı çıxmısan. Axı şagird Kizelak da məktəbdən çıxarılıb, bununla da gimnaziyanı bitirmiş adamın önündə açılan bütün imkanlar onun üzünə ömürlük bağlanıb.

– Deməli, iyrənc gədə layiq olduğuna çatıb.

– Arzum budur, belə tale digər saysız şagirdlərə də nəsib olsun.

– Bu, mənim də arzumdur, ancaq necə düzüb-qoşaq?! – Altdan-yuxarı Qanmaza baxıb gülümsədi. Qanmaz qızardı. Arada fasilə yarandı və həmin fasilədə Qanmaz onu içəri aparıb oturtdu. Frölix onun dizinə doğru sürüşdü, üzünü Qanmazın kürəyində gizlətdi və zarafata salıb mütiliklə soruşdu:

– Qanmazcıq indi özünün balaca Frölixinə hirslənmir ki? Bilirsənmi, mənim məhkəmədəki izahatımın hamısı gerçəkdir. Az qalmışdı deyəm ki, Allah şahidimdir, amma kim idi bunu nəzərə alan. Ancaq gərək mənə inanasan.

– Qoy sən deyən olsun, – Qanmaz, adəti üzrə, təkrarladı. Məsələyə aydınlıq gətirmək və hadisəni yekunlaşdırmaqla qadına yaxın olmaq üçün əlavə etdi: – Mənə, mütləq və şərtsiz, məlumdur ki, əxlaq deyilən şey əksər hallarda dəliliklə sıx bağlıdır. Buna, ən uzağı, humanitar biliyi olmayanlar şübhələnə bilər. Əxlaqda yalnız o adamlar maraqlıdır ki, onlarda əxlaq deyilən şeyə rast gəlməzsən, ancaq adamları onun toruna salıb özlərinə tabe etdirirlər. Hətta hökm verib sübut etmək olar ki, əxlaq deyilən şeyi təbəələrdən daha ciddi tələb etmək lazımdır. Bu tələb, aydın və şübhəsizdir, mənə düşünməyə heç vaxt mane olmayıb başa düşəm ki, əxlaq qanunları ilə idarə olunan ictimai dairələr mövcuddur ki, onlar da pozğun meşşanların əxlaqından köklü şəkildə fərqlənir. – Aktrisa Frölix həyəcanla, heyrətlə qulaq asırdı.

– Ola bilməz! Beləlari haradadır? Sənin dediklərin yalan deyil ki?

– Mən özüm, – Qanmaz sözünə davam etdi, – filisterlərin əxlaq ənənələrinin iştirakçısı olmuşam. Ona görə yox ki, onlara dəyər qazandırıram, özümü onlara bağlı saymışam, əksinə, ona görə ki, onlardan ayrılmağa əsasım olmayıb.

Danışarkən o, özünü qızışdırmalı oldu, bununla belə, kəkələdi, qıpqırmızı qızardı, həyata cəsarətli baxışını bildirdi.

Aktrisa Frölix onun nitqinə məftun oldu və bir az qürrələndi ki, bütün bunların hamısını ona, yalnız ona deyir. Qanmaz əlavə edəndə ki: "Açıq etiraf edim ki, sənin həyat tərzinin mənim dünyabaxışıma uyğun gələcəyini heç vaxt göz-

ləmirdim", heyrət və həyəcandan Frölix üz-gözünü qınşdınb onu öpdü. Qadın dodağını onun dodağından çəkər-çəkməz Qanmaz içindəkiləri açıb-tökməyə başladı:

– Amma bu mane olmadı ki...

– Hə?! Gerisi? Nəyə mane olmadı, Qanmazım mənim?

– ...konkret vəziyyətdə həddən artıq əzab çəkməyimə, baxmayaraq ki üzləşdiyim faktlar qəti mənim dünyagörüşümə zidd deyil.

Qadın onun nə demək istədiyini təqribən başa düşdü və çəpəki dayanmış balaca, qürrəli başını ona uzatdı.

– Mən səni o qadınlardan sayıram ki, onlara hakim kəsilmək hər kişinin işi olmur.

Aktrisa Frölix ciddiləşib xəyala daldı. Qanmaz son nöqtəni qoymaq istədi:

– Qoy elə olsun.

Sonra dəhşətli bir xatirənin təsirindən səsini qaldırdı:

– Bircəciyi var, onu sənə bağışlaya bilməyəcəyəm, ondan gərək, aydın və gerçək, aralı durasan, onu heç vaxt görməməlisən. Bu, Lomandır!

Aktrisa Frölix yorğun-yorğun baxdı, üzündə tər puçurlanmışdı və deyiləni başa düşmədi, haçansa Qanmazı haldan çıxaran əzablı şəkil, Lomanla şəkli barədə heç nə bilmirdi.

– Hə dəə, – Frölix dilləndi. – Sən ona həmişə yaman olmusan. Onu əzib muma döndərmək istəyirdin. Əzmək istəyirdin, əz, Qanmazım məmim, təkcə məni rahat burax. O cür səfehin biri, Allaha şükür ki, mənə söz deyən deyil. Kaş bunu sənə aydınlaşdıra biləydim. Amma onun da xeyri yoxdur, nə dəyişər ki?! Adamı ağlamaq tutur.

Doğrudan da, ağlamaq istədi, məhz ona görə ki, Lomana qarşı biganə olduğuna özü də inanmırdı, ondan ötrü ki, qəlbinin dərinliyində ona qarşı meyilli idi və bu da onun inandırma cəhdlərinə şübhə oyadırdı, ona görə ki, ağılsız, qoca uşağa dönmüş Qanmaz çox tez-tez və çox qaba şəkildə onun hisslərinə toxunurdu, ondan ötrü ki, həsrətini çəkdikləri dincliyi həyatlannda tapa bilmirdilər.

Ancaq Qanmaz göz yaşlannın səbəbini bilməyəcəyinə, Frölix də vəziyyəti əbəs yerə ona izah etmək istəməyəcəyinə görə ağlamaqdan vaz keçdi.

Əslində, gözəl bir zəmanə yetişdi. Birlikdə şəhəri gəzməyə çıxdılar, aktrisa Frölixin təchizat və təminatını tamamladılar. Hamburqdan gələn bəzək paltannda o, demək olar,

hər axşam şəhər teatrının lojasında oturardı, Qanmaz da onun yanında təmkinli bir məmnunluqla heyrətli, qibtəli, həris baxışları qəbul edərdi. İndi yay teatrı da açılmışdı və adam xoşməramlı insanların arasında oturub qızılbalıq yeyə və sevinə bilərdi ki, yaxınlann səni məzəmmət edir.

Aktrisa Frölix Qanmazın düşmən təsirlərinə düşməsindən daha narahat deyildi. Təhlükə aradan qalxmışdı, Frölixin xatirinə o, işdən çıxarılmaqla və ümumi ikrahla banşmışdı.

Qanmaz əvvəllər ona bir balaca qorxunc görünmüşdü. Bu fikrə necə gəlməsi barədə özündə fikirləşmişdi ki, birisi onun xatirinə o boyda yükün altına girir. Sonra çiyinlərini çəkib demişdi: “Neyləyəsən, kişilər belədir”.

Tədricən anladı ki, Qanmaz haqlı imiş və o özü buna və daha çox şeyə layiqdir. Qanmaz onun nə qədər uca dayandığını, insanlann hətta onun üzünə baxmağa layiq olmadıqlarını durmadan təkrarlayırdı ki, bunun da nəticəsi olaraq Frölix özünü, axır ki, həddən artıq ciddi aparmağa başladı. Onu indiyə qədər heç kim, o cümlədən də özü bu cür ciddi qəbul etməmişdi. O, bunu ona başa salana minnətdar olmalı idi. Hiss edirdi ki, o da, öz növbəsində, onu bu mərtəbəyə qaldıran kişini yüksək qiymətləndirməyə çalışmalıdır.

Birdən kişiyə dedi ki, latın dilini öyrənmək istəyir. Qanmaz həmin an dərsə başladı. Frölix onu danışdırdı, yanlış cavab verdi, ya da sualı eşitmədi, gözünü ondan çəkmədi, özü özünə verdiyi daha vacib suallan cavablayırdı. Üçüncü məşğələdə bilmək istədi:

– De görüm, Qanmazım, qavramağa hansı çətindir, latın dili, yoxsa yunan dili?

– Çox vaxt yunan dili, – Qanmaz hökmünü verdi, Frölix də cavabında:

– Onda yunan dilini öyrənəcəyəm.

– Niyə axı?

– Elə, Qanmazım mənim.

Onu öpdü və bu, nəvaziş parodiyasına bənzədi. Ancaq niyyəti tam ciddi idi. Qanmaz onu şöhrətpərəst etmişdi və ona şərəf gətirmək naminə Frölix latın dili əvəzinə yunan dilini istəmişdi, çünki yunan dili xeyli çətin idi. Onun bu tələbi məhəbbətinin izhan idi, özünü ona məcbur etmək istədiyi məhəbbətin qabaqlayıcı izharı.

Özünün qoca Qanmazını sevmək ona yetərincə ağır gəlirdi. Yunan dilindən də ağır. Onu özünə tabe etdirmək

istəyirmiş kimi barmaqları ilə, sanki, Qanmazın üzünə taxdığı taxta maskanın konturlarına, onun şaqqıldayan çənəsinə, künclü göz çuxurlarının qıraqlarına sığal çəkdi, bu göz çuxurlarının uclarından bərələn gözləri ilə Qanmaz başqalarına zəhər saçır, ona isə körpə təslimçiliyi ilə baxırdı. Həmin baxış Frölixdə rəhm və yüngül nəvaziş oyadırdı. Qanmazın üz ifadələri və sözləri, birinin imdadsız komizmi, digərinin hərtərəfli təşəxxüsü – hamısı onu yerindən oynadırdı. Qanmazın layiq olduğu ehtiramı da o tez-tez yada salırdı. Amma bundan o yana gedə bilmirdi.

Duyğularının uğursuzluğunu yoluna qoymaq üçün aktrisa Frölix yunan dili dərsində dəfələrlə əqlini bir yerə toplamışdı.

Qanmaz pağalaq-pağalaq qızardı və şadyanalıq içində ədatlara girişdi. O, Homeri açıb ortaya qoyanda və şeirin misrasını Frölixə oxudanda, sevimli səslər, həqiqətən də, aktrisanın bəzəkli sifətindən və səliqə ilə boyanmış dodaqlarından süzülüb töküləndə Qanmazın ürəyi çırpındı. Kitabı bir qırağa qoyub özünü topladı. Nəfəsi təngidi; aktrisa Frölixin masanın üstündəki balaca, yumşaq, bir az da koppuş əlini ovcunun içinə alıb dedi ki, qalan ömrünün bircə saatını da ondan ayrılmaq fikri yoxdur. İstəyir onunla ailə qursun.

Əvvəlcə Frölix sımsırığını sallayıb ağlamaq istədi. Sonra ona canlanma gəldi, gülümsəyib yanağını Qanmazın kürəyinə sürtdü. Sürtünmə titrəyişə çevrildi; coşqusu aşıb-daşdı, Qanmazı çəkib kətildən saldı, onu dörd yana fırlatdı.

– Deyirsən, mən xanım Qanmaz olacağam?! Adam gülməkdən ölər ki! Xanım professor Qanmaz, yoox, Qanar, lütfən, xanımlar və cənablar.

Elə həmin an kresloya çökən ləyaqətli qadın donuna girdi. Bir anlığa ağıllı danışdı: indi təzə mənzilini qəti istəmir; onsuz da əksəriyyəti çoxdan satılıb. Qanmazın şəhər darvazasının önündəki villasına köçmək və onu büsbütün yenidən təchiz etmək istəyir! Sonra bir daha şaqqanaq çəkdi. Nəhayət, sakitləşdi, düşüncəli bir görkəm aldı və yalnız bunları bildirdi:

– İnsan necə dəyişərmiş!

Qanmaz soruşanda ki sevinirmi və bildirəndə ki işlər də tezliklə yoluna qoyulmalıdır, Frölix şaşqınlıqla gülümsədi.

Sonrakı günlər Frölix ona özündə olmayan adam təsiri bağışladı. Zaman-zaman həddən artıq qayğılı göründü, amma bunu əməlli-başlı inkar edirdi. Şəhərə gəzməyə çıxırdı, Qanmaz da onunla getmək istəyəndə səbirsizlənirdi.

Qanmazın qol-qanadı sınmışdı və dumanlı da olsa, ürəyinə nəsə dammışdı.

Bir gün o, aktrisa Frölixin aşağı dərəcəli mehmanxanadan çıxdığının şahidi oldu. Xeyli susaraq yanaşı gedəndən sonra Frölix müəmmalı şəkildə dedi:

– Həmişə hər şey insanın düşündüyü kimi olmur.

Bu, Qanmazı tam narahat etdi, lakin Frölix ayrı izahat vermək istəmədi.

Aradan daha bir neçə gün keçəndən sonra Qanmaz günortaüstü kimsəsiz olan Zibenberqştrase ilə tək-tənha və qəmli-qəmli gedəndə ağ paltarlı balaca bir qız atıla-atıla onun yanına gəlib hönkürtülü səslə dedi:

– Evə gəl, ata.

Qanmaz donub-qaldı və uşağın ona uzatdığı ağ əlcəkli balaca ələ baxdı.

– Evə gəl, ata, – uşaq təkrar etdi.

– Nə deməkdir axı? – Qanmaz soruşdu. – Sən harada yaşayırsan?

– Burada, – deyib qız arxanı göstərdi.

Qanmaz başını qaldırıb baxdı və yaxındakı tində aktrisa Frölixi gördü; o, başını yana əymişdi, əlini gərdanından aşağı salmışdı, sanki, üzr istəyirdi və daha nəsə diləyirdi.

Qanmaz özünü itirdi və çənəsini şaqqıldatdı. O dəqiqə hər şeyi anladı və hələ də ona doğru uzanmış ağ əlcəkli əldən yapışdı.

## ON ÜÇÜNCÜ FƏSİL

Ailə dəniz qırağındakı kurorta getmişdi. Mehmanxanada yaşayırdı və sahildə ixtiyarlarına taxtadan çimmə kabinəsi verilmişdi. Aktrisa Frölixin ayağında ağ ayaqqabı, başında ağ qotazlı şlyapa, əynində ağ paltar vardı. Gümrah görünürdü, şlyapasına bərkidilmiş ağ duvaq yellənib onun üz-gözünü küləkləyirdi. Ağ geyimli uşağın əlindən tutub gedirdi. Qanmazın əynində də ağ çimərlik kostyumu vardı. Onlar qum təpələrinin yanınca döşənmiş taxta sahildə gəzişəndə taxta kabinələrin hamısından binoklla onlara baxırdılar və bu şəhərin sakinlərindən kimsə onların əhvalatını qonaqlara danışırdı.

Aktrisa Frölixin uşağı yaş qumdan bişi bişirəndə düzəltdiyi bişiləri gərək bərk-bərk yuyaydı; onlardan birini qumda, yaxud suda itirmək təhlükəsi yaranan kimi alicənab ağalar-

dan hansısa irəli atılar, həmin bişini tutub gətirərdi – amma uşağa yox, aktrisa Frölixə. Sonra Qanmazın qarşısında təzim edib öz adını deyərdi. Bunun nəticəsi olaraq ailə özünün kiçik sahil evindəki qəhvə süfrəsinin arxasında iki nəfər hamburqlu tacirlə, bir nəfər cavan braziliyalı ilə, bir nəfər də saksoniyalı fabrikantla oturardı.

Müxtəlif tipli insanlardan yaranmış bu dəstə yelkənli qayıqla dəniz gəzintilərinə çıxırdı, burada da Qanmazdan başqa bütün kişilər dəniz xəstəliyindən əziyyət çəkirdi. Aktrisa Frölixlə bir-birinə baxıb gülürdülər. Uşaq hər gün girvənkə-girvənkə şirniyyat payı, bəzəkli oyuncaq gəmilər və çimərgə bəbəcikləri alırdı. Hamısı da bir-birindən gözəl. Eşşək sürürdülər, Qanmaz eşşəyinin üzəngisini itirmişdi, odur ki yalmana sarılıb konsert vaxtı düz səhnənin yanından dördnala çapırdı. Aktrisa Frölix qıyya çəkirdi, uşağın sevinc sədaları göyə yüksəlirdi və masaların arxasından acı sözlər eşidilirdi.

Bir nəfər berlinli bankir macar rəqqasə ilə buraya gələndə "Qanmaz yığnağı"[1] kurortu başına götürdü, *table d'hote*[2]-nin yanında səs-küy saldı, aktrisa Frölixin yaşam yolunda oxuduğu musuqi parçalarını çalmağı kapelmeysterdən tələb etdi, özbaşına atəşfəşanlıq düzəltdirdi, hər şeyin altını üstünə çevirib məmnunluq və coşquya səbəb oldu.

Qanmaz arvadının xatirinə onunla bərabər yaşamalı olanlar üçün bir müəmma idi. Bəzi xörəkləri yeyərkən o, rüsvayçılığını büruzə verirdi, axşam müsamirəsinə qapılıb qalırdı, ingilis kostyumunu adi paltar kimi əyninə keçirirdi və onu bu görkəmdə görənlərə ciddi mane olmurdu və onun fəqirliyinə gülənlərə heç bir təsir göstərə bilmirdi. O həmişə hər kəsə itirilmiş kimi görünürdü. Bununla belə, kimsə onun arvadına qaş-göz oynadanda kürəyində onun quru, kinayəli baxışını hiss edirdi. Arvadına bağışladıqları qolbağa məftunluqla baxanda bəxşişçidə qəflətən belə bir duyğu baş qaldırırdı ki, artıq tora düşmüşdür. Az qala, həlledici üstünlüyə yetişəndən, Qanmazın arvadı ilə tək-tənha üzüaşağı vaxtsız dəniz gəzintisindən sonra, bu arada əri başqaları ilə punş süfrəsinin arxasında əyləşərdi, "Gecəniz xeyrə qalsın!" deyərkən həmin adam özünü ələ salınmış sayır və şübhələnirdi ki, insan məqsədinə bu cür çata bilərmi.

[1] İfadə Bibliyadakı "Korah yığnağı"na istinadən düzəlmişdir və Qanmaz kompaniyasının ədəbsizliyinin rəmzi kimi işlədilir.

[2] Qonaqların siyahısı asılan lövhə (mehmanxanada) (*fr.*)

Bu yolla heç kim məqsədə çata bilməz. Belə ki, Qanmaz kimisə aktrisa Frölixin yanına qatıb aradan çıxmağı yaxşı bacarırdı. Roza ilə tək qalan kimi hər iki hamburqlunun ingilis danışıq tərzini lağa qoyar, braziliyalının yastı çaylaq daşları əvəzinə dəmir pulları suyun üstündə şütütməsinə çiynini çəkər, siqaretini yandırarkən, yaxud şərab şüşəsinin ağzını açarkən leypsiqlinin baş və əl hərəkətlərini təqlid edərdi. Onda da aktrisa Frölix gülərdi. Gülərdi, baxmayaraq ki Qanmazın hər şeyə ikrahla baxmasının səbəbləri onu tam qane etməzdi. Əslində, Qanmaz bircə şeyi dəlil kimi irəli sürərdi: yunanlar belə etməzdilər. Bununla belə, Frölixi kim güldürürdüsə, qadın ona minnətdar olurdu. Bundan başqa, o özü də istəmədən Qanmazın israrına və bu israrda əzəmətli bir əminliyə tabe olurdu ki, həmin əminliyə görə də dünya üzərində hər ikisi ilə müqayisəolunacaq birisinə rast gəlmək olmazdı. Güclü bir insanın yanında Frölix də özünə inam və dəyanət əldə etdi. Tənha qayanın yanındakı qumda onun qarşısında diz çöküb əllərini qanıran braziliyalıya, sanki, gözləri indi açılırmış kimi müşahidəçi səsi ilə dedi:

– Siz əsl naqqalsınız.

Burada Frölixə xoş gələn o oldu ki, şəhərdəki ailələrdən birinin qonağı olan bu cavan oğlan onunla dolaşıb pullarını xərcləmək xatirinə bütün tanışlarını evdə qoyub gəlmişdi. Ancaq Qanmaz ona naqqal damğasını vurmuşdu.

Qanmaz Rozanın haralarda itib-batdığı barədə heç vaxt heç nə soruşmazdı. Qadın şıq və yaraşıqlı geyinəndə, onun şəffaf paltarlarından heyranları ağıllarını itirəndə narahatlığını büruzə vermirdi. Əksinə, kişilər bayırda gözləyəndə bəzənib-düzənməkdə aktrisa Frölixə kömək edirdi, əvvəllər artistlərin soyunub-geyinmə otağında olduğu kimi onun sir-sifətini boyayırdı. Zəhərli təbəssümü ilə deyirdi:

– Xalq darıxır. Hövsələlərini basdırmaq üçün royal çaldırmaq lazım idi.

Ya da:

– İndi yarıboyalı və onların gözləmədiyi anda başını qapıdan çölə çıxartsaydın, yəqin ki, hamısı təzədən quruldaşardı.

***

Kurortdan qayıtma qalmaqalsız ötüşmədi. “Qanmaz yığnağı”nın hamısı vağzalda idi, braziliyalı aktrisa Frölixlə kənarda bir neçə kəlmə kəsə bildi, bu vaxt yaşlı bir cənab,

makler Fermölen axsaya-axsaya özünü onlara yetirdi, cavan əcnəbi həmin maklerin qohumu idi. Kişi əlini aktrisa Frölixin əlindəki bağlamanın üstünə qoymağa çalışdı.

Bu bağlamanı Frölix elə indicə braziliyalıdan hədiyyə almışdı. Qanmaz özünü çatdırıb arvadını qorumalı oldu. Tam rüsvay olmuş cavan oğlan özünün bu kişi ilə yaxın qohumluğunu dananda qoca Fermölen böyük həyəcan içində ər-arvad Qanmaza izah etdi ki, qardaşı oğlu bu dəstədə oturub dura-dura pullarının başına çoxdan daş salıb. Hazırkı yaxa sancağını o, heç vaxt ala bilməzdi; əfsuslar ki, cavanın xasiyyətcə yumşaq bibisi həmin sancağın pulunu ona verib; amma bu, Fermölenin pulu olub, buna görə də sevda baş tutmuş sayıla bilməz.

Ancaq Qanmaz etiraz edib dedi ki, cənab və xanım Fermölenlərin pullarının arasında fərq yoxdur, Fermölen ailəsinin daxili işlərinə qarışmaq fikri də yoxdur və əslində, zəng üçüncü kərə çalınır. Boz barmaqları ilə bağlamadan bərk-bərk yapışaraq o, aktrisa Frölixi vaqona çəkdi. Hamı şlyapasını yellədi, Fermölendən başqa, onları o, çəliyi ilə hədələdi.

Aktrisa Frölix bu xoşagəlməz hadisə və onun gələcək nəticələri barəsində çəkinə-çəkinə nəsə dedi. Qanmaz onun qorxusunun əsassız olduğunu başa salıb əlavə etdi ki, makler Fermölenin oğlanları, onun bircə dəfə də "yaxalaya" bilmədiyi keçmiş şagirdləri var. Fermölenlər şəhərdəki bir çox ailələrə qohumdurlar.

Aktrisa Frölix sakitləşdi. Balaca brilyantları uşağına göstərdi, ona qoşulub güldü və dedi:

– Bu dəyərsiz medalyonların və yaxa sancaqlarının hamısı Mimi üçündür, Mimi ərə gedəndə ona cehiz verəcəyəm.

Qanmazın sevinci yerə-göyə sığmırdı, Fermölenin uşaqları "ələ keçmişdilər". Get-gedə fikrə daldı ki, bununla şagirdlərə və onların qollu-budaqlı ailəsinə ziyan vurulmuşdur ki, həmin ziyan da onların ağzıbirə salınmasından və məktəbdən qovulmasından irəli gəlmir. Buradan da yamanlıq, – mütləq və şərtsiz, – böyük rüsvayçılığın özü kimi təkcə gimnaziyadan çıxarılmaqla yox, həm də başqa yollarla aradan qaldırıla bilər.

***

Şəhərdə və evdə yenə keçmiş həyat başladı. Gediş-gəliş yox idi. Həmişə teatra, yaxud restorana getdikləri axşama qədər aktrisa Frölix gah çarpayıda, gah da divanda uzanıb

qalırdı. Qanmaz onun fikrini yunan dili dərsi ilə bir az dağıtmağı təklif etdi. Aktrisa etirazını bildirdi. Bir axşam komediya tamaşasında gördü ki, çıxış edən aşpaz qadın onun keçmiş tanışlarından biridir.

– Bu ki Hedviq Pilemandır, Allah şahiddir ki, onun əlindən heç vaxt heç nə gəlməyib, bunlar da onu teatra götürüblər. – Dərhal sonra keçmiş rəfiqəsinin həyatından murdarlıqlar danışdı. Axırda da: – Eşidirsənmi, onu gərək bizə çağıraq.

Pileman gəldi, özü də tez-tez, aktrisa Frölix də onu qamaşdırmaq üçün süfrəyə ləziz səhər yeməkləri və axşam təamları düzdü. İndi taxt və divanda bir qadın əvəzinə ikisi yayxanırdı, onlar siqaretə dəm verib bir-birinin yadına köhnə olayları salırdılar. Darıxdıqlarına görə Qanmaz vicdan əzabı çəkirdi. Onları əyləndirməyi özünə borc bildi, amma necə etmək lazım gəldiyini bilmədi, bunu da özünə bir dərd elədi. Hər dəfə zəng çalınan kimi yerindən sıçrayıb qapıya gedərdi. Qapını açmağı xidmətçi qıza heç vaxt icazə verməməsi qadınların gözündən yayınmırdı.

– Ya mənə sürpriz hazırlayır, – aktrisa Frölix dedi, – ya da xəyanət edir. Qoca Qanmazım dinc duran deyil.

Bir gün Hamburqdakı hər iki dostdan bir məktub gəldi. Onlar payızda gəmi ilə İspaniyanın sahillərinə və Tunisə qədər səyahətə cıxmaq istəyirdilər. Diləkləri bu idi ki, Qanmazla arvadı da onlarla getsin.

– Nə olar! – aktrisa Frölix təkidlə dilləndi. – Heç də pis deyil! Vəhşilərin məskəninə gedirik. Gərək bizimlə gedəsən, Pileman, məzuniyyət götürərsən. Hamımız üzümüzü qonur rəngə boyayanq, ağ mələfəyə bürünərik, mən də diademanı başıma qoyaram, onunla artist vaxtlarında çıxış etmişəm.

Pileman asan yola gəldi. Qanmazdan heç nə soruşulmamışdı. Təkcə bir şeyə heyrətləndilər ki, bu söhbətdə onun tükü də tərpənmədi. Pileman gedənə qədər dözdü; sonra canqurtaran etirafını elədi. Daha pul yox idi.

– Mümkün olan iş deyil. Professorun pulu olmazmı?! – Frölix ucadan dilləndi.

Qanmaz pərt-pərt gülümsədi. Onun otuz min mark saxlancı vardı. İndi hamısı kül olmuşdu: mənzilin təchizatına, qadının bəzək-düzəyinə, əyləncələrə. Cari xərclərlə Qanmazın təqaüdü ayaqlaşmırdı, xərclər çox qabaqda gedirdi. Qanmaz qapının ağzında qəbul etdiyi hər növdən olan xəbərdarlıq məktublarını eşələyib üzə çıxartdı. Həmin məktublar

ona xidmət göstərənlərdən – restoran sahiblərindən, dərzilərdən gəlmişdi. Məhkəmə icraçısının gəlişini gecikdirmək üçün, amma bu dəfə uzun müddətə yox, əl atdığı fırıldaqlardan o, özünü alçaldaraq, özünə nifrət edərək danışdı.

Aktrisa Frölixin üzünə ürkəklik və peşmançılıq ifadəsi qondu. Dedi ki, belə şeylər onun heç ağlına da gəlməyib. İndi isə hər şeyin axırı çatıb, qoy o iki səfeh vəhşilərin yanına özləri getsin. Bu gün günortaya bulyonu alınmış ət olacaq, hərçənd ki qaz artıq odun üstündə bişir, axşama da qan qolbası olar və o, təzədən yunan dilini öyrənmək istəyir, çünki bu, hələlik çox ucuz başa gəlir. Qanmaz həyəcanlandı, dedi ki, aktrisa Frölixi ehtiyacı olduğu hər şeylə təmin etmək onun borcudur və bu borcun nə demək olduğunu gözəl anlayır.

– Hə, bildim, – Frölix dilləndi, – altmış marka qızılı materialdan tikilmiş ayaqqabı.

Elə həmin Pilemana yazılı bildirdi: “Pulumuz yoxdur”. Mövcud vəziyyət onun canına vəlvələ saldı.

Pileman qərarını verdi: gərək Qanmaz fərdi dərs versin.

– Ərimi burada iyrənc şəkildə sevməsəydilər, – aktrisa Frölix fikrini bildirdi.

Nəsə xidmət göstərə bilməyi ilə fəxr edən Pileman:

– Dostumu onun yanına göndərəcəyəm. Məncə, onu rahatca yola bilər, mən buna göz yumaram.

– Şərab taciri Lorenseni? Ondan əlini üz, Qanmazın keçmiş şagirdlərindəndir, onlarla qulağımı çoxdan doldurub. Dediyinə görə, sənə qarşı heç nəyi yoxdur, amma dostunu qapıdan içəri də buraxmaz... Mən onu dilə tutmuş olsam da, Lorensen özünü qoruyacaq, onun çənginə keçməyəcək.

– Onda məni yaxşı tanımırsan, – Pileman cavab verdi. – Mən məsələni qəti qoyuram: ya, ya da.

Qanmaza xəbər çatdırdılar ki, şərab taciri yunan dilini öyrənmək istəyir, çünki yunanlarla şərab alveri edir və Qanmazın dərslərinə ehtiyacı var. Qanmaz bərk narahat oldu, lakin etiraz etmədi. Şagird Lorensenin saysız suçlarından və digər hoqqalarından həyəcan və məkrli təbəssümlə danışdı, “o adı” ona Lorensenen verdiyini, özünün də onu heç vaxt yaxalaya bilmədiyni dedi.

– Qoy olsun, – birdən sözünə ara verdi, – hələ heç nə itirilməyib. – Sonra da əlavə etdi: – Kəbinimizi kəsdirəndə qopanlan səs-küyü, faytonumuzu müşayiət edən yığnağı, yəqin, hələ də xatırlayırsan, əzizim...

– Hə, hə, boşla getsin, – aktrisa Frölix onun sözünü kəsdi, Pilemanın yanında bu hadisələrin xatırlanmasından utandı.

Qanmaz dinlənilmədiyinə əhəmiyyət vermədən:

– ...kəbin evinin qabağına toplaşan xıl, yenə də və qaydasında, tüğyan edib yaramaz işlər görürdü, xüsusilə də faytona minəndə sənin ağ atlaz paltarını çirkə batıran çaylaq daşı. Belə-belə işlər! Dəqiq müəyyənləşib ki, gənc sui-qəsdçilərin arasına qanşıb adımı göylərə qışqıran şagird Lorensen də rüsvayçılıq çamırına batıb!

– Onun ağlını başına qoyaram! – Pileman dilləndi.

– Heyif ki, onu yaxalaya bilməmişəm, – Qanmaz sözünə davam etdi. – Əlimdə sübutum olmayıb. İndi isə qoy yunanca öyrənsin. Mən çoxlarını yaxalaya bilməmişəm. Nə olar, qoy elə hamısı öyrənsin!

Azca keçmiş Lorensen gəldi və onunla mülayim davrandılar. Lorensenin dəftəri, yaxud karandaşı olmayanda Qanmaz aktrisa Frölixi çağırar və onu bacarıqla söhbətə tutardı. Frölix yunan dilindən əldə etdiyi bilikləri əvvəlcə nümayiş etdirərdi, sonra söhbət müasir şeylərin üstünə gələrdi. Şagird Lorensen ağıllı bir ironiya ilə danışardı. Qanmaz görəndə ki aktrisa Frölix öz burjua üslublu mebelinin arasında sərbəst və ölçülü-biçili bir qəmzə ilə gəzişir, Lorensen hər dəfə teatrda aktrisa Frölixə məftun olan arvadından Frölixin yaxşı geyindiyini bilir, yüngül qrimin, küçə jarqonunun və məzhəkəçiliyin bir çox ziyanlı ünsürlərinin onun ailəsinə müdaxilə etdiyini duyur, ondan asta-asta üz döndərməyə başladı. Qanmazın bu fırıldağı! Hər halda, bu yolla nə kluba, nə də harayasa getməyə lüzum qalmadı. Ər-arvad Qanmazın müqabilində Lorensenin ilkin təkəbbürünü yapışqanlı bir yanma əvəz edi.

Gələn dəfə şərabından bir balaca gətirməyə icazə aldı. Bundan başqa, bir ədəd də paştet gətirdi və kiçik səhər yeməyi yunan dərsini əvəz etdi. Bayırdan nəsə almaq lazım gələndə hər dəfə Qanmaz gedərdi. Əvvəlcə o, çaxıraçan dalınca getdi, sonra da şərabı içib qurtarandan sonra şagird Lorensen keflənəndə başqa şeyləri almağa yollandı.

Bu cür görüşlər təkrarlananda aktrisa Frölix bildirdi ki, burada çox adamın iştirakı gözəl olardı. Şagird Lorensen daha çox təkliyin tərəfdarı idi, amma Qanmaz arvadına haqq qazandırdı. Lorensen dostlarını çağırası oldu. Pileman da rəfiqələrindən birini gətirdi. Kişilər bişi, qəlyanaltı, meyvə gətirəsi oldular, çay dəsgahına evin qadını baxası oldu. Hər

dəfə qonaqlar şampana meyil edərdilər, Qanmaz da hər dəfə boğuq bir təbəssümlə deyərdi:

– Sizə məlumdur ki, möhtərəm xanımlar və cəbablar, buradakı gimnaziyanın müəllim heyətinin tərkibindən çıxmışam, istər haqlı olsun, istər haqsız, bunu müzakirə etməyək.

Hər dəfə ona axıradək danışmağa imkan verib məzələnirdilər. Sonra kişilər pul toplayırdı və Qanmazı şampan dalınca göndərirdilər. Hərdən o özü gedib sifariş verirdi. Vaxtilə "Mavi mələk"də olduğu kimi, yenə gətirilən şərabı arxadan qorumaq üçün səbət daşıyanı qabağına salıb küçə ilə üzüaşağı gəlirdi.

Kefləri yetərincə qalxanda aktrisa Frölix onların arzularını yerinə yetirib özünün sevimli mahnılarını oxuyurdu. Bir dəfə hətta sərxoş olanda ehtiyatsızlıq edib "Bədirlənmiş ay"ı oxudu. Qanmaz həmin an onun sözünü ağzında qoydu, hamını öz evinə göndərdi. Onlar təəccübləndilər, etirazlarını bildirdilər, ağızlarına gələni dedilər. Amma Qanmazın fınxırtısını eşidəndə, buna dözmək halında olmadığını anlayanda dağılışdılar. Aktrisa Frölix ərindən yazıq-yazıq üzr istədi. Dedi ki, bunun haradan ağlına gəldiyini heç özü də bilmir.

Məclisdəkilərin hamısı cavanlardı və əksəriyyəti "Mavi mələk"in daimi müştəriləri idi. Nə qədər ki az idilər, Qanmazla adi adamlar kimi davranmağa vərdiş etməmişdilər, özlərini qorxaq və abırsız aparırdılar, arxasınca onu lağa qoyurdular, etdikləri əclaflıqlara cavab vermək lazım gəldikdə isə bunu şagird dəcəlliyi ilə izah edirdilər. Sonra sayları artdı və hər biri özünü cavabdeh saymayan tamaşaçıya çevrildi. Səmimilik əhvali-ruhiyyəni dəyişmədi. Sanki, Qanmaz başının dəstəsi ilə nisbətən kiçik bir meyxanaya köçmüşdü ki, qadınlar özlərini rahat hiss etsinlər. Üstəlik, bura gec bağlanırdı, həmişə də hamı könüllü çıxıb gedəndən sonra. Bir dəfə camaat çox olmayanda Lorensen bakarat oynamağı təklif etdi. Qanmazı maraq götürdü, xahiş etdi ki, oyunu ona başa salsınlar və onu tam qavrayandan sonra oyunun bankçısı oldu. Oyunu uddu. Amma uduzan kimi bankı başqasına verdi. Oyunun təşəbbüskarı kimi Lorensen ortanı şənləndirməyə özünü borclu saydı. Pul kisəsindən bir-birinin ardınca bir neçə yüzmarklıq çıxartdı. Çoxları qıpqırmızı qızardı, oyun azarına tutulduqlarından üstlərindəki pulların azlığından təəssüfləndilər. Bankçının bəxti yenidən gətirdi. Aktrisa Frölix asta-asta ərinin arxasına gəlib pıçıldadı:

– Görürsən?! Bankı əlindən niyə verdin, a qoca keybaş?

Qanmaz cavab verdi:

– Altmış marklıq şlyapa səninkidir, əzizim. Həm də imkanım var ki, restorançı Sebbelinin ağzını bağlayım. Hələlik bu da bəsimizdir.

Lorensenin başqalarının cibinə axan əsginaslarına sakitcə tamaşa etdi. Əsas məsələ o idi ki, şagird Lorensen pullarını itirirdi və Qanmaz tövşüyə-tövşüyə nəfəs alaraq özünü yeraltı təkanlar nəticəsində zəfərin asta-asta titrəyən yolunda hiss edirdi. Nəhayət, Lorensenin ağlı başına gəlib sallaq sifətiylə boş pul kisəsinə matdım-matdım baxanda Qanmaz onun üstünə yeriyib dedi:

– Yunan dili dərsimizi bu günə bəs edək, Lorensen.

Tezliklə şəhərə xəbər yayıldı ki, Qanmazgildə gecə şənlikləri keçirilir. Birjadakı, klubdakı, daimi müştərilərin masalarının arxasındakı, idarələrdəki kişilər bir neçə subayın sayəsində şişirdilmiş yağlı təsvirlər eşidirdilər. Bu barədəki yüngül əks-sədaları onlar ailələrinə daşıyırdılar, həyat yoldaşları da pıçapıç salıb ətraflı məlumat almaq istəyirdilər: Qanmaz cütünün oynadığı kankan[1] nə olan şeydir? Ərləri ətraflı izahat verməkistəmirdilər və sadəcə, qadınlara ağlagəlməz əxlaqsızlıqları danışırdılar. Sonra da Qanmazgildə oynanılan oyun: püşkatma oyunu. Adamlar cüt-cüt döşəməyə uzanıb üstlərinə böyük bir yorğan örtürlər, hamısı da cərgə ilə, kişi ilə qadın yan-yana. Yorğanı boğazlarına qədər çəkib uzanırlar və nə qədər ki yorğan tərpənmir, onun altında nələrin baş verməsinin heç kimə dəxli olmur. Əgər tərpənsəydi, həmin adam, yaxud adamlar girov qoyurdular. Bu oyun şəhərdə əfsanəvi bir coşqu yaratdı. Onun barəsindəki dumanlı məlumatlar cavan qızlara yetişdi və gözlərində qorxunc bir maraqla onlar saatlar boyu bu barədə bir-biri ilə öz fikirlərini bölüşdülər. Bundan başqa, onu da bilmək istəyirdilər ki, Qanmazgildə qadınların göbəyə qədər çılpaqlanmaları doğrudurmu. "Nə böyük biabırçılıq!" Amma hər halda, əyləncəli olar.

Lorensen özlərinin yemək və əyləncə otaqları üçün ondan şərab alan bir neçə zabiti, onların arasında da leytenant fon Qirşkeni özü ilə gətirdi. Asessor Knust kübar burjua cəmiyyətinin bu işə qoşulan ilk nümayəndələrindən biri idi. Aktrisa Frölix uğrunda o, cavan baş müəllim Rixterlə əməlicə yarışa girmişdi. Rixter hər baş müəllimə nəsib olmayan

[1] *Kankan* – o dövr üçün müasir olan abırsız fransız rəqsi

zəngin ailədən çıxmış qızla, axır ki, nişanlanmışdı və nişanlılıq ona, sanki, düşməmişdi. Çılğın idi, həzz almaqdan xoşlanırdı, məmur başını asanca itirirdi. Lorensenə qoşulan axşam Qanmazgildə bir neçə aylıq maaşını uduzmuşdu, səfeh yarışlara qoşulurdu, təsərrüfatçı qadının etimadını qazanmaq üçün lazım olan ehtiyatlı hərəkəti unudurdu. Müəllimlər otağında onun ad-sana ləkə gətirən Qanmazla oturub-durmasına qarşı kəskin iradlar səslənirdi.

Oyunda bəxtinin gətirib-gətirməməsindən asılı olaraq Qanmazın qalxışları və enişləri vardı. Bir dəfə aktrisa Frölix min marklıq şinşilla bir şuba aldı və bundan sonra onun bəzəkli başı uzuntüklü boz dərldən görünməyə başladı. Bir dəfə də qonaqlar içəri girəndə Qanmaz yatağa girib özünü xəstəliyə vurdu, çünki restoran sahiblərindən heç biri yeməyə nəsə göndərmək istəməmişdi. Bundan bir gün sonra onlann yanına gedib bildirdi ki, gərək onlar hansısa fəlakətə heç cür ümid etməyəydilər. Restorançılar belə bir baxışdan yayına bilmədilər və Qanmaz növbəti kərə udana qədər ona nisyə mal verməyə başladılar.

Aktrisa Frölix az-az oynayırdı, oynayanda da axırına çıxmamış dayanmazdı. Bir axşam buludsuz bir xoşbəxtlik onun üzünə güldü, belə ki, oyundaşı Lorensen pas etdi... Sifəti dümağ ağarmışdı və hədəli kəlmələrlə aradan çıxdı. Aktrisa Frölix yerindən tərpənmədi, başından hədiyyələr yağan körpə uşaq kimi oturmuşdu və gücdən düşmüş əllərində kağız əsginasları və qızıl sikkələri tutmuşdu. Birdən tam ehtiramla onun pulunu saymağı təklif etdilər və müəyyən oldu ki, on iki min markdan çoxdur. Frölix təkcə onu dedi ki, yatmağa getmək istəyir. Qanmazla tək qalanda gözləri alışıb-yandı və şirin, kəsik səslə dilləndi:

– Yenə Miminin bəxti gətirdi. Nəyimiz vardısa, hamısını verməli olmuşduq, amma indi onun cehizi yenə hazır oldu və o, anasına bənzəməyəcək.

Lakin pulun iyini alan borc sahibləri ertəsi gün səhər tezdən evə hücum çəkdilər və aktrisa Frölix qızının cehizinin üstünə yıxılsa da, pulu onun gövdəsinin altından çıxartdılar.

Digər tərəfdən şayiə yayıldı ki, şərab taciri Lorensen ödənişlərini dayandırıb. Qanmaz həmin an xəbər tutmağa yollandı və geri qayıdanda rəngi sapsan saralmışdı, bədəni suyun içində idi və dili tutulmuşdu. Nəhayət, əndikərək çənəsi şaqqıldaya-şaqqıldaya dilləndi:

– Müflisləşib. Şagird Lorensen müflisləşib!

– Bundan mənim xeyrim nə? – taxta çöküb əllərini dizlərinin arasında oynadan Frölix cavab verdi.

– Şagird Lorensen müflisləşib, – Qanmaz yenə təkrarladı. – Şagird Lorensen əzilib yerə sərilib, bir daha ayağa qalxan deyil. Həyatı, gerçəyi budur, qəfil söndü.

Astadan danışırdı, sanki, şənliyindən partlamaqdan qorxurdu.

– Bundan sənə nə?! Miminin cehizi əlimizdən çıxdı.

– Şagird Lorensen, axır ki, yaxalandı. Onu yaxalamaq və layiq olduğu talenin əlinə tapşırmaq bu dəfə mənə nəsib oldu.

Frölix gördü ki, kişi yaman vumuxur, sanki, başına hava gəlib. Əşyalara qeyri-iradi toxunanda əlləri əsirdi. Qadın nələr demədi, amma hər dəfə onun titrəyə-titrəyə dediklərini eşitdi:

– Şagird Lorensen əzilib yerə sərilib.

Qanmazın rəftarı tədricən onun diqqətini çəkdi. Kişinin ruhi sarsıntısı qadınınkına güc gəlib onu söndürürdü. Frölixin içindəki dərd çəkilib-getdi, o, kişinin keçirdiyi iztirabdan dumanlı şəkildə qorxaraq donuq-donuq ərinə baxdı, sanki, həmin iztirab Qanmazın alt şüurunda sıçrayışa hazır olan bir dəlilik idi; bununla yanaşı, o həmin iztirab, nəhəng, həm də qorxunc bir iztirab sayəsində özünün qoca Qanmazına şirin bir üşərgə ilə daha möhkəm bağlanmışdı.

## ON DÖRDÜNCÜ FƏSİL

Hətta məktəbin himayəsində yaşayan şagirdlərdən bir neçəsi də Qanmazın qonaqları sırasına qatılmışdı. Onlardan biri, uzunboylu, kökə kimi sanşın oğlan yetərincə pul uduzmuşdu. Dərs ilinin sonuna yaxın yaz ayında şənbə günü Qanmazın düşməni, onun oğlu haqqında ağzını allah yoluna qoymuş, elə Qanmazın sinfində "əxlaqsız Qanmaz, daha çox zibil" kəlmələrini işlətmiş baş müəllim Hübenet onun qapısının ağzını kəsdirdi. İndi budur, dayanıbdır qapıda, özünü dartır, Qanmaz isə zəhərli irişiyini ona yönəldir. O, həmkarının gəlişini gözləyirdi, çünki şagird Hübenet çox yuxandan gedirdi, deməli, müəllimin evində hər şey qaydasında deyildi.

Xərçəng kimi qızarmış Hübenet oğluna doğru yeriyib, özünü itirmiş uşaqdan arxasınca gəlməyi tələb etdi. O, üzünü heç kimə tutmadan ucadan əlavə etdi ki, vicdansız

macəraçılar tərəfindən burada törədilən biabırçılığın aradan qaldırılmasına addım atır; zəif insanların azdırılmasına hesablanmış biabırçılığın; atalarının talan edilməsinə və digər çirkin əməllərə, hətta qanlı olaylara söykənən biabırçılığın.

Zabitlərdən biri özünü bayıra atdı. Həddən artıq narahatlıq keçirən iştirakçı acığı soyumaq bilməyən baş müəllimə yaxınlaşıb səs salmağın necə ağılsız olduğunu ona xatırlatdı. Yoxsa bu toplantını o, şübhəli sayır? Yaxşı olar əvvəlcə onun tərkibinə fikir versin. Pəncərənin yanındakı oyun masasının arxasında oturan çalsaç kişinin kimliyindən, deyəsən, heç xəbəri yoxdur! Konsul Btretpotun özüdür. Bəs orada alnını düyünləyib Hübenetə doğru çevrilən kimdir? Polis məmuru Fladın özündən başqa kim olar?! Əgər bu adamlar işin ayrı tərəfində maraqlıdırsa, Hübenet doğrudanmı elə fikirləşir ki, onun mövcud duruma qarşı qiyamı uğurla nəticələnəcək?

Hübenetin elə fikri yox idi, bunu üzündən görmək olurdu. Doğrudur, Katon[1] üslubunda bir neçə söz dedi, amma batıq səslə; sonra yoluna düzəlib getdi. Daha ona heç kim fikir vermədi. Yalnız Qanmaz zəfərdən alışıb yana-yana onun dalınca düşdü, həmkarına sərinləşdirici içki təklif etdi və qarşısındakı çiynini çəkib əxlaqını qoruyaraq ondan aralı duranda evinin həmişə Hübenetə və oğluna açıq olduğunu dedi.

***

Çimərlik mövsümü bir daha geri qayıtdı. Bu dəfə Qanmaz və əshabələri kiçik dənizkənarı şəhərin üstünə fırtına kimi əsdi. Qanmazgil mebelli bir villa tutdular. Sadə ailə divanına haşiyəli yapon ipək yorğanlar saldılar, onun qarşısındakı masanın üstünə rulet qoydular, üstündə "Dəniz kənarından salamlar" sözləri yazılmış badələrə şampan süzdülər. Təzə "Qanmaz xılı" bütün gecəni qumar oynayar və kefindən qalmazdı, sonra da sahilə gedib günəşin çıxmasına tamaşa edərdi; yaxud bazar günü kurortun kapellasının xoralının sədaları altında səhər yeməyini yeyərdi. Bir çox gecələri evdən qıraqda keçirərdilər. Aktrisa Frölixin pullu heyranlarının xatirinə uzun müddət bağlı qalmış restoran və kafelər istənilən saat onun üzünə açıq idi.

Frölix yorulmaq nə olduğunu bilmirdi. Heyranlar xılını gecə-gündüz bütün istiqamətlərə sürüyürdü, birinə ağac atırdı ki, dalınca qaçıb gətirsin, bir başqasına sümük tullayır-

---

[1] Romanın ciddi əxlaq hakimi Katonun adından götürülmüşdür.

dı: hamısını da sevincdən əllərini ovuşduran Qanmaza qıyqacı baxaraq. Heyranlarının hər birini sınağa çəkirdi. Kök və kürən kişiyə tapşırıq verdi ki, altı löyünlük günorta yeməyindən sonra üzbəüzdəki dayazlığa qədər üzsün.

– Allah, sən saxla, nə iş görürsünüz, ürəyiniz partlayar, – nisbətən ayıq olanlardan biri dedi. Aktrisa Frölix də, öz növbəsində:

– Ürəyi partlayanın yanımda yeri yoxdur, istəyir kirmişcə aradan çıxsın. Nə fikirləşirsən, Qanmazcığım?

– Əlbəttə elədir, – Qanmaz cavab verdi, – kirmişcə aradan çıxsın. – Sonra da əlavə etdi: – Şagird Yakobi idmanda həmişə qabaqcıl olub; məsələn, məktəbi bitirəndən sonra hasara dırmaşıb ki, çürümüş qoyun südünün iyini şlanqla dərs dediyim alt mərtəbədəki sinif otağının pəncərəsindən içəri ötürsün. Otağın havasını günlərlə dəyişmək mümkün olmadı. O həm də qoçaq üzgüçüdür.

Onun nitqindən sonra alqışlar qopdu və cavan oğlanı gülüşlər altında getməyə qərar verdi. O, öz kabinəsindən çıxanda hamı sahildə idi və mərc qoşurdular. Necə də kürən və kök idi! Yolun yarısında onu izləyən qayığa qaldırılası oldu. Sahildə hələ də ağlı özündə deyildi.

Yenidən həyata qaytarılmasında çox adam iştirak etdi. İlk mərclərini uduzanlann bir neçəsi itkilərinin yerini doldurmaq üçün Yakobinin dirisinə və ölüsünə ikinci mərcə qoşuldular. Qadınlar dəhşətli gərginlik keçirirdi; isterik tutmaları olan da tapıldı. Zərərçəkən on beş dəqiqədən sonra hələ də tərpənməyəndə bəziləri səslərini içlərinə salıb oradan uzaqlaşdılar. Qanmaz yerindən tərpənmədi.

Şagird Yakobinin qanı qaçmış ölü sifətinə baxıb, bu kinayəli sifətin keçmişini gözləri önündə canlandırdı. Bu onlardan biri idi. Budur, onlar yenilərək uzanıblar. Bundan o yana nə zəfər var, nə də onları ram etmək. Bu yerdə mədəsi yüngülcə sancdı. Ayağının altındakı zəfər yolu yenidən azca titrədi. Zülmkarın ağılsız başı fırlanmağa başladı...

Yakobi də gözlərini açdı.

***

Hər iki hamburqlu, braziliyalı və leypsiqli bu hadisə barədə həddən artıq həyəcanlı fikir söylədilər. Doğrudur, burada şəxsi pərtliyin əlaməti də vardı, çünki onlar əhəmiyyətsiz olmuşdular. Nələrin baş verdiyindən bixəbər idilər.

Keçənilki xoşxasiyyət qızın əvəzində indi onlar gerçək gözəlliyin sırtıq amiranəliyini mənimsəmiş və hər tərəfdən ehtiramla qarşılanan aktrisa Frölixlə rastlaşmışdılar. O, özünü elə aparırdı ki, elə bil, gözəllik timsalı idi. Əslində isə gözəl deyildi. Ötən yayın dostları bu aldanışı gülünc sayırdılar. Ancaq hər gün ona daha çox aludə olurdular. Braziliyalı ilk günlər çalışdı ki, keçmiş etibarı yenidən bərpa etsin; sonra uzaqdan ürkək-ürkək köks ötürməyi öyrəndi.

Məqsədə daha yaxın olanlar asessor Knust və baş müəllim Rixter idi, çünki onların hər ikisi daha çox təklif irəli sürürdü. Biri subay idi və şəhərin ən yaxşı kürəkəni ola bilərdi; digəri nişanlanmışdı. Aktrisa Frölix uzun zaman qəti qərara gələ bilmədi. Knustun camaat içində hörməti vardı, ancaq Rixter olayların gedişində daha önəmli olardı. Nişanlısı onu haldan çıxarırdı, çünki bu xırdaboy qızın çimərlikdəki bəzək-düzəyi böyük sənətkar Frölixin bəzək-düzəyini üstələyirdi.

Knustdan tələb etdi ki, növbəti çərşənbədə təsadüfən adını tutacağı kişinin üstünə cumub onu şilləsin. Knustun şərabdan allanmış sifəti gülümsədi və o, hələlik dəli olmadığını dedi. Frölix onunla qurtardığını söylədi, bunu da dedi ki, ona iddiası olan kəs onun xətrinə hər şeyə qadir olmalıdır.

Rixter hər şeyə qadir çıxdı; nişanlı olması tez-tez onun başına bəlalar açırdı. Bir gün günortadan sonra musiqi çalınarkən dördnala çapan atlı-eşşəkli dəstənin tən ortasında aktrisa Frölixlə birlikdə eşşəyin belində qadının tərkində tam sərxoş halda onu qucaraq qəhvə içənlərin sırası ilə gedirdi, birinci cərgədə də nişanlısı oturmuşdu.

Şam yeməyindən dərhal sonra aktrisa Frölix yerindən qalxdı, Qanmazla Rixterin hərəsini bir tərəfinə aldı, alçaq, şirin səslə dedi ki, bu gün yatmağa tez getmək istəyir. Böyük bir dəstə onu əlvan kağız fənərləri ilə evə qədər ötürdü və kişilərdən bir neçəsi aşağıda balkonun altında serenada oxumağa başladı. Hər yan sakitləşəndə yarıya qədər soyunmuş Qanmaz arvadını səslədi. Fikirləşdi ki, balkonda olacaq. Amma yox. Səsləyə-səsləyə onu axtardı, onunla məzələnmək istəyirdi, çünki indi həmkarı Rixterin də taleyi həll olunmuşdu və gələcək ömür yolu məsudluq içində təhlükəyə düşmüşdü. Amma onun sevinci boş otaqlarda ovxalanıb toza dönmüşdü. Halı birdən-birə pozuldu.

Frölixin şıltaqlıqlarına o, yaxşı bələd idi və təbii ki, arva-

dı dənizə getmişdi. Qanmaz uşağın barmaqlıqlı çarpayısının yanında oturub ağcaqanadları qovdu.

Gecənin bu vaxtında yenə aktrisa Frölixin əlində oyuncağa çevrilən, bir balaca ay işığını özünün qolbağlarına və gümüş mücrülərinə dəyişən sadədil bir insan. Bu arada Qanmaz yatağa girdi... Ancaq qəlbinin dərinliyində, Qanmaz bu dərinliyə girmək istəmirdi, bilirdi ki, aktrisa Frölixin bələdçisi Rixterdir və Rixter də bu saatda heç də dəli deyil.

***

Qanmaz gecəyarıya qədər yatağında qurcalandı. Sonra yorğanın altından çıxıb paltarını geyindi və öz-özünə bərkdən dedi ki, qulluqçu qızı oyadıb fənərlə adamları dalınca göndərmək lazımdır; aktrisa Frölixin başına nəsə gələ bilərdi. Hətta əlinə bir şam alıb qulluqçu qızın yatdığı çardağa yollandı. Yalnız yuxarıda, pilləkənin başında özünüaldatmadan ayıldı, qorxa-qorxa şamı söndürdü ki, işıq onu ələ verməsin və dəvdənə-dəvdənə geri – yataq otağına qayıtdı.

İçəriyə düşən ayın solğun saçaqları aktrisa Frölixin boş çarpayısını işıqlandırdı. Qanmaz gözünü çarpayıdan çəkmədi; get-gedə dərindən nəfəs alırdı. Nəhayət, iki qatlanıb fəryad qoparmağa başladı. Öz səsindən özü də qorxdu və yorğanın altına girdi. Bir azdan kişiləşməyə qərar verdi, əlüstü bir də geyindi və aktrisa Frölixi necə qarşılayacağını götür-qoy etdi. İstəyirdi ona desin: "Hə? Balaca bir gəzinti, yenə də həmişəki kimi? Belə yaxşıdır. Necə bir təsadüf, mən də yorulmamışam, evə də indicə qayıtmışam". Ara vermədən otaqda gəzişərək bu nitqi düz bir saat məşq etdi. Bu vaxt qapının ağzında yüngül bir səs eşidildi və Qanmaz çılğın bir hərəkətlə paltarını əynindən çıxartdı və özünü çarpayıya saldı. Göz qapaqlarını bərk-bərk yumaraq aktrisa Frölixin boğuq yerişlə yaxınlaşmasına, əynindən çıxardığı paltarların oğrun xışıltısına, taxta uzananda ustuflu cırıltıya, astadan köks ötürməsinə, axırda da tanış və sevimli xorultuya qulaq asdı.

***

Səhər tezdən hər ikisi özünü yuxululuğa vurdu. Aktrisa Frölix qərara aldı ki, əvvəlcə əsnəsin. Qanmaz üzünü ona çevirəndə gözünə ağlamağa hazır iztirablı bir sifət sataşdı. Frölix üzünü onun kürəyinə söykəyib hıçqırdı.

– Kaş bircə Qanmazcığım biləydi! Hər şey adamın istədiyi kimi olmur, çoxunu da adam özü bacarmır.

– Olan işdir, – Qanmaz təsəlli verdi və Frölix daha bərkdən ağladı, çünki kişi həddən artıq həlim dilləndi və onun gicgici bəhanələrindən, guya, razı qaldı.

Ertəsi gün qapını heç kimə açmadılar və əlini atdığı hər işdə süstlüklə, pəndəmliklə seçilən aktrisa Frölixin gözlərindən hər yana yayılan böyük, yumşaq, şirin xatirələr oxunurdu, Qanmaz da hər dəfə xəcalətlənib bu baxışdan qaçırdı.

Axşamayaxın adamlarından bir neçəsi onlara gəldi və soruşdular ki, yenilikdən xəbərləri varmı. Haradan olsun, onlar çölə çıxmamışdılar ki!

– Rixterin nişanı pozulub.

Aktrisa Frölix həmin an baxışlarını Qanmaza tuşladı.

– Kişi məhv oldu, – gələnlərdən biri davam etdi. – Xirtdəyəcən zibilə batıb. Keçmiş nişanlısının ailəsinə gəldikdə isə Rixter arxayın ola bilər ki, ailə onu işindən də götürtdürəcək. Heç onun şəhərdə qalmasını istəmir, çünki bu, həmin ailə üçün rüsvayçılıqdır. Baxıb görsün, harada qala bilər.

Aktrisa Frölix Qanmazın çəhrayı rəng aldığını, sonra təzədən saraldığını, ayağının birini yerə qoyub digərini qaldırdığını, barmaqlarını bir-birinə keçirib sonra araladığını, deyilən sözlərin şirinliyini içindən çölə buraxırmış kimi xoşbəxtliyi tövşüyə-tövşüyə çölə ötürdüyünü gördü. O, həzz alır, həm də özünə əzab verirdi.

Bu dəfə qələbəsinin bədəlini ödəməli olmuşdu; bu hissləri Frölix vicdanı ağrıya-ağrıya onun sifətindən oxudu.

Nəhayət, Qanmaz bayıra çıxdı, Frölix də qonaqları tək qoymağa bəhanə tapdı.

– Deyəsən, sevinirsən?! – qondarma narazılıqla dilləndi. – Amma başqasının üzərində qələbəyə sevinmək əclaflıqdır.

Qanmaz öz balkonunda əllərini dirsəkdən aşağı məhəccərə söykəyib, burada yoxmuş kimi, fıstıq ağaclarının taclı zirvəsindən dənizə baxırdı, üzündə elə bir ifadə vardı elə bil, sonsuz üfüqləri sınayır ki, həmin üfüqlərə də gərək əzablı uçurumları aşıb çataydın. Aktrisa Frölix bu baxışdan nəsə hiss etdi və indi təsəlli verən o oldu:

– Heç nə olmayıb axı, Qanmazım mənim, əsas məsələ odur ki, adamın axırına çıxıldı. Axı sənin istədiyin də bu idi.

Köksünü ötürdü; zira indi bir neçə saat qabağı düşünəndə yazıq Rixterə qarşı özünün haqsız olduğunu gördü. Əslin-

də, necə alındı? Rixter mərifətli, qanacaqlı oğlan idi, ancaq Frölixin acıqlandırmaq istədiyi Knust olmasaydı, heç nə alınmazdı. Qoy rədd olsun, nə olubsa, olub. Qanmaza gəldikdə isə tam başqadır. Hərdən heç ağlı başında olmur. Necə də oturub baxır adama!

– Yaxşı, ikimiz də bu işdə... – deyib əlini uzatdı.

Qanmaz onun əlini aldı, amma sözündən də qalmadı:

– Bu işlərdə bircə şey dəqiqdir: kimə işıqlı zirvələrə qalxmaq nəsibdirsə, gərək keçilməz uçurumları tanısın.

## ON BEŞİNCİ FƏSİL

Şəhərə qayıdanda onları gözləyən vardı. Klubda gənclər söz aldılar:

– Hə, Allaha şükür ki, indi darıxmağa son qoyuldu.

Gəldikləri günün səhəri ilk qonaqlıqlarını verdilər və bütün şəhəri narahatlıq götürdü ki, oraya kimlər getmişdi, gedənlər nə yemişdilər, aktrisa Frölix hansı təzə paltarı geymişdi. Evli tacirlər axşamdan xeyli ötmüş qeyri-adi xəbərlər aldı: limanda nəsə baş vermişdi, idarədə gözlənilmədən nəsə etmək lazım imiş; və hamısı tələsik çıxıb getdi.

Hər halda, bəziləri bu məclisə qoşulmamışdı, ya özlərinin əxlaq prinsiplərinə, ya da soyuq temperamentlərinə, yaxud da xəsisliklərinə görə. Əsnəyə-əsnəyə onlar kazinodakı boş kətillərin arasında və Sənətə Qayğı Cəmiyyətində seyrək-seyrək otururdular: əvvəlcə çaşıb-qaldılar, sonra onları barmaqla saymaq mümkün olanda heyranlıqlarını gizlətmədilər, son əxlaq qoruyucuları özlərini axmaq yerinə qoyulmuş hesab etdilər.

Şəhər teatrının ömrünü yalnız ianələr uzatdı. Şəhərdə abırlı bir varyete yox idi. Adlı-sanlı kişilərin ixtiyarında olan yeddi-səkkiz qadın onların canlarını boğazlarına yığmışdı və təklif edə bildikləri nəşələr kişilərdən hər hansı biri Qanmazın evini və qadınını düşünərkən dadını-duzunu tam itirirdi.

Abırlı ailənin ağır sükunətindən daha sükunətli, kobud pozğunluqdan başqa ayrı çıxış yolu qoymayan bu qədimi şəhərdə darvaza önündəki villa libasını dəyişdi, özü də o villa ki, orada böyük məbləğlə qumar oynayırdılar, bahalı şərablar içirdilər, nə pozğun, nə də xanım olan zənən xeylaqlan ilə görüşürdülər, orada evin qadını, ərli bir insan, professor Qanmazın arvadı çılğın nəğmələr oxuyur, əndazəsiz rəqslər edir

və ədəblə yanaşdıqda axmaqlıqlara da yol verir – darvaza önündəki bu qəribə villa nağılvari panıltıya, su pərilərinin saraylarını qucan gümüşü bərqli havaya bürünür. Belə şeylər də olarmış! Başqa cür də olmazdı, Qanmazın evini fikrində dolandırmadan bir axşamı belə ötürmürdülər. Tanışlardan birinin tinə qısıldığını görmək olurdu, saatın çıqqıltısını eşidib adam öz-özünə deyirdi: “İndi bayırda başlayacaq”. Yatağa girirdin, yorğun-arğın köksünü ötürürdün, səni yoranın nə olduğunu bilmədən “Bayırda kefin qızğın çağıdır” deyirdin.

Doğrudur, konsul Loman kimi az-az kişilər vardı ki, gəncliklərini xaricdə keçirmişdilər, Hamburqda özlərini evlərindəki kimi hiss edirdilər, hərdən Parisə, yaxud Londona gedirdilər və ağıldankəm müəllimlə cavan arvadının təşkil etdiyi qəbullara ötəri maraq belə göstərmirdilər. Amma düz otuz il ərzində balıq və yağ alveri ilə şəhərin beş-altı küçəsindən qırağa çıxmamış məhəllə tacirləri birdən-birə pullarını kefə xərcləmək yolunu tutdular. Əzablarının mükafatı onlara görsənib gözlərini qamaşdırdı və indiyə qədər nə üçün yaşadıqlarını birdən-birə anladılar. Haçansa böyük şəhərin dadını görmüş və konsul Bredpot kimi özünü paslanmış sayan başqaları isə əvvəlcə aza qane olmağı qərara aldılar, əyləncənin şirinliyini dadandan sonra da mübahisələr aparmağı qəti düşünmədilər. Digərlərini, keçmiş tələbələri buraya unudulmaz illərdə qadın süfrəçilərin çalışdığı meyxananın sentimental xatirələri çəkib gətirirdi; məsələn, hun kurqanı məhkəməsinin hakimləri və keşiş Kvityens. Zira keşiş Kvityens də onların arasında idi, adi adamlardan biri kimi. Burada *Cafe Central*-ın sahibi və bazardakı siqaret alverçisi kimi xırda vətəndaşlar yalnız Qanmazın evində cəmiyyətin qaymağı ilə oturub-dura bilirdi. Əslində, həmin “xırdalar” sayca çoxluq təşkil edirdilər və gedişatı müəyyənləşdirirdilər.

Gedişat da ürəkaçan deyidi. Ürək açmadığına görə də pis idi. Bu adamların hamısı xüsusi, ikimənalı incəliklərin, eşidilməmiş orta vəziyyətin yaranışını gözləyirdi ki, burada da məhəbbət hər kəsə kəm düşürdü, bununla belə, heç kim darıxmırdı. Məhz həmin adamların iştirakı şənliyi müəyyən mənada yetərincə səciyyələndirirdi. Onlar özlərini ailələrindəki kimi namuslu aparmasalar da, kütləvi evdə olduğu kimi abırsızlıq edirdilər. Hansısa əvvəlcə abrını gözləyirdi, tezliklə dəmlənəndən sonra bir az uduzurdu, ədabazlıq edirdi, ağzına gələni deyirdi, açıq-saçıq şeylər danışırdı, hansısa

qadını "sənlə" dindiridi, dava-dalaş salırdı. Bütün bunların hamısı qadınların davranışını korlayırdı. Əylənərkən onlar əndazədən çıxırdılar. Pilemanı tanımaq olmurdu; coşqusu ona gətirib çıxartdı ki, yarım saatını qonaqlardan biri ilə keçirdiyi bağlı otaqdan sərxoş dəstənin onu təbillə çıxarıb oyun otağına qaytarılmasına imkan verdi. Aktrisa Frölix etiraf etdi ki, Pileman keçən il buna yol verməzdi.

Aktrisa Fröllixin özü isə zahiri davranış tərzini, qismən də olsa, qoruyurdu. Təbii ki, onun işi yalnız seçkinlərlə idi, imkan olardısa, konsul Bretpotla, bəlkə də, asessor Knustla: burasını dəqiq bilən yox idi. Evində heç nə nəzərə çarpmırdı. Ərinə xəyanəti aktrisa Frölix əsl evli qadının ehtiyatkarlığı və qaydaları ilə edirdi: ikiqat duvaq, faytonun aşağı salınmış pərdələri, çölün düzündəki görüşlər. Bu qədər etiket Frölixi göylərə qaldırırdı və heç kim onu başqa qadınlarla dəyişik salmağa ürək etməzdi. Bundan məhz ona görə qaçırdılar ki, qısa zaman üçün onun himayəçisinin kim olduğunu və həmin himayəçinin nə qədər dözəcəyini dəqiq bilirdilər. Bir şeyi də nəzərə almaq lazım idi ki, Qanmaz özü heç nəyə dözmürdü. Bir dəfə kefinin dumduru vaxtında evin qadınının arxasınca təsadüfən dilini dinc qoymayan kişinin üstünə atıldı. Qanmaz fışıldayıb finxırdı, heç bir izahata məhəl qoymadı, axırda qızğın əlbəyaxadan sonra yekəpər, kök kişini itələyib qapıdan çölə çıxartdı və həmin bədbəxt həmişəlik çıxarı elan edildi. Bu adam məşhur oyunçulardan biri idi və onun aktrisa Frölix barədə dedikləri qadının haqqında deyilməli olanlarn yanında ən zərərsiz kəlmə idi. Söhbət aktrisa Frölixdən gedəndə Qanmazın nələrə qadir olduğunu artıq hamı bildi, hamı da özünü gözləyəsi oldu.

Ayrı işlərdə hər şey istədiyi kimi gedə bilərdi; Qanmazın heç nəyə etirazı olmurdu. Özündən başqası bankı aparanda və acgözlükdən donuqlaşmış, hövsələdən çıxmış nəmli sifətlər yan-yörəyə və qabağa tuşlananda o, əllərini ovuşdururdu. Sərxoşluqdan ağlını itirmiş adamın düşdüyü vəziyyəti qiymətləndirir, cibləri büsbütün boşalmış kişiyə təsəlliverici diləklərini bildirir, sevgili cütlərdən hansısa bəd əməl üstündə tutulanda yüngülcə irişirdi; kimsə hörmətsizlər sırasına düşəndə onun da coşqulu anları olurdu. Haçansa yaxşı ailədən cavan bir oğlan yanlış oynadı. Qanmaz onun qalmasında israr etdi. Acıq dalğaları get-gedə şahə qalxdı, oyunçulardan bir neçəsi etiraz əlaməti olaraq oradan uzaqlaşdı. İki,

yaxud üç gün sonra yenidən gəldilər və Qanmaz zəhərli təbəssümü ilə onlara gənc saxtakarla oynamağı təklif etdi.

Başqa bir əhvalat daha dramatik oldu. Oyunçulardan birinin qabağındakı bir bağ əsginas yoxa çıxdı. O, qışqınq qopardı, tələb etdi ki, çıxışlar bağlansın və iştirakçılann hamısı axtarılsın. Camaat etiraz etdi, hamı bir-birinə söyüş yağdırdı, pulu oğurlananı döyməklə hədələdilər və hər beş dəqiqədən bir ayrı-seçkilik etmədən hamını bir-bir şübhə altına aldılar. Bu vaxt Qanmazın səsi, sanki quyunun dibindən çıxdı, bütün səs-küyü yanb-keçdi və bunun necəliyini bilən də olmadı. Bildirdi ki, axtarılmalı olanlann adını o deyəcək, ona qulaq asmaq istəyirlərmi. Oyunçuları maraq götürdü, hər biri çalışdı ki, şübhəni yaxına buraxmasın, odur ki səsləndilər: "Bəli!" Bunun ardınca Qanmaz boğazını dalaqabağa ataraq leytenant fon Qirşkenin, şagird Kizelakın və konsul Bredpotun adlarını çəkdi.

– Bretpot? Bretpot?

Əlbəttə Bretpot. Bildiklərindən bir kəlmə də danışmadan Qanmaz dediyindən dönmədi. Bəs Qirşke, özü də zabit? Bu hələ heç nə demək deyil, Qanmaz israr etdi. Hirslənib özünü müdafiə üçün kənara sıçrayan leytenanta isə izahat verdi:

– Camaat sizə qarşıdır və sizi tərki-silah edəcək. Qılıncınızı verməklə şərəfinizi itirmiş olacaqsınız, belədə də, aydın və bəllidir, özünüzü öldürməyə tapançadan başqa üstünüzdə heç nəyiniz qalmayacaq. Məncə, sizi axtarmağa icazə verməyiniz, inanın mənə, daha maraqlı olar.

Seçim qarşısında qalan fon Qirşke razılıq verdi. Qanmazda ona qarşı şübhə yox idi; yalnız onu diz çökdürmək, vüqarını çamıra atıb ayaqlamaq istəyirdi. Əslində, həmin an Kizelakı pəncərənin önündə tutmuşdular, əsginas bağlısını o, bayıra atmaq istəyirdi. Konsul Bretpot o dəqiqə Qanmazdan ətraflı hesabat tələb etdi. Ancaq Qanmaz birbaşa konsulun sifətinə başqalarının eşidə bilmədiyi bir ad dedi, Bretpot da həmin addan əməllicə yumşaldı... Ertəsi gün o, yenə gəlib tövşüyə-tövşüyə oyun masasının arxasına oturdu. Fon Qirşke səkkiz gün gəlmədi. Kizelak yalnız bircə dəfə göründü və xeyli uduzdu. Bunun ardınca nənəsi Kizelakın balaca bir vəzifədə çalışdığı vergi idarəsinə gəlib xəbər verdi ki, nəvəsi onu soyub. Nəhayət, Kizelakı işdən çıxarmağa bəhanə tapıldı. Oyun davasına görə buna ürək edə bilməmişdilər. Şagird Kizelak quyunun dibinə çökdü. Qanmaz bunu bayram kimi qeyd etdi.

***

O, hiyləgər bir təmkinlə ləzzət içində üzürdü. İflasa, abırsızlığa, dar ağacına aparan yarışın qatma-qarışıqlığında Qanmaz əyilmiş dizləri üstündə möhkəm dayanaraq özünü sinfi ipə-sapa yatmayan, özü isə sonralar onların şəhadətnamələrini korlamaq üçün gözlüyünün arxasından üsyankarların hamısının adını qeyd edən həmin qoca müəllim kimi göstərdi. Onlar hökmdar gücünə qarşı çıxmağa cəsarət ediblər; indi isə altını çəkməlidirlər, bir-birinin qabırğalarını çatladıb, boyunlarını sındırsınlar. Əzazildən anarxist törəmişdi.

Özünün yeni durumu ilə lovğalanırdı, hazırkı gənclik çalarlı simasına aşkar bir sevgisi vardı. Axşamlar cib güzgüsünü iyirmi dəfə çıxarıb özünə baxırdı: güzgünü üstündə "bellet"[1] yazılmış tənəkə qutuda saxlayırdı.

Gecənin səs-küyündə, zahiri bərbəzəkdə və yaramazlıqlarda o, keçmiş gecələrini tez-tez xatırlayırdı. *Cafe Central*-da lağa qoyulanda evinə üz tutardı. Hansısa qaranlıq tindən adını bir parça çamır kimi ortaya atardılar... Cəmi bircə gecə o, insanlardan nəsə istəmişdi. Qoy ona desinlər görək, aktrisa Frölix haradadır, onu haradan tapmaq olar, necə mane olasan ki, həmin üç şagird, onların arasında da ən murdar olan Loman – ən vacibi də elə bu idi – ona əl uzatmasın. Heç kim ona ürəyini açmadı. O, aşağı basılmış şlyapanın altındakı sifətlərin irişiyindən başqa heç nə ilə rastlaşmadı. Sərt enişlə üzüaşağı şütüyən diyircəkli arabaların arasında otərəf-butərəfə hoppanmağa və şaqraq uşaq səslərindən həmin adı eşitməyə məcbur oldu. Ən səssiz küçənin sonuna yaxın, "Qanmış Qızlar Yurdu"nun arxasında o, özünü sinirpozan təqibdən, şübhədən, lağdan qorumuşdu, yarasaların şlyapasının günlüyünə toxunub uçmasına mane olmamışdı və elə burada, məhz burada adının çəkilməsini gözləmişdi.

Adının çəkilməsini! İndi bu adı özünə özü vermişdi, zəfər çələngi kimi boynundan asmışdı. Soyulub talan edilmiş oyunçunun kürəyinə vurub demişdi:

– Hə, hə, mən xalis qanmazam.

Keçirdiyi gecələr! Onlar indi beləydi. Evi şəhərdə ən işıqlı ev idi, bu ev vacib, nəhs bir ev sayılırdı. Qanmaz dövrəsində nə qədər qorxuya, nə qədər açgözlüyə, nə qədər təslimçiliyə, nə qədər fanatik özünüməhvə od vurub alovlan-

[1] Fransızcadan düzələrək "qəlbsındıran" anlamında işlənir.

dırmışdı! Yan-yörəsində yanan hər şey qurban idi! Hamı onu alışdırmağa, onun uğrunda özünü yandırmağa can atırdı. Onları bu işə vadar edən beyinlərinin boşluğu, insan kimi formalaşmayanların kütbeyinliyi, səfeh maraqları, abırla pis örtülmüş şəhvətpərəstlikləri, var-dövlər hərislikləri, ehtirasları, lovğalıqları və yüzlərcə bir-biri ilə çulğalaşmış digər maraqları idi. Onlara borclu olan Qanmaz pul əldə etsin deyə öz qohumlarını, dostlarını, müştərilərini çəkib buraya gətirən borc sahibləri deyildimi? Havada uçan puldan öz paylarını qamarlamaq üçün ərlərini buraya göndərən kisə həvəskarları qadınlar deyildimi? Başqaları özləri gəlirdi. Karnavalda maska geymişlər abırlı qadınlar olmalı idi. Burda gözləri ilə həyat yoldaşlarını axtaran narahat kişi sifətlərini görmək olurdu. Gənc qızlar analarının evdən gec çıxıb "darvaza önündəki evə" getmələri barədə pıçıldaşırdılar və aktrisa Frölixin mahnılarından kiçik parçaları dodaqaltı mızıldayırdılar. Mahnılar gizlin şəkildə şəhəri dolaşırdı. Sirlə dolu girov oyunu ki, burada da kişi-qadın cütləri yan-yana döşəməyə uzanıb üstlərinə yorğan sərirdilər, ailələrə yol tapmışdı; bu oyunu hətta yetkin qızlar ataları tərəfindən rəqsə dəvət edilən cavanlarla oynayırdılar və "darvaza önündəki ev" barəsindəki hihiltilər dörd yanı dolaşırdı.

Hələ yay girməmiş gözəl cəmiyyətin üç qadını və iki gənc qızı, adamlann fikrincə, qəflətən şəhər kənarına erkən gəzintiyə çıxdı. Üç iflas yaşandı. Bazardakı siqaret alverçisi Mayer saxta pula girişdi və axırda özünü asdı. Konsul Bretpot haqqında dedi-qodu gəzdi...

Adi bir şəhərdə çoxlarının buraya qarışdığına görə qarşısını heç kimin ala bilmədiyi bu əxlaqsızlığın başında Qanmaz dururdu və hər şey onun qələbəsi idi. Şəhər onu gizlində silkələyən iztiraba – onun qaxaca dönmüş bədənindən, hərdən gözlərinin yaşıl və zəhərli parıltısından, solğun kinayədən başqa heç nə ifadə etməyən iztiraba tabe idi. O, güclü çıxmışdı və özünü xoşbəxt saya bilərdi.

## ON ALTINCI FƏSİL

O, xoşbəxt ola bilərdi, əgər güclü olsaydı, insana nifrətə çevrilmiş taleyinin böhranlı anında özünü aktrisa Frölixin əlinə tapşırmasaydı. Frölix onun iztirabının astar üzü idi: gərək hər şeyi əldə edəydi, başqaları itirdiyi kimi. O, diqqət

və qayğıya layiq idi, başqalan tapdanıb məhv edilməyə layiq olduqlan kimi. İnsan yağısı Qanmazın incəliyi onda təcəlla tapmışdı. Qanmaz üçün bu çox pis idi: bunu o, özünə də deyirdi. Öz-özünə deyirdi ki, aktrisa Frölix uşaqlan "yaxalamaq" və onları ələ vermək alətindən başqa bir şey olmayıb. Bunun əvəzində isə indi insanlann nəzərində uca və müqəddəs bir qadın kimi Qanmazla yanaşı dayanıb, Qanmaz da onu sevməyə və nifrətə xidmət əleyhinə üsyan qaldıran bu sevginin izrirabını çəkməyə məcburdur. Qanmazın məhəbbəti aktrisa Fröiixin müdafiəsinə yönəlmiş və onun xatirinə talanla nəticələnmişdi: bu, əsl kişi məhəbbəti idi. Bununla belə, həmin məhəbbət də sonda zəiflik göstərmişdi...

***

Elə olurdu ki, aktrisa Frölix evə gələndə Qanmaz otaqlardan birinə çəkilib axşama qədər onun gözünə görünmürdü. Qadın onunla həzin, bir az da iztirablı səsi ilə qapının arasından danışırdı. Amma Qanmaz heç yemək də istəmirdi. Deyirdi ki, elmlə məşğuldur. Frölix onu mehribanlıqla xəbərdar edirdi ki, özünü xəstələndirəcək, sonra da köksünü ötürərək, bəlkə, kişinin tutması keçdi ümidi ilə gözləməyi qərara alırdı. Çox güman ki, Qanmaz yenə arvadının ger-geyimini axtarıb və onun çirkli alt paltarını eşələyib üzə çıxarıb. Bəlkə, bu gün səhər vərəqi oxuyub. Belədə onun ağlı başında olmurdu, aktrisa Frölix yorğun-arğın evə dönəndə ona baxmaq istəmirdi, üzünü yana çevirirdi, utandığından qıpqırmızı qızararaq künc-bucaqda vurnuxur, axırda da yox olurdu. Bu da qadını əməllicə haldan çıxarırdı. Bu da o demək idi ki, Frölix onun hoqqalannı tam ciddi, doğrudan da, daxilən tam ciddi qəbul edə bilmirdi. Bunun üçün çox oyundan çıxırdı. Birincisi, ərli qadın rolunu oynayırdı: bunu başqa cür qəbul etmək ona mümkünsüz görünürdü. O vaxt Mimisini küçənin ortasında qoca Qanmazın yanına göndərməsi necə gözəl olmuşdu, bu zaman o, nəcib hisslər keçirmişdi. Sonra isə kişilərlə məzələnmə, müəyyən yönə yetişincə gicgici oynaşlıq və hər zaman qalaq-qalaq yalan ki, hər şeydən xəbəri olan Qanmazın yanında kiminsə ağzından söz qaçmasın. O məhz Qanmaza minnətdar idi, komediyanı kişi onunla bərabər oynayır və Frölixin gündəlik xırda yan gedişlərinə o qədər əhəmiyyət vermirdi. Bu da onların həyatını rövnəqləndirirdi! Gülməlidir ki, Qanmaz heç vaxt buna alışmırdı. Hər şeydə o

daha çox maraqlı idi, nəinki aktrisa Frölix. Hərdən qorxunc mübtəlaya düçar olurdu və bu gündən sabaha hansısa vicdanı tapdayıb məhv edirdi. Qətiyyən duruş gətirə bilmirdi. "Sənə şagird Fermöleni məsləhət görürəm. Şagird Fermöleni, həmişə necədir elə, diqqətdən qaçırma". Bu nə deməkdir, lütfən? Bundan sonra başqasından soruşmağa ehtiyac varmı? Nə qədər əlləşib-vuruşdu ki, aktrisa Frölix konsul Bredpotun axınna çıxsın. Aktrisa Frölix çiyinlərini çəkdi. Onun düz-əməlli anlamadığı Qanmaz iztirabın gerçək ulduz axınına düşmüşdü. Nifrətini qidalandırmaq üçün hər gün yaraladığı məhəbbəti bu nifrəti durmadan qızışdırırdı. Nifrətlə sevgi bir-biri ilə əl-ələ verib ağılsızlaşır və qorxulu olurdu. Qanmazın gözünə əzab çəkən, mərhəmət diləyən insanlar görünürdü; dağılıb viran olmuş bu şəhərin insanları, varlıqlarn məhvinin külünə qanşan qızıl və qan topasının insanları.

Sonra o, başqaları tərəfindən sevilən aktrisa Frölixin hallüsinasiyasından əzab çəkdi. Yad qucaqlaşmaların mənzərələri nəfəsini kəsirdi: ancaq bütün mənzərələrdə kişilər gözünə Loman kimi görünürdü! Qanmazın indiyə qədər gördüyü ən pis şey həmişə Lomanın, heç vəchlə yaxalana bilməyən, hətta şəhərdən çıxıb getmiş bu şagirdin simasında üzə çıxırdı.

Sərməst çətinliyin bu halından sonra özünün və aktrisa Frölixin keçirdiyi iztirablar onu rahat buraxmırdı. Qadına təsəlli verərək bildirirdi ki, tezliklə hər şey bitəcək, onlar bu işdən geri çəkiləcəklər, bu yerləri tərk edəcəklər və "onların Frölixə borclu kimi verdikləri" ilə yaşayacaqlar.

– Səncə, nə qədər olar? – aktrisa Frölix laqeydliklə soruşdu. – Sən yalnız nə aldığımızı qeyd edirsən. Amma onların bizdən nələri qopardığı da pis deyil. Mebelimizi girov götürüblər, eləmi? Fikirləşirsən ki, indi aldıqlarımızın ilk ödənişini verməmişik? Belə düşünürsənsə, bərk yanılırsan. Bizim olub-qopanımız buradakı divan yastığı, bir də ki o köhnə şəklin çərçivəsidir: ayrı heç nəyimiz yoxdur.

Aktrisa Frölixin əhvalı yaman korlanmışdı, kişilərin arxasınca qaçaraq əldən düşmüş və həyat nəşəsini büsbütün itirmişdi, heyfini axırıncı gələndən alırdı. Qanmaz onun sözlərini tam ciddiliyi ilə qəbul edirdi.

– Sənin güzəranının qayğısına qalmaq borcumdur. Bu borcun öhdəsindən gəlməməyi ağlıma da gətirmirəm... Onlar bunun altını çəkəcəklər! – fışıltı ilə əlavə etdi. Frölix qəti qulaq asmırdı, həyəcan içində vurnuxur.

– Yəqin, fikirləşmirsən: mən bu səfeh həyatı sənin üçün yaşayıram ki, öz kişi qınqlarını alçaldasan. Yoox, Mimi olmasaydı... mən Mimi üçün qazanmalıyam. Mimi gərək anasından seçilsin. Ax, Allahım!..

Uşağı ağ gecə köynəyində içəri gətirdilər, sonra da Frölixin vay-şivəni başladı. Qanmaz büzüşüb başını və qollannı aşağı saldı. Bayıra çıxdı, aktrisa Frölix də yatmağa getdi. Qonaqlar gələnə qədər o yenidən dirçəldi; Qanmazın hüzurunda günahlannı yumağa çalışdı, ona nəvaziş və səmimiyyət göstərdi, tez-tez onu kənara çəkib qulağına nəsə pıçıldadı ki, Qanmazın onun üçün əsas şəxslərdən biri olmasını hamıya nümayiş etdirsin; onunla birlikdə məhz o kişiləri ələ saldı ki, Qanmaz onlann Frölixlə münasibətindən şübhələnə bilərdi; ona yannaraq hər vasitə ilə təlqin etməyə çalışdı ki, guya, həmin kişilərlə onun arasında heç nə olmayıb. Bəli, Qanmaz müəyyən müddət belə bir axmaq fikirdən uzaq qala bilmədi ki, öz uğurlannı o, əvəzini ödəmədən qazanmışdır. Buna inanmırdı, amma özünü məzəmmət edirdi ki, bu inanca mane olan nədir və əks sübutlar hansılardır. Əvvəlki iztirablanndan sonra onun nəfəs dərməyə haqqı yox idimi?!

***

Aydın bahar günlərinin birində, saysız mənəvi sarsıntılardan sonrakı ilk aydın gündə Qanmazla aktrisa Frölix şəhərə yola düşdülər. Qanmaz belə bir fikirlə ovunurdu ki, son olaraq onlar müttəfiqdirlər: ən yaxşı yeganə müttəfiq. Yunan dili dərsləri ilə Qanmazı sevmək xudbinliyinə son qoyan aktrisa Frölix özünə hörməti və dəyanəti doğrucul dostluq duyğulanndan alırdı. Buna görə də keçib-gedərkən hər ikisi dükanının qapısını dartıb açan, yumruqlarını düyünləyib hədələyən və arxalarınca söyüş yağdıran küçə çərçisi cənab Dröqenin üstünə gülürdü. Göysatan qadın da onlan görən kimi dinc dura bilmirdi. O hətta cənab Dröqeni dilə tutmuşdu ki, Qanmaz buradan keçəndə su şlanqının ağzını onun üstünə tutsun. Ər-arvad Qanmazlar çölə çıxarkən bu cür hadisələr qaçılmaz olmuşdu. Pullarını eninə-uzununa səpələsələr də, az qala, hamıya borclu idilər və borcu borc alanın istəyi ilə vermək əvəzinə, onun boğazına bağlayan kreditçilər daha çox qalmaqal qopanrdılar. Bir qayda olaraq pulu əvvəlcədən ödənilmiş bəzək-düzək şeyləri Parisdən gəlirdi, ancaq ötən ay yedikləri səhər kökələri hələ də onlann malı

olmamışdı. Bununla yanaşı, aktrisa Frölix uşağı üçün pul yığmağı, Qanmaz isə ondan ötrü pul çırpışdırmağı düşünürdü. Məhkəmə icraçısının hər gəlişi, gəlməyinə əbəs gəlirdi, çaşqınlığa, hirsə və alçalmaya səbəb olurdu. Bu gəlişi kim düşünə bilərdi ki?! Aktrisa Frölix aldıqların borcun haqq-hesabını çoxdan unutmuşdu. Qanmazın daimi marağı öz rifahının qayğısı yox, başqalarının itkisi olmuşdu. Başqalarının işində görmək istədikləri çürümə onların öz işinə də sirayət edirdi. Aldadılıb qaranlığa sıxışdırılaraq onlar görünməmiş miqdarda uduşla və kreditçilərinin hamısının qəfil ölümü ilə təsəlli tapırdılar. Ayaqlarının altındakı torpağın gizlində laxladığını hiss edir və son anda daha çox pisliyə can atırdılar.

Zibenberqştrasedə mebel taciri ilə görüşəsi oldular, tacir bildirdi ki, Qanmazlar pulunu ödəmədikləri mebelin çox hissəsini başqalarına satmışlar, bundan sonra məhkəmə ilə hədələdi. Qanmaz zəhərli təbəssümü ilə onu dəvət etdi ki, baxıb öz gözləri ilə görsün. Aktrisa Frölix də sakit durmadı:

– Ümidlərinizə "Əlvida!" deyə bilərsiniz. O qədər axmaq deyilik, bilirik ki, buradan sizə heç nə düşən deyil.

Həmin an yanında xəncər cingiltisi eşidildi. Aktrisa Frölix o tərəfə baxıb tələsik üzünü döndərdi. Qaba bir səs eşidildi:

– Lənət şeytana!

Başqa bir səs isə heyrətlə, aparxayın:

– Hələ bir buna bax.

Mebel tacirinin dediklərini aktrisa Frölix daha eşitmirdi. Xeyli sonra onu yerində qoyub yüngül bir keyliklə yoluna davam etdi. Yalnız Mumun şimiyyat dükanının qənşərinə çatanda gördü ki, Qanmaz da heç nə demir. Vicdanının ağrıdığını hiss edib yağlı dilini işə saldı, bayaq gördüklərindən sonra onu sakitləşdirməyə çalışdı. Qanmaz da qəfildən yumşalmağa başladı və aktrisa Frölixi şirniyyat dükanına dəvət etdi. Kişi piştaxtanın qabağında nəsə sifariş verənə qədər qadın yan otağa getdi. Bu vaxt pəncərənin şüşəsi döyüldü. Frölix o tərəfə baxmaq üçün heç gözünü də qaldırmadı; onsuz da bilirdi ki, bunlar Ersumla Lomandır.

Qanmaz hətta axşamüstü də sakitləşməmişdi. Tələsə-tələsə qonaqların arasında vurnuxur, quru, cahil ironiyalı fikirlər söyləyib tez-tez təkrarlayırdı: "Mən həqiqi qanmazam". Sonra da izahat verirdi:

– Mənim burada olub-qopanım, haqqa zaval yoxdur, bir ədəd divan yastığı, bir də ordakı şəklin çərçivəsidir.

Aktrisa Frölix bir dəfə yataq otağına gedəndə Qanmaz onun arxasınca gəlib dedi:

– Şagird Bretpot yaxınlarda sinfin məqsədinə çatacaq.

– Batdı? – Frölix soruşdu. Oxşamır, Qanmazcığım. Yenə də cibləri qonur əllilikIərlə doludur.

– Qoy sən deyən olsun. Amma ən ciddi təhqiqat gərəkdir öyrənsin, haradandır bu pullar?

– Yaxşı, bəs sonrası?

Qanmaz ona yaxınlaşdı, üzündə güc verib bayıra vuran, üz dərisinin altında səyriyən bir təbəssüm vardı.

– Sonrasından da xəbərim var; kassirinin bığının altından keçmişəm. Bu, fon Ersumun himayəçisinin qarət etdiyi qəyyumluq puludur. – Aktrisa Frölixin heyrətdən donub-qaldığını gördükdə isə: – Elə olmağına eiədir! Di gəl bundan sonra yaşa! Hələ bu, üçdən biridir. Şagird Kizelak çoxdan məhv olub. Şagird fon Ersum şaqqıltı ilə çökəcək. Qalır üçüncüsü.

Aktrisa Frölix onun baxışına dözmədi.

– Kimdən danışırsan axı? – şaşqın-şaşqın soruşdu.

– Üçüncünü gərək hələ yaxalayasan. Gərək iş başında tutasan və tutulmalıdır.

– Necə yəni? – deyib Frölix ürkək-ürkək başını qaldırdı. Birdən təkidlə: – Məncə, o, sənin boğazından keçməyəndir, hətta küçə ilə gedəndə başımı qaldırıb ona baxa bilmərəm. Sən onu həzm edə bilmirsən.

Qanmaz başını aşağı saldı, zorla nəfəs aldı.

– Doğrudur, mənim elə bir niyyətim yoxdur, – burnunun altında donquldandı, – amma bu şagird iş üstündə tutulmalıdır, mütləq tutulmalıdır. O, məhz tutulmağa layiqdir.

Aktrisa Frölix çiyinlərini çəkdi:

– Nə gözünü ağardırsan? Sənin qızdırman var. Qanmazım, qoy sənə bir söz deyim, yatağa gir və möhkəm-möhkəm tərlə. Sənə çobanyastığı çayı göndərəcəyəm. Bu qədər də səfeh həyəcanmı oiar, bədənində daşıyırsan?! Axırda o, mədəyə vurur, sonra da “Xoş gəldin!”, ölüm mələyi... Eşidirsən məni? İnanıram ki, bizi bədbəxtlik gözləyir.

Qanmaz dinləmirdi. Odur ki dilləndi:

– Amma onu sən... sən iş üstündə yaxalamamalısan!

O, bunu indiyə qədər Frölixə tanış olmayan, onu üşürgələndirən, gecə vaxtı qapısının dəlisov döyülməsi kimi onu gözlənilmədən dəhşətə gətirən bir ləlirti ilə dedi.

## ON YEDDİNCİ FƏSİL

Ertəsi gün aktrisa Frölix şəhərdən nə ala biləcəyini uzun-uzadı götür-qoy etdi və alacaqları bir-bir yadına düşəndə yola çıxdı. Hər görükdə özünün şəklinə baxdı; bəzənib-düzənməsinə iki saat yarım vaxt ayırmışdı. Nəbzinin döyüntüsündə azca gözlənti hərarəti vardı. Zibenberqerştrasenin əvvəlində, Redlinin kitab mağazasının qarşısında ayaq saxladı, indiyə qədər heç vaxt kitab mağazasının qarşısında dayanmamışdı, başını sərilmiş kitabların üstünə əydi və boynunun ardında qorxunc bir gizilti hiss etdi, sanki, kimsə indicə onu dindirəcəkdi. Bu vaxt arxadan dilləndilər:

– Möhtərəm xanım? Yenə də görüşmək olurmuş?

Qadın hərəkətinə işvəli bir ağırlıq verib özünü səsə doğru dönməyə məcbur etdi.

– Ax?! Cənab Loman?! Təzədən doğma yurddasınız?

– Bununla əhvalınızı pozmuramsa, möhtərəm xanım!

– Bu nə deməkdir? Bəs dostunuzu harada qoymusunuz?

– Qraf Ersumu deyirsinis? Hə, onun öz yolu var... Biz öz yolumuza davam etməyək, möhtərəm xanım?

– Hə, bəs o, adətən, nə iş görür, dostunuzu deyirəm?

– Hərbidə bayraqdardır, möhtərəm xanım. Hazırda burada məzuniyyətdədir.

– Ola bilməz. Əvvəlki kimi yenə alicənabdırmı?

Aktrisa Frölix durmadan onun dostu barədə soruşsa da, Loman halını qəti pozmurdu. Frölixdə hətta belə bir duyğu baş qaldırdı ki, Loman onu ələ salır. Həmin hissi o vaxt o, "Mavi mələk"də Lomanın yanında olanda keçirirdi, başqalarının yanında isə yox. Canına bərk isitmə gəldi. Loman onu şimiyyat dükanına dəvət etdi. Frölix hirslə cavab verdi:

– Özünüz tək gedin, mənim işim var.

– Əyalətçilərin iti gözləri önündə bu tində çox dayandıq, möhtərəm xanım.

Qapını qadının qarşısında açdı. Frölix köksünü ötürüb paltarını xışıldada-xışıldada içəri keçdi. Loman yan otağa gedən yolda xeyli onun arxasında qalıb, bu paltarın onun uzun belini nəzərə çatdırdığına, qadının gözəl saç düzümünə, tumanını əsl qadın kimi sürütləməsinə, o vaxtdan bəri necə dəyişməsinə bir daha heyrətləndi. Sonra şokolad sifariş verdi.

– Bu arada məşhur şəxsiyyətə çevrilmisiniz!

– Elədir, – Frölix cavab verdi, sonra da söhbəti yayındıraraq: – Bəs siz? Bu arada siz nə iş görmüsünüz? Haralarda itib-batmışdınız?

Loman sualları gözləyirmiş kimi ətraflı məlumat verdi. Dedi ki, Brüsseldə ticarət məktəbində oxuyub, sonra İngiltərədə atasının dostu olan iş adamının yanında təcrübə keçib.

– Yəqin, əməllicə kef çəkmisiniz, – Frölix dedi.

– Yox. Mənlik deyil, – Loman quru-quru, hətta ikrahla və sifətinə qonmuş məşhur artist cizgiləri ilə cavab verdi. Qadın ürkək bir ehtiramla onu yandan süzdü. Loman büsbütün qara geyinmişdi, başına da dəyirmi qara şlyapa qoymuşdu. Sifəti bir az saralıb sərtləşmişdi; üzü tərtəmiz qırxılmışdı, yanörtülü, qara və üçkünc göz qapaqları harasa boşluğa tuşlanmışdı. Frölix Lomanı məcbur etmək istədi ki, ona baxsın. Onu da bilmək istəyirdi ki, kəkilini hələ də saxlayırmı.

– Şlyapanızı niyə çıxarmırsınız? – Frölix soruşdu.

– Möhtərəm xanım haqlıdırlar, – deyib Loman onun sözündən çıxmadı.

Elədir, qıvırcıq saçları papaq kimi pırpızlaşmışdı, qıvrımları alnına tökülürdü. Axır ki, qadına diqqətlə baxa bildi.

– "Mavi mələk"də möhtərəm xanım görkəmə dəyər verməzdilər. Adam necə də dəyişərmiş! Biz necə də dəyişirik! Özü də ikicə ilin içində!

Yenə üzünü yana çevirib başqa şey barəsində elə aşkar düşündü ki, qadın nəsə deməyə cürət etmədi, baxmayaraq ki, Lomanın dedikləri onu azca sancmışdı. Amma Loman onu nəzərdə tutmamışdı! Sadəcə, o cür səslənmişdi.

O, frau Dora Bretpotu nəzərdə tutmuşdu və fikirləşirdi ki, Dora onun qəlbində gizlətdiyi həmin qadına bənzəmir. Loman onu böyük xanım-xatın kimi sevmişdi. O, şəhərin xatını olmuşdu. Dora haçansa İsveçrədə bir nəfər ingilis hersoq xanımı ilə yaxınlıq etmişdi və bu təmasdan onda nəsə müqəddəs bir xassə ilişib-qalmışdı. Əslində, o, şəhərdə həmin hersoq xanımı təmsil edirdi. İngilis zadəganlığının dünyada birinci olmasına burada heç kimin şübhəsi yox idi. Sonralar Cənubi Almaniya səyahətində praqalı rotmistr ondan əl çəkmədi; bu vaxt Avstriya zadəganlığı eyni hüquqla ingilis zadəganlığının tərəfində durdu...

Loman buna necə etibar edə bildi, belə bir səfehliyi özünə necə rəva bildi, təəccüblü idi. Ən təəccüblüsü də o idi ki, aradan heç iki il də keçməmişdi. İndi doğma yurda dön-

müşdü, doğma yurd isə bir yerə sıxılmışdı, sanki, rezindən idi. Bretpotların evi yarıya qədər balacalaşmışdı, içərisində də kiçik bir əyalət xanımı oturmuşdu. Əyalət xanımından heç də yüksəkdə durmurdu. Dili dialekt kəlmələri ilə dolu! Geyimi ötən ilin geyimi, həm də düzgün anlaşılmayan. Ən pisi də – öz zövqünü artistliyə culamaq cəhdləri. Və uzaq-uzaq cəmiyyətlərdən geri dönmüş insanın qəbulu, sanki, həmin insan ona haradansa salamlar yetirməlidir; və hamıdan yuxarıda durmaq kimi yanlış iddia. Bəs bu iddia ona əvvəllər niyə yanlış görünmürdü? Doğrudur, əvvəllər onun ağzından bir kəlmə də eşitməmişdi, onun diqqətindən kənarda qalmışdı. Çünki şagird olmuşdu. İndi isə kişiləşmişdi, onun nazı ilə oynayırlar, onu öz sıralarına qatmağa çalışırlar... O xirtdəyəcən acılıqlar içindəydi. O vaxt həmişə əl altında olan köhnə tüfəngi xatırladı, sirri aşkar olardısa, ondan istifadə edəcəkdi. Bu günün özündə də o, yetkinlik illərinin astanasına qədər yerimişdi, həya, gülünclük, bir az da ikrah sayəsində hələ yeriyən ərgənlik iztirabının melanxolik qürurunu canında hiss edirdi. Knustun, fon Qirşkenin və başqalarının acığına. Sevimli qadının saysız heyranlarının acığına. Qadının sonuncu doğuşundan sonra gecə onun evinin darvazasını necə də öpmüşdü! Gerçək duyğular o idi, onunla bu gün də keçinmək olardı. Anladı ki, o vaxt o daha yaxşı, daha zəngin olub. (Həmin vaxt yorğunluğu necə duya bilərdi?! İndi isə yorulub.) Əlindəkilərin ən yaxşıları, qadın özü də bilmədən, ona qismət olmuşdu. İndi qəlbində bir boşluq yarandığından qadın ona can atır... Loman hər şeyi ilk növbədə sədasına, qadınların məhəbbətini yalnız həmin məhəbbətdən sonra baş qaldıran acı tənhalığa görə, xoşbəxtliyi ən çoxu həmin xoşbəxtliyin insanın boğazında ilişib-qalan boğucu həsrətinin xatirinə sevirdi. Kölgəsi görünməyən bu xırda snob[1] qadını sinirə bilmirdi, çünki qadın ona keçmiş duyğuların ağrılarını açıb göstərirdi. Loman hər şeydə, hətta onun özündə yox, salonunda baş verə biləcək çöküşün izlərində onu günahlandırırdı. Bretpotun acınacaqlı durumundan xəbəri də vardı. İki il əvvəl olsaydı, onun ayaqları altına nələri döşəyərdi. İndi, sadəcə, gördü ki, qadının zəriflik uğrunda etdiyi cəhdlər onu hər yandan sıxan kasıblıqdan fərqlənir; odur ki kasıblığı yaxına buraxmayıb onu rədd edən ləyaqətsiz təkəbbürə görə

[1] *Snob* – özünü kübar kimi aparan varlı və savadsız adam

əvvəlcədən onun yerinə xəcalət çəkdi. Qadını görəndə özünü təhqir olunmuş, özündə nələrin baş verdiyini anlayanda isə alçaldılmış sayırdı. Həyat insanın başına nə oyun açarmış! O çökmüşdü. Qadın da çökmüşdü. Çıxıb gedəndə dəhşətli bir dəqiqliklə hiss etdi ki, illər necə də sürətlə ötür və qapı gəncliyin özü qədər azman olmuş sevginin arxasınca bağlanır.

Bu hadisə Lomanın gəlişinin səhərisi baş verdi. Azca keçmiş o, Ersumla görüşdü, sonra hər ikisi Zibenberqerştrasedə Qanmazlarla rastlaşdı. Balaca bir şəhərdə belə şeylər tez-tez olur. Loman şəhərdə olduğu qısa müddətdə onların barəsində danışılanları eşitmişdi və qoca Qanmazın əməlləri onun insanların qəribəliklərinə olan marağını dirçəltmişdi. Müəyyən etdi ki, Qanmaz iki il öncə beyninə doldurduğunun hamısını yerinə yetirmişdir; özü də aza qane olmayıb daha çox yerinə yetirmişdir. Ancaq aktrisa Frölixin dəyişməsi ona xeyli heyrətamiz göründü. “Mavi mələk”in meyxana müğənnisindən yüksək biçimli yarımdünya xanımı olmuşdu. Hər halda, o, ilk baxışda belə təsir bağışlamışdı. Yaxından fikir verdikdə onda bir meşşanlıq baş qaldırmışdı. Bununla belə, əlindən gələni etmişdi. Hələ ər-arvadın getdiyi yolda çıxarılan saysız şlyapalar! Aktrisa Frölixin ətir saçdığı hər yerdə bütün müti diləklər! Onunla camaat, daha doğrusu, şəhər arasında, bir növ, aşkar fırıldaq yaranmışdı. Aktrisa Frölix özünü tanınmış gözəl kimi göstərirdi və camaatı inandıraraq buna da nail olmuşdu. Vaxtilə Dora Bredpot da belə edib xanım-xatınlıq eşqinə düşməmişdimi? Loman indi Frölixə baş qoşsaydı, əməllicə istehza olardı. Yadına hər ikisini şeirlərində tərənnüm etdiyi, iztirablarının intiqamını almaq üçün Dora Bretpotu ləkələmək istədiyi keçmiş vaxtlar düşdü, belə ki, onu ürəyində gəzdirə-gəzdirə digərinin oxşamalarına dumanlı qüsurun zövqü ilə cavab verməyi qarşısına məqsəd qoymuşdu. Qüsur? İndi sevgidən məhrum olduğuna görə daha qüsuru da anlamırdı. Frau Bretpota qarşı qəlbindəki kin-küdurətin Qanmazın arvadına xeyri yox idi. Onunla Bretpotların evinin yanından keçsəydi, içində heç nə tərpənməzdi. Bu, sadəcə, o demək olardı ki, əxlaqdan yüngül işvəli bir qadını allahsızlaşmış bir şəhərdə gəzdirir.

Ersumu özü ilə bərabər götürmədi. Yaraşıqlı bir qız görən kimi Ersum başını itirib qılıncını oynatmağa və qaba səslər çıxarmağa başlayırdı. Ersum yenidən sanballı duyğularla hərəkət etmək imkanında idi. Ersum üçün hər şey həmişə

indilik idi, əksinə, səhərlər müştərisi az olan şirniyyat dükanında aktrisa Frölixlə yan-yana oturmuş Loman heç vaxt boşalmayan bakalından keçmişin dumanlı xatirələrini içirdi.

– Şokoladınıza bir az konyak süzümmü? – Loman soruşdu. – Çox yaxşı olur. – Sonra da: – Adam haqqınızda nələr eşidir, möhtərəm xanım!

– Necə ki?! – Frölix, sanki, diksinib soruşdu.

– Hə, siz və qoca Qanmazımız şəhərin altını üstünə çevirmisiniz və kütləvi bəla yaymısınız.

– Ax, onu deyirsiniz. Hə dəə, adam nəyi bacarır, onu da edir. Adamlar bizdə əylənirlər, baxmayaraq ki mən evdar qadın kimi özümü tərifləmək istəmirəm.

– Elə deyirlər. Amma heç kim bilmir ki, Qanmazı bu işə vadar edən nədir. Deyirlər ki, oyun onun güzəran mənbəyidir. Mən ayrı cür düşünürəm. Biz ikimiz, möhtərəm xanım, onu yaxşı tanıyırıq axı.

Aktrisa Frölix çaşıb-qaldı və cavab vermədi.

– O, ölümü məhdudiyyətdən üstün tutan bir zülmkardır. Gülünc bir ayama! Gecələr çarpayısının al-qırmızı pərdələrindən onun yuxusuna girir, dərisində göy ləkələrin yaranmasına səbəb olur, bu dərdi müalicə etmək üçünsə onun qan selinə ehtiyacı var. O, "Böyükləri tənqid" ifadəsinin ixtiraçısıdır, əgər indiyə qədər bu ifadə deyilməmiş olsaydı belə, onu ixtira edərdi. Kimsə ağılsızcasına özündən imtina edib ona itaət göstərsə, yenə ona qiyamçı kimi nifrət edəcək. İnsana nifrət onun içində adamı gəmirən bir əzaba çevrilir. İnsanların ciyəri Qanmazdan icazəsiz nəfəs alıb-verirsə, ondakı intiqam hərisliyini coşdurur, əsəblərini gərginləşdirib, az qala, kökündən qoparır. Buna bircə təkan, vəziyyətin təsadüfi gedişi – korlanmış hun kurqanı və onunla bağlı hər şey bəs edir; məsələn, bacarıq və həvəsinin hansısa qadının vasitəsilə qıcıqlanması yetir ki, panikaya düşmüş zülmkar qara camaatı sarayına çağırıb onu hər yana od vurmağa, qətlə yönəldir, anarxiyanı bəyan edir!

Aktrisa Frölixin ağzı açıla qalmışdı, bu da Lomanın xoşuna gəldi. Belə qadınları o, elə yolla əyləndirirdi ki, onların ağızlarını aşıb dinləməkdən başqa ayrı çarələri qalmırdı. Loman şübhəli-şübhəli gülümsədi. Naməlum bir imkanı ən yüksək zirvəyə qaldırmağı düşündü. Gülməli qoca Qanmazın əhvalatını danışmağı ağlından da keçirmədi. Əvəzində indinin özündə də ona altdan-yuxarı – oturduğu partadan

Qanmazın kürsüsünə – baxdı, nəhəng insan düşməni rolundakı adamı Orlean bakirəsi haqqında səfeh uydurmalar diktə edən müəllim kimi təsəvvür etmək ona çətin gəldi.

– Ərinizə hörmətim var, – Loman təbəssümlə dilləndi və bununla aktrisa Frölixin şaşqınlığını tamamladı. – Evdarlığınız, gerçəkdən də, hər yana səs salıb, – sözlərinə əlavə etdi.

– Elədir, evi biz cənnətsayağı düzəltmişik. Ümumiyyələ götürdükdə... – Təkəbbürdən ona bir canlanma gəldi. – Qonaqlarımızdan heç nəyi əsirgəmirik. Güləcəksiniz, amma adamları hərdən heyrət götürür. Ax, kaş bir dəfə bizə gələydiniz, sizin xatirinizə “Dişi meymun” mahnısını oxuyardam, ayrı vaxtlar oxumuram, çünki bir balaca hərcayidir.

– Möhtərəm xanım əvəzsizdirlər.

– Yenə məni dolayırsınız?

– Siz də məni şişirdirsiniz. Sizi görən kimi zarafat həvəsim öldü. Möhtərəm xanım bilməlidirlər ki, bu şəhərdə ondan başqa heç nə diqqət çəkmir.

– Nə olsun ki?! – Onun sözlərindən məmnun qalıb soruşdu, amm qəti təəccüblənmədi.

– Təkcə geyiminiz nəyə desən dəyər! Qutvotu rəngli parçadan tikilmiş paltarın əvəzi yoxdur. Həmin paltara qara şlyapa seçməkdə düz eləmisiniz. İcazənizlə bir söz də demək istərdim. Qotazlı çiyinlik bu il dəbdən düşüb.

– Ola bilməz. – Lomana yaxın gəldi. – Dəqiq bilirsiniz? Onda o yaramaz məni aldadıb. Xoşbəxtlikdən, pulu hələ ödənilməyib. – Qızarıb pul-pul oldu, sonra tələsik davam etdi: – Pulunu ödəməyinə ödəyəcəyəm, ancaq geyinməyəcəyəm. Bu gün axırıncı kərədir, inana bilərsiniz.

Frölix özünü xoşbəxt sayırdı ki, ona haqq qazandırır, tabe olurdular. Lomanın Qanmazla bağlı ətraflı məlumata malik olması onun oğlana olan hörmətini daha da artırdı və az qala, özünü itirdi. Deməli, dəbdən də başı çıxırmış! Loman yenidən şirin dilini işə saldı:

– Bu əyalətlilər üçün siz, möhtərəm xanım, kim olmalı idiniz! Mallarının və canlarının ağası, səcdəyə layiq korlayıcı. Semiramida[1], daha nə bilim nələr. Çalxantıya tutularaq hər şey istənmədən uçuruma yuvarlanır, elə deyilmi? – Qadın heç nə anlamadığına görə sözünə davam etdi: – Məncə, kişilər uzun zaman minnət götürmürlər, səhv eləmirəmsə,

[1] Müdrikliyi və gözəlliyi ilə məşhur olan əfsanəvi assur kraliçası

möhtərəm xanım, siz onlardan, istisnasız olaraq hamısından özünüzə lazım olandan çox götürmüsünüz.

– Yaman şişirdirsiniz ha! Burada xoşbəxt olmağım, bir az da artıq sevilməyim, bax burası doğrudur. – Badəsindən yalnız indi içdi; Qoy bilsin! – O ki qaldı burada istədiyim kimi həyat sürməyim barədə sizin uydurmanıza, yoox... Elə düşünməyin, – Lomanın gözünün içinə baxdı, – şokolad və bişi süfrəsində mənimlə tək oturmaq hər kəsə xoş gəlir.

– Mənim buna ixtiyarım var, eləmi? Deməli, növbə mənimkidir, hə? – Bunu deyib başını dala atdı və üzündə qınşlar əmələ gəldi. Aktrisa Frölix yalnız onun yanqapalı göz qapaqlarını görə bildi. – Amma, – Loman sözünə davam etdi, – yadımdan çıxmayıbsa, sizin yanınızda gərək mən sonuncu olaydım, düzdür? Vaxtında bunu yadıma tez-tez salmırdınızmı, möhtərəm xanım? Onda, deməli... – Gözlərini açıb həya bilmədən ona baxdı, – başqalarını artıq yola vermisiniz?

Frölix pərt olmadı, əzab çəkdi.

– Başdan-ayağa cəfəngiyatdır, təsəvvürünüz büsbütün yanlışdır, camaat ağzına gələni danışır; məsələn, Bredpot barədə. Deyirlər ki, mən onu soğan kimi soymuşam. İndi də çıxarıblar ki, Ersumun pulunu... Aman Allah!

Nələr dediyini çox gec başa düşdü və qorxu içində fincana baxdı.

– Ən pisi də, hər halda, budur, – Loman qaşqabaqlı dilləndi. Üzünü bir az yana çevirdi və araya sakitlik çökdü.

Aktrisa Frölix, axır ki, fikrini söyləməyə ürək elədi:

– Təkcə mən günahkar deyiləm axı. Bircə biləydiniz, necə yalvarırdı. Sizə deyim ki, körpə uşaq kimi. Qoca zəvzək. Əsl zəvzəkdir. İnanmayacaqsınız, istəyirdi ona qoşulub qaçam. Özü də şəkər xəstəliyi ilə, yox, çox sağ ol.

Bu cür əyləncəli bir tamaşada mənəvi təbəddülat yaşadığına Loman peşman oldu. Odur ki dedi:

– Təşkil etdiyiniz axşamları haçansa görmək istəyirəm.

– Özünüzü dəvət olunmuş sayın! – Frölix əlüstü və sevinə-sevinə dedi. – Mütləq gəlin, gözləyəcəyəm. Yaxşı, indi isə getməliyəm, siz oturun. Yox, Allahım, yox! – Gileylənə-gileylənə oyan-buyana vumuxdu, əllərini bir-birinə keçirdi. – Baş tutan deyil, çünki Qanmaz deyib ki, dəstə tamamdır, təzələrə ehtiyac yoxdur. Belə şey üstündə keçən dəfə mənimlə dava salmşdı. Ona görə də, başa düşürsünüz...

– Tamamilə, möhtərəm xanım.

– Belə şey olar?! O saat da burnunu sallayır, buna görə də evdə adam olmayanda yanıma gələ bilərsiniz; məsələn, bu gün günortadan sonra saat beşdə. İndi isə xudahafiz.

Paltarını xışıldada-xışıldada tələsik darvazadan çıxdı.

Bunun necə alındığını Loman heç cür bilmədi; necə alındı ki, oraya getməyə onda həvəs oyandı. Bəlkə, məhvolmada bir cazibə var?! Axı xalqının xoşməramlı sırtıqlığını özündə təcəssüm etdirən bu məzəli balaca Kiprisdaya[1] görə Ersum məhvin bir addımlığında idi. Ersum hələ də onu sevirdi. Ən azı, Frölix onun pulu ilə xoşbəxt ola bilərdi. Loman isə Frölixin yanına tamam odsuz-alovsuz gedirdi. O, Frölixi tükənməz iztirab sayəsində qazanmaq istəyən dostunun əvəzində gedirdi. İki il öncə bu, mümkünsüz idi. Lomanın yadına düşdü ki, o vaxt Qanmaza – qoca özünü tam itirdiyindən onu məktəbdən qovmaq istəyirdi – yazığı gəlmişdi, bu niyyətdə heç bir pislik yox idi, bu, həqiqi yazıqlıq idi. İndi isə, əksinə, onun arvadının yanına gedirdi. Həyat adamı necə dəyişərmiş, Loman nisgil və qürurla bir daha fikirləşdi.

Mənzilin dərinliyindən onu uca bir söyüş qarşıladı. Qulluqçu qız pərt-pərt salonun qapısını Lomanın üzünə açdı. Loman bərk həyəcanlanmış aktrisa Frölixin qənşərində əlində bir vərəq kağız tutmuş tərli bir kişi gördü.

– Nə istəyirsiniz axı? – kişidən soruşdu. – Belə de. Nə qədərdir? Əlli mark! Ondan ötrü bu qədər qışqırtı?

– Eh, cənab, – kreditçi cavab verdi, – mən artıq əlli dəfə gəlmişəm, hər marka bir kərə.

Loman pulu ödəyib onu yola saldı.

– Möhtərəm xanım mənim müdaxiləmi pisləməsinlər, – dedi, bu dəfə deyimində tam sərbəst deyildi. Yanlış yolda idi; indi nə alacaqdısa, gördüyü işin əvəzi sayılacaqdı. Belədə, ən azı, əlli mark bəs etməyəcək; Lomanın təşəxxüsü buna qarşı çıxdı.

– Bir dəfə həddimi aşmağa başlamışamsa... Möhtərəm xanım, bilmirəm doğrudurmu, yalandırmı, haqqınızda mənə deyirlər ki, pul məsələsində korluğunuz var.

Aktrisa Frölix barmaqlarını əsəbi halda bir-birinə keçirib sonra araladı. Özünü itirərək *tea-gown*[2]-unun hündür yaxa-

---

[1] *Kiprida* – qədim yunan mifologiyasında məhəbbət və gözəllik ilahəsi Afrodita

[2] İlkindi çay süfrəsində geyilən paltar (*ing.*)

lığının altındakı boynunu naümid tərpətdi. Gününü zəhərə döndərən kreditçilərin, oynaşların və sələmçilərin saysız əzabları birdən-birə beynindən keçdi; orada, ona təklif olunan pul kisəsində isə bir qalaq qonur əsginas vardı.

– Nə qədər? – Loman sakit və ehtiyatla soruşdu. – Nə qədər bacarsam, o qədər olacaq.

Aktrisa Frölix mübarizə apardı. Satılmaq istəmirdi, Lomana isə heç cür.

– Yoox, deyilənlər, ümumiyyətlə, doğru deyil. Heç nəyə ehtiyacım yoxdur.

– Daha yaxşı. Özümü kiməsə yarınanlar kimi hiss edərdim, möhtərəm xanım...

Yüngülcə Dora Bredpotu xatırladı, fikirləşdi ki, onun da pula ehtiyacı var və kim bilir, bəlkə, onu da pulla ələ keçirmək mümkündür... Aktrisa Frölixə seçim yolu saxlamaq üçün pul kisəsini açıb masanın üstünə qoydu.

– Gəlin oturaq, – Frölix dilləndi, sonra da söhbəti dəyişmək üçün: – Pul kisəniz ağzınacan doludur ki! – Loman soyuqluq göstərib susanda isə əlavə etdi: – Bu qədər pula necə can qurtaracaqsınız?! Barmağınızda heç üzüyünüz də yoxdur.

– Ondan heç vaxt can qurtarmayacağam. – Frölixin başa düşüb-düşməyəcəyindən narahat olmadan əlvə etdi: – Mən heç bir qadına pulla yaxın düşmürəm, çünki özümü alçaltmaq istəmirəm. Əslində, buna lüzum da yoxdur. Qadın məsələsi sənət əsəri kimidir, mən də sənət əsərinə heç nəyi əsirgəmirəm. Amma bu əsərə sahib olmaq mümkünmü? Onu mağazada görürsən, özünü yalnız düşüncəli aparırsan. Bəlkə, sonra geri qayıdıb alırsan da? Amma nəyi alırsan? Həsrətin pula ehtiyacı olmaz, onu yerinə yetirməyin də dəyəri yoxdur.

Qaşqabağını sallayıb üzünü pul kisəsindən çevirdi. Həmin an da sözlərini hamı tərəfindən anlaşılan bir dilə çevirdi:

– Demək istəyirəm ki, bir gün keçər, yenə əlimə pul gələr.

Aktrisa Frölix göstərilən ehtiramdan həyəcanlanaraq vurulduğu insana eyni zamanda bir az lağla bildirdi:

– Hə də, siz yemək və içməkdən başqa heç nəyə pul xərcləmirsiniz axı!

– Başqa şeyi məsləhət görə bilərsiniz? – Birdən alnını düyünləyib çəkinmədən onun gözünün içinə baxdı, sanki, soruşurdu: “Bəlkə, sizi pulla alım, sizi?” Elə bil, dilə gətirmədiyinə cavab olaraq çiyinlərini çəkib dedi: – Cismani sevgi, ən azı, ikrah doğurur.

Frölix tamam çaşıb-qaldı. Ürkək bir cəhd edib gülmək istədi və dedi:

– Yox ee.

– Gərək o hisslərdən ucada durasan, – Loman israr etdi, – paklaşıb ucalasan. Parsifal[1] kimi at çapasan. Mən, yəqin ki, süvari dəstədə qulluq edəcəyəm, eyni zamanda da ali məktəbdə[2] oxuyacağam. Sirkçilərin baxışından yanaşdıqda bu boyda Almaniyada ali məktəbi bitirən yüz nəfər də yoxdur.

Bu yerdə Frölix çəkinmədən güldü.

– Onda siz də sirk artisti, bir növ, uzaq həmkarım olacaqsınız. Gülməlidir, deyilmi? – Sonra köksünü ötürərək: – "Mavi mələk"i unutmamısınız ki? Ax, nə gözəl günlər idi.

Loman duruxdu.

– Ola bilər, – xəyallar içində dilləndi, – onda, doğrudan da, yaxşı olub. Dövr özü bütünlükdə yaxşı idi.

– O vaxt doyunca gülmək olurdu, bütün banda ilə didişməyə lüzum duymurdun. Fikirləşəndə ki ikimiz bərabər rəqs etmişik, sonra da Qanmaz gəlib, siz də qırmızı pəncərədən... Yəqin, bilirsiniz ki, həmişə sizə qarşı sərt olub, – həyəcanla güldü, – və əzib suyunuzu çıxarmaq istəyib.

Danışa-danışa bir qulağı qapıdaydı və bu zaman qınaqla Lomana baxırdı, çünki Loman hər şeyi onun ixtiyarına tapşırmışdı. İndi də işi təkbaşına aşırmaq istədi. Loman onun başından çıxmırdı, ən azı, ona görə ki, hamı onun ixtiyarına tapşırılmışdı, təkcə Lomandan başqa. Buna dözməkmi olardı?! Bir də ki Qanmazın inamsızlığı və qəddar nifrəti sayəsində keçmiş zamanlardan, aktrisa Frölixin həsrətlə yad etdiyi çağlardan qalma höcət hərislik indi Lomanın özünəxas qeyri-adiliyi sayəsində qadının ağlını başından alırdı. Nəhayət, hər yan təhlükəli olduğundan, Frölixi bürüyən havadan barıt qoxusu gəldiyindən onun partlaması qadının əsəblərini qıcıqlandırmaya bilməzdl.

– O vaxt siz necə duyğulu şeirlər yazardınız! – Frölix dedi. – Yəqin, daha yazmırsınız. "Bədirlənmiş ay" mahnınızı xatırlayırsınızmı, vaxtilə oxuyardım, camaat da necə səfeh-səfeh şaqqanaq çəkərdi?

Fikirli-fikirli kreslosunun dirsəkliyinə əyilib sağ əlinin barmaqlarını sinəsinin üstünə qoydu və oxumağa başladı, ucadan və həzin-həzin:

---

[1] *Parsifal* – əfsanəvi orta əsrlər qəhrəmanı
[2] *Ali məktəb* – çaparlıq sənətinin ali məktəbi

*"Ay göylərdə bədirlənib, ulduzlar da şölə saçır..."*

Bütün kupleti oxudu və düşündü ki, bu, yer üzündə oxumağa ixtiyarı olmadığı yeganə mahnıdır və bu zaman Qanmazın sifəti gözləri önündən çəkilmədi. Dəhşətli idi, amma bir az da gülməli və Qanmaz "bellet" yazılmış güzgülü dəmir qutunu əlində tutmuşdu.

*"Miskin qəlbim nalə deyir, ulduzlar da gülümsəyir".*

Həyəcanlanmış Loman onu dayandırmağa çalışdı. Amma o, ara vermədən ikinci kupletə keçdı.

*"Ay göylərdə bədirlənib..."*

Bu an qapı şaqqıltı ilə açıldı və Qanmaz vəhşilərə xas bir sıçrayışla otağın ortasında dayandı. Aktrisa Frölix qıyya çəkib küncə, Lomanın oturduğu kreslonun arxasına qaçdı. Qanmaz susdu, tövşüdü və aktrisa Frölix oxuyanda onu hansı görkəmdə görmüşdüsə, indi də o görkəmdə gördü. Qanmazın gözlərindən yenə dünənki kimi dəhşət yağdı. "Çobanyastığı çayını niyə istəməmişdi", – Frölix fikirləşdi.

Qanmaz da fikirləşirdi: "Hər şey bitdi". Onun bütün əməli, adamları cəza ilə məhvetmə əməli puça çıxdı, çünki sonda Loman aktrisa Frölixlə yanaşı oturur. Qanmaz onu bütün insanlara qarşı qoymuşdu, qan-tər içində əlləşmişdi ki, başqalarından qoparılan onunku olsun və bu arada onun Frölixlə pis və nifrət edilməli şeylərin hamısı simasında toplanmış Loman barəsindəki ən əzablı düşüncələri gerçəkliyə çevrildi. Yerdə daha nə qalmışdı? Aktrisa Frölixlə də qurtarmışdı, deməli, Qanmazın da axırı çatmışdı. Onları gərək o, ölümə məhkum edəydi, onlarla birlikdə də özünü.

Heç nə danışmadı və birdən Frölixin boğazına çökdü. Bu arada xırıldadı, sanki, onun özünü boğurdular. Bir anlığa əl saxlayıb nəfəs aldı, Frölix bu andan istifadə edib qışqırdı:

– Onun cismani sevgidən zəhləsi gedir, – bunu tam əminliklə dedi.

Qanmaz yenidən onun boğazından yapışdı. Amma bu vaxt bərk-bərk onun çiyinlərindən yapışdılar.

Loman bunu yalnız yoxlamaq üçün etdi. Bilmirdi ki, doğrudan da, belə bir ixtiyar ona verilibmi; ona elə gəldi ki, yuxu görür. Belə şey aşkarda mümkün idimi?! Onun ağıllı təsəvvüründə Qanmazın əcaib inkişafı kitablardakı kimi hamar və qismən heyrətamiz gedirdi. Əllərinə güc vermək onun hərəkətlərində nəzərdə tutulmamışdı. Bu səbəbdən də Loman qoca professora maraqlı bir nəzəriyyə hazırlamışdı;

lakin Qanmazın qəlbini, Frölixin uçuruma yuvarlanmasını, onun dəhşətlə alışıb-yanmasını, qaçılmaz tənhalığını göz önünə almamışdı. Lomanın əlində olmayan şeylərin əyaniliyi özünü həddən artıq qəfil büruzə verdi və o, qorxuya düşdü, gerçəklik qarşısında qorxuya.

Qanmaz ona doğru çevrildi. Bu arada aktrisa Frölix aradan çıxdı, qıyya çəkə-çəkə yan otağa qaçdı, şaqqıltı ilə qapını bağladı. Qanmaz bir anlığa key kimi oldu; sonra özünə gəlib Lomanın ətrafında səkə-səkə hoppanmağa başladı. Müvazinətini saxlamaq üçün Loman masaya qayıtdı, pul kisəsini götürüb sığalladı. Belə məqamda nə demək lazım gəldiyini dumanlı şəkildə beynində canlandırdı. Bu varlıq kimə bənzəyir? Hörümçəklə pişik arasında bir şeyə, dəlilərə xas gözləri var, həmin gözlərin qapaqları üstündən rəngli tər damlaları axır və şaqqıldayan çənəsi ağzını köpükləndirir. Belə bir varlığın səni daban-dabana izləməsi, əyri qollarını səni qamarlamaq üçün uzatması xoşagələn hal deyil. Nə tıncıxır axı?

Qanmaz anlaşılmadan, doğrudan da, tıncıxır:

– Bədbəxt... ürək elədim... yaxalandın... axır ki, yaxalandın... ötür gəlsin... hər şeyi ötür gəlsin bəriyə!

Sonra pul kisəsini Lomanın əlindən qoparıb bayıra qaçdı.

Lomanı dəhşət götürdü və o, yerindən tərpənmədi, çünki cinayət edilmişdi. Maraqlı anarxist olan Qanmaz adi bir cinayət etmişdi. Anarxist indi mənəvi istisnalıq və tam anlaşılan eldənçıxarılıq idi; cinayət isə ümumbəşəri təmayülün kəskinləşmiş halı olmaqla onda nəzərəçarpaçaq nəyəsə rast gəlmək mümküm deyildi. Bununla belə, Qanmaz Lomanın cismani şahidliyində arvadını boğmağa çalışırdı və Lomanın özündən də oğurluq etmişdi. Bu yerdə şərhçi də deməyə söz tapmazdı, tamaşaçının təbəssümü üzündə donub-qalardı. Lomanın bu cür inanılmaz olaylarla indiyə qədər heç vaxt sınağa çəkilməmiş əqli ona xas olan xüsusiyyətlərin hamısını bir kənara qoyub "cinayət" kəlməsinə tam burjuy sayağı "polis" sözü ilə cavab verdi. Ağlını işə salıb dərk edəndə ki bu xüsusilə nadir fikir deyil, yenə öz-özünə: "Yetər!" – dedi və şux yerişlə şübhələrini tapdayıb keçdi. Elədir, Loman yan otağın qapısını silkələmək üçün ona doğru yeriyəndə addımları şux idi. Aktrisa Frölixin qapını öz üstünə bağladığını o, açıqca eşitmişdi; amma borcu idi ki, tam əmin olsun: özü çıxıb gedəndən sonra Frölix ərinin zoruna məruz qala bilərmi... Bundan sonra o, şirniyat dükanından çıxdı.

***

Aradan bir saat keçdi; get-gedə artıb-çoxalan insan kütləsi küçənin tinində dalğalanırdı. Şəhər bayram edirdi, çünki Qanmazın tutulmasına qərar verilmişdi. Axır ki! Vaxtilə fürsət əlçatmaz olduğundan bellərindən basan qüsurdan indi azad olmuşdular. Adamlar özlərinə gələrək ətrafdakı diri cəsədlərə nəzər salır və gürürdülər ki, lap vaxtıdır. Əslində, niyə bu qədər gözləyiblər axı?

Ağzınacan çəlləklə yüklənmiş pivə arabası yolun yarısını kəsdi, buradan bir droşka keçəsi oldu, onun da içində məmurlar vardı. Tindəki göyərtisatan qadın ona qoşulub qaçdı; çərçi cənab Dröqe rezin şlanqı sürüyüb gətirdi.

Camaat Qanmazın evinin qabağında bağırıb-çığırırdı. Nəhayət, Qanmaz göründü, məmurların tən ortasında. Aktrisa Frölix şaşqınlıq, göz yaşı, hıçqırıqlı fəryad, peşmançılıq içində və görünməmiş itaətlə onun boynuna sarıldı, yaxasından elə bərk-bərk asıldı ki, elə bil, ona qaynayıb-qarışmışdı. Onu da həbs etmişdilər, amma Loman bunu nəzərdə tutmamışdı. Qanmaz Frölixi pərdələri salınmış faytona qaldırdı və bağıran camaatın içində kimisə axtardı. Dəri önlüklü pivəçi bəyazımış başını bayıra çıxarıb bağırdı:

– Bir fayton Qanmaz!

Qanmaz ora-bura baxınıb daha zəfər kəlməsi olmayan, əksinə, bir parça çamır kimi onun arxasınca atılan sözün sahibini axtardı və Kizelakı tanıdı. Yumruğunu qıcadı, boynunu irəli uzatdı, darıxa-darıxa nəfəs aldı. Amma cənab Dröqenin şlanqının suyu birbaşa onun ağzına tuşlandı. Az qala sudan boğulacaqdı, ona arxadan bir təpik ilişdirdilər, o da səndələyib faytonun ayaqlığına qalxdı və qaranlıqda başı üstə aktrisa Frölixin yanına düşdü.

# MÜNDƏRİCAT

*Haynrix Mann barədə* . . . . . . . . . . . . . . . 5

## ROMANLAR

Təbəə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .9
Professor Qanmaz . . . . . . . . . . . . . . . . . . . . . .395

# HAYNRİX MANN

SEÇİLMİŞ ƏSƏRLƏRİ


BAKI 2013

"Şərq-Qərb" Nəşriyyat Evinin məhsuludur.

**www.eastwest.az**
**www.fb.com/eastwest.az**

| | |
|---|---|
| Buraxılışa məsul | Sevil İsmayılova |
| Dizaynerlər | Nərgiz Əliyeva |
| | Elşən Qurbanov |
| Texniki redaktor | Gültəkin Cəfərova |
| Texniki direktor | Allahverdi Kərimov |
| Nəşriyyat direktoru | Rasim Müzəfferli |

Çapa imzalanmışdır: 08.11.2013. Format 54x88 1/16. Ofset çapı.
Fiziki çap vərəqi 35,5. Sifariş 13330. Tiraj 7000

"**Şərq-Qərb**" Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49

Nəşriyyat Evinin bütün kitablarının toplusu:
**http://www.eastwest.az/az/books/** ünvanda